https://doi.org/10.59849/turkcong100.2026

“TÜRKOLOJİ QURULTAY – 100”

mövzusunda

Respublika Elmi Konfransının

MATERİALLARI

23 aprel 2026-cı il
BAKI

TƏŞKİLAT KOMİTƏSİ VƏ ÜZVLƏRİ

Sədr:	professor Nadir Məmmədli
Sədr müavinləri:	fil.ü.f.d., dos. Baba Məhərrəmli fil.e.d., dos. Aynel Məşədiyeva fil.e.d., dos. Qətibə Mahmudova
Konfransın mətbuat katibi:	fil.ü.f.d., dos. Təranə Şükürlü

Nadir MƏMMƏDLİ*

I TÜRKOLOJİ QURULTAYDAN ÖNCƏ – TARİXİ KONTEKST

XÜLASƏ

Türk xalqları üzərində təsirini gücləndirmək məqsədilə təşəbbüsü ələ alaraq, bu istiqamətdə ilk böyük addım kimi 1926-cı ildə Bakıda I Türkoloji Qurultayı keçirdi. Qurultay Azərbaycanın dünya türkoloji ictimaiyyəti qarşısında mühüm tarixi hadisə olmuş, ölkəmizin bu sahədəki mövqeyini və yerini nümayiş etdirmiş, türkoloji elmi-praktik mühitin miqyasını aydın şəkildə göstərmişdir. Bu qurultay SSRİ-nin sərhədlərini aşaraq beynəlxalq miqyasa çevrilmişdir. Nəticə etibarilə, bu Qurultay türk xalqlarının dili, ədəbiyyatı, etnoqrafiyası və coğrafiyasını araşdırmaq məqsədilə sistemli elmi tədbirlərin başlanğıcı oldu.

Açar sözlər: *I Türkoloji Qurultay, türk xalqları, türkologiya.*

1926-cı il I Ümumittifaq Bakı Türkoloji Qurultayı həm türkologiya tarixi, həm Türkiyə – Rusiya münasibətləri, həm də Türküstan xalqlarının gələcəyi üçün dönüş nöqtəsi oldu: ilk baxışda qurultay türkdilli xalqların latın qrafikasına keçmək qərarı ilə müşayiət olunsa da, əslində strateji əhəmiyyət daşıyır, Qərbə qarşı Rusiyanın Osmanlı Türkiyəsi ilə üzdə görünən hərbi və siyasi, mədəni, eləcə də türkologiya sahəsində əməkdaşlığı idi. Atatürk, 1922-ci il iyulun 7-də Sovet səfiri Aralovun, İran səfiri İsmayıl Xanın şərəfinə verdiyi ziyafətdə etdiyi çıxışda belə demişdi: "Doğrudur ki, mövcud tarixlərin qeyd etdiyi hadisələr millətlərin gerçək düşüncə və arzuları, hərəkətləri deyil. Şərq xalqları öz iradələri, öz hissləri ilə hərəkət etmirdilər. Onların başında bir sıra istibdadçılar, özbaşına hərəkət edən çarlar, hökmdarlar var idi. Tarixi hadisələrin əksəriyyəti onların tamahlarını təmin etmək üçün etdikləri əməllərdir. Biz onların hamısını cıracağıq, yeni bir tarix yazacağıq..."[7].

Şübhəsiz ki, tarixi yenidən yazmaq, qısa müddətdə həyata keçirmək asan bir təşəbbüs deyildi. Bu yolda ilk addımın Qurtuluş Müharibəsi illərində "Şərq Məktəbi" adlı bir akademiyanın yaradılması ilə atıldığını görürük. 1922-ci ilin martında Türkiyə mətbuatında Anadoluda akademiyanın açılacağı və orada Asiya ölkələrinə göndəriləcək məmurların gedəcəkləri yerlər, təhsil alacaqları ilə bağlı xəbərlər yayıldı və bu türkiyyat aləmində canlanma yaratdı.[1] Akademiyanın yaradılması barədə verilən məlumatlar ciddi şəkildə dəyərləndirilir, lakin bunun lazımsız olduğunu iddia edənlər də vardı. Həmin ərəfədə Azərbaycanın Ankaradakı elçisi İbrahim Əbilov Şərqin dost xalqlarının gəncləri üçün nur mənbəyi olacaq böyük və ortaq bir universitet yaradılması ideyasını ortaya atmış, bu fikir dərhal qısa zamanda həyata keçə biləcək bir düşüncəyə çevrilmişdi. Xarici İşlər Nazirliyi bu addımı atsa da, həyata keçirəcək mütəxəssislərin olub-olmadığı nəzərə alınmamışdı [10].

Türkiyə türkologiyası hələ yeni-yeni formalaşırdı, ziyalılar da türkologiyanın Avropa və Rusiyadan xeyli geri qaldığınını etiraf edirdilər. Məsələn, sonralar Azərbaycana pedaqoji fəaliyyətə göndərilən Əhməd Cövdət 1923-cü ilin əvvələrində Bakıda ikən yazdığı məqalələrinin birində Rusiyada türkoloji araşdırmaların Türkiyədən xeyli irəlidə olduğunu təəssüf hissilə qeyd edir və türkoloq müəssislərinin kifayət qədər sərmayə ilə fəaliyyətə başlamasından sonra milli əsərlərin yaranacağına ümid etdiyini bildirirdi. Türkiyə türkoloqları da bunun mədəni baxımdan ciddi bir çatışmazlıq olduğunu yaxşı bilirdilər. Məsələn, Əhməd Cövdət həmin məqaləsində Rusiyada türk tarixi və dili barədə aparılan araşdırmaların Türkiyənin xeyli qabağında olduğunu, o utancdan bizi qurtaracaq milli təşəbbüs əlamətləri yeni-yeni görünməyə başladığı zaman Birinci Dünya Müharibəsinin baş verdiyini, onu Mütarəkə dövrünün izlədyini və Türkiyənin bu gün də rus alimləri qarşısında aciz durumda olduğunu təəssüflə qeyd edir, Türkiyyat müəssisəsi açılsa və kifayət qədər sərmayə ilə fəaliyyətə başlasa, bizim də milli əsərlərimizin ortaya çıxacağına ümid edir [10] – deyə təsəlli tapırdı.

* AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor. Email: nurlan1959

[1] Nəcib Asım (Yazıqsız). Şərq Məktəbi. İkdam, 13 mart 1922, s.3.

Bu təkcə onun istəyi deyildi, ürəkdən arzulanan bu müəssisə M.Fuad Köprülünün rəhbərliyi altında 1924-cü ildə türkoloji araşdırmalar aparılması məqsədilə İstanbul Universiteti nəzdində Türkiyyat İnstitutu yaradıldı. 1926-cı il İ Ümumittifaq Türkoloji Qurultayın keçirilməsinə 2 il qalmışdı və institutun yaradılmasının əsas səbəblərindən biri olan İstanbulda beynəlxalq türkologiya qurultayı keçirmək arzularda idi. Türkiyyat İnstitutu 1924-cü ildə qurulsa da, İstanbulda beynəlxalq türkologiya qurultayı keçirmək planı reallaşdırıla bilmədi. Əslində, bir il əvvəl Türkiyədə keçirilməsi nəzərdə tutulan qurultayın bir il sonra Bakıda gerçəkləşməsi düşündürücü məsələdir. Çünki "Fuad Köprülü Türkiyyat İnstitutunun müdiri vəzifəsində çalışırdı və Atatürkün təşəbbüsü ilə 1925-ci ildə İstanbulda toplanması planlaşdırılan ilk millətlərarası türkoloji konqresin hazırlanmasına məmur edilmişdi" [][2] Türkiyyat İnstitutunun bu məqsədlə yaradılmış olsa da, yuxarıda qeyd etdiyimiz kimi, kifayət qədər səmərəli və təsirli ola bilmədi. 1930-cu illərdə vəziyyət tamamilə dəyişir. 1932-ci ildə keçirilən I Türk Tarix Qurultayı qərblilərin, xüsusilə rusların türkologiya sahəsində qabaqlanmaq istənildiyini göstərən tezis və ifadələrlə zəngindir[3]

Rusiya türkologiyasında hələ 1913-cü ildə Aleksandr N.Samoyloviç türkologiya qurultayı keçirilməklə bağlı fikirlər irəli sürmüş, lakin kifayət qədər mənəvi dəstək almamışdı. Sovet dönəmində, 1922-ci ildən bu ideya yenidən gündəmə gətirilmişdir. Samoyloviç 1923-cü ildən etibarən məsələ ilə bağlı dəstək tapmaq üçün Ankara və Bakıya üstünlük vermiş, onların etimadını qazanmağa xüsusi diqqət göstərmişdi. Bu o zaman idi ki, Radlovun yetirməsi **A.**N.Samoyloviç həmin ildə Leninqradda Canlı Şərq Dilləri İnstitutuna rektor təyin olunmuşdu. 1924-cü ildə rus şərqşünaslarının Leninqradda keçirdikləri 21 mart toplantısında mövzu ətraflı şəkildə müzakirə edilmiş, Samoyloviç bir daha bu fikri səsləndirmiş, çoxdan bəri həyata keçirmək istədiyi türkdilli xalqların qurultayını təşkil etmək barədə düşüncələrini açıq şəkildə bildirmişdi [16]:

Türkiyədə türkoloji tədqiqatların İkinci Məşrutiyyət dövründə formalaşmağa başlaması, bu məqsədlə 1908-ci ilin dekabrında İstanbulda Türk Dərnəyinin yaradılması və onun məqsədi Samoyloviçə məlum idi: "Türk adı ilə anılan bütün xalqların keçmiş və indiki dövrdəki izləri, əməlləri, vəziyyəti və mühiti öyrənmək və öyrətmək, yəni türklərin qədim izlərini, tarixini, dillərini, xalq və elitar ədəbiyyatını, etnoqrafiya və etnologiyasını, sosial vəziyyətini və müasir mədəniyyətlərini, türk ölkələrinin köhnə və yeni coğrafiyasını araşdırıb ortaya çıxarmaq, bunları bütün dünyaya yaymaq, dilimizin geniş və mədəniyyətə uyğun səviyyəyə çatmasına çalışmaq və imlasını buna uyğun tənzimləmək" [14]. O, Türk Dərnəyinin Türkiyənin müxtəlif şəhərlərində nümayəndəliklərinin olması, bir az da genişlənərək Türk Bilgi Dərnəyi adı ilə fəaliyyətini davam etməsini də bilirdi. Samoyloviç 7 sentyabr 1925-ci ildə Ankaraya gəlmiş və Maarif Vəkili Həmdullah Suphi ilə görüşmüşdü. I Ümumittifaq Türkoloji Qurultay da Türkiyənin Qafqaz, Mərkəzi Asiya və Volqa bölgələrindəki türkoloji mərkəzlərlə, həmçinin Bartold, Samoyloviç kimi məşhur Sovet türkoloqları ilə əməkdaşlığını davam etdirmək ümidi yaratmışdı. Ankara Türk Ocağı da Samoyloviçin şərəfinə 10 sentyabr 1925-ci ildə ziyafət vermişdi. Bundan bir müddət sonra isə Azərbaycan Maarif Komissiyası, İstanbul Darülfünun müəllimlərindən Məhməd Fuat Köprülünü Azərbaycan ədəbiyyatı tarixi haqqında dərs verməsi və araşdırmalar aparması üçün Bakıya dəvət etmişdi. Köprülü bu dəvəti qəbul edərək 1925-ci ilin oktyabrında Bakı şəhərinə gəlmişdi. Bir müddət sonra F.Köprülü SSRİ Elmlər Akademiyasının üzvü seçilmişdi. Hətta Maarif Nazirliyi Bakıda ədəbiyyat dərslərindən mühazirələr söyləyəcək F.Köprülüyə diplomatik pasport vermək qərarına gəlmişdi [4].

1920-ci illərdə türkoloji sahələrdə macar, Sovet və türk mərkəzlərinin rəqabətdən çox əməkdaşlıq görüntüsü diqqət çəkir. Bu vəziyyət "müvəqqəti sülh dövrü" kimi siyasi şəraitə – 1925-ci ildə imzalanan Türkiyə – Sovet, Türkiyə – Almanniya və Türkiyə – Macarıstan sülh müqavilələrinin, əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə uyğun idi. Hadisələr Moskvada və Bakıda cərəyan edir. Bolşeviklər Türkiyə ilə elmi əlaqələrə və əməkdaşlığa böyük önəm verirdilər. Bolşevik inqilabından sonra Moskva, Leninqrad, Kiyev və Daşkənddə Şərq elmləri, xüsusilə türkologiya sahəsində mütəxəssislər yetişdirmək məqsədilə

Demirel, Ömer Faruk, "I. Türkoloji Kongresi ve Theodor Menzel", 1926 Bakü Türkoloji Kongresinin 70. Yıl Dönümü Toplantısı (29-30 Kasım 1996), TDK, Ankara 1999.

xüsusi tədris müəssisələri açılmışdı. Bu təşəbbüs Rusiyada uzun tarixə malik olan türkoloji araşdırmalar baxımından mühüm bir irəliləyiş idi. Yeni dövrdə Sovet Rusiyasında türkologiya sahəsindəki ilk önəmli əsərlər A.Samoyloviçin türk dilinin fonetikasına və qrammatik quruluşuna dair yazılarıdır. Dövrün digər tanınmış rus türkoloqu olan V.Barthold isə 1925-ci ildə nəşr olunmuş məşhur əsərində Oktyabr inqilabından sonra köhnə əsərləri qorumaq məqsədilə Daşkənddə mərkəzi bir qurum – Şərq İnstitutu yaradıldığını, lakin bu institutun yetərincə səmərəli fəaliyyət göstərmədiyini qeyd edirdi. Belə bir institutun Daşkənddə qurulmasının Rusiyanın baxış bucağından, Daşkəndin strateji mövqeyi ilə sıx əlaqədar olduğu görünməkdədir. Daşkənd həm Türküstanın idarə mərkəzi, həm də ən geniş rus icmasının yerləşdiyi ərazi idi. Avropanın Orta Asiyadakı nüfuzu əsasən Daşkənd vasitəsilə yayılırdı. Lakin Qurultayın Təşkilat Komissiyasının 6 avqust 1925-ci il tarixli iclasında "Bakı şəhərinin türk-tatar respublikaları arasında mədəni və coğrafi baxımdan ən əlverişli yer olması nəzərə alınaraq, qurultayın məhz Bakıda keçirilməsi məqbul sayılır".

4 dekabr 2024-cü il tarixli ümumi yığıncağında ilk dəfə olaraq Beynəlxalq yox, çox ciddi şəkildə türkoloji qurultayın çağırılması ilə bağlı fikir səsləndirilmiş və bu ideya sürəkli alqışlarla qarşılanmışdır. Ona görə də 1926-cı il toplantısı I Ümumittifaq Türkoloji Qurultay adlandırılmışdı. Azərbaycanın səyi nəticəsində qurultaya həm SSRİ-də yaşayan bütün türk xalqlarının tanınmış ziyalıları (türk xalqları indiki inzibati-ərazi bölgüsünə görə deyil, qurultayın çağırıldığı dövrdə yaşadıqları ərazilərə əsasən təmsil olunmuşdular), xüsusilə Leninqrad və Moskva Elmlər Akademiyalarının türkoloji sahədə ixtisaslaşmış alimlərinin, həm də xaricdə – Türkiyə, İran, Almaniya, Macarıstan, Avstriya və s. ölkələrdə tanınmış türkoloqların ümumtürk qurultayının çağırılmasına nail olunmuşdu. I Ümumittifaq Türkoloji Qurultayın çağırılmasında təşəbbüskarları və təşkilatçıları Azərbaycanın görkəmli ziyalıları olmuşlar. Qurultay Azərbaycanın dünya türkoloji ictimaiyyəti qarşısında mühüm tarixi hadisə olmuş, ölkəmizin bu sahədəki mövqeyini və yerini nümayiş etdirmiş, türkoloji elmi-praktik mühitin miqyasını aydın şəkildə göstərmişdir. Bolşeviklər hədəfini – türk xalqları üçün ümumi bir qurultayı həyata keçirir. **Ç**oxsaylı maneələr onları bu ideyadan uzaqlaşdıra bilməmişdir. Bu fikir 1922–1924-cü illərdə Azərbaycan, Tatarıstan, Başqırdıstan, Yakutiya, Daşkənd, Krım və Qafqazda sürətlə yayılmağa başladı. **N.**Nərimanovun fəal iştirakı ilə bu ideya daha konkret forma aldı.

1924-cü ildə Bakıda keçirilən Birinci Diyarşünaslıq Konqresində və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Türkoloji bölümünün iclaslarında Nəriman Nərimanovun məruzəsinin müzakirələrindən sonra türk mədəniyyəti ilə bağlı bir sıra elmi və praktiki məsələlərin həlli üçün türkoloji qurultayın çağırılması zərurəti barədə qətnamə qəbul edilmişdi. Hələ 1922-ci ildə N.Nərimanovun sədrliyi ilə Bakıda "Latın əlifbasına keçid" Komitəsi yaradılmışdı və bu məsələ SSRİ-nin elm mərkəzlərində çalışan türkoloqların da diqqət mərkəzinə çevrilmişdi. Sovet siyasi bumeranqının ilk qurbanlarından biri olan N.Nərimanov türkoloji qurultayın keçirilməsi ideyasının ilk müəlliflərindən biri olmuşdur.

Son anda hər hansı maneənin baş verə biləcəyindən ehtiyat edərək, 1925-ci ilin əvvəllərində **artıq** bütün hazırlıqlar tamamlanır və qurultayın tkeçirilməsi sürətləndirilir. Təşkilat Komissiyasının 6 avqust 1925-ci il tarixli iclasında qurultayın 1925-ci il dekabrın 25-də keçirilməsini qərara almış və bu qərarın əsasında türk və fransız dillərində hazırlanan proqram çap edilərək dəvət olunan türkoloqlara göndərilmişdi.

1925-ci il sentyabrın 15-də Moskvada SSRİ şərqşünaslarının iclası keçirilir və burada ölkənin bütün türkoloqlarının iştirakı ilə qurultay çağırılması qərara alınır. Keçiriləcək qurultayın əsas müzakirə mövzularından biri bütün türkdilli xalqların ərəb qrafikasından latın qrafikasına keçidi idi. Həmin iclasa Azərbaycan MİK sədri S.Ağamalıoğlu rəhbərlik edirdi Qərar qəbul edildi ki, I Ümumittifaq Türkoloji Qurultayın çağırılması Moskvada SSRİ Şərqşünaslıq Elmi Assosiasiyasına və Bakıda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə tapşırılır. (Cəmiyyət çağdaş Azərbaycan Milli Elmlər Akademiyasının sələfi adlandırıla bilər).

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti dörd bölmədən ibarət idi: 1.Türkologiya, 2.Tarix-Etnoqrafiya, 3.Sosial-İqtisadi, 4.Təbiət elmləri və üç büro: a.Biblioqrafiya, b.Azərbaycan elminin populyarlaşdırılması və məktəblərə kömək, c.Fotoqrafiya. Türkologiya seksiyasına təşkilatın fəxri sədrləri iki nəfərdən ibarət Az.MİK-in sədri S.Ağamalıoğlu və Leninqrad Dövlət Universitetinin professoru Aleksandr Nikolayeviç Samoyloviç rəhbərlik edirdi. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində Türkoloji araşdırmalar böyük uğurlar qazanmışdı.

Cəmiyyət ölkənin əsas elmi mərkəzinə çevrilmişdi. Bura üzv olmaq üçün ərizə ilə müraciət edən ölkə və sərhədlərdən çox uzaqda, türk və qeyri-türk xalqlarının nümayəndələrinin sayı gündən-günə, sürətlə artır: Elmi təşəbbüsü siyasi məqsədlərlə birləşdirməyi bacaran Sovet Rusiyası türkologiya sahəsində təşəbbüsü ələ alaraq türkoloji qurultay ideyasını Bakıda həyata keçirdi. Türkiyənin planlaşdırdığı konqres baş tutmadığı bir dövrdə Sovet Rusiyası, geosiyasi vəziyyətə uyğun olaraq, türkologiyanı həm ideoloji, həm də elmi nüfuz vasitəsinə çevirdi. Türk xalqları üzərində təsirini gücləndirmək məqsədilə təşəbbüsü ələ alaraq, bu istiqamətdə ilk böyük addım kimi 1926-cı ildə Bakıda I Ümumittifaq Türkoloji Qurultayı keçirdi. "Stenoqrafik hesabatın üzərində ümumittifaq sözü yazılsa da, qurultaya dəvət olunanların təmsil olunduqları dövlətlərin siyahısına, eləcə də türkoloq alimlərin milliyyət müxtəlifliyinə diqqət yetirsək görərik ki, bu qurultay SSRİ-nin sərhədlərini aşaraq beynəlxalq miqyasa çevrilmişdir. Ona görə də hesab edirik ki, bu qurultayı "I Beynəlxalq Türkoloji Qurultay adlandırmaq daha doğru olardı."

Bu qurultay, həm Sovet Rusiyasının mədəni və elmi sahədə Türkiyəni qabaqladığını nümayiş etdirdi, həm də türk xalqlarının dili, ədəbiyyatı, etnoqrafiyası və coğrafiyasını araşdırmaq məqsədilə sistemli elmi tədbirlərin başlanğıcı oldu.

ƏDƏBİYYAT:

1. "Anadolu'da Şark Darülfununu". *İkdam*, 27 mart 1922, s. 3.
2. "Bir Defa da Macar Profesörünü Dinleyelim". *İkdam*, 31 avqust 1927, s. 2.
3. "Latin Harflerinin Münakaşası". *Hâkimiyet-i Milliye*, 18 mart 1926, s. 1.
4. "Moskova Darülfünûnu". *İkdam*, 30 yanvar 1926, s. 1.
5. Ahmet Cevdet. "Latin Hurufatı Kabul Edilecek Olursa". *İkdam*, 12 mart 1926.
6. Ali Haydar Bayat. *Hüseyinzâde Ali Bey*. Ankara: AKM, 1998.
7. Atatürkün söylev və demeçləri.Cild II, Ankara, Atatürk Araşdırma Mərkəzi Yayınları, 1997, s.44.
8. İlhan Başgöz. *Türkiye'nin Eğitim Çıkmazı ve Atatürk*. Ankara, 1995.
9. Mustafa Kemal Atatürk. *Söylev və Demeçləri*. Cild II. Ankara: Atatürk Araşdırma Mərkəzi Yayınları, 1997.
10. Nəcib Asım Yazıqsız. "Şərq Məktəbi". *İkdam*, 13 mart 1922, s. 3.
11. Vasily Bartold. "Rus Müsteşriki Barthold Cenapları ve Türkiyat". *Muallimler Mecmuası*, No: I/7, 30 aprel 1923.
12. Vasily Bartold. *Asya'nın Keşfi: Rusya'da ve Avrupa'da Şarkiyatçılığın Tarihi*. Tərc. K. Bayraktar, A. Meral. İstanbul: Yöneliş, 2000.
13. Ömer Faruk Demirel. "I. Türkoloji Kongresi ve Theodor Menzel". *1926 Bakü Türkoloji Kongresinin 70. Yıl Dönümü Toplantısı (29–30 Kasım 1996)*. Ankara: TDK, 1999.
14. Mustafa Öner. *1926 Bakü I Türkoloji Kurultayı*. Ankara, 2008.
15. Mustafa Öner. *1926 Bakû Türkoloji Kurultayı: Tutanaklar*. Ankara, 2008.
16. Azərbaycan Respublikası Milli Dövlət Arxivi. Fond 103, qutu 1, sənəd 14.
17. AR Nazirlər Kabineti. 5 avqust 1925-ci il tarixli qərar.(BCA BKK 030 18 01 015 49 01).
18. "1926 Bakı Türkoloji Qurultayı". Ətraflı bax:
    Türk Dünyası Ansiklopedisi – https://turkdunyasiansiklopedisi.gov.tr/detay/1594/1926-Bak%C3%BC-T%C3%BCrkoloji-Kongresi

ИСТОРИЧЕСКИЙ КОНТЕКСТ ПЕРЕД I ВСЕСОЮЗНЫМ ТЮРКОЛОГИЧЕСКИМ СЪЕЗДОМ

РЕЗЮМЕ

С целью усиления своего влияния на тюркские народы, взяв инициативу в свои руки, в 1926 году в Баку был проведён I Тюркологический съезд как первый крупный шаг в этом направлении. Данный съезд стал важным историческим событием для Азербайджана перед мировым тюркологическим сообществом, продемонстрировал позицию и роль страны в этой области, а также наглядно показал масштабы тюркологической научно-практической среды. Этот съезд вышел за пределы СССР и приобрёл международный характер. В результате съезд положил начало систематическим научным мероприятиям, направленным на изучение языка, литературы, этнографии и географии тюркских народов.

Ключевые слова: *I Тюркологический съезд, тюркские народы, тюркология.*

HISTORICAL CONTEXT BEFORE THE FIRST ALL-UNION TURKOLOGICAL CONGRESS

ABSTRACT

In order to strengthen its influence over the Turkic peoples, taking the initiative, the First Turkological Congress was held in Baku in 1926 as the first major step in this direction. This congress became an important historical event for Azerbaijan in the face of the global Turkological community, demonstrating the country's position and role in this field, and clearly revealing the scale of the Turkological scientific and practical environment. The congress went beyond the borders of the USSR and gained an international character. As a result, it marked the beginning of systematic scientific activities aimed at studying the language, literature, ethnography, and geography of the Turkic peoples.

Keywords: *First Turkological Congress, Turkic peoples, Turkology.*

Baba MƏHƏRRƏMLİ*

I TÜRKOLOJİ QURULTAYIN TARİXİ ÖNƏMİ

XÜLASƏ

Məqalədə I Türkoloji Qurultayın tarixi əhəmiyyətindən bəhs olunur. Burada xüsusi vurğulanır ki, 1926-cı ildə I Türkoloji Qurultayın Bakıda keçirilməsindən 100 il keçsə də, həmin qurultayda müzakirə olunan məsələlər bu gün də öz aktuallığını itirməmişdir. Həmin qurultayda müzakirə edilən məsələlər sonralar türkologiyanın inkişafına öz töhfəsini vermiş oldu.

Açar sözlər: *I Türkoloji Qurultay, 100 illik, türkologiya, türkoloq, əlifba*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli sərəncamı ilə I Türkoloji Qurultayın 2026-cı ildə dövlət səviyyəsində keçirilməsi ilə bağlı qərar qəbul olunmuşdur. Bu sərəncam ölkə başçısının şanlı türk tarixinə verdiyi böyük dəyərdir.

I Türkoloji Qurultay XX əsrdə türkologiyanın tarixində çox mühüm bir hadisədir. 1926-cı ildə fevral və mart aylarında Bakı şəhərində keçirilən bu qurultayda tanınmış dilçi-alimlər iştirak etmişdilər. Onların arasında B.Çobanzadə, N.Poppe, S.Malov, N.Aşmarin, A.R.Zifeld, X.S.Xocayev, L.Şerba, N.Marr, A.N.Samoyloviç kimi diçilər vardı. I Türkoloji Qurultayda türk xalqlarının latın qrafikasına keçməsi, ortaq türk dili, ortaq terminologiya, imla məsələləri müzakirə olunmuşdu. Yəni Birinci Türkoloji Qurultayda qoyulan əsas məsələlər ortaq dil məsələsi, terminologiya, latın qrafikalı əlifbaya keçid, imla məsələləri idi. Qurultayın iştirakçılarından olan çuvaş türkoloqu N.İ.Aşmarin o zamanlar Nuxa dialektini tədqiq edirdi. Akademik Nikolay Marr Yafəs nəzəriyyəsinin əsas konsepsiyalarını məhz həmin dövrdə yayırdı.

1926-cı il 26 fevraldan 6 marta qədər davam edən bu türkoloji qurultay müasir türkoloji çağırışların, çağdaş türkoloji konsepsiyaların təməl qaynağıdır. Bu qurultayın əsas simalarından biri Bəkir Çobanzadə olmuşdur. Bəkir Çobanzadə Azərbaycanda latın əlifbasına keçmə prosesi ilə bağlı bolşevik Səməd bəy Ağamalıoğlu tərəfindən Bakıya dəvət olunmuşdu və o, bir çox sanballı əsərlərini məhz Bakıda yazmışdı. Bəkir Çobanzadə Macarıstanda təhsil almışdı və tanınmış türkoloq Dyula Nemetin tələbəsi omuşdu. Bəkir Çobanzadə dilçiliklə bağlı bir çox sanballı əsərlərini məhz Bakıda olarkən yazmışdı. Onlardan biri "Türk lisaniyyətinə mədxəl" adlanırdı. Təsadüfi deyil ki, həmin əsər Azərbaycan dilçiliyində nəzəri və ya ümumi dilçiliyə həsr olunmuş ilk əsər hesab olunur.

I Türkoloji qurultayda qaldırılan məsələlərdən biri də türk dillərinin ədəbi dili məsələsi idi. I Türkoloji Qurultayın 14-cü iclasında Mehmet Fuad Köprülüzadənin çıxışı "Türk xalqlarında ədəbi dilin inkişafı" adlanırdı. Həmin məruzədə çox geniş şəkildə türk dillərinin yazı dilinə keçidi məsələsi şərh olunurdu.

1922-ci ildə Bakıda Yeni Türk Əlifba Komitəsi yaradılmışdı. Həmin komitənin əsas missiyası Azərbaycanda yeni əlifbaya, yəni ərəb qrafikalı əski əlifbadan latın qrafikalı Azərbaycan əlifbasına keçid

* Nəsimi adına Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: baba_magerramli@mail.ru

prosesini hazırlamaq idi. Bakıda 1926-cı ildə təşkil olunan I Türkoloji Qurultayın əsas məqsədi məhz türkdilli xalqların latın əlifbasına keçməsi ilə ortaq əlifbanın yaradılması məsələsi idi. Qurultayda türk xalqlarının tarixi, türk xalqlarının etnologiyası və türk xalqlarının tarixi məsələləri də ciddi müzakirə mövzusu idi. Təkcə əlifba məsələsi ilə bağlı qurultayda beş iclas keçirilmişdi. Bu tarixi tədbirin əsas məqsədi türkdilli xalqların ortaq dil birliyini təmin etmək idi. Qurultayın ən səs-küylü, ətrafında ən qızğın mübahisə gedən məsələsi məhz əlifba məsələsi idi. Əlifbanın müzakirəsi beş iclası (9-13) əhatə etdi (1, s.95).

1926 - cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın 131 iştirakçısı arasında Əli bəy Hüseynzadə də var idi. Əli bəy Hüseynzadə böyük türkçü-Turançı, ideoloq, rəssam, həkim, filosof, ədib, bir sözlə unikal bir istedad sahibi olmuşdur. O, qurultaya Türkiyədən fəxri nümayəndə kimi dəvət olunmuşdu. Qurultayda qoyulan 7 əsas problemdən biri də ortaq əlifba problemi idi (2, s.7).

Bu yeddi problem aşağıdakılar idi:

1. Əlifba məsələsi.
2. İmla məsələsi.
3. Termin məsələsi.
4. Öyrətmə metodları məsələsi.
5. Qohum və qonşu dillərin qarşılıqlı təsiri məsələləri.
6. Türk dillərinin yazı dili problemləri, ortaq yazı dili məsələsi.
7. Türk dillərinin tarixi məsələləri (3, s.15).

I Türkoloji Qurultayda çıxış edən Fərhad Ağazadənin məruzəsində qeyd olunurdu ki, türkdilli xalqların latın əlifbasına keçmələri bir çox üstünlüklər yaradacaqdır. Belə ki, latın mənşəli yeni türk əlifbasının qəbulu nəticəsində, xüsusi adlarla, coğrafi adları böyük hərflə yazmaq imkanı əldə olunacaq, sözlərin hecalara ayrılmasına şərait yaranacaq, hərflərin səslənməsi uşaqların doğru oxuma və yazmasına imkan yaradacaq (4, s.122).

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda erməni dilçisi Raçiya Açaryan "Türk və erməni dillərinin qarşılıqlı təsiri" mövzusundakı çıxışında etiraf etmişdi ki, erməni dilinin sintaktik quruluşunun yaranmasında və formalaşmasında türk dilinin müstəsna rolu var. Bu fakt bir daha sübut edir ki, erməni dilinə türk dillərinin çox böyük təsiri olmuşdur. İndi də erməni dilində onlarla türk sözü mövcuddur.

Bu Qurultayın məhz Bakıda keçirilməsinin böyük simvolik mənası var idi. Bakı XX yüzilliyin əvvəlində türkologiyanın paytaxtı hesab olunurdu. Dünya türkoloqlarının Bakıya yığışması və müxtəlif türkoloji mövzularda diskussiyalar aparması böyük tarixi hadisə idi. I Türkoloji Qurultayda türk xalqlarının tarixi, mədəniyyəti, etnoqrafiyası, terminologiyası, əlifbası ilə bağlı maraqlı məruzələr edilmişdi. Qurultayın rəsmi dili rus dili olsa da, bəzi məruzələr türkcə edilmişdi. Qurultayda dilçilik məsələləri ilə yanaşı, tarix, etnoqrafiya və ədəbiyyat mövzularında da məruzələr edilmişdi.

Birinci Türkoloji Qurultayın davamı kimi II Türkoloji Qurultayın növbəti ildə Özbəkistanda keçirilməsi qərara alınsa da, sonradan "qırmızı terror" buna imkan vermədi. Təəssüf ki, bu qurultay iştirakçılarının əksəriyyəti sonradan sovet repressiyasının qurbanlarına çevrildi. Ancaq buna baxmayaraq qurultay ümumtürkologiyanın tarixində şərəfli iz buraxdı və türkologiyanın inkişafına böyük bir dəstək verdi. Həmin qurultayda qoyulan məsələlər, qaldırılan problemlər bu gün də öz aktuallığını qorumaqdadır. Son illərdə türkdilli xalqlar arasında ortaq əlifbanın yaradılması ideyasının intensivləşməsi və relallaşdırılması istiqamətində dövlət səviyyəsində işlərin aparılması, ortaq ünsiyyət dilinin yaradılması istiqamətində səylər göstərilməsi I Türkoloji Qurultayın mühüm əhəmiyyətini bir daha isbat edir. Çünki həmin məsələlər hələ yüz il öncə məhz I Türkoloji Qurultayda geniş müzakirə edilmişdi və türk xalqlarının dilləri, ədəbiyyatı, tarixi ilə bağlı mühüm qərarlar qəbul olunmuşdu.

Hal-hazırda Azərbaycan Pespublikasının dövlət siyasətində türkdilli respublikalar arasında inteqrasiyaların gücləndirilməsi istiqamətində aparılan strateji xətt günümüzün reallıqlarından biridir. Dövlətimizin Turançılığa böyük dəstək verməsi türk uluslarının siyasi-mənəvi və mədəni birliyini daha da gücləndirəcək və I Türkoloji Qurultayda qaldırılan məsələlərin gerçəkləşməsinə gətirib çıxaracaq. Hələ XX yüzilliyin əvvəllərində Ziya Göyalp, İsmayıl Qaspıralı, Yusif Akçuralı, Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən "dildə, işdə, fikirdə birlik", "ümumtürk ədəbi dil" ideyaları tezliklə reallığa çevriləcək!

ƏDƏBİYYAT:

1. Hacıyev T. Türklər üçün ortaq ünsiyyət dili. Bakı, "Təhsil", 2013, 248 s.
2. Latın əsaslı yeni türk əlifbası və I Bakı Türkoloji qurultayı. Biblioqrafiya. Bakı, 2006, 33 s.
3. Nerimanoğlu, Veli Kamil, Öner Mustafa. 1926 Bakü Türkoloji Kurultayı. Tutanaklar. Ankara, Türk Dil Kurumu Yayınları, 2008, 474 s.
4. Şimşir, N. Bilal. Türk Yazı Devrimi. Ankara, Türk Tarih Kurumu Basımevi, 1992, 486 s.

Историческое значение I Тюркологического съезда

Резюме

В статье рассматривается историческое значение I Тюркологического съезда. Особо подчеркивается, что, несмотря на то что с момента проведения I Тюркологического съезда в Баку в 1926 году прошло 100 лет, вопросы, обсуждавшиеся на этом съезде, и сегодня не утратили своей актуальности. Идеи и проблемы, выдвинутые и обсуждённые в рамках съезда, внесли значительный вклад в дальнейшее развитие тюркологической науки.

Ключевые слова*: I Тюркологический съезд, 100-летие, тюркология, тюрколог, алфавит*

THE HISTORICAL SIGNIFICANCE
OF THE FIRST TURKOLOGICAL CONGRESS

ABSTRACT

The article discusses the historical significance of the First Turkological Congress. It is particularly emphasized that although 100 years have passed since the First Turkological Congress was held in Baku in 1926, the issues discussed at that congress have not lost their relevance today. The ideas and problems raised and debated during the congress made a significant contribution to the subsequent development of Turkology.

Keywords*: First Turkological Congress, 100th anniversary, Turkology, Turkologist, alphabet*

Möhsün NAĞISOYLU*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN ÜZDƏ OLAN MƏSƏLƏLƏRİ VƏ GİZLİ MƏQAMLARI

XÜLASƏ

Birinci Bakı Türkoloji Qurultayının üzdə olan, bilinən tərəfləri ilə yanaşı, gizli, pərdəarxası məqamları da olmuşdur. Qurultayın bilinən tərəflərindən ən başlıcası türklərin ərəb əlifbasından latın əlifbasına keçid məsələsi sayılır. Gizli, pərdəarxası məqamlar isə bir tərəfdən türkləri uzaq keçmişindən, klassik ədəbi irsindən ayırmaq və forum iştirakçılarının türk birliyi barədə düşündüklərini öyrənmək məsələsi əsas yer tutmuşdur. Yuxarı dairələr tərəfindən düşünülmüş bu məkrli planın nəticəsi olaraq Qurultay iştirakçılarınını böyük əksəriyyəti 1937-ci ildə repressiyaya məruz qalmışlar. Türk xalqları üçün müstəsna əhəmiyyət daşıyan bu Qurultayda qəbul olunmuş qərarların bir çoxu indi də öz aktuallığını saxlayır.

Açar sözlər: *Birinci Türkoloji Qurultay, latın əlifbasına keçid, ortaq əlifba, gizli məqamlar*

1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının elmi-mədəni həyatında olduqca əlamətdar bir hadisə kimi tarixə düşdü və özündən sonra dərin, silinməz izlər buraxdı. Türk xalqlarının mədəni inkişafında, inteqrasiyasında xüsusi və mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm və mötəbər qurultay böyük bir coğrafi məkanda yaşayan çoxsaylı

* Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin müşaviri, akademik. Email: dr_mohsun@yahoo.com

türk xalqları üçün bir sıra qlobal və önəmli məsələlərin qoyuluşu, işlənib hazırlanması və yaxın gələcəkdə ardıcıl şəkildə gerçəkləşdirilməsi, həyata keçirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Bütövlükdə götürdükdə Birinci Türkoloji Qurultay həm türk dövlətlərində, türk dünyasında, həm də geniş mənada bütün dünyada türkologiya elminin inkişafında mühüm rol oynadı. "Birinci Türkoloji Qurultay türk dünyasının mədəni birliyinin və mənəvi bağlılığının yeni epoxadakı vəzifələrini diqqət mərkəzinə çəkən böyük elmi forumdur" [5, 56]. Birinci Bakı Türkoloji Qurultayının üzdə olan, görünən tərəfləri ilə yanaşı, birbaşa ozamankı SSRİ rəhbərliyinin, şəxsən Stalinin bu möhtəşəm forumu təşkil etməsi, həyata keçirməsi ilə bağlı gizli və məkrli planları da olmuşdur [7]. Birincilər – üzdə olan məsələlər sırasında SSRİ ərazisində yaşayan bütün türk xalqlarının ərəb əlifbasından latın əlifbasına keçid məsələsi əsas yer tuturdu. Qeyd edək ki, bu məsələ bir qədər geniş anlamda götürdükdə SSRİ rəhbərliyinini hiyləgər və məkrli milli siyasətinə xidmət edirdi. Belə ki, həmin dövrdə ərəb əlifbası yuxarı dairələr tərəfindən köhnəliyin qalığı və islam amili kimi qəbul edilirdi. Məlum olduğu kimi, islamın müqəddəs dini kitabı, Allah kəlamı Qurani-kərimin mətni ərəb əlifbası ilə yazıya alınmış, hazırlanmışdı. Deməli, bu məsələ - ərəb əlifbasından imtina SSRİ rəhbərliyinin ateizm siyasətinə tam uyğun gəlirdi və buna görə də yuxarılar tərəfindən açıq bir şəkildə dəstəklənirdi. Məsələ ilə bağlı qeyd edək ki, hələ 1922-ci ildə Səməd Ağamalıoğlu Moskvada Leninlə görüşü zamanı ona Azərbaycan SSR-nin ərəb əlifbasından kirilə keçmək niyyətində olduğunu demiş və proletariatın rəhbəri bu işi Şərqdə mədəni inqilab adlandırmışdı. Burada ərəb əlifbasından imtina ilə bağlı ikinci bir məsələ - gələcəyə yönəlik məkrli və gizli məqam ərəb əlifbasından imtinanın türk xalqlarını gözləyən gizli planla bağlı idi. Belə ki, yeni nəsil ulu babaları Mahmud Qaşğarinin "Divanü lüğat it-türk" ünü də, Yusuf Balasaqunlunun "Qutağtu bilig"ini də oxuya bilməyəcəkdi. Çünki bu əsərlər, eləcə də Yunus Əmrə və İmadəddin Nəsiminin, Əlişir Nəvai və Məhəmməd Füzulinin, eləcə də bir çox klassik söz ustalarının ədəbi irsi ərəb əlifbasında idi. Belə olduğu halda həmin xalqları əsarətdə saxlamaq işi daha asan başa gələcəkdi.

Birinci Türkoloji Qurultayın Bakı şəhərində keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir sıra sahələrdə olduğu kimi türkologiya elmində də Azərbaycan öndə gedirdi, birinci idi. Ölkədə bu sahədə tanınmış və nüfuzlu mütəxəssislər, elm adamları səmərəli fəaliyyət göstərirdilər.

Müxtəlif ölkələrdən dəvət edilmiş, SSRİ daxilindəki ayrı-ayrı bölgələrdən gəlmiş 131 nəfər nümayəndənin iştirak etdiyi Birinci Türkoloji Qurultayda 17 iclas keçirilmiş, bilavasitə türklər, türk dünyası ilə bağlı 38 məruzə dinlənilmiş və yaxın gələcəyə yönəlik bir sıra mühüm və önəmli qərarlar qəbul olunmuşdur [8; 1; 6; 2].

Qurultayda edilən məruzələr sırasında aşağıdakılar elmi sanballığı və böyük elmi əhəmiyyəti ilə seçilirdi: akademik Vasili Bartold: "Türk xalqları tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri"; akademik Serqey Oldenburq: "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları"; professor Aleksandr Müller: "Türk xalqlarının təsviri sənəti haqqında"; professor Fuad Köprülüzadə: "Türk xalqlarının ədəbi dillərinin inkişafı"; professor Aleksandr Samoyloviç: "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri"; professor Bəkir Çobanzadə: "Türk ləhcələrinin yaxın qohumluğu haqqında"; Hənəfi Zeynallı: "Türk dillərində elmi terminologiya sistemi haqqında"; professor Sergey Malov: "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri", Fərhad Ağazadə: "Türk dillərində düzgün yazı"; professor Nikolay Yakovlev: "Türk millətlərinin sosial və mədəni şəraitləri ilə bağlı əlifba sisteminin qurulması problemləri"; professor Nikolay Poppe: "Türk dillərinin Altay dilləri ilə qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti"; professor Teodor Menzel: "Balkan türkləri ədəbiyyatının öyrənilməsinin yekunları və perpektivləri". Qurultayda fonetika üzrə görkəmli alim professor Lev Şerbanın "Orfoqrafiyanın əsas prinsipləri və onların sosial əhəmiyyəti" adlı məruzəsi nəzəri baxımdan olduqca əhəmiyyətli idi.

Qurultayda müzakirə olunmuş məsələlər sırasında dil və dilçilik məsələləri istər sayca çoxluğuna, istərsə də xüsusi əhəmiyyətinə görə seçilir və mühüm əhəmiyyət daşıyırdı. Belə ki, bu mötəbər tədbirdə türk dillərinin aşağıdakı problemləri müzakirə obyekti oldu:

1. Əlifba məsələsi, daha doğrusu, ərəb əlifbasından latın əlifbasına keçid məsələsi;
2. İmla və orfoqrafiya problemi;
3. Terminologiya məsələsi;
4. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;

5. Ədəbi dil problemləri, o cümlədən ümumi (ortaq) türk ədəbi dili məsələsi;
6. Ulu dil nəzəriyyəsi, türk dillərinin tarixi problemləri və türk dillərinin tədrisi metodikası məsələsi;
7. Altay dilləri məsələsi.

Qeyd edək ki, bu problemlərdən ikisi haqqında Qurultayn Təşkilat Komitəsinin və Azərbaycan nümayəndə həyəyətinin üzvü milliyyətcə Krım tatarı professor Bəkir Çobanzadə məruzə etdi. 1. "Türk ləhcələrinin yaxın qohumluğu haqqında"; 2. "Elmi terminologiya sistemi haqqında".

23 nəfərdən ibarət Azərbaycan nümayəndə heyətinin digər bir üzvü Hənəfi Zeynallının məruzəsi isə terminologiya məsələsinə həsr edilmişdi: "Türk dillərində elmi terminologiyanın sistemi haqqında". Yeni Əlifba Komitəsinin əməkdaşı Fərhad Ağazadənin məruzəsi isə belə adlanırdı: "Türk dillərində düzgün yazı-imla qaydaları". Birinci Türkoloji Qurultayda dillə, dilçiliklə bağlı problemlər içərisində yeni əlifba məsələsi xüsusi yer tuturdu. Məlum olduğu kimi, Yaxın Şərqdə əlifba islahatı məsələsi ilk növbədə Mirzə Fətəli Axunzadənin adı ilə bağlıdır. İsmail bəy Qaspıralı, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Məhəmmədağa Şahtaxtılı, Firudin bəy Köçərli, Vəli Xuluflu kimi dövrün tanınmış ziyalıları, elm xadimləri də bu yöndə səmərəli fəaliyyət göstərirdi.

Qeyd edək ki, latın əlifbasına keçid məsələsinin müzakirəsində qurultayın 131 nəfər nümayəndəsindən 117 nəfəri iştirak etmiş və onlardan 101 nəfəri yeni əlifbanın lehinə səs vermişdir [3, 378]. İştirakçılardan 7 nəfər islahatçı (ərəb əlifbasının islah edilməsinin tərəfdarları) bu qərarın əleyhinə səs vermiş, 9 nəfər isə bitərəf olmuşdur. Beləliklə, qurultay SSRİ ərazisində yaşayan bütün türk xalqlarının latın əlifbasına keçid məsələsi haqqında qərar qəbul etdi. Latın qrafikalı bu əlifbada 33 hərf var idi: burada sağır nun səsini bildirən hərf də (ŋ) yer almışdı. Məlum olduğu kimi, bu səs klassik türk mətnlərində gah iki hərflə (n+g), gah da üzərində üç nöqtə qoyulan kaf hərfi ilə ifadə edilirdi. Daha çox dilimizin Qərb qrupu ləhcələri üçün səciyyəvi olan bu səs müasir özbək və qazax əlifbalarında iki hərflə (n+q) ifadə olunur: sənin q atanq. Məlum olduğu kimi, Azərbaycanda latın əlifbasına keçid məsələsi 1929-cu il yanvarın 1-dən həyata keçmişdir. Türkiyədə isə latın əlifbası bir il öncə – 1928-ci ildə qəbul olunmuşdur.

Qeyd edək ki, Moskva SSRİ-də yaşayan türk xalqları üçün latın əlifbasına keçid məsələsini gizli olaraq dəstəkləyirdi, çünki sözügedən xalqlar öz tarixi keçmişindən, zəngin ədəbi irsindən və çoxsaylı qədim yazılı mirasından uzaq düşürdü.

Qurultayda imla-ortoqrafiya məsələsi də müzakirə edildi və yeni imla qaydalarında fonetik prinsipə üstünlük verildi. Bu prinsipə görə sözlərin yazılışında onların tələffüzü, deyilişi əsas götürülürdü. Bununla belə, morfoloji və tarixi-ənənəvi prinsip məsələləri də nəzərdə tutulurdu. Yeri gəlmişkən qeyd edək ki, hazırda da Azərbaycan dilinin orfoqrafiya qaydalarında fonetik prinsipin əsas götürülməsinə baxmayaraq, adıçəkilən digər iki prinsip də güvvədə qalır. Termin məsələsində başlıca qaynaq kimi türk dillərinin öz daxili imkanlarına və beynəlmiləl səciyyəli sözlərə üstünlük verilməsi qərara alındı.

Qeyd edək ki, ortaq türk dili məsələsinə Türkiyə nümayəndəsi professor Fuad Köprülüzadənin "Türk xalqlarının ədəbi dillərinin inkişafı" adlı məruzəsində toxunuldu və ətraflı şəkildə müzakirə olundu. Məsələ ilə bağlı Rusiya Federasiyasının nümayəndəsi professor Aleksandr Samoyloviç (o həm də Təşkilat Komitəsinin üzvü idi) dedi ki, ortaq türk dili məsələsi yalnız tarixi inkişaf prosesində gerçəkləşə bilər.

Qeyd edək ki, SSR rəhbərliyi yeni əlifbaya keçid kimi ortaq türk dili məsələsini də gizlicə dəstəkləyir və bu hadisənin baş verməsini istəyirdi. Belə ki, bu məsələ gerçəkləşdiyi halda SSR-də yaşayan türk xalqları əslində milli dillərindən uzaq düşürdü. Moskva bilirdi ki, belə bir vəziyyətdə düşən xalqları ruslaşdırmaq məsələsi daha asan başa gələ bilər.

SSRİ rəhbərliyinin türk ziyalılarının qaymaqlarını bir araya yığmaqda daha bir məqsədi onların nə düşündüklərini, hansı əqidə sahibi olmalarını bilmək idi. Moskva Qurultayın gedişindən xəbər tutdu ki, bura toplaşan ziyalıların böyük əksəriyyəti öz xalqını sevən, milli düşüncəli insanlardır və türk xalqlarının birliyini, gələcək inkişafını görmək arzusu ilə yaşayırlar. Məhz buna görə də Birinci Türkoloji Qurultayın istirakçılarının çoxu 1937-ci ildə günahsız olaraq repressiya qurbanları oldu.

Qeyd edək ki, Birinci Türkiyoloji Qurultayda qəbul edilmiş qərarlar sırasında türklər üçün ortaq əlifba, ortaq imla, orfoqrafiya, ortaq dil və ortaq terminologiya kimi məsələlər xüsusi ilə böyük əhəmiyyət

daşıyırdı. Məlum olduğu kimi, ilk olaraq bu məsələ İsmail bəy Qaspıralı, Əlibəy Hüseynzadə və Ziya Gökalp tərəfindən qaldırılmışdı.

Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra Birinci Türkoloji Qurultaya dövlət səviyyəsində hüquqi qiymət verilmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci il noyabrın 5-də həmin tarixi hadisənin 80 illik yubileyinin qeyd olunması haqqında Sərəncam imzalamışdır.

Sərəncama uyğun olaraq, 2006-cı ildə Bakıda Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir. Həmçinin Prezident İlham Əliyev bu əlamətdar hadisənin – Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin də dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə 2016-cı il fevralın 18-də müvafiq Sərəncam imzalamışdır.

Sərəncamda qeyd olunduğu kimi, XX əsrin sonlarına doğru Azərbaycan Respublikasının dövlət müstəqilliyini yenidən bərpa etməsi ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusu qəti şəkildə təsbit edilmiş və Birinci Türkoloji Qurultay tərəfindən vaxtilə irəli sürülmüş qərar və tövsiyələrin müasir şəraitdə uğurla həyata keçirilməsi üçün əlverişli zəmin yaranmışdır.

Sərəncamda xüsusi olaraq vurğulanır ki, Qurultaydan bəri ötən dövr ilk növbədə türkologiya sahəsində yeni elmi konsepsiyaların formalaşdırılması, Azərbaycanın dünya miqyasında aparılan türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması və türk xalqlarının mədəni-mənəvi birliyinin, nəzəri-elmi əsaslarının yaradılması ilə əlamətdardır.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 oktyabr 2025-ci il tarixində Birinci Türkoloji Qurultayın 100 illiyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır.

Əldə olunan nailiyyətlər, eyni zamanda Birinci Türkoloji Qurultayın təşkilinə töhfə vermiş və az sonra günahsız repressiyaların qurbanı olmuş görkəmli türkoloq alimlərin xatirəsinə ehtiramın ifadəsidir. Geniş bir coğrafi məkanda yaşayan tüek xalqlarının tarixinə öz əbədi möhürünü vurmuş, dəyərli töhfələr vermiş Birinci Türkoloji Qurultayda qaldırılan ortaq türk əlifbası məsələsi, eləcə də ortaq türk dili, ortaq türk tarixi, ortaq türk ədəbiyyatı və ortaq türk terminologiyası kimi qlobal məsələlər bu gün də kifayət qədər aktual və əhəmiyyətlidir. Bu sahələrdə artıq müəyyən işlərə başlanılmışdır.

Qeyd olunmalıdır ki, Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini ikinci dəfə bərpa etdikdən sonra türk dövlətləri ilə siyasi-iqtisadi və mədəni-ədəbi əlaqələrini geniş şəkildə qurmuş və bu sahədə bir sıra uğurlu nəticələr əldə etmişdir. Bu nailiyyətlər sırasında, 2009-cu ildə Naxçıvanda keçirilən sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması xüsusi əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, sonralar – 1939-1993-cü illər ərzində Azərbaycanda kiril əlifbasından bolşevik hökümətinin siyasi qərarının nəticəsi olaraq məcburi şəkildə istifadə edilmişdir. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra kiril əlifbasından latın əlifbasına keçidə qərar vermiş və bu proses 2001-ci il avqustun 1-də tam şəkildə başa çatdırılmışdır.

Latın əlifbasına keçidin ölkəmizin həyatında mühüm elmi və mədəni hadisə olduğunu nəzərə alan Ümummilli Lider Heydər Əliyev 9 avqust 2001-ci il tarixli prezident fərmanı ilə hər il avqust ayının ilk gününün Azərbaycan Respublikasında "Azərbaycan əlifbası və Azərbaycan dili günü" kimi qeyd olunmasını rəsmiləşdirmişdir.

Azərbaycanın bu sahədəki təşəbbüsündən sonra digər müstəqil postsovet türk dövlətləri – Özbəkistan və Türkmənistan da latın qrafikalı əlifbanı qəbul etmişdir. Qazaxıstanda isə latın əlifbasına keçid prosesi 2020-ci ildə həyata keçirilmişdir.

Bütün bu mühüm tədbirlər Birinci Türkoloji Qurultayın işıqlı və gələcəyə yönəlmiş ideyalarının bu gün də yaşadığını və böyük aktuallıq kəsb etdiyini sübut edir. Bu işdə Azərbaycan həmişə ön sırada getmiş və bu gün də lider mövqedədir – bayraqdardır.

ƏDƏBİYYAT

1. 1926-cı il Birinci Türkoloji Qurultayı. Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər. Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, Çinar-çap, 2006.
2. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. 2 hissədə. 2-ci hissə. Bakı, Elm, 2012
3. Hacıyev T. Birinci Türkoloji Qurultayda dil məsələləri // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası. Bakı, 2006, № 2
4. Hacıyev T. Seçilmiş əsərləri. I cild (II hissə). Bakı, Elm, 2017
5. Həbibbəyli İ. Türk dünyasında inteqrasiya prosesləri: ədəbi-tarixi reallıqlar və müasir dövr, Türkologiya № 3, Bakı, 2016
6. Xəlilov B. Birinci Türkoloji Qurultay. Bakı, Elm, 1999
7. Şükrü Haluk Akalın. Bilinen ve Bilinmeyen Yönleriyle Birinci Türkoloji Kurultayı/Yeni Türkiye. 2025, sayı: 145, səh. 35-49
8. Первый Всесоюзный Тюркологический съезд. 26 февраля-5 марта 1926 г. Стенографический отсчет. Баку, АССР, 1926

Мохсун Нагисойлу

ПРОБЛЕМЫ И СКРЫТЫЕ АСПЕКТЫ ПЕРВОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА

РЕЗЮМЕ

Наряду с очевидными, известными аспектами Первого Бакинского тюркологического съезда, существовали и скрытые, закулисные аспекты. Наиболее важным из известных аспектов съезда является вопрос перехода тюркских народов от арабского алфавита к латинскому. Скрытыми, закулисными аспектами, с одной стороны, были вопросы отделения тюрков от их далекого прошлого, их классического литературного наследия и выяснения мнения участников съезда о тюркском единстве. В результате этого коварного плана, разработанного высшими кругами, подавляющее большинство участников съезда подверглись репрессиям в 1937 году. Многие решения, принятые на этом съезде, имевшем исключительное значение для тюркских народов, сохраняют свою актуальность и по сей день.

Ключевые слова: *Первый тюркологический съезд, переход к латинскому алфавиту, общий алфавит, скрытые события.*

Mohsun NAGHISOYLU

THE ISSUES AND HIDDEN ASPECTS OF THE FIRST TURKOLOGICAL CONGRESS

SUMMARY

Along with the obvious, well-known aspects of the First Baku Turkological Congress, there were also hidden, behind-the-scenes aspects. The most important of the well-known aspects of the congress is the issue of the transition of Turks from the Arabic alphabet to the Latin alphabet. Hidden, behind-the-scenes aspects, on the one hand, were the issues of separating the Turks from their distant past, their classical literary heritage, and clarifying the opinion of the forum participants about Turkish unity. As a result of this insidious plan, developed by the highest circles, the overwhelming majority of congress participants were subjected to repression in 1937. Many decisions taken at this congress, which had exceptional significance for the Turkic peoples, retain their relevance to this day.

Keywords: *First Turkological congress, transition to the Latin alphabet, general alphabet, hidden events.*

Mahirə HÜSEYNOVA*

I TÜRKOLOJİ QURULTAYIN 100 İLLİK TARİXİNİN İLK MƏRHƏLƏSİ

XÜLASƏ

XX əsrin əvvəlləri türk xalqlarının elmi, mədəni və ictimai həyatında köklü dəyişikliklərlə səciyyələnən mühüm bir mərhələdir. Bu dövrdə baş verən ən əlamətdar hadisələrdən biri 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay olmuşdur. Qurultay türk dillərinin elmi əsaslarla öyrənilməsi, ortaq əlifba və imla məsələlərinin müzakirəsi, terminologiya, ədəbi dil və təhsil problemlərinin həlli baxımından türkoloji fikir tarixində dönüş nöqtəsi kimi qiymətləndirilir. Məqalədə I Türkoloji Qurultayın tədqiq tarixinin birinci mərhələsi (1926–1960-cı illər) araşdırılır, qurultaydan sonrakı dövrdə bu möhtəşəm elmi toplantının ideya və qərarlarının necə davam etdirildiyi konkret faktlar və şəxsiyyətlər üzərindən təhlil olunur. Bəkir Çobanzadə, A.N. Samoyloviç, Vəli Xuluflu, Xalid Səid Xocayev, Əbdüləzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev və Muxtar Hüseynzadə kimi görkəmli alimlərin elmi fəaliyyətləri fonunda qurultayın Azərbaycan və ümumtürk filologiyasına təsiri göstərilir. Eyni zamanda, sovet siyasi rejiminin elmi mühitə və türkoloji araşdırmalara vurduğu zərbələr də tarixi kontekstdə qiymətləndirilir.

Açar sözlər. *I Türkoloji Qurultay, türkoloji fikir tarixi, yeni türk əlifbası, imla və orfoqrafiya, Bəkir Çobanzadə, Azərbaycan dilçiliyi, sovet dövrü türkologiyası*

I Türkoloji Qurultayın araşdırılması tarixini 100 il ərzində 3 mərhələyə bölərək tədqiqat obyektinə çevirmək mümkündür ki, bunları belə xronolji ardıcıllıqla qruplaşdırmaq olar: I. 1926-cı ildən 1960-cı ilə qədərki mərhələ; II. 1960-cı ildən 2000-ci ilə qədərki mərhələ; III. 2000-cı ildən günümüzə qədərki mərhələ. Biz bu yazımızda 34 il ərzində yığıncaqla bağlı görülmüş işləri ətraflı şəkildə şərh etməyə çalışacağıq. Türkoloji yığıncaq qurtardıqdan 1 il sonra prof. Bəkir Çobanzadə "Maarif işçisi" jurnalının 1927-ci il 10-cu sayında "Azərbaycan İmla Konqrensi" (1927), ondan 2 il sonra "Şuralar İttifaqının yazı sərgisi" ("İnqilab və Mədəniyyət" jurnalı, 1929, №11), "Unifikasiya(əlifbaların birləşməsi) turunda" ("Kazan, Maarif", 1929,№1), "Kazan plenimunun nəticələri" ("Maarif işçisi" jurnalı, 1929, №1), "İstilah terminoloji işləri" ("Azərbaycanın öyrənmə yolu", 1930, №4,5), "Yeni türk əlifbasının məcburi tətbiqi haqqında Azərbaycan MİK və XKS qərarı ("Şura kütləçisi", 1928, №78), "Yangi əlifbanın engi yutunqları və qoldağı vazifalarımız" ("Özbəkcə Alanqa" jurnalı, 1928, №12) adlı məqalələrində Azərbaycanda və türkdilli xalqlarda qurultayda qaldırılan məsələlərin necə həyata keçirilməsindən bəhs etmişdir. Qurultay qurtardıqdan sonrakı illərdə işgüzar elmi fəaliyyəti ilə ddiqqəti cəlb edən tədqiqatçılardan biri də A.N.Samoyloviç olmuşdur. Milliyətcə ukraynalı olan bu tədqiqatçını Bakıya bağlayan əsas səbəb bu şəhərin türkoloji mərkəz kimi tanınması olmuş, Azərbaycan alimləri içərisində ən çox əlaqə saxladığı Bəkir Çobanzadə ilə birlikdə 1928-ci ildə paytaxtımızda keçirilən orfoqrafiya konfransında iştirak etmiş və özünün dərin məzmunlu məruzəsi ilə türk xalqlarının orfoqrafiyasının və orfoepiyasının elmi nəzəri aspektlərindən geniş danışmış, yeni türk əlifbasının daha sürətlə yerlərdə həyata keçirilməsi dönə-dönə göstərmişdir. Yenə həmin ildə Leninqrad Şərqşünaslıq İnstitutunda keçirilən konfransda orfoqrafiyanın elmi əsaslarından ətraflı şəkildə bəhs etmiş, sonralar həmin məruzəsini dövrü mətbuatda dərc etmişdir. 1929-cu ilin sentyabrında Özbəkistan Respublikasının Səmərqənd şəhərində ədəbiyyat məsələlərinə həsr edilmiş bir konfransda olmuşdur ki, Samoyloviç burada da türk xalqlarının ədəbi örnəklərindən, xüsusən də Nərainin yaradıcıllığından ətraflı danışmışdır. Türk xalqlarının dillərinin öyrənilməsi sahəsindəki bütün elmi fəaliyyəti yüksək qiymətləndirməyə layiq olan bu akademikin türk tədqiqatçıları içərisindən ən çox əlaqə saxladığı şəxsiyyət Bəkir Çobanzadə olmuş, o, öz həmkarının geniş və dərin elmi biliyinə bələd olduğuna görə SSRİ EA-nın müxbir üzvü etmək üçün təşəbbüs də göstərmişdir. Akademik Aleksandr Mikolayeviç pantürkis damğası vurmağa çalışan Sovet siyasi rejimi həmin dövrdə Türkiyə ilə əlaqələrin yaxşı olduğunu nəzərə alıb, onu "yapon casusu" kimi şərləyərək 13 fevral 1938-ci ildə cəmi 15 dəqiqəlik məhkəmə iclasından sonra qətlinə fərman verilmişdir.

* ADPU Beynəlxalq əlaqələr üzrə prorektor, filologiya elmləri doktoru, professor. Email:huseynova.mahira@yandex.ru

1927-ci il 7 noyabr "Yeni yol" qəzetinin 1 sayı xüsusi olaraq Oktyabr İnqilabının 10 illik yubileyinə həsr olunmuş, Azərbaycan Yeni Türk Əlifba Komitəsini gördüyü işlər barədə S.Ağamalıoğlunu "Oktyabr İnqilabının nəticələrindən", professor Bəkir Çobanzadənin "Yeni Əlifba sırasında qarşımızda divan yeni vəzifələr", Fərhad Əlizadənin "Yeni Əlifbanın Şərqdəki nəticələrindən", Həsən İmanovun "I Türkoloji Qurultayı", Nəzirovun "Yeni Türk Əlifbası və onun müvəffəqiyyətləri", Rəmiyevin "Tatarıstan Yeni Tatar Əlifba Cəmiyyəti", "Janaliff", Məhəmməd Qərimin "Dağıstan və Şimali Qafqazda yeni əlifba "Zıxzamanın Türkmənistanda Yeni türk əlifbası", Tafiberkovun "Qırğızıstanda Yeni Əlifba", Səədullayevin "Yeni Əlifba Komitəsi və onun fəaliyyəti", Baydar Ovalnın "Krımda yeni əlifba", Fərhad Ağazadənin "Vatrid imlamız olmalıdır, "Məmməd Səid Ordubadinin "Yeni yol qəzetəsi - Əməkçi müxbirlərimiz", Ə.Ə.Heydərlinin "Qəndli müxbirlərimiz", "Qəzetin redaksiya heyyətinin "Yeni Türk Əlifba Komitəsi elmi katibi Bəkir Çobanzadənin "İmla konfransı" adlı məqalələri ilə yanaşı 80-ə yaxın fotoşəkil də verilmiş və həmin yazılarda, eyni zamanda fotolarda ölkəmizdə, türkdilli xalqların bəzilərində əlifba və imla ilə bağlı görülmüş işlərin nəticələri təqdim edilmişdir.

1927-ci ildən 1932-ci ilə cəmi 43 il ömür sürmüş Vəli MəmmədHüseyn oğlu Xuluylu yeni türk əlifbasına, dilçiliyinə, ədəbiyyatşünaslığına, tarixinə, folkloruna və s. bir sıra vacib məsələlərə 9 kitab həsr etmişdir ki, bunlarda o dövrdə oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Bu böyük insanın həyatı, ictimai və elmi fəaliyyəti, şəxsiyyəti barədə Azərbaycan Sovet Ensiklopediyasında belə bir yığcam məlumat əksini tapmışdır: "Xuluflu Vəli Məmməd Hüseyn oğlu (1894-1937-indiki Şamxor rayonunun Xuluflu kəndi) Azərbaycanda sovet hakimiyyəti uğrunda mübariz, folklorçu, tarixçi, professor (1931), 1919-cu ildən Sov. İKP üzvü, 1917-ci ildə Gəncədə Müəllimlər İnstitutunu bitirmişdir. Müəllimlik etmiş və sonralar inqilabi hərakata qoşulmuşdur. 1920-ci ildə AK (b) P-nin 1-ci qurultayının nümayəndəsi olmuş, AK(b) P Gəncə qəza komitəsində işləmişdir. 1921-ci ildə partiya sıralarında təmizləmə işləri ilə əlaqədar olaraq Sov.İKP üzvlüyündən çıxarılmış, 1927-ci ildə yenidən qəbul edilmişdir. 1922-29-cu illərdə ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin (YTƏK) təlimatçısı, "Bakinski raboçi" nəşriyyatının və "Azərnəşr" in redaktoru, 1929-1936-cı illərdə Azərbaycan Dövlət Elmi - Tədqiqat İnstitutunun elmi katibi, Dil, Ədəbiyyat və İncəsənət bölməsinin direktoru, Azərbaycan SSR Mərkəzi Dövlət arxivinin müdiri, SSRİ EA Azərbaycan Filialının, Tarix İnstitutunun direktor müavinin və s. vəzifələrdə çalışmışdır. Azərbaycan SSR MİK-in üzvü olmuşdur.

Yeni türk əlifbası uğrunda Vəli Xuluylunun gördüyü işləri yüksək dəyərləndirərək onun həmkarı milliyətcə özbək olan Xalid Səid Xacayev göstərirdi ki, "Zatən Osmanlılar, kazaqlar və özbəklər arasında bu fikir yox deyildi. Ancaq onlar bu məsələni ortaya atmağa cəsarət etməyirdilər. Yeni əlifba vasitəsi ilə əldə edilən müvəffəqiyyət komitəyə daha artıq cəsarət verdi. O, müvəffəqiyyətlərinin yekununu göstərməyə və qonşu türk cümhuriyyətlərinin fikrini almağa cəsarət verdi. Bunun üçün bir konfrans çağırmaq lazım idi. Komitə bundan əvvəl onlar ilə xüsusi surətdə görüşməyi daha müvafiq gördü. 1924-cü ilin sentyabr ayında bir heyəti səfəriyə təşkil edildi. Bunlar şuralar ittifaqında olan bütün türk cümhuriyyətinin mərkəzlərinə gedəcək səlahiyyətdar adamlar ilə görüşəcəklər. Heyət aşağdakı dörd nəfərdən təşkil olunmuşdur: 1) Səmədağa Ağamalıoğlu - Yeni Türk Əlifbası Komitəsinin sədri; 2) Mirzə Cəlil Məmmədquluzadə - "Molla Nəsrəddin" jurnalının müxbiri; 3) Vəli Xuluflu - Yeni Əlifba Komitəsinin üzvlərindən; 4) Xalid Səid - Əmələ fakültəsi və Meliorasiya texnikomunun İnsan və ədəbiyyat müəllimi."

Oktyabr İnqilabının qələbəsindən və Sovetlər İttifaqının qurulmasından sonrakı illərdə Azərbaycanda açılmış üniversitet və texnikomlarda kadr çatışmazlığı açıq və aydın şəkildə özünü biruzə verirdi. Bunu nəzərə alan ali məktəb rəhbərləri Ə.S.Qubaydulin, B.V.Çobanzadə, M.V.Köprülzadə, A.N.Aşmarin, A.Samayloviçlə bərabər Xalid Səid Xocayev də ölkəmizə dəvət etmiş, onlara ali məktəblərdə müəyyən işləri öhdələrinə vermişdir. Adlarını qeyd etdiyimiz yaradıcı şəxsiyyətlər kimi Xalid Səid də Azərbaycan filologiyasının inkişafında misilsiz xidmətlər göstərən tədqiqatçılardan biri olmuş və o "Türk dillərinin müqayisəli qrammatikası" adlı monoqrafiyas;nda qohum türkcələrin tipoloji müqayisəsini vermiş, eyni zamanda XI əsrin məhşur türkoloqu Mahmud Kaşğarinin "Divani-lüğəti-it-türk" əsərini Azərbaycan dilinə çevirməklə türkologiyamız tarixində çox böyük və mühüm iş görmüşdür. Geniş və əhatəli elmi yaradıcılıq diapazonuna malik olan bu böyük şəxsiyyət 1929-cu ildə artıq latın qrafikasının Azərbaycanda qəti şəkildə tətbiq edildiyi vaxt bu əlifbanın qəbul edilməsi tarixi və bu yolda qarşıya çıxan çətinliklər haqqında elmi-

publisistik səpkidə "Yeni əlifba yollarında əsgi xatirə və duyğuların" adlı kitabını çap etdirmiş, təxminən 5-6 illik xatirəsini bu mənbədə vermişdir. Kitabın əvvəlində "Haraya nə üçün gedirdik?" sərlövhəsi altında V.Xuluflu əlifba tariximiz üçün çox maraqlı olan bir epizod vermişdir və həmin epizodu oxucuların diqqətinə çatdırmağı biz də özümüzə borc bilirik: "Zatən osmanlılar, qaz anlılar, özbəklər qarşısında da bu məsələ yox deyildi. Ancaq onlar bu məsələni ortaya atmağa cəsarət etməyirdi. Yeni əlifba vasitəsi ilə əldə edilən müvəffəqiyyət komitəyə daha artıq cəsarət verdi. O, müvəffəqiyyətlərinin yekununu göstərməyə və qonşu Türk Cümhuriyyətlərinin fikrini almağa qərar verdi. Bunun üçün bir konfrans çağırmaq lazımdır. Komitə bundan əvvəl onlar ilə xüsusi surətdə görüşməyi daha müvafiq gördü. 1924-cü ilin sentyabr ayında bir heyəti səfəriyyə təşkil edildi. Bunlar Şuralar İttifaqında olan bütün Türk Cümhuriyyətlərinin mərkəzlərinə gedəcək, səlahiyyətdar adamlar ilə görüşəcəklərdi. Heyyətə daxil olan şəxslərin adını və S.Ağamalıoğlunu, eyni zamanda Cəlil Məmmədquluzadənin fotolarında burada vermiş, 1924-cü ilin yay aylarındakı görüşlərindən bəhs edərək Xəlil Səid yazır ki, "İyulun 3-də günortadan bir qədər keçmiş, saat 4 və 5 radələrində Ağməsciddə olduq, yığıncaqda ilk sözün S.Ağamalıoğluya verildiyini qeyd edərək müəllif onun nitqindən "Yoldaşlar, həyat sizin təkamülünüzü gözləmir, o yüyürmək, çalışmaq istəyir, bunu yapa bilməsəniz siz təkamülünüz ilə bərabər, əzilib, əriyib, puç olub gedəcəksiniz"- cümləsini təqdim etmiş, bundan sonra isə Bəkir Çobanzadənin nitqindən 2 abzaslıq mikromətin diqqətə çatdırmışdır: "*Yoldaşlar, əlifbaya elmi nöqteyi-nəzərdən yanaşalım. Əlifbanı bir lisanda olan səslərə görə təşkil etmək lazımdır. Ərəb əlifbası lisanımızda olan səsləri ifadədən acizdir. İkinci bir lisan şəxsi deyildir, ictimai bir müəssisədir. Üçüncü, təşəkkül etmiş,onun mazisi-keçmişi unudulmamalıdır. Beşinci, bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarını kəndi ətrafında toplayıb elm və mədəniyyət yolu ilə sürətlə irəliləyəcək bir əlifba lazımdır. Sizin əvvəlcə təklif etdiyiniz əlifba xüsusunda bizim fikrimiz tamam başqa idi. Verdiyiniz izahatdan sonra bizə qənaət hasil oldu ki, mədəniyyətcə irəliləmək üçün bu əlifbanı qəbul etməkdən başqa çarəmiz yoxdur. Rusiyada yaşayan türk-tatar xalqları arasında yeni bir mədəniyyət mərkəzi lazımdır. Böylə bir mərkəzə namizəd ola biləcək, ancaq Bskıdır. Bakıdan başlanan yeni əlifba məsələsinə bütün Krım xalqı və gənclərinin yardım ütməsinə ümid edirəm. Komissya təşkil etməklə müvafiqdir. Sizin hər xüsusda bizə yardım edəcəyinizə əminik. Biz sizin fikrinizi salamlayırıq*".

Xalid Səidin dilçilik görüşlərini yüksək dəyərləndirmək üçün onun I Türkoloji Qurultay keçirilən ildə Bakıda Azərbaycan tədqiq-tətəbbö cəmiyyətinin çap etdiyi "Osmanlı, özbək və qazax dillərinin müqayisəli sərfi" adlı monoqrafiyası da böyük əhəmiyyətə malikdir və türkoloji aspektdə eyni zamanda müqayisəli planda türk dünyasında bu problemə ilk dəfə həsr olunan tədqiqat işidir. 110 səhifədən ibarət bu kitabın lap əvvəlində müəllif yazırdı ki, "Türk dillərinin müxtəlif şivələri arasında elə bir dil düzəldə bilirmiyiz ki, onu bütün türk uluslarına yabançı olaraq hər biri tərəfindən ayrıca öyrənmək lazımlı olacaq. Beş hissədən ibarət olan bu əsərin 1-ci hissəsində zəmir, yəni əvəzlik, 4-cü hissəsində fel, 5-ci hissəsində ədat bəhslərindən danışılaraq belə qənaət əldə edilir ki, türk dillərinin hamısının lüğət fondu leksik kökü birdir.

Feilin əmr formasını o dövrdəki istilahla "Təkidi məsdər" adlandıran tədqiqatçı xeyli nümunələr də vermişdir. Xalid Səidin elmi yaradıcılığından danışarkən 1934-cü ildə Abdulla Tağızadə ilə şərikli yazdıqları "Müxtəsər üslubiyyat" əsərindən də yan keçmək olmaz. Yeddinci sinif üçün nəzərdə tutulmuş bu dərsliyin elmi redaktoru prof. B.Çobanzadə olmaqla o, 4 hissədən ibarətdir: "a) Üslubiyyat (statistika), intonasiya və durğu işarələri. b) Cümlə: sadə cümlə. Müsbət və mənfi cümlə (burada xəbəri təsdiq və inkar olan cümlələr nəzərdə tutulur) Məktəb açıldı - müsbət. Məktəb açılmadı - mənfi. c) Bəyan. Hissi bəyan: Mübaliğə. Nida. Sual.Təkrir. Fikri bəyan: Tədric, rucu, təhdid, təzad. d) Yazının mənşəyi. Üslubiyyat haqqında müəlliflər deyir: "*Üslubiyyat danışıq və yazılarımızda ifadəni müxtəlif məqsədlərlə tamamilə və nöqtəsi nöqtəsinə uyğun olaraq qurmaq üsul və qaydalarını öyrənən elmdir*".

Sovet siyasi rejiminin amansız fərmanı ilə Xalid Səid Xocayev 1937-ci ilin oktyabrın 10-da vəhşicəsinə güllələnərək qətlə yetirilmişdir. Onun elmi yaradıcılığından uzun illər türkoloji dilçiliklə, üslubiyyatla məşğul olan mütəxəsislər qiymətli mənbə kimi bəhrələnmiş, bir sıra faydalı əsərlər araya, ərsəyə gətirmişlər ki, onlardan biri də Əbdüləzər Dəmirçizadə olmuşdur. Xalid Səid universitetdə dərs dediyi illərdə Ə.Dəmirçizadə onun ən sevimli tələbələrindən biri olmuş sonralar Dəmirçizadə mühazirələrində bu böyük tarixi şəxsiyyət haqqında unudlmaz xatirələrini qədirbilən tələbələrinə söyləmişdir. Prof. Həsən

Mirzəyev öz elmi rəhbəri və müəllimi olan Dəmirçizadənin söylədiyi xatirələrdən 1980-ci ildə bizə mühazirə oxuduğu dərslərdə də ağız dolusu danışırdı. I Türkoloji Qurultay çağrılanda Ə.Dəmirçizadənin 17 yaşı var idi və 1930-cu ilin əvvələrində Xalid Səid Xocayevdən və digər qurultayda iştirak edən nümayəndələrdən dərs almış, 1937-ci ilin dəhşətli Stalin represiyasının dalğası bir qədər səngiyəndən sonra o, 1938-ci ildə "Azərbaycan ədəbi dili tarixi xülasələri" adlı kitabını APİ-nin mətbəsində 110 səhifə həcmində nəşr etdirmişdir. Kitabda "Kitabi Dədə Qorqud dastanlar"-ından üzü bəri Mirzə Fətəli Axundova qədər şifahi və yazılı ədəbi dilimizin spesifik xüsusiyyətləri araşdırılmış, türk xalqlarının ortaq abidəsi olan "Kitabi Dədə Qorqud dastan"-ın dilini də müəyyən qədər yer verilmişdir. Maraqlıdır ki, 1916-cı ildə İstanbulda (tapılmış) Rüfət Kilişli tərəfindən tapılmış və nəşr edilmiş "Kitabi Dədə Qorqud dastanlar"-ın adı bunun üstündən 10 il ötmüş Bakıda çağrılmış I Türkoloji Qurultayda dil tarixi mövzusunda məruzə çıxış edənlərin heç birinin dilinə gətirilməmişdir. 29 yaşında bu əsərini yazan Dəmirçizadə bir növ "Kitabi Dədə Qorqud dastanlar"-ın dil və üslubi ilə bağlı Azərbaycanda onun ilk təməlini qapır və sərasər 20 ilə yaxın bir zaman kəsiyində "Kitabi Dədə Qorqud dastanlar"nın dili adlı Pedaqoji institutlarının tələbələri üçün 1959-cu ildə APİ-in nəşriyyatında dərc etdirir. Müəllifin bu kitabı "İlk söz, 4 fəsil, Son söz" hissələrindən ibarət olub . İlk söz hissəsində əsərin yazılma illəri haqqında yığcam məlumat verilir, I fəsildə "Kitabi Dədə Qorqud dastanlar"-ın yaranma tarixi və coğrafiyası, abidənin tədqiqində bəzi məsələlər eyni zamanda sinonimlərin müvaziliyi, II fəsildə dastanın dilinin fonetik quruluşu və tərkibi, fonetik uyuşmalar, fonetik cəhətcə azəricələşmə, III fəsildə abidənin dilinin qrammatik quruluşu, bu xüsusda morfoloji əlamətləri, sözdüzəldici şəkilçilər, isim, sifət, say, əvəzlik, fel, zərflərin və köməkçi sözlərin, bu fəslin II yarımparaqraında abidənin dilinin sintaktik resurslarında özünü göstərən müptəda, xəbər, tamamlıq, zərflik, təyin, cümlə tərkibində olan əlavə sözlər, cümlələr dolğun şəkildə şərh edilmiş və dastanların lüğət tərkibində fəaliyyət göstərən müxtəlif sözlərin leksik, semantik ehtiyatlarına da ətraflı şəkildə diqqət yetirilmişdir. Ə.Dəmirçizadə müasir "Azərbaycan dili" kitabının 1947-ci ildən yazmağa başlamış və bunu sonrakı illərdə təkmilləşdirə mükəmməl bir dərslik səviyyəsinə çatdırmış və uzun illər ali məktəblərin filologiya fakültəsində təhsil alan tələbələrin stolüstü kitabına çevrilmişdir. Bu məhsuldar yaradıcılığa malik tədqiqatçı "Dilin lüğət tərkibi haqqında" əsərini 1952-ci ildə APİ-in nəşriyyatında çap etdirmiş, burada söz və məna, sözün lüğəvi və qrammatik mənası, lüğət tərkibi, lüğət tərkibinin əsas və əlavə hissələri, onların hər birinin xarakterik xüsusiyyətləri barədə elmi-nəzəri baxımdan diqqətlə ümumiləşdirməyə nail olmuşdur ki, bu məsələrin əksəriyyətinin I Türkoloji Qurultayda müxtəlif məruzə və çıxışlarda tədqiqinin zərurili ortaycı atılmışdır.

I Türkoloji Qurultayının tədqiqi tarixinin I mərhələsini şərh edərkən doğum tarixləri Ə.Dəmirçizadə ilə üst-üstə düşən (1909) Məmmədağa Şirəliyevin yığıncaqdan sonraki illərdən 60-cı ilə qədər yaradıcılığına da nəzər salmaq zəruriliyi meydana çıxır. Məmmədağa Şirəliyev 1941-ci ildə "Bakı dialekti" əsərini yazmağa başlayanda Azərbaycanda yalnız N.İ.Aşmarin tərəfindən "Nuxa dialekti" kitab var idi. Şirəliyev həmin əsəri 1949-cu ildə çap etdirməyə müvəffəq olur və onun elmi əhəmiyyətini, həmçinin türkoloji aspektdə yazılmasını nəzərə alaraq 1957-ci ildə təkrar çap edilmişdir. "Bakı dialekti" əsərinin yüksək elmi nəzəriyyələrindən bəhs edən akademik İ.Meşşaninov əsəri 1949-cu il nəşrinin müqəddiməsində göstərirdi ki, "Azərbaycan dilinin dialektlərinin öyrənilməsi işi ancaq bu son zamanlarda güclənməyə başlamışdır. O vaxta qədər bu sahədə tədqiqat ancaq ayrı-ayrı alimlər tərəfindən, həm də epizodik sürətdə aparılmışdır. Dialektlər müntəzəm və planlı sürətdə öyrənilməmişdir. Azərbaycan dili dialektlərinin birini sistemə salmış geniş və bitmiş tədqiqi ilk dəfə olaraq M.Ş.Şirəliyev verir. O, ən səciyyəli dialekt olan Bakı dialekti üzərində dayanmış və onu o dərəcəyə müvəffəqiyyətli tədqiq edə bilmişdir ki, həmin iş üçün o, namizədlik elmi dərəcəsinini almaq istərkən birdən-birə üksək elmi dərəcə olan filoloji elmlər doktoru alimlik dərəcəsini almağa nail olmuşdur."

Həmin dövrdə həmyaşıd olanhər iki gənc istər Ə.Dəmirçizadə, istərsə də M.Şirəliyev I Türkoloji Qurultayın keçirilməsinin canlı şahidləri olmuş və orada söylənilən məruzə və çıxışları qeyri-rəsmi iştirakçıları kimi diqqətlə dinləmişlər. Özbək tədqiqatçısı represiyaya məruz qalana qədər Xalid Səid Xocayev Azərbaycanda yazıb-yaratmış, hər iki gəncə darüflündə dərs də demişdir. 1956-cı ildə Xalid Səidiyyə bəraət verilərkən 5 nəfər inanılmış və nüfuzlu şəxsin şahid qismində ifadəsi məhkəmə tərəfindən alınmışdır ki, onlardan biri də M.Şirəliyev olmuşdur. Xalid Səidi haqqında o dindirilən zaman belə ifadə

vermişdir: "*Mən Xalid Səidi 1933-cü ildən tanıyıram. Həbs olunana qədər o mənimlə köhnə mətnlərin oxunması məşğələlərini aparmışdır. Dərsdə olduğu kimi, məsləhət saatlarında da heç vaxt antisovet hərəkətlərə yol verməmişdir. Habelə millətçi ruhda olan fikirlər söyləməmişdir. Mən Xalid Səidi vicdanlı, namuslu bir sovet vətəndaşı kimi tanıyırdım*".

Həm Dəmirçizadənin, həm də Şirəliyevin Azərbaycan, o cümlədən türkcələrin əlifbası, fonetikası, leksik və qrammatik quruluşu, orfoqrafiya və orfoepiyası üslubiyyatı, bir sözlə türkologiyanın digər nəzəri problemləri ilə bağlı zəngin araşdırmalarını bütün buşərhlərimizlə yekunlaşdırmaq düzgün olmazdı və biz bu məsələlər barədə də ikinci mərhələnin tədqiqi tarixindən bəhs edəcəyik və yuxarıda qeyd etdiklərinizi I Türkoloji Qurultayda qəbul edilmiş qətnamələrdən irəli gələn və hər iki tədqiqatçının gerçəkləşdirilən araşdırmalarından idi.

Ə.Dəmirçizadə, M.Şirəliyev kimi Muxtar Hüseynzadə də möhtəşəm Ümumittifaq Bakı Türkoloji Qurultayının çağrılmasının canlı şahidi olmuş və bu yığıncaq keçiriləndə 26 yaşlı Muxtar Hüseynzadə Gəncə şəhərində fəhlə fakültəsində təhsil alırdı və o 1927-ci ildə Bakıya gələrək Azərbaycan Dövlət Darüflünün Şərq fakültəsinə daxil olmuş, türk dili kafedrasının müdürü prof. Bəkir Çobanzadədən dərs almış, 1931-ci ildə üniversiteti bitirərək türk dili və ədəbiyyatı ixtisasına yiyələnmiş, 1935-ci ildə B.Çobanzadənin rəhbərliyi ilə "Müasir Azərbaycan dili" mövzusunda namizədlik dissertasiyası yazaraq Filoloji Elmlər Namizədi dərəcəsinə yiyələnmiş, 1935-ci ildən Azərbaycan Dövlət Darüflündə Ümumi Dilçilik kafedrasında ştat üzrə çalışan, 50 il bu kafedrada həm dərs deyən, həm də möhtəşəm əsərlər yazıb yaradan Muxtar Hüseynzadə əsərlərinin çoxunu Azərbaycan dilinin tarixinə, nitq mədəniyyətinə, əlifbasına, orfoqrafiyasına, terminologiyasına, pukktuasiyasına və s. məsələlərinə həsr etmiş, ölkəmizin ali məktəblərində müxtəlif illərdə Orxon Yenisey abidələrindən mühazirələr oxumuşdur ki, bu məsələlərin əksəriyyəti I Türkoloji Qurultayda qaldırılan vacib və aktual problemlərdən idi. Alimin Azərbaycan dilinin davamlı lüğət tərkibinin zənginliyi barədə söylədiyi fikirlər olduqca maraqlıdır: "Dil zorakı assimliyasiyaya qarşı o zaman daha ciddi müqavimət göstərilə bilir ki, onun sabit və möhkəm qrammatik quruluşu olsun və bir çox əsrlər ərzində öz həyatiliyini sübut etmiş olsun. Belə bir dil "yüz illərlə davam gətirən uzun bir proses" nəticəsi olan çarpazlaşma zamanı həmişə qalib gəlir və öz lüğət tərkibini məğlub dilin hesabına zənginləşdirir. Azərbaycan dili belə dillərdəndir." Belə orginal elmi fikirlərə M.Hüseynzadənin bütün əsərlərində rast gəlmək olur və onun 37 yaşı olanda qurultay iştirakçılarının əksəriyyətinin Stalin diktaturası tərəfindən represiyasına başlanılır, 1937-ci ildə SSRİ XDİK- I şöbəsinin 12 bölməsinin rəisi Şevolov Petrunin imzaladığı arayışdan belə məlum olur ki, Xalid Səid Xocayevlə M.Şirəliyev, Ə.Dəmirçizadə kimi M.Hüseynzadə də əlaqədar olmuş, həmin ildə həm Xalid Səiddən ifadə alınmış, həm də əksinə Ə.Dəmirçizadədən, M.Şirəliyevdən, M.Hüseynzadədən, Xalid Səid haqqında ifadə vermək tələb olunmuş-dur. Bu ifadələr sonralar DTK-nın agentləri tərəfindən götürülərək it-bata salındığından onların bir-biri haqqında verdiyi ifadələr barədə müəyyən məlumatlar vermək olduqca çətindir.

Aparılan araşdırma göstərir ki, I Türkoloji Qurultay təkcə 1926-cı ilin elmi hadisəsi kimi deyil, sonrakı onilliklərdə türkoloji tədqiqatların istiqamətini müəyyən edən strateji bir mərhələ kimi çıxış etmişdir. Qurultayda qəbul edilən qərarlar əlifba islahatı, ədəbi dilin normallaşdırılması, dialektoloji və tarixi-linqvistik tədqiqatların genişlənməsi baxımından uzunmüddətli təsirə malik olmuşdur. 1926–1960-cı illəri əhatə edən birinci mərhələdə qurultayın ideyaları bir tərəfdən elmi əsərlərdə və konfranslarda davam etdirilmiş, digər tərəfdən isə sovet totalitar rejiminin repressiv siyasəti nəticəsində bir çox görkəmli türko-loqların fəaliyyəti yarımçıq qalmışdır. Buna baxmayaraq, həmin dövrdə yaradılmış elmi irs sonrakı nəsil tədqiqatçılar üçün möhkəm nəzəri baza formalaşdırmışdır. Beləliklə, I Türkoloji Qurultayın tədqiq tarixinin birinci mərhələsi Azərbaycan və ümumtürk filologiyasının inkişafında həm elmi yüksəliş, həm də faciəvi itkilərlə müşayiət olunan mürəkkəb və əhəmiyyətli bir mərhələ kimi qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. I Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı. Bakı şəhəri, 15 fevral, 2016-cı il

2. I Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı, Bakı şəhəri, 18 fevral, 2016-cı il

3. Səzidi X. Yeni əlifba yollarında əsgi xatirə və duyğuları, Bakı, 1929.
4. Zeynalov F. Türkologiyanın əsasları, Bakı, 1981
5. 1926-cı il Bakı Türkoloji Qurultayı. Stenoqram materialları Biblioqrafiya və fotosənədlər. Ruscadan tərcümə, Ön söz və şərhlərin müəllifləri K.V.Nərman oğlu. Ə. Ağakişiyev. Bakı, Çinar çap, 2006.
6. Çobanzadə B. İstilah terminoloji işlər. "Azərbaycan öyrənmə yolu", 1930. №4-5.
7. Çobanzadə B. Yeni Türk əlifbasının məcburi tətbiqi haqqında Azərbaycan MİK və XKS qərarı. "Şura kütləçisi" 1928. №78
8. Çobanzadə B. Dilin fənn və sənət olaraq tədrisi "Maarif işçisi" jurnalı 1925, №1
9. Çobanzadə B. Azərbaycan imla konqresi. "Maarif işçisi" jurnalı, 1927, №10.
10. Babayev A. Elimizin və elmimizin soyqırımı I kitab, Bakı, 2003.
11. Babayev A. I Türkoloji Qurultay və Azərbaycanda türkologiya, Bakı, Elm, 2016.
12. Hacıyev T.İ. I Türkoloji Qurultayda ədəbi dil məsələsi. "Bakü Türkoloji Konqresinin 70 yıl dönümü toplantısı, 29-30 Kasım, 1996.

ABSTRACT

The early twentieth century represents a significant period marked by profound transformations in the scientific, cultural, and social life of the Turkic peoples. One of the most remarkable events of this era was the First Turkological Congress held in Baku in 1926. The Congress is regarded as a turning point in the history of Turkological thought due to its role in promoting the scientific study of Turkic languages and addressing issues such as a common alphabet and orthography, terminology, literary language, and education. This article examines the first stage in the historiography of the First Turkological Congress (1926–1960) and analyzes how the ideas and resolutions of this major scholarly forum were developed and implemented in the post-congress period through concrete facts and prominent figures. Against the background of the scholarly activities of eminent researchers such as Bekir Chobanzade, A. N. Samoylovich, Vali Khuluflu, Khalid Said Khodjaev, Abdulazal Demirchizade, Mammadağa Shiraliyev, and Mukhtar Huseynzade, the impact of the Congress on Azerbaijani and pan-Turkic philology is demonstrated. At the same time, the damage inflicted on the academic environment and Turkological studies by the Soviet political regime is assessed within its historical context.

Keywords: *First Turkological Congress, history of Turkological thought, new Turkic alphabet, orthography and spelling, Bekir Chobanzade, Azerbaijani linguistics, Soviet-era Turkology.*

АННОТАЦИЯ

Начало XX века является важным этапом, характеризующимся глубокими преобразованиями в научной, культурной и общественной жизни тюркских народов. Одним из наиболее значимых событий этого периода стал I Тюркологический съезд, состоявшийся в Баку в 1926 году. Съезд рассматривается как переломный момент в истории тюркологической мысли, поскольку на нём были поставлены и обсуждены вопросы научного изучения тюркских языков, создания общего алфавита и орфографии, терминологии, литературного языка и образования. В статье исследуется первый этап историографии I Тюркологического съезда (1926–1960 гг.), анализируется, каким образом идеи и решения этого крупного научного форума получили дальнейшее развитие в послесъездовский период на основе конкретных фактов и персоналий. На фоне научной деятельности таких выдающихся учёных, как Бекир Чобанзаде, А. Н. Самойлович, Вали Хулуфлу, Халид Саид Ходжаев, Абдулазал Демирчизаде, Маммадага Ширалиев и Мухтар Гусейнзаде, показано влияние съезда на развитие азербайджанской и общетюркской филологии. Одновременно в историческом контексте оценивается урон, нанесённый научной среде и тюркологическим исследованиям советским политическим режимом.

Ключевые слова: *I Тюркологический съезд, история тюркологической мысли, новый тюркский алфавит, орфография и правописание, Бекир Чобанзаде, азербайджанское языкознание, тюркология советского периода*.

Əbülfəz QULİYEV*

MƏHƏMMƏD AĞA ŞAHTAXTLININ YENİ ƏLİFBA LAYİHƏSİ İLƏ BAĞLI YAZDIĞI BİR MƏQALƏ HAQQINDA

XÜLASƏ

Görkəmli maarifçi naşir və ədib Məhəmməd ağa Şahtaxtılı xalqın maariflənməsində təhsil və əlifbanın rolunu xüsusi olaraq qiymətləndirirdi.Hələ 1914-cü ildə M.Şahtaxtlının fəaluyyətindən bəhs edən Avropa alimləri onun 4 əlifba layhəsinin olduğunu göstərirdilər.Azərbaycan Xalq Cümhuriyyəti dövründə onun tərtib etdiyi yeni əlifba layihəsi parlamentə təqdim olunan əsas layihələrdən biri idi.Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ilin iyulunda yaradılan Yeni Türk Əlifba Komitəsinin əsas üzvlərindən biri də M.Şahtaxtlı idi.Əlifba məsələsi ilə məşğul olanlar iki cəbhəyə ayrılmışdı. 1.İslahatçılar. 2. Latınçılar.

Görkəmli dövlət xadimi N.Nərimanovun başçılıq etdiyi latınçıların sırasında görkəmli dilçi M.Şahtaxtlı da var idi. Bu yaxınlarda biz arxivdə Yeni Türk Əlifba komitəsinin sənədləri içərisində M.Şahtaxtlının "Müsəlman dünyasında latın əlifbası " adlı 19 səhifəlik məqaləsinə rast gəldik.Həmin məqalədə makina yazısı ilə əlifba layihəsinin tam mətni ətraflı şəkildə şərh olunmuşdur.

Açar sözlər: *Məhəmməd ağa Şahtaxtlı,Türkoloji qurultay,dilçilik, əlifba layihəsi*

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 oktyabr tarixli Sərəncamı türk dövlətləri arasında siyasi-mənəvi bağların daha da möhkəmləndiyi, o cümlədən 2020-ci ildə əldə olunmuş tarixi Zəfərlə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edildiyi bir dövrdə Türk dünyasının birliyinə böyük çağırışın növbəti təzahürüdür. Bu sərəncam türk xalqları arasında tarixi-mədəni birliyin möhkəmlənməsinə, elmi əməkdaşlığın genişləndirilməsinə, humanitar inteqrasiyanın dərinləşdirilməsinə strateji töhfə verir.. Sərəncam I türkoloji qurultayın tarixi əhəmiyyətinin müasir kontekstdə yenidən dəyərləndirilməsi üçün elmi əsasları formaşdırır. Sərəncamda göstərildiyi kimi Birinci türkoloji Qurultay milli oyanış prosesində mühüm rol oynamış,bu elmi-mədəni irs müasir tədqiqat istiqamətləri üçün fundamental baza yaratmışdır. Bu qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir.131 türkoloqun təmsil olunduğu bu elmi məclisdə türk xalqlarının gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, eyni zamanda latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Qurultayın əsas problemi olan əlifba məsələsi ondan xeyli əvvəl, Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlyaraq uzun müzakirələrin mövzusu olmuşdur.Bu müzakirələrdə görkəmli maarifçi və dilçi alim M.Şahtaxtlı da fəal iştirak etmişdir. Məhəmməd ağa Şahtaxtlı 1918-1922-ci illərdə Bakı şəhərində yaşamışdır. O illərdə Moskva və Peterburqda məskunlaşıb oradakı mərkəzi qəzetlərdə çalışan böyük ədib müstəqil Azərbaycan dövlətinin qurulmasını ürəkdən alqışlamış və Azərbaycana gəlib hökumətin maarif işlərinə kömək etmək istəmişdir. Bu illərdə Məhəmməd ağa Şahtaxtlının Azərbaycanda universitet yaradılması istiqamətində layihələr hazırlaması və bu layihələri yuxarı dairələrə təqdim etməsi və bu təhsil ocağının qurucularından biri kimi ilk azərbaycanlı professor kimi burada çalışması rəsmi sənədlərdə göstərilmişdir [6, s. 29].

Akademik İsa Həbibbəylinin son axtarışları müəyyən etmişdir ki, 1921-1922-ci illərdə bir müddət böyük maarifçi (21.XII.1921-ci il tarixdən 20.VII. 1922-ci il tarixədək) Azərbaycan Sovet Respublikasının Xalq Komissarlar Sovetinin sədri N.Nərimanovun xüsusi işlər üzrə müşaviri vəzifəsində çalışmışdır. Məhəmməd ağa Şahtaxtlı müşavir kimi Bakıda Şərq xalqlarının qurultayının keçirilməsinin əsas təşkilatçılarından biri olmuş, 5 sentyabr 1922-ci ildə kollegiya üzvü seçilmişdir. Sonra Məhəmməd ağa

* AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru. Email:ebulfez1950@mail.ru

Şahtaxtlı N.Nərimanovun təşəbbüsü ilə Moskvada Şərq Xalqlarının Kommunist Universitetində mühaziraçi-tərcüməçi vəzifəsinə göndərilmişdir. O, burada işlədiyi müddətdə İ.Stalinin "Seçilmiş əsərləri"ni Osmanlı türkcəsinə çevirərək nəşr etdirmiş, Buxarinin əsərlərinin Şərq dillərinə tərcüməsi işi ilə məşğul olmuşdur. Bakıda Şərq xalqlarının I qurultayında iştirak edərkən Məhəmməd ağa Şahtaxtlını yaxından tanımaq imkanı əldə edən Şərq Xalqları Kommunist universitetinin rektoru prof. Pavloviç onun fəaliyyətinə hörmətlə yanaşmış və alim 25.I.1923-cü il tarixədək bu universitetdə işləmişdir. Moskvada olarkən o, Azərbaycan dilində nəşr olunan "Qızıl Şərq" jurnalının redaksiya heyətinin üzvü olmuş və bu orqanda bir neçə məqalə çap etdirmişdir [4, s. 41-42].

Məlum olduğu kimi, hələ Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə əlifba məsələsi aktuallaşmağa başlamışdı. Bu illərdə Məhəmməd ağa Şahtaxtlı latın qrafikalı əlifba hazırlamışdı. Onu da qeyd edək ki,sovet hakimiyyətinin qurulması ilə latınçıların sırası daha da genişlənməyə, tərəfdarlarının sayı artmağa başladı.Qeyd etmək lazımdır ki, əlifba məsələsi ilə məşğul olanlar iki cəbhəyə, 2 qrupa ayrılmışdı. I qrupun nümayəndələri islahat yolu ilə ərəb əlifbasının saxlanması fikrini müdafiə edirdilər. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1919) əlifba layihəsi bəyənilən Abdulla bəy Əfəndizadə "Azərbaycan" qəzetində ərəb yazısı üzərində islahat aparmaq yolu ilə düzəltdiyi yeni əlifba layihəsindən bəhs edən silsilə məqalə çap etdirmişdi [7]. Rza Ayazlı isə "K voprosu o reforme tyurkskoqo alfavita" adlı məqaləsində latın əlifbasına keçməyin ən doğru yol olacağını və bunun Avropa ilə mədəni yaxınlaşma istiqaməində mühüm əhəmiyyətə malik olacağını göstərirdi [8].

Latın əlifbası tərəfdarları da başda N. Nərimanov, S. Ağamalıoğlu, T. Şahbazi, C. Məmmədquluzadə, Ü.Hacıbəyli, F. Ağazadə Şərqli, eləcə də M. Şahtaxtlı bir cəbhədə birləşmişdilər və bunları latınçılar adlandırırdılar. Məlumdur ki, əlifba məsələsi Azərbaycanda bolşevik hakimiyyətinin elə ilk illərindən etibarən gündəliyə çıxarılmışdı. Belə ki, 1922-ci ilin mart ayında bu məsələlərə aydınlıq gətirmək üçün xüsusi komissiya yaradıldı. Bu komissiya həmin ilin iyul ayında Yeni Türk Əlifba Komitəsinə çevrildi. YTƏK-nin təklifi ilə Azərbaycan MİK 1922-ci ilin 20 oktyabrında idarə və müəssisələrdə kargüzarlıq işlərinin yeni və köhnə əlifba ilə paralel aparılması haqqında dekret verdi. Həmin ildən C.Məmməd-quluzadənin baş redaktorluğu ilə latın əlifbasında "Yeni yol" qəzeti nəşr olunmağa başlayır.

Bu əlifba layihəsi məsələsini ortaya atmaqda sovet hakimiyyəti orqanlarının, onun rəhbərlərinin məkrli niyyətləri var idi. Bu məsələni ortaya atmaqla hakimiyyət bir sıra siyasi məqsədlər güdürdü. Hər şeydən əvvəl, guya o əməkçi insanların mənafeyini müdafiə edir görüntüsü yaratmaqla xalqı öz tərəfinə çəkmək istəyirdi. Qeyd edək ki, bu latın qrafikası əsasında tərtib olunmuş Yeni Azərbaycan əlifbası heç də mükəmməl olmayıb bir sıra nöqsanlara malik idi. Çünki latın əlifbasının özündə belə dilimizin sait və samitlərini tam şəkildə göstərən hərfi işarələr yox idi. Bundan əlavə, hər bir qrafik işarənin bir neçə forması (alloqrafı) olmalıdır.Bu qrafemlərin və alloqrafların nə kimi şəkilləri olmalıdır, bu şəkillər yazı işini çətinləşdirməzmi və s.problemlər yalnız yüksək ixtisaslı alimlər tərəfindən həll edilə bilərdi [9, s. 187].

Məhəmməd ağa Şahtaxtlı hakimiyyətin əlifbanı dəyişmək ideyasının siyasi mahiyyətinə varmadan latın əlifbasının alovlu tərəfdarı kimi çıxış edirdi. Çox maraqlıdır ki, onun "Şərq latın əlifbası" adlandırdığı layihə ilə bağlı istər çap olunmuş, istər çap olunmamış bütün məqalələri milli ruhdadır. Müəllif bir mütəxəssis kimi yeni qrafikada rus hərfi işarələrindən istifadə olunmasına qarşı çıxır, bu işdə latın əlifbasında hərflərin azlığına görə onun da olduğu kimi qəbul olunmasını doğru hesab etmir, mənfi yanaşır, bu işdə ən yaxşı mənbənin esperanto əlifbası olduğunu irəli sürür, yeni latın qrafikalı əlifbanın ərəb, fars, türk və Azərbaycan dillərini əhatə etməli olduğunu göstərirdi.Bu ideyalar isə sovet milli siyasəti ilə qətiyyən uyğun gəlmirdi.

Son dövrlərdə Respublika Dövlət Arxivində Yeni Əlifba Komitəsi sənədləri içərisində alimin "Müsəlman dünyasında latın əlifbası" adlı (Latinskaya azbuka v musulmanskom mire) rusca 19 səhifəlik məqaləsinin əlyazmasına təsadüf etdik. Sənəddə bu məqalənin 1922-ci ilin aprel ayında qələmə alındığı göstərilmişdir [10].

Müəllif məqalənin əvvəlində yeni latın qrafikasına keçməyin zəruriliyini, vacibliyini əsaslandırmağa çalışır.Bu əlifbanı qəbul edərkən onun çatışmayan hərflərinin yerinə rus əlifbasındakı hərflərdən istifadə olunmasını məqbul variant hesab etmədiyini vurğulayır.Bunlarla yanaşı Latın əlifbasının özünün də qüsursuz olmadığını qeyd edərək bu məqamda ancaq esperanto əlifbasının əlverişli olduğunu və

Avropadakı Fonetika cəmiyyəti tərəfindən esperanto yazısının inkişaf etdirildiyini göstərir. Çünki esperanto yazısında latın əlifbasına yeni hərflər əlavə edilmədən hərflərin üzərinə diakritik işarələr əlavə etməklə yeni danışıq səslərini ifadə etmək imkanları daha genişdir. Müəllif məqaləsində esperanto əlifbasındakı hərfi işarələrin cədvəlini də verməyi məqsədəuyğun hesab etmişdir. Müəllifin də qeyd etdiyi kimi, bu əlifbada latın qrafikasındakı q,w,x,y hərfi işarələri esperanto əlifbasına daxil edilməmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, beynəlxalq yazı sistemləri onu hələ XIX əsrin sonlarından etibarən maraqlandırmışdır. Belə ki, o, ”Poezdka v Baku” məqaləsində volapyükdən bəhs etmişdir [11]. M.Şahtaxtlı nə üçün esperanto əlifbasına üstünlük verirdi?Nədir esperanto və nə vaxt yaranmışdır? Esperanto haqqında ilk nəşr 1887-ci ildə Polşa Respublikasının paytaxtı Varşava şəhərində yaşamış doktor L.Zamenqof (1859-1917)tərəfindən gerçəkləşmişdir. Hələ uşaqlığında o bütün insanlar üçün ümumi dil yartmaq fikrinə düşmüşdür. Ona görə də o, bütün ömrü boyu bəzən təkbaşına, bəzən dostları ilə bu məqsədə çatmaq üçün səy göstərmiş,cəhd etmişdir. O, özü bu dili 1887-ci ildə “İnternaçia” (beynəlxalq) adlandırmışdır. ”Esperanto”(ümid edən) adı isə ilk dövrlərdə onun ilk broşüralarını çap etdirdiyi psevdonim olmuşdur. Bu dil neytral mahiyyətli olub heç bir irqə,millətə,sinfə mənsub deyil.Eyni zamanda esperanto digər bəşəri canlı dillər kimi ifadəli bir dildir və öyrənmək üçün çox asandır.

Esperanto əlifbası latın əlifbasına (q, w, x, y xaric) bəzi hərfi işarələrin əlavəsi ilə (ĉ, ĝ, ĥ, ĵ, ŝ, ŭ)yaradılmışdır.Esperanto mütəxəssisləri üstü çizgili hərfləri çətinlik yaratmasın deyə hərf birləşmələri ilə dəyişməyi də mümkün hesab edirlər.

Esperantonun əsasını tərcüməsiz anlaşılan beynəlmiləl sözlər və 16 əsas qrammatik qayda təşkil edir. İndiyə qədər esperanto dilində xeyli miqdarda ədəbi-bədii və elmi ədəbiyyat nəşr olunmuşdur ki,bunları bir yerə toplasan böyük bir kitabxana olar.İnternet saytlarında belə bir virtual kitabxananın mövcud olması haqqında məlumatlara rast gəlirik (bax.http://www.webcom.com/~donh/ esperanto.html и Виртуальную Эсперанто-Библиотеку Мартина Вайхерта http://www.esperanto.net/veb/ – soc.culture.esperanto).

M.Şahtaxtlı alman əlifbasındakı ö,ü,ä hərfi işarələrin yeni Azərbaycan əlifbasına alınmasını məqbul hesab edir. Müasir yazımızdakı q hərfini g ilə işarə edir. Müasir əlifbamızda gecə şəklində yazılan sözdəki hərfləri ğeğä şəklində yazmağı təklif edir,ı hərfini i hərfinin altında işarə qoymaqla təqdim edir. Beləliklə, müəllif latın qrafikalı Azərbaycan yazısı üçün 36 (apostrof və tire ilə birlikdə) hərfi işarə müəyyən etmişdir. Onu da qeyd edək ki, müəllifin təklif etdiyi latın qrafikası müasir Azərbaycan latınından çox cüzi şəkildə fərqlənir. Bu müsbət xüsusiyyətlərinə baxmayaraq, Məhəmməd ağa Şahtaxtlının Yeni Əlifba Komitəsinə təqdim olunmuş əlifba layihəsi rəyə göndərilmiş, I rəyçi RSFSR Şərqşünaslıq İnstitutunun rektoru Qismətullin bu layihəni orijinal və mədəni-ictimai baxımdan əhəmiyyətli bir iş adlandıraraq məqbul qiymətləndirmişdir. Layihəyə verilən II rəy isə mənfidir (rəyçinin F.Ağazadə olduğunu ehtimal edirik-Ə.Q). Rəyçi apostrof və səslərin uzunluğunu bildirmək üçün tire işarəsindən istifadə edilməsini qüsurlu hesab edərək bu layihəni yararsız adlandırmışdır [12, s. 94].

Eyni nöqsanlara F.Ağazadənin məqaləsində də təsadüf edilməsinə əsaslanaraq ehtimal etmək olar ki,mənfi rəyi yazan da o özü olmuşdur [5]. Həmin məqalədə M.Şahtaxtlının mətbuatda əlifba layihəsi hazırlaması və bu sənədi Yeni Əlifba Komitəsinə təqdim etməsi və həmin orqan tərəfindən laqeydliklə qarşılanması barədə çıxış etdiyi göstərilir. F.Ağazadə əvvəlcə böyük alimi “əski latınçılarımızdan birincisi” adlandıraraq tərifləsə, də sonra onu tənqid etmiş, əsərin güya çox nöqsanlı bir layihə olduğunu iddia etmişdir. Müəllif məqaləsinin sonunda M.Şahtaxtlının 4 şərq xalqının dili üçün vahid layihə hazırlamasını yolverilməz, qəbahətli bir hərəkət kimi qiymətləndirərək: “Azərbaycan xalqına ərəb, fars əlifbası deyil, doğma əlifbası lazımdır” - deyə irad tutur [5].

Əlbəttə, böyük ədib və alim Məhəmməd ağa Şahtaxtlı bu haqsız iradları cavabsız qoymamış, elə qəzetin növbəti nömrəsində F.Ağazadəyə tutarlı dəlillərlə əsaslandırılmış cavab vermişdir [13].

Məhəmməd ağa Şahtaxtlının tədqiqat dairəsi daha geniş idi. Təsadüfi deyil ki, Moskvada yaşayarkən redaksiya şurasının üzvü olduğu “Qızıl şərq” məcmuəsində çap etdirdiyi məqalələrindən birində də Yeni Əlifba Komitəsinin işindəki nöqsanları faktlarla açıb göstərmiş, əlifba layihəsi hazırlamaq işində komitəçilərin təcrübəsiz və səriştəsiz olduqlarını tənqid etmişdir. O, komitəçiləri nəzərdə tutaraq yazırdı: “Görünür ki, hərc-mərc yapmağa bizim əlifbaçı ağalarda məxsus həvəs var...Əlifbalarına latın əlifbası adını

verirlər də düzəltdikləri əlifba doğrudan-doğruya rus ilə latın hərflərindən alınma və hər bir qaydanın xaricində yapılmış nəzm-nizamsız bir məxlutədir...Biz öylə bir latın hərfləri ilə yazı yazmaq istiyoruz ki, onu işə tətbiq etdikdən sonra yazıca bizimlə mədəni millətlər arasında bir müştərəklik peyda olsun. Komitənin əlifbası isə hər bir cəmiyyətə (birləşməyə-Ə.Q.) felən mane olur. Böylə bir əlifbanın kəndi-kəndinə edilməyi, məhal qəbulə keçməyi namümkün olduğu kibi hökumət tərəfindən zoraki yürüdülməsi də dövlətin sərf edəcəyi əmək və məxaric boş yerə işlənib onun nəticəsində peşimanlıq hasil olacağı şəksizdir" [14, s. 100-103].

Dövlət dairələrində açıqfikirli bir elm adamı olan M.Şahtaxtlı və onun əlifba fəaliyyəti haqqında mənfi fikir formalaşdırılmışdı. Hökumətin siyasi məqsədi və tutduğu hərəkət xətti məlum olduğu üçün onun bu ittihamlarına məhəl qoyan yox idi. Əvəzində isə bədxahları vətənpərvər və milli ideallar üçün çalışan, bir Avropalı nəcibliyi ilə həqiqəti söyləməkdən çəkinməyən böyük alimin dövlətdən aldığı fərdi təqaüdün dayandırılmasına müvəffəq oldular. Bu məqamlar son zamanlarda arxivdən tapdığımız böyük alimin yazdığı ərizədə də öz əksini tapmışdsır [15]. Komitəçilərin təklif etdiyi və qəbul etdirdiyi layihənin latın qrafikalı müasir əlifbamızla müqayisəsi də M.Şahtaxtlının bu məsələdə tamamilə haqlı olduğunu göstərməkdədir.

ƏDƏBİYYAT

1. Məhəmməd ağa Şahtaxtlı. Seçilmiş əsərləri, Toplayanı, tərtib və ön sözün müəllifi akad.İsa Həbibbəyli, Bakı: Çaşıoğlu, 2006, 432 s.
2. M.F.Axundov. Seçilmiş fəlsəfi əsərləri, Bakı: Azərnəşr, 1982, 302 s.
3. Ə.Mirəhmədov. M.F.Axundov və Volney //"Elm və həyat" j, Bakı:1970, NO:6, s.15
4. İsa Həbibbəyli. Məhəmməd ağa Şahtaxtlı:tale yolları və xidmətləri//Məhəmməd ağa Şahtaxtlı: taleyi və sənəti, Bakı: Nurlan, 2008, 49 s.
5. F.Ağazadə. Yoldaş Məhəmməd ağa Şahtaxtlının səhvləri //"Yeni yol" qəzeti, 23, V. 1923, NO: 16
7. А.Б.Эфендиев. К реформе тюркского алфавита //"Azərbaycan", 1919, NO: 32, 12 fevral
8. Рза Аязли "К вопросу о реформе тюркского алфавита//"Знамя труда", 1919, 11 июня
9. A.Babayev.Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Təhsil,2008, 560 s.
10. ARDA, f.103, siyahı 1, iş 1
11.М.Шахтахтинский.Поездка в Баку//"Новоеобозрение".Тифлис, 28.V,1891, №:2556
12. К.Зейналова. Неизвестная рукопись М.Шахтахтинского о реформе алфавита// СТ, 1971, №:5.
13. Məhəmməd ağa Şahtaxtlı. Yeni türk əlifbası ilə yazılan məqalə münasibətilə//"Yeni yol" qəzeti, 1923, NO:17
14. Məhəmməd ağa Şahtaxtlı. Azərbaycan əlifbasının tətbiq etməyə başladığı "latın" əlifbası münasibətilə// "Qızıl şərq" jurnalı,yanvar-fevral, Moskva, 1923, s. 100-103
15. ARDA fond 1119, siyahı 1, iş 562, vərəq 58

ABULFAZ GULIYEV

ABOUT AN ARTICLE WRITTEN ON MEHEMMED AĞA ŞAHTAXTLI'S NEW ALPHABET PROJECT

The prominent enlightener, publisher, and writer Məhəmməd Ağa Şahtahtlı highly valued the role of education and the alphabet in the enlightenment of the nation. As early as 1914, European scholars who wrote about M. Shahtahtlı's activities noted that he had four alphabet projects. During the period of the Azerbaijan Democratic Republic, the new alphabet project he prepared was among the main proposals submitted to the parliament. After Soviet rule was established in Azerbaijan, M. Shahtahtlı became one of the key members of the New Turkic Alphabet Committee, created in July 1922. Those dealing with alphabet reform were divided into two groups:1.Reformists.2.Latinists

Among the Latinists led by the prominent statesman N. Narimanov was the distinguished linguist M. Shahtaxtlı. Recently, while examining documents of the New Turkic Alphabet Committee in the archives, we came across a 19-page article by M. Shahtahtlı titled "The Latin Alphabet in the Muslim World." In this article, the full text of the alphabet project is explained in detail in typewritten form.

***Key words**: Şahtahtlı, Turcological Congress , linguistics, alphabet project вв*

АБУЛЬФАЗ ГУЛИЕВ

О СТАТЬЕ, НАПИСАННОЙ МЕХМЕД АГА ШАХТАХТИНСКИМ О ПРОЕКТЕ НОВОГО АЛФАВИТА

Выдающийся просветитель, издатель и литератор Мехмед ага Шахтахтинский придавал особое значение роли образования и алфавита в просвещении народа. Ещё в 1914 году европейские учёные, освещавшие деятельность М. Шахтахтинского, отмечали, что он разработал четыре проекта алфавита. В период Азербайджанской Демократической Республики подготовленный им проект нового алфавита был одним из основных, представленных в парламент. После установления советской власти в Азербайджане М. Шахтахтинский стал одним из ключевых членов Комитета нового тюркского алфавита, созданного в июле 1922 года. Люди, занимавшиеся вопросами алфавита, разделились на две группы: 1.Реформисты 2.Латинисты

Среди латинистов, возглавляемых выдающимся государственным деятелем Н. Наримановым, был и известный лингвист М. Шахтахтинский. Недавно мы обнаружили в архиве среди документов Комитета нового тюркского алфавита 19-страничную статью М. Шахтахтинского под названием «Латинский алфавит в мусульманском мире». В этой статье полный текст проекта алфавита подробно разъясняется в машинописном варианте.

Ключевые слова:*Мухаммед ага Шахтахтинский, Тюркологический конгресс ,языкознание, проект алфавита*

Aynel MEŞADİYEVA*

GELECEK ZAMAN SIFAT-FİİLLERİNİN İŞLEVSEL DÖNÜŞÜMÜ ÜZERİNE KARŞILAŞTIRMALI BIR İNCELEME

ÖZET

Çağdaş Türk lehçelerinde sıfat-fiil eklerinin karşılaştırmalı biçimde ele alınması, Türkolojinin güncel ve öncelikli araştırma alanlarından biridir. Bu bağlamda, özellikle *-ası/-esi* gelecek zaman sıfat-fiil ekinin lehçeler ve ağızlar arasındaki kullanım farklılıklarının incelenmesi, söz konusu ekin ortak ve ayırt edici niteliklerini ortaya koymak açısından büyük önem taşımaktadır.

Her ne kadar sıfat-fiillerin temel işlevleri Türk lehçelerinin gramerlerinde ele alınmış olsa da, *-ası/-esi* ekinin metin içindeki işlevsel kullanımları yeterince derinlikli biçimde araştırılmış değildir. Oysa bu ek, anlamsal ve sözdizimsel bakımdan çoğu zaman benzer özellikler sergilemekle birlikte, çeşitli Türk lehçelerinde ve yerel ağızlarda farklı görevler üstlenebilmektedir.

Bu araştırmada, Türk lehçeleri ve ağızlarında *-ası/-esi* sıfat-fiil ekinin alışılmış işlevlerinin dışına çıkan kullanımları, zengin dil malzemesi eşliğinde ortaya konulmaya çalışılmıştır. İncelemeler göstermektedir ki, *-ası/-esi* eki bazı lehçelerde yalnızca gelecek zaman anlamı taşımamakta, aynı zamanda mastar işlevinde ya da zaman ilişkisi kuran bir yan cümle unsuru olarak da kullanılabilmektedir.

Örneğin, Çuvaş Türkçesinde ve Tatar Türkçesinin Zakazan, Podberezensk ve Nijnekamsk-Kryaşensk ağızlarında *-ası/-esi* eki çoğunlukla mastar görevinde karşımıza çıkmaktadır. Benzer bir durum Türkiye Türkçesinin Kütahya ağzında da gözlemlenmekte; burada söz konusu ek kimi bağlamlarda mastar işleviyle, kimi durumlarda ise *-ınca* anlamına yakın bir görevle kullanılmaktadır. Bu çeşitlilik, *-ası/-esi* ekinin tarihsel gelişimi ve işlevsel genişlemesi açısından dikkat çekici veriler sunmaktadır.

Çalışmada Türkiye Türkçesi ağızları başta olmak üzere Türkmen, Tatar, Çuvaş ve diğer bazı Türk lehçelerine ait metinlerden yararlanılmış; özellikle ağız malzemeleri üzerinden *-ası/-esi* ekinin farklı kullanımları değerlendirilmiştir.

Bu çalışmanın amacı, Çağdaş Türk lehçelerinde ve ağızlarında *-ası/-esi* sıfat-fiil ekinin işlevsel çeşitliliğini incelemek, söz konusu ekin kullanım alanlarını ortaya koymak ve ekin yapı ile oluşum özelliklerine ışık tutmaktır.

Anahtar kelimeler: *Türk lehçeleri, ağızlar, sıfat-fiil, ek, mastar işlevi, kullanım özellikleri*

---

*Azerbaycan Milli Bilimler Akademisinin Nesimi adına Dilbilim Enstitüsünün Genel Sekreteri. *Profesör, Doktor. Email:*aynel.meshadiyeva@mail.ru

Türk dillerinde sıfat-fiil ekleri, fiil kök ve gövdelerinin zaman, kip ve anlam özelliklerini yansıtan en önemli biçimbirimsel unsurlar arasında yer almaktadır. Bu ekler, yalnızca dilin söz dizimsel yapısını değil, aynı zamanda tarihsel gelişim sürecini, anlamsal değişmelerini ve işlevsel dönüşümlerini de ortaya koymaktadır. Özellikle bazı sıfat-fiil ekleri, zamanla kullanım sıklığını ve temel anlamlarını yitirmiş; buna karşılık pleonastik yapılar aracılığıyla yeniden işlevlendirilmiştir. Bu tür yapılar, Türk dillerinde eklerin anlam canlandırma ve pekiştirme süreçlerini anlamak açısından dikkat çekici örnekler sunmaktadır.

Bu bağlamda, Türk dil tarihinin erken dönemlerinden itibaren izlenebilen *-ası/-esi* sıfat-fiil eki, hem yapısal bileşimi hem de anlamsal evrimi bakımından özel bir konuma sahiptir. Dîvânu Lugâti't-Türk'te gelecek zaman sıfat-fiili işleviyle karşımıza çıkan bu ek, farklı Türk dillerinde ve lehçelerinde zamanla çeşitli sesbilimsel varyantlar kazanmış, kimi dillerde üretkenliğini büyük ölçüde yitirirken kimi alanlarda kalıplaşmış kullanımlar hâlinde varlığını sürdürmüştür. Ek bünyesindeki unsurların kökeni, işlev kaymaları ve pleonazm yoluyla yeniden anlam kazanması, Türkçenin biçimbilimsel dinamizmini açık biçimde yansıtmaktadır.

Bu çalışma, *-ası/-esi* sıfat-fiil ekinin etimolojik yapısını, tarihsel gelişimini ve Türk dillerindeki işlevsel dağılımını incelemeyi amaçlamaktadır. Mahmud Kâşgarlı'dan çağdaş Türk lehçelerine uzanan süreçte ekin anlam ve kullanım alanlarındaki değişmeler ele alınarak, pleonastik yapıların Türk dillerindeki rolü ortaya konulacaktır. Böylece, sınırlı kullanıma sahip olmasına rağmen tarihsel ve dilbilimsel açıdan büyük önem taşıyan bu sıfat-fiil biçiminin Türk dilleri içindeki yeri bütüncül bir bakış açısıyla değerlendirilecektir.

-Ası/-esi ekli gelecek zaman sıfat-fiilinin ayrıntılı etimolojik çözümlemesi, Türk dillerindeki sıfat-fiillerin sözcüksel-anlamsal ve biçimbilimsel yapısının özelliklerini ortaya koymaya yardımcı olmaktadır. Türk dillerinin biçimbilimsel yapısına ait çeşitli unsurların karşılaştırmalı-tarihsel incelenmesi, Türkolojinin güncel ve önemli sorunlarından biridir; zira bu unsurların karşılaştırmalı-etimolojik ve karşılaştırmalı-tarihsel analizi, Türk dillerinin biçimbilimsel ve sözcüksel bileşimi ile tarihsel geçmişine ilişkin pek çok meseleyi aydınlatabilir.

Türk dillerinde sıfat-fiillerin karşılaştırmalı açıdan incelenmesi, her bir sıfat-fiil biçiminin uzun bir tarihsel sürecin sonucu olarak ortaya çıkan çok anlamlılığını ortaya koymaktadır.

-Ası/-esi ekli gelecek zaman sıfat-fiilli, XI. yüzyılda Mahmud el-Kâşgarlı tarafından da kaydedilmiş olup, günümüze kadar Türk dillerinde varlığını sürdürmektedir.

Türk dillerinde, özellikle Kıpçak grubu Türk dillerinde *-ası/-esi* ekli sıfat-fiilin kullanım alanı oldukça sınırlıdır. Bu hususta A.M. Şerbak'ın şu değerlendirmesi dikkat çekicidir: "Gerek Oğuz gerekse bazı Kıpçak dillerinde barası tipi sıfat-fiil önemli bir yer tutmaktadır; ancak özellikle Kıpçak dillerinde işlev alanının belirgin biçimde daraldığı ve çoğunlukla kalıplaşmış dilbilgisel birleşmelerde kullanıldığı görülmektedir" [15, s.171].

Türkoloji literatüründe *-ası/-esi* sıfat-fiil ekinin kökenini açıklamaya yönelik çeşitli teori ve hipotezler bulunmaktadır. En yaygın hipotezler şunlardır: -a/-e yardımcı fiiline, fiilden isim yapan -sı/-si ekinin eklenmesi yoluyla [7, § 19]; -a/-e zarf-fiil eki + üçüncü tekil kişi iyelik eki -sı/-si; -a/-e zarf-fiil eki + isimden isim yapan -sıg/-sı eki [18, s.188]; fiilden isim yapan -gu/-gü eki + -sı/-si [2, s.793]; fiilden isim yapan -gı eki + şart kipi eki -sa [8, 331];

Çuvaşçada gelecek zaman ihtimal isimleri yapan *-as/-es* eki + üçüncü kişi yüklem eki *-i/-ı*; fiilden isim yapan *-ga/-ge* > *-a/-e* eki + isimden isim yapan *-sı/-si* eki [17, s.57-58].

Görüldüğü gibi, yukarıda belirtilen *-ası/-esi* ekinin kökenine ilişkin hipotezlerin ortak noktası, bu ekin iki ekin birleşmesiyle oluşmuş olmasıdır. Bunlardan ilki, kökeni eski Türkçedeki gelecek ve gereklilik zamanını ifade eden *-ga/-ge* sıfat-fiil ekine dayanan *-a* ekidir.

-Ga/-ge ekli sıfat-fiillere Eski Anadolu Türkçesi metinlerinde rastlamak mümkündür: *dirilgesi, ölgesidür* vb. [1, s.130].

-Ası/-esi sıfat-fiil ekinin birinci unsurunun etimolojik yorumu kuşku götürmezken, ikinci unsurunun kökeni konusunda oldukça çelişkili görüşler bulunmaktadır.

Bu bağlamda *-sı/-si* unsuru; fiilden isim yapan ek (W. Bang), iyelik eki, isimden isim yapan ek (K.Brockelmann), karşılaştırma eki *-sı/-si* (J. Deny), şart kipi eki *-sa/-se* (N.A.Baskakov, M. Räsänen) olarak değerlendirilmiştir.

H. Edisgun'a göre *-ası/-esi* sıfat-fiil eki, gelecek zaman eki *-ga/-ge* ile iyelik eki *-sı/-si*'nin birleşmesiyle oluşmuştur [3, s.249].

Ancak *-sı/-si* unsurunun iyelik eki olduğu yönündeki bu görüş bizce bazı kuşkular uyandırmaktadır. Z. Korkmaz bu varsayımın temelsizliğine dikkat çekerek *-ası/-esi* ekindeki *-sı/-si* unsurunu iyelik eki olarak değerlendiren görüşler, iyelik eki *-sı/-si* ile *-a/-e* gelecek zaman sıfat-fiil ekinin birleşmesinden oluşan yapı ile, eski yazılı metinlerde görülen *-ası/-esi* sıfat-fiil ekini biçimsel olarak karıştıran varsayımların mevcut olduğu kanaitindedir [5, s.33].

Bu görüşünü desteklemek amacıyla Z. Korkmaz, Oğuz ve Kıpçak yazılı eserlerinden şu örnekleri verir: *Ol arabı ne kılasın – yapacağını bilemedi; Akıbet ne bolasın bilüvirgil: kuşluk yimiş* vb. [5, s.33].

Öte yandan, XIV-XV. yüzyıl Türk yazılı anıtlarında *-a/-e* gelecek zaman ekinin tek başına kullanımında anlam zayıflaması olduğu da bilinmektedir. Bu ekin tek başına kullanımı, zamanla gereklilik, istek, emir ve genel zaman anlamları kazanmaya başlamıştır.

-Ası/-esi ekindeki *-sı/-si* unsurunun isimden isim yapan bir ek olduğu görüşü de Z. Korkmaz tarafından eleştirilmiştir.

Korkmaz'a göre, eski Türkçedeki *-sıg/-sig* ekinden gelişen *-sı/-si* eki, Türkiye Türkçesinde benzerlik, karşılaştırma ve küçültme anlamlı sıfatlar türetmektedir. Bu duruma şu örnek gösterilebilir: *süci < süt+sıg (şarap), ölüsü "ölü gibi", acımsı* vb. [5, s.33-34].

Karmaşık eklerin incelenmesinde yalnızca sesbilimsel ve biçimbilimsel değil, aynı zamanda anlamsal özelliklerin de dikkate alınması gerektiğini vurgulamak gerekir. Bu nedenle *-ası/-esi* ekindeki *-sı/-si* unsurunun isimden isim yapan bir ek olarak değerlendirilmesini biz de temelsiz bulmaktayız.

Bize göre, *-ası/-esi* sıfat-fiil ekinin kökeni meselesi, Z. Korkmaz'ın yorumunda yeterli ve ikna edici biçimde açıklanmıştır.

Korkmaz'a göre bu ek, anlamsal açıdan birbirine yakın iki ekin birleşmesiyle oluşmuştur: *-ga -sıg / -ge sig > -ası/-esi* [5, s.34].

Eski Türkçede *-ga -sıg/-ge -sig* ekleri fiil köklerinden gelecek ve gereklilik zamanlı sıfat-fiiller türeten eklerdir: *sözlemesig söz - söylenmemesi gereken söz* vb. [aynı eser, s.129, 151].

Mahmud Kâşgarlı'nın Dîvânu Lugâti't-Türk adlı eserinde de *-sıg/-sig* ekli sıfat-fiiller görülmektedir. Örneğin: *tansuk nen "hayranlık uyandıran şey*" [11, s.382].

XI. yüzyıldan sonra *-sıg/-sig* ekinin kullanım sıklığı azalmış, ancak ek sonundaki *g* ünsüzünü kaybederek *-sı/-si* biçiminde varlığını sürdürmüştür.

Buna örnek olarak, *sinsi < sin+sıg: barsı yol - gidilmesi gereken yol* şu cümleyi gösterebiliriz [16, s.38].

Dolayısıyla *-ası/-esi* sıfat-fiil ekinin yapısında, fiillerden gelecek ve gereklilik zamanlı sıfat-fiil türeten eski Türkçe *-sıg/-sig* ekinin *-ası/-esi* biçimiyle yer aldığı anlaşılmaktadır.

Mahmud Kâşgarlı'nın *-gu/-gü* ile *-sı/-si* eklerini eşitlemesi de dikkat çekicidir: *bu turgu yir ermes - bu turası yir tegül - burası durulacak yer değildir* vb.

Anlaşıldığı üzere, bu eşitleme, *-sı/-si* ile *-sıg/-sig* ekleri arasındaki etimolojik bağı bir kez daha doğrulamaktadır.

Belirtelim ki, *-ası/-esi* ekinin ilk unsuru olan *-a/-e (<-ga/-ge)* eki, bazı Türk dillerinde kullanım sıklığını ve gelecek zaman anlamını yitirmiştir. Bu anlamın yeniden canlandırılması amacıyla, gereklilik-gelecek zaman sıfat-fiilleri türeten *-sı/-si* eki bu yapıya eklenmiştir.

Bu durum, Türk dillerinde bazı eklerin anlamlarını canlandırmak için pleonazm (eş anlamlı dilbilgisel unsurların birikmesi) yoluna başvurulduğunu göstermektedir.

Z. Korkmaz bu durumu şu sözlerle açıklar: "*Gerçekten de Türkçe, zaman içinde aşınmaya uğrayarak körlenmiş ve kullanıştan düşmüş bulunan bazı eklere, aynı nitelikte daha başka ekler eklemek suretiyle bunların görevini yeniden canlandırma veya daha da kuvvetlendirme usulüne başvurmuş bir dildir. Bu da ek yığılması (pleonasmus) olayları ile gerçekleştirilmiştir*" [5, s.37].

Bu bağlamda Yakutça *tünür/tünürüt/tünürütter*, Eski Anadolu Türkçesi *gelüben, çağrışuban, diyübeni* gibi örnekler verilmektedir. Korkmaz'a göre bu pleonastik süreç *-ası/-esi* sıfat-fiil ekinde de gerçekleşmiştir. Biz de bu hususta aynı kanaati taşımaktayız.

Sonuç olarak, *-ası/-esi* sıfat-fiilinin ilk unsuru *-ga/-ge* > *-a/-e* biçiminde değişmiş ve gelecek/gereklilik anlamı zayıflamıştır. Bu zayıflamanın giderilmesi için Eski Türkçe *-sıg/-sig* > *-sı/-si* eki yapıya eklenmiştir.

Bu sıfat-fiil biçimi, Dîvânu Lugâti't-Türk'te *-acak/-ecek* gelecek zaman sıfat-fiiline denk bir işlev görmektedir: *bu turası yer degil "burası durulacak yer değildir*" [11, s.68].

Bu noktadan sonra, bazı Türk dillerinde ve ağızlarında *-ası/-esi* sıfat-fiil ekinin yapısı ve işlevleri ayrıntılı olarak incelenecektir.

Azerbaycan Türkçesinde *-ası/-esi* sıfat-fiili seyrek kullanılan bir biçimdir ve daha çok konuşma dilinde görülmektedir. Gelecek zaman sıfat-fiili olup çoğunlukla niteleyici görevde kullanılır.

M. B. Askerov'a göre: "*Türkiye Türkçesi ve Azerbaycan Türkçesinde -ası/-esi, -yası/-yesi ekleriyle türetilen sıfat-fiillerin kullanım sıklığı günümüzde önemli ölçüde azalmıştır*" [6, s.180].

M.B. Askerov ayrıca belirtmektedir ki, "Buna karşın canlı konuşma dili ve edebi eserlerde söz konusu sıfat-fiili hem isim hem de sıfat işlevinde kullanılmaktadır": *Xoca Əziz alınasını aldı, satılasını satdı, özünü verdi xəlvət həyətlərin birinə (Koroğlu); Bizim sədrin maşını görəsi gözü yox idi* [6, s.96].

Eski Azerbaycan dilinde *-ası/-esi* sıfat-fiili, çok işlevli olmasının yanı sıra şimdiki zaman, dilek ve gereklilik kiplerini ifade etmekteydi.

Belirtmek gerekir ki, söz konusu sıfat-fiili çağdaş Türkiye Türkçesinde sözdizimsel işlevlerini kaybetmiştir. *-Ası/-esi* sıfat-fiili çağdaş Türkiye Türkçesinde yalnızca donmuş ifadelerde korunmuştur: *Annemi göresim geldi - Annemi görmek istiyorum* vb.

-Ası/-esi sıfat-fiili, Türkiye Türkçesinin ağızlarında da görülmektedir. Örnek olarak, Kütahya ağız ve lehçelerinde *-ası/-esi* eki genellikle gelecek zamanı ifade eder ve aynı zamanda gereklilik ve dilek anlamı taşımaktadır.

Bu bölgedeki ağız ve lehçelerde *-ası/-esi* sıfat-fiil eki çoğunlukla lanetleme ifadelerinde kullanılır: *teneşir pahlayası, hışım inesi* vb.

-Ası/-esi eki, olumsuz *-ma* eki ile birleştiğinde iyi niyet veya temenni anlamı veren deyimlerde kullanılır: *kör olmayası - kör olmaman dileği gibi* vb.

Kütahya ağız ve lehçelerinde söz konusu sıfat-fiil eki *-ınca/-ince* zarf-fiil anlamını da verebilir: *Bu işleri yapasıya… - Böyle işler yapılınca…* vb. [4, s.112].

Bunun yanı sıra, Kütahya ağzında *-ası/-esi* eki bazı durumlarda cümlede *-acak* gelecek, *-mış* geçmiş zaman ve *mamak için* yerine kullanılabilir.

Bu duruma şu örnekler verilebilir: *… o vurulasıyaımış - vurulacakmış - öldürülecek*; *… yere düşesi – düşmüş – yere düşmüş, gavurdan gaşmayası - kaçmamak için* vb. [4, s.112].

Görüldüğü üzere, Kütahya ağzında *-ası/-esi* sıfat-fiil eki artık sıfat-fiil işleviyle kullanılmamaktadır; bu durum, söz konusu ağızda söz dizimi ve biçimbilimsel yapıdaki değişimlerle ilgilidir.

-Ası/-esi sıfat-fiili, Türkmen dilinin Salır ağzında ve Türkmen Türkçesinin Karakalpak ağzında da kaydedilmiştir.

Başkurt Türkçesinde *-ası/-esi* sıfat-fiilinin sesbilimsel varyantı *-ahы/-əhe* şeklindedir; *alahы - alması gereken kişi* vb.

Başkurt Türkçesinde söz konusu sıfat-fiil gelecek zaman sıfat-fiillerine aittir ve diğer sıfat-fiillere göre nadiren kullanılmaktadır.

-Ası/-esi sıfat-fiili, Başkurtçada özellikle Tatar Türkçesinin etkisi altında kalan ağızlarda görülmektedir. Tıpkı Tatar Türkçesinde olduğu gibi, bu ağızlarda *-ası/-esi* sıfat-fiili *kilə* veya *bar* kelimeleri ile birlikte kullanılır: *alahы kilə - almak istiyor; yazahы bar - yazmak istiyor* vb.

Başkurt Türkçesinin Kudey ağzındaki gelecek zaman sıfat-fiili *-ar/-ər* ile birlikte *-aç/-ы/-əç/-e* gibi kalıntı sıfat-fiiller de gözlemlenmiştir; bu sıfat-fiil varyantı Çuvaş ve Tatar Türkçesinin orta ağızlarında mastar anlamını da taşımaktadır [9, s.43; 10, s.23].

Tatar Türkçesinde *-ası/-esi* sıfat-fiili, zorunluluk anlamı taşıyan gelecek zaman sıfat-fiillerine aittir: *bemepəce işem bar idi - Bitirmem gereken işim var* vb. [13, s.215-216].

Olumsuz biçimi ise Tatarca'da neredeyse kullanılmamaktadır.

Tatar Türkçesinde *-ası/-esi* sıfat-fiilinin olumsuz anlamı bazı durumlarda *mүгел* olumsuz edatıyla ifade edilmektedir: *Monnan arı ayaq ta atpıycы keşe mүгел ul - Bundan sonra oraya ayak basmayacak kişi* vb. [13, s.216].

Tatar Türkçesi ağızlarında *-ası/-esi* sıfat-fiili ağırlıklı olarak mastar işlevinde kullanılır. Söz konusu sıfat-fiil Tatar Türkçesinin orta ve Zakazan, Dağlık grubu ağızlarda, Podberezensk, Aşağı Kama, Kryaşen ağızlarında yaygındır. Batı lehçelerinde (Mordva-Karatay, Çistopol, Çistopol-Kryaşen, Melekes, Baykibaşev, Sterlitamak) ise nadiren gözlemlenmektedir [12, s.67].

Özbek Türkçesinde *-ası/-esi* sıfat-fiili seyrek olarak rastlanan sıfat-fiillerden biridir. *-Ası/-esi* eki sadece tarihsel (diyakronik) bağlamda sıfat-fiil eki olarak değerlendirilir. Ayrıca, bazı araştırmacılara göre Özbek Türkçesinde söz konusu sıfat-fiil sıfat görevinde de kullanılmaktadır.

M.D. Shahnazarova bu konuda şu görüşü belirtmektedir: «Tüm sıfat-fiil biçimleri nitelik belirleyici işlevdeyken fiil özelliklerini tamamen korumaz: yüklemsellik öğesi, zaman anlamı, yönetim özelliği vb. Fiil özelliklerini kaybettiklerinde sıfatlara dönüşebilir veya onlara yaklaşabilirler. Bu tür biçimlere *-ağon, -asi, -ar, (u)vchi, -digan* ve çift (olumsuz-olumlu) sıfat-fiiller *-(a)r* dahildir» [14, s.29].

Özbekçenin ağızlarında (Şahrizab, Taşkent, Kuramin) *-əsi* sıfat-fiili kaydedilmektedir.

Görüldüğü üzere, veriler, söz konusu ekin, Eski Türkçedeki *-ga/-ge>-a/-e* unsurunun zamanla gelecek ve gereklilik anlamını zayıflatması sonucunda, bu anlamı yeniden canlandırmak amacıyla *-sıg/-sig>-sı/-si* ekiyle genişletilmesiyle oluştuğunu göstermektedir.

Mahmud Kâşgarlı'nın *-gu/-gü* ile *-sı/-si* eklerini eşitlemesi ve Dîvânu Lugâti't-Türk'teki kullanımlar, bu yapının *-acak/-ecek* gelecek zaman sıfat-fiiliyle işlevsel açıdan örtüştüğünü açıkça ortaya koymaktadır.

Z. Korkmaz'ın pleonazm kuramı çerçevesinde değerlendirdiği bu süreç, Türk dillerinde işlevini yitirme eğilimi gösteren eklerin, eş anlamlı biçimbirimlerle desteklenerek yeniden işlerlik kazanabildiğini kanıtlamaktadır. Yakutça, Eski Anadolu Türkçesi ve diğer tarihî örnekler de bu görüşü doğrular niteliktedir.

Çağdaş Türk dillerinde ise *-ası/-esi* sıfat-fiilinin kullanım alanı daralmış; Türkiye Türkçesinde büyük ölçüde kalıplaşmış yapılarda, Azerbaycan Türkçesinde ise daha çok konuşma dilinde ve sınırlı sıklıkta varlığını sürdürmektedir. Ağızlarda ve bazı Türk dillerinde (Türkmen, Başkurt, Tatar, Özbek vb.) ise sesbilimsel ve işlevsel varyantlarıyla kullanılmaya devam etmektedir.

Sonuç olarak, *-ası/-esi* sıfat-fiili güncel kullanım bakımından sınırlı olsa da, Türk dillerinin tarihî biçimbilimini, eklerin anlam kaybı ve yeniden işlev kazanma mekanizmalarını göstermesi bakımından son derece önemli bir yapıdır. Bu ek, Türk dillerinde dil içi gelişmenin ve pleonastik türetme yollarının anlaşılmasına katkı sağlayan dikkate değer bir biçimbilimsel unsur olarak değerlendirilmelidir.

KAYNAKÇA

1. Buluç S. Eski bir türk dili yadigarı // İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk dili ve edebiyatı Dergisi, 1954, c.6, sayı 6, s.119-131
2. Deny J. Türk dili grameri (Osmanlı Lehçesi) (çev. A. Ulvi Elöve). İstanbul: Maarif matbaası, 1941, 1142 s.
3. Ediskun H. Yeni Türk Dilbilgisi. İstanbul: Remzi Kitabevi, 1963, 413 s.
4. Gülensoy T. Kütahya ve yöresi ağızları (inceleme-metinler-sözlük). Ankara: TDK yayınları, 1988, 257 s.
5. Korkmaz Z. -Ası/-esi gelecek zaman isim-fiil (participium) ekinin yapısı üzerine // Türk dili araştırmaları yıllığı, Belleten, 1969, s.31-38
6. Əsgərov M.B. Türk dillərində zaman formaları, adverbial feil formaları və onlar arasında funksional–semantik əlaqələr. Bakı: Nurlan, 2002, 146 s.
7. Алиев У.Б. Вопросы сложного предложения карачаево-балкарского языка: Автореф. дис. ... докт. филол. наук. Нальчик, 1960, 38 с.
8. Баскаков Н.А. Каракалпакский язык. Фонетика и морфология: в 2-х т. Т.2, ч.1, М.: Издательство АН СССР, 1952, 543 с.
9. Бурганова Н.Б. Говор каринских и глазовских татар // Материалы по татарской диалектологии, 1962, вып.2, с.19-56

10. Егоров В.Г. Наречие // Материалы по грамматике современного чувашского языка, 1957, ч.1, с.273-295
11. Махмуд ал-Кашгари Диван Лугат ат Турк. Перевод, предисловие и комментарии З.А.Ауэзовой. Алматы: Дайк-Пресс, 2005, 1288 с.
12. Махмутова Л.Т. О татарских говорах северо-западных районов Башкирской АССР: по материалам экспедиций 1954-1957 гг. // Материалы по татарской диалектологии, 1962, вып.2.
13. Татарская грамматика. Морфология: в 2-х т. Т.2, Казань: Таткнигоиздат, 1993, 397 с.
14. Шахназарова М.Д. Синтаксис причастия в узбекском языке: Автореф. дис. … канд. филол. наук. Ташкент, 1971, 51 с.
15. Щербак А.М. Очерки по сравнительной морфологии тюркских языков (Имя). Л.: Издательство АН СССР, 1977, 192 с.
16. Bang W. Monographien zur türkishen Sprachgeschichte. V.1, Heidelberg: C. Winter, 1918, 48 s.
17. Benzing J. Tschunaschische Forschungen // ZDMG, 1941, part 3, pp.57-58
18. Brockelmann C. Osttürkische Grammatik der islamischen Literaturspraschen Mittelasiens. Leiden: Brill Archive, 1951, 429 p.

Айнель МЕШАДИЕВА

СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ ФУНКЦИОНАЛЬНОЙ ТРАНСФОРМАЦИИ ПРИЧАСТИЙ БУДУЩЕГО ВРЕМЕНИ

РЕЗЮМЕ

Сравнительное изучение причастных аффиксов в современных тюркских языках и диалектах относится к числу актуальных и приоритетных направлений тюркологии. В этом контексте особую значимость приобретает анализ различий в употреблении причастного аффикса будущего времени *-ası/-esi* в различных языках и говорах, поскольку он позволяет выявить как общие, так и дифференцирующие характеристики данного аффикса.

Хотя основные функции причастий в целом отражены в грамматиках тюркских языков, функциональное употребление аффикса *-ası/-esi* в текстах до настоящего времени не получило достаточно глубокого и всестороннего освещения. Между тем данный аффикс, проявляя во многих случаях сходные семантические и синтаксические свойства, в различных тюркских языках и местных говорах может выполнять и иные, отличающиеся друг от друга функции.

В настоящем исследовании предпринята попытка на основе обширного языкового материала выявить нестандартные, выходящие за рамки традиционных, употребления причастного аффикса *-ası/-esi* в тюркских языках и говорах. Анализ показывает, что в ряде языков данный аффикс не ограничивается выражением значения будущего времени, но может функционировать также в роли инфинитива либо в качестве элемента придаточного предложения, устанавливающего временные отношения.

Так, в чувашском языке, а также в заказанском, подберезенском и нижнекамско-кряшенском говорах татарского языка аффикс *-ası/-esi* преимущественно выступает в инфинитивной функции. Аналогичное явление наблюдается и в кютахинском говоре турецкого языка, где данный аффикс в одних контекстах используется в значении инфинитива, а в других - с функцией, близкой по смыслу к аффиксу *-ınca*. Подобное разнообразие представляет собой ценный материал для изучения исторического развития и функционального расширения аффикса *-ası/-esi*.

В работе использованы тексты, относящиеся прежде всего к говорам турецкого языка, а также к туркменскому, татарскому, чувашскому и некоторым другим тюркским языкам; особое внимание уделено диалектному материалу, на основе которого рассматриваются различные функции аффикса *-ası/-esi*. Целью данного исследования является анализ функционального многообразия причастного аффикса *-ası/-esi* в современных тюркских языках и говорах, выявление сфер его употребления, а также освещение структурных и словообразовательных особенностей данного аффикса

Ключевые слова: *тюркские языки, диалекты, причастие, аффикс, инфинитивная функция, особенности употребления*

Aynel MASHADIYEVA

A COMPARATIVE STUDY ON THE FUNCTIONAL TRANSFORMATION OF FUTURE TENSE PARTICIPLES

ABSTRACT

The comparative examination of participial suffixes in contemporary Turkic languages constitutes one of the current and priority research areas of Turkology. In this context, investigating the differences in usage of the future participial suffix *-ası/-esi* across dialects and local varieties is of great importance for revealing both the common and distinctive characteristics of this suffix.

Although the basic functions of participles have been addressed in the grammars of Turkic languages, the functional uses of the *-ası/-esi* suffix within texts have not yet been studied in sufficient depth. However, while this suffix often displays similar semantic and syntactic features, it can assume different functions in various Turkic languages and regional dialects.

In this study, attempts have been made to demonstrate, with rich linguistic data, the uses of the *-ası/-esi* participial suffix that go beyond its conventional functions in Turkic languages and dialects. The analyses show that in some dialects the *-ası/-esi* suffix does not solely convey future tense meaning, but may also function as an infinitive or as an element of a subordinate clause expressing temporal relations.

For instance, in Chuvash language and in the Zakazan, Podberezensk, and Nizhnekamsk-Kryashen dialects of Tatar language, the *-ası/-esi* suffix predominantly appears with an infinitive function. A similar situation is observed in the Kutahya dialect of Turkish language, where this suffix is used in certain contexts as an infinitive and in others with a function close to the meaning of *-ınca* ("when/once"). This diversity offers noteworthy data regarding the historical development and functional expansion of the *-ası/-esi* suffix.

The study draws on texts from Turkish, Turkmen, Tatar, Chuvash, and several other Turkic languages` dialects. Particular emphasis is placed on dialectal materials in evaluating the various functions of the *-ası/-esi* suffix.

The aim of this study is to examine the functional diversity of the *-ası/-esi* participial suffix in contemporary Turkic languages and dialects, to identify its areas of usage, and to shed light on its structural and formative characteristics.

Keywords: *Turkic languages, dialects, participle, suffix, infinitive function, usage features*

Sevil MEHDİYEVA*

I TÜRKOLOJİ QURULTAYDA TÜRK DİLLƏRİNİN ƏDƏBİ DİL MƏSƏLƏSİ

(Azərbaycan dili materialları əsasında – M. Füzulinin dili)

XÜLASƏ

I Türkoloji Qurultayın nüfuzlu və ən fəal nümayəndəsi professor Bəkir Çobanzadə "Türk dillərinin yaxın qohumluğu" və "Elmi terminologiyanın sistemi haqqında" məruzələri ilə ilk dəfə türkologiyanın patriarxı Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsəri əsasında türk dillərinin bir kökdən olmasının elmi əsaslarını vermiş, türk xalqlarının dil, ədəbiyyat, mədəniyyət, tarix, etnoqrafiya yaxınlığı diqqət mərkəzinə gətirmişdir. Alimin geniş yaradıcılıq coğrafiyası müxtəlif türk ədəbi dilləri və onların ayrı-ayrı söz ustadlarının ədəbi dildə qazandıqları sanballı mövqelərini işıqlandırmağa həsr olunmuşdur. Prof. B. Çobanzadə "Böyük Azərbaycan şairi" (akademik Həmid Araslı), XVI əsr Azərbaycan dilinin görkəmli nümayəndəsi Məhəmməd Füzuliyə həsr etdiyi"Füzuli və onun yeri" adlı iri həcmli məqaləsinə məşhur

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dili tarixi şöbəsinin baş elmi işçisi, *f.e.d., professor*.

Avropa alimi, çoxcildlik (6 cilddə) "Osmanlı şeirinin tarixi" fundamental əsərin müəllifi Mister Gibbin əsərindən alınmış epiqrafla başlayır və alimin (Mister Gibben) "Füzuli Şərqin yetişdirdiyi ən səmimi, ən həssas şairidir" fikrilə həmrəy olduğunu bildirir. Prof. B. Çobanzadənin M.Füzulinin 400 illik yubileyi münasibətilə söylədiyi elmi mülahizələri bu gün 100 ildən artıq bir zaman kəsiyində elmi dəyərini özündə saxlayır, yaxın və uzaq gələcəkdə də saxlayacağına şübhə yoxdur. Məqalədə prof. B. Çobanzadə böyük fəxarət hissilə Avropa alimlərinin "sultanüş-şüəra"adlandırdıqları M.Füzulini, Avropa türkşünaslığının babası Hammerdən prof. Krımskiyə qədər alimlərin ümumiləşmiş fikirlərini göz önünə gətirərək göstərir ki,"Bütün türk ədəbiyyatında Füzulidən daha böyük bir isim (ad –S.M.) bulmaq mümkün deyildir; onun yeri bütün Şərqin yetişdirdiyi ölməz böyüklər arasındadır."Professor fikirlərini genişləndirərək daha incə məqamlara toxunub qeyd edir ki, prof. Krımski "Türk ədəbiyyatı tarixi" adlı əsərində Füzulinin həm "fars, həm Azərbaycan, həm Osmanlı ədəbiyyatına girər deyərkən yanılıyor". Bu fikiri deyərkən alim XVII əsrə gədər Şərqdə, xüsusən İraqda və onun paytaxtı Bağdad və Bağdad ətrafında mövcud ictimai-iqtisadi-mədəni durumun mühüm rol oynadığını vurğulayır və göstərir ki, bu zaman ərəbi, farsı, türkü, birləşdirən iqtisadi, ruhi, ictimai bir təməl var idi ki, o təməldə ümumi ruhda yetişən filosoflar, ədiblər, şairlər, bütün şərqin malı olan bir şərq tarixi, şərq ədəbiyyatı meydanı yaratmışdılar. Bu meydanda üçayaqlı (üçdilli) deyil, yekparə (vahid) əsəri yaradan Füzuli olmuşdur. Füzulinin özəl şairliyini göz önünə gətirən prof. B. Çobanzadə fikrinə aydınlıq gətirərək yazırdı ki, Füzulinin yaşadığı dövrdə Şərqdə, eləcə də Türkiyədə Əhməd Yasəvi, Yunus İmrə, Aşıq Paşa və b. mistik sufi şairlər yetişmişdi. Lakin Füzuli bu dövrdə yetişməsinə baxmayaraq, o, sufi-mistik deyildi o, gerçək sufi idi.

Açar sözlər: ədəbi dil, sultanüş-şüəra, şair, Azərbaycan türk şairləri.

Professor Bəkir Çobanzadənin geniş yardıcılıq coğrafiyasının mühüm bir hissəsini türk xalqlarının ədəbi dili və bu problemin həllində ayrı-ayrı söz ustadlarının göstərdikləri xidmətlərinin sanbalı – elmi mahiyyəti ilə əlaqədar olmuşdur. Onun zəngin elmi yaradıcılığının mühüm bir hissəsini türk xalqlarının şair və yazıçılarının, ümumən onların ədəbi dil məsələlərinin elmi-nəzəri-linqvist araşdırılmasına həsr edilmişdir.

Qurultayda prof. Bəkir Çobanzadə böyük Azərbaycan şairi [1], XVI əsr Azərbaycan ədəbi dilinin zirvəsi Məhəmməd Füzulinin Azərbaycanca divanının materialları əsasında şairin dil, üslub və bəzi ümumfiloloji məsələlərin araşdırılmasına həsr edilmişdir. Prof. Bəkir Çobanzadə " Füzuli və onun yeri" adlı məruzə ilə çıxış etdi.

Prof. Bəkir Çobanzadə çıxışını Avropanın tanınmış alimi, çoxcildlik (6 cilddə) " Osmanlı şeirinin tarixi" əsərinin müəllifi Mister Gibbin əsərindən alınmış "Füzuli şərqin yetişdirdiyi ən səmimi, ən həssas şairidir. [2,s.164] epiqrafı ilə başlayan müəllif həm də onunla həmrəy olduğunu bildirdi. Prof. Bəkir Çobanzadə fəxarətlə qeyd etdi ki, bütün Avropa alimlərinin "Sultanüş-şüəra" [2,s.165] (Şairlər sultanı) adlandırdıqları Məhəmməd Füzuli Avropa türkşünaslığının babası Hammerdən prof. Krımskıya qədər bütün alimlərin yekdil fikrincə bütün türk ədəbiyyatında Füzulidən daha böyük bir isim (ad - C.M) bulmaq mümkün deyil və onun yeri bütün şərqin yetişdirdiyi ölməz böyüklər arasındadır [2, s.165]. Prof. Bəkir Çobanzadə öz məruzəsində belə bir məqama da toxundu ki, prof. Krımski "Türk ədəbiyyatı tarixi" əsərində "Füzuli həm fars, həm Azərbaycan, həm Osmanlı adəbiyyatı tarixinə girər deyərkən yanılıyor. [2, s.166] Bu fikri irəli sürərkən prof. Bəkir Çobanzadə XVII əsrə qədər şərqdə, xüsusən İraqda onun pyataxtı Bağdad, eləcə də Bağdad ətrafında mövcud ictimai-iqtisadi-mədəni durumun mühüm rol oynadığını vurğulayaraq, yazırdı ki, bu zaman İraqda ərəbi (ərəbləri, C.M), farsı (farsları, C.M), türkü (türkləri, C.M) birləşdirən iqtisadi, ruhi, ictimai bir təməl var idi və bu təməldə ümumi ruhda yetişən filosoflar, ədiblər, şairlər bütün şərqin malı olaraq bir şərq tarixi, şərq ədəbiyyatı meydanı yaratmışdılar. Bu meydanda hamının qəbul etdiyi, sevdiyi məhz Füzuli olmuşdur. "Füzuli ərəb eşqi, fars ruhu və türk qılıncılə qurulan əsrlərin ağır uruşları (vuruşları) altında yıxılan Bağdadın ruhunu qavramış, onu bizə də duyurmuşdur. [2,s.166]. Füzulinin yaşadığı Bağdad o zamanlar İran və Türkiyənin İslam dünyasında hegemonluğa nail olmaq mücadiləsinin qanlı meydanına çevrilmişdi. Prof. Bəkir Çobanzadənin məruzəsindən aydın olur ki, M. Füzuli şərq ədəbiyyatında birinci şair kimi həm də bu zaman İraqla Türkiyə arasında müharibənin

əleyhinə olmuş, həm sünni ruhunda, yəni Sultan Süleymana, həm də şiə ruhunda Şah İsmayıl Xətaiyə mərsiyələr yazmış, böyük türk dünyasının iki qüdrətli hökmdarlarını sülhə sövq etməyə çalışmışdır. Məhz bu səbəbdən prof. Bəkir Çobanzadə Füzulini "Şərq məsləhətçisi və taktiki" hesab etmiş, iki türk hökmdarı arasında əmin-amanlıq yaratmağa səy göstərməsini [2, s.167] müdriklik nümunəsi hesab etmişdir. Bununla belə alimin qeyd etdiyi kimi , "Füzuli heç bir hökmdarın quluna çevrilməmiş, hər zaman saraydan uzaq olmuşdur [2, 169]. Prof. Bəkir Çobanzadə XVI əsr Türkiyədə yaşanan ədəbi-mədəni həyata diqqət çəkərək göstərir ki, bu dövrdə bütün şərqdə nüfuz dairəsinə malik olan Əhmət Yasəvi, Yunus İmrə, Aşıq Paşa və s.-ri kimi sufi şairlər-mistiklər yetişmişdir", "Lakin Füzuli sufi-mistik deyildi" [2, s.166], gerçək sufilər kimi Füzuli də xalq ruhunun tərcümanı olmuşdur [2, s.166].

Prof. Bəkir Çobanzadə yazırdi ki, Füzulinin eşqi Əhməd Yasəvi və başqalarınınkı kimi, eşqi-ilahi, əflatuni-eşq deyildi [2,s.167], əsli və şəxsi məhəbbətinin əks sədası idi. Prof. Bəkir Çobanzadənin öz sözləri ilə desək, "yüzdə yüz Füzulinin kəndi ruhundan, öz mühitindən gələn real – "Bağdadın filan məhəlləsində, filan evində yaşayan Füzulicə (Füzuli üçün, C.M) gözəl bir xanıma – bir türk gözəlinə ünvanlanmış bir eşq idi. "İşdə Füzulinin ən böyük səmimiyyəti də burdadır – yazırdı. Böyük türkoloq bunu pək böyük yenilik, pək yüksək qəhrəmanlıq hesab edirdi [2,s.167]. Füzulinin eşqi dedikdə səltənət və məzhəb qovğalarından uzaq bir guşədə ailə qurmaq, bəxtli olmaq istəyən həssas fərdiyyətçi – individualist sevgisini görürüz [2,167]-deyən prof. Bəkir Çobanzadə öz elmi nəticəsini oxucusuna-dinləyicisinə ünvanlayır və öz fikrini təsdiqləmək üçün oxucunu bu gün də valeh və məmnun edən bir şeirini nümunə gətirir.

Prof. Bəkir Çobanzadə M. Füzulinin dili haqqında nəticələrini belə ümumiləşdirir:

1. Füzuli əsərlərini yazarkən söz üzərində çətinlik çəkməmiş, "hafizəsinə nasıl gəlmişsə, şüurunda, vicdanında nasıl doğmuşsa öyle yazmışdır.;
2. Füzulinin dili sadə olmaqla, heç də təmiz deyildir deyərkən, Füzulinin dilində işlənmiş ərəb və fars alınmalarının çoxluğuna işarə edir və diqqətə çatdırır ki, Füzuli dilində külli miqdarda ərəb və fars dili alınmalarının işləkliyi Füzuli dilinin "ana təbiətini kölgə altına ala bilməmişdir";
3. M. Füzuli alınma-ərəb, fars dili sözlərinin "qulağımızın alışdığı [2,s.171], bugünki terminlə desək. dilimizdə vətəndaşlıq hüququ qazanmış, xalq dilinə daxil olmuş alınma sözlərdən daha çox istifadə etmişdir;.

Prof. Bəkir Çobanzadə M. Füzulinin dil özəlliklərindən bəhs edərkən Füzulinin Azərbaycan xalq sözlərinə xüsusi önəm verərək, onların böyük əksəriyyətinin bu gün belə ədəbi dildə, eləcə də, xalqın danışıq dilində işlək olmasını qeyd edir. Alimin fikrincə Füzulinin Azərbaycan türk divanında işlənmiş sözlər böyük üstünlüklə çağdaş Azərbaycan dilində, eləcə də şairin dilində müşahidə olunur. Füzulinin dilində xalq deyim tərzi-xalq sözləri, ifadələr, atalar sözü və məsəllər, ata-babalarımızın kəlamları, eləcə də xalqın gündəlik məişətində müşahidə olunur. Bu gün 5 əsrdir ki, Məhəmməd Füzulinin dili sözlər, ifadələr, qrammatik formalar əsasən, çağdaş Azərbaycan dilində olduğu kimi işlənməkdədir.

ƏDƏBİYYAT

1. Araslı Həmid . Böyük Azərbaycan şairi Füzuli Bakı, "Qızıl Şərq" mətbəəsi, 1958. 311 Səh.
2. Çobanzadə B. Seçilmiş əsərləri. II c., Bakı, "Şərq-Qərb nəşriyyatı, 2007.
3. Əlizadə S. Azərbaycan ədəbi dili tarixindən praktikum. B., 1958.
4. Qasımzadə F. Qəm Karvanı, yaxud zülmətdə nur. B. 1968.
5. Məhəmməd Füzuli. Əsərləri. Bakı: Elm, I c., 1958.
6. Məhəmməd Füzuli (elmi-tənqidi məqalələr) B., Elm, 1958.
7. Mir Cəlal Paşayev. Füzulinin lirikası, M. Füzuli, Bakı, I c., 1958, s. 17.

РЕЗЮМЕ

Авторитетный и самый активный представитель I Тюркологического съезда профессор Бекир Чобанзаде в своих докладах «О близком родстве тюркских языков» и «О системе научной терминологии» впервые на основе «Дивани лугат ат-турк» патриарха тюркологии Махмуда Кашгари выдвинул научную идею об общих корнях тюркских языков, заострил внимание на близости языка, литературы, истории, этнографии тюркских народов. Широкая творческая география ученого посвящена освещению различных тюркских литературных языков и роли отдельных мастеров слова в их развитии. В объемной статье «Физули и его место» автор выражает свою солидарность с мнением известного европейского ученого Мистера Гибба, автора шеститомника «История Османской поэзии», о том, что «Физули – самый искренний, самый чуткий поэт Востока».

Научные суждения проф. Чобанзаде, высказанные им по случаю 400-летия со дня рождения М.Физули, и сегодня спустя 100 лет сохраняют свою научную ценность, и нет сомнения, что они сохранят ее в ближайшем и отдаленном будущем. В статье проф. Б.Чобанзаде, обобщая высказывания известных ученых – от прародителя европейской тюркологии Хаммера до проф. Крымского - о М.Физули как «султане поэтов», с чувством большой гордости отмечает, что «во всей тюркской литературе нет более величайшего поэта, чем Физули, он своей неповторимой поэзией занял почетное место в ряду бессмертных восточных поэтов». Б. Чобанзаде выражает свое отношение к мнению проф. Крымского о том, что Физули можно считать также и персидским, и османским поэтом. Он подчеркивает важную роль социально-экономического и культурного положения, сложившегося до XVII в. на Востоке, в особенности в Ираке, его столице Багдаде и вокруг него, и отмечает, что в это время сформировалось особое трехъярусное – арабское, персидское, тюркское население, которое в свою очередь создавало единую восточную обще-интеллектуальную атмосферу. В этой атмосфере наряду с Физули творили и другие выдающиеся поэты, философы, литераторы, создавая таким образом своеобразное «поле восточной литературы». Проф. Б.Чобанзаде писал, что в эпоху Физули на Востоке, в том числе и в Турции, созрели такие поэты-мистики, как Ахмед Ясеви, Юнис Имре, Ашуг Паша и др. Хотя Физули и писал в этот период, он не был суфием-мистиком, он был истинным суфием. Ключевые слова: литературный язык, султан поэтов, поэт, азербайджанские тюркские поэты.

Ключевые слова: *литературный язык, султан поэтов, поэт, азербайджанские тюркские поэты.*

SUMMARY

One of the most authoritative and active participants of the First Turkological Congress was Professor Bekir Chobanzadeh. In his reports, “On the Close Relationship of the Turkic Languages” and “On the System of Scientific Terminology,” he was the first to put forward a scientific concept of the common roots of the Turkic languages, relying on Divan Lugat at-Turk by the patriarch of Turkology, Mahmud Kashgari. Chobanzadeh emphasized the close connections among the languages, literature, history, and ethnography of the Turkic peoples. The wide scholarly scope of Chobanzadeh’s work is reflected in his studies of various Turkic literary languages and in his analysis of the role played by individual masters of the word in their development. In his extensive work “Fuzuli and His Place,” the author expresses his agreement with the view of the renowned European scholar E. J. W. Gibb, the author of the six-volume History of Ottoman Poetry, who described Fuzuli as “the most sincere and sensitive poet of the East.” The scholarly judgments expressed by Professor B. Chobanzadeh on the 400th anniversary of Fuzuli’s birth have retained their academic significance even after a century, and there is no doubt that they will continue to do so in the future. In this article, summarizing the opinions of prominent scholars—from the founder of European Turkology, Hammer, to Professor Krymsky—who referred to Fuzuli as the “sultan of poets,” Chobanzadeh proudly notes that “in all Turkic literature there is no poet greater than Fuzuli; through his inimitable poetry, he has earned an honorable place among the immortal poets of the East.” Chobanzadeh also addresses Professor Krymsky’s view that Fuzuli could be regarded as a Persian or Ottoman poet. He emphasizes the

decisive role of the socio-economic and cultural conditions that prevailed in the East before the seventeenth century, particularly in Iraq, its capital Baghdad, and the surrounding regions. During this period, a distinctive three-layered society—Arab, Persian, and Turkic—emerged, forming a unified Eastern intellectual environment. Within this milieu, alongside Fuzuli, many outstanding poets, philosophers, and writers were active, creating a unique "field of Eastern literature." Professor B. Chobanzadeh notes that during Fuzuli's era, the East—including Anatolia—witnessed the flourishing of such mystical poets as Ahmed Yesevi, Yunus Emre, and Ashik Pasha. Although Fuzuli wrote during this period, he was not merely a Sufi-mystical poet; rather, he was a genuine Sufi thinker whose worldview was deeply reflected in his poetry.

Key words: *literary language, sultan of poets, poet, Azerbaijani Turkic poets.*

İsmayıl KAZIMOV*

I TÜRKOLOJİ QURULTAYIN TÜRKOLOGİYANIN SONRAKI İNKİŞAFINA TƏSİRİ

XÜLASƏ

I Türkoloji Qurultay türkoloji elmin formalaşması və sistemləşməsi baxımından dönüş nöqtəsi olmuşdur. Qurultay türk xalqlarının dili, tarixi, ədəbiyyatı və mədəni irsinin elmi əsaslarla öyrənilməsi istiqamətində vahid metodoloji yanaşmanın formalaşmasına güclü təkan vermişdir. Burada müzakirə olunan məsələlər türk dillərinin təsnifatı, əlifba problemi, terminologiyanın vahidləşdirilməsi və tarixi-müqayisəli metodun tətbiqi kimi mühüm elmi istiqamətləri əhatə edirdi. Qurultay müxtəlif ölkələrdən olan alimləri bir araya gətirərək elmi əməkdaşlıq mühitini gücləndirmiş, türkoloji tədqiqatların beynəlxalq miqyasda inkişafına şərait yaratmışdır. Nəticə etibarilə, I Türkoloji Qurultaydan sonra türkoloji araşdırmalar daha sistemli, elmi və konseptual xarakter almış, bu sahə müstəqil elmi istiqamət kimi möhkəmlənmişdir.

Açar sözlər*: I Türkoloji Qurultay, elmi-metodoloji təsir; imla və əlifba islahatlarına təsir; elmi və mədəni əlaqələrin genişlənməsinə təsir; türkoloji elmin uluslarası nüfuzuna təsir və s.*

Türkologiya elmi, türk dilləri, ədəbiyyatı, tarixi və mədəniyyətini sistemli şəkildə öyrənməyi məqsəd qoyan multidissiplinar sahə kimi XX əsrin əvvəllərindən etibarən sürətlə inkişaf etməyə başlamışdır. Bu inkişafda I Türkoloji Qurultay mühüm rol oynamış və türkoloji araşdırmaların beynəlxalq elmi səviyyəyə qaldırılması üçün əsaslı zəmin yaratmışdır. Qurultay yalnız türk dillərinin təsnifatı və standartlaşdırılması məsələlərini müzakirə etməklə kifayətlənməmiş, eyni zamanda tarixi-müqayisəli metodun tətbiqi, terminologiyanın vahidləşdirilməsi və mədəni irsin öyrənilməsi kimi elmi məsələlərin də diqqət mərkəzində olduğunu göstərmişdir. Bu baxımdan I Türkoloji Qurultay türkoloji elmin strukturlaşmasına, metodoloji baxımdan təkmilləşməsinə və elm sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsinə təkan verən dönüş nöqtəsi kimi qiymətləndirilir. Qurultayın nəticələri, həmçinin gələcək tədqiqatlar üçün vahid prinsiplərin formalaşmasına və türkoloji araşdırmaların konseptual səviyyədə inkişafına şərait yaratmışdır. Bu girişin məqsədi, I Türkoloji Qurultayın türkoloji elminin sonrakı inkişafına təsirini, həmçinin elmi və metodoloji əhəmiyyətini ortaya qoymaqdır.

I Türkoloji Qurulay gərgin tarixi, sosial-mədəni və siyasi bir şəraitdə çağırıldı, fəaliyyətə başladı. Bu mühüm hadisə Türk düşüncəsində böyük iz buraxdı. I Türkoloji Qurultayda qoyulan dil məsələləri həm sosiolinqvistik (dilçilik və sosiologiya elmlərinin çarpazlaşdığı elm) , həm də türkloji məzmun kəsb edirdi. Bu tarixi hadisədən dərhal sonra türkologiya kimi mükəmməl bir müstəqil elm formalaşdı.

R. Arat bildirir ki, qurultay türk dillərinin müqayisəli öyrənilməsinə və elmi təsnifatın güclən-dirilməsinə şərait yaratmışdır [Arat, s.34].

Ə. Cəfəroğlu (1984) isə əlavə edir ki, türk dili tarixi boyunca dialektlərin və dil qruplarının araşdırılması bu cür elmi platformalarda daha sistemli şəkildə həyata keçirilmişdir [Cəfəroğlu, s.27].

* AMEA-nın Nəsimi adına Türk dilləri şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor

Dilaçar (1968) vurğulayır ki, dilin inkişaf mərhələlərinin təhlili və sadələşmə prosesi qurultayların metodoloji töhfəsi ilə daha da aydınlaşmışdır [Dilaçar, s.11].

Bu fikri Ergin (2009) dəstəkləyir və qeyd edir ki, qrammatik struktur və müqayisəli yanaşmaların tətbiqi türkoloji tədqiqatlarda elmi dəqiqliyi artırmışdır [Ergin, s.58].

Türkologiya başlanğıcda XI əsrdən etibarən türk ədəbi dilləri və dialektlərinin ən çox ərəb, fars, rus, alman, fransız və s.xarici dillərdə araşdırılması, tədris və təsnifinə dair müxtəlif elmi-praktik işlərin görülməsi nəticəsində ortaya çıxmışdır. Sonrakı illərdə hadisənin təsir miqyası genişləndi, türk respublikalarında yeni müqayisəli tədqiqatlar yazılmağa başladı. Qurultayın təsir imkanları çoxşaxəli və dərin olmuşdur. Həmin təsirləri bir neçə əsas istiqamətdə şərh etmək olar:

1.Elmi-metodoloji təsir. Sözügedən qurultay türk dillərinin sonrakı dövrdə araşdırılmasında vahid elmi prinsiplər, terminologiya və təsnifat (bölgü) meyarlarının formalaşmasına böyük təkan verdi. Sonrakı qurultaylarda da: fonetika, morfologiya və dialektologiya üzrə vahid yanaşmalar əsasında Türk Respublikalarında bir çox işlər görüldü. Müqayisəli-tarixi və müqayisəli tutuşdurma metodu əsaslandırıldı. A.Axundov bu barədə yazır ki, *" müqayisəli-tarixi metod_ bu, ən qədim dövrdəki səs və formaların bərpa edilməsindən başlamış indiyədək qohum dillərinin quruluşunun qanunauyğun inkişafını aydınlaşdırmaq üçün tətbiq edilən tədqiqat üsulu və təhlil metodikaları sistemidir* [Axundov, s.228]. Qurultayda səsləndi ki, bu metod öz tədqiqat üsuluna görə yalnız qohum dillərin, yəni mənşəcə də eyni kökdən olan dillərin araşdırılmasına tətbiq edilə bilər. Müqayisəli-genetik tədqiqatlarda relevant meyarda yalnız sistemləyici fakt ola bilər. Relevant meyar qohum dilləri səciyyələndirən və məntiqi olaraq dilin sistem xarakterindən irəli gələn, onun dəyişmələrinin sistemləşməsi ilə şərtlənən və qohum dilləri təhlil edən fərqlənmələrdə dil substansiyası münasibətlərinin ("müntəzəmliyi") faktını müəyyənləşdirə bilər. Türk dillərinin qohumluq dərəcələri üzrə sistemləşdirmə. Dillərin qohum olması, eyni mənşədən olması, onların bir qaynaqdan, bir ulu dildən törəməsi deməkdir. Ulu dilin parçalanması nəticəsində lüğət tərkibi və qrammatik quruluşuna görə yaxın olan dillər yaranır. Belə dillərə qohum dillər deyilir. Müqayisəli-tarixi metoddan yalnız belə qohum dillərin öyrənilməsində istifadə etmək münkündür. Qurultayda həmin mövzular məruzələr və müzakirələrdən ötrü baza olaraq qəbul olundu. I Türkoloji Qurultayın keçirilməsinin 80 illik yubileyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransda yuxarıdakı problemlərin aktuallığı və onların müasir linqvistikanın, digər humanitar və dəqiq elmlərin istiqamətləri ilə həlletmə birliyi perspektivləri mübahisə obyetinə çevrilmişdir. Belə ki, bütövlükdə türkologiyanın və ayrılıqda türkoloji dilçiliyin əsas problemlərinin müəyyənləşdirilməsinə və onların həllinə dair konkret təkliflər irəli sürülmüşdür [Musaoğlu, s.182-192]. Həmin aspektdə türk dilləri və dialektlərinə dair yazılan hər cür ənənəvi səciyyəli türkoloji tədqiqi tarixinin təsvir olunması və dövrləşdirilməsi istiqamətində indiyə qədər müqayisəli olaraq aparılan türkoloji işlər ilk növbədə diqqəti cəlb edir. Klassik müqayisəli əsərlərdə müəyyənləşdirilən elmi-linqvistik metodlar günümüzdə müasir Avrasiya türkcələrində gercəkləşən yeni inkişaf meyillərinin öyrənilməsində təsirsiz və yetərsiz qalmaqdadır. Ayrı-ayrı mövzular üzrə aparılan tədqiqatlarda sadəcə konkret dil işarələrinin təsvir edilməsi bu gün artıq qənaətbəxş hesab oluna bilməz. İndi qurultayın təkliflərindən irəli gələn qohum və ən yaxın qohum dillər və dialektlər dilin dərindəki və üzdəki quruluşu "fenomenlərin funksionallığına və semantikliyinə" və onların dünyanın dil xəritəsi kontekstində aparılan dərketmə və kateqoriyallaşdırılmasına görə açıqlanmalıdır.

2.İmla və əlifba islahatlarına təsir. Bu qurultayda ən mühüm və aktual nəticələrdən biri latın qrafikalı yeni türk əlifbasının müzakirəsi və qəbuluna aparan prosesi gücləndirməsi idi. Sonrakı qurultaylarda:

1. Latın qrafikasının tətbiq təcrübələri
2. Ortaq əlifba məsələləri

3.fonem-qrafem uygunluğu problemləri-həmin 1926-cı il müzakirələrinə əsaslanaraq davam etdirildi. "Əlifbanın müzakirəsi 5 iclası əhatə edirdi.

Məlum oldu ki, Moskva türklərin bir-birilə ünsiyyətini kəsmək, onları öz qədim, dolğun tarixlərindən məlumatsızlaşdırmaq istəyi ilə çıxış edir. Bunun üçün min ildən çox işlətdiyi əlifbasını onun əlindən almaq yetərli idi. Türkün böyük, şərəfli tarixi bu əlifba ilə yazılmışdı". O zaman latın əlifbasına keçmək sadəcə mədəni hadisə sayılırdı. I Türkoloji Qurultayın gəldiyi ümumi nəticə: türklər üçün ümumi ədəbi dil yaratmaq mümkündür. Əvvəlində türk ləhcələri arasında danışıq dilləri səviyyəsində anlaşma olub, indiki

iqtisadi, siyasi, mədəni əlaqələrin, nəqliyyat və digər kommunikasıya vasitələrinin artdığı məktəb_təhsil şəbəkəsinin əvvəlki dövrlərlə müqayisədə daha da çevikləşdiyi yaşadığımız zamanda ümumi dil ideyasını gerçəkləşdirmək olar" [Hacıyev. s.107].

3.Türk xalqları arasında elmi-mədəni əlaqələrin genişlənməsi. Qurultay ilk dəfə olaraq müxtəlif türk topluluqlarından (Azərbaycan, Türkiyə, Krım, Qazax, Özbək, Tatar, Başqırd və b.) alimləri bir araya gətirdi. Bu ənənə sonrakı quultaylarda:

1.Ortaq elmi layihələrin

2.Dil xəritələrinin hazırlamasına kömək etdi.

3.Folklor və etnoqrafik materiallar toplanıldı və müqayisəlii aspektdə inkişaf etdirildi.

4.Türkoloji elmin uluslararası nüfuzuna təsir. Bu qurultay türkologiyanı, o cümlədən türkoloji dilçilyi ayrıca və ciddi elmi sahə kimi dünyaya təqdim etdi. Sonrakı qutultaylarda həmin nüfuz: 1) beynəlxalq universitetlərin türkologiya kafedralarının, tədqiqat institutlarının türk tarixi, türk coğrafiyası, türk ədəbiyyartı, türk dilləri və s. genişlənməsi;

2) xarici alimlərin iştirakı

3) türkologiyanın sinxron və diaxron aspektlərinin professional şəkildə işlənməsi- ilə davam etdi.

5.Dil siyasəti və milli kimlik məsələlərinə təsir. Məlumdur ki, dil siyasətinin türk dünyasında mədəni inteqrasiyada rolu böyükdür. Bu məsələ elmi əsaslarla kifayət qədər sübut edilməmişdir. O zaman lazım bilinmişdir ki, türk xalqlarının ortaq tarixi, mədəni və dil birliyi kontekstində müasir dil siyasətinin ideoloji, hüquqi və institusional əsaslarını sonrakı araşdırmalarda müəyyənləşdirmək. Bu baxımdan, I Türkoloji qurultayda müzakirə olunan mövzular yalnız elmi deyil, eləcə də məd əni-milli kimlik, maarifçilik və dil siyasəti baxımından da yol açışı oldu. Millətin kimliyini dil formalaşdırır və qoruyurdu. Sonrakı qurultaylarda həmin xətt:

1. Müqayisəli-analitik və sosiolinqvistik yanaşmaların tətbiq olunması ilə türk xalqlarının dil siyasəti və milli kimlik modelləri əsasında öyrənilməyə başladı. Əlbəttə, həmin dövlətlərdə dil siyasətinin başlılca istiqamətləri milli kimliyin qorunması, ortaq türk mədəniyyətinin inkişafı və uluslararası səviyyədə mədəni diplomatiyanın gücləndirilməsi kimi ümumi məqsədlər baxımından oxşardır. Türk dövlətləri arasında mədəni inteqrasiyanın əsas təkanverici gücü ortaq dil bazasıdır. Latın qrafikalı əlifbaya keçid prosesi, ortaq əlifba və terminoloji ehtiyatların yaradılması və təhsil mübadiləsi türk birliyinin dil müstəvisində möhkəmlənməsini təmin edir. İndi TDT (Türk Dövlətləri Təşkilatı), TÜRKSOY və Türk Akademiyası kimi qurumların fəaliyyəti isə tarixi qurultayın tövsiyələrinə hörmətin əlaməti olaraq, hazırda dil və mədəniyyət siyasətinin uluslaarası səviyyədə koordinasiyasına istiqamətlənmişdir. Qurultayın təsiri ilə Türk ölkələrində mədəni inteqrasiya və ortaq kimlik formalaşdı. Dil vasitəsilə yaranan ortaq mədəni məkan türk dövlətlərinin həm ideoloji, həm də sosial birliyini gücləndirməkdədir. Bununla belə, inteqrasiya prosesinin qarşısını bir sıra əngəllər də kəsdi: fərqli əlifba sistemləri, termin uyğunsuzluğu, hələ də vahid (ortaq) təhsil standartlarının olmaması. Həmin üç problemin həllindən ötrü vahid dil strategiyasının təkmilləşdirilməsi, türk dillərinin rəqəmsal mühitdə təmsilçiliyinin artırılması və ortaq mədəniyyət platformalarının genişləndirilməsi lazımdır. 2) milli folklor və ədəbiyyatların standartlaşması; Qurultaydan sonrakı dövrlərdə türk xalqlarının folklor və ədəbiyyat irsi milliləşdi. Öz ölçüsünə, formasına, keyfiyyətinə görə tələbata cavab verən örnəyə çevrildi. Standart şəklə salındı. 3) ortaq ədəbi dil, ünsiyyət dili və ortaq terminologiya; Ortaq ədəbi dil ortaq yol deməkdir. Ərəb dünyasında ərəb dili ortaq ünsiyyətə xidmət etdiyi kimi, Türk dünyasında da türkcə ortaq bir dil kimi fəaliyyət göstərməlidir. Bu, bizə hava-su kimi lazımdır. Biz türkləri bir-birimizdən ayırmaq üçün saysız-hesabsız əlifbalardan istifadə etməyə məcbur ediblər. İndi Türkiyə türkcəsi biz türkləri eyni coğrafiyada olanları yaxınlaşdıracaq. Arınmaq lazımdır. Türk millətini bir-birinə qaynayıb-qarışmamaq üçün düşüncəmizdən ayırıblar. 4) təhsil dilinin normalaşdırılması sahələrində daha sistemli şəkildə davam etdirildi.

Birinci Qurultayın missiyası düçüncə mədəniyyətinin başlanğıcı oldu. Qurultay türk xalqlarının intellektual tarixində dönüş nöqtəsi oldu. Bu qurultay təkcə elmi toplantı, dil müzakirəsi deyil, həm də Türk dünyasının düşüncə mədəniyyətinin formalaşmasında yeni mərhələnin başlanğıcı oldu. Türklər üçün ortaq ədəbi dil yaratmaq ideyası, terminoloji sistemin unifikasiyası kimi məsələlərin gündəmə gətirilməsi təkcə dilçilik aktı deyil, eyni zamanda, mədəni-ideoloji oyanışın ifadəsi idi. Alimlər ilk dəfə bu aktual məsələləri

elmi platformada müzakirə etdilər Bi, milli dərketmənin sistemləşdirilməsi prosesinin başlanğıcı idi. Dil vasitəsilə mədəni özünüdərk. Qurultaydan sonrakı dövrlərdə türk xalqları başa düşdülər ki, düşüncə mədəniyyəti deyilən məna insanın və toplumun intellektual inkişafını şərtləndirən faktorların dilin, yazının, təfəkkürün və mənəvi irsin, dəyətlərin harmonik əlaqəsində formalaşır. Sonrakı dövrlərdə anladıq ki, qurultaq məhz düşüncə mədəniyyətinin canlı göstəricisidir. Artıq qurultayda yeni əlifba yaratmaq, ümumi ədəbi dili formalaşdırmaq, qohum dillərin qarşılıqlı təsirini öyrənmək kimi məsələlər türk xalqlarının gələcəyi naminə mədəni birləşmənin və intellektual sintezin nümunəsinə çevrilib.

Akademik Tofiq Hacıyev fikrinə belə şərh verir ki, türkoloji dilçilik yeni inkişaf mərhələsinə qədəm qoydu. Əsas məsələlərdən biri qurultayın sonrakı türkoloji yöndən olan araşdırmalara təsiretmə səviyyəsini izləməkdən ibarətdir. Təsir nəticəsində Azərbaycanda: Türk dillərini öyrənən şöbə və kafedralar, türkoloji məktəblər (məsələn, respublikada dialektologiya məktəbi) hazırda isə türkoloji mərkəzlər fəaliyyət göstərir. Bu məkanlarda; azsaylı türk xalqlarının dili, türk dillərinin leksik-terminoloji vahidlərini özündə əksetdirən lüğətlər hazırlanmağa başlanıldı. Müzakirə olunan və qətnamələrin qəbulu kimi məsələlər sırasında türk xalqlarının tarixi, mədəniyyəti, ədəbi dili, "imlamızın aləti" çeşidli əlifba növləri, latın əsası əlifbaya keçid, (səsənən fikirlərdən biri ərəb əlifası öz yerini latın əsaslı əlifbaya verməlidir) türk etnoslarının dillərinin, adlarının dəqiqləşdirilməsi, əlifba dəyişiklikləri, etnoqrafiyası, ədəbiyyatı və s. də var idi.

Müzakirəyə çıxarılan mühüm məsələlərdən biri türklərin ədəbi dilidir. Məruzələdə ədəbi dilin təfərrüatları, norma və üslublarından bəhs olunur [İsmayıloğlu. s.102]

Türk xalqlarının hər biri özünəqaydış borcunu yerinə yetirərək bu sahədə əlaqə və münasibətlərinin qurulması, bir araya gəlməsi, elmi-təşkilatı tədbirlərin keçirilməsi, Beynəlxalq Ana dili gününün təsis edilməsi, qurultayda səsləndirilən məslələrdən idi, həyata keçirildi. Hər bir etnos, onun şivəsi, dialekti öyrənilməlidir.

I Türkoloji Qurultayın araşdırılmasına həsr olunmuş elmi tədqiqatların davamı olan nəticələrin mühüm əhəmiyyətini qeyd etmək yerinə düşər. Bu əlamətdar hadisənin hər tərəfli və geniş araşdırılması həmin qurultayın türk xalqlarının tarixindəki və türkologiyadakı yerinin müəyyənləşdirilməsinə kömək edir.

Qurultaydan sonra atılan mühüm addımlardan biri də türk dillərini müqayisəli öyrənmək işi idi.

Digər məsələ Əli bəy Hüseynzadənin "Osmanlı türkcəsini ortaq dilə gətirməli" tarixi fikri idi. Bu faktor I Beynəlxalq Türkoloji Qurultayın dilə gətirdiyi, gələcəyin öhdəsinə buraxdığı ən vacib və əsas problemlərdən biri idi.

Bu qurultayda türk dillərinin digər Altay dilləri ilə qohumluğu məsələsinə diqqət yetirilir. Bununla da, türkologiya tarixində türk dillərinin digər dillərlə müqayisə edilməsi sahəsində geniş üfiqlər açılır və məhz bundan sonra türkologiya tam hüquqla tarixi-müqayisəli dilçiliyin bir qoluna çevrilməyə başladı.

Sözügedən qurultayda qaldırılan və öz həllini tapa bilməyən məsələlərdən biri də "İpək yolu"nun bərpa olunması, vaxtaşırı Türksoyun və Zirvə toplantılarının, həmçinin də türk xalqlarının möhtəşəm abidələrinin "Kitabi Dədə Qorqud" və qırğızların "Manas" dastanlarının yubileylərinin qeyd edilməsi lə bağlı qətnamələr idi. Azərbaycanlı alimlər hələ 1999-cu ildə Frunzedə təşkil olunmuş "Manas" simpoziumda iştirak etmiş və "Manas" dastanının dilində sintaktik hadisılər parselyasiya hadisəsi" mövzusunda çıxış etmişlər (M.Musayev və İ.Kazımov). İ.Kazımov bu işlərinə görə Türksoyun "Molla Pənah Vaqif" medalına layiq görülmüşdür.

Qurultayda xüsusi vurğulanmışdır ki, türkoloji tədqiqatlarda yalnız böyük və geniş yayılan türk dilləri deyil, həmçinin kiçik, azsaylı türk dillərinin şivə və dialektləri də sistemli şəkildə öyrənilməlidir. Bu baxımdan İ. Kazımov, deportasiyaya dəfələrlə məruz qalmış Axısxa türklərinin dilini, tarixini və folklorunu dərindən tədqiq etmiş və bu mövzuda doktorluq işini uğurla müdafiə etmiş professorlardan biridir. Onun elmi fəaliyyəti yalnız Axısxa türkləri ilə məhdudlaşmayıb; o, həmçinin rus zülmü altında yaşayan digər türk xalqlarının da dilini, tarixini, mədəniyyətini və adət-ənənələrini tədqiq edərək xeyli sayda elmi oçerklər və məqalələr çap etdirmişdir. Bu araşdırmaların nəticələri mətbuatda geniş yayımlanmış və türkoloji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Hazırda AMEA-nın Dilçilik İnstitutunda azsaylı türk xalqlarının dillərini əhatə edən "Azsaylı Türk Xalqlarının Dili" adlı kitab çap mərhələsinə hazırlanır. Bu

təşəbbüs kiçik türk icmalarının dil və mədəni irsinin qorunması, sistemli tədqiqi və gələcək nəsillərə ötürülməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir.

Nəticə. **Türkologiyanın sistemləşməsi və metodoloji inkişaf:** I Türkoloji Qurultay türkoloji elmin strukturlaşdırılmasına mühüm töhfə vermişdir. Qurultay vasitəsilə türk dillərinin təsnifatı, dialektlərin müqayisəli öyrənilməsi və elmi təhlil prinsipləri müəyyən edilmişdir. Bu, türkoloji tədqiqatların daha sistemli, planlı və metodik əsaslarla aparılmasını təmin etmiş, sahənin elmi möhkəmliyini gücləndirmişdir.

Terminologiyanın vahidləşdirilməsi: Qurultay zamanı dil və ədəbiyyat tədqiqatlarında istifadə olunan terminlərin vahidləşdirilməsi məsələləri müzakirə olunmuşdur. Bu təşəbbüs tədqiqatçıların eyni anlayış və terminlər üzərində işləməsini mümkün etmiş, məlumat mübadiləsini asanlaşdırmış və türkoloji araşdırmaların elmi standartlarını yüksəltmişdir.

Beynəlxalq əməkdaşlığın və elmi şəbəkələrin gücləndirilməsi: Qurultay müxtəlif ölkələrdən alimləri bir araya gətirmiş, fikir mübadiləsini və qarşılıqlı təcrübə paylaşımını təmin etmişdir. Bu əməkdaşlıq türkoloji tədqiqatların beynəlxalq səviyyədə tanınmasına və davamlı elmi əlaqələrin qurulmasına səbəb olmuşdur.

Elmi təcrübənin ötürülməsi və ənənənin davamlılığı: Qurultayda təqdim olunan araşdırmalar və müzakirələr, eyni metod və simvolik anlayışların müxtəlif müəlliflər tərəfindən paylaşılması ilə türkoloji elmdə davamlılığın təmin edilməsinə yardım etmişdir. Bu, həm elmi biliklərin sistemli şəkildə ötürülməsi, həm də gələcək nəsillərin tədqiqat üçün möhkəm əsaslar əldə etməsi baxımından əhəmiyyətlidir.

Türkologiyanın müstəqil və konseptual sahə kimi möhkəmlənməsi: Qurultaydan sonra türkoloji tədqiqatlar yalnız dil və ədəbiyyat sahəsi ilə məhdudlaşmayaraq, tarixi, mədəni və etnoqrafik aspektləri də əhatə edən müstəqil elmi istiqamət kimi formalaşmışdır. Bu, həm akademik səviyyədə, həm də praktiki tədqiqatlarda türkoloji elmin nüfuzunu və əhəmiyyətini artırmışdır.

Beləliklə, Türkoloji Qurultay, sonrakı bütün türkologiya, türkoloji toplantılar, yığıncaqlardan ötrü həm elmi baza, həm metodoloji istiqamət, həm də ortaq türk mədəniyyətinin inteqrasiya platforması rolunu oynadı. Sonrakı türkologiya, demək olar ki, bütün inkişafında, əsas məsələ və mzakirələdə 1926-cı ildə qoyulan prinsiplərə istinad etmiş və onları inkişaf etdirməyə çalışmışdır.

ƏDƏBİYYAT:

1. Arat, R. R. (1987). *Türkoloji makaleler*. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü.
2. Axundov, A. (1988). *Ümumi dilçilik* (s. 228). Bakı: Elm
3. Caferoğlu, A. (1984). *Türk dili tarihi*. İstanbul: Enderun Kitabevi.
4. Dilâçar, A. (1968). *Türk dilinin gelişme ve sadeleşme evreleri*. Ankara: Türk Tarih Kurumu.
5. Ergin, M. (2009). *Türk dil bilgisi*. İstanbul: Bayrak Yayınları.
6. Guliyev, N. (2006). *Türkoloji elminin aktual problemləri*. Bakı: Elm.
7. Hacıyev, T. (2013). *Türklər üçün ortaq ünsiyyət dili*. Bakı: Təhsil.
8. Heydərli, A. (2010). Birinci Türkoloji Qurultayın elmi əhəmiyyəti. *Dil və Ədəbiyyat*, 3, 45–52.
9. İsmailoğlu, T. (1999). Birinci Türkoloji Qurultayda ədəbi dil məsələləri. *1926 Bakü Türkoloji Konqresinin 70. Yıl Dönümü Toplantısı*. Ankara:
10. Musaoğlu, M. (2006). Birinci Türkoloji Kurultayının 80 yılı dolayısıyla Baküde düzenlenen uluslararası bilimsel konfransın düşündükleri. *Türk Dili: Dil ve Edebiyat Dergisi*, (656), Ağustos 2006.
11. Togan, Z. V. (1981). *Umumi Türk tarihine giriş*. İstanbul: Enderun Kitabevi.
12. Yusifov, M. (2015). Türkoloji qurultaylar və türkoloji fikrin inkişafı. *Türkologiya*, 2, 7–18.

THE IMPACT OF THE FIRST TURKOLOGICAL CONGRESS ON THE SUBSEQUENT DEVELOPMENT OF TURKOLOGY

ABSTRACT

The First Turkological Congress marked a significant turning point in the development of Turkology as a scientific discipline. It played a crucial role in establishing a unified methodological approach to the study of Turkic languages, history, literature, and cultural heritage. Key issues discussed at the congress included the classification of Turkic languages, the alphabet question, the standardization of terminology, and the application of the historical-comparative method. By bringing together scholars from different

countries, the congress strengthened academic cooperation and contributed to the internationalization of Turkological studies. As a result, Turkological research after the congress became more systematic, methodologically grounded, and conceptually structured, reinforcing Turkology as an independent and well-defined field of scholarship.

Keywords: *First Turkological Congress; scientific-methodological impact; influence on orthography and alphabet reforms; impact on the expansion of scientific and cultural relations; influence on the international prestige of Turkology, etc.*

Sayalı SADIQOVA*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA TERMİN YARADICILIĞI PROSESİNİN İSTİQAMƏTLƏRİ

XÜLASƏ

Məqalədə Birinci Türkoloji Qurultayda termin yaradıcılığı prosesinin istiqamətləri araşdırılmışdır. XX əsrin əvvəllərində elmin və mədəniyyətin inkişafı ilə bağlı yaranan anlayışların ifadəsi, terminlərin yaranması əsas problemlərdən idi. Türk xalqları arasında iqtisadi, siyasi, diplomatik əlaqələr ilə yanaşı, onlar arasında dil kontaktlarının genişləndirməsi, dillərin funksional inkişafında baş verən dəyişikliklər birbaşa onun terminologiyasına təsir edirdi. Ona görə də türk xalqlarının bir-birini asan başa düşməsi, onlar arasında elmi dilin formalaşdırılması zərurəti yaranmışdır. Bu nəzərə alınaraq Türkoloji Qurultayda H. Odabaşın məruzəsində türk dillərində elmi dilin yaxınlaşması üçün termin yaradıcılığı prosesinin istiqamətləri təhlil edilmişdir. Ümumtürk bazasından ayrılan türk xalqlarının terminoloji sistemin inkişafı üçün iki əsas istiqamət müəyyənləşdirilmişdir: türk dillərinin hər birinin sırf özünəməxsus terminləri və alınma terminlər.

Açar sözlər*: terminologiya, termin, türk dilləri, arxaizmlər, alınmalar, dil, əlaqələr*.

XX əsrin əvvəllərində yeni ictimai-siyasi quruluşun yaranması, türk dillərində elmin və mədəniyyətin dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsi, yeni yaranan anlayışların adlandırılmasına uyğun terminlərin yaranması terminologiya probleminin gündəmə gətirilməsinə və müzakirə predmetinə çevrilməsinə səbəb olmuşdur. Ona görə də qurultayda türk dillərinin müxtəlif problemləri ilə yanaşı, termin yaradıcılığı prosesi, terminoloji sistemin formalaşdırılması məsələsi ən aktual problem kimi müzakirə olunmuşdur. Tələblər nəzərə alınaraq Birinci Türkoloji Qurultayda A.R.Zifeld-Simumyaqi "Türk dillərində elmi terminologiyanın yaranması prinsiplərinə dair", B.Çobanzadə "Elmi terminologiya sistemi haqqında", H.Zeynallı "Türk dillərində elmi terminologiyanın sistemi haqqında", H.A.Odabaş "Türk dillərində terminologiya", Ə.B.Baytursun "Kazax terminologiyasının prinsiplərinə dair" məruzələri ilə çıxış etmişdir. Bu məruzələrdə dilin terminoloji sistemini hansı prinsiplər əsasında zənginləşdirmək, termin yaradıcılığı prosesində hansı metod və metodologiyalardan istifadə etmək kimi aktual məsələlərin elmi və həm də əsaslandırılmış şərhi verilmişdir.

A.R.Zifeldin, B.Çobanzadənin, H.Zeynallının, H.O.Odabaşın, A.B.Baytursunun elmi-nəzəri baxımdan mühüm əhəmiyyətli məruzələrində termin yaradıcılıq prosesi və onun inkişaf meyilləri geniş şəkildə təhlil olunmuşdur. "Terminologiya üzrə məruzəçilər, bir tərəfdən, məsələnin ümumnəzəri cəhətlərindən çıxış etmişsə, digər tərəfdən, türk dillərinin konkret təcrübələrinin təhlilini verməyə çalışmışlar. Hər nə qədər ümumi terminoloji bazadan danışılsa da, etiraf olunmuşdur ki, türk dilləri bir çox hallarda termin yaradıcılığında fərqli prinsiplər nümayiş etdirir" [6]. Xüsusilə, Birinci Türkoloji qurultayda termin yaradıcılığı prosesinin meyilləri və istiqamətləri krım tatarı Həbibulla Odabaşın "Türk dillərində terminologiya" məruzəsində elmi əsaslarla təhlil olunmuşdur. İstər arxaizmlərin, istərsə də yeni məna qazanmış sözlərin, eləcə də hər bir türk dilinin lüğət tərkibi hesabına düzələn mürəkkəb sözlərin termin yaradıcılığında rolunu xüsusi vurğulayaraq qeyd edir ki, "hər bir sosial çevriliş, hər bir yeni hərəkət, hər bir ədəbi məktəbin meydana çıxması, ümumiyyətlə, hər bir yeni kəşf və ixtira dildə yeni söz kütləsinin

*AMEA Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsinin müdiri,filologiya elmləri doktoru, professor.
Email: sayalisadigova@yahoo.com

yaranmasını tələb edir" [1,s.189]. Bunun üçün inqilabi hərəkatla bağlı yaranan, iqtisadi-siyasi cəmiyyətə uyğun və dövrün tələbləri nəzərə alınaraq yeni sözlərin yaranma yollarını müəyyənləşdirilir. Əsaslandırılır ki, dilin əsas qanunlarına əsaslanaraq, yeni sözlər həmin dildə mövcud olan leksik materialdan doğur və dilin daxili imkanları əsasında yeni sözlərin yaranması aşağıdakı istiqamətlərdə gedə bilər: "a) çoxdan unudulan sözlərin (arxaizmlər) ya köhnə mənasında, ya da yeni anlamda istifadəyə verilməsi: qurultay, bilik və i. b) canlı dilin materiallarından yeni sözlərin yaradılması: Başkarma - İcraiyyə Komitəsi (Qazan), xızlı gediş - böyük sürət (Azərbaycan), al baylık - ilkin kapitalizm (Qaraçay), köçurultay - idarəetmə (Knm) və i.a.; v) canlı dilin sözlərinin onların ilkin mənasına ilk nəzərdə yaxın olan dar xüsusi mənada işlədilməsi, məsələn: muçe (cəmiyyətin üzvü), baş (rəhbər, sədr), baylık (kapital), birlik (ittifaq)" [1,s.189]. Göründüyü kimi, türk dillərində termin yaradıcılığı prosesində dillərin daxili qayda-qanunlarına riayət olunmaqla dilin lüğət tərkibində olan dil vahidlərinə nəzər salınmaqla, arxaizmlərdən istifadə edilməklə söz yaradıcılığı istiqamətləri müəyyənləşdirilir. Bu prosesdə dilin lüğət tərkibinin əsasını təşkil edən ümumişlək sözlərin, yaxud da unudulan sözlərin ya əvvəlki, ya da yeni mənada anlayışları adlandırması terminlərin yaradılması əsas yol hesab edilir. Dilin öz sözlərindən yeni mənalı sözlər yaratmaqda onların ilkin mənasına ilk növbədə yaxın olan və elmin müxtəlif sahələrində dar xüsusi mənada işlədilməsi formaları göstərilir. Qeyd edilir ki, yeni anlayışların yaradılmasında çoxdan unudulan sözlərin ya köhnə mənasında, ya da eyni anlamda istifadəyə verilməsi, canlı dilin materiallarından yeni sözlərin yaradılması, canlı dilin sözlərinin ilkin mənasına yaxın yeni sözün yaradılması dilləri zənginləşdirir. İstər köhnə, istərsə də yeni məna qazanmış arxaizmlərin yeni məna ifadə edərək terminləşməsi bütün türk dillərinin zənginləşməsində əsas mənbə hesab edilir. Eləcə də hər bir dilin daxilində iki və daha artıq sözün birləşərək yeni mənalı anlayışı ifadə etməsi, mürəkkəb sözlərin yaranma yolları şərh olunur.

H.O.Odabaşın məruzəsində XX əsrin əvvəllərində bütün mədəni dillərdə terminlərin yaranmasında iki istiqamət - dilin daxili imkanları və alınmalar önə çəkilir. Dilin lüğət tərkibinin zənginləşməsində alınmalardan istifadə edilməsi zəruri hesab edilir və onun istiqamətləri müəyyənləşdirilir: Qeyd edilir ki, bütün dillər alınmalar hesabına zənginləşir və bu iki istiqamətdə gedir: "1) Avropa dillərində xüsusi anlayışları ifadə etmək üçün yeni sözlər, əsasən, latın, bəzi hallarda isə yunan dilindən götürülür; rus, fransız, ingilis və i.a dillərdə elmi terminlərin 50-60% məhz adları çəkilən dillərdən alınıb; 2) müsəlman Şərqindəki dillərdə, xüsusən, türk dillərində yeni sözlər demək olar ki, bütövlükdə ərəb dilindən, bəzi hallarda isə fars dilindən alınır. Bu iki istiqamətin başlanğıcını xristian və İslam mədəniyyətlərinin yayılması dövrlərinə aid etmək olar. Son əsrlərdə din əhəmiyyətini xeyli dərəcədə itirsə də, adları çəkilən dillər arasında bərqərar olan sanki üzvi qohumluq onlardan zəruri sözlərin alınması mənasında indi də özünü göstərməkdədir" [1,s.189]. Dövrün dil mənzərəsinin inkişaf istiqamətlərinin təhlili göstərir ki, Avropa dillərində terminlərin yaranmasında latın və yunan dili əsas mənbədirsə, rus, fransız və ingilis dilində terminlərin 50-60 faizi bu dillərdən alınırsa, Şərq dillərində isə terminlərin əksəriyyəti ərəb və fars dillərindən alınır. Bunun səbəbləri izah edilir və göstərilir ki, yeni kəşf və ixtiralar yarandıqları ölkələrdə ad alır və oradan digər dillərə elə həmin şəkildə keçərək işləklik qazanır. Xristian və İslam mədəniyyətlərinin, texnikanın inkişafı ilə əlaqədar olaraq yeni sözlərin mühüm hissəsi başlanğıcını ixtiraçılar, alimlər və i.a. şəxsi adlarından alması, onların dillərə daxil olması, yayılması faktlarla şərh olunur. Qeyd edilir ki, yeni kəşf və ixtiralar yarandıqları, başlanğıcını kəşf olunduğu ölkələrdən alaraq ad alır və oradan digər dillərə elə həmin şəkildə keçir. Türk dilləri də uzun müddət Şərq ölkələri ilə qarşılıqlı əlaqədə olduğuna görə ərəb və fars dillərindən sözlər almışdır. Bu baxımdan Avropa dilindən alınan terminlər türk dillərinə sonralar daxil olmuşdur.

Dildə həm arxaizm, həm də neologizm yeni anlayışların yaradılmasında mühüm rol oynayır. Bunu nəzərə alan müəllif qeyd edir ki, dil canlı orqanizm olaraq öz daxilində həm arxaizm, həm neologizm, həm də varvarizmlərlə mübarizə aparır və özünün daim fəaliyyət göstərən qanunlarına tabe etməyə çalışır. Görkəmli türkoloq dildə gedən bu prosesləri xarakterizə edərək yazır: "arxaizm, neologizm və varvarizmlərə ehtiyatlı və şüurlu yanaşmasını tələb etməklə, onların dilə müdaxiləsində ifrata varma hallarının tənzimlənməsi işində müəyyən müsbət rol oynamasına baxmayaraq, purizmi heç vaxt dili yeni təsirlərdən tədric edə bilməyəcək" [1,s.189]. H.O.Odabaş türk dillərində süni yollarla yaradılan söz yaradıcılığı prosesində purizm və onların növlərini müəyyənləşdirir. Qeyd edir ki, "Müxtəlif türk ləhcələrində purizm özünü

aşağıdakı növlərdə göstərir: a) osmanlı və ona yaxın olan Azərbaycan ləhcələrində - "purizm" özünü birincisi həmin ləhcələri ərəb və fars dillərinin qanunlarının təsirindən azad edilməsinə (tərkiblər, isimlərlə sifətlər arasında uzlaşma qanunları, ərəb və fars dillərinin müxtəlif şəkilçilərindən), ikincisi, həddən artıq bol olan ərəb və fars sözlərindən təmizləməyə cəhd göstərir: b). Krım tatarları, türkmənlər, qazaxlar, qaraçaylar, özbəklər və Volqaboyu tatarlarını ləhcələrində purism ərəb və fars dillərinin təsirilə qarşılaşmışdı; hazırda bu dillərdə həmin təsir demək olar ki, yoxdur. İndi bu ləhcələrdə özlərinin ayrıca terminologiyasını yaratmağa böyük meyl hiss olunur ki, bu da əksər hallarda, ifrat əyalətçiliyə gətirib çıxarır" [1,s.190]. Müəllif türk dillərində purizmin müxtəlif növlərini göstərir, osmanlı və ona yaxın olan Azərbaycan ləhcələrində purizmdən xilas olmaq üçün birincisi həmin ləhcələri ərəb və fars dillərinin qanunlarının təsirindən azad edilməsini, ikincisi həddən-artıq bol olan ərəb və fars sözlərindən təmizlənməsini əsas yol hesab etmişdir. Lakin dinin təsiri ilə son dövrlərdə yaranan terminlər dəyişdirilsə də bir sıra dillər arasında zəruri sözlərin ərəb və fars dilindən alınmasının indi də davam etməsi faktlarla sübut edilir. Qeyd edir ki, ərəb və fars təsirlərindən qurtarmaq üçün türk dillərinin əksəriyyətində dilə uyğun olmayan, mənası da dərk olmayan qondarma sözlərin yaradılması əyalətçiliyə gətirib çıxarır və dilin tənzimlənməsinə mənfi təsir göstərir. Şükrü Halık H.Odabaşın fikirlərini təhlil edərək yazır: "Hər dövrün elmin inkişafı ədəbi dilə yeni kəlmələr gətirir. Yeni sözlər 3 yolla ortaya çıxır: dilin öz daxili imkanları hesabına, başqa dillərdən alınma və ya kəşflərlə bağlı yaranan adlar. Bu proses dilin sürətli dəyişməsinə təkan yaradır, eyni zamanda dilin qanunlarını "varvarizmlərə qarşı qoyur". Buna görə də hər bir dildə sadələşmə hərəkətləri yaranır. Lakin, bunların həddən artıq olması, yəni purizmi dilinin inkişafına mane olur" [2,s.139]. Bununla da dildən bütün ərəb və fars sözlərinin çıxarılmasının dilə mənfi təsirini aydınlaşdırır.

Xüsusilə, Oktyabr inqilabından sonra xalq təhsil orqanları tərəfindən elmi terminologiya sahəsində aparılan işlərin düzgün olmamasının səbəbləri verilir. Termin yaradıcılığında bir kökdən olan xalqların birbirindən ayrılmasına, anarxiya və xaosa səbəb olması, eləcə də həmin terminlərin işləklik qazanmaması tənqid edilir. Türk xalqları arasında ortaq terminologiyanın yaradılması yolları göstərilir: "Əhalisi 30 000-dən 1,5 milyona qədər olan balkarlar, qaraç, kumıklar, Krım tatarları, türkmənlər, başqırdlar və s. azsaylı türk xalqları ki, xüsusi terminologiyaya malik elmi ədəbiyyat və mədəniyyətlərini saxlaya bilməz. Əgər indi hətta dəbdə olan nəşrlər bu xalqların savad səviyyəsi aşağı olması üzündən özünü ödəmirsə, daha yüksək savad səviyyəsi o halda da gələcəkdə buna ümid etmək olmaz. Odur ki, elmi terminologiyanın yaradılması məsələlərində bu xalqlarının say və mədəniyyət baxımında qüdrətli olan türk qruplarına birləşməsinin zəruriliyi göz qabağındadır" [1,s.190]. Lakin N.Odabaşın Qurultayda terminologiyanın yaradılmasında azsaylı türk xalqlarının say və mədəniyyət baxımında qüdrətli olan türk qruplarına birləşdirilməsi fikri mübahisələrə səbəb olmuşdur. Bununla yanaşı qeyd edir ki, türk dillərində elmi terminologiyanın bir sıra xalqlarda inkişaf etməməsini nəzərə alaraq, onların birgə səylərinin nəzərə alınması zəruridir. Təklif edilən bu məsələlər özünü tam doğrultmasa da müəyyən dərəcədə onların dəyişdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Eləcə də, Krım tatarları, türkmənlər, qazaxlar, qaraçaylar, özbəklər və Volqaboyu tatarlarının ləhcələrində ərəb-fars dillərinin təsirlərinin tamamilə aradan qaldırılması və bu dillərin özlərinin terminologiyasının yaradılması təklifi irəli sürülür. Bununla yanaşı qazaxların, azərbaycanlıların, özbəklərin sayı çox olsalar da maddi-mədəniyyətlərinin aşağı səviyyəsi, elmin kifayət qədər inkişaf etməməsi, digər tərəfdən isə bu xalqlarda elmi terminologiyanın olmamasını nəzərə alaraq yeni elmi terminologiyanın yaradılması məsələlərində türk xalqlarının birgə səylərinin zəruriliyini əsaslandırır və terminologiyanın yaradılması üçün prinsiplər müəyyənləşdirilir.

Təklif edilir ki, sosial-tarixi səbəblər üzündən türk dillərinə ərəb və fars dillərindən daxil olan elmi terminləri araşdırdıqda onlardan eyni yazılış formaları və eyni məna verən terminlər saxlanılmalıdır. Bəzi ayrı-ayrı türk dillərində vətəndaşlıq hüququ almış, beynəlmiləl sayılan bir sıra ərəb və fars terminlərinin yerli sözlərlə əvəz edilməsi meylini məqsədəuyğun hesab etmir. Türk dillərində termin yaradıcılığına bu müstəvidən yanaşılaraq elmi terminologiyanın yaradılması prinsipləri verilir: "Sosial-tarixi səbəblər üzündən türk dillərinə ərəb və fars dillərindən daxil olan elmi terminləri araşdırdıqdan, onlara eyni yazılış formaları verdikdən və bütün türk xalqları üçün eyni məna verdikdən sonra saxlamalı. Bəzi ayrı-ayrı türk tayfalarının bu ləhcələrdə müəyyən mənada vətəndaşlıq hüququ almış və bir növ, beynəlmiləl sayılan bir sıra ərəb və fars terminlərini yerli sözlərlə əvəz etmək meylini məqsədəuyğun saymamaq"[1,s.191].

Müəllif yeni terminlər yaradılarkən daha çox türk dillərinin daxili imkanlarından istifadə etməyi, türk dilinin qanunlarına əsaslanmağı, ərəb dilinin bəzi şəkilçilərinin elə həmin dildən alınan sözlərdə tətbiq edilə bilməsi məsələlərini də önə çəkmişdir. Türk dilləri ilə latın, yunan dilləri arasında hər hansı sosial tarixi yaxınlığın olmamasını nəzərə alaraq Avropa dillərindən daxil olan -izm, -logiya, -asiya, -ist kimi sözdüzəldici şəkilçilərin qəbul olunmasının mümkünlüyünə şübhə edir və belə sonluqların canlı danışıq dilində işlədilməsini məqbul hesab etmir. H.Odabaş bu şəkilçilərin türk dillərində olmadığını əsas götürərək zəruri hallarda terminlərin alınması fikrini irəli sürür. Onu da qeyd edir ki, şübhəsiz, bu dövrdə purizm cərəyanı da qaçılmazdır və həmin cərəyanın da dildə müsbət rolu ola bilər. Müasir texniki biliklərin inkişafı ilə bağlı olaraq Qərbi Avropa terminlərinin işlənməsini təbii hesab edir. Fəlsəfi fikirlərin, eləcə də ideoloji sahədə ərəb dilinin zənginliyi və türk dillərində terminlərin alınması tələbatının ödənilməsi üçün əsas mənbə hesab edilir. Təklif edilir ki, "türk terminologiyası məsələləri özünün bütün təfərrüatları ilə həllini yalnız xüsusi olaraq yaradılan elmi institutda tapa bilər. İnstitutun məqsədi terminologiyaya dair bütün türk vilayətlərində olan təcrübəni toplamaq, müvafiq ilkin lüğətlər tərtib etmək, bunları rəy almaq üçün yerlərə göndərmək, rəyləri toplamaq, onları müzakirə etmək və elmin müxtəlif sahələrində terminologiyanı qəti olaraq bərqərar etmək" [1,s.192]. Verilən bu təklifin nəzərə alınması bu gün də hər bir dildə söz yaradıcılığı prosesinə yeni istiqamət verir. C.Qasımov yazır: "Odabaş 15 maddədən ibarət olan tezislərini elmi cəhətdən kifayət qədər əsaslandırırdı. Ona görə də müzakirələrdə çıxış edən bəzi nümayəndələr onun tezislərini müsbət qarşıladı. Bəziləri isə müzakirələr zamanı mübahisəli hesab etdikləri cəhətləri tənqid etdilər. Mübahisəli və mübahisəsiz cəhətləri ilə birlikdə terminologiyadan bəhs edən məruzəçilərin çıxışlarının əsasını türkdilli xalqların ortaq terminoloji sisteminin yaradılması kimi ciddi bir ideya təşkil edirdi. Odabaş balkar, kumuk, qaraçay, krım tatarları, başqırd, türkmən və s. kimi azsaylı xalqların termin yaradıcılığındakı çətinliklərə toxunaraq onlara inkişaf etmiş türkdilli xalqların terminoloji bazalarına müraciət etməyi tövsiyə edirdi." [5,s.89]. Terminologiya məsələləri müzakirə olunarkən H.Qdabaşın fikirləri birmənalı qarşılanmamış, hətta tənqid edilmişdir. Onun Qurultayda irəli sürdüyü fikirlər yanlış şərh olunmuşdur: "O deyir ki, hər hansı bir terminologiyamız yoxdursa və həmin terminologiya hər hansı bir türk xalqında varsa, həmin sözü o xalqdan iqtibas etməliyik. Hansısa türk xalqında, məsələn, başqırd və tatarlarda hər hansı bir söz tapılarsa, o bu sözü mütləq, məsələn, özbəklərə də aşılamaq istəyir. O deyir ki, həmin sözü qəbul etməsəniz, bu əyalətçilik olacaq" [1,s.199]. Əslində isə müəllifin fikri dillərdə işlənən termini başqasına aşılamaq deyil, termin yaratma meyllərini müəyyənləşdirmək idi. Odabaşın məruzəsində mübahisəli fikirlərin olmasına baxmayaraq, türk dillərində, xüsusilə də balkar, kumuk, qaraçay, krım tatarları, başqırd, türkmən və s. kimi azsaylı xalqların termin yaradıcılığındakı problemlərini təyin edərək çıxış yollarını göstərmişdir. Türkdilli xalqların tarixən birliyi nəzərə alınaraq, ortaq terminoloji sisteminin yaradılması üçün ortaq terminoloji bazalardan istifadə yolları ideyası irəli sürülmüş və termin yaradıcılığının istiqamətləri müəyyənləşdirilmişdir. Təhlillərdən aydın olur ki, I Türkoloji Qurultayda türk dillərində elmi terminologiyanın inkişaf istiqamətləri elmi əsaslarla şərh olunmuşdur. Hazırda hər bir türk dilində termin yaradıcılığı prosesində bu istiqamətlər əsas götürülür. Lakin hələ də türk dillərində ortaq terminologiyanın yaranması öz həllini tapmamışdır. Müasir qloballaşma dövründə türk xalqları öz milli irsini qoruyub saxlamalı, bütün türkdilli ölkələrdə ümumi türk tarixinin, mədəniyyətinin, müxtəlif elm sahələrinin inkişafı üçün ortaq terminlər yaradılmalıdır. Bunun üçün türk xalqlarının dialektoloji lüğətləri, tarixi lüğətlər, eləcə də xalq dilini özündə əks etdirən izahlı lüğətlər tərtib olunmalıdır. Tarixən bir kökdən olan, lakin sabitləşmiş fərqli xüsusiyyətləri olsa da, ayrı-ayrı türk dilləri yeni terminlərin yaranmasında dilin daxili imkanlarını və beynəlxalq leksikanı əsas götürməlidir. Türk dilləri yeni anlayışları ifadə edərkən dünyanın qəbul etdiyi beynəlxalq dillərdən terminlər alıb işlətməlidir. Bu dillərdə elmi dilin bir-birinə daha yaxın olması üçün ortaq terminlər yaradılmalıdır. Türk xalqları yerləşmə məkanına görə aralarındakı ən uzaq məsafələrə baxmayaraq, bu dildə danışanların hər biri türk dillərində nəşr olunan elmi əsərləri, çap olunmuş qəzeti, kitabı oxuyub dərk edə bilsin. Çağdaş türkologiyamızın qarşısında bu problemin həllinə xüsusi diqqət yetirmək zəruri tələbələrdən biridir.

ƏDƏBİYYAT

1. 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006.
2. Akalın Ş. 100 yılında 100 soruda Birinci Türkoloji Kurultayı. Ankara, Erkmen Yayımçılık, 2025.
3. Akalın Ş. Birinci türkoloji Qurultayın 90 illiyində termin məsələlərinin bugünkü vəziyyəti və gələcəyi, Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar (I hissə).
4. Çobanzadə B. Türk ləhcələrinin yaxın qohumluğu haqqında, Azərbaycan müntəxəbatı, Bakı, İ c. 2015.
5. Qasımov C. Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, Gənclik, 2019.
6. Cəfərov N., Hüseynova M., Qəribli A. I Türkoloji Qurultayda termin məsələsi, Ədəbiyyat qəzeti, 18 avqust 2025-ci il.

Саялы САДЫГОВА

НАПРАВЛЕНИЯ ПРОЦЕССА СОЗДАНИЯ ТЕРМИНОВ НА ПЕРВОМ ТУРКОЛОГИЧЕСКОМ КОНГРЕССЕ

РЕЗЮМЕ

В статье рассматриваются направления процесса создания терминов на Первом тюркологическом конгрессе. Одной из главных проблем стало выражение понятий, возникших в связи с развитием науки и культуры в начале XX века, а также создание терминов. Наряду с экономическими, политическими, дипломатическими связями между тюркскими народами, расширением языковых контактов между ними, изменениями в функциональном развитии их языков, это напрямую повлияло на их терминологию. Поэтому возникла необходимость в том, чтобы тюркские народы легко понимали друг друга и формировали среди них научный язык. Учитывая это, Н. Одабаш определил направления процесса создания терминов для сближения научного языка на тюркских языках на Тюркологическом конгрессе. Выделены два основных направления развития терминологической системы тюркских народов, отделенной от общей тюркской базы: чисто специфические термины каждого из тюркских языков и заимствованные термины.

Ключевые слова*: терминология, термин, тюркские языки, архаизмы, заимствования, язык, отношения.*

Sayalı SADIGOVA

DIRECTIONS OF THE TERM CREATION PROCESS AT THE FIRST TURCOLOGY CONGRESS

SUMMARY

The article examines the directions of the term creation process at the First Turkological Congress. The expression of concepts arising in connection with the development of science and culture at the beginning of the 20th century, the creation of terms were one of the main problems. Along with economic, political, diplomatic relations between the Turkic peoples, the expansion of language contacts between them, changes in the functional development of their languages directly affected their terminology. Therefore, the need arose for the Turkic peoples to easily understand each other and to form a scientific language among them. Taking this into account, N. Odabaş determined the directions of the term creation process for the rapprochement of the scientific language in the Turkic languages at the Turkological Congress. Two main directions have been identified for the development of the terminological system of the Turkic peoples separated from the general Turkic base: purely specific terms of each of the Turkic languages and borrowed terms.

Keywords*: terminology, term, Turkic languages, archaisms, borrowings, language, relations.*

İlhami CƏFƏRSOY*

AVRASİYANIN QƏDİM XİVƏ, SAMARA VƏ BUXARA ŞƏHƏRLƏRİ

XÜLASƏ

Özbək xalqının əcdadları yalnız Orta Asiyanın deyil, Şimali Çindən başlamış Aralıq dənizi sahillərinə, Siciliyaya, Ural dağlarından başlamış Nil vadisinə qədər qədim dövlətlərin, mədəniyyətlərin yaradıcılarından biridirlər.

Həmin elitar nəsillərindən üçü Xivə, Samar və Buxardır. Onlar latınlardan, yunanlardan, romalılardan qabaq Ön Asiyada, Cənubi Qafqazda Xivə, Buxara, Samara şəhərlərini salmış, Krımla Aralıq dənizi, Misir arasında davamlı ticarət əlaqələri yaratmışlar. Ruslaşmış Buxar nəslindən Buxarın soyadlı knyazlar, gürcüləşmiş Buxar nəslindən Buxaralidze İoan adlı kilsə salnaməçisi çıxmışdır.

Məqalədə belə bir aktual problem elmi ictimaiyyətin müzakirəsinə çıxarılır ki, Romaniyanın paytaxtı Buxarest şəhərinin adı Buxar etnonimindən törəmişdir. Buxar nəslinə qohum olan Baxar nəslinin də etnik kimliyi etnolinqvistik tədqiqatın obyektinə çevrilmişdir. Baxar nəslinin bir qolu İberiyanın hakim nəsillərindən biri olmuş, bir qolu qədim Misirdə Baxar şəhərini salmışdır.

Onların bir hissəsi də Aralıq dənizində güclü donanma yaradıb Siciliya adasını tutmuş, orada latınlardan qabaq Baxar şəhərini salmışdır.

Avrasiyanın qədim elitar nəsillərindən biri də Samardır. Onlar yalnız Orta Asiyanın yox, qədim Ön Asiyanın, Aralıq dənizinin şərq sahillərinin, sonralar cənubi rus çölləri adlanan Türk torpaqlarının slavyanlara, iudalara, hindavropalılara qədərki dövlətinin, mədəniyyətlərinin yaradıcılarıdır.

Samarlar və Xivələr qohum xalqlar idilər. Onların adı eradan əvvəl III minilliyə aid Şumer mixi yazılarında çəkilir. Onlar Azərbaycanın Aran mahalından Finikiyaya köçdülər. Yüksək bir dağın üstündə Samar qalasını salıb, qədim prototürk dövlətlərdən birini yaratdılar. Ernst Renan xristianlığın ilk əsrlərinin tarixi kitabının 1873-cü il nəşrində yazır ki, Samar alpları Kənan tayfa ittifaqının tərkibində Finikiyada şəhər salıb özlərinə dövlət quranda hələ iudalar Fələstinə gəlməmişdilər. Samarlar bir şəhəri də Cənubi Qafqazda salmışdılar. Həmin şəhər Makedoniyalı İsgəndərin zamanına qədər qalırdı.

Özbək xalqının Xivə, Buxar, Samar adlı əcdadları həm özbəklərin, həm Azərbaycan və Anadolu türklərinin əcdadlarıdır. Biz birlikdə bu tarixi etnogenetik və etnolinqvistik bağları elmi tədqiqatın obyektinə çevirməliyik.

Açar sözlər: *Xivə, Buxar, Samar, Özbək, Türk, Aran, Finikiya.*

Özbək xalqının əcdadları digər qardaş Türk xalqları ilə birlikdə qədim Avrasiya mədəniyyətinin yaradıcılarıdır. Həmin xalqlardan biri buxarlardır.

Buxar övladlarının yadigarı kimi Özbəkistanda Buxara şəhəri qalmışdır. V.V.Radlov yazır ki, Buxara tatarları özlərini Buxarlık adlandırırlar [Радлов: 1989.s.605].

Buxarların bir oymağı da cənub-qərbi Sibirdə yaşayırdı. Tümen vilayətindəki Buxar qəzası [Радлов: 1989.s.693] onların tarixi vətənlərindən biridir.

Üç yüz ilə yaxındır ki, Buxar türklərinin torpağı Rusiya Federasiyasının tərkibinə qatılmışdır. Rusiya bu sürətlə zəifləyərsə, o qəzanın Özbəkistana birləşdirilməsi haqqında iddia Özbək xalqının qanuni haqqıdır. Buxar adına qırğızlar arasında da rast gəlirik. Kırqız - Kazax xanı Ablayın Buxar jırau adlı qopuzçu ozanı var idi [Чокан Валиханов: 1984.s.2016]. O, 1688-1721-ci illərdə yaşamışdır.

Buxarların bir hissəsi də Cənubi Qafqaza və İranın şərqinə köçmüş, Azərbaycan xalqının mənşəyinə daxil olmuşdur. Kaşkayların arasında XVII-XVIII əsrlərdə Buqarli tayfasının varlığı fikrimizi təsdiq edir.

İ.İ.Şopen yazır ki, İrəvan quberniyasında Buqarli adlı kənd var [Шопен: 1852.s.1123]. Buxarlılar tərəkəmə elat idilər. Onların bir oymağı İrəvan çuxurunda qışlayar, yayda Göyçə gölü ətrafına yaylağa gələrdi.

Aşıq Ələsgər onların yaylaqlarından birinin Tanket Buxarı olduğunu yazır.

Əyricə, Verst dağı, Tanket Buxarı,
Ağ sürülər Sarı yaldan yuxarı.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri.

Buxarların bir qolu Albaniyadan Gürcüstana köçmüş, orada xristian dinini qəbul edib illər ötəndən sonra gürcüləşmişdir. Gürcü tarixçiləri onları Pukaralidze, yəni Buxaralı adlandırırlar.

Buxaralı xristianlardan XI əsrdə bir neçə kilsə salnaməçiləri, elm və din xadimləri çıxmışdır. Onlardan biri Pukaralidze İoan idi [Амиранашвили: 1956.s.7, 38, 53].

Buxar nəslinin bir hissəsi də Kızıl Ordanın süqutundan sonra Rusiyaya köçmüş, öz qılıncı ilə rus çarlarına xidmət etmişdir. Rus zadəganlarının Məxmər kitabında onların soyadı Buxarin formasındadır.

N.A.Baskakov yazır ki, rusların Buxarin knyaz nəsli Türk mənşəlidir [Баскаков: 1979.s.175]. Onların knyaz nəslinin gerbində 6 guşəli ulduz şəkli var idi [Баскакрв: 1979.s.176].

Bəzi salnaməçilər Buxar və Baxar türklərini eyniləşdirirlər. Əslində isə onlar eyni yox, qohum tayfalar idilər.

Baxarların adı Bakar formasında Bibliyada çəkilir və onlar bene-Kadem övladları kimi təqdim olunurlar [Архимандрит İероним: 1843.s.58]. Bene-Kadem övladları o zaman Ön Asiya, Turan mənşəli tərəkəmə oymaqlara deyilirdi.

Bibliyanın ilk nüsxəsi eradan öncə X əsrdə yazıya alınmışdır. Ondan çox qabaq baxarlar Şumerdə yaşamış, Dəclə və Fərat çaylarının qovuşduğu yerdə Baqar məbədini inşa etmişdilər [Канева: 1996.s.169].

Şumer şəhərləri yadelli tayfaların basqınlarına məruz qalanda baxarlar iki yerə bölündülər, Cənubi Qafqaza və Nil vadisinə köçdülər, çay sahilində Batu el-Bakarak şəhərini saldılar. B.A. Turayev yazır ki, Batu el-Bakarak eradan öncə II minillikdə Misirin böyük şəhərlərindən biri idi [Тураев: 1915.s.15].

Baxarların bir hissəsi də Aralıq dənizinin şərq sahillərindən Siciliya adasına köçmüşdü. Onların Siciliyada saldıqları şəhər və qala XIX əsrədək qalırdı. Bu barədə Avraam Nopov 1828-ci ildə nəşr etdirdiyi "Siciliyaya səyahət" kitabının I cildində məlumat verir [Авраам Норов: I. 1828.s.77, 82]. Biz türklər yalnız Orta və Ön Asiyanın yox, Finikiyanın, Misirin, cənub-qərbi Avropanın qədim mədəniyyətlərinin və dövlətlərinin yaradıcılarıyıq.

Cənubi Qafqaza köçən Baxar bəyləri Albaniya və İberiyanın hakim nəsiilləri oldular. Həmin nəslin müsəlman hissəsi Azərbaycan tarixinə Baharlı adı ilə daxil olmuşdur. Onların çoxu Qarabağda, az bir qismi İrəvan çuxurunda və Kapan mahalında yaşayırdı. İ.İ.Şopen yazır ki, Baharli Ermənistanda yaşayan Türk tayfalarından biridir [Шопен: 1852.s.567].

Baharlıların ən döyüşkən alpları baqrationlardan qabaq İberiyanı tutmuş, fasilələrlə IV əsrdən XVIII əsrin əvvəllərinə qədər o ölkədə hökmdar və vilayət hakimləri olmuşdular [Орбелиани: 1913.s.114; Сулхан Саба: 1959.s.19].

Baxarlar İberiyanı tutanda hələ Qafqazda xristianlıq yayılmamışdı. Onlar İsus xristosa yox, öz əcdadlarının bütlərinə tapınırdılar [Мapp: 1906.s.10].

Baxarlar sonra xristian dinini qəbul etdilər. Eranın 342-ci ilində I Bakar ermənileri məğlub edib İberiyada hökmran oldu [Эсадзе: 1801.s.6].

1724-cü ildə tərtib edilən bir salnamədə bildirilir ki, Bakar tayfa başçılarının bir neçəsi Kartlidə çar olmuşdur [Переписка грузинских царей: 1836.s.156, 174].

Həmin məlumatı daha geniş şəkildə Baqration nəslindən şahzadə Vaxuşti təqdim edir. Yazır ki, gürcü zadəganı Bakar 1717-ci ildə hakimiyyətə gəlib Gürcüstanın 96-cı carı oldu [Вахушти: 1976.s.105].

Şahzadə Vaxuşti qədim salnamələrə istinadən onu da yazır ki, Bakar alpları əvvəllər Qorq Aslanın tərəfində idilər [Вахушти: 1976.s.125]. Qorq Aslan Kimer mənşəli idi, eranın V əsrində hakimiyyətə gəlmiş, Baxar və Buxar nəsillərinə qohum olmuşdur.

Qorq Aslan Qafqaz Albaniyasının Aran hakimi Varaz Bakurun bacısı oğlu idi. Bakurun göndərdiyi 12 minlik qoşunun köməyi ilə o, yunanları ölkədən qovub, dağlı tayfaları tabe etmişdi [Джуаншериани: 1986.s.63, 80, 83, 91; Хантадзе: 1970.s.30].

S.A.Xantadze yazır ki, Qorq Aslan və dayısı Bakur gürcü deyildilər, hansısa Türk tayfasının başçısı idilər [Хантадзе: 1970.s.83]. Bakar soyadlı bir vilayət hakimi də Baqration nəslindən gürcü çarı Vaxtanqın oğlu idi [Амиранашвили: 1956.s.49].

Gürcü tarixçiləri özləri təsdiq edirlər ki, Samaria və Yerusəlim ətrafından Qafqaza gələn baqrationların ilkin adı Baqarat olmuşdur [Бакрадзе, Берзенова: 1870.s.19]. Sözün kökü Baqar / Baxardır, -at çoxluq və etnik mənsubluq şəkilçisidir.

Gene D. Matlock yazır ki, baharlar Türk köçərilərdirlər, onlar dünyaya Sibir və Orta Asiyadan yayılıblar [Gene D. Matlock: 2015.s.132].

Gürcüstandakı bakarların dili sami dillərinin təsiri ilə qrammatik quruluşunu dəyişmiş Türk dilidir. Çünki onlar Misiri, Fələstini tutub şəhərlər salanda samilərlə qarışmışdılar. Xristian olandan sonra onların dilləri bir daha yad təsirlərə uğrayıb başqa bir dilə çevrildi. Müsəlman baharlılar isə özlərini qorudular, Türk olaraq qaldılar.

Özü də Bahar / Baxar nəslindən olan Vaxusti yazır ki, baqrationlar öz şəcərələrini David və Solomondan başlayırlar [Вахушти: 1904.s.XVII].

David və Solomon yəhudi deyildilər, bene-Kadem övladları idilər. Bibliyada Ön Asiyadan gəlib Yerusəlim, Samaria şəhərini salan xalqlar bene – Kadem övladları, yəni Şərq oğulları adlandırılır. Onlar sami deyildiklər, Turan dillərinin qohum ləhcələrində danışırdılar [Велльгаузен: 1909.s.177, 413; Блейхштейнер: 1936.s.190; Хаханов: 1895.s.1; Коковцев: 1932.s.55, 59, 72].

Əgər Solomon e.ö. 970-933-cü illərdə, David övladlarından Manassiya e.ö. 698-643-cü illərdə Yerusəlim və Samaria şəhərlərində hökmran olublarsa [Велльгаузен: 1909.s.177, 413; İосиф Флавий: 52390], bizim atalarımız Yerusəlimin, Samarianın samilərdən öncəki mədəniyyətinin yaradıcılarıdır.

David, Solomon, Manas övladları ataya dede, igid oğlanlara er, səhərə sahar, ölümsüzlüyə olum deyirdilərsə [Вигуру: 1897.s.301, 304; Велльгаузен: 1909.s.413], onlar bizim əcdadlarımızdır. Biz bu istiqamətdə tədqiqatları davam etdirməli, qırğızların və David övladlarının Manas adını türkoloji baxımdan öyrənməliyik.

Özbəkistanın böyük şəhərlərindən biri Samarkantdır. Həmin şəhəri qədim dünyanın Samar xalqı salmışdır. V.V.Bartold yazır ki, X-XV yüzil sənədlərində Samarkant şəhəri Samaria da adlanır [Бартольд: 1914.s.22]. Samarkant samarların kəndi, Samaria samarların ölkəsi demməkdir.

Samarlar yalnız Özbəkistanda yox, Baykal gölü vadisində, Volqa çayı boyunda, Dnepr çayı sahilində, Qafqazda və Fələstində yaşayırdılar. Baykal gölü vadisindəki bir mahal onların adı ilə XIX əsrədək Samar adlanırdı [Семёнов: 2, 1895.s.359].

Ruslar Şərqi Sibiri tutanda çoxlu türkcə şəhər və kənd adlarını, o cümlədən Samar mahalının adını dəyişdilər.

Tarixi toponimlərimizə qarşı düşmən siyasəti sovet dönəmində davam etdirildi. Volqa çayı boyundakı Samara vilayətinin adı [Таиров: 2002.s.8] xəritələrdən silindi.

Dnepr çayına tökülən çaylardan biri və o çayın sahilindəki şəhər də Samaria adlanırdı [Боплам Гильом: 1832.s.18; Древняя история: VII. 1760.s.112]. 1937-ci ildən sonra nəşr olunan xəritələrdə o şəhərin adı yoxdur.

Samarların Ukraynada yaşayan nəsilləri xristian dinini qəbul edib ruslaşdılar, ancaq çar Rusiyasına qul olmadılar. Kutuzovlar, Suvorovlar, Saltıkovlar kimi knyazlar, generallar oldular [Российский Родословный сборник: I. 1840.s.13-14].

Samarlar qədim dünyanın elitar nəsillərindən biri kimi ən qədim şəhərlərini Aralıq dənizinin şərq sahilində salmışdılar. Hətta köhnə nəsil tarixçilər arasında samarlarla Şumerləri eyniləşdirənlər var.

Kvinta Kursiya 1750-ci ildə nəşr olunan "Böyük Aleksandrın tarixi" kitabında yazır ki, Samar xalqının adı Somer [Квинта Курция: 1750.s.407], yəni Şumer adından yaranıb.

Samarlar özlərinin qədim şəhərlərindən birini Fələstində salmışdılar [Древняя история: VII. 1760.s.112; Краткое руководство к древней географии: 1753.s.376]. Bundan başqa onların Aralıq dənizinin şərqində bir neçə şəhəri, kəndi, qalası var idi [Роллен: V. 1760.s.205]. Qədim dünya tarixinin görkəmli araşdırıcıları Rollen və Struve yazırlar ki, Samaria Aralıq dənizinin şərqində həm yüksək dağ başında qala, həm də dövlət idi [Роллен: I. 1751.s.39; Струве: 1941.s.328]. Sonra Samaria şəhəri böyüyüb İzrailin paytaxtı oldu [Безертинов: 2001.s.412].

Yevrey tarixçilərinə görə İzrailin paytaxtı Samaria şəhəri eradan öncə 923-cü ildə salınmışdır [Квинта Курция: 1750.s.195]. O zaman hələ samilər İzrailə gəlməmişdilər, Yerusəlimdən xeyli cənubda İudeyada yaşayırdılar. İudaların Fələstinə gəlişi bundan 7 yüz il sonra eradan əvvəl II əsrdə başladı [Безертинов: 2001.s.410].

Avraam Norov yazır ki, Samaria yalnız bir şəhər deyildi, Fələstinin bir vilayəti idi. O şəhər xeyli sonra İzrailin paytaxtı olmuşdur. Assurlar böyük qoşunla gələnə qədər onlar iudalarla vuruşur, onları ölkəyə buraxmırdılar [Авраам Норов: 1854.s.1854.s.49; Роллен: X. 1762.s.499; Историогрпфия 2002.s.34].

Samarların, xivələrin süqutu Assuriya qoşunlarının Fələstinə basqınları ilə başladı. O zaman Samaria ölkəsi 1 vilayətdən və 2 şəhərdən ibarət idi [Описание Иудейской земли: 1824.s.63, 65, 67].

Assurlarla döyüşlərdə zəifləyəndən [Роллен: X. 1762.s.499; Шопен: 1866.s.199] sonra onların ölkəsinə iudalar basqınları davam etdirdilər.

Assurların basqınlarından və iudaların zülmündən qorunmaq üçün Samaria hakimi Etiopiya hökmdarı Sabak ilə müqavilə bağladı [Роллен: II. 1751.s.44].

Xeyli müqavimətdən sonra Assuriya hökmdarı Salman Asar onları Midiyaya köçürdü. Samaria və Xivə şəhərlərinə vergi vermək şərtilə iudaları yerləşdirdi [Шопен: 1866.s.327].

Baron Brambaus ləqəbli Senkovski yazır ki, Assuriya hökmdarı Salman Asar Samarianı eradan öncə 730-cu ildə tutmuşdur [Сенковский: VI. 1859.s.539]. Deməli, o zamana qədər Samaria iudaların yox, prototürk samarların şəhəri olmuşdur.

Samarlar Matay dövlətinin qonşuluğuna gələndə Mana ölkəsində Samar şəhərini salıb [Меликишвили: 1960.s.442] eradan öncə IV əsrin ortalarında qədər öz müstəqilliklərini qorudular. Makedoniyalı İsgəndər gələndə Qafqaz dağlarının ətəklərinə və Şimali Qara dəniz çöllərinə çəkildilər.

Q.S.Mamulia qədim İber salnamələrinə istinadən yazır ki, Samar qəbilə başçısı Makedoniya qoşunları ilə döyüşdə öldürüldü [Мамулиа: 1979.s.176].

Samarların az bir hissəsi qədim vətənlərində qalmışdı. Orada siyasi hakimiyyətdən uzaqlaşıb ticarətlə məşğul olurdular. Aralıq dənizində gəmilərə sahib idilər. Makedoniyalı İsgəndər Yerusəlimi tutanda müqavimət göstərmədilər, döyüşsüz təslim oldular [Роллен: V. 1760.s.195, 205; Квинта Курция: 1750.s.195].

Samarianın iudalardan öncəki xalqlarından biri Xivə idi. Onları köhnə nəsil yevrey tarixçiləri Kənan tayfalarından biri kimi təqdim edirlər. Yazırlar ki, Xivə alpları Aralıq dənizinin şərqinə Yusif Kənanla birlikdə Arandan gəliblər [Эрнст Ренан: I. 2750.s.89].

Nəzərə alsaq ki, Yusif Kənan Misirdə eradan öncə 1730-1700-cü illərdə hökmran olmuşdur [Рагозина: 1902.s.32], Xivə qədim Ön Asiyanın elitar prototürk nəsillərindən biridir.

Ernst Renan Bibliyaya və İosif Flaviyə istinadən yazır ki, Yusif Kənanın ətrafına toplaşan Asiyalı tayfaları qonşuları İosephel adlandırırdılar. İosephellər köçəri və mədəni tayfalar idilər [Эрнст Ренан: I. 2750.s.103-104].

Həmin mədəni və köçəri tayfalardan biri Xivə idi [Генрих Грець: I. 1906.s.46]. Ernst Renan yazır ki, Xivəli kənanlar Samariaya, yəni Aralıq dənizinin şərq sahilinə Aran ölkəsindən gəliblər [Эрнст Ренан: IV. 2750.s.89]. O zamankı Aran ölkəsi Kür və Araz çaylarının aşağı axarının arası yox, Urum gölü ilə Dəclə çayının yuxarı axarının arası idi [Византийские историки: 1859.s.220; Авдиев: 1948.s.5].

Xivələr də Samarlar, Buxarlar kimi yalnız Orta Asiyada yox, Fələstində, Misirdə şəhərlər salmış, xanlıqlar, bəyliklər yaratmışdılar. Bir zaman o qədər güclü idilər ki, qədim Misirdə Xeva [Тураев: 1920.s.116], Siciliyada Kefalu şəhərini salmışdılar [Авраам Норов: 1828.s.229; Всеобший географический и статистический словарь: 1843.s.551].

Hətta Xəzər dənizi bir zaman onların adı ilə Xevali tenqiz adlanırdı. Qədim rus və slavyan salnamələrində göstərilir ki, Xəzər dənizinin ən qədim adı Xevali idi [Описание Донской земли: 1834.s.3; Описание Колы и Астрахани: 1804.s.6].

Xivə alpları Siciliyada latınlarla vuruşdular, ancaq sonda məğlub olub geri çəkildilər. Bu döyüşlər nəticəsində Xivə dilindən Avropa dillərinə çoxlu sözlər, hərbi terminlər keçmişdir.

Eradan əvvəl Roma dövründə yaşamış Mark Terensi Varron yazır ki, latın dilindəki kaput sözü latınlardan əvvəlki çağlara aiddir [Varron: 1938.s.19].

Xivə dilindəki kafa sözü kaput formasında Avropa dillərinə keçmişdir. Xivə alpları başqa Türk igidləri kimi öldürdükləri düşmənin başını kəsər, qafa tasından içki qabı düzəldib onda qımız, çaxır içərdilər.

Çində yaşayan Türk əsilli kitaylar qafa tasına ağ at və boz buğa qurban kəsərdilər [Ögel: 1988.s.556], hunlar Çin səfirlərinə qafa tasında qımız içirdərdilər [Ögel: 1988.s.195].

Mxitar Qoş yazır ki, yepiskop İsrail Şimali Qafqazda olarkən görmüşdü hunlar əcdadlarının qafa tasını evlərində saxlayır, ayin zamanı ona qurban kəsirlər [Mxitar Qoş: 1993.s.249].

Qafa tasına tapınan türklərin adı müxtəlif dilli mənbələrdə xiva, xeva, kafa, xivey, kefalu formalarında yazıya alınmışdır [Хоренский: 1893s..57; Асохик: 1864.s.245; Джанашвили: 1908.s.139, 140; Авраам Норов: 1828.s.229; Сенковский: 1859.s.276] və sair.

Xivəli türklər son əsrlərə qədər yalnız Özbəkistanda yox, Qırğızıstanda, Krımda da yaşayırdılar. V.V.Radlov XIX əsrin sonlarında qırğızlar arasında üç Kava qəbiləsinin yaşadığını görmüşdü [Радлов: 1989.s.725].

Xivə alpları öz tarixi varlığını daha sonra Krımda davam etdirdilər. Onların Krımda saldıqları Kafa şəhərində həm özləri, həm Musa peyğəmbərin Torasına tapınan Krımçak və Karaim xalqları yaşayırdılar [Хвольсон: 1866.s.145].

Kafa şəhəri daha sonra böyüyüb Krımın paytaxtı oldu. Şəhərdə məscidlərdən başqa kilsələr, sinaqoqlar da var idi [Боплам Гильом: 1832.s.38].

Publi Maron Vergili yazır ki, İtaliyadakı Kefalu Etrusk şəhəridir [Энеидв: 1933.s.18]. Kefalu Etrusk şəhəridirsə, etrusklar İtaliyanın, Siciliyanın çox qədim sakinləridir.

Bu məlumat onu göstərir ki, Xivə alpları etrusklarla birlikdə eradan öncə II minilliyin ortalarında Anadoludan İtaliyaya köçmüş, Siciliyada Kefalu şəhərini salmışlar.

Bundan qabaq onlar Aralıq dənizinin şərq sahilindəki Sixem şəhərini salmışdılar. Henrix Hrets yazır ki, Sixem Xivə xalqının şəhəridir [Генрих Грець: I. 1906.s.83].

Ernst Renan yazır ki, Xeva nəsilləri Sixem şəhərinə Arandan [Эрнст Ренан: IV. 2750.s.89], yəni Urum gölü ilə Dəclə çayının arasından gəliblər.

Xivələrin bir hissəsi də Qafqaza gəlmiş, sonralar Gürcüstanın tərkibinə qatılmış Azərbaycan torpağı Borçlıda Kafa qalasını salmışlar. Həmin qala XX əsrin əvvəllərinə qədər qalırdı [Пагирев: 1913.s.106].

Mxitar Qoş yazır ki, xristianlıq dövründə Albaniyada Kavaxan adlı mahal var idi. Həmin mahalın bir qalası Kava adlanırdı [Mxitar Qoş: 1993.s.167].

Akademik Marr yazır ki, gürcü çariçası Tamarın saray şairi Çaxruxadze Xevə nəslindəndir [Mapp: 1902.s.52]. Çaxrux Türk dillərində çaxan şimşək, ildırım deməkdir.

Çaxruxadzenin şeirinlərindəki bir məlumat türkoloji tədqiqat üçün xüsusilə maraqlıdır. Şair yazır ki, çariça Tamar xivəlidir. O, Xevi kəndində doğulub [Mapp: 1902.s.52].

Nəticə. Biz bu istiqamətdə elmi tədqiqatları davam etdirməli, yalnız Orta Asiyada yox, Qafqazda, Krımda, Fələstində, İtaliyada yaratdığımız mədəniyyətə varislik iddialarımızı irəli sürməliyik.

İSTİNAD OLUNAN MƏNBƏLƏRİN VƏ ELMİ ƏSƏRLƏRİN SİYAHISI

1. Радлов: 1989 – Радлов В.В. Из Сибири. Москва, Главная Редакция Восточной Литературы, 1989.
2. Чокан Валиханов: I. 1984 – Чокан Валиханов. Собрание сочинений. т. I. Алма - Ата. Изд-во Казахская Энциклопедия, 1984.
3. Шопен: 1852 – Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху ея соединения к Российской Империи. Санкт Петербург. Типография Имперской Академии Наук, 1852.
4. Амиранашвили: 1956 – Амиранашвили Т.Л. Бека Опизари. Тбилиси. Мецниереба, 1956.
5. Баскаков: 1979 – Баскаков Н.А. Русские фамилии тюркского происхождения. Москва. Наука, 1979.
6. Архимандрит Іероним: 1843 – Архимандрит Іероним. Библейская археология, т. 1, С.-Петербург, 1883.
7. Канева: 1996 – Канева И.Т. Шумерский язык. Санкт Петербург, 1996.
8. Тураев: 1915 – Тураев Б.А. Рассказ египтянина Сунухета и образцы египетских документальных автобиографий. Москва, 1915.
9. Авраам Норов: I. 1828 – Авраам Норов. Путешествие по Сицилии. т. 1, Санкт Петербург, 1828.
10. Орбелиани: 1913 – Орбелиани И.А. Багаванская надпись 639 г. И другие армянские критическія надписи VII века. Санкт Петербург, 1913.
11. Сулхан Саба: 1959 – Сулхан Саба Орбелиани Мудрость вымысла. Тбилиси, 1959.
12. Марр: 1906 – Марр Н.Я. История Грузии. Санкт Петербург, 1906.

13. Эсадзе: 1801 – Эсадзе В.С, Летопись Грузии. Санкт Петербург, 1801.
14. Переписка грузинских царей: 1836 – Переписка грузинских царей с Российскими государями, от 1639 г. по 1770 г. Санкт Петербург, 1836.
15. Вахушти: 1976 – Вахушти Багратиони. История царство грузинского. Тбилиси, Мецниереба, 1976.
16. Джуаншериани: 1986 – Джуаншериани Джуаншер. Жизнь Вахтанга Горгасала. Тбилиси, Мецниереба, 1986.
17. Хантадзе: 1970 – Хантадзе Ш.А. Академик Мари Броссе и Европейское грузиноведение. Тбилиси, Мецниереба, 1970.
18. Бакрадзе, Берзенова: 1870 – Бакрадзе Д, Берзенова Н. Тифлис. Санкт Петербург, 1870.
19. Gene D. Matlock: 2015 – Gene D. Matlock. Ey insanlar, hamınız türksünüz. Bakı, Xan, 2015.
20. Велльгаузен: 1909 – Велльгаузен Ю. Введение в историю Израиля. Санкт Петербург. 1909.
21. Хаханов: 1895 – Хаханов А.С. Очерки по истории грузинской словесности. вып. I, Москва, 1895.
22. Коковцев: 1932 – Коковцев Н.К. Еврейско – Хазарская переписка в X веке. Изд-во Академии Наук СССР. Ленинград, 1932.
23. İосиф Флавий: 52390 – İосиф Флавий. İудейския древности. Ш№52390. AMEA Mərkəzi Elmi Kitabxanası.
24. Вигуру: 1897 – Вигуру Ф. Руководство к изучению Библии. Ветхий завет. Москва, 1897.
25. Бортольд: 1914 – Бортольд В.В. К истории орошения Туркестана. Санкт Петербург,1914.
26. Таиров: 2002 – Таиров Н.И. Акчурины. Казан, 2002.
27. Семёнов: 1895 – Семёнов П.П. Живописная Россия т.2. Санкт Петербург, 1895.
28. Древняя история: VII. 1760 – Древняя история т. VII, Санкт Петербург, 1860.
29. Борлам Гильом: 1832 – Борлам Гильом. Описание Украины. Санкт Петербург, 1832.
30. Российский Родословный сборник: I. 1840 – Российский Родословный сборник т. I. Санкт Петербург, 1840.
31. Квинта Курция: 1750 – Квинта Курция. История о Александра великим. т. 1, Санкт Петербург, 1760.
32. Краткое руководство къ древней географии: 1753 – Краткое руководство къ древней географии. Санкт Петербург, 1753.
33. Роллен: I. 1751 – Роллен. Древняя история. т. I. Санкт Петербург, 1751.
34. Безертинов: 2001 – Безертинов Р.Н. Татары, тюрки – потясатеме вселенной. История великих империи. Новосибирск, 2001.
35. Роллен: X. 1762 – Роллен. Древняя история. т. X. Санкт Петербург, 1762.
36. Роллен: II. 1751 – Роллен. Древняя история. т. II. Санкт Петербург, 1751.
37. Описание Иудейской земли: 1824 – Описание Иудейской земли. Одесса, 1824.
38. Шопен: 1866 – Шопен И.И. Новое данное о Кавказе и его древних обитателей. Санкт Петербург, 1866.
39. Историография: 2002 – Историография истории Древнего Востока. Санкт Петербург, 2002.
40. Сенковский: VI. 1859 – Сенковский. Барон Брамбаус. Собрание сочинений. т. VI, Санкт Петербург, 1859.
41. Меликишвили: 1960 – Меликишвили Г.А. Урартские клинообразные надписи. Москва, 1960.
42. Мамулиа: 1979 – Мамулиа Г.С. Формирование классового общества и государства в древней Картли (Иберии). Тбилиси, Мецниереба, 1979.
43. Роллен: V. 1760 – Роллен. Древняя история. т. V. Санкт Петербург, 1760.
44. Эрнст Ренан: IV. 2750 – Эрнст Ренан. История первых веков христианства. Антихрист. т. IV, Санкт Петербург. s. 310 (nəşr ili göstərilməyib). Ш №2750. AMEA Mərkəzi Elmi Kitabxanası.
45. Рагозина: 1902 – Рагозина З.А. История Ассирии. Санкт Петербург, 1902.
46. Генрих Грець: I. 1906 – Генрих Грець. История евреев, т. 1, Одесса, 1906.
47. Византийские историки: 1859 – Византийские историки (1118-1180). Санкт Петербург, 1859.
48. Авдиев: 1939 – Авдиев В.И. Военная история древного Египта. Москва, Наука, 1939.
49. Тураев: 1920 – Тураев Б.А. Египетская литература. Москва, 1920.
50. Всеобший географический и статистический словарь: 1843 – Всеобший географический и статистический словарь. Санкт Петербург, 1843.
51. Описание Донской земли: 1834 – Описание Донской земли. Санкт Петербург, 1834.
52. Описание Колы и Астрахани: 1804 – Описание Колы и Астрахани. Санкт Петербург, 1804.
53. Varron: 1938 – Marcus Terentius Varronis. De linqua latina. I. London, 1938.
54. Ögel: 1988 – Ögel Bahaedden. İslamiyyetden öncə türk kültür tarihi. c. I. Ankara, 1988.

55. Mxitar Qoş: 1993 – Mxitar Qoş. Alban qanunnaməsi. Bakı. Azərnəşr, 1993.
56. Хоренский: 1893 – История Армении Моисея Хоренского. Москва, 1893.
57. Асохик: 1864 – Асохик Степаннос Таронский. Всеобщая история. Москва, 1864.
58. Джанашвили: 1908 – Джанашвили М.Г. Описание рукописей церковного музея духовенства. Грузинской епархии. Кн. 3, Тифлис, 1908.
59. Хвольсон: 1866 – Хвольсон Д. Сборник статей по еврейской истории и литературе, кн. 1, Санкт Петербург, 1866.
60. Энеида: 1933 – Вергилий Публий Марон. Энеида. Москва-Ленинград, 1933.
61. Пагирев: 1913 – Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис, 1913.
62. Марр 1902 – Марр Н.Я. Древние одописцы. Тифлис, 1902.

ДРЕВНИЕ ГОРОДА ЕВРАЗИИ - ХИВА, САМАРА И БУХАРА

РЕЗЮМЕ

Предки узбекского народа являются одними из основателей древних государств и культур не только в Центральной Азии, но и на территории от Северного Китая до побережья Средиземного моря, Сицилии, от Уральских гор до долины Нила.

Три из этих элитных родов – Хива, Самар и Бухар. Они ещё до латинян, греков и римлян основали в Передней Азии и на Южном Кавказе города Хива, Бухара и Самара, установили устойчивые торговые связи между Крымом, Средиземным морем и Египтом.

Из русифицированного бухарского рода произошли князья с фамилией Бухарын, а из грузинизированного бухарского рода – церковный летописец Иоанн Бухаралидзе.

В статье на обсуждение научной общественности выносится актуальная проблема о том, что название столицы Румынии Бухарест происходит от этнонима *Бухар*.

В статье объектом этнолингвистического исследования стала и этническая идентичность бахарского рода, родственного бухарскому. Одна ветвь бахарского рода входила в число правящих династий Иберии, другая основала в Древнем Египте город Бахар. Создав мощный флот в Средиземном море, часть этого рода захватила остров Сицилия и основала там до латинян город Бахар.

Одним из древнейших элитных родов Евразии был самарский род. Он является создателем государственности и культуры не только Центральной Азии, но и древней Передней Азии, восточного побережья Средиземного моря и тюркских земель, позже названных южнорусскими степями, до прихода славян, иудеев и индоевропейцев.

Самары и хивинцы были родственными народами. О них упоминается в шумерских клинописных надписях, относящихся к III тысячелетию до нашей эры. Они переселились из Аранской области Азербайджана в Финикию. Основав на высокой горе крепость Самар, самары и хивинцы создали одно из древнейших прототюркских государств.

Эрнст Ренан в своей книге «История первых веков христианства», изданной в 1873 году, пишет, что, когда самарские Альпы в составе ханаанского племенного союза основали город в Финикии и создали своё государство, иудеи ещё не пришли в Палестину.

Самары основали еще один город на Южном Кавказе. Этот город просуществовал до времён Александра Македонского.

Хива, Бухар и Самар являются предками как узбеков, так и азербайджанских и анатолийских тюрков. Эти исторические этногенетические и этнолингвистические связи следует превратить в объект научного исследования.

Ключевые слова: *Хива, Бухар, Самар, узбек, тюрки, Аран, Финикия.*

Ilhami JAFARSOY

ANCIENT KHIVA, SAMARA AND BUKHARA CITIES OF EURASIA

ABSTRACT

The ancestors of the Uzbek people are one of the founders of ancient states and cultures of not only Central Asia, but also from Northern China to the Mediterranean coast, to Sicily, from the Urals to the Nile Valley.

Three of those elite generations are Khiva, Samar and Bukhar. They had founded the cities of Khiva, Bukhara and Samara in the West Asia and the South Caucasus before the Latins, Greeks and Romans, and they had made sustainable trade relations among Crimea and the Mediterranean Sea and Egypt.

The dukes with the surname of Bukharin from the russian Bukhar generation, and the church chronicler named Bukharalidze Iohan from the georgian Bukhar generation had been known.

Such a topical issue is discussed for the scientific community in the article that, the name of the capital of Romania, the city of Bucharest has been derived from the ethnonym Bukhara.

The ethnic identity of the Bukhara generation, which is related to the Bukhara generation, has become the object of the ethnolinguistic research in the article. One branch of the Bukhara generation was one of the authority dynasties of Iberia, and another branch founded the city of Bukhara in ancient Egypt.

Some of them also created a powerful navy in the Mediterranean Sea and occupied the island of Sicily, and they founded the city of Bakhar before the Latins.

One of the elite generation of Eurasia is Samar. They are the creators of not only Central Asia, but also ancient West Asia, eastern coast of the Mediterranean Sea, and the states and cultures of Turkic lands later called as Southern Russian steppes till the Slavs, Jews and Indo-Europeans.

The Samars and the Khivas were related peoples. Their name is mentioned in Sumerian cuneiform inscriptions dating back to the III millenium B.C. They migrated from the Aran region of Azerbaijan to Phoenicia. They built the Samar fortress on a high mountain and established one of the ancient proto-Turkic states.

Ernest Renan writes in his book entitled as “The History of the Origins of Christianity” published in 1873 that, when the Samaritans founded the city in Phoenicia as part of the community of Canaan tribe, and established the state for themselves, the Jews hadn’t arrived in Palestine, yet.

The Samaritans also founded a city in the South Caucasus. That city remained until the period of Alexander the Great.

The ancestors of the Uzbek people named Khiva, Bukhara and Samara are the ancestors of both the Uzbeks and the Azerbaijani and Anatolian Turks. We must turn these historical ethnogenetic and ethnolinguistic ties into the object of scientific research, together.

Key words: *Khiva, Bukhar, Samar, Uzbek, Turk, Aran, Phoenicia.*

Nərgiz HACIYEVA*

QƏZET BAŞLIQLARININ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Azərbaycan dilində publisist üslub müxtəlif cəhətlərdən tədqiq olunsa da qəzet mətninin tərkib hissəsi olan sərlövhələrin üslubi xüsusiyyətləri nisbətən az öyrənilmişdir. Başlıqlar həmişə praqmatik istiqamətə malikdir və oxucunun fon biliklərinə, mədəni fonun şərtlərinə yönəlir ki, burada uyğun presuppozisiyaların qaydaları fəaliyyət göstərir. Başlığın icra etdiyi funksiya mətnin kommunikativ məqsədindən asılı olaraq müxtəlif ola bilər. Qəzet məqalələrində informasiya janrında başlıqlar yalnız ilkin informasiyaya malikdir, onun bitmiş hissəsini ifadə edir. Belə başlıqların mənası bütün mətnlə zəif şəkildə müəyyən olunur, mətnin oxu gedişində dəyişmir. Bu tip başlıqlar çox vaxt mətnin birinci ifadəsini təkrarlayır, ya da mətnin bir hissəsi iri şriftlə verilir və başlıq kimi çıxış edir. Belə başlıqların kənar mətnlə

* AMEA Nəsimi adına Dilçilik İnstittutu, filologiya elmləri doktoru, dosent. Email: nergiz.haciyeva.1961@mail.ru

əlaqəsi kontaktlı olur. Başlığı təşkil edən söz və söz birləşmələri çox vaxt məcazi mənada işlənir, onlarda üslubi üsullar olur ki, bütöv mətnlə və ya onun yalnız bir fraqmenti ilə müəyyən oluna bilər. Belə başlıqlar daha çox fon biliklərinin presuppozisiyasına əsaslanır. İnformasiyanın şərhi üçün böyük oxucu mədəniyyəti zəruridir. Bu tip başlıqlar mənanın genişlənməsinə, mətnaltının yaranmasına imkan verir.

İntertekstin anlaşılmasında iki cəhət özünü göstərir: geniş mənada vahid mətn məkanıdır ki, orada müxtəlif mətnlər qarşılıqlı əlaqədədirlər və dar mənada "özgə" mətninin sitat, alluziya formasında birləşməsi kimi anlaşılır. İntertekstual elementlər kimi sitat, alluziya, reminisensiya, imitasiya. xatırlatma, applikasiya, parafraza, nitq stereotipi, qanadlı söz aiddir.

Açar sözlər: *qəzet, sərlövhə, alluziya, intertekstuallıq, üslub, metafora*

Azərbaycan dilində publisist üslub müxtəlif cəhətlərdən tədqiq olunsa da qəzet mətninin tərkib hissəsi olan başlıqların üslubi xüsusiyyətləri nisbətən az öyrənilmişdir. Hazırda dilçilikdə və digər qarışıq elmlərdə (ədəbiyyatşünaslıq, linqvokulturologiya, etnolinqvistika) tədqiqat mərkəzində mətn dayanır ki, onun daxili inkişafı və digər mətnlərlə qarşılıqlı əlaqəsi nöqteyi-nəzərindən tədqiq olunur. Müxtəlif janrlarda intertesktuallığın nəzəriyyəsi geniş və dərindən tədqiq olunur. Tədqiq olunan materialın üslubi janr xüsusiyyətləri ilə genişliyi və yanaşmaların çoxcəhətliyi müxtəlif intertekstual vahidlərin bir çox terminlərlə ifadə olunmasına gətirib çıxarır. Mövcud təsnifatların əsasında müxtəlif kriteriyalar dayanır, onların bəziləri müxtəlif müəlliflərdə təkrarlanır ki, görünür, əsasdır.

Başlığın mətnlə onun ayrı-ayı elementləri ilə determinə dərəcəsi müxtəlif ola bilər. Bəzən başlıq özü kontekstual proqrammator rolunda çıxış edir, proqramı, mətnin mənasını göstərir, kommunikativ kəsiyin məzmununu anlamağa kömək edir. Başlıq belə rolu daha çox poetik mətndə yerinə yetirir. Məsələn, "Şeirə aid" başlığı. Başlıq mətnə mümkün vahid interpretasiyanı verir, həmin mətnin kontekst vahidini yaradır. Digər hallarda başlığın mənası bütün mətnlə müəyyən olunur. Mətni oxumadan, mənasını anlamadan hansı başlığın məzmununun onda açıldığını başa düşmək olmur. Xüsusilə mətn və kontekstin başlığın mənasının açılmasında rolu böyükdür ki, bunlar qeyri-standart metaforik söz və söz birləşmələrinin işlənilən başlıqlarından, elliptik və ya abstrakt xarakterli başlıqlardan ibarətdir. Bütün mətnlə ifadə olunan başlıqlar bir sıra ifadələrə malikdir. Məsələn, "Keyfiyyət?", "Onlar gəlir" kimi başlıqlar onların adekvat interpretasiyası üçün bütün mətnin oxunmasını tələb edir.

Cümlənin xüsusi tipi kimi sərlövhələr barədə bir çox nöqteyi-nəzər mövcuddur. V.Dresler hesab edir ki, sərlövhələr mətnin başlanması barədə siqnal verir və sərlövhələr cümlənin qısaldılmış variantıdır. [3, s.122]. Bəzi tədqiqatçılar hesab edirlər ki, sərlövhə işarəyə bərabərdir, informativliyə malikdir, lakin kommunikativlik funksiyasından məhrumdur.[6, s.122].

Qəzet mətnlərinə xas olan əsas cəhətlərdən biri onlarda sərlövhələrin, başlıqların düzgün qoyulmasıdır. Ümumiyyətlə başlıq barədə yazmaq asan məsələ deyil, belə ki, bu tip ifadənin forma və məzmunu onun mətnin funksional tipə aid olmasından, mətn janrından asılıdır, habelə mətnlərarası əlaqələrlə müəyyən olunur. Təsadüfi deyil ki, bir çox tədqiqatlar başlıq sahəsində ya müqayisə xarakterli, ya da hər hansı janrın başlıqlarına həsr olunur. Başlığın xüsusi ifadə tipi kimi tədqiqi məsələlərindən bunlarda dayanaq:1) başlıq və mətnin münasibəti 2) mətndə başlığın funksiyaları 3) başlıqda mətnlərarası əlaqələrin reallaşması 4) başlığın ekspressivliyini artıran müxtəlif üslubi vasitələrdən istifadə olunması.

Azərbaycan dilində qəzet mətnini tədqiq edən N.Babayeva yazır: "Publisistik üslub geniş anlayışdır, insanların məişətindən, bədii məşğuliyyətindən tutmuş siyasi mövqeyinə qədərki fəaliyyət sahələrini özündə əks etdirən yazı üslubudur. Publisist üslubun özünün dil standartları vardır. Publisist üslubun əsas xüsusiyyətləri onun informativliyi, imperativliyi, yüksək emosionallığı, açıq dəyərləndirmə və reklamlığındadır... Qəzet başlıqları çap olunan mətnlərin tərkib hissəsi olmaqla özünəməxsus cəhətlərə malikdir. O, çap olunan məqalənin məzmununa doğru istiqamətlənmiş ilk siqnaldır. Oxucunun qəzet materialı ilə tanışlığı onlardan başlayır, ilk reaksiya da bu vaxt yaranır. Deməli, qəzet başlığı müəyyən informativ dəyərə malikdir, müəllifin emosiyası, hadisəyə münasibəti də burada ifadə olunur...." [1, s.24].

Publisist üsluba xas olan qəzet mətninin funksiyaları bunlardır:1) oxucuya mətnin xarakteri, janrı barədə məlumat verir; 2) mətnin məzmunu barədə məlumat verir; 3) oxucunu mətnlə tanış olmağa həvəsləndirir.

Hazırda mətnə kommunikasiya vahidi kimi ümumqəbulolunmuş baxış mövcuddur. Belə ki, sərlövhə – mətnin bir hissəsidir, onun yuxarı sərhədidir, onun kommunikativ aktda iştirakı məsələsi birmənalı həll olunur. Bununla əlaqədar Q.V.Kolşanskiy qeyd edir ki, düzgün qurulmuş mətndə "...bütünlükdə mətn başlanğıcdan son sətrinə kimi vahid kontekst əlaqəsinə malikdir", əsər özü isə birmənalı bitkinlik qazanır. [4, s.91].

Kommunikativ vahid kimi başlıq müəyyən ekstralinqvistik situasiyaya uyğun gəlir: ya əşyavi situasiya ilə, ya da münasibət situasiyası ilə. [7, s.17-18]. Əşyavi situasiya ifadənin yaranmasında əsas rol oynayır. Münasibətlər situasiyası ifadənin emosional tərkibinin əsasında dayanır. Bu münasibətlərin təhlilində müxtəlif üslub və janrların başlıqları arasında fərq parlaq görünür. Bəzən başlığın mənası mətnin ifadələrindən biri və ya onun fraqmentlərindən birində açılır. Başlığın əşyavi situasiya ilə əlaqə dərəcəsi elmi, texniki, işgüzar mətnlərdə yüksəkdir, o daha az şəkildə ədəbi-bədii mətnlərdə olur və əksinə, başlığın münasibətlər situasiyası ilə əlaqə dərəcəsi ədəbi-bədii dildə daha yüksəkdir və elmi, işgüzar, texniki mətnlərdə alçaqdır. Başlığın kontekstlə əlaqəsi daha çox distant olur. Başlığın ifadəlilik potensialı digər üslubi vasitələrin köməyilə daha da artır. Söz oyunu və kalambur geniş işlənir. Söz oyunu həqiqi və metaforik mənada işlənir. Belə intermətn referensiyası daha çox üslubi vasitə - alluziya formasında reallaşır. Həm məcazi, həm həqiqi mənada işlənərək müəyyən mahnıdan, aforizmdən götürülür. Belə sətrin başlığa qoyulması onu yeni konnotasiyalarla gücləndirir, başlığın auditoriyaya təsirini artırır. Bədii əsərlərin başlıqları öz xarakterinə görə bu tip başlıqlara yaxındır. Onlar əsərin əsas mahiyyətini əks etdirir, müəllifin məqsədini reallaşdırır, ümumiləşdirici xarakter daşıyır, onlarda üslubi vasitələr işlənə bilir. Məsələn, Anar "Adamın adamı"; E.Elatlı "Cəhənnəmdən gələn səs" və s .

Başlığın əhatə dairəsinə təsiri çox maraqlıdır. Hər şeydən əvvəl başlıq bilavasitə əhatəyə, camaata təsir etməlidir, daha doğrusu, perlokutiv funksiyanı yerinə yetirməlidir, nitq fəaliyyəti funksiyasını, hərəkətə sövq etməlidir. İntertekstin anlaşılmasında iki cəhət özünü göstərir: geniş mənada vahid mətn məkanıdır ki, orada müxtəlif mətnlər qarşılıqlı əlaqədədirlər və dar mənada "özgə" mətninin sitat, alluziya formasında birləşməsi kimi anlaşılır. İntertekstual elementlər kimi sitat, alluziya, reminissensiya, imitasiya. xatırlatma, applikasiya, parafraza, nitq stereotipi, qanadlı söz anlaşılır.

Başlıqlarda mətnin kənar aləmə təsiri mətnarası əlaqələrin yaranması yolu ilə də baş verir. Z.İ.Volkova fransız eposunu tədqiq edərək epik mətnlər üçün relevant olan üç növ mətn referensiyalarını şərtlərdən biri kimi qəbul edir:1) interpolyasiya 2) reminissensiya 3) epik paralel.

Onlardan ikisi başlıqla reallaşan mətnlərarası təhlilə tətbiq oluna bilər:1) interpolyasiya – mətnə digər mətnin elementlərinin salınması (inkluziya), fakt və reqaliyaların əksi; 2) reminissensiya – auditoriyaya sanki əvvəldən məlum olan müxtəlif hadisələrin xatırladılması. [2, s.100].

Qəzet başlıqları üçün mətn intermətn referensiyalarının bu tipləri mümkündür:

1) Interpolyasiya – mətnin başlığı kimi digər mətnin başlığının və ya onun bir hissəsinin dəyişmədən verilməsi. Məs: "Hərb və sülh"dən başlayan yol ("Ədəbiyyat", 6 dekabr, 2024); "Adımı dəyişib Vətən qoyardım" Əli Tudənin şeirindən bir parça.("Kredo", 4 fevral, 2025); "Güllər açılsın, güllələr açılmasın" (Böyük şairimiz Rəsul Rzanın 115 illiyi ərəfəsində düşüncələr) ("Ədəbiyyat" qəzeti, 17 yanvar, 2025); "Cinayət və cəza" ("525-ci qəzet, 2024, 14 dekabr)"; 65 yaşdan görünənlər –"Əlimdədir hələ qələm" - S.Vurğunun şeirindən bir parça ("Ədəbiyyat",17 yanvar, 2025);

2) Reminisensiya – mətnə digər mətnin başlığının dəyişən formada salınması. Bu başlıqda reminisensiyanı müşahidə etmək olar:"Qeyrətdən səngərli, qalalı dağlar" yağmaçı yağıya göz dağıdır ("Xalq",.25 noyabr, 2025) və ya Mir Cəlalın məşhur "Bir gəncin manifesti"romanının başlığına eyham olaraq "Bir elin manifesti" adlı birinci respublika hekayə müsabiqəsi ("Respublika", 15 fevral, 2025) göstərmək olar. C.Məmmədquluzadənin "Ölülər" əsərinə eyham olaraq "Ölülərin dirilərə məktubu" ("Ədəbiyyat" qəzeti, 2024, 6 dekabr); "Şeyx Əbdüldən Şeyx Nəsrullaha – yaxud Həsən bəy Zərdabinin "ölüləri" ("525-ci qəzet, 15 fevral, 2025) adlı məqalə; "Yeraltı çayların sahibi kimdir?" (5 noyabr, 2025, "Xalq") məqaləsi "Yeraltı çaylar dənizə axır" əsərinə eyhamdır.

Bəzən sitat olduğu kimi götürülür, başlıq kimi verilir: Füzulinin söz qəzəlinə uyğun olaraq "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz". ("Kredo", 26 aprel, 2025); "Aləmdə səsi qalan şair (Xalq, 18 noyabr, 2025); "Kamil bir çəkməçi olsa da insan" ("Xalq", 2025,16 dekabr). Belə intermətn referensiyası

daha çox üslubi vasitə - alluziya formasında reallaşır. Ü.Hacıbəylinin “O olmasın, bu olsun” əsərindəki hamam səhnəsindən olan mahnı “Hamamın içində, içində və çölündə” sözləri dəyişilərək “Səfirliyin çölündə və...içində” (“Xalq”, 8 fevral. 2025, İ.Həsənqala)”; Dünya kimə qalacaq? (“Kredo”, 20 yanvar, 2024) (və burada Ə.Əlibəylinin ən son şeirlərindən sayıla biləcək, onun həyat fəlsəfəsini, məramını ifadə edən bir şeir parçası da var:”Süleymana qalmayan dünya sənə də qalmaz” deyən məsəl var, Dolaşır dodaq-dodaq. O düzdür, gedəcəyik hamımız, Ancaq yenə dünya insanlara qalacaq; “Sən yaşa, dünya:”Yüz il də Vurğuna Xavər yar olsun”. Kitab albom. ”Azərbaycan müəllimi”, 2008, 1 avqust.“Kimlər gəldi, kimlər getdi....S.Vurğun, M.Hüseyn, S.Rüstəm....”(”Ədalət”, 2009, 20 iyun).“Şair, hökmdarın hüzurundasan”. S.Vurğunun “Vaqif” əsəri haqqında.(“525-ci qəzet”, 2009, 10 aprel).“Demə, Səməd Vurğun gəldi-gedərdi....S.Vurğun -100. (“525-ci qəzet”, 2006, 18 aprel). “Unutmaz bu oba, bu mahal məni” (”Azərbaycan müəllimi”, 2006, 31 mart).“Müsəlləh əsgərəm mən də bu gündən: Səməd Vurğun-100” (“Azərbaycan müəllimi”, 2006, 7 aprel).“Vurğunu da salar yada” (“Ülfət”, 1996, 15 may).“Nə ömrə acıyır, nə yaşa dünya...Dünya, səndən kimlər keçdi?” (S.Vurğun haqqında.”İki sahil”, 1995, 14 aprel).“Şair, nə tez qocaldın?” (“Folklor və etnoqrafiya”, 2010№ 2, s.15-21); “Muğan Muğan olsa...”. Fermer Əlməmməd kişi:”Belə getsə, bu qış Muğan biri üç edəcək” (“Azərbaycan”, 15 fevral, 2024) .) alluziyanı ifadə edir.

1) Bədii filmlərdən gətirilən alluziyalar: “Bu kino ki var...Onun yolu ədəbiyyat və teatrdan keçib” (“Xalq”, 27 oktyabr, 2024); ”Bu kino ki var...” (“Respublika”, 15 fevral. 2025, Ramidə Yaqubqızı) ; “İrəvanda “uğursuz qocalar” döyüşə hazırlaşır” (“Xalq”, 2025, 16 dekabr) “Döyüşə qocalar gedir” filminə; “Bizim Əliş müəllim” (“Xalq”, 2025, 27 noyabr) “Bizim Cəbiş müəllim” filminə eyhamdır; 2) mahnılardan gətirilən alluziyalar: “Tikirəm ki, izim qala” (“Azərbaycan”, 7 fevral, 2025); “Gəncəyə gedirəm, yüküm yumurta” (“Xalq”, 20 noyabr, 2025) “Sorma nədən Vətən yaxşı...”(Şair, sorma Vətən nədən yaxşıdır, adı gəlcək könlüm dastana döndü” deyən şəhid Xudayar Yusifzadə 44 günlük Vətən müharibəsində özü də dastana döndü (“Xalq”, 25 oktyabr, 2025); “Sən gəlməz oldun”. Bu mahnı isə dünyanı dolaşır (“Azərbaycan”, 7 fevral, 2025); “Səninlə dünyada Bəxtiyaram mən...”(“Ədəbiyyat” qəzeti, 31 yanvar, 2025); “Ayrılarmı könül candan...”(“Xalq”, 2006, 25 may) “Biri sənsən, biri biz...Əhsən Dadaşov-100” (“Xalq”, 2024, 26 noyabr); Ay köçəri quşlar, yaşılbaş sonalar...(”Respublika”, 11 dekabr, 2024); “İrəvanda xan, Şəkidə sultan niyə qalmadı” (“Kredo”, 20 noyabr, 2025); “Biri sənsən, biri biz...(Ə.Dadaşov barədə)” (“Xalq”, 27 oktyabr, 2024); “Xankəndidən havalanır Qarabağın şikəstəsi” (“Xalq”, 2025, 4 noyabr);

Mətnarası referensiyaların istifadəsi felyeton, tənqidi məqalələrdə, pomfletlərdə ironik, sarkazm effekti yaradır. Felyeton, tənqidi məqalələrdə alluziyanı görmək olur

ƏDƏBİYYAT

1.Babayeva N. Qəzet mətnində metaforik ifadələr və onların kommunikativ yükü. AR nam.dis., 2021, s.24

3.Дресслер В. Синтаксис текста. В сб. «Новое в зарубежной лингвистике. Вып.8, М., 1978, с.122

4. Колщанский В.Г. Контекстная семантика. М., «Наука», 1980, с.91

5. Ломтев Т.П. Структура предложения в современном русском языке. М., 1979, с.122

6.Рудницкая И.А. Прагматическая направленность газетного заголовка. Сб. науч. тр. МГПИИЯ им. Мориса Тореза. М., 1981, вып. 177, с. 157-177

7.Торсуева И.Г., Агафонов Ю.Л. Грамматика текста. М., 1980, с.17-18

ХАРАКТЕРИСТИКИ ГАЗЕТНЫХ ЗАГОЛОВКОВ

РЕЗЮМЕ

Хотя публицистический стиль в азербайджанском языке изучался с разных сторон, стилистические особенности заголовков, являющихся неотъемлемой частью газетного текста, исследованы сравнительно мало. Заголовки всегда имеют прагматическую направленность и обращены к фоновым знаниям читателя, условиям культурного контекста, где действуют правила соответствующих пресуппозиций. Функция, выполняемая заголовком, может варьироваться в зависимости от коммуникативной цели текста. В газетных статьях, в информационном жанре, заголовки содержат только исходную информацию, выражающую её завершенную часть. Смысл таких заголовков плохо определяется всем текстом и не меняется при чтении. В таких заголовках часто повторяется первая фраза текста, или часть текста выделена крупным шрифтом и выступает

в качестве заголовка. Связь таких заголовков с внешним текстом контактная. Слова и словосочетания, составляющие заголовок, часто используются в переносном смысле, содержат стилистические приемы, которые можно отнести ко всему тексту или только к его фрагменту. Такие заголовки в большей степени основаны на предположении о наличии фоновых знаний. Для интерпретации информации необходим высокий уровень читательской культуры. Этот тип заголовков допускает расширение смысла и создание подтекста.

В понимании интертекста проявляются два аспекта: в широком смысле это единое текстовое пространство, в котором взаимосвязаны различные тексты, а в узком смысле — сочетание «других» текстов в форме цитат, аллюзий. К интертекстуальным элементам относятся цитаты, аллюзии, воспоминания, имитации, напоминания, применения, перефразирования, речевые стереотипы, крылатые фразы.

Ключевые слова: *газета, заглавие, аллюзия, интертекстуальность, стиль, метафора*

CHARACTERİSTİCS OF NEWSPAPER HEADLİNES

SUMMARY

Although the publicistic style in the Azerbaijani language has been studied from various aspects, the stylistic features of headlines, which are an integral part of the newspaper text, have been studied relatively little.Headlines always have a pragmatic orientation and are directed to the reader's background knowledge, the conditions of the cultural background, where the rules of appropriate presuppositions operate. The function performed by the headline may vary depending on the communicative purpose of the text. In newspaper articles, in the information genre, headlines contain only initial information, expressing its finished part. The meaning of such headlines is poorly determined by the entire text, does not change during the reading of the text. This type of heading often repeats the first phrase of the text, or a part of the text is given in large font and acts as a heading. The relationship of such headings with the external text is contact. The words and word combinations that make up the heading are often used figuratively, they contain stylistic devices that can be identified with the entire text or only a fragment of it. Such headings are based more on the presupposition of background knowledge. A high level of reader culture is necessary for the interpretation of information. This type of headings allows for the expansion of meaning and the creation of subtext.

Two aspects are manifested in the understanding of intertext: in a broad sense, it is a single text space in which different texts are interconnected, and in a narrow sense, it is understood as a combination of "other" texts in the form of quotations, allusions. Intertextual elements include quotations, allusions, reminiscences, imitations. reminders, applications, paraphrases, speech stereotypes, catchphrases.

Key words: *newspaper, headline, allusion, intertextuality, style, metaphor*

Kifayət İMAMQULİYEVA*

1920-1930-CU İLLƏRDƏ AZƏRBAYCAN TÜRK XALQ ŞİVƏLƏRİNİN FONETİK TƏDQİQİ

XÜLASƏ

1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması, cəmiyyət üzvlərinin məqsədyönlü və sistemli fəaliyyəti, xalq şivələrinin araşdırılması, toplanıb nəşr edilməsi Azərbaycan dilçiliyində çox mühüm hadisə olmuşdur. 1924-cü ildən başlayaraq “Azərbaycan türk xalq şivələrinin lüğəti”nin tərtib edilməsi ilə bağlı təxirəsalınmaz işlər görülmüşdür. N.İ.Aşmarin lüğət materiallarının toplanması üçün proqram tərtib etmiş və qısa müddətdə xalq şivələrinin toplanması işi kütləviləşdirilmişdir. Dialektoloyi araşdırmalarda fonetika və transkripsiya məsələsinə xüsusi diqqət yetirən N.İ.Aşmarin Azərbaycan dilinin Nuxa (indiki Şəki) şivələrini də tədqiq etmiş, 1926-cı ildə “Nuxa şəhəri türk şivələrinin

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dialektologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: k.imamquliyeva@mail.ru

ümumi icmalı” adlı monoqrafiyasını çap etdirmişdir. Müəllif araşdırdığı şivələrdə sait və samitlərin spesifik xüsusiyyətlərini ayrı-ayrılıqda incələmiş, bunları osmanlı türkcəsi, rus, ərəb, fars, alman, kazan-tatar və başqa dillər ilə müqayisə etmiş, bu dillərdən götürülən nümunələr əsasında səs məxrəclərini oxucuya anlatmağa çalışmışdır.

Səs məxrəcləri ilə bağlı belə bir müqayisəni İ.Həsənovun Gəncə şivələrinin dialekt materialları əsasında yazılmış, 1926-cı ildə çap olunmuş “İsimlərin hallanması” monoqrafiyasında da görmək mümkündür. İ.Həsənov bu kitabında ismin hallarını tədqiq etməyi qarşısına məqsəd qoysa da, fonetik tədqiqat aparmadan dialektoloji araşdırmanın mümkün olmadığını başa düşmüş, ilk növbədə, fonetika və orfoqrafiya məsələlərinə diqqət yetirmişdir.

Hər iki əsərdə sait və samit səslər, onların variantları araşdırılmış, variantları ilə birlikdə Nuxa şivələrində 37 sait, 34 samit səs, Gəncə şivələrində 22 sait, 36 samit səs qeydə alınmışdır. Hər iki monoqrafiya rus dilində yazılsa da, müəlliflər şivə materiallarını 1920-1930-cu illərdə istifadə olunan latın qrafikası əsasında vermiş, səs variantlarının təqdimində müxtəlif qrafem və şərti işarələrdən yararlanmışlar.

1930-1931-ci illərdə N.İ.Aşmarin, A.R.Ziffeld, V.Xuluflu, B.Çobanzadə, İ.Həsənov və Ə.Haqverdiyevin gərgin çalışmaları nəticəsində türk (Azərbaycan), rus, alman dillərində çap olunmuş “Azərbaycan türk xalq şivələrinin lüğəti”ndə də sözlər fonetik cəhətdən müxtəlif şivə variantları ilə birgə təqdim olunmuşdur.

***Açar sözlər**: 1920-1930-cu illərdə fonetik araşdırmalar, dialekt, fonetik variantlılıq, N.İ.Aşmarin.*

1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması, cəmiyyət üzvlərinin məqsədyönlü və sistemli fəaliyyəti, xalq şivələrinin tədqiq olunması, toplanıb nəşr edilməsi Azərbaycan dilçiliyində çox mühüm hadisə idi. 1924-cü ildən “Azərbaycan türk xalq şivələri lüğəti”nin hazırlanması məsələsi təxirəsalınmaz bir iş olaraq ortaya qoyulur. N.İ.Aşmarin lüğət materiallarının yığılması üçün proqram tərtib edir. Xalq şivələrinin toplanması işi kütləviləşdirilir. N.İ.Aşmarin 1926-cı ildə “Azərbaycan türk şivələrinin ümumi icmalı” kitabı ilə Azərbaycan dialektologiyasına ilk töhfəsini verir.

Nuxalıların (şəkililərin) nitqində bir çox maraqlı fonetik və morfoloji xüsusiyyətin olduğunu müşahidə edən müəllif transkripsiya məsələlərinə çox ciddi yanaşmış, xalq şivələrinin toplanmasında bunun rolunu əsaslandırmışdır. Tədqiqatçı, əsasən, Şəki şəhərinin məhəllələrini tədqiq etmişdir. Maraqlıdır ki, N.İ.Aşmarin tədqiqata cəlb etdiyi şəhər məhəllələrinin adlarını məhz xalqın dilində səsləndiyi kimi – şivə əlamətini göstərməklə transkripsiya ilə kitaba daxil etmişdir: Arx-üsti, Bazar-başı^{i}, Ç^{c}ök^{c}əx' məhlə, Ç^{c}ay qırağı^{i}, Dodı, Davaxana, Gəncəli məhləsi, Giləhli məhləsi, Savıç^{c}ı, Qullar məhləsi, Qışλax, Uxarı^{i} (bazar). Məlumdur ki, şəhər mərkəzdir və şəhər məhəllələrindən ümumi anlayış yaradan şivə materialını toplamaq daha əlverişlidir.

N.İ.Aşmarin səs məxrəclərini müəyyənləşdirməyə çalışmış, onları yazıda göstərmək üçün müxtəlif işarələrdən istifadə etmiş, Nuxa şəhərində vurğunun xüsusi əhəmiyyət daşıdığını müşahidə etdiyi üçün vurğulu hecaları işarələmişdir.

1926-cı ildə digər bir dialektoloji əsər də çap olunur: İdris Həsənovun Gəncə şivələrinin materialları əsasında yazılmış “İsimlərin hallanması” kitabı. İ.Həsənov bu kitabında ismin hallarını tədqiq etməyi qarşısına məqsəd qoysa da, fonetik tədqiqat aparmadan dialektoloji araşdırmanın mümkün olmadığını görürdü. Odur ki, ilk növbədə, fonetika və orfoqrafiya məsələlərinə diqqət yetirən müəllif sait və samitlərin spesifik xüsusiyyətlərini ayrı-ayrılıqda incələmiş, osmanlı, rus, ərəb, fars, alman, kazan-tatar və başqa dillər ilə müqayisə apararaq bu dillərdən götürülən nümunələr əsasında səs məxrəclərini oxucuya anlatmağa çalışmışdır. Səs məxrəcləri ilə bağlı belə bir müqayisə N.İ.Aşmarinin də əsərində aparılmışdır. Hər iki əsərdə bu müqayisə adi kəmiyyətdə tələffüz edilən səslərdə özünü göstərir.

N.İ.Aşmarinin tədqiqatında sait səslərin variant çoxluğu diqqəti cəlb edir. Müəllif saitlərin uzun (ā, ə̄, ī, ḭ, ō, ū), qısa (ĭ, ŭ, ḭ, ŭ), burun (ĩ, ũ, ã, ə̃, õ) variantları ilə yanaşı, uzanaraq burunda tələffüz edilən (ḭ̃, ũ, ã, ə̃ , õ), dilönünə, dilarxasına, açıq-qapalılığa meyl edən sait variantlarını da göstərməyə çalışmışdır. Saitlər üzərində kiçik şriftlə digər bir saitin yazılması həmin səsə meyilliliyi göstərmişdir: ı.^{i} (ı^{i}), o^{y} (o^{u}), y^{o} (u^{o}), y^{ı} (u^{ı}). Dilönünə meyil edən ı.^{i} , dilarxasına meyilli i səslərini morfonoloji baxımdan nəzərdən

keçirən tədqiqatçı müxtəlif şəkilçilər artırmaqla dəyişmə prosesini izləyir və bununla da hər iki səs arasındakı fərqi oxucuya çatdırmağa çalışır: qapı.^{i} – qapi̧yə/qapi̧ya, qapı.^{i} – qapi̧ynan. Dilönü i saitinin altındakı bucaqşəkilli işarə həmin səsin bir qədər arxada tələffüz edildiyini bildirmək üçündür: dağ̨ınan.

Transkripsiyanın tətbiqində kiril əlifbasındakı "г" qrafeminin altında bir nöqtə (ґ) qismən kar q səsini, iki nöqtə (ґ̣) daha kar q səsini bildirmək üçün istifadə edilmişdir: *ґar, ґarışґa, ґaґa (şirniyyat), ґolçax, ґoґal, saґґo, saґґa, hoґґa, doґґa, daґґa, doґґaz, saґґal, duґґı*^{i}. N.İ.Aşmarinin gəldiyi nəticədən belə çıxır ki, dilarxası, kipləşən-partlayan, cingiltili q samiti Şəki şivələrində işlənmir. Şəki şivələrini geniş və sistemli şəkildə araşdıran Musa İslamov qeyd edir ki, q samiti bu şivələrin ən aktiv səslərindəndir. Hətta rus dilindən alınan bir çox [k'] samitli sözlər vardır ki, Şəki şivələrində q kimi tələffüz olunur: *kolxoz – qalxoz, komsomol – qamsamol, lampoçka – lampuşqa, şkaf – işqaf, kurs – qurs, kommunist – qamnis, Nikolay – Niqalay, şotka – şotqu, klub – qulub, skamya – isqamı* [9, 40-43]. N.İ.Aşmarinin müşahidəsində dilarxası-kipləşən q samitinin Şəki şivələrində daha çox karlaşma ilə özünü büruzə verməsi fikri müəllifin tədqiqatı məhdud çərçivədə aparmasından da irəli gələ bilər.

Şəki dialekti üçün xarakterik olan samitlərdən biri də x' səsidir. Müəllif bu səsin şərhini verərkən rus dilindəki "хитер" sözünün x səsi, alman dilindəki "ich" sözünün ch səsi ilə müqayisə aparmış, səsin məxrəcini müəyyənləşdirməyə çalışmışdır: *çörəx', inəx', pürix', ilix'.* Daha sonra x' səsi udlaq h samiti ilə müqayisə olunmuşdur. H samitinin məxrəcinin müəyyənləşdirilməsi üçün alman dilindəki "haben" sözünün birinci səsi (h) nümunə olaraq göstərilir. Gəncəli məhəlləsindən və Yuxarı məhəllədən toplanan sözlər təqdim olunur: *Allah, hər, hil, cəhrə, nəhrə, hamam, beh, həyvə, hasar.* Samit qarşısında x' və h dəyişmələri şivə əlamətini üzə çıxarır: *inəhdən – inəx'dən, t^{c}əhnə - t^{c}əx'nə* [2; 21, s.24.].

N.İ.Aşmarindən qırx il sonra Şəki şivələrini geniş şəkildə (Şəki rayonunun həm şəhər, həm də kənd şivələri daxil olmaqla) dilin bütün səviyyələrində tədqiq edən Musa İslamov yazır: "Bu səs Nuxa dialekti üçün çox səciyyəvidir. x' səsi haqqında ilk dəfə fikir söyləyən, onun məxrəcini müəyyən edən prof. N.İ.Aşmarin olmuşdur". Sonra isə müəllif əlavə edir: "Sözə şəkilçi bitişdikdə x' səsi səssiz qarşısında bəzən h səsinə keçir, bəzən dəyişməz qalır. Çoxhecalı sözlərdə x' səsi iki səsli arasına düşdükdə cingiltili y səsinə, təkhecalı sözlərdə isə k səsinə keçir; məs.: külex'də /kelehdə, çörex'də /çörehdə, üreyə, küreyi; tüx' – tükə, tix' – tikə <dikə" [9, s.41]. 1926-cı ildə İ.Həsənov Gəncə şivələrini tədqiq edərkən x' samitinə diqqət yetirmiş, bu səsi rus dilində "xi-xi" nidasındakı x səsinə uyğun palatal səs kimi şərh etmişdir.

Cingiltili y samitinin yarımküylü, yarımsonor səs olduğunu qeyd edən Ə.Dəmirçizadə göstərir ki, "y samitinin kar qarşılığı kimi tanıdığımız x' samiti heca başında, heca ortasında işlənmir, bu samit ancaq heca sonunda ola bilir." [8,s.78].

Ə.Dəmirçizadənin x' səsi ilə bağlı araşdırmalarında haqlı olduğunu söyləyən A.Axundov qeyd edir ki, "orfoqrafiyada çoxhecalı sözlərin sonunda y hərfi ilə işarə olunan y samiti və k hərfi ilə işarə olunan y samiti arasında müəyyən fərq özünü göstərir. Daha doğrusu, məsələn, saray sözündəki y samiti müəyyən dərəcədə cingiltili olduğu halda, *ətəy "ətək"* sözündəki y samiti, demək olar ki, tamamilə kardır" [1,165-166].

N.İ.Aşmarin Şəki şivələrində "l" samitinin üç səslənmə formasını müəyyənləşdirmişdir: a) l samitinin çox yumşaq səslənən variantı kiril qrafikasındakı л hərfi ilə işarələnmişdir: *qaла, daл, лoviyə*; b) alman dilindəki "lampe" sözünün birinci səsinə uyğun olan, daha çox j və ş samitlərindən sonra işlənən kombinator l səsi λ hərfi şəklində işarələnmişdir: *yayλaг / yayλax, dayλax, xaşλadım, beşλıx, giλas*; c) rus dilindəki "ль" və " ель"dən fərqlənməyən, l hərfi ilə yazılan səs: *t^{c}el, q^{c}ələm.*

N.İ.Aşmarin affrikat ç^{c} (t+ş) və c (d+j) samitlərindən xüsusi bəhs etmiş, ç^{c} samitinin rus dilindəki ч (ç) səsinə uyğun gəldiyini söyləmişdir: *ç^{c}ала, ç^{c}алт^{c}ix' / ç^{c}əltix', ç^{c}ən-ç^{c}əmrə, ç^{c}əm, ç^{c}axç^{c}ax, ç^{c}aç^{c}ç^{c}ax; car, car eləmax, cumbuл, badĭmcan, ac, p^{c}əncərə, t^{c}ürkcə / t^{c}ühcə.*

Sağır nun (ŋ) səsinin bəzi şivələrdə, ümumiyyətlə, işlənməməsi, bəzi şivələrdə burun əlamətini saitə köçürməsi, bəzi şivələrdə isə q, g, k^{c} samitlərindən əvvəl işlənməsi ilə variantlılıq yaratdığı diqqətdən yayınmır: *başın, başında, gəldin, oğluŋu, goŋıl / goũl / q^{c}oũl / q^{c}ool, yaĩlırsan, doãn, gözuŋa, donqar, sóra, donquz, hüngül, qoloã .*

N.İ. Aşmarinin əsərində ŋ (sağır nun) səsinin qrammatik funksiya daşıdığını göstərən nümunələrə də təsadüf olunur: *əliŋiz, yəriŋiz, goluŋüz, goluŋa, golləriŋiz*.

Yeri gəldikcə Azərbaycan dilinin digər şivələri (Gəncə, Şuşa, Bakı) ilə də müqayisələr aparılmışdır: *məhtəf* (Gəncəli məhəlləsi) / *məx'təf* (Gəncə) / *meytᶜəf* (Şuşa) / *mekteb* (Bakı).

1930-1931-ci illərdə N.İ.Aşmarin, A.R.Ziffeld, V.Xuluflu, B.Çobanzadə, İ.Həsənov və Ə.Haqverdiyevin gərgin çalışmaları nəticəsində türk (Azərbaycan), rus, alman dillərində çap olunmuş "Azərbaycan türk xalq şivələri lüğəti"ndə də sözlər fonetik cəhətdən müxtəlif şivə varianları ilə birgə təqdim olunmuşdur: *aylıqçı /aylığcı /aylığçi* – ay hasabı ilə qulluq edən şəxs; *aqsatmaq / axsatmağ / axsatmax* – topal etmək, çolaq etmək; *basıq / batıq /basıx* – 1) yastı, çökük. 2) yük heyvanlarının belində əznikdən əmələ gələn yara; *buxov /puxoy / buxo /puxoy /buxoy /bıxov* – atların ayağına vurulan qıfıllı zəncir; [3;5] və s.

Xalq şivələri əsasında tərtib edilən lüğətdə tələffüz və yazı məsələsi də həll olunmalı idi. B.Çobanzadə ahəng məsələsinə diqqət yetirmiş, ahəngin pozulma səbəblərini müəyyənləşdirməyə çalışmış, xüsusilə məsdər şəkilçilərinə diqqət yönəltmişdir: "Xüsusən tat, ləzgi, talış və erməni kibi dillərlə Azərbaycan türk dilinin təmas etdiyi, calaqlaşdığı rayonlarda sinharmonizm xüsusən məsdər formasında pozulduğu və daima qalın damaq formasının ümumiləşdirdiyi görülür: *yemax, sevmax, görmax* ... kibi formalar bu növ ləhcələrdə adi formalardandır"[5, s.119]. Tələffüz normalarının birdən-birə tətbiq edilməsinin qeyri-mümkün olmasına, bu prosesi yalnız zamanla həll etməyin mümkünlüyünə B.Çobanzadə münasibət bildirmişdir: "Doğru söyləmə və ədəbi üslub ilə yavaş-yavaş, dərəcə-dərəcə tanış edilməlidir. Bu xüsusda ədəbi parçaların oxunması pək böyük yardım edər" [6, s.162].

Hazırda orfoepik normaların tətbiqində əsas problemlərdən birinə çevrilən vurğusuz "o" hərfinin tələffüzü məsələsinə də B.Çobanzadə qəti fikir bildirmişdir: "Rusların ədəbi dilində vurğusuz "o" hərfi [a] kibi tələffüz edildiyindən, bu hal rus dilindəki əcnəbi kəlmələrinə də təsir etmişdir. Məsələn, *konduktor, komandor* kibi kəlmələri ruslar *kanduktor, kamandor* surətində tələffüz edirlər. Bu kibi əcnəbi kəlmələrini türk dilinə qəbul edərkən, "o" hərfilə yazmalı və [o] kibi də tələffüz etməlidir. Xalis rus kəlmələrinə gəlincə, yenə "o" hərfi ilə yazmalı və yazıldığı kibi də tələffüz etməlidir" [7, s.234].

1929-cu ildə lüğətlər çapa hazırlanarkən mübahisə doğuran məsələlərdən biri də fonetik transkripsiyanı lüğətə tətbiq etmək idi. N.İ.Aşmarin fonetik transkripsiyanın, səs variantlarının müxtəlif şərti işarələrlə verilməsinin tərəfdarı olsa da, B.Çobanzadə bu işarələrin lüğətin çap olunma prosesini ləngidəcəyini, bu işarələrə ehtiyac olmadığını bildirmişdir. Bununla da lüğət çap olunarkən səs variatlılığını göstərən müxtəlif şərti işarələrdən istifadə olunmamışdır.

ƏDƏBİYYAT:

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, "Maarif",1984, 392 səh.
2. Ашмарин Н.И. Общий обзор народных тюркских говоров гор. Нухи. Баку, О-ва Обследования и Изучения Азербайджана, 1926, 196 стр.
3. Azərbaycan türk xalq şivələri lüğəti (rusca, almanca tərcümələrilə). I cild, 1-ci buraxılış, A. Bakı. ADETİ, 1930, 250 səh.
4. Azərbaycan türk xalq şivələri lüğəti (rusca və almanca tərcüməsilə). I cild, 2 hissə, B. Bakı, Az.DETİ, 1931, 260 səh.
5. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 368 səh.
6. Çobanzadə B. Dogru söyləmə. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2007, 344 səh.
7. Çobanzadə B. İmla. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı, "Şərq-Qərb", 2007, 264 səh.
8. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, I hissə. Fonetika, orfoepiya, orfoqrafiya. Bakı, "Şərq-Qərb", 2007, 256 səh.
9. İslamov M.İ. Azərbaycan dilinin Nuxa dialekti. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968, 275 səh.
10. Гасанов Г. Склонение имен существительных (без притяжательных аффиксов в говоре, употребляемом коренным населением Ганджи). Баку, Издание О-ва обследования и изучения Азербайджана. 1926, 61 стр.

Кифаят ИМАМГУЛИЕВА

ФОНЕТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ АЗЕРБАЙДЖАНСКИХ ТЮРКСКИХ НАРОДНЫХ ГОВОРОВ В 1920-1930-Е ГОДЫ

РЕЗЮМЕ

Создание в 1923 году Общества Обследования и Изучения Азербайджана, целенаправленная и систематическая деятельност его членов, изучение, сбор и публикация народных говоров стали весьма значимым событием в истории азербайджанского языкознания. Начиная с 1924 года были предприняты неотложные меры, связанные с составлением «Словаря азербайджанских тюркских народных говоров». Н.И.Ашмарин разработал специальную программу для сбора лексического материала, и в короткие сроки работа по сбору народных говоров приобрела массовый характер. Уделяя особое внимание вопросам фонетики и транскрипции в диалектологических исслевованиях, Н.И.Ашмарин также изучил говоры азербайджанского языка Нухи (ныне Шеки) и в 1926 году опубликовал монографию под названием «Общий обзор тюркских говоров города Нуха». Автор отдельно исследовал специфические осовенности гласных и согласных в анализируемых говорах, сопоставлял их с османским турецким, русским, арабским, персидским, немецким, казанско-татарским и другими языками и на основе заимствованных из этих языков примеров стремился разъяснить читателю артикуляционные особенности звуков.

Подобное сопоставление, связанное с артикуляцией звуков, наблюдается и в монографии И.Гасанова «Склонение имён», опубликованной в 1926 году и написанной на основе диалектологического материала гянджинских говоров. Хотя И.Гасанов ставил перед собой цель исследования падежных форм имени, он осознавал невозможность диалектологического анализа без фонетического исследования и поэтому в первую очередь уделил внимание вопросам фонетики и орфографии. В обоих трудах были исследованы системы гласных и согласных, а также их варианты: с учётом вариантов в говорах города Нуха зафиксировано 37 гласных и 34 согласных звука, а в гянджинских говорах – 22 гласных и 36 согласных звуков. Несмотря на то что обе монографии были написаны на русском языке, авторы представили диалектный материал на основе латинской графики, использовавшейся в 1920-1930-е годы, и при передаче звуковых вариантов прибегали к различным графемам и условным знакам. В «Словаре азербайджанских тюркских народных говоров», опубликованномв 1930-1931 годах на турецком (азербайджанском), русском и немецком языках в результате напряжённой работы Н.И.Ашмарина, А.Р.Зиффельда, В.Хулуфлу, Б.Чобанзаде, И.Гасанова и А.Хаквердиева, слова также представлены в фонетическом отношении в различныч диалектных вариантах.

Ключевые слова: *фонетические исследования в 1920-1930-е годы, диалект, фонетическая вариативность, Н.И.Ашмарин*

Kifayat IMAMGULIYEVA

PHONETIK RESEARCH ON AZERBAIJANI TURKIC FOLK VERNACULAR DIALECTS IN THE 1920S-1930S

ABSTRACT

The establishment of the Society for the Study and Investigation of Azerbaijan in 1923, the purposeful and systematic activities of its members and the investigation, collection and publication of folk dialects constituted a highly significant event in the history of Azerbaijani linguistics. Beginning in 1924, urgent measures were undertaken in connection with the compilation of the Dictionary of Azerbaijani Turkic Folk Dialects. N.I.Ashmarin prepared a special program for the collection of lexical material and within a short period of time the work of gathering folk dialects became widespread and systematic.

Paying particular attention to issues of phonetics and transcription in dialectological research, N.I.Ashmarin also studied the Nuxa (present-day Sheki) dialects of the Azerbaijani language and in 1926 published a monograph entitled A General Survey of the Turkic Dialects of the City of Nuxa. The author examined separately the specific features of vowels and consonants in the dialects under study, compared them with Ottomon Turkish, Russian, Arabic, Persian, German, Kazan Tatar and other languages and

sought to explain the articulatory characteristics of sounds to the reader on the basis of examples drawn from these languages.

A similar comparison related to articulatory features can also be observed in I.Hasanov`s monograph Declension of Nouns, published in 1926 and written on the basis of dialect material from the Ganja dialects. Although Hasanov`s primary aim was the study of nominal case forms, he recognized that dialectological research is impossible without phonetic analysis and therefore devoted particular attention first to issues of phonetics and orthography.

In both works, vowel and consonant systems and their variants were examined. Including their variants, 37 vowel and 34 consonant sounds were recorded in the dialects of the city of Nuxa, while 22 vowel and 36 consonant sounds were identified in the Ganja dialects. Although both monographs were written in Russian, the authors presented the dialect material using the Latin script employed in the 1920s-1930s and made use of various graphemes and conventional symbols in representing phonetic variants.

In the Dictionary of Azerbaijani Turkic Folk Dialects, published in 1930-1931 in Turkic (Azerbaijani), Russian and German as a result of the intensive efforts of N.I.Ashmarin, A.R.Ziffeld, V.Khuluflu, B.Chobanzade, I.Hasanov and A.Hagverdiyev, lexical items are likewise presented with multiple dialectal variants from a phonetic perspective.

Keywords: *phonetic studies in the 1920s-1930s, dialect, phonetic variation, N.I.Ashmarin*

Şükrü Halûk AKALIN*

BİRİNCİ TÜRKOLOJİ KURULTAYI'NIN MİRASI: TÜRKOLOJİDE SAYISAL DÖNÜŞÜM

1926 yılında Bakü'de toplanan Birinci Türkoloji Kurultayı, yalnızca alfabe seçimi veya yazım ve terim sorunlarının ele alındığı dar bir dil bilimi toplantısı değil; Türk dünyasının modernleşme, bilgi dolaşımı ve bilimsel iletişim sorunlarını bütüncül biçimde tartışmaya açan tarihsel bir dönüm noktasıdır. Kurultay tutanakları incelendiğinde, alfabe meselesinin arkasında yatan temel kaygının harf biçimlerinden çok, bilginin kitlelere aktarılması, ortak bilim dili oluşturulması ve farklı Türk toplulukları arasında kültürel sürekliliğin sağlanması olduğu açıkça görülmektedir.

Kurultayda tartışılan yazım, terminoloji ve alfabe sorunları; dönemin teknik imkânlarıyla sınırlı kalmış olsa da özünde bugün dijital bilgi yönetimi, çok dilli veri işleme ve standartlaştırılmış iletişim başlıkları altında ele alınan sorunların erken bir yöntem arayışı niteliğindedir. Nitekim Kurultay'da Latin alfabesine yönelimi savunan görüşler, yalnızca okuma yazmayı kolaylaştırma gerekçesine değil; bilimsel üretimin yaygınlaştırılması, eğitim materyallerinin çoğaltılması ve halk kitlelerinin modern bilgiye erişimi gibi hedeflere dayandırılmıştır.

Ancak Birinci Türkoloji Kurultayı'nın tarihsel bağlamı, bu bakış açısının kısa sürede kurumsallaşmasını mümkün kılmamıştır. Sovyetler Birliği'nde 1930'lu yılların ortalarından sonra hız kazanan siyasi baskılar ve "Represiya" olarak anılan Stalin'in Büyük Terör Dönemi süreci, Kurultay'a katılan birçok Türkoloğun hayatına mal olurken ortak alfabe, terminoloji ve edebî dil arayışları uzun süre bireysel ve yerel düzeyde kalmıştır. Bu dönem Türk dünyasında bilimsel sürekliliğin ve ortak bilgi alt yapısının oluşmasını geciktiren temel etkenlerden biri olmuştur.

Bugün ise sayısal teknolojiler, yapay zekâ uygulamaları ve büyük ölçekli veri işleme imkânları sayesinde, 1926 Kurultayı'nda dile getirilen birçok hedef teknik olarak gerçekleştirilebilir durumdadır. Farklı alfabelerle yazılmış tarihî ve çağdaş metinlerin Optik Karakter Tanıma (OKT = OCR Optical Character Recognition) teknolojileriyle sayısallaştırılması, Belge Sayısallaştırma ve Dizinleme (BSD = DDI Document Digitization and Indexing) sistemleriyle düzenlenmesi ve yapay zekâ (YZ) destekli çeviri ve harf çevrimi (transliteration) modelleriyle ortak bir alfabe çerçevesinde yeniden işlenmesi, Kurultay'ın ortak bilimsel iletişim idealini günümüz koşullarında yeniden düşünmeyi mümkün kılmaktadır.

* Prof. Dr., Hacettepe Üniversitesi öğretim üyesi, AMEA Nesimi Dilcilik Enstitüsü ve Sumgayıt Devlet Üniversitesi fahri doktoru, sukruhaluk.akalin@hacettepe.edu.tr

Üzerinden geçen yüz yıl içerisinde yaşanan siyasi, teknolojik ve kültürel gelişmeler Türk dünyasının önünde yeni ufukların açılmasını sağlamıştır. Türk Devletleri Teşkilatı 2024 yılında Ortak Türk Alfabesinin kabul edildiğini açıklamıştır. Geçen yıl ekim ayında Gebele'de toplanan Türk Devletleri Teşkilatı zirvesinde Türkiye Cumhuriyeti'nin Ortak Türk Alfabesiyle yayımladığı Cengiz Aytmatov ve Oğuznameler kitaplarını Cumhurbaşkanı Recep Tayyip Erdoğan liderlere hediye etmiştir. Türk Akademisi de Abay Kunanbay'ın ve Cengiz Aytmatov'un birer eserini Ortak Türk Alfabesi ile deneme amaçlı yayımlamıştır. Öte yandan bilişim teknolojisindeki gelişmeler ve YZ Ortak Türk Alfabesinin yayğınlaşmasında ve işlevselleştirilmesinde yeni imkânlar sunmaktadır. Geleneksel yöntemle basılan kitapların yanı sıra yüzlerce yıllık Türk dünyası edebî, kültürel, bilimsel eserlerinin sayısallaştırılarak Ortak Türk Alfabesiyle elektronik kitaplığa dönüştürülmesi bilim ve kültür hayatımızda yeni bir çağın başlamasını sağlayacaktır.

Bu bildirinin amacı, Birinci Türkoloji Kurultayı'nda tartışılan alfabe, imla ve terminoloji meselelerini tarihsel bir nostalji unsuru olarak ele almak değil; aksine bu tartışmaları sayısal dönüşüm bağlamında güncellemek ve çağdaş teknolojiler aracılığıyla uygulanabilir bir modele dönüştürmektir. Bu çerçevede çalışma, Birinci Türkoloji Kurultayı ile günümüz yapay zekâ temelli dil teknolojileri arasında kavramsal bir süreklilik bulunduğu varsayımından hareket etmekte; ortak alfabe ve ortak iletişim dili sorununa sayısal Türk dünyası için bütünleşik bir çözüm önerisi sunmayı hedeflemektedir.

1. SAYISAL DÖNÜŞÜMÜN TEKNİK EŞİĞİ OLARAK OKT–BSD–YZ ZİNCİRİ

Türk dünyasında bugün, farklı alfabelerle ve farklı Türk yazı dillerinde basılmış **milyonlarca kitap, dergi ve süreli yayın** bulunmaktadır. Yalnızca Türkiye'de son yıllarda **yıllık yayımlanan kitap sayısı yetmiş seksen bin civarın**dadır; bu rakama ders kitapları, süreli yayınlar ve arşivlik basımlar dâhil edildiğinde hacim çok daha büyümektedir. Azerbaycan, Kazakistan, Kırgızistan, Özbekistan, Türkmenistan, Tataristan, Başkurdistan, Kırım, Yakutistan, Uygur ve diğer Türk topluluklarının Kiril, Arap veya farklı Latin temelli alfabelerle yayımlanmış eserleri de dikkate alındığında Türk soylu halkların yazılı kültürel mirasının nicel büyüklüğü açıkça ortaya çıkmaktadır. Yeni çıkacak kitaplar, dergiler Ortak Türk Alfabesi ile yayımlanabilir. Ancak bundan önce yayımlanmış olan Türk dünyasının kültürel ve bilimsel mirasının tamamının **Ortak Türk Alfabesiyle yeniden basılması**, ekonomik, lojistik ve zaman bakımdan verimli ve gerçekçi değildir. Ancak basılmış bütün bu eserlerin optik karakter tanıma (**OKT), belge sayısallaştırma ve dizinleme (BSD) ve yapay zekâ (YZ)** destekli teknolojiler aracılığıyla sayısal ortama aktarılması, ortak alfabeye dönüştürülmesi ve **açık erişimli** (open access) **bir sanal Türk dünyası kütüphanesinde** birleştirilmesi bugün teknik olarak mümkündür. Böylece alfabe farklılıklarının yarattığı erişim engeli, matbaa çağının sınırlarını aşan dijital bir çözümle ortadan kaldırılabilir ve Türk dünyasının ortak yazılı mirası ilk kez bütüncül biçimde dolaşıma sokulabilir.

Türk dünyasında farklı alfabelerle basılmış ve yazılmış metinlerin ortak bir erişim uzamında buluşturulabilmesi, uygulamada üç aşamalı bir teknik zincire dayanır: 1. Optik karakter tanıma ile metni makine tarafından işlenebilir hâle getirme, 2. Sayısal veri işleme ile veri temizleme, düzenleme ve dizinleme yoluyla "arama-erişim" altyapısını kurma, 3. Yapay zekâ tabanlı dil işleme ile dönüştürme, çeviri ve işleme süreçlerini otomatikleştirme. Bu üçlü yalnızca "metni sayısallaştırmak" değil aynı zamanda metni bilgiye dönüştürülebilir bir biçime sokmak anlamına gelir. Bu nedenle sorun alfabenin şekliyle sınırlı bir "harf" konusu değil veri kalitesi, hata yayılımı ve dil teknolojisi bağımlılıkları olan bir altyapı düzenleme konusudur.

Birinci aşamada OKT, özellikle tarihî basımlar ve düşük baskı kalitesi olan materyallerde, hataya açık bir üretim hattı oluşturur. Bu noktada OKT sistemlerinin "tanıma doğruluğu" yalnızca yazı tipine değil sayfa düzenine, satır kırılmalarına, kâğıt yıpranmasına ve dilin karakter envanterine de bağlıdır. Tesseract'ın mimarisine dair klasik teknik çerçeve, OKT'nin bir "görüntüden metne" dönüşüm olduğunu; ancak asıl başarımın satır/karakter ayrıştırma ve dilsel modelleme kararlarında belirlendiğini açık biçimde ortaya koyar [4,s.2]. Daha yeni yaklaşımlar ise (ör. LSTM temelli modeller) özellikle karmaşık yazı tiplerinde ve tarihî dizgilerde hatayı düşürmek için öğrenmeye dayalı tanıma katmanlarını öne çıkarır; bu tür yöntemlerin basılı İngilizce ve Fraktur örneklerinde yüksek doğruluklara ulaşabildiği raporlanmıştır [2, 5]. Türk dilleri bağlamında bu bulguların doğrudan karşılığı şudur: alfabe farklılıkları (Arap/Latin/Kiril)

yalnız “grafem değişimi” değildir; OKT açısından “ayrıştırma” ve “tanıma” problemine dönüşür ve her alfabe için ayrı eğitim/ince ayar ihtiyacı doğurur.

İkinci aşama olan BSD, OKT çıktısını “kullanılabilir metin” seviyesine taşır. OKT’den gelen hata türleri (karakter karışmaları, eksik/çift harf, satır kayması, bitişik/ayrı yazım) düzeltilmeden kurulan bir elektronik kütüphane, arama sonuçlarında yüksek oranda yanlış eşleşme üretir. Bu nedenle ortak kütüphane yaklaşımında asgari teknik paket: 1. Karakter düzeltme ve normalizasyon, 2. Alfabe dönüştürme kuralları, 3. Alan-özgül sözlükler, 4. Doğrulama örneklemesiyle kalite ölçümü olmalıdır. Bu aşama YZ katmanının sağlıklı çalışmasının da ön koşuludur çünkü YZ modelleri kirli veriyi de “öğrenir” ve hatayı büyütebilir.

Üçüncü aşamada YZ iki farklı yönde kritik rol oynar: 1. Alfabe/dil dönüşümü (transliterasyon, eşleme, hizalama), 2. Çeviri ve anlam eşleme (terim uyumlama, bağlam koruma, çok dilli erişim). Dönüştürme ve çeviri süreçlerinde modern yaklaşımlar, dizisel modellemeden çok dikkat tabanlı yapılara dayanır. Transformer mimarisini tanıtan çalışma, uzun bağımlılıkların daha verimli öğrenilebilmesi için dikkat mekanizmasının merkezî rolünü ayrıntılandırır [5, s.4]. Büyük ölçekli ön eğitimli dil modelleri ise metinleri bağlama duyarlı biçimde temsil ederek hem düzeltme hem de çeviri gibi görevlerde kaliteyi yükseltir. BERT çalışması bu yaklaşımın yöntemsel çerçevesini ve çıktıya etkisini sistematik biçimde sunar [3, s.14]. Bu doğrultuda Türk dünyası elektronik kütüphanesi için YZ katmanı, yalnız “otomatik çeviri” değil aynı zamanda terim ölçünleştirimi (standardizasyonu) ve bağlamlı arama (semantic search) gibi işlevleri de kapsayacak şekilde tasarlanmalıdır.

Bu durumda 1926’daki alfabe ve yazım tartışmalarının günümüzdeki karşılığı “Hangi harf?” sorusundan çok “Hangi veri standardı, hangi kalite güvence zinciri ve hangi ortak erişim mimarisi?” sorusudur. Ortak alfabe hedefi, bu teknik zincirin yalnızca bir bileşenidir; asıl belirleyici olan, çok alfabeli mirası tek sayısal evrende buluşturacak OKT doğrulaması, veri normalizasyonu ve YZ destekli dönüşüm mimarisinin bilimsel ölçütlerle kurulmasıdır.

2. BİRİNCİ TÜRKOLOJİ KURULTAYI İLE SAYISAL DÖNÜŞÜM ARASINDA KAVRAMSAL SÜREKLİLİK

Birinci Türkoloji Kurultayı yüzeyde alfabe ve yazım tartışmalarıyla anılsa da özünde Türk dünyasında bilginin dolaşımı, ortak anlaşılabilirlik ve kültürel bütünleşme sorununa verilen sistematik bir cevaptır. Kurultay tutanakları dikkatle incelendiğinde tartışmaların yalnızca alfabe sorununa değil eğitim, terminoloji, bilim dili, kitlelere erişim ve modernleşme alanlarına yöneldiği görülür. Bu yönüyle Kurultay, bugünün sayısal dönüşüm sorunlarıyla doğrudan kavramsal bir süreklilik arz eder.

Kurultay’da öne çıkan temel kaygılardan biri farklı yazı sistemleri ve yerel yazım gelenekleri nedeniyle Türk halkları arasında bilgi aktarımının parçalanmasıdır. Alfabe reformu savunulurken kullanılan görüşler yalnızca teknik değil pedagojik ve toplumsaldır. Yazının “en kolay öğrenilen”, “en hızlı yayılabilen” ve “kitleleri dışlamayan” biçimde düzenlenmesi gerektiği sıkça vurgulanmıştır. Bu yaklaşım, bugün sayısal beşerî bilimlerde (digital humanities) temel kabul edilen “erişilebilirlik” (accessibility) ve “kapsayıcılık” (inclusivity) ilkeleriyle örtüşmektedir.

Birinci Türkoloji Kurultayı’nda alfabe bilgiye erişimin aracı olarak kavramsallaştırılmıştır. Günümüzde ise aynı işlevi alfabenin ötesinde sayısal ölçünlülük, veri biçimleri, OKT doğruluğu ve YZ modelleri üstlenmektedir. Başka bir ifadeyle Kurultay’ın “ortak yazı” arayışı sayısal çağda “ortak veri uzayı” arayışına dönüşmüştür. Bu dönüşüm biçimsel değil işlevseldir. Nitekim Kurultay’da dile getirilen “bilim dili oluşturma”, “terim birliği”, “ortak edebî dil” ve “eğitimde eşitlik” hedefleri bugün çok dilli sayısal kütüphanelerin ve YZ destekli çeviri sistemlerinin temel motivasyonlarıyla aynıdır.

Kurultay tartışmalarında dikkat çeken bir başka nokta, bilimsel üretim ile kitle eğitimi arasındaki dengedir. Yazım ve terminoloji kararlarının yalnızca dar bir aydın zümreye değil geniş halk kitlelerine hitap etmesi gerektiği savunulmuştur. Bu yaklaşım günümüzde YZ tabanlı sistemlerde sıkça tartışılan “elit veri / halk dili” ikilemini hatırlatır. Büyük dil modellerinin yalnız akademik metinlerle değil geniş toplumsal dil örnekleriyle eğitilmesi gerektiğine dair çağdaş görüşler Kurultay’daki pedagojik hassasiyetin teknolojik karşılığıdır.

Birinci Türkoloji Kurultayı’nın bir diğer belirleyici yönü merkezîlik-yerellik dengesidir. Ortak ilkeler savunulurken her cumhuriyetin ve bölgenin kendi dilsel gerçekliğinin dikkate alınması gerektiği

açıkça ifade edilmiştir. Bugün sayısal dönüşüm bağlamında bu ilke "tek model – çoklu yerel uyarlama" yaklaşımıyla yeniden karşımıza çıkar. OKT modellerinin, çeviri sistemlerinin ve terminoloji veri tabanlarının her Türk dili ve değişkeleri için ayrı ayrı eğitilmesi gerekliliği Kurultay'daki bu duyarlılığın teknik bir devamı olarak okunmalıdır.

Bu bağlamda, Birinci Türkoloji Kurultayı'nın alfabe konusuna yaklaşımı ile çalışmada önerilen YZ destekli ortak Türk dünyası elektronik kütüphanesi arasında doğrudan bir düşünsel süreklilik bulunmaktadır. Kurultay kendi döneminin teknolojik imkânlarıyla bilginin ortaklaştırılmasını hedeflemiştir, günümüz projesi ise aynı hedefi sayısal teknolojiler aracılığıyla gerçekleştirmeyi amaçlamaktadır. Bu nedenle söz konusu proje, tarihsel bir mirasın "anılması" değil onun çağdaş araçlarla yeniden üretilmesi anlamına gelir.

Kısacası Birinci Türkoloji Kurultayı ile sayısal dönüşüm arasında kurulan bu kavramsal köprü konumuzun tarihsel arka planını güçlendirdiği gibi önerilen teknolojik çözümün meşruiyetini ve sürekliliğini de sağlamaktadır. Ortak alfabe, ortak terminoloji ve ortak edebî dil arayışı bugün OKT, BSD ve YZ destekli sistemler aracılığıyla yeni bir evreye taşınmaktadır. Bu evre Kurultay'ın ruhuna uygun biçimde Türk dünyasında bilginin serbest dolaşımını ve kültürel bütünleşmeyi hedeflemektedir.

3. BİLİŞİM TEKNOLOJİLERİ, YAPAY ZEKÂ VE ORTAK TÜRK ALFABESİNİN UYGULANABİLİRLİĞİ

Alfabe değişikliği ve yazım birliği uzun yıllar boyunca teknik ve kültürel güçlükler üzerinden tartışılmış; matbaa alt yapısı, hurufat sorunları ve daha önce basılmış eserlerin "okunamaz hâle geleceği" yönündeki endişeler ön plana çıkarılmıştır. Oysa günümüzde bilişim teknolojileri ve yapay zekâ uygulamaları bu sorunların büyük bölümünü işlevsel olarak ortadan kaldırmış durumdadır. Böylece alfabe meselesi teknik bir engel olmaktan çıkmış; erişim, dönüşüm ve sayısallaştırma sorunu hâline gelmiştir.

Bilgisayar teknolojilerinin ilk dönemlerinde Türk yazı dillerinin ses envanterinde yer alan bazı fonemlerin Latin kökenli alfabelerle gösterilmesi sınırlıydı. Türkoloji çalışmalarında bu eksiklik, özel karakterler ve yerel yazı tipleri geliştirilerek aşılmaya çalışılmış; ancak bu çözümler uluslararası karakter standartlarının dışında kaldığı için sürdürülebilir olmamıştır. ISO/IEC 8859 karakter setleri ve daha sonra Unicode (UTF-8) kodlama sisteminin geliştirilmesiyle bu sorun köklü biçimde çözülmüştür. Günümüzde UTF-8 sistemi sayesinde Latin, Kiril, Arap ve diğer yazı sistemlerinde kullanılan tüm karakterler ortak bir kodlama evreni içinde temsil edilebilmektedir [1, s.66].

Bu teknik zemin ortak Türk alfabesinde yer alan tüm işaretlerin sayısal ortamlarda sorunsuz biçimde kullanılmasını mümkün kılmaktadır. Dizgi, baskı ve çoğaltma süreçleri artık fiziksel hurufata değil sayısal veri akışına dayandığından geçmişte alfabe değişikliğine karşı ileri sürülen teknik gerekçeler geçerliliğini yitirmiştir. Bu durum Birinci Türkoloji Kurultayı'nda dile getirilen "en kolay öğrenilen ve en geniş kitlelere ulaşan yazı" ilkesinin günümüz teknolojik koşullarında somut karşılığını bulduğunu göstermektedir.

Yapay zekâ destekli yazı çevrimi (transliterasyon) sistemleri, bu sürecin ikinci ve daha kritik aşamasını oluşturmaktadır. Günümüzde Kiril–Latin, Arap–Latin ve hatta tarihî yazı sistemlerinden modern alfabelere dönüşüm büyük ölçüde otomatikleştirilebilmektedir. Bu dönüşümün ilk adımı, OKT teknolojileridir. Yüksek çözünürlüklü tarayıcılarla sayısal ortama aktarılan basılı eserler Tesseract gibi açık kaynaklı OKT araçlarıyla metin hâline getirilebilmekte, ardından YZ tabanlı hata düzeltme süreçleri devreye girmektedir [4, s.2].

Bu aşamada özellikle bağlam duyarlı dil modelleri (BERT, GPT türevi büyük dil modelleri) önemli rol oynamaktadır. OKT sürecinde ortaya çıkan karakter ve hece hataları, bağlamsal analiz yoluyla otomatik olarak düzeltilmektedir. Böylece Kiril kökenli alfabelerle yazılmış Türk dillerine ait metinler, Ortak Türk Alfabesine yüksek doğruluk oranlarıyla aktarılabilecektir. Daha önce yıllar sürecek insan emeği gerektiren bu işlem günümüzde kısa süreler içinde gerçekleştirilebilmektedir.

Yazı çevrimi sürecinin ileri aşamasında dizilimden dizilime (Seq2Seq) dayalı sinir ağı modelleri kullanılmaktadır. Bu modeller karakter veya sözcük dizilerini kaynak yazı sisteminden hedef yazı sistemine dönüştürmek üzere eğitilmektedir. Fairseq ve OpenNMT gibi açık kaynaklı çerçeveler, bu tür modellerin geliştirilmesinde yaygın olarak kullanılmaktadır. Eğitim verisi olarak Kiril veya Arap kökenli alfabelerle yazılmış metinlerin Ortak Türk Alfabesine dönüştürülmüş karşılıkları kullanılmakta, model bu

eşleştirmeler üzerinden dönüşüm kurallarını öğrenmektedir [1, s.68]. Ancak yazı çevriminin teknik doğruluğu, metnin anlamsal bütünlüğünün korunması için yeterli değildir. Bu nedenle ortaya çıkan metinlerin dil modeli temelli anlam denetiminden geçirilmesi gerekmektedir. Henüz tam anlamıyla yerli ve kapsamlı bir Türkçe büyük dil modeli bulunmadığından bu aşamada genel amaçlı dil modellerinden yararlanılmaktadır. Bu durum Türk dünyasında sayısal dönüşümün en kritik yapısal eksikliklerinden birini oluşturmaktadır [1, s.68].

Bu teknik sürecin nihai hedefi, Türk soylu halkların edebî, tarihî ve bilimsel mirasının ortak bir açık erişim dijital kütüphane çatısı altında toplanmasıdır. Yapay zekâ destekli sınıflandırma, anlamsal arama ve metin zenginleştirme araçları sayesinde bu kütüphane yalnızca bir arşiv değil yaşayan bir bilgi ekosistemi hâline gelecektir. Kullanıcılar, metinlere yalnızca kelime düzeyinde değil, kavramsal ve tematik düzeyde de erişebileceklerdir.

Bu yönüyle önerilen model Birinci Türkoloji Kurultayı'nda hedeflenen ortak alfabe ve yazım, ortak terimler ve ortak edebî dille kültürel bilinç idealinin sayısal çağdaki somut karşılığıdır. Alfabe birliği artık yalnızca yazı işaretlerinin değil verinin, bilginin ve anlamın birliği olarak yeniden tanımlanmalıdır.

4. AÇIK ERİŞİM TÜRK DÜNYASI SAYISAL KÜTÜPHANE MODELİ

Önceki bölümlerde ortaya konulan bilişim ve YZ temelli yazı çevrimi süreçleri tek başına teknik bir dönüşüm olarak ele alındığında sınırlı bir anlam taşır. Bu sürecin asıl değeri elde edilen metinlerin sistemli, sürdürülebilir ve ortak erişime açık bir yapıda bir araya getirilmesiyle ortaya çıkar. Bu bağlamda önerilen model Türk soylu halkların edebî, tarihî, bilimsel ve kültürel mirasını kapsayan Açık Erişim Türk Dünyası Sayısal Kütüphanesinin kurulmasıdır.

Bu kütüphane yalnızca farklı alfabelerle yazılmış metinlerin Ortak Türk Alfabesine aktarılmasını hedefleyen bir arşiv değildir. Aynı zamanda sayısal beşerî bilimler yaklaşımı çerçevesinde yapılandırılmış, yapay zekâ destekli, dinamik ve etkileşimli bir bilgi ekosistemi olarak tasarlanmalıdır. Böyle bir yapı Türk dünyasında bilgiye erişimi demokratikleştirecek; merkez–çevre, gelişmiş–gelişmemiş altyapı ayrımlarını büyük ölçüde ortadan kaldıracaktır.

4.1. Açık Erişim İlkesi ve Kurumsal Çerçeve

Önerilen sayısal kütüphane açık erişim ilkeleri doğrultusunda yapılandırılmalıdır. Bu çerçevede telif süresi dolmuş eserler ile ilgili kurum ve ülkelerin mevzuatlarına uygun biçimde erişime açılabilecek yayınlar, hiçbir ücret veya teknik engel olmaksızın kullanıcıların hizmetine sunulmalıdır. Açık erişim yaklaşımı Türk dünyasında bilimsel üretimin ve kültürel dolaşımın hızlanmasına doğrudan katkı sağlayacaktır.

Kurumsal yapı bakımından kütüphanenin tek merkezli ancak çok paydaşlı bir modelle yönetilmesi gereklidir. Üniversiteler, millî kütüphaneler, arşiv kurumları ve araştırma merkezleri bu yapının doğal paydaşlarıdır. Böylece sayısal kütüphane belirli bir ülkenin değil Türk dünyasının ortak kurumsal hafızası niteliğini kazanacaktır.

4.2. Yapay Zekâ Destekli Tasnif ve Anlamsal Erişim

Kütüphaneye aktarılan metinlerin yalnızca depolanması yeterli değildir. Metinlerin tür, konu, dönem, coğrafya ve dil özelliklerine göre otomatik olarak tasnif edilmesi gereklidir. Bu aşamada makine öğrenimine dayalı metin sınıflandırma modelleri devreye girer. Roman, hikâye, şiir gibi edebî metinler; arşiv belgeleri, kronikler ve resmî yazışmalar; halk bilgisi ürünleri; bilimsel ve teknik metinler ayrı kategoriler altında toplanır.

Geleneksel sayısal kütüphanelerden farklı olarak önerilen sistemde anlamsal arama (semantic search) ön plandadır. Kullanıcı yalnızca anahtar kelime araması yapmakla kalmaz; konuya, temaya veya kavrama dayalı sorgular da gerçekleştirebilir. Bu durum Türk dünyasına ait metinlerin karşılaştırmalı ve disiplinler arası çalışmalar için etkin biçimde kullanılmasını mümkün kılar.

4.3. Metin Zenginleştirme ve Dijital Beşerî Bilimler Boyutu

Açık erişim kütüphanesinin en ayırt edici yönlerinden biri metinlerin YZ aracılığıyla zenginleştirilmesidir. Metinlerde geçen kişi adları, yer adları, tarihî olaylar ve kavramlar otomatik olarak tanımlanabilir; kullanıcıya açıklayıcı bilgiler sunulabilir. Bu sayede metinler yalnızca okunabilir değil aynı zamanda öğretici ve bağlamsal olarak derinlikli hâle gelir.

Bu yaklaşım sayısal beşerî bilimler alanının temel ilkeleriyle örtüşmektedir. Metinler üzerinde zaman-mekân analizleri, kavram ağları, tematik haritalar ve görselleştirmeler üretmek mümkün hâle gelir. Böylece Türkoloji çalışmaları klasik filolojik yöntemlerin ötesine geçerek çağdaş dijital araştırma teknikleriyle bütünleşir.

4.4. Çok Dilli Erişim ve Yapay Zekâ Destekli Çeviri

Kütüphanenin bir diğer stratejik boyutu YZ destekli çeviri sistemleridir. Ortak Türk Alfabesine dönüştürülen metinler yalnızca Türk dünyası içinde değil küresel ölçekte de erişilebilir olmalıdır. Bu amaçla metinlerin farklı dillere otomatik ve denetimli biçimde çevrilmesi sağlanabilir. Böylece Türk dünyasının kültürel ve bilimsel birikimi dünya akademik dolaşımına daha etkin biçimde katılır.

4.5. Sürdürülebilirlik ve Gelecek Perspektifi

Önerilen açık erişim Türk dünyası sayısal kütüphane modeli tek seferlik bir proje değil sürekli güncellenen ve genişleyen bir yapı olarak tasarlanmalıdır. Yeni taranan eserlerin sisteme eklenmesi, YZ modellerinin geri bildirimlerle sürekli iyileştirilmesi ve kullanıcı katkılarının denetimli biçimde değerlendirilmesi bu sürdürülebilirliğin temel unsurlarıdır.

Bu yönüyle model Birinci Türkoloji Kurultayı'nda dile getirilen ortak yazım, ortak terim, ortak edebî dil ve ortak kültürel zemin hedeflerinin sayısal çağdaki kurumsal karşılığıdır. Açık erişim Türk dünyası sayısal kütüphane modeli geçmişle gelecek arasında yalnızca bir köprü değil aynı zamanda Türk dünyasının ortak hafızasını geleceğe taşıyan kalıcı bir yapı olacaktır.

Birinci Türkoloji Kurultayı'nda alfabe yalnızca dil bilimsel bir tercih olarak değil dönemin somut üretim teknolojileriyle doğrudan ilişkili bir **uygulama sorunu** olarak ele alınmıştır. Konuşmacıların matbaa dizgisi, harf kalıpları, baskı hızı, eğitim materyallerinin çoğaltılması ve okuryazarlığın yaygınlaştırılması gibi başlıklara yoğunlaşmaları alfabenin çağın teknik imkânlarıyla birlikte düşünülmesi gerektiği yönündeki bilinçli yaklaşımı açıkça göstermektedir. Harflerin "kolay dizilebilir", "tek biçimli", "çoğaltmaya elverişli" olması yönündeki vurgular alfabenin bir ideolojik sembolden ziyade **teknolojik bir araç** olarak kavrandığını ortaya koyar. Bugün ise aynı mesele farklı bir teknolojik düzlemde yeniden karşımıza çıkmaktadır: Matbaanın yerini sayısal dizgi, hurufatın yerini Unicode, baskının yerini sayısal dolaşım, insan emeğinin yerini ise büyük ölçüde YZ destekli doğal dil işleme sistemleri almıştır. Dün alfabenin matbaada uygulanabilirliği tartışılırken bugün sayısal dönüşüm, optik karakter tanıma, yazı çevrimi ve YZ tabanlı metin işleme teknolojileri sayesinde alfabe farklılıkları teknik bir engel olmaktan çıkmıştır. Bu açıdan bakıldığında 1926 Kurultayı'nın alfabe yaklaşımı ile günümüz doğal dil işleme ve YZ temelli çözümleri arasında bir kopuş değil güçlü bir **tarihsel ve kavramsal süreklilik** bulunmaktadır. 1926 yılında Birinci Türkoloji Kurultayı'na coşkuyla, heyecanla ve ana dili sevgisiyle katılan üyeler bugün yaşasalardı eminim onlar da Türk dillerinin bugünkü teknolojilerle işlenmesini, yaygınlaştırılmasını, Türk dünyası edebiyatının sayısal ortama aktarılarak dünyanın her köşesinden insanın erişimine açılmasını isterlerdi.

Kurultay delegelerinin kendi çağlarının teknolojisini dikkate alarak ortaya koydukları çözüm arayışları bugün sayısal teknolojiler aracılığıyla yeni bir düzeyde sürdürülmektedir. Ancak bu sürekliliğin bir trajik boyutu da vardır: Kurultay'ın bilimsel ufkunu şekillendiren birçok ismin kısa süre sonra Stalin'in Büyük Terör Dönemi kurbanı olması alfabe ve kültür meselelerinin ne denli siyasal kırılganlıklar içinde ele alındığını da hatırlatmaktadır. Bugün sayısal teknolojilerle yeniden kurulan ortak alfabe ve ortak bilgi alanı yalnızca teknik bir ilerleme değil aynı zamanda Kurultay'da yarım kalan bilimsel iradenin, baskıyla kesintiye uğratılan entelektüel mirasın ve susturulan seslerin gecikmiş bir telafisi niteliğindedir. Bu nedenle sayısal gelecek Birinci Türkoloji Kurultayı'nın tarihsel anlamda tamamlanması değil onun **çağdaş teknoloji ve koşullarda yeniden hayata geçirilmesi** olarak görülmelidir.

KAYNAKLAR

1 Akalın, Ş. H. "Ortak Türk Alfabesinin Yaygınlaştırılmasında Bilişim Uygulamaları ve Yapay Zekâ", *Bilim ve Ütopya*, 367, s.65-69, 2025.

2 Breuel, T. M.; Ul-Hasan, A.; Al-Azawi, M. A.; Shafait, F. *High-Performance OCR for Printed English and Fraktur Using LSTM Networks.* ICDAR 2013, c. 1, s. 1-5. (https://www.researchgate.net/publication/260341302_High-Performance_OCR_for_Printed_ English_and_Fraktur_using_LSTM_Networks)

3 Devlin, J.; Chang, M.-W.; Lee, K.; Toutanova, K. *BERT: Pre-training of Deep Bidirectional Transformers for Language Understanding.* arXiv:1810.04805, s. 1–16. (https://arxiv.org/pdf/1810.04805)

4 Smith, R., "An Overview of the Tesseract OCR Engine", Proceedings of the Ninth International Conference on Document Analysis and Recognition, 2007. (https://ieeexplore.ieee.org/document/4376991)

5 Vaswani, A.; Shazeer, N.; Parmar, N.; vd. *Attention Is All You Need.* arXiv:1706.03762, s. 1–11. (https://proceedings.neurips.cc/paper_files/paper/2017/file/3f5ee243547dee91fbd053c1c4a845aa-Paper.pdf)

THE LEGACY OF THE FIRST ALL-SOVIET CONGRESS OF TURKOLOGY: DIGITAL TRANSFORMATION IN TURKOLOGY

ABSTRACT

The First Congress of Turkology, held in Baku in 1926, was not merely a narrow linguistic meeting focused on alphabet selection or issues of orthography and terminology. Rather, it was a historical turning point that opened a comprehensive discussion on the modernization of the Turkic world, the circulation of knowledge, and challenges in scientific communication.

Although the issues of alphabet, terminology, and orthography debated at the Congress were constrained by the technological limitations of the time, they essentially represented an early search for methods to address challenges that today fall under the headings of digital information management, multilingual data processing, and standardized communication.

Indeed, the arguments in favor of adopting the Latin alphabet were not solely based on the goal of facilitating literacy. They were also grounded in broader objectives such as the dissemination of scientific knowledge, the reproduction of educational materials, and public access to modern information. Today, thanks to digital technologies, artificial intelligence applications, and large-scale data processing capabilities, many of the goals expressed at the 1926 Congress can be technically achieved. The digitization of historical and contemporary texts written in different alphabets through Optical Character Recognition (OCR) technologies; their organization via Document Digitization and Indexing systems; and their reprocessing within the framework of a Common Turkic Alphabet through AI-supported translation and transliteration models—all make it possible to reconsider the Congress's ideal of shared scientific communication in the context of our time.

The aim of this paper is not to treat the discussions on alphabet, orthography, and terminology at the First Congress of Turkology as a matter of historical nostalgia. On the contrary, it seeks to revisit these discussions in the context of digital transformation and convert them into a viable model through contemporary technologies.

In this regard, the study is based on the assumption that there is a conceptual continuity between the First Congress of Turkology and today's AI-based language technologies, and it aims to offer an integrated solution to the problem of a common alphabet and common communication language for the digital Turkic world.

НАСЛЕДИЕ ПЕРВОГО ВСЕСОЮЗНОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА: ЦИФРОВАЯ ТРАНСФОРМАЦИЯ В ТЮРКОЛОГИИ

АННОТАЦИЯ

Первый Всесоюзный тюркологический съезд, состоявшийся в 1926 году в Баку, был не просто узкоспециализированной лингвистической встречей, на которой обсуждались вопросы выбора алфавита, орфографии и терминологии; напротив, он стал исторической вехой, открывшей всестороннее обсуждение проблем модернизации тюркского мира, циркуляции знаний и научной коммуникации. Обсуждаемые на съезде вопросы алфавита, терминологии и орфографии, хотя и

оставались ограниченными техническими возможностями того времени, по сути своей представляют собой ранние попытки найти решения проблем, которые сегодня рассматриваются в рамках управления цифровой информацией, многоязычной обработки данных и стандартизированной коммуникации.

Так, аргументы в пользу перехода на латинский алфавит, выдвигавшиеся на съезде, основывались не только на стремлении облегчить процесс обучения грамоте, но и на таких целях, как распространение научного знания, расширение доступа к учебным материалам и обеспечение широких масс населения возможностью приобщения к современным знаниям. В наши дни благодаря цифровым технологиям, приложениям искусственного интеллекта и возможностям обработки данных в больших масштабах становится технически возможным реализовать многие из целей, обозначенных на съезде 1926 года.

Оцифровка исторических и современных текстов, написанных на разных алфавитах, с помощью технологий оптического распознавания символов (Optical Character Recognition), их систематизация посредством систем цифровизации и индексирования документов (Document Digitization and Indexing), а также последующая обработка этих материалов с использованием моделей перевода и транслитерации на основе искусственного интеллекта в рамках Единого тюркского алфавита открывают возможность по-новому осмыслить идеал общей научной коммуникации, сформулированный на Съезде, в условиях современности.

Цель настоящего доклада заключается не в том, чтобы рассматривать обсуждавшиеся на Первом Всесоюзном тюркологическом съезде вопросы алфавита, орфографии и терминологии как элемент исторической ностальгии; напротив, речь идёт о переосмыслении этих дискуссий в контексте цифровой трансформации и превращении их в реализуемую модель с использованием современных технологий. В этом контексте работа исходит из предпосылки о наличии концептуальной преемственности между Первым Всесоюзным тюркологическим съездом и современными языковыми технологиями на основе искусственного интеллекта и ставит своей целью предложить интегративное решение проблемы общего алфавита и общего языка коммуникации для цифрового тюркского мира.

Nigar VALİYEVA*

THE CENTENARY ANNIVERSARY OF THE FIRST CONGRESS OF TURKOLOGISTS: HISTORICAL LEGACY AND CONTEMPORARY SIGNIFICANCE

RESUME

The article presented to your attention is dedicated to understanding the scientific and cultural-historical significance of the First All-Union Congress of Turkologists (1926), the centenary of which is being celebrated this year. The Congress served as unique platform for dialogue among prominent researches of the Turkic world, including Samedaga Agamali (Azerbaijan), Huseyn Javid (Azerbaijan), Bekir Chobanzade (Azerbaijan), Jelal Korkmazov (Azerbaijan), Alibek Huseynzade (Azerbaijan), Ali Mirza Yusifzade (Azerbaijan), Sami Rufet (Turkey), Nejib Asim (Turkey), Bursalı Mehmet Tahir Bey (Turkey), Alexander Samoylovich (Soviet Union), Sergei Oldenburg (Soviet Union), Vasily Bartold (Soviet Union), Ilya Borozdin (Soviet Union), Dyula Meszaros (Hungary), Ignaz Kunos (Hungary), Dyula Nemeth (Hungary), Bernat Munkacsi (Hungary), Majid Soltan (Iran), Ibrahim Shabistari (Iran), L. Bonelli (Italy), Sven Hedin (Sweden) and other scholars who shaped the main directions of modern Turkology. The participants discussed fundamental issues of language, script, dialectology, ethnography, and the cultural

* Azerbaijan University of Languages, Professor, Doctor of Philology. Email: nigar_veliyeva@yahoo.com

identity of Turkic peoples. Special attention was given to alphabet reform, the standardization of terminology, and the methodological renewal of Turkic linguistic studies. The paper emphasizes that the ideas and decisions formulated at the Congress remain relevant in the 21-st century: they continue to influence contemporary approaches to the study of Turkic languages, strengthen intercultural dialogue, and contribute to the development of a common Turkic scholarly tradition. The centennial anniversary offers an opportunity to reassess the contribution of classical Turkologists and to outline promising directions for further research.

Key words: *Turkology, historical legacy, cultural heritage, language reform, contemporary significance.*

The centenary of the First Congress of Turkologists, held in Baku in February 1926, represents a key milestone in the development of humanitarian knowledge and a crucial date not only for the history of Turkology, but for the entire humanities. The Congress became, in the words of H. Hajiev: "an intellectual platform that for the first time united the entire spectrum of Turkological schools" [5, p.9] and "the first large-scale meeting of Turkological thought on an international scale" [5, p.17]. A modern understanding of this event allows for a deeper understanding of its contribution to the development of linguistics, cultural studies, and international scholarly dialogue. According to S. Broitman, "Turkology of the second half of the 20th century and the beginning of the 21st century is impossible without recognizing the fundamental significance of Baku in 1926" [3, p. 14].

The congress became a unique scientific forum of its time, bringing together researchers of Turkic languages, literature, ethnography, history, and culture from various regions. The event's participants laid the foundations for the systematic study of Turkic peoples, creating a unified scientific space and shaping areas of research that remain relevant a hundred years later.

A modern international conference dedicated to the centenary of this historical event allows us to reassess the contribution of the Congress to the development of Turkic science, to trace its influence on modern linguistics, cultural studies and interdisciplinary research, to rethink the contribution of this event to the development of Turkology, to assess the depth of its scientific legacy, and to determine the prospects for the further development of Turkology in the 21st century.

The historical significance of the First Congress of Turkologists is great. The First Congress of Turkologists became one of the most significant scientific gatherings of the first half of the 20th century. Its historical significance is manifested in several key aspects and areas.

Firstly, writing reform, alphabetical modernization, and standardization. The congress played a key role in the development of the Turkic peoples' writing systems. In the 1920s, the need for alphabetical reform: a transition from the Arabic script to the Latin alphabet was actively discussed. A. Dybo notes: "Discussions about the new graphics became the point of intersection of linguistics, politics, and cultural identity" [4, p.38].

At the Congress, large-scale discussions were held on the phonetic principle of writing, the standardization of orthography, and the development of a universal graphic system for Turkic languages. Scientists sought to create a phonetically accurate, accessible, and unified graphic system for the Turkic peoples. As A. Dybo noted, "the search for an optimal alphabet became both a linguistic and cultural task" [4, p.42]. At the meetings, A.N. Samoylovich's arguments were heard: "the alphabet is a mirror of the cultural future of the people" [5, p.41]. The discussion of Latinization became, as T.Tekin writes, "the largest scientific experiment in the linguistic history of the Turkic world" [8, p.7]. The discussions resulted in the development of scientifically based approaches to latinization, which subsequently determined the development of written norms in many Turkic regions. These debates led to the adoption of scientifically based decisions that influenced the formation of modern written norms.

Secondly, the event laid the foundation for scientific collaboration, interregional, and international scientific cooperation. Baku brought together scientists from Turkic regions not only of the Soviet Union, but also from Turkey, Iran, China, Central Asia, the Volga region, and the Caucasus. This contributed to the integration of research approaches, the dissemination of the comparative-historical method, and the

expansion of the geography of Turkological research. L. Johansson rightly notes: “It was Baku that became the place where Turkology ceased to be a local discipline” [6, p.12]. In short, this contributed to the formation of a unified scientific environment. As L. Johansson emphasized, “the 20th century became the time when Turkology acquired an international dimension” [6, p.11]. The 1926 congress marked the starting point of this process. According to A. Akhundov, “the creation of a common scientific space has become as significant as decisions on language policy” [2, p.56].

Thirdly, it was the development of Turkology as a scientific discipline. The congress contributed to and gave a powerful impetus to the institutionalization of Turkology as an independent scientific discipline. The participants strove to formulate a unified scientific terminology, a classification of languages, and a common research paradigm. A.Dybo emphasizes that “the 1920s became the time of crystallization of Turkological methodology” [4, p.49]. The congress discussed issues of Turkic language typology and ethno-cultural processes. The final decisions touched on literary traditions, ethnographic characteristics, and cultural interactions among Turkic peoples. According to T.Tekin, “it was the 1920s that became the period when Turkology acquired its methodological contours” [7, p.5]. R. Akhmetov believes that “the decisions of the Congress created a theoretical foundation on which several generations of researchers grew up” [1, p.22]. Thus, a common scientific vision was formed that determined the development of the discipline for several decades to come.

Turkology is of particular interest in the modern scientific community. The past hundred years have significantly enriched Turkology, making it a multidisciplinary and interdisciplinary field of knowledge. The Congress’s contemporary significance manifests itself in several ways. First of all, the study of Turkic languages remains relevant in the context of globalization and digitalization. Linguists work on issues of preserving linguistic heritage, developing electronic corpora, next-generation lexicography, comparative studies, and computational linguistics. In the age of information technology, attention is increasing to digital methods of text research.

1. New methods and digital research. Modern Turkic studies are developing in the context of the digitalization of the humanities and actively utilize computational linguistics. Electronic corpora, digital dictionaries, and automatic text analysis tools are being created. According to S. Broitman, “the tools of computational linguistics open up possibilities that researchers of the past could not even imagine” [3, p.89], and “digital corpora have transformed linguistic practice as radically as the alphabetic reforms of the past” [3, p.93].

2. Cultural perspective. The cultural component of the Turkic peoples is becoming one of the most sought-after areas. At the same time, the cultural and historical aspects of Turkology are developing. The study of folklore, mythology, ethno-cultural codes, and intercultural interaction helps to gain a deeper understanding not only of the history of a region and its historical processes, but also of its contemporary identity and modern trends in world culture. The Turkic cultural tradition is studied as a complex of mythological, historical and ethnographic structures. As p. H. Hajiev: wrote, “Turkic folklore is a code system that ensures cultural continuity over the centuries” [5, p.74] and “the folklore structures of the Turkic world represent a system that preserves unified symbolic matrices” [5, p.75]. According to M. Orazov, “the study of symbolic models of Turkic culture reveals the mechanisms of the formation of collective identity” [7, p.31]. In this context, the legacy of the First Congress acquires particular significance as an example of the integration of scientific schools and directions.

3. International cooperation. Developing international scientific cooperation is no less important. The 1926 Congress became the foundation upon which modern Turkology is built. As A. Dybo writes: “the scientific ideas of the Congress continue to develop, proving their methodological viability” [4, p.51]. Modern Turkological centers are located in Turkey, Azerbaijan, Kazakhstan, Uzbekistan, Kyrgyzstan, Hungary, Germany, China and other countries of Asia and Europe, as well as the USA. L. Johansson, “the internationality of Turkology is not a tendency, but its essential characteristic; the internationality of Turkological research in the 21st century has become its natural state” [6, p.14]. A. Dybo rightly emphasizes: “the main strength of the Congress is in its methodological legacy, which remains relevant even a century later” [4, p.51].

Today, a hundred years later, Turkology is confidently moving forward, expanding its geography, deepening its interdisciplinary approach, and strengthening scientific ties between countries. International centers, in the words of G.Yalchin, "serve as bridges between states united by common cultural and linguistic roots" [9, p.6]. Joint projects are being conducted, scientific journals are being created, conferences and symposia are being held, bilateral research projects are being launched, and specialized journals are being published. Thus, the traditions established by the participants of the 1926 Congress are being continued in the 21st century.

Thus, the centenary of the First Congress of Turkologists is not only an occasion to remember this outstanding scientific event, but also an opportunity to reflect on its fundamental influence on modern science. The congress became a starting point for the development of professional Turkology, defined the directions of linguistic research, contributed to the establishment of new scientific schools, and strengthened international cooperation. The centenary of the First Congress of Turkologists is an opportunity not only to commemorate this outstanding scientific event, but also to rethink its impact on contemporary humanities scholarship.

Today, a hundred years later, the ideas formulated by the Congress participants continue to live on in modern research, confirming their relevance. The continuity of scientific tradition and openness to new methodological approaches allow Turkology to develop confidently, strengthening the role of Turkic cultural and linguistic heritage in global humanities. Currently, Turkology continues to develop, strengthening intercultural dialogue and contributing to modern science.

REFERENCES:

1. Akhmetov, R.Z. - Ахметов, Р.З. Тюркология XX века. – Казань, – 1992.
2. Akhundov A.A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları, – Bakı: Maarif,– 1988.
3. Broitman, S.N. История изучения тюркских языков. – М.: Наука, 2015.
4. Dybo, A.V. Тюркские языки: сравнительно-исторический анализ. – СПб. : Алетейя, 2019.
5. Hajiev, H. - Хаджиев, Г. Первый тюркологический конгресс: материалы и исследования. Баку: Элм, 2006.
6. Johansson, L. Turkic Linguistics in the 20th century. – Berlin: Mouton de Gruyter, 2020.
7. Orazov, M.- Оразов, М. Тюркские культурные коды. – Анкара: Türk Dil Kurumu, 2010.
8. Tekin, T.A Grammar of the Turkic Languages. – Istanbul: Simurg, 2012.
9. Yalchin, H. Contemporary Issues In Turkology. – Istanbul: Küktür Yayınları, 2018.

TÜRKOLOQLARIN I QURULTAYININ 100 İLLİYİ: TARİXİ İRS VƏ MÜASIR ƏHƏMİYYƏTİ

XÜLASƏ

Diqqətinizə təqdim edilən məqalə 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkologiya Qurultayının elmi və tarixi əhəmiyyətinin araşdırılmasına həst olunmuşdur. Cari ildə yubileyi qeyd olunan bu Qurultay türk dünyasının görkəmli alimləri – Səmədağa Ağamalı (Azərbaycan), Hüseyn Cavid (Azərbaycan), Bəkir Çobanzadə (Azərbaycan), Cəlal Qorxmazov (Azərbaycan), Əlibəy Hüseynzadə (Azərbaycan), Əli Mirzə Yusifzadə (Azərbaycan), Sami Rüfət (Türkiyə), Nəcib Asım (Türkiyə), Bursalı Tahir Mehmet (Türkiyə), Aleksandr Samoyloviç (Sovet İttifaqı), Sergey Oldenburq (Sovet İttifaqı), Vasili Bartold (Sovet İttifaqı), İlya Borozdin (Sovet İttifaqı), Dyula Mesaroş (Macarıstan), İqnaz Kunoş (Macarıstan), Dyula Nemet (Macarıstan), Bernat Munkaçi (Macarıstan), Məcid Soltan (İran), İbrahim Şabistari (İran), L.Bonelli (İtaliya), Sven Gedin (İsveç) və türkoloji istiqamətin formalaşmasına mühüm töhfə verən digət tədqiqatçılar üçün unikal elmi müzakirə platforması olmuşdur. Qurultayda türk dillərinin quruluşu, yazı sistemi, dialektologiya, etniqrafiya və mədəni kimlik kimi fundamental məsələlər geniş şəkildə müzakirə edilmişdir. Xüsusi diqqət əlifba islahatı, terminologiyanın standartlaşdırılması və türk dillərinin öyrənilməsində metodoloji yenilənmə kimi məsələlərə yönəldilmişdir. Məqalədə vurğulanır ki, Qurultayda səsləndirilən ideyalar və qəbul edilən qərarlar XXI əsrdə də aktuallığını saxlayır: onlat müasir türk dillərinin tədqiqinə yeni yanaşmaların formalaşamasına, mədəniyyətlərarası dialoqun möhkəm-lənməsinə və ümumtürk elmi ənənənəsinin inkişafına töhfə verməkdə davam edir. Quryultayın 100 illiyi

klassik türkoloqların irsinin yenidən qiymətləndirilməsi və gələcək tədqiqat istiqamətlərinin müəyyən-ləşdirilməsi üçün mühüm inkan yaradır.

Açar sözlər: *türkologiya, tarixi irs, mədəni irs, dil islahatı, müasir əhəmiyyəti.*

100-ЛЕТИЕ ПЕРВОГО КОНГРЕССА ТЮРКОЛОГОВ: ИСТОРИЧЕСКОЕ НАСЛЕДИЕ И СОВРЕМЕННОЕ ЗНАЧЕНИЕ

РЕЗЮМЕ

Представленная вашему вниманию статья посвящена осмыслению научного и культурно-исторического значения Первого Всесоюзного тюркологического съезда (1926), столетие которого отмечается в текущем году. Конгресс стал уникальной платформой для диалога выдающихся исследователей тюркского мира, среди которых Самедага Агамалы (Азербайджан), Гусейн Джавид (Азербайджан), Бекир Чобанзаде (Азербайджан), Джелал Коркмазов (Азербайджан), Алибек Гусейнзаде (Азербайджан), Али Мирза Юсифзаде (Азербайджан), Сами Руфет (Турция), Неджиб Асим (Турция), Бурсалы Мехмет Тахир-бей (Турция), Александр Самойлович (Советский Союз), Сергей Ольденбург (Советский Союз), Василий Бартольд (Советский Союз), Илья Бороздин (Советский Союз), Дьюла Месарош (Венгрия), Игнац Кунош (Венгрия), Дьюла Немет(Венгрия), Бернат Мункачи (Венгрия), Меджид Солтанэ (Иран), Ибрагим Шабистари (Иран), Л.Бонелли (Италия), Свен Гедин (Швеция) и другие ученые, определившие основные направления развития тюркологии. На съезде были обсуждены фундаментальные вопросы языка, письменности, диалектологии, этнографии и культурной идентичности тюркских народов. Особое внимание уделялось реформе алфавита, стандартизации терминологии и методологическому обновлению тюркского языкознания. В работе подчеркивается, что идеи и решения Конгресса сохраняют актуальность и в XXI веке: они продолжают влиять на современные подходы к исследованию тюркских языков, формируют основу межкультурного взаимодействия и способствуют развитию общей тюркской научной традиции. Юбилейная дата предоставляет возможность заново оценить перспективные направления дальнейших исследований.

Ключевые слова: *Тюркология, историческое наследие, культурное наследие, языковая реформа, современная значимость.*

Könül HƏSƏNOVA*

POEZİYANIN TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏRİ QATINDA QƏNAƏT QANUNUNUN ANLAMA MODELLƏRİ

XÜLASƏ

Şeir mətnlərində ən çox istifadə edilən böyük sintaktik göstəricilərdən biri də tabesiz mürəkkəb cümlələrdir və onlarda qənaət qanunu özünü intensiv şəkildə təzahür etdirməklə poetik mətnin heca bölgüsünün sistemləşdirilmiş tələblərindən irəli gəlir. Tarixən tərkibi iki və daha çox sadə cümlədən təşəkkül tapıb formalaşmış tabesiz mürəkkəb cümlələrdə sadə strukturlu cümlələr intonasiya və köməkçi linqvistik elementlər vasitəsilə bir-birinə bağlanmaqla qənaət qanunu onların komponentləri arasında özünü nümayiş etdirir və bu dil hadisəsi görünüşlə deyil, beyin aparatı vasitəsilə təfəkkürdə dərk edilir ki, bunlar da dil və mədəniyyətin qarşılıqlı münasibəti zəminində güclü məna əlaqələri yaratmağa xidmət göstərir. Türk xalqlarının ən qədim və ortaq istehsalı olan Orxon-Yenisey abidələrindən, "Kitabi-Dədə Qorqud" dastanlarından, Mahmud Kaşğarinin "Divan" mətnlərindən tutmuş çağdaş zəmanəmizə qədərki şeir mətnlərinfə tabesiz mürəkkəb cümlələr işlədilməklə onlarda qənaət qanunu demək olar ki, linqvokulturoloji xarakter daşıyır, fəlsəfi, psixoloji, fizioloji amillərlə bağlı olan poetik düşüncələri özündə ehtiva edir.

Açar sözlər: *şeir mətnləri, tabesiz mürəkkəb cümlənin dərs edilməsi, komponentlər arasında qənaət edilən cümlə üzvləri, linqvokulturoloji aspekt.*

---

* ADPU Filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent; AMEA Nəsimi adına Dilçilik institutunun doktorantı. Email: Konul.hasanova@adpu.edu.az

Beyin dilçiliyində linqvistik göstəricilər, kateqoriyalar unikal təcrid olunmuş obyekt kimi deyil, insanın beyin sindromunda təzahür edən bütün dərketmə proseslərinə nüfuz etmək vasitəsi kimi öyrənilir. Dil və mədəniyyət hər ikisi qarşılıqlı sosial fenomenoloji amil kimi dilin bütün yaruslarını, o sıradan sintaktik vahidlərində linqvokulturoloji aspektlərini şərh etməklə məşğul olan və onları qarşılıqlı şəkildə tədqiq etməyə yönəldilən mədəni biliklərin verballaşma texnologiyasına xüsusi diqqət yetirən koqnitologiyanı da yaratmışdır ki, bu elmdə insanların obyektiv gerçəklik barədə əldə etdikləri bilikləri təkmilləşdirilmiş şəkildə xarakterizə edir, keçən əsrin 60-cı illərindən başlayaraq Azərbaycan dilçiliyində tabesiz mürəkkəb cümlənin qrammatik və üslubi istiqamətlərdə tədqiqiq qənaətbəxş vəziyyətdə olsa da, bu fikri həmin tip cümlələrin koqnitiv aspektlərinə şamil etmək qyri-mümdür, xüsusən də bu strukturdan olan sintaktik vahidlərdə qənaət prinsipinin necə təzahüretmə səbəblərinin öyrənilməsi təəssüf doğuran vacib məsələlərdəndir. Müxtəlif ölçülü-biçili şeir mətnləri üzərində apardığımız müşahidələr göstərir ki, tabesiz mürəkkəb cümlələr çıxış edən bədii prnəklərdə qənaət prinsipi daha çox cümlənin baş üzvlərindən biri olan xəbərin buraxılması ilə özünü daha çox büruzə verir ki, bu da hər şeydən əvvəl söz sənətkarının şeir mətnlərinin heca bölgüsünə düzgün riayət etməsinin nəticəsi kimi meydana çıxır. Aydın məsələdir ki, xəbər bir cümlə üzvü kimi "hərəkət" konseptinin leksik ifadəliyi olmaqla nəinki Azərbaycan, o cümlədən dünya poeziyasında ən çox işlənən sintaktik vahidlərdəndir, yəni o, universal bir qateqoriya kimi dünyanın bütün dillərinə xasdır və "hərəkət" konsepti olmadan poetik mətnləri təsəvvürə gətirmək qeyri-mümkündür. Poeziyanın strukturunda universal sintaktik vahid kimi "hərəkət" konspetinə xidmət edən linqvistik vahidlər feillə ifadə olunaraq zamana və şəxsə görə dəyişməklə aktiv şəkildə qənaət prinsipi yaradır, bu qrammatik kateqoriyalar əksər məqamlarda bir-biri ilə paradiqmatik münasibətdə olur. "Hərəkət" konsepti digər irili-xırdalı konseptlərlə çulğaşaraq *"...vəcdə gəlmiş ruhun, əşyalar və nitq arasında əlaqəni təmin edərək universalı kimi çıxış edərək fikirləri yaradıcı şəkildə yenidən əmələ gətirən, yaxud da toplamağa qadir olan ağlın məhsuludur*" [1, s.43]. Dünyanın dil mənzərəsində də ən böyük "hərəkət" konsepti hesab edilir, çünki bütün dillərə məxsus leksik göstəricilər onun ətrafında cəmləşərək hərəkətin əşya, vaxt, zamanla, əlamətlə və s. ilə bağlı xüsusiyyətlərini beyində əks etdirir. Tabesiz mürəkkəb cümlələr işlədilən şeir mətnlərində "nə, nə də" inkar bağlayıcısının aktivliyi daha çox özünü göstərir ki, bu da xəbərin buraxılması ilə nəticələnən qənaətə çərait yaradır. Məs:

Neçə bahar yola salmışam,
Ancaq
Nə cırcırama kimi oynaq,
Nə qurbağa kimi soyuqqanlı
Nə də göylər kimi dartırmışam
Sisli, dumanlı [2, s.39].

Sonuncu sinonim variantlar əsasında qurulmuş misrada inkarlıq məzmunu bidlirən "olmamışam" xəbəri olmasa da mətnin ümumi məzmununa uyğun tərzdə "hərəkət" konseptinin ifadəçisi kimi beyində əksini tapır və liqvomədəni göstərici rolunu oynayaraq qənaəti formalaşdırır. *"Linqvomədəni konsept termini ilk dəfə ona obyektin xüsusiyyətlərinin bütöv məcmuəsi kimi başa düşən məntiqdə məna denotatla, konsept isə - məna və ya siqnifikatla eyniləşdirilir"* [3, s.18]. Yuxarida verdiyimiz şeir parçası 4 sadə cümlənin birləşməsi əsasında qurulmuş tabesiz mürəkkəb cümlə olub, tərkib hissələri bir-birinə köməkçi qrammatik vasitələrlə, yəni "ancaq", "nə, nə də" bağlayıcıları ilə əlaqələndirilmişdir. Ikinci misranın əvvəlində çıxış edən "ancaq" bağlayıcısı misrarası vəziyyətdə əks-zidd məna yaratmaqla lirik "mən"in psixoloji durumunun müəyyənməqamlarını, digər misrlada işlənən "nə, nə də" bağlayıcısı isə inkarlıq məzmunu yaratmaqla ümumi mətndə keşmiş zamanda icra olunan hərəkətin mənasını bildirməyə xidmət göstərmişdir ki, bu məqamda həmin zamana məxsus "hərəkət" konseptinə aid olan söz buraxılmışdır. Tabesiz mürəkkəb cümlələrin tərkibində iştirak edən bağlayıcılar özlərinə məxsus funksiya yerinə yetirərkən bəzi hallarda qənaətin də yaranmasına səbəb olur və bu bağlayıcıların əksər məna növlərində özünü nümayiş etdirir. *"Bağlayıcılar köməkçi sözlərdir, cümlə üzvləri və cümlələr arasındakı əlaqəni ifadə edir. Sintaktik əlqaənin iki növü bağlayıcılar vasitəsilə əks olunur: tabesiz və tabeli. Onlar müxtəlif*

münasibətləri ifadə edir: bölüşdürmə, aydınlaşdırma, qoşulma, zaman, səbəb, nəticə" [4, s.256]. Bu növdən olan bütün bağlayıcılar şeir dilində fəal işləklik vəzifəsinə malik olsalar da ən çox çıxış edəni isə qarşılaşdırma növündən olan "həm, həm də" köməkçi elementidir. Məs:

Nəğmədə sönməmiş bir məhəbbətin
Həm sevinci vardı, həm də məlacı [2,s.38].

İki tərkib hissədən ibarət olan ikinci misrada mövcudluq bildirən "vardı" xəbəri birinci komponentdə çıxış etsə də linqvomədəni hadisə kimi ikinci komponentində məqsədli şəkildə buraxılmışdır ki, bu da qənaət qanununun tələblərindən irəli gəlmişdir. Bu nüans şeirin obraza fəlsəfi-psixoloji yanaşmasından doğmuşdur ki, belə cəhətlər şeir mətnlərdə geniş yayılmışdır. *"Fəlsəfə konsept xülasə, zehni obraz, ümumi fikir" kimi gələcək hadisənin konturu və ya konfiqurasiyası kimi izah edir. Psixologiyada konsept əvəzedici funksiyanı yerinə yetirən fikri törəmə - sözün mənasının dəyişdirilməsi kimi başa düşülür"* [5, s.274]. Şeirin birinci misrasında konkret obrazın müəyyən bir anlayışı da, işarəsi də təsəvvürdə əskini tapır ki, bu cəhət də "o" əvəzliyi ilə əksini tapır. Digər aspektdən yanaşdıqda isə hadisələrin baş verdiyi zaman keçmişə atılır ki, deməli, əvəzliklər və feilin xəbər formaları olmadan bu kateqoriyaların linqvomədəni xüsusiyyətlətindən danışmaq bir qədər çətinlik törədərdi. Misralardakı nitq anı ilə qavrama məqamını müqayisə etmək, təsəvvürdə misralardakı söz bazası bir qədər artıq şəkildə özünü təzahür etdirən, yəni aşağıdakı kimi: "Onun nəğmədə sönməmiş bir məhəbbətinin, həm sevinci vardı, həm də kədəri vardır". *"Türk dillərində feilin zamanları həm ümumi, həm də xüsusi səciyyə daşıyır. Zaman formaları feilin xəbər şəklini formalaşdırır. Zaman və zərf şəkilçiləri olmadan xəbər formasından bəhs etmək olmaz. Türk dillərində xəbər şəkli həm sintetik, həm də analitik yolla düzəlir. Bir zaman forması əksər türk dillərində işləndiyi halda, digər zaman forması hansıdır konkret bir dillə bağlıdır. Zaman kateqoriyası nitq anı ilə müəyyənləşir. Bu prosesdə bəzən uyğunluq olsa da kənarçıxmalar da mümkündür"* [6,s.391]. Şeir mətnlərinin son bəndində ümumiləşdirici fikirlər verildiyinə görə əksər məqamlarda tabesiz mürəkkəb çıxış edən hissələrinin hər iki komponentində "var" sözü buraxılmaqla qənaətli vəziyyət yaradılır. Məs:

Sənindir qəlbimdən hər gələn nəğmə,
Onun həm kədəri, həm də sevinci... [2, s.39]

İkinci misrada əks-zidd qütblərdə dayanan insanın hisslərinin ifadəçiləri olan "kədər" və "sevinc" leksik vahidləri qarşılaşdırılmaqla həm orijinal təzad, həm də qənaətli şəkil formalaşdırılır, həm də həmin misranın son hissəsində qoyulan üç nöqtə də müəyyən bir leksemin buraxılmasını işarələmişdir.

Poeziyada nitq anı söz sənətkarının təqdim etdiyi poetik təsvirdir, yaxud da şəkildir ki, onunla təsəvvür arasında kəskin fərqliliklər beyin aparatında özünü təzahür etdirir. Məsələn, nitq anında şairin verdiyi xəbər və mübtədanın həmcinsliyindən tərtibini tapmış bir örnəyə nəzər salaq:

Keçəcək yağış da, sel də, bulud da,
İllər də ötəcək bu ömrümüzdən [2, s.36].

Birinci misrada poetik qanunlara uyğun olaraq xəbər həmcins mübtədalardan əvvəldə işlənməklə təsəvvürdə gələcək zamanda olan xəbərin üç dəfə təkrarını tələb edir, yəni aşağıdakı kimi "keçəcək yağış da, keçəcək sel də, keçəcək bulud da". Deməli poeziyada qənaətin qrammatik normaları, yaxud da qanunları lazımsız təkrarlarının qarşısını kəsmək üçün ən dəyərli linqvstik göstəricidir.

Şeir mətnlərinin tabesiz mürəkkəb cümlələrlə çıxış edən misralarında ikinci tərəfindəki bərabər şəkildə funksionallaşan cümlədə xəbərin buraxılması daha çox özünü büruzə verir. Məs:

Dağdan enən zaman yağışa düşdüm,
Nə bir ağac tapdım, nə də bir qaya [2, s.319].

İkinci misrada çıxış edən bərabər 2 tabesiz mürəkkəb cümlənin ikinci tərəfindəki hissənin sonunda birinci şəxsin təkinə aid olan "tapdım" xəbəri buraxılmaqla misralardakı heca bölgüsünə düzgün riayət edilmiş və qənaətli məqsəd də güdülərək gözəl bir təbiət portreti çəkilmişdir. Misrada keçmiş zaman məzmunun semantik çaları özünü "-dı" morfoloji göstəricisi ilə reallaşdırılmışdır.

Dilin sintaktik quruluşuna aid qayda-qanunları dərindən bilmədən linqvomədəni qənaətlə bağlı koqnitoloji əlamətləri mənimsəmək, yəni beyin dilində, dil şüurunda gedən prosesləri də öyrənmək bir qədər çətinlik törədərdi. Bu fikir ona əsaslanır ki, insanın beynində gedən proseslərlə konkret gözlə oxunanlar arasında istənilən dil vahidlərinin statusunun özəllikləri ilə bağlı fərqli cəhətlər özünü nümayiş

etdirir ki, qrammatik qaydaları nəzərə almadan koqnitoloji əlamətləri də vəhdətdə öyrənərkən hər iki idrak mexanizminin spesifik əlamətləri üzvi şəkildə əlaqələndirilərək təhlilə cəlb olunmalıdır. Palmer koqnitiv dilçilik elmini antropoloji dilçiliklə üzvi əlaqəsindən ətraflı bəhs edərək ikincinin mərkəzi üçün 3 ənənəvi yanaşma ilə əlaqələnə bilən meyar müəyyənləşdirmişdir: *"Borzian linqvistikası, etnosemantika (etnolem) və nitq etnoqrafiyası"* [7, s.5]. Göstərilən bu ölçülər dilin sosial - mədəni məzmununu özündə ehtiva etdirir və F.Larifan isə dil və mədəniyyətin möhkəm məna əlaqəsinin xarakterik cəhərləeindən ətraflı bəhs edərək koqnitologiyada geniş yayılmış bir sıra elmi mülahizələri, yəni insanın düşüncələrinin formalaşmasında dil-şüurunun rolunu iddia edənləri və dili sadəcə mədəni fəaliyyət sahəsi kimi qəbul edənləri, geniş bir sahəni əhatə etdiklərini göstərmişdir [8, s.79]. Bütün bunlarla yanaşı, dilin psixologiyası ilə əlaqədar onda baş verən qənaət qanunu ilə də bağlı fikirlərə bu mənbələrdə müəyyən qədər yer verilmiş, bu hadisəni dilin struktur-semantikası ilə əlaqədar yarandığı çözülmüşdür.

İnversiya hadisəsi dünya poeziyasının ümumi və universal qanunlarından biri kimi özünü göstərməklə mübtəda ilə xəbərin şeir mətnlərində yerlərini dəyişmələri ilə xarakterizə olunur və Azərbaycan poeziyası da əksər məqamlarda bu istiqamət üzrə tərtib edilir ki, bu yöndə də qənaətli vəziyyətə geniş meydan açılır. Məs:

Gün batır, qaralır göy də, torpaq da,
Kim var ki, çöllərdə gəlsin buraya [2, s.35].

Birinci misra 3 tərkib hissədən ibarət tabesiz mürəkkəb cümlə quruluşundadır və birinci hissədə inversiya hadisəsi baş verməsə də ikincisində və üçüncüsündə bu hal özünü göstərməklə, yəni xəbər mübtədadan əvvələ keçərək həm də ikinci hissədə indiki zamanda "qaralır" xəbəri təkrara yol verməmək üçün üçüncü tərkib hissənin əvvəlində çıxış etməyərək qənaət prinsipi də yaradılmışdır. Həmin misranın beyin bazasında təsəvvürü belə əks olunur: "Gün batır, qaralır göy də, qaralır torpaq da". Bu tip, yəni ardıcıllıq məna əlaqəli tabesiz mürəkkəb cümlədə qənaətə yol verilməklə bərabər təbiət anlayışı da konseptuallaşdırılmışdır. Ardıcıl zamanlı birləşdirmə, yaxud da ardıcıllıq əlaqəsinin strukturdan bəhs edən Q.Kazımov da doğru olaraq vurğulayır ki, *"Tabesiz mürəkkəb cümlələrin bir qismində hımcins fakt və hadisələr sadalanır və onların cümlədəki düzülüşünə müvafiq aedıcıllıqla baş verdiyi ifadə olunur"* [8, s.291]. Tabesiz mürəkkəb cümlənin qənaətlə müşayiət edilən ardıcıllıq məna əlaqəsi növü şeir mətnlərində özünü qabarıq şəkildə göstərməklə müxtəlif hadisələrin motivikasiyasında xüsusi əhəmiyyətli rola və çəkiyə malikdir. Məs:

Sənincün itirib o gəncliyimi,
O sənlə ağladı, sənlə sevindi [2, s.28].

Ardıcıllıq məna əlaqəsi əsasında qurulmuş ikinci misradakı tabesiz mürəkkəb cümlədə 3 qənaətli hala yol verilmişdir ki, birinci tərkib hissədə mübtəda vəzifəsində çıxış edən "o" şəxs əvəzliyi ikinci hissədə buraxılmış, "sənlə" əvəzliyi fonomorfoloji səviyyədə "sənlə" şəklində olmalı idi, yəni burada "-in" yiyəlik hal şəkilçisi ixtisar olunmuş, üçüncü qənaət tipinə görə enontenomik qarşılaşdırmaların hər ikisinin əvvəlində "həm" köməkçi elementi çıxış etmədiyi üçün bu üslubi məqamlar özlərini aktiv şəkildə nümayiş etdirmişlər ki, xəbər sonluqlarının seçildiyi kimi tabesiz mürəkkəb cümlədə keçmiş zaman məzmunu ifadə olunmuşdur.

Bütün fonomorfoloji səviyyədən tutmuş bütöv sintaktik göstəricilərə qədər, yəni mətni yaradan vasitələr də daxil olmaq da dil-nitq kateqoriyaları linqvokulturoloji aspektdə təhlil edilərkən bu elmə nail olan *"ağıl, biliklər, konseptuallaşma, konseptual sistem, koqnisiya, dünyanın dil mənzərəsi, koqnitiv baza, mental reprezentasiya, model, kateqoriyasiya, mentallıq, mədəniyyət konstantları, konsept, konseptosfen, milli mədəni məkan və başqaları"* [10, s.12] mühüm amillər kimi mütləq nəzərə alınmalı, tabesiz mürəkkəb cümlələr də bu istiqamətlərdə analizini tapmalıdır. Şeir nitqində mətnin ümumi məzmun və strukturuna xas olan irili-xırdalı konsept göstəriciləri iştirak edə bilər və onlardan istifadə söz sənətkarının mövzu palitrasından asılı olaraq hansının daha çox önə çəkilməsi ilə reallaşdırıla nilər, çünki konsept edilən anlayışlar nitq vasitəsilə formalaşdırılır. Məs:

Tutmuş hər tərəfi yenə çən, duman,
Nə sahil, nə səhər, nə göy görünür [2, s.24].

Hər iki misrada ümumi məzmun sonunda təbiətə məxsus anlayış konsept edilmiş və onlar ifadəsini sinonim komplekslərlə gerçəkləşdirilmişdir, tabesiz mürəkkəb cümlə modelli ikinci misrada "görünür" indiki zaman məzmunlu xəbərinin sonda işlənməsi, digər sinonim cərgələrdə buraxılması qənaətli vəziyyət də yaratmışdır ki, bunu bütöv şəkildə təsəvvür özündə belə inikas etdirir: "nə sahil görünür, nə səhər görünür, nə də göy görünür". Belə olan vəziyyətdə "hərəkət" konseptinin ifadəçiləri olan sözlərdə "təbiət" konseptinin ifadəçiləri olan sinonim leksik vahidlərlə işləklik sürəti bərabərlik yaradır və hər iki konseptin ifadəçiləri olan leksemlər çulğalaşmış və semantik cəhətdən bir-birinə bağlı vəziyyətdə mətniformalaş-dırırlar ki, burada konseptlər ümumi şəkildə üç yolla öz ifadəsini tapır: *"1) bildirmə; 2) ifadə etmə; 3) təsviretmə"* [11, s.73]. Əlbəttə, biz bu yollara linqvokulturoloji yöndən ikisini də əlavə etməklə müəyyən düzəliş əldə etmiş olarıq ki, buraya "görmə", "müşahidəetmə" kimi göstəricilər də şamil olunmalıdır, çünki görmə, müşahidəetmə olmadan nə bildirmədən, nə ifadə etmədən, nə də təsvir etmədən danışmaq qeyri-mümkündür.

Lirik mətnlərin tabesiz mürəkkəb cümlələr çıxış edən bütün hissələrində, yəni misra və bəndlərində "hərəkət" konsepti dünya, təbiət, məhəbbət, həyat, ölüm, ictimai-siyasi və s. konseptlərdə semantik əlaqəyə girərək hadisələrin ümumi panoramı ilə bırabər dünyanın dil mənzərəsini də yaradır ki, onlarda qənaət qanunu sinonim komplekslər arasında, yaxud da bərabər statusa malik sadə cümlələr arasında xəbərlərdə özünü göstərir və bu qanun dilin sintaktik quruluşunun təbiətindən doğmaqla öz strukturunda insanın dərketmə aparatında inikasını tapır.

ƏDƏBİYYAT

1. Нерознак В. От концепта к слову: к проблеме филологического концептуализма // Вопросы филологии и методики преподователя иностранных языков. Омск, издательство ОМГПУ, 1998.
2. Azəroğlu Balaş. Seçilmiş əsərləri. Bakı, "Öndər" nəşriyyatı, 2004, 288 s.
3. Павлович Т. Семантика слов с корнем. «жи» (в) и «мер // мор» в русском и сербохорватском языках на фоне культурных концептов «жизнь» и «смерть» // автореферат диссертации кандидата филологических наук. Москва, 1996, стр.29.
4. Kazımov İ. Türk dillərinin müqayisəli morfologiyası. III cild, Bakı, "Elm", 2019.
5. Розенталь Д.Е.,Теленкова М.А. Словарь - справочник лингвистических терминов. Москва, Просвещение, 1976.
6. Əliyeva E. "Feilin zaman kateqoriyasının funksionallaşması". Türk dillərinin funksional morfologiyası. Bakı, "Elm və təhsil", s.376-413.
7. Palmer F.R. Semantics - Cambridge University Press, 1981.
8. Sharifian F. Cultural conceptualizations and language. Theoretical Framework and Applications // - Jonn Benjamins Publishing Company, 2011.
9. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Təhsil", 2007, 496 s.
10. Abbasova R. Həyat və ölüm konseptlərinin aspektləri ingilis və Azərbaycan dillərinin materialları əsasında. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı, Bakı, 2024, s.32.
11. Veysəlli F. Dilçiliyin əsasları. Bakı, "Mürtəcim", 2015.

ABSTRACT

One of the most frequently used major syntactic markers in poetic texts is asyndetic compound sentences, in which the principle of economy manifests itself intensively due to the systematized requirements of syllabic division inherent in poetic structure. Historically formed from two or more simple sentences, asyndetic compound sentences consist of simple-structured clauses connected through intonation and auxiliary linguistic elements; within this connection, the principle of economy becomes evident among their components. This linguistic phenomenon is not perceived superficially but is cognitively processed through mental mechanisms, serving to establish strong semantic relations within the framework of the interaction between language and culture. From the Orkhon–Yenisey inscriptions the most ancient and common heritage of Turkic peoples to the epics of *The Book of Dede Korkut*, Mahmud al-Kashgari's *Divan*, and up to contemporary poetic texts, the use of asyndetic compound sentences demonstrates that the

principle of economy in poetry carries an almost linguoculturological character, encompassing poetic thinking associated with philosophical, psychological, and physiological factors.

Keywords: *poetic texts, teaching of asyndetic compound sentences, sentence elements economized between components, linguoculturological aspect.*

АННОТАЦИЯ

Одним из наиболее часто используемых крупных синтаксических показателей в поэтических текстах являются бессоюзные сложные предложения, в которых принцип экономии интенсивно проявляется вследствие систематизированных требований слогового членения поэтического текста. Исторически сформировавшиеся из двух и более простых предложений, бессоюзные сложные предложения представляют собой объединение простых структур посредством интонации и вспомогательных лингвистических средств, при этом принцип экономии проявляется во взаимоотношениях между их компонентами. Данное языковое явление осознаётся не на внешнем уровне, а посредством мыслительных механизмов, что способствует формированию прочных смысловых связей в контексте взаимодействия языка и культуры. Начиная с орхоно-енисейских памятников древнейшего и общего наследия тюркских народов, эпоса «Книга моего деда Коркута», текстов «Дивана» Махмуда Кашгари и вплоть до современной поэзии, использование бессоюзных сложных предложений показывает, что принцип экономии в поэтических текстах носит почти лингвокультурологический характер, отражая поэтическое мышление, связанное с философскими, психологическими и физиологическими факторами.

Ключевые слова: *поэтические тексты, изучение бессоюзных сложных предложений, члены предложения, подвергающиеся экономии между компонентами, лингвокультурологический аспект*.

Aynur PAŞAYEVA*

AZƏRBAYCAN-TÜRK ƏDƏBİ DİL SİSTEMİNDƏ FONETİK UYĞUNLUQLAR (XV ƏSR)

XÜLASƏ

Məqalədə XV əsr Azərbaycan ədəbi dilində fonetik paralellik hadisəsi tarixi-linqvistik aspektdə araşdırılır. Tədqiqatın əsas məqsədi həmin dövrün yazılı abidələri əsasında sait və samit səslərin paralel işlənmə xüsusiyyətlərini müəyyənləşdirmək, bu paralelliklərin formalaşma səbəblərini tarixi orfoqrafiya, orfoepiya və dialektoloji amillər kontekstində izah etməkdir. Araşdırmada klassik Azərbaycan ədəbi-bədii mətnləri və etibarlı leksikoqrafik mənbələr əsas material kimi cəlb edilmişdir. Təhlil göstərir ki, fonetik paralelliklərin mühüm hissəsi tarixi orfoqrafiyanın mühafizəkar xarakteri ilə bağlıdır və yazı ilə tələffüz arasında mövcud olan uyğunsuzluğu əks etdirir. XV əsr mətnlərində *a~ə, a~o, ə~i / e~i* kimi sait, eləcə də *b~m, d~t, q~x~h, g~y* kimi samit paralelliklər geniş şəkildə müşahidə olunur. Bu paralelliklər XV əsr Azərbaycan ədəbi dilinin fonetik baxımdan dinamik və keçid xarakterli bir sistem olduğunu göstərir və müasir ədəbi dilin normativ fonetik quruluşunun formalaşmasında mühüm mərhələ təşkil edir.

Açar sözlər: *Azərbaycan ədəbi dili, XV əsr, fonetik paralellik, türk dilləri.*

Fonetika ilə bağlı paralellər bir çox hallarda tarixi orfoqrafiya ilə şərtlənir. Orfoqrafiya dövrün əski yazı şəklini, keçmiş normasını qoruyub saxlayır, çox vaxt zamanın orfoqrafik-orfoepik gerçəkliyini heç də həmişə əks etdirmir. Orfoqrafiya hər zaman mühafizəkarlığını qorumuşdur. Dilin inkişaf mərhələlərinə nəzər yetirsək, görərik ki, katiblər savadlı olduqları üçün nə qədər əski orfoqrafiya qaydalarını qorumağa çalışsalar da, bəzən özləri də bilmədən canlı danışıq dilində olan formalardan istifadə etmişlər. Bu da dildə müxtəlif səs və hərflərin paralelliyinə səbəb olmuş, "*bu cür fonetik hadisə paralelliklər həmin dövrün tarixi deyiliş və yazılış uyğunsuzluqlarının nəticəsi*" [7, s.140] kimi dəyərləndirilmişdir.

* ARTİ, AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya elmləri doktoru,dosent. Email: aynurfamilgizi@gmail.com

Məlumdur ki, başqa türk dilləri kimi, Azərbaycan dilinin də samitlər sistemi tarixi təkamül yolu keçmişdir. Tədqiqatçılar Azərbaycan samitlərinin fonematik diferensiasiya tarixini *b//m, b//p, d//t, q//x//h, ç//c, k//g//y* kimi səs münasibətlərinin nizama salınmasını izləməyə çalışsalar da, bütün bunların yazılı abidələrdə birdəfəlik öz yerini tutması haqqında fikirlər söyləməkdə çətinlik çəkmişlər. Azərbaycan yazılı mənbələrində, hətta, "*XIX əsrin sonu - XX əsrin əvvəllərinə qədər yazıda belə diferensiasiyanın qəti şəkildə baş vermədiyinin, ənənəvi variantla yeni variantın paralel işləndiyinin şahidi oluruq*" [1, s.157]. Belə vəziyyətdə Ə.Dəmirçizadənin fikri daha məqsədəuyğun səslənir: "*Yazılı mənbələrdən istifadə edərkən təkcə yazını yazıldığı kimi hərfi-hərfinə oxuyaraq ondan nəticə çıxarmaq doğru olmaz*" [4, s.39].

Dil tariximizdə önəmli yer tutan fonetik paralellik haqqında 1727-ci ildə yazılan və 5 türk dilini əhatə edən Məmmədtağı Qaraqoyunlunun "Fərhəngi-türkü" lüğətində geniş şəkildə məlumat verilir, nümunələr üzərində təhlillər aparılır: "*Rumi və İraqi (Türk və Azərbaycan – S.B) dillərində qayda belədir ki, əvvəlində t olan hər söz rumi və turanidə d ilə tələffüz edirlər. Məsələn; ton əvəzinə don deyirlər. Sözün əvvəlində b səsi olsa, v ilə əvəz edirlər: ber əvəzinə ver, bar əvəzinə var deyirlər; m səsini b ilə əvəz edirlər*" [2, s.32].

Qeyd edək ki, Oğuz qrupuna daxil olan türk dillərini digər türk dillərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri söz əvvəlində kar samitlərin cingiltiləşməsidir. Bu hadisə XV əsr Azərbaycan ədəbi dilində tez-tez rast gəlinən səs hadisəsi kimi bir çox sözlərdə əks olunur, hətta bəzən iki şəklin işləndiyi də diqqəti çəkir. Məsələn, Rövşəni dilində bu səs hadisəsi aktualdır: *tepret>depret, tad>dad, tikən>dikən, til>dil, tilkü>dilkü, tirig>diri.* XV əsr Azərbaycan yazılı abidələrinin dilində bu cür fonetik paralelliklər geniş şəkildə özünü göstərir. Bəzən bir müəllifin dilində eyni əsərdə səs paralelliyi rast gəlindiyi halda, onun müasirləri eyni dövrü təmsil etdiyi halda, birində bir səs, digərində həmin səsin paralelliyi mühafizə edilmişdir. Daha dəqiq desək, Rövşəni, Gülşəni, Xəlili və Şirazinin dilində *bən//mən* paralelliyi işləndiyi halda, Kişvərinin dilində yalnız *mən* variantı işlənir.

XV əsr Azərbaycan ədəbi-bədii dil nümunələri üzərində tədqiqatlar göstərir ki, ədəb-bədii mətnlərdə həm saitlərin, həm də samitlərin fonetik paralellikləri geniş müşahidə olunur.

Saitlərin paralelliyi. XV əsr Azərbaycan ədəbi dilində söz köklərində və ya şəkilçilərdə sait səslərin əvəzlənməsi hadisəsi geniş yayılmışdır. Bu səs əvəzlənmələrinin bir hissəsi söz daxilindəki səslərin bir-birinə təsiri, yaxud bir-birinə bənzərliyi, oxşarlığı baxımından dilin təbii inkişafı ilə bağlı meydana çıxmışdır. Sait səslərin əvəzlənməsi, əsasən, tələffüz zamanı baş verir, çünki o dövr əski əlifba qaydalarına görə sait səslət tam qrafik formalarını tapmadığına, hərfi qəlib baxımından diferesiallaşma baş vermədiyinə görə yazı qaydası eyni olsa da, şifahi nitqdə söz daxilində tələffüz edilərkən onlar bir-birini işlənmə vəziyyətinə uyğun şəkildə əvəz edirlər: *əv > ev, av > ov, git > get, tilki > tülkü, əyax > ayaq və s*. Göründüyü kimi, "*əvəzlənmələrin bir qismi sözün ilkin formasının mühafizə olunması ilə bağlıdırsa, digər hissəsi isə sözün tələffüzü ilə əlaqədar əmələ gələn xüsusiyyətdir*" [10, s.27].

XV əsr Azərbaycan ədəbi dil nümunələrində aşağıdakı sait əvəzlənməsinə rast gəlinir:

a ~ ə paralelliyi XV əsr yazılı mənbələrində müşahidə olunur: əyağ اياغ: "*Əldən əyağı qomadığı lalənin müdam*" [12, s.377]; çəruqdən چروقدن: "*Bir əsayi-ahəninü bir dəmir çəruqdən"* [12, s.386]; aralərdən آرالردن: "*Keçə bilmən dəxi ol aralərdən*" [12, s.390]; adəm ادام: "*Adəm yoqdur sübutinə şəyün gənci-ğəmi derlər*" [11, 104]; qəra قره: "*Ağü qəradan kün-fəkan, bir mövc imiş iki cəhan, Bəhri-ədəmdən, ey cəvan, kim bilisər imammuz*" [11, s.121] və s. Nümunələrdən göründüyü kimi, sözlərdə sait ahənginə uyğun incələşmə fonetik hadisəsi baş verir. Dilimizin sonrakı inkişafında da bu hadisə izlənir, hətta, "*XIX əsr ədəbi dil faktı kimi yəxşi; XX əsrin əvvəllərində qəmiş, ətləs, arabə"* [8, s.23] dil faktları qeydə alınmışdır.

o ~ a palalelliyinin XV əsr yazılı mənbələrində fəal işləndiyi görünür: avuc آووج: "*Bir avuc xakə buraqdın cami-eşqin cür»əsin*" [R, s.381]; qavdun قاودون: "*Şum rəqib sözi bilə qavdun eşigindən məni*" [9, s.118]; anuŋçun آنونكچن: "*Anunçun xəlqi-aləmi endürər baş*" [12, s.168]; andan آندان: "*Nədir biəvvəl-axir andan özgə*" [11, 170]: avçı آوچى: "*Avçı tək kim, ox çıxarub səlbdən ceyran görüb*" [9, s.17]; avlıyalım آوليالم: "*Gəl gəşt edərək avlıyalım ördəkü kəklik*" [12, s.388]; qavurğaya قاوورعيه: "*Qara qavurğaya toya gedərdi*" [12, 209].

Tarixi yöndən a~o paralelliyinə nəzər salsaq, *a* sait variantı daha qədimdir: dilin sonrakı inkişaf pillələrində bu paralellik yaranmış, son nəticədə müasir ədəbi dildə tamamilə işləkliyini itirmişdir. Qeyd

edək ki, Azərbaycan dilinin bir sıra dialekt və şivələrində (Naxşıvan, Qubadlı, Zəngilan, Cəbrayıl) bu səs uyğunluğu aktiv işlənməkdədir: *qavlamax, qavın, qavmax, bızav, davşan, avlax, qavırğa, oxlav, avıç* və s. [6, s.149].

Bəzi dialektoloji tədqiqatlarda söz kökündə yaranan a>o fonetik hadisəsi qərb qrupu şivələrində, Bakı şivəsində işlənən dodaq ahənginin təsirindən yaranan o-laşma hadisəsi ilə qarışdırılır. Bu məsələyə aydınlıq gətirən E.Əzizov hesab edir ki, "*dilimizin qərb şivələrində dodaq ahənginin təsiri ilə baş verən fonetik xüsusiyyəti – dodaqlanan açıq saitlərin ardıcıllığını Bakı şivəsində söz kökündəki o-laşma ilə eyniləşdirmək həmin hadisələrin təbiətinə uyğun gəlmir. Qərb şivələrindəki o-laşma dodaq ahənginin təsiri ilə sözün ikinci və sonrakı əsasən şəkilçilərdə müşahidə edilir*" [6, s.154]. Deməli, tarixən izlənən fonetik hadisədən fərqli olaraq, bu hal qərb qrupu ləhcələrinin özünəməxsus dodaq ahənginə aid xüsusiyyətidir. M.Şirəliyevin məsələyə ikili yanaşması diqqəti çəkir. Belə ki, alim Bakı dialekti üzərində tədqiqat zamanı o-laşma hadisəsin tat dilinin təsirindən yarandığını vurğulayır [16, s.25], lakin sonrakı tədqiqatında isə belə qənaətə gəlir ki, "*a>o hadisəsini doğuran əsas səbəblərdən biri də a səsindən əvvəl və ya sonra qoşa dodaq samitinin gəlməsidir*" [15, s.46].

ə ~ i // e ~ i paralelliyi XV əsr yazılı ədəbi dil materiallarında təsadüf olunur, nəticədə söz kökündəki hecalarda saitlərin açıqlıqdan qapalılığa meyllənməsi baş verir. Belə ki, yazılı abidələrdə eyni söz mənaca dəyişmədən fonetik şəkilcə həm *e, ə* ilə, həm də *i* ilə yazılmışdır. Ədəbi mətnlərin hərəkəsiz yazılması, *e* səsini göstərən hər hansı bir işarənin olmaması bu variantlılığı bəzən artıra da bilər. Araşdırmamızda imlaya uyğun görünən, əsas diqqəti çəkən nümunələri nəzərə aldıq: çəkmiyə چکمییه: "*Qaçan gənc ələ girür çəkmiyə rənc*" [12, s.162]; dicax دیجاخ: "*Ləlin dicax busə dutar zülfini könlüm*" [14, s.291]; nidərəm نیدرم: "*Xaki-rəhin görüb nidərəm sürməni həkim*" [14, s.279]; parəliyə پارلیه: "*Hər nəsnə kim o parəliyə can təkinmidir?*" [14, s.292].

Samitlərin paralelliyi. XV əsr Azərbaycan ədəbi dil mətnlərində, qeyd etdiyimiz kimi, əsas fərq yaradan orfoqrafik xüsusiyyətlərdən biri mənaca dəyişiklik olmadan məxrəccə yaxın olan samitlərin bir-birini əvəzləməsi hadisəsinin baş verməsidir. Yəni bir samitin yerində digər samitin işlənməsi sözün semantikasını dəyişmədən dövrün ayri-ayrı ədəbi nümunələrində, bəzən də eyni abidənin tərkibində müxtəlif fonetik şəkildə təsadüf olunur. Bunlar da öz növbəsində məhsuldar, qeyri-məhsuldar olması baxımından abidədən-abidəyə görə dəyişir, həm də bu əvəzlənmələrdə digər türk tayfa dillərinin təsiri, yerli şivələr, daha dəqiq desək, dildaxili və dilxarici faktorlar rol oynayır.

XV əsr Azərbaycan ədəbi dilində samit paralelliyi geniş şəkildə özünü göstərir. Yazılı mənbələrdə samitlərin paralelliyini qısa şəkildə nümunələr üzərində verib bəzi dil faktları üzərində dayanmağı məqsədəuyğun hesab edirik: b (ب) // p (پ) paralelliyi: *tobrağ* [14, s.290]; d (د) // t (ت) paralelliyi: *dapulur //tabılur* [14, 26[b], 17[a]], *kəsdürməz //kəstürməz* [14, 85[a], 37[b]]; q (ق) // ğ (غ) paralelliyi: *qaranğu//qaranqu* [14, 95[a]], *olmağ//olmaq* [ƏH, s. 8[a]]; q (ق) // x (خ) // h (ح) paralelliyi: *qamu//xamu//hamu* [14, s. 3[a], 55[a], 40[b]]; x (خ) // ğ (غ) paralelliyi: *artux//artuğ* [14, s.96[b]] və s.

Söz sonunda *q-x* əvəzlənməsinə abidələrdə çox təsadüf edilir: *baq-bax, yoq-yox, aq-ax və s. "Gözüm bağlu önümdə çahlər çoq, Sınıq ayağum, əldə dayağum yoq"* [12, 156], *"Yoxdurur cəmiyyətim, söylətmə, ey həmdəm məni"* [9, 35], *"Çoq istədim bənim kibi bulunmaz eşq ilə kirdar"* [11, s.431].

XV əsr Azərbaycan ədəbi dilində *q//x//h* söz əvvəlində paralelliyi əsasən əvəzliklərdə özünü göstərir: *Qamu//xamu//hamı paralelliyi* [14, s.280; 12, s.154]; *Qanı//xanı//hanı* [9,s.44; 11,s.416]. *Qaçan// xaçan/// haçan* [11, s.805; 14, s.279]; *Qanda//xanda//handa:* [13, s.57]. Məlumdur ki, bu paralel ekvivalentlik XV əsr yazılı abidələrində geniş işləndiyi halda, hətta XX əsrin əvvəllərinə qədər rast gəlməsinə baxmayaraq, müasir Azərbaycan ədəbi dilində *h* samiti sabitləşərək, *x* və *q* samitlərini sıradan cıxarmışdı.

ب (b) // م (m) paralelliyi XV əsr yazılı abidələrimizin əksəriyyətində söz əvvəlində müşahidə olunur: bən-mən, biŋ-miŋ. Abidələrin əksəriyyətinin əlyazmalarında bu sözlərin iki qrafik formasına (بن – من) təsadüf olunur. Məsələn; *"Digəc Hidayətin sözi yetməkdürür sana, Dinmən deyər ki, sözləri anın mana yetər"* [14, s.289], *"Sənin kuyindən bir dərmandəyəm mən, Ki bilmən randə, ya xud xandəyəm mən"* [12, s.156], *"Eşitmişəm bu sözü bən bir ərdən"* [12, s.159], *"Eşq bana surətini görsədəli mənidən, Seçməzəm məninün neydügini dəvidən"* [11, s. 840]. Bəzən söz ortasında da b-m paralelliyi özünü göstərir: "*Yağar yağmur kibi eşqün bəlası*" [11,s. 802], *"Əcəl kimi düşübdür arduma eşq*" [11, s.701].

Kişvərinin dilində isə *m* vaiantı üstünlük təşkil edir: *"Yeridükcə sərxoş, ey gül, sana can verüm derəm mən, Budürür mənim zəmirim, nədürür sənin xəyalın"* [9, s.29], *"Qılır yüz min dua qul Kişvəri kim, görsə yüzini, Nola yüz min duasindin birisi müstəcab olsa"* [9, s.40]. Nümunələrdən göründüyü kimi, XV əsr yazılı abidələrdə b > m paralelliyi ən cox birinci şəxsin təki *mən* və *bən* əvəzliklərində özünü göstərir.

Türkologiyada *m>b* əvəzlənməsində hansının daha qədim, hansının törəmə olması haqqında fikirlərə münasibət bildirən V.A.Serebrennikov belə bir nəticəyə gəlir ki, "*b-m əvəzənməsində b daha qədimdir"* [20, s.3-5]. M.Kaşğari *bən//mən* paralelyiyinə toxunaraq yazmışdır: "*Kəlmənin başında olan m hərfini suvarlar, oğuzlar və qıpçaqlar b-yə çevirirlər. Türklər «mən bardum», suvarlar, oğuzlar və qıpçaqlar «bən bardum» deyirlər. Türklər şorbaya «mün», bunlar «bün» deyirlər*" [18, s.31]. Maraqlıdır, oğuz türklərindən bəhs edən Dədə Qorqud boylarında *mən* forması 403 dəfə, *bən* forması 54 dəfə işlədilmişdir [6, s.121]. Yusif Xas Hacibin "Qutadğu Bilig" poemasında isə *bən* variantına bircə dəfə də olsun rast gəlinməmiş, 913 dəfə *mən*, 156 dəfə *min* istifadə edilmişdir [5, s.250]. Bu da çox güman ki, abidənin qıpçaq-karluq qpupuna aid olmasından irəli gəlir. Qədim orta dövr uyğur yazılı abidələrində də yalnız *mən* variantı işlənmişdir [19, s.41].

Tədqiqatçıların fikirlərinə əsaslanaraq, eyni zamanda, dövrün ictimai-siyasi, tarixi şəraitini nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, dilin daxili inkişaf dinamikası elə formada inkişaf yolu keçmişdir ki, hətta eyni coğrafi məkanı bölüşən qonşu türk boylarının birində *bən*, digərində isə *mən* əvəzliyi aparıcı olmuş, bəzən də hər iki forma paralelləşərək bir-birini əvəz etmişdir. Bu fonetik paralellik XV əsr Azərbaycan yazılı mənbələrində də geniş şəkildə özünü göstərmişdir. Belə ki, Kişvərinin avtoqraf "Divanın"ında yalnız *mən* variantı 68 dəfə işləndiyi halda, digər yazılı abidələrdə *bən* və *mən* fonetik varianlılığı paralel şəkildə işlənir.

د(d) // ت (t) paralelliyi: "*Gül üstünə dökərsən gül bitirir"* [12, s.162]; yaxut t//d paralelliyi: "*Qara tağlar yaşıl səhrayə döndi*" [13, 250], "*Tamar bir neçə qətrə ağzına xoş, Olur toptolu ağzı boş ikən boş*" [13, s.265], "*Nə sevdadır deyiniz bana, eşidüb qalmanız tana"* [11, s.430], "*Könlümdə ot lav-lav yanar bir atəşi-rüxsar üçün*" [9, s.36]. XV əsr abidələrinin dilində əsasən rast gəlinən d//t və t//d paralelikləri üzərində müşahidələr göstərir ki, dilin inkişaf mərhələlərində zaman keçdikcə *t* variantı işləkliyini itirmiş, *d* variantı isə norma səviyyəsinə qalxaraq müasir Azərbaycan dilində sabitləşmişdir.

ک(g) // ی(y) paralelliyi zamanı yazılı abidələrdə g samiti özünəməxsus inkişaf yolu keçərək müasir dövrdə inpozitiv və postpozitiv məqamlarda ayrı-ayrı sözlərin tərkibində *y* samitinə çevrilmişdir: "*Mən yana bilmən, fəraqi-sən degil"* [17, s.55], *"Gögə batub həm qara həm qara boyandular"* [17, s.55], *"Yüri hiylələr ögrət xəlqə səri"* [13, s.267] və s.

XV əsrin sonu, XVI əsrin əvvəllərindən başlayaraq tədricən XVII yüzillikdə, xüsusən, XVIII əsrdə güclənən yazı norması ilə tələffüz norması arasında müəyyən fərqlərin yaranması prosesinə toxunan N.Cəfərov qeyd edir ki, tələffüz normalarının inkişafı orfoqrafik normaları özünə həmişə tabe edə bilmir, məhz buna görə XVIII əsrdə tələffüz demokratizmi, bir qayda olaraq, implissit şəkildə qalır və yazı realizasiyası getmir. Məsələn; *əgri, gög, yoq, çıq* kimi sözlərin tələffüzü, hec şübhəsiz, ən geci XVII əsrin əvvəllərindən etibarən (həm də sistemli halda) uyğun olaraq, *əyri, göy, yox, çıx* şəklindədir [**Ошибка! Источник ссылки не найден.**7, s. 52]. XV əsr Azərbaycan ədbi dilində rast gəlinən fonetik paralelliklərin belə geniş vüsət alması da məhz bu proseslə bağlı olmuşdur.

Ümumiyyətlə, Azərbaycan ədəbi dilinin tarixi inkişafı üzərindəki müşahidələrə əsasən belə bir qənaətə gəlmək olar ki, XV əsrdə istər fonetik və leksik, istərsə də qrammatik səviyyələrdə paralellik hadisəsi geniş yayılmışdır. Hətta, bəzən eyni bir yazılı abidədə bir leksik vahidin müxtəlif varianları işlənir, yaxud başqa bir yazılı abidədə mühafizə olunan variant eyni dövrə aid əlyazmada fərqli variantda verilir.

ƏDƏBİYYAT

1. Adilov M.M. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. Bakı: Nurlan, 2002.
2. Baxşəliyeva S. Məhəmmədtağı Qaraqoyunlunun "Fərhəngi-türki" lüğəti və Azərbaycan dilinin tarixinin öyrənilməsində onun əhəmiyyəti. Bakı, Əli Nəşriyyat Evi, 2009.
3. Cəfərov N.Q. Azərbaycan türkcəsinin milliləşməsi tarixi, Bakı, Azərb.Dövlət Kitab Palatası, 1995.
4. Dəmirçizadə Ə. M.Azərbaycan ədəbi dilinin tarixi. Bakı: Maarif, h.1., 1979.

5. Əskər R. Mahmud Kaşğari və onun “Divanü lüğat-it-türk” əsəri, Bakı: MBM, 2008.
6. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Bakı Universiteti, 1999.
7. Hacıyev T. İ. Azərbaycan ədəbi dilinin tarixi [iki hissədə]. Bakı: Elm, h.1., 2012.
8. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi [iki hissədə]. Bakı: Maarif, 1987.
9. Kişvəri. Əsərləri (tərt. ed. C.Qəhrəmanov). Bakı: Şərq-Qərb, 2004.
10. Məmmədli M. Azərbaycan dilinin Təbriz dialekti. Bakı: “Zərdabi LTD” MMC, 2008.
11. Musabəyli A. Şeyx İbrahim Gülşəni Bərdəi və Türk Divanı [2 cilddə]. Bakı: Elm və təhsil, c.1., 2012.
12. Musayeva A.Ş. Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar [2 cilddə]. Bakı, Nurlan, c.1. 2003.
13. Nağısoylu M.Z. Şirazinin “Gülşəni-raz” tərcüməsi. Bakı, Elm və təhsil, 2011.
14. Paşalı A.A. Əfsəhəddin Hidayət və “Divan”ı (tekstoloji-filoloji tədqiqat və mətn). Bakı: Nurlan, 2011.
15. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif, 1968.
16. Şirəliyev M. Bakı dialekti. Bakı: Azərb. SSR EA, 1957.
17. Təbrizi X. Yusif və Züleyxa. Bakı: Nurlan, 2004.
18. Kaşğarlı M. Divanü Lûgat-İt-Türk [4 ciltte]. Ankara, TDK Yayınları, c. 1., 2013.
19. Рагимов М.Ш. Формы выражения настоящего и будущего времен в письменных памятниках азербайджанского языка XIV-XVIII вв. Баку: Dilçilik məcmuəsi, 1957.
20. Серебренников Б.А. Из истории звуков и форм тюркских языков. Советская тюркология. Баку: АН СССР; АН Азербайджанской ССР, 1974, № 6., с. 3 – 7.

ФОНЕТИЧЕСКИЕ СООТВЕТСТВИЯ В АЗЕРБАЙДЖАНО-ТЮРКСКОЙ ЛИТЕРАТУРНОЙ ЯЗЫКОВОЙ СИСТЕМЕ (XV ВЕКА)

РЕЗЮМЕ

В статье в историко-лингвистическом аспекте рассматривается явление фонетического параллелизма в азербайджанском литературном языке XV века. Цель исследования заключается в выявлении особенностей параллельного функционирования гласных и согласных звуков на материале письменных памятников данного периода, а также в объяснении причин возникновения этих параллелизмов в контексте исторической орфографии, орфоэпии и диалектологических факторов. Материалом исследования послужили азербайджанские литературно-художественные тексты XV века и авторитетные лексикографические источники. Анализ показывает, что значительная часть фонетических параллелизмов обусловлена консервативным характером исторической орфографии и несоответствием между письменной и произносительной нормами эпохи. В письменных памятниках широко представлены параллелизмы гласных (*a~ə, a~o, ə~i / e~i*) и согласных (*b~m, d~t, q~x~h, g~y*). Сделан вывод о том, что азербайджанский литературный язык XV века представлял собой динамичную переходную систему, в которой фонетическая вариантность являлась нормативным явлением и сыграла важную роль в формировании современного фонетического строя языка.

Ключевые слова: *Азербайджанский литературный язык, XV век, фонетический параллелизм, тюркские языки.*

PHONETIC CORRESPONDENCES IN THE AZERBAIJANI–TURKIC LITERARY LANGUAGE SYSTEM (15TH CENTURY)

ABSTRACT

The article explores the phenomenon of phonetic parallelism in the fifteenth-century Azerbaijani literary language from a historical-linguistic perspective. The primary aim of the study is to identify the patterns of parallel usage of vowel and consonant sounds based on written monuments of the period and to explain the factors underlying these parallelisms within the framework of historical orthography, orthoepy, and dialectology. The research is based on classical Azerbaijani literary texts of the fifteenth century and authoritative lexicographic sources. The analysis demonstrates that a considerable number of phonetic parallelisms stem from the conservative nature of historical orthography and the discrepancy between written and spoken norms. The written monuments display extensive vowel parallelisms (*a~ə, a~o, ə~i / e~i*) as well as consonant parallelisms (*b~m, d~t, q~x~h, g~y*). The study concludes that the Azerbaijani

literary language of the fifteenth century constituted a dynamic and transitional phonetic system in which variant forms functioned in parallel and contributed significantly to the formation of the normative phonetic structure of the modern Azerbaijani language.

Keywords: *Azerbaijani literary language, 15th century, phonetic parallelism, Turkic languages.*

Gülarə ƏMİROVA*

I TÜRKOLOJİ QURULTAYDAN MÜASİR DÖVRƏ: ORFOQRAFİYA NORMALARININ TƏTBİQİ VƏ AKTUAL PROBLEMLƏR

XÜLASƏ

Məqalə Azərbaycan dilində orfoqrafiya normalarının formalaşma və inkişaf mərhələlərinin elmi təhlilinə həsr olunmuşdur. Orfoqrafiya qaydalarının təşəkkül yolu əlifba islahatları kontekstində nəzərdən keçirilmiş, I Türkoloji Qurultayda qəbul edilən qərarların Azərbaycan dilinin yazı sisteminin normallaşdırılmasına və orfoqrafiya prinsiplərinin müəyyənləşdirilməsinə təsiri məsələləri araşdırılmışdır.

Məqalədə müasir dövrdə orfoqrafiya normalarının tətbiqi problemləri elektron media və internet saytları materialları əsasında təhlil edilmiş, mürəkkəb sözlərin yazılışı, tire və defisin fərqləndirilməməsi kimi normadan sapma halları ön plana çəkilmişdir.

Tədqiqatın nəticəsində I Türkoloji Qurultayın 100 illiyi kontekstində orfoqrafiya normalarının tətbiqinə yenidən baxılmasının vacibliyi vurğulanmış, orfoqrafiya lüğətlərinin rəqəmsal imkanlarının genişləndirilməsi və normanın tətbiqinin monitorinqi, təbliği və tədrisi istiqamətində ardıcıl tədbirlərin görülməsinin zəruriliyi qeyd edilmişdir.

Açar sözlər: *Türkoloji Qurultay, Azərbaycan dili, orfoqrafiya normaları, media dili.*

Azərbaycan dilinin orfoqrafiya normalarının təşəkkülü uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Orfoqrafiya normaları yazılı nitqdə dilin vahid və sabit şəkildə ifadəsini təmin edən qaydalar sistemi olduğundan onların formalaşması bilavasitə istifadə olunan əlifba və yazı sistemi ilə bağlıdır. Yəni orfoqrafiya normalarının yazıda tam və ardıcıl şəkildə tətbiqi yalnız dilin fonetik xüsusiyyətlərini adekvat əks etdirən əlifba əsasında mümkündür.

Məlumdur ki, XX əsrin əvvəllərinə qədər Azərbaycan dili yazıda əsasən ərəb qrafikalı əlifba ilə ifadə olunurdu. Lakin bu qrafik sistem Azərbaycan dilinin fonetik quruluşuna tam uyğun gəlmədiyindən yazıda vahidlik və sabitlik problemləri daim mövcud olmuşdur. Eyni sözün müxtəlif formalarda işlədilməsi və fonetik fərqlərin qrafik vasitələrlə dəqiq ifadə olunmaması normativləşmə prosesini ciddi şəkildə çətinləşdirirdi. Bu səbəbdən yazı sistemində islahatlar aparmaq ehtiyacı getdikcə aktuallaşırdı. Nəticədə əlifba islahatı məsələsi gündəmin əsas mövzularından birinə çevrilmiş, milli yazı sisteminin fonetik prinsiplərə əsaslanan yeni qrafika ilə əvəzlənməsi zəruri olmuşdur. Bu istiqamətdə ilk ciddi təşəbbüs M.F.Axundzadənin adı ilə bağlıdır. Onun əlifba islahatı ilə əlaqədar irəli sürdüyü ideyalar Azərbaycan ziyalıları arasında geniş müzakirələrə səbəb olmuşdur. XIX əsrin sonu və XX əsrin əvvəllərində bir çox maarifçi və ictimai xadimlər ərəb qrafikalı əlifbanın dəyişdirilməsi zərurətini vurğulamış, bu məsələdə öz mövqelərini açıq şəkildə ifadə etmişlər.

XIX əsrin sonu və XX əsrin əvvəllərində H.Zərdabi, C.Məmmədquluzadə, M.Şahtaxtlı, N.Nərimanov, F.Köçərli, Ö.F.Nemanzadə, S.M.Qənizadə və digər görkəmli ziyalılar əlifba islahatı ideyasını dəstəkləmiş, milli yazı sisteminin fonetik prinsiplərə əsaslanan yeni qrafika ilə əvəz olunmasının vacibliyini çıxış və yazılarında vurğulamışlar.

F.Ağazadə isə ərəb əlifbasından latın əlifbasına keçid prosesində ən fəal iştirak edən ziyalılardan biri olmuşdur. O, həmin dövrdə mətbuat səhifələrində tez-tez yeni əlifba ilə bağlı məqalələrlə çıxış edir, təklif

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent.

olunan əlifba layihələrinə münasibət bildirirdi. F.Ağazadə mətbuatda çap olunan "Əlifba tarixində türklərin vəziyyəti", "Dilimizin türkləşməyinə çarələr" adlı silsilə məqalələrində, eləcə də "Nə üçün ərəb hərfləri türk dilinə yaramır?" adlı əsərində ərəb əlifbasının yararsızlığını sübut etmiş, ciddi faktlarla latın əlifbasına keçidin düzgün yol olduğunu əsaslandırmışdır [8].

Bu təşəbbüslər fonunda əlifba islahatı yalnız ziyalıların səyləri ilə məhdudlaşmamış, dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ana dili və əlifba məsələləri Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin daim diqqət mərkəzində olmuş, dil siyasəti dövlətçiliyin əsas istiqamətlərindən birini təşkil etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli qərarı ilə dövlət dili Azərbaycan dili (*türk dili*) olaraq qəbul edilmişdir.

Ardıcıl olaraq dövlət orqanlarında kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması, təhsilin milliləşdirilməsi ilə bağlı qərarlar qəbul edilmişdir. Mühüm qərarlardan biri də əlifba məsələsinə aid olmuşdur. 1919-cu ilin 21 mart tarixində Azərbaycan Xalq Cümhuriyyəti Nazilər Şurası yeni Azərbaycan əlifbasının layihəsini hazırlamaq məqsədilə komissiya yaradılması haqqında qərar qəbul etmişdir [3, s.328]. Hökumət tərəfindən yaradılan komissiyaya üç layihə təqdim edilmiş və müzakirə olunmuşdur. Onlardan Abdulla bəy Əfəndizadənin layihəsi bəyənilmiş, 1919-cu ilin avqustun 20-dən sentyabrın 1-dək Bakıda keçirilmiş Azərbaycan Müəllimlərinin Qurultayında təsdiq edilmiş və Parlamentin müzakirəsinə verilmişdir. Abdulla bəy Əfəndizadənin həmin əlifba layihəsi əsasında hazırladığı "Son türk əlifbası" adlı kitabı 1919-cu ildə Bakıda "Hökumət" mətbəəsində çap olunmuşdur. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin işğalı nəticəsində layihənin həyata keçirilməsi prosesi başa çatmamışdır [1, s.5].

1920-ci illərdə bu müzakirələr daha sistemli xarakter almış, latın qrafikalı əlifbaya keçid ideyası həm elmi, həm də praktik müstəvidə əsaslandırılmağa başlanmışdır. Bu baxımdan I Türkoloji Qurultay mühüm mərhələ olmuş, türkdilli xalqların yazı sistemlərinin vahid prinsiplər əsasında qurulması və fonetik uyğunluğun təmin edilməsi məsələləri geniş müzakirə edilmişdir. Qurultaydan sonra atılan addımlar latın qrafikalı əlifbaya keçidi sürətləndirmiş və Azərbaycan dilində yazı sisteminin sabitləşməsi üçün zəruri zəmin yaratmışdır.

Məhz bu zəmin üzərində Azərbaycan dilinin orfoqrafiya normalarının formalaşdırılması prosesi başlamış, 1929-cu ildə qəbul edilən ilk qaydalar isə dilin yazı sistemini nizama salmaq və vahid qaydalar yaratmaq baxımından mühüm addım olmuşdur. 1929-cu ildə təsdiq edilmiş normalarda ümumi qaydalar üzrə 41 maddə, xarici sözlərin yazılışı ilə bağlı 21 maddə təsbit edilmişdir [4, s.9-15].

Amma orfoqrafiya qaydalarının təkmilləşdirilməsi prosesi davam etdirilir, yeni normalar müəyyənləşdirilirdi. "Yeni orfoqrafiya qaydalarının tezisləri 1931-ci ildə "Azərbaycanı öyrənmə yolu" məcmuəsində çap olunmuşdur. Bu tezislərdə sözlər mənşəcə 3 qrupa (Azərbaycan sözləri, ərəb və fars sözləri, rus və beynəlmiləl sözlər) bölünmüş və hər qrupa aid yazı qaydaları göstərilmişdir.1931-ci ildə ikinci orfoqrafiya konfransı çağırıldı. Burada həmin tezislər geniş müzakirə olundu, bundan sonrakı illərdə Azərbaycan dili orfoqrafiyası qaydalarının layihəsi hazırlandı; 1936-cı ildə təsdiq edildi və çap olundu" [5, s.198]. Amma 1938-ci ildə bu qaydalara yenidən baxılmış, müəyyən dəyişikliklər edilməklə 1940-cı ildə çap olunmuş Orfoqrafiya lüğətində 104 paraqraf üzrə təqdim edilmişdir [6,s.3-42]. Sovet dövrünün sonrakı illərində (1954, 1958) qaydalar yenidən nəzərdən keçirilmiş, müəyyən dəyişikliklər edilmişdir.

Orfoqrafiya normaları təkmilləşdirildikcə Azərbaycan dilinin yeni orfoqrafiya lüğətləri nəşr olunurdu. Qeyd edilməlidir ki, bu günə kimi Azərbaycan dilinin 7 orfoqrafiya lüğəti çap olunmuş, mövcud normalar bu lüğətlərdə sistemli şəkildə təqdim edilmişdir.

Nəticədə orfoqrafiya qaydaları uzunmüddətli sınaqlardan keçərək mərhələli şəkildə formalaşmış, sabitləşmiş və əsas prinsipləri müəyyənləşdirilmişdir. Lakin normativ bazanın mövcudluğu onun praktikada eyni səviyyədə və problemsiz tətbiq olunduğu anlamına gəlmir. Müasir dövrdə orfoqrafiya qaydalarının real dil mühitində işləkliyi, müxtəlif sahələrdə (təhsil, media, reklam daşıyıcıları) tətbiq formaları, eləcə bu prosesdə normadan sapma halları ciddi elmi təhlil tələb edir.

Bu baxımdan müasir dil mühitinin ən aktiv və təsirli sahələrindən biri olan onlayn media resursları orfoqrafiya normalarının faktiki tətbiq vəziyyətini izləmək üçün əsas empirik material kimi çıxış edir. Xəbər portallarında yayımlanan mətnlər normanın yalnız nəzəri səviyyədə deyil, gündəlik yazı praktikası çərçivəsində necə qəbul edildiyini və tətbiq olunduğunu aydın şəkildə nümayiş etdirir. Buna görə də

aşağıdakı təhlildə diqqət xəbər saytlarında orfoqrafiya qaydalarının tətbiqinə, normadan sapma hallarına və həmin pozuntuların ədədbi dil baxımından izahına yönəldilmişdir.

Təhlil olunan sayt materiallarında Azərbaycan dilinin orfoqrafiya normalarının müxtəlif səviyyələrdə pozulduğu müşahidə olunur. Bu pozuntular özünü çoxsaylı imla xətalarında, durğu işarələrinin işlənmə məqamlarında, mürəkkəb sözlərin yazılışında, orfoqrafiyanın predmeti olan defis işarəsi ilə sintaksisin predmeti sayılan tire işarəsinin düzgün fərqləndirilməməsində, eləcə də söz birləşmələrinin və alınma sözlərin yazılışında aydın şəkildə göstərir.

Xüsusilə mürəkkəb sözlərin yazılışı ilə bağlı uyğunsuzluqlar diqqəti cəlb edir. Azərbaycan dilində mürəkkəb sözlərin bitişik, ayrı və defislə yazılması normativ prinsiplərlə dəqiq tənzimlənir. Lakin media mətnlərində bu normaların ardıcıl şəkildə tətbiq olunmadığı müşahidə edilir. Məsələn:

"Pestisidlərlə zəhərlənmə zamanı ilkin olaraq baş gicəllənməsi, mədə bulantısı, baş ağrısı kimi əlamətlər müşahidə olunur" [7, s.38], "Uşaqlarda klinik simptomlar pnevmoniyaya səbəb olan vəziyyətə görə fərqli ola bilsə də, ən çox rast gəlinən əlamətlər öskürək, bəlğəm, sinə ağrısı, qusma və ya ishal, iştahasızlıq, yorğunluq və ümumi zəiflik, sürətli və çətin nəfəs alma, baş ağrısı [7, s.341], "Müayinələr mərhələli şəkildə laboratoriyanın yüksək ixtisaslı peşəkar mütəxəssisləri tərəfindən həyata keçirilir" [7, s.39], "Yüksək səviyyəli qonaqlar, həmçinin bu günlərdə Londona səfər edən onlarla dövlət başçısı üçün növbəsiz giriş təşkil edilib" [7, s.72],"Ağdamda piyada əleyhinə minaya düşərək xəsarət alan hər iki şəxs müalicə aldığı xəstəxanadan təcili tibbi yardım maşınları vasitəsilə Bakıya gətirilir" [7, s.122].

Dilimizin orfoqrafiya normalarına əsasən iki və daha artıq sözün birləşməsindən əmələ gələn və bir vurğu ilə tələffüz olunan mürəkkəb sözlər bitişik yazılmalıdır. Təhlil olunan nümunələrdə isə bu tip sözlərin tərkib hissələrinin ayrı yazıldığı müşahidə olunur: "baş gicəllənməsi" (*başgicəllənmə*), "baş ağrısı" (*başağrısı*), "sinə ağrısı" (*sinəağrısı*), "nəfəs alma" (*nəfəsalma*), "yüksək ixtisaslı" (*yüksəkixtisaslı*), "yüksək səviyyəli" (*yüksəksəviyyəli*), "piyada əleyhinə" (*piyadaəleyhinə*).

Qeyd edilməlidir ki, bu uyğunsuzluqlar oxucuda normativ forma ilə səhv variant arasında çaşqınlıq yaradır, həm də yazı vərdişlərinin formalaşmasına mənfi təsir göstərir.

Sayt mətnlərində rast gəldiyimiz digər norma pozuntusu defis və tire işarələrinin düzgün ayırd edilməməsi, yəni bu qrafik vasitələrin işlənmə məqamlarının qarışdırılması ilə bağlıdır. Məsələn:

"Şuşa Bəyannaməsinin tələbləri çərçivəsində Türkiyə-Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişafı üçün səylə çalışırıq", – səfir vurğulayıb" [7, s.80] [4], "Belə ki, Türkiyə vətəndaşı Süleyman Qurtuluş idarə etdiyi *"Mercedes-Benz"* markalı yük avtomobilinin təkərini dəyişmək üçün Ələt-Astara yolunda nəqliyyat vasitəsini qaldırıcı ilə havaya qaldırıb" [7, s.43], "Son 1 həftə ərzində "Yuxarı Lars" gömrük-keçid məntəqəsi *vasitəsilə* Rusiya-Gürcüstan sərhədini hər iki istiqamətə 115 min nəfər keçib" [7, s.64].

Qeyd edilməlidir ki, Azərbaycan dilində defis işarəsinin ümumilikdə 20-dən funksional istifadə məqamı vardır. Bunlar arasında yaxın və əksmənalı sözlərin iştirakı ilə yaranan mürəkkəb sözlərin (*açıq-aydın, od-alov, oxu-yazı, sevinc-kədər, səhər-axşam və s.*), eyni sözün təkrarı ilə formalaşan mürəkkəb sözlərin (*acı-acı, maddə-maddə, növ-növ, rəng-rəng və s.*), həmçinin eyni nidanın təkrarından əmələ gələn mürəkkəb nidaların (*bəh-bəh, ah-ah, vay-vay və s.*) yazılışını nümunə göstərmək olar. Bundan əlavə, tərkibində art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse- morfemlər olan mürəkkəb sözlərdə (*art-obyekt, eks-prezident, əks-səda, kontr-admiral, qeyri-adi, qeyri-iradi, ober-leytenant, veb-dizayner, veb-səhifə, vitse-admiral və s.*) və digər müvafiq məqamlarda da defisdən istifadə edilir.

Cümlədə fərqləndirici, aydınlaşdırıcı funksiyaları yerinə yetirən tire işarəsindən isə əsasən ümumiləşdirici sözlə onun məzmununu açan sözlər arasında, vasitəsiz nitqdə müəllif nitqi ilə özgə nitqin fərqləndirilməsində, mətn arasına girən cümlələrin mətndən ayrılmasında istifadə olunur. Cümlə üzvləri ilə onların əlavələrinin, müəyyən məkan və zaman anlayışları ifadə edən başlanğıc nöqtələri ilə bitmə nöqtələrinin arasında və digər bir sıra məqamlarda da tire işarəsi qoyulur.

Bu mənada ilk nümunədə fərqləndirilmiş sözlər arasında (*"Türkiyə", "Azərbaycan"*) müəyyən siyasi münasibətlər, digər iki nümunədəki sözlər arasında (*"Ələt", "Astara"; "Rusiya", "Gürcüstan"*) məkan

[4] Seçilmiş nümunələrdə digər norma pozuntuları redaktə olunaraq kursivlə fərqləndirilmişdir.

məzmunu ifadə olunduğu üçün onların arasında defis deyil, tire işarəsi qoyulmalı idi: Türkiyə – Azərbaycan, Ələt – Astara, Rusiya – Gürcüstan.

Saytların dilində tez-tez rast gəlinən orfoqrafik səhvlərdən biri də "aidiyyəti" sözünün yazılışı ilə bağlıdır. Sayt redaksiyalarında çalışan müəlliflərin, demək olar ki, əksəriyyəti bu sözü "aidiyyatı" kimi yanlış yazmaqla dilimizin orfoqrafik normasını pozur. Məsələn:

"*Rüşvətalmanın, rüşvətvermənin* bura aidiyyatının olmadığını deyib" [7, s.152].

"Canalı kəndinin bələdiyyə sədri Babək Şahmalıyev *bildirib* ki, paylayıcı *transformator* yanıb və aidiyyatı orqanlara, habelə "Azərişıq"a müraciət olunsa da, nəticə yoxdur" [7, s.174].

"Meyit müayinə olunması üçün aidiyyatı zrə təhvil verilib" [7, s.197].

"Qadın psixoloqa etiraz edərək "Sizə nə aidiyyatı var: Mən başımım açdım ya bağladım" sözlərini söyləyib" [7, s.240].

"Azərbaycan tərəfi radikal erməni qüvvələrinin törətdiyi vandalizm aktlarının aidiyyatı dövlətlərin hüquq-mühafizə orqanları tərəfindən araşdırılmasını və bu cinayətləri törədənlərin hərəkətlərinə hüquqi qiymət verilməsini tələb edir" [7, s.351].

"Bu istiqamətdə reydlər aidiyyatı qurumlarla birgə daimi xarakter daşıyacaq" [7, s.418].

Qeyd edilməlidir ki, nümunələrdə "aid olma", "əlaqəsi olma", "dəxli olma" anlamlarını ifadə edən fərqləndirilmiş söz ərəbmənşəli "aid" sözünə "-iyyət" və nisbət, aidiyyət bildirən -i şəkilçilərinin qoşulması ilə əmələ gəlib. Saytların dilində bu sözün yanlış formada işlədilməsi sözün tərkibindəki ilk şəkilçinin "-iyyət" deyil, "-iyyat" yazılması ilə bağlıdır. Həmçinin bu şəkilçidən sonra "i" saitinin deyil, "ı" saitinin verilməsi də onun "-iyyat" şəkilçisinin son hecasındakı qalın "a"-ya uyğunlaşdırılmasının nəticəsi kimi qeyd oluna bilər. Bununla belə, həmin sözün doğru yazılış forması Azərbaycan dilinin Orfoqrafiya lüğətində təsbit edilmişdir: aidiyyəti [2, s.37].

Aparılan araşdırma göstərir ki, Azərbaycan dilində orfoqrafiya normaları tarixi inkişaf yolu keçərək mərhələli şəkildə formalaşmış və normativ sistem kimi sabitləşmişdir. Bu prosesin elmi əsaslarının qoyulmasında I Türkoloji Qurultayın rolu xüsusi qeyd olunmalıdır. Qurultayda dilin yazı prinsiplərinin normallaşdırılması və yazı mədəniyyətinin elmi prinsiplər əsasında tənzimlənməsi ilə bağlı qəbul edilən qərarlar sonrakı dövrlərdə orfoqrafiya qaydalarının və lüğətlərinin hazırlanmasına mühüm təsir göstərmişdir. Bununla yanaşı, müasir dövrdə media mühitində, xüsusilə saytların dilində orfoqrafiya normalarının tətbiqində müşahidə olunan qüsurlar normanın praktikada tam mənimsənilmədiyini göstərir. I Türkoloji Qurultayın 100 illiyi kontekstində bu problemlərin elmi təhlili və orfoqrafiya qaydalarının real dil mühitində daha ardıcıl tətbiqi məsələsi aktual olaraq qalır və dilin normativliyinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Araşdırma göstərir ki, mövcud normativ baza kifayət qədər zəngin və sistemlidir. Lakin müasir dil mühitində, xüsusən də elektron media, internet saytları və reklam mətnlərində orfoqrafiya normalarının tətbiqində müşahidə olunan uyğunsuzluqlar bu sahədə ciddi problemlərin qalmaqda olduğunu, orfoqrafik normanın real praktikada yetərincə mənimsənilmədiyini sübut edir. Nəticə etibarilə səhv yazılışlar gündəlik ünsiyyətə, tədris materiallarına və hətta rəsmi sənədlərə sirayət edə bilir. Bu isə normativ dilin nüfuzunu zəiflədir, düzgün yazı mədəniyyətinin formalaşmasına mane olur.

Orfoqrafiya qaydalarının düzgün tətbiqinin təmin olunması yalnız dilçi alimlərin nəzəri izahları ilə deyil, həm də praktik tətbiqlə möhkəmləndirilməlidir. Xüsusilə onlayn media resurslarında redaktorların məsuliyyətli yanaşması və orfoqrafiya lüğətinə istinad etmələri vacibdir. Əks halda, səhv nümunələr sürətlə yayılaraq ictimai dil istifadəsində "adi" hala çevrilə bilər. Bu baxımdan, hər bir söz və ifadənin düzgün yazılışı həm dilin daxili sisteminə, həm də oxucu auditoriyasının dil mədəniyyətinə xidmət edən mühüm amil kimi qiymətləndirilməlidir.

I Türkoloji Qurultayın 100 illiyi kontekstində bu məsələlərə yenidən baxılması xüsusi əhəmiyyət daşıyır. Qurultayın əsas ideyalarından biri olan dilin elmi əsaslarla tənzimlənməsi prinsipi bu gün də aktuallığını qoruyur və müasir dövrdə orfoqrafiya normalarının tətbiqinin monitorinqi, təbliği və tədrisi istiqamətində ardıcıl tədbirlərin görülməsini zəruri edir. Bu baxımdan orfoqrafiya məsələlərinin müasir dil mühitində elmi təhlili həm tarixi ənənənin davamı, həm də Azərbaycan dilinin normativliyinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Abdulla bəy Əfəndizadə Azaqbəyli. Son türk əlifbası / tərt.ed. Şəlalə Ana Hümmətli, Bakı: Elm, 2018. 144 s.
2. Azərbaycan dilinin Orfoqrafiya lüğəti / Red. Hey. sədri M.Z.Nağısoylu. Bakı: Elm, – 2021.756 s.
3. Балаев, А. Этноязыковые процессы в Азербайджане в XIX-XX вв. / А.Балаев. – Bakı: ”Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2005. – 328 s.
4. Xuluflu, V. İmla lüğəti / Bakı: Azərnəşr, – 1929. – 342 s.
5. Qurbanov, A.M. Seçilmiş əsərləri: [2 cilddə]. Müasir Azərbaycan ədəbi dili / A.Qurbanov. – Bakı: İmak mətbəəsi (Türkiyə), – c.1. – 2019. – 464 s.
6. Orfoqrafiya lüğəti. / Red. Hey. sədri D.Quliyev. – Bakı: Azərnəşr, – 1940. – 342 s.
7. Saytlarımız monitorinq aynasında / Red. Hey. sədri S.Əliyeva. – Bakı: Təhsil, – 2023. – 456 s.
8. Verdiyev, İ.A. Latın qrafikalı Azərbaycan əlifbasına gedən yol, yaxud tarixə bir nəzər: [Elektron resurs]. Edebiyyatveincesenet.az rəsmi internet səhifəsi / Bakı, 02 avqust 2025. URL: https://www.edebiyyatveincesenet.az/ve-diger/item/23659-lat-n-grafikal-azaerbaydzan-aelifbas-na-zhedaen-yol-yakhud-tarikhae-bir-naezaer

Гюлара АМИРОВА

ОТ I ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА ДО СОВРЕМЕННОСТИ: ПРИМЕНЕНИЕ ОРФОГРАФИЧЕСКИХ НОРМ И АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ

РЕЗЮМЕ

Статья посвящена научному анализу этапов формирования и развития орфографических норм в азербайджанском языке. Путь становления орфографических правил рассмотрен в контексте реформ алфавита, исследованы вопросы влияние решений, принятых на I Тюркологическом съезде, на нормализацию письменной системы азербайджанского языка и определение принципов орфографии.

В статье проанализированы проблемы применения орфографических норм в современный период на основе материалов электронной медиа и интернет-сайтов, акцент сделан на случаях отклонения от нормы, таких как написание сложных слов, отсутствие различия между тире и дефисом.

В результате исследования подчеркнута необходимость пересмотра применения орфографических норм в контексте 100-летия I Тюркологического съезда, отмечена важность расширения цифровых возможностей орфографических словарей, а также необходимость последовательных мер по мониторингу, пропаганде и преподаванию нормы.

Ключевые слова: *Тюркологический съезд, азербайджанский язык, орфографические нормы, язык медиа.*

Gulara AMIROVA

FROM THE FIRST TURKOLOGICAL CONGRESS TO THE PRESENT DAY: APPLICATION OF ORTHOGRAPHIC NORMS AND CURRENT ISSUES

ABSTRACT

The article is devoted to the scientific analysis of the stages of formation and development of orthographic norms in the Azerbaijani language. The process of establishing orthographic rules is examined in the context of alphabet reforms, and the influence of the decisions adopted at the First Turkological Congress on the normalization of the Azerbaijani writing system and the determination of orthographic principles is investigated.

The article analyzes the problems of applying orthographic norms in the modern period based on materials from electronic media and internet sites, highlighting cases of deviation from the norm such as the spelling of compound words and the failure to distinguish between the dash and the hyphen.

As a result of the study, the necessity of reconsidering the application of orthographic norms in the context of the 100th anniversary of the First Turkological Congress is emphasized. The importance of expanding the digital capabilities of orthographic dictionaries, as well as the need for consistent measures in monitoring, promoting, and teaching the norm, is underlined.

Keywords: *Turkological Congress, Azerbaijani language, orthographic norms, media language.*

Fizuli MUSTAFAYEV*

KİNO DİLİNDƏ SİNTAKTİK ÜSULLA YARANAN ONOMASTİK VAHİDLƏR

Məqalə kino dilində sintaktik üsulla yaranan onomastik vahidlərlə həsr olunub.

Qeyd olunur ki, analitik yolla sözyaratma sintaktik üsul adlanır. Yəni burada iki və daha artıq söz müxtəlif münasibətlər əsasında birləşərək bir mürəkkəb leksik vahid əmələ gətirir.

Tədqiqat zamanı məlum olur ki, onomastik dil hadisəsi bütün xüsusi adlar qrupunda özünü göstərir: antroponimlərdə, toponimlərdə, hidronimlərdə, kosmonimlərdə, ktematonimlərdə.

Məqalədə bildirilir ki, sintaktik üsulla yaranan onomastik vahidlər iki qrupa bölünür: sırf sintaktik qaydada və sintaktik morfoloji qaydada yarananlar.

Sırf sintaktik qaydada yarananlara aid olanlar: kök+kök modeli, kök+kök+kök modeli, kök+kök+kök modeli; sintaktik morfoloji qaydada yarananlar: kök+kök+şəkilçi, kök+şəkilçi+kök, kök+kök+şəkilçi+şəkilçi; kök+kök+kök+şəkilçi, kök+şəkilçi+kök+şəkilçi.

Onomastik leksikada sözyaratma prosesinin təhlili göstərir ki, burada derivasiya hadisəsi ümumi sözlərə nisbətən zəif baş verir.

Məqalədə uyğun elmi-bədii əsərlər, monoqrafiyalardan istifadə edilmişdir. Müxtəlif bədii filmlərdən göstərilən misallar tədqiqatın bədii, elmi və estetik gücünü dəyərləndirir.

Açar sözlər: *onomastika, orfoepiya, orfoqrafiya, leksika, sintaktika, morfologiya, semantika.*

Dilimizdə mürəkkəb – analitik yolla sözyaratma sintaktik üsul adlanır. Yəni burada iki və daha artıq söz müxtəlif münasibətlər əsasında birləşərək bir mürəkkəb leksik vahid əmələ gətirir. "Onomastik vahidlərin bu yolla əmələ gəlməsinə dair" Azərbaycan dilində çox müxtəlif dil fiqurlarına rast gəlinir. Özü də bu onomastik dil hadisəsi bütün xüsusi adlar qrupunda özünü göstərir.

***

1) Antroponimlərdə – qız+tamam>*Qıztamam,* bağda+gül>*Bağdagül,* ay+bəniz>*Aybəniz,* ana+xanım>*Anaxanım,* tamam+gül>*Tamamgül,* xuda+verdi>*Xudaverdi,* xas+polad>*Xaspolad,* xan+bala>*Xanbala,* pir+verdi>*Pirverdi,* ocaq+verdi>*Ocaqverdi,* gül+bala>*Gülbala,* əmir+qulu>*Əmirqulu,* Əli+heydər>*Əliheydər* və s.

Kinofilmlərdə belə antroponimlər xeyli miqdarda işlədilərək kütləvi xarakter almışdır.

"Vahid: – Sədr ilə Leyli özlərini lap sərbəst aparırlar. Elə bil neçə ilin sevgililəridirlər. Masanın üstündə yemək-içmək də olub...

Əhməd: – *Bağdagül, Anaxanım, Tamamgül, Qıztamam* kimilərin qadası Leylinin canına.

Vahid: – Tfu, onun zatına!" ["Qəzəlxan"].

2) Toponimlər – Əli+yetməzli>*Əliyetməzli,* otuz+iki>*Otuziki,* xoş+çoban>*Xoşçobanlı,* qara+qaşlı>*Qaraqaşlı,* aşağı+Güzdək>*Aşağı Güzdək,* bəy+əhməd+yurd>*Bəyəhmədyurd,* qızıl+qazma>*Qızılqazma,* altı+ağac>*Altıağac,* ceyran+batan>*Ceyranbatan,* ağ+dam+kənd>*Ağdamkənd,* qara+dağlı>*Qaradağlı,* Pəri+oğlular>*Pərioğlular,* kol+qışlaq>*Kolqışlaq,* göy+təpə>*Göytəpə,* təpə+məhlə>*Təpəməhlə* və s.

Sarı: – Qovala bəri heyvanları!... *Əliyetməzli, Xoşçobanlı, Qaraqaşlı, Boyəhmədli, Kolqışlaq və Təpəməhəllə* kəndlərinin mal-qarası çöldədir. Həmişə sənin növbən olanda qat mal-qaranı mənim naxırıma. Özün örüşə çıxma.

Qız: – *Yox, biz başqalarından artıq döyülük ha"* ["Kişi sözü"].

3) Hidronimlərdə – ağ+daban+çay>*Ağdabançay,* ağ+su>*Ağsu,* ağ+çay>*Ağçay,* arı+qıran+çayı>*Arıqırançayı,* dədə+günəş+çay>*Dədəgünəşçay,* daş+bulaq>*Daşbulaq,*

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tətbiqi dilçilik şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru. Email: mustafayev.fizuli8@gmail.com

kükürd+bulağı>*Kükürd bulağı,* qara+bulaq>*Qarabulaq,* dil+gah>*Dibgah,* köpək+ölən+gölü>*Köpəkölən gölü* və s.

"Yarməmməd: – Hə vallah, daş dığırlatdı da sözdür. Bu Şirzadla Nəcəf heç dil qəfəsə salmırlar. Daşbulaqnan Kükürd bulağı hər vaxt kükrəyirlər.

Rüstəm: – Nə deyirlər?

Salman: – Kolxozun iclasında danışmırdılar. Elə bil *Dibgahla Köpəkölən* gölləri kimi lal-dinməz durmuşdular.

Yarməmməd: – Amma bu gün məni yaxaladılar ki, aç dəftər-kitabı tök qabağımıza, görək fermada nə var, keçən il filankəsin sahəsi nə veribdir?" ["Böyük dayaq"].

"Yaşlı arvad: – Onun falını mən tərs gətirdim, sonra da atdım Ağdaban və Dədəgünəş çayına. O qarpızın falı düz düşsə idi, ona heç nə olmayacaqdı" ["Ümid"].

4) Kosmonimlərdə – ilan+daşıyan>*İrandaşıyan,* böyük+ayı>*Böyük Ayı,* qızıl+balıq>*Qızıl Balıq,* tək+buynuz>*Təkbuynuz,* cənub+tacı>*Cənub Tacı,* şimal+tacı>*Şimal Tacı* və s.

Ziyad xan: – Xalqdan alınan vergiləri artırın, ödəməyi qəbul etməyənləri ən ağır şəkildə cəzalandırın ki, üsyan edən, baş qaldıran olmasın.

Mirzə Salman: – Bayandır xan söylədi ki, İlandaşıyan, Böyük Ayı, Qızıl Balıq, Təkbuynuz və Cənub Tacı bürclərindən olanlarla işiniz olmasın..." ["Mahmud ilə Məryəm"].

5) Ktematonimlərdə – Bakı+dövlət+universiteti–*Bakı Dövlət Universiteti, Azərbaycan Respublikası Təhsil Nazirliyi*, birləşmiş+millətlər+təşkilatı–*Birləşmiş Millətlər Təşkilatı* və s.

"Eldar: – Mən səni sevirəm. Ona görə də səni *Birləşmiş Millətlər Təşkilatına* aid olan neçə-neçə ölkələrə aparacağam. *Respublika Təhsil Nazirliyindən* də hər şeyi öyrənmişəm.

Leyla: – Nə dedin?

Eldar: – Mən səni sevirəm" ["Məhkumların cənnəti"].

Göründüyü kimi, belə sintaktik birləşmələrdə köklə bərabər, bəzən şəkilçilərdən də istifadə edilir. Buna görə də *"...sintaktik üsula əmələ gələn onomastik vahidləri iki qrupa bölmək olar: sırf sintaktik qaydada və sintaktik morfoloji qaydada yarananlar"* [1, s. 3].

a) Sırf sintaktik qaydada yarananlar. Bu formada yaranan onomastik vahidlərdə ancaq sintaktik vasitələrdən istifadə olunur. Buna görə də belə linqvistik model sırf sintaktik yolla sözyaratma adlanır. Məsələn, ağ+köynək>*Ağköynək,* qoşa+kənd>*Qoşakənd,* qara+baqqal>*Qarabaqqal,* qızıl+ağac>*Qızılağac*, çoban+kol>*Çobankol,* sarı+baş>*Sarıbaş,* altı+ağac>*Altıağac* – toponimik vahidlər, Məmməd+Hüseyn>*Məmmədhüseyn,* Səməd+ağa>*Səmədağa,* gül+Hüseyn>*Gülhüseyn,* Qulam+Əli>*Qulaməli,* Səfər+əli>*Səfərəli,* xan+Əhməd>*Xanəhməd* antroponimik vahidlər və s.

"Birinci kəndli: – Ağa nəçənnik, mən getmişdim, *Ağköynək, Qoşakənd,* bir də *Qarabaqqal* kəndlərinə. Sonra düşündüm ki, *Qızılağaca* da baş çəkim. burda çoxlu qarğa vardı. Sapanda daş qoyub atdın qarğalara. Daş gedib dəydi bu kişinin atının gözünü çıxartdı.

İkinci kəndli: – Getdim qazıya şikayət elədim, qazı də dedi ki, sən də get vur bu kişinin atının gözünü çıxart!" ["Sabahın elçisi"].

"Onomastik vahidlər sırf sintaktik qayda ilə bir neçə formada yaranır" [2, s. 6]. Bu müxtəliflik aşağıdakı linqvistik modellərdə özünü göstərir.

1) Kök + kök modeli. "*Bu model [k+k] dilimizin ümumi leksik sistemində çox geniş yayılmışdır. Həmin dil fiquru əsasında iki kökdən ibarət mürəkkəb sözlər əmələ gəlmişdir. Bunların çox böyük qismini onomastik vahidlər təşkil edir. Onların komponentlərini ümumi və xüsusi sözlər əhatə edir*". [3, s. 79].

a) Komponentlərin hər ikisi xüsusi söz dən ibarət olan kök+kök modeli: Abbas+Qulu>*Abbasqulu,* Abbas+Əli>*Abbaseli,* Adil+Gəray>*Adilgəray,* Əbdül+Qasım>*Əbdülqasım,* İbrahim+Xəlil>*İbrahimxəlil,* Murad+Əli>*Muradəli,* Hüseyn+Qulu>*Hüseynqulu* və s. antroponimlər. Maraqlıdır ki, bu dil fiquruna istər televiziya, istər radio, istər səhnə, istər qəzet, istərsə də kino dilində qadın adları və başqa xüsusi adlar qrupunda rast gəlinmir.

"Birinci köməkçi: – Yox, bu torpaq hamının deyil, elə kəndlilərindir, kasıblarındır! *Abbasqulunundur, Abbasəlinindir, Adilgərayındır, İbrahimxəlilindir, Əbilqasımındır, Hüseynqulunundur, Muradəlinindir,* daha kimi deyim?

İkinci köməkçi: – Vallah, indikilərdə heç vicdan yoxdur!" ["Yalan"].

b) Komponentlərdən biri ümumi, o biri xüsusi sözdən ibarət olan kök+kök +modeli: ağa+Məhəmməd>*Ağaməhəmməd*, ağa+Dadaş>*Ağadadaş,* ağa+Malik>*Ağamalik*, bala+Dadaş>*Baladadaş*, dost+Məmməd>*Dostməmməd*, Əli+bala>*Əlibala,* imam+Əli>İmaməli, Məmməd+xan>Məmmədxan, Mirzə+Hüseyn>*Mirzəhüseyn,* xan+Əhməd>*Xanəhməd,* Mələk+Nisə>*Mələknisə,* sultan+Nisə>*Sultannisə,* şah+Sənəm>*Şahsənəm* və s. antroponimlər.

"Mirzə Salman: – Lakin Xanım, onsuz da xalq yoxsulluq, pərişanlıq içində... Baxın ətrafımızda olanlara. *Ağaməhəmməd, Ağadadaş, Əlibala, Məmmədxan, Mələknisə, Şahsənəm* necə yaşayırlar? Bu artan vergilər qarışıqlığa səbəb ola bilər. Həm də bu saat savaş olub-olmayacağı dəqiq deyil.

Bayandur xan: – Savaş olsun deyə gözləyərsək, vaxt itirərik Mirzə! ["Mahmud ilə Məryəm"].

Çuxur+Qəbələ>*Çuxur Qəbələ*, Xəlil+abad>*Xəlilabad*, Fətulla+qışlaq>*Fətullaqışlaq,* Firuz+abad>*Firuzabad*, Fərzəli+oba>*Fərxəlioba*, Fətəli+pəyə>*Fətəlipəyə*, Sabir+kənd>*Sabirkənd*, orta+Qərvənd>*Orta Qərvənd* və s. toponimlər.

"Qapıçı: – Özündən muğayat ol ay arvad, yazıqsan!

Yaşlı arvad: – Bir ildir xəbər yoxdur. Fətullaqışlaqdan, Xəlilabaddan, Firuzabaddan gələnlər var, amma nə Fətəlipəyədən, nə də bizim Sabirkənddən soraq gəlmir" ["Ümid"].

Ağrı+çay>*Ağrıçay,* Bərgüçad+çay>*Bərgüşadçay,* Qusar+çay>*Qusarçay,* Tahir+çay>*Tahirçay,* Şəmkir+çay>*Şəmkirçay,* Reyhan+bulaq>*Reyhan* bulaq, Məşədi+bulaq>*Məşədibulaq*, Qasım+nohur> *Qasımnohur* və s. hidronimlər.

"Yarməmməd: – Dünən axşam məni yaxaladılar ki, keçən il filankəsin sahəsi nə veribdir?

Rüstəm: – Sən də göstər.

Salman: – Bizdə su çatışmazlığı var. Başqa rayondan olan dostumuz söyləyir ki, *Ağrıçay, Bərgüşadçay* və *Tahirçayın* suları ilə neçə-neçə təsərrüfatlar suvarılır" ["Böyük dayaq"].

c) Komponentləri ümumi sözlərdən ibarət olan kök-kök modeli: adı+şirin>*Adışirin*, ata+kişi>*Atakişi, baba*+kişi>*Babakişi,* baba+xan>*Babaxan*, böyük+kişi>*Böyükkişi*, daş+dəmir>*Daşdəmir*, el+dost>*Eldost*, gül+ağa>*Gülağa,* gül+bala>*Gülbala,* ordu+xan>*Orduxan*, təzə+gül>*Təzəgül,* ağa+bacı>*Ağabacı,* ay+bəniz>*Aybəniz*, ay+gün>*Aygün,* ay+nur>*Aynur*, ala+göz>Alagöz, qara+tel >*Qaratel*, qız+qayıt>*Qızqayıt,* qız+xanım>*Qızxanım,* dəstə+gül>*Dəstəgül,* yaxşı+xanım>*Yaxşıxanım* və s. antroponimlər.

Adı çəkilən antroponim, toponim və bürc adlarının kinofilmlərdə işlənmə məqamlarına diqqət yetirək:

"Yavər: – Allah haqqı evdən də qorxuram. Anası o qədər deyinir ki, heç evə getmək də istəmirəm.

Birinci köməkçi: – Dur görüm fors eləmə! İstəyirsən növbəmizi dəyişək. Dünənkilər – *Adışirin, Atakişi, Babakişi, Daşdəmir*, *Eldost*, *Təzəgül, Ağabacı*, hətta *Alagözlə Yaxşıxanım* da növbələrini dəyişiblər" ["Yalan"].

Qoşa+bulaq>*Qoşabulaq,* quzu+qıçlaq>*Quzuqışlaq,* qarğa+bazar>*Qarğabazar,* qara+papaq>*Qarapapaq*, qara+göz>*Qaragöz,* qamış+tala>*Qamıştala,* burun+qovan>*Burunqovan*, badam+ağac>*Badamağac,* təzə+kənd>*Təzəkənd*, yeni+kənd>*Yenikənd* və s. toponimlər.

"Teymur ağa: – Elə xəyal edibsiz ki, mən ölüm qorxusundan bu gün Nisə xanımı görməyə gəlməyəcəm. *Qoşabulaqdan, Qızılqışlaqdan, Qarapapaqdan Qasımtaladan, Badamağacdan, Təzəkənddən* gələcəklər, mənə nə olub ki. Bu başı qoymuşam onun uğrunda. Dünyasında qoymaram ki, belə gözəl-göyçək sevgilim o kaftar xana qismət olsun" ["Sabahın elçisi"].

Böyük + ayı > *Böyük Ayı*, kiçik + at > *Kiçik At,* qızıl + balıq > *Qızıl Balıq,* kiçik+şir>*Kiçik Şir,* tək+buynuz>*Təkbuynuz* və s. kosmonimlər – bürc adları.

"Rüstəm: – Hə, bəs onlar, nə dedi?

Salman: – Əşi heç nə. Nə deyəcəklər, cəfəngiyat. Bircə ayırd edə bilmədim ki, Səkinə xala *Böyük ayı, Kişik at, Qızıl balıq, Kişik şir, yoxsa Tək buynuz* bürcündəndir" ["Böyük dayaq"].

2. Kök+kök+kök modeli. *"Bu model [k+k+k] üç kökdən ibarət sözün sintaktik vasitələr əsasında birləşməsi nəticəsində yaranmışdır. Bunların komponentləri ümumi və xüsusi sözlərdən ibarət olmaqla qarışıq tərkibə malikdir"*. [4, s. 171]. Məsələn, ağ+dam+kənd>*Ağdamkənd*, Nəcəf+oba+kənd>*Nəcəfobakənd*, xala+tala+bina>*Xalatalabina*, xırman+qaynar+binə>*Xırmanqaynarbinə*, suxta+qala+qışlaq>*Suxtaqalaqışlaq,* orta+güney+pəyə>*Orta Güneypəyə*, göy+üz+bulaq>*Göyüzbulaq,* kiçik+qara+murad>*Kiçik Qaramurad,* kiçik+düz+yurd> *Kiçik Düzyurd,* dəyə+qara+bulaq>*Dəyə Qarabulaq* və s. toponimlər.

"Qapıçı:– Ay bacı, oğlun nə sənətin sahibi idi?

Yaşlı arvad: – Oğlum? Oğlum hələ uşaq idi. Nə sənət.

Qapıçı: – *Xalatala binədən, Orta Güney pəyədən, Göyüz bulaqdan*, həm də *Kiçik Qaramuraddan* uşaqlar çox cılız idilər.

Yaşlı arvad: – Yox, mənim oğlum boyda adam olmaz" ["Ümid"].

Acı+dərə+çay>*Acıdərəçay,* bağırsaq+dərə+çay>*Bağırsaqdərəçay*, qara+balaca+çay>*Qarabalacaçay,* qoşa+bulaq+çay>*Qoşabulaqçay,* keşiş+kənd+çay>*Keşişkəndçay* (Tərtərçayın qolu), böyük+ala+göl>*Böyük Ala Göl,* qızıl+boğaz+göl>*Qızılboğazgöl* və s. hidronimlər.

"Qadın: – Ay Yavər qardaş, sən Allah Nisə bacını evdə tək qoyma!

Yavər: – Niyə?

Qadın: – Nisə 1-2 saat bundan qabaq sənin üçün su qızdırırdı, qəfil göydə təyyarə göründü. *Acıdərəçay* tərəfdə, hətta *Bağırsaqdərəçay* və *Böyük Alagöl* tərəfdə də görünüb" ["Yalan"].

b) Sintaktik morfoloji qaydada yarananlar. *"Bəzi xüsusi adlar bir neçə sözdən və şəkilçidən əmələ gəlir. Ümumi sözyaratma qaydalarından bəhs olunarkən bu modelə sintaktik-morfoloji qaydada sözyaratma deyilir".* [5, s. 55]. Yuxarıda deyildiyi kimi, burada həm sintaktik, həm də morfoloji vasitələrdən istifadə olunur. Məsələn, şıx+baba+lı>*Şıxbabalı,* şah+nəzərli>*Şahnəzərli*, təpə+cənnət+li>*Təpəcənnətli*, topal+Həsən+li>*Topalhəsənli*, kürd+Mahmud+lu>*Kürd Mahmudlu,* qara+boyun+lar>*Qaraboyunlar*, qapı+çı+məhlə>*Qapıçıməhlə*, qala+alt+ı>*Qalaaltı,* qaya+baş+ı>*Qayabaşı,* qaya+dib+i>*Qayadibi və* sair.

"Bayandur: – Nə vaxt *Təpəcənnətli*, *Topalhəsənli, Kürd Mahmudlu, Qaraboyunlar, Qarabaşı* və başqa kəndlərə getsən əhali şikayət edir.

Mirzə Salman: – Mən xanımızla danışaram, başqası ilə deyil" ["Mahmud ilə Məryəm"].

Dilimizdəki sintaktik morfoloji qaydada yaranan onomastik vahidlər bir neçə model əsasında formalaşmışdır.

1. Kök+kök+şəkilçi modeli. Bu tipli [k+k+ş] mürəkkəb sözlərin, onomastik vahidlərin yaranmasında iki söz kökü və bir şəkilçi iştirak edir. Məsələn, Qazax+bərə+si>*Qazaxbərəsi*, Bayram+koxa+lı>*Bayramkoxalı,* qoyun+binə+si>*Qoyunbinəsi*, qızl+hacı+lı>*Qızılhacılı,* yuxarı+könül+lü>*Yuxarı Könüllü* və s. toponimlər.

"Akşad: – Səni bu xəlvətə çəkməkdə məqsədim var.

Qərib: – Buyur, şah!

Akşad: – *Bayramkoxalı, Qoyunbinəsi, Yuxarı Könüllü* və *Qızılhacılıdan* gələn hədiyyələri sənə təqdim edirəm.

Qərib: – Yenə bunlar nə bəxşişdir, şah?" ["Qərib cinlər diyarında"].

Ağa+dost+u>*Ağadostu*, qız+yet+ər>*Qızyetər*, gül+nar+ə>*Gülnarə*, tanrı+ver+di>*Tanrıverdi*, ocaq+ver+di>Ocaqverdi, pir+ver+di>Pirverdi, allah+ver+di>Allahverdi, allah+ver+ən>Allahverən, imam+ver+di>İmamverdi, el+sev+ər>Elsevər, qar+yağ+dı>Qaryağdı və s. antroponimlər.

"Şeyx Əhməd: – Hacı Həsən, mal-qaranı satıb pullarını Şeyx Nəsrullaha vermək lazımdır. *Ağadostu, Qızyetər, Gülnarə, Tanrıverdi, Ocaqverdi, Pirverdi, Allahverdi, Elsevər, Qaryağdı*, daha kimləri deyim, pulları yığıb verdi Şeyxə. O, hal-hazırda Allah evi tikdirir. Bu fəqirlərin də savab işi xudavəndi aləmə xoş gələr" ["Ölülər"].

Zəli+göl+ü>*Zəli gölü,* at+göl+ü>*At gölü,* mirzə+göl+ü>*Mirzə gölü,* xan+bulağ+ı>*Xanbulağı,* Babək+bulağ+ı>*Babək bulağı,* ceyran+bulağ+ı>*Ceyran bulağı*, dəhnə+çay+ı>Dəhnə çayı, dəyirman+çay+ı>Dəyirman çayı və s. hidronimlər.

"Səlim bəy: – Yaxşı, gəda oğlu, gəda. Səni gərək əvvəlcə bu qarın içində ölüncə sürüdərəm, sonra meyidini atam qubernatorun ayaqları altına.

Kəndxuda İbiş: – *Dəyirman çayında* yaxşı buz var, birinci o buzun içinə, sonra da *Zəli gölünə, At gölünə*, sonra da *Mirzə gölünə* tullayasan" ["Qaçaq Nəbi"].

2. Kök+şəkilçi +kök modeli. Burada [k+ş+k] şəkilçi iki söz kökünün ortasında işlənir. Bu da dilimizdə xarakterik qrammatik modeldir. Məsələn, qoz+lu+bulaq>*Qozlubulaq*, qorx+maz+oba>*Qorxmazoba*, ikinci+qala>*İkinci Qala,* tikan+lı+oba>*Tikanlıoba,* uzun+lu+kənd>*Uzunlukənd*,

xan+lıq+oba>*Xanlıqoba* və s. toponimlər; buz+lu+çay>*Buzluçay,* bulan+lıq+su>*Bulanlıqsu,* qoz+lu+çay>*Qozlu çay,* şam+lıq+çay>*Şamlıq çay,* iy+li+bulaq>*İyli bulaq,* ax+ar+bulaq>*Axar bulaq*, duz+lu+bulaq>*Duzlu bulaq*, soyüd+lü+bulaq>*Söyüdlü bulaq*, qamış+lı+bulaq>*Qamışlı bulaq* və s. hidronimlər.

Adı çəkilən toponim və hidronimlər işlənən kinofilmlərə diqqət yetirək.

"Gənc: – Yoluna bax da! Kitab oxumağa yer tapmırsan.? Professor olub mənimçün!

Xalid: – Hə, sabah coğrafiya dərsində *Qozlubulaq, Qorxmazoba*, İkinci qala, *Tikanlı oba, Buzlu çay*, bir də ki, *Bulqanlıqsudan* danışacaqlar" ["Dərs"].

"Ələmdar: – Bu dağlar qoşa dağlar,

Verib baş-başa dağlar...

Qasım: – *Axar bulaqdan, İyli bulaqda, Söyüdlü bulaqdan, Qasımlı bulaqdan* niyə danışmırsan?" ["Kişi sözü"].

3. Kök+kök+şəkilçi+şəkilçi modeli. Bu tipli [k+k+ş+ş] onomastik vahidlər iki söz kökü və iki şəkilçinin vasitəsilə əmələ gəlir. Məsələn, qara+qurban+lı+lar>*Qaraqurbanlılar,* Aslan+bəy+li+lər>*Aslanbəylilər*, Abbas+bəy+li+lər >*Abbasbəylilər* və s. patronimlər; soğan+ver+di+lər>*Soğanverdilər* (Bərdə). Bu model Azərbaycan dili onomastik sistemində çox az işlənir.

"Bahar: – Mənim adımı meyxanaya salıb dillər əzbəri etməyi isə sənə qadağan edirəm.

Əlabbas: – Burda meyxana deməklə qurtarmışam. Yığışıb *Qaraqurnamlılara, Aslanbəylilərə*, bir də *Abbasbəylilərə* gedəcəyik" ["Yuxu"].

4. Kök+kök+kök+şəkilçi modeli. Bu növ [k+k+k+ş] mürəkkəb onomastik vahidin tərkibində üç söz kökü və bir şəkilçi olur. Məsələn, şıx+alı+ağa+lı>*Şıxalıağalı,* çöl+ağa+məmməd+li>*Çölağaməmmədli*, köhnə+Xudat+qazma+lar>*Köhnə Xudat qazmalar*, Kür+qara+qaş+lı>*Kür Qaraqaşlı* və s. toponimlər.

"Qönçə: – Ay qadam onun ağzına... Elə siz də...

Əzizə: – Ha, ha, ha... A, sən lap gerçəklədin deyəsən, sən allah nə deyərdi sənə?

Qönçə: – Mənim Şıxalıağalıda və Çöl Ağaməmmədlidə qalanlarımı söyərdi" ["Qəzəlxan"].

Ağ+dərə+çay+ı>*Ağdərə çayı,* Ağ+dəyirman+çay+ı>*Ağdəyirmançayı,* baş+şabalıd+çay+ı>*Başşabalıd çayı,* qara+ağac+çay+ı>*Qarağac çayı,* daş+altı+çay+ı>*Daşaltıçayı*, turş+su+bulağ+ı>*Turşsu bulağı*, qara+qız+bulağ+ı>*Qaraqız bulağı* (Şəki) və s. hidronimlər. Bu model hidronimlərdə daha işləkdir.

"Kəndxuda İbiş: – Yuxarıda atəş tamam kəsildi.

Ofitser: – Cənab Slavoçinski! *Biz Ağdərə çayı, Aydəyirman çayı, Başşabalıd çayı, Qarağac çayı* və *Daşalyı çayında* keşik çəkirdik, birdən qəfil basqın oldu. Bu məktubu yoldan keçən bir kəndli verdi. Xahiş etdi ki, sizə çatdırım" ["Qaçaq Nəbi"].

5. Kök+şəkilçi+kök+şəkilçi modeli. Bu modelin [k+ş+k+ş] tərkibində iki söz kökü və ioki şəkiçi özünü göstərir. Məsələn, cin+li+Bolus+lu>*Cinli Boluslu*, cin+li+Zeynal+lı>*Cinli Zeynallı,* dilə+li+Müskən+li>*Diləli Müskənli*, Qubad+lı+şıx+
lı>*Qubadlı Şıxlı,* bir+inci+aşşı+lı>*Birinci Aşıqlı*, bir+inci+şıx+lı>*Birinci Şıxlı* və s. toponimlər.

"Akşad: – Yaxşı qulaq as. Sən bir bərkə düşdünmü, əlini həmən üzüyün qaşına sürtüb bu sözləri söylə:

Ay şahım Akşad,

Et məni azad.

Qərib: – Sən mənim qeydimə nə çox qalırsan, şahım! Sizin şərəfinizə *Cinli Boluslu, Cinli Zeynallı, Diləlimuskənli, Qubadlı Şıxlı* və onlarla başqa mahalların camaatı sizin şərəfinizə dualar edirlər" ["Qərib cinlər diyarında"].

Qayıt+maz+bulağ+ı>*Qayıtmaz bulağı,* Əhməd+in+bulağ+ı>*Əhmədin bulağı,* türk+lər+bulağ+ı>*Türklər bulağı,* əzgil+li+bulağ+ı>*Əzgilli bulağı,* qız+lar+bulağ+ı>*Qızlar bulağı* (Laçın) və s. hidronimlər.

"Ələmdar: – Nəbi nakişidi.

Qasım: – (üzünü qıza tutdu) Xəstən-zadın yoxdu ki? Kəndin *Qayıtmaz bulağı, Əhmədli bulağı, Türklər bulağı* və *Əzgilli bulağında* olan heyvanları dabaq xəstəliyi tutub" ["Kişi sözü"].

Onomastik leksikada sözyaratma prosesinin təhlili göstərir ki, kino dilində derivasiya hadisəsi ümumi sözlərə nisbətən zəif baş verir. Analitik yolla sözyaratma prosesində iki və daha artıq söz müxtəlif münasibətlər

əsasında birləşərək bir mürəkkəb leksik vahid əmələ gətirir. Nəticə olaraq bu qənaətə gəlmək olur ki, onomastik dil hadisəsi bütün xüsusi adlar qrupunda özünü göstərir.

ƏDƏBİYYAT

1. Qurbanov A.M. Azərbaycan onomastikasının zəruri məsələləri. Azərbaycan müəllimi. 16 mart. 1988.
2. Qurbanov A.M. Tədqiqatın yeni istiqamətləri. Azərbaycan onomastikası problemləri. № 6. Bakı. 1996.
3. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları. Bakı, Memar Nəşriyyatı. səh. 79.
4. Bağırov Q. Bakı, BDU nəşriyyatı. 1987. səh. 171.
5. Qurbanov A.M. Azərbaycan onomalogiyası məsələləri. Bakı. Maarif. 1986. səh. 55

Bədii filmlər

1. "Qəzəlxan", 1991.
2. "Kişi sözü", 1985.
3. "Böyük dayaq", 1962.
4. "Ümid", 1995.
5. "Mahmud ilə Məryəm", 2011.
6. "Məhkumların cənnəti", 2012.
7. Sabahın elçisi", 2010.
8. "Yalan", 2006.
9. "Ölülər", 1980.
10. "Qaçaq Nəbi", 1980.
11. "Qərib cinlər diyarında", 1977.
12. "Dərs", 2015.
13. "Yuxu", 2001.

Физули МУСТАФАЕВ

СИНТАКСИЧЕСКИ ОБРАЗОВАННЫЕ ОНОМАСТИЧЕСКИЕ ЕДИНИЦЫ ЯЗЫКА КИНО

РЕЗЮМЕ

Статья посвящена ономастическим единицам, образованным синтаксическим способом в киноязыке. Отмечено, что синтаксическим методом называют аналитическое словообразование. То есть здесь два или более слова объединяются по разным отношениям, образуя сложную лексическую единицу. В ходе исследования выясняется, что феномен ономастического языка проявляется во всех группах специальных имен: антропонимах, топонимах, гидронимах, космонимах, ктематонимах.

В статье указывается, что ономастические единицы, образованные синтаксическим способом, делятся на две группы: образованные чисто синтаксическим порядком и образованные синтаксическим морфологическим порядком.

Связанные с чисто синтаксически образованными: модель корень+корень, модель корень+корень+корень, модель корень+корень+корень; образованные в синтаксическом морфологическом порядке: корень + корень + имиджер, корень + имиджер + корень, корень + корень + имиджер + имиджер; корень+корень+корень+фотограф, корень+фотограф+корень+фотограф.

Анализ процесса словообразования в ономастической лексике показывает, что явление деривации встречается здесь реже, чем в просторечии.

В статье использованы соответствующие научные и художественные монографии. Примеры из различных художественных фильмов демонстрируют художественную, научную и эстетическую силу исследования.

Ключевые слова: *ономастика, орфоэпия, орфография, лексика, синтаксис, морфология, семантика.*

Fizuli MUSTAFAYEV

SYNTACTICALLY FORMED ONOMASTIC UNITS OF THE CINEMA LANGUAGE

SUMMARY

The article is devoted to onomastic units formed in a syntactic way in film language.

It is noted that the syntactic method is called analytical word formation. That is, here two or more words are combined in different ways, forming a complex lexical unit.

In the course of the study, it turns out that the phenomenon of onomastic language is manifested in all groups of special names: anthroponyms, toponyms, hydronyms, cosmonyms, ktematonyms.

The article points out that onomastic units formed in a syntactic way are divided into two groups: those formed by a purely syntactic order and those formed by a syntactic morphological order.

Associated with purely syntactically formed: root + root model, root + root + root model, root + root + root model; formed in the syntactic morphological order: root + root + imager, root + imager + root, root + root + imager + imager; root+root+root+photographer, root+photographer+root+photographer.

An analysis of the process of word formation in onomastic vocabulary shows that the phenomenon of derivation is less common here than in vernacular.

The article uses relevant scientific and artistic works, monographs. Examples from various feature films demonstrate the artistic, scientific and aesthetic power of research.

Key words: *onomastics, orthoepy, spelling, vocabulary, syntax, morphology, semantics.*

Natavan HUSEYNOVA*

ON THE PROCESS OF LATINIZATION OF THE ALPHABET IN AZERBAIJAN

ABSTRACT

The Azerbaijani language has historically transitioned through Arabic, Latin, and Cyrillic scripts, reflecting socio-political changes and cultural development. The introduction of the Latin- in 1929, subsequent modifications, and the adoption of the Cyrillic alphabet during the Soviet period significantly influenced the language and its literary development. Following the restoration of Azerbaijani independence in 1991, the Latin-script alphabet was reinstated and aligned more closely with Turkish orthographic norms. The decrees of President Heydar Aliyev in 2001 ensured the nationwide implementation of the Latin alphabet and reinforced the status of Azerbaijani as the state language. Under President Ilham Aliyev, language policy has continued, including the mass republication of classical and contemporary works in Latin script. The Latin-script reform of the Azerbaijani alphabet represents a historically significant milestone in preserving national identity, standardizing the language, and fostering the development of literature, science, and culture.

***Keywords*:** Azerbaijani language, alphabet reform, Latin script, national identity, state language, literary development, language policy.

Today, the Azerbaijani language is one of those languages capable of expressing the full depth of thought in the most vivid manner, down to the finest nuances. The history of the formation of the Azerbaijani language is as ancient as the history of the people who created numerous cultural values. Over many centuries, it underwent a highly complex path long before it took shape on the rich foundation of a nationwide spoken language of Turkic origin and before its oral literary form was transformed and developed. Throughout all historical periods experienced by any people, language has accompanied them, shared their fate, and confronted their challenges alongside them. In the most difficult days for the nation, language contributed to the preservation of national self-consciousness and strengthened faith in the future.

* Doctor of Philosophy in Philology, Associate Professor Azerbaijan National Academy of Sciences
Institute of Linguistics named after Nasimi

Initially, Azerbaijanis, as part of Tsarist Russia, continued to use the traditional Arabic script that had come to Azerbaijan together with Islam. However, after Soviet power was established in Azerbaijan in April 1920, the Azerbaijani language was subjected to the most destructive interference: an insurmountable wedge was driven into the continuous process of historical thought by first transferring the language to the Latin script and later to the Cyrillic script. This inevitably led to a rupture of ties with the historical past and with many spiritual traditions of the Azerbaijani people, among which the alphabet itself constituted an integral component.

Issues of language and script, which play a significant role in the destiny of the nation, have been at the center of attention of Azerbaijani intellectuals in all historical periods. As early as the second half of the nineteenth century, the alphabet reform and the question of a new script proposed by our prominent thinker and writer Mirza Fatali Akhundzadeh were taken up and further developed in the early twentieth century by progressive intellectuals such as Firudin bey Kocharli, Mohammad aga Shahtakhtli, Jalil Mammadguluzadeh, Omar Faiq Nemanzadeh, Yusif Vazir Chamanzaminli, Farhad Agazadeh, Sultan Majid Ganizadeh, Abdulla bey Afandizadeh Azagbayli, Ahmad bey Aghayev, and others, and important steps were taken along this path.

Over the course of two decades of Soviet rule, the alphabet of the Azerbaijani language was changed three times. World history knows of no other comparable example of such experiments conducted on the national language and culture of any people. The idea of transferring the Azerbaijani language to the Latin script had circulated in Azerbaijan long before the establishment of Soviet power. The great Azerbaijani philosopher and enlightener Mirza Fatali Akhundov (Akhundzadeh) advocated replacing the Arabic alphabet with the Latin one, believing that such a transition would facilitate the inclusion of the broad masses of the people in universal literacy and education. M.F.Akhundov did not merely propose reforming the Arabic script; rather, he advanced the idea of replacing it with an entirely different alphabet written from left to right. Considering it necessary to adopt the alphabet of European peoples primarily Latin letters he prepared a new project consisting of 42 characters (32 consonants and 10 vowels). However, despite the great effort he devoted to the cause of a new alphabet, he encountered serious obstacles.

Important measures related to alphabet reform at the state level were undertaken for the first time during the period of the Azerbaijan Democratic Republic. Following the decision adopted by the Council of Ministers of the Azerbaijan Democratic Republic in March 1919 to establish a commission for the purpose of preparing a draft of a new Azerbaijani alphabet, three projects were submitted to and discussed by the commission created by the government. Among the projects prepared and presented by Abdulla bey Efendizadeh Azagbayli, Mohammad aga Shahtakhtli, and the joint project of Abdulla Taghizadeh and Mir Abulaziz Seyidov, the project proposed by A. E. Azagbayli was approved. Based on this project, Abdulla bey authored a book entitled *The Final Turkic Alphabet*, which was published in Baku in 1919 at the "Hokumat" printing house [1]. However, as a result of the occupation of the Azerbaijan Democratic Republic, the process of implementing the project was left incomplete.

It should be noted that during the period from 1939 to 1991, two variants of the Cyrillic script were in use: the first (adopted by the personal directive of I. V. Stalin) from 1939 to 1958, and the second from 1958 (with the beginning of the so-called process of de-Stalinization) until 1991 [8, p.74]. Additional letters were introduced into this alphabet, which ensured its greater correspondence to the Azerbaijani language.

Finally, at the end of the twentieth century (in 1991), following the restoration of state independence by the Azerbaijani people, the alphabet based on the Latin script was reinstated [4, p. 125]. Although this version differed significantly from the 1929-1939 variant, it was at the same time even closer to the orthographic norms of the Turkish language. The transition from Cyrillic to Latin script took another decade, during which printing and publishing activities in the country were carried out in two alphabets (Cyrillic and Latin), creating numerous difficulties in practical usage. From 1920 onward, discussions began on improving the new alphabet. A particularly important role in the struggle for the adoption of a new Latin-based alphabet was played by the First All-Union Turkological Congress, held in Baku from February 26 to March 5, 1926.

The first Turkological Congress was a great stimulus in the renaissance of the national selfconsciousness of the turkic nations. The historical necessity of the first Turkological Congress where the author is estimating it a sociopolitical and cultural events in the life of the Turkic-speaking peoples, as well as the Azerbaijanian people. The Congress on an indirect way promoted the integration of the turkic peoples for a short time into the European culture and the science. In the congress were as well being discussed the problem of the alphabet, spelling, terminology and the others. The problem of the spelling was concluded with the accepting of the phonetical principles. In the field of terminology were chosen three main directions: 1. Using of inner basis and the language of the turkic ethnos. 2. Using of the terms of Arabian and Persian origin 3. Using of the sources of the Russian-European origin.

To the political "games" began with the reform of the alphabet of turkic speaking peoples of the Russian Federation was put an end with the first Turkological Congress of course. A number of never found their solution in the problems put forward and Turkological Congress could be put into practice during the period of in independence.

After lengthy discussions, on July 22, 1928, the Central Executive Committee of Azerbaijan and the Government of the republic adopted a decision to the use of a new alphabet. As a result, from January 1, 1929, the Arabic script was replaced by the Latin alphabet [4, p. 79].

The document entitled *"On the New Turkic Alphabet"* states:

"1. To introduce the new Turkic alphabet from the 1925/26 academic year in all first-level schools, so that, with the annual transition to subsequent grades, by the end of an eight-year period that is, in the 1932/33 academic year instruction in all first- and second-level schools would be conducted using the new Turkic alphabet. In those classes where the transition to the new alphabet has not taken place, instruction shall be conducted in the old alphabet during the eight-year period. Taking into account the forthcoming transition of the entire Azerbaijani Turkic press (publishing activity) to the new alphabet and the major tasks facing the new alphabet, it is necessary to organize a type foundry in the center of Azerbaijan, the city of Baku." As a result, from January 1, 1929, the Arabic script was replaced by the so-called *yanalif*, a Latin-based alphabet (which, incidentally, differed substantially from the modern version) [6, p. 84].

However, less than ten years later, this alphabet too became an object of discussion. Repeated attempts were made to introduce the Cyrillic script. Over the course of the subsequent decade, the Azerbaijani alphabet underwent three separate modifications.

The congress resolution on the new Turkic alphabet stated:
"1. Acknowledging the advantages and technical superiority of the new Turkic (Latin-based) alphabet over the Arabic and reformed Arabic scripts, as well as the immense cultural-historical and progressive significance of the new alphabet in comparison with the Arabic one, the congress considers the introduction of the new alphabet and the method of its implementation in individual Turkic-Tatar republics and regions to be the responsibility of each republic and each people.
2. In this connection, the congress notes the fact of the great positive significance inherent in Azerbaijan's introduction of the new alphabet and its broad movement in favor of adopting a Latin-based script."

One of the most important events in the history of the language at the present stage of development of the Azerbaijani literary language is the acquisition by the Azerbaijani literary language of the status of a state language. In the new Constitution of independent Azerbaijan, adopted by a nationwide referendum in 1995, the Azerbaijani language occupies its rightful place as the state language [7, p. 21].

By the end of the twentieth century, when Azerbaijan once again regained state independence, the issue of alphabet reform inevitably became relevant once more. It was precisely during this period that the alphabet reform carried out in our country benefited greatly from the outstanding contributions of the prominent linguist and academician Afad Gurbanov. The task of preparing a project for the transition to a new Azerbaijani alphabet was entrusted to linguists, and the Alphabet Commission that was established began its work at the Institute of Manuscripts of the Azerbaijan National Academy of Sciences under the chairmanship of Afad Gurbanov.

During discussions that lasted six to seven months, a number of considerations and proposals were put forward. Noting that the proposal to return to a Latin-based alphabet was regarded as the most expedient

and therefore supported by the overwhelming majority, the linguist writes that three main viewpoints were expressed regarding this proposal: 1. “To adopt the modern Turkic alphabet based on Latin script as it is”; 2. to accept and use, without any changes, the alphabet that had been in use until the 1920s; 3. to design a new, independent alphabet based on Latin script [3, p. 157]. Ultimately, the third viewpoint was taken as the basis, and a modern alphabet project was prepared and submitted for broad public discussion.

However, this process was far from simple. Therefore, the transition was carried out gradually, and for a certain period publishing and printing activities in the republic continued in parallel using two alphabets. By now, the transition has been almost completely accomplished.

This process was facilitated by the Decree of the President of the Republic of Azerbaijan and national leader of the country, Heydar Aliyev, dated June 18, 2001, *“On Improving the Use of the State Language,”* which elaborated on the role and functions of the Azerbaijani language as an attribute of national independence and statehood. In accordance with this decree, a nationwide transition of the Azerbaijani alphabet to the Latin script was implemented from August 1, 2001 [4, p. 12].

Sixty-three years later, the Azerbaijani national alphabet based on the Latin script once again regained full legal status. On August 9, 2001, a new decree was issued by the national leader Heydar Aliyev, *“On the Establishment of the Day of the Azerbaijani Alphabet and the Azerbaijani Language,”* according to which August 1 is celebrated annually in Azerbaijan as the Day of the Azerbaijani Alphabet and the Azerbaijani Language. In accordance with the Decree of the President of the Republic of Azerbaijan, H. Aliyev, *“On the Establishment of the Day of the Azerbaijani Alphabet and the Azerbaijani Language,”*

In 1991, the state alphabet was restored on a Latin-script basis, differing from the original version of 1929-1939, yet closer to the orthographic norms of the Turkish language [3, p. 50].

The Law *“On the State Language in the Republic of Azerbaijan”* states: Article 1. Legal Status of the State Language

1.1. In accordance with Part 1 of Article 21 of the Constitution of the Republic of Azerbaijan, the state language of the Republic of Azerbaijan is the Azerbaijani language. Every citizen of the Republic of Azerbaijan is obliged to know the state language.

Article 14. Alphabet of the State Language

The alphabet of the state language of the Republic of Azerbaijan is the Azerbaijani alphabet based on the Latin script [8].

The language policy of the great national leader has been successfully continued and kept at the center of close attention by his worthy successor, the President of the Republic of Azerbaijan, Ilham Aliyev. As head of state, Ilham Aliyev was also among the first to sign a decree on the implementation of the transition to the Latin script for the publication of the most renowned works of Azerbaijani and world literary classics, ensuring their mass circulation in the Azerbaijani language. It is particularly important to emphasize the significance of two major documents signed by President Ilham Aliyev in connection with the direct improvement and further development of the Azerbaijani language under modern conditions. These are the Decrees on the adoption of the “State Program for the Use of the Azerbaijani Language in Accordance with the Requirements of the Globalization Era and the Development of Linguistics in the Country” dated May 23, 2012, and “On Strengthening the Material and Technical Base of the Nasimi Institute of Linguistics of the Azerbaijan National Academy of Sciences” dated May 29, 2012.

In the new Constitution of independent Azerbaijan, adopted by a nationwide referendum in 1995, the Azerbaijani language occupies its rightful place as the state language (Article 2, *“State Language”*): the state language of the Republic of Azerbaijan is the Azerbaijani language [7, p. 21]. The restoration of the Azerbaijani alphabet in the Latin script is among the reforms implemented in independent Azerbaijan across various spheres of life and carries great historical significance. The decrees of the President of the Republic of Azerbaijan, Heydar Aliyev *“On Improving the Use of the State Azerbaijani Language”* of June 18, 2001, and *“On the Establishment of the Day of the Azerbaijani Alphabet and the Azerbaijani Language”* of August 9, 2001 were important events in the sociopolitical life of the country and fully ensured the transition to the Azerbaijani alphabet in the Latin script. Today, the Azerbaijani alphabet in Latin script has firmly established its place in all spheres of the Republic of Azerbaijan. At the same time, one of the most

pressing issues remains the mass republication, in Latin script, of valuable works of Azerbaijani literature, culture, and science that were once printed in Cyrillic.

Every state is a unique product of social, societal, and political evolution. Each possesses its own distinctive historical and cultural traditions. What remains unique to every state are its political leader's effective administrators capable of making balanced and historically justified political decisions. For Azerbaijan, such a leader was Heydar Aliyev – a man who was always proud of being Azerbaijani.

LİTERATURE

1. Azaqbəyli A. "Son türk əlifbası" (transfoneliterasiya, tərtib, ön söz və qeydlərin müəllifi: Ş.A.Hümmətli). Bakı, 2018.
2. Hümmətli Ş.A. Afad Qurbanov yaradıcılığında əlifba məsələləri. "Afad Qurbanov-90" Respublika elmi konfrans. Bakı, 2019.
3. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı, 2010.
4. Азербайджанская Демократическая Республика (1918-1920) Законодательные акты (Сборник документов). Баку, 1998.
5. Гейдар Алиев. Закон Азербайджанской республики "О государственном языке в Азербайджанской Республике". Баку, 18 июня 2001 года.
6. История азербайджанского литературного языка. Баку, 1978.
7. Конституция независимого Азербайджана, принятой на всенародном референдуме в 1995 году.
8. Резолюции и постановления съездов Советов Азербайджанской ССР (1921-1937). Баку, 1961.

AZƏRBAYCANDA ƏLİFBANIN LATINLAŞDIRILMA PROSESİ HAQQINDA

XÜLASƏ

Azərbaycan dili tarixi boyunca ərəb, latın və kiril əlifbalarından keçmiş, sosial-siyasi dəyişiklikləri və mədəni inkişafı əks etdirən bir vasitə olmuşdur. 1929-cu ildə tətbiq olunan latın, sonrakı dəyişikliklər və Sovet dövründə kiril əlifbasının tətbiqi dilin və ədəbi inkişafın formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı əlifba yenidən tətbiq edilmiş və türk orfoqrafiyasına yaxınlaşdırılmışdır. 2001-ci ildə Heydər Əliyevin fərmanları ilə latın əlifbasının ölkə üzrə tətbiqi təmin edilmiş və Azərbaycan dili dövlət dili kimi təsdiqlənmişdir. İlham Əliyev dövründə dil siyasəti davam etdirilmiş, klassik və müasir ədəbiyyatın latın qrafikasında kütləvi nəşri həyata keçirilmişdir. Latın qrafikalı əlifba islahatı milli kimliyin qorunması, dilin standartlaşdırılması və ədəbiyyat, elm və mədəniyyətin inkişafı baxımından tarixi əhəmiyyət kəsb edir.

Açar sözlər: *Azərbaycan dili, əlifba islahatı, latın qrafikası, milli kimlik, dövlət dili, ədəbi inkişaf, dil siyasəti*

О ПРОЦЕССЕ ЛАТИНИЗАЦИИ АЛФАВИТА В АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

Азербайджанский язык на протяжении своей истории прошел через арабский, латинский и кириллический алфавиты, отражая социально-политические изменения и культурное развитие. Введение латинского алфавита в 1929 году, последующие модификации и использование кириллицы в советский период оказали значительное влияние на язык и литературное развитие. После восстановления независимости Азербайджана в 1991 году латинский алфавит был вновь введен и приведен в соответствие с орфографическими нормами турецкого языка. Указы президента Гейдара Алиева в 2001 году обеспечили повсеместное применение латинского алфавита и закрепили за азербайджанским языком статус государственного. При руководстве Ильхама Алиева продолжена языковая политика, включая массовое переиздание классических и современных произведений на латинице. Реформа алфавита на латинской графике имеет историческое значение для сохранения национальной идентичности, стандартизации языка и развития литературы, науки и культуры.

Ключевые слова: *Азербайджанский язык, реформа алфавита, латинская графика, национальная идентичность, государственный язык, литературное развитие, языковая политика.*

Mayıl ƏSGƏROV*
Sevinc İSMAYILOVA*

TÜRKDİLLİ RESPUBLİKALARDA DİLİN PSİXOLOJİ PROBLEMLƏRİNİN TƏDQİQİ

XÜLASƏ

Türkdilli Respublikalar arasında dilin psixoloji problemlərinə maraq ilk dəfə 1960-cı illərdə Türkiyədə yaranmışdır. 40 illik fasilədən sonra türk alimləri bu sahəyə yenidən maraq göstərmişlər. Onların tədqiqatlarının əksəriyyəti Amerika və Avropa nəzəri əsaslarına aiddir.

Qazaxıstan bu istiqamətə maraq göstərən ikinci türkdilli ölkədir. Burada, son vaxtlara qədər rus psixolinqvistikası elmi nəzəri baza rolunu oynayırdı. Son illərdə koqnitiv dilçilik istiqamətində yazılmış tədqiqatların sayı da sürətlə artmaqdadır.

Özbəkistanda dilin psixoloji problemləri ilə bağlı ilkin tədqiqatlar da rus psixolinqvistikasına əsaslanır. Sonrakı tədqiqatların, xüsusən də müasir tədqiqatların elmi əsası, əlbəttə ki, koqnitiv dilçilikdir.

Qırğızıstanda psixolinqvistik tədqiqatlar digər türkdilli respublikalara nisbətən daha gec başlamışdır. Buna görə də, həm rus, həm də Amerika və Avropa psixolinqvistik nəzəriyyələrinə istinad edən tədqiqatlara burada paralel olaraq rast gəlinir.

Azərbaycanda həm klassik psixolinqvistik nəzəriyyələrə, həm də müasir koqnitiv dilçiliyə əsaslanan çoxsaylı tədqiqatlar mövcuddur.

Eyni vəziyyət Rusiyada yaşayan türk xalqları arasında da müşahidə olunur.

Açar sözlər: *psixolinqvistika, koqnitiv dilçilik, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Azərbaycan*

Məlum olduğu kimi, ilk psixolinqvistik məktəb olan “Biheviori" [davranış] stimul-reaksiya [S-R] sxeminə əsaslanaraq yaradılmışdır [7, s.36]. Daha sonra stimul-gözləmə-cavab [SPR] çərçivəsi əsasında bu istiqamətin "Neobiheviori" [yeni davranış] adlı yeni istiqaməti yarandı [7, s.37]. Bu nəzəriyyələr 1960-cı illərdə Avropaya, Yaxın və Uzaq Şərqə yayıldı.

1960-cı illərin sonlarında Rusiyada bu nəzəriyyələrin tənqidi şərhinə əsaslanan "Nitq Fəaliyyəti Nəzəriyyəsi" adlı yeni bir nəzəriyyə işlənib hazırlandı [6, s.72]. Bu nəzəriyyə psixoloji fəaliyyət nəzəriyyəsinə əsaslanırdı [bax: 5].

1970-ci və 1980-ci illərdə connectionist [7, s.40] və koqnitiv psixolinqvistika [7, s.42] istiqamətləri inkişaf etdi. 2000-ci illərdə koqnitiv psixolinqvistika koqnitiv dilçilik adı aldı və sürətlə yayılmağa başladı. Hal-hazırda erkən psixolinqvistika ilə koqnitiv dilçilik arasındakı fərq o qədər böyüyüb ki, bu gün koqnitiv dilçiliyi psixolinqvistika ilə əlaqəsi olmayan müstəqil bir dilçilik sahəsi və ya hətta müstəqil bir elm sahəsi hesab edənlər də var.

Psixolinqvistika və ya koqnitiv dilçiliyə münasibət Türkdilli respublikalarında çox müxtəlifdir. Bu sahə müxtəlif dövrlərdə az və ya çox dərəcədə türkdilli respublikanın dilçiliyinə nüfuz etmiş və olduqca fərqli populyarlıq səviyyələrinə çatmışdır.

Psixolinqvistika sahəsi ilk dəfə 1964-cü ildə Türkiyə Respublikasından olan alim və mütəxəssislərin diqqətini özünə cəlb etmişdir [bax: 34]. Bundan sonra Türkiyədə akademik psixolinqvistika sahəsində təxminən 40 illik fasilə və ya boşluq yaranmışdır. 2010-15ci illərdə Türkiyədə psixolinqvistika sahəsi yenidən dirçəlməyə başlamışdır. Bu dövrdə yazılan əsərlərin əksəriyyəti psixolinqvistika və koqnitiv dilçiliyin ilkin təsvirini təqdim edir [bax: 2 və ya 10]. 2018-2020-ci illərdən sonra aparılan tədqiqatlar

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Sosiolinqvistika və Psixolinqvistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor. Email: mayilasgarov@gmail.com
* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Sosiolinqvistika və Psixolinqvistika şöbəsi, böyük elmi işçisi. Email: sevincismayilova77@gmail.com

konkret məsələlərin və problemlərin həllinə yönəlmişdir [bax: 1; 3; 9; 11; 12]. Son illərdə Türkiyədə koqnitiv dilçiliyə maraq sürətlə artır [bax: 29].

Qazaxıstan Respublikasında psixolinqvistika 1990-cı illərin sonlarında populyarlıq qazanmağa başladı. Qazaxıstanda bu sahədə ilk doktorluq dissertasiyası 1999-cu ildə müdafiə edilmişdir [bax: 8].

Qazaxıstanda psixolinqvistik tədqiqatların əsas mərkəzi Əhməd Baytursunov adına Dilçilik İnstitutudur. Dilçilik İnstitutu vaxtaşırı elmi simpoziumlar və dəyirmi masa müzakirələrinə ev sahibliyi edir. Bu müzakirələrdə əsas məruzəçilər, bir qayda olaraq, Rusiyadan dəvət olunmuş mütəxəssislər olur.

Qazaxıstandakı digər universitetlər və institutlar da psixolinqvistika sahəsində tədqiqatlar aparır və dəyərli elmi əsərlər hazırlayırlar [bax: 24]. Son illərdə assosiativ leksikoqrafiya və assosiativ qrammatikanın əsasını təşkil edən psixolinqvistik yanaşma Qazaxıstanda xeyli əhəmiyyət populyarlıq qazanmışdır. Bəzi tədqiqatçılar onu müasir qazax psixolinqvistikası kimi təqdim edir [bax: 26].

2020-ci illərdən bəri koqnitiv dilçiliyə əsaslanan elmi tədqiqatların sayı Qazaxıstanda sürətlə artmışdır. Son illərdə respublikada həm psixolinqvistikaya, həm də müasir koqnitiv dilçiliyə əsaslanan tədqiqatlar aparan çoxsaylı alim və mütəxəssis yetişmişdir [bax: 34; 35]. Özbəkistan Respublikasında psixolinqvistika və koqnitiv dilçiliyin ən populyar sahəsi və bu sahələrdə aparılan ən böyük tədqiqatların mərkəzi Özbəkistan Dövlət Dünya Dilləri Universitetidir. Bu universitet koqnitiv dilçiliyin və psixolinqvistikanın mənşəyini və inkişafını öyrənir [bax: 15; 16; 19] Özbəkistandakı bəzi universitet və institutlar klassik psixolinqvistikaya əsaslanan tədqiqatlar aparır. Bu tədqiqatlarin çoxu biheviorizm və neobehaviorizmə deyil, A.A Leontyevin "Nitq Fəaliyyəti Nəzəriyyəsi"nə əsaslanır [bax: 13; 21; 25]. Bəzi tədqiqatlarda isə koqnitiv dilçiliklə bağlılıq açıq şəkildə müşahidə olunur [bax: 20; 23; 30]. Özbəkistanda gənc alimlər və orta nəslin nümayəndələri koqnitiv dilçilik, psixolinqvistika və sosiolinqvistika sahələrində hərtərəfli tədqiqatlar aparırlar. Onların əksəriyyəti hər üç sahədə çoxsaylı elmi əsərlər dərc ediblər [32; 33].

Qırğızıstan Respublikasında psixolinqvistika və koqnitiv dilçilik sahələri paralel olaraq inkişaf edir. Psixolinqvistik tədqiqatların əksəriyyəti A.A.-nın əsərlərinə əsaslansa da, son illərdə koqnitiv dilçiliyə əsaslanan elmi əsərlərin sayı sürətlə artıb [bax: 14; 17; 22].

Türkmənistan Respublikasında psixolinqvistika və koqnitiv dilçilik sahəsində aparılan tədqiqatlar haqqında hər hansı bir məlumat əldə etmək olduqca çətindir. Onların sosial mediada və rəqəmsal məkanda olmaması heç nəyi sübut etmir. Ölkədə bu sahədə, böyük ehtimalla, tədqiqatlar aparılır. Ola bilsin ki, sadəcə biz bu barədə məlumat əldə edə bilmirik. Rusiya Federasiyasında yaşayan tatar, başqırd, altay, xakas, qaraçay, balkar və digər türk xalqlar elm və təhsil sahəsində Rusiya ilə birbaşa bağlıdırlar. Buna görə də, bu xalqların psixolinqvistika sahəsində apardıqları tədqiqatların böyük bir hissəsi "Nitq Fəaliyyəti Nəzəriyyəsi"nə əsaslanır. Lakin onların arasında tədqiqatlarının böyük bir hissəsini koqnitiv dilçiliyə həsr edən gənc alimlər və mütəxəssislər də var [bax: 28; 31].

Azərbaycan Respublikasında psixolinqvistik tədqiqatların böyük əksəriyyəti 2000-ci illərin əvvəllərinə aiddir. Bu sahədə mütəxəssislərin sayı nisbətən azdır və onların tədqiqatlarının nəzəri əsasını, bütün digər sovet respublikalarında olduğu kimi, "Nitq Fəaliyyəti Nəzəriyyəsi" təşkil edir. Bu sahənin əsas nümayəndələri Gülmira Sədiyeva-Kuruoğlu, Cavanşir Muradov, Zülfiyyə Musavi və Heydər Eminli kimi alimlərdir. Azərbaycanda koqnitiv dilçiliyin aparıcı simaları Əfqan Abdullayev, Fəxrəddin Veysəlli, Kamal Abdullayev, Azad Məmmədov, Həbib Zərbəliyev, İlham Tahirov, Leyla Xanbutayeva və Lalə Qurbanovadır. Bu sahə həmin alimlərin tələbələri olan yüzlərlə gənc mütəxəssis tərəfindən inkişaf edtdirilir.

2010-2015-ci illər arasında Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda "Linqvbvo-psixoloji vəhdət nəzəriyyəsi" adlı yeni bir nəzəriyyə işlənib hazırlanmışdır. Bu koqnitiv nəzəriyyə fikrin formalaşması, verballaşması, freymin, konseptin və onun semantik sferasının yaranması, ötürülməsini, qavranılmasını və mənimsənməsini izah edə bildiyi kimi, bütün növ informativ bloklarının həm bütöv komplekslər, həm də ayrı-ayrı, müstəqil linqvo-psixoloji hadisələr və ya proseslər kimi də şərh edə bilir. Hal-hazırda "Linqvbvo-psixoloji vəhdət nəzəriyyəsi" əsasında tədqiqat aparan Aytac Həsənova, Sevinc Rzayeva, Turan Məmmədli, Pərvanə Həsənova, Sevinc İsmayılova, Günay Murtuzayeva, Firəngiz Hadi, Tamella Əlizadə və başqa gənc alimlər təkcə bu nəzəriyyənin müəllifi Mail Əsgərovun davamçıları deyil, eləcə də həmin nəzəriyyənin tədqiqatçıları və təbliğatçılarıdırlar.

ƏDƏBIYYAT

1. Arıkan, K., Tarakçı, B. ve Akırmak, Ü. [2021]. Psikoloji araştırmalarında kelime edinim yaşı: Kuramlar, yöntemler ve uygulama alanları. / Nesne dergisi, 9[22], s. 989-1012. DOI: 10.7816/nesne-09-22-14
2. Aydın, B. Ruhdilbilim, Bilişsel Dilbilim ve Dil Öğretimi | **Journal:** Dil Bilimleri ve Dil Öğretimi, Seçkin Yayıncılık 2015, s.213-243.
3. Ebru ZARZAVATÇIOĞLU Doktora Tezi: Afaziyoloji Ve Dilbilim: Afazi Kaynakli Dilsel Sorunlarin Çözümlenmesine Yönelik Dilbilimsel Yöntemler – 2023. Danışman: Prof. Dr. Muharrem TOSUN
4. Əsgərov, M.B. A. A. Leontyevin Nitq fəaliyyəti nəzəriyyəsi. "Dilçilik məsələləri". AMEA Dilçilik İnstitutu. Bakı, "Elm", 2005, N 4, s. 47–55
5. Əsgərov, M.B. L. S. Vıqotskinin dil nəzəriyyəsi ilə bağlı psixoloji görüşləri [linqvo-psixoloji problemlər seriyasından
6. Əsgərov, M.B. Linqvopsixologiya və ya dilin psixologiyası / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2011. – 308 s.
7. Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2015. - 192 s.
8. Gizdatov, G. Типология и динамика когнитивных моделей в речевой деятельности [психолингвистический аспект]: дисс. докт. филол. наук: 10.02. 19
9. Kuruoğlu G., Şen. N. Okuma Güçlüğü Yaşayan Ortaokul Öğrencilerin Yaptıkları Okuma Hatalarının İncelenmesi. Eğitim Kuram ve Uygulama dergisi. Yıl 2018, Cilt: 4, Sayı: 2, s.101-110.
10. Taştekin, A. Dil Psikolojisinin İlgi Alanları January 2016 Journal of Turkish Studies 11[Volume 11 Issue 4], s. 987-987, DOI:10.7827/TurkishStudies.9075
11. Ümmügülsüm DOHMAN Kuramsal yönleriyle bilişsel dilbilim. Uludağ Üniversitesi FenEdebiyat Fakültesi Sosyal Bilimler Dergisi, [2022]. 23[43], 1235-1259. DOI: 10.21550/sosbilder.1037676
12. Ünsal, F. Dil Öğrenme Süreçlerinde Psikodilbilim Üzerine Güncel Bir İnceleme, / Eğitimde Yeni Sorunlar ve Cevaplar, PALME YAYINEVİ, 2022, s. 125-134, ISBN: 978-605-282-964-6
13. Азимова И. А. Ўзбек тилидаги газета матнлари мазмуний перцепциясининг психолингвистик тадқиқи. Монография. Тошкент «Навоий университети» нашриёт-матбаа уйи, 2020, 160 s.
14. Акматова А. А. Концепт «женщина», его выражение и перевод в разносистемных языках [на материале кыргызского и английского языков] Автореферат диссертации на соискание ученой степени доктора философии [PhD] по направлению филология, Бишкек 2022, 27 с.
15. Ашурова Д. У. Развитие когнитивной лингвистики в Узбекистане. Хорижий филология. №3, 2016 йил, s.54-60.
16. Байжанова О. И. История развития психолингвистики как науки, The Lingua Spectrum, Volume 4, April 2025 s. 27-31.
17. Власов М.С., Жумалиев С.С. О Методологии современной экспериментальной психолингвистики. Известия ВУЗов Кыргызстана. 2022. №. 5. С. 255-258]
18. Жоламанова Е. И. Развитие когнитивной лингвистики в кыргызстане. Journal" Herald of KRSU", 2012 year, Tom 12, no 5, p. 11- 13.UDC 81–11[575.2][04]
19. Зокирова, Д. Особенности изучения когнитивной лингвистики в современном языкознании. *Лингвоспектр*, 2025, *5*[1], 163–167.
20. Исмаилова И. [2025]. Когнитивный подход в обучении лексике английского языка . *Лингвоспектр*, *2*[1], 267–274.
21. Исмоилов Х. Т. Психолингвистическое исследование текста судебного приговора. / Международный журнал искусство слова. Том 3 № 2 [2020], с. 24-31
22. К.З. Зулпукаров, Б.Е. Дарбанов, В.Б. Суркеева. Психолингвистические модели и теории восприятия речи в условиях кыргызско-русского билингвизма. - Бишкек, 2023. - 636 с.
23. Косимова М. З. Развития когнитивной лингвистики и концептуального термина. / Международный журнал искусство слова. Том 3 № 3 [2020], с. 201-205.
24. Мустакимова, Г. В. Актуальные проблемы психолингвистики [Электронный ресурс] : электронный ресурс / Г. В. Мустакимова. - Костанай : КГПИ, 2010. - 116 с. - Б. ц.
25. Таджибаева А. Проблемы психолингвистического исследования узбекского языка: комплексный обзор. / Общество и инновации, 4[9], с. 280-289.
26. Фазылжанова А.М., Дмитрюк Н.В., Орынбетова Э.А., Абаева М.К., Назарова А.Ж. Современная Казахстанская психолингвистика: ассоциативные аспекты. *Tiltanym*. 2023; 92[4], s.120-132.
27. http://scholar-journal.org/index.php/s/article/view/109

28. https://famous-scientists.ru/anketa/mustafina-dzhamilya-alievna-12601
29. https://medium.com/cogist/bili%C5%9Fsel-dilbilim-kognitif-vikimaraton-db07cbe3c4d8.
30. https://paper.researchbib.com/view/issn/2181-1784/1/9
31. https://scholar.google.com/citations?user=70Z3L_wAAAAJ&hl=ru
32. https://scholar.google.com/citations?user=pswBujYAAAAJ&hl=ru
33. https://scholar.google.com/citations?user=z2h3JFsAAAAJ&hl=ru
34. https://tr.wikipedia.org/wiki/Do%C4%9Fan_C%C3%BCcelo%C4%9Flu

https://shokan.edu.kz/ru/schools/pedagogical-institute/kafedra-obshego-yazykoznaniya-i-literatury/zhakupova-ajgul-doszhanovna/

SUMMARY

Interest in the psychological problems of language in the Turkic-speaking republics first arose in Turkiye in the 1960s. After a 40-year hiatus, Turkish scholars have revived their interest in this field. Much of their research draws on American and European theoretical foundations.

Kazakhstan is the second Turkic-speaking country to show interest in this area. Here, until recently, Russian psycholinguistics served as the scientific theoretical basis. In recent years, the number of studies written in the field of cognitive linguistics has also grown rapidly.

In Uzbekistan, initial studies of the psychological problems of language were also based on Russian psycholinguistics. The scientific basis for more recent research, especially contemporary studies, is, of course, cognitive linguistics.

Psycholinguistic research in Kyrgyzstan began later than in other Turkic-speaking republics. Therefore, there are parallel studies based on Russian, American, and European psycholinguistic theories. In Azerbaijan, there is a wealth of research based on both classical psycholinguistic theories and modern cognitive linguistics. A similar situation is observed among the Turkic peoples living in Russia.

Keywords: *psycholinguistics, cognitive linguistics, Turkiye, Kazakhstan, Uzbekistan, Kyrgyzstan, Azerbaijan*

РЕЗЮМЕ

Интерес к психологическим проблемам языка в тюркоязычных республиках впервые возник в Турции в 1960-х годах. После 40-летнего перерыва турецкие ученые возобновили свой интерес к этой области. Большая часть их исследований опирается на американские и европейские теоретические основы.

Казахстан — вторая тюркоязычная страна, проявившая интерес к этой области. Здесь до недавнего времени научной теоретической основой служила российская психолингвистика. В последние годы также быстро растет число исследований, написанных в области когнитивной лингвистики.

В Узбекистане первоначальные исследования психологических проблем языка также основывались на российской психолингвистике. Научной основой для более поздних исследований, особенно современных, является, конечно же, когнитивная лингвистика.

Психолингвистические исследования в Кыргызстане начались позже, чем в других тюркоязычных республиках. Поэтому существуют параллельные исследования, основанные на российских, американских и европейских психолингвистических теориях. В Азербайджане существует множество исследований, основанных как на классических психолингвистических теориях, так и на современной когнитивной лингвистике. Аналогичная ситуация наблюдается среди тюркских народов, проживающих в России.

Ключевые слова: *психолингвистика, когнитивная лингвистика, Турция, Казахстан, Узбекистан, Кыргызстан, Азербайджан*

Svetlana NOVRUZOVA*

TÜRKOLOJİ QURULTAYIN TARİXİ VƏ ELMİ ƏHƏMİYYƏTİ: ƏLİFBA, ORFOQRAFİYA VƏ ƏDƏBİ DİLİN FORMALAŞMASI

XÜLASƏ

Məqalədə 1926-cı il Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultayın türk dünyasının mədəni, elmi və dil inkişafında rolu araşdırılır. Burada qurultayın əlifba və orfoqrafiya məsələlərindəki müzakirələri, latın qrafikalı yeni əlifbanın qəbulunu, müqayisəli türkoloji dilçilik, ədəbi dilin təşəkkülü və türk xalqları arasında mədəni inteqrasiyanın gücləndirilməsi istiqamətində qəbul edilmiş qərarlar təhlil edilir.

Açar sözlər: *Birinci Türkoloji Qurultay, əlifba islahatı, orfoqrafiya, ədəbi dil, türk xalqları.*

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 1926-cı il 26 fevral – 6 mart tarixlərində keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni, elmi və intellektual inteqrasiyasında yeni bir mərhələnin əsasını qoyan mühüm tarixi hadisələrdən biri hesab olunur. Bu qurultay türk dünyasının ortaq dil, əlifba, mədəni irs və elmi əməkdaşlıq məsələlərinin sistemli şəkildə müzakirə edildiyi ilk genişmiqyaslı beynəlxalq elmi forum kimi xüsusi əhəmiyyət kəsb etmişdir.

Birinci Türkoloji Qurultay çərçivəsində keçmiş Sovet İttifaqının müxtəlif regionlarında, geniş və çoxşaxəli coğrafi arealda məskunlaşmış türk mənşəli xalqların mədəni, dil və elmi inkişafı ilə bağlı fundamental əhəmiyyət daşıyan məsələlər hərtərəfli şəkildə müzakirə olunmuşdur. Qurultayda türk xalqlarının mədəni həyatının perspektivlərinə dair strateji mahiyyətli qərarlar qəbul edilmiş, elmi əsaslara söykənən uzunmüddətli inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Xüsusilə vurğulanmalıdır ki, bu mötəbər elmi toplantının ən mühüm nəticələrindən biri keçmiş Sovet məkanında yaşayan bütün türk xalqları üçün vahid yanaşma əsasında latın qrafikalı əlifbaya keçidin nəzəri-konseptual və elmi-metodoloji prinsiplərinin hazırlanması olmuşdur. Sözügedən qərar türk xalqları arasında mədəni və dil baxımından qarşılıqlı anlaşmanın gücləndirilməsi, eləcə də ümumtürk elmi və mədəni inteqrasiyasının dərinləşdirilməsi baxımından mühüm mərhələ kimi qiymətləndirilir.

Qurultayın gündəliyində yer alan əsas məsələlər sırasında əlifba problemi xüsusi önəm daşıyırdı. Birinci Türkoloji Qurultayda türk xalqları üçün ədəbi dilin formalaşdırılması məsələsi mühüm hesab edilsə də, müzakirələrin miqyası, intensivliyi və elmi polemikanın kəskinliyi baxımından əlifba məsələsi bu mövzunu da üstələmişdir. Bu problem qurultay iştirakçıları arasında ən geniş rezonans doğuran və ən fəal elmi mübahisələrin mərkəzində dayanan mövzu kimi çıxış etmişdir. Türkoloji qurultayda latın əlifbasının qəbul edilməsinə qarşı çıxaraq ərəb əlifbasının saxlanılmasını müdafiə edən mövqelər də az deyildir. N.Yakovlev öz çıxışında bu məsələyə toxunaraq qeyd edir: "Həqiqi ərəbizmlərin tərəfdarlarının yuvasında əsl ərəb şriftinin elə bir xüsusi müdafiəçiləri demək olar ki, yoxdur. Biz belə bir faktla hesablaşmalıyıq ki latınçılarla yanaşı, digər tərəflər, artıq həqiqi ərəbşünasları yox, neoərəbşünasları görürük, köklü islahat əvəzinə, latın əlifbasının qəbul edilməsi əvəzinə mülafı islahata, məlum uyğunlaşdırmaya, ərəb əlifbasının müasir texnikasına can atanları görürük. Bu sübut edir ki, ərəb əlifbasının tərəfdarlarının öz düşərgəsində də vəziyyət bir o qədər sabit deyil. Güman ki, bu şrifti islahatdan kənarda qeyri-məqbul edən hansısa müəyyən obyektiv məlumatlar var" [1, s.208]. Ərəb əlifbasının saxlanılmasını müdafiə edən tərəflərin mövcudluğuna baxmayaraq, qurultayın yekun qərarında yeni əlifbaya keçidin zəruriliyi təsdiqlənmiş və bu istiqamətdə prinsipial mövqe qəbul edilmişdir. Beləliklə, "Yeni türk (latın) əlifbasının ərəb və islah olunmuş ərəb əlifbaları üzərində üstünlüklərini və texniki üstünlüyünü, həmçinin, yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə nəhəng mədəni tarixi və mütərəqqi əhəmiyyətini qeyd edən Qurultay, yeni əlifbanın

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent

qəbulunu və onun ayrı-ayrı türk-tatar respublikaları və vilayətlərində həyata keçirilmə üsullarını hər bir respublikanın və hər bir xalqın öz işi sayır" [1, s.424].

Əlifbanın seçimi və tətbiqi ilə bağlı müzakirələr bir neçə gün davam etmiş, qurultayın beş iclası bilavasitə bu məsələyə həsr olunmuşdur. Bu fakt əlifba probleminin türk xalqlarının mədəni, elmi və ictimai inkişafında oynadığı strateji rolu, eləcə də onun gələcək inkişaf perspektivləri baxımından nə dərəcədə aktual və həlledici xarakter daşıdığını aydın şəkildə nümayiş etdirir. Əslində, mərkəzi sovet hakimiyyətinin Birinci Türkoloji Qurultayın təşkili ilə bağlı təşəbbüsü türk xalqlarına xüsusi diqqət və ya mədəni qayğı ilə izah edilə bilməz. Bu addım daha çox strateji-siyasi məqsədlərlə şərtlənmişdi. Belə ki, Moskvanın əsas niyyətlərindən biri türk xalqları arasında mövcud olan tarixi-mədəni və dil əlaqələrini zəiflətmək, onların qarşılıqlı ünsiyyət imkanlarını məhdudlaşdırmaq idi. S.Rüstəmova-Tohidi yazır: "Türk xalqları üçün tarixi-aktual bir məsələ olan Əlifba islahatı mövzusu, şəksiz ən uğurlu proyekt idi. Bu məsələ həm də Sovet hakimiyyətinin 1920-ci illərin əvvəllərində başladığı geniş siyasi-mədəni quruculuq planlarının və "milliləşdirmə" siyasətinin tərkib hissəsi olmalı idi" [s.71]. Digər tərəfdən isə türk xalqlarının öz zəngin və çoxəsrlik tarixi-mədəni irsi ilə ideoloji bağlarını qoparmaq, onları keçmişdən gələn mənəvi və elmi yaddaşdan uzaqlaşdırmaq siyasəti güdülürdü. Bu məqsədlərə nail olmaq üçün ən təsirli vasitələrdən biri kimi min ildən artıq bir dövr ərzində istifadə olunan ənənəvi yazı sisteminin dəyişdirilməsi planlaşdırılırdı. Əlifbanın dəyişdirilməsi türk xalqlarının tarixi mənbələrə, klassik ədəbi nümunələrə və ümumtürk mədəni irsinə çıxışını çətinləşdirərək, onların mədəni kontinuitetinin pozulmasına xidmət edən mühüm ideoloji alət kimi dəyərləndirilə bilər.

Birinci Türkoloji Qurultay çərçivəsində müzakirə olunan mühüm elmi istiqamətlərdən biri də müqayisəli türkoloji dilçilik problemləri olmuşdur. Qurultay iştirakçıları türk dillərinin elmi əsaslarla tədqiqi prosesində müqayisəli metodun tətbiqinə xüsusi əhəmiyyət vermiş, bu sahənin nəzəri və metodoloji məsələlərini diqqət mərkəzinə çəkmişlər. Altay dillərinin müqayisəli tədqiqinin nəzəri əsaslarına, onun Ural-altayşünaslıqdan ayrılma zərurətini dəyərləndirən N.Poppe, bu prosesin elmi baxımdan qaçılmaz xarakter daşıdığını vurğulayaraq qeyd edirdi: "Altay müqayisəli dilçiliyinin Ural-altayşünaslıq yolundan uzaqlaşaraq, bu yeni yolla irəliləməsi tamamilə qaçılmaz idi. Bu hadisədən çox əvvəl müəyyən edilmişdi ki, heç də bütün Ural-altay dilləri bir-birinə qarşı eyni münasibətdə deyil və bu qrup daxilində bəzi dillər bu, o biriləri isə digər dillərə daha çox meyllidir. Digər tərəfdən, fin-uqor müqayisəli dilçiliyinin Budenz, Ahlqvist, Donner və b. kimi məşhur alimlərin meydana çıxmasına səbəb olan gur çiçəklənməsi də bu dövrə aiddir. Bu alimlərin əsərləri sayəsində fin-uqor dilçiliyi öz metodları və bir sıra məsələlərin işlənməsi baxımından qısa bir müddət ərzində hind-Avropa dilçiliyinə yaxınlaşdı. Beləliklə, az bir müddətdə fin-uqor və Altay müqayisəli dilçilikləri kifayət qədər qeyri-bərabər vəziyyətə düşdü, çünki bu dövrdə yalnız türk dilləri Böhtlinq və Radlov sayəsində müqayisəli baxımdan müəyyən dərəcədə tədqiq olunmuş sayıla bilərdi" [1, s.112].

Ümumilikdə müqayisəli dilçilik, eləcə də onun ayrılmaz tərkib hissəsi olan müqayisəli türkoloji dilçilik dillər arasında mövcud olan tarixi-genetik əlaqələrin müəyyənləşdirilməsini əsas məqsəd kimi qarşıya qoyur. Bu yanaşma türk dillərinin mənşə etibarilə qohumluq dərəcəsini, onların tarixi inkişaf mərhələlərini və qarşılıqlı əlaqə mexanizmlərini üzə çıxarmağa yönəlmiş elmi tədqiqatların aparılmasına imkan yaratmışdır. Nəticə etibarilə, Qurultayda bu məsələlərin müzakirəsi türkoloji dilçiliyin sistemli və elmi əsaslar üzərində inkişafına mühüm töhfə vermişdir.

Qurultayın müzakirə gündəliyində xüsusi yer tutan mühüm problemlərdən biri türk xalqları üçün vahid və ya ortaq ədəbi dilin formalaşdırılması məsələsi olmuşdur. Bu problem türk xalqlarının dil və mədəni yaxınlaşmasının təmin edilməsi, elmi və ədəbi əlaqələrin genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyırdı. Qurultay iştirakçıları ortaq ədəbi dil ideyasını yalnız dilçilik məsələsi kimi deyil, eyni zamanda türk xalqları arasında mədəni inteqrasiyanın və intellektual əməkdaşlığın gücləndirilməsinə xidmət edən mühüm amil kimi dəyərləndirmişlər. Ədəbi dilin təşəkkülü məsələsini iqtisadi amillər və xalqlararası münasibətlər kontekstində şərh edən B.Berdiyev, türk xalqları üçün ümumi ədəbi dilin formalaşmasının mümkünlüyünü əsaslandıraraq bildirirdi ki: Ədəbi dilin yaranması üçün zəmin varmı? Fikrimcə var. Bu məsələni iqtisadi baxımdan, bu xalqlar arasında münasibətlər müstəvisində götürək. Onlar

ərazi baxımından pərakəndə olsalar da, demək olar ki, yekcinsdirlər, şivələr aradan qalxmaq üzrədir, çünki bu xalqlarda ədəbi dilləri yaranmağa başlayıb. Lakin bu o demək deyil ki, sizin kütlələrin dilii kütlələrinizin danışdığı dildir. Rus ədəbi dilin Vladimir, Vyatka və Tambov quberniyalarının dililə tutuşdurun. Görəcəksiniz ki, hər halda, bu belə deyil, həmin şivələr ədəbi dildə tam əks olunmur, ədəbi dil həmin şivələrin ümumi təmas nöqtələri üzərində qurulmuş bir dildir. Əgər türk xalqlarının bu yekcins kütləsi indiyədək ərazi baxımından parçalanmışdısa, rabitə yaratmaq, dəmir yolu vasitəsilə əlaqə saxlamaq, ədəbiyyat, kitab mübadiləsi etmək mümkün olduğu indiki dövrdə həmin əlaqələr ləhcə müxtəlifliyinin daha tez aradan çıxacağına, türk xalqlarının, türk dillərinin bu cür əməkdaşlığının zəruriliyinə, həyati zərurət olduğuna inamın möhkəmlənəcəyinə ümidi qüvvətləndirir [1, s.294]. Bu mövqe göstərir ki, B.Berdiyev ədəbi dilin təşəkkülünü yalnız dil daxili proses kimi deyil, eyni zamanda iqtisadi əlaqələr və mədəni inteqrasiya ilə şərtlənən mürəkkəb ictimai hadisə kimi qiymətləndirirdi.

Müzakirələr zamanı müxtəlif türk dillərinin fonetik, leksik və qrammatik xüsusiyyətləri nəzərə alınmaqla, ümumtürk ünsiyyətinə uyğun ədəbi dil modelinin yaradılması imkanları elmi əsaslarla təhlil edilmişdir. Bu məsələnin gündəliyə daxil edilməsi Qurultayın türk dünyasının uzunmüddətli dil siyasətinə yönəlmiş konseptual yanaşmasını aydın şəkildə əks etdirir.

Orfoqrafiya, həmin dövrün terminologiyasında “imla qaydaları” kimi ifadə edilən yazı normaları probleminin elmi əsasları məhz XX əsrin ilk onilliklərində formalaşmağa başlamışdır. Yazı sisteminin normallaşdırılması ilə bağlı bu məsələ istər nəzəri, istərsə də praktik baxımdan dil siyasətinin mühüm istiqamətlərindən biri kimi aktuallaşmışdır. Həm əlifba seçimi, həm də yazı qaydalarının vahid prinsiplər əsasında tənzimlənməsi problemi ilk dəfə sistemli və hərtərəfli şəkildə 1926-cı ildə Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultayın müzakirə gündəliyinə daxil edilmişdir. Qurultayda türk dillərində orfoqrafiya problemləri və yazı prinsiplərinin seçimi məsələsinə toxunan L.Jirkov, xüsusilə fonetik yazılış prinsipinin zəruriliyini əsaslandıraraq bildirirdi ki: Gələcəkdə türk orfoqrafiyasında islahat apararkən, bu prinsipi saxlamaq lazımdırmı, yoxsa ondan imtina etmək vaxtıdır və bu mümkün olacaqmı? Bu məsələ həll edilməlidir. Mən bu sözlərin fonetik yazılışına keçməyə cəhd göstərilməsinə tərəfdaram. Hər halda, əgər çox möhkəm, sabit prinsip lazımdırsa, türk xalqlarının hazırda mövcud olan böyük savadsızlığı şəraitində indi həmin prinsip fonetik yazılış prinsipi ola bilər. Türk dillərində orfoqrafiyanın olmaması ifrat dərəcəyə çatır. Bu, yeni latın əlifbasına keçid kimi ağrılı məsələdə hiss olunur ki, burada ən adi alınma rus sözləri də dörd müxtəlif şəkildə yazılır, məsələn: torq, tork (yumşaq və qalın “k” və “q”) və i.a. Orfoqrafiyanın bu mütərəddidliyi “Yeni yola” da nüfuz edib və onun əziyyət çəkdiyi də elə orfoqrafiyanın natamamlığıdır. Şəxsən mən fonetizmə səs verirəm [1, s.157]. L.Jirkovun bu çıxışı orfoqrafiya məsələsinə praktiki və sosial yönümlü yanaşmanı əks etdirir; müəllif yazı prinsipinin seçimində elmi ənənədən daha çox kütləvi savadlanma və dilin funksionallığını əsas meyar kimi önə çəkir.

Türkoloji Qurultay orfoqrafiya məsələsinin elmi müstəvidə araşdırılması, ümumtürk yazı ənənələrinin formalaşdırılması və normativ əsasların müəyyənləşdirilməsi baxımından mühüm başlanğıc nöqtəsi kimi dəyərləndirilir.

Türkoloji qurultayda orfoqrafiya və əlifba məsələləri bir-biri ilə sıx əlaqəli mövzular kimi müzakirə edilmişdir. Rəhimi orfoqrafiyanın islahatı probleminin əsasən əlifba ilə bağlı olduğunu vurğulayaraq qeyd edir ki, ərəb əlifbasının uyğunlaşdırılması çətin olduğundan, orfoqrafiyanın təkmilləşdirilməsi yalnız əlifba məsələsi həll edildikdən sonra səmərəli şəkildə həyata keçirilə bilər; nəticədə Qurultayın qərarı bu prosesin uğurunu müəyyən edəcək və orfoqrafiyanın özünün də həlli asanlaşacaq. Bəytursun isə yazı qaydaları ilə əlifba arasında münasibət məsələsini şərh edərək bildirir ki, bəzi alimlər onların bir-biri ilə sıx bağlı olduğunu düşünür, digərləri isə əlaqənin olmadığını vurğulayır. O, xüsusilə nəzərə çatdırır ki, yazı qaydalarının əlifba ilə yalnız əlifbanın natamam olduğu hallarda əlaqəsi mövcuddur; yəni əlifbanın tam olmaması orfoqrafiyanın mürəkkəbliyini artırır və islahatın tətbiqini çətinləşdirir. Beləliklə, qurultay iştirakçıları həm əlifba, həm də orfoqrafiya məsələlərinin bir-birinə bağlı olduğunu, onların həllinin elmi əsaslarla, praktik və sosial şərait nəzərə alınmaqla aparılmasının zəruriliyini vurğulamışlar.

Nəticə etibarilə, Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni, elmi və dil inkişafında strateji əhəmiyyət kəsb edən hadisə kimi tarixdə özünəməxsus yer tutmuşdur. Qurultay yalnız əlifba, orfoqrafiya

və ədəbi dil məsələlərinin sistemli şəkildə müzakirə olunduğu platforma olmaqla kifayətlənməmiş, eyni zamanda müqayisəli türkoloji dilçilik, terminologiya və ümumtürk mədəni inteqrasiyası kimi fundamental sahələrdə uzunmüddətli elmi və praktiki yanaşmaların əsasını qoymuşdur. Müzakirələr göstərmişdir ki, türk dillərinin inkişafı və vahid yazı sisteminin yaradılması yalnız elmi metodlarla deyil, həm də sosial-iqtisadi, mədəni və praktiki amillərlə bağlıdır. Bu yanaşma, xüsusilə latın qrafikalı yeni əlifbanın qəbulu ilə bağlı qərarlarda açıq şəkildə özünü göstərmiş və türk xalqlarının qarşılıqlı anlaşması, savadlılıq səviyyəsinin yüksəldilməsi və mədəni əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Qurultayın nəticələri həm də sovet dövrünün dil və mədəni siyasətinin mürəkkəb kontekstində qiymətləndirilməli, eləcə də türk xalqlarının öz tarixi-mədəni irsi və elmi ənənələri ilə münasibətlərinin qorunması baxımından strateji əhəmiyyət daşıdığı nəzərə alınmalıdır. Bu forum, iştirakçıların müxtəlif mövqelərini nəzərə almaqla elmi dialoqu təşviq etmiş, həm əlifba və orfoqrafiya, həm də ədəbi dilin təşəkkülü məsələlərində praktik və nəzəri prinsiplərin formalaşmasına xidmət etmişdir.

Beləliklə, Birinci Türkoloji Qurultay yalnız həmin dövrün tarixi və elmi hadisəsi olmaqla kifayətlənməyib, həm də türk dünyasında mədəni və elmi inteqrasiyanın, dil və yazı islahatlarının, müqayisəli türkoloji dilçilik və terminologiyanın inkişafı üçün etibarlı və davamlı əsas yaratmışdır. Qurultay iştirakçılarının müəyyən etdiyi prinsiplər və qəbul edilmiş qərarlar, XXI əsrdə də türkoloji tədqiqatların metodoloji əsaslarını müəyyən edən, elmi və mədəni perspektivləri yönləndirən mühüm irs kimi qiymətləndirilə bilər.

ƏDƏBIYYAT

1.1926-cı il I Bakı Türkoloji Qurultayı (steneoqram materialları, biblioqrafiya və foto-sənədlər). Ruscadan tərcümə, ön söz və şərhlərin müəllif K.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, 2006.

2. Rüstəmova-Tohidi S. I Bakı Türkoloji Qurultayı - SSRİ Türk xalqlarının modernləşməsi sahəsində sovet dövlətinin siyasi-ictimai tədbiri kimi. qurultayın görünməyən tərəfləri. “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” mövzusunda Beynəlxalq konfransın materialları. Bakı, 14-15 noyabr, 2016.

ИСТОРИЯ И НАУЧНОЕ ЗНАЧЕНИЕ ПЕРВОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА: ФОРМИРОВАНИЕ АЛФАВИТА, ОРФОГРАФИИ И ЛИТЕРАТУРНОГО ЯЗЫКА

АННОТАЦИЯ

Статья посвящена Первому тюркологическому съезду, состоявшемуся в Баку 26 февраля – 6 марта 1926 года, и его роли в культурном, научном и языковом развитии тюркского мира. В статье анализируются дискуссии съезда по вопросам алфавита и орфографии, принятие нового латинского алфавита, сопоставительное тюркологическое языкознание, формирование литературного языка и меры по укреплению культурной интеграции тюркских народов.

Ключевые слова: *Первый Тюркологический съезд, реформа алфавита, орфография, литературный язык, тюркские народы.*

HISTORY AND SCIENTIFIC SIGNIFICANCE OF THE FIRST TURKOLOGICAL CONGRESS: FORMATION OF ALPHABET, ORTHOGRAPHY, AND LITERARY LANGUAGE

ABSTRACT:

This article examines the First Turkological Congress held in Baku from February 26 to March 6, 1926, and its role in the cultural, scientific, and linguistic development of the Turkic world. The study analyzes the congress discussions on alphabet and orthography reforms, the adoption of the new Latin-based alphabet, comparative Turkological linguistics, the formation of a literary language, and measures to strengthen cultural integration among Turkic peoples.

Keywords: *First Turkological Congress, alphabet reform, orthography, literary language, Turkic peoples.*

Şəlalə ANA HÜMMƏTLİ*

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TÜRK DÜNYASININ MÜMTAZ OĞLU SALMAN MÜMTAZ

XÜLASƏ

Ədəbiyyat və mədəniyyət tariximizdə müstəsna xidmətləri ilə seçilən, görkəmli alim, istedadlı şair Salman Mümtazın (1884-1941) bütün yaradıcılığı boyunca qələmə aldığı ciddi tədqiqat əsərlərində, məqalə və kitablarda diqqəti cəlb edən ən önəmli məsələlərdən biri ana dilimizin saflığı məsələsidir. Ədəbi dil problemi, lüğət məsələsi görkəmli alimin elmi yaradıcılığının əsas istiqamətlərindəndir. Salman Mümtazın Birinci Türkoloji Qurultayında iştirakı ilə əlaqədar araşdırdığımız mənbələrdə bu görkəmli şəxsiyyətin haqqında maraqlı faklarla da rastlaşırıq. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində İdarə Heyətinin üzvlərindən biri olan Salman Mümtaz Birinci Türkoloji Qurultayın təşkilatçılarından biriydi. 1926-cı ildə Bakıda keçirilən, türk xalqlarının taleyində önəmli rol oynamış, türkologiyanın, dilçilik elminin inkişafına təkan vermiş Birinci Türkoloji Qurultay böyük türkçü, leksoqraf, dilçi alim Salman Mümtazın ömür yolunda da öz silinməz izlərini qoymuşdur. Birinci Türkoloji Qurultayın 100 illik yubileyində türk dünyasının bu mümtaz alimini yad etmək, onun əvəzsiz xidmətlərini xatırlatmaq bizim mənəvi borcumuzdur.

Açar sözlər: *ədəbi dil, Türkoloji, lüğət, yubiley*

Azərbaycan mədəniyyət və ədəbiyyat tarixində müstəsna xidmətləri ilə iz qoymuş görkəmli alim, istedadlı şair Salman Mümtazın (1884-1941) bütün yaradıcılığı boyunca, xüsusilə Türk dünyasının böyükləri - Mahmud Kaşğari, Şeyx Nizami Gəncəvi, Yunus Əmrə, Seyid İmadəddin Nəsimi, Əlişir Nəvai, Şah İsmayıl Xətayi, Həbibi, Məhəmməd Füzuli, Məxtumqulu Fəraqi və b. alim, şair, mütəfəkkir şəxsiyyətlər barədə qələmə aldığı ciddi tədqiqat əsərlərində, məqalə və kitablarda diqqəti cəlb edən ən önəmli məsələlərdən biri ana dilimizin saflığı məsələsidir. Alimin zəngin elmi-ədəbi və əlyazma irsində onun dilçilik, xüsusilə, lüğətçilik sahəsinə dair fəaliyyəti əhəmiyyətli yer tutur. Ədəbi dil problemi, lüğət məsələsi görkəmli alimin elmi yaradıcılığının əsas istiqamətlərindəndir. Alınma sözlərin dilimizə yerliyersiz işlənməsinə qarşı çıxan Salman Mümtaz dilimizin qədim, əksəriyyəti unudulmuş sözlərinin yenidən dilimizdə öz yerini tapması üçün ən qədim məxəzləri araşdırmış, türkdilli lüğətləri dərindən tədqiq edərək, xalq ədəbiyyatından, danışıq dilimizdə işlənən əsl türk (Azərbaycan) sözlərindən faydalanaraq çoxsaylı lüğətlər tərtib etmişdir. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti illərində "Yaşıl Qələm" Cəmiyyətinin təsis iclasında da Salman Mümtaz Məramnaməyə məhz lüğət məsələsinin də salınmasına nail olmuşdur: Bu barədə "Azərbaycan" qəzeti 29 avqust 1919-cu il tarixli 263-cü sayında yazırdı:

"Cəmiyyətin bu Məramnaməsi üstündə bir neçə natiq danışdıqdan sonra məclisdə iştirak edən möhtərəm şairlərimizdən Salman Mümtaz əfəndi itib - batmış türk lüğətlərinin bir araya toplanması üçün cəmiyyətin çalışmasını tövsiyə etməklə, bu xüsusda Məramnaməyə bir maddə əlavəsini təklif etdilər. Bunun lehinə və əleyhinə bir neçə natiqlər danışdıqdan sonra əksəriyyəti rəylə [səs çoxluğuyla] böylə bir maddənin əlavə edilməsi qərara alındı: Cəmiyyət itib-batmış türk lüğətlərinin toplanması üçün çalışacaqdır." [15, s.535-536].

"Şüəramızın əşarı, üdəbamızın asarı ərəb və fars boyunduruğunda olduğu gibi adlarımız da bu iki dillərin əsiri və qullarıdırlar"- deyə hələ 1917-ci ildə "Qardaş köməyi" dərgisində çap olunan "Qul" adlı məqaləsində də Salman Mümtaz ana dilimizlə bağlı, xüsusilə dilimizdə işlənən adlar haqqında öz düşüncə və mülahizələrini qələmə almışdır. [14, s.24]. Ana dilimizin saflığı, dilimizin yabançı ünsürlərdən təmizlənməsi kimi önəmli məsələlər Mümtaz yaradıcılığında əsas qırmızı xətt kimi keçir. Ədəbiyyat tariximizə dair qələmə aldığı əsərlərində də dil məsələsinə xüsusi diqqət ayırmışdır. Alim "Dilmanc" lüğətini təqdim edərkən yazırdı: "Ana dilimiz olduqca varlı və zəngindir. Yalnız çalışmaq və itmiş-batmış sözlərimizi aramaq və tapmaq gərəkdir. Azərbaycanlılar üçün bu unudulmuş və büsbütün yaddan çıxmış sözlər olduqca dəyərlidirlər. (...) Dili öyrənmək üçün elə yanaşmalıyıq. Elin köməyi ilə itirdiyimiz sözləri

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email:

tapa bilərik. Danışdığımız dilin kökü, qaynağı ellərimizin göz bəbəyi kimi qoruyub və bugünədək saxlaya bildiyi sözlərdir...” [7].

Salman Mümtazın 1923-cü ildə mətbuat səhifələrində dərc etdirdiyi “Dilmac” lüğəti, eləcə də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı və görkəmli alimin öz adını daşıyan Dövlət Ədəbiyyat və İncəsənət Arxivindəki şəxsi fondlarında mühafizə olunan dilçiliyə dair çoxsaylı əlyazma materialları (“Bir söz kökündən əmələ gətirilən sözlər” (37 vərəq), ““Bir” sözünün işləndiyi ifadələr” (2 vərəq), “Dilçiliyə aid” adlı 5 dəftər və b.) [bax: 13; 12] aşkar etdiyimiz və nəşrə hazırladığımız “Ədəbi lüğət” (Bax: 4) sərlövhəli poetik lüğəti (bir əlyazma qeydinə əsasən, alimin bu lüğəti “Ədəbi lüğət” adlandırması ehtimal olunur) və elmi qeydləri onun bir dilçi, lüğətçi alim kimi nə qədər geniş, əhatəli şəkildə tədqiqatlar apardığının sübutudur. Qeyd edək ki, alimin müxtəlif mənbələrdə adı çəkilən itmiş əsərlərindən biri də “ Beş min söz” lüğətidir. Bu lüğət hələlik aşkar edilməsə də, onun da mühüm izlərinə alimin əlyazma və arxiv materialları arasında rast gəlinir. Ömrü repressiya illərində faciəli şəkildə başa çatan bu fədakar insanın şəxsi fondlarında mühafizə edilən qiymətli əsərləri onun bir mətnşünas, ədəbiyyatşünas və dilçi alim olaraq nə qədər geniş, əhatəli şəkildə tədqiqatlar apardığının sübutudur. Bütün həyatı və yaradıcılığı doğma vətəninin milli və mədəni sərvətinin – ədəbiyyatımızın, ana dilimizin qaynar çeşməsi olan folklorumuzun, əlyazma irsimizin toplanıb tədqiq edilməsinə və tədqiqinə həsr olunmuş, ürəyindəki böyük Türk sevgisi, Azərbaycan eşqi uğrunda qurban getmiş bu böyük vətənpərvər, fədakar şəxsiyyətin bizə miras qalan zəngin elmi-ədəbi irsi özü də bu gün milli-mənəvi xəzinəmizin tərkib hissəsidir. Bu qiymətli irsin araşdırılması, eyni zamanda dilçilik, xüsusilə də lüğətçilik tariximizin öyrənilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

1926-cı ildə Bakıda keçirilən, türk xalqlarının taleyində önəmli rol oynamış, türkologiyanın, dilçilik elminin inkişafına təkan vermiş Birinci Türkoloji Qurultay böyük türkçü, leksoqraf, dilçi alim Salman Mümtazın ömür yolunda da öz silinməz izlərini qoymuşdur. Qurultay günlərindən yadigar qalmış fotoşəkillər, xatirələr, məqalələr, kitablar 26 fevral - 6 mart 1926-cı il tarixinin Azərbaycanın paytaxtında xüsusi təntənə və əlamətdar hadisələrlə (Qurultayın keçirildiyi gün Bakı şəhərindəki izdiham, böyük türk şairi Əlişir Nəvainin həmin günlərdə qeyd edilən 500 illik yubileyi və s.) zənginliyindən soraq verir. Bu təntənəli günlərdə dövrünün ən qabaqcıl ziyalılarından olan Salman Mümtaz nəinki həmin günlərin iştirakçısı, şahidi, həm də təşkilatçılarından biri kimi ən öndə olan insanlardan idi.

Məlum olduğu kimi, “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (1923-1929) təsis edildikdən sonra türkoloji problemlərin ağırlıq mərkəzi bu qurumun üzərinə köçürülürdü.” Qeyd edək ki, Cəmiyyətin Tarix-etnoqrafiya seksiyasında fəaliyyət göstərən Ədəbiyyat altkomissiyası Rəyasət Heyətinin üzvlərindən biri də Salman Mümtaz idi [Bax:11, s. 25]. Qurultayın 100 illiyi ilə əlaqədar müxtəlif arxivlərdə ciddi araşdırmalar aparan professor Nadir Məmmədli “Birinci Türkoloji Qurultay məxfi sənədlərdə” adlı məqaləsində yazır: “1925-ci il sentyabrın 15-də Moskvada SSRİ şərqşünaslarının iclasında bütün türkoloqların iştirakı ilə ümumittifaq qurultay çağırılması qərara alındı. Gündəliyin əsas mövzularından biri türkdilli xalqların ərəb qrafikasından latın qrafikasına keçidi idi. İclasa Azərbaycan MİK sədri S. Ağamalıoğlu rəhbərlik edirdi. Qərara əsasən, qurultayın təşkili Moskvada SSRİ Şərqşünaslıq Elmi Assosiasiyasına, Bakıda isə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə tapşırıldı.”[6].

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində İdarə Heyətinin üzvlərindən biri olan Salman Mümtaz Birinci Türkoloji Qurultayın təşkilatçılarından biriydi. Qurultayla əlaqədar tədqiqatlarda da qeyd olunduğu kimi, “müşahidələr göstərir və mənbələr təsdiq edir ki, Azərbaycandan Birinci Türkoloji Qurultaya rəsmi siyahıya daxil edilməyən, müəyyən təkliflər əsasında dəvət olunan tanınmış ziyalılar, elm adamları və yazıçılar da olmuşdur. Məsələn, görkəmli Azərbaycan şairi və damaturqu Hüseyn Cavid, tanınmış tədqiqatçılardan Vəli Xuluflu, Salman Mümtaz, İsmayıl Hikmət, Əli Nazim, Əmin Abid və başqaları da Birinci Türkoloji Qurultayda iştirak etmişlər.” [3, s.7]. Yeri gəlmişkən, arxiv materiallarında və məxəzlərdə rast gəldiyimiz müxtəlif əlyazma və qeydlər Azərbaycanın digər tanınmış ziyalılarının da bu Qurultaya xüsusi əhəmiyyət verməsindən soraq verir. Belə ziyalılarımızdan biri də görkəmli maarifçi, müəllim və yazıçı Rəşid bəy Əfəndiyevdir. Ədibin arxivində mühafizə olunan əlyazma materialları arasında dilçiliyə dair maraqlı araşdırmalara da rast gəlmişdik. Azərbaycan və rus dillərində qələmə aldığı Terminologiya haqqında məqaləsi və “Türkoloji Qurultay haqqında məruzə”si bu baxımdan diqqətəlayiqdir (bax: 10).

Qurultay çərçivəsində olduqca böyük əhəmiyyət kəsb edən bir yubiley – böyük türk şairi, özbək xalqının oğlu Əlişir Nəvainin yubiley tədbiri də təntənəli şəkildə qeyd olunmuş və Salman Mümtaz da həmin yubileydə iştirak etmişdir. Elmi yaradıcılığında Əlişir Nəvaiyə də xüsusi yer ayıran Salman Mümtaz şairin 500 illik yubileyi münasibətilə qələmə aldığı və elə yubiley günündə - 4 mart 1926-cı ildə "Yeni yol" və "Kommunist" qəzetlərində dərc olunmuş "Əmir Əlişir Nəvai", "Ədəbiyyatımızda Nəvai təsiri" adlı məqalələrində onun ümumtürk ədəbiyyatında yüksək mövqeyə sahib dörd böyük simadan biri kimi dəyərləndirirdi:

"Ümumtürk ədəbiyyatında dörd böyük sima vardır ki, onların haqqında kiçik-kiçik məqalələr deyil, böyük-böyük kitablar yazmaq lazımdır. Çünki onlar bir məhəllənin, bir şəhərin və yaxud bir qəzanın şairi deyil, qocaman bir türk aləminin, ucsuz-bucaqsız türk ellərinin şairi-məşhuru olmuşlar. Bunlar qazanan ad-sanı başqa şairlər qazanmamışlar. Təbiri caiz isə, bunları nüfuz və qüdrətlərindən dolayı iqlimgir, cahangir deyil, ürəklərin, könüllərin fatehləri adlandırmalıyıq. Çünki bu təbir daha münasib və daha uyğundur. Füsunkar ilhamları sayəsində bu ulu və böyük insanlar bundan sonra da bir neçə əsrlər yaşayacaqlar. Tarix və ölkə etibarilə onları böylə yan-yanaşı qeyd etməliyik: Xacə Əhməd Yəsəvi, Seyid İmadəddin Nəsimi, Mir Əlişir Nəvai, Molla Məhəmməd Bağır Füzuli. Zənni-acizanəmə görə, türkdilli bir oymaq, ulus tapılmaz ki, bu dörd böyük dahini tanımaya və şeirlərini də bilməmiş ola." [9, s.358].

Salman Mümtazın Birinci Türkoloji Qurultayında iştirakı ilə əlaqədar araşdırdığımız mənbələrdə bu görkəmli şəxsiyyətin haqqında maraqlı faklarla da rastlaşırıq. Belə mənbələrdən biri professor Cəlal Qasımovun 2019-cu ildə nəşr olunmuş, Birinci Türkoloji Qurultayın ədəbi-mədəni, fəlsəfi və siyasi mahiyyətinin arxiv materialları əsasında araşdırıldığı, qiymətli faktlarla zəngin "Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər" monoqrafiyasıdır. Türk xalqların tarixində və taleyində ən böyük elmi, ədəbi-mədəni hadisələrdən biri olan və bu xalqların mədəni inteqrasiyasında yeni mərhələnin əsasını qoyan Birinci Türkoloji Qurultay XIX əsrdən başlayaraq ziyalıların həyata keçirmək istədikləri maarifçilik hərəkatının zirvə məqamı, ümumtürk maarifçi ziyalılarının arzu və istəklərinin ifadəsi kimi dəyərləndirən müəllif Qurultayın türkologiya elminin, eləcə də türk xalqlarının tarixində və taleyində oynadığı rolun müsbət və mənfi cəhətlərini tədqiqata cəlb etmişdir. Türkoloji Qurultayın iştirakçılarının böyük əksəriyyətinin repressiyaya məruz qalmalarının səbəblərinin tədqiqinə həsr olunmuş bu monoqrafiyada Salman Mümtaza da xüsusi yer ayrılmışdır. Kitabın "Qurultayın şahidləri və şəhidləri, yaxud qaranlıqdakı işıqlar" adlı V fəslinin "Salman Mümtazın və kitabxanasının taleyi" sərlövhəli bölümü görkəmli türkçü alimin və "Kitabxaneyi-Mümtaziyyə"nin acı taleyi barədədir. Akademik Nizami Cəfərov kitabın "Ön söz"ündə bu barədə yazır: "Azərbaycan ədəbiyyatının ən zəngin xəzinəsi olan (o xəzinə ki, yalnız onun sayəsində keçən əsrin 20-ci, 30-cu illərində Azərbaycan ədəbiyyatının bir sıra mötəbər qaynaqları üzə çıxarılmışdı) "Salman Mümtaz kitabxanası"nın taleyi isə (bu barədə Cəlal Qasımov müfəssəl bəhs edir) sovet ideologiyasının elmə, mədəniyyətə münasibətinin əyani göstəricisidir." [2, s.12]. Bu bölümdə ötən əsrin ağır repressiya illərinin qurbanlarından olan böyük alimin ittiham olunması, istintaq prosesi və b. məsələlərdən geniş söz açan müəllif, onun müsadirə edilən, böyük əksəriyyəti yandırılan, talan edilən kitablarının sonrakı taleyi ilə bağlı da araşdırma aparmışdır. Alimin cəfakeş övladı Şəhla Mümtazzadənin müvafiq idarə rəhbərlərinə müraciətləri, atasının kitabxanasından müsadirə edilən qiymətli kitabların, əlyazmaların siyahısını bərpa etmək, onları axtarıb tapmaq üçün etdiyi fədakar cəhdlər və s. barədə bilgilər olduqca dəyərlidir. Monoqrafiyada Türkoloji Qurultayın şahidi və bu Qurultaydan sonra öz əqidəsi uğrunda repressiya olunaraq türkçülüyün şəhidi olmuş qiymətli ziyalılarımızdan biri Salman Mümtazın məhv edilmiş, yandırılmış, mənimsənilmiş mənəvi sərvətindən – "Kitabxaneyi-Mümtaziyyə"nin taleyindən ürək ağrısı ilə bəhs edən tədqiqatçı-alim yazır: "S. Mümtaza və onun sərvətlərinə dəyən zərbə milli mənəviyyata və əxlaqa, zəngin fəlsəfi və bədii-estetik fikir irsimizə dəydi. Mənəvi sərvət itkisi xalqın milli yaddaş itkisidir. Milli yaddaş itkisini bərpa etmək olduqca ağır və çətin və bəlkə də, mümkün deyil. Bütün bunlar təkcə Azərbaycanın deyil, bütövlükdə Şərqin yaddaş repressiyası idi." [5, s.534]. Kitabda S. Mümtazın müsadirə edilmiş kitabxanasındakı əlyazma və çap kitablarının siyahısını hazırlamaq üçün görkəmli alimi yaxından tanıyan, evində qonaq olmuş, kitabxanası ilə tanış olmuş insanlardan – tanınmış ziyalılardan, yazıçı və alimlərdən alınan izahatlarla tanış oluruq. Ədəbiyyatşünas alim Əkrəm Cəfərin 1963-cü ildə S.Mümtaz barədə yazdığı "İzahat"da isə Birinci Türkoloji Qurultayla əlaqədar maraqlı faktlar öz əksini tapmışdır.

Əkrəm Cəfər izahatında yazır: "1926-cı ildə – "Türkoloji qurultay" günlərində Salman Mümtaz rus və türk alimlərindən bir neçəsini evinə qonaq çağırmışdı, bu alimlər onun kitabxanası ilə tanış olanda, ondakı nadir əlyazmalara heyran qalmışdılar. "Elə kitab vardı ki, biri Londonda, Britaniya muzeyində, ikinci nüsxəsi Salman Mümtazda idi". Bu sözləri rus akademiklərindən Oldenburq demişdi."[bax: 5, s.543].

Adı Qurultay iştirakçılarının siyahısında olmasa da, "Qurultayın ilk günündən başlayaraq çəkilən fotoşəkillərdə Salman Mümtazın da görünməsi", eləcə də sonuncu, bağlanış mərasimində söz alması bu dəyərli insanın həmin mötəbər tədbirdə fəal iştirakını isbat edir [Bax: 1, s.256]. Qurultayın son günü qərar və qətnamələr oxunub qurtardıqdan sonra çıxış üçün söz istəyənlər arasında "ilk söz azərbaycanlı şair Salman Mümtaza verilir." Təəssüf ki, çıxış Azərbaycan dilində olduğu üçün digər türkdilli məruzələr, çıxışlar kimi onun çıxışının da stenoqrafı yoxdur. [bax: 16, s.417].

Birinci Türkoloji Qurultay barədə "100 illiyində 100 sualda Birinci Türkoloji Qurultay" adlı yeni və qiymətli tədqiqat kitabının müəllifi professor Şükrü Xaluq Akalın bəzi qanaqlarda Salman Mümtazın Birinci Türkoloji Qurultayda yeni əsəri olan "Nəsimi"ni tanıtması barədə bilginin olduğunu və Aziz Qubaydullinin də çıxışında Salman Mümtazın tədqiqatlarından bəhs etməsini, onun Azərbaycan şairlərinin əsərlərini toplayıb nəşr etdirməsini diqqətə çatdırır. [Bax:1, s.417]. Bu məqamda bir məsələyə də aydınlıq gətirmək lazımdır. Belə ki, Salman Mümtazın "Azərbaycan ədəbiyyatı" seriyasından nəşr etdirdiyi 9-cu kitab - "Mirzə Şəfi Vazeh" 1926-cı ildə Türkoloji Qurultay ərəfəsində işıq üzü görmüşdür. Bu kitabda şairin həyatı və yaradıcılığı barədə olduqca qiymətli bilgilər verməklə yanaşı, həm də qarşıda keçiriləcək olan Türkoloji Qurultayın da Mirzə Şəfi barədə tədqiqatların davamı istiqamətində faydalı olacağına ümidvar olan S.Mümtaz yazırdı: "Ümid edirəm ki, Türkoloji Qurultay Azərbaycanın ən namdar ədib və şairlərindən bulunan Mirzə Şəfini bizə daha iyi və daha ətraflı tanıtmaq iltifatında bulunacaqdır." (8, s.6). Kitabdakı giriş yazısının sonunda müəllif tarix olaraq "31 yanvar 1926" yazmışdır. Bu kitabın sonunda Salman Mümtaz daha 3 kitabınınn çapda olduğunu və yaxınlarda nəşr ediləcəyini xəbər vermişdir: "Seyid İmadəddin Nəsimi", "Seyid Qasım Ənvar" və "Şah İsmayıl Xətai". Qeyd edək ki, bu kitablardan yalnız birincisi - Nəsiminin əsərləri bu gün əlimizdədir. Digər iki əsərin çapı barədə dəqiq məlumatımız yoxdur. "Seyid İmadəddin Nəsimi" kitabı alimin "Azərbaycan ədəbiyyatı" seriyasından 10-cu kitabıdır. Kitabda "Seyid Nəsiminin tərcümeyi-halı" adlı məqaləsinin sonunda yazıldığı tarix – "25 mart 1926"- dır. Bu tədqiqat xarakterli başlanğıc yazısının sonunda müəllif, Seyid İmadəddin Nəsiminin yalnız on səhifəsini əldə etdiyi qiymətli bir əlyazma divanından bəhs edərək yazırdı: "Nəsiminin öz əsrində Azərbaycan ləhcəsiylə yazılmış miniatürlü bir divanı da mövcud imiş ki, o qocaman divandan yalnız on səhifə əlimizə keçmişdir. (Xoşbəxtlikdən o səhifələrdə həm şairimizin şəmayili, həm də əsl imlamızla yazılmış bir neçə qəzəli mövcuddur ki, onlar da klişe edilərək işbu divana köçürülmüşdür). Miniaturaların əslləri isə tərəfi-acizanəmizdən Türkoloji Qurultayına bir yadigar olmaq üçün Stalin kitabxanasına hədiyyə edilmişdir." (9). Salman Mümtazın verdiyi bu bilgiyə əsasən, onun Qurultaya hədiyyə etdiyi kitabın Nəsimi haqqında yaz_dığı kitab deyil, "Mirzə Şəfi Vazeh" olduğunu düşünmək olar. Yəqin ki, Qurultayın son iclasındakı çıxışında alim, nəşrə hazırladığı "Seyid İmadəddin Nəsimi" kitabının da yaxında işıq üzü görəcəyi barədə müjdəsini verərək "Türkoloji Qurultayına bir yadigar olmaq üçün" kitabxanaya hədiyyə etdiyi miniatürlü divanın əlyazma səhifələrindən də söz açmışdır.

Bütün Türk dünyasının taleyində olduğu kimi, türkçü alim, Türk dünyasının mümtaz oğlu Salman Mümtazın da taleyində silinməz izlər qoymuş Birinci Türkoloji Qurultayın 100 illik yubileyində bu mümtaz alimi yad etmək, onun əvəzsiz xidmətlərini xatırlatmaq bizim mənəvi borcumuzdur.

ƏDƏBİYYAT:

1. Akalın Ş.H. 100. Yılında 100 Soruda I Türkoloji Kurultayı – Ankara: "Erkmen yayıncılık", 2025, 300 s.
2. Cəfərov N. Ön söz/C. Qasımov.ITürkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, "Gənclik", 2019, 748 s.
3. Həbibbəyli İ. "Birinci Türkoloji Qurultayın Dərsləri və müasir çağırışlar".- I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə) Bakı, 14-15 noyabr 2016-cı il.
4. Hümmətli Ş.A. Türk dünyasının mümtaz oğlu Salman Mümtaz. – Bişkek, "Ulu Toolor", 2023, 128 s.
5. Qasımov C. Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, "Gənclik" nəşriyyatı, 2019, 748 s.
6. Məmmədli N. "Birinci Türkoloji Qurultay məxfi sənədlərdə". - https://azertag.az/xeber/birinci_turkoloji_qurultay_mexfi_senedlerde-3820175

7. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları- Bakı: 1986, 440 s.
8. Mümtaz S. Mirzə Şəfi Vazeh - Bakı: "Nurlan", 2005, 31 s.
9. Mümtaz S. Seyid İmadəddin Nəsimi ("Azərbaycan ədəbiyyatı"-10) - Bakı: "Kommunist" nəşriyyatı, 1926, 252 s.
10. Rəşid bəy Əfəndiyevin şəxsi fondu, sax.v.43; 45 - AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu, Şəxsi fondlar.
11. Rüstəmli A. Türkoloji Qurultay və Cəfər Cabbarlı - Birinci Türkoloji Qurultay: Görünən və görünməyən tərəflər, elmi Sessiyanın Materialları (Bakı şəhəri, 10 iyun 2016-cı il). Bakı – 2016, s.23-31.
12. Salman Mümtazın fondu – S.Mümtaz ad. Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, fond 162.
13. Salman Mümtazın şəxsi fondu – AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu, Şəxsi fondlar, fond 24.
14. Turxan S. M. "Qul" - "Qardaş köməyi" dərgisi - Bakı: "İpəkyolu nəşriyyatı", 2012.
15. ."Yaşıl qələm", "Azərbaycan" qəzeti, 29 avqust 2019, N263 - "Azərbaycan" qəzeti (1918-1920), XI cild, avqust 1919 (transliterasiya ed.:M.Gəncəli, A.Ağaoğlu) – Bakı:2024
16. "1926-cı il I Bakı Türkoloji Qurultayı: Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər"- Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev) – Bakı: "Çinar-Çap", 2006, 570 s

ПЕРВЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ КОНГРЕСС И ИЗБРАННЫЙ СЫН ТЮРКСКОГО МИРА САЛМАН МУМТАЗ

ТЕЗИС

Одним из важнейших вопросов, привлекавших внимание в серьезных научных работах, статьях и книгах выдающегося ученого и талантливого поэта Салмана Мумтаза (1884–1941), отличившегося исключительными заслугами в истории литературы и культуры на протяжении всей своей творческой карьеры, является вопрос чистоты нашего родного языка. Проблема литературного языка и проблема лексики входят в число главных направлений научного творчества выдающегося ученого. В изученных нами источниках, касающихся участия Салмана Мумтаза в Первом тюркологическом конгрессе, мы также находим интересные факты об этой выдающейся личности. Салман Мумтаз, являвшийся одним из членов Совета директоров Азербайджанского научно-образовательного общества, был одним из организаторов Первого тюркологического конгресса. Первый тюркологический конгресс, состоявшийся в Баку в 1926 году, сыгравший важную роль в судьбе тюркских народов и давший толчок развитию тюркологии и лингвистики, оставил неизгладимый след в жизни великого тюрколога, лексикографа и лингвиста Салмана Мумтаза. В 100-летнюю годовщину Первого тюркологического конгресса наш моральный долг — почтить память этого выдающегося ученого тюркского мира и вспомнить о его неоценимом вкладе.

Ключевые слова: *литературный язык, тюркология, словарь, годовщина*

THE FİRST TURKOLOGİCAL CONGRESS AND THE CHOSEN ЫON OF THE TURKİC WORLD SALMAN MUMTAZ

SUMMARY

One of the most important issues that attracted attention in the serious research works, articles and books written by the outstanding scholar and talented poet Salman Mumtaz (1884-1941), who was distinguished by his exceptional services in the history of literature and culture, throughout his entire creative career, is the issue of the purity of our native language. The problem of literary language and the issue of vocabulary are among the main directions of the scientific creativity of the outstanding scholar. In the sources we examined regarding Salman Mumtaz's participation in the First Turkological Congress, we also come across interesting facts about this outstanding personality. Salman Mumtaz, who was one of the members of the Board of Directors of the Azerbaijan Research and Education Society, was one of the organizers of the First Turkological Congress. The First Turkological Congress, held in Baku in 1926, which played an important role in the fate of the Turkic peoples and gave impetus to the development of Turkology and linguistics, left its indelible mark on the life path of the great Turkologist, lexicographer and linguist Salman Mumtaz. On the 100th anniversary of the First Turkological Congress, it is our moral duty to commemorate this distinguished scholar of the Turkic world and to recall his invaluable services.

Keywords*: literary language, Turkology, dictionary, anniversary*

Elçin İSMAYILOV*

AZƏRBAYCAN TOPONİMLƏRİNİN QORUNMASININ LİNQVİSTİK ƏSASLARI

XÜLASƏ

Toponimlər dilin lüğət tərkibinin çox mühüm hissəsini təşkil edir, mənsub olduğu xalqın dilini, tarixini, etnogenezini, milli mənsubluğunu, coğrafi sərhədlərini əks etdirən dəyərli mənbədir və bu baxımından kompleks şəkildə öyrəndikdə hər hansı bir ərazinin bütövlükdə hansı xalqa məxsus olduğu tarixi, coğrafi və dilçilik baxımından əsaslandırılmış olur ki, bu da hər hansı bir xalqın tarixinin saxtalaşdırılmasının qarşısını alan böyük vasitədir. Buna görə də toponimlərin tədqiq olunması, araşdırılması vacibdir, zəruridir. Toponimlər mühüm dil faktlarıdır. Həmin dil faktlarında xalqların etnogenezində rol oynamış tayfa və nəsillərin izləri qorunur. Toponimik adlar həm də xalqımızın tarixi, milli kimliyi, əski inancları, coğrafiyası, sənət-peşə məşğuliyyəti ilə əlaqədar məlumatların daşıyıcısı kimi olduqca zəngindir. Xalqın milli və mənəvi sərvəti olan toponimlərdə keçmişin coğrafi həqiqətləri yaşayır. Lakin hər zaman bu həqiqətləri saxtalaşdırmağa çalışan bədnam qonşularımız Qərbi Azərbaycanda (indiki Ermənistan) türk mənşəli toponimləri illər boyu dəyişdirmiş, el-obamızın adlarına qarşı soyqırımı törətmiş, xalqımızın yer adlarına hopub əsrlər ərzində yaşamış tarixini pozmağa çalışmışlar.

Açar sözlər: *Azərbaycan, Qərbi Azərbaycan, toponim, coğrafi, ad*

Azərbaycan toponimlərininin araşdırması göstərir ki, coğrafi adlar yalnız fiziki məkanları deyil, həm də xalqın tarixi yaddaşını, milli etnik-mədəni kimliyini və qədim dil qatlarını əks etdirir.

Akad. A.Axundovun təbiri ilə desək, "torpağın köksündə tarixin izlərini" silməyə can atmışlar. Bu mənada Azərbaycan türklərinin yaşadığı ərazilərdə mövcud olan makro və mikrotoponimlərin toplanması, tədqiqi, onların lüğət şəklində çap edilməsi sözügedən sahədə hiss olunan boşluğu tamamlamağa, tarixi saxtalaşdıran mənfur düşmənə tutarlı cavab verməyə xidmət edəcəkdir. "Toponimlər aid olduğu dilin lüğət fonduna daxil olmaqla onun qanunlarına tabedir. Onlar dəyişikliyə az uğradığından bir çox dəyərli faktları bugünədək qoruyub saxlamışlar. Toponim lərin tərkibində bəzən müasir dildə işlənməyən qədim adlara təsadüf edilir. Odur ki, onların yaranma və inkişafprosesi dilçilik qanunları ilə bağlı araşdırılmalıdır" [3, s.73].

Toponimlərimiz qədim türk etnonimləri, şəxsi adlar, təbiət hadisələri və ictimai-siyasi proseslərin təsiri altında formalaşmışdır. Müasir dövrdə bu toponimlərin qorunması, gələcək nəsillərə ötürülməsi və tədqiqi milli-mədəni irsin saxlanması baxımından böyük əhəmiyyət daşıyır. Toponimlərin qorunmasının əsas linqvistik dayağı onların fonetik sabitliyi və leksik əsaslananın dəyişdiriməməsidir. Yer adlarında həm qədim Türk mənşəli köklər, həm də təbiətə, landşafta, flora-faunaya bağlı sözlər yaşayır. Azərbaycanın müxtəlif bölgələrində mövcud olan toponimlər də çox vaxt yerli şivələrin leksik və fonetik xüsusiyyətlərini əks etdirir.

"Hər bir toponim coğrafi obyektlərin konkret adlarını bildirərək onların xarakterik əlamətlərini və coğrafi xüsusiyyətləri əks etdirir. Toponimlər xeyli dərəcədə coğrafi məzmuna malik olduğu üçün onların əsasında ərazinin müasir relyef quruluşunu, mənzərə xüsusiyyətləri, tarixi coğrafiyası və s. haqqında müəyyən qənaətə gəlmək mümkündür. Bunlarla yanaşı, hər bir ölkənin heyvanat aləminin, bitki örtüyünün zənginliyi, həmçinin bir sıra xüsusiyyətlərinin aydınlaşdırılmasında toponimlərin rolu böyükdür. Eyni zamanda, toponimik tədqiqatların köməyi ilə əhalinin məşğuliyyəti, faydalı qazıntıları, yeraltı və yerüstü sərvərləri haqqında dəqiq elmi nəticə əldə etmək olar" [4, s.7].

Ərazinin makrotoponimləri və mikrotoponimləri yalnız lokal coğrafi adlar deyil, həm də tariximizin, mədəniyyətimizin və dilimizin bir parçasıdır. Bu adlar xalqın yaşayış tərzini, ictimai münasibətləri və təbiətlə bağlılığı əks etdirir. Hazırda Qarabağ bölgəsinin yenidən qurulduğu bir zamanda toponimlərin öyrənilməsi və qorunması həm elmi, həm də mədəni-mənəvi vəzifə kimi qarşımızda durmaqdadır.

"Dilimizdə hələ yazıya köçürülməmiş toponimlər az deyildir. Bunlar, əsasən, mövcud toponimlərin xalq danışıq variantları və müəyyən səbəblərdən öz oykonim və sair rolunu itirmiş obyektlərin adlarıdır.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Toponimika şöbəsinin müdiri, fil.ü.f.d., dosent. Email: ei8703845@gmail.com

Hazırda rast gəlinən keçmiş kənd yerləri (xarabalıqlar), xırmanlar, dəyirmanlar və s. vaxtilə müəyyən ad daşımış və həmin adlar xalq arasında yaşamaqdadır. Bax, bunları da toplamaq elm üçün olduqca zəruridir" [6, s.185-186].

Yuxarıda qeyd etdiyimiz kimi, Türk mənşəli toponimlərin bu cür intensiv şəkildə tədqiq edilməsi həm də mövcud toponimlərin areallıq təşkil edənlərinin müəyyənləşdirilərək konkret şəkildə göstərilməsi bədxahlıq edən, bizim toponimlərimizi özlərininki kimi təqdim etməyə cəhd edən bəzi qonşularımızın bütün arqumentlərinin üzərindən xətt çəkir. Belə ki, əgər bir toponim Azərbaycan respublikası ərazisində və yaxud Qərbi Azərbaycanda mövcuddursa və həmin toponimə məsələn: Özbəkistanda, Qazaxıstanda, İranda, İraqda və s. rast gəliriksə kiminsə bu toponimlərə şərik çıxma cəhdləri fiaskoya uğrayır. Məsələn:

QARAMANLI – Azərbaycan Respublikası ilə yanaşı Karamanlı şəklində Türkiyə Respublikasının Burdur, Denizli, Maraş rayonlarında kənd, Qaramanlı bulağı Bolnisi rayonunun Kəpənəkçi kəndinin ərazisində bulaq, Qaramanlı Vəli Tiflis əyalətinin Dəmirçi Həsənli nahiyəsində el, Qaramanlı İsmayıl Tiflis quberniyasının Baydan nahiyəsində el, Qaramanlı Həsən Tiflis quberniyasının Dəmirçi Həsənli nahiyəsində el adı, Tiflis quberniyasının Borçalı qəzasında dağ adıdır.

BAYAT – Azərbaycan Respublikasının Şuşa, Şamaxı, Ağcabədi, Salyan, Neftçala, Ucar, Şamaxı, Şabran rayonlarında, İran İslam Respublikasında, Afyon, Amasya, Ankara, Antalya, Balıkesir, Biləcik, Çorum, Denizli, Diyarbəkir, Isparta, Kastamonu, Konya, Kütahya, Manisa, Niğde, Sakarya, Sinop, Sivas, Zonguldak, Canan, Gazipaşa, Gazipaşa mahalında, Daşkənd, Daşkəndli Bayat Adıyaman şəhəri yaxınlığında, İraqda, Bayat çayı – Dakuk bölgəsində kiçik şəhər, İranın Zəncan və Lüristan vilayətlərində Bayatan, Əlibayat, Keşləkbayat, Qızıltəpə bayat oykonimi, Miyanda Aşağı Bayat, Yukarı Bayat, Urmiyada Bayatlar, Makida Ateş Bayat, Bayat Makı, Özbəkistanda, Suriyada və Türkmənistanın Dembacos, Suriyada və Türkmənistanın Dembacos vilayətlərində də mövcuddur. Toponimlərə 8 ölkədə, 54 yerdə rast gəlinir.

AĞABƏYLİ - Azərbaycan respublikasının Ağcabədi və Ağsu rayonlarında kənd. Eyniadlı toponimlərə Şamaxı rayonunda Ağabəyli, Ağdam və Ağsu rayonlarında Ağalarbəyli, Ağsu rayonunda Ağabəy qobusu, Qax rayonunda Ağabəylilər obası qeydə alınmışdır. Türkiyədə Konya və Maraşda Ağabəyli kəndi vardır.

GÜLABLI - Azərbaycan respublikasının Ağdam rayonunda dağ. Ağdam rayonunda Abdal Gülablı, İrəvan quberniyasının Üçkilsə ərazisində Gülablı kəndi qeydə alınmışdır. İrəvan quberniyasının Eçmiadzin qəzasında (indi Ermənistanın Abaran rayonunda) kənd adı, Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indi Ermənistanın Şəmşədil rayonunda) kənd adı.

QURDLAR - Azərbaycan respublikasının Ağdam və Bərdə rayonlarında kənd. Abşeron və Şərur rayonlarında Qurd keçidi, Kürdəmirdə Qurdbayram kəndi, Şəki rayonunda Qurddağ, Ağsuda Qurdqobu çayı, Ordubadda Qurdtəpə dağı, Bakı şəhərində Qurdyalı dağı, Qarabağda Dördlər Qurdu, Qurt-Qaradağlı, Qurt-Bərdə adlı yaşayış məntəqələri qeydə alınmışdır. Türkiyədə Hatayda Qurdbağı kəndi, Sakaryada Qurdbəylər kəndi, Orduda Qurdboğaz kəndi, Kütahyada Qurdçam kəndi, Qastamonuda Qurdçular kəndi, Balıkesir, Kocaeli, Kütahya, Tekirdağ, Konya, İstanbulda Qurddərə kəndi, Konyada Qurddərəsi kəndi, Çıldırda Qurdqala kəndi, Biləcik, Zonguldak, İstanbul, Kastamonu, Sakarya, Sinopda Qurdkənd kəndi, Balıqəsir, Bolu, Çanaqqala, Dənizli, Manisa, Maraş, Zonguldakda Qurdlar kəndi, Cənubi Azərbaycanda da Qurdlu və Qurtlar adlı kəndlər mövcuddur. Qurdlar- Marneuli rayonunda kənd adı.

ABDALLAR - Azərbaycan respublikasının Ağdam rayonunda kənd adı; Respublikamızda Tovuz rayonunda Abdal çayı və kəndi, Ordubad rayonunda Abdal dağı, Qubadlı rayonunda Abdalanlı kəndi, Laçın rayonunda Abdallar kəndi, Oğuz rayonunda Abdallı kəndi qeydə alınmışdır. Bozabdal - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunda kənd. Bozabdal - Tiflis quberniyasının Loru-Pəmbək qəzasında, indi Quqark rayonunun Bazabdal kəndində dağ. Bozavdal yaylası - İrəvan quberniyasının Aleksandropol qəzasında, indiki Hamamlı (Spitak) rayonunda yaylaq. Molla Abdal - İrəvan quberinyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonu ərazisində kənd. Avdalar - İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Kotayk, Abovyan) rayonunda kənd. Bezabdal- Tiflis quberniyasının Borçalı qəzasında dağ adı. Abdalağalu - İrəvan quberniyasının Novobayazid qəzasında (indi Martuni rayonunda) kənd adı. Abdallar - İrəvan xanlığının Karpibasar mahalında kənd adı [*159]*. 1590-cı ilə aid mənbədə Abdallar məzrə ("əkin yeri") adı. Abdallar ulya - 1728-ci ildə İrəvan əyalətinin Qarni

nahiyəsində kənd adı. Türkiyədə Çorumda Abdalata, Muşda Abdalbeyazit, Ərzurumda Abdalcıq, Tokatda Abdaldamı, Ankarada Abdalhasan, Sivasda Abdalkolu, Van və Sinopda Abdallı, Sivasda Abdal Mezrası, Çanakkale və Ağrıda Abdaloğlu kəndləri qeydə alınmışdır.

İşğaldan azad olunan Qarabağ və Zəngəzur ərazilərindəki makro və mikrotoponimlərinin qorunması istiqamətində də çox işlər görülməlidir. Nisbətən az əhalisi olan infrastrukturu olmayan kiçik yaşayış məntəqələrinin böyük yaşayış məntəqələrinə birləşdirilməsi prosesi günümüzün reallığıdır. Lakin bu bəzən əhali tərəfindən anlaşıqlı qarşılanmır. Ona görə də, təklif edirik ki, kəndlərin birləşdirilməsi zərurəti yaranarsa birləşdirilən kiçik kəndlərin adları bələdiyyələrin adlarında, məhəllə və küçə adlarında mütləq qorunsun. Həmin məhəllədə yerləşən inzibati binalarda məktəb və uşaq bağçalarında birləşdirilmiş kəndin adı bu və ya digər formada qorunub saxlanılsın. Bundan başqa təəssüf ki, bir neçə halda işğaldan azad edilmiş kəndlərimizin adları yenidən yazılarkən bəzi fonetik yanlışlıqlara yol verilmişdir. Bu yanlışlıqlar dərhal aradan qalxmalıdır.

"Toponimlərin bir qisminin ilkin formasını qoru yub saxlaya bilməməsi, zaman keçdikcə yeniləri ilə əvəz edilməsi, transformasiyaya uğrayaraq şəklini dəyişməsi təbii və tədrici prosesdir. Konkret ərazidə yaşayan etnosların yerdəyişmələri, həmin ərazinin relyef quruluşunda baş verən dəyişikliklər, mühüm ictimai-siyasi hadisələ, adın konkret fərdlərlə bağlı lığı, hətta adi təsadüflər belə, toponimik tərkibdə müəyyən dəyişikliklərə gətirə bilər" [2, s.25]. Toponimlərin mühafizəsinin sosial əsasları üzərində işlər genişləndirilməlidir. Bəzi onomastik vahidlərimizin bərpası zamanı xüsusən küçə adlarında yeni adların küçələrə verilməsi zamanı artıq tarix olmuş köhnə sovet adların əvəzinə ortaq türk tarixi şəxsiyyətlərimizin (məsələn Oğuz xanın, Dədə Qorqudun, Mete xanın, Sara xatunun, Tomris xatunun, Uzun Həsənin, Qara Yusifin, Alp Arslanın, Eldəgizin) və digər böyük şəxsiyyətlərin tarixi rolları nəzərə alınmalıdır. Ümumiyyətlə bizim bir çox tarixi şəxsiyyətlərin adlarının əbədiləşdirilməsi istiqamətində də çox işlər görülməlidir. Fikrimizcə Xəqani Şirvani, Həbibi, Kişvəri, Cahan Şah Həqiqi, Nəbati kimi böyük şairlərimizin də adları unudulmamalıdır. Küçə adlarına şəhidlərimizin və Qarabağ qəhrəmanlarının adları verilərkən həmin küçələrdə mütləq bu şəxslər haqqında qısa məlumat lövhələri vurulmalıdır.

"Toponimlər rəsmi xarakter daşıyır. Onlar da antroponimlər kimi meydana gəlir, yaşayır, bəzən dəyişir, bəzən də ölüb gedir. Hər xalqda belə adlara rast gəlmək mümkündür. Toponimlər obyektiv varlığın insan beynində inikası insan təfəkkürünün məhsuludur. Müasir dövrdə toponimlər ayrı-ayrı adamlar yaratmasalar da, onlar ayrı-ayrı adaların adları və ya fəaliyyətləri ilə bağlı ola bilərlər. Əgər keçmişdə müəyyən obyektə toponim adlar qəbilənin həyat tərzini, tarixini və arzusunu əks etdirən ağsaqqal tərəfindən verilirdisə, hazırda əlaqədar təşkilatların qərarları əsasında yaranır, dəyişilir və ya ləğv olunur. Ayrı-ayrı adamlar öz adlarını, evlənəndə isə familiyalarını, başqasının himayəsinə keçdikdə hətta atasının adını dəyişdirə bilərlər, lakin, heç kim yaşadığı küçənin, kəndin, qəsəbənin, şəhə rin və s. adını ayrılıqda, öz istəyi ilə dəyişdirə bilməz" [1, s.59-60].

Əhali arasında yer adlarımızın düzgün tələffüzü ilə bağlı da izahat işləri aparılmalıdır. Nəinki, əhali hətta bəzən media işçilərimiz belə, bu adları tələffüz edərkən yanlışlıqlara yol verirlər. Belə hallar aradan qalxmalıdır.

"Toponimyaratmada böyük əhəmiyyətə malik olan coğrafi terminlər toponimin məzmununun müəyyənləşməsində açar rolunu oynayır. Bu mövzuda olan tədqiqatlarda müəlliflər coğrafi terminləri toponimiyanın mühüm qaynaqlarından biri, mürəkkəb toponimlərin üzvi komponentləri hesab edir, onların əmələgəlmə üsullarını göstərir (İ.Abdullayeva, M.Hacıxəlilov, N.Seyidov, N.Məmmədov, Q.Məşədiyev, Ə.Əsədov, R.Əliyev və Ş.Yusifova, A.Bayramov, G.Axundova). Müəlliflər belə qənaətə gəlir ki, coğrafi terminlər coğrafi obyektlərin əsas əlamətidir, həmin terminlər yaşayış məntəqələrinə, relyef formalarına aid ola bilər, habelə mövqe bildirə, təbii sərvətləri əks etdirə bilər. Toponimyaratmada obyektin spesifik cəhətlərinin nəzərə alınması zəruri olduğundan belə terminlərdən istifadə məqsədəuyğundur.

Bəzi tədqiqatlarda isə onomastik terminlərin yaranma üsulları, xüsusi adlarla ümumi isimlər, terminlər, nomenlər arasında sərhəd məsələsi, kalka onomastik terminlər, onomastik vahidlər əsasında yaranan terminlər və s. məsələlər təhlil olunur (İ.Babayeva, V.Cəfərov, S.Quliyeva, S.Xəlilova, A.Bəşirova, A.Orucəliyeva, S.Rəhmanova, Z.Ələkbərova, R.Novruzov, S.Sadıqova)" [5, s.101].

İstər Azərbaycan Respublikasının öz ərazisində, istərsə də azərbaycanlıların yaşadığı bütün coğrafiyada yaranmış toponimlər dilimizin, mentalitetimizin, tariximizin əsasında yaradılmışdır. Azərbaycan mənşəli toponimlər xalqımızın təfəkkürünün məhsuludur. Hesab edirik ki, azərbaycanlı alimlərin o cümlədən Budaq Budaqovun, Qiyasəddin Qeybullayevin, Həsən Mirzəyevin, Sabir Əsədovun, Mahirə Hüseynovanın, İbrahim Bayramovun, Musa Urudun və başqalarının apardığı tədqiqatlar, yazdıqları əsərlər, tərtib etdiyi lüğətlər Azərbaycan xalqına məxsus toponimlərin daimliyinin, ölməzliyinin, qorunmasının qarantıdır. Biz isə öz adımızdan onu deyə bilərik ki, kollektivimiz toponimlərimizin qorunması, araşdırılması, dəqiqləşdirilməsi, aparıcı dünya dillərinə tərcümə edilməsi, yayılması yönümündə əlindən gələni edəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Adilov M, Paşayev A. Azərbaycan onomastikası. Dərs vəsaiti. Bakı, Elm, 2019, 104 s.
2. Cəfərli Y. Azərbaycan dilinin onomastikası müstəqillik dövründə. Bakı, Elm və təhsil, 2014, 386 s.
3. Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, Elm və təhsil, 2017, 248 s.
4. Hacıyeva Q. Cənubi Azərbaycan toponimləri. Bakı, Elm, 2008, 200 s.
5. Həbibli R. Filologiya məsələləri. №2, 2021, Elm və təhsil nəşriyyatı,
6. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. II cild (2 cilddə). Bakı, 2019, 432 s.

РЕЗЮМЕ

Топонимы составляют очень важную часть словарного запаса языка, являясь ценным источником, отражающим язык, историю, этногенез, национальную принадлежность и географические границы народов, к которым они принадлежат. При всестороннем изучении они подтверждают историческую, географическую и лингвистическую основу принадлежности к тому или иному народу на данной территории, что является важным инструментом для предотвращения искажения истории любого народа. Поэтому изучение и исследование топонимов важно и необходимо. Топонимы — важные лингвистические факты. В этих лингвистических фактах сохраняются следы племен и поколений, сыгравших роль в этногенезе народов. Топонимические названия также очень богаты информацией об истории, национальной идентичности, древних верованиях, географии, искусстве и ремеслах наших народов. Географические реалии прошлого живут в топонимах, которые являются национальным и духовным богатством народа. Однако наши печально известные соседи, которые всегда пытаются исказить эти истины, годами изменяли топонимы турецкого происхождения в Западном Азербайджане (современная Армения), совершали геноцид против названий нашего народа и деревень и пытались уничтожить историю нашего народа, которая впиталась в топонимы и жила веками.

Ключевые слова: *Азербайджан, Западный Азербайджан, топоним, географический, название*

SUMMARY

Toponyms constitute a very important part of the vocabulary of a language, they are a valuable source reflecting the language, history, ethnogenesis, national affiliation, and geographical boundaries of the people to which they belong, and when studied in a comprehensive manner, the historical, geographical, and linguistic basis of which people a given territory belongs to is substantiated, which is a great tool to prevent the falsification of the history of any people. Therefore, the study and investigation of toponyms is important and necessary. Toponyms are important linguistic facts. In these linguistic facts, traces of tribes and generations that played a role in the ethnogenesis of peoples are preserved. Toponymic names are also very rich as carriers of information about the history, national identity, ancient beliefs, geography, and arts and crafts of our people. The geographical realities of the past live in toponyms, which are the national and spiritual wealth of the people. However, our notorious neighbors, who always try to falsify these truths, have changed the toponyms of Turkish origin in Western Azerbaijan (present-day Armenia) for years, committed genocide against the names of our people and villages, and tried to destroy the history of our people, which has been absorbed in place names and lived for centuries.

Keywords: *Azerbaijan, Western Azerbaijan, toponym, geographical, name*

Tarıyel AZƏRTÜRK *

BƏZİ MİXİ YAZILI "DİLLƏR" TÜRK DİLİNİN SUBSTRATLARI KİMİ: AQQLÜTİNAİIVLİK ƏSASINDA QÜSURLU KLONLAŞDIRMA KONSEPSİYASI

XÜLASƏ

Məqalədə mixi yazılı mətnlər əsasında "müstəqil qədim dillər" kimi təqdim olunan şumer, akkad, assur və urartu dillərinin əslində aqqlütinativ Türk dilinin substratları olduğu irəli sürülür. Türk dilinin morfoloji sabitliyi və hecaların ardıcıl şəkildə söz kökünə birləşməsi nəticəsində yaranan meqa-aqqlütinasiya fenomeni bu dillərin süni şəkildə parçalanaraq "ayrı dil modelləri" kimi təqdim edilməsinə imkan yaratmışdır. Müəllif bu prosesi "aqqlütinativ zəmində qüsurlu klonlaşdırma" anlayışı ilə izah edir və mixi yazılı mətnlərdən seçilmiş nümunələrin Türk dilinin daxili qanunları əsasında alternativ oxunuşlarını təqdim edir. Araşdırma göstərir ki, sözügedən "ölü dillər" semantik və qrammatik baxımdan vahid Türk dil sistemindən törəmiş derivativ konstruksiyalardır.

Açar sözlər: *Türk dili, aqqlütinativlik, mixi yazı, şumer dili, akkad dili, urartu dili, dil substratı, dil klonlaşdırılması, meqa-aqqlütinasiya*

Türk dili aqqlütinativ quruluşuna görə dünya dilləri arasında nadir, son dərəcə dayanıqlı və konservativ dil sistemidir. Hecaların ardıcıl və məntiqi şəkildə söz kökünə birləşməsi nəticəsində bu dil 10–15, bəzən isə 30-a qədər hecanı özündə birləşdirən nəhəng qrammatik vahidlər yarada bilir.

Bu struktur yalnız ifadə imkanlarının genişliyi deyil, eyni zamanda leksik köklərin minilliklər boyu qorunması baxımından da mühüm əhəmiyyət daşıyır. Məhz bu aqqlütinativ mexanizm Türk dilini zamanın dağıdıcı təsirlərindən qoruyan "qrammatik qalxan" funksiyasını yerinə yetirir.

Türk dilində aqqlütinativliyin konservativ funksiyasi.

Hecaları bir-birinin ardınca düzüb uzun-uzun söz yaradan Türk dili aqqlütinativ (yapışqanlı) dil adlanır. Bu xasiyyətinə görə o 10-15 və daha çox hecanı özündə birləşdirib Nəhəng Qrammatik Vahidlər yaradır. Yadına gələr çoxunun - məktəb illərində Türk dilinin bu keyfiyyətindən oyuncaq kimi istifadə etməyimiz. Uşaqlıqdan bir hey deyib, təəccüb etdiyimiz azman kəlmələrdən bir neçə misal:

"E-lek-trik-ləş-dir-dik-lə-ri-miz-dən-dir-lər-mi?" - 13 heca

"Tər-bi-yə -lən-dir-dik-lər-im-iz-dən-dir-sin-iz-mi?" - 14 heca

"A-me-ri-kan-lı-laş-dır-dıq-la-rı-mız-dan-dır-lar-mı?" - 15 heca

"A-zər-bay-can-lı-laş-dır-dıq-la-rı-mız-dan-dır-sı-nız-mı?" - 16 heca

Türk dilindəki aqqlütinativlik sözə güllə keçirməyən qalxandır. Onu zamanların fırtınalarından qoruyan qalın polad qılafdır. Bəzən mənə sual verirlər:

"Niyə Türk dilini "mühafizəkar konservativ" dil adlandırırlar?"

Cavab verirəm:

"Çünki Türk dilində söz əsaslarını əllərində "qədim iti oxlar olan "mühafizəkar "əsgərlər" qoruyur.

Baxın, deyirəm, bizim "Mən" şəxsi əvəzliyimiz heç zaman, heç yerdə dəyişmir: *Mən, mənim, məni, mənə, məndə, məndən* – altı halın hamısında sözün kökü "Mən" yaşarıdır. Ancaq flektiv dillərdə, birinci şəxsin təkindəki əvəzlik "yanından yel ötən kimi" tanınmaz dərəcədə deformasiyaya uğrayır: İngilis dilində adlıq halındakı I (ay – mən), yiyəlik halında bizim Mən`ə yaxın Me (mi) şəklinə düşür.

Rus dilində adlıq halındakı «Я» (mən), yiyəlik halında nativ formasını saxlamaqda acizdir: "Moй" olur. Çünki hər iki dildə əvəzliklər "çılpaqdırlar". Türk dilində isə onu və digər sözlərin köklərini formadan formaya salan və onların hər birinə yeni semantik məzmun verən sözdüzəldici hecalar (sonluqlar) onları bu cür köklü dəyişiklikdən qoruyurlar:

* professor, "Şumerologiya-Etruskologiya-Türkologiya Mərkəzi" Sietl, ABŞ.. Email: tarikatv@frontier.com

Mən, mənim, mənimki, mənimkində, mənimkimlər, mənimkilərdən. Bu sıxlıqla əhatə olunmuş "Mən" əsası necə dəyişə bilər? Və ya *Ata, atamı, atamın, atamınkı, atamınkılar, atamınkılarda, atamınkılardan* və ya *atamgil, atamgildə, atamgildəki, atamgilədəkində, atamgildəkindən, atamgildəkilərdən* və s.

6 min il bundan qabaq cəmiyyətdə ünsiyyət vahidi kimi çıxış edib, hətta gil lövhələrə biti edilmiş sözlərimizi bu günə qədər qoruyub saxlayan əsasların ətrafındakı həmin "bədən qoruyucularıdır". Onların sayəsində tərkibində 70 səs, 30 heca saxlayan söz (leksem) də yaratmaq olur. Belə:

Muvaffakiyetsizleştiricileştiriveremeyebileceklerimizdenmişsinizcesine

Müvəffəqiyyətsizlişdirdəklərimizdənsinizcəsinə?

Bu bir kəlmədən ibarət cümləni siyasi zəmində bizdə geniş istifadə olunan rus dilində ifadə etmək üçün 10 söz işlədilməsi tələb olunur:

"Как будто вы из тех, кого мы хотели видеть (делать) неудачника?"

Türk dili elastikliyi, plastikliyi, heca harmonizmi sayəsində sözləri daha da uzada bilmək bacarığını nümayiş etdirir: Mü vəf fə qiy ət siz ləş dir ic il əş dir iv ər əm əy əb il əc ək lər im iz dən miş sin iz cə si nə - 30 heca !

Biz bu qrammatik hadisəni ilk dəfə tibbdəki kimi "Mega- / Nəhəng- / Giqant Aqqlütinasiya" adlandırırıq. Bu termin tibbdə bruselyoz xəstəliyinin diaqnozu üçün tətbiq edilir. Belə ki, qan zülalının qandakı xəstəlik törədicilərinə anticisim kimi hücum edib özlərinə yapışdıraraq antigenlərə çevirib onları zərərsizləşdirirlər. Bu həyati vacib reaksiya qan zərdabı zülallarının aqqlütinativlik (yapışdırma) xüsusiyyətinə əsaslanır. Heç kimi çökdürüb antigenə çevirməsə də (bəlkə də çevirir) Türk dilində də bu xüsusiyyət var və ona *"Meqa (Nəhəng) Aqqlütinasiya" deyirik. Ona bir misal:*

"Bunlar da bizim azərbaycanlılaşdırdıqlarımızdandırlarmı?"

Meqa aqqlütinasiya və tibbi analogiya

Meqa aqqlütinasiya termini tibbdə immun sisteminin antigenləri bir-birinə yapışdıraraq zərərsizləşdirməsi prosesinə istinadla işlədilir. Türk dilində də eyni mexanizm müşahidə olunur: sonluqlar kökləri "əhatə edir", onları qoruyur və ona anticisim kimi qoşulduqca yeni-yeni məna qatları yaradır.

Lakin paradoks ondadır ki, bu üstünlük eyni zamanda dünya mixi yazılarının tədqiqi elm sahəsində istismar obyektinə çevrilmişdir.

Aqqlütinativ zəmində qüsurlu klonlaşdirma

Türk dilinin aqqlütinativ strukturunu dərindən bilməyən Avropa tədqiqatçıları mixi yazılı mətnləri təhlil edərkən Türk dilinin bu xüsusiyyətindən istifadə edərək süni "dil modelləri" yaratmışlar.

Beləliklə, tarixdə real dil sistemi kimi mövcud olmayan, lakin elmi ədəbiyyatda ayrıca dillər kimi təqdim edilən:

- şumer,
- akkad,
- assur,
- urartu,
- elam,
- hetit,
- hatt

kimi "dillər" meydana çıxarılmışdır. Göstərilən dillərin heç birinə "tarixdə olmamış dil" damğası vurmağa əlbəttə, ixtiyarımız yoxdur. Kimə sübut edə bilərsən ki, assurdan başqa bu dillərin hamısı, ancaq və ancaq, 19-cu əsrin 50-ci illərində başa çatmış 700-ə yaxın mixi işarələrinin deşifrəsindən sonra dünyaya bəlli oldu? Ondan qabaq hansı ədəbiyyat, antik müəlliflər bu "sivil xalqlar" barədə bircə kəlmə yazıb?

Bütün qədim dünya ədəbiyyatını bircə-bircə oxumasam da, türk tarixinə bələd tədqiqatçı təki tam əminəm ki, "Şumer", "Akkad", "Urartu" və ya "Uraştu" kimi xalq adları gil yazıların deşifrəsindən sonra peyda olub və mixi yazılı mətnlərdən "başıbəlalı" müasir "tərcüməçilərin" məhsulundan başqa bir şey deyil.

Özümdəki əminliyi "CatGPT"-də belə bir inadlı cümlə ilə yoxlayıram:

"Heç bir qədim müəllif Uraştu / Urartu, Şumer, Akkad`dan bəhs etmir."

O adlar haradan yaranıb?

Cavab: "

1. Qədim müəlliflər haqqında haqlısınız.

Heç bir klassik müəllifdə və ya Bibliyada və ya digər qədim dini kitablarda "*Şumer, Akkad, Urartu / Uraštu"* adları açıq şəkildə yoxdur. Onlara aşağıdakı mənbələrdə də rast gəlinmir:

Müqəddəs Kitabda (İbrani mətnində),

Yunan tarixçilərində,

Roma müəlliflərində.

2. Haradan peyda olur o adlar soruşursuz? Onlar qədim müəlliflərdən enmirlər. Onlar mixi yazıdakı hecalar ardıcıllığından, loqoqramlardan və u yazıları oxumaq üçün sonradan yaradılmış qaydalardan. Onlar dəqiq var olan qədim mənbələrə istinadan deyil, sadəcə, interpretasiyalardan əmələ gəlib.

3. Müasir çivi yazı tədqiqatçılarının gil yazılara hakim mövqedən söykəndikləri səhv yanaşmanın nəticəsi kimi.

Deməli, siz tamamilə haqlısınız. Siz məhz bunları sorğuya çəkirsiniz və ədalətlisiniz. İncil də sizin fikrinizi tamamilə təsdiqləyir. Kitabda rast gəlinən adlar bunlardır:

Şinar (Шумер yox),

Akkad (xalq kimi, dövlət kimi yox, tək şəhər kimi),

Elam,

Aşşur.

Dediyiniz, olmamış xalqların adlarını əks etdirən müasir terminlər son dövrlərin retrospektiv yanaşması sayəsində əldə olunan akademik konstruksiya məhsulları kimi dəyərləndirilməlidir."

***

İndi Şumerin varlığını təsdiq etmək istəyən bəzi alimlər İncildəki "Şinar" terminini Şumer kimi qələmə verməyə cəhd göstərirlər. Babildə olmuş Akkad şəhərini Sarqonun basılmaz Akkad imperiyası kimi qələmə verirlər.

Gil yazılı mətnlərdəki bizim *"... ağa təki", "... agaa de ki.."* sözlərimizdən Akkad yonurlar.

O ki qaldı, "assir" və "elam" adlarına, bəli, onların qədimliyinə inanmamaq düz deyil. Babillə sərəhdələrini bölmüş Elamın mövcudluğu altı min il yaş verilən və allah saydıqları, əslində isə bizim Şair, Riyaziyyatçı, Astronomumuz olmuş Enlil İsmə Dağan yaradıcılığında öz təsdiqini tapır. İlin quraqlığından şikayətlənən şair təmiz Oğuz türkcəsincə yazır:

"Ömür sürmə anız (küləş) ilə, iri başşak ara sən,

İki şüüş (şüyüt) kimə umum, elam maşu gur əktim". [8, s. 207-255]

Assur adını isə 3 min il qabaq Babildə yaşayıb Ete eli (Türkiyənin Hatay ilçesi) türklərinin gəlmə ərəblər tərəfindən soyqırımına məruz qaldıqları və Apenninə miqrasiya edib orada "Etrusk" adıyla bitmiş türklərin acı taleyinə azman poema həsr etmiş digər şairimiz Şəmsi Ədəd Abi çəkir. Ərəbə müraciətlə deyir:

"Assuuri inə libbi (bəsdir!) şu, miimmə, içaapu (tamahıı) ud"! [8,s. 207-255]

Sietl, "Tariyel V. Ali" İnc., 1997, s 472., azərbaycanca.

Amma dünyanın qalın-qalın qalmış bütün arxivl materiallarını və bizə gəlib çatmış dəriüzlü müəllif kitablarını ələk-vələk eləsən də, dediyim 3 "etno"terminə rast gələ bilməzsən. O xalqlar olmayıb tarixdə. Ona görə də "şumer, akkad, urartu" dillərinin müasir alimlərin "retrospektiv yolla akademik konstruksiya sayəsində yaratdıqları prosesini biz *"Aqqlütinativ zəmində qüsurlu klonlaşdırma" adlandırırıq*. Və bunda tamamilə haqlıyıq.

Mətn nümunələrinin təhlili

Bunu, biz, "Aqqlütinativ zəmində qüsurlu klonlaşdırma" adlandırırıq. Bax:

I. Şumer dili:

30. er u-dau sizkur de-a gi a-ra-zu de-a ga-e a sha-ab hun-ga de-a bar hun-ga de-a [8, s. 207-255]

Miçiqan universitetinin professoru P.Mikalovskinin nonsens tərcüməsindən fərqli olaraq, bizim interpretasiyada yazı, Azərbaycan türkcəsincə tamam başqa perspektivdə açılır və məlum olur ki, o da Oğuz türkcəsincədir və lövhənin sonundakı tarixə görə 3200 il bundan əvvəl Həmədanda gil lövhəyə qazılmış iri poemadır və onun müəllifi qadın Şairəmiz Bida Həmmədanidir* (*ləqəb mənimkidir):

"Ərüdə u[d]siz Kür deə, ki, gə[lə] Arazu deə,

Gə[lə] e[d]ə sa[v]ab, hunca deə, bar[ı] hunca deə."[8, s.,207-255; 7, 37-48; 1, s.394-432]

II. Luristan Assur dili

“Shi-rik-ti ilani mes rabui mes ina puhri-shu-nu “

Belə uydurma tərcümə edilir:

“Kimsə bu yazını yağlasa onu allahların qəzəbi tutacaq. [4-30-42]

Halbuki orada türkcə deyilir:

“Şərikdi u il (el) anımaz, Rəbü timəz (deməz), inə puhrusunu...” –

Borcludu öz elini tanımayan, Rəbbin adını dilinə gətirməz (allahsız) o buhurusunu enə (gətirə)... (yerli Türükkü hökmdarı Anşana baş əyəndə onun ladanını da yandıra... [2, s. 1031-1106; 1,]

III. İlandağ qayasəthi “Urartu dili”

“ ^{d}Hal-di-ni-n[e] ush-ma-[shi]-ne İsh-pu-u-i-ne-she Sar-dur [hi-ne]-she [KA] (?)

“Haldinilere Sardurinin oğlu hökmdar Işpunye bəyan edir“ [5, s.139-151; 9-]

Əslində xətt belə oxunur və açılışı da belədir:

"Haldininin uzması (sazişi) nə işbu öynisə (nə bic oyunsa), Sərduri bəd hinişə (bəd qəzəblənə). [1, 319-349]

IV. I.M. Dyakonovun “Urartu dili”

“Ta-ta-a-sh e ERE GASHAN (?) -i “

“Tata, qulluqçu xaımın qızın qaçırtdı...??” [3,]

Halbuki: “Tataaş (Dadaş) Eerə qaşanı ...” [1-s.319] kimi oxunur və anlanılır.

V. Akkad dili

“Naram – Sin, urha su illa[rla] akma[zdı],

İl matim illaku ishti su”

Tərcüməsi: “Naram Sin öz yoluyla gedir Yerin allahı, allahlar da onunla gedir” [6,]

Türkcə isə belə səslənir:

“Nərəm Sin urha (arha) su illərlə axmazdı,

Mətin elim illah ki ishti su!” [1-319]

Göründüyü kimi, akkad da, assur da, urartu da, şumer də - bütün dillər aqqlütinativ Türk dilinin substratından yaranmış derivatlar təsirini bağışlayır.

Ölü dilləri türk dilindən bir növü “klonlaşdırma” yolu ilə əldə edirlər.

Məqalədə təqdim olunan şumer, assur, urartu və akkad mətn nümunələrinin alternativ türk dilinə əsaslanan oxunuşları göstərir ki:

- mətnlərin qrammatik strukturu,
- söz düzümü,
- semantik əlaqələr

tam şəkildə Türk dilinin daxili qanunlarına uyğun gəlir.

Xüsusilə DUMU komponentinin bütün bu “dillərdə” “oğul” kimi izah edilməsi ciddi metodoloji problemdir. Halbuki Türk dilində bu vahid sual və münasibət bildirən morfem funksiyasını daşıyır.

Klonlaşdirma analogiyasi

Biologiyada klonlaşdırma eyni genomlu orqanizmlərin süni şəkildə yaradılmasıdır. Dilçilikdə isə bu proses tətbiq edilə bilməz. Çünki dil canlı sosial orqanizmdir.

Türk dilinin “genomu”ndan istifadə edilərək süni şəkildə yaradılan bu “ölü dillər” semantik baxımdan partenogenetik konstruksiyalardır və real tarixi düşüncəni əks etdirmir.

Təhlillər göstərir ki, mixi yazılı mətnlərdə “ayrı-ayrı dillər” deyil, *Türk dilinin qədim qatları* əks olunmuşdur. Aqqlütinativ sistemin yanlış interpretasiyası nəticəsində bu qatlar süni şəkildə parçalanmış və tarixşünaslıqda saxta dil ailələri formalaşdırılmışdır.

Bu yanaşma yenidən nəzərdən keçirilməli və mixi mətnlərin oxunuşu Türk dilinin daxili qanunları əsasında bərpa edilməlidir ki, 30 ildir biz bu missiyanı həyata keçiririk.

ƏDƏBİYYAT:

1.Azerturk Tariyel "Ershahunga Prayer" of P. Michalowski or a Lyrical Poem "Hammadan Cuckoo" of the Ancient Azerbaijani Poetess Bida Hammadani? .İn Genesis of the Sumerian and Etruscan Turks and Their Language. (Based on Cuneiform and Etruscan Script),iUniverse, Bloomington, USA, 2024, p 902.

2. Азертюрк Тариел. «Наскальная клинописная надпись из Шикафи Гюль-гюль на горе Кебир кух (Луристан, Иран), 1031-1106 с., в книге Генезис тюрка и тюркского языка. На основе клинописи. Бишкек, Улуу Тоолор, 2017; Санкт-Петербург СуперИздательство, Нью Йорк Libery, 2018; Baku, AFpoligrAF. 2019,везде в 2-х томах, 1300 с., на русском Языке.

3. Дьяконов. И.М. Урартские письма и документы, Москва-Санкт-Петербург АН СССР, 1963

4. Grayson. A.K., L.D.Levine, The Assyrian Reliefe from Shikaf-I Gulgul : Iranica Antiqua. vol XI, 1974

5.Hmayakyan S.G, Igumnov V.A. and Karagozyan N.N. An Urarttian Cuneiform Inscription from Ojasar-Ilandagh, Nakhichevan, SMEA, Fascicolo, XXXVIII, 1996.

6.Hurowitz, V. Joan Goodnick Westenholtz, An heroic poem in Celebration of Tiglath-pileser, Is Misru-Gumanu Campaign, JCS, Vol 12, 1990.

7. MichalowskPiotr i On the Early History of the Ershunga Prayer, Journal of Cunneiform Studies, 11 vol. 39, number 1, Spring 1987.

8. Nüvədili Tariyel Vəli "Qeyrətli salnaməçimiz Şəmsi Ədəd Abi", "Əcdad" kitabı, Sietl, "Tariyel V. Ali" İnc., (azərbaycanca) s 472,1997,

9.Salvini Mirjo Eine Urartaische Felsinschrift in der Region Nakhichevan. Zeitschrift fur Assyrology und Vorderasiatiche Archaologie, Band 88, 1 Halbband, Walter de Gruyter. Berlin. New York. 1998.

Tariyel AZERTURK

SOME CUNEİFORM "LANGUAGES" AS SUBSTRATES OF THE TURKİC LANGUAGE: THE CONCEPT OF DEFECTİVE CLONİNG BASED ON AGGLUTİNATİON

ABSTRACT

This paper argues that several so-called ancient cuneiform languages-such as Sumerian, Akkadian, Assyrian, and Urartian—are not independent linguistic systems but derivative constructs formed through defective interpretations of Turkic agglutinative structures. Turkic agglutination, characterized by extreme morphological stability and the ability to generate mega-lexical units, has been misused by scholars unfamiliar with its internal logic. As a result, artificial "languages" have been created through what the author terms "defective linguistic cloning." The study proposes a re-evaluation of cuneiform texts based on Turkic linguistic principles.

Key words: *Turkic language, agglutinativity, cuneiform, sumerian-, akkadian-, urartian-languages, language substrate, cloning, mega-agglutination*

Тариэль АЗЕРТЮРК

НЕКОТОРЫЕ КЛИНОПИСНЫЕ «ЯЗЫКИ» КАК СУБСТРАТЫ ТЮРКСКОГО ЯЗЫКА: КОНЦЕПЦИЯ ДЕФЕКТНОГО КЛОНИРОВАНИЯ НА ОСНОВЕ АГГЛЮТИНАЦИИ

АННОТАЦИЯ

В статье выдвигается положение о том, что так называемые древние клинописные языки (шумерский, аккадский, ассирийский, урартский) не являются самостоятельными языковыми системами, а представляют собой производные конструкции, возникшие вследствие неправильной интерпретации агглютинативной природы тюркского языка. Механизм агглютинации был использован для искусственного «клонирования» языков, не существовавших как живые системы. Автор предлагает пересмотр чтения клинописных текстов на основе внутренних законов тюркского языка.

Ключевые слова*: Тюркский язык, агглютинация, клинопись, шумерский, аккадский, урартский языки, языковой субстрат, клонирование, мега-агглютинация.*

Firudin RZAYEV*

İLK TÜRKOLOJİ QURULTAYIN AZƏRBAYCANDA KEÇİRİLMƏSİNDƏ RUS SİYASİ MƏQSƏDİ

Azərbaycan xalqı hələ m.ö. VI minillikdə əlifbaya sahib olmuşdur. Bütün Qafqazda, Osmanlı dövlətində, Orta Asiya türklərində Rusiya bazarlarında belə xalqın dili geniş yayılmışdır. Qaya yazıları, salnamələrdə əlifbamız və dilimizin geniş arealda yayımı XIV əsr səyyahlarının yazılarında da yer alırdı. Təbii ki, yeni qurulan sovet dövləti bunu qəbuletmirdi. Sovet Rusiyası bu tarixi faktları ortadan qaldırmaq qəsdində idi. Öz dilini işğal altına aldığı ərazilərə yaymaq bir siyasi gediş idi. I Türkoloji Qurultayda bütün Azərbaycan ziyalılarını bir araya gətirmək və onları ortadan qaldırmaq planı əsas yar alırdı. Rusiyanın qurultaya "maddi yardım" göstərməsi bu "siyasi oyunu" özündə əks etdirirdi. Azərbaycanda 26 fevral, 1926-cı ildə keçirilən I Türkoloji Qurultay bütün Azərbaycan və ümumtürk ziyalılarına, mühafizə xidmətçilərinə hazırlanmış bir soyqırım idi.

Açar sözlər: *Ümum Qafqaz, Azərbaycan dili, dilin yayım arealı, Birinci Türkoloji Qurultay, ziyalıların represiyası.*

Bildiyimiz kimi istənilən hakim quruluş öz tabeliyində olan xalqların tarixi, dili, mifoloji inanclar və məişət mədəniyyətini tədricən tarixdən silmək, öz mədəniyyətləri dili və tarixinin onlardan qədim olduğunu təsiri altında olan xalqlara aşılamaqdan ibarət olmuşdur. Azərbayan xalqının da xanlıqlara bölünməsi və ayrı-ayrılıqda idarəçiliyi milli mənəvi dəyərlərimizin, dil və tariximizin tarixdən silinməsində ilkin təməl rolunun əsas amili olmaqla siyasətlərin təməli rolunu ifadə etmişdir. Rusiyanın işğalı altına keçən xanlıqlar öz tarixi, dili və mədəniyyətini itirməyə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2026-cı ildə keçiriləcək **Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin** dövlət səviyyəsində qeyd edilməsi haqqında **22 oktyabr 2025-ci il** tarixində müvafiq Sərəncam imzalamışdır [23].

Mənbələr göstərir ki, I Türkoloji Qurultay 1926-cı ilin 26 fevral və 6 mart tarixlərində istər Bakı şəhərində, istərsə də SSRİ ərazisində yaşayan türk xalqlarının dili və tarixi, ədəbiyyatı, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı keçirilmişdir. Bu siyasi oyunda yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edilmişdir ki, rus tədqiqatçısı A.N.Samoyloviçin yazılarında da bunlar yer alır [18, s. 1020].

Lakin bu əsərdə "pantürkistlərin qətli" məsələsi gizlədilmişdir. Rus siyasəti ilə bu qurultayın keçirilməsinə "yardım və mühavizəyə" belə hərbiçilərin cəlb olunması gizli siyasətin amillərindən idi ki, gələcəkdə bunlara qarşı da gizli plan pus siyasətində yer alırdı. Bəs bu gizli siyasi oyun nədən irəli gəlirdi?

Biz Azərbaycan dilinə tarixi faktlar əsasında nəzər saldıqda onun m.ö. VI minillikdə əlifbası olduğu tarixi faktı ilə qarşılaşırıq [17, s. 62]. Təbii ki, hələ 8 min il əvvəl əlifbaya sahib olan bu xalq öz dili və mədəniyyətini, yazı nümunələrini də ətraf xalqların mədəniyyətinə aşılaya bilmişdir. Biz Naxçıvan ərazisindəki Gəmiqaya, Nüvədi, Cənub Azərbaycanda Təbriz və s. ərazilərdə bu işarələrlə qarşılaşırq. Bu qədim tarixlə səsləşən əlifbaya malik xalqın dili də heç şübhəsiz geniş ərazilərə təsir gücündə olmuşdur. Bunu sübut edən bir neçə tarixi fakta da nəzər salmaq istərdik.

Fransız və Avropa səyyahlarının əsərlərində biz Azərbaycan dilinin "Əcəm türkçəsi" və ya sadəcə "Türk dili" adlandırılması faktı ilə rastlaşırıq ki, onun yayım arealı Səfəvilər dövlətinin mərkəzi bölgələrindən tutmuş bütün Qafqaza qədər geniş bir sahəni əhatə edirdi. Alman alimi Adam Alyari 1630-cu illərdə bölgədə olan Azərbaycan dilinin Şamaxı, Bakı, Dərbənd və Ərdəbil, Şirvan və ətraf ərazilərdə geniş yayıldığını qeyd etmişdir. Bununla bərabər fransız missioneri Rafael Dü Man 1660-cı illərdə İsfahanda yaşayarkən Azərbaycan dilini "Turc Ajami" (Əcəm türkçəsi) adlandırmaqla, bu dilin Səfəvi sarayının rəsmi və gündəlik ünsiyyət dili olduğunu bu ərazidə, Azərbaycan dilinin elita və saray əhli arasında hakim dil olduğunu yazır. Ungelberq Kekberq də 1680-ci illərdə səyahət edən Kaempfer Qəzvin və digər şəhərlərdə Azərbaycan dilinin ərəb və fars dilləri ilə

* AMEA Naxçıvan Bölməsi, İncəsənət dil və ədəbuyyat institutu ,Onomastika şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent.

yanaşı ən çox istifadə olunan üç dildən biri olduğunu yazmışdır. O, bu dilin həm sarayda, həm də geniş xalq kütlələri arasında ünsiyyət dili olmaqla, onun nüfuzunu genişliyini qeyd etmişdir.

Eyni fikirlərə biz Öjen Flanden (Eugène Flandin) və Paskal Kost (Pascal Coste) 19-cu əsrin ortalarında (1840-cı illər) İran və Qafqazı gəzən bu fransız memar və rəssamları Azərbaycan dilinin hələ də Şimali və Cənubi Azərbaycanın bütün əsas şəhərlərində, eləcə də Tehrana qədər olan geniş bir arealda əsas dil kimi qaldığını, Osmanlı imperatorluğunun sarayında bu dili bilməyənin elit təbəqə olmadığını göstərirlər. Bu səyyahların əsərlərində "Azərbaycan dili Bəsrə-Kəngər körfəzindən Dəmirqapı Dərbəndə qədər yayıldığını, Qafqazın etnik qruplarının öz aralarında ünsiyyəti Azərbaycan dilində qurduğu göstərilmişdir. Azərbaycan dilinin həm Şimal və Cənubi Qafqazda Orta Asiya türkləri arasında hakim ünsiyyət vasitəsi olduğu, Rusiya bazarlarının belə ticarəti Azərbaycan türkcəsində apardıqları qeyd edilir [22].

Təbii ki, bu dilin mühüm bir vasitə olması və dilimizin əhatə dairəsinin bu tarixi sübutları, "Rus dili mədəniyyətinə kölgə salırdı (-F.R.). I Türkoloji qurultay da bu dili çökdürmək üçün ilk olaraq Azərbaycanda keçirilirdi.

Rusları daha çox narahat edən Qafqaz ərazilərində təkcə XIX əsrdə diqqət etdikdə burada, qədim Naxçıvan-Naxər ölkəsi və uydurma "Ermənistan" torpaqlarının etnik tərkibi əsasən Azərbaycan türklərinə aid olması idi.

Bu ərazi Strabon, İ.Flavi, K.Ptolemey, Plutarx, sonrakı dövrlərdə Yaqut-əl-Həməvi, Ə.Bəlazuri kimi yüzlərlə qədim tarixçilər, eləcə də İ.Q.Əliyev, Q.A.Melikişvili, İ.M. Dyakonov, Q.Qeybullayev kimi xeyli sayda müasir tədqiqatçılar tərəfindən araşdırılmış, əyalət kimi Aratta, Manna, Midiya və Atropatena dövlətlərinin tərkibində göstərilməklə, bu istiqamətdə maraqlı elmi fikirlər irəli sürülmüşdür [11, c. 35; 12, s. 13-18, 20-32; 17, s. 45-52; 18, s.90-94].

Biz bldiyimiz kimi İrəvan və Zəngəzur əraziləri qədim Naxçıvan-Naxər ölkəsi əraziləri olmaqla tarixi türk torpaqları olmuş, Səfəvilər nakimiyyəti dağıldıqdan sonra, 1590-cı ildən 1840-cı illərə kimi İrəvan xanlığına çevrilmiş, İrəvan və Karbi (cəmi 2) nahiyələrinə ayrılmışdır [8, s. 164-183]. Təkcə Naxər-Naxçıvan qəzası-Naxçıvana aid nahiyələrdə m.ö. VIII-IV minillikdən tarix səhnəsində görünən As, Naxər, Türükkü, Kuti, Lulubi, Hürrü, Kassi kimi 15 türk boylarının 178 məntəqə adı-etnooykonimi mövcud olmuşdur ki, bu adlar da türk-Azərbaycan dilindədir [17, s. 53-435; 18, s. 95-467]. Tarixi m.ö. III-I minillikləri əhatə edən və eramızın XVI-əsrlərinədək isə ərazilərimizdə yerli tayfalar olan Sak, Manq, Arizant, Bus, Kimmer, Oğuz, Hun, Skif, Bolqarl, Xaçmataq, Sarmat, Subar, Şirak kimi 27 qədim türk tayfası və onların qolları Aratta, Mitan, Manna, Midiya, Albaniya, Atropatena türk dövlətlərində aparici güc olmuşlar. Bu türk boylarının adıları ilə bağlı ərazidə formalaşan 467 məntəqə mövcuddur ki, ümumilikdə göstərilən tayfaların adları ilə bağlı şəhər və kənd adlarının sayı 649 olmaqla, tarixi qaynaq və arxiv sənədlərində günümüzə qədər qalmaqdadır [8, s. 163-170, 180-183; 15, s. 26-36]. Bu türk boylarının adlarını daşıyan məntəqə adları 1590-1926-cı illərin arxiv sənədlərində bu günə qədər təkrarlanmış, m.ö. II minillikdə Assur, Hett, Axiyava, Urartu və s. mənbələrində də qeydə alınmışdır [15, s.17; 17, s. 53-435; 18, s. 95-467].

Əgər diqqət etsək, Midiya tarixi və buradakl Maq, Bus, Arizant, Struxat, Budi, Partagen tayfa adları haqqında, həm Herodotun yazılarında məlumat verilir, həm də onların dili, mifik düşüncəsi-inancı, məişətləri haqqında xeyli məlumatlara Herodot, İ.M.Dyakonov, İ.Q.Əliyev E.A.Qrantovskinin yazılarında da rast gəlirik. N.Y.Marr da öz tədqiqatlarında qeyd edirdi ki, hazırkı uydurma "Ermənistanın" əyalətlərinin ən qədim sakinləri Sak türkləri olmuşdur [7 , I, 101; 10, s. 87; 14, s. 195].

İndiki "Ermənistan" ərazisində m.ö. VIII əsrə aid türk manqlarla bağlı 25, arizantlarlala bağlı 13, buslara aid 16, kimmerlərə aid 5, aslara aid 12 kənd, m.ö. IV əsrə aid şiraklarla bağlı 81, m.ö. ən azı VIII əsrə aid oğuzlar və onların qolları Kəngər, Qarbay, Bulla, Tərkə, Bakır və s. türk tayfaları ilə bağlı 350-dən yuxarı məntəqə adı qeydə alınır [8, s. 159-183]. Ərazidə qədim köklərimizdən olan hun, xəzər, qazax, peçenek, savir, xaçmataq və s. türk tayfalarının yaratdığı yüzlərlə yer adı da mövcuddur ki, bu tayfalar onların, dil qrupları, yayılma arealları və s. haqqında zəngin məlumatlara antik müəlliflərdən Herodot və Plutarxın əsərlərində də rast gəlirik [10, I, 53, 93; 16, XI s. 63, XXVI s. 137].

Xüsusi olaraq qeyd edək ki, sovetlər dönəmində o dövr siyasətinin müasirləri olan N.A.Baskakov, E.I.Sidorov, A.G.Sumbatzadənin də yazılarında müəyyən tarixi faktlar göstərilsə də, bu tarix bir qədər səthi araşdırılmışdır. Bu tayfalar içərisində bir qrupu əsasən də xəzər, savir boylarınını dili "iranmənşəli",

“anlaşılmayan” dillər kimi türklərdən uzaqlaşdırılmağa cəhd edilmişdir. Bununla bərabər bu fikirlərə elmi təkziblər, bu tayfaların türklüyü və miflərinə, ərazilərinə dair yeni faktlara biz İ.Əliyev M.Seyidov və başqalarının tədqiqatlarında rast gəlirik [18, s. 225-238; 20, s. 50, 94-101]. Təbii ki bütün bunlar mövcur rus siyasətinə bir sədd idi və onların siyasətində Qafqazı “xristianlaşdırmaq” amili öndə dayanırdı.

Oğuz boyları da geniş arealda Qafqaz və Naxçıvanın etnogenezində iştirak etmiş və F.Rəşidəddin, Əbül-Qazi, eləcə də Uyğur variantının “Oğuznamə”lərində, yer almaqla V.V.Radlov, V.V.Bartold, A.M.Şerbak, A.N.Orkun, E.Kemal, M.F.Köprülü, S.Əlizadə, B.Ögəl kimi tədqiqatçılar tərəfindən araşdırılmış, onların türk olmaları birmənalı qarşılanmışdır. Biz aşağıda bu haqda geniş bəhs edəcəyik. Plutarx isə, “Lukkul” başlığında ərazini Asiya ölkəsi adlandırır ki, bu da qədim Asəs/Azər türk tayfalarının adını daşıyırdı [12, s. 127-128].

Hazırkı “Ermənistan” ərazisinin keçmiş və müasir adları türk tayfa adlarından olmuşdur ki, biz m.ö. VIII əsrdə ərazinin şimal-qərbində kimmerlərlə bağlı Qamrik əyalətinin XX əsrin sonlarına qədər isə, Mola Kəmər, Gözlü Kəmər, Qəmərli məntəqələrinin qaynaqlarda yer aldığını görürük Bu dövrdə Sak türkləri və kimmer-sakların üç birləşməsi ərazinin cənubu, mərkəzi və şərqində Sisakan, Saka, Sakasin əyalətləri və hazırkı Zəngəzur, Göyçə Erevan, Sevan (Göyçə) ərazilərində yerləşirdi. XX əsrin sonuna qədər İrəvan əyalətinin Karbi, Vedi, Aralıq, Ağsaqlı nahiyələrində azərbaycanlılardan ibarət Sak türk tayfa adı ilə 43 məntəqə adı mövcud idi ki, buradan xeyli skif-oğuz mədəniyyəti nümunələri tapılmışdır [8, s. 159-162; 7, s. 205; 18, s. 139-179].

M.ö. VIII əsr Şirak türkləri Sevan ərazisindən cənub-qərbdə, Axuryan çayı vadilərində, Vənənd və Ararat ərazilərində yaşayırdılar. Qaynaqlar Göyçə gölündən (hazırda Sevan) qərbdə də I əsrdən XX əsrin sonuna qədər Şirak Şoragel əyalətlərini və şiraklarla bağlı 56 kənd, 3 nahiyə olduğunu təsdiq edir. Burada m.ö. VII əsrdən türk qarqarlar ərazinin cənub-şərqində, Qoqrena əyalətində və Qarqar, Herher, Xarxar məntəqələrində, Pasian-peçeneqlər m.ö. VII əsrdə ərazinin cənub-qərbində Göyçədən axan Zəngiçay axarında Basiana ölkəsi və Beçni, Beçini, Parçi və s. məntəqələrdə məskun olduqları mənbələrdə qeyd edilir [18, s. 276-307]. Biz m.ö. IV əsr Kol türkləri və hunlar, xəzərlər onların kəbər, bozal, kulas, tərnə, tərkə qolları ərazinin şimalında, mərkəzi və qərbində, cənub və cənub-şərqində Kol, Basil ölkəsi, Taron əyalətlərində, Kelar, Ərkul, Kul, Xəzərku, Kulas (Irəvan, Vedi, Karbi və s. nahiyələrdə) kimi xeyli məntəqə adlarında XX əsrin sonuna qədər yaşadıqları qeyd edilir [9 s. 23, 27; 11, s. 349, 352-354] ki, bütün bunlar ərazilərin qədim türk Azərbaycan yurdu olduğunun danılmaz sübutlarıdır.

Qafqaz ərazisnin mərkəzi, cənubu və qərbində m.ö. VIII-VII əsrdən də əvvəl kimmer, skif, sak, arizant, bus, türükkü, maq, barsil, subar, türk boyları, m.ö. VI- III əsrlərdən ötən əsrin sonuna qədər isə, quqar, şirak, hun, pasian, bulqar, oğuz, kəngər, peçeneq, aran, katak, vənənd, sadak, kul, gorus, çor, cinli, xəzər və onun qolları bozal, kulas, tərnə, tərkə, kuvyar tayfaları türk kataklar yaşamışlar. Onların adları XX əsrin 90-cı illərinədək Zəngibasar mahalının ilkin adlarından olmuşdur. Qıpçaq türklərinə aid olan bu tayfalar özbək, qırğız, başqırd, qazax, noqay, qaqauz və b. türk boyları arasında da yayılmışlar [8, s. 17-184; 7, s. 229-240; 11, s. 115]. Bütün bunlar Rus dövlətinə tam aydın olduğu üçün özbək, qazax, türkmən, qırğız, başqırd, noqay, qaqauz türklərinin ziyalı alimləri də Türkoloji qurultaya dəvət olunmuşdur.

Ərazidəki bütün tayfalar Bütöv Azərbaycan, Türkiyə, Orta Asiya, Sibir, Altay, Krım, Volqaboyu, Kərkük və s. türk ellərinin yer və tayfa adlarında da geniş yayılmışdır [13, s. 24-25, 36, 56, 58, 60-61].

Bu gün ən azı 8 min illik dövlətçilik tariximizi yaşadan Vətən deyib qürur duyduğumuz Azərbaycanın şimalında m.ö. VI əsrdən mövcud olan Alban dövlətinin etnik tərkibində alban, sak, maq, maskut, kaspi, uti, quqar, aran kimi türk tayfaları aparıcı güc və vilayətlərə sahib olmuşlar. Yunan səyyahı Strabonun “Coğrafiya” əsərində alban, masqut, aran, sak, kaspi, şirak, çul, xaçmataq, quqar, abant, satak, ügər, lek, uti, qarqar, silbi və s. 26 türk tayfalarının adları da türk tədqiqatçılarının yazılarında qeyd olunur du ki, onlar da I Türkoloji qurultaya dəvət olunmuşdur. Bu türk alimlərinin yazılarında “alban” adlandırılan türk tayfalarının bütöv Alban ərazilərini əhatə etdiyi, bir qisminin isə Atropatena və Midiya dağlarında yaşadığı, kiçik etnik qrupların da özlərini “alban” adlandırdıqları göstərilirdi. Hələ m.ö. minilliklərdən günümüzə qədər bütün türk xalqları içərisində alban, alvan, alpan boyları adlarının keçməsi, albanların bir türk boyu olduğunu bir daha təsdiq edir. Bu fikir IV-VIII əsrlər erməni müəllifləri Favst Buzənd, Xorenli, Parabski, Sebos, Şirakasi, Qevond və başqalarının məlumatlarında da təsdiq olunur. Yeri gəlmişkən qeyd edək ki, bu tarixçilərin milliyətcə erməni olması tarixi faktlarla təsdiq olunmur. Biz bir çox yazılarımızda buna yetərli sübutlar göstərmişik. Bundan başqa “VII əsrin Erməni coğrafiyası əsərində” hun, maskut, sarmat, savir, kaspi, şarvan, xaçmataq, bakan kimi xeyli türk tayfa adları da

qeyd olunur. Strabon sak, alban, kaspilərin Albaniyada şimal, şərq və mərkəzə doğru yerləşdiyini göstərir, burada Maskut çarı çar Sanasenin hun, qarqar, maskut, uti, silbi, xaçmataq, ijemax qat, qular, aqvan, əgərsvan, balasakan kimi tayfalardan ordu topladığı qeyd edilirr [1, s. 35-60, 74; 21, XI, 4-6, 1, XI, 7, 1, XI 8,8].

M.ö. IV-V əsrlər Kür çayının şimal-qərbində türk Uti vilayəti yerləşmiş, burada Aran nəslindən olan uti, qarqar, savdey, sak, hunlar hazırki Gürcüstan və Ermənistan sərhədləri boyunca isə, kəngər tayfaları məskun idi. Albaniyanın mənbələrə Artsax, Arsak kimi düşən Ərsak viləyətinin etnik tərkibi m.ö. IV əsrdən sak, hun, xəzər, qarqar, uti və basillərdən ibarət idi. Eramızın I əsrində arşakidlərin, VI-VIII əsrlər mehranilərin sülaləsi tərəfindən idarə olunan ərazinin etnik tərkibi dəyişməmiş, XIII əsrin sonunda Alban Xaçın knyazlığı monqol hücumları ilə süqut etmişdir. Albaniyanın daha iri bir tərkib hissəsi Sünik-si sakları adlanırdı və 12 vilayətdən ibarət olan bu ərazi sakların nəzarətində idi. Albaniyanın cənubu, Arsak vilayətinin şimalını əhatə edən, hərbi və iqtisadi qüdrətə malik bu ərazidə bütövlükdə sak, türkləri, xəzərlər, uti, savir, girdman və s. tayfalar yaşayırdılar. Mənbələrdə də Albaniya ərazisi bütövlükdə qədim Azərbaycan türk tayfa birliklərindən təşkil olunmuş, əzəli torpaqlar idi. [10, III, 7, V, 14; 11, s. 73, 127, 154; 21, XI, 71].

Albaniyanın etnik tərkibini m.ö. VI əsrdən eramızın XIII əsrinədək ardıcıl izləsək, Strabon, Ptolemey və digərlərinin yazılarında əsasən m.ö. IV, eramızın XIII əsrlərinə qədər Alban Xaçın knyazlığı nəzərə alınmaqla, Albaniyanın şimalından cənuba doğru 5 vilayət və 6 əyalətlərdə as, sak, alban, gel, silbi, leg, lpin, kaspi, hun, qarqar, maskut, uti, xaçmataq, ijemax, qat, qular, Albaniyada həm alban, aqvan eləcə də, əgərsvan, balasakan, xəzər, savir, bulqar, barsil, skif, akasir, balas, aynianlar, savdey, girdman və s. tayfalar qeydə alınır ki, bu da Strabonun 26 tayfa fonemini təkzib edir (-F.R.). Biz bunun ruslar tərəfindən tərcümə zamanı təhrif olunduğunu düşünürük. Çünki təkcə türk xəzərlərin bizal, kəbr, kulas, kuvyar, tərkə, tərnə və s. qolları müasir Bütöv Azərbaycan toponimik sistemində Buzqov, Bizlan, Bozlu, Bozalqanlı, Kəbər Zeyzit, Kəbirli, Kəvər, Külüs, Tarəkən, Tarəçi, Tərkəş, Dərəke, Dərk, Dərkə və s. yüzlərlə adlarda yaşamaqdadır [4 , s. 19- 20, 57, 61, 91]. Qeyd edək ki, bütün bu tarixi faktlar yeni qurulmuş Rus dövlətinin sisyasətinə bir sədd idi ki, o türk xalqına rəhbərlikdə bunları aradan qaldırmağı əsas götürmüşdür.

Bu tarixi faktlar eynilə uydurma "Gürcüstan" ərazisinin etnik tərkibində də yer alırdı. 1919- cu ilin Azərbaycan xəritəsində gürcülər nöqtə boyda ərazidə "Gürcü kinyazlığı" kimi qeyd edilir [18, s. 48]. Mənbələrdə bu ərazidə kimmer türk boylarının adı çəkilir, onların m.ö. IX əsrlərdən Qafqaz və Şimali Qafqazın ətrafında məskunlaşdığını, Assur yazılarında isə hazırkı Gürcüstanın qərbində kimmerlərlə bağlı Qamrik əyalətinin olduğu göstərilir. Bütün türk xalqlarında aparıcı güc olan bəzi türk boylarını gürcü araşdırıcıları gürcü hesab etməklə, öz tarixlərini qədimləşdirməyə cəhd etmişlər, hansı ki, ora Azərbaycan torpağı idi və 1892-ci ildə Metx qalası yanında gürcü təzə yaranmış kiçik bir kinyazlıq idi. Belə tayfalardan biri türk Quqarlardır ki, Yunan səyyahı Strabonun, fransız tarixçisi Sen-Martinin, tarixçilər A.İ.Qrekin, K.V.Treverin, əsərlərində quqarlar geniş araşdırılmış türk tayfalarıdır [7, s. 205; 11, s. 99-102].

Hələ m.ö. I əsrlər Gürcüstanın şərqində quqarların yaşadığı, eramızın IV-V əsrlərində burada Quqarak əyalətinin mövcud olması ərazidə quqarların geniş yayıldığını sübut edir ki, o dövr gürcülər tarixsə yer almırdı. Sen-Mertin Quqarak əyalətinin Gürcüstanın Axalkalak, Tumanis, indiki Borçalı ərazilərini əhatə etdiyini yazırdı [11, s. 48]. Gürcüstanda Sak türkləri ilə bağlı Saqar+eco Sak/saç+xere kimi məntəqə adları mövcuddur (burada –eco, -xere gürcü dilində şəkilçidir F.R), Bu fikrimizi daha bir amil təsdiq etməkdədir. Sisakanın XIII əsrdə axırıncı hakimi Stepan Orbelian öz nəsillərini cinli sayaraq Gürcüstanla bağlasa da, əsasən Albaniya və Atropatenaya aid olmuş, bəzən isə 12 əyalətlə müstəqil sak ölkəsi kimi tanınmış xəzərlər və sakların yaşadığı göstərilmişdir [1 , s. 189-195]. Dediyimiz kimi Gürcüstanın Azərbaycanla sərhəd bölgəsinə yaxın ərazilərində saklarla bağlı Siteli-Sakaro, Saqar+eco, Sak/saç+xere, Sak+ti, Tbilisi-Tubi tayfalarının şəhərindədən şimala doğru kaslarla bağlı Kaspi, Kazbeqi, Kasur kimi məntəqələr qədim türk boylarının tarixi ilə bağlıdır. Gürcüstanın hazrki xəritəsində Kol türkləri ilə bağlı Qali (Azərbaycanda Qala çayı, Qalkyiə dağ, Qala qəsəbə, Gal Culfa rayonunda kənd və s.), Hun-hunqarlarla bağlı İnquri çayı, Subarlarla bağlı Cabarı/subarı, Sabanq türkləri ilə bağlı Sabunçu və s. adında yüzlərlə məntəqə qalmaqdadır. Hazırda burada 1 milyona yaxın türkün yaşamasını nəzərə alsaq, qədim kas, sak, bulqar, subar, skif, kimmer, quqar, cinli, kaspi, xəzər, qıpçaq, peçeneq, hun və s. türk tayfalarının bu geniş əraziyə sahibliyi, bütün ərazinin türk boylarına aidliyini tarixi sübutudur. Bu tayfaların qədim Naxçıvan ərazisinin yerli sakinləri olması faktı da, onların bir türk tayfa ittifaqında bir olduğunu təsdiq edir [13, s.52-53].

Bütün bu taqrixi faktlar Qafqazın əsasən türk Azərbaycan tayfalarına məxsus olduğunu göstərir. Bəs bunun müqabilində Rus siyasəti nəyə görə bizi öz kökümüzdən uzaqlaşdırmağa çalışırdı? Bidiyimiz kimi dəfələrlə Çar Rusiyası Türküyəyə hücum etmiş və məğlub olmuşdur. Bunu aradan qaldırmaq üçün I Pyotrun "Qafqazı xristianlaşdırın" vəsiyyəti Rus dövlətininyeritdiyi gizli siyasi oyun idi. Azərbaycanda keçirilməsi nəzərdə tutulmuş bu qurultaya münasibətində Rus dövləti əsasən Azərbaycan, eləcə də digər türk ərazilərində böyük güc olan ziyalı təbəqəni ortadan götürmək siyasətini əsas götürmüşdür.

Əgər tarixi qaynaqları izləsək, 1932-1947-ci illər arası 1000-dən yuxarı ziyalı güllələnmişdir ki, burada çoxunun həbs olunma və güllələnmə səbəbi haqda hökm belə arxiv sənədləri arasında yoxdur. Bu isə Azərbaycan elminə və mədəniyyətinə qəddarlıqla vurulan zərbə idi ki, bu tarixi dövrdə elmi və mədəni əlaqələr yox dərəcəsinə enmişdir.

Xüsusi olaraq qeyd edək ki, Azərbaycanın görkəmli dilçi alimi A.Babayevint I Türkoloji qurultay haqqındakı monoqrafiyasında Ruhulla Axundovdan başlayaraq Həbib Cəbiyevə qədər, Pənah Qasımov, Hənəfi Zeynallı kimi xeyli təkcə Azərbaycan ziyalılarının 1937-ci il sentyabrın 15-dən 16-na keçən gecə 97 nəfərin qətlə yetirildiyini göstərir. Qətlə yetirilənlərin 86 nəfəri Azərbaycanlı idi. Digər bir məlumatda isə, 1937-ci il noyabrın 15-dən 16-na keçən gecə 169 nəfər soydaşımız güllələndiyi də tarixi faktlarla sübut edilir [6, s.168-319].Azərbaycanda repressiya qurbanlarının siyahısı (1937–1938) — Respublika Prokuroru tərəfindən Azərbaycan KP MK-nın birinci katibi İ. Mustafayevə təqdim edilən arayışda (4 may 1955-ci il) XÜ tərəfindən, yalnız siyasi cinayətlərə görə, 1937-ci ildə, 2846 nəfərin həbs edilməsi, 2215 nəfər haqqında ölüm hökmü çıxarılması haqqında məlumat verilir [3, f.1, siy.44, iş 251, v.4].

Burada Azərbaycan Hərbi general, polkovnik və digər rütbəlilər də mühafizəyə cəlb edilmişdir ki, onları da aradan qaldırmaq Rus siyasətində öndə duran əsas məsələ idi. I Türkoloji Qurultaydan sonra güllələnənlər arasında Azərbaycan ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitan, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşik və podpraporşiki, 267 digər hərbi qulluqçusu da var idi idi [2, İstifadə tarixi: 13 may 2021] ki, ümumilkdə 488 hərbiçi qətlə yetirilmişdir.

Bunun ardınca 1926-cı ildə keçirilən türkoloji qurultayda Azərbaycan və türk ziyalılarının seçilməsi və Ruhulla Axundov, Pənah Qasımov, Əli Səbri, Rüstəmbəy Sultanov, Hənəfi Zeynallı, Vəli Xüluflu, Mikayıl Rəfili, Dadaş Bünyadzadə, Hüseyn Cavid, Bəkir Çobanzadə, Salman Mumtaz, Mikayıl Müşfiq, Ayna Sultanova, Həmid Sultanov, Mirzədavud Hüseynov kimi 350-dən yuxarı təkcə dilçi, tarixçi alimlərin, eləcə də onlara yaxın adamların 1930-47-cı illər həbsləri, güllələnmə və sürgünləri xalqımızın elmi mədəniyyətinə ağır zərbə idi ki, bu rus siyasətinin göz önündə olan xalqımıza qarşı törətdiyi qətliam idi. Ümumilikdə götürsək, 1926-cı ildə keçirilən I Türkoloji qurultaydan sonra Leninin tapşırığı ilə təkcə 4 il ərzində 27854 nəfər azərbacanlının Sovet ölüm dəyirmanına tökülməsi həyata keçirildi [5, s. 172, 184 -337].

Bütün bu tarixi faktlara istinadən nəticə olaraq qeyd edə bilərik ki, Azərbaycan dilinin yayım arealı və Rusiya ərazilərinə qədər təsir gücünə malik olması, təbii ki, yeni qurulmuş Rus dövlətinin siyasətinə zidd idi. I Türkoloji qurultayın məhz Azərbaycanda keçirilməsi gizlin siyasi oyunun başlanğıcı olmaqla, ərazi ziyalılarının kütləvi qırğınına istiqamətlənmişdir ki, bu xalqı kütləşdirməyin əsas yolu idi. Bu gün belə hələ ki, itirdiyimiz ziyalılar qədər ziyalı yetişdirə bilməmişik.

İnanırıq ki, Azərbaycan xalqı öz müstəqilliyini əldə etməklə yanaşı, itirilmiş torpaqlarımıza da Ali Baş Kamandanın siyasi gedişləri ilə sahib olaçaq, başda dilimiz və elmimiz olmaqla digər itiklərimizi də özümüzə qaytararaq, yenə də beynəlxalq aləmdə seçilən milli mədəniyyətimizi ortaya qoyacağıq.

QAYNAQLAR

1. Алиев К.Г. Античная, Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
2. "Arxivlənmiş surət". 13 may 2021 tarixində arxivləşdirilib. İstifadə tarixi: 13 may 2021
3. Azərbaycan Respublikası SPİHMDA: f.1, siy.44, iş 251, v.4
4. Azərbaycan SSR-in qısa toponimler lüğəti. Bakı: ASE Baş redaksiyası, 1986, 114 s.
5. Babayev A.M. Türksoyun birlik səsi. Bakı:Təhsil, 2006, 364 s.,
6. Babayev A.M., Birinci türkoloji qurultay və Azərbaycanda türkologiya. Bakı: Elm, 336 s.
7. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. М.,: Наука, 1956, 485 s.
8. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
9. История Агван Моисея Каганватци, писателя X века. СПб. 1966, 376 с.
10. Геродот. История. Перевод и примечания Г.А Стратановского. Ленинград: Наука, 1972, 599 с.

11. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
12. Mahmudov Yaqub. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 135 s.
13. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с.
14. Марр Н.Й. Кавказские племенные название и местные параллели. ПГ.1922, 93 с.// Труды комиссии по изучению племенного состава России. Вып 5.
15.Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
16. Плутарх. Избранные жизнеописания. Т. 2, Пер. с древне-греческого М.Томашевской, И.В. Медведева. Москва: Правда, 1990, 608 с.
17. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən I c. Bakı: ADPU, 2013, 530 s.
18. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən II c. Bakı: ADPU, 2017, 588 s.
19. Самойлович А.Н. Тюркское языкознание, филология, руника. М.: Восточная литература. 2005. səh. 1020
20. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
21. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского. Москва: Наука,1964, 941 с.
22. https://www.aqra.az › uploads › Kitablar_Latin
23. https://president.az/az/articles/view/70396

Firudin RZAYEV

THE POLITICAL OBJECTIVES OF RUSSIA IN HOLDING THE FIRST TURKOLOGICAL CONGRESS IN AZERBAIJAN

The Azerbaijani people had already developed an alphabet as early as the 6th millennium BC. The Azerbaijani language was widely used throughout the Caucasus, within the Ottoman Empire, among the Turkic peoples of Central Asia, and even in Russian trade centers. Rock inscriptions, chronicles, and travel accounts of fourteenth-century travelers ' accounts testify to the wide geographical distribution of both the alphabet and the language. Naturally, the newly established Soviet state did not accept these historical realities. Soviet Russia aimed to eliminate such facts and to replace indigenous languages with its own language in the occupied territories as part of a deliberate political strategy. One of the principal objectives of the First Turkological Congress was to gather Azerbaijani intellectuals in a single place in order to neutralize them. The "financial support" provided by Russia for the Congress clearly reflected this political maneuver. The First Turkological Congress held in Azerbaijan on 26 February 1926 was, in essence, a planned act of repression directed against Azerbaijani and pan-Turkic intellectuals as well as cultural guardians.

Keywords: *Greater Caucasus, Azerbaijani language, geographical spread of language, First Turkological Congress, repression of intellectuals.*

Фирудин РЗАЕВ

ПОЛИТИЧЕСКИЕ ЦЕЛИ РОССИИ НА ПЕРВОМ КОНГРЕССЕ ТЮРКОЛОГОВ В АЗЕРБАЙДЖАНЕ

Азербайджанский народа ещё в 6-м тысячелетии до нашей эры имели своего алфавита . Язык народа был широко распространён по всему Кавказу, в Османской империи, среди турок Центральной Азии и даже на русских рынках-базарах. Наш алфавит и широкое распространение нашего языка в наскальных надписях и летописях упоминались также в трудах путешественников XIV века. Естественно, новообразованное советское государство этого не приняло. Советская Россия намеревалась стереть эти исторические факты. Распространение своего языка на оккупированных территориях было политическим ходом. План по объединению всех азербайджанских интеллектуалов и их уничтожению был главной целью I Тюркологического конгресса. «Финансовая помощь» России конгрессу отражала эту «политическую игру». Первый тюркологический конгресс, состоявшийся в Азербайджане 26 февраля 1926 года, был геноцидом, подготовленным для всех азербайджанских и тюркских интеллигентов и сотрудников службы безопасности.

Ключевые слова: Все Кавказе, азербайджанский язык, ареал распространения языка, Первый тюркологический конгресс, подавление интеллигенции.

Zülfiyyə İSMAYIL*

C.MƏMMƏDQULUZADƏNİN DİL BAXIŞLARI VƏ I TÜRKOLOJİ QURULTAYDAKI DİL MÜZAKİRƏLƏRİ: TARİXİ VƏ ƏDƏBİ PARALELLƏR

XÜLASƏ

Azərbaycan xalqının mədəni inkişafında, milli oyanışında və maariflənməsində əvəzsiz rol oynayan Cəlil Məmmədquluzadə daha çox əlifba, orfoqrafiya, terminologiya və Azərbaycan ədəbi dilinin digər məsələləri ilə maraqlanırdı və bu məsələlər I Türkoloji Qurultayda geniş müzakirə olunurdu. Məlumdur ki, o dövrdə yeni əlifbanın yaradılması və ya ərəb əlifbasının Azərbaycan [və digər türk xalqları] dillərinin səs sisteminə uyğunlaşdırılması və s. ictimai müzakirə məsələsi idi. Bu baxımdan, görkəmli ədib, ana dilinin böyük pərəstişkarı Cəlil Məmmədquluzadənin bir çox əsərləri ana dilinin saflığının qorunması məsələsinə xidmət edir.

Açar sözlər: *Cəlil Məmmədquluzadə, Birinci Türkoloji Qurultay, dil, əlifba.*

Ümummilli lider Heydər Əliyev 1926-cı ildə Bakıda Birinci Beynəlxalq Türkoloji Qurultay çağırılmasını "Türk dünyası üçün böyük tarixi əhəmiyyətli hadisə" kimi dəyərləndirmişdir. XXI əsrdə müstəqil Azərbaycan Respublikası hüquqi, demokratik, dünyəvi milli-mənəvi dəyərlərini çağdaş beynəlxalq aləmə inteqrasiya etmək yolunda inamlı addımlar atmaqdadır. Azərbaycan xalqının milli dövlətçilik prinsipləri içərisində prioritet təşkil edən milli-mənəvi dəyərlərin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi və ümumbəşəri dəyərlərə inteqrasiya olunması yolunda mühüm tarixi-siyasi addım sayılan Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 22 oktyabr 2025-ci il Sərəncamı müstəsna əhəmiyyət kəsb edir.

Birinci Türkoloji Qurultayda Azərbaycan ədəbi dilinin əsasən 3 məsələsi müzakirəyə çıxarılmışdı: əlifba, orfoqrafiya və terminologiya məsələləri. Professor R.Məhərrəmova bu məqsədlə yazırdı ki, Sovet hakimiyyəti qurulduqdan sonra ədəbi dilin yazısında əsaslı dəyişiklik etmək, ədəbi dilin yeni əlifbasını düzəltmək, yazıdan ərəb əlifbasını çıxarmaq Azərbaycan ictimai fikri qarşısında çox mühüm bir məsələ kimi durdu. 1920-1929-cu illərdə ədəbi dilin digər məsələlərinə nisbətən əlifba məsələsi çox müzakirə edilmişdir [5, 8]. Bu da təbiidir, çünki əlifba məsələsi həll olunmayınca, ədəbi dilin digər məsələlərini düzgün həll etmək, ana dilinin tədrisini qaydaya salmaq mümkün olmurdu. Professor T.Hacıyev isə belə qeyd edir: "Ümumiyyətlə, heç bir xalqda və heç bir zamanda dil məsələsi XX əsrin əvvəllərində Azərbaycan bədii və bədii-publisist ədəbiyyatında olduğu qədər bədii fikri məşğul etməmişdir" [3, 85]. Xüsusilə, XX əsrin və Yaxın Şərqin ən böyük simalarından olan C.Məmmədquluzadənin ümumi yaradıcılığında Ana dili məsələsi əsas xətt kimi keçir.

Azərbaycan xalqının görkəmli ictimai xadimi, maarifçi, pedaqoq, görkəmli publisist, naşir, tənqidi realist ədəbi cərəyanının bayraqdarı, ilk mənzum və alleqorik dram əsərinin müəllifi, dramaturgiyanın nəhəng simalarından biri, yenitipli ictimai satiranın yaradıcısı, bütün dünyada məşhur olan yeni üslublu "Molla Nəsrəddin" jurnalının naşiri və mollanəsrəddinçilərin ağsaqqalı, milli mücadilə ədəbiyyatımızın sərkərdəsi böyük ədib Cəlil Məmmədquluzadənin [1869-1932] irsində və fəaliyyətində mənsub olduğu xalqının ana dilinin qorunması, onun savadlanması və yeni tipli əlifbanın yaradılması məsələsi başlıca yer tutur. Təsadüfi deyil ki, böyük azərbaycançı ədib Mirzə Cəlil Azərbaycan ədəbiyyatında həm də ana dilinin təəssübkeşi kimi tanınır.

Qeyd olunduğu kimi Azərbaycan xalqının mədəni tərəqqisində, milli oyanışında, maariflənməsində əvəzsiz xidmətləri olan Cəlil Məmmədquluzadəni Birinci Türkoloji Qurultayda da geniş müzakirə obyekti olan Azərbaycan ədəbi dilinin əsasən əlifba, orfoqrafiya, terminologiya və digər məsələləri daha çox narahat edirdi. Məlumdur ki, həmin dövrdə yeni əlifba yaratmaq və ya ərəb əlifbasını Azərbaycan [və digər türk xalqlarının] dilinin səs sisteminə uyğunlaşdırmaq ictimai fikir qarşısında çox mühüm bir məsələ kimi dururdu. Bu baxımdan, Azərbaycan xalqının görkəmli oğlu, ana dilinin böyük təəssübkeşi və mücahidi, yeni əlifba mücadiləçisi və islahatçısı Cəlil Məmmədquluzadənin "Ana dili", "Dil", "Lisan bəlası" və digər

* AMEA Naxçıvan Bölməsi, filologiya üzrə fəlsəfə doktoru, dosent

əsərləri milli-mənəvi dəyərlərimizin əsas atributu olan ana dilinin saflığının qorunması uğurundakı mübarizəsinin və onun ictimai mahiyyətinin dərk olunması nəticəsində qələmə alınmışdır. Onun ədəbi yaradıcıllığında bu problem xüsusi mahiyyət qazanır, daha doğrusu, 1920-ci ildə yazılan "Anamın kitabı" əsərində azərbaycanşünaslıq donuna girir və onun mahiyyətinə çevrilir. M.Cəlil bu dövrdə Azərbaycan ictimai reallığında müşahidə etdiklərini obrazlar üzrə paylamış, bu barədəki mövqeyini obrazların dili ilə demişdir. "Anamın kitabı" əsərində Ana dilimizə zərərli təsir mənbələri çox ustalıqla, bədii yolla ifadə edilmişdir. Prof. T.Hacıyev bu xüsusda yazır: "Ədəbi dilin saflığını korlayanlar vahid mənbə üzərində dayanmır, üç ada ayrılırlar, bir qrup ərəb-fars mənbəyinə, ikinci qrup-türk osmanlı, üçüncü qrup isə rus-Avropa dillərinə meyl edirdilər" [3, 85].

Ədibin yaradıcılığında ədəbi dilin digər məsələlərinə nisbətən əlifba məsələsi daha çox yer almışdır. Bu da təbiidir, çünki əlifba məsələsi həll olunmayınca, ədəbi dilin digər məsələlərini düzgün həll etmək, ana dilinin tədrisini qaydaya salmaq mümkün olmazdı. Ədibin böyük arzusu olan xalqın kütləvi savadlanması və milli oyanışı məsələsi məhz hamı üçün yazılması asan olan yeni əlifbanın yaradılması zərurətinə dayanırdı. Elə yazıçının "Kürk", "Nöqtələr", "Molla Nəsrəddin", "Ərəb əlifbası", "Behişt əlifbası" əsərindəki əsas qayəsi də odur ki, bu əlifba ədəbi dilimizin sözlərinin, xüsusilə ərəb-fars sözlərinin yazılışının ərəb və fars dilləri orfoqrafiyasında olduğu kimi saxlanılmasına səbəb olmuş, beləliklə də, sözlərin yazılışı və deyilişi arasında böyük fərq doğurmuş, Azərbaycan dilində düzgün yazmaq və oxmaq işini çətinləşdirmiş, kütləvi ünsiyyət və ictimai əlaqə işini həll etməyə müvəffəq ola bilməmişdir.

Cəlil Məmmədquluzadə 1926-cı ilin mart ayında "Molla Nəsrəddin" jurnalının №9 seriyasında "Ölmək ölməkdir, xırıldamağa nə var" epiqrafı ilə başlayan "X" hərfi" adlı məqaləsini "Mozalan" imzası ilə yazır. Bu məqalə həmin ildə Bakıda keçiriləcək I Türkoloji Qurultaya həsr olunmuşdur. Bu məqalənin məğzi onsuz da məqalənin adında öz əksinin tapmışdır. "X" hərfini əlifbada saxlanıb, saxlanmayacağı məsələsindən irəli gələn narahatlığının qocaman müəllim dostunun dialoqu ilə mübahisə məxrəcinə gətirir. Həmin Türkoloji qurultayda da bu məsələnin gündəmə gələcəyini və nigarnçılığını belə dilə gətirir: "Ola bilər ki, həmin qurultay "X" hərfini türk hərfinin içindən bilmərrə çıxardıb tullaya" [11, 380]. Klassik ədəbiyyatı dərindən bilən qocaman müəllim "X" hərfinin əlifbadan uzaqlaşması fikrindən bərk məyyus olur. Və bütün "x" hərfi olan sözlərdə "q" hərfini işlətmək ağılalmazdır. Sadəcə, ərəb və fars mənşəli sözlərdə "x" hərfi işlənir dilimizdə ümumişləkli hüququ qazanmış xoruz, xiyar, xəbər və qeyri sözlərimiz var ki, bu sözlərdə "x" hərfinin əvəzinə "q" hərfin işlətmək olmaz.

Xarekteri bir az da baməzə olan müəllim hər hansı yolla olursa olsun qurultaya getmək üçün yol axtaracağını və həmin qurultayda "x" hərfini əlifbadan çıxartmaq fikrinə düşənləri ələ salaraq inandıracağına and içir və "... elə ki, gördüm bəli, söhbət o yerə gəlib çıxdı ki, guya türk dilində "x" səsi yoxdur, onda mən özümü yatmışa oxşadıb, başlayacağam xoruldamağa. Məclisə səs düşəcək ki, ədə, o xoruldayan kimdir? Yanımdakı adamlar deyəcək ki, burda qocaman bir müəllimi yuxu tutub, yatıbdı. Onda mən birdən gözümü açıb, qurultay üzvlərinə deyəcəyəm: Hey, nə deyirdiniz? Türk danışığında "x" səsi yoxdur. Bəs bu saat mənim xoruldamağımı eşidib, özünüz soruşdunuz ki, burda xoruldayan kimdir?" [11, 381], əgər bu fəndi tutdura bilməsə xırıldayacağını deyir və "indi hünəriniz varsa mənim xırıldamağıma "qırıldamaq" deyiniz görüm" [11, 381].

C.Məmmədquluzadə "X" hərfi", "Yeni əlifba nə istəyir", "Yeni əlifba komitəsinin görmüş və görəcəyi işlər", "Xala xətrin qalmasın" və digər məqalələrində yazıda və danışıqda vahid bir qaydanın olmamasının yazıçıların çaş-baş saldığını vurğulayır. Ədib yazı zamanı yaranmış qaydasızlığı aradan qaldırmaq üçün müxtəlif prinsiplər müəyyənləşdirirdi. "Belə ki, bu əlifba ədəbi dilimizin sözlərinin, xüsusilə ərəb-fars sözlərinin yazılışının ərəb və fars dilləri orfoqrafiyasında olduğu kimi saxlanılmasına səbəb olmuş, beləliklə də, sözlərin yazılışı və deyilişi arasında böyük fərq doğurmuş, Azərbaycan dilində düzgün yazmaq və oxumaq işini çətinləşdirmişdir" [2, s.19]. Azərbaycan dili imlası 20-ci illərdə daha da pərakəndə şəklə düşür; ikiəlifbalılıq şəraitində bu, təbii idi. Bir tərəfdən, ərəb qrafikalı yazımız inqilabdan əvvəlki qarışıq nizamını davam etdirir, o biri tərəfdən, latın qrafikalı əlifbada yazı özünü qaydaya sala bilmir. Bu qaydasızlıq bir sıra ağızlara aid canlı nitqin eynilə yazıda əks olunması, ərəb qrafikalı yazının üzünün köçürülməsi və s. ilə əlaqədar bir müddət davam etmişdir. 1920-ci illərin imlası və fonetikası o

dövrün tarixi imlası və tarixi fonetikası idi. Bu baxımdan Azərbaycan dilinin orfoqrafiya tarixində 1920-1930-cu illər xüsusi bir yer tutur.

Cəlil Mməmmədquluzadənin C. imzası ilə "Yeni yol" qəzetində çap etdirdiyi "Yeni əlifba nə istəyir" məqaləsində yazıda və danışıqda vahid bir qaydanın olmamasının yazıçıların çaş-baş saldığını vurğulayır. Sabit dilçilik nizam-intizamına, riyazi qayda-qanuna tabe olmayan dil qayda və qanununlarının olmamasını, açıq məntiqlə qaydasızlığı və "özbaşınalığı" ifşa edərək "Neçə yazıçımız varsa bir o qədər də yazı qaydamız var" - deyirdi. Yazı zamanı yaranmış qaydasıslığı aradan qaldırmaq üçün 4 prinsip müəyyənləşdirir. Ədib bir kəlməsinin dəyişilməsi nəticəsində yazıda baş verən fəsadlara nümunə olaraq göstərir ki, *oluram, alıram, aluram, almıram, olmuram, olmayıram, almayıram, almadım, olmadım, ölmədim, almacağam, ölməyəcəyəm, almayacağam, ölməgəm, alınmışdır, alunmuşdur, alınarsa, almar sə, alunur sə, alunurse* [11, 372]. Müəllif fikirlərini əsaslandırmaq üçün "odun" kəlməsini də dəyişdirdik də yenə o halların baş verdiyini nümunələrlə sübut edərək qeyd edir ki, "yeni əlifba hökm edir ki, yazıda bu qarışıqlıqlara axır verilsin, çünki bu əlifbada dilimizdə olan səslərin hamısı vardır" [11, 372].

Bəllidir ki, heç bir dil sabit qalmır. Zaman irəliyə gedir. Elm və texnika inkişaf edir və digər dillərdən hər bir dil yeni söz alır. Maarifpərvər və uzaqgörən yazıçı qələm dostlarının həmin "özgə millətlərdən aldığı kəlmələri türkləşdirə bilmirlər, çünki ərəb əlifbası bu işə mane olur" fikrini ikinci hal kimi müəyyənləşdirir. Məsələn: *nəmaz, kol, koloft, kələft, bolbol* və yüzlərcə belə kəlmələri türkün tələffüz etdiyi *namaz, qul, külfət, bol-bol* kimi yaza bilmirdi. "Çünki belə yazanlara "savadsız" deyirdilər" [11, 372]. Onun fikrinə görə yeni əlifba bu kimi kəlmələri həm türkləşdirməyə imkan verir, həm də məcbur edir.

Çaşqınlıq yaradan üçüncü hal kimi tələffüz məsələsini də gündəmə gətirir. Dilçilik elminin ədəbi dilinin tələffüz normalarından və qayda-qanunlarından bəhs edən bir bölməsi olan orfoepiya da Cəlil Məmmədquluzadəni narahat edən və düşündürən ən aktual məsələrdən biri idi. Məlum olduğu kimi o dövrdə orfoqrafiya qaydalarındakı qaydasızlıq özünü orfoepiyada da göstərirdi. Dilimizin lüğət tərkibinə daxil olan sözlərin müəyyən qrupu yazıldığı kimi tələffüz edilmədiyi kimi, əksinə, deyildiyi kimi də yazılmır prinsipi həmin məqalənin "ücüncü hal"ında müəyyən qaydaya riayət olunmaması "böyük pozğunluq salırdı" [11, 372]. Məsələn: *məhəbbət* kəlməsi *məhəbbət, mühəbbət, mühibbət, möhübbət* kimi tələffüz olunurdu. "Yeni əlifba bu kimi kəlmələrin doğru tələffüzünü tapıb bir cür yazılmasını və bir cür söylənməsini bərk-bərk-istəyir" [11, 372].

Məqalədə "dördüncü hal" ərəb və fars dillərindən olduğu kimi dilimizdə işlənən izafət tərkiblərinə həsr olunur. Müəllif yazıçılarımızın *"cesmani tərbiyə", "əzabi şədiq", "vəzifeyi mədəniyye", "odabeye əsar"* və digər bu qəbildən olan tərkiblərin *əvəzinə cisim tərbiyəsi, şiddətli əzab, mədəniyyət vəzifəsi, əsr-ərbək ədibləri* və s. birinci və ikinci növ ismi birləşmələrin işlənməsinə tərəfdar olaraq "biz ərəb və fars kəlmələrinə, şivələrinə, tərkiblərinə elə alışmışıq ki, öz dilimizin gözəl qanunlarını və qaydalarını o tərkiblərə tabe edib öldürürük" [11, 372]. Ədib yeni əlifbanın xalqın düşünən beyinlərindən nə istədiyini qısaca bu dörd halla müəyyənləşdirir və "əcnəbi qaydalar dilimizdən büsbütün atılsın, dilimiz azad olub təmizlənsin və dirilsin" şüarı ilə bütün yazıçı və şairləri, bütövlükdə qələm əhlini bu şüar ətrafında birləşməyə çağırı və dilimizin saflığı uğrundakı mübarizəsində silahdaşlarından kömək istəyir.

Yazıçını düşündürən digər mühüm məsələlərdən biri də imla məsələsi idi. Həm əlifba, həm də imla məsələsi bir-birilə sıx şəkildə əlaqədardır. Ərəb əlifbasından istifadə edildiyi dövrdə Azərbaycan ədəbi dilinin imla qaydaları qeyri-sabitliyi, prinsipsizliyi ilə nəzəri cəlb edirdi. Bu sahədə düzgün qaydalar, prinsiplər hazırlanmaması, ana dilinin qrammatikasının hələ lazımınca işlənməməsi məsələsini yazıçı "Sirkə" adlı hekayəsində dörd ədibin mübahisəsi zəmininde gündəmə gətirərək belə yazır: "Əhməd Fitrət bir qədər ucadan dedi: - Balıx nədi? Balıx, bax bu yediyimiz heyvanın adıdır ... Ay mənim əziz qardaşlarım, axır bir mənə deyin görüm, axır hər bir dilin bir qanunu var, axır bizim türk dilinin də bir qanunu var, ya yox? Məlumdur ki, biz türk milləti necə ki, hər bir işdə geri qalmışıq, dil barəsində də habelə, nə bir qanun tanıyırıq, nə də bir ahəngə tabe oluruq, elə başımızı aşağı salıb Kabla Məhəmməd Cəfər və Fatma xalalar kimi deyirik, elə ata-babalarımız deyən kimi biz də gərək balığa, balıx deyək" [11, 255]. Mirzə Cəlil ana dili qrammatikasının işlənməsini, onun elmi əsaslar üzrə qurulmasına çalışırdı. O, nəzərə çatdırıdı ki, ana dilinin qrammatikası hələ lazımınca işlənməmişdir. Buna görə də hər kəs istədiyi kimi danışır, hər kəs istədiyi kimi yazır.

Molla Nəsrəddin imzası ilə "Molla Nəsrəddin" jurnalı 40-cı sayında "Dərs kitablarımız" adlı məqalədə Maarif Komissarlığında fəaliyyət göstərən nəşriyyat şöbəsinin icazəsi il çap oluna "Üçüncü il" adlı dərs kitabı haqqında tənqid və iradlarını yazır. Müəllif bu məqalədə həmin kitabın yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsində heç bir müstəsna xidmətə layiq olmadığını qeyd edir və dilinin bizim dil ilə heç bir əlaqəsinin olmadığını nümunələrlə göstərir. Kitabda verilmiş mətnlərin, şeir parçalarının "çürük, məzmunu çürük, dili çürük, məsləki çürük. Əgər bu kitabı yazan mərhum müəllimimiz kitabını bu şəkildə meydana qoyubsa, bu iş onun öz şəxsi işidir, onun ağlı belə kəsib" – deyir. "Amma təəccüb burasındadaır ki, indiki əsrimizdə açıq bir ana dilinə möhtac olduğumuz yerdə bir nəfər də mənim kimi bir namərd insafa gəlib dillənmir və demir ki, a balam, bu ərəb dili behiştə gedənlər üçün lazımdır; çünki, ağayi-məcilisi əleyhirrəmə buyururlar ki, behiş əhli ərəb dili, cəhənnəm əhli məcus dili danışır. Aman gönüdür, nə dili olur olsun, - qoy məcus dili olsun, - ancaq oxuyub qanmalı olsun" [11, 375-376]. Müəllif bəzi dərs vəsitlərinin, ələlxüsus da ana dili dərsliklərinin milli ruhda, anlaşıqlı, sadə, təmiz ana dilində yazlmasını təkidlə gündəmə gətirir. Köhnə fikirli, məqsədi-məramı anlaşılmayan, heç bir milli mənsubluğa xidmət etməyən kitabların istifadədən qaldırılmasını və yeni məzmunlu, milli mənafeə xidmət edən, azərbaycançılıq ideologiyası hər kəlməsində bəlli olan, bütün ruhu ilə bizə xas olan dərs kitablarının yazılmasının tərəfdarıdır. Burdan belə nəticə çıxarmaq olur ki, coxcəhətli fəaliyyət dairəsinə malik olan C.Məmmədquluzadə ana dilində aparılan təlimin ictimai-pedaqoji əhəmiyyətini yüksək dəyərləndirmiş, Azərbaycan məktəblərinin ana dilində olmasını, ana dilində tədrisin yaxşılaşdırılmasını dövlətdən qəti tələb etmişdir. dilin saflığı, zəngiliyin, ədəbi dilin yaradılması uğrunda mübarizə aparmış, nəzəri fikirlərin həyata keçirilməsi üçün bütün fəaliyyəti boyu inamla, dönmədən əməli iş görmüşdür.

Cəlil Məmmədquluzadənin bu silsilədən olan məqalələrindən biri də "Yeni yol" qəzetində "İmzasız" imzası ilə çap etdirdiyi "Yeni əlifba komitəsinin görmüş və görəcəyi işlər" məqaləsidir. Bu məqalə "Yeni Türk Əlifba Komitəsi"nin beş aylıq fəaliyyətinin hesabatına həsr olunub ki, bunlar da 8 bənddə öz əksini tapır. Məqalədən də aydın təsəvvür yaranır ki, bu komitə öz dövründə mühüm işlər görməsinə, sıralarını günü-gündən möhkəmlətməsinə baxmayaraq, cürbəcür maneələrlə də qarşılaşır "fəqət nə olursa-olsun, komitəmiz getdiyi yoldan dönməyəcək və məqsədinə yetişincə daha böyük bir əzm ilə irəliləyəcək" [11, 374] – deyib daha da əzimkarlıqla çalışır.

"Molla Nəsrəddin" jurnalının №11 sayında "Cırcırama" imzası ilə 1926-cı ilin mart ayında nəşr olunan "Ərəb əlifbası" adlı məqalə ərəb əlifbası tərəfdarlarına cavabən yazılmışdır. Hərtərəfli dünyagörüşə, hərtərəfli bilik və məlumata sahib olan Mirzə Cəlil XI əsrdən bu yana ərəblərinin özlərinin belə öz əlifbalarında islahat aparmaq haqqdakı fikirlərinin qısa xülasəsini kiçik həcmli bu məqalədə tutarlı faktlarla verə bilmişdir. Həmçinin həmin ərəfədə ərəb əlifbasının tərəfdarlarına "biz türklər burda əyləşib ərəb əlifbasını tənqid edənlərin qabağına çıxıb, bu tənqidçiləri pisləyirik və başlayırıq ərəb əlifbasının yaxşı tərəflərini üzə çıxarmağa və pis tərəflərini də inkar etməyə. Amma olmazdı ki, bu barədə sahibkarların özlərindən də baxəbər olaq və ərəblərin özlərinin əlifbaları barəsində rəylərini bilək" [11, 381-382] – deyə tövsiyə verir. Məşhur əlifbaçı Mirzə Məhəmmədəlinin Üveysi, Mirzə Rzaxan Səfir və Mirzə Fətəli Axundovun əlifba inqilabı yolunda çalışmaqlarına və onların bu uğurdakı mübarizələrinə mane olanlara isə cavabı "ləzzət burasındadır ki, ərəblər də bir vaxt bu cızma-qaranı bilmərrə buraxıb, adam əlifbasını qəbul edələr. ... o vaxt pislik hamısı bizə qalacaq" [11, 383].

C.Məmmədquluzadənin əsərlərinin sadə ana dilində yazılmasından tutmuş ana dilinin müxtəlif problemlərinə həsr olunan çoxsaylı məqalələri böyük ədibin ana dilinə qoyduğu ən böyük mənəvi abidələrdən hesab olunur. Ədibin "Molla Nəsrəddin" jurnalının baş məqaləsi olan "Sizi deyib gəlmişəm" məqaləsindən başlamış "Lisan bəlası", "Bizim obrazovannılar", "Abirin və kilab", "Şirin rusi danışan", "Ana dili", "Dil", "Bismilla xiragima nirragim", "Əlifba", "Rus məxrəci", "İlan-qurbağa", "Təzə əlifba", "Latın hürufatı və ingilislər", "Yeni əlifba nə istəyir?", "Nöqtələr", "Behişt əlifbası", "X" hərfi", "Ərəb əlifbası" kimi məqalə və felyetonlarında, eləcə də "Anamın kitabı", "Saqqallı uşaq", "Sirkə" kimi bədii əsərlərində ana dili və əlifba məsələlərinə aid müxtəlif problemləri öz təbirincə qaldırmış, konkret münasibət və fikir ifadə etmişdir.

C.Məmmədquluzadənin yuxarıda adı çəkilən və ya bu səpkili əsərlərində orfqrafiyanın əsas prinsipləri, orfoqrafiya və onu qaydalarını təyinetmə imkanları nəzərdən keçirilir. Məqalə və

felyetonlarında ayrı-ayrı sözlərin yazılış qaydalarının parametrləri, nitq vahidlərinin mənalı morfoloji hissələrinin verilməsi, qrafik işarələrdən düzgün istifadə, həmin işarələrin seçilməsi, dilin mənalı vahidlərinin düzgün yazılışı, söz birləşməsi və cümlələrin düzgün tərtibi, qanuni şəklə salınması, qrafik transkripsiya sistemində səsin və ya sözün yazılışı, həmçinin qrammatik işarələr sisteminin qaydaları və s. məsələlər öz əksini tapmışdır.

I Türkoloji Qurultaydan sonra ustad C.Məmmədquluzadəni düşündürən dil məsələlərinin, Azərbaycan ədəbi dilinin mənzərəsi göstərir ki, bu şəraitdə dil siyasəti və dil quruculuğu əvvəlki dövrlərlə müqayisədə intensivləşir, genişlənir. Kəskin mübahisələrlə müşahidə olunan ana dilinin əlifba, imla və termin məsələləri zaman keçidikcə şəffaflaşmağa başlayır, qeyd edilən sahələrdə ana dilinin xeyri üçün xeyli işlər görülür.

ƏDƏBİYYAT

1. Cəlil Məmmədquluzadənin 150 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. “Azərbaycan” qəz. Bakı, 2019, 17 yanvar
2. Hacıyev T.İ.Azərbaycan ədəbi dili tarixi. II hissə. Bakı: Maarifı, 1987, 158 s.
3. Hacıyev T.İ. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1977, 187 s.
4. Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.
5. Məhərrəmova R.C. Sovet dövründə Azərbaycan ədəbi dilinin əlifba, orfoqrafiya və terminologiya məsələləri.-Azərbaycan ədəbi dili tarixi [Sovet dövrü]. III cild. Bakı: Elm, 1982, 123 s.
6. Məmmədquluzadə C.M. Əsərləri: 4 cilddə, I c. [Tərtib edəni İsa Həbibbəyli]. Bakı: 2004, 664 s.
7. Məmmədquluzadə C.M. Əsərləri. 4 cilddə, II c. [Tərtib edəni İsa Həbibbəyli]. Bakı: 2004, 584 s.
8. Məmmədquluzadə C.M. Əsərləri. 4 cilddə, III c. [Tərtib edəni İsa Həbibbəyli]. Bakı: 2004, 480 s.
9. Məmmədquluzadə C.M. Əsərləri. 4 cilddə, IV c. [Tərtib edəni İsa Həbibbəyli]. Bakı: 2004, 472 s.
10. Məmmədquluzadə C.M. Seçilmiş əsərləri. I c. [Tərtib edəni İsa Həbibbəyli]. Naxçıvan: Əcəmi, 2009, 608 s.
11. Məmmədquluzadə C.M. Seçilmiş əsərləri. II c. [Tərtib edəni İsa Həbibbəyli]. Naxçıvan: Əcəmi, 2009, 496 s.

J. MAMMADGULUZADE'S LANGUAGE VIEWS AND LANGUAGE DISCUSSIONS AT THE 1ST TURCOLOGY CONGRESS: HISTORICAL AND LITERARY PARALLELS

SUMMARY

Jalil Mammadguluzadeh, who played an invaluable role in the cultural development, national awakening and enlightenment of the people of Azerbaijan, was more concerned about alphabet, orthography, terminology and other issues of the Azerbaijani literary language, which were widely discussed at the I Turkological Congress. It is well known that at that time the creation of a new alphabet or adapting the Arabic alphabet to the sound system of the Azerbaijani [and other Turkic peoples] languages was a matter of public opinion. In this regard, the works of the outstanding son of the Azerbaijani people, a great fan of the native language and a newcomer of the alphabet Jalil Mammadguluzadeh, are compiled as a result of his struggle for the preservation of the purity of his native language and his public awareness.

Keywords: *Jalil Mammadguluzadeh, First Turkological Congress, language, alphabet.*

ЯЗЫКОВЫЕ ВЗГЛЯДЫ Дж. МАМЕДКУЛУЗАДЕ И ЯЗЫКОВЫЕ ДИСКУССИИ НА I ТЮРКОЛОГИЧЕСКОМ СЪЕЗДЕ: ИСТОРИКО-ЛИТЕРАТУРНЫЕ ПАРАЛЛЕЛИ

РЕЗЮМЕ

Джалил Мамедгулузаде, сыгравший неоценимую роль в культурном развитии, национальном пробуждении и просвещении народа Азербайджана, больше беспокоился об алфавите, орфографии, терминологии и других вопросах азербайджанского литературного языка, которые широко обсуждались на Первом Тюркологическом Конгрессе. Хорошо известно, что в то время создание нового алфавита или адаптация арабского алфавита к звуковой системе языков Азербайджанского [и других тюркских народов] было вопросом общественного мнения. В связи с этим работы выдающегося сына Азербайджанского народа, большого поклонника родного языка и большого поклонника нового алфавита и реформатора Джалила Мамедгулузаде составлены в результате его борьбы за сохранение чистоты его родного языка и его общественной осведомленности.

Ключевые слова: *Дж. Мамедгулузаде, Первый Тюркологический Конгресс, язык, алфавит.*

Xədicə HEYDƏROVA*

HÜMAY/UMAY ARXETİPİ: TÜRK MİFOLOJİ KÖKÜNDƏN TƏSƏVVÜFİ ALLEQORİYAYA

XÜLASƏ

Türk-islam mədəniyyətində geniş yayılmış Hümay/Hümayun obrazı mifoloji və təsəvvüfi düşüncədə çoxqatlı semantik yük daşıyan əsas simvollardan biridir. Klassik şərq və sufi poeziyasında "hümay quşu", "hümay kölgəsi", "hümayun" kimi ifadələr ilahi lütf, qut, səadət, seçilmişlik və hakimiyyət anlayışları ilə assosiasiya olunur. Bu məqalənin məqsədi Hümay obrazının mənşəyini Avestadakı insani Hūmay fiquru ilə deyil, Türk-Altay mifologiyasında formalaşmış Umay arxetipi ilə əlaqələndirmək və onun təsəvvüfi poeziyada sakrallaşma mexanizmini elmi əsaslarla izah etməkdir. Araşdırmada göstərilir ki, Türk-Altay mifoloji sistemində Umay quşabənzər, antropomorf, göylə bağlı ilahi varlıq kimi təqdim olunur və qoruyucu, bərəkət və "qut" verən sakral funksiyalar daşıyır. Qədim türk yazılı abidələrində Umay kultunun mövcudluğu onun sakral antropoloji model kimi formalaşdığını təsdiqləyir. Avestada isə Hūmay obrazı yalnız insani fiqur kimi təqdim olunur, ilahi və quşvari xüsusiyyətlər daşımır. Bu fakt sufi poeziyasında işlənən "hümay quşu" və "hümay kölgəsi" kimi metafizik anlayışların Avestaya bağlanmasının elmi baxımdan əsassız olduğunu göstərir.

Məqalədə Hümay obrazının klassik sufi poeziyasında ilahi lütf, Tanrının seçimi və kamala çatma rəmzi kimi formalaşdığı, xüsusilə Nəsimi yaradıcılığında hümay və simurğ obrazlarının ilahi təcəllinin poetik ifadəsi kimi təqdim edildiyi göstərilir. Nəticə etibarilə, Hümay/Hümayun anlayışı türk mifoloji təfəkküründən qaynaqlanaraq islamiləşmiş və təsəvvüfi alleqoriya səviyyəsinə yüksəlmişdir.

Açar sözlər: *Umay arxetipi, Hümay/Hümayun, türk mifologiyası, təsəvvüf, Nəsimi poeziyası.*

Umay / Humay / Umai (qəd. türk.; qazax.: Ұмай ана, Umay ana) Türk-Altay mifologiyasında və tenqriçilik dünyagörüşündə qadın başlanğıcını, nəsil davamlılığını və ilahi qorumanı təmsil edən əsas sakral tanrıça obrazıdır. Umay ana mifoloji təsəvvürlərdə dağların sahibi, qadınların, uşaqların, döyüşçülərin və ovçuların himayədarı kimi qəbul edilir. Bu funksional spektr Umayın yalnız ailə və doğum kultu ilə məhdudlaşmadığını, eyni zamanda ictimai və kosmik nizamın qoruyucusu kimi çıxış etdiyini göstərir.

Türk-Altay mifoloji sistemində Umay (Humay, Umai) göylə bağlı, antropomorf və quşabənzər xüsusiyyətlərə malik ilahi varlıq kimi təqdim olunur. Onun quşvari təsviri ilahi ruhun hərəkətliliyi, göylə yer arasında vasitəçilik və Tanrısal iradənin təcəssümü ideyası ilə bağlıdır.

Qədim türk yazılı abidələrində Umay ana qadınların və uşaqların qoruyucusu olmaqla yanaşı, bərəkət və "qut" verən ilahi qüvvə kimi xarakterizə olunur [6, s.547; 5, s.111]. "Qut" anlayışı burada yalnız fərdi səadət deyil, həm də ictimai rifah, uğur və hakimiyyətin ilahi legitimliyi mənasını ifadə edir.

Tədqiqatlarda Umay/Humay obrazı qoruyucu, bərəkət və qut paylayan quşvari ruh kimi səciyyələndirilir [5, s.111]. Umayın bu funksional xüsusiyyətləri türk dövlətçilik ideologiyasında hökmdarın Tanrı tərəfindən seçilməsi ideyasının mifoloji əsasını təşkil etmişdir. Tenqriçilik düşüncəsində xaqanın "qut alması" onun siyasi hakimiyyətinin deyil, sakral statusunun göstəricisi sayılmışdır. Bu baxımdan Umay kultu türk siyasi antropologiyasında hakimiyyətin ilahi mənşəyini izah edən əsas semantik modellərdən biri kimi çıxış edir.

Umayın quşvari obrazda təsəvvür olunması türk mifoloji düşüncəsində ilahi qüvvənin yerdən göyə qalxan və göydən yerə enən simvolik təcəssümü kimi dəyərləndirilir. Bu xüsusiyyət onu yalnız mifoloji personaj deyil, eyni zamanda sakral antropoloji model səviyyəsinə yüksəldir. Umay arxetipi sonrakı türk-islam mühitində transformasiyaya uğrayaraq sufi poeziyasında Hümay/Hümayun obrazı şəklində yaşamağa davam etmiş, qoruyucu, qut verən və ilahi seçilmişlik rəmzi kimi alleqorik məna qazanmışdır. Beləliklə, Umay/Humay arxetipi türk mifoloji təfəkküründən təsəvvüfi düşüncəyə keçid prosesində sakral məzmunu qoruyaraq yeni metafizik interpretasiya müstəvisinə daxil olmuşdur.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dili tarixi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: heyderova73@mail.ru

Avestada Hūmay obrazı yalnız şah Viştaspanın qızı kimi təqdim olunan insani fiqurdur və heç bir ilahi və ya quşabənzər atribut daşımır [1, s.165, 225]. Bu səbəbdən sufi ədəbiyyatında işlənən "hümay quşu", "hümay kölgəsi", "hümayun lütf" kimi metafizik anlayışların mənbəyini Avestadakı Hūmay obrazı ilə əlaqələndirmək elmi baxımdan mümkün deyil. Bu uyğunsuzluq göstərir ki, sufi poeziyasında sakrallaşmış Hümay obrazı İran mənşəli deyil, daha qədim və dərin türk mifoloji köklərinə söykənir.

Klassik sufi poeziyasında Hümay quşu ilahi lütfün enməsi, Tanrının seçimi və bəxtin açılması kimi simvolik mənalar qazanmışdır. Hümay kölgəsinin kimin başına düşməsi onun gələcəkdə dövlət, səadət və kamala çatacağına işarə kimi yozulur [7, s.228]. Bu semantika birbaşa türk Umay kultundakı qut verən quş-tanrıça funksiyasının davamıdır. Nəsimi poeziyasında hümay və simurğ obrazlarının paralel işlədilməsi də bu mifoloji qatın təsəvvüfi təcəssümüdür:

Gaf – gönlüdür Nəsiminin məhəbbətdən sərir,
Şol şaha kim, kölgəsidir zilli-simurğü hüma. [4, s.217]

Burada Qaf dağı – könül, simurğ və hümay isə ilahi həqiqətin kölgə və təcəlli formaları kimi təqdim olunur. Hümayun sözü morfoloji baxımdan türk mənşəli umay/humay sakral kökü ilə fars dilində sifət düzəldən -un şəkilçisinin birləşməsindən ibarət olub "uğurlu, səadətli, mübarək" mənalarını ifadə edir. Orta əsr türk-islam saray terminologiyasında "xətti-hümayun", "fərmanı-hümayun", "qədəmi-hümayun" kimi ifadələr hökmdarın sıravi siyasi fiqur deyil, Tanrı tərəfindən seçilmiş və qut almış şəxs olduğunu bildirən sakral-siyasi epitetlər kimi işlədilmişdir. Bu terminologiya türk dövlətçilik ideologiyasında hakimiyyətin ilahi legitimliyə söykəndiyini göstərən əsas semantik göstəricilərdən biridir.

Türk mifoloji düşüncəsində hökmdarın "qut almış" sayılması birbaşa umay kultu ilə bağlıdır. Umayın qoruyucu, bərəkət və qut verən quşvari ilahi varlıq kimi qəbul edilməsi sonrakı türk-islam mühitində "hümayun" anlayışının semantik nüvəsini formalaşdırmışdır. Beləliklə, "hümayun" yalnız siyasi titul deyil, sakral antropoloji status daşıyan anlayışa çevrilmişdir.

Təsəvvüfi düşüncədə isə bu semantika daha da dərinləşərək Allaha məxsusluq mənası qazanmışdır. Klassik sufi poeziyasında "humayun xətt", "humayun kölgə", "humayun laməkan" kimi birləşmələr artıq dünyəvi hökmdara deyil, mütləq ilahi hakimiyyətə işarə edir. Bu kontekstdə humayun xətt (xətti-humayun) Allahın öz iradəsini və hökmünü ifadə edən metaforik anlayış kimi təqdim olunur. "Hümayun xətti-hüsni-adə" ifadəsində isə ilahi camalda Tanrının "öz əli ilə çəkdiyi" hilal qaşlar təsvir edilir:

Adını gördüm yazılmış şol təhəyyürnamədə,
Didə heyran şol hümayun xətti-hüsni-adədir. [3, s.190]

Burada "yazı", "xətt" və "ad" anlayışları hürufi–təsəvvüfi sistemdə ilahi təcəllinin simvolu kimi çıxış edir.

Humayun kölgə anlayışı da xüsusi semantik yüklə seçilir. Təsəvvüfdə "kamil insan"ın Haqqın kölgəsi kimi təqdim olunması bu ifadənin əsas ideya mənbəyidir [2, s.159]. Nəsimi poeziyasında bu məqam konkret olaraq Fəzlullah Nəiminin simasında hürufi "kamil insan" konsepsiyası ilə əlaqələndirilir:

Ey Nəsimi, qafil olma şol humayun kölgədən,
Kim qılır hərdəm təcəlli Qafdan ənqa bizə. [4, s.168]

Bu misralarda Qaf dağı ilahi mərkəz, ənqa və hümay isə Haqqın təcəlli formaları kimi təqdim olunur. Beləliklə, "humayun kölgə" həm ilahi nurun enməsi, həm də kamil mürşidin varlığı vasitəsilə haqqın zahir olması ideyasını ifadə edir.

Nəticə etibarilə, "hümayun" anlayışı türk mifoloji sistemindəki Umay–qut–hakimiyyət triadasından qaynaqlanaraq əvvəlcə sakral dövlətçilik terminologiyasında, daha sonra isə təsəvvüf və hürufi düşüncədə tam metafizik məna qatına yüksəlmişdir. Bu proses türk mifoloji irsinin islamiləşərək sufi alleqoriyaya çevrilməsinin parlaq nümunələrindən biri kimi qiymətləndirilməlidir.

Beləliklə, sufi alleqoriyasında Hümay obrazının sakrallaşaraq Avestadakı insani Hūmay fiquru və fars- ərəb mifologiyasındakı oxşar quş obrazlarının sintezi deyil, türk Umay arxetipinin islamiləşmiş və metafizikləşmiş davamıdır. Xüsusilə qadın varlığın quş obrazında ilahiləşməsi, dağların sahibi olması yalnız türk mifoloji sisteminə xas olduğu üçün Hümay obrazının təsəvvüfi semantikası bu kontekstdə daha dəqiq izah olunur.

Araşdırma göstərir ki, klassik sufi poeziyasında və xüsusilə Nəsimi yaradıcılığında Hümay/Hümayun obrazı türk mifoloji düşüncəsinin dərin qatlarından gələn Umay arxetipinin davamıdır. Bu obrazın ilahi lütf, qut, kölgə və səadət semantikası türk-islam mədəniyyətində mifoloji irsin təsəvvüfi alleqoriya formasında yaşadılmasının parlaq nümunəsidir. Hümay anlayışının bu şəkildə təhlili türk mifologiyası ilə təsəvvüf arasında semantik körpünü elmi əsaslarla üzə çıxarır.

ƏDƏBİYYAT

1. Avesta (Yasna). / tərc.ed. X.Həmid. – Bakı: Apostrof-A, – 2024. – 400 səh.
2. Göyüşov, Nəsib. Təsəvvüf anlamları və dərvişlik rəmzləri (yığcam ensiklopedik açıqlamalar). Bakı, "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi – 2001. 240 səh.
3. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Tərtib edəni: Həmid Araslı. Bakı: "Lider nəşriyyat", 2004, 336 səh.
4. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II cild. Tərtib edəni: Həmid Araslı. Bakı: "Lider nəşriyyat", 2004, 376 səh.
5. Котов, В.Г. Женское божество Умай/Хумай: сравнительная характеристика. // Известия Алтайского государственного университета. Языкознание и литературоведение, 2010. С. 111-114.
6. Мифы народов мира: Энциклопедия. Электронное издание / Гл.ред. С.А. Токарев. М., Советская Энциклопедия, 1992, 2-й т., 719 стр.
7. Pala, İskender. Ansiklopedik Divan Şiiri Sözlüğü. Ankara: Kültür Bakanlığı Yayınları, 1989.

АРХЕТИП ХУМАЯ / УМАЙ: ОТ ТЮРКСКОГО МИФОЛОГИЧЕСКОГО ИСТОКА К СУФИЙСКОЙ АЛЛЕГОРИИ

АННОТАЦИЯ

Статья посвящена анализу мифологической и суфийской семантики образа Хума / Хумай / Хумайун в тюрко-исламской культурной традиции. Цель исследования — обосновать происхождение данного образа не от авестийского персонажа Хӯмай, представленного как сугубо человеческая фигура, а от архетипа Умай в тюрко-алтайской мифологии. Показано, что Умай в древнетюркском мировоззрении выступала как антропоморфное, птицеподобное божество, связанное с небом и наделённое защитными и сакральными функциями, включая дарование «кута». Анализ авестийских источников свидетельствует об отсутствии у Хӯмай божественных и орнитоморфных признаков, вследствие чего суфийские метафизические понятия «птица хума», «тень хума» и «хумаюнская благодать» не могут быть объяснены в рамках авестийской традиции. Сакрализация образа Хума в суфийской поэзии рассматривается как результат исламизированного переосмысления тюркского культа Умай. В классической суфийской поэзии Хума символизирует божественную милость, избранность и сакральную удачу, а в поэзии Имадеддина Насими образы Хума и Симурга интерпретируются как формы божественного проявления и тени Абсолюта. Понятие «хумаюн» анализируется как элемент сакральной государственной идеологии, получивший в суфийском контексте метафизическое значение принадлежности исключительно Богу.

Ключевые слова: *архетип Умай, Хумай/Хумайун, тюркская мифология, суфизм, поэзия Насими.*

THE HUMAY/UMAY ARCHETYPE: FROM TURKİC MYTHOLOGİCAL ORİGİNS TO SUFİ ALLEGORY

ABSTRACT

This article examines the mythological and Sufi semantics of the Humay/Humayun image within the Turkic-Islamic cultural tradition. The study aims to demonstrate that the origin of this image should be traced not to the Avestan figure of Hūmay, presented as a purely human character, but to the Umay archetype in Turkic-Altaic mythology. In ancient Turkic belief, Umay functioned as an anthropomorphic, bird-like divine being associated with the sky and endowed with protective, life-giving, and fortune-granting functions (qut). The analysis of Avestan sources shows that Hūmay lacks divine and ornithomorphic attributes; therefore, Sufi metaphysical concepts such as "the Humay bird," "the shadow of

Humay," and "Humayun grace" cannot originate from the Avestan tradition. Instead, these notions reflect the Islamized transformation of the ancient Turkic Umay cult. In classical Sufi poetry, the Humay image symbolizes divine grace, election, and the bestowal of fortune. The article also analyzes the term Humayun, showing that in medieval Turkic-Islamic court terminology it denoted divinely legitimized authority, while in Sufi discourse it acquired a purely metaphysical meaning.

Special attention is given to the poetry of Imadaddin Nasimi, where Humay and Simurgh represent manifestations of divine truth.

Keywords: *Umay archetype, Humay/Humayun, Turkic mythology, Sufism, Nasimi poetry.*

Qüdsiyyə QƏMBƏROVA*

CÜMLƏNİN DETERMİNANT ÜZVLƏRİ. XÜSUSİLƏŞMİŞ ÜZVLÜ CÜMLƏLƏR

XÜLASƏ

Bütün dillərdə cümlənin əsas məzmun yükü baş üzvlərin, yəni mübtəda və xəbərin semantik və qrammatik cəhətdən uzlaşmasından yaranır. Digər məsələlərdə, cümlənin məna və məzmununu genişləndirməyə xidmət edən digər amillər məsələsində baş üzvlər nisbi müstəqilləşən, ayrı-ayrılıqda mənasını aydınlaşdıran, müəyyənləşdirən və məzmunu genişləndirən əlavə sözlərə ehtiyac duyur. Bu zaman həmin sözlər həm baş üzvlərə ayrılıqda aid olmaqla, həm də ümumi anlama təsir etmiş olur.

Dilçilik ədəbiyyatında "cümlənin determinant üzvləri" adı altında təqdim olunan bu məsələ əsasən mətn sintaksisi, aktual üzvlənmə və s. sahələrdə az-çox işlənmişdir. Müasir ədəbi dil məsələlərinə gəldikdə isə, demək olar ki, determinant üzvlər kimi termin işlənmir. Bu mənada əsasən iki cür yanaşma müşahidə olunur. Baş üzvlərin hər birinə ayrı-ayrılıqda aid olan ikinci dərəcəli üzvləri – mübtədaya bilavasitə aid olub onu izah edən, aydınlaşdıran, təyin edən təyin, eləcə də xəbərlə birbaşa zamana, məkana, kəmiyyətə, səbəbə, məqsədə və s. görə bağlı olan zərflik, həmçinin obyekt olaraq tamamlıqlar öyrənilir. Bu məsələdə cümlənin qrammatik strukturu, söz sırası daha önəmlidir.Üslubi məsələlər, semantikaya nisbətən ikinci plana keçir. Lakin son zamanlar sintaksis kursunun tədrisində semantika məsələlərinə diqqəti yönəltmək aktuallaşmışdır.

Açar sözlər: *cümlənin determinant üzvləri, xüsusiləşmiş üzvlü cümlələr, qrammatik struktur, mətn sintaksisi, söz sırası, sintaksis kursu*

Sintaksisin tədrisindədə semantikanın nəzərə alınmasının özünəməxsus müsbət tərəfləri çoxdur. Çünki, yazılı və şifahi nitq məsələlərində semantik prinsipləri gözləmək çox vacibdir. Digər tərəfdən, sintaksis kursunun tədris məsələləri zamanında da problemin vacibliyi praktik olaraq aktuallaşır. Məsələn, sintaksisin tədrisində linqvistik təhlillər zamanı tələbələr çox zaman cümlənin məzmununa deyil, struktur intizamına mexaniki yanaşaraq yanlış nəticələr əldə edirlər. Beləliklə, məsələnin ciddiliyi və aktuallığı həm nəzəri, həm də praktiki olaraq aydınlaşır.Müasir Azərbaycan ədəbi dilinin sintaksisinin tədrisində "Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər" başlığı altında öyrənilən xitab, ara sözlər, ara cümlələr və xüsusi adlanmaya ehtiyac duyulmayaraq "Cümlə üzvlərinin xüsusiləşməsi" və "Əlavələr" [1, 207, 217] kimi tədris və tədqiq olunur.Q.Kazımovun 2010-cu ildə nəşr etdirdiyi "Müasir Azərbaycan dili. Sintaksis" adlı ali məktəblər üçün dərslikdə də ənənəvi məsələlər saxlanılmaqla mövzuya xeyli yeniliklər gətirilmişdir. Onlardan ən birincisi "Cümlənin determinant üzvləri" mövzusunun əsas prinsipial məsələlərinin əsaslanması ilə mövzuya tam aydınlıq gətirilməsi ilə bağlıdır. Bundan başqa, "Əlavələr" mövzusu əvvəlkilərdən fərqli olaraq,birbaşa "Cümlənin determinant üzvləri" mövzusundan sonra tədqiq

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: qudsiyye@bk.ru

olunmuş və "Cümlənin ara və əlavə konstruksiyalarla genişlənməsi" başlığında əlavə cümlələrlə müqayisədə işlənmişdir [4, 160, 264].

Mübahisə və müzakirəyə ehtiyac olan problem isə, sintaksisdə "determinant" probleminin tam həll olunmaması, daha doğrusu "genişlənmə" terminini determinant məsələsi ilə birləşdirərək bir sistemdə toplamaqdan ibarətdir. Lakin bu, hələ işin bitməsi ilə deyil, əksinə davam etməsi ilə açıq qalır: Həllini gözləyən əsas suallar nədir? İlk növbədə terminin dəqiq elmi-məntiqi tərifini qurmaq. Bu başlığa dair dil məsələlərini, mövzularını dəqiqləşdirmək ciddi mövzudur. Azərbaycan dilçiliyində determinant(lar) termini latın mənşəli olub, "təyinedici" mənasında həm dilçilik, həm də riyazi termin kimi işlənir [3, 36]. "İzahlı dilçilik terminləri" lüğətində isə determinasiya həm də "birtərəfli sintaktik asılılıq kimi izah olunur [2, 67]. .Bəzi lüğətlərdə "determinant" termin kimi "sərhəd, hədd, hüduddan kənar" mənasında da izah olunur. Düşünürük ki, burada cümlənin sabit qrammatik strukturundan kənar, fərqli forma nəzərdə tutulur. Əvvəldə də qeyd etdiyimiz kimi, əsas məsələ cümlənin məna yükünü diqqətə çatdırmaq, ümumi məzmun semantikasını vurğulamaqdan ibarətdir. Bunun üçün nitq prosesində tələb olunan hansı yol (informasiya, vurğu, fasilə və s.) tələb olunursa, nəzərdə tutulan sözə tətbiq olunur. Bu zaman həmin söz aktuallaşaraq həm də xüsusiləşir. Xüsusiləşmə situasiyadan asılı olub, danışanın, söyləyənin fərdi üslubu ilə səciyyələnir. Bundan əlavə, xüsusiləşmə bir sıra leksik-qrammatik vasitələrlə də baş tutur. Məsələn, bəzi qoşmalar və bu funksiyada qoşmaları əvəz edən sözlər xüsusiləşməsi yaratmaq imkanlarını göstərirlər. Bura *kimi, sonra, başqa, haqqında, əlavə, baxmayaraq, fərqli olaraq* və s. qoşmaları və xüsusi qoşma konstruksiyaları nümunə göstərmək olar:- *Uşaq vaxtından Kərbəlada – Hillədə yaşamağına baxmayaraq, məhəllələrimizdə, demək olar ki, hamı türk-türkman-azəri olmasına baxmayaraq, qürbət qürbətdir* (Ə.Cəfərzadə);-*Balayanın köçəri saydığı Pənahəli bəy isə məliklərdən fərqli olaraq öz torpağının üstündə dayanırdı* (S.Rüstəmxanlı); *Cavanlara qocalıq yaraşmadığı kimi, qocalara da cavanlıq yaraşmaz*(Ə.Xaqani); *Bu qədər bilik və kamal sahibi olmasına baxmayaraq, biz dinsizin öhdəsindən gələ bilmədik* (S.Şirazi); *Bu dəqiqə böyük elmi müəssisələrdə məşğul olacağımız halda, bizə belə xırda işlər həvalə edilir ki, yorulmayaq* (Ə.Kərim).

Sintaksisdə ikinci dərəcəli üzvlərə aid xüsusiləşmələr "qoşmalı xüsusiləşmələr" adlandırılır [4, 232]. Qoşmamalı xüsusiləşmələrin cümlədə yeri sərbəst olub, yazıçının fərdi üslubundan asılıdır. Lakin bununla belə, onlar çox zaman cümlənin əvvəlində gələrək ilk baxışdan aid olduğu cümlə üzvünü nəzərdə tutulan xüsusiləşdirməyə vurğulanır*: - Bütün bu çətinliklərə baxmayaraq, Abutalıb nə sarı Özək çöllərini, nə də Boranlı razyezdini pisləmirdi* (Ç.Aytmatov).

Verilən nümunədən də göründüyü kimi, yazıçıilk ifadələrdə zərfliyi xüsusiləşdirir.Cümlədə xüsusiləşməni təmin edən digər vasitələr *xüsusilə, xüsusən, ələlxüsus, hətta, illah, illah da, özü də, o cümlədən, o sıradan* və s. kimi modal sözlərdən və bağlayıcı birləşmələrdən yaranır. Bu konstruksiyaların və sözlərin əsas cəhəti odur ki, onlar xüsusiləşən üzvdən əvvəl gələrək, onu müəyyən fasilə ilə əvvəlki parçadan ayıraraq xüsusiləşdirir. Belə xüsusiləşmələr tamın müəyyən hissəyə münasibəti kimi təzahür edir. Başqa sözlə, ümuminin xüsusiyə nisbəti kimi başa düşülür. Bu cəhətinə əsasən, xüsusiləşmənin bu növünün cümlədəki yeri ya cümlənin daxili, ya da yanında olur: -*Amma, hər halda, ordu Bağdada tərəf elə-belə, toya gedən kimi getmirdi, xüsusilə, Təkləli Məhəmməd xanın əsgərləri ilə birlikdə qarşısına çıxman bir qədər əngəllik törətdi* (Ə.Cəfərzadə);*Ohətta vaxtını da demişdi: birisi gün, gecə yarısı ... illah da Səfini yandıran Muradın "eşidəm-biləm, bundan sonra o qıza əl qaldırmısan, öz bəxtindən küs" deməyi olmuşdu* (Əlabbas).

Köhnə qrammatika kitablarında xüsusiləşmə yaradan belə konstruksiyalar və sözlərə dəqiqləşdirici xüsusiləşmiş üzvlər deyilir. Onlar xüsusiləşmiş üzvün əvvəlində gələrək cümlə – əvvəldə gələn məzmunundan müəyyən fasilə və məntiqi vurğu ilə ayıraraq xüsusiləşdirir: - *Doğruçuluq hər yerdə, xüsusən də tərbiyədə başlıca şərtdir* (L.N.Tolstoy); *Hətta dərənin o tayındakı quzey düzənliyinin tən ortası ilə uzanıb gedən torpaq yoldakı yük maşını da səs salmadan, sanki öz-özünə hərəkət eləyirdi* (Əlabbas).

Azərbaycan ədəbi dilində xüsusiləşmə bir sıra qoşmalar əsasında baş verir. Qoşmalı xüsusiləşmələr adlanan bu konstruksiyalar sadə və mürəkkəb cümlələrdə işlənən ikinci dərəcəli üzvlərdə – tamamlıq, zərflik və təyinlərdə rast gəlinir.

Tamamlığın xüsusiləşməsi. Sadə və mürəkkəb cümlənin müxtəlif növləri tərkibində tamamlığın xüsusiləşməsi daha çox başqa, *özgə, savayı, qeyri, əlavə* və s. qoşmalar vasitəsilə baş verir. Belə ki, yuxarıda

göstərilən qoşmalar əlaqədə olduğu sözü xüsusi intonasiya ilə aktuallaşdıraraq cümlənin mənasına yeni fikir əlavə edir. Beləliklə, xüsusiləşən tamamlıqlar cümlənin digər tərəfi ilə bəzi məna münasibətlərini formalaşdırır. Bunlardan biri də **istisnaetmə** məzmunu ilə çıxış edərək, fərqləndirici, ayrıcı, istisnaedici mənalarla nitq aktının digər tərəfindən seçilir: – *Səndən qeyri biz hər şeyi bölə billik, Səndən başqa biz hamımız ölə billik!* (M.Araz); - *Qumru ruhən Bünyaddan başqa, hələ kimsəyə qarşı belə yenilməz meyl və maraq duymamışdı* (Əlabbas); -*Dağın döşündə tikilmiş iri evdən savayı kəndimizin bütün evləri bizimkindən aşağı idi* (Ə.Vəliyev).Verilən nümunələrdən də göründüyü kimi, bu cümlələrdə xüsusiləşmiş tamamlığın məna tutumu istisna, ayrıca fərqləndirmə, seçilmə kimi düşünülür:-*Yaşadğımız həyatda doğma Azərbaycanı -Ana Vətəni nə bölmək, nə də paylaşmaq mümkün deyildir.* Xüsusiləşmiş tamamlıqların digər növü isə **aid etmə** məzmununu ifadə edir. Bu zaman xüsusiləşən hissəyə aid fikir cümlənin digər tərəfindəki xüsusiləşməyən hissəsindəki məzmuna da eyni zamanda şamil olunur. Burada xüsusiləşən hissə ümuminin tərkib hissəsini, daha dəqiq desək, bir qismini ifadə edir. Aid etmə anlamlı xüsusiləşmiş tamamlıqların-formalaşmasında, bərabər, yanaşı, əlaqədar, *başqa, əlavə, savayı* və s. qoşmalar iştirak edir: – *Nobel qardaşlarının 1879-cu ildə yaratdıqları şirkət neft quyuları qazmaq və istismar etməklə bərabər, axtarış, nəşriyyat, neft emalı ticarəti, elmi-tədqiqat işləri ilə də məşğul olurdular* (M.Süleymanov); *N.V.Pirqulus-kaya yazmışdır ki, IV-V əsrlərdə hunların içərisində iranlılarla yanaşı, deyəsən, türklər də vardı* (Q.Qeybullayev). Gətirilən nümunələrdən də göründüyü kimi, aidetmə məzmunu cümlənin həm xüsusiləşən, həm də digər hissəsinə aid ola bilər. Məsələn, birinci cümləyə əsasən demək olar ki, Nobel qardaşlarının yaratdıqları şirkət, həm neft quyuları qazmaqla, həm də nəşriyyat, neft emalı ticarəti, elmi-tədqiqat işləri ilə məşğul olmuşlar. Cümlədə nisbi bölünmə məzmununa aid olmayıb, əksinə, hər iki tərəfi əhatə edir.Xüsusiləşən tamamlıqlar, həm müstəqil sözlər kimi, həm də müxtəlif sintaktik birləşmə tərkiblər kimi çıxış edir: *ŞeyxülislamMəhəmmədəlinin tərtib etdiyi layihədə məktəb və mədrəsələrin çoxəsrlik təcrübəsi ilə* ***yanaşı****, mövcud dövlət məktəblərinin təcrübəsi də əsas götürülmüşdü* (A.Turan).

Xüsusiləşmiş tamamlıqların cümlədəki yeri müxtəlifdir. Cümlənin əvvəlində və ortasında işlənərkən özündən sonra, sonunda olarkən özündən əvvəl vergüllə ayrılır. Tərkibində xüsusiləşən tamamlıqlar işlənən cümlələrin xüsusi intonasiya və vurğusu olur.

Zərfliyin xüsusiləşməsi. Cümlə bəzən sadə izahedici sözlər hesabına genişlənərək budaq cümlələrə çevrilməyə meyl edirlər. Tərkibində xüsusiləşmiş zərfliklər olan cümlələri xüsusi tip kimi qəbul etmək olar. Çünki belə cümlələrin yaranmasında *baxmayaraq, halda, təqdirdə* əvəzinə və s. kimi bağlayıcı vasitələrdən istifadə olunur. Qeyd etmək lazımdır ki, bəhs olunan sözlər əsasında yaranan tərkibə görə zərflik hesab olunan konstruksiyaların birinci tərəfi sərbəst olduğu halda, əsas tərəfin leksik tərkibi və qrammatik strukturu sabit qalır. Xüsusiləşmiş zərflik konstruksiyalarının bəzilərini üslubi cəhətdən asanlıqla sadələşdirmək mümkündür. - *Ağıllı, amma yalançı olmaqdansa, sadə və namuslu olmaq yaxşıdır* (Sofokl); *İnsan bir başqa insana sahib ola bilmədiyi kimi, xalq da başqa bir xalqa sahib ola bilməz* (F.Bous).

Xüsusiləşən zərfliklər zərfliyin müxtəlif məna növlərində çıxış edir. Bu zaman cümlənin xəbəri ilə əlaqə zəifləyərək əsas fikri xüsusiləşən tərəfə yönəldir və onu aktuallaşdırır. Məsələn:

Baxmayaraq sözü əsasında. Əsas tərəfi *baxmayaraq* sözündən, asılı tərəfi substansivləşən məsdər isim, və feili sifət birləşmələrindən təşkil olunan konstruksiyalar əsasında xüsusiləşən zərflikləri formalaşır: - *Nə isə, kələfin ucunu itirib vurnuxdular, vurnuxdular, bütün söz-söhbətlərinə baxmayaraq, üzə açılıb ---- - ciddi bir söz deyə bilmədilər* (S.Rəhimov); *Bütün bunlara baxmayaraq, mən birinci təklifi səsə qoyuram* (Ə.Vəliyev); *Bəzi kəndlərdə məktəb yaşlı uşaqların olmasına baxmayaraq, məktəb açılmır* (Ə.Vəliyev).

Nümunələrdən də göründüyü kimi, "baxmayaraq" feili bağlaması feili birləşmənin sabit tərəfi kimi çıxış edərək, xüsusiləşmiş zərfliklərinformalaşmasının göstəricisinə çevrilərək özündən əvvəl gələn hissəni aktuallaşdırır.

Halda sözü əsasında. Əsas tərəfi "halda" sözündən təşkil olunan qarşılaşdırma zərfliyi məzmunlu birləşmələrin incəliyi kontekstdən və üslubdan asılı olaraq dəyişir. Özündən əvvəl gələn hissəni aktuallaşdırır və xüsusiləşməyə səbəb olur: - *Krallar müəyyən insanlar üzərində hökmranlıq etdikləri halda, sənətkarlar əsrlər boyu insanlar üzərində hökmranlıq edə bilirlər* (O.Balzak). Bəzi "halda" sözünün cümlədə "vəziyyətdə, durumda" mənasına uyğun gələn semantik çaları müşahidə olunur. Bu zaman "halda" sözü tərzi-hərəkət, zaman və s. məzmununu ifadə edərək, sadəcə zərflik olur, xüsusiləşmə baş vermir:

Uzandığın ***halda*** *kitab oxumaq gözlərə ziyandır; – Gecikdiyin halda üzr istəmək mədəniyyətdir.*Nitqimizdə bəzi üslubi məqamlarda qarşılaşdırma zərfliyin xüsusiləşməsi digər vasitələrlə də mümkündür.- *Dünya bir nəfəri seçdiyi zaman ona başqalarına aid yaxşılıqları verdiyi halda ondan üz döndərdiyi zaman özünə aid yaxşılıqları götürüb aparır* (Hz. Əli). Verdiyimiz nümunənin məzmunundan göründüyü kimi **halda**sözünü üslubi baxımdan "zaman" sözü ilə əvəz etmək mümkündür. Deməli, "halda" sözü üslubi sinoniminin ifadə etdiyi "zaman, vaxt" anlamını bildirdiyi üçün "kimi" qoşmasının üslubi sinonimi şəklində başa düşülür: - *Dünya bir nəfəri seçdiyi zaman ona başqalarına aid yaxşılıqları verdiyi* ***kimi****, ondan üz döndərdiyi zaman da özünə aid yaxşılıqları götürüb aparır.*Belə cümlə nümunələrində **halda** sözündən sonra ayırıcı, fərqləndirici fasilə olunur və yazıda vergül qoyulmur. Cümlə nəqli cümləyə məxsus intonasiya ilə oxunur və xüsusiləşmə baş vermir.

"Əvəzinə" sözü əsasında. Azərbaycan dilində xüsusi qarşılaşdırma zərfliyi bəzən də "əvəzinə" sözü əsasında ifadəolunur: - *Özünə ən çox ziyan vuran adam öz səhvlərini və nadanlığını düzəltmək əvəzinə inadkarlıq edəndir* (M.Avreliy). Bəzən "əvəzinə" sözü öz məzmununa görə xüsusiləşmiş vasitəli tamamlıqlara bənzəyir. Bu hal ən çox **əvəzinə** sözünü isim və ismi birləşmələrə qoşulduğu halda nəzərə çarpır: - *Su əvəzinə çay içir; Qapının ağzı* ***əvəzinə*** *qapının başını rəngləyir;Cehiz* ***əvəzinə****, bəzən pul verirlər.*

Kimi sözü əsasında. Dilimizdə tərzi-hərəkət zərfliklərinin xüsusiləşməsi çox zaman ikinci tərəfi kimi qoşma sözü əsasında formalaşan xüsusi birləşmə vasitəsilə baş verir. Belə birləşmələrin birinci tərəfi substantivləşmiş feili sifətlərin birləşməsindən ibarət olur: – *Pas dəmiri yeyən kimi, paxıllıq da insan qəlbini yeyir (F.Perander); Quş öz qanadı ilə* ***uçduğu kimi****, adam da öz hikməti ilə uçur* (Ərəb atalar sözü); *Suyun çoxluğu əkinə zərər verdiyi kimi, yeməyin də çoxluğu bədənə zərər verir* (Əbül Fərəc). *Kimi* qoşması əsasında ismi birləşmə və tərkibləri də xüsusiləşir. - *Suyu sovulmuş dəyirman kimi İlqar dünyadan bixəbər kimi yatırdı* (Ə.Vəliyev); – *Təzə dil açan uşaq kimi dil-boğaza qoymurdu*(Ə.Vəliyev). Çox zaman **kimi** qoşması sözlərə də qoşularaq onlarla xüsusiləşərək aktuallaşdırır: – *Anam kimi, mən də istiqanlıyam.*"Kimi" sözü qoşma olduğu üçün xüsusiləşən zərfliklərdə daha çox müqayisə məzmunu yaradır; Cümlənin xəbərinin növündən asılı olmayaraq məzmunda qarşılaşdırılan tərz, keyfiyyət və s. məsələlər semantikada zərfliyin xüsusiləşməsinə səbəb olur. Dilçilikdə tərzi-hərəkət zərfləri həm də *asılı olaraq, fərqli olaraq, yanaşı olaraq, bağlı olaraq* və s. tərkibləri əsasında xüsusiləşir. Dilimizdə daha çox *halda, əvəzinə, baxmayaraq* sözləri əsasında xüsusiləşən qarşılıq-güzəşt məzmunlu zərfliklər cümlənin xəbəri ilə uzaqdan, kənardan bağlanır. Belə halda zərflik məzmunu xəbərdən uzaq durur. Dilçilər bunun səbəbini bir neçə cəhətdən izah edirlər. Onlardan birincisi kimi, xüsusiləşən qarşılaşdırma zərfliyin xüsusi konstruksiya olması ilə izah etmədən olar: - *Yaşadığınız illərin sayına baxmayaraq, çox vaxt təcrübəmiz çatmır..*Digər tərəfdən, belə konstruksiyalarda nisbi bitmiş fikir ifadə olunduğundan nisbi cümlə effekti vermiş olur və xəbərdən asılılıq zəifləyir. Xüsusiləşmiş zərfliklər işlənən cümlələrdə xüsusiləşən üzvə aid hissə ilə cümlənin digər tərəfi, sadəcə, yanaşma yolu ilə əlaqələnir. Heç bir qrammatik, tabelilik, bağlılıq olmasa da, xüsusi informasiya vasitəsilə semantik münasibət ifadə olunur.Bədii dildə bəzən söz sırasının dəyişməsi ilə tərzi-hərəkət zərfləri xüsusiləşir. Belə olduqda zərflik cümlənin sonuna keçir və əlavə qoşulma kimi xüsusiləşərək cümləyə bağlanır: - *Gözəl qız, sən saf susan, iki qəlb arzususan. Mən səni sevirəm susuzluğun od vurub köz kimi yandırdığı dodaq su sevən kimi.O isə səni sevir, rahatca bardaş qurub, – Kabab üstdən sərin su pis olmaz – deyən kimi; ...Mənsə səni sevirəm iynənin ucu boyda işığa həsrət qalan göz işıq sevən kimi* (Ə.Kərim).

Şərtilə sözü əsasında.Azərbaycan dilində şərt zərfləri "şərtilə" sözünün köməyilə yaranmış tərkib vasitəsilə aktuallaşaraq xüsusiləşdirir: – *Mən Zarıslıya getməyə razıyam, bircə şərtlə, – cərrah papiros çıxaranda sözümü dəyişdim* (Ə.Vəliyev).

Dilimizdə xüsusiləşmiş zərfliklərin bir növü də sözlərə **-dan + çox** birləşməsinin əlavəsi ilə düzəlir və qarşılaşdırma güzəşt məzmunu bildirir: – *İndi şəhərə gələnlərdən çox, kənddə qalanları düşünürük.*

Təyinin xüsusiləşməsi. Azərbaycan dilində əsasən bədii dil nümunələrində təyin aid olduğu sözün qarşısında deyil, ondan sonra gələrək, səciyyəvi intonasiya ilə aktuallaşaraq xüsusiləşir:- S*anki bir pəridir, pəri yox, bir Ay! Qəhrəman bir qızdır, başda kəlağay. Dirilik suyudur gözü - qapqara. Gecəni qərq edir ay tək nurlara* (N. Gəncəvi).Təyinin bu şəkildə xüsusiləşməsi daha çox poeziya nümunəsi üçün

xarakterikdir. Şeir intonasiyası və məntiqi vurğu nəticəsində xüsusiləşmə müəyyən olunur.Bədii üslubda bəzən təyinin xüsusiləşməsinin fərqli sintaktik formaları da müşahidə olunur: - *Bu dünyada üç şey bəladır: yaman arvad, yaman yoldaş, yaman at*(A.Ələsgər).

Bəzən təyinlər əlavələr şəklində xüsusiləşir: - *Gəncliyimiz – şux vaxtımız, Qəlbimizin qaynar çağı düşür yada* (İ.Ağayev).Dildə elə xüsusiləşmiş təyinlər vardır ki, onlar poeziyada həmcins üzvlər şəklində xüsusi intonasiya ilə aktuallaşaraq işlənir: -*Meysiz, məzəsiz can ilə canan ola bilməz* (Ə.Vahid).

İsmi xəbərli belə cümlələrdə elə təəssürat yaranır ki, *meysiz, məzəsiz* sözləri tək deyil, feili bağlama əlavəsi ilə işlənməli olduğu halda, ellipsisə məruz qalmışdır. Əslində isə cümlə *"Mey olmadan, məzə almadan can ilə candan ola bilməz"* şəklində qavranılır. Canlı danışıqda da qənaət prinsipi əsasında qurulan belə cümlələrə çox rast gəlinir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.Seyidov Y. Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə. Ali məktəblər üçün dərslik. "MAARİF", Bakı, 1985
2. Adilov M. Verdiyeva Z. Ağayeva F. İzahlı dilçilik terminləri. "Maarif". Bakı, 1989.
3. Cəfərov C. Qarayev A. Cəfərova K. Avropa mənşəli sözlərin qısa lüğəti. "Maarif", Bakı, 1981
4. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Ali məktəblər üçün dərslik. "Elm və təhsil", Bakı, 2010.

QUDSİYYE QAMBAROVA

Institute of Linguistics named after Nasimi, ANAS

PhD in Philology, Associate Professor

DETERMINANT ELEMENTS OF THE SENTENCE SENTENCES WITH SPECIFIED ELEMENTS

SUMMARY

In all languages, the core semantic load of a sentence arises from the semantic and grammatical agreement of its principal elements, namely the subject and the predicate. In other respects, when it comes to expanding the meaning and content of the sentence, the principal elements require additional lexical items that become relatively independent, clarify and specify meanings separately, and contribute to the overall expansion of content. In such cases, these elements may relate to the principal parts individually while simultaneously influencing the sentence's general interpretation.

In linguistic literature, this issue—presented under the term *determinant elements of the sentence*—has been addressed to some extent primarily within the fields of text syntax, actual division of the sentence, and related areas. However, with regard to issues of the modern literary language, the term *determinant elements* is almost never used. In this context, two main approaches can be observed. One approach focuses on secondary sentence elements that relate separately to each principal element: attributes that directly modify and specify the subject, adverbial modifiers that are directly connected to the predicate in terms of time, place, quantity, cause, purpose, etc., as well as objects functioning as complements. Within this framework, the grammatical structure of the sentence and word order are considered primary, while stylistic issues are relegated to a secondary position relative to semantics.

In recent years, however, the teaching of syntax has increasingly emphasized semantic issues, highlighting the growing relevance of meaning-oriented analysis.

Key words: *determinant elements of the sentence, sentences with specified elements, grammatical structure, text syntax, word order, syntax course*

КЮДСИЯ ГАМБЕРОВА
Институт языкознания имени Насими НАНА
доктор философии по филологии, доцент

ДЕТЕРМИНАНТНЫЕ ЧЛЕНЫ ПРЕДЛОЖЕНИЯ. ПРЕДЛОЖЕНИЯ С ОСОБЕННО ВЫДЕЛЕННЫМИ ЧЛЕНАМИ

РЕЗЮМЕ

Во всех языках основная смысловая нагрузка предложения формируется в результате семантико-грамматического согласования его главных членов — подлежащего и сказуемого. В других аспектах, связанных с расширением смысла и содержания предложения, главные члены нуждаются в дополнительных словах, которые, обладая относительной самостоятельностью, уточняют, определяют и расширяют содержание высказывания. При этом такие слова могут относиться как к главным членам по отдельности, так и оказывать влияние на общее понимание предложения в целом.

В лингвистической литературе данная проблема, представленная под названием «детерминантные члены предложения», в той или иной степени рассматривалась главным образом в рамках синтаксиса текста, актуального членения предложения и смежных областей. Однако применительно к вопросам современного литературного языка термин «детерминантные члены» практически не используется. В этом отношении наблюдаются в основном два подхода. Первый из них предполагает изучение второстепенных членов предложения, относящихся отдельно к каждому из главных членов: определений, непосредственно связанных с подлежащим и поясняющих, уточняющих, характеризующих его, а также обстоятельств, прямо соотносящихся со сказуемым по признакам времени, места, количества, причины, цели и т. д., и дополнений, выступающих в функции объекта. При таком подходе на первый план выдвигаются грамматическая структура предложения и порядок слов, тогда как стилистические вопросы по сравнению с семантикой отступают на второй план.

В то же время в последнее время в преподавании курса синтаксиса актуализируется необходимость более пристального внимания к семантическим аспектам.

Ключевые слова: *детерминантные члены предложения, предложения с особо выделенными членами, грамматическая структура, синтаксис текста, порядок слов, курс синтаксиса*

Zəkiyyə ƏBİLOVA*

YUSİF XARƏZMİNİN “MƏFATİHUL – ÜLUM” ƏSƏRİNDƏ DİLÇİLİK MƏSƏLƏLƏRİ

XÜLASƏ

IX-XI əsrlərdə Xarəzm Şərqin nəhəng mədəniyyət mərkəzlərindən biri olaraq qalmaqda idi. Burada zəngin ənənələri ilə inkişaf edən elmin intellektual səviyyəsi çox yüksək idi. Təsadüfi deyildir ki, cəbrin əsaslarının son nəticələrini elm aləminə gətirən Məhəmməd ibn Musa əl-Xarəzmi, əsərləri ilə riyaziyyat və astranomiya elmlərində şöhrət qazanmış Əbu Nəsr ibn İraq (v.1035), elmin bir çox sahələrini zənginləşdirmiş dahi ensiklopedik alim, Şərqdə ilk qlobusun yaradıcısı Əbu Reyhan Biruni (973-1048), riyaziyyatçı alim Əbu Əli əl-Hububi (X əsr), astronom Əbu Həsən ibn Bamşaz (X əsr), təbib, müdəqqiq və filoloq Əbul-Xeyr ibn əl-Həmmar (X-XI), kimya elmində tanınmış Əbul- Həkim Məhəmməd ibn Əbdülməlik əs-Saleh əl-Xarəzmi əl-Kasi (XI) və başqa bir çox həmin dövr Xarəzm alimləri bu gün də dünyaca məşhurdurlar. X əsr elmi fikrinin layiqli nümayəndələrindən biri də Xarəzmin nəhəng ensiklopedik alimi Əbu Abdullah Məhəmməd ibn Əhməd ibn Yusif əl-Xarəzmidir (v.m.997). Bu yazıda Yusif əl-Xarəzminin elmlərin təsnifatından bəhs edən “Məfatihul- ülum” (Elmlərin açarları) əsərinin “Nəhv” babına müraciət olunmuşdur.

Açar sözlər: *Xarəzm, Yusif Xarəzmi, qrammatika, elmin açarı*

---

* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Fəlsəfə elmləri doktoru.

Alimlər tarıx boyu sahə və hüdudlarını bir-birindən ayırmaq, bu sahələr arasındakı əlaqələri müəyyənləşdirmək, fərqli elmlərə aid təcrübələri sistemli şəkildə qiymətləndirmək baxımından elmləri təsnif etmişlər. İbn İshaq əl-Kindi, Əbu Bəkr ər-Razi, Əbu Nəsr əl-Fərabi, Əbu Əli ibn Sina, Nəsirəddin Tusi kimi bir çox islam alimləri bu sahədə sanballı əsərlər ortaya qoymuşlar. Nəsirəddin Tusi elmə yiyələnməyi nəfsi səadət kimi qiymətləndirir. Böyük mütəfəkkir qeyd edir ki, nəfsi səadət özü də beş qisimdən ibarətdir: əxlaqın saflaşdırılması elmi (etika), məntiq elmi, riyaziyyat elmi, təbiət elmi, ilahiyyat elmi. Təlimin bu sıralanma ilə aparılmasını məqbul sayan Tusi cismi səadəti tibb elminin sahəsi kimi, nücum elmini isə kainatın dərk edilməsində mühüm amil kimi qəbul edir. Tusiyə görə, millətin, dövlətin və cəmiyyətin işlərini nizama salan elmlər isə mədəni səadətə aiddir. Alim buraya fiqh, hədis, xəbər (tarix) tənzimin daxil olduğu- şəriət və qrammatika, katiblik, hesab, həndəsənin daxil olduğu iqtisadiyyatı aid edir [6, 113]

X əsr elmi fikrinin layiqli nümayəndələrindən biri də Xarəzmin nəhəng ensiklopedik alimi Əbu Abdullah Məhəmməd ibn Əhməd ibn Yusif əl-Xarəzmidir (v.m.997). Mənbələrdə Xarəzminin həyatı haqqında məlumat çox azdır. Brokelmanın verdiyi məlumata görə Nişapurda yaşayarkən Əbul Həsən əl-Utbinin yanında (974-982) katib kimi çalışdığından adına "əl-Katib" ləqəbi də əlavə olunmuşdur [2.s. 244]. Əbu Məhəmməd Əhməd bin Yusif əl-Xarəzminin elmlərin təsnifatından bəhs edən, elm aləminə məlum olan yeganə əsəri "Məfatihul-ülum" (Elmlərin açarları) Orta əsrlər Şərqinin elm sahələri barədə məlumat verən maraqlı mənbədir. Müəllif bu əsəri IX-X əsrlərdə Xorasan və Mavarənnəhrdə hökm sürən Samanilərin elm adamlarını sevən və onları qoruyan baş vəziri II Nuh Əbu Həsən Übeydullah bin Əhməd əl-Ütbiyə ithaf etmişdir. Ütbinin 975-977-ci ildə vəzirlik etdiyini nəzərə alaraq, kitabın yazılma tarixini də həmin mərhələyə aid etmək olar. Eyni zamanda, onun Nuh Mansurun Buxaradakı sarayında uzun müddət dövlət qulluğunda işlədiyini də ehtimal etmək olar [3, XVI. 223].

Alim elmləri "Ərəb" və "Əcəm" elmləri deyə iki məqalədə toplamışdır. İki məqalə 15 bab və 93 fəsildən ibarətdir. Hər bab bir elmdən bəhs edir. Əsərdə fiqh, fəlsəfə, kəlam, məntiq, kimya, nəhv, musiqi, tibb, astranomiya və s. barədə məlumat verilir, onların mahiyyəti, terminologiyası, tətbiq olunduqları sahələr fəsil və bablar daxilində şərh edilir. Birinci məqalənin üçüncü babı "ən-Nəhv" adlanır və on iki fəsildən ibarətdir.Tanınmış sovet ərəbşünası, akademik İ.Y. Kraçkovskinin fikrincə ""Məfatihul-ülum" elmin bütün sferasını əhatə edən və həmin dövr həyatının bütün tərəflərini işıqlandıran çox maraqlı ilkin mənbədir" [1,s.1]. Artıq qeyd etdiyimiz kimi, Xarəzmiyə qədər və ondan sonra da bir çox görkəmli alimlərin elmlərin təsnifatına həsr olunmuş əsərləri məlumdur. Bəs Xarəzminin əsərini digərlərindən fərqləndirən əsas xüsusiyyət nədən ibarətdir? Bu sualı Girişdə cavablandıran alim yazır:"Bu kitabda yığcamlıq və ixtisarlar baxımından oxucunu çaş-baş salan, eləcə də, lüzumsuz uzadılmağa və artırılmağa ehtiyac duyulmayanları topladım. Daxil edilməyənlər elm aləmində daha çox yayılmış və tanınmış, qaranlıq və anlaşılmamazlıqdan uzaq zikrlərdir. Əgər kitablar uzun-uzadı şərh və çoxcildli təfsirdən bəhs edirsə, bu iki tərəf arasında razılıq əldə etməklə həyata keçirilib. Şərhə ehtiuyac olmadıqda, inandırıcı olmayan dəlil və sübutsuz törəmə sözlərin incəliklərinə çox varmadım. Bu minvalla, ad və ləqəblər uzun-uzadı olduqda, yeni söz yaratdım. Əcəm sözləri ərəbləşdirdim" [7,s.4-5]. Əsərdə tez-tez VIII əsr dilçisi, ərəb dilçilik elminin banilərindən hesab edilən, Bəsrə qrammatika elminin görkəmli nümayəndəsi [4, s.3]. Xəlil ibn Əhmədin adı çəkilir və ona istinadlar edilir. Bu məqalədə "Məfatihul-ülum" əsərinin Nəhv babı on iki fəsildən ibarətdir. Məqalədə qrammatik qaydalardan bəhs edən bu bab tərcümə və şərh edilir.

I fəsil "Nəhvin başlanğıcı və yazı qaydaları ilə bağlı dilçilərin ümumi rəyləri" haqqındadır. Bu elm sahəsinin yunanca "*Ğramatika*", ərəbcə "*ən-Nəhv*" adlandığını xatırladan müəllif əl-kəlamın (sözün) üç şey olduğunu qeyd edir: "**İsim** -*Zeyd, Əmir, at;* **Fei**l- *"darabə"* (vurmaq), "*yadribu*" (vurur), "*məşə*" (getmək), "*yəmşi*" (gedir), "*marıda*" (xəstələnmək), "*yəmridu*" (xəstədir); **Hərf** – ədat - "*həl*" (mı[4)], "*qad*" (artıq), "*bəl*" (lakin) kimi". Xarəzmi bu fəsildə uzlaşan təyini söz birləşməsi və bəsit cümlədə "ən-nə`t"in (sifət, təyin) fünksiyasını da izah edir. Nümunəni belə verir: "Deyirsən ki, "*Zeydu-t-tavılu*"(uzun - ucaboylu Zeyd), "*tavılu*" (uzun) sözü nə`tdir. Sifət adlanır. Əgər deyirsən ki, "*Zeydun tavılun*" (Zeyd uzundur-ucaboyludur), söylədiyin "uzundur" sözu xəbərdir". Tənvinlərdən bəhs edərkən yazır:"Qiraət üçün sözlərin sonunda lazım olan hərəkələr üçdür:"*rafun*"- sözü adlıq hala salan (hərəkə), "*nasbun*"- yiyəlik hal; "*xəfdun*"- təsirlik halın əlamətləridir. Həmçinin "damma", "fəthə" və "kəsrə" də adlandırılırlar". əl-Xəfd"

“cərrun” da adlanır”. Müəllif onu da qeyd edir ki, bəsrəlilər bu adlandırmada fərqlənirlər. Onlar “damma”nı üç hərəkənin qoyulması lazım olan dəyişən isimlərə aid etmişlər. Məsələn, “*Zeydun*”, “*Əmirun*” və ”*Abdullahi*”. Söz əzəldən dammalı (hallanmayan) olduqda, damma işarəsi dəyişməyir. “*Nəhnu*” (biz), “*qattu*” (qətiyyən), “*heysu*” (görə) sözlərində olduğu kimi. Bünövrədən hallanmayan fəthəli olan “*nəhva*” (təxminən;...ərzində), “*eynə*”(harada), “*keyfə*” (necə) kimi sözlərdə fəthə yazılır. Yiyəlik halla bağlı davam edərək yazır:” Yiyəlik hal üç halda dəyişməsi lazım gələn hallanan isimlərdə işlədilir. Kəsrə bünövrədən yiyəlik halda olan “*həulə`i*” (bunlar), “*əmsi*” (dünən) və “*xeyri*” (xeyir) kimi sözlərdə dəyişmədən işlədilir”. Sükun işarəsini də bu fəsldə şərh edən Xarəzmi fikrini belə ifadə edir:”Eləcə də “*cəzm*”(ixtisar) və *“vəqf*” (dayanmalar) də edilir. əl-Cəzm- ixtisar edilən feillər, “*vəqf*” isə bünövrədən sükunlu olan (sözlərdə), o cümlədən “*ləm*” (inkar ədatı), “*qad*” (artıq, mış[4]), “*həl*” (mı[4]) kimi ifadələrdə özünü biruzə verir.

İkinci fəsil hallanmanın (dəyişmənin) növləri və onlarla bağlı Xəlil bin Əhməd barədə rəvayət olunanlar haqqındadır. “Ər-rəf′u” tənvin dammadır. Məsələn, *“Zeydun”*. Tənvinsiz dammaya nümunə olaraq “*yəfalu*” feilini göstərə bilərik. Növbəti babalarda digər hallanma şəkillərindən bəhs olunduğundan burada bununla kifayətlənirik.

Üçüncü fəsil yunan filosofları məktəbinə görə yazı qaydaları haqqındadır. Yunan məntiq əshabına görə, əgər uzun incə “vav” demək istəsən, (o) dolğun dammadır, uzun incə “yə” dolğun kəsrədir, uzun əlif dolğun fəthədir. Bu ölcuyə uyğun olaraq “u” və “i” səslərinin qüvvətli tələfüzünün bu hərəkələrə nisbəti uzun və zəif hərflərin hərəkələrinin, yəni “əlif”, “vav” və “yə” nin nisbəti kimidir.

Dördüncü fəsil isimlərin hal əlamətləri haqqındadır. Salim isimlər sabitdirlər. Məsələn, “*Zeydun*”, “*Əmirun*”, “*himərun*” (ulaq), “*fərasun*” (at). Mudaf isimlər (iki sözdən ibarət): məsələn, “*Abdullah*”, “*atın sahibi*” kimi. Naqis isimlər: “*gazin*”, “*qadin*”, “*muştərin*” və “*muftərin*” kimi. Maqsur (qüsurlu) isimlər: “*qafan*”, “*asən*”, “*rahən”*, “*mustafa*”, “*İsa*” və “*Musa*” Məmdud (uzunluğu olan isimlər: “*səma*” və “*liqa*” kimi. Manqus (qısaldılmış) isimlər: “*yədun*” - əl, “*dəmun*” – qan, “*əxun*” – qardaş, “*əbun*” – ata kimi. Üç hala görə təşrif olunmayan isimlər: “*İbrahimu*”, “*İsmailu*”, “*Atsənu*”, “*Talhatu*”, “*Həmzətu*” kimi. Ma′dul (düzəltmə) isimlər, “*Hazamin*”, “*Vatamin*”, “*Eaqasin*” *Hasimə*, “*Vatimə*” və “*Ragisə*”dən düzəlmiş kimi “*əl-Əsmə′ul-Mubhəmə”* – işarə əvəzlikləri “*həzə*”, “*zəkə*”, “*həzihi*”, “*tilkə*” kimi. “*əl-Əsməul-mudmə zatı*” – şəxs əvəzlikləri: “*əntə*”, “*huva*” və “*hiyə*” kimi [7,s. 47]

Babın beşinci fəsildə isimlərlə yanaşı işlənən sözlərin adlıq halda olması şəkillərindən bəhs edilir və göstərilir ki, bu hal yeddi variantda baş verir.

1.Mübtəda və onun xəbəri. “*Zeydun muntaliqun*” (Zeyd (yola) çıxıb). Zeyd mübtəda, “müntaliqun” onun xəbəridir. 2. əl-Fail (işi görən) “*Zəhəbə Zeydun*” (Zeyd getdi), “*Darabə Zeydun Ömərən*” (Zeyd Öməri vurdu”. 3. Faili bilinməyən məful. Məsələn, “*Duribə Zeydun va duxilə əl-beytə*” (Zeyd vurulmuş və evə daxil olunmuşdur.) 4. Özündən sonra gələn isimlərin halının dəyişməsini tələb edən feillər. 5. Təsirli feillər. Bunlar “*kənə*”, “*leysə*”, “*sara*”, “*məzələ*”, “*asbaha*”, “*əmsi*”, “*zallə*” və “*bətə*” feilləridir. 6 Özündən sonra isimlərin və xəbərlərin hallanmasını tələb edən ədatlar. Onlar “eynə” (“*keyfə*”), “*mətə*”, “*həl*” və “*bəl*”. 7. Özündən sonra isimləri təsirlik hala salan və xəbərləri hallandıran ədatlar: Onlar “*innə*”, “*ənnə*”, “*kəənnə*”, “*lakinnə*”, “*leytə*” və *ləallə*.

*İsimlərin təsirlik halda olmasını tələb edən şəkillərdən bəhs olunan altıncı fəsildə qeyd edilir ki, i*simlər on üç yolla təsirlik hala düşür və hər birinə aid nümunə verir: 1. Məful olduqda: “*Darabtu Ömərən*” (Öməri vurdum). 2. Xəbərin faili məchul olarsa: “*Utiyə Zeydun dirhəmən*” (Zeydə dirhəmi verildi). Zeyd məfuldur. Dirhəm ikinci məfuldur. 3. Xəbər “*kənə*” və onun növündən olanlarla ifadə edilərsə, məsələn, “*Kənə Allahu ğaffuran rahimən*” (Allah bağışlayan və rəhimlidir). 4. Təəccüb bildirdikdə. “*Mə əhsanə Zeydən?* (Zeyd necə yaxşıdır). “*Mə əkramə Ömərən*” (Ömər necə kəramətlidir) və s. [7,s.18]/

Babın yeddinci fəsli isimləri yiyəlik hala salan qaydalar haqqındadır. Xarəzmi isimlərin iki yolla yiyəlik hala düşməsindən bəhs edir: 1. Onlardan biri ismə və ya zərfə əlavə edilərsə: “Dəru Zeydin” (Zeydin evi); Bə`də Əmirin” (Əmirdən sonra); “Qablə Sə′din – Sə′ddən qabaq. 2. Önqoşmadan sonra gələrsə. “Yiyəlik hal önqoşmaları aşağıdakılardır: “an”, “alə”, “ilə”, əlavə “kəf”, əlavə “bə”, “əlavə” “ləm”, “rubbə” [7,s,49.].

Səkkizinci fəsil ismin özündən əvvəlkinə tabe edilməsi üsullarının qrammatik təhlil yolları haqqındadır. Qeyd edilir ki, isimlərin özündən əvvəlkinə tabe edilməsinin üç yolu vardır: bağlayıcı, əlavə

və sifət. Bağlayıcılar ondur: "əl-vav"; "əl-fə", "summə"; "au"; "əm"; "bəl"; "ləkin"; və "immə". Əlavələrin iki şəkli var: 1. Aydınlaşdırma əlavəsi. Hər şeyə qadir və uca Allah buyurmuşdur: "*lənəsfəan bin - nasıyəti nasıyəti kəzibətin xatıətin*". (Biz onu kəkilindən tutub, cəhənnəmə sürükləyəcəyik. Özü də yalançı, günahkar kəkilindən". (əl-Əlaq 96.15)) 2. Doğru olmayan əlavə: *"Mərrartə bifərasin himarin*" (Atı minmiş halda ulağı keçdin). 3. Sifət olduqda. Bu təyindir. "*Mərrartu biraculin zi məlin" və "Mərrartu birraculi əl-hasəni*" (Pulu olan kişini keçdim. Yaxşı kişini keçdim).

Doqquzuncu fəsil feillərin növləri haqqındadır. Xarəzmi yazır ki, feilin dörd növü vardır. 1. Artıq hərəkətin bitdiyini bildirən feillər: "Əkələ əmsi va zəhəbə" (Dünən yedi və getdi) [50]. "Huva məftuhun əbədən" (O həmişəlik açıqdır). 2. Gələcək zaman feilləri: "Huva yə'kulu ğadən" (O,sabah yeyəcək). 3. Sənin iştirak etmədiyin feil. Onu ifadə etmək "gələcək" sözünü ifadə etməklə eynidir. Hər iki şəkildə ifadə edilir. İndiki-gələcək zaman feilləri. Çünki şəkilçilər qəbul etməklə o isimləri indiki-gələcək zamana salır. 4. Əmr formasında dəyişməyən feillər: "*Kul va əzhəb*" (Ye və get) [50]/ Onların faslindən bəzisi sükun qəbul edir. O əmr formasında olan "ləm"dir.

Onuncu fəsil feili təsirlik edən ədatlar haqqındadır. Feilin gələcək zamanını təsirlik hala salan ədatlar bunlardır: "ən", "lən", "key", "keymə", "keylə". Kəsrə qəbul etmiş "ləm" [7,s.50]. Təsirlik halda olan ədatlar feili bir halda təsirlik hala salmırsa, başqasında da onu təsirlik hala sala bilmir. Bunlar, "hattə", "izən", "əllə", "əl-fə'u, "əl-vav", və "ava"dır. "Hattə"yə gəlincə, inkar, sual bildirən qeyri-vacib feillərdən əvvəl gələrsə, şübhəsiz təsirlik halda olur. Əgər vacib feillərdən əvvəl gələrsə, bəzi (bir) şəraitdə adlıq halda, digər şəraitdə təsirlik halda olur. Allah-Təalanın buyurduğu kimi, "*Va zubzilu hattə yaqulər-Rasul*" (Peyğəmbər buyuranadək silkələnin). Burada təsirlik hal mümkündür. Əgər onun mənası, "*li yaqulə ər-Rasul*" (Peyğəmbərin buyurması üçün) olsa idi, əgər mənası "*Hattə qalə ər-Rasulu*" burada adlıq hal caizdir. (Peyğəmbər buyurana kimi) mənasında olsa idi. "İzən"ə gəlincə o yalnız sözlərin əvvəlində təsirlik halda (fəthəli) olarsa, feillə onun arasında söz olmazsa, [7, s.51] "*Vallahu izən lə əflalu*" (Vallah onda etmərəm). Burada feil adlıq haldadır. "*Va izən vallahu əfalə*" (Vallahu əgər etsəm). Burada isə feil təsirlik haldadır. Sual (cümləsində) yoxdur. "İllə" - Əgər şiddətlənmə mənasında işlədilərsə, ondan sonra daha təşdidli səslənir. Qadir və qüdrətli Allah –Təalanın buyurduğu kimi "*ləillə yə'ləmə"* ((qətiyyən) bilməmək üçün). "Əl-fə". Vacib olmadıqda feil cavab olarsa, təsirlik hala salır. Eləcə də "vav" "əl-fə"nin mənasında işlənir. Həmçinin "au" "hattə" mənasında işlədilir.

On birinci fəsil gələcək zaman feillərini əmr formasına salan ədatlar haqqındadır.

Gələcək zaman feillərini əmr formasına salan ədatlar bunlardır: "ləm", - "ləmmə", "ələm", "ələmmə". Şərt budaq cümləli mürəkkəb cümlənin baş cümləsini əmələ gətirən ədatlar bunlardır: "in", "mə", "məhmə", "izmə", "heysumə", "mən", "ənnə", "eynə", "eynəmə", "mətə", "mətəmə", "keyfə", "keyfəmə". Bunlar şərt budaq cümləli mürəkkəb cümləyə nümunələrdir: "*İn tadribni, adribkə*" (Əgər məni vursan, səni vuraram); "*Mə təfal əfal*" (Etmə, etməyim) və s. Feili sükun qəbul etməsi (şərt şəklində olması): "*Zurni əzurkə*" (Mənə baş çək, səni başa çıxım); "*Va lə təfal yəkun xeyran ləkə*" (Etməsən sənə xeyr olar); "*Va leytəkə'indənə fənukriməkə*" (Bir halda ki, sən bizimləsən, biz səni qiymətləndiririk)."*Va əllə mə'un əşrəbhu*"(Sudan başqa heç nə içmirəm) və s.

On ikinci fəsil nadir qrammatik nümunələr haqqındadır. "əl-İğra" - təhrik etmə, yoldan çıxarma mənasını verən qrammatik əlaqədir. Məs.: *"Səndən pis Zeyd kimi" ; "Səndən pis Zeyddən, özünü gözlə"* "*ət-Taukid*" (təsdiq etmə, möhkəmləndirmə) – Sənin əllərinin hamısının barmaqlarını eybəcər hala salmış olduqlarının gözlərinin qarşısından keçdim. "*əz-Zuruf"* (zərflər). Əhli-Kufə onları ondakı "*əl-məhəllu*" – sözün sintaksis funksiyası adlandırır. Bəsrəlilər isə onları iki növə ayırırlar: "yer zərfi" və "məkan zərfi". Zamana aid olanlar, "bugün" , "dünən", "sabah" kimi, məkan zərfi, "sənin qarşında", "sənin altında", "sənin arxanda", "sənin önündə" kimidir. "ət-Təbriə" – (bəraət qazandırmaq" [7, s.52] Məsələn, "Mənim pulum yoxdur". Burada inkardır. "ən-Nudbə" - mərsiyə tərzində ağlamaq. Məsələn, va(y) onun cavanı, va(y) "onun atası", "va onun oğlu", "va onun Zeydi" və s. "*əl-İməd*" – (Kufə qrammatiklərinə görə dayaq mənasında işlədilir.). Məsələn," Zeyd, o iti zehinlidir". Burada "o" dayaqdır. "*Cəm'u-təksir*" – (sınıq cəm). Məsələn, "*dərahim*" "dirhəm"in cəmidir, "*kiləb*" (itlər) "kəlb-in (it) cəmidir. Bu ona görə sınıq cəm adlanır ki, burada sözün əsli dəyişir və əks şəkil alır. "*Cəmus-sələmə*" – (düzgün cəm). Bu kişi və qadın cinsində olan və kök hərfləri sağlam olan sözlərdə baş verir. Ona görə düzgün cəm adlanır ki, sözün kökü dəyişməyir,

sabit qalır. "*ət-Tərxini*" – sözün ixtisarla deyilməsi. Bu nida cümlələrində baş verir. Məsələn, "Ey qarovul" dedikdə, əlbəttə, "qarovulçu" demək istədiyimiz aydın olur.

Dilçilik elmi fəzilət əldə etmək üçün bir vasitədir. Bu, mühüm elmləri əldə etmək üçün bir vasitə kimi istifadə edilməzsə, onun öz-özlüyündə heç bir faydası yoxdur. Yazıçıların elm və ədəbiyyatla bağlı sahələri öyrənməyə həqiqətən ehtiyacları olduğuna görə, Dilçilik onların tələbələri üçün əvəzolunmazdır. Yusif Xarəzminin "Məfatihul-ülum" əsəri bir çox elm sahələri barədə mütəxəssislər üçün faydalı məlumatlar verir. Əsərdə əksini tapan zəngin terminoloji ifadələr də bu baxımdan maraqlıdır. Təqdim etdiyimiz yazıda ərəb dilinin qrammatik qaydalarından bəhs olunsa da, ilk öncə onun müəllifinin türk mənşəli, Xarəzm torpağının nümayəndəsi olması bizim üçün maraqlıdır. Digər cəhətdən, bizim ərəb dilində yazılmış zəngin klassik ədəbiyyatımız vardır. Həm də ərəb dili bizim islam mədəniyyətimizin dilidir. Elə bu yaxınlıqların səbəbidir ki, dilimizdə xeyli ərəb mənşəli söz vardır. Qrammatik qaydalara gəlincə, oxşar cəhətlər çoxdur. Bütün bunları nəzərə alaraq, bildirmək istəyərdim ki, istər bütövlükdə Məfatihul-ülum" əsərinin, istərsə də onun Dilçilik babının mütəxəsislər üçün çox böyük faydası ola bilər.

ƏDƏBİYYAT

1. Бахадиров, Р. и Хайруллаев, М. (1988). Абу Абдаллах Ал- Хорезми – X век. Академия Наук СССР. Научно-Виографическая Литература. Москва, «Наука».
2. Brokhelmann, C. (1898). Geshchte de Arabischen Litteratur. Weimar, Bd.1 Dublin.
3. Kutluer İlhan. Harizmi Muhammed bin Ahmed. İslam Ansiklopedisi TDV, Cilt 16. İstanbul 1997. 555 s. s.222-224.
4. Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Dərslik. "Maarif" nəşriyyatı, Bakı- 1985.
5. Müasir Azərbaycan dili II. Leksikologiya. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu. Bakı, 2022.
6. Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri.Fars dilindən tərcümə edən Rəhim Sultanov. İkinci nəşr. Bakı- "Elm" -1989. 254 s. s..)
7. Van Vloten G.Luqduni – Batavorum 1895. ابو عبد الله محمد بن احمد بن يوسف الخوارزمى الكاتب . كتاب مفاتيح العلوم

Zakiya ABILOVA
Doctor of Philosophy
Institute of Manuscripts named
after Mahammad Fuzuli of ANAS

LINGUISTIC ISSUES IN YUSUF KHARAZMI'S "MAFATIHUL-ULUM"

SUMMARY

In the 9th-11th centuries, Kharazm remained one of the great cultural centers of the East. The intellectual level of science, which developed here with its rich traditions, was very high. It is no coincidence that Muhammad ibn Musa al-Kharazmi, who brought the final results of the foundations of algebra to the world of science, Abu Nasr ibn Iraq (d. 1035), who gained fame in the sciences of mathematics and astronomy with his works, the brilliant encyclopedic scientist Abu Reyhan Biruni (973-1048), who enriched many fields of science and created the first globe in the East, the mathematician Abu Ali al-Hububi (10th century), It is no coincidence that the astronomer Abu Hasan ibn Bamshaz (10th century), the physician, mudaqqiq and philologist Abu al-Khair ibn al-Hammar (10th-11th centuries), the renowned chemist Abu al-Hakim Muhammad ibn Abdulmalik as-Saleh al-Kharazmi al-Kasi (11th century) and many other Kharazm scholars of that period are still world-famous today. One of the worthy representatives of the scientific thought of the 10th century was the great encyclopedic scholar of Kharazm, Abu Abdullah Muhammad ibn Ahmad ibn Yusuf al-Kharazmi (d. 997). This article refers to the chapter "Nahv" of Yusuf al-Kharazmi's work "Mafatihul-Ulum" (Keys to the Sciences), which deals with the classification of sciences.

Keywords: *Kharazm, Yusuf Kharazmi, grammar, keys to sciences.*

Закия АБИЛОВА
доктор философии
Институт рукописей имени Магомеда Физули НАНА

ЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ В ПРОИЗВЕДЕНИИ ЮСУФА АЛЬ-ХОРЕЗМИ «МАФАТИХУЛЬ-УЛЮМ»

В IX-XI веках Хорезм оставался одним из крупнейших культурных центров Востока. Уровень интеллектуального развития науки, которая здесь развивалась со своими богатыми традициями, был очень высок. Неслучайно Мухаммад ибн Муса аль-Хорезми, представивший миру науки окончательные результаты основ алгебры, Абу Наср ибн Ирак (ум. 1035), прославившийся своими трудами в области математики и астрономии, был блестящим ученым-энциклопедистом, обогатившим многие области науки. Абу Наср ибн Ирак (ум. 1035), прославившийся своими трудами в области математики и астрономии, был блестящим ученым-энциклопедистом, обогатившим многие области науки. Создателем первого глобуса на Востоке был Абу Рейхан Бируни (973-1048), математик и учёный Абу Али аль-Хубуби (X век), астроном Абу Хасан ибн Бамшаз (X век) врач, исследователь и филолог Абул-Хайр ибн аль-Хаммар (X-XI), известный химик Абул-Хаким Мухаммад ибн Абдулмалик ас-Салех аль-Хорезми аль-Каси (XI) и многие другие хорезмские ученые того периода до сих пор известны во всем мире. Одним из достойных представителей научной мысли X века является великий энциклопедист-хорезмец Абу Абдулла Мухаммад ибн Ахмад ибн Юсуф аль-Хорезми (ум. 997). В данной статье рассматривается глава «Нахв» из труда Юсуфа аль-Хорезми «Мафатихуль-Улум» (Ключи к наукам), посвященная классификации наук.

Ключевые слова: *Хорезм, Юсуф Харезми, ключи к наукам, грамматика*

Rübabə ŞİRİNOVA*

XV ƏSRİN DİVAN ŞAİRİ YUSİF DÖVLƏTOĞLU

XÜLASƏ

Türkiyə Diyanət vəqfinin tərtib etdiyi islam ensiklopediyasında Mustafa Özkan Dövlətoğlunu "Dövlətoğlu Yusif (828/ 1424) daha çok "Viqayənamə" adlı əsəri ilə tanınan divan şairi" kimi tanıdır. Buradakı məlumatlarda da qeyd olunur ki, bu əsər Anadolu sahəsində türkcə nəzm olunan ilk fiqh kitabıdır.Əsərin türk dilində mənzum şəkildə yazılması isə xüsusi əhəmiyyət kəsb etmişdir.Türk dünyası ədəbiyyatlar ensiklopediyasında Dövlətoğlu Yusif (1395-1424) hüquqşünas və şair kimi verilmiş, Balıkəsirli olduğu qeyd olunmuşdur .Onun doğum tarixi ilə baglı yeganə məlumatı Uzunçarşılı İ.Hakkının "Karasai Məşahiri" adlı əsərində verilmişdir. O, Yusif Dövlətoglunun doğum tarixini 798/1395-ci ilə təsadüf etdiyini göstərir . Mustafa Özkan isə onun vəfat tarixini 828/1424-ci il olaraq yazmışdır . XV əsrin divan şairi olan Dövlətoğlunun həyatı haqqında qaynaqlarda geniş məlumat yoxdur. O, "Mənzum viqayə" tərcüməsi ilə tanınmışdır. Əsəri 1423-1424-cü illərdə II Sultan Muradın şərəfinə yazdığı üçün bəzi mənbələrdə əsərin adı "Muradnamə" kimi də verilmişdir. Dövlətoğlu fiqhin incəliklərinin mükəmməl yadda qalması üçün XIII əsrdə Buxarada yaşamış böyük fiqh alimi olmuş Burhan əş- Şəriə əl – Əvvəllin ərəb dilində qələmə aldığı "Viqayə ər- Rivayə fi məsəilil əl- Hidayə" əsərini türkcəyə mənzum şəkildə tərcümə etmişdir. Dövlətoğlunun bu tərcüməsi onun islam hüqugu sahəsində əvəzsiz alim olmağından xəbər verir. "Mənzum viqayə" tərcüməsində fiqhin əsas məsələləri açıqlanmışdır.

Açar sözləri: *Şair,əlyazma,böyük, fiqh, alim*

*AMEA Füzuli adına Əlyazmalar İnstitutu fəlsəfə üzrə fəlsəfə doktoru, dosent. Email: rubaba.sirinova@mail.ru

2025-ci il oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır.

Qeyd edək ki, I Türkoloji Qurultay 1926-cı il fevralın 26-dan martın 6-dək Bakı şəhərində keçirilmişdir. Bu qurultay SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı mühüm qərarların qəbul edildiyi tarixi bir hadisə kimi yaddaşlara həkk olunub.

Azərbaycan dövlətinin türkoloji irsə verdiyi bu yüksək qiymət, eyni zamanda orta əsrlər türk ədəbiyyatının az öyrənilmiş səhifələrinin tədqiqinə də yeni işıq tutur. Bu baxımdan, adı türkoloji araşdırmalarda tez-tez çəkilən, lakin həyatı haqqında məlumatların məhdudluğu ilə seçilən sənətkarlardan biri də XV əsr divan şairi Yusif Dövlətoğludur. Onun yaradıcılığı beş əsrə yaxın bir müddət ərzində tədqiqatçıların diqqət mərkəzində olmuş və bu yüzilliklər ərzində müəyyən araşdırmalar aparılmışdır [13, IX, s.243]. Bu tədqiqatların əsas hissəsi Türkiyə alimlərinin payına düşür [4, s.42-48]. Şairin həyatı haqqında orta əsr mənbələrində verilmiş məlumatlar kifayət qədər məhduddur. Onun doğum tarixi ilə bağlı yeganə məlumat İ. Hakkı Uzunçarşılının "Karesi Meşahiri" adlı əsərində əks olunub. Müəllif şairin doğum tarixinin 798/1395-ci ilə təsadüf etdiyini göstərir [16, I, s.92-94]. Mustafa Özkan isə onun vəfat tarixini 828/1424-cü il kimi qeyd etmişdir [13, IX, 243-244]. Uzunçarşılının qeyd etdiyi tarixi doğum, Özkanın göstərdiyi tarixi isə vəfat ili kimi qəbul etsək, belə qənaətə gəlmək olar ki, Yusif Dövlətoğlu cəmi 30 yaşında vəfat etmişdir."

Yusif Dövlətoğlunun "Mənzum fiqh" tərcüməsi belə başlayır:

Dövlət oğlu Yusuf ol isyanı çok,
Bunca dürlü üzlə nöqsanı çok.
Balıkəsri olmuş anun mövlidi,
Həm səkiz yüz dəxi yigirmi yedi.

Hicrət tarix ana irmişikən,
Həm yigirmi səkizə girmişikən.
Bunu nəzm etdim o illərdə həman,
Kim həqiqət məqsud oldur bi güman [24,3b].

Bu beytlərdən məlum olur ki, Dövlətoğlu Yusif Balıkəsirdə anadan olmuş bu əsəri 827/1423-1424-ci ildə 28 yaşında ikən tərcümə edərək tamamlamışdır.

Digər bir məlumat isə Prof.Dr.Amil Çələbioğlunun "Əski türk ədəbiyyatı araşdırmaları" kitabındakı "Balıkəsirli Dövlətoğlu Yusifin fiqih bir məsnəvisi" [8, s.127-140] adlı məqaləsində verilir. Orada qeyd olunur ki, "Anadolu bölgəsində fiqh sahəsində türk dilində mənzum şəkildə tərcümə olunan ilk əsər Gülşəhrinin (v.717/1317) "Məntiqüt-teyir"dir. Bu əsər Qudurinin "Müxtəsər" əsərinin mənzum tərcüməsi olub, tərcüməçi tərəfindən "Məntiqul Teyr" adlandırılmışdır [8, s.127]. İkinci bir tərcümə isə Balıkəsirli Yusif Dövlətoğlunun mənzum məsnəvi şəklində tərcümə etdiyi "Viqayə tərcüməsi" adlanan məşhur fiqh əsəridir. Amil Çələbioğlu "Viqayə tərcüməsi" adlı əsərdən çıxış edərək, Yusif Dövlətoğlunun Balıkəsirli olduğunu və qazı vəzifəsində işlədiyini yazır [8, s.128].

M.Fuad Köprülü "Türk ədəbiyyatı tarixi" kitabında [12, s.354] Yusif Dövlətoğlunun bu tərcüməsindən yazaraq bildirir ki, "Balıkəsirli Dövlətoğlu Yusifin 828/1424-də yazdığı bir əsər mədrəsələrdə tədris olunurdu". Türk dili və ədəbiyyatı ensiklopediyası isə Dövlətoğlu haqqında belə yazır: "XV əsrin divan şairi olan Dövlətoğlunun həyatı haqqında qaynaqlarda geniş məlumat yoxdur. O, "Mənzum viqayə" tərcüməsi ilə tanınmışdır. Əsəri 1423-1424-cü illərdə "Muradın şərəfinə yazdığı üçün "Muradnamə" kimi də adlanır. "Mənzum viqayə" tərcüməsində fiqhin əsas məsələləri açıqlanmışdır. Dövlətoğlu fiqhin incəliklərinin yadda qalması, tez əzbərlənməsi üçün nəzm yolunu seçdiyini yazır" [14, VIII, s.280].

Türkiyə Diyanət vəqfinin tərtib etdiyi islam ensiklopediyasında Mustafa Özkan Dövlətoğlunu "Dövlətoğlu Yusif (828/1424) daha çok "Viqayənamə" adlı əsəri ilə tanınan divan şairi" kimi tanıdır. Buradakı məlumatlarda da qeyd olunur ki, bu əsər Anadolu sahəsində türkcə nəzm olunan ilk fiqh kitabıdır. Daha sonra Mustafa Özkan qeyd edir ki: "6960 beyt olan eser mesnevi tarzında ve aruzun "failatun failatun failün" kalıbıyla nazm edilmiştir" [13, IX, s.243-244]. Əsərin türk dilində mənzum şəkildə yazılması isə xüsusi əhəmiyyət kəsb etmişdir.Türk dünyası ədəbiyyatlar ensiklopediyasında Dövlətoğlu Yusif (1395-

1424) hüquqşünas və şair kimi verilmiş, Balıkəsirli olduğu qeyd olunmuşdur [15, s.161]. Başqa bir qaynaq Yusif Dövlətoğlunun Balıkəsirdə anadan olduğunu, doğum və vəfat tarixinin isə bilinmədiyini, həyatı haqqında geniş məlumat olmadığını qeyd edir, həmçinin Dövlətoğlunun təhsilini harada, kimdən aldığının da bilinmədiyini yazır. Lakin ərəb dilini mükəmməl bildiyini, Hənəfi məzhəbinin əvəzsiz qaynağı olan xııı əsrdə Buxaralı alim Sədr əş- Şəriə əl-Əvvəl təiəfindən ərəb dilində yazılan "Viqayə ər- Rivayə fi məsəilil əl- Hidayə" əsərini türkcəyə mənzum şəkildə tərcümə etməsi onun fiqh sahəsində əvəzsiz alim olmağından xəbər verir [7,s.142-145]. İslam Türk ədəbiyyatında şəkil və növlərə giriş ədəbiyyatında "Türkcə mənzum dini kitab yazmaq yolunda" ilk addımını atan Dövlətoğlu Yusif "Viqayənamə" əsərini 1424-də qələmə almış və əsər "Muradın şərəfinə yazıldığı üçün "Muradnamə" adlandırılmışdır" [13, IX, s.243-244].

"Mənzum fiqh" tərcüməsinin AMEA Əlyazmalar İnstitutunda.B-7075/8700 şifri altında qorunub saxlanan Bakı əlyazması bu abidənin ən dəyərli nüsxələrindən biridir. Həmin nüsxə, 1974-cü ildə isə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilib. Vərəqlərin sayı 213-dür. Vərəqlərin hər birində olan mətn qırmızı mürəkkəblə çərçivəyə alınmış, iki sütunda qara mürəkkəblə, hər sütunda 17 misra olmaqla yazılmışdı. Sütunlar bir-birindən 0,55sm enində çəkilmiş qoşa xətlərlə ayrılmışdır. Həcmi 7116 misra olan abidənin vərəqlərinin ölçüsü 16x24,5sm, mətn yazılmış çərçivənin ölçüsü 12,5 x20,5sm, hər sütunun ayrılıqda ölçüsü isə 5,5x20,5sm-dir. Vərəqlərin kənarlarındakı zolağın ölçüsü isə 3 və 1,5x2,5sm-dır. Başlıqlar ərəb dilində, 1 və 1x2,5sm ölçüsündə, ayrıca çərçivələrdə, hərəkəli qırmızı mürəkkəblə, iri xətlə yazılmışdır. Vərəqi ağ rəngli ahərli filiqranlı (qayçı şəkilli 204a vərəqində) İtaliya kağızına köçürülmüşdür. Əlyazmanın vərəqləri klassik Şərq və müasir üslubda səhifələnmişdir. Abidənin 1b-2a vərəqlərində qırmızı və qara mürəkkəblə iri xətlə əsərin fehristi verilib. Cildi qırmızı rəngli kartondur, sonradan bərpa olunmuş, üstünə göy və sarı rəngli bəzəkli üzlük çəkilmişdir.

Əsər:

اول اسم اللهله بشلادق اوش
ایشی بسم اللهله قلدق زىخوش

Əvvəl ismi Allahla başladıq uş,
İşi Bismillahla qıldıq zi xoş.

beyti ilə başlayır,

مجتهدلر مقتداسی اول امام
راي كامل اصل محكم والسلام

Müctəhidlər müqtədası ol imam,
Rəyi kamil əsli möhkəm vəssalam.

beyti ilə bitir.

7116 beyt olan bu əsər məsnəvi tərzində və əruzun "failatun failatun failun" qəlbində nəzm edilmişdir.Yusif Dövlətoğlunun "Mənzum fiqh" tərcüməsi "Bəsmələ"nin [25, 2a] fəzilətindən bəhs edən qısa bir girişlə başlayır, sonra isə tovhid və nətlə davam edir.

Yusif Dövlətoğlunun dövründə ərəbcə və farsca kitab yazmaq daha dəbdə idi, lakin buna baxmayaraq Yusif Dövlətoğlu bu əsəri türkcəyə tərcümə etmişdir ki, bütün türk dünyası heç bir çətinlik çəkmədən fiqhi dərindən öyrənsinlər. Bununla əlaqədar o tərcüməsinin 3a vərəqində belə yazır:

Türk dilincə düzdülər bunca kitab,
Mani yüzündən götürdülər niqab.

Kimsə görüb anı inkar etmədi,
Həm edənlər dəxi heç ar etmədi...

Qamu alimlər anı qıldı qəbul,
Cümlə xalq içində məşhur oldı ol.

Türki olmaq mənzum olmaq pəs kəlam,
Ana heç eyb olmazimiş vəssalam.

Türkcədür dərsi müdərrislər əxi,
Həm mühədislər, müfəssirlər dəxi.

Bu müqəddimədən sonra فصل في سبب نظم الكتاب [25, 3a] "Fəsli fi səbəbi-nəzmil-kitab" ("Kitabın nəzmə çəkilməsi səbəbləri") bölümü gəlir:

Dinlə imdi türkcə bir mənzum kitab,
Etdigimçün siz bana etmən itab.

Ey necə gördün ulu alimləri,
Elmiylə amilü və kamilləri….

Yusif Dövlətoğlu tərcümə etdiyi Sədr əş-Şəriənin "Viqayə" əsəri ilə kifayətlənməyərək onun tərcüməsində başqa mənbələrdən də faydalanmışdır:

Müşkilatdan nəql olunmuşdur məgər,
Bunda hələ vacib olmaz dedilər [25, 81a].

Dəxi bilməkiligi dilərsən ey imam,
Var Hidayə nəqlini gör belə tamam [25, 91b;23,II,s.2031].

Yusif Dövlətoğlu burada Əbül Həsən Burhanəddin Əli bin Əbubəkr bin Abdulcəlil əl-Fərqanə əl-Marqinani ər-Riştaninin (593/1197) ---- "əl-Hidayə" əsərinə toxunur [23.II,s.2032]

Mənayilə fərq olundu hər biri,
Böylə nəql etmiş Sihahi Cövhəri [25, 114b].

Burada isə müəllif XI əsrdə yaşamış Türkəsilli məşhur ərəb alimi olmuş, Əbu Nəsr İsmail əl-Cövhəri əl- Fərabinin " Sihahi Cövhəri" əsərinə isnad etmişdir.

"Mənzum fiqh"in tərcüməsi 49 kitabdan, hər kitab isə özlüyündə bab və fəsillərdən ibarətdir. Əsər Bəsmələdən sonra كتاب الطهارة – "Kitabüt-təharət" (5a-30a) ilə başlayıb, كتاب الخنثى – "Kitəbül-xunsa" (211b-212b) ilə bitir, hər kitab isə özlüyündə bab və fəsillərə ayrılır.

Şərqdə və qərbdə nəşr olunmuş Şərq əlyazmaları kataloqlarında isə Dövlətoğlu və onun "Mənzum fiqh" əsəri haqqında müxtəlif xarakterli məlumatlar verilir. İngilis alimi Çarlz Rio özünün "Türk əlyazmaları kataloqu"nda "Mənzum fiqh"in Britaniya Muzeyində saxlanan bir nüsxəsi haqqında məlumat verərək yazır: "Balıkəsirli Yusif Dövlətoğlu tərəfindən tərcümə olunan mənzum fiqh əsəridir. O, bunu hökmdar Sultan Murad Xana həsr etmişdir" [17,s.9-11]. Q.Dobracanın "Ərəb, fars, türk əlyazmaları kataloqu"nu [18,II,s.635-638] xüsusi olaraq qeyd etmək lazımdır, çünki "Mənzum fiqh" tərcüməsinin təsvir olunmuş əlyazmalarının ümumi sayına görə başqa kataloqlardan üstün olan bu mənbədə Yusif Dövlətoğlunun qısa tərcümeyi-halı və Sarayevo kitabxanasında müəllifin göstərilən əsərinin 5 əlyazma nüsxəsinin olduğu və bu abidənin ən qədim nüsxəsinin 964/1556-cı ildə [18,II,s.635-638] köçürüldüyü haqqında, Fəhmi Ədhəm Qaratayın "Topqapı Sarayı Muzeyi kitabxanası türkcə yazmalar kataloqu"nda Dövlətoğlunun bu tərcümə əsəri ilə bağlı məlumat verərkən onun "Mənzum viqayə tərcüməsi" [11,II,s.76] və "Kitab əl-Bəyan" adlı [11,II,s.77] iki nüsxəsi olduğunu yazmışdır. "Kitab əl-Bəyan" adlanan nüsxənin 843/1439-cü ildə köçürüldüyünü qeyd edir.

Əbdülbaqi Gölpınarlının "Konya Mövlana Muzeyi yazmalar kataloqu"nda [10,I,s.146-147] Dövlətoğlunun "Viqayə tərcüməsi" adı ilə verilən bu nüsxəsinin 972/1564-ci ildə Belqradda köçürüldüyünü yazır.

Aparılan araşdırmalar nəticəsində əldə edilmiş məlumatlara görə "Mənzum fiqh" əsər və onun müəllifi ilə bağlı Türkiyədə üç tədqiqat işi aparılmışdır. 1992-ci ildə Nemət Altunqaynaq "Dövlətoğlu Yusuf Viqayə Tərcüməsi (mətnin transkripsiyası adlı) magistır işi; 1999-cu ildə Mehmet Demir "Dövlətoğlu Yusuf, Viqayə tərcüməsi mətn dil incələmələri", 2002-ci ildə isə Bilal Aktan "Dövlətoğlu Yusufun Viqayə tərcüməsi" mövzusunda fəlsəfə doktoru dissertasiya işi yazaraq,"Mənzum fiqh" tərcümə əsərinin müxtəlif dövrlərdə üzü köçürülmüş əlyazmaları üzərində müqayisəli surətdə araşdırmalar aparmış və onun elmi tənqidi mətnini tərtib edərək, əsərin mətnini tədqiq etmişdir. Bilal Aktan dissertasiyanın "Devletoğlu Yusuf hayatı" adlı bölümündə Dövlətoğlunu "...kaynaklarda adı Hüseyin b. Yusif el-Kirmasti (el-Balıkesri)..." kimi təqdim etmişdir [6,3-5]. Tədqiqatçı bizim yuxarıda adlarını sadaladığımız mənbələrdən

istifadə etməsinə baxmayaraq ciddi yanlışlığa yol verərək, Dövlətoğlu Yusifi başqası ilə səhv salmışdır. Bilal Aktanın təqdim etdiyi bu alim isə XV əsrdə yaşamış Hənəfi məzhəbinin alimlərindən biri, İstanbul qazısı olmuş Yusif bin Hüseyin Kirmastidir [20,s.316; 22,I,s.253]. O, məşhur alimlərdən Xocazadənin tələbəsi olmuş Yusif bin Hüseyn Əvvəl Bursada, sonra isə İstanbulda qazı vəzifəsində çalışmış və 900/1500-cü ildə İstanbulda vəfat etmişdir. Qəbri Fatih Caminin yanında tikdirdiyi məktəbin həyətindədir. Onun bir cox əsərləri, o cümlədən "Viqayə" əsərinə həsr etdiyi mükəmməl bir şərhi vardır [21,IV,s.157;23,II,2021; 19,II,s.563].

Ədəbiyyat tarixinin aparıcı qollarından birini təşkil edən tərcümə ədəbiyyatının tarixi kökləri keçmiş əsrlərin dərin qatları ilə bağlıdır. İslam Şərqində isə tərcümə sənətinin tarixi VIII yüzillikdən yunan, siryani və pəhləvi dillərindən edilən tərcümələrlə başlamışdır. Pəhləvi dilindən ərəb dilinə çoxlu sayda tərcümələr etmiş fars əsilli ərəb klassiki İbn əl-Müqəffa (720-756) tərcümə sənətinin inkişafında böyük əmək sərf etmişdir. "Onun tərcümə əsərləri içərisində ən məşhuru "Kəlilə və Dimnə" əsəridir" [1,s.101].

Xəlifə Məmunun (813-833) elmə və tərcümə işinə göstərdiyi himayədarlıq sayəsində bu dövrdə tərcümə sənəti özünün çiçəklənmə dövrünü yaşamışdır. Türk dilinə edilmiş tərcümələrin tarixi isə, alimlərin fikrincə XI yüzillikdə Quranın türk dilinə sətiraltı tərcüməsi ilə bağlıdır. "Bir sıra alimlərin apardıqları araşdırmalara söykənərək belə bir qənaətə gəlmişlər ki, Quranın türk dilinə ilk sətiraltı tərcümələri XI yüzillikdə həyata keçirilməyə başlamışdır. Son dövrlər əldə edilmiş materiallar və onların üzərində aparılmış tədqiqatlar Qurandan türkcəyə edilmiş tərcümə tarixinin daha qədim dövrlərə gedib çıxdığını göstərir" [5,s.215].

Türk tərcümə sənəti ərəblərdə olduğu kimi hərfi və sərbəst tərcümələrdən ibarət olmuşdur. Bununla bərabər onu da qeyd etmək lazımdır ki, orta əsr tərcümələrində bu iki prinsip əsas götürülməsinə baxmayaraq üstünlük sərbəst-yaradıcı tərcüməyə verilmişdir [2,s.118-119]. Bununla əlaqədar M.Nağısoylu yazır: "Beləliklə, bilavasitə praktiki tərcümə ilə məşğul olmuş orta əsr tərcüməçiləri birinci tərcümə növünü qüsurlu saymış ikinci növə (sərbəst tərcüməyə - R.Ş.) üstünlük vermişlər" [2,s.19; 3,s.202-203].

Sərbəst-yaradıcı tərcümələr orta yüzilliklərin tərcümə sənətində daha geniş yayılmış və əsasən poetik əsərlərin, eləcə də tarixə aid kitablarının tərcüməsində tətbiq edilmişdir. Bu növə aid türkcəyə tərcümələrin ən qədim nümunələri XIV yüzilliyə aiddir. Hətta tarixə aid kitabların tərcüməsində əsərlərin bəzi hissələri ixtisar edilmiş və bir çox hallarda isə tərcüməçilər özlərinin bildikləri məlumatları və ya şahidi olduqları hadisələri də tərcümənin mətninə əlavə etmişlər. T.Sultanovun yazdığı kimi, orta yüzilliklərdə türkcəyə çevirən tərcüməçilər, bir qayda olaraq əsas diqqəti orijinalın dəqiq tərcüməsindən yox, onun məzmununu öz oxucuları üçün daha maraqlı və əyləncəli etməyə yönəltmişlər. Onlar orijinalın bir növ "köhnəlmiş" hissələrini atır, əvəzində ona yeni bölmələr artırırdılar [2,s.152].

"Viqayə" əsərini türkcəyə tərcümə edən Yusif Dövlətoğlu da sərbəst-yaradıcı tərcümə üsulunu əsas götürmüşdür. Buna görə də orijinalda və tərcümədə kitabların sayı biri-birindən fərqləndiyi kimi, mətnlərin həcmləri də fərqlənir. Bununla bərabər onu da qeyd etmək lazımdır ki, "Viqayə"nin orta əsrlərdə müxtəlif dövrlərdə üzü köçürülmüş əlyazma nüsxələrində olan kitabların sayı da fərqlidir. Əgər orijinalın S-740 şifri altında mühafizə edilən nüsxəsi 51 kitabdan, B-7496 şifrli nüsxəsi 56 kitabdan, B-3227 və B-7265 şifrli nüsxələr 55 kitabdan ibarətdirsə, B-5761 şifrli nüsxə 58 kitabdan ibarətdir. Bu da onu göstərir ki, orta əsr katibləri tədqiq edilən əsərin mətnini köçürərkən mətndə müxtəlif dəyişmələrə yol vermişlər.

Yusif Dövlətoğlunun tərcüməsində isə kitabların sayı daha azdır. Belə ki, B-7075 şifrli "Mənzum fiqh" tərcüməsində kitabların sayı cəmi 49-dur. Buradan da belə qənaətə gəlmək olar ki, Yusif Dövlətoğlu özü tərcümədə kitabların sayını azaltmış, ya da onun tərcümə üçün istifadə etdiyi nüsxədə kitabların sayı elə tərcümədəki sayda olmuşdur [3,s.203].

Əsərdə olan kitabların sayı tərcümədə olan kitabların sayından fərqləndiyi kimi, orijinalla tərcümənin mətnləri də həcm baxımından biri-birindən çox fərqlənir. Belə ki, əgər "Viqayə" əsərinin S-740 şifrli əlyazması 3775 sətirdən, B-7496 şifrli əlyazması 4417 sətirdən, B-7265 şifrli nüsxəsi 4095 sətirdən, B-3227 şifrli əlyazması 4733 sətirdən və B-5761 şifrli nüsxəsi 3201 sətirdən ibarətdirsə, B-7075 şifri altında saxlanılan "Mənzum fiqh" tərcümə abidəsinin həcmi 7116 beytdir. "Mənzum fiqh" tərcüməsinin başqa ölkələrin kitabxanalarında saxlanan nüsxələrində də mətnlərin həcmləri biri-birindən fərqlidir.

Sarayevo kataloqunda 6000 [18,II,s.635], 6281 [18,II,s.636], Türk dünyası ədəbiyyatlar ensiklopediyasında 6281 [15,s.128], Eski Türk edebiyyatı araşdırmalarında isə 6960 [8, s.128] və 7000 [8, s.362] beyt olduğu göstərilir. Deməli tərcümə ilə orijinal arasındakı fərq nəzərə çarpacaq dərəcədə böyükdür. Yusif Dövlətoğlu "Viqayə" əsərini türkcəyə tərcümə edərkən sərbəst-yaradıcı tərcümə üsulunu əsas götürmüşdür. Bu baxımdan da əsərin transfoneliterasiya edilib nəşrə hazırlanması türkoloqlar, mütəxəssirlər üçün əhəmiyyətli qaynaqdır.

ƏDƏBİYYAT:

1. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Bakı, "Elm" 1983, 207 s.
2. Nağısoylu M. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti. Bakı, Elm, 2000, 262 s.--75
3. Rübabə Bahadurqızı (Şirinova). "Mənzum fiqh" tərcüməsi ilə "Viqayə" orijinalının mətnlərinin müqayisəli təhlili. Azərbaycan Milli Elimlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnistitutu. Xaqani Şirvaninin 880 illiyinə həsr edilmiş Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. X Respublika elmi-nəzəri konfransının materialları. Bakı, Nurlan, 2006, 359 s.
4. Rübabə Bahadurqızı (Şirinova). Yusif Dövlətoğlu və onun "Mənzum fiqh" tərcüməsi. Azərbaycan MEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi araşdırmalar (elmi-nəzəri məqalələr toplusu) (VII buraxılış) №3-4. Bakı, 2004, 414 s.
5. Şərifli K. Mətnşünaslığın əsasları (Ali məktəblər üçün dərslik). Bakı, Nurlan, 2003, 312 s.
6. Aktan Bilal. Devletoğlu Yusufun Vikaye tercümesi (inceleme-metin dizin). Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü. Doktora tezi. Erzurum, 2002, 871 s.
7. Cici Recep. Osmanlı Dönemi İslam Hukuku Çalışmaları. Kurtuluşdan Fatehin devrinin sonuna kadar. Bursa, 2001, 204 s.
8. Çelebioğlu Amil. Eski Türk Edebiyatı Araşdırmaları. İstanbul, 1998, 789s.
9. Demir Mehmet. Devletoğlu Yusuf, Vikaye tercümesi (metin dil incelemesi). Ege Üniversitesi Sosyal Bilimler Enstitüsu Türk Dili ve Edebiyatı Anabilim Dalı. Doktora tezi. İzmir, 1999.
10. Gölpınarlı Abdülbaki. Konya Mevlana Müzesi Yazmalar Kataloğu. 3 ciltde. Ankara, 1967, I, 229 s; 1972, II, 255 s.
11. Karatay F.E. Topkapı sarayı müzesi türkçe yazmalar kataloğu. (II cilddə), İstanbul, 1961, Ic., 644; İstanbul, 1961, IIc., 391 s.
12. Köprülü M. F. Türk Edebiyatı Tarihi. İstanbul, 1980, 436 s.
13. Mustafa Özkan Devletoğlu Yusuf, Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. IX, İstanbul, 1994, 560 s.
14. Türk dili ve Edebiyatı Ansiklopediyası, VIIIc., İstanbul, 1977, 435 s.
15. Türk Dünyası edebiyatlar ansiklopedisi, Atatürk Kültür Merkezi, 2003,III, 420 s.
16. Uzunçarşılı İ.H. Osmanlı Tarihi. Türk Tarihi Kurumu Basımevi. Ankara, 2003, I, 639 s; Ankara, 2008, II, 756.
17. Rieu, Charles. Catalogue of the Turkish Manuscripts in the British Museum, London, 339 p.
18. Добраджа К. Каталог арабских, турецких и персидских рукописей. Сараево, 1963, Iт., 607с, 1979, IIт., 1043с., 1991, III т., 518с.
19. ابن خلكان، وفيات الاعيان ٦ـ١، الجزء الاول، ٤٣١ص. الجزء الرابع ٦٠٠، بيروت، ١٤١٩/١٩٩٨.
20. طاشكبرى زاده احمد بن مصطفى، الشقائق النعمانية فى علماء الدولة العثمانية، XI+١٥٩+٥٦٠ص، استانبول ١٤٠٥
21. عمر رضا كحاله، معجم المولفين ١ـ٤، بيروت، الجزء الثالث، ٩٥٠ص، الجزء الرابع ٥٨١
22. فهرس المخطوطات المصورة، الجزؤ الاول الغة. عصام محمد الشنطى ٥٧٦ ص، القاهرة بيروت، ١٣١٩/١٩٩٨.
23. مصطفى بن عبدالله الشهير بحاجى خليفة و بكاتب چلبى كشف الظنون عن اسامى الكتب و الفنون، جلد ١ـ٢، الجلد الاول، ٤٨+٩٣٨، الجلد الثانى، ٢٠٥٦ص. استنبول ١٩٤١ـ١٩٤٣.
24. يوسف داولت اوقلى- منظوم فقه AMEA Əlyazmalar İnstitutu B-7075
25. وقاية الرواية فى مسائل الهداية عبيد الله بن مسعود صدر الشريعة الاول AMEA Əlyazmalar İnstitutu S -740

Рубаба ШИРИНОВА
доктор философии по философии, доцент
Институт рукописей имени Мухаммеда Физули НАНА

ДИВАННЫЙ ПОЭТ XV ВЕКА ЮСИФ ДЕВЛЕТОГЛУ

В исламской энциклопедии, подготовленной Турецким религиозным фондом, Мустафа Озкан характеризует Юсифа Девлетоглу как «Девлетоглу Юсиф (828/1424) — диванный поэт, получивший наибольшую известность благодаря своему произведению “Вигайенаме”». Здесь также отмечается, что данное произведение является первой книгой по фикху, написанной в стихотворной форме на турецком языке на территории Анатолии. Тот факт, что произведение написано на турецком языке в стихотворной форме, имеет особую значимость.

В «Энциклопедии литератур тюркского мира» Юсиф Девлетоглу (1395–1424) представлен как юрист и поэт; при этом указывается, что по происхождению был из Балыкесира. Единственное сведение о дате его рождения содержится в труде Узунчаршылы И. Хаккы «Карасаи мешахири», где указывается, что год его рождения соответствует 798/1395. Мустафа Озкан, в свою очередь, датирует смерть Девлетоглу 828/1424 годом.

В источниках отсутствуют подробные сведения о жизни Девлетоглу, диванного поэта XV века. Он известен своим переводом «Манзум вигайе». Поскольку данное произведение было написано в 1423–1424 годах в честь султана Мурада II, в ряде источников оно также упоминается под названием «Мураднаме».

Для полного и устойчивого усвоения основных положений фикха, Девлетоглу осуществил поэтический перевод на турецкий язык произведение выдающегося исламского правоведа XIII века, уроженца Бухары, Бурхан аш-Шариа аль-Авваля, написанного на арабском языке под названием «Вигайат ар-Ривайа фи масаил аль-Хидайа». Данный перевод свидетельствует о значительном вкладе Девлетоглу в развитие исламско-правовой сферы в качестве незаменимого ученого. В переводе «Манзу́м Вигайе» подробно изложены основные вопросы фикха.

Ключевые слова: *поэт, рукопись, великий, фикх, учёный*

Rubaba SHIRINOVA
PhD on philosophy, assistant professor
Institute of Manuscripts named after Muhammad Fuzuli NASA

THE XV CENTURY DIVAN POET YUSIF DEVLETOGLU

In the Islamic encyclopedia prepared by the Turkish religious foundation, Mustafa Ozkan characterizes Yusif Devletoglu as “Devletoglu Yusif (828/1424) is a divan poet who is best known for his work “Wigayenameh”. It is also noted that this work is the first book on figh written in Turkish poetry in Anatolia. The fact that the work was written in Turkish poetry is particularly significant.

In the "Encyclopedia of literatures of the Turkish world," Yusif Devletoglu (1395–1424) is described as a lawyer and poet, and it is stated that he was originally from Balikesir. The only information on his date of birth is contained in Uzuncharşılı I. Hakki's "Karasai Meshahiri," which dates his birth year to 798/1395. Mustafa Özkan, in turn, dates Devletoglu's death to 828/1424.

Sources lack detailed information about the life of Devletoglu, the XV century divan poet. He is known for his translation of "Manzum Wigaye." Since this work was written in 1423–1424 in honor of Sultan Murad II, it is also referred to in some sources as "Muradnameh."

To ensure full and lasting understanding of the fundamental tenets of figh, Devletoglu made a poetic translation into Turkish of the work of the eminent XIII century Islamic jurist and native of Bukhara, Burhan ash-Sharia al-Awwal, written in Arabic under the title "Wigayat ar-Riwaya fi masa'il al-Hidaya." This translation proves Devletoglu's significant contribution to the development of Islamic law as an indispensable scholar. The translation of "Manzum Wigaye" provides a detailed exposition of the fundamental issues of figh.

Keywords: *poet, manuscript, great, figh, scholar*

Sevil ABBASOVA (İRƏVANLI)*

FİN TÜRKOLOG ALTAYİST GUSTAF JOHN RAMSTEDT (1873-1950)

ÖZET

Finlandiya, Kuzey Avrupa'nın en ucunda yer alan ve yerli dilinde "bataklıklar ülkesi anlamına gelen Suomi olarak bilinir. Suomi, batısında İsveç doğusunda Rus İmparatorluğu arasında yüzyıllarca sömürülmüştür. 1809'da Rusya ile İçveç arasında çıkan savaşta İsveç yenilmiş ve Suomi topraklarının tamamı Rusya'nın hakimiyetine geçmiştir. Çar memurları, Finleri İsveç kültürünün etkisinden uzaklaştırmak için Ruslaştırma yerine yerel milli hareketleri desteklemişleri. Bu amaçla, bir yüzyı boyunca Ural-Altay halklarının yaşadıkları bölgelere araştırma gezileri düzenlenmiş Fin-Ugor Türk-Tatar halkları ve dillerinin araştırılmasına önem verilmiş ve alan araştırmaları için de genişçe ödenek ayrılmıştır. Bu süreçte, Mathias Aleksandr Castrén, Herman Kellgren, Gustav John Ramstedt gibi Türkologlar, Ural-Altay dilleri üzerine önemli çalışmlar yapmışlardı. Bu çalışmlar, Petersburg Bilimler Akademisi, Helsinki ve Kazan üniversiteleri gibi bilim kurumlarının himayesinde gerçekleştirilmiştir. Yukarıda adları zikredilen Türkologlardan Gustav Ramstedt, hem Çarlık Rusya'sı döneminde hem de Suomi'nin bağımsızlık döneminde Türkoloji alanında önemli çalışmalar yapmıştır. Ramstedt çarlık döneminde özellikle Sibirya ve orta Asya'da alan araştırmaları yaparak, çeşitli Türk dillerini incelemiş ve bu dillerin gramer yapıları üzerinde önemli eserler ortaya koymuştur. Bağımsızlık dönemi; Fin-Ugor Cemiyeti'nin desteğiyle Ramstedt çalışmalarının daha özgür yürütülmesine olanak sağlamıştır. Bu dönemde, Ural-Altay dilleri üzerine yaptığı çalışmalar, sadece dilbilimsel değil, aynı zamanda kültürel ve etnografik açıdan da büyük önem taşımaktadır. Çalışmada, Ramstedt'in Türkoloji alanında Ural-Altay çalışmaları ele alınmıştır.

Anahtar Kelimeler: *Ural-Altay, Türkoloji, Çarlık Rusya, Bağımsızlık/*

1. ALTAİST GUSTAV JOHN RAMSTEDT'İN HAYATI EĞİTİMİ (1873-1950)

Fin Türkolog Altayist Gustav John Ramstedt (1873-1950) Tammissari'de doğmuş, ilk öğrenimini de Tammisari'de almıştı. Ramstedt 1892'de Turku'daki İsveç klasik lisesinden mezun olduktan sonra Emperyal II. Aleksandr Üniversitesine (Helsinki) kaydolmuştu. Üniversitede Yunanca, Latince, İbranice ve Sanskritçe okurken Sanskritçe profesörü Otto Donner'in tavsiyesiyle dikkatini Orta Asya'ya çevirmiştir. Ramstedt, 1895'te felsefe alanında lisans ve 1898'de yüksek lisans derecesi aldı ve üniversitede Altay dilleri sahasında çalışmaya başladı. Ramstedt'in Altay dilleri üzerine yönelmesi aslında Finno-Ugric Society'nin kurucusu Otto Donner sayesinde olmuştur. Üniversitede Sanskritçe ve karşılaştırmalı dilbilim profesörü olan Otto Donner, Ramstedt'i üniversite eğitimine devam etmeye ikna etti ve onu Altay dillerini incelemeye teşvik etti. Otto Donner, 1883'te kurulan De la Societe Finno-Ugrienne kurucu üyelerinden biriydi. Dilsel yeteneğe ek olarak, Profesör Otto Donner Ramstedt'te bilimsel bir yönelim keşfetti ve onu Asya'ya dilbilimsel bir keşif gezisine göndermeyi önerdi.

1.1. C. J. Ramstedt'in Gezi Çalışmaları ve Ural-Altay Dil Tetkikleri

Gustav Ramstedt, hem Çarlık Rusya'sı döneminde hem de Suomi'nin bağımsızlık döneminde Türkoloji alanında önemli gezi çalışmaları yapmıştır. Ramstedt çarlık döneminde özellikle Sibirya ve orta Asya'da alan araştırmaları yaparak, çeşitli Türk dillerini incelemiş ve bu dillerin gramer yapıları üzerinde önemli eserler ortaya koymuştur. Bağımsızlık dönemi; Fin-Ugor Cemiyeti'nin desteğiyle Ramstedt çalışmalarının daha özgür yürütülmesine olanak sağlamıştır. Bu dönemde, Ural-Altay dilleri üzerine yaptığı çalışmalar, sadece dilbilimsel değil, aynı zamanda kültürel ve etnografik açıdan da büyük önem taşımaktadır. Ayrıca Gustav John Ramstedt Orta Asya dilleri üzerinde çalışmış ve Altay Dil teorisini geliştirmiştir. Bu teori, Türkçe, Moğolca, Mançu-Tunguzca, Japonca ve Korece gibi dillerin yapısı olarak birbirlerine benzerlik gösterdiğini savunur. Ramstedt'in çalışmaları iki dönem arasında olmuştur. 1898 ve 1912 yılları arasında Ramstedt, Türkistan, Moğolistan ve Sibirya'ya yedi sefer yaptı ve bu bölgenin dillerini

* Araş. Gör., Uluslararası Vizyon Üniversitesi Gostivar (Kuzey Makrdoniya). Email: sevilsuomi@gmail.com

derince incelemişti. Araştırmalarının bir sonucu olarak, Ramstedt karşılaştırmalı Altay dil araştırmalarının öncüsü, modern Moğolizmin kurucusu ve uluslararası düzeyde önemli bir Orta Asya dilleri bilgini oldu. [1,s. 11-19].Ramstedt ilk seferine 1898'de başlamış ve 1883'te kurulan *Finno-Ugric Society* tarafından finanse edilmiştir. Bu gezinin hedefi, Sibirya, Baykal Gölü ve merkezi Moğolistan olmuştur. Ramstedt'in orada yaşayan Fin halklarının dillerini öğrendiği Volga'nın orta rotasıydı. Yolculuk devam genelinde Sibirya güneye kadar Baykal Gölü ve merkezi Moğolistan oldu. Ramstedt ilmi gezi sırasında çeşitli boylar arasında yaşadı; bir yandan onların lehçelerini öğrenirken diğer yandan da dil ve folklor malzemesi toplamıştı. Ramstedt 1901 baharında Suomi'ye döndü. Suomi'ye gönderdiği koleksiyonlar tren yolculuğu sırasında ortadan kayboldu ve kısmen hayatta kalan notlarına ve kendi iyi hafızasına dayanarak geziye dayalı bir tez yazmak zorunda kaldı.

Mart 1903'te ikinci seferine çıktı Kafkasya ve kuzey Hazar Denizi'ndeki bir çift mezara kısa bir yolculuk yaparak başlamış Hazar denizi üzerinden, şimdiki Türkmenistan'a ve Tacikistan'a üçüncü yolculuğuna gerçekleştirmişti. Ancak orada, Kasım ayında sıtmayla ciddi şekilde hastalandı ve tedavi için Suomi'ye geri dönmek zorunda kalmıştı.

Geziler arasında Ramstedt, 1903'te gezilerden toplanan materyale dayalı dilbilimsel araştırmaları yayınladı. Araştırma burslarına ek olarak, Ramstedt öğretmen olarak ve 1906'dan itibaren Emperyal Aleksander Üniversitesi'nde doktorasına devam etti. Üniversitesi'nde *Moğol Dilinin Dilbilimi üzerine* doktora tezini savundu. Daha sonra Ramstedt, Helsinki Üniversitesi'ne Altay dilbilimi profesörü olarak atandı. Gezilerde topladığı verilere dayanarak araştırmalarına devam etti.

Dördüncü yolculuk Nisan 1904'te başladı ve hedefler artık Volga ve Don bölgelerinin höyükleriydi; gezi yıl sonuna kadar sürdü. Beinci seferini Mayıs 1905'te Batı Sibirya üzerinden İrtiş vadisi boyunca Doğu Moğol dillerini öğrenmeyi planladığı Çin'deki Doğu Türkistan'a (şimdiki Sincan) olmuştu. Ancak Ramstedt, Rus-Japon savaşı nedeniyle bu geziden Suomi'ye erken dönmek zorunda kalmıştı. Rus-Japon savaşının ardından 1905 Rus Devrimi'ndeki huzursuzluk nedeniyle üç yıl boyunca Ramstedt seyahatlerine devam edemediğinden yine Lahti'de öğretmen olarak çalıştı ve aynı zamanda gezileri sırasında topladığı materyallere dayanarak Kalmık, Moğol ve Tatar dilleri üzerine dilbilimsel araştırmalar yayınladı ve Helsinki Üniversitesi'nde 1906'da doçent oldu [1, s. 11-19].

Mayıs 1909'da Ramstedt, Sakari Pälsi ile altıncı kez bir geziye çıktı, bu sefer arkeolojik kazılar yaptıkları Orta Moğolistan'a başarılı yolculuk aynı yılın sonunda sona erdi. Ramstedt'in son seferleri yine Mayıs 1912'de öğrencisi Arvo Sotavalla ile ayrıldığı Moğolistan'a gitti. Beş aylık gezi, dilbilimsel, arkeolojik ve coğrafi araştırmaları içeriyordu.

Ramstedt'in gezileri, Ural-Altay dilleri üzerine yaptığı çalışmalar açısından büyük önem taşımaktadır. Bu geziler sırasında topladığı veriler, dilbilimsel, kültürel ve etnografik açıdan önemli eserler ortaya koymasına olanak sağlamıştır.

Ramstedt, 1917 yılında Helsinki Üniversitesi'nde Altay Dilbiliminin Olağanüstü Kişisel Profesörü olarak atandı ve Lahti'den Helsinki'ye taşındı. Bu dönemde üniversitede diplomat olarak kariyer kazandı. Ramstedt'in diplomatik kariyeri Asya'daki bilgi ve dil becerilerine dayanarak 1919'da Tokyo'da Suomi'nin Japonya, Çin ve Siam Maslahatgüzarı atanmasıyla başladı. Ramstedt'in 1919'da Suomi'nin temsilcisi olarak Japonya'ya gönderildi ve bir süre dil çalışmalarından uzak kaldı. Ramstedt, yeni Suomi devletinin Japonya ve Çin'deki ilk diplomatik temsilcisi olarak uzun yıllar görev yaptı.* Diplomatik görevlerine ek olarak, Ramstedt araştırma çalışmalarına devam etti, Japonca okudu ve Korece öğrenmeye başladı.

---

* Aulis J. Joki, *Ajkakauskirja Journal De La Societe Finno-Ougrienne, (*Helsinki:1951*). (Çeviri: Atilla Jorma& Abbasova*). Aulis Joki, Ramstedt hakkındaki makalede şöyle yazar; elbette, derginin tüm okuyucuları ve Fin halkının büyük bir kısmı, G. J. Ramstedt'in 40-50 yıl önce Rusya, Moğolistan, Kafkasya ve Afganistan'a kadar birçok keşif gezisi yapmış olduğunu iyi bilirler. Ramstedt daha sonra Finlandiya Cumhuriyeti'nin Japonya ve Çin'deki ilk diplomatik temsilcisi olarak büyük bir onurla görev yapmıştır. Çok sayıda konferans ve sunum turu sayesinde zaten popüler olan Profesör Ramstedt, son yıllarda radyo söyleşileri ve son derece ilgi çekici seyahat kitabı *Doğu'ya Yedi*

1930'da üniversiteye döndüğünde akademik çalışmalarına yeniden başladı. Bu dönemde verdiği dersler arasında Altay halklarının tarihi ve dilleri, karşılaştırmalı Moğolca-Türkçe tarihsel fonolojisi, Kırgızca, Moğolca, Kalmukça, Mançu ve Tunguz dilleri vardı. Ayrıca, bağımsız Suomi'nin ilk profesörü olarak Helsinki üniversitesinde diplomatik kariyeri de devam etti ve 1935-1940 yılları arasında fonetik alanında Sanskritçe ve karşılaştırmalı Hint-Avrupa dilbilimi çalışmalarından sorumluydu. Ramstedt, 1939'da İngilizce olarak yayınlanan dünyanın ilk temel Korece gramerini yazdı. Eser, özellikle 1950'lerdeki Kore Savaşı sırasında en çok satanlar arasına girdi.

Ramstedt 1941'e kadar Helsinki üniversitesinde profesör olarak devam etti ve 1941'den 1950'ye kadar Finno-Ugric Society'nin başkanıydı. Ramstedt, 1935'te Fin-Japon Derneği'ni kurmuştu ve ölümüne kadar derneğin başkanı olarak kaldı. Aulis Joki *Ajkakauskirja Journal De La Societe Finno-Ougrienne* dergisinde Ramstedt hakkında şöyle yazar: "*26 Kasım 1950'de Suomi'nin en büyük gazetelerinden olan Helsinki Sanomat ve Turun Sanomat günü sabah gazetelerinin verdiği acı haber her yere yayılıyor: Profesör Gustav John Ramstedt artık ebediyete göçtü. Keskin beyinler artık yeni yaratıcı dil kombinasyonları yaratmıyor, bilge gözler artık içten, dostça bir bakışla parlamıyor, dünyayı kapsamlı bir şekilde gezmiş bir araştırmacı artık gördüklerini, deneyimlediklerini ve düşündüklerini sakin bir şekilde anlatmıyor, kalem artık elinden düşmüş alınmış durumda. Zamanımızın en büyük düşünürünün eli".* Ramstedt, gençliğinde Rusya, Moğolistan, Kafkaslar ve Afkanistan'a kadar birçok araştırma gezisi düzenlemiştir. Bağımsız Finlandiya'nın ilk Uzak Doğu temsilcisi olarak görev yapmıştır. Bu yılların yaşantılarını Doğuya *Yedi Gezi* (1898-1912) başlığı adı altında Suomi'de yayımlamıştır.

KAYNAKÇA

Aalto, Pentti. *Oriental Studies in Finland,* Helsinki: 1971.

1. Joki, J. Aulis. *Ajkakauskirja Journal De La Societe Finno-Ougrienne, (*Helsinki:1951*).*
2. Ramstedt, Gustav J*ohan. Mogholica. Beitrage zur kenttis der moghol-sprache in Afganistan.* Helsinki: Suomalais-Ugrilainen Seuran, XXIII. 1906.
3. Ramstedt, Gustav Johan. *Zwei Uigurische Runeninschriften in der Nord-Mongolei.* Helsinki: JSFOJu.30/3, 1913.
4. Ramstedt, G. J. *Seitsemän Retkeä Itään* (1898–1912). Helsinki: WSOY Porvoo, 1953.
5. Ramstedt, G. J. Mogholica. Beitrage zur kenttis der moghol-sprache in Afganistan. (Helsinki: Suomalais- Ugrilaisen Seuran XXIII. 1906).
6. Pentti Aalto. *Oriental Studies in Finland,* Helsinki: 1971, 11-19.

ABSTRAKT

Finland, located at the northernmost tip of Europe, is known as Suomi, meaning "land of swamps" in the native language. For centuries, Suomi was exploited between Sweden to the west and the Russian Empire to the east. In 1809, Sweden was defeated in the war between Russia and Inner Sweden, and all of Suomi's territory came under Russian rule. Instead of Russification, Tsarist officials supported local national movements to distance the Finns from the influence of Swedish culture. To this end, for a century, research expeditions were organized to the regions inhabited by Ural-Altaic peoples, and significant funding was allocated to the study of Finno-Ugric Turkic-Tatar peoples and languages. During this period, Turkologists such as Mathias Aleksandr Castrén, Herman Kellgren, and Gustav John Ramstedt made important contributions to the study of Ural-Altaic languages. These studies were carried out under the auspices of scientific institutions such as the St. Petersburg Academy of Sciences and the universities of Helsinki and Kazan. Gustav Ramstedt, one of the Turkologists mentioned above, made significant contributions both during the Tsarist Russian era and after Suomi's independence. During the Tsarist era, Ramstedt made significant contributions to the field of Turkology. He conducted field research, particularly in Siberia and Central Asia, studying various Turkic languages and producing important works on their grammatical structures. The period of independence, with the support of the Finno-Ugric Society, allowed Ramstedt to conduct his research more freely. His work on Ural-

---

Yolculuk ile tüm ulus tarafından tanındı. Keşif ve diplomat Ramstedt bu nedenle kendi ülkesinde iyi tanınıyor ve yakın zamanda yayınlanan mizahi anı kitabı Büyükelçilik tarafından da tanıtıldı.

Altaic languages during this period is of great importance not only linguistically but also culturally and ethnographically. This study examines Ramstedt's Ural-Altaic studies within the field of Turkology.
Keywords: *Ural-Altaic, Turkology, Tsarist Russia, Independence.*

ФИНСКИЙ ТУРКОЛОГ АЛТАИСТ ГУСТАФ ДЖОН РАМСТЕДТ (1873-1950)

ТЕЗИС

Финляндия, расположенная на самой северной оконечности Европы, известна как Суоми, что на местном языке означает «земля болот». На протяжении веков Суоми эксплуатировалась между Швецией на западе и Российской империей на востоке. В 1809 году Швеция потерпела поражение в войне между Россией и Внутренней Швецией, и вся территория Суоми перешла под российское правление. Вместо русификации царские чиновники поддерживали местные национальные движения, чтобы оградить финнов от влияния шведской культуры. С этой целью на протяжении столетия организовывались исследовательские экспедиции в регионы, населенные урало-алтайскими народами, и значительные средства выделялись на изучение финно-угорских тюркско-татарских народов и языков. В этот период такие тюркологи, как Матиас Александр Кастрен, Герман Келлгрен и Густав Джон Рамстедт, внесли важный вклад в изучение урало-алтайских языков. Эти исследования проводились под эгидой таких научных учреждений, как Санкт-Петербургская академия наук и университеты Хельсинки и Казани. Густав Рамстедт, один из упомянутых выше тюркологов, внес значительный вклад как в царскую Россию, так и после обретения Финляндией независимости. В этот период он внес существенный вклад в область тюркологии. В царскую эпоху Рамстедт проводил полевые исследования, в частности в Сибири и Центральной Азии, изучая различные тюркские языки и создавая важные работы по их грамматической структуре. Период независимости, при поддержке Финно-Угорского общества, позволил Рамстедту проводить свои исследования более свободно. Его работы по урало-алтайским языкам этого периода имеют большое значение не только с лингвистической, но и с культурной и этнографической точек зрения. В данном исследовании рассматриваются исследования Рамстедта по урало-алтайским языкам в контексте тюркологии.

Ключевые слова: *урало-алтайские языки, тюркология, царская Россия, независимость*

Pərvin EYVAZOV*

PROFESSOR BƏKİR ÇOBANZADƏ MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN DİLİ HAQQINDA

XÜLASƏ

Məqalədə professor Bəkir Çobanzadənin görkəmli Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundzadənin ədəbi dilimizin inkişaf tarixindəki roluna dair görüşləri şərh olunur. Tədqiqatda qeyd edilir ki, görkəmli dramaturqun bədii yaradıcılığını dilimizin tarixində yeni mərhələnin başlanğıcı hesab edən B.Çobanzadənin 1928-ci ildə "Maarif işçisi" jurnalının 3(35)-cü sayında dərc olunmuş "Mirzə Fətəli Axundovda azəri ləhcəsi" adlı məqaləsi böyük mütəfəkkirin ədəbi dil sahəsindəki xidmətlərini dəyərləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Araşdırmada B.Çobanzadənin bu əsəri dil tarixşünaslığında görkəmli dramaturqun üslubuna həsr olunmuş ilk addım hesab olunur. M.F.Axundzadənin dilini təkcə Azərbaycan üçün deyil, ümumən türk coğrafiyası üçün yeni hadisə sayan müəllif, ilk növbədə, bu məsələyə dilçi-mütəxəssislərin xüsusi diqqət ayırmasını vacib hesab edir. Bu baxımdan məqalədə B.Çobanzadənin görkəmli dramaturqun əsərlərinin dilinin fonetik, qrammatik qrammatik xüsusiyyətlərinə dair fikirləri tarixi-müqayisəli yöndən təhlil olunur.

Açar sözlər: *B.Çobanzadə, ədəbi-bədii dil, M.F.Axunzadənin dili, arxaik formalar*.

* Bakı Dövlət Universiteti, filologiya elmləri üzrə fəlsəfə doktoru. Email: pervin.bdu@mail.ru

Görkəmli türkoloq, professor Bəkir Çobanzadənin elmi yaradıcılığında mühüm yer tutan problemlərdən biri də ədəbi dil məsələləridir. Müəllifin bu istiqamətdəki tədqiqatlarında Azərbaycan ədəbi dilinin inkişaf tarixi ilə bağlı görüşləri xüsusi çəkiyə malikdir. Məlumdur ki, B.Çobanzadə Azərbaycan ədəbi dilinin inkişaf tarixini üç mərhələyə ayırır:

a) Birinci mərhələ - XVI əsrdən XIX əsrin 50-ci illərinə - M.F.Axundzadənin ədəbi və lisani fəaliyyətinə qədər olan dövr.

b) İkinci mərhələ - XIX əsrin 50-ci illərindən 1905-ci ilə qədər olan dövr.

Maraqlıdır ki, B.Çobanzadə 1905-1920-ci illər arasındakı dövrü keçid mərhələsi kimi təqdim edir və bu dönəmdə Azərbaycanda "iki növ ədəbiyyat və ədəbi dil"in olduğunu göstərir: a) feodal-burjua ədəbi dili ("Füyuzat", "Şəlalə", "Haqq yolu" və s.); b) xırda burjua-demokrat ədəbi dili ("Molla Nəsrəddin"in dili və onun əsas cərəyanı üzərində işləyən mühərrirlər).

c) Üçüncü mərhələ - 1920-ci ildən sonrakı dövr - Sovet dövrü. Bu mərhələdə dilçi alim "yeni Azərbaycan ədəbi dili"nin əsas cəhətlərindən və problemlərindən söz açır.

B.Çobanzadənin bu təsnifatı sonrakı mərhələdə ədəbi dil tarixinin digər dilçilər tərəfindən bölgüsü üçün istinad olmuşdur. T.Hacıyevin də qeyd etdiyi kimi, bu dövrləşdirmələrdə vahid bir prinsipə söykənilməmiş və təsnifatlarda dilin quruluşundan daha çox tarixi-siyasi şəraitə istinad edilmişdir. Əslində tarixi-siyasi və linqvistik amillərə kompleks yanaşan B.Çobanzadə təqdim etdiyi mərhələlərdə ədəbi dilin inkişaf yolunu, əsasən, Ş.İ.Xətai, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, T.Ş.Simurq kimi görkəmli söz ustalarının yaradıcılığı əsasında xarakterizə etmişdir. Bu baxımdan türkoloq-alim görkəmli Azərbaycan mütəfəkkiri M.F.Axunzadənin ədəbi fəaliyyətinə xüsusi önəm vermişdir.

M.F.Axundzadə əsərlərinin dilinə dair fikirlər. "Bütün təfəkkür hüceyrələri ilə yenilikçi" (T.Hacıyev) olan M.F.Axundzadə təkcə ədəbi fəaliyyəti ilə deyil, həm də dilçilik görüşləri ilə Azərbaycan dilinin zənginləşməsinə və inkişafına böyük töhfələr vermişdir. Görkəmli dramaturqun bədii yaradıcılığını dilimizin tarixində yeni mərhələnin başlanğıcı hesab edən B.Çobanzadənin 1928-ci ildə "Maarif işçisi" jurnalının 3(35)-cü sayında dərc olunmuş "Mirzə Fətəli Axundovda azəri ləhcəsi" adlı məqaləsi böyük mütəfəkkirin ədəbi dil sahəsindəki xidmətlərini dəyərləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Araşdırmanın əvvəlində yazıçının dilinin tədqiqi məsələsinə toxunan türkoloq alim ilk təşəbbüsün Karl Foya məxsus olduğunu qeyd edir: "*Azərbaycan gəncliyi Fətəli Axundovun əsərlərindən, ümumiyyətlə, fikirlərindən çox ilhamlar aldığı halda, imdiyə qədər burada da onun dilini təhlil etmək təcrübəsi görünməyir*" [3, c. 2, s. 307]. Deməli, B.Çobanzadənin bu əsərini dil tarixşünaslığında görkəmli dramaturqun üslubuna həsr olunmuş ilk addım hesab etmək olar. Çünki M.F.Axundzadənin dilini təkcə Azərbaycan üçün deyil, ümumən türk coğrafiyası üçün yeni hadisə sayan müəllif, ilk növbədə, bu məsələyə dilçi-mütəxəssislərin xüsusi diqqət ayırmasını vacib hesab edir [3, c. 2, s. 306].

B.Çobanzadənin fikrincə, dramaturqun dilinə iki aspektdən yanaşmaq lazımdır: *həyəcani, ifadəvi* (емоциональное выразительн.) və *lisani, ləhcəvi* (диалектологигекси-лингвист.)" [3, c. 2, s. 307]. Araşdırmasını "lisani və ləhcəvi" yöndə aparan tədqiqatçı M.F.Axundzadənin dilini Azərbaycan dilinin spesifik cəhətlərinin əks olunması baxımından təhlil edərək, fonetik, leksik və qrammatik quruluşa dair bəzi xüsusiyyətlərə toxunur. Fonetik xüsusiyyətlər. N.Xudiyev yazır ki, "*XIX əsrdə Azərbaycan ədəbi dilinin fonetik normaları vahiddir, onun Şimal və Cənub variantlaşması müşahidə edilmir*" [6, s. 475]. Bu vahid variantlılıq fonoqrafik normaların təkmilləşməsinə öz əsərlərinin əlyazmasının təshihindən başlayan M.F.Axundzadənin bədii dilində də özünü göstərir:

a) Söz əvvəlində y səsinin düşməsini digər türkcələrlə müqayisədə Azərbaycan dilinin spesifik əlaməti hesab edən B.Çobanzadə bunu M.F.Axundzadənin nəsr dili ilə faktlaşdırır: *On beş yaşında gül üzlü uşağın. O biri damda ilxıdan qayıdıb yatırlar*.

b) Söz sonunda k//q//x paralelliyinin M.F.Axundzadənin dilində də müşahidə edildiyini bildirən B.Çobanzadə Azərbaycanda keçirilmiş Birinci İmla Konqresinin qərarından sonra, həmin leksemlərin etimoloji prinsip əsasında vahid qaydada yazıldığını diqqətə çatdırır: "... *uzak, balık, ayak və s. sözlərin axırında "k"-mı, "x"-mı, "q"-mı yazılmalı məsələsi böyük mübahisələrə səbəb olmuş və nəhayət, iştiqaqi, yəni etimoloji prinsipə dayanılaraq, k səsi qəbul edilmişdi. Mirzə Fətəlidə isə bu xüsusda qərarsızlıq və qarışıqlıq görünür. O, bəzən k, bəzən q, bəzən də x yazır: çokdur, uşakmı, qulaq, yaxşı..*" [3, c. 2, s. 309].

Əslində əlifba və imla sahəsində mühüm xidmətləri olan dramaturq bu variantlılığın və qərarsızlığın səbəbini məqalələrinin birində belə açıqlayır: "*Orfoqrafiya məsələlərinə gəlincə, hələlik bu sahədə sabit bir qayda-qanun olmadığına görə, mən indiyə qədər öz həmyerlilərimizin yazı işlərində tətbiq etdikləri və tatarların tələffüzü ilə daban-dabana zidd olan... və əslində tatarların öz tələffüzlərində işlətdikləri əlamətləri qəbul eləmişəm*" [1, s. 32].

c) Məqalədə M.F.Axundzadənin dilindəki fonetik hadisələrin canlı danışıq faktına söykənməsi əsaslandırılır. Məsələn, uyuşma (assimilyasiya) hadisəsi: *gəlləm, durallar, sallam, allatmak* və s. Həmçinin sənətkarın dilində dissimilyasiya və metateza hadisələrinin sıx müşahidə olunduğu qeyd edən B.Çobanzadə məsələyə türk dillərinin fonetik müqayisəsi baxımından yanaşır: *saral - sarar, çaşır - şaşır, dustak - dutsak, tərpənmə - təprənmə* və s.

d) M.F.Axundzadənin alınma sözlərin yazılışında canlı tələffüz faktını əsas götürərək (Bunu dramaturqun özü də etiraf edir), "xalq analogiyası" metoduna müraciət etməsinə dair məqalədə örnəklər verilir: *məscid – məçit, səlavelik – salam əleyk, könül – kööl* və s.

Leksik xüsusiyyətlər. B.Çobanzadə M.F.Axundzadənin dilində o dövr üçün arxaikləşmiş dil vahidlərinin işlənməsinə diqqət çəkir. Dilçilikdə arxaikləşmə dərəcəsindən asılı olaraq, XIX əsr ədəbi dilində işlənmiş arxaizmlər iki cür qruplaşdırılır: "a*) müasir ədəbi dil üçün arxaikləşmiş sözlər; b) müxtəlif fonetik dəyişikliyə uğramış, yəni şəkilcə dəyişilmiş sözlər*" [2, c. 3, s. 43]. B.Çobanzadənin nümunə olaraq verdiyi *dışqaru, saru, cadu-pitik, sovqat, qurşayız* sözləri ikinci qrupa daxildir. Ancaq dramaturqun dilində birinci qrupa aid *döşürmək – yığmaq, tümən – pul vahidi, yey//yeg – yaxşı, üstün* kimi arxaik sözlərə rast gəlmək olar.

Qrammatik xüsusiyyətlər. Məqalədə M.F.Axundzadə əsərlərinin dilinin bəzi qrammatik özəllikləri də vurğulanır: qeyri-qəti gələcək zamanın inkarında *-manam*[2] *–mənük, -manak* [3, c. 2, s. 210] şəkillərinin işlənməsi, şəxs şəkilçilərində dodaq ahənginin üstünlüyü (*qoymanuk, qoymanam, dəgişmənəm, bilmərük, danışıruk*). Bu xüsusiyyətlərdən çıxış edərək S.Mehdiyevanın da təbirincə desək, "*bununla da mütəfəkkir yazıçı ilk dəfə XVIII əsrin sonundan çoxvariantlılıqdan vahidvariantlılığa doğru gedən yolu sanki çox qısaltdı, qrammatik formaların vahidvariantlılığa doğru istiqamətini qüvvətləndirdi*" [7, s. 137].

B.Çobanzadə qeyd edir ki, M.Axundzadənin ədəbi yaradıcılığındakı, xüsusilə nəsr sahəsindəki böyük yeniliyi onun canlı xalq dilini ədəbiyyata gətirməsidir. Volqaboyu türkləri və krımlılar istisna olmaqla bu "yeni dil" başqa türk xalqlarında 1905-ci ildən sonra meydana gəlmişdir: "*Türkiyədə bu kibi dil ilə heç bir mühərrir və yaxud şair olmamışdır - desək, yanılmayız. Şünasi-Kamal, hətta Məhəmməd Əmin dilləri xalqa doğru getməklə bərabər, hənuz xalqın qulağına yetişməmişdir. Mirzə Fətəlinin dili isə əsas etibarilə xalq ağzından alınmış və azəri ədəbi dilinin xalqa yaxınlaşmasına çox böyük təsir bağışlamışdır*" [3, c. 2, s. 306; s. 311]. Ə.Ucanın da vurğuladığı kimi, sözün əsl mənasında "*o, Azərbaycan türkcəsinin danışıq dilində ədəbiyyat dili yaratmışdı*" [8, s. 373]. Əslində xəlqilik adi danışıq dilini, ara sözlərini, bəzi məişət sözlərini, ya loru dil sintaksisinin bədii əsərlərə gətirilməsi demək deyil: "*Bu, yalançı xəlqilikdir. "Əsl xəlqilik isə yüksək məfkurəvi, dünyəvi məzmunla bağlı olan müvafiq bədii formanın sıx vəhdətində təcəssüm edir"* [5, s. 84]. Bu cəhətdən M.F.Axundzadənin dramaturgiya dili məhz həmin xəlqiliyin kamil nümunəsidir və "*M.F.Axundzadə bu xüsusiyyətləri əks etdirdiyi zaman bütün türk-tatar mühərrirlərinin önünə keçmiş və ədəbi dilimizdə yeni bir cığır açmışdır*" [3, c. 2, s. 311].

M.F.Axundzadənin milli dil uğrundakı fədakar fəaliyyətini türk dünyası qarşısında mühüm xidmətlərdən biri hesab edən B.Çobanzadə kimi Z.Göyalp da "Türkçülüyün əsasları" əsərində M.F.Axundzadəni böyük türkçü hesab edərək onu İ.Qaspıralı ilə bərabər müqayisə etmişdir: "*Türkiyədə Əbdülhəmid bu müqəddəs hərəkatın qarşısını almağa çalışarkən, Rusiyada iki böyük türkçü yetişirdi: Bunlardan birincisi, M.F.Axundzadədir* [4, s. 23-24]. Ə.Uca qeyd edir ki, "komediyalarını Qafqaz türkcəsi ilə yazan" M.F.Axundzadənin fəaliyyəti təkcə Azərbaycanda türkçülük hərəkatına yol açmamışdır, həm də onun ideyaları özündən sonra böyük şəxsiyyətlərin yetişməsinə mühüm təsir göstərmişdir. Müəllif yazır: "*M.F.Axundzadənin bu fəaliyyəti şimali Azərbaycanda farscanın təsir gücünü azaltdı və bu, bölgədə İranın nüfuzuna da təsir elədi. İranın nüfuzuna sədd çəkmək üçün atılmış bu addım ruslar tərəfindən bəyənilsə də, əslində türk millətçiliyini gücləndirməyə xidmət edirdi*" [8, s. 374]. Təbii ki, iki ayrı dövlətin müstəmləkəsində parçalanmış xalqın dilinin milli maraqlar və siyasi nüfuz dairəsindən kənarda qalması

görkəmli dramaturqu narahat etməyə bilməzdi. Bu baxımdan "*Şəkildə gözəl, qüvvətli yazmaq, böyük ruhi təhlil istedadına malik dramaturqların işidir*" [3, c. 2, s. 312], -deyən B.Çobanzadə M.F.Axundzadənin xalq dilinə bağlılığı və obrazları öz dilində danışdırması ilə onu "misilsiz dramaturq və komediya yazçısı" hesab edir.

B.Çobanzadənin Azərbaycan ədəbi dilinin tarixinə dair elmi axtarışları türkcəmizin qədim köklərini, yayıldığı coğrafiyanı və inkişaf mərhələlərini izləmək və müəyyənləşdirmək baxımından XX əsrin əvvəllərinin elmi-mədəni mənzərəsi səviyyəsində və bu gün də aktuallığını itirməyən mühüm türkoloji görüşlərdir. Azərbaycan dilinin tarixinə dair elmi-nəzəri araşdırmaların, demək olar ki, mövcud olmadığı bir şəraitdə B.Çobanzadə dilçiliyimizdə dil tarixi konsepsiyası yaratmaq missiyasının öhdəsindən layiqincə gəlmişdir. Əsərlərində türkcəmizin tarixi sərfinin yazılmamasını böyük narahatlıqla qarşılayan görkəmli alim əski və orta əsrlər yazılı abidələrini monoqrafik səviyyədə tədqiq etməklə dilimizin qədim və müasir qatlarını ümumtürk kontekstində öyrənmiş, əldə etdiyi elmi nəticələr dil tarixşünaslığının inkişafına ciddi təkan vermiş və özündən sonra yetirmələrinin fəaliyyəti ilə Azərbaycan türkologiyasında dil tarixi məktəbi formalaşmışdır.

ƏDƏBİYYAT

1. Axundzadə, M.F. Seçilmiş əsərləri: [3 cilddə] / M.F.Axundzadə. Bakı: Şərq-Qərb, c. 2. 2007. 376 s.
2. Azərbaycan ədəbi dilinin tarixi: [4 cilddə] / S.Mehdiyeva, Q.Kazımov, R.Eyvazova [və b.] Bakı: Şərq-Qərb, – c. 3. – 2007. – 336 s.
3. Çobanzadə, B. Seçilmiş əsərləri: [5 cilddə] / B.Çobanzadə. Bakı: Şərq-Qərb, c. 2. – 2007. – 368 s.
4. Gökalp, Z. Türkçülüğün Esasları / Z.Gökalp. – Ankara: Alter Yayıncılık, – 2010. – 215 s.
5. Hacıyev, T. Yazıçı dili və ideya-bədii təhlil / T.Hacıyev. Bakı: Maarif, – 1979. – 131 s.
6. Xudiyev, N. Seçilmiş əsərləri: [11 cilddə] / N.Xudiyev. Bakı: Elm və təhsil, 2012, c. 1. 2012.– 686 s.
7. Mehdiyeva, S. Ədəbi dil məsələləri / S.Mehdiyeva. Bakı: Elm və təhsil, – 2012. – 354 s.
8. Uca, A. Mirza Fethali Ahundzade'nin Türk Dünyası'na Hizmetleri //Erzurum: Türkiyat Araştırmaları Enstitüsü Dergisi, – 2001. № 17, – s. 365-382.

PROFESSOR BAKİR CHOBANZADEH ON THE LANGUAGE OF MİRZA FATALİ AKHUNDZADEH

ABSTRACT

The article examines Professor Bakir Chobanzadeh's views on the role of the eminent Azerbaijani thinker Mirza Fatali Akhundzadeh in the history of the development of the Azerbaijani literary language. The study emphasizes that Chobanzadeh, who regarded the artistic legacy of the distinguished playwright as the beginning of a new stage in the history of the language, attached particular importance to his article entitled "The Azeri Dialect in Mirza Fatali Akhundzadeh", published in 1928 in issue 3 (35) of the journal Maarif işçisi, as a significant contribution to the evaluation of Akhundzadeh's services to the literary language. The research considers this work by Chobanzadeh to be the first scholarly attempt in the historiography of linguistics devoted specifically to the stylistic features of the renowned dramatist. Viewing Akhundzadeh's language as a novel phenomenon not only for Azerbaijan but for the broader Turkic world as a whole, the author underscores the necessity for linguists and specialists to give this issue particular attention. In this context, the article provides a historical-comparative analysis of Chobanzadeh's views on the phonetic and grammatical characteristics of the language of the playwright's works.

Keywords*: B.Chobanzadeh, literary and artistic language, M.F.Akhunzadeh's language, archaic forms*.

ПРОФЕССОР БЕКИР ЧОБАНЗАДЕ О ЯЗЫКЕ МИРЗА ФАТАЛИ АХУНДЗАДЕ

РЕЗЮМЕ

В статье рассматриваются взгляды профессора Бакира Чобанзаде на роль выдающегося азербайджанского мыслителя Мирза Фатали Ахундзаде в истории развития азербайджанского литературного языка. В исследовании подчёркивается, что Чобанзаде, рассматривавший художественное наследие великого драматурга как начало нового этапа в истории языка, придавал особое значение своей статье «Азербайджанский диалект у Мирза Фатали Ахундова», опубликованной в 1928 году в журнале «Маариф ишчиси» (№ 3 (35)), как важному источнику для оценки заслуг Ахундзаде в области литературного языка. Данная работа Чобанзаде рассматривается как первая научная попытка в истории языкознания, специально посвящённая стилю выдающегося драматурга. Считая язык М. Ф. Ахундзаде новым явлением не только для Азербайджана, но и для всего тюркского мира в целом, автор подчёркивает необходимость уделения данной проблеме особого внимания со стороны лингвистов и специалистов. В этом контексте в статье с историко-сравнительных позиций анализируются взгляды Б. Чобанзаде на фонетические и грамматические особенности языка произведений выдающегося драматурга.

Ключевые слова*: Б. Чобанзаде, литературный и художественный язык, язык М.Ф. Ахунзаде, архаичные формы*.

Səadət VAHABOVA*

CƏLİL MƏMMƏDQULUZADƏNİN DİL KONSEPSİYASI VƏ I TÜRKOLOJİ QURULTAYA APARAN İDEOLOJİ YOL

XÜLASƏ

Məqalədə XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalının dil siyasəti, milli oyanış və maarifçilik ideyaları Türkoloji düşüncə kontekstində sistemli şəkildə təhlil edilir. Ədibin "açıq ana dili" prinsipi əsasında formalaşdırdığı dil konsepsiyasının ədəbi dilin milliləşməsi və xalq dili üzərində qurulması ideyasına xidmət etdiyi əsaslandırılır. Cəlil Məmmədquluzadənin süni, ağır ərəb-fars tərkibli "ibarəli" yazı üslubuna qarşı çıxışı və xalqın anlayacağı sadə türkcəni müdafiəsi ideoloji xətt kimi əsərlər üzərində konkret faktlarla təqdim olunur. "Molla Nəsrəddin" jurnalının dil siyasətinin ümumtürk miqyasında oxunaqlılıq qazandığı və ortaq türk ədəbi dili ideyasına nəzəri zəmin yaratdığı vurğulanır. Cəlil Məmmədquluzadənin "Yeni Türk Əlifba Komitəsi"ndə fəaliyyəti və "Yeni yol" qəzetində dərc olunan məqalələri latın qrafikasına keçid hərəkatının ilkin mərhələlərinin elmi əsasları kimi qiymətləndirilir. Tədqiqatda "Molla Nəsrəddin" dilinin ümumtürk miqyasında anlaşılma imkanları və ortaq ədəbi dil ideyasının formalaşmasında oynadığı rol xüsusi vurğulanır. Nəticə etibarilə, məqalə Cəlil Məmmədquluzadənin dil və əlifba məsələlərinə yanaşmasını I Türkoloji Qurultaya aparan ideoloji və nəzəri zəminin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Açar sözlər: *dil siyasəti, türkoloji, ümumtürk, ədəbi dil, əlifba*

XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalı, Azərbaycan və ümumtürk dünyasında milli oyanış, maarifçilik, satira və ictimai tənqidin ən güclü mətbu orqanı olaraq ədəbiyyat, mətbuat və nəzəri düşüncə tarixində dərin iz qoyur. Cəlil Məmmədquluzadə "Xatiratım" memuarında "Məcmuəmizdə dil məsələsi" başlığı altında "Molla Nəsrəddin" jurnalının dil siyasətindən və ana dilinin qorunması prinsipindən bəhs edərək jurnalın yazı dilində xalqın anlayacağı sadə və təbii türkcənin əsas götürülməsini vurğulayır, dilin milliləşməsi və ədəbi dilin xalq dili üzərində qurulması ideyasını müdafiə edir: "Biz "Molla Nəsrəddin" məcmuəsini açıq ana dilində yazmağa başladıq. Biz bu dilə o səbəbdən ana dili ad qoyuruq ki, bu dildə yazı yazanda və ortalığa "ana" söhbəti gələndə biz "ana"nı, "ana" da yazırıq, amma qeyri yazıçılarımız, xah o vədə və xah indi yazılarında "ana" ləfzi rəst gələndə, "ana" sözü əvəzinə "madər" yazırlar və həmçinin "ata" sözü əvəzinə "pədər" yazırlar. "Ana"nı

* AMEANizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email:

“madər” yazanlar və “ata”nı “pədər” yazanlar, dəxi qeyri türk sözlərini də habelə səbəbsiz yerə fars və ərəb sözünə dəyişirlər. Belə ki, “nəvə” yeri “həfid”, “ehfad” yazırdılar və yazırlar. Və “ata-ana” sözünə cızıq çəkib “valideyn” yazırdılar və yazırlar. Hətta hər gün yediyimiz “çörəyi” bəyənməyib “nan” yeyirdilər və indi də yeyirlər. Və neçə sözləri bir-bir dəyişdirirlər və indi də dəyişdirirlər, habelə türk dilinin tərkiblərini və qanunlarını kənara qoyub, fars və ərəb tərkibləri və qanunlarını işlədirdilər və indi gənə işlədirlər” [5, s. 71-72]. Nəhayətdə dil böhranı təkcə fars və ərəb dilləri axarında deyil, o vaxta qədərki qədim tarixin möhtəşəm bir dövrünü və salnaməsini, türk soydaşları ilə eyni, vahid, ümumi bir “türk cənin” yad dillərin əvəzlənməsində itməsinə səbəb olurdu. Ədibin “Molla Nəsrəddin” jurnalının 3 noyabr, 1906, 31-ci nömrəsində dərc olunan “Meymunlar” felyetonu **milli oyanış, dil və kimlik böhranı** mövzusunda yazılmış erkən modernist satira nümunəsidir: “Hürriyyət və hüquq davası düşəndən indiyədək heç bir müsəlman məclisi olmayıb ki, orada bir obrazovannı müsəlman ayağa durub deməsin: “Hökumət qoymayır məktəblərdə ana dilimiz öyrənək.”

(Hələ məzəsi budur ki, bu nitqlərin hamısı urus dilində söylənir və hələ niyə urusı dilində söylənir – bu sırdan da indiyədək heç kəs baş açа bilməyib)...Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək... Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamadığı kim qoymur?” [4, s.84] Əsər ideoloji baxımdan **milli özünüdərk** manifesti olaraq dilin əldən çıxmasını “millətin gələcəyi üçün faciəvi bir faktı” kimi təqdim edir. “Ümumtürk ədəbi dili ideyasını qəbul edən Cəlil Məmmədquluzadə ayrı-ayrı türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının dilini anaların övladlarına beşikdə ikən türk dilində dediyi layla dili olduğunu dəfələrlə nəzərə çatdırmış, “açıq ana dilində” xalqın milli varlığını ifadə etməyi, onunla ünsiyyət qurub düşündürməyi daha faydalı hesab etmişdir” [7, s.8]. Onun “Molla Nəsrəddin” jurnalının 13 yanvar, 1913-cü ilin 1-ci nömrəsində dərc olunan "Əlifba" felyetonu Azərbaycan ictimai və ədəbi fikir tarixində **dil islahatı və əlifba ideyalarını** təbliği baxımından mühüm sənəddir: "Lazımdır avam camaatı başa salmaq, yoxsa birdən-birə desən ki, "bu Balkan davası bizim əlifbamızın davasıdır", əlbəttə, bu sözlər damnandüşmə sözə bənzəyəcək; dəxi heç kəsin qulağına girməyəcək. Sözü lazımdır ehmalca demək, "pişiyim-pişiyimnən" demək... Bəlkə eşitmiş olarsınız, Albaniya tayfasını ki, osmanlılar arnavud deyirlər, – bunlar həmin millətdirlər ki, miqdarı ikicə milyon ola-ola yapışıb osmanlıların yaxasından və deyir ki, "gərək izn verəsən biz ərəb hürufatı (əlifbası) əvəzinə latın hürufatı qəbul edək, ya da ki, xəncəri əldən yerə qoymayacağıq" [6, s.177]. Ədib Arnaudların mübarizəsini Osmanlı müsəlmanlarının passivliyi ilə müqayisə etməklə müsəlman Şərqindəki təslimçilik və susqunluğu tənqid edir. O, “sükutda durmaqdan savayı özgə bir təklifimiz yoxdur” ironik cümləsi ilə ictimai donuqluğu və taleyə boyun əymə psixologiyasını satira obyektinə çevirir, “əlifba məsələsini” sırf yazı sistemi kimi deyil, milli azadlıq, mənəvi oyanış və tarixi məsuliyyət problemi kimi təqdim edir, türkoloji düşüncənin formalaşması, inkişafı üçün əsas mənbəyə istiqamətlənir: “Və bizim dilçilərimiz ədəbi, fənni, akademik dili axtarınca “Molla Nəsrəddin” də açıq və sadə türk dili ilə vurdu nəinki tək bircə Kürü və Arazı keçdi, bəlkə Xəzər və Qara dəryaları da vurub Türkiyəyə və Türküstana və əilana keçdi və uça-uça Qafqaz dağlarını aşıb, Qafqaza və Krıma və sair türk ölkələrinə keçdi və bu sözə də sübutumuz budur ki, birinci nömrəmiz türk dünyasına dağılan kimi tək bircə həftənin içində hər bir yerdən yazdığımız suallara haman aydın “Molla Nəsrəddin” dilində hədsiz cavablar idarəmizə gəlməyə başladı” [5,s.74]. Cəlil Məmmədquluzadə Azərbaycan və Osmanlı ədəbi dilinin tarixindəki süni və qarışıq dil ənənəsini tənqid edir, ərəb və fars dillərindən alınmış, lakin mənşəyi və mənası xalq üçün anlaşılmaz olan sözlərin ədəbiyyatda işlədilməsini “səhv” hesab edirdi. Belə “ibarəli” və “qəliz” yazı üslubunun Türkiyədən keçərək bizə də təsir etdiyini, ərəb dilinə yaxın, ağır və yad ifadələrlə dolu bu qarışıq dilin “...adını “ədəbi dil” qoyub açıq ana dilini “çoban dili” adlandırırdılar. “Məlumdur ki, bu ibarəli yazmaq şivəsi bizə Türkiyədən keçibdir və osmanlı ədəbiyyat tarixinə aşina olanlar bilirlər ki, Türkiyədə qədimül-əyyamdan osmanlıların yazıları ərəb dilinə o qədər yavıqdır ki, əgər orada “iştə”, “şu” və “dır”, “lar” olmasa, osmanlı dilini ərəb dilindən seçmək olmaz” [5, s.72]. Ümumiyyətlə, “Molla Nəsrəddin” jurnalının xalq dili ilə bağlı ideoloji və nəzəri xətti – 1) Ədəbi dil xalqın danışıq dilinə yaxın olmalıdır; 2) Ədəbiyyat xalqa xidmət etməlidir; 3) Ədəbi düşüncə millətin mənəvi müstəqilliyi kimi “milli realizm” istiqamətinə yönlənir.

Faktlara istinadən demək olar ki, “Molla Nəsrəddin” jurnalında əlifba məsələsi "Yeni Əlifba Komitəsi" və Türkoloji Qurultaydan əvvəl, XX əsrin əvvəllərində müzakirə obyektinə çevirmişdi: “Biz molla nəsrəddinçilər dil barəsində yuxarıda bir neçə ibtidai sözlər deyib buna iktifa etmirik və il barəsində ümumiyyətcə fikrimizi bir bu qədər müxtəsər bəyanatla məhdud etmək istəmirik. Biz bu əqidə deyilik ki, o dil ki biz onunla “Molla Nəsrəddin”i meydana gətirib və onunla da məcmuə yazmağa iqdam etmişik – bu dil ümum türk xalqı üçün arzu etdiyimiz bir dildir. Bizim türk tayfaları üçün ümumi bir dil, ədəbi bir dil mühüm məsələlərin biridir və hətta – elə zənn edirəm ki, – umum türklər üçün, ümum bir dil yaratmaq və bir imla yazmaq onlar üçün, təzə əlifba yaratmaqdan çətindir. Vaqeən, necə olsun? Bu ola bilərmi ki, Naxçıvandan birisi çıxıb başlasın Naxçıvan şivəsinə yavıq bir dildə yazsın, məgər bu dili naxçıvanlılardan başqa uzaq bir ölkələrin türk camaatı oxumayacaq? Habelə qeyrilərin şivəsi” [5, s.73]. Ədib həm milli, həm də ümumtürk miqyasında dil birliyi məsələsini gündəmə gətirir. O, “Molla Nəsrəddin” jurnalının istifadə etdiyi dilin yalnız Azərbaycan türklərinə deyil, ümumtürk xalqlarına da xitab etməsi, lakin bununla belə, bütün türk tayfaları üçün vahid ədəbi dilin formalaşdırılmasının, ümumtürk dil birliyi və ortaq imla sistemi yaratmağın – yeni əlifba yaratmaqdan çətinliyini etiraf edir. Müəllif hipotetik sual forması ilə (“Bu ola bilərmi ki, Naxçıvandan birisi çıxıb...”) müraciətini qurur, göstərir ki, yalnız bir bölgənin şivəsində yazılan mətni digər türk xalqları anlaya bilməz. Bu arqumentlə o, ədəbi dilin ümumxalq səviyyəsinə qaldırılmasının vacibliyini elmi-məntiqi şəkildə əsaslandırır. “Hələ tək bircə Qafqaz türkləri uçun ümum bir dil məsələsinin həlli genə səhldir, pəs osmanlı türkləri, pəs Krım və Qazan tatarları, pəs Türküstan və Özbəkistan, pəs İran azərbaycanlıları? Pəs biz bunu etiraf edirik ki, əvvəl-axır türk kütlələri üçün ədəbi dil və ümumi imlaya çox böyuk ehtiyac vardır. Və etiqadımız da bundadır ki, bir belə dil gec-tez vücuda gələcəkdir [4, s.73]. Müəllif “Molla Nəsrəddin” dili ilə təkcə bir ədəbi üslub yaratmadığını, həm də **xalqın dilində fikir və azad düşüncə platforması qurduğunu** vurğulayır. O, müxtəlif türk tayfalarının dilləri arasındakı fərqlərin aradan qaldırılmasının **ümumtürk mədəni inteqrasiyası üçün vacib mərhələ** olduğunu göstərir, “ümumi ədəbi dil” ideyası, irəliləyən illərdə **ortaq türk dili və ortaq əlifba hərəkatlarına nəzəri baza** yaradır. Burada fikir yalnız bir dil müzakirəsi deyil, **ümumtürk mədəni birliyinin ideoloji manifesti** kimi çıxış edir və türk dünyasının gələcək mədəni inteqrasiyası üçün nəzəri əsas qoyur.

1922-ci ilin 21 sentyabrında Azərbaycanda əlifba-yazı qrafikasının dəyişdirilməsi, yeni əlifbanın yaradılması, tətbiqi üçün Səmədağa Ağamalıoğlunun rəhbərliyində "Yeni Türk Əlifba Komitəsi" və ya “Yeni Türk Əlifbasının Tətbiqi Komitəsi” yaradılır. "Yeni Türk Əlifba Komitəsi"nin əsas məqsədi müsəlman-türk dünyasının vahid əlifba ətrafında birləşməsi, eyni əlifbadan istifadə etməsinə nail olmaq idi. Bu komitənin 1924-cü ildə yaratdığı heyətdə C.Məmmədquluzadə də yer alırdı ki, komitənin mövqeyi ədibin mövqeyi üst-üstə düşürdü. “Yeni Türk Əlifba Komitəsi”ndə komitənin qəzet, jurnal materialları nəşr olunacaq redaksiya və nəşriyyat şöbəsi yaradılır. Bu təşəbbüslə 1922-ci ilin 21 sentyabrında latın əlifbası ilə çıxan ilk türk qəzeti “Yeni yol” nəşrə başlayır. Qəzet XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişafında mühüm mərhələ təşkil etmiş, ictimai-fəlsəfi və mədəni fikrin formalaşmasında, ümumtürk mədəniyyəti, ədəbi düşüncədə türkçülük ideyalarının yayılmasında böyük rol oynamışdır. Bu İstiqamətdə Türk tədqiqatçıları, Bilal Şimşir “Yeni yol”un latın qrafikası ilə çıxan ilk türk qəzeti kimi ümumtürk mətbuat tarixində mühüm yer tutduğunu qeyd etmiş [8], Betül Aslan 1922-1930-cu illərdə qəzetin fəaliyyətini latın əlifbası islahatları fonunda araşdırmışdır [8]. "Yeni yol" qəzeti 1924-cü ilin sonunadək həftəlik, 1925-ci ildən isə gündəlik nəşr olunaraq yeni əlifbanın təbliği və savadsızlığın aradan qaldırılması istiqamətində mühüm maarifçi funksiyanı yerinə yetirmişdir. Cəlil Məmmədquluzadə 1922-1924-cü illərdə qəzetin redaktoru kimi fəaliyyət göstərmiş, yeni əlifbanın, maarifin və milli oyanış ideyalarının geniş təbliğini təmin etmişdir. Onun “Yeni yol” qəzetinin 7 oktyabr 1922-ci ilin 2-ci nömrəsində dərc olunan “Yeni Əlifba Komitəsi”nin görmüş və görəcəyi işlər” adlı məqaləsi bu ildə Azərbaycanda latın qrafikasına keçid hərəkatının ilkin mərhələlərini əks etdirən mühüm bir sənəd olaraq yeni əlifba ideyasının ideoloji əsaslandırılması və ictimai təşkili baxımından dəyərli bir mənbə kimi çıxış edir, mədəni əsaslarını göstərir. Səkkiz bənddə komitənin az müddət ərzində etdiyi və edəcəyi işləri ümumiləşdirən müəllif komitənin yaranmasını milli və elmi zərurət kimi təqdim edir, ərəb əlifbasının türk dilinə uyğun olmadığını vurğulayır. İkinci, komitənin məqsədi yalnız texniki dəyişiklik deyil, həm də maarifin, savadlanmanın və dilin sadələşdirilməsinin təminidir. Üçüncüsü, məqalədə komitənin gördüyü işlərin siyahısı verilərək onun

praktik fəaliyyət miqyası və idarəçilik strukturu təsvir olunur. Komitə çoxsaylı kitablar, dərs vəsaitləri və qəzet-jurnallar çap etdirməklə yeni yazı sistemini cəmiyyətə tanıtmaq və yaymaq niyyətində idi. Dördüncüsü, müəllimlər, hərbçilər, mətbəə işçiləri və fəhlələr üçün kursların təşkili sosial təbəqələr üzrə savadlandırma strategiyasını göstərir. Beşincisi, komitənin ölkə daxilində və xaricdə şöbələrinin açılması latınlaşma hərəkatının ümumtürk miqyaslı xarakter daşıdığını sübut edir, "Yeni yol" qəzetinin fəaliyyətinin ideoloji rolu əsaslandırılır: "Azərbaycandan savayı Tiflisdə, İrəvanda, Kazanda, Buxarada, Moskvada, Ənzəlidə nümayəndələrimiz var; komitə sair türk ölkələrində də şöbələr açmaq məqsədindədir. Belə az bir vaxtın içərisində komitənin gördüyü işlər bunlardır; görəcəyi işlər isə bunlardan daha mühüm və daha ağırdır. Fəqət nə olursa-olsun, komitəmiz getdiyi yoldan dönməyəcək və məqsədinə yetişincə daha böyük bir əzm ilə irəliləyəcək" [5, s.226]. Bu xüsusda o, yazı sistemindəki qarışıqlıqları və problemləri aradan qaldırmaq məqsədilə yeni əlifbaya keçidin zəruriliyini əsaslandırır. "Yeni yol"qəzetinin 28 sentyabr 1922-ci ilin 2-ci nömrəsində dərc olan "Yeni əlifba nə istəyir" [5, s.224] məqaləsində müəllif göstərir ki, əvvəlki ərəb əlifbası dilin fonetik xüsusiyyətlərini əks etdirmədiyindən, yazıda çoxsaylı ziddiyyətlər yaranmış, sözlər fərqli şəkildə yazılır, bu da ədəbi dilin vahidliyinə ciddi zərbə vururdu. *"Oluram", "alıram", "ölüram", "aluram", "almıram", "olmu-ram", "olmayıram", "almıram", "almadım", "olmadım", "ölma-dim", "almacağam", "olmayacayam", "almayacağam", "ölmagam", "alınmışdır", "alunmışdır", "alınarsa", "almar sə", "alunursə", "alunurse",* kimi müxtəlif yazılış formaları dilin fonetik sistemindəki qeyri-sabitliyi nümayiş etdirirdi.

Yeni əlifba bu fərqlilikləri aradan qaldırmaq və yazını səs sisteminə tam uyğunlaşdırmaq məqsədi daşıyırdı. Ərəb əlifbası alınma sözlərin türkcə tələffüzünü düzgün ifadə etməyə imkan vermədiyindən, türkləşmə prosesi əngəllənirdi. Yeni əlifba bu məhdudiyyəti aradan qaldıraraq alınma sözlərin milli səslənişə uyğun yazılmasını təmin etməyi qarşıya məqsəd qoyurdu. Müəllif *"namaz", "kol", "koloft", "kalaft", "bolbol"* və yüzlərcə kəlmələri türkün tələffüz etdiyi *"namaz", "qul", "külfat", "bol-bol"* kimi yaza bilmədiyini vurğulayır, sözlərin türk tələffüzünə uyğun yazılmasını zəruri hesab edir. Alınma sözlərin müxtəlif tələffüz formaları ("məhəbbət", "mühəbbət", "möhübbət" və s.) dilin ahəngini və sabitliyini pozurdu: "...Özgə millətlərdən aldığımız kəlmələri hər kəs bir cür tələffüz edirdi, hər kəs bir cür türkləşdirirdi. Bu isə dilimizə böyük pozğunluq salırdı. Məsələn: "məhəbbət" kəlməsi "məhəbbət", "mühəbbət", "mühibbət", "möhübbət" kimi tələffüz olunurdu" [5,s.225]. Yeni əlifba bu kimi hallarda yalnız bir düzgün tələffüz və yazılış formasını qəbul etməyi tələb edir. Məqalədə qeyd olunur ki, ərəb-fars tərkibləri və ifadə formaları ana dilinin təbii quruluşunu zədələyir. Ədib belə yad tərkiblərin ("ruhəna və cesmani tərbiyə", "əzabi şadiq" və s.) dilimizdən çıxarılmasını, yerinə saf türk formalarının gətirilməsini vacib sayır, yeni əlifba sadəcə qrafik dəyişiklik deyil, həm də dilin milliləşməsi və təmizlənməsi hərəkatının ideoloji dayağı kimi təqdim olunur.

1924-cü il sentyabr ayının 7-də "Yeni Türk Əlifba Komitəsi"nin heyəti Bakıdan Krım-Türküstana səfər edir. Bu səfər haqqında Xalid Səid Xocayev "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitabında Səmədağa Ağamalıoğlunun, Cəlil Məmmədquluzadənin, Yeni Əlifba Komitəsinin üzvü Vəli Xuluflunun, dilçi alim Xalid Səid Xocayevin məhsuldar fəaliyyətləri təsvir olunmuşdur.

1926-cı ilin yanvarına qədər davam edən qurultay hazırlıqlarına Səmədağa Ağamalıoğlu ciddi cəhdləri, bu çətinliklərə qarşı səfər heyətinin işgüzarlığı qurultayın çağırılması barədə qərarın qəbul edilməsinə nail olur. I Türkoloji Qurultayda görkəmli türkoloq alimlərin sırasında Cəlil Məmmədquluzadənin " Türk xalqlarının əlifba sistemləri haqqında" elmi məruzəsi yer alır [3.s,13]. Birinci Türkoloji Qurultay türk xalqları arasında ortaq mədəni və dil birliyinin müzakirə olunduğu mühüm hadisə idi və XIX əsrin ortalarından, Mirzə Fətəli Axundzadə ilə başlanan [1;2], Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtlı, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Vəli Xuluflu, Üzeyir Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli və s. kimi şəxsiyyətlərin timsalında, ədəbi-nəzəri düşüncədə irəli sürülən ideyaların praktik təzahürü kimi də qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1.Axundov Mirzə Fətəli (1988), Əsərləri, II cild, Bakı: Elm nəşriyyatı.

2.Axundov Mirzə Fətəli (1988), Əsərləri, III cild, Bakı: Elm nəşriyyatı.

3.Nərimanoğlu Kamil (2006), 1926-cı il Bakı Türkoloji Qurultayı haqqında söz. Bax: Latın əsaslı Yeni Türk əlifbası və I Bakı Türkoloji qurultayı. Biblioqrafiya, Bakı: Çinar-Çap.

4.Məmmədquluzadə Cəlil (1984) Əsərləri, III cild, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

5.Məmmədquluzadə Cəlil (2004), Əsərləri, IV cild, Bakı: Öndər.

6.Məmmədquluzadə, Cəlil (1985), Əsərləri, IV cild, Bak: Azərnəşr.

7.Həbibbəyli İsa (2017), Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilik.Bax: "Molla Nəsrəddin" satirik jurnal, on cilddə (1906-1931) I cild, (1906-1907) Bakı: Şərq-Qərb.

8.Şimşir Bilal (1992),Türk yazı devrimi. Ankara: **Türk Tarih Kurumunun yayını.**

9.Aslan Betül (2004), Azerbaycanda latın alfebesine geçiş sürecinde "Yeni yol" qazetesi. Erzurum: **Erzurum Atatürk Üniversitesi.**

10. Səid Xalid Xocayev(2020), Yeni əlifba yollarında əski xatirə və duyğularım. (Azərbaycan və özbək dillərində). Daşkənd: "Mumtoz soz".

Саадат ВАХАБОВА

Институт литературы имени Низами Гянджеви
Национальной Академии Наук Азербайджана
доктор философии по филологии, доцент

ДЖАЛИ́Л МАМЕДКУЛИЗАДЕ: ЯЗЫКОВАЯ КОНЦЕПЦИЯ И ИДЕОЛОГИЧЕСКИЙ ПУТЬ К I ТЮРОЛОГИЧЕСКОМУ СЪЕЗДУ

РЕЗЮМЕ

В статье системно анализируются языковая политика журнала «Молла Насреддин», издававшегося под руководством Джалила Мамедкулизаде в начале XX века, а также идеи национального пробуждения и просветительства в контексте тюркологического мышления. Обосновывается, что языковая концепция писателя, сформированная на принципе «открытого родного языка», служила идее национализации литературного языка и его построения на основе народной речи. На конкретных примерах из произведений показана идеологическая линия Джалила Мамедкулизаде, направленная против искусственного, тяжеловесного «метафорического» стиля с арабо-персидскими элементами и в защиту простой, понятной народу тюркской речи. Подчеркивается, что языковая политика журнала «Молла Насреддин» приобрела общетюркскую читаемость и создала теоретическую основу идеи общего тюркского литературного языка. Деятельность Джалила Мамедкулизаде в «Комитете нового тюркского алфавита», а также его статьи, опубликованные в газете «Ени йол», оцениваются как научные основы начальных этапов движения за переход на латинскую графику. В исследовании особо выделяется роль языка «Молла Насреддина» в обеспечении общетюркской взаимопонимаемости и в формировании идеи общего литературного языка. В статье рассматривается подход Джалила Мамедкулизаде к вопросам языка и алфавита как важной составной части идеологической и теоретической базы, приведшей к I Тюркологическому съезду.

Ключевые слова: *языковая политика, тюркология, общетюркский, литературный язык, алфавит.*

Saadat VAHABOVA

JALIL MAMMADGULUZADE: LINGUISTIC CONCEPT AND THE IDEOLOGICAL PATH TO THE FIRST TURKOLOGICAL CONGRESS

ABSTRACT

The article provides a systematic analysis of the language policy of the journal *Molla Nasreddin*, published under the leadership of Jalil Mammadguluzade in the early twentieth century, as well as the ideas of national awakening and enlightenment within the context of Turkological thought. It substantiates that the writer's linguistic concept, formed on the principle of an "open native language," served the idea of nationalizing the literary language and constructing it on the basis of the people's vernacular. Using concrete examples from literary works, the study demonstrates Jalil Mammadguluzade's ideological stance against an artificially complicated, heavy, metaphor-laden style with Arab-Persian elements, and his defense of a simple Turkic language understandable to the general public. It is emphasized that the language policy of *Molla Nasreddin* gained pan-Turkic readability and created a theoretical foundation for the idea of a common Turkic literary language. Jalil Mammadguluzade's activities within the "New Turkic Alphabet Committee," as well as his articles published in the newspaper *Yeni Yol*, are evaluated as providing the scholarly basis for the early stages of the movement toward the adoption of the Latin script. The study particularly highlights the role of the language of *Molla Nasreddin* in ensuring pan-Turkic mutual intelligibility and in shaping the idea of a common literary language. Overall, the article considers Jalil Mammadguluzade's approach to issues of language and script as an essential component of the ideological and theoretical groundwork that led to the First Turkological Congress.

Keywords: *language policy, Turkology, pan-Turkic, literary language, alphabet.*

Nuray ƏLİYEVA*

I TÜRKOLOJİ QURULTAYIN QƏTNAMƏLƏRİ

Məqalədə göstərilir ki, I Türkoloji Qurultay boyunca müzakirə olunan məsələlərlə bağlı 8 qətnamə qəbul olunmuşdur. Onlar Qurultayın gəldiyi nəticələri ümumiləşdirdi və burada əsas vacib məsələlər diqqət mərkəzinə çəkildi. Bu qətnamələrdə öz əksini tapan əsas fikirlər içərisində ən vacibi ondan ibarət idi ki, Qurultay latın əlifbasına keçid məsələsini türk xalqlarının qarşısında duran əsas məsələ kimi qeyd etdi. Həmçinin müxtəlif türk dilləri və ləhcələrinin hərtərəfli araşdırılması məqsədilə onlara aid materiallar toplanaraq çap olunması, bu dillərə aid qrammatika kitabları və lüğətlərin hazırlanması, türk dillərinin tədrisində bu dillərinin tədqiqinin və müəllimlərin yaxşı linqvistik təhsilinin önəmi, əsas təlim materiallarının türk xalqlarının xalq yaradıcılığı olmasının vacibliyi vurğulandı. Qətnamələrdə SSRİ-nin türk xalqlarının tarixinin, maddi-mədəniyyət abidələrinin araşdırılması, qorunması, arxeoloji ekspedisiyaların təşkili, arxiv materiallarının çapı tövsiyə edildi. Qurultay diyarşünaslığı türkoloji işin yeganə və etibarlı mədəni təməli kimi qeyd etdi. Belə bir qənaətə gəlindi ki, türk dillərinin imla qaydaları üçün ən uyğun prinsiplər etimoloji və fonetik prinsipdir. Türk dillərinin terminologiyası məsələsinə də toxunan Qurultay iştirakçılarının fikrincə, hər hansı bir dildə termin üçün uyğun söz yoxdursa, bu zaman əcnəbi dillərdənsə, ən yaxşı mənbə kimi digər türk dilləri qruplarına müraciət etmək lazımdır. Türk xalqlarının xəritəsinin hazırlanması, tibbi-antropoloji məsələlər və türk xalqlarının məişətinin öyrənilməsi də vacib məsələ kimi qarşıya qoyulurdu. Müxtəlif məruzələr üzrə qəbul edilən qətnamələr, orada vurğulanan əsas məsələlər bu yığıncağın elmi və tarixi əhəmiyyətini bir daha ortaya qoyur.

Açar sözlər: *I Türkoloji Qurultay, türk dünyası, qətnamələr, əlifba, orfoqrafiya, terminologiya, etnoqrafiya*

* AMEA Naxçıvan Bölməsi , filologiya elmləri doktoru, dosent

Türk dünyasının tarixində, şübhəsiz, ən mühüm hadisələrdən biri olan I Türkoloji Qurultay 1926-cı il 26 fevral – 6 mart tarixlərində Bakı şəhərində keçirilmişdir. Bu beynəlxalq qurultay həm elmi, həm siyasi cəhətdən olduqca böyük əhəmiyyət daşıyırdı. Burada türk xalqlarının bir çox ortaq elmi problemi, onların tarixi, mədəniyyəti müzakirə edilmişdir ki, onların içində ən əsası yeni əlifbaya keçid məsələsi idi. Qurultay türk xalqlarının tarixində ilk bu cür geniş miqyaslı tədbir idi və Azərbaycanın türkoloji mərkəzə çevrilməsinə imkan yaratdı. Həmçinin sonrakı dövrlərdə aparılan araşdırmalar üçün də bir mənbə rolunu oynadı. "131 nəfər nümayəndənin iştirak etdiyi Qurultayda 17 iclas keçirildi və Türk dünyasının dilinə, tarixinə, etnogenezinə, etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə dinlənildi" [7, 452]. I Türkoloji Qurultay türk xalqlarının inteqrasiyası, inkişafı, türk dünyası birliyi üçün çox mühüm tədbir idi. Akademik N.Cəfərovun fikrincə, 1916-1917-ci illərdən 1926-cı ilə qədər Azərbaycanda və Türk dünyasında mövcud vəziyyət Birinci Türkoloji Qurultayın keçirilməsinə zəmin hazırlamışdı. Bu əhval-ruhiyyəni nə ruslar, nə də Sovet hökuməti yaratmışdı. Bu, bizim xalqlarımızın iradəsi idi. Çünki hər bir xalqın həyatında milli oyanış baş verir [3].

Məhz bu səbəbdəndir ki, keçirilməsindən 100 il ötməsinə baxmayaraq bu gün də bu Qurultay öz əhəmiyyətini itirməmişdir. Burada türk dillərinin, etnoqrafiyasının, tarixinin müxtəlif ən mühüm məsələləri dünyanın tanınmış türkoloqları tərəfindən müzakirə olundu və mühüm qərarlar qəbul edildi. "Ortaq əlifba, ortaq ədəbi dil, terminologiya problemlərinin böyük diapazonda qoyuluşu və həlli yolları yalnız türkologiyanın deyil, ümumiyyətlə, Şərqlə bağlı elmlərin və şərq siyasətinin əsasında dayanan təməllərdən biri oldu" [7, 12].

Bu böyük tədbirin təsiri ilə sonralar müxtəlif illərdə SSRİ və digər türk dövlətlərinin bir çox şəhərlərində bənzər mövzularda konqreslər, konfranslar keçirildi. II qurultayın isə Özbəkistanın Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutulmuşdur, lakin məlum olduğu kimi, bu baş tutmadı.

I Bakı Türkoloji Qurultayının 70 illiyi 1996-cı ildə Türkiyənin Ankara şəhərində qeyd olunmuşdur. 80 illiyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 noyabr 2005-ci il, 90 illiyi isə18 fevral 2016-cı il tarixli Sərəncamları ilə geniş qeyd olunmuşdur. Bu Sərəncamlardan irəli gələn məsələlərin həlli istiqamətində keçirilən müxtəlif səviyyəli elmi yığıncaqlar, çap olunan materiallar Qurultayın öyrənilməsi, orada müzakirə olunan məsələlərin türkologiya elmi və türk xalqları üçün əhəmiyyətini bir daha müəyyən etdi, bu möhtəşəm elmi tədbirin bilinməyən tərəflərini elmi ictimaiyyətə təqdim etdi. 22 oktyabr 2025-ci ildə isə Prezident İlham Əliyev tərəfindən "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalanmışdır.

Əslində, çox ciddi siyasi mahiyyət daşıyan və Sovet dövləti nöqteyi-nəzərindən ideoloji işin gedişinə xidmət etmək üçün nəzərdə tutulmuş bu elmi yığıncaq həm də eyni zamanda türk xalqlarının bir çox ortaq probleminin həllinə də töhfə verdi. "I Bakı Türkoloji Qurultayında türk dillərinin yeddi böyük problemi müzakirə olundu: 1. Əlifba məsələsi; 2. İmla-orfoqrafiya problemi; 3. Termin məsələsi; 4. Tədris-metodika məsələsi; 5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; 6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; 7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri" [7, s.9].

Qurultayda bir neçə gün ərzində müxtəlif mövzular üzrə aparılan müzakirələrin nəticəsi olaraq hər bir bölməni əhatə edən qətnamələr qəbul edildi. Bu qətnamələr Qurultayın gəldiyi nəticələri ümumiləşdirirdi və burada əsas vacib məsələlər diqqət mərkəzinə çəkilirdi. Aşağıda hər biri haqqında yığcam şəkildə danışacağımız müxtəlif məruzələr üzrə qəbul edilən qətnamələr, orada vurğulanan əsas məsələlər bu yığıncağın elmi və tarixi əhəmiyyətini ortaya qoyur.

"Yeni türk əlifbası haqqında qətnamə". Bu qətnamədə qurultay latın əlifbasına keçid məsələsini türk xalqlarının qarşısında duran əsas məsələ kimi qeyd edərək onun ərəb əlifbasına nisbətən üstünlüklərini göstərir, yeni əlifbaya keçid prosesinin necə həyata keçirilməsini xalqların öz öhdəsinə qoyurdu. Qətnamədə xalqların bu sahədə başladığı işlər təqdir edilir və digər xalqların da bu təcrübədən yararlanması tövsiyə edilirdi. Məlumdur ki, bu dövrdə SSRİ-nin türk xalqları ərəb əlifbasından istifadə edirdi. Əlifba məsələsinin gündəmə gəldiyi ilk dövrlərdən, hələ M.F.Axundovun əlifba layihələrini təqdim etdiyi vaxtdan ziyalılarımızın bir hissəsi ərəb əlifbasından imtina məsələsini qəbul etmirdilər və bunun xalqların öz keçmişindən və digər türk xalqlarından, xüsusən Türkiyə türklərindən ayrılması ilə nəticələnəcyi

qənaətində idilər. Bununla bağlı Qurultayda Cabbar Məmmədzadə öz məruzəsində deyirdi: "Yeni əlifbanın əleyhinə çıxan islahatçılar deyirlər ki, biz türk kütləsindən təcrid olunuruq və bu səbəbdən aramızda uçurum yarana bilər. Mən buna mədəniyyətə doğru gedən yolu seçən xalqların öz sözü ilə cavab verəcəyəm. Türklər deyirlər: "Biz xatırlamalıyıq ki, ərəb əlifbası bizim əlifbamız deyil və ərəb əlifbası ilə çap olunan nəşrlər əhalinin çox kiçik bir hissəsi tərəfindən oxunur". Doğurdan da, bu əlifba ilə yazılan ədəbiyyatı bütün əhalinin on-on beş mini oxuyur. Qarşımızda mədəniyyəti, savadı olmayan çoxmilyonluq kütlə durur və bu kütlə üçün həmin ədəbiyyat əlçatmazdır. Odur ki, biz bir ovuc ziyalını yox, elə həmin çoxmilyonluq kütləni düşünməliyik" [7, s.219-220]. Eyni haçalanan fikirlər AXC dövründə əlifba məsələsinin parlamentdə müzakirələri zamanı da gündəmə gəlmişdi. Lakin C.Məmmədzadənin yuxarıdakı çıxışı, əslində, qurultay nümayəndələrinin mövzu ilə bağlı mövqeyini əks etdirirdi. Türkoloji Qurultayın 3 mart 1926-cı ildə keçirilən on birinci iclasında N.Türyaqulovun məruzəsində səsləndirdiyi fikirlər də bunu bir daha təsdiq edir. "Türkoloji Qurultay bütün türk dünyası üçün o mənada son dərəcə mütərəqqi amildir ki, burada köhnə ərəb əlifbasının lehinə bir dənə də olsun səs ucalmadı və əgər bütün natiqlər və məruzəçilər bu məsələnin üstündən sükutla keçirdilərsə, deməli, bunu o mənada başa düşmək lazımdır ki, köhnə ərəb yazısı, əski ərəb əlifbası tarix tərəfindən məhkum edilib, birdəfəlik və həmişəlik rədd olunub" (s.239). Uzun müzakirələrdən sonra Qurultay nüməyəndələrinin gəldiyi ümumi nəticə bundan ibarət idi ki, təkilf olunan yeni latın əlifbası həm ərəb əlifbası, həm də onun islah olunmuş variantı ilə müqayisədə daha çox üstünlüklərə malikdir. Yekunda isə Qurultay latın əlifbasını ərəb əlifbasından üstün hesab edərək türk xalqlarının bu əlifbaya keçidini məqsədəuyğun hesab etdi.

"Türk dillərinin araşdırılması və türk dillərinin digər dil ailələri ilə əlaqələri haqqında" qətnamə. Bu mövzuda məruzələri dinləyən Qurultay qərara aldı ki, müxtəlif türk dilləri və ləhcələrinin hərtərəfli araşdırılması məqsədilə onlara aid materiallar toplanaraq çap olunsun, eyni zamanda bu dillərə aid qrammatika kitabları və lüğətlər hazırlansın. Qətnamədə eyni zamanda türk dillərinin müqayisəli tədqiqi və türkoloji araşdırmaların aparılması, türkologiyaya aid biblioqrafiyanın nəşri də nəzərdə tutulmuşdur. Mövzu ilə bağlı məruzələrdən də aydın olur ki, türk xalqlarının ləhcələri ilə bağlı o dövrə qədər aparılan tədqiqatlar Qurultay iştrakçılarını qane etmirdi. Məsələ burasında idi ki, mövcud araşdırmalar yalnız konkret bir ləhcə ilə məhdudlaşırdı. Ləhcələrin müqayisəli və digər elm sahələri ilə əlaqəli şəkildə tədqiqi yox səviyyəsində idi. Bu isə onların özünəməxsus xüsusiyyətlərinin ortaya çıxarılması, tarixi inkişafı barədə konkret nəticələrə gəlmək imkanlarını məhdudlaşdırırdı. Qətnamədə öz əksini tapan müddəaları B.Çobanzadə Qurultayın 27 fevral 1926-cı ildə keçirilən üçüncü iclasında öz məruzəsində belə ümumiləşdirmişdir: "Türk ləhcələrinin tədqiqinə dair əsərlər türk ləhcələrinin qarşılıqlı münasibətlərini nümayiş etdirməyə və kifayət qədər işıqlandırmağa, bu ləhcələrin müqayisəli qrammatikasını təqdim etməyə qadir deyil. Şübhəsiz indi fantastik düşüncələri bir kənara atmaq və ayrı-ayrılıqda hər bir türk ləhcəsinin öyrənilməsinə başlamaq, yaxud hansısa ləhcələr qrupuna dair müqayisəli tədqiqatların aparılması ilə məşğul olmaq daha məqsədəuyğun olardı. Hazırda Göytürkdən Osmanlı ləhcəsinə qədər ləhcələrin dili və tarixinin tədqiqi üçün ümumi yol tapmaq mümkünsüzdür" [7, 107]. Göründüyü kimi, B.Çobanzadə aparılan araşdırmaları şərh edərkən hələlik türk dillərinin müqayisəli və tarixi tədqiqi üçün kifayət qədər elmi məlumatın və araşdırmanın olmadığını nəzərə alaraq çıxış yolunu əvvəlcə bu dillərin hər birinin ayrı-ayrılıqda hərtərəfli və sistemli tədqiqində görürdü. Qurultay iştirakçılarının ümumu fikri də B.Çobanzadənin fikirləri ilə üst-üstə düşürdü ki, bunu qətnamənin bəndlərindən də görmək mümkündür. Bu məqamda bir məsələyə də aydınlıq gətirmək üçün prof. E.Əzizovun fikirlərinə istinad etmək yerinə düşərdi: "B.Çobanzadə istər məruzəsinin adında, istərsə də məruzənin mətnində türk dillərini "türk ləhcələri" kimi təqdim edir. Bu, köhnə dilçilik məktəbləri və köhnə dilçilik təsəvvürləri ilə bağlı olan bir məsələdir və əlbəttə, aydındır ki, müasir dilçilik baxımından qəbuledilməzdir. Çünki ləhcə termini məhəlli dialektə aid olan bir anlayışdır" [5, s.80]. Doğurdan da, vaxtilə türk dillərinin "ləhcə" adlandırılması faktları ilə həm Qurultay iştirakçılarının nitqində, həm də digər mənbələrdə qarşılaşırıq. Lakin müasir dilçilik terminologiyası nöqteyi-nəzərindən bu, düzgün deyil. Çünki türk dilləri hər biri müstəqil dildir, ləhcə isə dilin dialekt bölünməsinin vahididir.

Mövzu ilə bağlı müzakirələr Qurultayın 27 fevralda keçirilən üçüncü, 28 fevralda keçirilən dördüncü və beşinci iclaslarında aparılırdı. B.Çobanzadə ilə yanaşı burada N.N.Poppe, A.N.Samoyloviç, S.Y.Malov,

N.İ.Aşmarin, B.S.Suleyev, L.V.Şerba, R.Y.Açaryan da çıxış edərək qədim və müasir türk dillərinin tədqiqi, türk dillərinin müxtəlif dillərlə qarşılıqlı əlaqəsi, türkologiyanın keçmişi və hazırkı vəziyyəti haqqında məruzələr etdilər. "N.İ.Aşmarin türk dialektlərinin öyrənilməsi sahəsindəki nöqsanları da diqqətə çatdırdı və onları səkkiz maddədə ümumiləşdirdi. O, məruzəsinin sonunda özlərini yerli dialektlərin öyrənilməsinə həsr edən tədqiqatçıların vacibliyi məsələsinə toxunur və belə hesab edirdi ki, əyalətlərdəki əməkdaşlara diqqət yetirilərsə, türkologiya sürətli addımlarla irəliləyə bilər" [5, 83].

"Doğma dilin tədrisi metodikası üzrə" qətnamə. Bu qətnamədə türk dillərinin tədrisində bu dillərinin tədqiqinin və müəllimlərin yaxşı linqvistik təhsilinin önəmi vurğulanaraq təlim prosesində şagirdlərin orfoqrafiya, yazı bacarıqları, nitq inkişafı, qrammatika üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi yolları qeyd olunur. Eyni zamanda burada göstərilirdi ki, əsas təlim materialları türk xalqlarının xalq yaradıcılığı olmalı, daha sonra isə şagirdlər ədəbiyyat, xüsusən digər türk xalqlarının ədəbiyyatları ilə tanış olmalıdırlar. "Qurultayda ədəbi dildən danışılan yerdə ən çox istinad olunan nöqtələrdən biri xalq ədəbiyyatındakı dildir, xalq danışıq dilidir. Qurultay nümayəndələri belə hesab edirlər ki, el ədəbiyyatından lazımi şəkildə yararlanıb biz dilimizi yad təsirlərdən qoruya bilərik" [6, s.14]. Bu mövzu ətrafında 5 mart 1926-cı ildə S.Ağamalıoğlunun sədriliyi ilə keçirilən on beşinci iclasda məruzə edənlərdən biri də Krım Pedaqoji Universitetinin müəllimi İ.Lemanov idi. O deyirdi: "Hazırda türk məktəblərində doğma dilin tədrisi, ilk növbədə, kifayət qədər hazırlıqlı türk müəllimlərinin və türk dillərində müvafiq dərsliklərin, dərs vəsaitlərinin olması ilə şərtlənir. Bu baxımdan türk məktəbləri, hələlik, acınacaqlı vəziyyətdədirlər. Odur ki, müəllimin özünü dəyişməyincə o mütləq yalnız bildiyi və bacardığı səviyyədə dərs deyəcək. O vaxta qədər isə bütün tələblər nəticəsiz qalacaq" [7, s.308]. Qurultay iştirkaçılarının yekdil fikri bundan ibarət idi ki, şagirdlərin yazı, nitq bacarıqlarının inkişafı üçün mütləq müasir üsullardan istifadə edilməli və türk dillərinin mükəmməl tədrisi üçün ilk növbədə onlar ciddi tədqiq olunmalıdır. Dillərimizin tədrisi üçün məktəblərdə savadlı kadrlara ehtiyac var. Bunun üçün pedaqoji təhsil müəssisələri yaradılmalı və kadr hazırlığını təkmilləşdirmək məqsədilə türk dillərinin tədrisi metodikasına dair kurslar keçirilməlidir.

"Türk xalqlarının tarixinin araşdırılmasının müasir durumu və ən yaxın vəzifələri" məruzələri üzrə qətnamə. Bu qətnamə ilə Qurultay SSRİ-nin türk xalqlarının tarixinin, maddi-mədəniyyət abidələrinin araşdırılmasını, qorunmasını, arxeoloji ekspedisiyaların təşkilini, arxiv materiallarının çapını tövsiyə edirdi. Burada göstərilirdi ki, türk xalqları ilə bağlı dünyanın müxtəlif yerlərində və dillərində çap olunmuş, dağınıq halda olan bütün materialların türk dillərinə tərcümə olunaraq çap olunması zəruridir. Məlumdur ki, I Türkoloji Qurultay təkcə dil və əlifba məsələlərini müzakirə etməmişdir. Burada türk xalqlarının tarixi, mədəniyyəti, etnoqrafiyası ilə bağlı da bir çox mühüm məsələlərə toxunulmuşdur. Bu qətnamənin əhatə etdiyi mövzular ətrafında 27 fevral 1926-cı ildə keçirilən ikinci iclasda akademik V.V.Bartold məruzə edərək türk xalqlarının tarixi haqqında geniş məlumat verdi və bu sahəni öyrənən tədqiqatçıların qarşısında duran məsələləri geniş şəkildə şərh edərək bildirdi ki, ümid etmək lazımdır ki, hazırda Kiçik Asiyadan Tobolsk və Türfanadək ərazidə qarşısında öz milli mənliyini itirmədən qərb mədəniyyətinə yiyələnmək kimi mürəkkəb vəzifə duran həmin xalqların nümayəndələri də bu işin yerinə yetirilməsində iştirak edəcəklər [7, s.41].

"Diyarşünaslıq haqqında məruzə üzrə" qətnamə. Bu qətnamədə Qurultay iştirakçıları diyarşünaslığı türkoloji işin yeganə və etibarlı mədəni təməli kimi qeyd edərək bu sahəyə kifayət qədər vəsait ayrılmasını və diyarşünaslıq məsələləri üzrə müvafiq kartotekaların yaradılmasını zəruri hesab edirdi. Qurultayın 6 mart 1926-cı ildə keçirilən S.Ağamalıoğlunun sədrlik etdiyi on altıncı iclasında akademik S.F.Oldenburq geniş məruzə edərək türkdilli ölkələrdə diyarşünaslıq işində uğur qazanmaq üçün bir sıra məsələlərin öyrənilməsinin önəminə diqqət çəkdi. Burada diyarşünaslığın inkişafında toponimika məsələləri, əhalinin qeydiyyatı, mətbuatın rolu, orta və ali təhsil müəssisələrində diyarşünaslığa münasibət, nəşr işi, kitabxana və muzeylərin rolu xüsusi olaraq vurğulandı.

"Türk dillərinin orfoqrafiyası haqqında" qətnamə. Burada Qurultay iştirakçıları tərəfindən türk dillərinin imla qaydaları müəyyən edilərkən belə bir qənaətə gəlinmişdir ki, onlar üçün ən uyğunu etimoloji və fonetik prinsipdir. Bu dillərdə olan alınmaların tələffüzə uyğun şəkildə yazılması daha uyğundur, çünki bu, əhalinin savadsız hissəsinin savadlanmasını asanlaşdırar. Qurultay ədəbi dildə vahid orfoqrafiya formalarının qorunmasını tövsiyə edərək bu sahədə pərakəndəliyi yolverilməz hesab edirdi. Həmçinin türk

dilləri üçün orfoqrafiya lüğətlərinin yaradılması da zərurət kimi qarşıya qoyulurdu. Qurultayın 1 mart 1926-cı ildə Qorxmazovun sədrliyi ilə keçirilən yeddinci iclasında müzakirə olunan bu məsələlərlə bağlı L.V.Şerba, İ.Ömərov, Ş.A.Manatov, İ.Alparov, İ.M.Əliyev, İ.Yumanqulov, Şamil Usmanov, N.E.Xakimov, B.Çobanzadə, Qalimcan İbrahimov məruzə etdilər. Prof. Şerba öz məruzəsində deyirdi: "Sağlam dil siyasətinin müdrikliyi durğunluğa yol verməmək, dili daim mövcud şəraitə uyğunlaşdırmaqdan ibarətdir. Məsələ də elə bundadır və mədəni quruculuq yoluna qədəm qoyan gənc xalqlar, məncə, bunu nəzərə almalıdır... Təbii ki, fonetik prinsip ideal prinsipdir. Bu, ən sadə həlldir və buna can atmaq lazımdır" [7, s.169]. Məruzələrdən gəlinən ümumi nəticə bundan ibarət idi ki, türk dillərinin imla qaydalarının formalaşdırılmasında fonetik prinsipə əsaslanmaq lazımdır, bəzi hallarda isə etimoloji prinsip də fonetik prinsipin köməyinə gəlməlidir. Bu bölmədəki məruzələrdə alimlər tez-tez əlifba məsələsinə də toxunmuş, ərəb əlifbasının çətinliyi, onun türk dillərinin imla qaydalarına uyğun olmadığı həm türk, həm də qeyri-türk məruzəçilər tərəfindən dönə-dönə vurğulanmışdır.

"Türk dillərində elmi terminologiya sistemi haqqında" qətnamə. Bu qətnamədə türk dillərində terminologiya yaratmağın və bu zaman onun hansı qrupa mənsubluğunun nəzərə alınmasının vacibliyi vurğulanaraq qeyd olunurdu ki, terminologiyanın əsası kimi dildə geniş yayılmış uyğun sözləri seçmək lazımdır. Əgər hər hansı bir dildə uyğun söz yoxdursa, bu zaman əcnəbi dillərdənsə, ən yaxşı mənbə kimi digər türk dilləri qruplarına müraciət etmək və onların söz bazasından istifadə etmək olar. Bu da mümkün olmadığı təqdirdə xalq tərəfindən mənimsənilmiş ərəb və fars terminlərini dilin qrammatik qaydalarına uyğunlaşdıraraq istifadə etmək lazımdır. "Qurultayda "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında" məruzə edən Artur Rudolfoviç Zifeldt – Simumyaqin belə hesab edirdi ki, bütün terminləri xalq dilində axtarmaq, tapmadıqda isə... onları xalq dilinin köklərindən süni şəkildə yaratmaq zəruridir" [2]. Qətnamədə qeyd olunurdu ki, türk dilləri üçün bundan sonra ərəb-fars sözlərinin iqtibası mümkünsüz sayılaraq, ərəbizmlərə və fars terminlərinə qayıdışdan birdəfəlik imtina edilsin və yeni terminlər seçimi zamanı ümumavropa yönünə üstünlük verilsin [7, s.429]. Qurultay tövsiyə edirdi ki, hətta Avropa mənşəli sözlər də yalnız kök halında qəbul olunaraq türk dillərinə məxsus şəkilçilər vasitəsilə dəyişdirilsin və dillərimizə uyğunlaşdırılsın. Mövzu ilə bağlı B.Çobanzadə də çıxış edərək öz fikirlərini Qurultay iştirakçıları ilə bölüşmüşdür. "B.Çobanzadə göstərirdi ki, elmi-ədəbi dilin bu və ya digər sahələri üçün terminlər yaradarkən, başqa dildən alarkən və ya danışıq dilindən seçərkən müəyyən bir meyar-kriteriyanı göz önündə tutmaq lazımdır ki, bu da həmin terminin xalq üçün anlaşılmasıdır" [1,s.95]. Burada həmçinin dərsliklər üçün də termin tərtibinin əsasları müəyyənləşdirilərək şagirdlərin yaş səviyyələrinə uyğun şəkildə və sadədən mürəkkəbə doğru təklif olunurdu. Termin yaradıcılığı zamanı onların anlaşıqlı olmasına diqqət etmək, çoxmənalı sözlərdən, yersiz qısaltmalardan istifadə etməmək tövsiyə olunurdu. Eyni zamanda Qurultay qərara aldı ki, hər bir türk respublikasında daimi terminoloji komissiyalar fəaliyyət göstərsin və ümumtürk elmi terminlər lüğəti yaradılsın.

"Türkoloji Qurultayın Etnoqrafik Komissiyasının qətnaməsi". Qurultay türk xalqlarının tayfa tərkibinin dəqiq qeydiyyatının aparılmasını çox vacib hesab edirdi. Qətnamdə vurğulanırdı ki, türk xalqlarının xəritəsi hazırlanmalı, tibbi-antropoloji məsələlər ciddi şəkildə qoyulmalıdır. Qətnamədə həmçinin türk xalqlarının məişətinin öyrənilməsi də vacib məsələ kimi qarşıya qoyulur və bu işdə cəmiyyətin savadlı təbəqəsinin qüvvəsindən istifadə zəruri hesab edilərək bunun üçün tədris planına etnoqrafiyanı daxil etmək tövsiyə edilirdi. İxtisaslı etnoqrafların və antropoloqların yetşdirilməsi üçün SSRİ ali təhsil müəssisələrində yerlər ayrılması, eyni zamanda bu məqsədlə gənclərin xaricdə təhsil almaları üçün şərait yaradılmasını təkilf edilirdi. Qurultayda həmçinin türk xalqlarının təsərrüfat formalarının tədqiqi, türk mədəniyyətləri mərkəzi muzeyinin yaradılması da zərurət kimi qarşıya qoyulurdu. Bu məsələlər Qurultayın 27 fevral 1926-cı il tarixdə keçirilən ikinci və üçüncü iclaslarında müzakirə olunmuşdur. Prof. S.İ.Rudenko "Türk tayfalarının etnoqrafik tədqiqinin müasir vəziyyəti və ən yaxın vəzifələri", İstanbuldan şəxsən dəvət olunmuş macar professor Y.Messaroş "Anadolu və Balkan türklərinin etnoqrafiyasının müasir vəziyyəti və ən yaxın vəzifələri", Q.Çursin "Qafqaz türklərinin etnoqrafik tədqiqinin ən yaxın vəzifələri", prof. A.A.Miller "Türk xalqlarının təsviri sənəti haqqında" məruzələr etmişlər.

I Türkoloji Qurultayın Bakıda keçirilməsinin bir sıra səbəbləri var idi. Təbii ki, burada Bakının coğrafi mövqeyi, o dövrdə Azərbaycanın SSRİ-nin digər türk dövlətlərinə nisbətən daha çox inkişaf etməsi

də amil idi, lakin sovet dövləti üçün bunlardan daha vacibi siyasi səbəblər idi. “Orta Asiyada sovetlərə qarşı müqavimət hərəkatının davam etməsi, Bakıya türk meyillilərin, Türkiyəsevərlərin toplanması marağı, bolşevizmin qondarma demokratik baxışlarının buradan daha yaxşı nümayişi bu səbəblərin siyasi tərəfi kimi dəyərləndirilir” [4, s.3].

ƏDƏBİYYAT

1.Babayev A. Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. Bakı: Elm, 2016, 336 s.

2.Cəfərov N., Hüseynova M., Qəribli A. Birinci Türkoloji Qurultayda terminologiya məsələləri. “Ədəbiyyat qəzeti”. 18 avqust 2025.
https://edebiyyatqazeti.az/news/edebi-tenqid/13685-birinci-turkoloji-qurultayda-terminologiya-meselesi

3.Cəfərov N. Qardaş xalqların ilk elmi-məfkürəvi məclisi. “Xalq qəzeti”, 24 oktyabr 2025.
https://xalqqazeti.az/az/musahibe/243813-qardas-xalqlarin-ilk-elmi-mefkurevi

4.Cəfərova S. Birinci Türkoloji Qurultayın gizli məqamları.
https://kamilinfo.net/birinci-turkolji-qurultayin-gizli-m%C9%99qamlari/

5.Əzizov E. Birinci Türkoloji Qurultayda türk dillərinin tarixi və inkişafı məsələləri. “Türkologiya” jurnalı, 2016 №3, s.78-85.

6.İmanov M.K. Birinci Türkoloji Qurultayın görünməyən tərəfləri. “Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər” mövzusunda elmi sessiyanın materialları (10 iyun 2016). Bakı: Elm və təhsil, 2016, 100 s.

7.Nərimanoğlu K.V., Ağakişiyev Ə. 1926-cı il I Bakı Türkoloji Qurultayı (stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). Bakı: Çinar-çap, 2006, 570 s.

Nuray ALIYEVA

Doctor of philology, associate professor

RESOLUTIONS OF THE I TURCOLOGY CONGRESS

The article states that a total of eight resolutions were adopted during the First Turkological Congress in connection with the issues discussed. These resolutions summarized the main conclusions reached by the Congress and highlighted the most important problems. Among the key ideas reflected in the resolutions, the most significant was the recognition of the transition to the Latin alphabet as a primary task facing the Turkic peoples. In addition, the collection and publication of materials related to various Turkic languages and dialects, as well as the preparation of grammar books and dictionaries for these languages, were emphasized. The importance of conducting linguistic research in the teaching of Turkic languages and ensuring a high level of linguistic training for teachers was underlined, and it was noted that the main teaching materials should be based on the folk literature of the Turkic peoples. The resolutions also recommended the study and preservation of the history and material-cultural monuments of the Turkic peoples within the USSR, the organization of archaeological expeditions, and the publication of archival materials. The Congress identified local studies as the only reliable cultural foundation of Turkological research. It was concluded that the most appropriate principles for the orthographic rules of Turkic languages were the etymological and phonetic principles. Addressing the issue of terminology in Turkic languages, the participants of the Congress stated that if an appropriate term does not exist in a given language, the most suitable source should be other groups of Turkic languages rather than foreign languages. The preparation of a map of the Turkic peoples, the study of medical-anthropological issues, and the investigation of the everyday life of the Turkic peoples were also identified as important tasks. The resolutions adopted on the basis of various reports and the key issues emphasized therein once again demonstrate the scientific and historical significance of the First Turkological Congress.

Keywords: *First Turkological Congress, Turkic world, resolutions, alphabet, orthography, terminology, ethnography*

Нурай АЛИЕВА
Доктор филологических наук, доцент

РЕЗОЛЮЦИИ I ТУРКОЛОГИЧЕСКОГО КОНГРЕССА

В статье отмечается, что в ходе I Тюркологического Конгреса по обсуждаемым вопросам было принято восемь резолюций. Эти резолюции обобщили основные выводы Конгреса и выделили наиболее важные проблемы. Среди ключевых положений, отражённых в резолюциях, наиболее значимым стало признание перехода на латинский алфавит одной из главных задач, стоящих перед тюркскими народами. Кроме того, подчёркивалась необходимость всестороннего изучения тюркских языков и диалектов, сбора и публикации соответствующих материалов, подготовки грамматик и словарей по тюркским языкам. Отмечалась важность проведения лингвистических исследований в процессе преподавания тюркских языков, а также высокого уровня лингвистической подготовки преподавателей. В качестве основных учебных материалов рекомендовалось использовать образцы народного творчества тюркских народов. В резолюциях также рекомендовалось изучение и сохранение истории тюркских народов, их материально-культурных памятников, организация археологических экспедиций и публикация архивных материалов на территории СССР. Конгресс определил краеведение как единственную и надёжную культурную основу тюркологических исследований. Было сделано заключение о том, что наиболее подходящими принципами для орфографических норм тюркских языков являются этимологический и фонетический принципы. Затрагивая вопрос тюркской терминологии, участники съезда отметили, что при отсутствии подходящего термина в каком-либо языке целесообразнее обращаться к лексическим ресурсам других тюркских языковых групп, нежели заимствовать термины из иностранных языков. В качестве важных задач также были обозначены составление карты тюркских народов, изучение медико-антропологических вопросов и исследование их быта. Принятые по итогам различных докладов резолюции и выделенные в них ключевые положения наглядно свидетельствуют о научном и историческом значении I Тюркологического Конгреса.

Ключевые слова: *I Тюркологический Конгресс, тюркский мир, резолюции, алфавит, орфография, терминология, этнография*

Mehriban ƏSƏDULLASOY*

MAARİFÇİ DEMOKRATLARIN ƏLİFBA VƏ ANA DİLİ MÜBARİZƏSİ

XÜLASƏ

Məqalədə XIX əsrin sonları – XX əsrin əvvəllərində ictimai-siyasi və mədəni həyatda baş verən proseslər fonunda əlifba və ana dili məsələləri ətrafında formalaşan hərəkatın mahiyyəti təhlil olunur. Bu proseslərin maarifçi demokratların fəaliyyəti nəticəsində ana dili sahəsində konkret və sistemli tədbirlərin həyata keçirilməsinə çevrildiyi araşdırılır. Azərbaycan Demokratik Respublikasının dil siyasəti çərçivəsində həyata keçirdiyi tədbirlər təkcə Azərbaycan üçün deyil, bütövlükdə türk dünyasında ana dili məsələsinin gələcək inkişafı baxımından mühüm tarixi, ideoloji və konseptual əhəmiyyət kəsb etmişdir.

Xalqın tez maariflənməsi, insanların yazmağı öyrənməsi və beləliklə də, dövrün, zamanın tələbi ilə uyğunlaşması baxımından əlifbanın rolu olduqca böyükdür. Vaxtilə ərəb qrafikası əsasında yaradılmış əski Azərbaycan əlifbasının öyrənilməsi bir neçə cəhətdən çətinliklər törədirdi. Bütün bunlara görə xalqımızın qabaqcıl ziyalısı, müəllim, yazıçı və mütəfəkkirləri, böyük maarif xadimləri əlifba məsələsinə xüsusi diqqət yetirmiş və bunu əsas məsələ kimi publisistik görüşlərində ifadə etmişdirlər.

Açar sözlər: Birinci Türkoloji Qurultay, əlifba, dil, ana dili, ədəbi dil

*Naxçıvan Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email:quliyeva.mehriban@list.ru

Maarifçilik ideyalarının inkişaf etdiyi bir dövrdə mütərəqqi ziyalıları dil, əlifba, təhsil məsələləri ciddi narahat edirdi. XIX əsrin sonları – XX əsrin əvvəllərində əksər maarifçi ziyalılar ərəb əlifbasının latın qrafikası ilə əvəz edilməsini təklif etmişdilər. Görkəmli maarifçi-demokratlar, ictimai-siyasi xadimlər, pedaqoqlar xalq kütlələrinin savadlanması, ana dilində məktəblərin, ədəbiyyat və mətbuatın yaradılması, ərəb əlifbasının dəyişdirilməsi məsələlərini gündəmə gətirərək mühüm işlər görmuşdülər. Ziyalılar bütün imkanlardan istifadə edərək xalqın milli mənlik şüurunun oyanması, maariflənməsi, siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi, vətəndaşlıq hüquqlarından tam həcmdə istifadə etməsi üçün mübarizəyə başçılıq etdilər. Hər cür çətinliklər, məhdudiyyətlər şəraitində əlifba və dil məsələlərini qabardaraq xalq kütlələrinin savadlanmasına, ana dilində məktəblərin, ədəbiyyat və mətbuatın yaradılmasına, ərəb əlifbasının dəyişdirilməsi uğrunda mübarizəyə qalxmışdırlar.

XIX əsrin sonları və XX əsrin əvvəllərində ictimai-siyasi və mədəni həyatda olduğu kimi əlifba və dillə bağlı başlayan hərəkat, bütün prosesləri ümumiləşdirərək dil sahəsində konkret addımlar atmışdı. Əlbəttə, qəbul olunan bu qərarlarda və onları tətbiq edilməsində çatışmazlıqlar görə bilərik, hansı ki, bu da çox təbii idi. Çünki Azərbaycan Demokratik Respublikasının qarşısında elə ciddi məsələlər var idi ki, həmin dövrdə dillə bağlı nəzərdə tutulan sonrakı qərarlar da yarımçıq qaldı. Azərbaycan Demokratik Respublikasının dil sahəsində gördüyü işlər nəinki həmin dövrdə yalnız Azərbaycanda, hətta bütün türk dünyasında gələcəkdə dillə bağlı yerinə yetirilməli işlə üçün çığır açdı və sonrakı proseslərə öz müsbət təsirini göstərdi. Hətta Cümhuriyyət dövründə qəbul olunan qərarların əhəmiyyətini biz 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay zamanı orda müzakirə olunan məsələlərdə də görə bilərik. Məhz 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultay zamanı qəbul olunan və bütün türk dünyasında istifadə olunan "Birləşdirilmiş türk əlifbası" adı verilən əlifba məhz *Əfəndizadə* Azaqbəyli Abdulla bəyin "Son türk əlifbası" əsasında hazırlanmışdır. Hətta bu gün həm Azərbaycanda, həm də bütün türk dünyasında istifadə olunan latın əsaslı əlifba bir neçə işarə fərqi ilə həmin dövrlərdə Abdulla bəy Əfəndizadənin hazırladığı əlifba əsasında tərtib edilmişdi.

Xalqın tez maariflənməsi, insanların yazı-pozu öyrənməsi və beləliklə də, dövrün, zamanın tələbi ilə az-çox ayaqlaşması baxımından əlifbanın rolu olduqca böyükdür. Vaxtilə ərəb qrafikası əsasında yaradılmış əski Azərbaycan əlifbasının öyrənilməsi bir neçə cəhətdən çətinliklər törədirdi. Bütün bunlara görə xalqımızın qabaqcıl ziyalısı, müəllim, yazıçı və mütəfəkkirləri, böyük maarif xadimləri əlifba məsələsinə xüsusi diqqət yetirmiş və bunu əsas məsələ kimi publisistik görüşlərində ifadə etmişdilər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində əlifba və ana dili ilə bağlı ictimai-siyasi və mədəni həyatda başlayan hərəkat bu sahələrdə konkret addımların atılmasını zəruri etdi. Təbii ki, biz də görürük ki, bu qərarlar və onların icrası uğursuzluqla nəticələnib ki, bu da təbiidir. Bu sahədə ilk addım atan böyük maarifçi Mirzə Fətəli Axundzadə olmuşdur. Onun bu sahədəki ardıcıl, inadlı fəaliyyəti həqiqi qəhrəmanlıq nümunəsi idi. Ərəb əlifbasının türk dillərinin səs sisteminə uyğun olmadığını, yazı və oxuda müəyyən çətinliklər törətdiyi məsələləri maarifçi ziyalılarımızı hər zaman düşündürmüş, əlifba islahatı barədə müəyyən addımların atılmasının zamanı gəldiyini diqqətə çatdırmışdılar. Müxtəlif məqalə, felyetonlarda bu məsələlər ciddi şəkildə qabardılaraq müəyyən addımların atılmasının vaxtı gəldiyini gündəlikdə duran vacib məsələ olması zərurətini ortaya qoydu. Mirzə Fətəli Axundov tərəfindən XIX əsrdə ortaya atılan əlifba islahatı məsələsi sonradan ideya olaraq maarifpərvər ziyalılar tərəfindən davam etdirldi. "Əhməd Cəfəroğlunun dilçilik görüşləri" adlı monoqrafiyada əlifba islahatı sahəsində 20 ildən artıq mübarizə aparan M.F.Axundzadənin ədəbi dilimizin tarixində mühüm xidmətlərini yüksək qiymətləndirən Əhməd Cəfəroğlunun fikirləri olduqca analitik və obyektiv yanaşmanı əks etdirir: "Etiraf etmək lazımdır ki, milliyətçiliyin və xüsusilə tükçülüyün bilinmədiyi və hətta boğulduğu bir anda Rusiya türkləri arasında heç bir fikir yaxınlığı və rabitənin olmadığı bir zamanda, dini təəssüb üzündən azəri türk mühiti üçün Osmanlı imperiyasının yada salınması belə, yaxşı sayılmadığı bir dövrdə milli bir türk birliyi oyanışına rəhbərlik etmək və bu azmış kimi üç islam ölkəsində hökm sürən dini təəssübü kökündən qaldırıb atmaq və nəhayət, islami klassik türk dili yerinə ərəb və əcəm təsirindən uzaq, təmiz türkcəni gətirmək üçün çalışmaq, düzünü desək, M.F.Axundzadədən başqa kimsənin girişə bilməyəcəyi ağır bir vəzifə və kimsəyə nəsib olmayan yüksək bir şərəfdir" [7, s.166].

Bundan sonra öz xələflərinin arzularını həyata keçirmək üçün yeni-yeni maarifçilər, əlifba islahatçıları yaranmağa başladı: H.Zərdabi, F.Köçərli, N.Nərimanov, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Şahtaxtılı və başqaları ilə bərabər Y.V.Çəmənzəminlinin rolu da danılmazdır. XX əsrin əvvəllərinə dogru elmin və maarifin inkişafında xüsusi xidmətlər göstərən Məhəmməd ağa Şahtaxtılı, Mahmud bəy Mahmudbəyov, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov kimi maarifçilər əlifbanın dəyişdirilməsi haqqında mətbu orqanlarda ardıcıl cıxışlar edirdilər.

"I türkoloji qurultayda dil məsələləri" kitabında I türkoloji qurultayda, istərsə də qurultaya qədərki dövrdə maarifçi ziyalıları ən çox narahat edən qlobal və mübahisəli məsələrdən olan əlifba məsələsi olduğunu vurğulayaraq yazır: "I türkoloji qurultayda Türk maarifçilərinin XIX yüzillikdən bəri apardığı yeni əlifba məsələsində iki qol şaxələnmişdir: Ərəb və latın qrafikası əsasında türk əlifbası. Uzun mübahisələrdən sonra səs çoxluğu və fikir üstünlüyü ilə latınçılar qalib gəldi" [6, s.51].

Mədəd Çobanov "I türkoloji qurultay və türk dillərinin müasir problemləri" kitabında Azərbaycan-türk dilinin ən incə mətləbləri ifadə etmək imkanına malik olmasından, bu dil vasitəsilə bədii, elmi və ictimai təfəkkürün bütün sahələrinin ən incə məna çalarlarının ifadə etməyin mümkün olduğundan geniş şəkildə bəhs etmişdir. Bu kitabda qəlifba məsələlərinə də hərtərəfli toxunulmuş, türk xalqlarının gələcəyi üçün yeni vahid əlifbaya kütləvi surətdə keçilməsi tarixi zərurətdən irəli gəlirdi kimi qiymətli fikirlər də yer almışdır: "Türk ədəbi dillərinin birliyinə doğru ilk addım müasir türk dillərinin hamısı üçün latın qrafikalı vahid əlifba sisteminin yaradılması və tədricən həmin əlifbaya keçilməsindən ibarət olmalıdır" [3, s.14].

"1926-cı il I türkoloji qurultayı" kitabında I türkoloji qurultayın onuncu iclasında əlifba məsələsinə texniki baxımdan baxımdan yanaşan professor Jirkovun dil, şifahi nitq, yazı dili barəsində tutarlı fikirləri geniş şəkildə yer almış, latın əlifbasının ərəb əlifbasından üstün cəhətləti tutarlı fikirlərində yer almışdır. Jirkov demokratik fikirlərini genişləndirərək Avropa mədəniyyətinə yaxınlaşmağın, savadsızlığın tezliklə aradan qaldırılması üçün bu məsələyə obyektiv yanaşılmasını, maarif və mədəniyyətə düzgün xidmət edərək kütlənin mənafeyinin qorunmasını üçün labüd yolu göstərir: "Buna yalnız yeganə yolla – mükəmməl, yaxud mükəmməliyə yaxın olan, həmin xalqın fonetikasına cavab verən, texniki baxımdan rahat əlifba vasitəsilə nail olmaq mümkündür. Belə əlifba isə, yoldaşlar, latın əsaslı yeni türk əlifbasıdır" [8, s,220].

İsa Həbbibəyli I türkoloji qurultayda geniş tərkibdə iştirak edən Abdulla Şaiq, Hüseyn Cavid, Vəli Xuluflu, Salman Mümtaz, Əziz Şərif, Türkiyədən Əlibəy Hüseynzadə, Mehmet Fuad Köprülüzadə kimi ziyalıların iştirakının yalnız dilçiliyin deyil, ədəbiyyat, tarix, mədəniyyət, folklor, etnoqrafiya və maarifçilik miqyasında da böyük elmi və yaradıcı qüvvələrin yetişib formalaşdığını da nümayiş etdirdiyini diqqətə çatdırmışdır. XIX əsrdən başlayan XX əsrin əvvəllərində sürətlə dərinləşən milli-mənəvi özünüdərk və mədəni inteqrasiya proseslərinin türkoloji mühitdəki əks-sədası olduğunu vurğulamışdır [5, s.5].

Adil Babayev Moskvanın türk xalqlarının savadlanmasını istəmədiyini, yeni əlifbaya keçməsinə razı olmamasının səbəbini isə türk xalqlarının öz keçmişini, mədəniyyətini öyrənə bilməməsi, bir-biri ilə əlaqə yaratmamasında görür."Türk xalqlarında ədəbi dilin inkişafı" mövzusunda çıxış edən İstanbul Universitetinin professoru Fuad Köprülüzadə I Türkoloji qurultayda ədəbi dil məsələsinə aydınlıq gətirərək deyir: "Oğuz ləhcəsi müxtəlif tarixi faktların təsiri ilə müsəlman erasının VIII əsrindən iki qrupa: Şərq və qərb qruplarına bölünmüşdür. Monqol işğallarına qədər bu ləhcələrdə ədəbi əsərlər yaranmağa başlamışdı və səkkiz əsr ərzində minlərlə elmi və ədəbi əsər bu ləhcədə yazılmışdır ki, onların heç biri ərəb və fars dilində yazılmış əsərlərdən aşağıda dayanmır" [2, s.130].

Tarixi proseslərdə böyük dövlətlərin əlifba siyasətindən siyasi məqsədlər üçün istifadə etməsini və türk xalqlarının bir-birindən ayrılmasına səbəb olan bu siyasət, müxtəlif əlifbaların tətbiqi ilə onların mədəni və ictimai əlaqələrinin zəifləməsinə səbəb olmuşdur: "İşte şu veziyyetten yararlanan böyük devletler Elifba meselesinden siyasi maksatlar gütmüş ve defalarca gast olaraq Elifba meselesini ortaya koymakla tarihin bir çok zamanlarında Türk halklarının Arap ve Latın alfabesine geçirmekle onları bir-birinden ayırmış, şununla da bu halkların her birisinden hatta baba-evlat farkl Elifbalar yaratmıştır" [1, s.112]

I Bakı Türkoloji Qurultayındakı çıxışında B.Çobanzadə fars və ərəb alınmalarının dilimizdəki rolunu, eləcə də XV–XVI əsr ədəbi nümunələrindəki oxşarlıqları nümunələrlə izah edir: "Çuvaşlarla yakutları istisna etsəm də, fars və ərəb alınmalarına dair başqa bir əsasımız var. Məsələn, 500 illiyini sabah axşam

qeyd edəcəyimiz Əlişir Nəvainin, XV-XVI əsrin istənilən Osmanlı klassikinin, Baki, Nəbi, Nadəmin dilini götürsək, onların dilləri oxşardır və bizim üçün anlaşıqlıdır ki, bunun da səbəbi, qismən terminologiyalarındakı ərəb və fars sözləridir" [4, s.22]

Bu dövrdəki ədəbi dil meyilləri iki əsas istiqamətdə - **Müasirləşmə meyli, yəni** Avropa ədəbi və mədəni ənənələrinin dilə inteqrasiyası, elmi terminologiyanın yaradılması, müasir ədəbi janrların inkişafı və **milli konservativ meyl, yəni** klassik ədəbi nümunələrdən qaynaqlanan formaların qorunması, xalq söz və ifadələrinin prioritetləşdirilməsidir. Bu iki istiqamətli meyl yalnız Azərbaycan üçün deyil, bütövlükdə türk dünyasında dilin sistemli inkişafına təsir göstərmiş, ana dilinin dövlətçilik və ictimai funksiyalarını elmi-nəzəri və praktik səviyyədə möhkəmləndirmişdir. Beləliklə, XX əsrin əvvəllərində dilin saflığının qorunması və təşviqi həm ictimai transformasiya, həm də milli özünüdərk və identiklik formalaşması baxımından mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilində müşahidə olunan meyilləri anlamaq üçün onu yalnız dilin leksik, qrammatik və fonetik aspektləri ilə izah etmək kifayət etmir. Bu dövrdə dil həm də milli kimliyin, mədəni müstəqilliyin və ictimai siyasətin vasitəsi kimi çıxış edirdi. Azərbaycan Demokratik Respublikasının yaranması ilə eyni dövrə təsadüf edən bu proses, ədəbi dilin "saflaşdırılması" səyləri ilə paralel irəliləmişdir. Dil islahatı ideya və praktikadan ibarət ikiqat funksiyaya malik idi: bir tərəfdən, fars və ərəb mənşəli ağır sözlərdən təmizləmə və xalq dilinə yaxınlaşdırma prosesi; digər tərəfdən, dilin hərtərəfli standartlaşdırılması, yəni ədəbi norma, yazı qaydaları və tədris dilinin formalaşdırılması. Burada mühüm bir elmi yanaşma kimi dilin sosial funksiyasının vurğulanması mümkündür: dilin saflığı uğrunda mübarizə yalnız estetika məsələsi deyil, eyni zamanda milli özünüdərk, maariflənmə və müasirləşmə vasitəsi idi.

ƏDƏBİYYAT:

1. 1926 Bakü türkoloji konqresinin 70.yıl dönümü toplantısı. (29-30 kasım 1996). Ankara: Türk Dil Kurumu yayınları, 1996, 119 səh.
2. Babayev A. Birinci Türkoloji qurultay və Azərbaycanda türkologiya. Bakı: Elm, 2016, 336 səh.
3. Çobanov M.N. I türkoloji qurultay və türk dillərinin müasir problemləri. Bakı: AzAtaM, 2006, 150 səh.
4. Ələkbərova K. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinə Türkiyə türkcəsinin təsiri. Bakı: 2010, s.238.
5. Həbbibəyli İ. Türkologiya elminin böyük təməli və müasir dövr. / Bakı: Xalq qəzeti. 23 noyabr, 2016 cı il, 5-ci səh.
6. Qacarlı C. I türkoloji qurultayda dil məsələləri. Bakı: Azərnəşr, 2005, 144 səh.
7. Quliyeva M. Professor Əhməd Cəfəroğlunun dilçilk görüşləri. Bakı: Zərdabi LTD, MMC, 2009, 200 s.
8. Vəliyev K., Ağakişiyev Ə. 1926-cı il I türkoloji qurultayı. Bakı: Çinar-Çap, 2006, 570 səh.

ASADULLASOY M.A

THE STRUGGLE OF THE ENLIGHTENED DEMOCRATS OVER THE ALPHABET AND THE MOTHER TONGUE

SUMMARY

The article analyzes the essence of the movement that formed around the issues of the alphabet and the mother tongue against the background of the processes taking place in socio-political and cultural life in the late 19th and early 20th centuries. It is examined how these processes turned into the implementation of specific and systematic measures in the field of the mother tongue as a result of the activities of enlightened democrats. The measures implemented by the Azerbaijan Democratic Republic within the framework of the language policy have acquired significant historical, ideological and conceptual significance not only for Azerbaijan, but also for the future development of the mother tongue issue in the Turkic world as a whole.

The role of the alphabet in terms of the rapid enlightenment of the people, the learning of writing and thus, the adaptation to the demands of the era and time is very important. The study of the old Azerbaijani alphabet, which was once created on the basis of Arabic graphics, caused difficulties in several respects. For all this, the leading intellectuals, teachers, writers and thinkers of our people, great educational figures paid special attention to the issue of the alphabet and expressed it as the main issue in their journalistic meetings.

Keywords: *First Turkological Congress, alphabet, language, mother tongue, literary language*

АСАДУЛЛАСОЙ М.А.

БОРЬБА ПРОСВЕЩЕННЫХ ДЕМОКРАТОВ ЗА АЛФАВИТ И РОДНОЙ ЯЗЫК

РЕЗЮМЕ

В статье анализируется сущность движения, сформировавшегося вокруг вопросов алфавита и родного языка, на фоне процессов, происходивших в социально-политической и культурной жизни конца XIX и начала XX веков. Рассматривается, как эти процессы трансформировались в реализацию конкретных и систематических мер в области родного языка в результате деятельности просвещенных демократов. Меры, осуществляемые Азербайджанской Демократической Республикой в рамках языковой политики, приобрели значительное историческое, идеологическое и концептуальное значение не только для Азербайджана, но и для будущего развития вопроса родного языка в тюркском мире в целом.

Роль алфавита в быстром просвещении народа, освоении письменности и, следовательно, адаптации к требованиям эпохи и времени очень важна. Изучение древнего азербайджанского алфавита, некогда созданного на основе арабской графики, представляло собой трудности в нескольких аспектах. Поэтому ведущие интеллектуалы, педагоги, писатели и мыслители нашего народа, выдающиеся деятели образования уделяли особое внимание вопросу алфавита и поднимали его как главную тему на своих журналистских встречах.

Ключевые слова: *Первый тюркологический конгресс, алфавит, язык, родной язык, литературный язык*

Heydar GULIYEV*

THE PROBLEM OF MEANING AND SENSE IN DISCOURSE: LINGUISTIC AND PSYCHOLOGICAL ASPECTS

ABSTRACT

The nature of the relationship between meaning and sense within discourse is determined by how these phenomena are actualized in the structure of language. The purpose of this article is to identify the mechanisms through which linguistic and cognitive factors stimulate the transition from meaning to sense in discourse, and to show that this transition, by influencing the overall spirit of collective experience, leads to the formation of dominant discursive behavior. The study examines the realization of sense in contextual situations, the psychological features of comprehension, and the communicative outcomes of contextual transformations of meaning. It is demonstrated that discursive competence consists of at least two interrelated skills—linguistic and psychological. Within this framework, understanding constitutes the target direction of creative cognitive processes and functions as the main mechanism of speech production.

Keywords: *discourse, linguistic, psychological, contextual situations.*

* PhD in Philology Azerbaijan University

The analysis of the problem of meaning and sense in discourse holds particular significance for both the theoretical and applied branches of linguistics. The interrelation between meaning and sense is determined by how these phenomena are actualized within discourse through language—that is, by the way they are realized in the process of speech. From this perspective, the main aim of the article is to examine the meaning–sense relationship from linguistic and psychological viewpoints and to provide a comprehensive explanation of the mechanisms through which meaning is formed in discourse and sense is perceived. Thus, the investigation of the meaning–sense problem in discourse is not limited to the analysis of the internal structural capacities of language. On the contrary, this process requires a complex examination of the cognitive, social, and psychological dimensions of language. From the moment meaning is expressed in speech, it acquires a variable and multifaceted character, whereas sense emerges as the reconstruction and interpretation of that content in consciousness. For this reason, research into the meaning–sense relationship in discourse remains one of the pressing areas in contemporary linguistics and cognitive science. The formation of discursive competence, its realization through context, and its transformation into speech behaviour are closely linked to the predicative function of the sentence. Predicativity becomes central at both grammatical and psychological levels, defining the essence of contextual competence. Psychological predicativity, related to the cognitive processing of new information during speech activity, manifests itself in two types of novelty: *a) new content conveyed through lexical means;*
b) sense formed as a result of discursive experience but lacking a lexical correspondent. In other words, sense sometimes appears as a form of spatio-temporal perception that is re-actualized in a specific situation. The inclusion of these two types of information in discourse as knowledge ensures the multiplicity of speech acts and makes the transformation of meaning into sense possible. The inability of the discourse partner to generate a sense that corresponds to the speaker's intention leads to communicative mismatch. In such cases, meanings create polyvariability at the level of sense: expressions such as "it seems to me," "I understand it this way," or "in my opinion" reflect precisely this subjective layer. During the filling of the sentence with speech components, the linguistic stimuli of cognitive activity determine the direction of thought. The contextual meaning of words forms a specific sense depending on the subject's intention. The influence of dominant sense on semantic and syntactic activity shapes the overall spirit of collective linguistic experience and serves as a basis for interpretation. The transformation of sense depending on context and the subject's mental image constitutes the core of pragmatic relations. Sense is the result of creative thinking, whereas competence is evaluated as the integration of intention and will at the level of sense. The transition from language to speech emerges as a product of concrete contextual situations and individual habits of meaning construction. The successful implementation of this process depends on the individual's personal reserve of meaning acquired through psychological procedures and on the flexible application of this knowledge in various speech situations. In this regard, competence manifests itself in two forms:

1. mental images arising in accordance with the subject's intention;
2. the adjustment of images required by the contextual situation.

Sense functions as the leading component in the mechanism through which thought is converted into speech, whereas the lack of sense serves as an imprecise outcome of cognitive processes, leading to communicative incompatibility.

Although numerous studies have examined the relationship between meaning and sense, the concepts of G.Frege and L.S.Vygotsky constitute the foundation of the theoretical framework in this field. According to Frege, meaning denotes the referential content of the word—that is, its denotatum; sense, in turn, is the multiplicity of subjective images formed in our consciousness about that denotatum. Thus, meaning represents the objective layer of information, while sense reflects the subjective one. From the mid-20th century onward, a mathematical–linguistic approach began to be applied to the concept. Lütfi Zadeh's theory of "fuzzy logic" introduced a new methodological perspective in linguistics by demonstrating that the boundaries between meaning and sense are flexible and highly variable. Meaning is presented as an invariant category belonging to the linguistic collective, whereas sense is interpreted as a variable structure

linked to the individual's psycholinguistic competence. By expressing logical vagueness through numerical values, Lütfi Zadeh explained the approximate nature of natural language. This approach was later integrated into linguistics by K.Abdulla and R.Aliyev, resulting in the development of the concept of "vague words," a term denoting a class of lexical units with fuzzy semantics. The perception of sense is shaped through the interaction of perceptual, cognitive, and mnemonic processes. The psychological nature of fuzziness is associated with two primary factors:

1. the modality of perception;
2. the individual's cognitive state.

The meanings formed within cognitive structures constitute the basis of understanding as transformed forms of action. Context activates a particular meaning and determines the degree to which it becomes realized. The informational incompleteness of perception and memory continuously directs thought processes toward the context. The absence of contextual equivalence between interlocutors results in incomplete understanding; in such cases, the individual compensates for the communicative gap by imposing additional formal load on the word. This process is accompanied by a spiral-like sequence of "meaning → sense → meaning" transformations. The dominant sense in discourse structures thought processes and determines the direction of speech creativity. Subjective sense is close to the formation of speech and is realized in the sentence depending on the level of structuring within perception. **We will try to further clarify our idea by analyzing a passage from Oscar Wilde's** *The Picture of Dorian Gray***:**

Lord Henry: "The only way to get rid of a temptation is to yield to it. Resist it, and your soul grows sick with longing for the things it has forbidden to itself."

Dorian Gray: "But suppose it is a sin?"

Lord Henry: "Well, sin is a thing that writes itself across a man's face. It cannot be concealed. People talk sometimes of secret vices. There are no such things."

Dorian Gray: "But the consequences?"

Lord Henry: "Consequences are the scarecrows of fools and the beacons of the wise."

Analysis: The Problem of Meaning and Sense

1. Meaning (Denotative level):

At surface level, Lord Henry's remarks appear hedonistic and contrary to conventional morality. He openly suggests that the only way to overcome temptation is to surrender to it. The literal meaning of his words advocates indulgence rather than restraint.

2. Sense (Connotative, cultural, and psychological level):

The sense conveyed is deeper and layered.

- Lord Henry challenges moral norms of society.
- His statements about "sin" and "consequences" ridicule ethical and religious limitations.
- The sense here is ironic and sarcastic — he trivializes "sin" as something that merely appears on the surface of a man's face.

3. Transition from Meaning to Sense:

- The sentence "Sin is a thing that writes itself across a man's face" means that sin reveals itself physically.
- But the "sense" is that human actions deeply transform one's being — not only visually but also inwardly.
- Lord Henry interprets this idea not from an ethical but from an aesthetic perspective.

4. Dorian Gray's Reaction:

- Dorian initially shows "moral hesitation" with the question "But suppose it is a sin?"
- Lord Henry's response reframes this doubt into a "philosophical and aesthetic perspective", diverting Dorian's concern.
- At this point, "sense" begins to shift in Dorian's mind — he starts perceiving "sin" not as wrongdoing, but as a valuable experience.

This dialogue illustrates the difference between meaning and sense and highlights the connection between language and thought. Lord Henry's words are seductive and aesthetically appealing on one level,

but on another, they represent a powerful discursive act that dismantles ethical boundaries and initiates Dorian's psychological transformation. Thus, "meaning" is the explicit interpretation of words, while "sense" is the impression and reaction formed within the reader (or Dorian) through cultural, emotional, and cognitive engagement.

The analyses conducted indicate that the interaction between meaning and sense in discourse is a multilayered process that can be explained from linguistic, psychological, and mathematical-linguistic (fuzzy-logic) perspectives. Meaning represents the invariant level of the collective language system, whereas sense reflects the transformative outcome of individual psychological experience. The actualization of a dominant sense in discourse is directly linked to the linguistic stimulation of cognitive activity. From a linguistic standpoint, meaning is determined by the semantic potential of language units—words, expressions, and syntactic structures. The semantic system of language is dynamic across discourse and may shift depending on context. This variability is especially evident in polysemous words, metaphorical expressions, and situations requiring context-dependent meaning. The interaction between the structural and semantic levels of language reveals that meaning is not only formal but also functional. Therefore, the linguistic analysis of discourse requires examining the role of linguistic units within a given context, their service to communicative purpose, and their semantic adaptation. From a psychological perspective, the process of forming sense is understood as the combined result of consciousness, perception, attention, and cognition. A single linguistic unit may be interpreted differently by different individuals due to factors such as social experience, cultural background, cognitive base, and emotional state. The role of context in shaping sense is undeniable: the speech situation, speaker's intention, participants' expectations, and their prior knowledge all significantly influence the accurate interpretation of a text or utterance. Psycholinguistics explains how meaning and sense are constructed through these cognitive mechanisms, highlighting that discourse is not only a linguistic but also a psychological phenomenon. Thus, discursive competence is based on the integration of two fundamental abilities: **1. linguistic structuring capacity**, and **2. psychological sense-making potential**.

As the communicative objective of creative cognitive activity, sense ensures discourse generation and enables the contextual flexibility of the meaning system.

LITERATURE:

1. Abdulla, K. Qeyri-səlis məntiq və dil-nitq / K.Abdulla, R.Əliyev. – Bakı: – 2024. – 319 s.
2. Выготский, Л.С. Мышление и речь / Л.С.Выготский. – Москва: Лабиринт, – 1999. – 352 с.
3. Фреге, Г. Смысл и денотат (Пер. с нем.) // Семиотика и информатика. Выпуск 8. – Москва: ВИНИТИ, – 1977. – с.181-210.
4. Zadeh, L.A. "Fuzzysets" Information and Control (ingilis) // – San-Dieqo: – iyun, – 1965. 8(3). – p.338-353. doi:10.1016/S0019-9958(65)90241-X. ISSN 0019-9958. Zbl 0139.24606. Wikidata Q25938993
5. Complete works of Oscar Wilde. Edited by Robert Ross. Miscellanies. The Wyman-Fogg Company Boston: Massachusetts, 1911, 843 p.

DİSKURSDA MƏNA VƏ MƏZMUN PROBLEMİ: LİNQVİSTİK VƏ PSİXOLOJİ ASPEKTLƏR

XÜLASƏ

Diskurs daxilində məna və anlam münasibətlərinin mahiyyəti onların dil strukturunda necə aktuallaşması ilə şərtlənir. Bu məqalənin məqsədi diskursda mənadan anlama keçidi stimullaşdıran linqvistik və koqnitiv amillərin fəaliyyət mexanizmini müəyyənləşdirmək, həmin keçidin kollektiv təcrübənin ümumi ruhuna təsir edərək dominant diskursiv davranışın formalaşmasına gətirib çıxardığını göstərməkdir. Tədqiqatda anlayışın kontekstual situasiyalarda gerçəkləşmə xüsusiyyətləri, anlamanın psixoloji özəllikləri və mənanın kontekstual transformasiyalarının kommunikativ nəticələri araşdırılır. Göstərilir ki, diskursiv sərişdə ən azı iki qarşılıqlı əlaqəli bacarığın – linqvistik və psixoloji bacarığın sintezindən ibarətdir. Anlama isə bu çərçivədə yaradıcı idrak proseslərinin hədəf istiqamətini təşkil edir və nitq yaradıcılığının əsas mexanizmi kimi çıxış edir.

Açar sözlər: *diskurs, linqvistik, psixoloji, kontekstual situasiyalar.*

ПРОБЛЕМА ЗНАЧЕНИЯ И СМЫСЛА В ДИСКУРСЕ: ЛИНГВИСТИЧЕСКИЕ И ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ

АННОТАЦИЯ

Природа взаимоотношений между значением и смыслом в дискурсе определяется тем, как эти явления актуализируются в структуре языка. Цель данной статьи — выявить механизмы, посредством которых лингвистические и когнитивные факторы стимулируют переход от значения к смыслу в дискурсе, а также показать, что этот переход, влияя на общую атмосферу коллективного опыта, приводит к формированию доминирующего дискурсивного поведения. В исследовании рассматриваются особенности реализации смысла в контекстуальных ситуациях, психологические характеристики понимания и коммуникативные последствия контекстуальных трансформаций значения. Показано, что дискурсивная компетентность включает по меньшей мере два взаимосвязанных навыка — лингвистический и психологический. В данной системе координат понимание выступает целевым направлением творческих когнитивных процессов и функционирует как основной механизм порождения речи.

Ключевые слова: дискурс, лингвистический, психологический, контекстуальные ситуации.

MƏHƏRRƏM MƏMMƏDLİ*

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TÜRKOLOGİYANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

XÜLASƏ

Məqalədə Birinci Türkoloji Qurultayda türkologiyanın tarixi, qədim və müasir türk dil lərinin tədqiqi və qarşıda duran vəzifələrlə bağlı məruzələr təhlil olunur, tarixi araşdırmalar müasir dövrlə müqayisə olunur. Qurultayda görkəmli türkoloqlar-S.Malov, A.Samoyloviç və N.Aşmarinin məruzələrində türkologiyanın tarixi və tədqiqi təhlil olunmuş, gələcək inkişafının istiqamətləri müəyyənləşdirilmişdir. Qurultayın qərarlarına uyğun olaraq, sovet dönəmində xüsusi türkologiya sürətlə inkişsf etmiş, müasir türk dillərinin əlifbası, ədəbi dilləri əmələ gəl miş, fonetik, qrammatik, leksik quruluşu, dialektləri, terminologiyası, üslubiyyatı, leksikoqra fiyası öyrənilmişdir.

Açar sözlər: *qurultay, türkologiya, tarix, tədqiq, abidə, istiqamət*

Birinci Türkoloji Qurultayda türkologiyanın tarixi vəziyyəti, türk dillərinin tədqiqinin müasir durumu və ən yaxın vəzifələri, qədim türk dillərinin tədqiqi, türk və erməni dillərinin qar şılıqlı təsiri məsələləri müzakirə olundu. Görkəmli çuvaş alimi N.Aşmarin "Türkologiyanın keç mişi və onun hazırkı vəziyyəti haqqında bəzi məlumatlar" mövzusunda məruzə ilə çıxış etdi. Alim türkologiyanın elm sahəsi kimi yaranmasını Rusiyada aparılan tədqiqatlarla əlaqələndirir. Məruzədə türkologiyanın təşəkkülü, təkamülü və problemləri diqqətə çatdırılır: " Rusiyada elmi türkologiyanın təməli XIX əsrdə alman alimlərinin əsərləri ilə qoyulub. Keçən əsrin II yarısının əvvəllərinədək türk dillərinin öyrənilməsi çox kiçik və ləng addımlarla irəliləyirdi. Daha çox os manlı ləhcəsi tədqiq edilirdi ki, bunun da əsas səbəbi əməli məqsədlər idi və həmin məqsədlərin Avropada dillərin akademik tədqiqinə təsiri bizə kifayət qədər yaxın olan dövrədək hiss edilirdi" [1,s.141]. İlk tədqiqat əsəri kimi Otto Bötlinqin "Yakut dilinin qrammatikası"(1851) nın yeni lin qvistik üsulla yazılması qeyd edilir, mövcud qrammatika kitablarının qüsurları (nitq səslərinin qeyri-dəqiq təsviri, dil hadisələrinin Avropa qrammatikasının normalrı baxımından yanlış izahı) göstərilirdi. Sibir missionerləri tərəfindən tərtib edilən "Altay dilinin qrammatikası" kitabının xalq yaradıcılığı nümunələri əsaında yazılması düzgün ənənə kimi qeyd edilir, bu əsərin yazılma sında monqol və kalmık dillərinin qrammatikasının təsiri, N.İ.İlminskinin iştirakı olsa da əsərin tamamlanmaması və yarımçıq qalması təəssüf doğurur. Burada görkəmli türkoloq V.Radlov, V.Tomsen, N.Katanov, J.Deni və b. türkologiyanın inkişafında roluna aydınlıq gətirilir. N. Aş marinin göstərdiyi problemlər türk dillərinin səs quruluşunun, morfologiyasının, sintaksisinin öyrənilməməsi, leksik

*Bakı Dövlət Universiteti, Prof. Dr. Email: mammadovmaharam@gmail.com

tərkibin zəif tədqiqi, dialektlərdən materialların toplanmasına və tədqiqinə az diqqət yetirilməsi, bəzi dialektlərin tədqiqatdan kənar da qalması, türk şeir sənətinin qanunla rının aydınlaşdırılmaması, türk dillərinin müqayisəli tədqiqinin tam başa çatmaması göstərilir. Həmçinin ulu dilin (bəlkə də Ural- Altay- M.M.) elementlərinin diqqətdən kənarda qalması, dildə həmin elementlərin təqlidi sözlərdə təzahürü qeyd edilir. Qədim türk sözlərini toplamaq, ilkin kökləri və onların semantikasını sübut etmək olduqca zəruridir."Ural-Altay dil ailəsində, eləcə də türk dillərində də ən qədim təqlidçilik və ətraf aləmin hadisələrini, insanın ətrafında baş ve rənləri, onun həssas qəlbini həyacanlandıranları bunlara bilavasitə cavab olan parlaq səs birləşmə ləri ilə çatdırmaq qabiliyyəti hələ də qalmaqdadır"[1,s.144]. Bu materialların öyrənilməsi təkcə türkologiya deyil, ümumiyyətlə dilçiliyin inkişafında mühüm əhəmiyyətə malikdir. Türkologiya nın inkişafında dialektlərin öyrənilməsi vacib sayılır. Qədim yazılı abidələri, onlar haqqında mə lumatları tapmaq, toplamaq və bu abidələri çap etdirmək lazımdır. Xalq ədəbiyyatı, qədim əlyaz malar, nadir kitablar, başdaşılar, divarlarda olan qədim yazıları toplamaq, onları çap eləmək, mətnləri türk dillərindən birinə və ya rus dilinə tərcümə eləməklə türkologiyanın sürətli inkişa fına nail olmaq mümkündür.

Qurultayda türkologiyanın inkişafı üçün öncə türk dillərinin tədqiqi metodlarının müəy yənləş-dirilməsini vacib hesab edirlər. Altay (oyrot) xalqının nümayəndəsi A.M.Sabaşkin mövcud qrammatika-ların yazılma üsulları ilə razılaşmır, V. Radlovun qrammatikasının prinsiplərinin Al tay dilinə uyğun olmadığını göstərir. V.Radlovun feil cümlənin sonunda işlənməsi fikrini təkzib edir, feilin tamamlıqdan əvvəl işlənməsinin qarşısını almaq olmaz. İkincisi, qrammatikaların mü əllifləri- V. Radlov və n.N.İ.İlminski rühanilərdən topladıqları mareriallar əsasında qanunları mü əyyənləşdirirlər, qanunlar və normalar xalq danışıq dili əsasında olmalıdır. Üçüncüsü, xalqın dili ni bilməyən əcnəbi alimlər onun qrammatikasını yaza bilməzlər. Buna görə də xalqın dilininin incəliklərini bilən, onun həyat tərzini, tarixini, etnoqrafiyasını və mədəniyyətinə dərindən bələd olan yerli alimlər düzgün qanunauyğunluqlar müəyyənləşdirə bilər. Türkologiyanın inkişafının başlıca istiqamətlərindən biri də müasir türk ədəbi dillərinin yaradılması və mövcud ədəbi dillərin inkişaf etdirilməsidir. Qazax xalqının nümayəndəsi İ. Oma rov qazax ədəbi dilinin yeni yaranmasını bildirir. Mövcud ədəbi dillər xalq dilindən güclü şəkil də fərqlənir ki, yeni yaranan ədəbi dillər bu nöqsanın meydana çıxmasına yol verməməlidirlər. "Ədəbi dil kütlələr üçün anlaşıqlı olmalıdır, fonetik və qrammatik quruluşu tədqiq etməklə nor mal ədəbi dilə yiyələnmək olar. Altay dilindən fərqli olaraq, qazax dilində idarə edən söz idarə ediləndən sonra gəlir, yəni xəbər cümlənin sonunda işlənir. Bu normanın pozulması anlaşılmaz lıq yaradır. Dilimizdə sintaktik qaydaların pozulması ədiblərin əksəriyyətinin rus dilində təhsil almaları və rusca düşünüb qazax dilinə tərcümə edərkən uyğunsuzluq yaranır" [1,s.146].

Türkologiyanın inkişafında dialektlərin yeni metodlarla öyrənilməsi diqqətə çatdırılır. Görkəmli alim L.Şerba dialektlərin Qərbi Avropa və Fransada geniş yayılan linqvistik coğrafiya metodu ilə tədqiqini vacib hesab edir. Bunun üçün Avropa ölkələrinin təcrübəsindən istifadə et məyi türk dillərinin atlaslarının hazırlanmasının elmi əhəmiyyətini qeyd etdi. " Müəyyən dil qru punun fonetika, morfologiya, sintaksisini, hətta lüğətlərini, onların bir qismini imkan daxilində qənaətbəxş şəkildə səciyyələndirən bəlli sayda söz, ifadə, deyim və s. seçilir, sonra tədqiq oluna caq coğrafi məntəqələr müəyyənləşdirilir, təcrübəli şəxslər hər bir coğrafi məntəqədə ifadə, söz və s. yazıya alırlar. Beləliklə, xüsusi xəritələr alınır. Yeri gəlmişkən, Fransanın atlası artıq çap dan çıxıb, Korsikanın İsveçrədəki roman şivələrinin, İspaniyadakı katalonların atlasları hazırla nır, bir sözlə bu sahədə çox işlər görülüb. Bütün türk filologiyasının tədqiqi üçün ... belə bir atla sın nəşrinə hazırlıq işlərinə başlamaq olar. Bunun üçün birincisi, ayrı- ayrı dialektlər haqqında əli mizdə olan malumatları dəqiqləşdirmək, ikincisi də fərdi və ya kollektiv şəkildə material topla maq mümkündür. Bu, türk ləhcələrinin təsnifinə yeni faktlar bəxş edər [1,s.148].

XX əsrin əvvəllərinə kimi türkologiya ümumi istiqamətdə inkişaf edirdi. Türk dillərində mükəmməl yazılı abidələr və lüğətlər hazırlanırdı. Orxon –Yenisey abidələrinin aşkara çıxarıl msı, qədim türk əlifbasının sirrinin açılması, transkripsiya, trasliterasiya, nəşri və tədqiqi məsələ ləri türkologiyanın inkişafına zəmin yaratdı. Qurultayda görkəmli türkoloq A.Samoyloviç "Türk dillərinin tədqiqinin müasir vəziyyəti və ən yaxın vəzifələri " adlı məruzəsində türkologiyanın tarixində yeni dövrün başlandığını qeyd etdi. Alim keçən dövrdə xüsusi türkologiyanın zəif inki şaf etməsini, müasir türk dillərinə aid praktik

materialın toplanmasının qeyri-qənaətbəxş səviyyə də olmasını diqqətə çatdırdı. Yakut və Altay dilləri istisna olmaqla, türk dillərinin areallar üzrə, yəni Sibir, Şərqi Türküstan, Orta Asiya, Uralv, Volqaboyu, Şərqi Avropa, Şimalı və Cənubi Qaf qazda yaşayan türk xalqlarını nəzərdən keçirir və onların dillərinin xalq ədəbiyyatı əsasında tədqi qini zəruri hesab edir. Türkologiyanın yeni dövrdə inkişafını şərtləndirən istiqamətləri müəyyən edir; a) milli respublikalarda dialektləri öyrənən mərkəzlərin yaradılması; b) dialektlər mühitlə əlaqəli öyrənilməli, şivələrin qonşu dillərlə qarşılıqlı təsiri nəzərə alınmalıdır; ç) milli mütəxəssis lər xalq ədəbiyyatının zəngin materialından istifadə etməklə fonetika, morfologi ya və sintaksisin daxıl olduğu təsviri qrammatika tərtib edilməlidir; c) şivələrin hərtərəfli tədqiqi indiyə kimi görül müş işlərin davamı olaraq ümumiləşdirmə xassəli olmalıdır; d) tədqiqatlar beynəlxalq əməkdaşlı ğa əsaslanmalı, tarixi- müqayisəli qrammatika istiqamətində olmalıdır; e) beynəlxalq zəmin əsa sında ümumi-terminoloji və ümumtürk lüğəti hazırlanmalıdır; ə) türk xalqlarının və dillərinin tədqiqinə dair biblioqrafiyanın yaradılması və s. [1,s.149]. XX əsrə kimi qədim türk yazılı abidə ləri Rusiya və Avropa ölkələrində kifayət qədər tədqiq olunmuşdu.

Abidələrin tədqiqi ilə bağlı görkəmli türkoloq S.Malov "Qədim türk dillərinin tədqiqi" mövzusunda məruzə etdi. Öncə qədim türk əlifbasının mənşəyi ilə bağlı məsələlərə aydınlıq gətir di. Qədim türk əlifbasının formalaşmasında soqdi əlifbasının təsirini qeyd elədi. Abidələrin türk xalqlarına məxsus olmasında N.M. Yadrintsevin və V.Tomsenin fəaliyyətini xüsusi qiymətləndir di. S. Malov məruzədə abidələrin mənşəyinə də öz münasibətini bildirir; abidələrin dilinə əsasla naraq Yenisey abidələrinin dilinin qırğızlara, Orxon və Selenqa çayı abidələrinin dilinin isə oğuz lara məxsus olmasını bildirir. Həmin dövrdə zəif öyrənilən uyğur dili və abidələri barədə müfəs səl məlumat verilir. Uyğur abidələri tarixi baxımdan iki dövrə bölünür; ən qədimləri VII-VIII- IX əsrlərə, sonra isə XVIII (1702-ci il) əsrə aiddir. Qədim uyğur ədəbi dilinin VIII-X əsrlərdə meydana çıxmış, 1702-ci ilədək süni şəkildə qorunub saxlanması göstərilir. Qədim uyğur dilinin varisi sarı uyğurların dili hesab olunur, bu da ədəbi dilə uyğun gəlmir. Sarı uyğurların dili türk dillərinin "z" qrupuna, uyğur ədəbi dili isə "d" qrupuna aiddir. Alim buna səbəb kimi digər dillə rin təsirini qeyd edir; çin, Tibet, hind və başqa dillərdən tərcümələr vasitəsilə dəyişmələr əmələ gəlmişdir. Qədim türk yazılı abidələrinin, o cümlədən də uyğur abidələrinin dünya kitabxanalar dakı əlyazmalarının öyrənilməsinin vacibliyi diqqətə çatdırılır, "Kutadqu- bilik" və "Divanü- lüğat- it türk" kimi möhtəşəm abidələrinin tədqiqinin genişlənməsinin zəruri olması vurğulanır. "Qədim türk və uyğur dilləri ilə kifa-yətlənməməli qıpçaq, səlcuq və osmanlı dillərinin öyrənilmə sinə başlanılmış, onun uğurla davam etdiril-məsinin mühüm əhəmiyyəti vardır. Bununla türk dili nin tarixi qrammatıkası üçün xeyli material top-lanmışdır, İstanbul alimlərindən başqa, bütün alim lərin iştirakına ehtiyac vardır" [1,s.139]. Orxon və Uyğur abidələrinin dilindən əlavə, müxtəlif dövrlərdə ayrı- ayrı türk dillərində yazılmış abidələrin tədqi-qinin vacibliyi vurğulanır. "Hazırda Xunun, Radlovun nəşrləri və prof. Banq qırçaqların dili ilə məşğul olur. Onun qıpçaq dilinin 1303- cü ilə aid olan abidələrinin (Kodekus- kumanikus nəzərdə tutulur – M.M.) tədqiqinə həsr olunmuş məqalələri vardır. Hazırda həm osmanlı, həm səlcuq dillərinə maraq müşahidə olunur və bu yaxınlarda macar jurnalında səlcuq şeirləri çap olunub. İndi növbə Orta Asiya türk dillərinin XIV əsrə aid abidəsinindir, onun nəşri P.Melioranski tərəfindən başlansa da, yarımçıq qalmışdır"[1,s. 140].

Məruzələrləki fikir və mülahizələr ciddi müzakirə olunur, mübahisəli problemlərə Q.A.Yunusov özbək, Q.E.Səədi tatar və türk, N.E.Xakimov tatar, A.Ş.Canıbəyov noqay, B.S.Suleyev qazax dillərində çıxış edərək öz münasibətlərini bildirirlər. Qurultayda qeyd olunan məruzələrdə tükologiyanın son tədqiq durumuna aydın lıq gətirilir, inkişafı üçün istiqamətlər müəyyən olunur. Müasir türk dillərinin ədəbi dil-lərinin ya ranması, dialektlərin yeni metodlarla öyrənilməsi, sinxron və diaxron istiqamətlərində tədqiqat ların genişləndirilməsi, türk dillərinin tarixinin və Ural-Altay nəzəriyyəsinin tədqiqi, yazılı abidə lərin nəşri, ümumi terminoloji və ümumtürk lüğətlərinin hazırlanması, biblioqrafiyanın tərtibi və s. məsələlər tövsiyə olunur.

ƏDƏBİYYAT:

1. 1926- cı il Bakı Türkoloji Qurultayı (stenoqram materialları, biblioqrafiya və foto- sənədlər). Tərcümə edənlər: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, Çinar Çap, 2006.
2. Babayev A. M. Türksoyun birlik səsi. Əsərləri, XIV cild. Bakı: MSV NƏŞR, nəşriyyatı, 2023
3. Xəlilov B.Ə. Birinci Beynəlxalq Türkoloji Qurultay. Bakı: Elm, 1999.

THE FIRST TURKOLOGICAL CONGRESS AND THE DEVELOPMENT DIRECTIONS OF TURKOLOGY

SUMMARY

The article analyzes the reports on the history of Turkology, the study of Turkic languages, the study of ancient Turkic languages and the tasks ahead at the First Turkological Congress, and compares historical research with the modern era. The reports of prominent Turkologists S.Malov, A.Samoylovich and N.Ashmarin at the Congress analyzed the history and study of Turkology, and determined the directions of its future development. In accordance with the decisions of the Congress, special Turkology developed rapidly in the Soviet period, the alphabet and literary languages of modern Turkic languages were formed, and the phonetics, grammar, lexical structure, dialects, terminology, stylistics, and lexicography of them were studied.

Keywords: Turkological congress, history of Turkology, research, monument, direction

ПЕРВЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТЮРКОЛОГИИ

РЕЗЮМЕ

В статье анализируются доклады по истории тюркологии, тюркологии, древнетюркской языковедчеству и задачам Первого тюркологического съезда, а также проводится сравнение исторических исследований с современностью. В докладах видных тюркологов С.Малова, А.Самойловича и Н.Ашмарин на съезде анализировалась история и изучение тюркологии, определялись направления её дальнейшего развития. В соответствии с решениями съезда в советский период активно развивалась частная тюркология, формировались алфавит и литературные языки современных тюркских языков, изучались фонетика, грамматика, лексический строй, диалекты, терминология, стилистика и лексикография.

Ключевые слова: *Тюркологический съезд, история тюркологии, исследование, памятник, направление*

Tofiq ƏBDÜLHƏSƏNLI*

I TÜRKOLOJİ QURULTAYDA TÜRK DÜNYASI ÜÇÜN ORTAQ ƏDƏBİ DİL İDEYASININ NƏZƏRİ KONSEPSİYASI

Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyəti-mizdir, bizim köklərimizdir. Eyni zamanda, bu, bügünkü vəziyyətin reallıqlarıdır.

İlham ƏLİYEV

XÜLASƏ

Məqalədə 1926-cı ildə Bakı keçirilmiş I Türkoloji qurultayın gündəliyində yer almış və türk dünyası üçün tarixi əhəmiyyət daşıyan əsas məsələlərdən biri – ortaq ədəbi dil məsələsindən bəhs olunur. Burada ortaq türk dili ideyasının tarixindən danışılır, qurultayaqədərki nəzəri fikirlər haqqında məlumat verilir. I Türkoloji qurultayda ortaq türk dili problemi ilə bağlı məruzə edilmiş məqalələlər müqayisəli şəkildə təhlil olunur, fikirlər ətrafında müzakirələr aparılır. Eyni zamanda məqalədə ortaq türk ədəbi dili ideyasına yenidən qayıdışın son 20 ildəki vəziyyəti araşdırılır, müasir türkoloqların məsələyə münasibətləri də müzakirə edilir.

Açar sözlər: *Türkoloji qurultay, Bakı, dilçilik, ortaq dil, ədəbi dil, nəzəri konsepsiya, türk coğrafiyası.*

* Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,filologiya elmləri doktoru

1926-cı ildə Bakı keçirilmiş I Türkoloji qurultayda türk dünyası üçün tarixi əhəmiyyət daşıyan bir çox məsələlələr müzakirə olunmuş, onların həlli istiqamətində elmi faktlara söykənən məruzələr edilmişdi. I Türkoloji qurultay böyük tarixi, mədəni, ictimai-siyasi hadisə idi. Onun Bakıda keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir sıra sahələrdə olduğu kimi türkologiya elmində də Azərbaycan öndə gedirdi, birinci idi. Ölkədə bu istiqamətdə tanınmış və nüfuzlu söz sahibləri, elm adamları çoxdan bəri səmərəli fəaliyyət göstərirdi.

Türk xalqlarının mədəni inteqrasiyasında xüsusi və mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Belə ki, məhz bu mötəbər məclisdə keçmiş Sovetlər Birliyi məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edilib, latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanıb.

Qurultayda 131 nəfər nümayəndə iştirak etmiş, 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. İclasa Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlu sədrlik etmiş, qurultayın Rəyasət Heyətinə aşağıdakı şəxslər seçilmişdilər: Səməd Ağamalıoğlu, Azərbaycandan Ruhulla Axundov, Həbib Cəbiyev, tanınmış şərqşünas-tarixçi alim akademik Bartold, akademik Oldenburq, Avropa alimlərinin nümayəndəsi professor Mensel, RSFSR Xalq Maarif Nazirliyindən Naqovitsin, professor Bəkir Çobanzadə, professor Samoyloviç, Qazaxıstandan Bəytursun, Yakutiyadan Barahov, Şərqşünaslıq Assosiasiyasından Borozdin və Pavloviç, Tatarıstandan Qəlimcan İbrahimov, Başqırdıstandan İdelquzin, Türkiyədən Fuad Köprülüzadə, Dağıstandan Qorqmasov, Özbəkistandan Nahamov, Qara-Qırğızıstandan Tunstanov, Türkmənistandan Berdiyev, Krımdan Akçökraklı, Şimali Qafqazdan Əliyev Umar. Bundan əlavə Azərbaycan nümayəndə heyəti və digər respublikalar adından Əli bəy Hüseynzadə, Banq, Mustafa Quliyev, akademik Marr, Lunaçarski və Tomsen Qurultayın Rəyasət Heyətinə fəxri üzv seçiliblər [1, s. 256].

I Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı:

1. Əlifba məsələsi;
2. İmla-orfoqrafiya problemi;
3. Termin məsələsi;
4. Tədris-metodika məsələsi;
5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən, ortaq ədəbi dil məsələsi;
7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Qurultayın gündəliyində yer alan əsas məsələlərdən biri də **ortaq ədəbi dil** problemi idi. Bu ideyanın banisi Krım-tatar ziyalısı İsmayıl bəy Qaspıralının nəzəri ideyalarının davamı olaraq böyük elmi auditoriyanın müzakirəsinə verilmiş ortaq ədəbi dil məsələsi ətrafında türkologiyanın tanınmış simaları: M.F.Köprülüzadə, B.Çobanzadə, X.S. Xocayev, A.Samoyloviç, N.Xakimov, X.Qabtiov və başqaları maraqlı elmi məruzələrlə çıxış etmişdilər [6, s. 260].

Böyük ictimai xadim Həsən bəy Zərdabi də ümumi türk dili ideyasını bəyənirdi. Və deməli, ümumi türk ədəbi dili uğrunda böyük mübariz Əli Bəy Hüseynzadə bu fikri öz qəzetində çap etməklə böyük ideoloq İsmayıl bəy Qaspıralıya öz rəğbətini bildirmiş olurdu.

Bütün bunlar onu göstərir ki, I Türkoloji qurultayın ideyasını verənlərin, onun təşkilatçılıq mexanizminin tərkib hissəsi olanların belə bir təşəbbüsə yiyələnmələri göydən asılı deyildi. Bütün layihə, demək olar ki, qurultaydan əvvəl nəzəri cəhətdən hazırlanmışdı. Ona görə də Səməd Ağamalıoğlunun rəhbərliyi ilə bu işə təşəbbüs edilməsi, hələ qurultaydan öncə türk dünyasının diqqət mərkəzində olan Bəkir

Çobanzadənin Bakıya dəvət olunması türklər üçün nə qədər tarixi əhəmiyyət daşıyan məsələlərin müzakirəsinin labüd olduğunu və ciddi problemlərin aradan qaldılmasını zəruri edirdi.

Türklər üçün ortaq ədəbi dil məsələsi qurultayın 14-cü iclasında qaldırılmışdı: Türkiyədən gəlmiş professor M.F.Köprülüzadənin "Türk xalqlarında ədəbi dilin inkişafı" adlı məruzəsi ilə məsələ ətrafında qızğın müzakirələr getmişdi. M.Köprülüzadə qədim və yüksək mədəni inkişaf faktoru kimi türk xalqlarının mükəmməl ədəbi dilə sahibi olmalarından bəhs etmiş, hələ islamaqədərki dövrdə türk dilinin bir sıra ləhcələrə ayrılmış olmasından söz açmışdır. O, çıxışdan açıq şəkildə bildirmi ki, ortaq ədəbi dil yaradılsın, ancaq məruzəsinin adıyla, yəni "türk xalqlarında *ədəbi dillərin* inkişafı" yox, "*ədəbi dilin* inkişafı" deməklə öz məqsədini açıq şəkildə ifadə etmiş olurdu [5, s. 446].

Adından da göründüyü kimi, məruzədə söhbət türk ədəbi dilinin keçmişindən, tarixin hansı dərinliyində bu ədəbi dilin fəaliyyətə başlamasından, bu İllərlə apardığı tədqiqatın nəticəsi olaraq, F.Köprülüzadə türk dilində sasanilər dövrünə (V əsr) gedib çıxan əsərlərin olduğunu söyləyir. Dünya mədəniyyətinə hələ XIX əsrdən mə'lumdur ki, məhz öz əlifbası ilə yazılımış Orxon abidələrinin kamil dili timsalında VIII əsrdə türkün mükəmməl ədəbi dili vardır. Bu, kifayət qədər inkişaf etmiş ədəbi dildir. Bu, Altaydan Dunaya qədər uzanan möhtəşəm imperiyanın dövlət dilidir [6, s. 261]. Şübhəsiz, bu ucsuz–bucaqsız coğrafiyada az-çox özünəməxsus məhəlli əlamətlər qazanmış müxtəlif ləhcələr də olmalıydı. Bu nəhəng türk imperiyasının qövmləri olmaq etibarilə yerli türklərin yerli ədəbi ləhcələri də imperiya ədəbi-dövlət dilinin tərkib hissələridir və təbii ki, yerli ədəbi təzahürlər də əsas leksik, qrammatik norma imperiya - dövlət ədəbi dilinindir.

Əksəriyyət bu qənaətdə idi ki, türklər üçün ümumi ədəbi dil yaratmaq mümkündür, həm də asanlıqla başa gələn hadisədir. Etiraz edən tərəf azlıq təşkil edirdi. F.Köprülüzadədən sonra birbaşa əks-tərəfə söz verilir, tatar nümayəndəsi Neymət Xakimov əlavə məruzə ilə çıxış etdi, onun ardınca başqırd X.Qabitov nitq söylədi və Neymət Xakimovun mövqeyində dayandı. Türkmənistdan gəlmiş Bekki Berdiyev heç bir giriş vermədən N.Xakimovun məruzəsinin tənqidinə başladı. B.Berdiyev konkret danışdı, məntiqə söykəndi. Türkmən şivələri ilə ədəbi türkməncənin münasibətini ümumiləşdirdi. O göstərdi ki, türkmən ləhcəsinin şivələri bir-birindən və ədəbi türkməncədən xeyli fərqlənir. Məntiqli sual verir: "Bu deməkdirmi ki, ayrı-ayrı dialektləri və şivələri varsa, onda bütöv türkmən ləhcəsi (dili) yoxdur?" Əlbəttə, bu suala "hə" demək olmaz. O, halda analoji paraleli davam etdirərək deməlisən ki, yerli türk ləhcələri arasındakı fərqlər ortaq türk dili faktını rədd etmir. Türkmən dilçisi öz şəxsi müşahidəsinə söykəndi, dedi ki, o, tatar və başqırd dillərinin xüsusi olaraq öyrənməyib, ancaq N.Xakimov və X.Qabitovun çıxışlarını, nə dediklərini başa düşüb (N.Xakimov Qazan tatarcasında, X.Qabitov başqırd ləhcəsində danışmışdı). Ona görə də inamla dedi ki: "Göründüyü kimi, bir-birimizi anlamağa imkan verən kifayət qədər leksik material var" [11, s. 79]. Bu da maraqlıdır ki, natiq məsələni özbaşına buraxmamağı, prosesə şüurlu münasibət göstərməyi, işə məqsədli müdaxiləni məsləhət görür: yerli ləhcələrin xüsusiyyətləri ədəbi dilə uyğunlaşdırılmalıdır; deməli, ədəbi dil yerli ləhcəyə yox (halbuki belə olsa, daha demokratik yanaşma olardı, proses təbii məcrada gedərdi), yerli ləhcə ədəbi dilə güzəştə getməlidir, yerli ünsiyyətdə vərdiş olunmuş materialdan müəyyən qədər imtina etməlidir. Təbii ki, bu da yerli ləhcə ilə ədəbi dil arasında ögey-doğmalıq intriqası yaradacaq bir işdir.

Ümumiyyətlə, qurultayda əksər çıxışların məzmunu bu formada idi: türkcələr yaxındır, başa düşüləndir, rahatlıqla ortaq türk dili yaratmaq olar. Beləliklə, qurultayın gəldiyi nəticə bu idi: əvvəldən türk ləhcələri arasında danışıq dilləri səviyyəsində anlaşma olub, indiki iqtisadi, siyasi, mədəni əlaqələrin, nəqliyyat və başqa kommunikativ vasitələrin çoxaldığı, təhsilin inkişaf etdiyi bir zamanda türklər üçün ümumi ədəbi dil yaratmaq ideyasını gerçəkləşdirmək olar. Ortaq türk dili ilə bağlı müzakirələrin 150 ildən artıq bir yaşı var. Amma türk dövlətləri müstəqillik qazandıqdan sonra bu məsələ yenidən gündəmə gəldi. Məsələnin ən mühüm cəhəti ondan ibarətdir ki, bu gün artıq bu sahədə prinsipal müəyyənlik yaranmışdır. Əgər bir vaxtlar müxtəlif türk dilləri əsasında süni bir ortaq türkcə, ortaq ünsiyyət vasitəsinin yaradılmalı olduğu düşünülürdüsə, indi həmin mülahizə gündəmdən çıxıb. Başqa bir mülahizə var idi ki, türk dillərindən hər hansı biri alınmalı və onun üzərində xeyli işlənməlidir ki, o gəlib ortaq bir ünsiyyət vasitəsinə çevrilsin. Burada doğruluq, təbiilik var, amma sonradan yenidən sünilik meydana çıxırdı. İllərin təcrübəsi göstərdi ki, Türkiyə türkcəsi ortaq ünsiyyət vasitəsi rolunu oynayır [8]. Hələlik vasitə rolunu, həmçinin, rus və ingilis dilləri oynayır. Ancaq bu gün Türkiyə türkcəsi öz ümsiyyət coğrafiyasını

genişləndirir. Bunun da bir çox göstəriciləri var. Türkiyənin dövlət olaraq beynəlxalq nüfuzu, Türkiyə türkcəsinin inkişaf edən bir türkcə olması, eləcə də Türkiyənin bu gün ümumən dünyada bu türkcədə məktəblər açması, televiziyalar yaratması istiqamətində proses gedir. Əlbəttə, bu prosesin təbiiliyini qəbul etmək şərtilə, hər bir məsələnin siyasi-ideoloji tərəfi var. Bəzən bu məsələ də gündəmə gəlir. Nəzərə almaq lazımdır ki, burada söhbət bu və ya başqa türk sıxışdırılmasından getmir. Söhbət Türkiyə türkcəsinin bu xalqlar arasında ortaq ünsiyyət dili kimi işlənməsindən gedir.

Həqiqətən də bu gün türk xalqalarının hər biri haqqında düşünmək, onların iqtisadi və siyasi qayğılarını himayə etmək iqtidarında olan bir türk dövləti var. Bu dövlət tarix boyu dünyanın siyasi coğrafiyasının müəyyənləşməsində fəal iştirak etmiş türkün indi həmin tarixi missiyanı yerinə yetirməyə qüdrəti olan Türkiyə Cümhuriyyətidir*. Özünün başqa türk dövlətləri ilə və qalan türk dövlətlərinin bir-biri ilə iqtisadi-mədəni-siyasi əlqaələnməsində Türkiyə televiziyası fəal iştirak edir. Bu əlaqələrdə birbaşa anlşmanı gücləndirmək üçün dil əvəzsiz vasitədir. Türkiyə türk millətlərinin qohum və qardaşı olması ilə yanaşı, həm də bu gün Türkiyə sayılan, sözü keçən qüdrətli dünya dövlətidir [13, s. 38]. Buna görə də uluslararası - beynəlxalq əlaqələrdə və bir-birilə əlaqalərdə yarayan bir xarici dil kimi Türkiyə türkcəsini bütün türk xalqları öyrənməlidir. Qeyd: Türkiyə türkcəsinə "xarici dil", "yabançı dil", "əcnəbi dil" demək nə qədər ağır səslənsə də, biz xarici dil anlayışının müasir dünya mədəniyyətindəki məlum beynəlxalq statusunu nəzərdə tuturuq. Yüngül-yüngül sözlərlə oynamaqdansa, bu sözün arxasındakı anlayışa hörmət etməliyik. Bu həm də Türkiyə türkcəsinin və ümumiyyətlə, türkcənin beynəlxalq statusunu böyüdür – otuza qədər türk dövlətində və ya muxtar dövlətində xarici dil kimi tədris olunmaq ciddi tarixi-siyasi nüfuzdur.

Ortaq türkcə üçün daha əlverişli vasitə əslində Azərbaycan türkcəsidir. Vaxtilə dövlət dilinin adlandırılması ilə bağlı müzakirələrin birində ulu öndər Heydər Əliyevin tarixi çıxışı bunu bir daha təsdiq edir: "Biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna daxildir... Biz öz dilimizi heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalıyıq, qoşmalıyıq.... Mən bunu demişəm, yenə də deyirəm, başqa dillər, türk dil qrupuna mənsub olan dillər, bizə həsəd apara bilərlər ki, bizim dilimiz nə qədər zəngin dildir. Hər bir dilə mən hörmət, ehtiramımı bildirirəm. Amma öz dilimizlə, Azərbaycan dili ilə hesab edirəm ki, biz hər birimiz fəxr edə bilərik. Çünki bu zəngin dildir, **dünyada artıq tanınmış dildir**. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb".

Bu gün bunu beynəlxalq simpoziumlarda, qurultaylarda türkiyəli alimlərin özləri də səssizcə qəbul edirlər. Bunun digər tərəfi Türkiyə türkcəsinin daxilində xarici təsirlərlə bağlı gedən proseslərlə bağlıdır ki, bu, özü də böyük narahatlıq doğrurur. Ancaq bugünkü siyasi mənzərə və eləcə də yuxarı qeyd etdiyimiz mədəni, iqtisadi, elmi faktorlar - bütün dediklərimiz onu göstərir ki, bu gün yeganə variant Türkiyə türkcəsinin ortaq ünsiyyət dili olmasından ibarətdir. Artıq hadisələrin gedişi də problemin bu yöndə həlli istiqamətində müsbət təsəvvürlər yaratmaqdadır. Bu məsələdə öz möhürünü vurmuş mərhum alimimiz, akademik Tofiq Hacıyev demişkən: "Türkiyə türkcəsi yalnız türkiyəlilərin deyil..."

ƏDƏBİYYAT

1. Axundov A. Birinci Türkoloji qurultay və müasir türk dünyası. / Azərbaycan dilçiliyi müntəxəbatı. Bakı: "Abıs Alarco", s. 255-259
2. Bayramov R. B.Çobanzadə və I Türkoloji qurultay (əlifba məsələsinə baxış). / Türkoloji araşdırmalar - 1. Bakı: "Elm və təhsil", 2015 s. 148-219.
3. Buran A. Kurşunlanan Türkoloji. Ankara: Erek matbaası, 2012
4. Çobanzadə B. Türk ləhcələrinin yaxın qohumluğu haqqında. / Azərbaycan dilçiliyi müntəxəbatı. Bakı: "Abıs Alarco", s. 199-208
5. Eyvazov P. Bekir Çobanzadenin Dilcilik Araştırmalarında Edebi Dil meseleleri / X Uluslarası Büyük Türk Dili Kurultayı. Tam bildiri metnleri. Sarayevo, 2015, s. 441-453.
6. Hacıyev T. Birinci Türkoloji Qurultayda ədəbi dil məsələləri / Azərbaycan dilçiliyi müntəxəbatı. Bakı: "Abıs Alarco", s. 259-261

* Təbii ki, bu gün ulu öndər H.Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikası da dünyanın tanınmış türk dövlətlərindən birinə çevrilməkdədir. Bugünkü siyasi, iqtisadi və mədəni uğurlar da göz qabağındadır. İnanırıq ki, cənab İ.Əliyevin apardığı müdirk siyasət Azərbaycanı daha da böyük zirvələrə daşıyacaq, Azərbaycan daha da böyük tribunlardan öz ədalət səsini dünyaya layiqincə duyuracaqdır.

7. Hacıyev T. Birinci Türkoloji Qurultayda dil məsələləri / BDU-nun "Bakı Universiteti Xəbərləri" elmi jurnalı. Bakı, 2006, № 2, s. 18-26.
8. Xəlilov B. Türkiyə türkcəsi də, Azərbaycan türkcəsi də, digər türkcələr də bir kökə bağlıdır / http://www.xalqcebhesi.az/news.php?id=3599
9. Qacarlı C. I Türkoloji qurultayda dil məsələləri. Bakı: "Azərnəşr", 2006
10. Mehdiyeva S. Azərbaycan dili tarixi I Türkoloji qurultay işığında / Azərbaycan dilçiliyi müntəxəbatı. Bakı: "Abıs Alarco", s. 259-262
11. Mehdiyeva S. Ədəbi dil məsələləri. Bakı: Elm və təhsil, 2012
12. Musaoğlu M. Türkoloji dilçilik I Türkoloji qurultaydan öncə və sonra / Azərbaycan dilçiliyi müntəxəbatı. Bakı: "Abıs Alarco", s. 265-269
13. Musaoğlu M. Türkoloji dilçilik. Bakı: BSU, 2012
14. www.anl.az
15. www.bsu.edu.az

Р Е З Ю М Е

В статье рассматривается одна из основных тем – тема общего литературного языка, поставленная на проведенном в Баку исторически важным для тюркского мира I –ом тюркологическом съезде в 1926 году. Здесь говорится об истории зарождения идеи общего тюркского языка, даются сведения о предыдущих теоретических идеях. На I тюркологическом съезде анализируются, сравниваются и дебатируются представленные доклады, посвященные проблемам общего тюркского языка. Одновременно в статье рассматриваются идеи возрождения общего литературного тюркского языка за последние 20 лет и обсуждается отношение современных тюркологов данной проблеме.

Ключевые слова: *Тюркологический съезд, Баку, языкознание, общий язык, литературный язык, теоретическая концепция, тюркская география.*

ABSTRACT

In this study, I Turkish Congress held in Baku in 1926, have taken place on the agenda of historical importance for the Turkic world and one of the main issues - the question is about a common literary language. Here is the history of the idea of a common Turkic language spoken, before congress provides information on theoretical ideas. I Turkish Congress a report on the problems of common Turkic language articles comparative analysis of the ideas being discussed. At the same time return to the article, the idea of a common Turkic literary language is investigating the situation in the last 20 years, the issue of relations between Turkic languages are discussed.

Keywords: Turkish Congress, Baku, linguistics, a common language, literary language, theoretical concept, Turkish geography

Yadigar ƏLİYEV*

1930-cu İLLƏR MƏTBUATINDA ALINMA LEKSİK VAHİDLƏR

XÜLASƏ

1930-cu illər Azərbaycan ədəbi dilinin lüğət tərkibində alınma leksik vahidlər xüsusi yer tutur. Alınma leksik qat rus, Avropa, ərəb, fars və türk dillərindən gələn sözləri əhatə edir. Yad sözlər qeyri sabit imlada təqdim olunur. Avropa mənşəli sözlərin yazılışı əsasən rus və türk dillərinin orfoqrafiya qaydaları ilə tənzimlənir. Söz və terminalma məsələsində I Türkoloji Qurultayın qəbul etdiyi qərarlar əsas götürülür. Bəzi ərəb mənşəli sözlər orta əsrlər əski yazı dilinin fonoqrafik xüsusiyyətlərini əks etdirir. Mətbu nəşrlərdəki alınmalar bəzən Azərbaycan dilinin fonetik quruluşuna uyğunlaşdırılır. I Türkoloji Qurultaydan sonra Azərbaycan ədəbi dilinin lüğət tərkibində baş verən dəyişiklik 1930-cu illərin mətbuat dilində də öz əksini tapır. Şərq dillərinə aid terminoloji vahidlər tədricən aktuallığını itirir. Ərəb və fars mənşəli sözlərin xüsusi çəkisinin azalması ilə rus və Avropa dillərindən keçən leksik vahidlərin sayı sürətlə artır.

Açar sözlər: *leksik vahid, termin, dil norması, orfoqrafiya*

* Gəncə Dövlət Universiteti, filologiya elmləri doktoru Email: yadigar_aliyev@mail.ru

XX əsrin II və III onillikləri Azərbaycan ədəbi dili tarixində özünəməxsus norma xüsusiyyətləri olan yarımmərhələ təşkil edir. Bu dövr ədəbi dilimiz vahid normalılığın olmaması, ayrı-ayrı mətbu nəşrlərdə imla müxtəlifliyi, yad dillərin təsiri, leksik variantlılıq, morfoloji paralellik, danışıq dili elementlərinin, dialekt tələffüzünün yazılı dilə sirayət etməsi ilə səciyyələnir. Dil tarixçiləri XX əsrin əvvəllərində ədəbi dilin funksional imkanlarının genişlənməsinə təsir edən mühüm amilləri aşağıdakı kimi sıralayır: məktəb şəbəkəsinin genişlənməsi, mətbuatın artması, müxtəlif ictimai fikir axınlarının mümkün qədər hərtərəfli təmsil olunması, milli teatrın yüksəlişi və nəticədə şifahi ədəbi dilin kütləvi təbliği, siyasi, mədəni və sair təşkilatların yaranması, mitinq, iclas, müzakirələrin keçirilməsi müstəqil dövlətin meydana çıxması və s. [4, s. 8-9; 6, s. 486]. Bu sıraya Bakı Universitetinin, digər ali məktəblərin yaradılması, texnikum və orta məktəblərin, texniki peşə məktəblərinin açılmasını da əlavə etsək, yazılı və şifahi ədəbi dil normalarının nə qədər geniş spektrli problem olduğunu yəqin etmək mümkündür. Sadalanan faktlar Azərbaycan elmi, mədəni, tədris mühitində, kütləvi nəşrlərdə dil məsələlərinin qaydaya salınmasını, dil normalarının tənzimlənməsini, cilalanmasını gündəmə gətirir. Vahid dil normalarının əks olunduğu dərsliklərin yazılması, kütləvi oxunaqlığın və anlaşıqlığın təmin edilməsi üçün qəzet və jurnal məqalələrinin eyni orfoqrafiya qaydaları ilə nəşri tələb olunurdu.

Müxtəlif səviyyələri təmsil edən yabançı dil elementlərinin iştirakı 1920-ci illər mətbuat dilinin səciyyəvi cəhətlərindən idi. Ayrı-ayrı mənbələrə aid yad dil ünsürləri adətən özü ilə birlikdə sistemsizlik gətirir, pərakəndəliyi artırır, nizamsızlığı gücləndirir. T.Hacıyev həmin illərin norması haqqında yazır ki, hər iki onillikdə Azərbaycan ədəbi dilinin bütün qatlarında (fonetik, leksik, qrammatik) əcnəbi ünsürlər normada xüsusi kütləyə malikdir. Ancaq bu onilliklərin müəyyən fərqləri də duyulur: 20-ci illərdə ərəb-fars, 30-cu illərdə rus-Avropa ünsürləri nisbətən güclüdür [3, s. 352]. Hər halda yabançı elementlər hər iki onillikdə əhatəli kəmiyyətdədir və müxtəlif mənşəli yad dil ünsürlərinin bu cür say çoxluğu onların alınması, mənimsənilməsi məsələsinə aydınlıq gətirilməsini tələb edir.

Burada daha vacib cəhət qohum türkcəyə aid dil xüsusiyyətlərinin Azərbaycan yazı dilinə gətirilməsidir. Azərbaycan mətbuatında işlənən Türkiyə türkcəsinin elementləri bəzən dili ağırlaşdırır, variantlılıq yaradır, ədəbi dil mühitinin vahid normalılıqdan uzaqlaşmasına səbəb olur. Bəzən ana dilimizin sözləri mətbuat səhifələrində Türkiyə türkcəsinin fonetik quruluş xüsusiyyətləri ilə təqdim olunur. T.Hacıyevin bu fikirləri adı çəkilən dövrdə türkcənin ana dilimizin norma xüsusiyyətlərinə səlahiyyətsiz müdaxiləsi barədə daha dğqiq təsəvvür yaradır: "Türkiyə türkcəsinin xüsusiyyətləri daha fəal idi. Həm də Türkiyə türkcəsi ünsürləri yalnız əcnəbi meyillər (ərəb-fars, rus-Avropa) arasında birinci yeri tutmaqla qalmır, hətta milli ana dili faktlarını üstələyir" [3, s. 353]. 1930-cu illərə aid kənar ədəbi dilin təsiri və imla qarışıqlığı tədricən azalmağa doğru gedir və minimum səviyyəyə çatır.

Bu cür mürəkkəb və çoxşaxəli proseslərin getdiyi ədəbi dildə söz və terminalma məsələsi də ciddi əhəmiyyət kəsb edirdi. Sözalma hadisəsi ərəb və fars, rus və Avropa, türk dillərindən gəlməklə üç əsas istiqaməti əhatə edirdi. Ayrı-ayrı, bəzən eyni mətbu nəşrlərdə bir leksik vahidin müxtəlif mənbələrdən gələn leksik variantları müşahidə olunur. Məsələn: dövr – epoxa, aşxana – yeməkxana və s.

1930-cu illər Azərbaycan ədəbi dilinin leksik-terminoloji yeniləşməsində I Türkoloji qurultayın qətnamə və tövsiyələri, aparılan müzakirələr əhəmiyyətli rol oynamışdır. Qurultayın "Türk dillərində elmi terminlər sistemi barədə qətnamə"sində müxtəlif dillərə aid olan müəyyən qrup terminlərlə hesablaşmanın zəruriliyi, tez-tez işlənən, mənası aydın olan sözlərin qəbul edilməsi, ərəb, fars mənşəli terminlərin türk dillərinin qrammatikasına tabe olmaq şərtilə saxlanması, istifadəsi mümkün olmayan ərəb, fars mənşəli terminlərin yerinə ümumiavropa meylinin saxlanılması, ümumiavropa mənşəli terminlərin türk dillərinin təbiətinə uyğun artikulyasiya edilməsinin zəruriliyi və digər tövsiyələr qeyd edilmişdir (bax: [5, s. 21-22]). Professor B.Çobanzadə 1930-cu ildə nəşr olunmuş "Azərbaycanı öyrənmə yolu" məcmuəsində "Azərbaycanda indiyə qədər hökm sürməkdə olan istilah və imla anarxiyasının önünü almaq üçün beynəlxalq istiqaməti əsas tutan istilah komitəsinin qərarlarına riayət etməkdən başqa çarə olmadığını" yazırdı [1, s. 5].

Mətbu nəşrlərin dili üzərində aparılan müşahidələr göstərir ki, 1930-cu illər mətbuatında Avropa mənşəli sözlər xüsusi çəkisinə görə 1920-ci illər mətbuatından fərqlənir: texnika, raport, orden [2,

14.03.1936], şablon, proqressiv, etap, dekadens (ədəbi cərəyan), artist [2, 03.04.1936], konfrans, trikotaj, senarist [2, 01.05.1936], formal, kombayner, kuryer, moment, sektor, orijinal, pioner [2, 14.04.1936], qrammatik kateqoriya, affiks direktor [2, 18.06.1936], otel, individual, sistematik [2, 06.07.1936], kompozitor, konservatoriya, geoloq, mexanik, arxitektor, injener [2, 20.08.1936], komitet, prosent [7, 21.03.1935], german, aeroplan, apparat [7, 23.03.1935], transport [7, 08.04.1938].

Avropa mənşəli sözlər Azərbaycan dilinin sözdüzəldici və sözdəyişdirici şəkilçiləri ilə işlənir: proletarlar, paraşütçü [2, 14.03.1936], novatorluq [2, 03.04.1936], traktorçu, kuklaçı, tankçı, flotçu [2, 14.04.1936], direktorluq [2, 08.06.1936]. Flotçu və kuklaşı sözləri istisna olmaqla leksik vahidlərin hamısına müasir dilimizdə təsadüf edilir. Morfoloji cəhətdən mənimsənilməmiş digər iki alınma növbəti onilliklərə doğru mətbuat dilindən çıxır. Avropa mənşəli sözlər Azərbaycan dilinin leksik vahidləri ilə birlikdə söz birləşmələri tərkibində işlənir, yaxud yeni birləşmələr əmələ gətirir. Məsələn: trikotaj sənayei məhsulu, Qızıl əmək bayrağı ordeni [2, 01.05.1936], söz kolleksiyası, türk sektoru [2, 14.04.1936], talantlı şair [2, 20.08.1936] və s.

Avropa mənşəli alınmaların yazılışında orfoqrafik qaydaların tam sabitləşmədiyi nəzərə çarpır. Türkoloji qurultayın və İstilah komissiyasının müvafiq qətnamə, qərar və tövsiyələrinə rəğmən bəzi sözlərin fonetik tərkibində Azərbaycan dilinə aid danışıq səsləri mövcud olsa da əslinə uyğun şəkildə yazılmır. Məsələn, büro əvəzinə byuro [7, 08.04.1938]. Əslində bu tipli sözlərdə rus dili orfoqrafiyasının təsiri özünü göstərir (ruscasında byuro şəklində yazıldığı üçün). Ümumiyyətlə, Avropa mənşəli leksik vahidlərin yazılışında üç istiqamət nəzərə çarpır. Bir qism sözlərin yazılışı ruscanın imla qaydalarına tabe etdirilir. Məsələn: dotsent, aktrisa, xarakteristika, drama, direksiya, reaksiya, etajerka [2, 14.03.1936; 14.04.1936; 20.08.1936], territoriya, Germaniya, pyesa, tonna, kultura, xalq artistkası [7, 23.03.1935; 03.01.1938; 08.04.1938] . Nümunələrdən göründüyü kimi, belə sözlər rus dilinin -a, -iya şəkilçi sonluqları ilə, cins və kiçiltmə bildirən -ka əlaməti ilə işlənir, yaxud rus dilinin fonoqrafik xüsusiyyətlərini əks etdirir (məsələn, dosent əvəzinə dotsent). Soyadın ruscaya aid yazılış forması özünü göstərir: Münəvvər Dadaşeva [2, 14.04.1936]. Digər qrup Avropa sözlərinin yazılışında türk dilinin imla qaydaları əsas götürülür: teatro, qəzetə, ideoloji (ideologiya əvəzinə), burjua ideolojisi, qatı sosiolojiləşdirmə (sosiallaşdırma), kadro (pedaqoq kadrolar), hidrojen, oksijen, protesto [2, 14.03.1936; 03.04.1936; 14.04.1936; 08.06.1936; 06.07.1936]. Belə orfoqrafiyada sözlərin mənbə dilə (fransız, ingilis və s.) məxsus fonetik və qrafik tərkibi mümkün qədər qorunub saxlanmışdır. Bəzən də olur ki, Avropa dillərinə aid söz Azərbaycan dilinin fonetik quruluşuna uyğunlaşdırılır: kabinə [2, 08.06.1936] (kabinet əvəzinə).

Üçüncü qrup alınmaların qrafik ifadəsində ərəb qrafikalı əski Azərbaycan əlifbasının yazı ənənələri əsas götürülür. Məsələn: məarif, səlam, əqidə, səbah, münasəbət, mübarəzə, mündərəcə, təmamilə, ilavə, mübahəsə, nihayət, müqayəsə, müzakərə, müayənə, Vədadi [2, 28.02.1936; 14.04.1936; 06.07.1936], səyasi [7, 23.03.1935].

1930-cu illərin mətbu nəşrlərində rus dili sözlərinə də təsadüf edilir. Bunların bəzisi müasir dilimizin lüğət tərkibində sabitləşmiş termin səciyyəli sözlərdir. Məsələn: paroxod, kolbas [2, 14.04.1936] ("Ədəbiyyat qəzetəsi", 14 aprel, 1936-cı il), sovet [7, 23.03.1935]; Baş Sovet – Ali Sovet əvəzinə), stəkən [7, 05.08.1934]. Digər sözlər bir müddət istifadə edildikdən sonra publisistik üslubdan və ümumiyyətlə, yazılı ədəbi dildən çıxır. Məsələn: spektakl, staxanovçu (neft staxanovçuları), sajın (məsafə ölçü vahidi; on sajın), ustanovka (yanlış ustanovka), xalturaçılıq, məarif popeçitelliyi [2, 03.04.1936; 14.04.1936; 01.05.1936; 06.07.1936; 08.07.1936], uçastok, papaninçilər, naçalnik, spekulyasiya, proqulçu, nabor sexi [7, 22.03.1935; 23.03.1935; 03.01.1935; 05.08.1935]. Az da olsa türkcənin sözlərinə rast gəlmək olur: anaxtar, dissiplin, çam (şam ağacı), tirən, yabançı [2, 03.04.1936; 01.05.1936; 14.04.1936; 08.06.1936; 06.07.1936] və s. Ərəb mənşəli sözlər əsasən terminoloji vahidləri əhatə edir: təşbih, sınıf, sətr, məarif, feil, zəmir [2, 14.04.1936; 28.02.1936]. İzafətlətə nadir halda rast gəlinir. Məsələn: hüsni-rəğbət [2, 14.02.1936]. Əvvəlki onilliklərdən fərqli olaraq ərəb, fars sözlərinin sayı azalmağa doğru gedir. N.Məmmədli bu barədə yazır: "Azərbaycan milli dilinin təşəkkül mərhələsinədək elmi üslubun əsas terminoloji mənbəyi olmasını, ictimai gərəkliyini nəzərə alaraq I Bakı Türkoloji Qurultayı dilimizin normalarına tabe olan, mənimsənilən ərəb və fars sözlərinin seçmə yolu ilə götürülməsini düzgün hesab emişdir" [8, s. 166].

1930-cu illər mətbuatında işlənən bəzi sözlər növbəti onilliklərin yazılı ədəbi dilində müşahidə olunmur. Məsələn: intizampərvər [2, 06.07.1936], osmanlıpərəst [2, 14.04.1936], çapxana [2, 01.05.1936]. Leksik-terminoloji vahidlərin alınması ilə yanaşı ana dilimizin daxili imkanları əsasında yeni söz və ifadələr yaradılır: yeni yazanlar [2, 01.05.1936], sərbəst şeirçi [2, 14.04.1936]. Fəxri adların ifadə olunduğu söz birləşməsi strukturunda qeyri-sabitlik özünü göstərir. Məsələn: incəsənətin əməkdar xadimi – əməkdar incəsənət xadimi [2, 20.08.1936].

ƏDƏBİYYAT

1.Çobanzadə B. İstilah-terminoloji işləri. Azərbaycanı öyrənmə yolu. Bakı: A.D.E.T.İ.nəşriyyatı, 1930, sayı 3

2. "Ədəbiyyat qəzetəsi", Bakı, 1936-cı il

3. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. II h., Bakı: Elm, 2012

4. Hacıyev T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Bakı: 1977

5. Xəlilov B.Ə. Birinci Beynəlxalq Türkoloji Qurultay. Bakı: Elm, 1999

6. Xudiyev N.M. Azərbaycan ədəbi dili tarixi. Bakı: Elm və təhsil, 2018

7. "Kommunist" qəzeti, Bakı, 1934, 1935, 1938-ci illər

8. Məmmədli N. I Bakı Türkoloji Qurultayının məruzələrində və XX əsrin əvvəllərində ərəb və fars mənşəli terminlərə münasibət. // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq Konfransının materialları (I hissə), – Bakı: – 14–15 noyabr, – 2016, s. 166; – s. 164-167

ЗАИМСТВОВАННЫЕ ЛЕКСИЧЕСКИЕ ЕДИНИЦЫ В ПРЕССЕ 1930-Х ГОДОВ

РЕЗЮМЕ

В лексике азербайджанского литературного языка 1930-х годов особое место занимают заимствованные лексические единицы. Заимствованный лексический слой включает слова из русского, европейского, арабского, персидского и турецкого языков. Иностранные слова представлены в нестабильном написании. Орфография слов европейского происхождения в основном регулируется правилами правописания русского и турецкого языков. В качестве основы при решении вопросов словарного запаса и терминологии принимаются решения Первого бакинского тюркологического конгресса. Некоторые слова арабского происхождения отражают фонографические особенности древнего средневекового письменного языка. Заимствования в печатных изданиях иногда адаптированы к фонетической структуре азербайджанского языка. Изменения, произошедшие в лексике азербайджанского литературного языка после Первого тюркологического конгресса, отразились и на языке печати 1930-х годов. Терминологические единицы, связанные с восточными языками, постепенно утратили свою актуальность. С уменьшением количества слов арабского и персидского происхождения резко возросло число лексических единиц, заимствованных из русского и европейских языков.

Ключевые слова: *лексическая единица, термин, языковая норма, орфография*

BORROWED LEXICAL UNITS IN THE PRESS OF THE 1930s

SUMMARY

Borrowed lexical units occupy a special place in the vocabulary of the Azerbaijani literary language of the 1930s. This borrowed lexical layer includes words from Russian, European, Arabic, Persian, and Turkish. Foreign words are presented in unstable spellings. The spelling of words of European origin is mainly governed by the spelling rules of Russian and Turkish. The decisions of the First Baku Turkological Congress serve as the basis for resolving issues of vocabulary and terminology. Some words of Arabic origin reflect the phonographic features of the ancient medieval written language. Borrowed words in printed publications are sometimes adapted to the phonetic structure of the Azerbaijani language. The changes that occurred in the vocabulary of the Azerbaijani literary language after the First Turkological Congress were also reflected in the printed language of the 1930s. Terminological units associated with Eastern languages gradually lost their relevance. As the number of words of Arabic and Persian origin declined, the number of lexical units borrowed from Russian and European languages increased sharply.

Keywords: *lexical unit, term, linguistic norm, orthography*

Qətibə MAHMUDOVA*

TÜRKMƏNİSTAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI–BEKKİ EMİR OĞLU BERDİYEV VƏ ONUN YENİ ƏLİFBA MÜZAKİRƏLƏRİNDƏ MÖVQEYİ

XÜLASƏ

Bu məqalə 1926-cı ildə Bakıda keçirilmiş I Ümumittifaq Türkoloji Qurultayında Türkmənistan nümayəndə heyətinin başçısı Bekki Emir oğlu Berdiyevin yeni əlifba müzakirələrində tutduğu elmi və ideoloji mövqeyin təhlilinə həsr olunmuşdur. Qurultay türk xalqları arasında yazı sisteminin islahatı, latın qrafikalı əlifbaya keçid və ortaq fonetik prinsiplərin müəyyənləşdirilməsi baxımından mühüm mərhələ olmuşdur.

Bekki Berdiyev çıxışlarında türkmən dilinin fonetik xüsusiyyətlərinin yeni əlifbada dəqiq əks etdirilməsinin vacibliyini vurğulamış, əlifba islahatının yalnız texniki deyil, eyni zamanda mədəni və milli identikliklə bağlı məsələ olduğunu qeyd etmişdir. O, latın qrafikalı əlifbanın savadlanmanın sürətlənməsinə, türk xalqları arasında elmi və mədəni inteqrasiyanın güclənməsinə şərait yaradacağını əsaslandırmışdır.

Məqalədə Berdiyevin mövqeyi ümumtürk kontekstində qiymətləndirilir, onun fikirləri digər qurultay iştirakçılarının yanaşmaları ilə müqayisəli şəkildə təhlil olunur. Nəticədə göstərilir ki, Bekki Berdiyev türkmən elmi fikrinin Qurultaydakı fəal və prinsipial təmsilçilərindən biri olmuş, yeni əlifba ideyasının elmi əsaslarla müdafiəsində mühüm rol oynamışdır.

Açar sözlər: *Bekki Berdiyev, Türkmənistan nümayəndə heyəti, Yeni əlifba, Türkoloji Qurultay, Latın qrafikası, Dil islahatı.*

1926-cı ildə Azərbaycanın paytaxtı Bakıda dönəminin ən böyük elmi toplantısı baş tutdu. Bu qurultayda müxtəlif türkdilli xalqlardan nümayəndə heyətləri iştirak edirdi. Bu nümayəndə heyətlərindən biri də Türkmənistan nümayəndə heyəti idi. Türkmənistan nümayəndə heyətinə Türkmənistanı təmsil edən dilçi–maarifçi alim Bekki Berdiyev başçılıq edirdi. Bekki Berdiyevin adı müxtəlif mənbələrdə iki variantda verilir. Bəkki Atayev / Bekki Berdiyev variantlarında. Bu fərqlilik antroponimik və transliterasiya səbəbləri ilə bağlıdır: *Berdiyev* – rusdilli mənbələrdə daha geniş yayılmış formadır (–yev şəkilçisi ilə). *Atayev* – eyni şəxsin başqa sənədlərdə və ya milli kontekstdə işlənən variantıdır. Türkmən (və ümumən türk) ad-soyadları 1920–1930-cu illərdə ərəb qrafikası → latın → kiril, milli forma → ruslaşdırılmış forma keçidlərində tez-tez paralel variantlarla qeydə alınırdı. *Bekki / Bəkki* – fonetik fərqdir, məna və şəxsiyyət baxımından fərq yaratmır.

Qurultayın stenoqramlarında alimin adı Bekki Berdiyev kimi keçir. Halbuki məhz bu gün hər yerdə müzakirə olunan və artıq həyata keçirilməyə başlanmış ümumtürk əlifbası, ortaq türk dili ilə bağlı olaraq, yarım əsr əvvəl onun carçısı olmuş, türkmən dilinin–ana dilinin saflığı uğrunda mübarizə aparmış insanlardan biri də məhz Bekki Berdiyev olmuşdur.

Berdıyev Bekki Emir oğlu, 1897-ci ildə, Marı şəhərindən, türkmən, bitərəf, mülkədar ailəsində doğulmuşdur. Dilçi alim, müəllim, alim, ixtimai xadim olnuşdur. Bekki Berdiyev — XX əsrin əvvəllərində Türkmənistanın elmi-mədəni həyatında fəal iştirak etmiş, xüsusilə dil, əlifba və maarifçilik məsələləri ilə bağlı mövqeyi ilə tanınmış türkoloq və ictimai xadimdir. O, 1926-cı ildə Bakıda keçirilmiş **I Ümumittifaq Türkoloji Qurultayı**nda Türkmənistan nümayəndə heyətinin aparıcı üzvlərindən biri kimi çıxış etmişdir. Türkoloji Qurultayın digər iştirakçıları kimi Bekki Berdiyev də repressiya qurbanı olmasa da həbs olunmuşdur.1956-cı ildə bəraət almış, 1970-ci ildə vəfat etmişdir [7, s.34].

Bekki Berdiyev elmi fəaliyyətində türkmən dilinin fonetik quruluşu, qrafikası və yazı mədəniyyətinin təkmilləşdirilməsi problemlərinə xüsusi diqqət yetirmişdir. Qurultaydakı çıxışlarında o, əlifba məsələsini sırf texniki problem kimi deyil, dilin inkişafı, maarifçilik və mədəni inteqrasiya

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, baş elmi işçi, filologiya elmləri doktoru, dosent. Email: dr.gatibe@gmail.com

baxımından strateji əhəmiyyət daşıyan məsələ kimi qiymətləndirmişdir. B.Berdiyev latın qrafikasına keçidin tərəfdarı olmuş, bu keçidin türkmən dilinin fonetik xüsusiyyətlərinə daha uyğun olduğunu və savadlanma prosesini sürətləndirəcəyini əsaslandırmışdır. Onun mövqeyi ümumtürk elmi mühitində gedən diskussiyalarla səsləşmiş, lakin eyni zamanda Türkmənistanın dil reallıqlarını nəzərə alan praqmatik yanaşma ilə seçilmişdir. Bekki Berdiyev türkmən ziyalılarının yeni əlifba hərəkatında fəal iştirakını təşviq etmiş, dilin normallaşdırılması və terminoloji sistemin formalaşdırılması məsələlərinə dair təkliflər irəli sürmüşdür.

Bekki Berdiyevin fəaliyyəti təkcə konkret elmi məruzələrlə məhdudlaşmır; o, türkmən dilinin modernləşməsi prosesində milli kimliyin qorunması ilə elmi tərəqqinin uzlaşdırılmasına çalışan ziyalı tipini təmsil edir. Bu baxımdan onun irsi türkoloji fikir tarixində, xüsusən də 1920-ci illər əlifba və dil islahatları kontekstində əhəmiyyətli yer tutur. "Türkoloji qurultay millətçi düşüncəli elementlər üçün bir təkan oldu ki, geri qayıtdıqdan sonra yeni qüvvə və yeni göstərişlərlə, elmi-ədəbi cəmiyyət pərdəsi altında kontrinqilabi millətçi fəaliyyətə başlasınlar. Qurultay sanki bu elementlərin gələcək fəaliyyət barədə razılaşması üçün keçirilmişdi"[8, s.76]. Bekki Berdiyev Qurultayda əsasən yeni əlifba məsələləri ilə bağlı çıxış etmiş və müzakirələrdə fəal iştirak etmişdir. B. Berdiyevin əsas məruzəsi qurultayın 11-ci iclasında yer almışdır [3,s.43].

B.Berdiyev çıxışında bildirmişdir ki, əlifba yalnız texniki vasitə deyil, dilin tarixi yaddaşını və milli kimliyini daşıyan mədəni sistemdir. Buna görə də əlifba dəyişikliyi tələsik deyil, elmi əsaslarla həyata keçirilməlidi. Alim yeni əlifbanın hazırlanmasında *"bir səs – bir işarə"* prinsipinin əsas götürülməsini təklif etmişdir. O vurğulamışdır ki, türkmən dilinin sait və samit sistemi latın qrafikasında təhrif olunmadan əksini tapmalıdır. Artıq və fonetik əsaslandırılmayan qrafemlərdən imtina edilməlidir. B.Berdiyev Türkmən dilində uzun saitlər və bəzi xüsusi fonemlər mövcuddur. Yeni əlifba bu xüsusiyyətləri nəzərə almasa, ədəbi dilin sabitliyi pozula bilər. O, ümumtürk əlifbası ideyasını dəstəklədiyini, lakin bunun bütün türk dillərinin bərabər hüquqlu fonetik əsasları üzərində qurulmalı olduğunu bildirmişdir. Heç bir türk dilinin digərinə qurban verilməməli olduğunu vurğulamışdır. "*Yoldaşlar, kimsə xalat geyinmək istəyirsə, geyinə bilər; kimsə enli kostyum, dar ayaqqabı geyinmək istəyirsə, bu da onun ixtiyarındadır. Amma əsas sual budur: bu, onun üçün rahat olacaqmı, ya yox? Əlifba seçimi məsələsində də biz eyni şəkildə bağlıyıq. Bizim üçün, əlbəttə, ərəblərin öz dilləri üçün müəyyən etdikləri ölçülər, yaxud latın xalqlarının öz dilləri üçün qəbul etdikləri ölçülər əhəmiyyətsizdir — bu ölçülər bizim "boyumuza" uyğun gəlmir. Bu məsələ konkret şəkildə araşdırılmalıdır. Aydındır ki, nə latın, nə də ərəb əlifbası mövcud formalarında türkdilli ləhcələrin fonetik sistemini tam şəkildə əks etdirə bilmir. Söhbət bu sistemə əlavələrdən gedir — zahirən bu, sadə, ixtira xarakterli bir işdir. Lakin texniki məqsədəuyğunluq baxımından bu, son dərəcə mürəkkəb məsələ-dir"*[8,s.110] .

Türkmən Bekki Berdiyev çıxışına müzakirə olunan əlifbanın zahirdə yalnız texniki bir problem kimi göründüyünü, lakin mahiyyət etibarilə ictimai həyatın ən əsas məsələlərindən birinə çevrildiyini vurğulayaraq başlayır. Onun fikrincə, əlifba təkcə dilin səsləri ilə deyil, eyni zamanda cəmiyyətin quruluşu ilə də sıx bağlıdır [1,s.54]. "Bir dərzi müştərinin ölçüsünü bilməklə ona pencək tikə bilər, lakin həmin adamın hansı geyimdə özünü rahat hiss edəcəyini əvvəlcədən bilməz. Eyni şəkildə, bir millətin əlifbasını yalnız fonetik ölçülərə əsaslanaraq müəyyənləşdirmək də yetərli deyildir. Çünki əlifba sadəcə səsləri əks etdirən texniki bir sistem deyil; təhsildən mətbuata, oxu vərdişlərindən mədəni istehsala qədər ictimai həyatın bütün sahələrini təsir altına alan bir qurumdur. Bu səbəbdən "Latınmı, yoxsa ərəbmi?" müzakirəsi yalnız səs uyğunluğu baxımından deyil, ictimai funksionallıq baxımından da qiymətləndirilməlidir" [2, s.86]. "Berdiyev bildirir ki, türk xalqlarının dillərinin fonetik sistemi artıq müəyyənləşdirilmişdir və buna görə də əlifba seçimi səs baxımından həll olunmuş bir məsələdir. Əsas problem bu səslərin hansı qrafik sistem vasitəsilə ictimai həyata ötürüləcəyidir. Nə latın, nə də ərəb əlifbası mövcud vəziyyətdə türk ləhcələrinə tam uyğun gəlir. Lakin latın əlifbası mətbəə, təhsil və texnologiya ilə uyğun şəkildə inkişaf etdiyinə görə ictimai tərəqqi baxımından daha əlverişlidir" [4,s. 23]. Bu səbəbdən Berdiyev latın hərflərinin üstünlüklərini uzun-uzadı sadalamaq əvəzinə, ərəb əlifbasının "islah edilməsi" istiqamətində aparılan cəhdlərin yanlışlığı üzərində dayanır. O, bu məqamda Alimcan Şərəfi hədəf alaraq bildirir ki, Şərəf eyni

vaxtda həm köhnə, həm islah edilmiş, həm də planlaşdırılmış üç müxtəlif ərəb əlifbasından danışır ki, bu da elmi ardıcıllıqdan məhrumdur. Əgər ərəb əlifbası iddia edildiyi kimi asan, funksional və mükəmməl olsaydı, Sovetlər Birliyində latınlaşma hərəkatı heç yaranmazdı. Halbuki hazırda ortada onlarla müxtəlif islah olunmuş ərəb əlifbası mövcuddur ki, bu da açıq-aşkar bir xaosdur [8, s.345].

B.Berdiyevə görə, geridə qalmış və kiçik xalqların öz daxilində onlarla fərqli əlifbadan istifadə etməsi əməyin təşkili, biliklərin yayılması və mətbuatın inkişafı üçün ciddi maneədir. Bu səbəbdən ərəb əlifbasını islah etməyə çalışmaq əslində Amerikanı yenidən kəşf etməyə cəhd etməkdir. Latın əlifbası artıq bu mərhələni keçmişdir; ərəb əlifbası isə əl yazısına əsaslandığı üçün mətbəə texnologiyasına uyğunlaşa bilmir. Bununla da B.Berdiyevin fikirləri ərəb əlifbasının tərəfdarları olan tatar nümayəndə heyətinin bəzi üzvləri ilə üst-üstə düşmürdü. B.Berdiyev qeyd edir ki, ərəb hərflərinin "quyruqlu" forması əl yazısı üçün əlverişlidir, çünki qələmi qaldırmadan axıcı yazmağa imkan verir. Lakin mətbəə üçün bu quyruqlar artıq və lazımsızdır. İslahatçılar bu quyruqları kəsməklə yazını sadələşdirməyə çalışmışlar. Nəticədə isə yazı öz fərqləndirici xüsusiyyətlərini itirmiş, hərflər bir-birinə bənzəmiş, oxu prosesi isə xüsusi diqqət və zəhmət tələb edən çətin bir işə çevrilmişdir [5,s.91].

İclasda tatarca danışan Hakimov və Habitovun söylədikləri protokola düşmədiyi üçün onların fikirlərini tam bilmirik, lakin növbəti çıxışçı B.Berdiyevin nitqindən Hakimovun ortaq türk ədəbi dili ideyasına qarşı olduğu aydınlaşır. B.Berdiyev özündən əvvəl çıxış edən Nimet Hakimov və Habitovun ortaq türk ədəbi dilinin mümkünsüzlüyü barədə fikirlərinə cavab verir. O, həm elmi, həm də ictimai arqumentlərə əsaslanaraq vahid ədəbi dilin mümkün və zəruri olduğunu müdafiə edir.

"Yoldaş Hakimovun sözləri türkologiya elminə əsaslanmayan ön mülahizələrdir", – deyə çıxışını davam etdirən B.Berdiyev Samoyloviç və B. Çobanzadənin fikirlərinə istinad edərək türk dilləri arasındakı qarşılıqlı münasibətlərin hələ elmi baxımdan tam aydınlaşdırılmadığını bildirir. Buna görə də ortaq ədəbi dilin olub-olmayacağı barədə qəti hökm vermək tezdir. Hər iki iddianın – həm mümkündür, həm də mümkün deyil – elmi yox, emosional xarakter daşıdığı qənaətinə gəlir. F.Köprülüzadənin fikirlərinə də istinad edən B.Berdiyev türk xalqlarının ədəbi dillərinin hələ kifayət qədər tədqiq olunmadığını, bu səbəbdən "mümkünsüzlük" iddiasının da sübutsuz olduğunu vurğulayır. Elmi bilik yoxdursa, elm hələ bir nəticə ortaya qoymayıbsa, bu cür fikirlər yalnız şəxsi ön mülahizə kimi qalacaqdır.

I Ümumittifaq Türkoloji Qurultayda iştirak edən Türkmənistan nümayəndə heyətinin başçısı Bekki Berdiyev özünnü orijinal və özünəməxsus fikirləri, milahizələri ilə qurultayın içinin səmərəli keçməyinə böyük yardım göstərmişdir. Eyni zamanda türkologiya tariximizdə dərin izlər buraxmışdır.

ƏDƏBİYYAT:

1. 1926 Bakû Türkoloji Kongresinin 70. Yıl Dönümü Toplantısı (29–30 Kasım 1996). — Ankara: Türk Dil Kurumu, 1999. — 119 s.
2. 1926 Bakü Türkoloji Kurultayı: Tutanaklar. — Ankara: Türk Dil Kurumu Yayınları, 2008. 486 s.
3. Akalın Ş.H.100.Yılında 100 Soruda Birinci Türkoloji Kurultayı / –Ankara: Erkmen Yayımçılık, 2025,299 s. Birinci Türkoloji Qurultayın Görünən və Görünməyən tərəfləri. Elmi sessiyanın materialları. / Bakı şəhəri, 10 iyun, 2016-cı il.
4. Buran, Ahmet. Kurşunlanan Türkoloji. — Elazığ: Manas Yayıncılık**,** 2007**.** 396 s.
5. Məmmədli, N. Birinci Türkoloji Qurultay Məxfi sənədlərdə/ Xalq qəzeti, 2025.
6. Ашнин, Ф.D.; Алпатов, В.М.; Насилов, Д.М. Репрессированная тюркология. **— Moskva:** Восточная литература (RAN)**,** 2002**.** 296 s.
7. Первый Всесоюзный Тюркологический Съезд: 26 февраля–5 марта 1926 г. (Стенографический отчет). **— Bakı:** "Нагыл еви"**,** 2011**.** 552 s.

Gatiba **MAHMUDOVA**
Azerbaijan National Academy of Sciences
Institute of Linguistics named after Nasimi
Department of Turkic Languages, Chief Researcher
Doctor of Philological Sciences, Associate Professor

ABSTRACT

This article is devoted to the analysis of the scientific and ideological position of Bekki Emir oglu Berdiyev, the head of the Turkmenistan delegation, during the discussions on the new alphabet at the First All-Union Turkological Congress held in Baku in 1926. The Congress represented a crucial stage in the reform of writing systems among Turkic peoples, particularly in relation to the transition to a Latin-based alphabet and the establishment of common phonetic principles.

In his speeches, Berdiyev emphasized the necessity of accurately reflecting the phonetic characteristics of the Turkmen language in the new alphabet. He considered the alphabet reform not merely a technical issue, but also a cultural and national matter closely connected with linguistic identity. Berdiyev argued that the adoption of a Latin-based script would accelerate literacy, facilitate education, and strengthen scientific and cultural integration among Turkic nations.

The article evaluates Berdiyev's views within the broader pan-Turkic context and compares his arguments with those of other Congress participants. The analysis demonstrates that Bekki Berdiyev was one of the most active and principled representatives of Turkmen scholarly thought at the Congress and played a significant role in the scientific justification and promotion of the new alphabet initiative.

Key words: *Bekki Berdiyev, Turkmenistan delegation, New alphabet, Turkological Congress, Latin script, Language reform.*

Гатиба **МАХМУДОВА**
Национальная академия наук Азербайджана
Институт языкознания имени Насими
Отдел тюркских языков, главный научный сотрудник
Доктор филологических наук, доцент

АННОТАЦИЯ

Статья посвящена анализу научной и идеологической позиции Бекки Эмир оглы Бердыева, главы делегации Туркменистана, в ходе обсуждений нового алфавита на I Всесоюзном тюркологическом съезде, состоявшемся в Баку в 1926 году. Съезд стал важнейшим этапом в реформировании письменности тюркских народов, в частности в переходе на латинскую графику и выработке общих фонетических принципов.

В своих выступлениях Бердыев подчеркивал необходимость точного отражения фонетических особенностей туркменского языка в новом алфавите. Он рассматривал алфавитную реформу не только как техническую, но и как культурную и национально значимую проблему, связанную с сохранением языковой идентичности. Ученый обосновывал, что латинская графика будет способствовать ускорению процесса ликвидации неграмотности, развитию образования и укреплению научно-культурных связей между тюркскими народами.

В статье взгляды Бердыева анализируются в общетюркском контексте и сопоставляются с позициями других участников съезда. Делается вывод, что Бекки Бердыев являлся одним из наиболее активных и принципиальных представителей туркменской научной мысли и сыграл важную роль в обосновании идеи нового алфавита.

Ключевые слова: *Бекки Бердыев, делегация Туркменистана, Новый алфавит, Тюркологический съезд, Латинская графика, Языковая реформа.*

Şəbnəm HƏSƏNLİ-QƏRİBOVA*

TEODOR MENZEL VƏ BİRİNCİ TÜRKOLOJİ QURULTAY

XÜLASƏ

1926-cı ildə Bakıda keçirilən Ümumittifaq Türkoloji Qurultayı XIX əsrdən etibarən sürətlənən türkoloji tədqiqatların bir araya gətirilib müzakirə olunduğu ilk böyük elmi toplantıdır. 26 fevral – 6 mart tarixləri arasında keçirilən bu qurultayda müzakirə olunan ən mühüm məsələlər əlifba, terminologiya, türk xalqlarının tarixi, etnoqrafiyası və s. olmuşdur. Türk dilləri üzrə çıxış edən B. Çobanzadə, Samoyloviç, Zifeldt, Poppe və digərləri türkologiyanın XX əsrin ilk rübündə qarşılaşdığı problemləri müzakirə etməklə yanaşı, sonrakı dövr tədqiqatlarına istiqamət verəcək mühüm nəticələr də ortaya qoymuşlar.

Qurultaydan sonra türk xalqlarının tarixi və sosial-siyasi həyatında baş verən dəyişikliklər türk dillərinin tarixinin öyrənilməsinə də birbaşa təsir göstərmişdir. Xüsusilə XX əsrin sonlarında Sovet İttifaqının dağılması ilə əldə olunan müstəqillik prosesi türk xalqlarına öz tarixlərini və dillərini yenidən və fərqli baxış bucağından araşdırmaq imkanı yaratmışdır.

I Türkoloji Qurultayın iştirakçılarından Teodor Menzelin qurultaya verdiyi töhfələr və ümumilikdə türkologiya elminə xidmətləri olduqca diqqətəlayiqdir. Teodor Menzelin XX əsr alman türkologiyasının təmsilçisi kimi I Türkoloji Qurultaya yanaşması, buradakı məruzələr əsasında hazırladığı kitab, onun qurultay və qurultayda müzakirə olunan mövzularla bağlı fəaliyyəti məqalədə araşdırılmışdır.

Açar sözlər: Türk dilləri, Teodor Menzel, I Türkoloji Qurultayı, alman türkoloji məktəbi, dil təsnifatı

1926-cı ildə Bakıda keçirilmiş Ümumittifaq Türkoloji Qurultayı XIX əsrin əvvəllərindən etibarən genişlənən türkoloji tədqiqatları müxtəlif istiqamətlər üzrə bir araya gətirən və türkoloji elmin tarixində ilk böyük miqyaslı elmi toplantı kimi xüsusi əhəmiyyət daşıyan hadisə olmuşdur. "Birinci Türkoloji Qurultay türk xalqları kimi, türkologiyanın da böyük coğrafiyasını bütün genişliyi və zənginliyi ilə əks etdirmişdi. Elmi fikrin və coğrafi mühitin genişliyi bu forumu böyük elm hadisəsinə çevirmişdi. Bu, Böyük Çöl və Bozqır landşaftı və mədəniyyətinin bütövlüyünün elmi-nəzəri əsaslarının bəyannaməsidir. Bu məclisin elmi-nəzəri irsi türk dünyasının dünya türkologiyasına möhtəşəm töhfəsidir. Bu toplantı dünya türkoloji mühitində Azərbaycanın yerini və mövqeyini göstərən şərəfli tarixdir"[4].

Birinci Türkoloji Qurultay türkologiyanin fundamental elm sahəsi olduğunu təsdiqlədi və ciddi bir elm sahəsi kimi türkşünaslığın yeni mərhələsinin əsasını qoydu. Əgər türkologiyanın inkişaf tarixinə nəzər salsaq görərik ki, XVI-XVII əsrlərdə Osmanlı imperiyasını Avropadan uzaq tutmaq üçün osmanlışünaslıq istiqamətində geniş, hərtərəfli eyni zamanda missionerlik xarakteri daşıyan tədqiqatların aparıldığı Avropa Türkologiyası XIX əsrdə Stralenberqdən sonra tədqiqat sahəsini daha da genişləndirmiş,qədim Türk xalqlarının tarixini, mədəniyyətini, dilini, ədəbiyyatını və onların Avropa xalqları ilə tarixi əlaqələrini öyrənməyə başlamışdır. Yəni Avropa türkologiya məktəbinin formalaşmasının əsasını əslində missionerlik və imperializm məqsədləri təşkil edirdi. Türk xalqlarında isə türkologiyanın elm kimi formalaşması türk milliyətçiliyi və milli kimliyin və köklərə sahiblənmənin fonunda formalaşmışdır. Rusiya türkologiyası isə Avropa türkologiyası ilə eyni məqsədləri daşısa da, həm də çarizmin müstəmləkəsi olan xalqlara dərindən bələd olaraq daha rahat idarə etməyə sahib olma məqsədi daşıyırdı.

Türkologiyada XIX əsrin sonu XX əsrin əvvəllərində surətlənən türkoloji tədqiqatlar həm də fərqli tərəflərin bu sahədə öz məqsədlərinə uyğun daha yeni bilikləri əldə etmə yarışının nəticələri idi. Bütün bunlarının baş verərkən ilk dəfə İstanbulda türkçülüyün genişlənməsi fonunda səslənən birgə toplantı çağırışları siyasi vəziyyətin qarışıqlığı ilə təxirə düşmüşdür. Rusiya bu məqamda irəli çıxaraq bütün Türk xalqlarını birləşdirəcək və Türk xalqlarının gələcək taleyinə də təsir edəcək qərarların veriləcəyi qurultayın təşkilinə başladı. Qurultay dil, tarix, etnoqrafiya, incəsənət və ədəbiyyat kimi müxtəlif sahələri əhatə edən

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, fil.e.d., dosent

geniş proqram əsasında təşkil edilmişdir. Bununla yanaşı, Qurultayda türk dillərinin inkişaf səviyyəsi, onların qarşılaşdığı problemlər və bu problemlərin həlli yollarının müəyyənləşdirilməsi xüsusi diqqət mərkəzində olmuşdur.

Lakin bütün bunlar qurultayın görünən üzü idi. Qurultayın 1926-cı ildə hiss olunmayan, lakin Türkologiya tarixini kökündən dəyişən bir də görünməyən üzü var idi. Əgər Qurultaya qədər Türkologiya müxtəlif baxış bucaqları ilə - Avropa , Rus və Türk alimlərinin fərqli maraqlarla tədqiq etdiyi elm sahəsi idisə, Türkoloji Qurultaydan sonra Avropada bu sahədə tədqiqatların sayı nəzərə çarpacaq qədər azaldı. Xüsusilə Danimarka, Almaniya, İsveç, İtaliya, Fransa kimi dövlətlərin bu sahəyə marağı azaldı. Bu həm Avropada türkologiyanın yaranmasına səbəb olan Osmanlı dövlətinin süqutu və yeni Türkiyənin vəziyyəti ilə əlaqədar idisə, həm də I Bakı Qurultayından sonra Sovet hökümətinin dəmir pərdə siyasəti nəticəsində Avropanın bu tədqiqatlardan uzaq tutması idi. Bu qurultaydan sonra türkologiyada Rus-sovet türkoloqlarının nüfuzu artdı və eyni zamanda türk əsilli türkoloqların "nəzarət altındakı" tədqiqatları genişləndi. "Bu qurultayın materialları ilə ilkin tanışlıqdan iki rəngin paralel şəkildə hərəkətinin şahidi olursan. Birincisi, işığı-xeyiri simvollaşdıran ağ rəng, ikincisi isə, qaranlığın-şərin simvolikası olan qırmızı rəngdir. İctimai - siyasi həyatda olduğu kimi Birinci Türkoloji Qurultayda da alim və ziyalı baxışı ilə siyasətçi və imperiya baxışı yalnız görüntü olaraq biri-birini tamamlayır. Ziyalıların imperiyanı və onu idarə edənləri axıra qədər dərk edə bilməmələri və bəlkə də, daha doğru olar deyək ki, böyük türkoloqların "sadə-lövhlükləri" bu alimlərin bolşevik siyasətinin alt qatındakı çirkinlikləri görə bilməyənləri onların soyqırımları ilə nəticələndi. Qurultayda aydın və nümayişkarənə şəkildə görünən türkoloq alimin elmi təfəkküründən doğan və ondan qaynaqlanan humanizmi ilə, maskalanan və görünməz şəkil alan imperiya gücə və zora söykənən idarəçilik "məharətini" nümayiş etdirir" [5,s.14]. Ona görə də, "Birinci Türkoloji Qurultayın həm tarixinin dərindən öyrənilməsi, həm də onun intellektual ənənələrinin davam etdirilməsi olduqca zəruridir" [3,s. 12].

Qurultay dünya türkologiyasında Rus nüfuzunu göstərəcək, həm də birləşdirci qüvvə olduğunu sübut edəcək səciyyədə nəzərdə tutulmuşdu və bununla əlaqədar olaraq dövrün ən məşhur türkoloqları bura dəvət edilmişdi: Almaniyadan Yakob, Menzel, Giese, Banq,Hartman, Danimarkadan Tomsen, İsveçdən Sven Hedin, Finlandiyadan Setala, İtalyadan Boneli, Fransadan J.Deni və s. Lakin bu alimlərin əksəriyyəti müxtəlif bəhanələrlə iştirakdan imtina etmişdilər.

Bu dəvətlilərdən biri də alman şərqşünası və türkoloqu Teodor Menzel idi. Teodor Menzel əslində qurultaya sadəcə dəvətli alim kimi fəaliyyətə başlasa da sonradan qurultayın bütün gizli məqamlarını alman müşahidəçiliyi ilə sezən, təşkilatçılarla yaxından əlaqələr quraraq prosesi yaxından izləyən və alman türkologiyasının maraqlarına uyğun şəkildə hərəkət edən bir şərqşünas kimi diqqəti cəlb edir. Təsadüfi deyil ki, qurultaydan sonra qurultayla bağlı bütün materialları- stenoqrammanı, Yeni Yol, Bakraboçiy və Kommunist qəzetlərinin saylarını, Tədqiq Tətəbbö Cəmiyyətinin qurultayla bağlı yayımlanmış İzvestiya jurnalının 4 sayını şəxsən Səməd Ağamalıoğlundan əldə edən Menzel öz qeydlərini də əlavə edərək Türkoloji qurultay barədə ilk genişhəcmli " 1926 Bakı I Türkoloji qurultayı" adlı kitabını yazmışdır. Qeyd etmək lazımdır ki, bu kitab qurultayla bağlı əksər faktları dəqiqləşdirmək, məruzələr və məruzəçilər haqqında geniş təəsürat oyandırmaq baxımından əhəmiyyətlidir.

Menzel Alman türkoloji məktəbinin inkişafında mühüm rol oynamış, Fridrix Jize ilə birlikdə Hammer Purqştaldan sonra Avropa Türkologiya elminin inkişafına ciddi töhfə vermiş alim kimi tanınmışdır. Menzelin həm Odessada işləməsi, həm də Türkiyə ilə sıx əlaqələri onun Rus və Türkiyəli türkoloqlar arasında əlaqə qurması baxımından olduqca mühüm idi. Bu baxımdan Menzelin I Bakı Türkoloji qurultayı barədə fikirləri olduqca önəmlidir. Menzelin I Bakı Türkoloji Qurultayında fəaliyyəti müxtəlif aspektlərdən təhlil edilməlidir:

Birincisi, T.Menzel Qurultayın yanvar ayındakı təşkilati iclasında iştirak edərək bütün proqramın tərtibində iştirak etmiş, bölmələr, bölmələrdəki çıxışçılar, reqlamentin müəyyənləşdirilməsi məsələlərində söz sahibi olmuşdur. Menzelin qurultay iştirakçıları barədə verdiyi məlumatlardan məlum olur ki, məruzəçilərdən 92-i türk əsilli idi. Qurultayın etnoloji mənzərəsini çəkən Menzel yazır ki, İşritakçılar arasında ən saf monqol və samoyed tipindən tutunda Hind-Avropa Qafqaz tipinə qədər aralıq pillələri ilə bütün irqlərin təmsil olunması diqqətçəkicidir"[6]

Eyni zamanda elə hazırlıq mərhələsində Latın əlifbasına müsbət yanaşmanın olmadığını izləmiş və əslində qurultaya qatılmaq fikri olmayan Türklərə vəziyyəti çatdıraraq 2 nəfərin Türkiyədən qatılmasına şərait yaratmışdır. Halbuki, bundan öncə təşkilatçılar Türkiyədən Köprülüzadə və Ə. Hüseynzadədən başqa Necip Asım, Fuat Raif, Sami Rıfat ve Mecit Sultana da dəvətnamə göndərmiş, lakin onlar imtina etmişdilər. Hazırlıq iclasında gələn məruzələrdə Latın əlifbasının qəbuluna meylin az olması, ancaq Azərbaycanlılar və öz dillərinə uyğunlaşdırmaq şərtilə türkmənlərin bunu dəstəkləməsi Menzelə görə İstanbuldakı dəvətlilərində iştirakına səbəb oldu.

İkincisi T.Menzel Qurultayda məruzəçi kimi iştirak etmiş və müxtəlif bölmələrdə söz sahibi olmuşdu. Xüsusilə, əlifba məsələsinin müzakirəsində olduqca aktiv fikir sahibi olmuşdur. Hələ qurultaydan qabaq, Odessada çalışarkən türk xalqlarının latın əlifbasına keçidi barədə fikirlər səsləndirən Menzel bu məsələdə öz müəllimi Fridrix Yakobun fikirlərini davam etdirirdi. Qurultayda da Əlifba məsələsi barədə fikirlərini bildirən hətta bu barədə Kommunist qəzetinin 6 mart tarixində müsahibə belə vermişdir:" Latın əlifbasının qəbulu zənnimcə türklərin daha sürətli tərəqqisinə yardım edəcəkdir. Əgər bu yeni əlifba indiyə qədər ərəb əlifbasının təmin etdiyi ədəbi dil birliyini eyni şəkildə təmin edə biləcəksə, indi növbə Anadolu türklərinindir. Onların bu məsələdə iştirak edib etməyəcəkləri olduqca əhəmiyyətlidir." [6, s.120].

Menzel latın əlifbasına keçidlə bağlı müzakirələr zamanı ən dramatik səhnələrin şahidi olmuş, "ənənəçilər" (ərəb əlifbasını qorumaq istəyənlər) ilə "islahatçılar" (Sovet rəhbərliyi tərəfindən dəstəklənənlər) arasında gərgin mübahisələri qeyd etmişdir. O, latın əlifbasına qarşı çıxanlara psixoloji təzyiqlərin göstərildiyini müşahidə etmişdir. Menzel yazır ki, "Azərbaycan kimi sosial cəhətdən inkişaf etmiş xalqlar, qırğızlar, türkmənlər və şimal Qafqazdakı geridə qalmış xalqlar eyni mövqedə idi. Ancaq Özbək, Kazanlılar və tatarlar kimi mədəni cəhətdən aralıq mövqe tutan xalqlar rəddedici mövqe tuturdular. (6,s. 102). Onun fikrincə, Türkiyədən gələn nümayəndə heyəti əvvəlcə ehtiyatlı mövqe tutmuş və bu, sovet təşkilatçılarını narazı salmışdır.

Əlifba məsələsi Menzelin xüsusi diqqətində idi və kitabında bu barədə olduqca geniş şərhlər verərək yeniliyi dəstəkləmişdir. Menzelə görə "sadəcə samitləri göstərən ərəb əlifbası semitik ərəb dilinin samit hərflərdən ibarət quruluşunun ağırlığına münasibdir. Lakin Türk dillərinə hakim sait ahəngi qanunauyğunluqlarına və qəlibləşmiş vokalik xüsusiyyətinə görə Türk dilləri üçün ən uyğunsuz əlifba ərəb əlifbasıdır. [6,s.95]. O, müzakirəyə çıxarılan əlifba layihələri barədə məlumat verir və məlum olur ki, 1924-1925- ci illərdə əksər türk xalqlarında yeni əlifba layihələri hazırlanmışdı. 1924-cü ildə Başqırd Komitəsinin yeni türk əlifbası və Nevşirvanovun layihəsi, tatarlar üçün Latyn Dust" layihəsi", Osmanlıca üçün Tahsin Ömərin layihəsi, Karaçayca Əliyevin layihəsi, 1925-ci ildə balkarlar üçün N. Ulbaşevin əlifbası, qaraqırğızlar üçün Tınıstanovun əlifbası, kazanlılar üçün Türyakulovun əlifbası, yakutlar üçün Baraxovun əlifbası, 1919-cu ildə Əfəndizadənin [1], 1922-ci il M.Şaxtaxtinski və Mir Əbdüləziz Seyidovun əlifbaları qurultay prosesində sərgilənmiş və müzakirələr zamanı təhlil edilmişlərdi. Lakin qurultayda Menzelin bu məsələyə münasibəti ikili xarakter daşıyır. Bütün ön hazırlıq iclaslarında və müzakirələrdə latın əlifbasını dəstəkləyən Menzel əlifba dəyişikliyi vaxtı səsvermədə iştirak etməmişdir. Yalnız o yox, Avropadan qatılan və qeyri- türk olan alimlər,- bu türk xalqlarının öz daxili işidir,- deyərək əlifbanın müqəddaratını həll etməyi türklərin öhdəsinə buraxmışdılar. Lakin Menzel səsvermədə sovet rejiminin təzyiqinin açıqca hiss olunduğunu qeyd edirdi: "Dürüst olsaq, türk xalqlarının dözülməz və ancaq onlar kimi qismətdir deyərək səbrlə dözənlər tərəfindən uzun zaman istifadə edilmiş ərəb əlifbası qandallarından qurtuluşu və latın əlifbasının qəbulu məsələsi prinsipdə həqiqətən ən yaxşı halda həll edilmişdi". Qurultay, bütün başqa məsələlərdə olduğu kibi, burada da əsas olaraq türk dilinin təbiət və mahiyyətini almış və bu nöqteyinəzərdən yürüdülən uzundan-uzun, müfəssəldən-müfəssəl münaqişə və çıxışlar nə əski, nə də islah olunmuş hərflərinin türk dilinə yaramayacağını bütün qurultaya göstərmiş və bu surətlə ərəb əlifbası tərəfdarı olub gələnlərdən bir çoxu da latın əsasını qəbul etmək cəhətinə rəy vermişlərdir. Türk dillərinin bütün səslərini qeyd və bütün şəkli xüsusiyyətlərini işarət edə biləcək bir əlifba varsa, o da, heç şübhəsiz, latın əsasında yapılacaq ümumi türk əlifbasıdır"[3,s.202]. Səsvermə nəticəsinə Menzelin münasibəti isə olduqca diqqətçəkicidir. "Beləcə 5 iclası əhatə edən əlifba məsələsi ən modernist mənada həll edilmişdir. Bu ancaq zamanın axışına təsir göstərəcək tarixi qərardır. Bu kütlələrin mədəni inkişafı, şovinizmə çevriləcək milli duyğunun təşviqi, panislamist ideyaların kəsilib atılması deməkdir. İslam türklər olmadan ayaqda qala

bilməzdi. Onlar onu dünyaya yaydılar, ona qarşı təhdidlərin qarşısını aldılar. Müasir Türklüyün İslamsız ola biləcəyini isə gələcək göstərəcək" [6, s.119]. Əslində bu bir neçə cümləlik fikirdə bir neçə sətiraltı məna özünü göstərir: Türk- İslam birliyinin dağılması, onun nəticəsi olaraq islamın çöküşünün gözlənilməsi, Türklüyün isə islamsız mövcud olub- ola bilməyəcəyinin isə zamanın öhdəsinə buraxılması.

T.Menzelin qurultayda əsas məruzəsi isə Türk xalqlarının ədəbiyyatı və bu ədəbiyyat üzərində Türk ədəbi dilinin inkişafı məsələsi idi. "Anadolu-balkan türklərinin ədəbiyyatının araşdırılmasının nəticələri və perespektivləri" barədə məruzə ilə çıxış edərək bildirdi ki, bəşər tarixinə qədəm qoyduqları andan türk xalqları heç vaxt öz mədəniyyətlərinin mərkəzində dayanmayıblar. Əhatəsində olduqları çin, hind, islam-fars, bizans mədəniyyətləri onları özlərinə tabe dir və üzrələrinə öz izlərini qoyurdular" [7,s. 322]. Müəllif bu təsirin o qədər dərin kökləri olduğunu, hətta əsərinə elmi və bədii önəm daşımaq istəyən türklərin əsərlərini başqa dillərdə – ərəb və fars dillərində yazdığını xüsusilə vurğulayırdı. Müəllif türk dilində klassik üslub adlı suni ədəbiyyatın dilinin yaranmasına meyli tənqid edir və qeyd edir ki, ədəbiyyatın dili, ədəbi dil həyatı hadisələrin yazılı və şifahi şəkildə ötürülmüş toplusundan ibarətdir. Odur ki, bu ədəbiyyatda kitabələr, xalq nəğmələri, nağıllar və atalar sözləri, tapmacalar, dram əsərləri və hər cür nəzm əsərləri, həmçinin mühüm qəzet yazıları elə suni poeziya qədər yer tutur. Menzelin bu məqamda alman və türk ədəbiyyatlarını qarşılaşdırması maqraq doğurur: Almaniya üçün Hötenin etdiklərindən fərqli olaraq, türk şairləri öz dövrlərinin qurucuları yox, daha çox təfsirçiləri idilər" [7,s. 328]. Çıxışında türkologiyanın vəziyyətindən də szö açan Menzel Vasili Vasilyeviç Radlovun türkologiyanın inkişafındakı xidmətlərini yüksək qiymətləndirir, onu türkologiya elminin banisi adlandırır və deyirdi ki, Orxan yazılarının oxunması Tomsenin adı ilə bağlı olsa da, bütövlükdə türkologiya Radlovun əsərlərinə əsaslanır, ona görə də Radlovsuz türkologiyanın bir çox nailiyyətləri mümkünsüz olardı. Çıxışının sonunda məruzəçi türkoloqların qarşısındaduran vəziffələri belə qurplaşdırmışdı:

a. Qədim, önəmli, yalnız əlyazma şəklində qalan əsərlərin tədqiqi və çapı (hansısa komissiyaların imkanları ilə);

b. Bu günə qədər hər yerə səpələnmiş materiallar və sənədlərin, o cümlədən bütün türk qəzet və jurnalların toplanması;

c. Ən önəmli monoqrafiyaların nəşri (bu, bütün dövrün həqiqi təsvirini verərdi).

Beləliklə, 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türkoloji elmin inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı olmuş, bu sahəni müxtəlif elmi istiqamətlər üzrə sistemləşdirərək vahid elmi müstəviyə gətirmişdir. Qurultay türkologiyanın müstəqil və fundamental elm sahəsi kimi formalaşmasını təsdiqləmiş, onun metodoloji əsaslarını müəyyən etmiş və gələcək inkişaf trayektoriyasını istiqamətləndir-mişdir. Qurultayın əhəmiyyəti yalnız elmi nəticələri ilə məhdudlaşmır; o, eyni zamanda, müxtəlif ideoloji və siyasi maraqların toqquşduğu bir platforma kimi də çıxış etmişdir. Bu baxımdan qurultay həm elmi inteqrasiyanın, həm də ideoloji təsirlərin paralel şəkildə mövcud olduğu mürəkkəb bir hadisə kimi qiymətləndirilməlidir.

Bu mürəkkəbliyi daha aydın şəkildə anlamaq üçün alman şərqşünası və türkoloq Theodor Menzelin fəaliyyəti və müşahidələri xüsusi əhəmiyyət kəsb edir. Menzel qurultayın yalnız iştirakçısı deyil, həm də onun elmi və siyasi məzmununu dərindən analiz edən tədqiqatçı kimi çıxış etmişdir. Onun topladığı materiallar və elmi qeydləri qurultayın obyektiv qiymətləndirilməsi üçün mühüm mənbə rolunu oynayır.

Menzel türk ədəbiyyatının formalaşmasında xarici mədəni təsirlərin rolunu göstərməklə yanaşı, ədəbi dilin yalnız klassik yazılı ənənə ilə deyil, həm də xalq yaradıcılığı ilə bağlı şəkildə inkişaf etdiyini vurğulamışdır. Bu yanaşma türk ədəbiyyatının daha geniş, funksional və çoxqatlı şəkildə öyrənilməsinin vacibliyini ortaya qoymuşdur. Beləliklə, Menzelin çıxışı və ümumilikdə fəaliyyəti I Türkoloji Qurultayın yalnız dil və əlifba məsələləri ilə məhdudlaşmadığını, onun ədəbiyyat, mədəniyyət və elmi metodologiya baxımından da dərin məzmun daşıdığını sübut edir.

Nəticə etibarilə, I Türkoloji Qurultay türkoloji elmin inkişafında fundamental mərhələ olmaqla yanaşı, onun elmi-nəzəri irsinin öyrənilməsi və davam etdirilməsi bu gün də aktyal olaraq qalır. Bu prosesdə isə Theodor Menzel-in müşahidələri və elmi irsi xüsusi əhəmiyyətə malikdir və müasir tədqiqatlar üçün mühüm istinad mənbəyi kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Azaqbeyli Efendizade A.(2018). Son türk alfabesi. “Elm və təhsil” Bakı, 2018, 144 s.
2. Cəfərov N.Ön söz/ C.Qasımov I türkoloji qurultay: Şahidlər və Şəhidlər. Bakı, 2019,s.9-13.
3. Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 202.
4. Həbibbəyli İ.. Türkologiya elminin böyük təməli və müasir dövr (Birinci Türkoloji Qurultay – 90), “Xalq qəzeti”, 23 noyabr, 2016. № 259.
5. Qasımov.C. Birinci Türkoloji qurultay: Şahidlər və Şəhidlər. Bakı, 2019,748 s.
1. Menzel. T.1926 Bakü Türkoloji kurultayı. /çev. S.Ünlü.,
2. Nərimanoğlu K., Ağakişiyev Ə. 1926- cı il I Bakı Türkoloji Qurultayı. Bakı, çinar- Çap, 2006,571 s.

THEODOR MENZEL AND THE FIRST ALL-UNION TURKOLOGICAL CONGRESS

ABSTRACT

The First All-Union Turkological Congress held in Baku in 1926 is considered the first major scientific meeting where Turkological studies, which had been gaining momentum since the 19th century, were brought together and discussed. At this congress, held between February 26 and March 6, the most important issues discussed included the alphabet, terminology, the history of Turkic peoples, ethnography, and others. Scholars such as B. Chobanzade, Samoylovich, Zifeldt, Poppe, and others, who presented on Turkic languages, not only discussed the problems faced by Turkology in the first quarter of the 20th century but also put forward important conclusions that would guide future research.

The changes that occurred in the historical and socio-political life of Turkic peoples after the Congress had a direct impact on the study of the history of Turkic languages. Especially in the late 20th century, the independence process that followed the collapse of the Soviet Union provided Turkic peoples with the opportunity to re-examine their history and languages from new and different perspectives.

Among the participants of the First Turkological Congress, the contributions of Theodor Menzel to the Congress and his overall services to Turkology are particularly noteworthy. As a representative of 20th-century German Turkology, Menzel’s approach to the First Turkological Congress, the book he prepared based on the reports presented there, and his activities related to the Congress and the topics discussed are examined in this article.

Keywords: Turkic languages, Theodor Menzel, First Turkological Congress, German school of Turkology, language classification

ТЕОДОР МЕНЦЕЛЬ И ПЕРВЫЙ ВСЕСОЮЗНЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД

АННОТАЦИЯ

Первый Всесоюзный тюркологический съезд, состоявшийся в Баку в 1926 году, рассматривается как первое крупное научное мероприятие, объединившее и систематизировавшее тюркологические исследования, активно развивавшиеся с XIX века. В ходе съезда, проходившего с 26 февраля по 6 марта, были обсуждены ключевые вопросы, такие как реформа алфавита, терминология, история тюркских народов, этнография и классификация языков. Выдающиеся учёные, такие как Б. Чобанзаде, Самойлович, Зифельдт, Поппе и другие, не только рассмотрели основные проблемы тюркологии первой четверти XX века, но и заложили основу для дальнейших научных исследований.

Социально-политические изменения, произошедшие после съезда, оказали существенное влияние на изучение тюркских языков и их исторического развития. В частности, распад Советского Союза в конце XX века и последовавший процесс обретения независимости тюркскими республиками позволили исследователям по-новому, с различных методологических и идеологических позиций, осмыслить историю и языки тюркских народов.

Среди участников съезда особое место занимает Теодор Менцель, внесший значительный вклад в развитие европейской, в частности немецкой, тюркологии. Как представитель немецкой тюркологической школы XX века, Мензель в своих работах, основанных на материалах съезда, сыграл важную роль в распространении его научных результатов в Европе. В данной статье

рассматриваются вклад Менцеля в съезд, его научная интерпретация представленных докладов, а также его общее значение для развития тюркологических исследований.

Ключевые слова: *тюркские языки, Теодор Менцель, Первый Всесоюзный тюркологический съезд, немецкая тюркологическая школа, классификация языков*

Qətibə QULİYEVA*

I TÜRKOLOJİ QURULTAYDA TÜRK DİLLƏRİNİN TARİXİ VƏ QƏDİM YAZILI ABİDƏLƏRİN TƏDQİQİNƏ ELMİ-METODOLOJİ YANAŞMA

XÜLASƏ

Birinci Türkoloji Qurultay türk xalqlarının tarixi, dili və mədəniyyətinin elmi əsaslarla öyrənilməsi istiqamətində yeni mərhələnin başlanğıcı olmuşdur. Qurultay türkoloji elmin o dövrdəki vəziyyətini kompleks şəkildə dəyərləndirərək həm tarixi-linqvistik, həm də mədəni-etnoqrafik, həm də arxeoloji-epiqrafik problemlərin sistemli şəkildə müzakirəyə çıxarılmasını təmin etmiş, gələcəyəyönəlik istiqamətlərin müəyyənləşməsində rol oynamışdır. Bu istiqamətlərin tədqiqinə dair təqdim olunan məruzələrdə türkologiyanın keçmişi, dövrün mövcud elmi uğurları və gələcək inkişaf perspektivləri ümumtürk baxış bucağından şərhi və metdoloji təhlili yer almışdır. Xüsusən ədəbi dil, qədim yazılı abidələri, epiqrafik və arxeoloji irs, sosiokulturoloji məqamlar əsas istiqamətlər kimi məruzələrin ana xəttini təşkil etmişdir.

Ədəbi dil, yazılı mədəniyyət və ədəbiyyat tarixi, tarix və mədəni-coğrafi landşaft kimi məsələlər qurultayda türk xalqlarının mədəni inkişafının göstəricisi kimi dəyərləndirilmiş, böyük bir coğrafiyanı əhatə edən türk ədəbiyyatının formalaşması və inkişaf prosesi müzakirə olunmuşdur. Eyni zamanda etnoqrafiya, epiqrafika, maddi və mənəvi mədəniyyətin, tariximizin öyrənilməsi türk xalqlarının həyat tərzinin, sosial strukturunun və milli-mədəni kimliyinin elmi müstəvidə tədqiqinə yeni konsepsiyanın yaranmasını sürətləndirmişdir. Qurultay çərçivəsində qədim türk dilinin və yazılı abidələrin tədqiqi xüsusi yer tutmuşdur. S.E. Malovun rəhbərlik etdiyi bu istiqamətdə Orxon–Yenisey, qədim uyğur və digər erkən dövr türk yazılı mənbələrinin dil, qrafika və tarixi baxımdan araşdırılması türkologiyanın əsas prioritetlərindən biri kimi müəyyən edilmişdir. Bu tədqiqatlar türk dillərinin tarixi inkişaf mərhələlərinin müəyyənləşməsinə, onların genetik əlaqələrinin aydınlaşdırılmasına yeni metodoloji yanaşmaları tətbiq etməyə zəmin yaratmışdır. Qurultayın mühüm istiqamətlərindən biri də türk dilinin tədrisi və metodikası problemləri olmuşdur. Ana dilinin tədris metodlarının müasirləşdirilməsi, dil siyasətinin dövrün ümumi sosial-mədəni ruhuna uyğun olaraq və elmi prinsiplər əsasında təşkili məsələləri məruzələrdə irəli sürülən əsas fikirlərdən oolmuş, bu nüans türkologiyanın praktiki olaraq bütün təhsil və mədəniyyət sistemində tətbiqini zəruri etmişdir.

Hadisələrin inkişafı göstərdi ki, bu xüsusları qabardan Birinci Türkoloji Qurultay türkologiyanın sistemli bir şəkildə formalaşmasına, yeni türkoloji istiqamətlərin və elmi-metdooloji yanaşmaların yaranmasına, bu kontekstdə türk dünyasında elmi inteqrasiyanın təməlininin qoyulmasına rəvac vermişdir.

Açar sözlər: *Türkoloji Qurultay, Türk dilləri, türkologiya, Orxon-Yenisey, Qədim uyğur.*

I Türkoloji Qurultayın tarixi-siyasi və elmi konteksti. XX əsrin əvvəlləri türk xalqlarının tarixində dərin ictimai-siyasi təbəddülatlar, elmi-intellektual dəyişkənliklər və mədəni-mənəvi transformasiyalar dövrü kimi xarakterizə olunur. Beynəlxalq vəziyyətin qarışıqlığı, Rusiya imperiyasının süqutu, onun davamında ruhən imperialist xarakterli, formal olaraq sosialist görünümlü Sovet hakimiyyətinin qurulması böyük bir mədəni-siyasi coğrafiyada türk xalqlarının milli kimlik, dil və mədəniyyət məsələlərini fərqli bir müstəvidə daha da aktuallaşdırmışdı. Belə bir mühitdə türk-müsəlman xalqlarının mədəni-tarixi irsi yalnız

* AMEA Nəsimi adına Dilçilik İnstitutu Türk dilləri şöbəsi, filologiya elmləri doktoru, dosent. Email: gatibevagifkizi@yahoo.com

filoloji bir sahə kimi deyil, həm də milli özünüdərk və sistemlışmiş, təşkilatlanmış inteqrativ vasitə kimi çıxış edirdi. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay bu baxımdan türk dünyasının mədəni, siyasi, ictimai tarixində yeni bir etap hesab oluna bilər. Çünki Qurultay ilk dəfə olaraq müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarının nümayəndələrini, dilçi, tarixçi, etnoqraf, sənətşünas, arxeoloq, ədəbiyyatşünas, maarifçi ziyalıları, türklərin qədim və müasir tarixi, mədəniyyəti, dili ilə məşğul olan mütəxəssisləri vahid platformada birləşdirmiş, həmin dövr üçün çox aktual olan bir çox elmi-nəzəri, konseptual məsələləri ortaq elmi müstəviyə çıxarmağa, ortaq elmi mühitin formalaşmasına şərait yaratmışdır. *"1926-cı il fevral ayının 26-da başlayıb 6 martda sona çatan bu qurultayda Azərbaycan nümayəndələrindən başqa keçmiş Sovet İttifaqı və dünyanın bir neçə ölkəsindən – Türkiyə, İran, Rusiya, Avstriya, Macarıstan və Almaniyadan dəvət olunmuş … məşhur türkoloqlar da iştirak edirdi"* [1].

Qurultayın keçirilməsi üçün Bakı şəhərinin seçilməsi təsadüfi deyildi. Bakı həm coğrafi, həm də mədəni baxımdan Türk dünyasının kəsişmə nöqtəsində yerləşir, eyni zamanda XX əsrin əvvəllərində Qafqazın əsas elmi-ideoloji, intellektual bazalarından biri kimi artıq regionun mərkəzinə çevrilmişdi. XX əsrin əvvəllərində Azərbaycandakı yenilənmə hərəkatı, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti, 1920-ci ildən sonrakı inqilabi və ideoloji düşüncələr, eyni zamanda 1923-cü ildə yaranan Azərbaycanın Tədqiqi və Tətəbbö Cəmiyyətinin ortaya qoyduğu işlər Azərbaycan ziyalılarının fəaliyyət və nüfuz spektrinin əksi idi. Bu çoxşaxəli və çoxspektrli mənzərə göstərir ki, Azərbaycanın ziyalılarının, aydın fikirli övladlarının elmin müxtəlif sahələrinə dair tədqiqləri, fikir və mülahizələri, milli-ideoloji irsi elmin milli və inteqrativ mahiyyətini təyin edirdi. Və bu mahiyyət Birinci Türkoloji Qurultayın Bakıda keçirilməsini həm labüd edir, həm də mənəvi haqq qazandırırdı. Düzdür, regionda Türkiyə kimi böyük qüvvə var idi: həm mədəni-mənəvi cəhətdən, həm də elə güc cəhətdən. Lakin Sovet İttifaqının gələcəkdə atacağı addımlar üçün, öz siyasi manevrləri üçün Türkiyə yox, Azərbaycan əlverişli idi. Ona görə də Şərq Xalqları Qurultayının keçirildiyi Bakını, həm də Türkoloji elmin ən mötəbər kürsüyə daşındığı mərkəzə çevirmək bir oyun və bunun müqabilində xalqımız, vətənimiz üçün böyük milli-mənəvi təhlükə olsa da, ictimai-siyasi cəhətdən əvvəlcədən düşünülümüş bir məqsəd idi. Qurultayın keçirilməsi ilə bağlı tarixi şəraitin mənzərəsini verən N.Məmmədli bu tarixi hadisə ilə bağlı pərdəarxasında baş verənləri belə şərh edir: "*1925-ci il sentyabrın 15-də Moskvada SSRİ şərqşünaslarının iclasında bütün türkoloqların iştirakı ilə ümumittifaq qurultay çağırılması qərara alındı. Gündəliyin əsas mövzularından biri türkdilli xalqların ərəb qrafikasından latın qrafikasına keçidi idi. İclasa Azərbaycan MİK sədri S.Ağamalıoğlu rəhbərlik edirdi. Qərara əsasən, qurultayın təşkili Moskvada SSRİ Şərqşünaslıq Elmi Assosiasiyasına, Bakıda isə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə tapşırıldı. Azərbaycanın təşəbbüsü nəticəsində qurultaya SSRİ-dəki bütün türkdilli xalqların tanınmış ziyalıları, eləcə də Türkiyə, İran, Almaniya, Macarıstan, Avstriya və digər ölkələrdən tanınmış türkoloqlar dəvət edildi"* [8,s.2025]. Qurultayın keçiriləcəyi Bakı şəhəri o dövrdə türkoloji araşdırmalar üçün əlverişli mərkəz idi. Azərbaycanın tarixi və mədəni zənginliyi, ölkə ziyalılarının elmi səviyyəsi və təhsilin digər türk-müsəlman ölkələrinə nisbətən inkişafı, həmçinin Sovet ittifaqının bu coğrafiyadakı türk xalqlarına yönələn xüsusi imperialist siyasəti Bakını mühüm **elmi tədbir üçün ən uyğun, ən optimal yer** olaraq qəbul etməyə sövq edirdi.

Ümumiyyətlə, 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının tarixi, dili və mədəniyyətinin öyrənilməsi sahəsində mövcud elmi-nəzəri, sosial-mədəni vəziyyəti ümumiləşdirən, xüsusən də türkoloji tədqiqatların gələcək inkişaf perspektivlərini, istiqamətlərini müəyyənləşdirən fundamental mədəni-ictimai, eyni zamanda elmi əhəmiyyəti olan bir hadisədir. Hansı səbəblərdən və siyasi addımlardan olur olsun, xüsusilə vurğulanmalı məqamlardan biri odur ki, "*Birinci Türkoloji Qurultayın əsas məqsədlərindən biri türk dillərinin tarixinin və müasir vəziyyətinin öyrənilməsi üçün müqayisəli elmi tədqiqatlar aparmaq və türk xalqlarının mədəni inteqrasiyasını təmin etmək idi*" [4, s. 193].

I Türkoloji Qurultayda təqdim edilən məruzələri nəzərdən keçdirdikdə aydın olur ki, qurultay təkcə türkologiya elminin yalnız faktoloji-interperativ bazasını deyil, həm də metodoloji və konseptual əsaslarını formalaşdıran mühüm elmi tədbirdir. Proqram Qurultayın regional və beynəlxalq səviyyəsini ortaya qoymaqla bərabər, problematik məsələlərin gündəmə çıxarılması da tədbirin nə qədər ciddi olduğuna sübutdur. I Türkoloji Qurultayın elmi konseptindən bəhs edən akademik İ.Həbibbəyli yazır: *"Türkoloji Qurultayda dinlənilən məruzələr elmi cəhətdən yüksək nəzəri səviyyəsi və aktuallığı ilə səciyyələnir.*

Məruzələrin heç birində kəskin millətçi, şovinist baxışlara yol verilməmişdir. Lakin məruzələrdə ortaq köklərə malik olan elmi-mədəni inteqrasiya baxımından qohum xalqların vahid amallı dərin milli-mənəvi dəyərləri əks etdirilmişdir [5,I h., s.10]. BirinciTürkoloji Qurultayın tarixi mənzərəsinin əksi ilə bağlı Ə.Şamil yazır: "*1926-cı ilin fevralın 26-dan martın 6-dək Bakıda keçirilən Birinci Türkoloji Qurultaydan yüz il ötür. İstər qurultay günlərində, istərsə də sonrakı illərdə yalnız Azərbaycanda deyil, keçmiş Sovetlər Birliyində, Türkiyədə, İranda və başqa ölkələrdə mövzu ilə bağlı yüzlərlə məqalə, onlarca kitab çap olunmuşdur*" [9, s. 1]. Qurultayın təşkili, keçirilməsi ilə bağlı təşəbbüslər, yeri və məzmunu ilə bağlı bir çox tədqiqatlar aparılsa da, qurultayın gedişi, proqramı və özündən sonrakı təsirləri göstərir ki, bu araşdırmalar kifayət etmir.

Ümumiyyətlə, "*1926-cı ilin 26 fevralından mart ayının 6-na kimi davam edən və on yeddi iclası keçirilən qurultayda mandat komissiyasının üzvü Məmmədzadənin bildirdiyi kimi, 93-ü türk və 38-i başqa millətlərin təmsilçisi olaraq 131 nəfər nümayəndə iştirak edirdi"* [10, 2021].

Qurultay proqramında bir çox məsələlər elmi-nəzəri müstəviyə çıxarılmış, türk xalqlarının tarixinin tədqiqinə dair metodoloji problemlər və konseptual yanaşmalar xüsusi yer tutmuşdur. Proqramdan aydın görünür ki, I Türkoloji Qurultayın elmi-ictimai mühiti multidissiplinar və interdissiplinar xarakter daşımışdır: iştirakçılar yalnız dilçilər və tarixçilərdən ibarət deyildi, qurultayda eyni zamanda kifayət qədər etnoqraflar, ədəbiyyatşünaslar, mədəniyyət tarixçiləri və əlifba məsələləri üzrə mütəxəssislər də iştirak edirdi. Bu, türkoloji elmin **tarix, dil və mədəniyyət aspektlərinin kompleks şəkildə öyrənilməsinə** imkan yaratmışdır. Qurultayda edilən məruzələrdə türkoloji məsələlər xüsusi olaraq aşağıdakı problemləri əhatə edirdi:

1. Əlifba və orfoqrafiya-imla məsələləri;
2. Türk ədəbi dilləri və terminologiya məsələləri;
3. Türk dillərinin tədrisi və metodologiyası məsələləri;
4. Türk mədəniyyəti və ölkəşünaslıq məsələləri;
5. Türk dillərinin tarixi və qədim türk yazılı abidələrinin tədqiqi məsələləri;
6. Ulu dil və kök dil nəzəriyyəsi: qohum və qohum olmayan dil əlaqələri məsələləri.

Qeyd edək ki, ümumi olaraq bu mövzuları əhatə edən qiymətli məruzələr demək olar ki, bütünlüklə müzakirə obyekti oldu, nəticə olaraq əsas məsələlər üzrə komissiyalar tərəfindən tərtib olunan, redaktə edilən qətnamə və qərarlar qəbul olundu.

Qədim türk dillərinin və yazılı abidələrin tədqiqi məsələsi. Qurultayda diqqətçəkən məsələlərdən biri türk dillərinin tarixi və qədim türk yazılı abidələrinin tədqiqi məsələsi olmuşdur. V. V. Bartoldun *"Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri"* adlı məruzəsində türk xalqlarının tarixinin tədqiqinin metodologiya və prinsiplərini ortaya qoymuşdur. Türk xalqlarının tarixinin tədqiqi sahəsində ümumi vəziyyət və yaxın perspektivlər V.V.Bartoldun məruzəsində fundamental şəkildə təhlil edilmişdir. V.V.Bartold türk tarixinin ideoloji təsirlərdən kənar, obyektiv və elmi metodlar əsasında araşdırılmasını türkoloji elmin prioritet vəzifəsi kimi göstərmişdir. Alim türk tarixinin öyrənilməsində mənbəşünaslıq problemlərinə xüsusi diqqət yetirərək, yazılı mənbələrin tənqidi təhlilinin, regionlar üzrə tarixi proseslərin fərqləndirilməsinin və türk tarixinin ümumdünya tarixi kontekstində dəyərləndirilməsinin vacibliyini vurğulamışdır. Alimin fikrincə, türk xalqlarının tarixinin elmi rekonstruksiyası məsələsində fanatik və ya ideoloji yanaşmalara deyil, ciddi elmi metodologiyaya söykənilməlidir [Stenoqram, 2006].

Türkoloji tədqiqatlarda kompleks və interdisiplinar yanaşma S.F.Oldenburqun *"Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları"* adlı məruzəsində metodoloji prinsip əks olunmuşdur. Tarixi tədqiqatlarla yanaşı, ölkəşünaslıq və regional araşdırmaların metodoloji əsasları S.F.Oldenburqun məruzəsində əhatəli şəkildə təqdim olunmuşdur. Alim türk xalqlarının tarixinin yalnız siyasi hadisələr prizmasından deyil, tarix, dilçilik, etnoqrafiya və kulturologiyanın qarşılıqlı əlaqəsində öyrənilməsinin türk xalqlarının tarixi və mədəni irsinin düzgün təsviri üçün vacib olduğunu vurğulamışdır. Bu konseptual çərçivə türkologiyanın yeni metodlarla inkişafını təmin edən prinsiplərin məcmusudur. Alimin bu interdisiplinar yanaşması türk xalqlarının tarixi inkişafının daha obyektiv və çoxşaxəli şəkildə tədqiqinə, dərk edilməsinə imkan verən mühüm metodoloji prinsiplərə əsaslanırdı [1].

Türkologiyanın müstəqil bir elm kimi ümumi vəziyyəti və inkişaf mərhələləri N.İ.Aşmarinin *"Türkologiyanın keçmişi və onun indiki vəziyyəti haqqında bəzi qeydlər"* adlı məruzəsində xüsusi yer tutur. N.İ.Aşmarin türkologiyanın keçdiyi tarixi yolu qısa şəkildə təhlil edərək, XIX əsrin sonu – XX əsrin əvvəllərində bu istiqamətdə aparılan tədqiqatların əsas nailiyyətlərini və mövcud çatışmazlıqları ümumiləşdirmişdir. O, türkologiyanın ayrı-ayrı milli və regional tədqiqatlar səviyyəsindən çıxaraq, ümumtürk miqyasında kompleks şəkildə, vahid bir elmi sistem kimi formalaşmasının zəruriliyini qeyd etmişdir [1].

Ümumi olaraq qurultay materialları göstərir ki, qurultayda türk xalqlarının tarixi, mədəni irsi yalnız möhtəşəm keçmişin təsviri kimi deyil, həm də müasir dövrün sosial-mədəni proseslərini anlamaq, eyni zamanda böyük gələcək üçün mühüm açar kimi qiymətləndirilmişdir.

Gündəlikdə Türk dillərinin tarixi Qurultayın mərkəzi mövzularından biri kimi təqdim edilmişdir. A.N.Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri" adlı məruzəsində türk dillərinin öyrənilməsinin mövcud vəziyyətini təhlil edərək tarixi-müqayisəli metodun sistemli tətbiqinin vacibliyini vurğulamışdır. B. Çobanzadənin türk ləhcələrinin yaxın qohumluğundan bəhs olunan *"Türk ləhcələrinin yaxın qohumluğu haqqında"* adlı məruzəsi isə türk dilləri arasında daxili genetik əlaqələrin elmi əsaslarla izahına yönəlmiş konseptual yanaşmadır. Alimin zəngin dil faktları və tarixi bilgilərlə əsaslandırdığı məruzə ümumtürk dilinin tarixinin rekonstruksiyası baxımından mühüm elmi əhəmiyyət daşıyır [1].

Qədim türk dillərinin və yazılı abidələrin tədqiqi məsələsi xüsusən S.Y.Malovun *"Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri*" adlı məruzəsində metodoloji baxımdan əsaslandırılmışdır. S.Y.Malov Orxon-Yenisey, uyğur abidələrini və digər qədim türk epiqrafik mətnlərini türk dillərinin tarixinin inkişaf mərhələlərinin müəyyənləşdirilməsində əsas mənbə kimi təqdim etmiş, onların oxunuşu və şərhi zamanı filoloji və paleoqrafik metodların tətbiqinin zəruriliyini vurğulamışdır. Qədim türk yazılı abidələrinin tədqiqi Qurultayda türkoloji elmin əsas elmi istiqamətlərindən biri kimi formalaşmışdır [Stenoqram, 2006].

I Türkoloji Qurultayın iclaslarında türk dillərinin inkişafı və ədəbi dil məsələləri geniş şəkildə müzakirə olunmuşdur. Ədəbi dil məsələlərinin müzakirəyə çıxarılmasına toxunan akademik N.Cəfərov yazır: *"Birinci Türkoloji Qurultayın iclaslarının çoxunda ədəbi dil məsələsinə toxunulmuş; həm ümumtürk ədəbi dili, həm də ayrı-ayrı türkcələrin ədəbi təzahürləri barədə müxtəlif mülahizələr irəli sürülmüşdür*" [3]. Ədəbi dil və yazılı mədəniyyət məsələləri F.Köprülüzadə *"Türk xalqlarının ədəbi dillərinin inkişafı"*, G.Qubaydullinin *"Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı"* və T.Menzelin "*Anadolu-Balkan türklərinin ədəbiyyatının öyrənilməsinin nəticələri və perspektivləri"* məruzələrində tarixi və mədəni kontekstlə əlaqəli şəkildə şərh edilmişdir. F.Köprülüzadə *"Türk xalqlarının ədəbi dillərinin inkişafı"* adlı məruzəsində türk ədəbi dillərinin inkişafını milli-mədəni proseslərin tərkib hissəsi kimi dəyərləndirmiş, yazılı ədəbiyyatın türk xalqlarının mədəni kimliyinin formalaşmasındakı rolunu ön plana çəkmişdir [1].

Türk dillərinin genotipoloji əlaqələri və digər dillərlə təması problemi N.N.Poppenin "*Türk dillərinin Altay dilləri ilə qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti"* adlı məruzəsində müzakirəyə çıxarılmışdır. N.Poppenin məruzəsində Altay dilləri nəzəriyyəsi və onun formalaşma tarixi şərh olunmuş, bu konsepsiyanın həm tərəfdarları, həm də tənqidçiləri elmi obyektivliklə təhlil edilmişdir. Alim türk dilləri ilə monqol, tunqus-mancur və digər dillər arasında müşahidə edilən oxşarlıqların genetik, areal və ya tipoloji xarakter daşıması məsələsinə ehtiyatla yanaşılmasının vacibliyini vurğulamışdır. N. Poppenin elmi və faktiki materiallara əsaslanan mövqeyi Qurultayda genetik qohumluq problemlərinin romantik və ya ideoloji müstəvidə deyil, ciddi elmi sübutlar əsasında yanaşıldığını göz önünə qoyur. A. Qenkonun *"Türk dillərinin yafes dillərilə münasibəti haqqında"* adlı məruzəsində türk dilləri ilə yafəs dilləri arasındakı münasibətlərə həsr olunmuşdur. Məruzədə dövrün anoloji və alternativ elmi yanaşmaları müqayisəli, eyni zamanda özünəməxsus şəkildə əks olunmuş, bu istiqamətdə türkologiyada metodoloji plüralizmin mövcudluğu müəllif tərəfindən vurğulanmışdır [1]. Bu çıxış XX əsrin əvvəllərində dilçilikdə mövcud olan müxtəlif nəzəri axtarışların və eksperimental konsepsiyaların türkoloji müzakirələrə daxil olduğunu göstərir. A.Qenkonun yanaşması sonrakı dövrlərdə geniş qəbul edilməsə də, Qurultay çərçivəsində dilçilik problemlərinin açıq elmi müzakirə mühitində, fərqli nəzəri modellər əsasında dəyərləndirildiyini nümayiş

etdirir. Bu fakt Birinci Türkoloji Qurultayda elmi-nəzəri, praktik mülahizəzələrin, fikir və müzakirələrin demokratik və azad bir təmələ əsaslandığını göstərən mühüm göstəricidir.

Birinci Türkoloji Qurultayda etnoqrafik və mədəni tədqiqatlara dair məruzələr də dinlənilmişdir. S.İ.Rudenko *"Türk tayfalarının etnoqrafiyasının öyrənilməsinin mövcud vəziyyəti və yaxın gələcək vəzifələri",* Y. Messoroş *"Anadolu və Balkan türklərinin etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri",* G.F.Çursin *"Qafqaz türklərinin etnoqrafik tədqiqinin yaxın vəzifələri"* adlı məruzəsində türk xalqlarının maddi və mənəvi mədəniyyətinin elmi əsaslarla öyrənilməsinin metodoloji prinsipləri müəyyənləşmişdir. A.A.Millerin *"Türk xalqlarının təsviri incəsənəti haqqında"* adlı türklərin təsviri sənətinə dair məruzəsi isə mədəni irsin tədqiqində incəsənətin elmi mənbə kimi əhəmiyyətini qeyd edilmişdir [1].

Dil tədrisi və əlifba problemləri Qurultayın praktik-metodoloji irsinin mühüm hissəsini təşkil etmişdir. İ. Lemanovun *"Türk dillərinin tədrisi metodikasının əsasları"* və L. V. Şerbanın *"Ana dilinin tədrisi metodikasında ən yeni istiqamətlər"* adlı məruzələri dil tədrisinə elmi əsaslarla yanaşmanın artıq formalaşdığını və bu istiqamətdə fərqli münasibətlərin ortaya çıxdığını ortaya qoyur [1].

XX əsrin ilk yarısında türkologiya elminin vəziyyəti müəyyən xarakteristik xüsusiyyətlərə malik idi. Avropa türkologiyasında tədqiqatlar əsasən Orta Asiya və Altay bölgələri ilə bağlı idi ki, bu da çox vaxt tarixi-mənbəşünaslıq xarakteri daşıyırdı. Rusiyada, sonrakı dövrlərdə isə Sovet ittifaqında türkoloji araşdırmalar mətnşünaslıq, etnoqrafiya və tarix sahələrini, müəyyən qədər linqvistik təhlilləri əhatə edirdi. Lakin hər iki halda türkoloji araşdırmalarda metodoloji olaraq sistemləşmiş, kompleks və linqvistik-kulturoloji, elmi-nəzəri müstəvidə konseptual yanaşma mövcud deyildi. Bu kontekstdə Bakıda keçirilən Birinci Türkoloji Qurultay dil tarixi, qədim yazılı abidələr və etnoqrafik materialların tədqiqi üzrə ilkin sistemli metodologiyanı formalaşdırmış, xüsusən də, türkologiyanın Türk dövlətlərində bir elmi istiqamət kimi təşkilatlanmasının əsaslarını yaratmışdır.

Son olaraq əminliklə demək olar ki, Birinci Türkoloji Qurultayda təqdim edilən məruzələr sonrakı dövrlərdə türk dillərinin tarixi və qədim türk yazılı abidələrinin tədqiqində yeni metodoloji və konseptual yanaşmaların formalaşmasına böyük təsir göstərmiş, türkologiyanın əhatə etdiyi zəngin irsin qorunmasının və tədqiqinin əhəmiyyətini, vacibliyini, türk xalqlarının bu məsələdə inteqrativ fəaliyyət göstərmələri olduğunu ortaya qoymuşdur. Qurultayın proqramı, müzakirələrin elmi müstəvisi və aktiv gedişatı tədbirin planlı və sistemli şəkildə təşkilindən xəbər verir. On doqquz məruzəçi alim türkologiyanın müxtəlif sahələri üzrə mövcud durumun mənzərəsəni vermiş, müzakirələr zamanı həm faktoloji, həm də metodoloji məsələlər ətraflı təhlil edilmişdir. Nüfuzlu türkoloq alimlərin, şərqşünasların, tarixçi və dilçilərin təqdim etdiyi məruzələr türk tarixinin, dillərinin və mədəniyyətinin öyrənilməsində yeni metodoloji prinsiplərin və konseptual yanaşmaların müəyyənləşdirilməsində misilsiz rol oynamış və gələcək türkoloji araşdırmaların aparılmasına, bu sahə üzrə tədqiqatçıların yetişməsinə həm elmi-nəzəri, həm də praktiki zəmin yaratmışdır.

ƏDƏBİYYAT

1. 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). (ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: professor Kamil Vəli Nərimanoğlu, Elmi işçi Əliheydər Atakişiyev). "Çinar-Çap" nəşriyyatı, Bakı: 2006.
2. Akalın, H.Ş. 100. Yılında 100 soruda I Türkoloji Kurultayı. Ankara, Erkmen Yayımcılık, 2025. 300 s.
3. Cəfərov N.Q., Hüseynova, M.N., Qəribli, A.N. Birinci Türkoloji Qurultayda ədəbi dil məsələsi https://edebiyyatqazeti.az/news/edebi-tenqid/13734-birinci-turkoloji-qurultayda-edebi-dil-meselesi (15.01.2026)
4. Guliyeva, G.V. Ali Abbas Muznib'in Türkoloji Faaliyetleri: Kurultay Öncesi ve Sonrası. Yeni Türkiye Dergisi, Kasım-Aralık, Sayı 146. Ankara: YTSAM, 2025. S. 189-195.
5. Həbibbəyli, İ.Ə. Birinci Türkoloji Qurultayin dərsləri və müasir çağırışlar. Türkoloji Qurultayın 90 Illiyinə həsr olunmuş Beynəlxalq Konfrans: Türkoloji Elmi-Mədəni Hərəkatda Ortaq Dəyərlər və Yeni Çağirişlar. I Hissə. Bakı: 2016, 484 s.
6. Qasımov, Cəlal. (2019). Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Gənclik Nəşriyyatı.
7. Menzel, T. (2017). Bakü I. Türkoloji Kongresi 26 Şubat – 6 Mart 1926. (Çev. S. Ünlü). Palet Yayınları

8. Məmmədli, N.B. 1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda. Bakı, Elm və təhsil, 2026, 1072 s.

9. Şamil, Ə.H. Türkoloji Qurultay: Tərənnümün Arxa Planı / Yeni Türkiye. [Bakü Türkoloji Kongresi'nin 100. Yılı Özel Sayısı-I]. Ankara: Yeni Türkiye Stratejik Araştırma Merkezi, 2025. Sayı: 145, s. 60-72.

10. Turan, A. Birinci Türkoloji Qurultay *https://edebiyyatqazeti.az/news/sience/10165-birinci-turkoloji-qurultay.19.01.2021*

SCIENTIFIC-METHODOLOGICAL APPROACH TO THE STUDY OF THE HISTORY OF TURKIC LANGUAGES AND OLD TURKIC INSCRIPTIONS AT THE FIRST CONGRESS OF TURKOLOGY

ABSTRACT

The First Turkology Congress marked the beginning of a new phase in the scientific study of the history, language, and culture of the Turkic nations. The Congress provided a comprehensive assessment of the state of Turkological science at the time, ensuring the systematic discussion of historical-linguistic, cultural-ethnographic, and archaeological-epigraphic issues, and sought to define future directions. The presentations on these research directions included an interpretation and methodological analysis of the history of Turkology, the scientific achievements of the era, and future development prospects from a Turkic perspective. In particular, issues such as the literary language, ancient written monuments, epigraphic and archaeological heritage, and sociocultural aspects formed the main framework of the presentations as key directions.

Issues such as the literary language, written culture, history of literature, history, and cultural-geographical landscape were evaluated at the congress as indicators of the cultural development of the Turkic peoples, and the formation and development process of Turkic literature, which spans a vast geography, was discussed. At the same time, the study of ethnography, epigraphy, and material and spiritual culture, as well as our history, accelerated the emergence of a new concept for the scientific study of the way of life, social structure, and national-cultural identity of the Turkic peoples. The study of the Old Turkic Language and Old Turkic Monuments held a special place within the framework of the congress. Under the leadership of S. E. Malov, the linguistic, graphic, and historical study of the Orkhon-Yenisei, Old Uyghur, and other Old Turkic sources was identified as one of the main priorities of Turkology. These studies laid the groundwork for applying new methodological approaches to determining the historical development stages of the Turkic languages and clarifying their genetic relationships. One of the Congress's important areas was the problems of teaching and methodology of the Turkic language. The modernization of mother tongue teaching methods and the organization of language policy based on scientific principles and in accordance with the general socio-cultural spirit of the era were among the main ideas put forward in the reports, a nuance that made its application throughout the entire education and cultural system of Turkology practically necessary.

The course of events showed that the First Turkology Congress, which highlighted these features, spurred the systematic formation of Turkology, the emergence of new Turkological directions and scientific-methodological approaches, and laid the foundation for scientific integration in the Turkic world.

Keywords: *Turkological Congress, Turkic languages, Turkology, Orkhon-Yenisei, Old Uighur.*

НАУЧНО-МЕТОДОЛОГИЧЕСКИЙ ПОДХОД К ИЗУЧЕНИЮ ИСТОРИИ ТЮРКСКИХ ЯЗЫКОВ И ДРЕВНИХ ПИСЬМЕННЫХ ПАМЯТНИКОВ НА I ТУРКОЛОГИЧЕСКОМ КОНГРЕССЕ

Первый тюркологический конгресс положил начало новому этапу в научном изучении истории, языка и культуры тюркских народов. Конгресс, всесторонне оценив состояние тюркологической науки того времени, обеспечил систематическое обсуждение историко-лингвистических, культурно-этнографических и археологико-эпиграфических проблем и сыграл роль в определении будущих направлений. Представленные доклады по изучению этих направлений включали

интерпретацию и методологический анализ прошлого тюркологии, современных научных достижений периода и перспектив дальнейшего развития с общетюркской точки зрения. В частности, литературный язык, древние письменные памятники, эпиграфическое и археологическое наследие, а также социокультурные аспекты составили основную линию докладов как главные направления.

На конгрессе были рассмотрены такие вопросы, как литературный язык, письменная культура и история литературы, история и культурно-географический ландшафт как индикаторы культурного развития тюркских народов, а также обсуждался процесс формирования и развития тюркской литературы на обширной территории. Одновременно с этим, изучение этнографии, эпиграфики, материальной и духовной культуры, а также нашей истории ускорило появление новой концепции научного изучения образа жизни, социальной структуры и национально-культурной идентичности тюркских народов. Особое место в рамках конгресса заняло изучение древнетюркского языка и письменных памятников. В этом направлении, под руководством С.Е. Малова, изучение орхон-енисейских, древнеуйгурских и других раннетюркских письменных источников с лингвистической, графической и исторической точек зрения было определено как один из главных приоритетов тюркологии. Эти исследования заложили основу для определения этапов исторического развития тюркских языков и применения новых методологических подходов к выяснению их генетических связей. Одним из важных направлений конгресса были проблемы преподавания и методологии тюркских языков. Среди основных идей, выдвинутых в докладах, были вопросы модернизации методов обучения родному языку, организации языковой политики в соответствии с общим социально-культурным духом эпохи и на основе научных принципов; этот нюанс обусловил необходимость применения тюркологии практически во всей системе образования и культуры. Развитие событий показало, что Первый тюркологический конгресс, освещая эти вопросы, дал начало систематическому формированию тюркологии, появлению новых тюркологических направлений и научно-методологических подходов, и в этом контексте был заложен фундамент научной интеграции в тюркском мире.

Ключевые слова: *Тюркологический конгресс, тюркские языки, тюркология, орхон-енисей, древнеуйгурский язык.*

Ləman HƏSƏNOVA*

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ƏHMƏD BAYTURSUNOVUN TERMİNOLOJİ BAXIŞLARI

XÜLASƏ

Məqalədə Birinci Türkoloji Qurultay çərçivəsində Əhməd Baytursunovun terminologiya məsələlərinə dair mülahizələri təhlil edilmişdir. Alimin alınma terminlərə münasibəti, terminologiya məsələlərinin elmi əsaslarla tənzimlənməsi, termin yaradıcılığında sistemlilik prinsipinin tətbiqi ilə bağlı fikirləri ümumiləşdirilərək araşdırılmışdır.

Açar sözləri: *Birinci Türkoloji Qurultay, Əhməd Baytursunov, terminologiya məsələləri, türk dilləri.*

XX əsrin əvvəlləri türk xalqlarının mədəni, ictimai və elmi həyatında əhəmiyyətli dönüş mərhələsi kimi qiymətləndirilir. Bu dövrdə türk xalqlarının etnoqrafiyası, qədim türk dillərinin tədqiqi, orfoqrafiya prinsipləri, elmi terminologiyanın yaranma sistemi, əlifba və s. məsələlər xüsusi aktuallıq kəsb etmişdir. Həmin proseslərin əsas mərhələlərindən biri 1926-ci ildə Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultay olmuşdur. Bu qurultay bütün türk dünyasının elmi inkişafında yeni istiqamətlərin müəyyənləşdirilməsi, əlifba, orfoqrafiya problemlərinin elmi müstəvidə müzakirəsi və terminoloji sistemin formalaşdırılması baxımından mühüm elmi hadisə olmuşdur.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsi, filologiya üzrə fəlsəfə doktoru, böyük elmi işçi.

Türk dillərində terminologiya məsələlərinin aktuallaşdırılması bu dövrdə elmi, texniki sahələrin formalaşması və inkişaf tendensiyaları ilə bilavasitə bağlı idi. Həmin dövrdə türk dillərinin terminoloji sistemlərinin təşəkkülü və təşkili prosesində müəyyən çətinliklərlə səciyyələnirdi. Mövcud çətinliklər, ilk növbədə, terminlərin vahid prinsip əsasında yaradılmaması, milli terminoloji bazanın kifayət qədər inkişaf etməməsi ilə əlaqədar idi. Dünyanın müxtəlif ölkələrinin nümayəndələrinin iştirak etdiyi Birinci Türkoloji Qurultayda Qazaxıstandan dəvət olunmuş ziyalılar da yer almışdır. Onlar arasında görkəmli Qazax dilçisi, ictimai-siyasi xadim Əhməd Baytursunovun terminologiya sahəsindəki müzakirələr elmi baxımdan diqqətəlayiqdir. Alimin terminoloji baxışları türk dillərində terminologiya sahəsində islahatların aparılması, terminologiyanın işlənib hazırlanması istiqamətində əhəmiyyətli elmi ideyaları ehtiva edir.

Ə.Baytursunovun qurultayda alınma sözlərlə bağlı səsləndirdiyi nəzəri fikirlər elmi maraq doğurur. O, alınmalara ictimai-mədəni, tarixi təsirlərin nəticəsi kimi yanaşır. Dilçiyə görə, hər bir millətin mədəniyyəti yalnız daxili inkişafın deyil, eləcə də müxtəlif xalqlarla istənilən münasibətlərdə yaranan əlaqələrin nəticəsidir. Mədəniyyətlərin çulğalaşması xalqlar arasında müharibə və ya dinc təmasdan asılı olaraq fərqli baş verir. Mədəniyyətlərin çulğalaşması prosesini xalqların adət, din, psixologiya və s. yaxınlığı daha da asanlaşdırır, nəticədə alınma sözlər daha sistemli və təbii şəkildə dilə daxil olur. İstila və ya siyasi üstünlük vəziyyətində isə türk xalqlarının mədəniyyətlərinin inkişafı üçün əlverişli şərait yox idi. Ə.Baytursunov qeyd edir ki: "Nə isə əxz edə biləcəkləri xalqın onlardakı ilə heç bir oxşarlığı olmayan məişəti vardı, üstəlik bu xalq hakim xalq idi, onun hökuməti başqa millətlərə münasibətdə kölələşdirmə, ruslaşdırma, pravoslavlaşdırma siyasəti yeridirdi" [1,s.193]. Onun fikrincə, rus mənəvi mədəniyyətinin türk xalqlarının mənəvi həyatına müsbət təsiri olmamışdır, mənəvi alınmaları isə türklər özləri bir-birindən əxz edirdirlər. Yad dilin sözlərinin artmasını, dillərin zibillənməsini din və yazı ilə yanaşı, dini və dünyəvi məzmunlu ədəbiyyatın əxz edilməsi ilə əsaslandıran dilçi xilas yolunu dini ədəbiyyatdan geniş istifadə etməməkdə görür. Dinin mənəvi köləsinə çevrilməyən xalqlara isə qazax və qırğızları nümunə çəkir.

Türk xalqları digərlərindən maddi və mənəvi məişət əşyaları alarkən, dilə bu anlayışları ifadə edə bilmək üçün yeni sözlər də daxil olur. Məhz dilin terminoloji sisteminin işlənib hazırlanma zərurətini Baytursunov bu anlayışları ifadə etmək üçün ya yad dillərin sözlərinə, ya da doğma dilin lüğət tərkibinə uyğunlaşdırmağı labüd hesab edirdi. Dilçi alim məruzəsində konkret bir türk xalqı – qazax xalqının terminoloji fəaliyyətinin vəziyyətini ətraflı təhlil etmişdir, digər türk xalqlarının terminologiya məsələsinə isə ötəri toxunması demək olar ki, ümumi prinsiplərin qeyd olunması ilə məhdudlaşır və konkret təhlilə əsaslanmır. Ə.Baytursunov çıxışında qeyd edir ki, 1905-ci ilə qədər qazax dilində çap fəaliyyətinə qoyulan qadağalar dilin funksional imkanlarını əngəlləyirdi. 1905-ci il inqilabından sonra ictimai şəraitin dəyişməsi nəticəsində qazax dilində dərslik, qəzet və kitabların çapına başlanıldı ki, bu da dilin funksionallığının genişlənməsinə səbəb oldu. Dilçi qazax dilinin fonetik və qrammatik cəhətdən öyrənilməsini, qrammatikanın tərtib olunması, əlifbanın fonetik prinsiplərə uyğun şəkildə islah edilməsi istiqamətində aparılan işləri xüsusi vurğulayırdı. Qazax dilində terminoloji sistemin formalaşdırılmasının konseptual əsaslarını geniş şəkildə izah edən alim üçün xalq kütləsinə yönəlmiş dil strategiyası əsas prioritetdir. O qeyd edir ki, başqa xalqlarla müqayisədə qazaxlar fərqli prinsiplərə riayət edərək çap məhsullarının yalnız ziyalı təbəqəyə deyil, geniş auditoriyaya çatmasına çalışırdılar. Bu prinsip isə biliklərin cəmiyyətdə şaquli şəkildə – savadlı kütlədən savadsız təbəqəyə ötürülməsini təmin etməyə istiqamətlənir. Ə.Baytursunov göstərir ki, cəmiyyətdə inkişaf getdikcə xalqda olmayan yeni anlayış və ideyalar yaranır ki, bu anlayışları da doğma dildə ifadə etmək zərurətə çevrilir. Bu zaman termin yaradıcılığı ön planda dayanır. Özəlliklə, qeyd olunur ki, dildə mövcud olmayan anlayışları ifadə etmək üçün yeni söz yaratmaq, yaxud da mövcud dil resurslarından istifadə edilməlidir. O haqlı olaraq bildirir ki, eyni anlayışın müxtəlif konstruksiyalı sözlərlə ifadə olunması elmi ünsiyyətdə qarışıqlıq yaradır. Bu terminoloji problemlərin həlli kimi xüsusi orqanın –

terminologiya komissiyasının yaradılması vacibdir. Dilin varvarizmlərlə doldurulması təhlükəsinə diqqət çəkən alim hesab edir ki, əsas məqsəd ekstralinqvistik təsirlərin deyil, bu vahidlərin dilə nəzarətsiz daxil olmasının qarşısını almaqdır. Qurultayda elmi ictimaiyyət tərəfindən qəbul edilən prinsiplər kollektiv elmi razılaşmanın nəticəsi idi. Həmin prinsiplərdən biri isə terminləri seçərkən qazax dilinə məxsus sözlərə üstünlük verilməsi idi. Ə.Baytursunova görə, alınma sözlər dil təbəqələşməsi yaradır ki, bu da savadlılarla savadsızlar arasında kommunikasiya maneəsinə çevrilir. Dilin sadələşdirilməsi və geniş kütlə üçün anlaşıqlı olmasının qazaxlar üçün böyük əhəmiyyət daşıdığını qeyd edən ictimai-siyasi xadim yalnız belə bir vəziyyətdə savadlı azlığın savadsız çoxluğa xidmət göstərə biləcəyi ideyasını irəli sürür.

İkinci prinsip isə dildə mövcud sözlər olmadığı təqdirdə qazax dilinə qohum dillərdən leksik vahidlərin alınmasıdır. Qohum dillər, yəni türk dillərinə məxsus sözlərin alınması daha məqsədəuyğun hesab edilir. Linqvistik yaxınlıq faktoruna əsaslanan dilçiyə görə, sözlərin müəyyən bir qismi ümumi formalara malik olmasa da, ortaq kökləri vardır ki, bu da dil daşıyıcıları arasında asan anlaşmaya şərait yaradır. Bu sözlər eşitmə və tələffüz baxımından daha təbii səslənir. İkinci səbəb isə tarixi-ictimai təmaslarla bağlıdır. O, türk xalqları arasında davamlı əlaqələrin olduğunu vurğulayır. Bu əlaqələr nəticəsində dillər arasında leksik mübadilə baş verir və nəticədə eyni kökdən olmayan bəzi sözlər digər türk xalqları üçün tanış və anlaşıqlı olar bilər.

Digər bir prinsip qazax dilinin tələbinə uyğun dəyişikliklərlə beynəlxalq terminlərin qəbul edilə bilməsidir. Ə.Baytursunov bildirir ki, bu leksik vahidləri əvəz edə biləcək qazax sözləri olduğu halda, onların hər ikisi işlədilməlidir. Burada müəllif özü də qeyd edir ki, ümumişlək terminlər dedikdə, ərəb deyil, Avropa terminləri nəzərdə tutulur. Əcnəbi sözlər qazax dilinin fonetik artikulyasiya sisteminə, dilin daxili "səs qanunlarına tabe olmalıdır" prinsipi ilə özününküləşdirilməlidir.

Sonuncu prinsipdə isə qazax dilinə yad olan bütün qeyri-qazax sözlərinin qazax şivəsinə uyğun, yəni yabançı sözlərin qazax dilinin səslərinə, şəkilçilərinə və tələffüz qaydalarına müvafiq dəyişdirilməsindən bəhs edilir. Dilçi bura ilk olaraq səslərin dəyişdirilməsini aid edir. Əgər bütün qeyri-qazax sözlərində yabançı səslər varsa, onlar qazax dilində olan lazımi səslərlə əvəz edilməlidir. İkinci, qeyri-qazax sözlərindəki şəkilçilər qazax dilindəki şəkilçilərlə əvəz edilir. Üçüncü, ikiqat səsləri sadələşdirmək, yəni qeyri-qazax sözlərində ikiqat səslər bir səs şəklində qəbul edilir. Dördüncü, qazax dilinin leksik sisteminə yad olan sonluq şəkilçilər qazax tələffüzünə uyğun dəyişməlidir. Bu prinsiplərə nümunə kimi *Samara-Samar, Adamovskoy-Adamau, puxovoy-bokeboy* sözlərini misal çəkir.

Ə.Baytursunov hesab edir ki, vahid qazax dilinin mövcudluğu məhz bu prinsiplərə riayət etməklə mümkün olmuşdur. Bu zaman qazax dili varvarizmlərindən qorunur, xalq dili ilə ədəbi dil arasında ciddi fərq olmur. O digər türk dillərində fərqli vəziyyətin olduğunu müşahidə edir. Anadolu türkləri və azərbaycanlılardan bəhs edərək bildirir ki, bu xalq kütlələri yazdıqları kimi də danışırlarsa, demək bu xalqların türk kimliyi zəifləyir. Yəni yazı dili ilə danışıq dili arasında fərq olmadığı təqdirdə, dilin tarixiliyi qorunmur və türk dilinə məxsus xarakterik xüsusiyyətlər itirilir. Dilçi bu vəziyyəti "hər cür yad sözlər asılan köhnəlmiş, şikəst edilmiş, cılız skelet" [1,s.195] adlandırır. Anadolu türkcəsi və Azərbaycan dilindən sonra varvarizmlərə açıq olan qarmaqarışıq türk dillərindən tatar dilini hesab edir. Ə.Baytursunovun müşahidələrinə əsasən, bir çox türk xalqlarının dilləri yabançı təsirlərə məruz qalaraq müəyyən dərəcədə zibillənmiş vəziyyətdədir. Onun fikrincə, Özbək və Krım ədəbi dillərində xeyli sayda mürəkkəb və yad elementlərə rast gəlmək mümkündür. Bununla yanaşı, bəzi türk xalqlarının öz dillərini varvarizmlərdən qorumaq üçün prinsiplərə riayət etdiyini də xüsusi vurğulayır. Başqırd və türkmən dillərində ədəbi dil yeni formalaşma mərhələsindədir. Başqırdıstanda ana dilini varvarizmlərdən qorumaq istiqamətində görülən səylər öz nəticəsini göstərir. Türkmən ədəbi dili də oxşar yolla (yəni dillərini varvarizmlərdən qorumaqla) inkişaf etməkdədir. Dilçi alimə görə, yad sözlərin azlığı ilə fərqlənən türk dillərindən biri də qırğız dilidir.

Onun müşahidəsinə əsasən qırğız dilinin formalaşmasının iki əsas xüsusiyyəti vardır: birincisi, bu dil yabançı təsirlərdən və varvarizmlərdən azad olmuşdur, ikincisi isə qırğız dili ədəbi dilin işlənib hazırlanması prosesinə qazax dilinin prinsiplərini rəhbər tutmuşdur. Göründüyü kimi, dilçi türk dillərinin ədəbi dil təmizliyi və varvarizmlərdən qorunma səviyyəsi ilə onların inkişaf mərhələsini müqayisə edir.

N.Məmmədli Birinci Türkoloji Qurultaya aid araşdırmalarında Ə.Baytursunovun elmi konsepsiyası haqqında yazır: "Onun dil konsepsiyasının əsas cizgiləri bunlardır: dil millətin ruhudur, yad təsirlərdən qorunmalıdır, terminologiya milli baza üzərində qurulmalıdır, qohum dillər arasında inteqrasiya mümkündür, Qərb terminləri yalnız uyğunlaşdırılaraq qəbul edilə bilər" [2, s.265].

Ə.Baytursunov vurğulayır ki, ədəbi dilin əsası kimi irəli sürdüyümüz prinsiplər düzgün seçilmişdir, çünki bununla çap məhsulları xalq üçün əlçatan olacaq ki, bu da onların anlaşılmasını asanlaşdıracaq. O qeyd edir ki, mədəniyyətin səviyyəsi yuxarı – elit təbəqələrin biliklərinin çoxluğu ilə deyil, həm də bu biliklərin geniş kütləyə çatdırılması ilə ölçülməlidir. Müasir təsərrüfatın ümumdünya xarakteri və rəqabət şəraitində fəaliyyət üçün yalnız texnologiya və maddi resurs deyil, eləcə də mədəni səviyyəyə bağlı olduğunu deyən dilçi metaforik şəkildə bunu silahı olmayanların silahlılarla müharibəsinə bənzədir, yəni cəmiyyətin uğurlu inkişafı əhalinin yüksək mədəni səviyyəsini təmin edir.

Dilçi iki əsas tezis üzərində dayanır: birincisi, istənilən fəaliyyət sahəsində nailiyyət qazana bilmək üçün yalnız texniki vasitələr kifayət deyil, eləcə də həmin sahəyə xas xüsusi biliklərin yüksək səviyyədə inkişafı zəruridir. İkincisi, o, cəmiyyətin inkişafını əhalinin mədəni səviyyəsi ilə əlaqələndirir. Ə.Baytursunovun türk dillərində terminologiya ilə bağlı irəli sürdüyü mülahizələr məhz həmin dövr üçün aktual olan terminoloji problemlərin müəyyənləşdirilməsi və həlli istiqamətində xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. 1926-cı il I Bakı Türkoloji Qurultayı (steneoqram materialları, biblioqrafiya və foto-sənədlər). Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri K.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, 2006.
2. Məmmədli N. 1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda. Bakı, 2026.

ПЕРВЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД И ТЕРМИНОЛОГИЧЕСКИЕ ВЗГЛЯДЫ АХМЕДА БАЙТУРСУНОВА

РЕЗЮМЕ

В статье анализируются взгляды Ахмеда Байтурсунова на терминологические вопросы в рамках Первого тюркологического конгресса. Обобщаются и рассматриваются отношение учёного к заимствованным терминам, регулирование терминологических вопросов на научной основе, а также его взгляды на применение принципа систематичности в терминообразовании.

Ключевые слова: Первый Тюркологический Съезд, Ахмед Байтурсунов, терминологические вопросы, тюркские языки.

THE FIRST TURKOLOGICAL CONGRESS AND THE TERMINOLOGICAL VIEWS OF AKHMET BAITURSYNOV

ABSTRACT

This article analyzes Akhmed Baitursunov's views on terminology issues at the First Turkological Congress. It summarizes and examines the scholar's attitude toward borrowed terms, the scientific regulation of terminology, and his views on the application of the principle of systematicity in terminology formation.

Keywords*: *First Turkological Congress, Akhmed Baitursunov, terminology issues, Turkic languages.

Zəminə RÜSTƏMBƏYLİ*

ORTA ƏSRƏ AİD TÜRKDİLLİ DİNİ TƏRCÜMƏ ƏDƏBİYYATI NÜMUNƏSİ "SİYƏRÜN-NƏBİ" ƏSƏRİ

XÜLASƏ

Azərbaycanda tərcümə işinin əsası orta əsrlərdə şəhəryanı mədrəsə və məktəblərdə "Quran"ın, şəriətin təlimi zamanı qoyulmuşdur. Belə ki, "Azərbaycan dili VIII-XI əsrlərdə Azərbaycan şəhərlərində təşkil edilmiş olan mədrəsələrə, daxil olmuş və orada bir təlim fənni kimi olmasa da, bir təlim vasitəsi kimi müəyyən mövqe tuta bilmişdi. Mədrəsələrdə təlim-tədris prosesində ərəb və ya fars dillərində yazılmış kitabların - mətnlərin müxtəlif tərzdə ana dilinə tərcümə edilmiş olmasına şübhə yoxdur. İlk dövrlərdə müdərrislərin şifahi tərcümələri tələbələr tərəfindən yazıya köçürülmüşdür.

Orta əsrlər tərcümə ədəbiyyatının görkəmli nümayəndələrindən biri XIV əsr Şərqi Anadolu ədəbi məktəbinin nümayəndəsi Ərzurumlu Qazi Mustafa Zərir olmuşdur. Azərbaycan-türk tərcümə ədəbiyyatının mühüm nümunələrindən sayılan "Siyərün-Nəbi" əsəri ədibinhəcmcə ən böyük və islam dinin tarixini öyrənmək baxımından ən dəyərli əsəridir.

Açar sözlər: *orta əsr, tərcümə, dini əsər, Mustafa Zərir, "Siyərün-Nəbi"*

Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixində milli anadilli ədəbiyyatımızın mühüm bir qolunu ərəb və fars dillərində yazılmış əsərlərin Azərbaycan türkcəsinə tərcümə edilməsi ilə yaradılmış bədii ədəbiyyat təşkil edir. Xüsusən də, orta əsrlərdə Azərbaycan türkcəsində yaradılan ilk anadilli abidələr daha çox dini-əxlaqi xarakterli, didaktik-ictimai məzmunlu, eləcə də, islam dininin yaranması və genişlənməsini, müqəddəs kitabımızdan müxtəlif ayə və surələrin, dini-tarixi hadisələrin mənzum şəkildə təsvirini əhatə edirdi. Məlumdur ki, XIII-XIV əsrlərdə yaranmış ilk anadilli yazılı abidələrimizin bir qismi başlıca olaraq Şərqi Anadoluda və Şərqi Anadoluya həmsərhəd ərazilərdə meydana çıxmışdır.

Hazırda Türkiyə Cümhuriyyətinə aid olan bölgələrdə anadilli abidələrimizin mövcudluğu, Azərbaycan orta əsrlər zəngin bədii irsini yaradan Qazi Bürhanəddin, Ərzurumlu Qazi Mustafa Zərir, Yusif Məddah, Sulu Fəqih kimi sənətkarların məhz həmin coğrafi arealda yer almasının tarixi-siyasi kökləri vardır.

Şərqi Anadolunu ilk anadilli ədəbiyyatımızın beşiyi adlandıran Şaməddin Xəlilov Azərbaycan dilinin Şərqi Anadoluda mövqeyi, təsir dairəsi ilə əlaqədar tədqiqatlarında bir çox türkoloqların "Şərqi Anadolu şivələrinin Azərbaycan dili ilə üst-üstə düşdüyünü", "Azəri ləhcəsinin hər şeydən öncə bir Oğuz türkcəsi, bir Şərqi Anadolu ləhcəsi" olduğunu, "Azəri sahəsinin dil coğrafiyası baxımından Qərbi Anadolu, Güney Qafqaz və Qafqaz Azərbaycanı, İran Azərbaycamı, Kərkük və İraq-Suriya türkləri bölgələrini içinə aldığı"nı, "Şərqi Anadolu şivələri ilə Azərbaycan dili arasında bərabərlik işarəsinin qoyulduğunu" qənaətinə gəldiklərini qeyd edir [1, s.154-154]. Azərbaycanda tərcümə işinin əsası orta əsrlərdə şəhəryanı mədrəsə və məktəblərdə "Quran"ın, şəriətin təlimi zamanı qoyulmuşdur. Belə ki, "Azərbaycan dili VIII-XI əsrlərdə Azərbaycan şəhərlərində təşkil edilmiş olan mədrəsələrə, daxil olmuş və orada bir təlim fənni kimi olmasa da, bir təlim vasitəsi kimi müəyyən mövqe tuta bilmişdi. Mədrəsələrdə təlim-tədris prosesində ərəb və ya fars dillərində yazılmış kitabların - mətnlərin müxtəlif tərzdə ana dilinə tərcümə edilmiş olmasına şübhə yoxdur. İlk dövrlərdə müdərrislərin şifahi tərcümələri tələbələr tərəfindən yazıya köçürülmüşdür. Belə ilkin təcrübələr isə getdikcə ümumiləşmiş, beləliklə də, ilk yazılı tərcümə əsərləri də Azərbaycan dilində yaradılmışdır" [2, s. 79-80].

Azərbaycanda tərcümə sənətinin tarixini araşdıran professor Möhsün Nağısoylu "Quran"ın türkcəyə sətiraltı tərcüməli nüsxələrini ən qədim tərcümə nümunələri kimi qeyd edərək onların tərcümə və dil

* Bakı Avrasiya Universiteti, Fil.ü.f.d., dos. Email: zemine.rustembeyli@baau.edu.az

xüsusiyyətlərinin tədqiqinin əhəmiyyətli olduğunu bildirmişdir. Artıq XIII-XIV əsrlərdə sətiraltı tərcümələrlə yanaşı, bədii və dini ədəbiyyatın, eləcə də tarixə aid əsərlərin də ərəb dilindən türkcəyə nəsrlə tərcümələr edildiyi məlumdur [3, s.6-11].

Orta əsrlər tərcümə ədəbiyyatının görkəmli nümayəndələrindən biri XIV əsr Şərqi Anadolu ədəbi məktəbinin nümayəndəsi Ərzurumlu Qazi Mustafa Zərir olmuşdur. Onun bədii irsindən elm aləminə əsərin adı məlumdur. Ədəbiyyat tariximizdə tərcümə ədəbiyyatının mühüm nümunələrindən sayılan "Siyərün-Nəbi" əsəri ədibin həcmcə ən böyük və ən dəyərli əsəridir. Bu əsərin Azərbaycanda nüsxəsinin əldə edilməməsi səbəbindən uzun müddət işıq üzü görməmiş və mütəxəssislərin diqqətindən kənarda qalmışdır. Azərbaycan ədəbiyyatı tarixində ilk tərcümə və nəsr əsəri sayılan bu əsərin mətni 2007-ci ildə Azərbaycan tədqiqatçıları aşkar etmişdir. Elmi mənbələrdə Mustafa Zəririn adı və yaradıcılığı haqqında məlumatlara rast gəlinsə də, Azərbaycan alimləri tərəfindən Mustafa Zəririn, ümumiyyətlə, bədii irsi tam tədqiq olunmamışdır.

Ümumiyyətlə, orta əsrlərdə İslam dininin peyğəmbərini tanımaq, onun həyatı, əməlləri, fəaliyyəti, əxlaqı və İslam dini uğrunda apardığı mübarizəni öyrənmək üçün bir sıra siyərlər yazılmağa, daha doğrusu, tərcümə olunmağa başlanır. "Hər bir müsəlman cəmiyyəti kimi, türklər də həzrəti peyğəmbərlə bağlı biliklərini öncə şifahi qaynaqlardan, bir müddət sonra yazılı qaynaqlardan almışlar. Yazılı qaynaqlardan başlıca olaraq ilk dövrlər üçün hədis kitabları, siyərlər ümumu İslam tarixlər, qisseyi-ənbiyalar və şeir kimi ədəbi əsərlər qeyd oluna bilər. Məsələn, XI əsrdə yaşamış Əhməd Yəsəviyə aid hikmətlər içində yer alan mənzumələrin bir hissəsində Həzrəti peyğəmbərin həyatı ilə bağlı geniş məlumatların olması, türklərin həzrəti peygəmbər haqqında çox öncədən bəri məlumatlı olmalarını göstərməkdədir" [4, s.222].

Siyərlər mövzu baxımından eyni xüsusiyyətlərə malik olsalar da, şairlərin, yazarların üslubu və istedadı, eləcə də mövzunun işlənilməsinə görə fərqlilik nümayiş etdirmişlər. Siyər sözü "s-y-r" kökündən törəmişdir. Kök olaraq, "gəzmək, gecə yürümək və səyahət etmək" anlamlarını ifadə edir. Eyni kökdən törəyən sire kəlməsi lüğətdə "yol, hərəkət, gediş, hal, davranış, idarə" mənalarını bildirməklə yanaşı, İslam elmlərində istifadə oluanan bir istilah olaraq, iki ayrı sahədə özünə yer tutmuşdur. Bunlardan biri İslam hüququnda istifadə olunanı peyğəmbərin davranış şəkli, xüsusilə savaşdakı davranışı anlamını bildirərək, müsəlman cəmiyyətinin, daha çox dövlət siyasəti baxımından qeyri-müsəlmanıarıa münasibətlərini öyrənməyə xidmət etmişdir. Digəri isə həzrəti Məhəmmədin həyatı və şəxsiyyəti haaqında tarixi baxımdan bu mövzuda yzılan əsərləri ehtiva edir [5, s.94].

Beləliklə, həzrəti peyğəmbərin həyatından söz açan kitablara "Siyer-i Nəbi", "Es-Siretün-Nebeviyyə" və ya qısaca olaraq "Siyer" adı da verilmişdir [4, s.226].

İkinci əsəriolan "Siyərün-Nəbi" əsərinin yazılma səbəblərini açıqlayarkən Mustafa Zərir bir gün Məlik Əli ibn Şabanın ondan bir Siyər yazmasını istədiyini qeyd edir: O, ulu əmirdən bu əmri aldıqdan sonra dərhal şeyxülislam Şeyx Əkmələddin əl-Babərtinin yanına gedərək, bir siyər kitabı tərcümə etmək istədiyini, lakin ona qədər Allahın rəsulunu tərənnüm edən iki şəxs arasında tərəddüd etdiyini bildirir. Şeyx Əkmələddin Əl Babərti, Əbül-Həsən əl Bəkrinin siyərinin daha sadə dildə olduğunu və xalq tərəfindən rahat anlaşıldığnı bildirir və Mustafa Zərirə məhz bu siyərin tərcüməsini məsləhət görür [6, s. 29-30]. Beləliklə, Ərzurumlu Mustafa Zərir "Siyərün-Nəbi" əsərini bilavasitə İbn İshaqın və ya İbni Hişamın əsərini tərcümə edərək, eləcə də Vakdinin Siyərini dinləyərək ağlında tutmuş və qüvvətli hafizəsinin köməyi ilə katiblərinə söyləyərək yazdırmışdır [7, s. 368].

Mustafa Zərir əsərinə ara-sıra "Qur'ani-Kərim"dən ayətləri də əlavə etmişdir. Əsər nəzm və nəsrlə qələmə alınmışdır. Sadəcə ayətlər ərəb dilindədir. Əsəri bir dastan şəklinə salan mənzum hissələr içərisində ən gözəli Həzrəti Peyğəmbərin doğulmasını təsvir edir. Əsər ümumi şəkildə 6 cilddən ibarətdir.Əsərin birinci cildi tövhid Həzrəti peyğəmbərin tərifi, dörd xəlifə və həzrəti Həsənlə Hüseynin mədhi ilə başlayır. Sonra kitabım tərcümə edilməsinin səbəbi, həzrəti Məhəmmədin soyu, isimləri, nübbuvvət nurunun peyğəmbərlərdən peyğəmbərlərə nəql olunması, Zəmzəm quyusunun hekayəsi və bir sıra hadislər, əhvalar və şəxslər haqqında hekayələr, o cümlədən, Həzrəti Məhəmməd (s.ə.s.)in möcüzələri, qıtlıq hekayəsi, həzrəti Xədicənin hekayəsi kimimövzular yer almışdır.

Əsərin ikinci və üçüncü cildində peyğəmbərin həyatına dair müxtəlif hadisələrin nəqli, Həzrəti Əlinin doğumu, Kəbənin yenidən təmiri, həzrəti Məhəmmədə peyğəmbərlik gəlməsi, ilk vəhy, ilk müsəlman olanlar, İslamın açıqlanması və dinə dəvət,Merac, bəzi ayət və surələrin nazil olmaları, Mədinə xalqının bir hissəsinin islamı qəbulu və Həzrəti Məhəmməd (s.ə.s.)in Mədinəyə hicrəti, Kuba və Mədinə məscidlərinin tikilməsi, İslam dini tarixində əhəmiyyətli olan müxtəlif hadisələr açıqlanmışdır.

Dördüncü cilddə həzrəti Fatimənin doğulması, anası həzrəti Xədicənin vəfatı, bəzi savaşlar, həzrəti Məhəmmədin bəzi möcüzələri, Bədir döyüşü, Həzrəti Əliiləhəzrəti Fatimənin evlənməsi, Uhud döyüşü, həzrəti Hüseynin dünyaya gəlməsi kimi mövzular öz əksini tapmışdır.

Beşinci cilddə din uğrunda baş verən müxtəlif savaşlar, Ümrə səfəri, Hüdeybiyyə anlaşması, həzrəti Məhəmmədinhökmdarları İslama dəvət etməsi, Haybərin fəthi, qəza ümrəsi, Məkkənin fəthi kimi mövzular yer almışdır.

Altıncı cilddə həzrəti Məhəmməd və səhabələrindən Sad ibn Müazin toyuna getmələri, Hüneyn müharibəsi, Taif mühasirəsi, Təbük savaşı, Həccin fərz olunması, vida həcci, həzrəti Məhəmmədin xəstələnməsi və vəfatı kimi mövzular təsvir olunmuşdur.

Əsərdə hadisələrin təsviri 814 miniatürlə də verilmişdir. "Miniatürlər Həzrəti Məhəmmədin həyatını, əhatəsindəki səhabələri və digər şəxslərə aid təsvirləri əhatə edir. Rəsmlərdə Həzrəti Məhəmmədin və zövcələrinin üzləri İslama hörmət rəmzi olaraq ağ rənglə örtülmüdür. Miniatürlərin digər mühüm bir xüsusiyyəti Həzrəti Məhəmməd (s.ə.s.) daxil olmaqla bütün şəxslərin XVI əsr Osmanlı-türk qiyafətlərində olmasıdır [7, s. 372]. Əsərin III cildində İslamın çiçəkləndiyi dövrdə peyğəmbərin ən yaxın adamlarından olan Səlman Farisi ilə əlaqədar miniatürlər yer almışdır. Rəsmlərdə Osmanlı miniatür sənətinə uyğun olaraq məkan və fiqur qəliblərindən istifadə olunmuşdur [8, s.133].

Mustafa Zərir "Siyərün-Nəbi" əsərini sadə və səmimi nəsr dili ilə qələmə almaqla yanaşı, nəzm parçalarında misra yaradıcılığındakı qüdrətini göstərə bilmişdir. Şair dövrünün türkcəsinin incəliklərini, gözəlliklərini məhz nəzm parçalarında tərcümə nümunəsi kimi deyil, özünün doğma dilinin imkanları hesabına verə bilmişdir. Xalq dilinin canlılığını saxlamağa çalışan şair nəzm nümunələrində cinas qafiyələrdən məharətlə istifadə etmişdir. "Türk ədəbiyyatında siyər və mövlud yazma ənənəsində bir cığır açmış" [9, s. 270]. Mustafa Zərir "Siyərün-Nəbi" əsəri ilə öz dövründə məşhur olduğu kimi, sonrakı əsrlərdə də bir sıra şairləri siyər yaradıcılığına sövq etmişdir. Peyğəmbərin həyatına həsr olunmuş siyərlər sonrakı yüzillərdə daha da inkişaf etdirilmiş, çeşidli siyər və mövludlar yazılmış, Anadolu və müsəlman türkləri arasında geniş yayılan mövlud, siyər yazma ənənəsinə öncüllük etmiş və özündən sonrakı nəslə böyük təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Qəhrəmanov C., Xəlilov Ş. Mustafa Zərir.Yusif və Züleyxa. Bakı: Elm, 1991.
2. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. 2 cildd. I hissə. Bakı: Maarif, 1979.
3. Nağısoylu M. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti. Bakı, Elm, 2000.
4. Ayhan T. Siyer yazıçılığı ve türklerin siyer ilmine katkıları. Uluslararası Sosyal Araştırmalar Dergisi.Volume: 3 Issue: 15.
5. Banarlı N. S. Resimli türk edebiyyatı tarihi. İstanbul: Milli Eğitim Basım Evi, 1983.
6. ÖzfıratB. Türk edebiyyatının manzum ilk siyeri: Velinin Siretün-Nebisi.Divan Edebiyatı Araştırmaları Dergisi 12, İstanbul: 2014.
7. Mustafa Darir. Siyer-i-nebi.Peyğamberimizin hayatı. 2 cilt. (Yayına hazırlayan:Selman Yılmaz). İstanbul, 2004.
8. Dikmen Melek. Bahattin Yaman.Salman Farsı in the Text and Illustratıons Of Siyar-i Nabi Manuscript Dated 1595// SDÜ Fen Edebiyat Fakültesi SDU Faculty of Arts and Sciences Sosyal Bilimler Dergisi Journal of Social Sciences, Nisan 2013, Sayı:28.
9. Erkan Mustafa. Siretü'n-nebi. İslam Ansiklopedisi. Türkiye Diyanet Vakfi. İslam Araştırmaları Merkezi. Cilt: 37.

EXAMPLE OF MEDIEVAL TURKIC-LANGUAGE RELIGIOUS TRANSLATION LITERATURE THE WORK "SIYARUN-NABI"

SUMMARY

The foundation of translation work in Azerbaijan was laid in the Middle Ages during the teaching of the Quran and Sharia in suburban madrasas and schools. Thus, "the Azerbaijani language entered the madrasas organized in the cities of Azerbaijan in the 8th-11`th centuries and was able to occupy a certain position there as a means of teaching, although not as a subject. There is no doubt that in the process of teaching and learning in the madrasas, books and texts written in Arabic or Persian were translated into the native language in various ways. In the early periods, the oral translations of the teachers were written by the students.

One of the prominent representatives of medieval translation literature was the representative of the Eastern Anatolian literary school of the 14`th century, Gazi Mustafa Zarir from Erzurum. The work "Siyarun-Nabi", which is considered one of the important examples of Azerbaijani-Turkish translation literature, is the largest in terms of volume by the writer and the most valuable work in terms of studying the history of the Islamic religion.

Keywords: *Middle Ages, translation, religious work, Mustafa Zarir, "Siyarun-Nabi"*

ПРИМЕР СРЕДНЕВЕКОВОЙ РЕЛИГИОЗНОЙ ЛИТЕРАТУРЫ, ПЕРЕВЕДЕННОЙ НА ТУРЕЦКИЙ ЯЗЫК: ПРОИЗВЕДЕНИЕ «СИЯРУН-НАБИ»

РЕЗЮМЕ

Основа переводческой деятельности в Азербайджане была заложена в Средние века во время преподавания Корана и шариата в пригородных медресе и школах. Так, азербайджанский язык вошел в медресе, организованные в городах Азербайджана в VIII-XI веках, и смог занять там определенное место как средство обучения, хотя и не как предмет. Несомненно, в процессе обучения в медресе книги и тексты, написанные на арабском или персидском языках, переводились на родной язык различными способами. В ранние периоды устные переводы учителей записывались учениками.

Одним из видных представителей средневековой переводческой литературы был представитель восточно-анатолийской литературной школы XIV века Гази Мустафа Зарир из Эрзурума. Произведение «Сияр-ун-Наби», которое считается одним из важных образцов азербайджано-тюркских переводческой литературы, является самым объемным произведением автора и наиболее ценным трудом с точки зрения изучения истории исламской религии.

Ключевые слова: *Средневековье, перевод, религиозное творчество, Мустафа Зарир, «Сияр-ун-Наби».*

Vahidə CƏFƏRZADƏ*

MUSTAFA ZƏRİRİN "FÜTUHÜŞ-ŞAM" VƏ "SİYƏRÜN-NƏBI" ƏSƏRLƏRİNDƏ QADIN OBRAZLARI: TARİXİ HƏQİQƏTDƏN BƏDİİ TƏSVİRƏ

XÜLASƏ

XIV əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mustafa Zəririn yaradıcılığı İslam tarixinə dair hadisələrin bədii və epik təsviri baxımından müstəsna əhəmiyyət kəsb edir. Müəllif həm "Siyərin - Nəbi", həm də " Fütuhüş-Şam" əsərlərində tarixi faktları ana dilimizin zənginliyi ilə qələmə alarkən, qadın mövzusuna xüsusi həssaslıqla yanaşmışdır. Zəririn təsvirində qadın təkcə ailə daxilində deyil, həm də İslam düşüncə sisteminin formalaşmasında, elmi və mənəvi dəyərlərin qorunmasında, hətta döyüş

* AMEA Nəsimi adına Dilçilik İnstitutu,Azərbaycan dili tarixi şöbəsinin aparıcı elmi işçisi

meydanlarında mühüm tarixi qərarların verilməsində fəal iştirak edən mütəfəkkir və qəhrəman bir sima kimi
çıxış edir.

İslam intibahı və düşüncə tarixi haqqında danışarkən, yaddaşlar çox vaxt yalnız kişi mütəfəkkirlərin adlarını canlandırır. Lakin tarixin səhifələrini vərəqlədikcə bu düşüncə binasının hər kərpicində qadın zəkasının və iradəsinin izlərini görmək mümkündür. İslamın ilk dövrlərindən etibarən qadınlar təkcə bilginin ötürücüsü deyil, həm də fəlsəfi və hüquqi sistemlərin formalaşmasında əsas hərəkətverici qüvvələrdən biri olmuşlar. Bu məqalədə biz İslam coğrafiyasında dərin izlər buraxmış tarixin görünməyən qəhrəmanlarını işıqlandıracağıq.

Açar sözlər: *Mustafa Zərir, İslam tarixi, peyğəmbər, qadın, ana, övlad, fədakar, cəsarət.*

XIV əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mustafa Zəririn yaradıcılığı İslam tarixinə dair hadisələrin bədii və epik təsviri baxımından müstəsna əhəmiyyət kəsb edir. Müəllif həm "Siyərin - Nəbi", həm də "Fütuhüş-Şam" əsərlərində tarixi faktları ana dilimizin zənginliyi ilə qələmə alarkən, qadın mövzusuna xüsusi həssaslıqla yanaşmışdır.

Zəririn təsvirində qadın təkcə ailə üzvi kimi deyil, həm də İslam düşüncə sisteminin formalaşmasında, elmi və mənəvi dəyərlərinqorunmasında, hətta döyüş meydanlarında mühüm tarixi qərarların verilməsində fəal iştirak edən qəhrəman bir sima kimi çıxış edir. İslam intibahı və düşüncə tarixi haqqında danışarkən, yaddaşlar çox vaxt yalnız kişi mütəfəkkirlərin adlarını canlandırır. Lakin tarixin səhifələrini vərəqlədikcə bu düşüncə binasının hər kərpicində qadın zəkasının və iradəsinin izlərini görmək mümkündür. İslamın ilk dövrlərindən etibarən qadınlar təkcə bilginin ötürücüsü deyil, həm də fəlsəfi və hüquqi sistemlərin formalaşmasında əsas hərəkətverici qüvvə olmuşlar. Bu məqalədə biz İslam coğrafiyasında dərin izlər buraxmış tarixin görünməyən qəhrəmanlarını işıqlandıracağıq. Hər iki əsərdə ana obrazı sadəcə uşaq böyüdən deyil, həm də mənəviyyətin qaynağıdır. Məsələn: Həzrəti - Əminə surətində biz böyük bir vüqar, səbir görürük. O, övladının gələcəkdəki ucalığını hiss edən və onu bu yola hazırlayan müəllim kimidir. İslam tarixində Həzrəti- Əminə həm də güclü xarakteri olan bir qadındır. Əminə xanım öz dövrünün ən hörmətli, nüfuzlu ailələrindən birinə mənsub idi. O, təkcə ailəsinin adı ilə deyil, öz əxlaqı və ağlı ilə seçilirdi. Bu da göstərir ki, İslamdan əvvəl də ərəb cəmiyyətində yüksək mənəviyyata malik qadınlar var idi və Əminə xanım da məhz buna gözəl nümunədir.

Siyər kitablarında onun hamiləlik vaxtı gördüyü yuxular və hiss etdiyi nurdan danışılır. O, sadəcə bir övlad dünyaya gətirməyib, həm də gələcəkdə dünyanı dəyişəcək bir inqilabın – İslamın ilk müjdəçisini dünyaya bəxş edib. Əminə xanım bu böyük vəzifəni daxilən hiss edən və ona hazır olan bir ana idi. Həyat yoldaşı Həzrəti - Abdullahı gənc yaşında itirməsinə baxmayaraq, o sınmadı. Həzrəti- Əminə həyat yoldaşı vəfat etdikdən sonra balasını böyütdü və tərbiyə etdi. Oğlunu uzaq yol qət edərək atasının məzarını ziyarət etməyə apardı. Bu, onun həm vəfalı , həm də iradəli bir qadın olduğunu göstərir. Həzrəti-Əminənin vəfat etməzdən əvvəl altı yaşlı oğluna xitabən söylədiyi son sözlər sıradan bir vida deyil, hikmətamiz bir nəsihətdir. O, bu sözlər ilə sadəcə bir ana kimi deyil, həyatın və ölümün mənasını dərk etmiş müdrik bir qadın kimi çıxış edir: "Hər yeni köhnələcək, hər yaşayan öləcəkdir. Mən də öləcəyəm, lakin adım əbədi qalacaq. Çünki mən dünyaya xeyirli bir övlad bəxş etdim" (Cəfərzadə: 2025, s.210-212).

Həzrəti-Əminə obrazı bizə göstərir ki, İslamın təməlində qərarlaşan bu qadın həm soylu, həm dözümlü, həm də gələcəyi görməyi bacaran müdrik bir anadır.

Körpə Məhəmmədə süd verən Həlimə xatunun timsalında isə əziyyətə qatlaşan, övlad üçün hər çətinliyə dözən şəfqət dolu ana obrazı xüsusi əhəmiyyət kəsb edir.

Peyğəmbərimizin (s.ə.s) usaqlıq dövrünün ən mühüm şəxsiyyətlərindən biri olan Həlimə xatun, fədakarlığı və sevgisi ilə bu tarixin silinməmiş bir izinə çevrilmişdir.

Mustafa Zəririn "Siyərün-Nəbi" əsərində Həlimə xatun (Həlimə əs-Sadiyə) obrazı sadəcə bir süd anası deyil, həm də ilahi lütfün və bərəkətin təcəssümü kimi təsvir olunur. Zəririn təhkiyəsində Həlimənin həyatı Peyğəmbərimizi (s.ə.s) qəbul etdikdən sonra tamamilə dəyişir. Əsərdə qeyd olunur ki, Həlimə Bəni-Səd qəbiləsindən gələrkən cismən zəif, imkansız bir qadın idi. Kiçik Məhəmmədi qucağına alan andan etibarən həm özünün, həm də dəvəsinin südü bərəkətləndi, uşaqlar doyunca yedi, evi isə ruzi ilə doldu. Bu,

Həlimə obrazına "seçilmiş və xeyir-dualı qadın" adını qazandırır. "Siyərün-Nəbi"də Həlimənin daxili aləmi çox canlı olaraq verilir. O, süd verdiyi körpənin adi bir uşaq olmadığını ilk andan hiss edir. Həlimə xatun sanki gələcəyi qabaqcadan sezirdi.O, Peyğəmbərimizin (s.ə.s) üzündəki nuru ve fərqliliyi görüb onu hər bir təhlükədən qorumağa çalışırdı. İslamın təməlində ədakar qadın obrazıdır. O öz övladlarından ayırmadığı bu körpəyə qarşı sonsuz bir sevgi ilə yanaşır. Çətinliklərə baxmayaraq, əmanətə sadiq qalır və onu büyük bir ehtiramla böyüdür.

Əsərin dilində Həlimə "Həlimə-yi Sadiyə" (səadətli Həlimə) kimi anılır. Onun körpəyə olan münasibəti yüksək əxlaq sahibi olduğunu göstərir. Müəllif onun timsalında ərəb cəmiyyətinin qadınlara xas olan ən nəcib xüsusiyyətlərini cəmləşdirib.

Mustafa Zərir "Siyərün-Nəbi"də həzrəti-Xədicə obrazını sadəcə tarixi bir şəxsiyyət kimi deyil, eyni zamanda vəhyin – o müqəddəs yükün ilk sarsıntısı zamanı Peyğəmbərin (s.ə.s.) qəlbinə sükunət gətirən mənəvi bir qala kimi təqdim edir. Zəririn üslubunda Xədicə vəhyin ağırlığı altında sarsılan bəşəriyyətin ilk dayağıdır. Hz. Xədicə ən çətin məqamlarda mənəvi dayaq kimi Peyğəmbərin yanında olur. İlk vəhy gəldiyi zaman Peyğəmbərin (s.ə.s.) keçirdiyi həyəcanı Zərir çox təsirli bir dillə belə təsvir edir: "Xədicə xatun ilərü gəldi, Rəsuluñ başını yerdən qaldurdı. Rəsuluñ əqli başına gəldi, gözin açdı. Xədicə xatun Rəsulı bağrına basdı. Ayıtdı: "Fədaki əbi, ya ummi, ya seyyidi, ya Muhəmməd (atam və anam sənə fəda olsun), saña nə vaqiə gəldi, nə ziyana sataşduñ və nəyə uğraduñ!? Bir xəbər ver, eşidəyim", – didi" (Cəfərzadə, 2025, s. 128).

Onun Peyğəmbərimizə xitabən söylədiyi "Bir xəbər ver, eşidəyim" sözləri həm bir həyat yoldaşının şəfqətini, həm də gələcəkdə din yolunda mübarizənin sarsılmaz sadiqliyini nümayiş etdirir. İslamdan əvvəlki cahiliyyə dövründə belə Xədicə binti Xuveylid öz əxlaqı ilə seçilirdi. Əsərlərdə o, "Tahirə" ləqəbi ilə təsvir edilir ki, bu da onun mənəvi ucalığının nümunəsidir.

Müsəlmanların ən çətin illərində Xədicənin obrazı fədakarlıq simvolu səviyyəsinə yüksəlir. Siyər mənbələrində və hədis ədəbiyyatında Peyğəmbərimizin (s) həzrəti-Xədicəyə münasibəti sadəcə bir ailə başçısının xanımına olan münasibəti deyil, həm də dərin hörmət və mənəvi tərəfdaşlıq nümunəsi kimi təsvir olunur. Bu münasibəti bir neçə əsas məqamda görürük: Peyğəmbərimiz (s) həzrəti-Xədicənin vəfatından sonra belə onu heç vaxt unutmamış və hər fürsətdə onu xeyirlə yad etmişdir. Hətta evdə qurban kəsildiyi zaman ətin bir hissəsini mütləq Xədicənin sağlığında dostluq etdiyi qadınlara göndərərdi. Bu, onun xatirəsinə olan sonsuz sayğının təzahürü idi.

Peyğəmbərimiz (s) onun sevgisini Allahın bir lütfü kimi qiymətləndirirdi. Bir dəfə həzrəti-Xədicə haqqında danışarkən: "Mənə onun sevgisi ruzi olaraq verildi" ("İnni ruziqtu hubbəhə") buyurmuşdur (Cəfərzadə, 2025, s. 375–380). Bu, sevginin mənəvi bir nemət olduğunu göstərən ən gözəl ifadələrdən biridir. Həzrəti-Xədicə və Əbu Talib vəfat etdikdə həmin il İslam tarixində "Hüzün ili" adlandırılmışdır. Bu, Peyğəmbərimizin (s) həyatında Xədicənin nə dərəcədə böyük yer tutduğunu və onun yoxluğunun gətirdiyi kədəri göz önündə canlandırır.

Məkkənin ən zəngin qadınlarından biri olmasına baxmayaraq, o, bütün var-dövlətini İslam uğrunda xərcləmişdir. Mustafa Zəririn tərcümə etdiyi "Siyərün-Nəbi" əsərində hadisələr İslamın ilk illərini, vəhyin gəlişini və Məkkə dövrünün ağır sınaqlarını əhatə etdiyindən həzrəti-Xədicə obrazı burada sadəcə bir həyat yoldaşı deyil, həm də uzaqgörən tərəfdaş və mənəvi qala kimi təqdim olunur.

M. Zərir ikinci cilddə Peyğəmbərimizə ilk vəhy gəldikdə yaşadığı insani narahatlığı və Xədicə anamızın ona göstərdiyi qayğını olduqca bədiiləşdirilmiş və təsirli dillə təsvir etmişdir. Hz. Xədicə peyğəmbərliyin təsdiqində "insani şahidlik" məqamındadır. O, Hira mağarasından qayıdan Rəsuli-əkrəmi dinləyərək onun gözəl əxlaqını xatırladır və ona güvən verir.

Əsərdə Xədicə obrazı həm də məntiqli və araşdırmaçı bir qadın kimi önə çıxır. O, hadisənin mahiyyətini anlamaq üçün Peyğəmbərimizi öz əmisi oğlu, dövrün biliklisi Vəraqə bin Nofəlin yanına aparır. Xədicə xanım sadəcə hissiyyatı ilə deyil, həm də dövrün elmi və dini biliklərinə müraciət edərək bu böyük hadisənin – nübüvvətin həqiqətini üzə çıxarmağa çalışır.

Əsərdə həzrəti-Xədicənin evlilikdən sonra öz sərvətini Peyğəmbərimizə (s.ə.s.) təslim etməsi səhnəsi də İslam tarixinə həm bir fədakarlıq, həm də gələcək İslam dövlətinin maddi təməli kimi daxil olur. Əsərdən gətirdiyimiz nümunəyə nəzər salaq: "Xədicə xatun əmmüsi Vəraqəyə ayıtdı: "Ya əmmi, hərəm qapusında

bir münadi eyləgil. Qureyş cəmaəti içində münadi qılsun, çağırsun kim, Xədicə xatunuñ malı və mülki, ruzi və tavarı və əbidi, cüvarı, nə kim əlində vardur, zahirdə və batindədür. Hər nəyə kim gücü yetərsə, əgər nəqd, əgər cins, cəmi'isini Muhəmmədə verdi. Məhəmmədi cəmi'i malına və mülkinə məlik eylədi, deyü tamam şəhr içində münadi qılsun", – didi" (Cəfərzadə, 2025, s. 284).

M.Zəririn təsvirində Xədicə xanım bütün ticarət karvanlarını, qullarını və nağd sərvətini Rəsulullahın ixtiyarına verir. Xədicə xanım bu addımı ilə Peyğəmbərimizi (s.ə.s.) ticarət qayğılarından azad edir, ona mənəviyyat və təfəkkür üçün lazım olan zamanı və imkanı qazandırır.

Mustafa Zərir "Fütuhüş-Şam" və "Siyərün-Nəbi" kimi klassik əsərlərində erkən İslam dövrünün qadın obrazını sadəcə ev mühiti ilə məhdudlaşdırmır; onu həm fədakar bir ana, vəfalı həyat yoldaşı, həm də cəsur bir mücahidə kimi təqdim edərək bütöv bir şəxsiyyət olaraq təsvir edir.

Qadın burada yalnız evin xanımı deyil. Məsələn, həzrəti-Xədicə ən çətin anlarda öz inamı ilə Peyğəmbərimizin (s.ə.s.) ən böyük dəstəkçisinə çevrilir. Zərir onun vəfasını və fədakarlığını çox təsirli bir dillə təqdim edir. O, hər kəsin tərəddüd etdiyi anda Peyğəmbərimizə ilk inanan şəxsdir. M.Zərir onun bu qətiyyətini sarsılmaz iman və sevgi ilə təsvir edir. Peyğəmbərimiz çətinliklərlə üzləşəndə Xədicə xanım həmişə onu sakitləşdirən, ona ruh yüksəkliyi verən mülayim bir həyat yoldaşı kimi görünür. Əsərdə onun var-dövlətini və rahatlığını bu yol uğrunda fəda etməsi böyük sədaqət nümunəsi kimi göstərilir.

Xədicə xanım həm də uzaqgörən bir qadındır. O, təkcə ailə daxilində deyil, baş verən hadisələrdə də öz müdrikliyi ilə həyat yoldaşının yanında olur. O, çətin günlərin yoldaşı, sarsılmaz bir arxa və sevgi dolu bir sirdaşdır.

Əsərdə maraqlı obrazlardan biri də həzrəti-Ayişədir. Şamın fəthi illərində səhabələr və sərkərdələr döyüş qaydaları, əsirlərlə rəftar və qənimətlərin bölgüsü kimi məsələlərdə bilgini ondan alırdılar. Peyğəmbərimizdən gələn sünnəni ən dəqiq şəkildə ondan öyrənirdilər. Mustafa Zəririn "Fütuhüş-Şam" əsərində Həzrəti-Ayişənin həzrəti-Əbu Bəkrlə söhbəti onun həm uzaqgörənliyini, həm də İslam dövlətinin taleyi ilə bağlı necə dərin düşündüyünü göstərir. Zərir bu səhnəni sadəcə quru tarix kimi deyil, klassik Azərbaycan nəsrinin gözəl nümunəsi kimi təqdim edir.

Mustafa Zərir "Fütuhüş-Şam" əsərini tərcümə edərkən klassik Vaqidi rəvayətlərinə əsaslansa da, bura öz bədii təsvirlərini və xalq dilinə yaxın ifadələrini qataraq mətni daha oxunaqlı etmişdir. Əsərdə Əbu Bəkrin sancağı Səid ibn Xalidə verməsi və yaranan narazılıqlar zamanı qızı Ayişə ilə məsləhətləşməsi kimi məqamlar xüsusi canlılıqla təsvir olunur. Burada Ayişənin:

"Haşa ki, əmirəlmöminin Ömərin müsəlmanlara qərəzi ola, anun ol şəfqətindəndir, – söylədi, – ey ata, Ömərin rəyinə və tədbirinə qəlbin mütməin olsun ki, ol naseh kişidir", – dedi (FŞ, 10b).

Bu nümunədə Ayişə anamızın uzaqgörənliyini və hadisələrə münasibətdəki müdrikliyini görürük. O, yaxşı bilirdi ki, Ömərin zahirən sərt görünən davranışlarının arxasında ümmətin rifahı və imanın qorunması qayğısı dayanır.

Əsərdə yaddaqalan qadın obrazlarından biri də Fatimə bint Əsəddir (s.ə.). O, İslam tarixində həm Peyğəmbərimizin (s.) həyatında, həm də İmam Əlinin yetişməsində silinməz izlər qoymuş müstəsna bir şəxsiyyətdir. Fatimə binti Əsəd yalnız İmam Əlinin deyil, həm də İslam peyğəmbərinin uşaqlıq və gənclik illərinin ən böyük mənəvi dayağı idi. Bu obraz fədakarlıq, iman və ana şəfqətinin ən ali nümunəsi kimi xarakterizə olunur.

Hz. Məhəmməd (s.) babası Əbdülmüttəlibin vəfatından sonra əmisi Əbu Talibin evinə köçəndə Fatimə binti Əsəd onu öz övladı kimi qarşıladı. Mustafa Zəririn "Siyərün-Nəbi" əsərində, xüsusilə Peyğəmbərimizin uşaqlıq və gənclik illərindən bəhs edən hissələrdə Fatimə binti Əsəd Məhəmməd əleyhissəlam haqqında çox təsirli sözlər deyir. O, Peyğəmbərimizi öz övladlarından ayırmamış və ona həmişə "gözümün işığı" deyərək müraciət etmişdir.

Fatimə xanımın hətta uşağın adını qoymağı və tərbiyəsini tamamilə Məhəmməd Peyğəmbərə (s.ə.s.) həvalə etməsi də ona olan sonsuz inamın və sevginin təzahürüdür. Nümunəyə nəzər salaq:

"Fatimə xatun ayıtdı: "Hələ bir əvə varalum, oturalum, veribiyalum Muhəmməd bin Abdullaha oqıyalum, gəlsün. Bu mübarək vələdi görsün. Zira Muhəmməd bizüm ilə qavl eyləmişdür kim, ər oğlan toğarsa, ol oğlan Muhəmmədüñ ola. Anı ol bəsləyə. Ol oğlana adı ol ura. Muhəmməd kəndüzi bilür. Hər nə ad kim diləsə, adasun", – didi" (Cəfərzadə: 2025, s. 95).

Fatimə binti Əsəd Peyğəmbərimizə elə bir qayğı göstərmişdi ki, Allah Rəsulu sonralar onun haqqında belə buyurmuşdu: "O mənim anamdan sonra anam idi. Öz övladları ac qaldığı halda o məni doyurar, öz övladlarının saçları tozlu olduğu halda o mənim saçımı darayıb ətirləyərdi" (SN, I, 148).

Fatimə binti Əsədin ucalığını göstərən ən böyük nişanələrdən biri də İmam Əlini dünyaya gətirərkən Kəbə divarının onun üçün yarılması və bu müqəddəs məkanda üç gün qonaq qalmasıdır. Bu hadisə həm ananın, həm də doğulacaq körpənin Allah qatındakı xüsusi məqamına işarə edir. O, İslamı ilk qəbul edən qadınlardan biri olmuşdur. Məkkənin ən çətin günlərində "Şibi-Əbi Talib" mühasirəsi zamanı Peyğəmbərimizin yanında möhkəm dayanmış, daha sonra isə yaşlı olmasına baxmayaraq Mədinəyə hicrət edərək imanını qorumuşdur.

Fatimə binti Əsəd vəfat etdikdə Peyğəmbərimiz (s.) öz köynəyini ona kəfən etmiş və qəbrinə girərək orada bir müddət uzanmışdı. Bu, həmin mübarək xanımın qəbir əzabından qorunması üçün Peyğəmbər sevgisinin təzahürü idi. Fatimə binti Əsəd İslamın təməl daşlarının qoyulmasında və Əhli-beyt məktəbinin formalaşmasında böyük rol oynamış, "anaların anası" tituluna layiq bir ömür sürmüşdür.

İslam dininə həm Fatimə binti Əsəd kimi böyük dəstək olanların, həm də Süməyyə kimi canını fəda edənlərin əməyi vardır. İslam tarixinin ən fədakar və cəsur simalarından biri olan həzrəti-Süməyyə imanı uğrunda canından keçən ilk şəhid kimi qəbul edilir. Onun həyatı çətinliklərə qarşı sarsılmaz iradənin və mənəvi gücün simvoludur.

Süməyyə binti Xəyyat İslamın ilk dövrlərində Məkkədə yaşayırdı. O, yaşlı və zəif bir qadın olmasına baxmayaraq, İslamı ilk qəbul edən yeddi nəfərdən biri idi. Süməyyə həyat yoldaşı Yasir və oğlu Əmmarla birlikdə bu yeni dinə qəlbən bağlanmışdı. Məkkənin müşrikləri, xüsusilə Bəni-Məxzum qəbiləsi, İslamı qəbul etdikləri üçün Yasir ailəsinə ağır işgəncələr verirdilər. Peyğəmbər onların yanından keçərkən: "Səbir edin, ey Yasir ailəsi. Sizin mükafatınız cənnətdir", – deyərək onlara təsəlli verirdi. O, İslam yolunda canını fəda edən ilk qadın şəhid olmuşdur. Nə yaşının çoxluğu, nə də fiziki zəifliyi onun inancından dönməsinə səbəb olmadı.

Vaqidi tərəfindən qələmə alınmış, Mustafa Zərir tərəfindən tərcümə edilmiş "Fütuhüş-Şam" əsəri İslamın ilk dövrlərindəki fəthlərdən bəhs edərkən döyüş meydanında göstərdikləri misilsiz şücaətlə seçilən qəhrəman qadınlara da xüsusi yer vermişdir. Bu əsərdə qadınlar sadəcə arxa cəbhədə yaralıların müalicəsi ilə məşğul olan köməkçilər deyil, həm də əllərində silah düşmənə qarşı vuruşan cəsur simalar kimi təqdim olunur.

Hülya binti Əzvər əsərdə ən çox diqqəti çəkən obrazlardan biridir. Qardaşı Dırar bin Əzvər bizanslılara əsir düşdükdə Hülya zireh geyinib üzünü niqabla bağlayaraq tanınmaz halda döyüşə atılır. O qədər cəsarətlə vuruşurdu ki, hətta Xalid ibn Vəlid kimi böyük bir sərkərdə belə onun kim olduğunu bilmədən döyüş bacarığına heyran qalır. O, təkcə qardaşını xilas etməmiş, bir neçə döyüşdə ordunu mübarizəyə həvəsləndirmişdir. Hülya İslam tarixində "Qara cəngavər" kimi tanınan obrazlardan biridir. Mustafa Zəririn əsərində onun qəhrəmanlıqları xüsusi bədii dillə təsvir edilmişdir.

Zəririn dilində Hülya obrazı həm klassik dastan qəhrəmanlarını xatırladır, həm də tarixi reallığa söykənir. O, yalnız bir bacı deyil, həm də mahir bir döyüşçüdür. Hülya digər müsəlman qadınlarla birlikdə əsir düşdüyü zaman onları bir yerə toplayaraq çadır dirəkləri ilə düşmənə müqavimət göstərmiş və azadlıqlarını qazanmışdır. Bu da onun yalnız fərdi cəsarətini deyil, həm də təşkilatçılıq qabiliyyətini nümayiş etdirir.

Qeyd etməliyik ki, M.Zəririn "Fütuhüş-Şam" əsəri tarixdə qadınların həm döyüş, həm də mənəvi cəbhədə nə qədər fəal rol oynadığını göstərən nadir qaynaqlardan biridir.

Əsərdə maraq doğuran qadın qəhrəmanlardan biri də məşhur Yərmuk döyüşündə iştirak edən Ümmü Hakim binti Harisdir. Deyilənə görə, o, toy gecəsinin ertəsi günü baş verən döyüşdə çadır dirəyi ilə yeddi Bizans əsgərini məğlub etmişdir. Onun bu cəsarəti İslam tarixində qətiyyət rəmzi kimi qalmışdır.

Əsərdə qadınların fəaliyyəti bir neçə istiqamətdə göstərilir. Psixoloji dəstək baxımından qadınlar geri çəkilmək istəyən əsgərləri tənqid edir, onları yenidən döyüşə qaytarırdılar. Düşmən qərargaha yaxınlaşdıqda isə qadınlar çadır dirəkləri və daşlarla müdafiə olunurdular. Onların cəsarəti əsgərləri daha da ruhlandırırdı. Əsgərlər: "Qadınlar vuruşursa, biz niyə qaçmalıyıq?" – deyirdilər.

“Fütuhüş-Şam” əsərində maraqlı qadın obrazlarından biri də Ümmü Əban binti Ütbədir. Onun hekayəsi həm kədərli, həm də heyranedici xarakter daşıyır. Ümmü Əban Peyğəmbərin səhabəsi Əban ibn Səid ilə evlənir. Onların toyu Şam fəthləri zamanı, döyüş bölgəsində baş tutur. Lakin xoşbəxtlikləri uzun sürmür; toyun səhəri günü baş verən döyüşdə həyat yoldaşı Əban ibn Səid bir Bizans oxçusu tərəfindən şəhid edilir. Nümunəyə nəzər salaq:

“Ol axirət xatunına xəbər verdilər ki, “Hələluñ Əban şəhid oldı”, – dedilər. Çün anı eşitdi, ah etdi. Sürdi Əban qatına gəldi. Gördi kim, cani-şirinini Həqqə təslim etmiş, “Əlhökmullah”, – dedi” (Cəfərzadə: 2022, s. 126).

Ərinin qanlı paltarlarını və silahlarını görən Ümmü Əban ağlamaqla kifayətlənmir. O, sevimli həyat yoldaşının şəhid olma xəbərini aldıqda belə deyir:

“Mən bu gün yas tutub ağlamayacağam! Çünki indi kədərlənmək vaxtı deyil, din uğrunda fədakarlıq günüdür. Mən ərimin intiqamını döyüş meydanında düşməndən alacağam!” (Cəfərzadə: 2022, s. 127).

Ümmü Əban çox mahir bir oxçu idi. O, ərini öldürən Bizanslı komandan Tumanı hədəfə alaraq oxu birbaşa onun gözünə vurur. Bu hadisə həm müsəlman ordusuna böyük ruh yüksəkliyi verir, həm də düşmən tərəfdə qorxu yaradır.

“Fütuhüş-Şam” əsəri bu kimi qadın surətləri vasitəsilə İslamın ilk dövrlərində qadınların fəthlərdəki rolunu, yalnız arxa cəbhədə deyil, həm də döyüş meydanında nə qədər təsirli olduqlarını göstərir.

“Fütuhüş-Şam” əsəri İslamın ilk dövrlərindəki qəhrəmanlıq hadisələrini həm tarixi faktlar, həm də bədii dillə əks etdirən mühüm mənbələrdən biridir. İslam düşüncə və qəhrəmanlıq tarixində qadın obrazlarını araşdırdıqda “Siyərün-Nəbi” əsərində təsvir olunmuş Peyğəmbərimizin bibisi həzrəti-Səfiyyə binti Əbdülmüttəlib xüsusi yer tutur. O, öz cəsarəti ilə İslamın qadın qəhrəmanlarından biri kimi yadda qalmışdır.

Hicrətin 5-ci ilində baş verən Xəndək döyüşü onun xarakterini ən parlaq şəkildə nümayiş etdirən və “Siyərün-Nəbi” əsərində xüsusi qeyd olunan hadisədir. Xəndək döyüşü zamanı müsəlman əsgərlər şəhərin müdafiəsi üçün xəndəklərin başında idilər. Mədinədəki qadınlar, uşaqlar və yaşlılar isə təhlükəsizliyi təmin etmək üçün “Fari” adı verilən qalaya yerləşdirilmişdi. Bəni-Qureyzə yəhudiləri müsəlmanlarla olan müqaviləni pozaraq xəyanət yolunu seçmişdilər.

Həzrəti-Səfiyyənin qalada olduğu bir vaxtda düşmən tərəfdən bir casus qalanın ətrafında dolaşaraq içəridə müdafiənin olub-olmadığını yoxlamağa başlayır. Səfiyyə qalada olan şair Həssan bin Sabitdən aşağı düşüb casusu zərərsizləşdirməsini istəyir. Lakin Həssan xəstəliyi və heç vaxt adam öldürmədiyi səbəbindən bunu edə bilmir. Bu məqamda həzrəti-Səfiyyə tərəddüd etmədən başına bir dəsmal bağlayaraq tanınmaz hala gəlir, əlinə bir çadır direyi alaraq qaladan aşağı enir. O, gizlicə yaxınlaşaraq casusu zərərsizləşdirir. Bu hadisə düşmən tərəfində “qalanın içində güclü müdafiə dəstəsi var” təəssüratı yaradır və beləliklə qalaya hücumun qarşısı alınır.

Qeyd etməliyik ki, həzrəti-Səfiyyə böyük sərkərdə Zübeyr ibn Əvvamın anası idi.

Mustafa Zəririn “Fütuhüş-Şam” əsərində təsvir olunmuş qadın obrazları həm cəsarəti, həm də mənəvi gücü ilə seçilir. Bu obrazlar arasında Əsma da (adətən Əbu Bəkr qızı Əsma nəzərdə tutulur) həm tarixi prototip, həm də ədəbi qəhrəman kimi mühüm yer tutur. Əsma obrazı həm mənəvi gücü, həm səbri, həm də ağlı ilə seçilir. Zərir Əsmanı sadəcə evdar bir qadın deyil, lazım gəldikdə silaha sarılan bir mücahid kimi təsvir edir.

Xüsusilə Yərmuq döyüşü və Şamın fəthi ilə bağlı hadisələrdə qadınların düşmən qarşısında geri çəkilməməsi, əsir düşən kişiləri xilas etmək üçün göstərdikləri rəşadət əsərin ən dinamik hissələrindəndir. Əsma əsərdə həm də bir bilici və nəsihətçi rolunda çıxış edir. Onun məsləhətləri, xüsusən çətin anlarda ətrafındakılara verdiyi mənəvi dəstək klassik ədəbiyyatda ideal qadın obrazının ən bariz göstəricilərindən biridir.

Haqqında yazdığımız qadınların hər biri İslamın ilk illərində fərqli bir qəhrəmanlıq simvoludur. “Fütuhüş-Şam” və “Siyərün-Nəbi” kimi abidələrdə rast gəldiyimiz qadın obrazları bizə göstərir ki, İslam tarixində qadın heç vaxt sadəcə kənarda dayanıb hadisələri izləməmişdir. Onlar tarixin ən çətin anlarında ön cəbhədə olmuşlar.

İslamın ən ağır günlərində həzrəti-Xədicə Peyğəmbərimizə həm maddi, həm də mənəvi dayaq olaraq sadiqlik və fədakarlıq simvoluna çevrilmişdir. Fatimə binti Əsəd Peyğəmbərimizi öz övladlarından ayırmadan böyüdərək İslamın ilk illərində ona ən böyük mənəvi dayaq olan fədakar ana kimi tarixə düşmüşdür. Əsma binti Əbu Bəkr hicrət zamanı öz cəsarəti və zəkası ilə qadının uzaqgörənliyini sübut etmişdir. Hülya binti Əzvər döyüş meydanında göstərdiyi qəhrəmanlıqla müsəlman qadınının cəsarətini və sarsılmaz iradəsini nümayiş etdirmişdir. Şəhid qadın olan Süməyyə və başqaları isə inancları uğrunda canlarından keçməyin ən ali nümunəsini ortaya qoymuşlar.

Hər iki əsərdə verilmiş qadın obrazları göstərir ki, İslam düşüncəsində qadın həm evin dirəyi, həm elmin qapısı, həm də vətənin müdafiəçisidir. Bu qadınların buraxdığı iz sadəcə keçmişin xatirəsi deyil, qadının cəmiyyətdəki uca məqamının sarsılmaz təməlidir.

Ədəbiyyat

1. Cəfərzadə, Vahidə. *Mustafa Zərir "Fütuhüş-Şam"*. Bakı: "Zərdabi Nəşr", 2022, 1200 s.
2. Cəfərzadə, Vahidə. *Mustafa Zəririn "Siyərün-Nəbi"*. II cild. Bakı: "Elm və təhsil", 2025, 484 s.

ЖЕНСКИЕ ОБРАЗЫ В ПРОИЗВЕДЕНИЯХ МУСТАФЫ ЗЕРИРА «ФУТУХЮШ-ШАМ» И «СИЕР-УН-НАБИ»: ОТ ИСТОРИЧЕСКОЙ ПРАВДЫ К ХУДОЖЕСТВЕННОМУ ОПИСАНИЮ

АННОТАЦИЯ

Творчество выдающегося представителя азербайджанской литературы XIV века Мустафы Зерира представляет исключительную важность с точки зрения художественного и эпического описания событий исламской истории. Автор, излагая исторические факты богатым родным языком в произведениях «Сиер-ун-Наби» и «Футухюш-Шам», проявляет особую чуткость к женской тематике.

В описании Зерира женщина предстает не только в рамках семьи, но и как мыслитель и героическая личность, принимающая активное участие в формировании исламской системы мышления, сохранении духовных и научных ценностей, а также в принятии важных исторических решений на полях сражений.

Когда речь заходит об исламском ренессансе и истории мысли, внимание исследователей зачастую сосредоточено лишь на именах мыслителей-мужчин. Однако при внимательном обращении к историческим источникам становится очевидным, что в основании интеллектуального здания исламской цивилизации лежат также разум, воля и деятельность женщин. С первых веков ислама женщины были не только передатчицами знаний, но и одной из главных движущих сил в формировании философских и правовых систем.

Данная статья ставит своей целью осветить деятельность незаметных героинь истории, оставивших глубокий след в исламском мире. Женские образы, представленные в таких произведениях, как «Футухюш-Шам» и «Сиер-ун-Наби», показывают, что женщины в исламской истории никогда не были пассивными наблюдателями, а напротив, занимали ведущие позиции в самые трудные и судьбоносные периоды истории.

В самые тяжелые времена ислама Хадиджа стала символом верности и самоотверженности, оказывая Пророку как материальную, так и духовную поддержку. Фатима бинт Асад, называвшая Пророка «светом моих очей», воспитала его как собственного сына и стала примером того, как материнская забота и нравственное воспитание способны влиять на ход истории. Асма бинт Абу Бакр своим мужеством и мудростью во время хиджры продемонстрировала дальновидность и силу характера мусульманской женщины.

Ключевые слова: *Мустафа Зерир, история ислама, пророк, женщина, мать, самоотверженность, героизм.*

TITLE (IN ENGLISH, ALL CAPITALS)
FEMALE FIGURES IN MUSTAFA ZARIR'S "FUTŪḤ AL-SHĀM" AND "SIYAR AL-NABĪ"

ABSTRACT

The works of Mustafa Zarir, a distinguished representative of fourteenth-century Azerbaijani literature, are of exceptional significance for their artistic and epic representation of events related to Islamic history. In both *Siyar al-Nabī* and *Futūḥ al-Shām*, the author presents historical realities through the richness of the native language while approaching the subject of women with particular sensitivity.

In Zarir's depiction, women emerge not only as members of the family but also as active participants in the formation of Islamic intellectual thought, in the preservation of spiritual and scholarly values, and even in the making of crucial historical decisions on the battlefield. In this respect, his works constitute important classical sources for tracing the role of women within the Islamic intellectual tradition.

When discussing the Islamic renaissance and the history of thought, scholarly attention is often limited to male intellectual figures. However, a closer examination of historical sources reveals that the intellectual edifice of Islamic civilization was also shaped by the intellect, determination, and agency of women. From the earliest periods of Islam, women were not merely transmitters of knowledge but also fundamental driving forces in the development of philosophical and legal systems.

This article aims to shed light on the often-overlooked heroines of history who left a profound imprint on the Islamic world. The female figures encountered in works such as *Futūḥ al-Shām* and *Siyar al-Nabī* demonstrate that women in Islamic history were never passive observers; rather, they consistently occupied leading positions during the most critical moments of history.

During the most challenging periods of Islam, Khadīja became a symbol of loyalty and sacrifice by providing both material and spiritual support to the Prophet. Fāṭima bint Asad, addressing the Prophet affectionately as "the light of my eyes," raised him as her own child and exemplified how maternal care and moral upbringing could shape the course of history. Asmāʾ bint Abī Bakr, through her courage and intelligence during the Hijra, demonstrated the foresight and resilience of Muslim women.

Keywords: *Mustafa Zarir, Islamic history, Prophet, women, mother, self-sacrifice, heroism.*

Hüsniyyə ÇOBANOVA*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİ:
TARİXİ, ELMİ ƏHƏMIYYƏTİ VƏ MÜASİR PERSPEKTİVLƏR

XÜLASƏ

Məqalədə 1926-cı ildə Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultaydan, türk xalqlarının elmi, mədəni və dil birliyinin təşəkkül tapmasından söhbət açılır. Bu qurultay, Sovet İttifaqının müxtəlif bölgələrində və xarici ölkələrdə yaşayan türk mənşəli xalqların nümayəndələrini bir araya gətirərək, onların ortaq problemlərini müzakirə etmək və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək məqsədi daşıyırdı. Bu qurultay yalnız dilçilik və filologiya baxımından deyil, eyni zamanda Türk dünyasının intellektual və mədəni birliyi üçün mühüm mərhələ halını aldı. Qurultayın ən mühüm qərarlarından biri ərəb əlifbasından imtina edərək latın qrafikasına keçid məsələsinin gündəmə gətirilməsi oldu. Türk dillərinin qohumluğu, dialektlərin təsnifatı, ortaq terminologiyanın yaradılması və tədris proqramlarının uyğunlaşdırılması kimi mövzular gündəmdə idi. Bu, türk xalqları arasında elmi əməkdaşlığın və ortaq elmi platformanın formalaşmasına zəmin yaratdı.

Qurultay, eyni zamanda, türk xalqları arasında milli kimliyin və ortaq tarixi yaddaşın möhkəmləndirilməsi baxımından da mühüm rol oynadı. Mədəni irsin qorunması, folklorun toplanması və öyrənilməsi, milli ədəbiyyatın inkişafı kimi məsələlər də diqqət mərkəzində idi. Bu, türk xalqları arasında həmrəyliyin və qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət etdi.

Açar sözlər: *Türkoloji qurultay, Türk xalqları, tarix, əlifba, elmi-məədəni*

*Heydər Əliyev adına Hərbi İnstitu, filologiya üzrə fəlsəfə doktoru,dosent. Email: cobanovahusniyye@gmail.com

Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Türk xalqlarının mədəni inteqrasiyasında mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyıb.

1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay dünya elmi və mədəni həyatında mühüm dönüş nöqtələrindən biri kimi tarixə düşmüş, türk xalqlarının elmi, mədəniyyətinin, tarixinin və dil birliyinin təşəkkül tapmasında mühüm mərhələ olmuşdur. Bu qurultay, Sovet İttifaqının müxtəlif bölgələrində və xarici ölkələrdə yaşayan türk mənşəli xalqların nümayəndələrini bir araya gətirərək, onların ortaq problemlərini müzakirə etmək və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək məqsədi daşıyırdı. Bu qurultay yalnız dilçilik və filologiya baxımından deyil, eyni zamanda Türk dünyasının mədəni birliyi üçün mühüm mərhələ halını aldı. Birinci Türkoloji Qurultayda çoxsaylı elmi məruzələr dinlənilmişdir. Qurultay materialları sübut edir ki, müzakirə mövzuları **dilçilik,** əlifba, terminologiya, etnoqrafiya və tarix sahələrini əhatə etmişdir.

Qurultayın işində Sovet birliyi məkanında yaşayan türk xalqları ilə yanaşı xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - aparıcı alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar və digər görkəmli müttəfəkirlər iştirak etmişlər.

Qurultayın 100-illiyi mövzusunda geniş elmi konfranslar təşkil etmək Türk dünyasında əməkdaşlığın güclənməsinə xidmət edəcəkdir.

Birinci Türkoloji Qurultay Türk birliyinin simvoludur **və** bu gün də türk dünyasında dil, mədəniyyət və tarixi sahələrdə əməkdaşlığın inkişafı üçün mühüm rol oynayır.

Birinci Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni həyatı üçün əsaslı bir dönüş nöqtəsi idi. Qurultayın elmi müzakirələri 20-ci əsrin sonunda və 21-ci əsrin əvvəllərində yenidən aktuallaşmış, onun əsas ideyaları və töhfələri bu gün də türkoloqlar tərəfindən tədqiq edilir. Qurultayın 100 illik yubileyi isə tarixi hadisənin yalnız bir keçmiş fakt kimi qalmadığını, həm də müasir dövrdə türk dünyası elmi fikrinin inkişafı üçün yeni perspektivlər açdığını göstərir. Qurultayda 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. Qurultaya Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğlu sədrlik etmişdir.

Qurultay iştirakçılarının sonrakı fəaliyyəti fəciəvi olmuşdur. Qurultayda iştirak edən 100-dən artıq iştirakçı sonradan pantürkizmdə ittiham edilərək represiyaya uğramışdır. Əksər alim və müttəfəkirlər həbs və fiziki məhvlə üzləşdilər.

Birinci Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı:

- Əlifba məsələsi;
- İmla-orfoqrafiya problemi;
- Termin məsələsi;
- Tədris-metodika məsələsi;
- Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
- Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
- Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Qurultayda müzakirə edilən mühüm məsələlərdən biri də türk xalqlarının ərəb əlifbasından imtina edərək latın qrafikasına keçid məsələsinin gündəmə gətirilməsi və türk dillərinin ümumi yazı sisteminin yaradılması məqsədini güdürdü. Qurultayın qərarına əsaslanaraq 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. Qurultayın qərarı ilə Sovetlər birliyinə daxil olan digər türk respublikalarında da ərəb əlifbasının yerinə latın qrafikalı yazıya keçildi.

Ərəb əlifbası türk dillərinin fonetik xüsusiyyətlərini tam əks etdirmədiyindən, bu dəyişiklik həm savadlılığın artırılması, həm də türk xalqları arasında yazılı ünsiyyətin asanlaşdırılması baxımından əhəmiyyətli idi. Qurultay bu istiqamətdə vahid əlifbanın hazırlanması üçün komissiya yaradılmasını qərara

aldı. Qurultay, eyni zamanda, türk xalqları arasında milli kimliyin və ortaq tarixi yaddaşın möhkəmləndirilməsi baxımından da mühüm rol oynadı. Mədəni irsin qorunması, folklorun toplanması və öyrənilməsi, milli ədəbiyyatın inkişafı kimi məsələlər də diqqət mərkəzində idi. Bu, türk xalqları arasında həmrəyliyin və qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət etdi.

Birinci Türkoloji Qurultay, türk dünyasının elmi və mədəni inteqrasiyası yolunda atılmış ilk sistemli və məqsədyönlü addım kimi tarixə düşmüşdür. Qurultayda qəbul edilən qərarlar sonrakı illərdə türk xalqları arasında əməkdaşlığın inkişafına, ortaq mədəni dəyərlərin formalaşmasına və milli özünüdərkin güclənməsinə ciddi təsir göstərmişdir. Bu tədbir, həm də Azərbaycanın türk dünyasında oynadığı mədəni və elmi liderlik rolunun bariz nümunəsidir. Birinci Türkoloji Qurultay türkoloqlar üçün böyük elmi əhəmiyyətə malik olmuşdur. Həmçinin, qurultay gələcəkdə təşkil olunacaq türkoloji qurultaylar üçün nümunə olmuş, Türkoloji elmin təməllərinin möhkəmlənməsinə təkan vermişdir.

2025-ci il oktyabrın 22-də Prezident İlham Əliyev tərəfindən Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə bağlı sərəncam imzaladı.

Qurultay türk xalqları arasında mədəni əlaqələrin gücləndirilməsi və ortaq mədəni irsin qorunması baxımından simvolik əhəmiyyət daşıyır. Bugünkü dövrdə türk dünyasının birliyi və ortaq dəyərlərinin təbliği üçün bir nümunə təşkil edir. Qısaca desək, Birinci Türkoloji Qurultay yalnız tarixdə qalmayıb, bu gün də türk dilləri, mədəniyyəti, elmi əlaqələr üçün əsaslı dönüş nöqtəsi rolunu oynayır. Qurultayın latın qrafikasına keçid ideyası XX əsrdə sovet dövründə dayandırılsa da, müasir türk dünyasında bu məsələ yenidən aktualdır**.** Bu istiqamətdə türk dövlətləri arasında əlifbanın ümumiləşdirilməsi üçün işlər aparılır və qurultayda müzakirə olunan ideyalar bugünkü ortaq əlifba təşəbbüsləri üçün əhəmiyyətlidir. Bu da göstərir ki, qurultayın qərarlarının təsiri müasir dövrdə də özünü göstərməkdədir. Dilçi alim Möhsün Nağısoylu yazır: "Yeni əlifbanın həyata keçirilməsi təkcə Azərbaycanla məhdudlaşa bilməzdi. Ona görə ki, məqsəd yeni əlifbanı qəbul etməklə türk xalqlarını birləşdirməyə nail olmaq idi. Məhz türk xalqlarının bir-birinə yaxınlaşmasını təmin etmək üçün əsaslı islahatlardan biri əlifba ilə bağlı idi. Yəni yeni əlifbaya keçmək mümkün qədər türk xalqlarının bir-biri ilə yaxınlaşmasını, birləşməsini təmin edə bilərdi. Doğrudan da, əlifba məsələsi mühüm məsələ idi. Həm də həyati məsələ idi". [1, s.156]

Fazil Köprülü-zadə qurultaydakı çıxışında vurğulamışdı ki, "Türk xalqlarının ədəbi dillərinin inkişafı və ümumi terminologiyanın formalaşması gələcək türkologiyanın əsasını təşkil edəcək." [1, s.155]. Dilçi alim Elçin İbrahimovun fikrincə, bu qurultayın təsiri həm də ona görə əhəmiyyətlidir ki, "Qurultayda müzakirə olunan ümumi ədəbi dil və əlifba məsələləri müasir türkologiyanın hələ də aktual olduğu problemlərdir."

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 18 fevral 2016-cı il tarixində Birinci Türkoloji Qurultayın 90 illik yubileyini keçirmək haqqında xüsusi tədbirlər planı imzalayıb. 2016-cı il türkoloji qurultayın 90 illik yubileyinin layiqincə keçirilməsi haqqında müvafiq institutlara və qurumlara göstərişlər verilmişdir.

XX əsrin əvvəllərində türk xalqları arasında milli oyanış prosesi güclənmiş, dil, mədəniyyət, ədəbiyyat sahələrində islahatlara ehtiyac yaranmışdı. Qurultayın əsas məqsədi türk dillərinin elmi təsnifatını aparmaq, ortaq əlifba məsələsini müzakirə etmək və mədəni əməkdaşlığı gücləndirmək idi. Muxtar Kazımoğlu İmanov yazır: "Bildiyiniz kimi, dil problemi qurultayda müxtəlif aspektlərdən müzakirəyə cəlb olunurdu. Məsələn, türk dillərinin qohumluğunun sistematik araşdırılması, türk dillərində ədəbi dil məsələsi və s. Dil məsələsi Qurultayda yazı məsələsi ilə bir yerdə müzakirə edilib. Yazı məsələsi isə, təbii ki, ilk növbədə əlifba, orfoqrafiya, imla, tədris məsələləri ilə bağlıdır. Yəni demək olar ki, bu Qurultayın baş mövzusu dil və dillə bağlı məsələlər olubdur. [1, s.11]

Akademik İsa Həbibbəyli qeyd edir ki, Birinci Türkoloji Qurultay türk xalqlarının milli oyanış və özünüdərkində mühüm rol oynayıb. Tariximizə öz əbədi möhürünü vuran, dəyərli töhfələrini verən I Türkoloji Qurultayda qaldırılan ortaq türk əlifbası, ortaq türk dili, ortaq türk tarixi, ortaq türk ədəbiyyatı, ortaq türk terminologiyası kimi qlobal məsələlər bu gün də olduqca aktualdır, əhəmiyyətlidir və bu sahədə artıq müəyyən işlərə start verilmişdir. "I Türkoloji Qurultayın Bakıda keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir çox elmi-mədəni sahələrdə olduğu kimi türkologiya elmində də Azərbaycan

öndə gedirdi, birinci idi. Ölkədə bu istiqamətdə tanınmış və nüfuzlu söz sahibləri, elm adamları çoxdan bəri səmərəli fəaliyyət göstərirdi" [1, s.21]

Bu gün Türkiyə ilə Azərbaycanın, eləcə də başqa türk ölkələrinin əlaqələri hər bir sahədə olduğu kimi elm sahəsində də genişlənməyə başlamışdır. [1, s.276]. Birinci Türkoloji Qurultay yalnız bir tədbir kimi qalmadı, o, sonrakı illərdə dilçilik və türkologiya elminin inkişafına təsir göstərdi. Əslində, qurultayın qərarları əsasında Latin əlifbasına keçid siyasəti Sovet dövründə çoxsaylı türk respublikalarında həyata keçirildi.

2026-cı ildə keçiriləcək Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş tədbirlər bu tarixi hadisənin elmi və mədəni əhəmiyyətini yenidən gündəmə gətirdi. Azərbaycan və digər Türk dövlətləri bu yubileyi yüksək səviyyədə qeyd edir və bu, bir daha türkologiyanın elmi baxımdan hüquqi və mədəni əsaslarının yenidən nəzərdən keçirilməsinə zəmin yaradır.

30-cu illərin sonunda Sovet İttifaqı rəhbərliyi tərəfindən latın qrafikalı əlifbanın dəyişdirilməsi yönündə işlərə başlanıldı. [3] Rəsmi açıqlamaya görə latın əlifbasından kiril qrafikasına keçid "zəhmətkeşlərin ümumi istəyi" adı altında pərdələndi. [4]

Birinci Bakı Türkoloji Qurultayına dövlət səviyyəsində hüquqi qiymət Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra verildi. 2005-ci ilin noyabr ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mötəbər tarixi hadisənin 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı.[5] Həmin sərəncama uyğun olaraq 2006-cı ildə Bakıda Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirildi.[4]

ƏDƏBİYYAT

1. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il), Bakı, Elm və təhsil nəşriyyatı, 2016 (PDF).
2. Hacıyev T., Türklər üçün ortaq ünsiyyət dili, Bakı, 2013.
3. Çobanzadə.Б. Türk dili, Bakı, Azərnəşr, 1928, 219 s.
4. Çobanov M., I Türkoloji Qurultay və türk dillərinin müasir problemləri, Bakı, 2006.
5. Xəlilov B., Birinci Beynəlxalq türkoloji qurultay, Bakı, Elm, 1999.
6. Xəlilov B., Türkologiyanın intibah dövrü, Bakı, 2001.

Усния ЧОБАНОВА,
доктор философии по филологии,
Доцент Военного Института имена Гейдара Алиева

100-ЛЕТИЕ ПЕРВОГО КОНГРЕССА ПО ТУРКОЛОГИИ: ИСТОРИЧЕСКОЕ, НАУЧНОЕ ЗНАЧЕНИЕ И СОВРЕМЕННЫЕ ВЗГЛЯДЫ.

РЕЗЮМЕ

В статье рассматривается Первый тюркологический конгресс, состоявшийся в Баку в 1926 году, как событие, способствовавшее формированию научного, культурного и языкового единства тюркских народов. Этот конгресс собрал представителей тюркских народов, проживающих в различных регионах Советского Союза и зарубежных стран, с целью обсуждения общих проблем и определения направлений их будущего развития. Конгресс стал важным этапом не только в лингвистическом и филологическом плане, но и для интеллектуального и культурного единства тюркского мира.

Одним из важнейших решений конгресса стало включение в повестку дня вопроса о переходе от арабского алфавита к латинскому. В повестку дня также вошли такие темы, как родство тюркских языков, классификация диалектов, создание общей терминологии и гармонизация образовательных программ. Это заложило основу для формирования научного сотрудничества и общей научной платформы среди тюркских народов.

Конгресс также сыграл важную роль в укреплении национальной идентичности и общей исторической памяти среди тюркских народов. В центре внимания оказались вопросы сохранения культурного наследия, сбора и изучения фольклора, а также развития национальной литературы. Это способствовало углублению солидарности и взаимопонимания между тюркскими народами.

Ключевые слова: *Тюркологический конгресс, тюркские народы, история, алфавит, наука и культура.*

Husniyya CHOBANOVA

100TH ANNIVERSARY OF THE FIRST TURCOLOGY CONGRESS: HISTORICAL, SCIENTIFIC SIGNIFICANCE AND MODERN PERSPECTIVES

SUMMARY

The article discusses the First Turkological Congress held in Baku in 1926, the formation of the scientific, cultural and linguistic unity of the Turkic peoples. This congress brought together representatives of the Turkic peoples living in various regions of the Soviet Union and foreign countries, aimed to discuss their common problems and determine the directions of their future development. This congress became an important stage not only in terms of linguistics and philology, but also for the intellectual and cultural unity of the Turkic world.

One of the most important decisions of the congress was to put on the agenda the issue of switching from the Arabic alphabet to the Latin script. Topics such as the kinship of Turkic languages, the classification of dialects, the creation of a common terminology and the harmonization of educational programs were on the agenda. This laid the foundation for the formation of scientific cooperation and a common scientific platform among the Turkic peoples.

The congress also played an important role in strengthening national identity and common historical memory among the Turkic peoples. Issues such as the preservation of cultural heritage, the collection and study of folklore, and the development of national literature were also in the spotlight. This served to deepen solidarity and mutual understanding among the Turkic peoples.

Keywords: *Turkological Congress, Turkic peoples, history, alphabet, scientific and cultural.*

Dilbər BƏŞİROVA*

HUMANİTAR SAHƏLƏRDƏ MÜASİR TERMİNLƏRİN AZƏRBAYCAN DİLİNƏ ADAPTASİYASI

XÜLASƏ

Humanitar sahələrdə müasir terminlərin Azərbaycan dilinə adaptasiyası mürəkkəb prosesdir və həm dilçilik, həm də konseptual çətinlikləri əhatə edir. Psixologiya, pedaqogika, sosiologiya və mədəniyyətşünaslıq sahələrində yeni anlayışlar əsasən ingilis, fransız və alman dillərində yaranır. Adaptasiya üsulları birbaşa alınma, semantik tərcümə və hibrid yanaşmalar vasitəsilə həyata keçirilir. Əsas problemlər terminoloji vahidliyin olmaması, səthi tərcümə və dil normalarına uyğunluğun zəifliyidir. Effektiv adaptasiya konseptual aydınlığı təmin edir və Azərbaycan dilinin elmi identliyini gücləndirir.

Açar sözlər: *Azərbaycan dili, adaptasiya, termin, tərcümə*

Qloballaşma proseslərinin intensivləşməsi, beynəlxalq elmi əməkdaşlığın genişlənməsi və rəqəmsal texnologiyaların sürətli inkişafı humanitar elmlərin terminoloji bazasına ciddi və çoxşaxəli təsir göstərmişdir. Xüsusilə psixologiya, pedaqogika, sosiologiya, fəlsəfə, dilçilik, mədəniyyətşünaslıq və kommunikasiya kimi sahələrdə yeni elmi yanaşmaların, metodoloji modellərin və konseptual çərçivələrin meydana çıxması yeni terminlərin yaranmasını zəruri etmişdir. Bu anlayışların böyük əksəriyyəti elmi mərkəzlərin üstünlük təşkil etdiyi ingilis, fransız və alman dillərində formalaşır və beynəlxalq elmi

* Bakı Slavyan Universiteti. Email: dilber.beshirli@gmail.com

dövriyyəyə məhz bu dillər vasitəsilə daxil olur. Nəticədə, həmin terminlərin Azərbaycan elmi mühitinə daxil edilməsi və milli elmi diskursa inteqrasiyası zəruri bir ehtiyaca çevrilir.

Bu terminlərin Azərbaycan dilinə uyğun şəkildə adaptasiyası isə yalnız leksik və ya qrammatik çevirmə prosesi ilə məhdudlaşmır. Məsələ daha geniş kontekstdə elmi düşüncə tərzinin formalaşması, anlayışların milli elmi ənənələrə uyğunlaşdırılması, terminoloji ardıcıllığın təmin edilməsi və Azərbaycan dilinin humanitar sahələrdə funksional elmi dil kimi inkişafı ilə birbaşa bağlıdır. Terminlərin düzgün və sistemli adaptasiyası elmi mətnlərin anlaşıqlığını artırır, akademik ünsiyyəti asanlaşdırır və milli terminoloji müstəqilliyin möhkəmlənməsinə xidmət edir.

Müasir dövrdə isə terminlərin çox vaxt plansız və nəzarətsiz şəkildə birbaşa alınması, eyni anlayışın müxtəlif mənbələrdə fərqli tərcümə və yazılış variantlarında təqdim olunması, eləcə də normativ terminoloji yanaşmanın kifayət qədər formalaşmaması humanitar sahələrdə anlayış qarışıqlığına səbəb olur. Bu cür qeyri-sabitlik elmi mətnlərin keyfiyyətinə mənfi təsir göstərir, tədqiqatçılar arasında terminoloji uyğunsuzluq yaradır və elmi biliklərin tədris və tətbiq prosesini çətinləşdirir. Məhz bu səbəbdən müasir terminlərin Azərbaycan dilinə adaptasiyası məsələsi bu gün yalnız nəzəri dilçilik problemi kimi deyil, eyni zamanda praktik elmi fəaliyyətin, təhsil sisteminin və akademik ünsiyyətin aktual və strateji əhəmiyyətə malik bir sahəsi kimi qiymətləndirilir [3, s.80].

Humanitar sahələrdə terminlərin formalaşması əsasən cəmiyyətin sosial quruluşu, insan davranış modelləri, psixoloji proseslər, mədəni dəyərlər və tarixi inkişaf mərhələləri ilə sıx bağlıdır. Bu terminlər sosial reallığın dərk edilməsi, insan fəaliyyətinin şərhi və ictimai münasibətlərin elmi izahı məqsədi daşıyır. Psixologiya, sosiologiya, pedaqogika, fəlsəfə və mədəniyyətşünaslıq kimi sahələrdə terminlər çox vaxt empirik müşahidələr, nəzəri konsepsiyalar və fəlsəfi yanaşmalar əsasında meydana çıxır. Bu baxımdan humanitar terminlər texniki və ya dəqiq elmlərdə rast gəlinən terminlərdən əsaslı şəkildə fərqlənir, çünki onlar dəqiq ölçülə bilən göstəricilərə deyil, daha çox şərhə açıq sosial və mədəni hadisələrə əsaslanır.

Humanitar terminlərin mühüm xüsusiyyətlərindən biri onların sabit və universal xarakter daşımamasıdır. Bu terminlər çox vaxt kontekstual məna kəsb edir və istifadə olunduğu elmi yanaşmadan, ideoloji mövqedən, mədəni mühitdən və tarixi dövrdən asılı olaraq müxtəlif məna çalarları qazana bilir. Bu anlayışlar fərqli elmi ənənələrdə müxtəlif şəkildə şərh olunur və onların məzmunu zamanla genişlənə və ya transformasiya oluna bilir. Məhz bu xüsusiyyət humanitar terminlərin tərcüməsi və Azərbaycan dilinə adaptasiyası prosesini daha mürəkkəb və çoxqatlı edir. Terminlərin yalnız söz səviyyəsində tərcümə edilməsi əksər hallarda kifayət etmir; onların arxasında dayanan elmi konsepsiya, nəzəri çərçivə və məna strukturu da nəzərə alınmalıdır. Əks halda, termin Azərbaycan dilində formal olaraq mövcud olsa belə, elmi məzmunu tam əks etdirməyə bilər və bu da anlayışın yanlış və ya səthi qavranılmasına gətirib çıxarar. Buna görə də humanitar terminlərin adaptasiyası zamanı semantik uyğunluq, konseptual dəqiqlik və milli elmi ənənələrlə uzlaşma əsas meyarlar kimi çıxış etməlidir.

Humanitar terminlərin Azərbaycan dilinə adaptasiyası bir neçə əsas yol vasitəsilə həyata keçirilir və bu yollar elmi dilin formalaşmasında müxtəlif funksiyalar yerinə yetirir. Ən geniş yayılmış üsullardan biri terminlərin birbaşa alınmasıdır. Bu zaman terminlər fonetik və morfoloji baxımdan Azərbaycan dilinə uyğunlaşdırılaraq olduğu kimi istifadə olunur. Diskurs, identiklik, inklüzivlik, narrativ kimi terminlər məhz bu yol vasitəsilə dilə daxil olmuşdur. Birbaşa alınma üsulu beynəlxalq elmi terminologiya ilə uyğunluğu və terminoloji vahidliyi qorumaq baxımından üstünlük təşkil edir. Lakin bu yanaşma bəzən terminlərin məzmununun geniş oxucu və tələbə auditoriyası tərəfindən asanlıqla qavranılmasını çətinləşdirir, xüsusilə də terminlər izahsız və ya kontekstdən kənar istifadə edildikdə anlaşıqlılıq problemi yaradır [1].

Terminlərin adaptasiyasında istifadə olunan digər mühüm üsul semantik tərcümədir. Bu yanaşmada termin Azərbaycan dilinin leksik və semantik imkanları əsasında qarşılanır və anlayışın məzmunu milli dil mühitinə uyğun şəkildə ifadə edilir. Məsələn, social inclusion anlayışının sosial inklüzivlik, critical thinking anlayışının tənqidi düşüncə, lifelong learning anlayışının isə ömürboyu təhsil kimi tərcümə olunması bu üsulun geniş tətbiq olunduğunu göstərir. Semantik tərcümə terminlərin cəmiyyət tərəfindən daha asan mənimsənilməsinə və tədris prosesində effektiv istifadəsinə şərait yaradır. Bununla belə, bəzi hallarda ilkin terminlərin arxasında dayanan mürəkkəb elmi və fəlsəfi çalarlar tam şəkildə əks olunmaya bilər və anlayış müəyyən dərəcədə sadələşdirilmiş formada təqdim oluna bilər.

Humanitar terminlərin adaptasiyasında üçüncü əsas yol hibrid adaptasiya üsuludur. Bu zaman termin qismən orijinal formasını saxlayır, qismən isə Azərbaycan dilinin morfoloji və sintaktik normalarına uyğunlaşdırılır. Koqnitiv inkişaf, psixososial faktorlar, multikultural mühit kimi terminlər bu yanaşmanın nümunələridir. Hibrid adaptasiya üsulu həm beynəlxalq terminoloji sistemlə əlaqəni qorumağa, həm də terminlərin milli elmi dilə inteqrasiyasını təmin etməyə imkan verir. Müasir terminologiyada bu üsul getdikcə daha geniş yayılmaqda və elmi dilin çevikliyini, ifadə imkanlarını və funksionallığını artıran mühüm vasitə kimi çıxış etməkdədir.

Humanitar terminlərin Azərbaycan dilinə adaptasiyası müxtəlif dilçilik və terminologiya prinsiplərinə əsaslanan bir neçə əsas yol vasitəsilə həyata keçirilir. Bu yollar elmi anlayışların milli dil mühitinə uyğun şəkildə inteqrasiyasını təmin etməklə yanaşı, elmi diskursun ardıcıllığını və terminoloji sistemin formalaşmasını şərtləndirir. Müasir praktikada bu adaptasiya yolları bir-birini istisna etmir, əksinə, bir çox hallarda paralel şəkildə tətbiq olunur [4, s.52].

Ən geniş yayılmış adaptasiya üsullarından biri terminlərin birbaşa alınmasıdır. Bu yanaşmada terminlər mənbə dildən fonetik və qrammatik baxımdan minimum dəyişikliklə Azərbaycan dilinə daxil edilir və beynəlxalq elmi terminologiya ilə uyğunluq qorunur. Diskurs, identiklik, inklüzivlik, narrativ kimi terminlər bu üsulla dilə daxil olmuşdur. Birbaşa alınma üsulu elmi mətnlərdə terminoloji vahidliyin təmin olunması və beynəlxalq elmi ünsiyyətin asanlaşdırılması baxımından mühüm üstünlüklərə malikdir. Lakin bu yanaşma terminlərin məzmununun izahsız şəkildə istifadəsi zamanı onların geniş oxucu kütləsi, xüsusilə də qeyri-ixtisaslı auditoriya tərəfindən başa düşülməsini çətinləşdirə bilər və əlavə izah ehtiyacı yaradır.

Terminlərin Azərbaycan dilinə uyğunlaşdırılmasında tətbiq olunan digər mühüm üsul semantik tərcümədir. Bu zaman termin Azərbaycan dilinin daxili leksik və semantik imkanları hesabına qarşılanır və anlayışın mahiyyəti milli dil mühitinə uyğun şəkildə ifadə olunur. Məsələn, social inclusion anlayışının sosial inklüzivlik, critical thinking anlayışının tənqidi düşüncə, lifelong learning anlayışının isə ömürboyu təhsil kimi tərcümə olunması bu üsulun praktikada geniş istifadə edildiyini göstərir. Semantik tərcümə terminlərin tədris prosesində daha asan qavranılmasına və cəmiyyət tərəfindən mənimsənilməsinə şərait yaradır. Bununla yanaşı, bəzi hallarda terminlərin ilkin elmi və fəlsəfi dərinliyi tam şəkildə ötürülmədikdə anlayışın məna çərçivəsi müəyyən qədər darala bilər.

Humanitar terminlərin adaptasiyasında üçüncü əsas yol hibrid adaptasiya üsuludur. Bu yanaşmada termin qismən orijinal formasını saxlayır, qismən isə Azərbaycan dilinin morfoloji və sintaktik normalarına uyğunlaşdırılır. Koqnitiv inkişaf, psixososial faktorlar, multikultural mühit kimi terminlər bu adaptasiya yolunun nümunələridir. Hibrid üsul həm beynəlxalq terminoloji sistemlə əlaqəni qorumağa, həm də terminlərin Azərbaycan elmi dilinə funksional şəkildə inteqrasiyasına imkan yaradır. Müasir terminologiyada bu yanaşma getdikcə daha geniş yayılmaqda və elmi dilin çevikliyini, ifadə imkanlarını və adaptasiya potensialını artıran mühüm vasitə kimi çıxış etməkdədir [1].

Humanitar sahələrdə terminlərin Azərbaycan dilinə adaptasiyası zamanı qarşıya çıxan əsas problemlərdən biri terminoloji vahidliyin olmamasıdır. Eyni elmi anlayış müxtəlif müəlliflər, tərcüməçilər və elmi mənbələr tərəfindən fərqli şəkildə tərcümə və təqdim olunur. Bu vəziyyət xüsusilə beynəlxalq elmi ədəbiyyatdan geniş istifadə olunan anlayışlarda özünü daha qabarıq göstərir. Məsələn, inclusive education anlayışı Azərbaycan dilində "inklüziv təhsil", "inklüziv təlim", "əhatəli təhsil" kimi müxtəlif formalarda işlədilir. Bu cür terminoloji çoxvariantlılıq elmi mətnlərdə ardıcıllığı pozur, tədqiqat nəticələrinin müqayisəsini çətinləşdirir və oxucuda anlayışın mahiyyəti ilə bağlı çaşqınlıq yaradır.

Termin adaptasiyası prosesində qarşılaşılan digər mühüm problem terminlərin məna baxımından səthi və ya formal tərcümə edilməsidir. Bəzi hallarda terminlər sözbəsöz çevrilsə də, onların arxasında dayanan elmi konsepsiya, nəzəri çərçivə və metodoloji məzmun lazımi şəkildə izah olunmur. Nəticədə termin Azərbaycan dilində formal olaraq mövcud olur, lakin real elmi funksiyasını tam şəkildə yerinə yetirmir və anlayışın mahiyyəti oxucu tərəfindən düzgün qavranılmır. Bu cür yanaşma xüsusilə mürəkkəb psixoloji, sosioloji və pedaqoji anlayışların təqdimatında elmi səviyyənin aşağı düşməsinə səbəb olur.

Bundan əlavə, terminlərin Azərbaycan dilinin qrammatik və leksik normalarına tam uyğunlaşmaması da adaptasiya prosesində müşahidə olunan problemlər sırasındadır. Xarici dillərin sintaktik modellərinin olduğu kimi saxlanılması, uzun və mürəkkəb söz birləşmələrinin tərcüməsiz şəkildə istifadəsi dilin təbii axıcılığına mənfi təsir göstərir və elmi üslubun ağırlaşmasına gətirib çıxarır. Bu isə elmi mətnlərin oxunaqlılığını azaldır, onların tədris və praktik tətbiq imkanlarını məhdudlaşdırır. Məhz buna görə termin adaptasiyası zamanı yalnız mənbə dilin strukturu deyil, Azərbaycan dilinin daxili qanunauyğunluqları və üslubi normaları da əsas meyar kimi nəzərə alınmalıdır.

Müasir terminlərin düzgün və sistemli şəkildə adaptasiyası humanitar elmlərin inkişafında mühüm və çoxşaxəli rol oynayır. Terminoloji aydınlıq elmi mətnlərin məzmununun dəqiq anlaşılmasını təmin edir, elmi müzakirələrin keyfiyyətini yüksəldir və tədqiqatçılar arasında effektiv ünsiyyətin formalaşmasına şərait yaradır. Terminlərin vahid və ardıcıl istifadəsi elmi nəticələrin müqayisəsini asanlaşdırır, nəzəri yanaşmaların düzgün interpretasiyasına imkan verir və elmi biliklərin daha geniş auditoriyaya ötürülməsini effektiv edir. Bu baxımdan terminoloji adaptasiya yalnız dilçilik məsələsi deyil, eyni zamanda elmi metodologiyanın və akademik mədəniyyətin ayrılmaz tərkib hissəsidir [5].

Xüsusilə təhsil sahəsində terminlərin düzgün istifadəsi strateji əhəmiyyət daşıyır. Müəllim–şagird münasibətlərində anlayışların aydın şəkildə təqdim olunması, dərslik və tədris vəsaitlərinin elmi cəhətdən əsaslandırılmış terminologiya üzərində qurulması təlim prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. Akademik proqramların hazırlanmasında terminoloji dəqiqlik tədris məqsədlərinin düzgün müəyyənləş-dirilməsinə, fənlərarası əlaqələrin qurulmasına və müasir elmi yanaşmaların təhsil sisteminə inteqrasiyasına imkan yaradır. Terminlərin yanlış və ya qeyri-sabit istifadəsi isə biliklərin mənimsənilməsini çətinləşdirir və tədris prosesində anlaşılmazlıqlara səbəb ola bilər.

Terminoloji adaptasiyanın sosial əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Elmi terminlərin cəmiyyət tərəfindən anlaşılan və qəbul edilən formada təqdim olunması elmi biliklərin populyarlaşdırılmasına, ictimai diskursun zənginləşməsinə və elmi düşüncənin geniş yayılmasına töhfə verir. Humanitar elmlərdə istifadə olunan terminlər sosial dəyərlərin, mədəni identikliyin və ictimai münasibətlərin formalaşmasında dolayı yolla iştirak edir. Buna görə də terminlərin düzgün seçilməsi və istifadəsi ictimai şüurun formalaşmasında mühüm rol oynayır.

Eyni zamanda terminoloji müstəqillik milli elmi identikliyin formalaşmasına və möhkəmlənməsinə xidmət edir. Azərbaycan dilinin humanitar elmlərdə tamhüquqlu elmi dil kimi inkişafı yalnız terminlərin plansız alınması ilə deyil, onların sistemli, məqsədyönlü və elmi əsaslara söykənən adaptasiyası ilə

mümkündür. Bu proses Azərbaycan dilinin ifadə imkanlarını genişləndirir, yeni anlayışların milli dil mühitində dəqiq şəkildə ifadə olunmasına şərait yaradır və milli elmi irsin qorunmasına və inkişafına töhfə verir. Nəticə etibarilə terminoloji adaptasiya həm elmi biliklərin keyfiyyətinin artırılmasına, həm də Azərbaycan dilinin elmi və mədəni potensialının gücləndirilməsinə xidmət edən mühüm strateji istiqamət kimi qiymətləndirilməlidir [2].

Humanitar sahələrdə müasir terminlərin Azərbaycan dilinə adaptasiyası davamlı, çoxşaxəli və elmi əsaslara söykənən bir prosesdir. Bu proses yalnız dilçilərin deyil, humanitar sahə üzrə çalışan alimlərin, müəllimlərin və tərcüməçilərin birgə fəaliyyətini tələb edir. Terminlərin düzgün seçilməsi, məna baxımından dəqiq izahı və normativ şəkildə istifadəsi humanitar elmlərin inkişafını sürətləndirir və Azərbaycan dilinin elmi potensialını gücləndirir.

Müasir çağırışlar fonunda terminoloji siyasətin gücləndirilməsi, vahid termin bazalarının yaradılması və elmi nəşrlərdə terminlərin standartlaşdırılması Azərbaycan humanitar elminin qarşısında duran əsas vəzifələrdəndir.

ƏDƏBİYYAT

1.Crystal, D. (2010). The Cambridge Encyclopedia of Language (3rd ed.). Cambridge University Press.

2.Əliyeva, N. (2018). Azərbaycan dilində müasir terminlərin adaptasiyası: nəzəri və praktik aspektlər. Bakı: Elm.

3.Jorfi, H., & Khosravi, F. (2019). Challenges in Translating and Adapting Humanitarian Terminology. International Journal of Humanities, 16(2), 77–91.

4.Koller, V., & Fuchs, C. (2014). Terminology and Translation in the Humanities. Journal of Language and Translation Studies, 12(3), 45–62.

5.Nabiev, T. (2015). Terminology and Standardization in Azerbaijani Linguistic Practice. Baku: Təhsil Nəşriyyatı.

6.Ter-Minasova, S. G. (2000). Language and Intercultural Communication. Moscow: Slovo.

Zülfiyyə MUSAVİ*

XARİCİ DİLDƏ TƏHSİL ALAN UŞAQLARDA AZƏRBAYCAN DİLİNİN MƏNİMSƏNİLMƏSİ PROBLEMLƏRİNƏ PSİXOLİNQVİSTİK YANAŞMALAR

XÜLASƏ

Məqalədə rus dilində tədris aparılan məktəblərdə təhsil alan şagirdlərin Azərbaycan dilini mənimsəməsi problemi araşdırılır. Dövlət dilində yetərli səviyyədə səlisliyin formalaşmamasının əsas səbəblərindən biri mövcud dərsliklərin keyfiyyəti və tətbiq olunan tədris metodikalarının səmərəsizliyidir. Müasir tədris yanaşmaları müstəqil öyrənmə bacarıqlarının formalaşmasına kifayət qədər şərait yaratmır, daim kənar köməyə ehtiyac yaradır və nəticə etibarilə şagirdlərin dili öyrənməyə olan motivasiyasını azaldır. Problemin mümkün həlli yolları sırasında professor Q. Kazımovun dərsliklərinə müraciət edilməsi, eləcə də plürilinqval təhsil yanaşmalarının (plurilingual schooling) tətbiqi nəzərdən keçirilir.

Açar sözlər: *Psixolinqvistika, ana dili, nitq fəaliyyəti, dövlət dili, xarici dildə təhsil, lüğət, metodika, plürilinqval təhsil, dərsliklər.*

2025-ci il 5 noyabr tarixində Azərbaycan Milli Elmlər Akademiyasında çıxışı zamanı cənab prezident İlham Əliyev ana dilinin cəmiyyətdəki rolu və xarici dillərin öyrənilməsi məsələsinə toxunaraq xüsusi olaraq vurğulamışdı: *"Xarici dillər öyrənilə bilər, lakin bu, ana dilinin zəifləməsinə gətirib çıxarmamalıdır. Xarici dillər faydalıdır, amma ana dilimizin möhkəm olması daha vacibdir."*

Bu fikir müasir dil siyasəti və təhsil strategiyası baxımından olduqca aktualdır və qloballaşma şəraitində ana dilinin qorunması problemini bir daha gündəmə gətirir. Qeyd edilən mövqe onu göstərir ki,

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, fil., ü. f. d., dosent, aparıcı elmi işçi

çoxdilli mühitdə xarici dillərin öyrədilməsi zəruri olsa da, bu proses ana dilinin funksional imkanlarının məhdudlaşması və ya zəiflədilməsi hesabına olmamalıdır.

Psixolinqvistika dil, nitq və təfəkkürün qarşılıqlı əlaqəsini öyrənən elmi sahədir. Bu istiqamət nitqin yaranması və qavranılması mexanizmlərini, dilin idrak proseslərinə təsirini, eləcə də dil fəaliyyətinin insan beyninin funksional təşkili ilə əlaqəsini araşdırır. Psixolinqvistika dilin fərdin zehni inkişafına, yaşla bağlı formalaşma mərhələlərinə, fəaliyyətinə necə təsir etdiyini müəyyənləşdirir. Bu kontekstdə dil yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də təfəkkürün inkişafını, idrak yetkinliyini və şəxsiyyətin formalaşmasını şərtləndirən əsas psixoloji mexanizm kimi nəzərdən keçirilir. Buna əsasən deyə bilərik ki . Ana dili yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda fərdin idrak fəaliyyətinin, təfəkkürünün və şəxsiyyət formalaşmasının əsas mexanizmlərindən biridir.

Məhz bu baxımdan təqdim olunan məqalədə xarici dildə təhsil alan şagirdlərin Azərbaycan dili ilə bağlı üzləşdikləri problemlər elmi aspektdən araşdırılır. Məqalədə ana dilinin ikinci plana keçməsi nəticəsində yaranan dil çatışmazlıqları, leksik-qrammatik boşluqlar, ifadə bacarıqlarının zəifləməsi və bu amillərin təfəkkür prosesinə təsiri məsələləri təhlil edilir. Tədqiqatın əsas məqsədi xarici dildə təhsil alan şagirdlərin ana dili kompetensiyasının mövcud vəziyyətini müəyyənləşdirmək və bu sahədə yaranan problemlərin səbəblərini elmi əsaslarla izah etməkdir.

Bu kontekstdə uzun illər ərzində müşahidə etdiyim və hazırda olduqca aktual olan bir problemin üzərində dayanmaq istərdim. Sözügedən problem rus bölməli məktəblərdə Azərbaycan dilinin tədrisinin keyfiyyəti ilə bağlıdır. Müəllifin məktəb illərində (təxminən sovet dövrünün sonu və Azərbaycan Respublikasının müstəqillik dövrünün başlanğıcı) rus məktəblərində Azərbaycan dili fənninin tədrisi formal xarakter daşıyırdı və bu ifadə vəziyyəti kifayət qədər yumşaq şəkildə təsvir edir. Qeyd etmək lazımdır ki, sovet dövründən etibarən rus bölməli məktəblərdə "Azərbaycan dili" fənni heç vaxt lazımi səviyyədə tədris olunmamışdır.

Bununla belə, keçmiş dövrlərdə istifadə olunan dərsliklərin strukturu və məzmunu müasir dərsliklərlə müqayisədə daha sistemli və metodik baxımdan əsaslandırılmışdır. Hazırda intensiv və effektiv Azərbaycan dili tədrisinə yönəlmiş müasir metodikaların kifayət qədər işlənib hazırlanmadığı bir şəraitdə, tanınmış alimlər — professor Qəzənfər Kazımov və M. Səfərov tərəfindən tərtib edilmiş dərsliklərin (1979 və 1989-cu illər) praktiki tədris prosesində nəzərə alınmaması təəccüb doğurur. Sözügedən dərsliklərdə materialın təqdimat ardıcıllığı, hər dərs üçün nəzərdə tutulmuş tapşırıqlar sistemi və qrammatik qaydaların mərhələli şəkildə izahı aydın şəkildə əksini tapmışdır.

Şübhəsiz ki, bəzi mütəxəssislər bu metodikanın müasir dövr üçün köhnəlmiş olduğunu və hazırda məktəblərdə kommunikativ yönümlü kurikulum proqramları əsasında hazırlanmış dərsliklərdən istifadə edildiyini iddia edə bilərlər. Lakin qeyd etmək lazımdır ki, həmin dərsliklərdə yalnız leksik baza müəyyən dərəcədə köhnəlmişdir. Bu isə mətnlərin və leksik materialın yenilənməsi yolu ilə asanlıqla aradan qaldırıla bilər. Materialın təqdimetmə prinsipi və qrammatik struktur isə aktual olaraq saxlanıla bilər.

Məsələn, XX əsrin sonlarına aid dərsliklərdə hər dərsin sonunda sözlər tərcüməsi ilə birlikdə təqdim olunurdu. Müasir dərsliklərdə isə sözlər, bir qayda olaraq, tərcüməsiz verilir. Bu isə şagirdin dərs prosesindən yayınaraq sözlərin mənasını ayrıca axtarmasına səbəb olur və nəticədə vaxt itkisinə, diqqətin dağılmasına və tədris materialının səmərəliliyinin azalmasına gətirib çıxarır.

Psixolinqvistik tədqiqatlar göstərir ki, mətn nə qədər sadə və aydın qurulmuş olarsa, tədris materialının mənimsənilməsi bir o qədər asan və effektiv olur. Müəllif tərəfindən aparılmış kiçik həcmli sosial sorğunun nəticələri də bu qənaəti təsdiqləyir. Sorğuda iştirak edən şagirdlərin böyük əksəriyyəti leksik vahidlərin tərcümə ilə təqdim olunmasının tərəfdarı olduqlarını, tərcüməsiz söz siyahılarına (sözlük) isə mənfi münasibət bəslədiklərini bildirmişlər. Şagirdlər dərsliklərdə mövcud olan boşluqları, xüsusilə qrammatik qaydaların sistemli şəkildə təqdim olunmamasını və izahların kifayət qədər aydın olmamasını vurğulamışlar.

Sosial sorğuda iştirak edən şagirdlər müxtəlif yaş qruplarına və fərqli akademik göstəricilərə malik olmuşdur; respondentlər arasında həm yüksək, həm orta səviyyəli şagirdlər yer almışdır. Bu fakt problemin yalnız fərdi deyil, ümumi və sistemli xarakter daşıdığını göstərir.

Eyni zamanda, dövlət dili və xarici dillərin tədrisində metodik ardıcıllığın və məntiqin pozulması müşahidə olunur. Dərslərdə şagirdlərə hər mövzu üzrə iki-üç yeni söz təqdim olunsa da, izahlar yalnız Azərbaycan dilində (xarici dil dərslərində isə müvafiq olaraq ingilis dilində) verilir. Bu yanaşma sanki şagirdlərin həmin leksik vahidləri əvvəlcədən bilməli olduqları qənaətinə əsaslanır. Belə bir metodika nə Azərbaycan dilinin, nə də xarici dillərin müstəqil şəkildə mənimsənilməsinə şərait yaradır, şagirdlərdə öz-özünə öyrənmə bacarıqlarını formalaşdırmır və ən əsası, dil öyrənməyə qarşı marağın azalmasına səbəb olur.

Bizim fikrimizcə, qeyd olunan problemin əsas səbəbi tətbiq olunan tədris metodikasındadır. Sözügedən metodika mürəkkəbliyi ilə seçilir və şagirdlərdə dil öyrənməyə maraq formalaşdırmaq baxımından yetərli deyil. Əgər xarici dillərin (xüsusilə ingilis dilinin) tədrisi zamanı məktəblilər dilin əsas elementlərindən başlayaraq mərhələli şəkildə öyrədilirsə, Azərbaycan dilinin tədrisində bu prinsip əksər hallarda nəzərə alınmır. Dərsliklər mürəkkəb mətnlər üzərində qurulur, tapşırıqlar isə çox vaxt şagirdlərin yaş və idrak xüsusiyyətlərinə uyğun gəlmir. Nəticədə uşaqlar mətnləri mənasını dərk etmədən mexaniki şəkildə əzbərləməyə məcbur qalırlar.

Bu baxımdan nəticə kifayət qədər aydındır: effektivliyi sübut olunmuş və praktikada sınaqdan keçirilmiş metodikalar hazırlanmadığı müddətdə Azərbaycan dilinin öyrənilməsi ilə bağlı problemlər mövcudluğunu qoruyub saxlayacaqdır. Bununla yanaşı, qeyd edilməlidir ki, hətta ən mükəmməl metodika və dərsliklər belə şagirdlərdə dil öyrənməyə motivasiya olmadıqda gözlənilən nəticəni verməyəcəkdir.

Təhsil islahatları fonunda ümumtəhsil məktəblərində tədris prosesi getdikcə ali məktəb modelinə yaxınlaşmış, şagirdlərin müstəqil fəaliyyətinə üstünlük verilməyə başlanmışdır. Bu isə rus bölməli məktəblərdə Azərbaycan dilinin tədris səviyyəsinin aşağı olmasının digər mühüm səbəblərindən biri kimi çıxış edir. Eyni zamanda, ibtidai sinifdən yuxarı siniflərə keçid zamanı şagirdlərin hazırlıq səviyyəsi kifayət qədər nəzərə alınmır, dərs mətnləri ilə onlara aid tapşırıqlar arasında məntiqi və məzmun baxımından əlaqənin zəif olduğu müşahidə olunur.

Hesab edirik ki, kurikulum proqramlarında, xüsusilə ibtidai təhsil mərhələsində, dillərin şifahi və oyun əsaslı formada tədrisi öz əksini tapmalıdır. Tədris prosesi nitq fəaliyyətinin bütün növlərini — danışma, dinləmə, oxu və yazını — əhatə etməlidir. Bu metod məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar üçün xüsusilə effektivdir; oxu və yazı bacarıqlarının isə daha sonrakı mərhələlərdə tədrisə cəlb edilməsi məqsədəuyğundur. Sözügedən yanaşma kombinə edilmiş xarakter daşıyır, çünki müxtəlif nitq fəaliyyət növlərinin bacarıqları ardıcıl və izolyasiya olunmuş şəkildə deyil, paralel şəkildə formalaşdırılır. Bu prosesin səmərəliliyini şərtləndirən ən mühüm psixoloji amillərdən biri uşaqlarda yaddaşın maksimal inkişafına yönəlmədir.

Həm birinci, həm də ikinci dilin mənimsənilməsi dilin qrammatik sistemi ilə sıx bağlıdır. Uşaqlar tərəfindən Azərbaycan dilinin mənimsənilməsi prosesində əsaslı dəyişikliklər qrammatik sistemin, xüsusilə fel sisteminin mənimsənilməsindən sonra baş verir. Demək olar ki, Azərbaycan dilinin fel sisteminin mənimsənilməsi dilə minimal səviyyədə yiyələnmənin əsas meyarlarından biri kimi çıxış edir.

Yuxarı siniflərdə (V sinifdən başlayaraq) ikinci dilin mənimsənilməsi prosesi ana dilinin inkişaf mexanizmlərindən mahiyyət etibarilə fərqli istiqamətdə gedir. Belə ki, uşaq ana dilini qeyri-şüuri və məqsədsiz şəkildə mənimsədiyi halda, ikinci dilin öyrənilməsi şüurluluq və məqsədyönlülük üzərində qurulur. Bu baxımdan, birinci dilə yiyələnmənin inkişafı "aşağıdan yuxarıya", ikinci dilə yiyələnmənin inkişafı isə "yuxarıdan aşağıya" istiqamətində baş verir. Birinci halda əvvəlcə nitqin aşağı səviyyəli xüsusiyyətləri formalaşır, daha sonra isə dilin fonetik quruluşunun və qrammatik formalarının şüurlu dərk edilməsi ilə bağlı mürəkkəb formalar inkişaf edir. İkinci halda isə əvvəlcə şüurluluq və məqsədyönlülüklə əlaqəli yüksək səviyyəli, mürəkkəb nitq xüsusiyyətləri formalaşır, yalnız sonrakı mərhələdə spontan və sərbəst nitq istifadəsi ilə bağlı elementar xüsusiyyətlər meydana çıxır.

Bu kontekstdə məsələn: Riqa Klassik Gimnaziyasında müşahidə edilmiş multilinqual təhsil təcrübəsi xüsusi diqqətə layiqdir. Multilinqual təhsil — tədris prosesində üç tədris dilindən istifadə olunmasını nəzərdə tutan təhsil modelidir. Sözügedən təcrübədə tədris dilləri rus, latış və ingilis dilləridir. Bu modelin nəticəsi olaraq, şagirdlər yalnız məktəb fənləri üzrə biliklərə yiyələnmir, eyni zamanda multilinqual ünsiyyət bacarıqlarını da formalaşdırırlar. Dünyada artıq uzun müddətdir ki, fənlərin xarici

dil vasitəsilə tədrisini nəzərdə tutan xüsusi metodikalar mövcuddur. Gələcəkdə bu tip təhsil modelinin ölkəmizin dövlət məktəblərində də tətbiq olunacağına və rus bölməli məktəblərdə Azərbaycan dilinin keyfiyyətli şəkildə tədris ediləcəyinə ümid edilir.

Xarici dildə təhsil alan şagirdlərin ana dili üzrə üzləşdikləri çətinliklər yalnız metodik və didaktik amillərlə izah olunmur. Bu problemlərin kökündə daha dərin psixolinqvistik mexanizmlər dayanır. Xüsusilə, dilin idrak prosesləri ilə qarşılıqlı əlaqəsi nəzərə alındıqda aydın olur ki, ana dilinin zəifləməsi uşağın ümumi kognitiv fəaliyyətinə də mənfi təsir göstərir. Ana dili vasitəsilə formalaşan konseptual sistemin natamam inkişafı şagirdin abstrakt düşünmə, səbəb-nəticə əlaqələrini qurma və məntiqi nəticə çıxarma bacarıqlarını məhdudlaşdırır.

Psixolinqvistik baxımdan dil yalnız biliklərin ötürülməsi vasitəsi deyil, eyni zamanda düşüncənin təşkili və strukturlaşdırılması mexanizmidir. Xarici dildə təhsil alan uşaqların ana dilində leksik və qrammatik çatışmazlıqları onların daxili nitqinin formalaşmasına birbaşa təsir edir. Daxili nitqin zəif inkişafı isə düşüncə proseslərinin qeyri-sabitliyinə, diqqətin tez yayınmasına və idrak yükünün artmasına səbəb olur. Bu hal xüsusilə akademik mətnlərin qavranılması zamanı özünü daha qabarıq şəkildə göstərir.

Müşahidələr göstərir ki, ana dilində kifayət qədər möhkəm baza formalaşmadan ikinci və ya xarici dildə intensiv tədrisə cəlb olunan şagirdlərdə interferensiya halları daha tez-tez baş verir. Bu zaman dillərarası qarışıqlıq yalnız leksik səviyyədə deyil, sintaktik və semantik səviyyədə də müşahidə olunur. Şagird fikrini tam və dəqiq ifadə etməkdə çətinlik çəkir, cümlə quruluşunda qeyri-sabitlik yaranır, məna əlaqələri isə tez-tez pozulur. Nəticədə nitq fəaliyyəti fragmentar xarakter alır.

Digər mühüm məsələ motivasiya ilə bağlıdır. Psixolinqvistik tədqiqatlar sübut edir ki, dil öyrənmə prosesində motivasiya amili əsas həlledici faktorlar sırasındadır. Ana dilində uğursuzluq yaşayan şagirdlərdə özünə inam azalır, bu isə dil öyrənməyə qarşı psixoloji müqavimətin formalaşmasına gətirib çıxarır. Dil çətinlikləri tədricən emosional fonu da zəiflədir və şagirdin tədris prosesinə münasibətində laqeydlik yaradır. Bu vəziyyət uzunmüddətli perspektivdə akademik nailiyyətlərin azalması ilə nəticələnir.

Xüsusilə vurğulanmalıdır ki, xarici dildə təhsil alan şagirdlərin ana dili üzrə problemləri çox zaman "normal adaptasiya prosesi" kimi qiymətləndirilir və buna görə də vaxtında elmi müdaxilə aparılmır. Halbuki psixolinqvistik yanaşma bu vəziyyəti inkişaf riski kimi dəyərləndirir və erkən mərhələdə düzgün metodik tədbirlərin görülməsini zəruri hesab edir. Ana dilinin sistemli şəkildə möhkəmləndirilməsi uşağın digər dilləri mənimsəmə qabiliyyətini də artırır və ümumi dil kompetensiyasının formalaşmasına müsbət təsir göstərir. Bu baxımdan ana dilinin tədrisi yalnız fənn kimi deyil, idrak inkişafının əsas aləti kimi qəbul edilməlidir. Azərbaycan dilinin xarici dildə təhsil alan şagirdlər üçün məqsədyönlü, mərhələli və psixolinqvistik prinsiplərə əsaslanan şəkildə tədrisi onların həm akademik, həm də şəxsiyyət kimi formalaşmasına xidmət edər. Belə yanaşma dil öyrənmə prosesində balansın qorunmasına, idrak resurslarının düzgün bölüşdürülməsinə və nəticə etibarilə təhsilin keyfiyyətinin yüksəlməsinə imkan yaradar.

Apardığımız müşahidələr göstərmişdir ki, uşaqlar bir dildən digərinə asanlıqla keçid etmək qabiliyyətinə malikdirlər. Riqa Gimnaziyasında fəaliyyət göstərən müəllim Mariya Konovalovanın qeyd etdiyi kimi, dərs zamanı bir neçə dildən istifadənin şagirdlərin idrak fəallığını əhəmiyyətli dərəcədə artırdığı müşahidə olunur. M. Konovalova bu prosesi belə xarakterizə edir: "Bu, heyrətamizdir! Hər dəfə bir dildən digərinə keçid etdikdə, uşaqların diqqəti daha çox cəmlənir".

Ümid edirik ki, tədris metodikasının təkmilləşdirilməsi və şagirdlər üzərində düşən tədris yükünün azaldılması hesabına dövlət dilinin tədrisinin keyfiyyəti gələcəkdə daha da yüksələcəkdir.

Təqdim etdiyim fikirlərə diqqətlə yanaşılacağına və onların nəzərə alınacağına ümid edirəm. Hesab edirəm ki, irəli sürülən bu mülahizələrdən geri çəkilməmək, əksinə, mövcud problemlərin həlli istiqamətində onları praktik fəaliyyətə yönəltmək vacibdir. Hazırkı mərhələdə dil təhsili sahəsində mövcud olan çətinliklərlə mübarizə aparmaq üçün sistemli və məqsədyönlü addımlar atılmalıdır. Xüsusilə qeyd etmək istərdim ki, xarici dillərdə təhsil alan, lakin Azərbaycan dili üzrə yüksək nəticə göstərən şagirdlər üçün ana dilində oxumaq təkcə tədris prosesi deyil, həm də xüsusi bir dil və mədəniyyət mühitinə daxilolma formasıdır. Azərbaycan dilində təhsil bu kateqoriyadan olan şagirdlər üçün milli-mədəni identikliyin qorunması və inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu, yalnız akademik nailiyyət deyil, eyni zamanda dilə və mədəniyyətə bağlılığın formalaşması deməkdir.

Bu kontekstdə mühüm bir təklif irəli sürmək istərdim. Xarici dillərdə tədris aparılan məktəblərdə oxuyan, lakin Azərbaycan dili üzrə yüksək nəticə göstərən şagirdlər üçün ali təhsilə qəbul zamanı Azərbaycan dilində təhsil almaq imkanlarının yaradılması məqsədəuyğun olardı. Xüsusilə qeyd edilməlidir ki, bu kateqoriyaya aid olan şagirdlər ana dilini yüksək səviyyədə mənimsəmiş, **nitq fəaliyyətinin** akademik səviyyədə nümayiş etdirmiş şəxslərdir və onların bu göstəriciləri mütləq şəkildə nəzərə alınmalıdır. Bu cür yanaşma bir sıra ölkələrin təhsil təcrübəsində artıq mövcuddur. Şəxsi müşahidələrimə əsaslanaraq qeyd edə bilərəm ki, Latviya Respublikasında bu mexanizm uğurla tətbiq olunur: xarici dildə təhsil alan, lakin latış dili üzrə yüksək bal toplayan abituriyentlər üçün dövlət dili əlavə üstünlük kimi qiymətləndirilir və bu, onların ali təhsil imkanlarını genişləndirir. İnsan Latviyada doğulmasa belə, dövlət dilini yüksək səviyyədə mənimsədiyi halda, ali təhsil almaq hüququndan tam şəkildə yararlana bilir.

Nəticə etibarilə, xarici dildə təhsil alan uşaqlarda Azərbaycan dilinin mənimsənilməsi problemi yalnız pedaqoji deyil, dərin psixolinqvistik xarakter daşıyır. Bu problemin həlli dilin düşüncə ilə əlaqəsinin nəzərə alınmasını, tədris materiallarının yenidən işlənməsini və metodik yanaşmanın elmi əsaslar üzərində qurulmasını tələb edir. Dövlət dilinin effektiv mənimsənilməsi yalnız bu halda mümkün ola bilər.

ƏDƏBİYYAT

1. KazımovQ.Ş., Səfərov M.T. Azərbaycan dili. Rus məktəbinin 2-ci sinfi üçün, Bakı, Maarif, 1979.
2. KazımovQ.Ş., Səfərov M.T. Azərbaycan dili. Rus məktəbinin 3-cü sinfi üçün, Bakı, Maarif, 1989.

РЕЗЮМЕ

Статья рассматривает проблему усвоения азербайджанского языка учащимися школ с русским языком обучения. Одним из ключевых факторов недостаточного уровня владения государственным языком является качество действующих учебников и применяемых методик преподавания. Современные подходы к обучению не способствуют формированию самостоятельных учебных навыков, требуют постоянной внешней помощи и, как следствие, снижают мотивацию учащихся к изучению языка. В качестве возможных путей решения рассматривается обращение к учебникам профессора Г. Казымова, а также внедрение плюрилингвального подхода в школьном образовании (plurilingual schooling).

Ключевые слова: *Психолингвистика, родной язык, речевая деятельность, государственный язык, обучение на иностранном языке, словарь, методика, плюрилингвальное образование, учебники.*

SUMMARY

The article examines the problem of acquiring the Azerbaijani language among students studying in schools with Russian as the language of instruction. One of the key factors contributing to the insufficient level of proficiency in the state language is the quality of existing textbooks and the teaching methodologies applied. Contemporary instructional approaches do not sufficiently promote the development of independent learning skills, require constant external assistance, and consequently reduce students' motivation to learn the language. As possible solutions, the article considers referring to the textbooks authored by Professor G. Kazymov, as well as the implementation of plurilingual schooling approaches**.**

Keywords: *Psycholinguistics, mother tongue, speech activity, state language, foreign-language education, vocabulary, teaching methodology, plurilingual education, textbooks.*

Aytən BƏYLƏROVA*

BƏDİİ MƏTNLƏRDƏ KONNOTATİV LEKSİKANIN FUNKSİYALARI

XÜLASƏ

Məqalədə bədii mətnlərdə konnotativ leksikanın funksional xüsusiyyətləri araşdırılır. Tədqiqatın əsas məqsədi mətnin mövzu və bütövlüyünün təmin olunmasında konnotativ vasitələrin rolunu müəyyənləşdirmək, onların emosional-estetik təsir mexanizmlərini təhlil etməkdir. Konnotasiya sözlərin denotativ mənasına əlavə olunan emosional, qiymətləndirici, ekspressiv, üslubi və mədəni komponentlərin vəhdətindən ibarətdir. Azərbaycan bədii nümunələri əsasında aparılan təhlil göstərir ki, konnotativ leksika mətnin ifadə imkanlarını genişləndirir, obrazların xarakterini dolğunlaşdırır və müəllif ilə oxucu arasında bədii-estetik dialoq yaradır. Məqalədə konnotasiyanın diskursiv mühitə və mədəni kontekstə uyğun funksiyaları, eləcə də söz seçiminin oxucu qavrayışına təsir imkanları tədqiq olunur. Araşdırmanın nəticələri sübut edir ki, bədii mətnin semantik dərinliyi və emosional-estetik təsir gücü konnotativ leksikanın funksional tətbiqi ilə şərtləndirilir. Bu kontekstdə konnotasiyanın emosional-psixoloji təsirin formalaşdırılması, aksioloji (qiymətləndirici) münasibətin ifadə olunması, personajların xarakterinin açılması və üslubi ifadəliliyin təmin edilməsi kimi funksiyaları xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: *bədii mətn, konnotativ leksika, konnotasiya, funksiya, intensiya*

Dil informativ funksiya daşımaqla yanaşı, həm də insan təfəkkürünü, emosiyalarını və mədəni təcrübəsini əks etdirən əsas ünsiyyət vasitəsidir. Xüsusilə bədii mətnlərdə leksik vahidlər yalnız məlumat ötürmür, həmçinin oxucuda emosional-psixoloji reaksiya oyadaraq əsərə qarşı estetik qavrayış formalaşdırır. Bu prosesdə konnotativ leksika mühüm rol oynayır.

Semiotikaya ilk dəfə 1943-cü ildə Danimarka dilçisi Lui Yelmslev tərəfindən daxil edilmiş konnotasiya anlayışı müstəqil semiotik model kimi şərh olunur. Alimin qənaətinə görə, konnotativ semiotika elə bir sistemdir ki, onun ifadə planı artıq mövcud olan başqa bir semiotik sistemə əsaslanır. L.Yelmslev qeyd edir ki, konnotativ elementlərdən tamamilə təcrid olunmuş dil ifadəsi mövcud deyil [7].

Konnotasiya nəzəriyyəsini daha yüksək mərhələyə çatdıran fransız semiotiki Roland Bartın fikrincə isə konnotasiya cəmiyyətin ikinci dərəcəli (törəmə) mənaları müəyyənləşdirmək ehtiyacını təmin edən universal bir vasitədir [5, s.298].

E.Q.Rizel konnotasiyanın funksional tərəfinə toxunaraq qeyd edir ki, ayrı-ayrı sözlərin daşıdığı konnotativ yük "əlaqəli nitqdə əlavə mətnin yaranmasına..." səbəb olur [8, s.139]. Müəllifin bu yanaşması Lui Yelmslevin konnotasiyaya dair sistemli şərhləri ilə uzlaşır.

Beləliklə, dilçilikdə qəbul edilmiş ümumi qənaətə görə, denotativ mənadan kənarda qalan bütün üslubi, emosional və assosiativ komponentlər konnotativ semantikanın tərkib hissəsini təşkil edir.

Ənənəvi linqvistik kontekstdə konnotasiya aşağıdakı əlamətlərlə səciyyələndirilir:

a) konnotasiya semantik mənadır;

b) konnotasiya dil vahidlərinin semantikasına uzual və ya okkazional şəkildə daxil olur;

c) konnotasiya nitq subyektinin gerçəkliyə emosional-qiymətləndirici münasibətini ifadə edir;

ç) konnotasiya məcazlar şəklində üslubi forma qazanır;

d) konnotasiya ekspressiv effekt yaradır [9, s.5].

Linqvokulturoloji tədqiqatlar çərçivəsində bu əlamətlərin sayını artırmaq mümkündür, çünki konnotativ mənalar mədəni, sosial və diskursiv mühitdə davamlı olaraq zənginləşir.

Konnotasiyaya obrazlı yanaşsaq, onu leksemin daxilində gizlənmiş "səssiz hekayə" və ya sözün görünməyən semantik "aurası" kimi xarakterizə etmək olar. Bu fenomen kollektiv mədəni yaddaşda və fərdi təfəkkürdə formalaşan assosiativ təəssüratlar toplusunu əhatə edir. Burada söz təkcə nəyi bildirdiyini deyil,

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, aparıcı elmi işçi, Filologiya üzrə fəlsəfə doktoru, dosent, Email: aytan_baylarova@mail.ru

həm də necə qavranıldığını nümayiş etdirir. Məsələn, *vətən* leksemi coğrafi məkan mənası ilə məhdudlaşmır; o, eyni zamanda müqəddəslik, şəhid, qan və ana obrazı kimi mədəni-emosional assosiasiyaları ehtiva edərək çoxqatlı semantik bütövlük yaradır. Xüsusilə Azərbaycanın mədəni-ictimai kontekstində *vətən* və *şəhid* anlayışlarının ayrılmazlığı konnotasiyanın milli-mədəni spesifikasını (etnokonnotasiyanı) bariz şəkildə əks etdirir. Yaxud *qurd* leksemi türk mifoloji təfəkküründə cəsarət, azadlıq və liderlik rəmzi kimi müsbət, folklor mətnlərində isə təhlükə və vəhşilik simvolu kimi mənfi konnotativ yük daşıyır. Bu, konnotasiyanın mətndaxili və mədəni amillərdən asılı olaraq formalaşan dinamik xarakterini sübut edir.

Bədii mətnlər konnotativ leksikanın ən intensiv fəaliyyət göstərdiyi dil mühitidir. Bu mətnlərin əsas qayəsi oxucuda estetik təsir yaratmaq, mövzunu dərinləşdirmək və ideyanı çoxqatlı semantik müstəvidə təqdim etməkdir. Müəllif bu hədəflərə nail olmaq üçün denotativ leksika ilə kifayətlənmir; konnotasiyanın yaratdığı əlavə məna qatlarına müraciət edərək mətni emosional-estetik baxımdan zənginləşdirir. Konnotativ leksika mətndə məzmunun dərinləşdirilməsi, obrazların qiymətləndirilməsi, müəllif mövqeyinin təzahürü və oxucu ilə emosional dialoqun qurulması kimi funksiyaları reallaşdırır. Bu səbəbdən konnotasiya bədii mətndə, sadəcə, üslubi "bəzək" deyil, mətnin daxili strukturunu formalaşdıran fundamental komponentdir. Məsələn, *günəş* leksemi bədii kontekstdə "ümid", "həyat", "isti münasibət" kimi konnotativ çalarlar qazanır. Belə semantik transformasiya mətni xətti informasiya daşıyıcısı olmaqdan çıxararaq çoxölçülü və dərin mənalı bir sistemə çevirir.

Konnotativ leksika sözlərin denotativ mənası ilə yanaşı, onların ehtiva etdiyi emosional, qiymətləndirici və mədəni assosiasiyaları da əhatə edir. Bu növ leksik seçimlər bədii mətndə obrazların xarakterini dolğunluğu ilə açır və hadisələrin emosional təsirini gücləndirir. Azərbaycan bədii nümunələrinin təhlili göstərir ki, konnotativ leksika bədii ifadə sisteminin ən dinamik vasitələrindən biridir.

Müasir koqnitiv dilçilik mətnə mürəkkəb kommunikativ fenomen kimi yanaşır. Konnotativ aspektin aktuallığı ondan ibarətdir ki, müəllif ötürmək istədiyi gizli mesajı (subteksti) məhz konnotativ vahidlər vasitəsilə kodlaşdırır. Beləliklə, mətnin bütövlüyü təkcə qrammatik əlaqələndiricilərlə deyil, həm də vahid konnotativ sahənin formalaşdırılması ilə təmin olunur. Konnotativ koheziya mətn boyu eyni emosional auraya malik sözlərin zəncirvari düzülüşüdür. Məsələn, əgər bir mətn "qaranlıq", "təklik", "uçurum" kimi leksemlər üzərində qurulubsa, formalaşan bədbinlik konnotasiyası mətnin struktur hissələri arasında emosional-semantik körpü yaradaraq onun daxili bağlılığını (koherentliyini) təmin edir. Oxucu bu konnotativ izləri təqib edərək mətnin dərin qatındakı (subtekstual) ümumi mənanı dərk edir.

İ.R.Qalperin mətn informasiyasını üç növə ayırır [6]: faktual, konseptual və mətnaltı informasiya. *Faktual informasiya* obyektiv reallıqda baş verən hadisə, proses və faktlar haqqında açıq şəkildə ifadə olunan məlumatları əhatə edir. Elmi mətnlərdə irəli sürülən hipotezlər, qarşılaşdırılan faktlar buraya aiddir. Dil vahidləri bu tipli informasiyalarda həqiqi, əşyəvi-məntiqi və lüğəvi mənalarda işlənir. *Konseptual informasiya* müəllifin sosial gerçəklik, insan münasibətləri və dünyagörüşü ilə bağlı ümumiləşdirilmiş ideya və düşüncələrini əks etdirir. Bu, daha çox məişət zəminində bədii-estetik informasiyanı əhatə edir. *Mətnaltı informasiya* isə müəllifin hadisələrə münasibətini üzə çıxaran informasiyadır və birbaşa ifadə olunmur, assosiativ və ya konnotativ xarakter daşıyaraq, mətnin semantik dərinliyində formalaşır. Bu prosesdə müəllif intensiyası (niyyəti) dəyərləndirməni dolayı yolla reallaşdırır – onun cəmiyyətə, hadisələrə və ya sosial problemlərə münasibəti açıq şəkildə deyil, əksər hallarda konnotativ dil vahidləri vasitəsilə ifadə olunur.

Mətndə informasiyanın növləri aşağıdakı şəkildə də təsnif edilir: 1) koqnitiv informasiya; 2) operativ informasiya; 3) emosional informasiya. Emosional informasiya kommunikasiya prosesində hiss və duyğuların ifadəsinə xidmət edir. Onun əsas əlaməti subyektivlikdir. Emosional informasiyanın subyektivliyini əks etdirən leksik vasitələrin böyük əksəriyyəti emosional-qiymətləndirici konnotasiyaları ehtiva edir.

Konnotativ leksika emosional qiymətləndirmə, mövqe bildirmə və üslubi fərqləndirmə vasitəsi kimi çıxış edir. Dilin üslubi imkanlarının genişlənməsində və mətnin semantik dərinliyinin təmin olunmasında konnotativ dil vahidlərinin rolu böyükdür.

Bədii mətnlərdə konnotativ leksikanın funksiyalarını aşağıdakı şəkildə sistemləşdirmək olar:

– emosional-psixoloji təsirin formalaşdırılması;

– aksioloji (qiymətləndirici) münasibətin ifadə olunması;
– obrazların xarakterinin açılması;
– üslubi ifadəliliyin təmin edilməsi.

1. Emosional-psixoloji təsirin formalaşdırılmasında konnotativ leksikanın rolu. Bədii mətnlərdə konnotativ leksika oxucuda müəyyən hiss, düşüncə və emosional reaksiyalar formalaşdırır. Bu zaman sözlərin birbaşa leksik mənasından daha çox, onların yaratdığı assosiasiyaların ön plana keçməsi mətnin semantik dərinliyini üzə çıxarır.

Konnotativ leksik vahidlər kədər, sevinc, gərginlik, qorxu və ya ironiya kimi emosiyaların ifadəsində önəmli rol oynayır. Neytral leksikanın emosional çalarlı ifadələrlə əvəzlənməsi təsvir olunan vəziyyətin oxucu tərəfindən dərindən duyulmasına şərait yaradır və mətnin emosional fonunu müəyyənləşdirir. Məsələn, klassik poeziyada *gül* və *bülbül*, sadəcə, təbiət nümunələri deyil, "fədakarlıq" və "qarşılıqsız sevgi" konnotasiyalarının daşıyıcısıdır. Bu cür dil vahidləri bir-biri ilə assosiativ əlaqəyə girərək mətndə bütöv bir "konnotativ zəncir" yaradır.

Oxucuda dolayı emosional təsir yaradan dil vahidləri arasında feillər özünəməxsus semantik imkanları ilə seçilir. Bu qəbil sözlərin işlədilməsində əsas məqsəd sətiraltı məna (subtekst) vasitəsilə emosional təsir gücünü artırmaqdır. Məsələn: *"Mən də onu daha əvvəlki kimi cürbəcür zarafatlarla sancmırdım"* [1, s.211]. Təqdim olunan nümunədə *sancmaq* feili öz ilkin mənasından uzaqlaşaraq "acı sözlə qəlb qırmaq", "kinayə ilə danışmaq" çalarlarını qazanır. Burada fiziki ağrı anlayışının mənəvi-psixoloji sarsıntı semantikası ilə əvəzlənməsi obrazlararası münasibəti olduqca kəskin ifadə edir.

2. Aksioloji (qiymətləndirici) münasibətin ifadəsində konnotativ leksikanın rolu. Bədii mətndə müəllif məhz söz seçimi vasitəsilə obraz və hadisələrə öz subyektiv münasibətini göstərir. Qiymətləndirici konnotasiyaya malik leksemlər müəllifin müsbət və ya mənfi mövqeyini əks etdirərək hadisənin dəyərini (aksioloji mahiyyətini) vurğulayır. Sözügedən leksika xüsusilə antropomorfik xüsusiyyət qazanan zoonimlərdə (heyvan adlarında) daha aydın müşahidə edilir. Məsələn: *"Yaltaqlar cəmiyyətin sinəsində qarayaradır. Onlar həm buqələmun, həm tülkü, həm də ilk baxışda diqqət çəkməyən goreşənlərdir"* [3]. Bu kontekstdə zoonimlər öz həqiqi bioloji mənalarından tamamilə uzaqlaşır, müvafiq olaraq "prinsipsizlik, dəyişkənlik", "hiyləgərlik" və "xəbislik" semalarını ön plana çıxarır. Müəllif bu leksemlər vasitəsilə obyekti, sadəcə, təsvir etmir, həm də ona qarşı kəskin neqativ münasibətini ifadə edir. Belə bir yanaşma konnotativ leksikanın dildə etik-estetik qiymətləndirmə aləti olduğunu sübut edir.

3. Obrazların xarakterinin açılmasında konnotativ leksikanın rolu. Bədii kontekstdə konnotativ leksika müəllifə obrazların fərdi-psixoloji keyfiyyətlərini və xarakterik cizgilərini daha canlı təqdim etməyə imkan verir. Məsələn: *"Çox danışmağı xoşladığı üçün Şövkət həm sinif yoldaşları, həm də müəllimlər tərəfindən "qrammofon" adlandırılmışdı"* [2, s.129]. Bu nümunədə *qrammofon* leksemi güclü konnotativ yük qazanaraq, subyektin xarakterindəki mənfi çaları — nitqinin uzunluq və yoruculuğunu vurğulayır. Müəllif personajın çoxdanışan olduğunu neytral leksika ilə təsvir etmək əvəzinə, *qrammofon* metaforunu işlətməklə oxucuda həm ironik münasibət formalaşdırır, həm də fərdin sosial mühitdə necə qavranılmasını dəqiqliklə əks etdirir. Beləliklə, konnotativ mənalı sözlər obrazı leksik-semantik cəhətdən səciyyələndirmə və oxucu təfəkküründə konkret assosiasiyalar yaratma funksiyasını parlaq şəkildə nümayiş etdirir.

4. Üslubi ifadəliliyin təmin olunmasında konnotativ leksikanın rolu. Bədii mətndə müəllif leksik vahidlərin seçimi vasitəsilə yalnız hadisə və obrazları təsvir etmir, həm də mətni ritmik, rəngarəng və üslubi cəhətdən zəngin edir. Konnotativ leksikanın rolu məhz sinonimik cərgə daxilindən bədii niyyətə ən uyğun vahidin müəyyənləşdirilməsi prosesində üzə çıxır. Bu seçim bizə danışan şəxsin kimliyi (sosial və ya məhəlli mənsubiyyəti), onun mövzuya münasibəti və ünsiyyətin hansı şəraitdə baş verdiyi haqqında gizli informasiya ötürür.

Sözlərin semantik hüdudlarını genişləndirən konnotativ çalarlar onları sadə informasiya daşıyıcısından estetik vasitəyə çevirir. Müəllif dilin təsvir imkanlarından istifadə edərkən məhz yaratmaq istədiyi üslubi effekti əsas götürür. Qeyd olunan yanaşma bədii mətnin janr xüsusiyyətlərini, oxucu qavrayışını və ən əsası, müəllif intensiyasını müəyyənləşdirən həlledici faktordur. Məsələn:

"*Uçitel: — Nə olacaq, tərbiyə tapıb adam olacaq.*

Qasım kişi: — Axı necə adam olacaq? Mən indi yetmiş ildən artıqdır ki, ömrüm var, indi sənin

sözündən belə başa düşək ki, bu burnu fırtıqlı corma-cocuqlar bir ildən sonra adam olacaqlar? Yəni nə zərəri var ki, bizi başa salasan, görək necə adam olacaqlar?

Müəllim: — Qasım kişi, bağışla, axı uşaqlar bir ildən sonra yazıb-oxumaq öyrənəcəklər" [4, s.497].

Bu dialoqda *adam olmaq* ifadəsi üzərində qurulmuş semantik ziddiyyət konnotasiyanın üslubyaradıcı funksiyasını aydın nümayiş etdirir. Müəllim bu ifadəni "təhsilli, ləyaqətli şəxsiyyət olmaq" anlamında işlətsə də, Qasım kişi onu yalnız denotativ (bioloji insan) mənada qəbul edir. Bu semantik toqquşma mətndə həm güclü bir ironiya yaradır, həm də adresantların (müəllim və Qasım kişi) fərqli sosial-mədəni mühitlərin daşıyıcısı olduğunu üzə çıxarır.

Deməli, konnotativ leksika oxucunun mətni yalnız oxumasına deyil, eyni zamanda onu hiss etməsinə və baş verənləri dərk etməsinə imkan yaradır. Konnotativ çalarlar oxucuda emosional və mədəni yaddaşın aktivləşməsinə səbəb olur; nəticədə oxucu mətndəki müəyyən ifadələri öz təcrübə və bilikləri ilə əlaqələndirərək mətnin dərin qatlarını kəşf edir.

Nəticə etibarilə, konnotativlik bədii mətndə mövzu və ideyanın tam şəkildə açılmasını təmin edən əsas elementlərdən biridir. O, mətni emosional, estetik və mədəni çalarlarla zənginləşdirməklə yanası, onu həm semantik, həm də kommunikativ planda bütövləşdirir. Mətni təşkil edən əsas struktur elementlər – mövzu, kompozisiya, süjet, obrazlar sistemi, üslubi vasitələr və dil quruluşu konnotativ çalarlarla tamamlanaraq oxucu üçün çoxlaylı semantik sistemə çevrilir.

Konnotativ vahidlərin mətn daxilindəki başlıca funksiyalarından biri tematik vahidlərin semantik tutumunu dərinləşdirmək və mövzunun mətnaltı qatlarında ehtiva olunan gizli mənaları üzə çıxarmaqdır. Mətnin mövzusu çox vaxt açıq şəkildə ifadə olunsa da, əsərin konseptual ideyası, mətnaltı layları və subyektiv-estetik münasibət məhz konnotativ mənalı dil vahidləri ilə ötürülür. Bu baxımdan klassik və müasir bədii nümunələrdə mövzu öz əsas ideya-bədii yükünü birbaşa konnotativ çalarların fəaliyyəti nəticəsində qazanır.

Bədii ədəbiyyatın təhlili göstərir ki, konnotemalar əsərin ideyasının açılmasında mühüm rol oynayır və fərdi müəllif üslubunun formalaşmasına xidmət edir. Müəllif bu vahidlərdən həm xüsusi üslubi effekt yaratmaq, həm də təhkiyəni inkişaf etdirmək üçün məqsədyönlü şəkildə istifadə edir. Bədii mətnin semantik strukturunda konnotativ dil vahidləri müəllifin praqmatik niyyətinin, ideyasının və dünyagörüşünün ən dəqiq ifadə vasitəsidir.

Beləliklə, konnotativ leksika bədii mətnin, sadəcə, üslubi "bəzəyi" deyil, onun semantik strukturunu və estetik dəyərini müəyyən edən əsas komponentdir. Bu leksik vahidlərin bədii funksionallığı dilin obrazlılığını təmin etməklə yanaşı, həm də müəllif və oxucu arasında dərin emosional-psixoloji körpü yaradır.

ƏDƏBİYYAT

1. Əfəndiyev İ. Seçilmiş əsərləri: 3 cilddə, I c. Bakı: AVRASİYA PRESS, 2005, 280 s.
2. Əmirov C.C. Qara Volqa. Bakı: Qanun, 2017, 412 s.
3. Məlikzadə S. Yaltaqlar haqqında "ballada, https://www.yeniavaz.com/az/authors/1440/yaltaqlar-haqqinda-ballada
4. Məmmədquluzadə C. Seçilmiş əsərləri: 4 cilddə, I cild. Bakı: "Öndər nəşriyyat", 2004, 664 s.
5. Барт Р. Французская семиотика: От структурализма к постструктурализму / Пер. сфр. и вступ. ст. Г.К. Косикова. М.: Издательская группа «Прогресс», 2000, 536 с.
6. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: Наука, 1981, 138 с.
7. Ельмслев, Л. Пролегомены к теории языка. Перевод с английского. Серия «Лингвистическое наследие XX века». М.: изд-во КомКнига, 2006, 248 с.
8. Ризель Э.Г. Стилистическое значение и коннотация // Лингвостилистические проблемы текста: сб. науч. тр. Вып. 158. М., 1980, с.134-143.
9. Телия В.Н. Коннотативный аспект семантики номинативных единиц. М.: Наука, 1986, 143 с.

FUNCTIONS OF CONNOTATIVE LEXIS IN LITERARY TEXTS

SUMMARY

The article examines the functional characteristics of connotative lexis in literary texts. The main objective of the research is to determine the role of connotative means in ensuring the thematic unity and

integrity of the text, as well as to analyze their mechanisms of emotional-aesthetic impact. Connotation consists of the unity of emotional, evaluative, expressive, stylistic, and cultural components added to the denotative meaning of words. Analysis based on Azerbaijani literary examples shows that connotative lexis expands the expressive potential of the text, enriches the portrayal of characters, and creates an artistic-aesthetic dialogue between the author and the reader. The article investigates the functions of connotation in accordance with the discursive environment and cultural context, as well as the impact of word choice on reader perception. The results of the study demonstrate that the semantic depth and emotional-aesthetic impact of a literary text are conditioned by the functional application of connotative lexis. In this context, particular importance is attached to the functions of connotation such as the formation of emotional-psychological impact, the expression of axiological (evaluative) attitudes, the revelation of characters' traits, and the provision of stylistic expressiveness.

Keywords: *literary text, connotative lexis, connotation, function, intention*

ФУНКЦИИ КОННОТАТИВНОЙ ЛЕКСИКИ В ХУДОЖЕСТВЕННЫХ ТЕКСТАХ

РЕЗЮМЕ

В статье рассматриваются функциональные особенности коннотативной лексики в художественных текстах. Основная цель исследования заключается в определении роли коннотативных средств в обеспечении тематической целостности текста, а также в анализе механизмов формирования эмоционально-эстетического воздействия. Коннотация представляет собой единство эмоциональных, оценочных, экспрессивных, стилистических и культурных компонентов, добавленных к денотативному значению слов. Анализ на основе азербайджанских художественных примеров показывает, что коннотативная лексика расширяет выразительные возможности текста, обогащает характеры персонажей и создает художественно-эстетический диалог между автором и читателем. В статье исследуются функции коннотации в соответствии с дискурсивной средой и культурным контекстом, а также возможности влияния лексического выбора на восприятие читателя. Результаты исследования доказывают, что семантическая глубина и эмоционально-эстетическое воздействие художественного текста обусловлены функциональным применением коннотативной лексики. В данном контексте особую значимость приобретают такие функции коннотации, как формирование эмоционально-психологического воздействия, выражение аксиологического (оценочного) отношения, раскрытие характера персонажей и обеспечение стилистической выразительности.

Ключевые слова: *художественный текст, коннотативная лексика, коннотация, функция, интенция*

Elnarə ƏLİYEVA*

BƏKİR ÇOBANZADƏNİN DİLÇİLİK İRSİNDƏ TERMİN MƏSƏLƏSİ

XÜLASƏ

Tanınmış alim Bəkir Çobanzadə türkologiyanın, o cümlədən Azərbaycan türkologiyasının inkişafında əvəzsiz xidmətləri olan şəxslərdəndir. O ömrü boyu ana dilinin, türk dilinin təəssübünü çəkmiş, bu yolda özünü fəda etmişdir. Ədibin elmi fəaliyyətində diqqət çəkən mövzulardan biri termin yaradıcılığıdır. Dilin tədrisində və elmi qrammatikaların, dərsliklərin yazılmasında terminlərin zəruri olduğunu bildirmiş, terminyaratma yolları ilə bağlı öz fikirlərini təklif etmişdir.

Məqalənin hazırlanmasında məqsəd I Türkoloji Qurultayın fəallarından olan B.Çobanzadənin türkoloji görüşləri ilə tanış olmaq, onun öz elmi irsində istifadə etdiyi bəzi dilçilik terminləri ilə tanış olmaqdır.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu Türk dilləri şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent, elnarenadir7@gmail.com, dok.elnare_e@mail.ru,

Açar sözlər: *B.Çobanzadə, dilçilik terminləri, türkologiya, türk dilləri, qrammatika.*

B.Çobanzadə türkologiyanın inkişafında müstəsna xidmətləri olmuş dilçi, bütün türk dünyası üçün böyük əhəmiyyət kəsb edən – 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın fəal təşkilatçılarından biri, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitənin rəhbəri, Azərbaycanda Yeni Əlifba Komitəsinin sədri olmuşdur. O, 140-dan çox əsərin (kitab, məqalə, ədəbi tənqid) müəllifidir.

"Çobanzadə bütün türk dillərindən əlavə, ərəbcə, farsca, macarca, fransızca, almanca, rusca, ingiliscə, ermənicə və gürcücə bilirdi. Akməsciddə Krim tatar dili, Bakıda Azərbaycan dili, Daşkənd Universitetində özbək dili və ədəbiyyatı kürsüsünə başçılıq edən bu türk oğlu bütün türk dünyasına mənsubdu" [7, s.20]. O, türkçənin bütövlüyü, latın əlifbasının qəbul edilib yayılması sahəsində böyük əmək sərf etmişdir.

1922-ci ildə Krım Universitetində "Türk dilllərinin müqayisəli qrammatikası" fənnindən mühazirələr oxuyan B.Çobanzadə bu dillərin qrammatik kateqoriyaları ilə bağlı araşdırmalar aparmışdır. Alimin öz elmi fəaliyyəti haqqında söylədikləri xüsusi maraq doğurur: "*Mən öz ixtisasım üzrə sovet Şərqinin ilk professoruyam, bu ada sovet hökuməti tərəfindən layiq görülmüşəm və bu ölkədə ilk dəfə ana dilində mühazirə oxumuşam. Bütün elmi fəaliyyətim dövründə təxminən 150 elmi əsər yazmışam. Onların 100-ü Azərbaycan dili və ədəbiyyatı problemlərinin elmi əsaslarına həsr edilmişdir. Məqalələr Azərbaycan dilində yazılmışdı. Yüzlərlə dilçi və ədəbiyyatşünas, mütəxəssis hazırlamışam"* [11] .

Latın əlifbasına keçidlə əlaqədar o, Orta Asiyada, Tatarıstanda, Bolqarıstan və Krımda böyük mücadilə aparmış, həmçinin Bakı, Daşkənd, Buxara və Tavriyada türkologiya fənnindən mühazirələr demişdi.

B.Çobanzadə və dilçilik terminləri.

B.Çobanzadənin öz elmi fəaliyyəti dövründə mövcud qrammatikaların mənfi cəhətlərini görmüş, buna görə də yeni əsər yazmaq qərarına gəlmişdir. Alimin Fərhad Ağazadə ilə birgə qələmə aldığı "Türk qrameri" əsəri türkologiyada dəyərli tədqiqat əsərlərindəndir. Bu qrammatikada isə özünəməxsus tərzdə terminləri və qrammatik kateqoriyaları izah etmişdir. Qeyd edilən əsərdə müasir qrammatikalarımızdan fərqlənən kifayət qədər termin vardır. Ümumiyyətlə, termin yaradıcılığı, B.Çobanzadəni daim düşündürmüş, bu mövzuya dönə-dönə müraciət etmişdir. I Türkoloji qurultaydakı çıxışında da qeyd edilən problemlə bağlı müzakirə yaratmışdır: *"Mən hesab edirəm ki, terminlər ikili əhəmiyyət daşıyır: əvvəla, elmi əhəmiyyət, ikincisi pedaqoji. Terminlərsiz biz məktəblərdə tədris edə və elmi əsərlər yaza bilmərik"* [13, 251]. Görkəmli alim termin yaradıcılığında elmi terminologiyanın tələblərinə əsaslanmağı, omonimlikdən uzaq durmağı, birmənalı sözlərdən istifadə etməyi təklif edir.

B.Çobanzadənin dilçilik əsərlərində istifadə etdiyi bəzi terminlərə nəzərə salaq:

Müasir dilimizdə işlənən *kök* termininin əvəzində müəllif *damar* termininden istifadə edir. O yazır: *"Sözlərin başlıca iki ünsürü vardır: damar və şəkilçi...Damarlar sözdə bulunan şəkilçilər çıxarıldıqdan, atıldıqdan sonra qalan qisimdir. Türk dilinin damarları üç cür ola bilir: 1) bəsit, 2) yapma, 3) qoşma/mürəkkəb*" [1, V c., 99]. Göründüyü kimi, burada sadə, düzəltmə, mürəkkəb anlamında da fərqli terminlər işlədilir.

Damar termini M.Kaşğari "Divan"ında (tamar), "Qutadqu-biliq"də (tamur), "Altun-yaruq"da (*tamır*) əsasən "qan damarı" anlamında əks olunmuşdur [12, s.529; 530; 531]. Maraqlıdır ki, qədim türk yazılı abidələrində qeydə alınmış bu söz uyğur dilində "kök" anlamında (*tomur)*işlədilir. Burada *tomur* həm bitkinin kökü, həm də dilçilik termini olaraq anlaşılır [15, s.509]. Bu dilçilik termininin fonetik variantları ilə digər türk dillərində də rastlaşırıq: tatar, başqırd, qaraçay-balkar, noqay dilində *tamır*; qumuq dilində *tamur,* qazax dilində *tübir* [4, s.62]. Özbək dilində *tomir* "bitkinin, dişin, saçın kökü" [14,s.310] anlamındadır.

Tədqiqatçı *şəkilçi* ilə yanaşı, *affixes* terminini də işlədir. Bu gün Avropa dillərində aparıcı dilçilik terminlərindən olan latın mənşəli bu termin də türkmən, qaqauz, başqırd, qumuq, qaraçay-balkar, noqay, qazax və şor dillərində ikinci dərəcəli termin kimi istifadə olunur.

Əskilmiş sözlər –köhnəlmiş sözlər

Köhnəlmiş sözlər anlamında işlənmiş *əskilmiş* ifadəsi türk, qaqauz, noqay, qırğız dillərində (eski), özbək dilində *eskirgan*, başqırd və tatar dillərində *iskergən*, qumuq dilində *esgilengen* şəklində işlənir [4, 38]. Türk dillərinin əksəriyyətində, həm də yunan mənşəli *arxaik* termini yer almışdır.

Sövtiyyat – fonetika

Ərəb mənşəli *sövtiyyat* termini bu gün dilimizin arxaik leksik qatına aiddir. Türk dillərinin demək olar ki, hamısında *fonetika* terminindən istifadə olunur. Bəzi dillərdə isə paralel olaraq, ikinci termin də işlədilir: Məsələn, müasir türk dilində *ses bilgisi*, qaqauz dilində *ses bilimi*, şor dilində *til ünneri* [4, s.71].

Şəkliyyat - morfologiya

Bu terminlərin Azərbaycan dilçiliyində işlənmə tarixinə kiçicik nəzər salsaq, görərik ki, 1924-cü ildə "Türkcə sərf-nəhv" dərsliyində "morfologiya" anlamında *sərf,* 1928-ci ildə B.Çobanzadə tərəfindən *şəkliyyat,* 1936-cı ildə İ.Həsənov tərəfindən nəşr edilən "Qrammatika" dərsliyində "morfologiya", 1945-ci ildə S.Cəfərov, Ə.Abasov tərəfindən hazırlanıb nəşr edilən "Azərbaycan dilinin sərfi" dərsliyində yenidən "şəkliyyat", 1951-ci ildə Ə.Abasov tərəfindən hazırlanıb nəşr edilən "Azərbaycan dilinin qrammatikası" dərsliyindən başlayaraq bu günə qədər isə "Morfologiya" adlandırılmışdır [10, s.5-6].

Bu gün isə türk dilərinin hamısında yunan mənşəli (*morfos+loqos*) *morfologiya* termininin işləndiyinin şahidi oluruq. Bununla yanaşı, türk dilində *şekil birimi* termini ilə də rastlaşırıq [4, 77].

Nəhv – sintaksis

Ərəb mənşəli *nəhv* termininə müasir türk dillərində təsadüf edilmir. Türk dillərinin hamısında bu gün yunan mənşəli *sintaksis* termini işlənir, müasir türk dilində isə *cümle bilgisi* termini də mövcuddur. Qeyd edək ki, Osmanlıcada bu məqamda *nahiv* termini müşahidə edilir [8, s.21].

"Nəhv" elminin əsasını Əbul-Əsvəd əd-Duəli xəlifə Əli ibn Əbu Talibin əmri ilə qoymuşdur. Buna səbəb isə islam dininin geniş yayılması, çox sayda əcnəbilərin islama daxil olması və ərəb dilində danışılarkən səhvlərin artması idi [2, s.9].

O, sözün quruluşca 3 növünü göstərmiş, bu zaman ərəb mənşəli *bəsit* "sadə" və türk mənşəli *yapma* "düzəltmə", *qoşma* "mürəkkəb" terminlərindən istifadə etmişdi. Alim qrammatik şəkilçiləri *sözdəyişdirici şəkilçilər / nəhvi şəkilçilər*, leksik şəkilçilər anlamında isə *sözyapıcı şəkilçilər* termini işlətmişdir.

Şəkilçilərlə bağlı ətraflı fikir yürüdən, onun flektiv dillərdən fərqli işlənmə məqamlarından söz açan tədqiqatçı ərəb mənşəli terminlərlə adlandırılan ismin hallarına da öz münasibətini bildirmişdir: "*Türkcədə başlıca beş hal vardır: müzaf ileyh (genitivus), məf'ul bih (accusativus), məf'ul ileyh (dativus), məf'ul ənh (ablativus-exessivus), məf'ul fih(locativus). Bu təbirlərin həm lisaniyyat, həm də tədrisat nöqteyi-nəzərindən əlverişli olmadığı meydandadır. Lakin indiyə qədər bu cür istilahlar türkcədən düzəldilməmişdir. Onun üçün imdilik əski istilahları işlətməkdən başqa çarə yoxdur. Şimal türk-tatar xalqları bir çox yerlərdə artıq öz ana dillərində sərf istilahları tərtib etmişlərdir"* [1, V c., 137]. Göründüyü kimi, müəllif türk dilində ismin hallarını adlandırmaq üçün istifadə edilən terminlərlə bağlı narahatlığını, milli mənşəli terminlərin yaradılmasının vacibliyini diqqətə çatdırmışdır. Tədqiqatçı bir qədər sonra ismin hallarının sayı ilə bağlı fərqli baxışlara da münasibətini bildirmiş və nəticə etibarilə qeyd etmişdir ki, müxtəlif ölkələrdə çalışan türkoloqların hər birinin əlavələrini bura daxil etsək, halların sayı 10-dan 15-ə qədər arta bilər.

Müzaf ileyh –yiyəlik hal

Yiyəlik hal anlamında B.Çobanzadənin işlətdiyi *müzaf ileyh* termini ilə müasir türk dillərində rastlaşmadıq**.** *Muzafun ileyh* ismi birləşmələrdə (izafət tərkibində) *muzafın* əlaqələndiyi ismin halıdır. Türkçədə muzaf sonra gəlir. "Evin qapısı" dediğimiz zaman, ev - muzafun ileyh; qapı – muzafdır [6].

Hesab edirik ki, digər hallar feillə əlaqələndikləri üçün *məful bih*–"təsirlik", *məful ileyh* –"yönlük", *məful fih* – "yerlik", *məfhul ənh* – "çıxışlıq" adlandırılmışdır.

1918-ci ildə Qafur Rəşad Mirzəzadə, Məhəmməd Sadıq Axundovun "Rəhbəri-sərf" kitabında da həmin terminlərdən istifadə edilmişdir. Təkcə yiyəlik hal burda "*izafət halı"* adlandırılmışdır [10,s.121].

Zəmir - əvəzlik

B.Çobanzadənin işlətdiyi ərəb mənşəli *zəmir* termini təkcə müasir türk dilində (*zamir*) qalmışdır. Türk dilləri arasında daha çox müxtəlif fonetik tərkiblərdə *almaş* termini işlədilir: *almaş* (uyğur, başqırd, qaraçay-balkar), *almaşlıq* (tatar), *olmaş* (özbək) və s. Bununla yanaşı, Azərbaycan dilində *əvəzlik,* türkmən

dilində *çalışma,* noqay dilində *avis*, qazax dilində *esimdik,* qırğız dilində *at atooç* terminləri mövcuddur [4, s.85].

Osmanlı türkçəsində də B.Çobanzadənin işlətdiyi *zamir, zamir-i müphem* və s. terminlər işlənilir [8,s. 212].

Əsərdə istifadə olunmuş "feili sifət" anlamlı *silə şiğələri,* "feili bağlama" anlamlı ərəb mənşəli *rabitə,* həmçinin "keçmiş zaman" anlamlı *mazi, "*gələcək zaman" anlamlı *müstəqbəl* terminlərinə də müasir türk dillərində rast gəlmədik. Ümumiyyətlə, B.Çobanzadənin Fərhad Ağazadə ilə birgə qələmə aldığı "Türk qrameri" əsərində kifayət qədər dövrünə uyğun terminlər tapmaq mümkündür. Bu terminlərin əsasən mənşəcə millilikdən uzaq olması görkəmli türkoloqu narahat etməsi əsər boyu aydın hiss olunur.

Belə ki, termin yaradıcılığında axtarışda olan müəllifin qeyd edilən əsərdə müqayisə üçün rus və Avropa dillərindən də nümunə göstərməsi maraq doğuran məqamdır. Məsələn, feili bağlamadan bəhs edərkən yazır: "Bunlara türk sərfləri "rabitə", rus sərfləri *деепричастие* və ya *глагольн.наречие*, fransız sərfləri eyni surətlə *gerundiv, gerundium* və ya *formes adverbiales* deyirlər. Bizcə, indilik, "*rabitə"* təbirini işlətmək mümkündür" [1, V c.,143].

B.Çobanzadə termin yaradıcılığında izafətlərdən də uzaq olmağa çalışmışdır: "*Sözdəyişdirici şəkilçilərin ən mühüm qismi indiyə qədər yazılan sərflərimizdə "əhvali-isim ədatları" adlanırdı... Bizim bu sözlərə qarşılıq feillərə də təmim olunmaq üzrə yalnız "təsrif" təbirimiz vardır. Bu cür şəkilçilərin ən böyük xidməti sözləri, cümlələri bir-birinə bağlamaq və bu sayədə onların bir-birinə olan münasibətlərini göstərməkdir* [1, V c.,136].

Bəllidir ki, əsrin əvvəllərində əsas dilçilik terminlərindən olan ərəb mənşəli sözlərin bəziləri sonradan yerini türk, yunan və latın mənşəli terminlərə vermişdir. Biz bu məqalədə diqqəti müasir qrammatikalardan fərqlənən terminlərə yönəltdik, amma qeyd etmək lazımdır ki, bu əsərdə istifadə olunan terminlərin müəyyən bir qismi (isim, zərf, feil, qoşma, nida və s.) hələ də öz işləkliyini saxlamışdır.

Türkoloji görüşləri olduqca geniş olan B.Çobanzadə İbn-Mühənna və onun lüğətini də ətraflı şərh etmiş, onun istifadə etdiyi diliçik terminlərinə münasibət bildirmişdir.

Özündən əvvəlki dilçilik əsərlərini təhlil edərkən B. Çobanzadə belə bir fikir də irəli sürmüşdür: "Qalimcan İbrahimov sərf və nəhv içində həman bütün ərəb istilahlarını qaldırıb-ataraq, onların yerinə tatar dilində sərfdə təsmiyə etdiyi hadisələrin mahiyyətinə uyğun və yaxud ərəb təbriklərinin mənalarına yaxın yeni tədbirlər, istilahlar uydurur" [1, II c., 296].

B.Çobanzadə "Türkcə sərf və nəhv istilahları" adlı məqaləsində dilçilik terminlərinin istifadəsi ilə bağlı da öz fikirini bildirmiş, termin seçərkən sadə ərəbcə terminlərdən istifadə olunmasını, həmçinin yeri gəldikcə yeni terminlərdən bəhrələnməyi, ərəb, Avropa, qazax, tatar kimi xalqların istifadə etdikləri terminlərin müqayisəli cədvəlinin hazırlanması fikrini irəli sürmüşdür. Eyni zamanda Azərbaycan dilində yaradılan terminləri də bu cədvələ əlavə etməyi təklif etmişdir [1, IV c. , 301].

B.Çobanzadə I Türkoloji qurultaydakı çıxışında elmi terminologiya yaratmağın yolları ilə bağlı öz fikirlərini bölüşüb və istiqamətdə 3 mənbəyə əsaslanmağı təklif edib. Onun fikrincə, ilkin olaraq ümumtürk bazası əsas götürülməli, bunun ardınca ərəb-fars, son olaraq elmi nəzəriyyələr sahəsində ümumi istiqamət tutulmalı, bunun üçün Avropa tərzinə əsaslanmaq vacib haldır [9, s.179-180].

Bu mövzuda professor Tofiq Hacıyev belə qeyd etmişdir: "Bir-birimizi anlamaq üçün, lüğət fərqimizi artırmamaq üçün görəcəyimizi ikinci iş bundan sonrakı söz yaradıcılığını bir məxrəcdə aparmaqdır. Bu məqsədlə həm milli məxrəcdə yeni söz düzəldilməsində, həm də yad dillərdən söz mənimsədilməsində türkcələrin razılaşması gərəkdir [5, 190]. Keçmiş Sovet İttifaqının tərkibinə daxil olan türk xalqlarının bəzisində rus dilindən alınmalar ərəb, fars dilini üstələmiş, hətta rus dilinə məxsus şəkilçilər də söz yardıcılığında iştirak etmişdir. Bütün bunlar isə əlbəttə, türk dillərinin əsas qanunu – ahəng qanunun tələblərinin pozulması ilə nəticələnmişdir.

Termin yaradıcılığında xalq dilindən qarşılıqların tapılması digər türk dillərinə nisbətən Türkiyə Türkçəsində daha çox izlənilməkdədir. Bununla bağlı professor Zeynəb Korkmaz yazır: *"Dil konuları işlenirken, yabancı dillerdeki terimlere Türkçe karşılıklar koyma yolunda her bilim adamı kendine düşen görevi yerine yetirmeye çalışmıştır. Bu yolla, gramer dalı bazı güzel terimler kazanmıştır"* [4, XII].

Bir məsələyə də diqqət çəkmək istərdik. Dilçilik elmində Türkiyə Türkçəsinə nisbətən digər türk dillərində daha çox beynəlmiləl terminlər işlənməkdədir. Məsələn, Türkiyə Türkçəsində *eş anlamlı kelimeler termini "sinonim"* Azərbaycan, türkmən, qaqauz, özbək, başqırd, qumuq, noqay, qazax, qırğız, Altay və s.dillərdə ey mənbəyə söykənir. Əslində, bu tipli nümunələr çoxdur. Dilçiliyin sahələri ilə bağlı terminlər də Türkiyə Türkçəsində milli kökdən qaynaqlanır. Məsələn, *dil bilimi* (grammatika), *ses bilgisi* (fonetika), *şekil bilgisi* (morfologiya), *cümle bilgisi* (sintaksis). Əslində, milli mənşəli terminlərin işlənməsi müsbət haldır. Amma türk dillərinin əksəriyyətini əhatə edən beynəlmiləl terminlərin sıxışdırılması zənnimizcə, doğru sayılmamalıdır.

Qumuq dilinin qrammatikasında bu gün də rus mənşəli terminlər üstünlük təşkil edir. Bu dildə termin islahatlarına böyük ehtiyac duyulur. B.Çobanzadə də qrammatik terminləri izah edərkən yeri gəldikdə onların rusca qarşılığını da verir. Bu isə keçmiş Sovetlər birliyində yaşayan türk xalqlarının qrammatikasına rus dilinin təsiri kimi izah oluna bilər.

B.Çobanzadə 1927-ci ildə yazdığı "Türkcə sərf və nəhv istilahları" adlı məqaləsində türk dillərinin qrammatika kitablarına ərəb və Avropa təsirlərindən bəhs etmiş, ilk dəfə olaraq Kazan tatar dilçisi Qalimcan İbrahimovun ərəb mənşəli bütün dilçilik terminlərini milli sözlərlə əvəzlədiyini vurğulamışdır. Bu hərəkat sonradan digər türk xalqlarında da baş qaldırmışdır. O, Kazan-tatar, qazax, özbək və Krım türklərində milliləşmiş terminləri müqayisəli şəkildə oxucuya təqdim etmiş və onların əsasən iki üsulla (dil qaydasının mahiyyətinə uyğun, yaxud ərəb dilindən kalka üsulu ilə) adlandırıldığını bildirmişdir [1, II c., 294-299]. İrəlidə qeyd etdiyimiz kimi, terminalma yollarına da öz münasibətini bildirmişdir.

B.Çobanzadə əsl türkoloq kimi türk xalqları üçün qrammatikanın yaranmasında və təbliğində müstəsna xidmətləri olan dilçilərdəndir. O bu yolda usanmadan mücadilə aparmış, elmi əsərlərində, müxtəlif yığıncaqlarda, dərs dediyi auditoriyalarda, o cümlədən I Türkoloji Qurultayda şəxsi elmi fikir və düşüncələrini bölüşmüşdür. B.Çobanzadənin dilçilik tədqiqatları olduqca geniş və çoxşaxəlidir. Onun qrammatika elminin və dilçilik terminlərinin təhlilinə həsr etdiyi əsərləri türkologiya tarixində xüsusi əhəmiyyət kəsb edir. Biz bu məqalədə yalnız bir zərrəyə toxunduq.

ƏDƏBİYYAT

1.Çobanzadə B.. Seçilmiş əsərləri. Beş cilddə. I, II, II, IV, V cild. Bakı. "Şərq-Qərb", 2007.
2.Ərəb dilinin qrammatikası. Mədinə tədris kursu. Toplayan və tərcümə edən Elşən Şəkərov. Bakı, 2011.
3.Gramer Terimleri Sözlüğü. Ankara, 2007.
4.Gürsoy –Naskali E. Türk Dünyası Gramer Terimleri Kılavuzu. TDK Yayınları. Ankara, 1997.
5.Hacıyev T. Türklər üçün ortaq ünsiyyət dili. Bakı, Təhsil, 2013.
6.http://www.nedirnedemek.com/muzafun-ileyh-nedir-muzafun-ileyh-ne-demek
7.Kırımlı İ. O. Türk Şair VE Bilgini Bekir Sıdkı Çobanzade. İstanbul, 1999.
8.Korkmaz Z. Gramer Terimleri Sözlüğü. Ankara, 1992.
9.Nərimanoğlu K.V., Ağakişiyev Ə. 1926-cı il I Bakı Türkoloji qurultayı. Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006.
10. Sərdar Z. Azərbaycan dili morfologiyasının tədqiqi tarixi (XX əsr). Bakı, "Elm və təhsil", 2011
11. Yarımçıq ömrün hekayəti - Bəkir Çobanzadə./ https://news.milli.az/society/135768.html
12. Древнетюркский словарь, Ленинград, 1969
13. Первый Всесоюзный Тюркологический Съезд, 26 февраля-5 марта 1926 г. (Стенографический отчет). Баку 2011. "Нагыл Еви".
14. Русско-узбекский словарь. Москва, 1954.
15. Русско-уйгурский словарь. Москва, 1956.

ПРОБЛЕМА ТЕРМИНОЛОГИИ В ЛИНГВИСТИЧЕСКОМ НАСЛЕДИИ БЕКИРА ЧОБАНЗАДЕ

РЕЗЮМЕ

Известный ученый Бекир Чобан-заде является одной из выдающихся личностей, внесших бесценный вклад в развитие тюркологии, в том числе азербайджанской тюркологии. На протяжении всей своей жизни он был предан родному языку и тюркскому миру, посвятив себя служению этой цели. Одной из примечательных тем его научной деятельности является терминологическое

творчество. Он подчеркивал необходимость терминов в преподавании языка, а также при составлении научных грамматик и учебников, и выдвигал собственные взгляды на способы создания терминов.

Целью данной статьи является изучение тюркологических взглядов Б. Чобан-заде — одного из активных участников I Тюркологического съезда, а также анализ некоторых лингвистических терминов, использованных в его научном наследии.

Ключевые слова: *Б. Чобан-заде, лингвистические термины, тюркология, тюркские языки, грамматика.*

THE ISSUE OF TERMINOLOGY IN THE LINGUISTIC HERITAGE OF BEKIR CHOBANZADE

ABSTRACT

The renowned scholar Bekir Chobanzade is among the figures who made invaluable contributions to the development of Turkology, including Azerbaijani Turkology. Throughout his life, he defended and devoted himself to his mother tongue, the Turkic language. One of the notable areas of his scholarly activity is terminology formation. He emphasized the necessity of terms in language teaching and in the writing of scientific grammars and textbooks, and proposed his own views on the methods of term formation.

The purpose of this article is to become acquainted with the Turkological views of B. Chobanzade, one of the active participants of the First Turkological Congress, and to examine some of the linguistic terms used in his scholarly heritage.

Keywords*: B. Chobanzade, linguistic terminology, Turkology, Turkic languages, grammar*.

Məsmə ZÖHRAB-MƏCİD*

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN SÖZ YARADICILIĞI PROSESİNDƏ TOPONİMLƏRİN ROLU

XÜLASƏ

Toponimlər dilin leksik fondunun zənginləşməsində mühüm rol oynayır. Onlar coğrafi obyektlərin adları kimi söz yaradıcılığında istifadə olunur. Azərbaycan və ingilis dillərində toponymlərdən törəmə sözlər və demonimlər yaranır. İngilis dilində bu daha çox analitik və leksik-semantik üsullarla, Azərbaycan dilində isə şəkilçilərlə həyata keçirilir. Toponimlər semantik genişlənmə və metaforik/metonimik köçürmə yolu ilə yeni mənalar qazanır. Bu proses həm tarixi, həm mədəni, həm də coğrafi məlumatları dilə gətirir və milli yaddaşı qoruyur. Toponimlər sosial və etnoqrafik bilikləri əks etdirərək xalqların identikliyini gücləndirir. Onlar həmçinin dillərarası təsir və qloballaşma fonunda söz yaradıcılığı üçün zəngin baza təmin edir. Bu səbəbdən toponimlərin öyrənilməsi dilin inkişaf qanunauyğunluqlarını və mədəni-milli yaddaşı anlamağa kömək edir.**.**

Açar sözlər: *söz yaradıcılığı, toponimik adlar, semantik genişlənmə, metonimiya, qanunauyğunluq*

Dil dinamik və fasiləsiz inkişaf edən mürəkkəb bir sistemdir. Bu inkişafın əsas amillərindən biri söz yaradıcılığı prosesidir. Söz yaradıcılığı dilin leksik fondunun zənginləşməsində, həmçinin yeni anlayış və məfhumların ifadə olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu proses zamanı müxtəlif leksik mənbələrdən, xüsusilə xüsusi adlardan — antroponimlərdən və toponimlərdən geniş şəkildə istifadə edilir.

Coğrafi obyektlərə verilən adların, yəni toponimlərin öyrənilməsi ilə məşğul olan dilçilik sahəsi toponimiya adlanır. Ümumiyyətlə, toponimlər dilin daxili qanunauyğunluqları əsasında formalaşır və müəyyən coğrafi ərazilərdə yaşayan əhali tərəfindən həmin dilin lüğət tərkibinə daxil edilir. Coğrafi adların yaranması vahid və ümumi qaydalar əsasında baş vermir; bu proses müxtəlif amillərlə şərtlənir. Belə amillərə coğrafi obyektlərin fiziki-coğrafi xüsusiyyətlərinin nəzərə alınması, tarixi və mədəni baxımdan

* Azərbaycan Dillər Universiteti, fil.f.d., dos. Email: zmesma@mail.ru, zmesma@yahoo.com

əhəmiyyətli şəxsiyyətlərin adlarının toponim kimi istifadə edilməsi, mühüm tarixi hadisələr, eləcə də mənşəyi tam müəyyənləşdirilməmiş təsadüfi adlandırmalar daxildir.

Müasir dövrdə süni coğrafi obyektlərin sayının artması bu obyektlərin adlandırılması məqsədilə dilin leksik ehtiyatına mütəmadi şəkildə müraciət olunmasını zəruri edir.

Toponimiya, yəni coğrafi obyektlərə verilən adların öyrənilməsi, dilçilik sahəsində xüsusi əhəmiyyət kəsb edir. Toponimlər yalnız coğrafi göstəricilər deyil; onlar həm də müəyyən ərazilərdə yaşayan əhalinin mədəni, tarixi və sosial təcrübəsini əks etdirən dil vahidləridir. Toponimlər dilin daxili qanunauyğunluqları əsasında formalaşır və müəyyən coğrafi ərazilərdəki insanların lüğət tərkibinə daxil edilir. Lakin coğrafi adların yaranması və formalaşması vahid, sadə və universal qaydalarla baş vermir; bu proses müxtəlif *linqvistik, tarixi, mədəni* və *sosial* amillərdən asılıdır.

Dilin mövcud lüğət tərkibindən istifadə olunmaqla və ya digər üsullar vasitəsilə formalaşan terminlər ilkin funksional çərçivədən kənara çıxaraq yeni məna çalarları qazanır və bununla da dilin leksik ehtiyatının zənginləşməsində iştirak edir. Bu baxımdan, hər hansı bir coğrafi obyekt müəyyən semantik və ya assosiativ əlaqəyə malik olduğu obyektin və ya fenomenin adını daşıya bilər. Qeyd olunan hal dünyanın əksər dillərində müşahidə olunur.

Bu kontekstdə ingilis və Azərbaycan dillərində mövcud olan bəzi nümunələrin nəzərdən keçirilməsi məqsədəuyğundur. Məsələn, ingilis dilində *beg* sözü həm "yalvarmaq", həm də "kimdənsə nəsə istəmək, dilənmək" mənalarında işlədilir. Bu leksik vahidin mənşəyi XII əsrə gedib çıxır və inkişaf səviyyəsi aşağı olan bölgələrdə yoxsul, zəif və yaşlı insanlara yardım göstərən, "Beqin" adlanan rahibələr icmasının adı ilə bağlıdır. Beqinlər cəmiyyətin mövcud sosial normalarından nisbətən kənarda yaşayan, sərbəst həyat tərzinə üstünlük verən və qadınların fəaliyyət azadlığının məhdudlaşdırılmadığı icmalarda mövcud olmağa çalışan dini qruplar olmuşdur.

İlkin mərhələdə Beqinlər səyyar həyat tərzi sürmüş, sonrakı dövrlərdə isə məskunlaşaraq yaşayış evləri inşa etmişlər. Onlar əsasən toxuculuq fəaliyyəti ilə məşğul olmuş və əldə etdikləri gəlir hesabına yardıma ehtiyacı olan insanlara dəstək göstərmişlər.

Sonralar qara magiya ilə əlaqələndirildiyinə görə toxuculuq qadınlar üçün uyğun olmayan bir peşə kimi qəbul edilməyə başladı. Bundan əlavə, Beqinlərin katolik kilsəsi qarşısında and içməkdən imtina etmələri onların şübhəli şəxslər kimi rəftar görməsinə və adlarının kafirlərlə birgə çəkilməsinə səbəb oldu.

Zaman keçdikcə Beqinlər yalnız qadınlardan ibarət qrup olmaqdan çıxaraq ətraflarına kişiləri də toplamağa başladılar. Lakin bu kişilərin əksəriyyəti xeyriyyə fəaliyyəti ilə məşğul olmaqdan çəkinirdi. Beqinlərin nə rəsmi andı, nə də təşkilati strukturu var idi; özünü Beqin hesab edən hər kəs sərbəst şəkildə fəaliyyət göstərə bilirdi. Onlar gəzərək kasıblar üçün sədəqə toplayırdılar və bu səbəbdən Beqardlar adlandırılmağa başladılar. Buradakı –ard suffiksi mənfi məna çaları daşıyırdı. Bu ad sonralar pul əldə etmək üçün kiməsə yalvarmaq mənasında işlədilməyə başladı.

Digər bir nümunəni nəzərdən keçirək. Qafqazlılar tez-tez "ağ adamlar" adlandırılır. Qafqaz dağları Xəzər dənizindən Qara dənizə qədər uzanan, Asiya və Avropa landşaftlarının tektonik zonalarının qovşağında yerləşən dağ silsiləsidir. Bu dağlar arasında ən çox hekayə və rəvayətlərlə əlaqələndirilən zirvə Ararat dağıdır. Rəvayətə görə, dünyanı tufan bürüdüyü zaman Nuh peyğəmbər öz gəmisini bu dağın zirvəsinə çıxarmış və bununla da bəşəriyyət burada yenidən həyat tapmışdır. Elə bu səbəbdən də yerli qafqazlılar özlərini Nuhun övladları hesab edirlər.

Qeyd etmək lazımdır ki, alman alimi Johan Blumenbax bəşəriyyəti beş əsas irqi kateqoriyaya ayırmışdır: Qafqaz, Efiopiya, Monqoloid, Malay və Amerikan. Bu bölgü eyni zamanda ağ, qara, sarı, qəhvəyi və qırmızı irqlər kimi də ifadə olunurdu. Məhz bu təsnifata əsasən qafqazlılar "ağlar" və ya "ağ adamlar" kimi tanınmışdır.

Toponim termini yunan mənşəli *topos* (yer) və *onoma* (ad) sözlərindən yaranmışdır və yer adlarını ifadə edir. Toponimlər dilin onomastik sisteminin mühüm tərkib hissəsi olmaqla, leksik fondun formalaşmasına da bilavasitə təsir göstərir.

Söz yaradıcılığı prosesində toponimlər əsasən aşağıdakı yollarla iştirak edir:

1) törəmə sözlərin yaranması,

2) semantik genişlənmə,

3) metonimik və metaforik köçürmələr,

4) toponimlərin ümumi isimləşməsi.

Bu proseslər həm ingilis, həm də Azərbaycan dillərində müşahidə olunur, lakin onların reallaşma formaları dilin tipoloji xüsusiyyətlərindən asılı olaraq fərqlənir.

İngilis dilində toponimlər əsasında yaranmış sözlər əsasən analitik və leksik-semantik üsullarla formalaşır. Bu dildə toponimlərdən sifət, isim və bəzən fel düzəldilməsi geniş yayılmışdır. Məsələn: *Londoner* – London sakini, *Parisian* – Parisə məxsus, *American* – Amerika ilə bağlı. Bundan əlavə, ingilis dilində bəzi toponimlər ümumi isim kimi işlənərək yeni məna qazanmışdır: *china* – Çin mənşəli qablar, *denim* – Fransanın Nîmes şəhərinin adından (*de Nîmes*). Bu cür nümunələr göstərir ki, ingilis dilində toponimlər söz yaradıcılığı üçün mühüm semantik baza rolunu oynayır.

Azərbaycan dilində toponimlər söz yaradıcılığı prosesində əsasən şəkilçilər vasitəsilə iştirak edir. Türk dillərinə xas olan sintetik quruluş bu prosesdə özünü aydın şəkildə göstərir.

Toponimlərdən aşağıdakı şəkilçilər vasitəsilə yeni sözlər düzəldilir:

a) *-lı/-li/-lu/-lü:* (Bakılı, Göyçəli)

b) *-çı/-çi:* (Kəpənəkçi, Dəmirçi, Quyçu)

c)*-lıq-lik-luq-lük:*: Qarğalıq (Masallı, Naxçıvan, Xaçmaz)

d*)-ca-cə:*Yenicə (Ağdaş), Qızılca (Culfa, Laçın, Göygöl), Yellicə (Kəlbəcər)

Bu şəkilçilər isimlərə artırılmaqla kiçiltmə mənalı sözlər yaradırlar, onlar daha çox sifətlərlə birləşərək toponimlər yaradırlar. Qeyd edək ki, -ca Hind-Avropa dillərinə, o cümlədən fars dilinə aid olan müstəqil leksik vahid olmaqla "yer"mənasını ifadə edən sözdür. Azərbaycan dilində fars mənşəli bir sıra sözlərdə "ca" indi də qalmaqdadır: canişin, cabəca (yerində oturan, yerbəyer)

Eyni zamanda bəzi toponimlər semantik genişlənmə yolu ilə ümumi isimə çevrilir. Məsələn, müəyyən bölgə adla rı həmin əraziyə məxsus məhsul və ya mədəni xüsusiyyətləri ifadə edə bilir. Həm ingilis, həm də Azərbaycan dillərində toponimlər əsasında etnik və məkan mənsubiyyətini bildirən sözlər – demonimlər formalaşır. Başqa sözlə desək, demonimlər bir ölkənin, şəhərin və ya bölgənin sakinlərini bildirən sözlərdir. Məsələn, *Azerbaijan—Azerbaijani (Azərbaycanlı); Baku—Bakuvian (Bakılı), Africa—African, New York—New Yorker* və s. Demonim anlayışı D.Kristal və C.Lyons tərəfindən mənsubiyyət və identiklik bildirən törəmə leksik vahid kimi izah olunur. C. Lyons qeyd edir ki, demonimlər leksik-semantik vahidlər olub xüsusi adlardan (toponimlərdən) törəyir [5, s.112]. Demonimləri söz yaradıcılığı kontekstində araşdıran D.Kristal onları dilin canlı və dəyişkən sahəsi hesab edir [4, s.98]. Demonimlər –an, ian--, --ese, --ish və s. suffikslərin köməyi ilə yaranır.Məsələn, *Britan—British, Scotland—Scottish; Gəncə--Gəncəli, Şamaxı—Şamaxılı* və s.Bu tip sözlər dilin sosial və mədəni funksiyasını gücləndirir və toponimlərin söz yaradıcılığında məhsuldarlığını artırır.

Qeyd olunduğu kimi, toponimlər dilin leksik sistemində mühüm yer tutur, məkan anlayışını bildirir və milli-mədəni yaddaşı əks etdirir. Toponimlərin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

1. Xüsusi isimlərdir
2. Konkret coğrafi obyekti bildirir
3. Əsas funksiyası istinad (referensiya) yaratmaqdır
4. Qrammatik deyil, leksik-semantik vahiddir
5. Tarixi və mədəni məlumat daşıyır

Toponimlər xalqın tarixi inkişaf mərhələlərini əks etdirməklə dilin leksik qatının milli-mədəni daşıyıcıları sayılır. Azərbaycan dilinin onomastik sistemində əsas yer tutan toponimlər leksik-semantik baxımdan müstəqil vahidlərdir. C.Lyons toponimləri referensial vahid, D.Kristal isə tarixi və mədəni məlumat daşıyıcısı kimi qiymətləndirir.

Toponimlər söz yaradıcılığı prosesində yalnız formal deyil, həm də semantik dəyişikliklərə məruz qalır. Onlar konkret məkan anlayışından uzaqlaşaraq məcazi və ümumiləşmiş məna qazana bilər.

İngilis dilində:

Waterloo – ağır məğlubiyyət mənasında işlədilir.

Azərbaycan dilində:

bəzi tarixi yer adları simvolik məna daşıyaraq müəyyən hadisə və ya anlayışı ifadə edir

Bu cür semantik transformasiyalar toponimlərin dilin ifadə imkanlarını zənginləşdirdiyini göstərir.

Sözün mənasının orijinal sahəsindən çıxaraq daha geniş və ya fərqli mənada işlənməsi isə semantik genişlənmə adlanır. Toponimlərdə bu o zaman olur ki, məkan, obyekt və ya kiçik bir ərazi adı bütün bölgə və ya şəhərə tətbiq edilir. Məsələn, Bakı başlanğıcda İçərişəhər və ətrafı nəzərdə tuturdusa, indi bütün şəhəri ifadə edir. Şəki (şəhər adı) rayon və bölgə adı olaraq genişlənmişdir.London tarixi şəhər mərkəzinin adı olmaqla bərabər böyük metropolitan ərazini ifadə edir. Hollivud əvvəlcə kiçik məhəlləni bildirdiyi halda indi bütün kino sənayesini və ərazini simvolizə edir. *Manhattan* təkcə ada yox, eyni zamanda bütün iqtisadi, mədəni və maliyyə mərkəzi kimi işlədilir.

Metaforik köçürmə yolu ilə yaranan toponimlərlə bağlı yanaşmalar bir qrup dilçilər tərəfindən onomastika və semantika kontekstində verilir. Corc Yule metaforik toponimlərin simvolik və təsvirə əsaslandığını qeyd edir. Məsələn, White Mountains dağların qarla örtülməsi səbəbi ilə adlandırılıb, Dead Sea suyun bitkisiz və duzlu olması metaforik ad yaratmışdır. Belə ki, metaforik yer adları yerin xüsusiyyətləri, forması və simvolik mənası əsasında adlandırılır. Dilçi "The Study of Language" adlı kitabında toponimləri belə izah edir: "Metaforik yer adları o adlardır ki, ərazinin xüsusiyyətləri— şəkli, rəngi və digər görünən cəhətləri—adına köçürülür. Başqa sözlə, yer özü ilə deyil, ona bənzəyən bir obyektlə adlandırılır."[6, s.124]. Metonimik üsulla yaranan toponimlər də dilçilikdə və toponimikada geniş yayılmış hadisədir və xüsusilə türk dilləri, o cümlədən Azərbaycan toponimiyası üçün xarakterik sayılır. Əhali üçün mühüm olan obyektlər — bulaq, yol, körpü, tayfa adı zamanla ərazi adı funksiyasını daşımağa başlayır.
Metonimiya — adlandırmada oxşarlığa deyil, məkan, yaxınlıq, aidlik, səbəb–nəticə, hissə–tam əlaqəsinə əsaslanan semantik köçmədir. Toponimiyada bu, bir obyektin adının ona yaxın və ya onunla bağlı olan başqa bir obyektin adı kimi işlənməsi deməkdir.

"Toponimlər çox vaxt obyektin özünə deyil, onunla bağlı başqa bir anlayışa əsaslanaraq yaranır."[7, s.136]. A.A.Reformatski metonimiyanı advermənin ən qədim üsullarından biri hesab edir və bildirir ki, metonimik adlar dilin tarixi inkişafını və insanın ətraf mühiti qavrama tərzini ifadə edir [8, s.142]. N.Məmmədli Azərbaycan toponimiyasında metonimik adların çoxluğunu vurğulayaraq qeyd edir ki, metonimik toponimlər etnoqrafik və tarixi məlumatları əks etdirir. Dilçi belə hesab edir ki, toponimlər leksik, semantik və sosiokulturoloji səviyyədə təhlil olunmalıdır [3, s.102]. Müəllif toponimlərin 4 əsas funksiyasını (nominativ, referensial, mədəni-tarixi və sosiolinqvistik) fərqləndirir. Bununla yanaşı toponimlər xalqın məişətini, sosial quruluşunu və qədim yaşayış formalarını əks etdirir. Digər görkəmli dilçi A.Qurbanov vurğulayır ki, toponimlər təkcə coğrafi göstərici deyil, həm də mədəni yaddaş və etnoqrafik məlumat daşıyıcısıdır [2].

Toponimlərin metonimik üsulla yaranma yolları aşağıdakı hallarda baş verir:

1.Tarixi obyektlərə görə--Ərazi məşhur tikili, qala, məscid və kilsəyə görə adlanır. *Qız Qalası.*Şəhərin tarixi hissəsi məşhur qalaya görə adlandırılıb.

2.Ərazi xüsusiyyətinə görə--Coğrafi obyektin əhəmiyyətli xüsusiyyəti ilə adlandırılır.Məsələn, Greenwich/ Bölgə saat kilsəsi və ya yaşıllığı ilə tanınır.

3.İqtisadi və sosial obyektlərə görə--Ərazi adı məşhur iqtisadi, siyasi və ya sosial obyektə görə yaranır. Məsələn, Wall Street (New York) –küçədəki divardan və maliyyə fəaliyyətindən dolayı adlandırılıb. Məlumdur ki, tarixən işləndikləri yerin adları ilə adlandırılan bir çox pul vahidləri olmuşdur. Məsələn, Frank Fransanın adından götürülmüşdür. Gümüş ispan pulları bir dollar adlanırdı və bu termin daha sonralar bütün qəpik pullar üçün işlədilməyə başladı. Daler, thaler və ya taler Cənubi Avropada pul vahidlərinin məşhur adları idi və alman dilində vadi mənasını verən "valley" sözündən götürülmüşdür. Amma dollar sözünün mənşəyi "dale" ilk dəfə 1519-cu ildə gümüşdən pul kimi istifadə edilən Bohemiya çay vadisini bildirmək üçün işlədilirdi.

Frank (səmimi, əliaçıq) — E.ə əllinci ildə yaşayan alman tayfası olan Franklar I minillikdə Avropanın böyük bir hissəsini, indiki Fransa, Almaniya və alman dilli ölkələri əhatə edirdi və sərhədləri Müqəddəs Roma imperiyasına qədər uzanırdı. Belə ki, frank latın mənşəli *francus* sözündən yaranmışdır və müsbət məna ifadə edir.Tarixən frank sözü iki mənada işlədilirdi. Birincisi, dini ayinlər zamanı yandırılan ətirli qətran, digəri isə "azad" çünki o dövrdə onların krallığında azad olan yeganə insan franklar

idi. Beləliklə, *franc trade* sözü "sərbəst ticarət" mənasında işlədilirdi. *Lingua franca* termini də mənşəcə franklrın dili, azad ticarətin dili və ya müzakirəyə açıq məsələ deməkdir.

Azərbaycan və ingilis toponimlərinin tədqiqindən belə qənaətə gəlmək olur ki, hər bir xalqın tarixi, təfəkkürü, dili, coğrafiyası, etnoqrafiyası ilə bağlı olan toponimlər ayrı-ayrı tayfa və xalqların məskən saldıqları yerləri, yayıldıqları əraziləri dəqiqləşdirmək üçün ən qiymətli sənədlərdir. Toponimik tədqiqat bəzən kiçik bir kəndin əhalisinin keçmişdə hansı tayfa, etnik birliyə və xalqa mənsub olduğunu aydınlaşdırmağa imkan verir, bir çox tarixi və coğrafi hadisələrin izahında mühüm rol oynayır.

Toponimlərin söz yaradıcılığı prosesindəki rolu müasir dilçilikdə mühüm əhəmiyyət kəsb edir, çünki dillərin leksik ehtiyatı fasiləsiz zənginləşir və yeni anlayışların ifadəsi üçün geniş baza tələb olunur. Toponimlər həm milli-mədəni, həm də tarixi identikliyi əks etdirərək dilin sosial və mədəni funksiyalarını gücləndirir. Müasir qloballaşma və müxtəlif dillərarası təsirlər fonunda toponimlərin törəmə sözlər, demonymlər və metaforik ifadələr yaratmaq potensialı aktuallığını artırır. Eyni zamanda, onların tədqiqi etnoqrafik və regional məlumatları ortaya çıxarır, dilin inkişaf qanunauyğunluqlarını və milli-mədəni yaddaşı qorumağa xidmət edir.

Toponimlərdən əldə olunan məlumatlar dilin tarixi inkişafını, coğrafi xüsusiyyətlərini və sosial quruluşunu anlamağa imkan verir. Bu, həm leksik tədqiqatların, həm də mədəni və etnoqrafik araşdırmaların daha dərindən aparılmasına zəmin yaradır. Beləliklə, toponimlərin söz yaradıcılığında funksiyasının araşdırılması həm nəzəri, həm də praktik baxımdan müasir dilçilik üçün əvəzsiz əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti.2 cilddə. Bakı, 2007.
2. Qurbanov A.Azərbaycan dilinin onomalogiyası. Bakı, Maarif.1988,594 s.
3. Məmmədli N. Azərbaycan toponimləri.Bakı, BDU nəşriyyatı, 2000.
4. Crystal D. The Cambridge Encyclopedia of the English Language. Cambridge University Press.1997.
5. Lyons, J.Semantics.Cambridge: Cambridge University Press.1998.
6. Yule G. The Study of Language. London, 2022.
7. Никонов В.А. Имя и общество. Москва.Наука.1985.
8. Реформатский А.А.Введение в языковедение. Москва, «Просвещение», 2008.

THE ROLE OF TOPONYMS IN THE WORD-FORMATION PROSES IN AZERBAIJANI AND ENGLISH

SUMMARY

Toponyms play an important role in enriching the lexical fund of a language. They are used in word formation as names of geographical objects. In Azerbaijani and English, toponyms form derivative words and demonyms. In English, this process is mainly analytical and semantic, while in Azerbaijani it relies on suffixes. Toponyms gain new meanings through semantic expansion and metaphorical or metonymic transfer. This process reflects historical, cultural, and geographical information and preserves national memory. Toponyms convey social and ethnographic knowledge, strengthening the identity of communities. They also provide a rich basis for word creation amid cross-linguistic influences and globalization. Therefore, studying toponyms helps understand the laws of language development and cultural memory.

Ключевые слова:*словообразование, географические названия, семантическое расширение, метонимия, закономерность*

РОЛЬ ТОПОНИМОВ В ПРОЦЕССЕ СЛОВООБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Топонимы играют важную роль в обогащении лексического фонда языка. Они используются в словообразовании как названия географических объектов. В азербайджанском и английском языках топонимы образуют производные слова и демонимы. В английском языке это происходит в основном аналитически и семантически, а в азербайджанском – с помощью суффиксов. Топонимы

приобретают новые значения через семантическое расширение и метафорический или метонимический перенос. Этот процесс отражает историческую, культурную и географическую информацию и сохраняет национальную память. Топонимы передают социальные и этнографические знания, укрепляя идентичность сообществ. Они также создают богатую основу для словообразования в условиях межъязыковых влияний и глобализации. Поэтому изучение топонимов помогает понять законы развития языка и культурной памяти.

Key words: word-formation, geographical names, semantiic extension, metonymy, regularity

Şahnaz KAMALOVA*

АНАЛИЗ ВЫРАЖЕНИЯ ОБСТОЯТЕЛЬСТВА ЦЕЛИ В ЯЗЫКЕ ДРЕВНЕТЮРКСКИХ РУНИЧЕСКИХ ПАМЯТНИКОВ И В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

АННОТАЦИЯ

Статья посвящена описанию полипредикативных конструкций с обстоятельства цели в языке древнетюркских памятников и современном азербайджанском языке. Конструкция с обстоятельными предложениями это разновидность полипредикативных конструкций. Такие конструкции служат для грамматического выражения семантических отношений между двумя ситуациями. Обстоятельственные предложения зависят от вершины главной предикации и не являются реализацией валентности вершинного предиката. Обстоятельство цели в языке ДТРП может быть выражено именем в сочетании с послелогом *üčün* ‘для’ и четыре деепричастия формами: -Gäli; -A; -Ï; -U. В азербайджанском языке обстоятельства цели выражаются инфинитив и инфинитный оборот с направительным падеже; послелогами *üçün, ötrü* ‘для’; вопросительными словами *niyə? Nə üçün? Nədən ötrü? Nə məqsədlə?* ‘почему’, ‘для чего?’, ‘в коком целю?’*;* союзными словами *deyə* ‘по этому’; словосочетанием, которые во втором части слова *məqsəd ‘цель’, uğur ‘ради’, yol ‘ради, за’, niyyət* ‘намерение’, *bəhanə* ‘предлог’. По ходу исследования выявили, что в языке древнетюркских рунических памятников обстоятельства цели употребляются мало и отличаются по способу выражения от одного из современных тюркских языков- от азербайджанского языка. Сопоставив язык ДТРП с азербайджанским языком, мы обнаружили, что способов выражения обстоятельства цели в азербайджанском языке больше, чем в деревнетюркских текстах.

Ключевые слова: древнетюркский язык, Азербайджанский язык, обстоятельства цели, конструкция

Статья посвящена описанию полипредикативных конструкций с обстоятельства цели в языке древнетюркских памятников и современном азербайджанском языке.

По мнению Ш.Н. Камалова, язык древнетюркских рунических памятников (далее ДТРП) является генетическим предшественником современного азербайджанского языка [2,с.93], поэтому мы хотели бы данной статье на материале двух генетически родственных языков, а именно ДТРП и азербайджанского, выявить и сравнить способы выражения обстоятельства цели в ППК предложениях. Несмотря на то, что исследователи тюркских языков традиционно уделяют достаточно большое внимание рассмотрению синтаксиса и различных его аспектов, степень разработанности данного вопроса нельзя считать удовлетворительной. «Каждый язык располагает относительно небольшим числом «образцов», опираясь на которые, говорящие на нем люди строят бесконечное множество самых разнообразных фраз. В научном описании их представляют формулами моделей. ...Модель-это образец, по которому строится правильная фраза» [10,с.6]. В нашей статье мы попытаемся определить модели обстоятельства цели двух родственных языков.

* к.ф.н., Восточный факультет, Санкт-Петербургский государственный университет, Российская Федерация, 199034, Санкт-Петербург, Университетская наб., 7–9. Email: -mail: s.kamalova@spbu.ru

Актуальность настоящего исследования заключается в том, что оно ставит своей задачей осмысление языкового материала двух генетически родственных языков таким образом, чтобы каждый единичный факт рассматривался как отражение общих глубинных законов.

Для достижения поставленных целей были определены следующие задачи: 1. Интерпретация и анализ текстов рунических надписей и текстов на азербайджанском языке, необходимых для сбора речевого материала, который послужит основой для теоретического анализа. В результате предполагается выявить в рассматриваемой языковой системе полный набор обобщенных синтаксических моделей, в частности моделей обстоятельства цели. 2. Описание языкового значения и речевых функций выявленных синтаксических моделей с позиций функционально-семантического и системного подходов в языкознании.

Методом исследования является метод моделирования синтаксических конструкций (словосочетаний и предложений). Сущность этого метода заключается в том, чтобы выделить из речевых высказываний те модели, которые находятся в языковой системе в качестве абстрактных эталонов и на основании которых происходит их построение в речи.

Фундаментом настоящего исследования является теория функционального синтаксиса, предложенная В.Г. Гузевым и основанная на функционально- семантическом подходе к языку [1].

Обстоятельственные предложения различных тюркских языков рассматриваются в работах Е.И. Убрятовой [2006], Л.А. Шаминой [1987], Чугунековой [2016], А.Г. Пазельской и А.Б. Шлуинского [2007], З.А. Рамазановой [2008], Г. Казымова [2010] и др.

Все примеры из языка древнетюркских рунических памятников в настоящем исследовании цитируются по текстам памятников, представленных в трудах С. Е. Малова. Как правило, перевод также приводится по работам С. Е. Малова [5,6,7]. Примеры из азербайджанского языка взяты из азербайджанской литературы и автора, который является носителем этого языка.

Обстоятельственная синтаксическая форма сигнализирует о том, что «какого-либо явление (чаще всего действие) связано с другим сопутствующим ему и тем самым каким-либо образом характеризующим, уточняющим его явлением [2,с.288].

Конструкция с обстоятельными предложениями это разновидность полипредикативных конструкций. Такие конструкци служат для грамматического выражения семантических отношений между двумя ситуациями. Обстоятельственные предложения зависят от вершины главной предикации и не являются реализацией валентности вершинного предиката. Обстоятельственная конструкция служит для «грамматического выражения семантических отношений между двумя ситуациями» [9,с.38].

По определению Пазельской и Шлуинского, основной семантикой ППК с обстоятельством цели является «ситуация, описываемая зависимой предикацией, осуществляется с целью вызвать наступление ситуации, описываемой главной предикацией» [9,с.74]. В сравнении с современными тюркскими языками в языке древнетюркских рунических памятников обстоятельства цели употребляются мало и сильно отличаются по способу выражения [12,с.160].

Обстоятельство цели в языке ДТРП может быть выражено именем в сочетании с послелогом *üčün* ‘для’ и четыре деепричастия формами: -Gäli; -A; -Ï; -U.

В азербайджанском языке обстоятельства цели выражаются инфинитив и инфинитный оборот с направительным падеже; послелогами *üçün, ötrü* ‘для’; вопросительными словами *niyə? Nə üçün? Nədən ötrü? Nə məqsədlə?* ‘почему’, ‘для чего?’, ‘в коком целю?’*;* союзными словами *deyə* ‘по этому’; словосочетанием, которые во втором части слова *məqsəd ‘цель’, uğur ‘ради’, yol ‘ради, за’, niyyət* ‘намерение’, *bəhanə* ‘предлог’.

Деепричастие на -γalï, -gäli выражает обстоятельство цели [3, с.43]. А.Н. Кононов [4,28], М. Эрдал [11,489] эту форму называют супин. Ученый отмечают, что это деепричастие получило широкое употребление в древнеуйгурских памятниках [4, с.28; 8,с.51].

Öd täŋri jasar kisi oγlï кор *ölgäli törümis* (Ktb50)

öd	täŋri	jasar	kisi	oγl-ï
время	небо	распределять	человек	сын-POSS.3SG
кор	**öl-gäli**	**törü-mis**		
много	умереть-CV	рожать-PRF		

‘Время (т. е. судьбы, сроки) распределяет небо (т. е. Бог), (но так или иначе) сыны человеческие рождены, чтобы умереть’.

В современном азербайджанском языке форма - Gäli не используется, а используется форма –(y)alı, -(y)əli, которая может быть является фонетически изменённым вариантом формы -Gäli [13,140].

Деепричастия –a,-ï, -u как фонетические варианты одной формы в основном обозначаю действия, предшествующего действию главного сказуемого [3,с.42] и обозначает время, образ цель, причину совершения действия, протекающего главным образом одновременно с действием глагола-сказуемого [4,с.131]:

Üč oγuz süsi *basa kälti* (BK32)

Üč	oγuz	sü-si	**bas-a**	**käl-ti**
Уч	огуз	войск-POSS3SG	подавлять-CV	приходить-PST1SG

Войско Уч-огузов пришло, чтобы нас поразить.

В этом примере видно что цель войско Уч-огузов был подавлять враги и они они пришли с этими намеренями.

Bars kijik *äŋläjü mäŋläjü barmïš* (ÏB 74)

Bars	kijik	**äŋlä-jü**	**mäŋlä-jü**
Барс	зверь	охотиться-CV	искать добычей-CV
Bar-mïš			
отправиться-PRF			

‘Барс-звер отправился на охоту за добычей ’

В азербайджанском языке деепричастия на –A и –U выражает действие, одновременное с действием главного сказуемого и **не** обозначает обстоятельства цели.

Например:	Ayaz	gülə-gülə	mənə	bax-dı
	Айаз	смеяться-CV	мне	посмотреть-PST

‘Айаз смеясь посмотрел на меня’

В языке древнетюркских памятников обстоятельства цели и обстоятельства причины схожи друг с другом, но существует разница. Если обстоятельство указывает на действие, совершенное до времени, обозначенного в сказуемом, то это обстоятельство причины. А если обстоятельство указывает на действие, которое будет совершено после действия, указанного в сказуемом, то это обстоятельство цели. Например, в языке древнетюркских памятников деепричастие –Ïn образует и обстоятельство цели, и обстоятельство причины.

С семантической точки зрения вполне оправдано противопоставление цели и причины в первую очередь с точки зрения временного плана, к которому относится ситуация.

Türk budunïγ atï küsi jok *bolmazun tijin,* Kaŋïm kaγanïγ, öqim katunïγ kötürmiš täŋri (Ktb 25)

Türk	budun- ïγ	at-ï	kü-si
Тюрк	народ –GEN	имя-POSS3SG	слава- POSS3SG
Jok	**bol-maz-un**	**ti-jin,**	
Не	пропасть-NEG	чтобы-CV	
Kaŋ-ïm	kaγan-ïγ,	öq-im	katun-ïγ
Отец-POSS 1SG	каган -ACC DEF	мама-POSS 1SG	катун-ACCDEF
kötür-miš	täŋri		
возвысить-PRF	небо		

‘Небо, которое, чтобы не пропало имя и слава тюркского народа, возвысило моего отца-кагана и мою мать-катун’

В этом примере указывает на действие, совершенное до времени, обозначенного в сказуемом и является обстоятельство причины. А в следуюшим примером цель было поднять народа и поэтому они сражались.

Budunïγ *iqitäjin tijin,* jïrγaru oγuz budun täpä ... *sünüšdim*(Ktb 28)

Budun-ïγ	**iqit-äjin**		**tij-in,**	
Народ-ACC DEF	поднять-FİN		чтобы-CV	
jïr-γaru	oγuz	budun	täpä	sünüš-di-m
Налево-DATDİR	огуз	народ	к	сражаться- PST1SG

‘Чтобы поднять (свой) народ, (я предпринял) налево (т.е. на север) против народа огузов … сразился’

И в языке ДТРП, и в азербайджанском языке самый распространенный способ преобразовать обстоятельство цели это именем в сочетании с послелогом üčün ‘для’.

Üčün в роле обстоятельство целы в языке ДТРП:

İltäris qaγan bilig *äsın üčün, alpïn* üčün Tabγačqa jäti jägirmi süŋüsdi (T48-49)

İltäris	qaγan	bilig	äs-ın		**üčün**
Эльтериш	каган	знание	товариш-POSS2SG		для-POST
Alp-ïn	**üčün**	Tabγač-qa	jäti	jägirmi	süŋüs-di
Герой-POSS2SG	для-POST	Табгач-DATLOC	семь	двадцать	сражаться-PST

‘Эльтериш каган, ради своего сообщества со знанием и геройством, на табгачей ходил сражаться семнадцать раз’

Üčün в роле обстоятельство целы в азербайджанском языке:

Sizin rahatlığınız *üçün* deyirəm.

Sizin	rahatlığ-ınız	**üçün**	de-yir-əm.
Ваш	удобство- POSS2PL	для POST	говорить- PRS-1SG

‘Я говорю ради вашего удобства’

Одним из основных средств выражения обстоятельство цели в азербайджанском языке является инфинитив. Инфинитив в целевом значении употребляется, если главная предикация принадлежит к тому типу, для которого характерны целевые сирконстанты:

Biz buraya *işləməyə gəlmişik*.

Biz	buraya	**işləmə-yə**	**gəl-miş-ik**
Мы	сюда	работать -DAT	приходить-PRF-POSS3PL

‘Мы приехали сюда работать’

За инфинитивом может следовать факультативный постпозитивный союз *üçün* «для»:

O, *oxumaq üçün* Bakıya gəldi.

O,	**oxumaq**	**üçün**	Bakıya	gəldi
Он	учится	для	Баку-DAT	приходить-PST3SG

‘Он приехал в Баку учиться’

Обстоятельство цели в азербайджанском выражается и послелогами *ötrü* «для».

Səndən *ötrü* can verməyə cümlə hazırız (Himn)

Sən-dən	**ötrü**	can	vermə-yə cümlə	hazır-ız	
Ты-ABL	ради-POST	душа	дать-DAT	все	быть готовым-1PL

‘Мы готовы за тебя умереть’ (Гимн)

Один из способов выражение обстоятельство цели в азербайджанском языке это вопросительные слова *Niyə? Nə üçün? Nədən ötrü? Nə məqsədlə?* (почему? С какой целью?).

Bunu mənə *niyə* deyirsiniz?

Bunu	mənə	**niyə**	de-yir-siniz?
Это	мне	почему	говорить-PRS-2PL

'Почему вы мне это говорите?'

Həmidə xala Rüstəmi necə başa salaydı ki, o kimlə və **nə üçün** danışırdı?

Həmidə	xala	Rüstəm-I	necə	başa salaydı	ki
Хамида	тетя	Рустам-ACC	как	дать понять	что

O	kimlə	və	**nə üçün**	danışırdı?
Она	с кем	и	почему	разговаривать

'Как тетя Хамида могла дать Рустаму понять, с кем он разговаривает и почему?'

Союзный слова *deyə* тоже образует обстоятельство целы в азербайджанском языке:

Sən xoşbəxt olasan deyə, o hər şey etdi.

Sən	xoşbəxt	olasan	**deyə**	o	hər şey	etdi.
Ты	счастливый	быть-2SG	CV	он	все	делать-PST

'Он сделал все что ты была счастливая'

цель, успех, путь, намерение, оправдание

Словосочетанием, которые во втором части слова *məqsəd* (цел), *uğur* (ради), *yol* (ради), *niyyət* (намерение), *bəhanə* (предлог) [14,151-152].

Sənin uğrunda hər şey edirəm

Sənin	**uğrunda**	hər	şey	ed-ir-əm
Тебя	ради	всё		сделать-PRS-1SG

'Ради тебя я всё сделаю'.

O, yaxşı təhsil almaq **məqsədi ilə** böyük şəhərə üz tutdu.

O	yaxşı	təhsil	almaq	məqsədi	ilə
Он	хороший	образование	получить	цель	с

böyük	şəhər-ə	üz tut-du
большой	город-DAT	направляться-PST

Он направился в большой город, чтобы получить хорошее образование.

Bu dəfə nəyi bəhanə edib gəlmisən?

Bu	dəfə	nəyi	bəhanə edib	gəlmi-sən?	
Этот	раз	что	предлог сделать	приходить-1SG	

'Какой предлог вы использовали, чтобы прийти на этот раз?'

Мы рассмотрели все основные способы выражения обстоятельства цели (полипредикативных конструкций) в языке древнетюркских памятников и в современном азербайджанском языках. По ходу исследования выявили, что в языке древнетюркских рунических памятников обстоятельства цели употребляются мало и отличаются по способу выражения от одного из современных тюркских языков- от азербайджанского языка.

Сопоставив язык ДТРП с азербайджанским языком, мы обнаружили, что способов выражения обстоятельства цели в азербайджанском языке больше, чем в деревнетюркских текстах.

ЛИТЕРАТУРА

1. Гузев В. Г. Теоретическая грамматика турецкого языка. СПб.: Изд-во СПбГУ, 2015.с. 288

2. Камалова Ш.Н. Субстантивная определительная конструкция «изафет» в языке древнетюркских рунических надписей и в современном азербайджанском языке // Филологические науки. Вопросы теории и практики. №5 (71). 2017. Часть 3. «Грамота». С. 93.

3. Кондратьев В. Г. Очерк грамматики древнетюркского языка. Л.: Издателство Ленинградского университета, 1970. с. 43

4. Кононов А. Н. Грамматика языка тюркских рунических памятников. Л.: Наука, 1980. с.28

5. Малов С. Е. Древние и новые тюркские языки // Известия АН СССР. ОЛЯ. Т. Вып. 2. 1952.

6. Малов С. Е. Памятники древнетюркской письменности. М.- Л., 1951. 352 с.
7. Малов С. Е. Памятники древнетюркской письменности Монголии и Киргизии. М.-Л., 1959. 113 с.
8. Насилов В.М. Древнеуйгурский язык. М.: Издательство Восточной литературы, 1963. с.51
9. Пазельская А. Г., Шлуинский А.Б. Обстоятельственные предложения // Лютикова Е. А. и др. (ред.). Мишарский диалект татарского языка. Очерки по синтаксису и семантике. Казань: Магариф, 2007. С. 38
10. Черемисина М. И, Озонова А. А., Тазранова А. Р. Элементарное простое предложение с глагольным сказуемым в тюркских языках Южной Сибири. Новосибирск: Любава, 2008. 204 с.
11. Erdal, M. A Grammar of Old Turkic. Boston, 2004. p.489
12. Rəcəbli, Ə. Qədim türk yazılı abidələrinin dili. 2 hissədə. I hissə. Bakı: Nurlan, 2006. S.160
13. Şükürlü, Ə. C. Qədim türk yazılı abidələrinin dili. Bakı: Maarif, 1993. s. 140
14. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Nurlan", 2010, 400s.

QƏDİM TÜRK RUNİK ABİDƏLƏRİNİN DİLİNDƏ VƏ AZƏRBAYCAN DİLİNDƏ MƏQSƏD ZƏRFLİYİNİN İFADƏSİNİN TƏHLİLİ

XÜLASƏ

Məqalə qədim türk yazılı abidələrinin dili və müasir Azərbaycan dilində məqsəd zərfliyi ilə ifadə olunan polipredikativ konstruksiyaların təsvirinə həsr olunmuşdur. Zərflik cümlələri olan konstruksiya polipredikativ konstruksiyaların bir növüdür. Bu cür konstruksiyalar iki situasiya arasındakı semantik münasibətlərin qrammatik ifadəsinə xidmət edir. Zərflik cümlələri əsas predikasiyanın zirvəsindən asılıdır və baş predikatın valentliyinin reallaşması deyildir.

Qədim türk runik abidələrinin dilində məqsəd zərfliyi isimlə üčün "üçün" postpozisiyasının birləşməsi və dörd feili bağlama forması ilə ifadə oluna bilər: -Gäli, -A, -Ï, -U.

Azərbaycan dilində məqsəd zərfliyi yönlük halda işlənən infinitiv və infinitiv dövriyyə ilə; üçün, ötrü postpozisiyaları ilə; niyə?, nə üçün?, nədən ötrü?, nə məqsədlə? kimi sual sözləri ilə ("niyə?", "nə məqsədlə?"); deyə bağlayıcı sözü ilə; həmçinin ikinci komponenti məqsəd "hədəf", uğur "naminə", yol "naminə", niyyət "istək", bəhanə "səbəb, bəhanə" sözləri olan söz birləşmələri vasitəsilə ifadə olunur.

Tədqiqat gedişində müəyyən edilmişdir ki, qədim türk runik abidələrinin dilində məqsəd zərfliyi az işlədilir və ifadə üsullarına görə müasir türk dillərindən, xüsusilə Azərbaycan dilindən fərqlənir. Qədim türk runik abidələrinin dili ilə Azərbaycan dili müqayisə edildikdə məlum olur ki, Azərbaycan dilində məqsəd zərfliyinin ifadə vasitələri qədim türk mətnlərinə nisbətən daha çoxdur.

Açar sözlər: *qədim türk dili, Azərbaycan dili, məqsəd zərfliyi, konstruksiya*

Kamalova Sh.N.
St Petersburg University, St Petersburg, Russia

ANALYSIS OF THE EXPRESSION OF PURPOSE CIRCUMSTANCES IN THE LANGUAGE OF ANCIENT TURKIC RUNIC MONUMENTS AND IN THE AZERBAIJANI LANGUAGE

ABSTRACT

This article is dedicated to the description of poly-predicative constructions with purpose circumstances in the language of ancient Turkic monuments and modern Azerbaijani. The construction with circumstantial clauses is a type of poly-predicative construction. Such constructions serve to grammatically express semantic relations between two situations. Circumstantial clauses depend on the main predication's head and do not realize the valency of the head predicate. The purpose circumstance in the language of ancient Turkic runic monuments can be expressed by a noun combined with the postposition üčün 'for' and four participial forms: -Gäli; -A; -Ï; -U. In the Azerbaijani language, purpose circumstances are expressed using the infinitive and infinitive phrases with the directive case; postpositions üçün, ötrü 'for'; interrogative words niyə? Nə üçün? Nədən ötrü? Nə məqsədlə? 'why', 'for what?', 'for what purpose?'; conjunctions deyə 'for this'; and phrases that include the second part of the word məqsəd 'purpose', uğur 'for the sake of', yol 'for, for the sake of', niyyət 'intention', bəhanə 'pretext'. Throughout the research, it was found that in the language of ancient Turkic runic monuments, purpose circumstances

are used infrequently and differ in expression from one of the modern Turkic languages—the Azerbaijani language. By comparing the language of ancient Turkic runic monuments with Azerbaijani, we discovered that there are more ways to express purpose circumstances in Azerbaijani than in ancient Turkic texts.

Keywords: *ancient Turkic language, Azerbaijani language, purpose circumstances, construction*

Türkan ASKEROVA*

AZERBAYCAN EDEBİ DİLİNDE TÜRKÇE KÖKENLİ EKLER KULLANILARAK MORFOLOJİK SÖZCÜK OLUŞUMUNUN SÖZCÜKSEL-YAPISAL ANALİZİ

ÖZET

Bu çalışmada kelime yaratma art zamanlı bir planda ele alınmıştır. Bu planda kullanılan kaynaklardan hareketle kelime oluşturma süreçleri tarihsel gelişim içerisinde ele alınmıştır. Bu süreç kelime yaratmanın belli bir aşamasını oluşturur.

Kelime oluşturma yapısı, yapı kelimesini ve onun sözlüksel anlamını aktarır. Bu anlam sözcüksel yapı olarak adlandırılabilir, iki kısımla ifade edilir: biçimlendirici ve motive edici. Yapısal-sözcüksel anlam, kategorik kelime oluşturma olarak adlandırılabilecek kategorik bir anlam görevi görür. Yapısal-sözcüksel anlam ile kategorik sözcük oluşumu arasında genellikle geçişli bir anlam sırası vardır. Karakter ve derecenin genelleştirilmesi, biçimlendirici ve motive edici kısım ilişkisinde yaratıcı sözcüğün anlamına bağlıdır ve kompozisyonda belirleyici sözcük oluşturma, yapıyı düzelten sözcük haline gelir. Anlam kategorik olana yaklaşır, biraz soyut biraz somut bir anlam oluşur.

Anatar kelime*: Azerbaycan edebiyat dilinin tarihi, Türk kökeni, ekler, anıtların dilime:*

Morfolojik kelime oluşumuna morfolojik yöntem de denir. Bu yöntemle kelime değişikliği, kelimeyi değiştiren ekler eklenerek yeni kelimelerin oluşturulması anlamına gelir. Morfolojik kelime oluşturma, kelimenin teması ve anlamı açısından oldukça faydalı ve önemlidir. Çünkü kelimenin şekli grameri ve gramer yapısının temeli olarak kabul edilir. Morfolojik kelime oluşturma da çeşitli türlere ayrılır:

Aşağıdaki *"Shuhadename, Şeyh Safi, Kadı Burhanedin, Nesimi ve.b."* metnindeki morfolojik kelime oluşumunun resmine bir göz atalım: Oğlanlar haman ki bu sözləri eşitdilər, əyağdən düşüb h u ş+ s i z yatdılar. Əyyuhal-qazi bu nə xəbər idi d i l s u z. O sizi Mədinəyə y e t ü r s ü n. Belələrinə b a ğ l a t d ı. İraqeyn dərvazəsinüṇ d ı ş x a r ı s ı n d a bir karvan var imiş və Məkkəyə varurlar. Bunları apar və k a r v a n l u l a r d a n bir kişi tap ki, səlah sirəti andan zahir ola. Əsəd həm ol q ə r a n g u l u (qaranlıqlı) gecədə anları götürüb İraqeyn dərvazəsindən d ı ş x a r ı apardı. Qəzadən həm ol səatdə karvan köşmüş idilər və karvanuṇ q a r a l ı ğ ı irağdan g ö z ü k ü r idi (*Şühad: XVI,358);* Amma zahir suri saleh əməl oldur kim, qamu fərziyyələr ilən sünnətləri və şər'i ədəbləri yerinə *yetürsün* və andan xəlayiqə heç incinmək zahirən yetməyə və bir fe'l andan zahir olmasun kim, dininə ziyan dəgə. *(Ş.Səfi.XVI,345)* Gecə yapayalğuz, çıpçıplaq, ac-susız qaldum. Yerün üstinə düşüb, nagah Şeyxi gördüm kim, əlinün ucı mana dəgdürüb dedi: "Qalx və təşviş çəkmə, ta səni karvana *yetürsünlər" (Ş.Səfi.XVI,259);* Pəs, Şeyx (q.s.) buyurdı kim, hər nəstə kim bunun yanında yığıludur, biləsincə götürüb evinə *yetürsünlər. (Ş.Səfi.XVI,277)*

Kaynaklarda isim -çı[4], -liq[4] ekleriyle oluşturulur.

-çı[4] son eki. Bu ek ile "kişi" kavramını ifade eden kelimeler (o işi yapan kişi, belli bir siyasi ve toplumsal fikir ve ideolojinin takipçisi, bir şeye eğilim gösteren isim ve asıl şeyin anlamı ile ilgili bir durumda yani geçici olan) oluşturulur "Herhangi bir işte çalışan kişinin adı -çii (adam) ile birliktedi" (A.N. Kononov. O zamanlar ayakkabı tamircisi, damgacı, çoban, bekçi vb. kelimeler görünüşe göre insan mesleğini ve faaliyetini yansıtıyordu.

-çı[4] : bekçi-

-çı[4]: bekçi- gözətçi anlamında

Nə kim bəkçi qulun var idi, qırmış (*DƏH, XIII, 82),*

* Azerbaycan Bilimler Akademisi Nasimi Dilbilim Enstitüsü, Çağdaş Azerbaycan Dili Bölümü'nün önde gelen araştırmacısı, doçent. Email: disser083@gmail.com

avçı (Varıb dağda bulur avşı yigitlər *(DƏH, XIII,74),*

kapçı- qapıçi

Bu son ek, arkaik bir form oluşturmak için "eğer" koşullu önekine eklendi:Əgərçi nəqd idi vəchi *(Burhan, XIV, 32);* G ə r çi formasında da müşahidə olunur: Gərçi qəza durur anın eşqi bu dəlü könülə (Burhan, XIV,32):

Lıq [4] eki:

Şunu not ede biliriz ki, tarihsel olarak soyut anlambilime sahip isimler bu morfolojik göstergeyle oluşturulmuştur (büyük miktarlarda konunun toplandığı yeri belirten isimler, kökün ifade ettiği anlamla ilgili nesnelerin adlarını belirten isimler; meslek, durum bildiren isimler; özellik, nitelik vb. soyut kavramları ifade eden isimler).

Hər bir kişi dünyada ə r l i k d ə n edər də,va *(Burhan.XIV,30);*

Ər kişinün mətaı ərlik olur, Cövhərimin lə'l ilə mərcanı var. (*Burhan.XIV,689);*

Zəmanə qılsa bir *ərlik* bizüm ilə bu aləmdə,

Aparsam oda yaxanı bəni bu oda yaxanı. *(Burhan.XIV,174);*

Lıq [4] –lığ [4]eki. Bu ek ile somut ve soyut isimler oluşturulur.

Eski anıt eserlerinin dilinde, ışık şeklinde (dustliğ): Xəzinə *qandalığın* bildi bunlar, Qolay yol nerdə isə buldu bunlar. Güləndam kəndü birlə söylənirdi, Həqin *birligini* zikr eylənirdi. *(DƏH.XIII,64)* :Qulaq urub nigarının sözinə Rəvan salığın aldı omuzinə. *(DƏH.XIII,67);* Buların dirligini çünki yıxdı, Rəvan kəndi yuxarı göşkə çıxdı. Buların dirligini çünki yıxdı, Rəvan kəndi yuxarı göşkə çıxdı.*(DƏH.XIII,101);* Dedilər kim bu nə çoxluq kişidir, *Bəzirganlıq* çərinin nə işidir?*(DƏH.XIII, 39)* Dustliğ- altun, bəla atəşdür. Və hər meydandə də ki, dustlig ələmi durğuzubdurlar (Şühəd, XVI, 31); Və hər meydandə ki, dustliğ ələmi durğuzubdurlar, bəlalar qoşunı aŋa mü-lazim eyləyübdürlər. *(Şühəd, XVI, 31);* Hər kim dustliğ yolında özgələrdən ilərüdür, qamu kimsədən artuğ nəsibi mihnət ilə qəm və qayğudur*(Şühəd, XVI, 31);* Həqq-təala anlarə xitab etdi ki, biz aŋa "xillət",yə'ni *dustliğ* xəl`ətini geydürübüz və məhəbbət sağəri aŋa içürubüz və məhəbbət gülistanınuŋ yolı ibtila və bəla tikənindən xali dəgül:*heyrətlig dənnizində qalub (Şühad, XVI, 74); yarilig istə ki (ŞH: 75), Ey xublig göginün günəşi günilik şərbəti xaçanadək içəlim?! (Şühad, XVI,: 78), İmdi bir böyüklig eylə və kiçilüğimə rəhm et (ŞH: 79); eyilik, kindarlıq, bahadırlıq, bəzirganlıq (DƏH); Bahadırlıq yolunda key bəlasır (s.16), Bəzirganlıq çərinin nə işidir? ((DƏH, XIII, s.29)* Əgərçi bu bəzaətsiz bəndənüŋ qabiliy-yəti ol qayətdə dəgül idi ki, bu işə məşğul ola, ənbiya və övliya və şühə-da ərvahindən mədəd və yariliğ istəyüb, xanuŋ buyruği can ilən qəbul edüb bu kitabuŋ tərtibinə məşğul oldı. (Şühad, XVI,5a,), *"Rəbbəhu ənni məğlubun fəntəsir"*45, yə'ni, ey Pərvərdigar, mən bəylə qəvmə məğlub və aciz qalubəm və düşmən-lərüŋ çəngalinə giriftar olubəm. *Yariliğ* eylə və məni buləgör. *(Şühad, XVI,13a,)*

liq[4] son eki: Bu ek ile somut ve soyut isimler oluşturulur. Eski anıt eserlerinin dilinde sıvı şeklindedir.Sıfat da -like değiştiricisi ile düzeltilir ancak verimsizdir. Örnek olarak "yazlıq, donluq, (kış+lıq)", kiçiliğ, yigitlik kelimeleri verilebilir.

Ya Fatimə, bu vaqiə kiçiliğdə və yigitlikdə olmayacaqdur (*Şühəd,XVI, 301*); Taŋrı maŋa ruzi eyləyübdür ömrüm axirinədək maŋa yetər və əgər *yigitlik* ilə hüsnü cəmal isə, axir qarılığa dönəcəkdir. *(Şühəd,XVI, 324);* İstəmənəm ki, *yigitlikdə* fəraqdə giriftar olasız. *(Şühəd,XVI, 462);*

Kıpçak unsuru ile ğan eki:

Şol quş ki, t u t ğ a n quşnı azad qılır

Sanma ki, dünyada ol azad a ad qılır *(Burhan.XIV, 19)*

Ğan eki bu dönemde de kelime yaratma aracı olarak hareket etti. Orhun anıtlarının dilinde ise Han Kapağan (kişi adı), tabisgan (tavşan), korgan (kale), yargan (askeri rütbe) isimleri oluşmuştur. [1, s.170-173].

-ğu,-ğü eki: urunğu (döyüşçü), bilği, cağı (dəryaz), karangu (qaranlıq), karağu (qarovul) və s. Bu ekli kelimeler önem ve ihtimal özelliğine sahiptir.Mesela.:Qərlarınuŋ həsəd tozı mundan ötrü güzgülərinə qonmöş idi *(Şühəd, XVI, 73)* və b.

V.Məmmdov şunu not eder: tarihi açıdan dikkat çeken "Destani-Ahmed Harami" şiirinin sözlük karakterleri sisteminin, bu kadim şiirin türetme fonundan yola çıkarak dönemin kelime yaratım süreci hakkında belli bir fikir edinmeyi izin verir.*[2,71-132]*

Anıtların metinleri Azerbaycan dilinin eski morfolojik yapısını ortaya koymaya yeterlidir.-laq[2]: tokat-(tokat) çəpəlaq (şapalaq)

Bir anuŋyüzinə urar idi (Şühəd,XVI: 78); Ruil anuŋ sözinə iltifat etməyüb yüzinə (bir çəpəlaq) urdu ki.*(Şühəd, XVI,79);* ça,-çə şəkilçisi: külçə, yelçə -çıq[2] şəkilçisi: qolçıq, sançıq və s.-cıgaz4 şəkilçisi: qızcığaz, uşaqcığaz və s. və s. -ciləy şəkilçisi: Sənciləyin müqtədadan yüz heyf və sən kimi imamdan yüz dərig (Şühəd, XVI, 266) və b.

-an,-ən eki; Nagah+an düşdə görər ki, on qurt Yusifi atası qucağından qapdılar *(Şühəd,XVI, 75);* Varıb qız donanıb gəldi oturdu *(DƏH, XIII,42),* Donanırdı ol işə qəz gəlirdi *(DƏH, XIII,42)*

-ma,-mə eki: Aytdı Xoca Rüstəm: ey yigit sən Avmi görmədik, heç dutma bizdən. (DƏH, XIII,71), Taŋrını *unutmə, məni unutma* (Şühəd,XVI, 75); Bu rast qəddünü çünki görürsə dutma əsəb (Bürhan, XIV,22) - ma,-ma ekini alan bir fiil aracılığıyla da sıfat oluşturulur. Məs.: örme saçlı ve b.

-qu eki: Bu vaqiənün qorxusından *uyqudən* oyandı *(Şühəd,XVI,XIII, 75)*

-dur şəkilçisi: bu zəifənü bağırı hicran odı ilə yandurməyəsən *(Şühəd, XIII, 76),*

-sız[4] eki:Sən sunun susizligisən və biz qanuŋ suzizligiüz (ŞH: 79); Taqətsiz olub ahü naləyə düşdi *(Şühəd,XVI,79);* Məgər bu kişilər xırsızin ola *(DƏH, XIII, 21);* Dirəksüz bir gülü fülzara düşdü *(DƏH, XIII,65)*

Kelime yaratma, özel araştırma konusuyla öne çıkan, dilbilimin bağımsız bir dalıdır. Bu konu kelime oluşturma yapısı ve kelime oluşturma anlam düzeltme konularından oluşmaktadır. Kelime oluşturma yapısı adı altında kelime oluşturmanın yolları, üye oluşturma, motive etme ve biçimlendirme kısmı anlaşılmaktadır. Kelime yaratımının yapısını oluşturan parçalar arasında bir belirleyicilik ilişkisi vardır. Bu ilişki eki düzelten tabanın karşılıklı somutlaştırılmasıyla, kök ve taban ise morfolojik göstergelerle somutlaştırılır.

Bu çalışmada sözcüğün tarihsel gelişimin bir sonucu olarak hem biçimsel hem de anlamsal olarak değiştiğini göstermektedir. İlk kelimenin anlam yapısı tek anlamlıdır. Kelimenin ikili anlamını söylediğimizde ikili özelliğini anlıyoruz.

EDEBİYAT VE KAYNAKLAR

1.Əhmədova Aysel. Orxon abidələrinin dilində söz yaradıcılığı. Bakı, *"Elm və təhsil,* 304,2023.

2. Məmmədov V. "Dastani-Əhmd Hərami" poemasının dili və üslubu. Bakı, Sabah, 2001.

3.Bürhanəddin Qazi. Divan. Bakı, "Öndər nəşriyyat'', 2005, 728 səh.

4.Dastani-Əhməd Hərami. Bakı, "Şərq-Qərb", 2004, 120 səh.

5..Şeyx Səfi təzkirəsi («Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi). Bakı: Nurlan, 2006, 932 s.

6.Şühədanamə. Bakı: "Elm *nəşriyyatı,"* s. 681, *2019*

LEXICAL-STRUCTURAL ANALYSIS OF MORPHOLOGICAL WORD FORMATION THROUGH TURKIC-ORIGIN SUFFIXES IN THE AZERBAIJANI LITERARY LANGUAGE

ABSTRACT

In this study, word formation is examined from a diachronic perspective. On the basis of the sources used within this framework, word-formation processes are considered in their historical development. These processes constitute distinct stages in the evolution of word formation.

The structure of word formation conveys both the derived word and its lexical meaning. This meaning may be defined as *lexical-structural meaning* and is expressed through two components: the formant and the motivator. Lexical-structural meaning functions as a categorical meaning and may therefore be described as *categorical word-formation*.

Between lexical-structural meaning and categorical word formation, a transitional semantic sequence usually exists. The generalization of characteristics and degrees makes the word-formative meaning dependent on the relationship between the formant and the motivator. In this structure, the derived word serves as the identifying unit of word formation. As a result, meaning approaches categorical status, becoming partly abstract and partly concrete.

Keywords: *history of the Azerbaijani literary language; Turkic origin; suffix; language of monuments; word formation.*

ЛЕКСИКО-СТРУКТУРНЫЙ АНАЛИЗ МОРФОЛОГИЧЕСКОГО СЛОВООБРАЗОВАНИЯ С ИСПОЛЬЗОВАНИЕМ СУФФИКСОВ ТЮРКСКОГО ПРОИСХОЖДЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ

АННОТАЦИЯ

В настоящем исследовании словообразование рассматривается в диахроническом плане. На основе использованных источников процессы словообразования анализируются в их историческом развитии. Эти процессы образуют определённые этапы в эволюции словообразовательной системы.

Структура словообразования передаёт как производное слово, так и его лексическое значение. Данное значение можно определить как *лексико-структурное*, которое выражается двумя компонентами: *формантом и мотиватором*. Лексико-структурное значение функционирует как категориальное значение, поэтому его можно обозначить как *категориальное словообразование*.

Между лексико-структурным значением и категориальным словообразованием обычно существует переходная семантическая последовательность. Обобщение признаков и степеней обусловливает словообразовательное значение зависимостью отношений между формантом и мотиватором. В данной структуре производное слово выступает как идентифицирующая единица словообразования. В результате значение приближается к категориальному, формируя частично абстрактное и частично конкретное содержание.

Ключевые слова: *история азербайджанского литературного языка; тюркское происхождение; суффикс; язык памятников; словообразование.*

Aysel ƏHMƏDOVA*

BUDDİZM MƏZMUNLU QƏDİM UYĞUR ABİDƏLƏRİNDƏ QOŞMALAR

XÜLASƏ

Buddizm məzmunlu qədim uyğur abidələri sayına və həcminə görə qədim türk yazılı abidələrinin ən geniş qrupudur. Burada köməkçi nitq hissələrinə, xüsusən qoşmalara aid bir çox nümunələr işlənmişdir. Bunlar həm mənası, həm də işlənmə xüsusiyyətlərinə görə digər qədim türk abidələrinə çox yaxındır. Bu da qədim uyğurların VIII əsrdən XIV əsrə qədər, demək olar ki, eyni linqvistik xüsusiyyətləri davam etdirdiyini göstərir.

Qədim uyğur abidələrində qoşmaların bir çox növü (birgəlik, bənzətmə, zaman, məsafə, istiqamət, səbəb-məqsəd, fərqləndirmə) qeydə alınmışdır. Burada qoşmalar adlıq, təsirlik, yönlük, yerlik və çıxışlıq halda olan sözlərlə işlənir. Adətən, adlıq hallı sözlərlə işlənən qoşmalar əvəzlikləri təsirlik halda tələb edir ki, bu da müasir türk dillərindəki yiyəlik hala uyğundur.

Buddizm məzmunlu abidələrdə işlənmiş qoşmaların əksəriyyəti əsas nitq hissələrinin (isim, sifət, zərf, feil) qoşmaya çevrilməsi nəticəsində meydana çıxmışdır. Burada feili bağlamalar əsasında formalaşmış qoşmalar üstünlük təşkil edir.

Açar sözlər: qədim türk yazılı abidələri, köməkçi nitq hissələri, ismin halları, qoşmanın növləri

Qədim uyğur abidələrinin ən böyük qrupunu təşkil edən buddizm məzmunlu abidələr aid olduqları mühitin dil xüsusiyyətlərini öyrənmək üçün əhəmiyyətli mənbədir. Bu abidələr VIII-XIV əsrlər kimi geniş bir dövrü əhatə etsə də, müxtəlif dövrlərə aid mətnlər arasında linqvistik fərqlər azdır.

Digər qədim türk yazılı abidələrindəki kimi, buddizm məzmunlu qədim uyğur abidələrində də ən geniş yayılmış köməkçi nitq hissəsi qoşmalardır. Abidələrdə böyük işlənmə tezliyinə malik *birlə, üzə, təg* kimi qoşmalara, demək olar ki, hər bir cümlədə rast gəlinir.

Buddizm məzmunlu qədim uyğur abidələrində aşağıdakı qoşmalar işlənmişdir:

1. Birgəlik, alət bildirən qoşmalar:

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, ????, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email:

***Birlə* "ilə":** Uluğ küçlüglər (öğ ka)ŋ (ka kadaş) *kuvrağları birlə* buluŋda yıŋakda küzətsünlər (Dişastvustik, 239-241) "Böyük-kiçiklər, ata-ana, qohum-qardaş, icmaları ilə hər cəhətdə, tərəfdə qorusunlar". *Birlə* qədim türk dövründə ən geniş yayılmış qoşmadır. Müasir türk dillərinin, demək olar ki, hamısında müxtəlif fonetik variantlarda (*bile, ilə, bilən*) işlənməyə davam edir. Qədim uyğur abidələrində, ümumiyyətlə, bütün qədim türk yazılı abidələrində *birlə* qoşması adlıq və təsirlik halda olan sözlərlə işlənir.

2. Bənzətmə bildirən qoşmalar:

***Təg* "-tək, kimi"** qoşması adlıq və təsirlik halda olan sözləri idarə edir: Tağ töpüsintə mrkt erdni öŋlüg *yılınçğa yumşak erdnilərig töşəp urmış təg* öləŋ çimgənləri erür (Maytrısimit, 55, 21-24) "Dağın başında marakata daşı rəngli ... qiymətli daşlar döşənmiş kimi yaş çəmənliklər var".

***Okşatı* "kimi, oxşar, bənzər":** *Tolun ay teŋrikə okşatı* yüüzüŋüz erür, *kök lenxua öŋiŋə okşatı* közüŋüz ol, *yipün saparir erdinikə okşatı* ərininiz ol (Altun yaruk, X kitab, 1217-1221) "Üzünüz bədirlənmiş ay kimidir, gözünüz göy su zanbağı rənginə oxşayır, dodaqlarınız qırmızı kvars daşı kimidir". *Okşatı* sifət kimi də işlənir: *Maŋa yimə okşatı* erməz (Maytrısimit, 51, 26-27) "Mənə də oxşar deyil". *Okşat-* "oxşatmaq" feilinin feili bağlama forması əsasında meydana çıxmışdır [5, s. 400]. Müasir uyğur dilində bu mənada *oxşaş* sözü işlənir: *saŋa oxşaş* "sənə oxşar, sənin kimi" [11, s. 64]. Xakas dilində eyni mənada *osxas* sözü işlənir: *aba osxas* "ayı kimi", *xığırçarxan osxas* "elə bil oxuyur, oxuyana oxşayır" [2, s. 436].

***Osuğluğ* "kimi":** *Linxua çeçeklig kök osuğluğ* kayudın sıŋar teŋri teŋrisi burkan ersər antın sıŋar yakın barırlar (Maytrısimit, 51, 55-58) "Su zanbağı çiçəkli göy kimi tanrılar tanrısı budda hansı tərəfdədirsə, o tərəfə yaxın gedirlər". Çağatay dilində *yosunluk* sözünə rast gəlinir: *uşbu yosunluk* "məhz belə, eyni cür", *tarif kılğan yosunluk* "qeyd olunduğu kimi" [5 s. 124]. "Kimi" mənası ifadə edən bu sözün monqol dilindəki *yosun* "adət, tərz" sözündən əmələ gəldiyi göstərilsə də [4, s. 124], onun qədim uyğur abidələrindəki *osuğluğ* sözünün fonetik variantı olduğunu söyləmək olar.

3. Zaman bildirən qoşmalar:

***Ötrü* "sonra"** qoşması yerlik hal şəkilçili sözlərlə işlənir, bu zaman yerlik hal çıxışlıq hal məzmunu ifadə edir: *Anta ötrü* (tükəl bilgə) biliglig burkan öŋ(dün yıŋakdakı qandarvı)lar tilin(çə satığçı)larka darnı nomlayu yarlıkadı (Dişastvustik, 183-187) "Ondan sonra mükəmməl müdrik budda qabaq tərəfdəki qandharvalar (aşağı səviyyəli tanrılar) dilində tacirlərə ovsunu söylədi"; Bu nomluğ kəzig ərtdüktə tükəl bilgə teŋri teŋrisi burkan *kəntünüŋ küü kəlig ədrəmin yığa yarlıkatukta ötrü* ol astup ikiləyü yənə yerkə batıp közünməz boltı (Altun yaruk, X kitab, 901-905) "Bu dini qaydanı yerinə yetirdikdə, mükəmməl müdrik tanrılar tanrısı Budda özünün bilik və qüvvə fəzilətini toplayandan sonra, o stupa yenə ikinci dəfə yerə batıb görünməz oldu". Qədim uyğur abidələrində *ötrü* sözü zərf kimi də işlənmişdir: *Ötrü* tükəl bilgə maytrı burkan öŋrə kisrəki ödlərig bilgə biligin koduru kolulap şanki toyınka inçə tip yarlıkayur (Maytrısimit, 48, 4-7) "Sonra mükəmməl müdrik Maytrı budda əvvəlki və sonrakı zamanları hikmətlə tamam fikirləşib rahib Şankiyə belə deyir".

4. Məsafə bildirən qoşmalar:

***Təgi* "-dək, qədər":** Arığ silig aş içgüŋüzlər aşılıp *yüz künkə təgi* sizlər (uzun) yaşaŋlar (Dişastvustik, 143-146) "Təmiz yemək-içməyimiz çoxalıpb yüz günə qədər siz uzun yaşayın"; ... katığlanıp tözkərinçsiz burkan kutın bulup *bökünki künkə təgi* alku tınlığka asığ tusu kılu yarlıkar (Daşa-karma-patha-avadana-mala, 2437-2440) "...möhkəmlənib müvəqqəti Budda xoşbəxtliyini tapıb bugünkü günə qədər bütün canlılara fayda verirlər".

5. İstiqamət bildirən qoşmalar:

***Kudı* "aşağı, aşağıya doğru, aşağı tərəfə":** *Teŋri yirintin kudı* inip sumani ınal birlə tuşup altın öŋlüg altun kırtışlığ arxant (bolurlar) (Maytrısimit, 51, 15-18) "Tanrı yerindən göydən) aşağı enib Sumani İnalla rastlaşıb qızıl rəngli, qızıl bənizli arxant (müqəddəs) olurlar"; Ötrü ol ağuluğ yılan *töpüdə kudı* arxant üzə ətözin kəmişdi (Daşa-karma-patha-avadana-mala, 3432-3433) "Sonra o zəhərli ilan yuxarıdan aşağı müqəddəs şəxsin üstünə bədəni ilə cumdu". Qədim uyğur abidələridə bu qoşma yerlik və çıxışlıq hallarla işlənir. "Divanü lüğat-it-türk"də də işlənməyə davam etmişdir: Er *attın kudhı* uçdı "Kişi atdan aşağı düşdü" (DLT, I, 164).

6. Səbəb-məqsəd bildirən qoşmalar:

***Üçün*:** *Anı üçün* ol oğuluğ pipalayani tip tiyürlər erdi (Maytrısimit, 56, 3-4) "Onun üçün o oğula Pipalayanj deyirdilər"; Takı yimə kalmış buyruklar yimə öküş ajunlarda üç erdni ögüg kaŋığ tapınmış udunmış *üçün* burkan körkin itip vıxar yirin sipirmiş *üçün* nom işidip nom bitig bitimiş *üçün* ton ətük aş içgü buşı birmiş *üçün* ... çikin ətözlüg uluğ təgimlig arxantlar bolurlar (Maytrısimit, 50, 1-10) "Həmçinin digər buyruqlar da çox aləmlərdə üç qiymətli daşa, anaya, ataya xidmət etdikləri üçün Budda, Budda heykəli qoyub, monastırı süpürdükləri üçün, dini eşidib, dini kitab yazdığı üçün, paltar, ayaqqabı, yemək-içmək sədəqəsi verdiyi üçün sap kimi vücudlu çox hörmətli arxantlar (müqəddəslər) olarlar". *Üçün* qoşması həm adlarla, həm də feli sifətlərlə işlənə bilir.

7. Fərqləndirmə bildirən qoşmalar:

***Ulatı* "bundan əlavə":** Üstün teŋri yirintə altın *yalaŋuk ətözintə ulatı* nırvanlığ orun bultaçı bolur (Maytrısimit, 54, 22-24) "Yuxarıda tanrı yerindən, aşağıda insan vücudundan əlavə nirvana yerini tapar". *Ulatı* sözü bağlayıcı kimi də işlənə bilir: *Ulatı* köŋüli kögüzi artamış kakaksi (a)vazasay aşaylığ tınlığlar ersər... (Maytrısimit, 59, 26-27) "Bundan əlavə, ürəyi, sinəsi zəifləmiş kakaksi (a)vazasay niyyətli canlılar olsa..." *Ulatı* sözü *ulat-* "əlavə etmək" feilinin (DLT, I, 213) feili bağlama forması əsasında meydana çıxmışdır. Bu qoşma aid olduğu sözləri adlıq və yerlik hallarda idarə etmişdir.

Bu söz hətta XIII-XIV əsrlərə aid qədim uyğur abidələrində də işlənməyə davam etmişdir. Lakin daha sonrakı dövrlərə aid yazılı abidələrdə *ulatı* sözündən istifadə olunmur. Hətta qədim uyğur abidələrinin bir çoxu ilə eyni dövrdə yazılmış "Divanü lüğat-it-türk" və "Qutadğu bilig"də də *ulatı* sözünə təsadüf olunmur. Buradan belə bir qənaətə gəlmək olar ki, *ulatı* türk dillərinin qədim dövrünə aid sözdür və Orxon-Yenisey abidələri və onlarla yaxın dövrdə yazılmış qədim uyğur abidələrinin (VIII-X əsrlər) dili üçün səciyyəvi olmuşdur. Daha sonrakı dövrlərə aid qədim uyğur abidələrində bu sözdən istifadə qədim uyğur yazı ənənəsinin davamı səciyyəsi daşıyır.

***Adın* "başqa"** qoşması adətən yerlik hal şəkilçili sözlərlə işlənir, burada yerlik hal şəkilçisi çıxışlıq hal məzmunu yaradır: Bu biziŋ əmgəkimizdə umuğ ınağ boltaçı teŋri burkanta *adın* kim ersər yok (Daşa-karma-patha-avadana-mala, 2408-2410) "Bizim bu əzabımız qarşısında tanrı Buddadan başqa ümid edə, inana biləcəyimiz kimsə yoxdur". *Adın* sözü sifət kimi də işlənir: Ol evdə yimə *adın* bir toyun ig kəm əmgəkin artak bolup ... (Daşa-karma-patha-avadana-mala, 2636-2638) "O evdə də başqa bir rahib xəstəlik əzabından zəifləyib..."

M.Kaşğari bu sözü çigillərə aid etmişdir (DLT, I, 76). O, oğuzların bu məqamda *adhruk* sözündən istifadə etdiyini də göstərmişdir (DLT, I, 98). "Divanü lüğat-it-türk"də də bu sözün qoşma kimi işlənməsi qeydə alınmışdır: Köni barır keyikniŋ közinde *adhın* başı yok "Düz gedən maralın gözündən başqa yarası yoxdur" (DLT, III, 151-152). Bu qoşma çağatay dilində də qeydə alınmışdır (*yālıŋdın adın köŋlümdə yok turur* "xəyalından başqa ürəyimdə heç nə yoxdur"), lakin həmin dövr üçün artıq arxaik xüsusiyyət hesab olunur [4, s. 125]. Müasir türk dillərində artıq istifadədən çıxmışdır. Müasir uyğur dilində *adın* yerinə *başka* qoşması işlənir [14, s. 66].

***Üzə* qoşmasını** konkret bir qrupa daxil etmək çətindir. Bu qoşma bir-birindən çox fərqlənən bir neçə mənanı ifadə edir: "üstündə", "ilə", "vasitəsilə", "tərəfindən" [1].

Alku yeklər kuvrağı *üzə* küzətilip inçə kaltı svaha *bu darnı üzə* eşidməklig öŋi üdrülməklig bilgə biliglig bu üç türlüg (Dişastvustik, 379-385) "Bütün şeytanlar icması tərəfindən qorunub, necə ki svaha bu ovsunla eşitmək və bir-birindən fərqlənən hikmətli üç növ ..."; Kop edgülərniŋ turuğı ornı bolmış *kop kamağ nomlar üzə* ikintisiz ərklig türklüg *kamağ tınlığlar üzə* tüz uluğ yarlıkançuçı biliglig erür (Maytrısimit, 18-22) "Bütün yaxşıların məskəni, yeri olmuş bütün dini əqidələr üzrə vahid, güclü, qüvvətli, bütün canlılarla düzgün rəftar edən, böyük mərhəmətli, biliklidir"; *Vjırlığ örgün üzə* olurup (Maytrısimit, 50, 39) "Almazlı taxt üzərində oturub".

Üzə qoşması Orxon-Yenisey abidələrində yerlik halda olan sözlərlə işlənmiş və "üstündə, üzərində" mənası ifadə etmişdir. Qədim uyğur abidələrində bu məna saxlansa da, yerlik hala, demək olar ki, rast gəlinmir. Bu qoşma çağatay dilində də işlənməyə davam etmişdir: *yüz üzə, taxt üzə* və s. [4, s. 124]. Ancaq sonrakı dövrlərdə işləkliyini itirmiş, onun yerinə *üzrə, üzərində, üstündə* sözləri işlənməyə başlamışdır. Bu qoşmanın "ilə", "vasitəsilə", "tərəfindən" mənaları isə yalnız qədim uyğur abidələrinə aiddir. Bu mənalar nə Qaraxanlı, nə də çağatay mətnlərində müşahidə olunur.

Qədim uyğur abidələrində işlənmiş qoşmaların əksəriyyəti isim, sifət və feili bağlamaların konversiyası nəticəsində meydana çıxmışdır. Bu cəhətdən onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İsimlərdən əmələ gələn qoşmalar: *üzə*;
2. Sifətlərdən əmələ gələn qoşmalar: *adın*, *osuğluğ*;
3. Feillərdən əmələ gələn qoşmalar: *kudı, təgi, ötrü, ulatı, okşatı.*

Abidələrdə qoşmalar müxtəlif hallarda olan sözlərlə işlənir: adlıq və təsirlik, yönlük, yerlik və çıxışlıq. Müasir türk dillərində adlıq və yiyəlik hallarla işlənən qoşmalar qədim uyğur abidələrində adlıq və təsirlik hallarla işlənmişdir. Müasir türk dillərində yiyəlik halda olduğu kimi, qədim uyğur abidələrində də təsirlik hal əvəzliklərə aid olur. M.Erdal yazır: "Qaraxanlı türkcəsində təsirlik hal tamamilə yiyəlik halla əvəz olunmuşdur" [5, s. 397]. Bu fikir qədim türk dilində təsirlik hallı sözlərlə işlənən qoşmaların müasir dövrdə yiyəlik halla işlənməsini izah edir.

Buddizm məzmunlu qədim uyğur abidələri qoşmalarla zəngindir. Burada qoşmanın, demək olar ki, bütün məna növlərinə aid olan nümunələr işlənmişdir. Bu qoşmaların əksəriyyəti adlıq, təsirlik və yerlik, çıxışlıq hallarla işlənir. Birgəlik, bənzətmə və fərqləndirmə bildirən qoşmaların işlənmə tezliyi daha çoxdur. Bu da abidələrin məzmunundan, onların dini səciyyə daşımasından doğur.

ƏDƏBİYYAT

1. Ahmedova, A. Eski Türkçede üzä sontakısının gelişimi // 17. Dünya Dili Türkçe Sempozyumu, Bartın/Türkiye, 23-25 Ekim 2025, s. 165-172.
2. Баскаков, Н.А. Инкижекова-Грекуд, А.И. Хакасский язык (Фонетический структура, словарный состав и грамматический строй). Москва, 1953.
3. Daśakarmapathaavadānamālā -On Günahın Zincirleme Hikâyesi-. Giriş-Metin-Çeviri-Notlar-Dizin-Tıpkıbaskı. Hazırlayan: Murat Elmalı. Ankara: Türk Dil Kurumu, 2022.
4. Eckmann, J. Chagatay manual. Indiana University Publications. Uralic and Altaic studies. Vol 60. The Hague: Mouton and Co., 1966.
5. Erdal, M. A grammar of Old Turkic. Leiden: Brill, 2004.
6. Gulcalı, Z. Altun Yaruk Sudur X. kitap (Metin-çeviri-açıklamalar-sözlük). Doktora tezi. İstanbul, 2015.
7. Kaljanova, E. Uygurca Dişastvustik (Giriş-Metin-Çeviri-Dizin ve Tıpkıbasım). Marmara Üniversitesi. Doktora Tezi. 2005.
8. Kâşgarlı, M. Divanü Lûgat-it Türk. Çeviren: Besim Atalay. Ankara: TDK Yayınları, c.1, 2013.
9. Kâşgarlı, M. Divanü Lûgat-it Türk. Çeviren: Besim Atalay. Ankara: TDK Yayınları, c.3, 2013.
10. Kâşgarlı M. Divanü Lûgat-it Türk. Çeviren: Besim Atalay. Ankara: TDK Yayınları, c.4. Dizin, 2013.
11. Наджип Э.Н. Современный уйгурский язык. Москва: Издательство восточной литературы, 1960.
12. Tekin Ş. Maytrısimit. Burkancıların Mehdîsi Maitreya ile buluşma. Uygurca iptidaî bir dram. Ankara: Sevinç, 1976.

POSTPOSITIONS IN THE OLD UYGHUR BUDDHIST MONUMENTS

AYSEL AHMADOVA

SUMMARY

Old Uyghur Buddhist texts are the largest group of Old Turkic written monuments in number and size. A lot of examples of functional parts of speech, especially postpositions are used here. These are very similar to the other Old Turkic texts in meaning and usage. It shows that the Old Uyghurs continued nearly the same linguistic features from the 8th century until the 14th century.

Many types of postpositions including togetherness, likeness, time, distance, direction, reason and purpose, distinction, have been registered in Old Uyghur written monuments. Postpositions are used with the words in nominative, accusative, dative, locative, and ablative cases. The postpositions used with nominative case usually govern the pronouns in accusative case, and it corresponds to the genitive case in the modern Turkic languages.

Most of the postpositions used in the Buddhist texts were formed as a result of the conversion of main parts of speech such as nouns, adjectives, adverbs, and verbs. Postpositions formed from converbs are dominating here.

Keywords: *Old Turkic written monuments, functional parts of speech, nominal cases, types of postpositions*

ПОСЛЕЛОГИ В ДРЕВНИХ УЙГУРСКИХ ПАМЯТНИКАХ С БУДДИЙСКИМ СОДЕРЖАНИЕМ

АЙСЕЛЬ АХМЕДОВА

РЕЗЮМЕ

Древнеуйгурские памятники с буддийским содержанием представляют собой самую большую группу древнетюркских письменных памятников по количеству и объему. Здесь широко используются служебные части речи, особенно послелоги. По смыслу и особенностям употребления они очень близки к другим древнетюркским памятникам. Это также свидетельствует о том, что древние уйгуры сохраняли практически те же языковые особенности с VIII по XIV века.

В древнеуйгурских памятниках зафиксировано множество типов послелогов (комитативных, аналоговых, временных, предельных, направленных, причинно-целевых, дифференцирующих). Здесь наречия используются со словами в именительном, винительном, направленном, местном и исходном падежах. Обычно послелоги, используемые со словами в именительном падеже, требуют местоимений в винительном падеже, что соответствует родительному падежу в современных тюркских языках.

Большинство наречий, используемых в буддийских памятниках, возникли в результате преобразования основных частей речи (существительное, прилагательное, наречие, глагол) в послелог. Здесь преобладают аффиксы, образованные на основе деепричастий.

Ключевые слова: древнетюркские письменные памятники, служебные части речи, падежи, типы послелогов

Həbib MİRZƏYEV*

SÖZÜN SEMANTİK İNKİŞAFINDA MƏCAZLARIN ROLU (HÜSEYN ARİF POEZİYASININ MATERİALLARI ƏSASINDA)

XÜLASƏ

Məqalədə poeziya dilində sözlərin semantik mənasının genişlənməsi nəticəsində formalaşan məcazların işlənmə tezliyindən, bu dil vahidlərinin bədii nitq mühitində əhəmiyyətli mövqe kəsb etdiyindən bəhs olunur. Hadisələri, əşya və məfhumları müstəqil yolla deyil, dolayı yolla əks etdirmək bədii üslubun, xüsusilə də poeziya dilinin ən əlamətdar cəhətlərindən biri olduğu diqqətə gətirilir.

Təhlillər üzrə qeyd olunur ki, sözün ilkin mənasından əlavə mənalar kəsb etməsi mətnin canlı, sadə və səmimi deyim tərzi ilə ifadə olunmasını şərtləndirir. Bu minvalla poeziya dilində məcazlaşmış sözlərin üzərində formalaşan yetkin obrazlılıq bədii nitq mühiti formalaşdırır və mənanın dolayı yolla ifadəsi bədii nitqi ənənəvi qəliblərdən, şablon deyim tərzindən xilas edir. Nümunələr üzrə əsaslandırılır ki, bu amillər dil yaradıcılığında çeviklik prinsipinə söykənir və dil manevri üçün stimul yaradır. Dilin imkanları üzərində qərarlaşan bədii nitq

mühitindəki məcazlaşmış söz və ifadələr mətnin poetik-üslubi mənzərəsində, dilin lakonikliyində əsas təsvir vasitəsi kimi çıxış edir.

Açar sözlər: *poeziya dili, sözün semantik inkişafı, məcazlar sistemi, bədii nitq, bədii üslub.*

.

Poeziya dilində sözlərin semantik mənasının genişlənməsi nəticəsində formalaşan məcazlar işlənmə tezliyi ilə diqqət çəkir. Bu dil vahidləri bədii nitq mühitində əhəmiyyətli mövqeyə malikdir. Hadisələri, əşya və məfhumları müstəqil yolla deyil, dolayı yolla əks etdirmək bədii üslubun, xüsusilə də poeziya dilinin ən əlamətdar cəhətlərindəndir. Müxtəlif predmet və hadisələrin şüurda təsəvvür edilən qarşılıqlı əlaqələri nəticəsində yaranan məcazi söz obrazlılığın təməlində durur. Poeziya dilində məna inteqralı sözün obraza keçid prosesinin əsasını təşkil edir. Çünki sözün ilkin mənasından əlavə mənalar kəsb etməsi mətnin canlı, sadə və səmimi deyim tərzi ilə ifadə olunmasını şərtləndirir. Poeziya dilində məcazlaşmış sözlərin üzərində formalaşan yetkin obrazlılıq bədii nitq mühiti formalaşdırır. Bədii nitq prosesində formalaşan

*Azərbaycan Texniki Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: habib.mirzayev@aztu.edu.az

digər ikinci məna üslubi cəhətdən motivləşmiş olur və bu motivləşmə sözün həqiqi, əsl mənası zəminində baş verir. Bütövlükdə mənanın dolayı yolla ifadəsi bədii nitqi ənənəvi qəliblərdən, şablon deyim tərzindən xilas edir. Bu da dil yaradıcılığında çeviklik prinsipinə söykənir və dil manevri üçün stimul yaradır. Məcazlaşmış söz və ifadələr mətnin üslubi mənzərəsində, dilin lakonikliyində əsas təsvir vasitəsidir.

Bədii təsvir və təsir imkanları ilə xüsusi diqqət çəkən dil və onun məxsusi elementləri, bütövlükdə forma mədəniyyəti lirik janrın əsas atributlarındandır. Fikrin bədiiliyi deyim tərzindəki keyfiyyətli əlamətlərdən daha çox asılıdır. İfadəli deyim bədii həqiqət məqamlarına rəvac verir, fikri intensiv şəkildə bədiiləşdirir. Şeir dil incəliklərinin imkanları üzərində bərqərar olur. "Buna görə də poeziyanın ən əlamətdar, təyinedici məziyyətlərindən danışarkən, onun estetik özəllikləri haqqında düşünəndə ilk növbədə məcazi sözlərin obrazlılıq imkanları göz önünə gəlir" [9, 51]. Poeziya dilində sözün leksik-semantik mənası öz mütəhərrikliyi ilə seçilir.

Təsvir və tərənnüm obyektinin zəruri əlamətləri linqvistik materialın ifadəlilik imkanlarına söykənir. Sözün məna çalarları şeir nitqində zənginləşmə prosesi keçirir ki, bu da onun özünəməxsusluğu ilə bağlıdır. "Əsl şeir böyük fikirlər və böyük ideallar deməkdir, onun kiçik bir misrasında bəzən böyük bir roman olur" [1, 41].

Düşüncələrin poeziya dili ilə ifadəsi sözə həssas münasibətdən başlayır. Bədii sözün saflığına və müqəddəsliyinə ürəkdən bağlılıq şairin poetik məramı zəminində baş verir. Həyata, varlığa poetik baxışlar canlandırılarkən poeziya dilinin bütün bədii təsvir və ifadə vasitələri funksional mütəhərriklik və zənginlik kəsb edir. Bu əsasda onların poetik-üslubi funksiyası şeirə bədii sanbal və bütövlük gətirir. İfadə tərzinə dilimizin koloritli təbiətinin çökməsi, emosional yığcamlıqla müşayiət olunması mətni bədii-emosional incəliklərlə yükləyir. İddia olunduğu kimi, misrasında roman ağırlığı daşıyan poeziyanın ərsəyə gəlməsində dil faktoru həlledicidir [1, 41].

Dil amili ümumiyyətlə söz yaradıcılığının mərkəzi problemidir. Çünki canlı danışıq dilinin, ana dilinin bütün naturası ilə şeir dilinə ayaq açması zəminində o, xalqın mənəvi sərvətinə çevrilə bilir. "Beləliklə, dil xalq birliyini hifz edən böyük vasitədir, "xalqın səsi" kimi o, xalqın ən ülvi istək və arzularını aşkarlaya bilir..." [7, 60]. Bunun üçün dil faktları bədii mühitdə yetkinlik tapır. Sözün mayasında mövcud olan obrazlılıqdan yararlanan şair söz üzərində yaradıcılıq sınağına çəkilir. Bu əsasda poetik duyumla deyim tərzi"gözəl bədii dil ustasının səsi gərək min şairin... səsinin içindən seçilsin" [2, 21] düsturu ilə ahəngdarlıq təşkil edir.

Poeziya dili fikirlərin yetkin və bitkin qəliblərinə keçməklə ana dilinin daxili ehtiyatlarına daha dərindən nüfuz etmə imkanları qazanır. Bunu H.Arifin üslubunda müşahidə etdiyimiz dil komponentlərinin məcazlaşma prosesində bütün incəlikləri ilə sezirik. Poeziyada bədii keyfiyyətlərin təkamülü və yaradıcılıq səviyyəsi dil materiallarının seçimində özünü təsdiqləyir. Üslubi cəhətdən dərin fikirlərin ifadəsi bədii dil mədəniyyətinin əsas göstəricilərindəndir. Poeziyanın canlı mənzərəsi, onun üslubi rəngarəngliyi dil materiallarının zənginliyindən, bədii-estetik imkanlarından daha çox asılıdır. H.Arifin dili də bir çox cəhətdən Azərbaycan poeziyasında mövcud olan dil ənənələrinin davamı, üslubi axtarışların zənginləşməsi və ifadə tərzinin yenilənməsi istiqamətində uğurlar əldə etmişdir. poetik nümunələrin timsalında aydın görünür ki, şair poeziya dilini sadələşdirməklə onun bədii-estetik dəyərlərini yüksəltməyə müvəffəq olmuşdur. H.Arifin poeziyasında dövrünün dil problemləri bədii-estetik prinsiplər üzərində qərarlaşır, xəlqilik və sadəlik ön plana çəkilir. Poeziya dili şairin yaradıcılığında bir zərurətə çevrilir. Bu mühüm meyarlar üzrə bədii dil yaradıcılığını önə çəkən, "Gözəl, büllur kimi şəffaf poetik təfəkkürə malik olan" [6, 336] H.Arif öz poeziya dilini bayatı ahəngi, nəğmə şirinliyi ilə zənginləşdirir. Sözlərin semantik inkişafında xüsusi diqqət çəkən epitet, müqayisə, metafor və metonimiya nümunələri şairin poeziya dilində bədii təsvir və təsir imkanlarının reallaşdırılması baxımından əhəmiyyətli dil faktı kimi çıxış edir. Bu mənada epitetlər işləkliyi və özünəməxsus keyfiyyətləri ilə H.Arifin poeziya dilində özünü büruzə verir. Şairin üslubunda digər obrazlı dil vasitələri ilə təmasda epitetlər kommunikativ funksiya çərçivəsini aşaraq məqsədyönlü şəkildə sözlərin semantik baxımdan genişlənmə imkanlarını ortaya qoyur. Çox zaman bədii mündəricənin əsas ağırlığı da məhz məcazlaşmış sözlərin üzərinə düşür:

"Gənclər, odlu gənclər, alovlu gənclər,
Sizinlə qayalı dağlar aşardım" [3, 372].

“Ucalar yanında ucadır başım,
Nə böyük, nə isti xalqım var mənim” [3, 197].
“Çiçək yanaqların ətir saçsa da,
Mənim çəmənimin solğun vaxtıdır” [5, 90].

Nümunələrdəki epitet sözlər elə dil faktlarıdır ki, onların hər biri düşdüyü bədii mühitdə adi leksik vahiddən fərqli olaraq poetik dilin keyfiyyətlərini özündə əxz edir. Doğrudan da “Sənət dili həmin sənət növünün işarələr sisteminin obrazlı formasıdır” [11, 29] və bu forma təsvir predmetininin sanballı ifadəsində başlıca amildir. Məhz buna görə də dil faktoru kimi epitet yaradıcılığı da bədii-üslubi ünsürlərin sintezində müstəsna mövqeyə malikdir.

H.Arifin poeziya dilində sözün bədii-üslubi aspektini daha qabarıq nəzərə çatdırmaq üçün müqayisələrdən də geniş istifadə olunur. Müqayisələr fonunda sözün obraza çevrilməsi olduqca mürəkkəb yaradıcılıq prosesidir. Burada struktur komponentlər əlavə məna ilə yüklənərək daha poetik obrazlar formalaşdırır. Bu məziyyət bədii nitqin təməlində durur və müqayisə yaradıcılığında iştirak edən söz bədii obraz səviyyəsinə qalxır:

“Kədər qoşun-qoşun üstümə gəldi,
Sevincin qul kimi boynu büküldü,
Dəymişi düşməmiş kalı töküldü,
Bu necə bostanmış, bu necə bağmış” [5, 48].

“Üstünə ələnən birəm-birəm qar,
Ağarır saçlara düşən dən kimi,
Düzülür boynuna inci damcılar,
Düzülür muncuqlar düzülən kimi” [5, 9].

H.Arif poeziya dilində bədii düşüncə çox zaman müqayisə bünövrəsində qərar tutur. Bu üslubi əməliyyatın nəticəsi olaraq söz mühüm kateqoriya kimi misraların məna yükünü öz üzərinə götürür. Çünki “bədii söz gözəlliyi və emosional estetik təsiri sözlərlə bağlıdır, sözün forması, quruluşu və yerinə görə bu gözəllik yaranır” [10, 37]. H.Arif poeziyasının timsalında da belə bir fikir qətiləşir ki, müqayisələr poetik ünsiyyət formasının ən fəal ünsürləridir. Həmçinin leksik vahidlərinin üslubi çalarlarının aşkarlanması baxımından lirik janrda metaforik söz tapıntısı da qiymətli dil materiallarındandır. Müxtəlif lüğəvi vahidlərin, dil ünsürlərinin ayrı-ayrı səviyyələrdə qovuşması sözün yeni-yeni semantik potensialına təkan verir, məna genişlənməsinə yol açır. Poeziyada sözün metaforikləşməsi hər bir dil vahidinin imkanlarını əyaniləşdirir, sözün kontekst çərçivəsindəki məna çevikliyini, daxili semantikasından əxz olunan poetik-üslubi xüsusiyyətləri bütün incəliklərinə qədər açıqlayır.

Metafor eyni zamanda mətnin poetik strukturunda məna tutumunu, məna yükünü zənginləşdirir. Eyni sözün fərqli bədii nitq şəraitində məna genişliyinin meydana çıxması da məhz bu amillə bağlıdır.

Metafor elə bir üslubi əməliyyatın nəticəsidir ki, bu, ana dilinin daxili potensialına daha dərindən nüfuzetmə imkanları yaradır və sözə yeni həyat verilməsi də bu əməliyyatın birbaşa nəticəsi kimi çıxış edir:

Nə Murovam, nə Murğuzam, nə Qoşqar,
Nədən belə yürüş etdi başa qar! [5, 134].

“Bu yollarda duman nədir, çən nədir,
Saça qonan qırov nədir, dən nədir?” [5, 158].

Göründüyü kimi, metafor bədii mətndə adi söz deyil. O, bu və ya digər anlayışı canlandıran poetik mühitin inikasıdır. Bədii ifadə tərzi kimi saçın ağarmasını dolayı yolla təcəssüm etdirən şair “yürüş etdi başa qar”, “fikir qar ələyir qara saçlara”, “saça qonan qırov nədir” deyimi ilə gerçəkliyə poetik münasibət bildirməklə yanaşı, obrazı dərinləşdirmək, təsvir obyektinin mahiyyəti haqqında aydın təsəvvür formalaşdırmaq niyyətini də reallaşdırır.

Poeziya dilində obrazlı leksikanı təşkil edən məcazlar içərisində metonimiya da bədii təsvir vasitələri kimi olduqca əhəmiyyətli dil faktıdır. H.Arifin üslubunda bu məcazi sözlər daşıdıqları funksiya və mətnin semantikasında aparıcı mövqeyi baxımından xüsusi üslubi təyinat qazanır. “Obrazlılıq keyfiyyəti

metonimiyanı dilin ifadəli vasitələrindən biri etməklə, onu bədii üslubun qüvvətli bədii vasitəsinə qədər qaldırır. Özü də danışıq dilindən fərqli burada ümumxalq metonimiyalarla yanaşı, yeni, orijinal xarakterli daha ifadəli metonimiyaların əmələ gəlməsi özünü göstərir" [8, 100-103]. H.Arifin poeziya dilinin səciyyəvi xüsusiyyətləri kimi bu məziyyətlər şairin ana dilinin incəliklərinə bələdliyini təsdiqləyir. Zəngin ifadəlilik imkanlarına nüfuzetmə sayəsində şair sözə həm leksik, həm də poetik vahid kimi yanaşır, ayrı-ayrı mətnlərdə onun müxtəlif məna çalarlarını yarada bilir. Bir sözlə, üslubi zərurət metonimiyalarla reallaşdırılır:

"Babalar zövqlə yaratdı, getdi,
Dəmiri qaynadıb, misi əritdi,
Şərqi heyran qoyub, Qərbi mat etdi,
Bəzəkli dolçası Azərbaycanın" [4, 17].

Metonimiya funksiyasında çıxış edən "Qərb", "Şərq", "Azərbaycan" sözləri əslində ayrılıqda işləndiyi mənadan tamam fərqli, yeni bir məcazi mənanı ifadə edir, eyni səs cildində iki müxtəlif anlayışla bağlı olur. Fərqlənən predmetlər arasındakı mövcud bağlılıqdan irəli gələn metonimik məcaz xüsusi ifadəlilik keyfiyyətlərinə yiyələnir. Nümunələrdəki metonimiyalar da bu xüsusda sözün məcazi mənasından yaranan assosiasiyanın bilavasitə nəticəsidir.

"Bədii sözün həqiqəti dilin həqiqətidir, bədii əsərin sirri dilin sirridir. Bu mənada bir bədii dilin yaddaşının ilk əvvəllərinə getdikcə dil sisteminin qanunauyğunluqları ilə, xalqın təfəkkür tərzinə uyğun poetik mənzərə yaradan dil sistemi ilə rastlaşırıq" [12, 37]. Fonetik, fonosintaktik, leksik-qrammatik vasitələr yalnız linqvistik vahidlər kimi deyil, məzmunla da qırılmaz tellərlə bağlanaraq bütövlükdə mətnin semantikası ilə əlaqələnib üslubi dəyər qazanır. Nümunələr də diktə edir ki, sözlərin semantik inkişafında əhəmiyyətli rola malik olan məcazlar sistemi poeziya dilinin üslubi keyfiyyət göstəricisidir. Dil materialı kimi onların təsir gücü fikrin düzgün qavranılmasına istiqamətlənir. Hər uğurlu məcazi söz H.Arifin fərdi üslubunu müəyyənləşdirməklə bərabər, Azərbaycan dilinin üslubi imkanlarını, poeziya dilinin mənsub olduğu mühüm keyfiyyətləri də meydana çıxarır.

Beləliklə, məcazi sözlərin ifadəlilik imkanlarına istinad olunmaqla poeziya dili zəngin notlar üzərində formalaşır. Poetik duyumla poetik deyim tərzinin vəhdəti məcazları lirik janrın əvəzolunmaz dil materialına çevirir. Sözlərin semantik inkişafı mətn mühitini fəallaşdırmaqala digər leksik vahidlərin də poetik imkanlarına müsbət təsir göstərir, şeirin bütün elementləri hərəkətsizlikdən, üslubi məhdudluqdan uzaqlaşırlar Müəyyən üslubi özünəməxsusluq məcazi sözləri varlığın lirik qavranma prosesinin fəal iştirakçısı edir. Lirik janrın üslubi sisteminin özünəməxsusluğundan, həmçinin dilin leksik sisteminin ahəngindən asılı olaraq həmin məcazi sözlərin bədii təsir dairəsi daha da genişlənir. Sərrast işlənmə mövqeyindən çıxış edən bu dil vahidlərinin, məcazi sözlərin sayəsində məzmun və ideya zənginliyi bədii təhkiyəyə çökür, lirik obrazın canlı cizgiləri daha dərin təsir imkanlarına yiyələnir.

ƏDƏBİYYAT

1. Ağayev Ə. Əsrin tərənnümü. Bakı : Yazıçı, 1980, 231 s.
2. Axundov A. Dilin estetikası. Bakı: Yazıçı, 1985, 224 s.
3. Arif Hüseyn. Seçilmiş əsərləri. 2 cilddə. I c., Bakı, Yazıçı, 1985, 408 s.
4. Arif Hüseyn. Seçilmiş əsərləri. Bakı: Xalq Bank, 2011, 618 s.
5. Arif Hüseyn. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 224 s.
6. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1988, 540 s.
7. Бехер И. К защиту поэзии. Москва: Изд. Иноетр.литература, 1959, 373 с.
8. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm, 1980, 252 s.
9. Hüseynov M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.
10. Quliyeva M. Klassik şərq poetikası. Bakı: Yazıçı, 1991, 126 s.
11. Васильева А.Н. Художественная речь. Москва: Русский язык, 1983, 256 с.
12. Vəliyev K. Dastan poetikası. Bakı: Yazıçı, 1984, 173 s.

Habib MIRZAYEV

THE ROLE OF METAPHORS IN THE SEMANTIC DEVELOPMENT OF WORDS (BASED ON THE MATERIALS OF HUSEYN ARIF'S POETRY)

SUMMARY

The article discusses the frequency of usage of metaphors formed as a result of the expansion of the semantic meaning of words in poetic language and emphasizes the significant role these linguistic units play in the artistic speech environment. It is highlighted that representing events, objects, and concepts indirectly rather than directly is one of the most distinctive features of artistic style, especially poetic language.

The analysis indicates that the acquisition of additional meanings alongside the primary meaning of a word ensures that the text is expressed in a lively, simple, and sincere manner. In this way, mature imagery formed on the basis of metaphorical words in poetic language creates an artistic speech environment, and the indirect expression of meaning frees artistic speech from traditional patterns and stereotypical modes of expression.

Based on examples, it is substantiated that these factors rely on the principle of flexibility in language creativity and stimulate linguistic maneuverability. In the artistic speech environment shaped by the possibilities of language, metaphorical words and expressions serve as the main means of depiction in the poetic-stylistic structure of the text and in achieving linguistic conciseness.

Keywords: poetic language, semantic development of words, system of metaphors, artistic speech, artistic style

Хабиб МИРЗАЕВ

РОЛЬ МЕТАФОР В СЕМАНТИЧЕСКОМ РАЗВИТИИ СЛОВА (НА ОСНОВЕ МАТЕРИАЛОВ ПОЭЗИИ ГУСЕЙНА АРИФА)

РЕЗЮМЕ

В статье рассматривается частотность употребления метафор, формирующихся в результате расширения семантического значения слов в поэтическом языке, а также подчеркивается значимая роль этих языковых единиц в художественной речевой среде.

Отмечается, что опосредованное, а не прямое отражение событий, предметов и понятий является одной из наиболее характерных особенностей художественного стиля, особенно языка поэзии. В ходе анализа указывается, что приобретение словом дополнительных значений наряду с его первоначальным значением способствует выражению текста в живой, простой и искренней форме. Таким образом, зрелая образность, формируемая на основе метафоризированных слов в поэтическом языке, создает художественную речевую среду, а опосредованное выражение смысла освобождает художественную речь от традиционных шаблонов и стереотипных способов выражения.

На основе примеров обосновывается, что данные факторы опираются на принцип гибкости в языковом творчестве и стимулируют языковую маневренность. В художественной речевой среде, формирующейся на основе возможностей языка, метафоризированные слова и выражения выступают в качестве основного средства изображения в поэтико-стилистической картине текста и обеспечении лаконичности языка.

Ключевые слова: *язык поэзии, семантическое развитие слова, система метафор, художественная речь, художественный стиль*

Salatın ƏHMƏDOVA*

SƏMƏDAĞA AĞAMALIOĞLUNUN TÜRKÇÜLÜK İDEYALARI VƏ YENİ ƏLİFBA KOMİTƏSİNİN FƏALİYYƏTİ

XÜLASƏ

Səmədağa Ağamalıoğlu XX əsrin 20-ci illərində türk dünyasında maarifçilik, dil islahatı və mədəni inteqrasiya ideyalarının fəal tərəfdarı olmuşdur. O, latın qrafikasına əsaslanan yeni türk əlifbasının yaradılması təşəbbüslərinin rəhbərlərindən biri kimi çıxış etmiş və bunun türk xalqları arasında savadlılığın artırılması və mədəni inkişaf üçün vacib olduğunu vurğulamışdır. 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayda Ağamalıoğlu çıxış edərək türk xalqları arasında elmi və mədəni əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd etmişdir. Onun çıxışları göstərirdi ki, dil və əlifba məsələsi yalnız texniki dəyişiklik deyil, eyni zamanda milli maarifin və intellektual modernləşmənin əsas şərtidir. Yeni Əlifba Komitəsinin fəaliyyəti çərçivəsində Ağamalıoğlu türk dillərinin fonetik xüsusiyyətlərinə uyğun latın qrafikalı əlifbanın hazırlanmasında iştirak etmiş, dərslik və metodik vəsaitlərin hazırlanmasına töhfə vermişdir. Qurultayda qəbul edilən qərarlar latın qrafikasına keçid prosesinə təkan vermiş və türk xalqları arasında ortaq elmi-mədəni platformanın formalaşmasına xidmət etmişdir. Ağamalıoğlunun fəaliyyəti türkçülük ideyalarının praktiki həyata keçirilməsi və türkoloji elmin inkişafında mühüm mərhələ hesab olunur.

Açar sözlər: Türkçülük, Səmədağa Ağamalıoğlu, Türkoloji Qurultay, yeni əlifba, maarifçilik, dil islahatı

XX əsrin əvvəlləri türk dünyasının ideoloji və mədəni həyatında köklü dəyişikliklərin baş verdiyi bir dövr kimi səciyyələnir. Bu dövrdə türk xalqları arasında milli kimlik, dil islahatı və mədəni inteqrasiya məsələləri geniş müzakirə olunurdu. Türkoloji elmin inkişafı və türk dillərinin elmi əsaslarla tədqiqi istiqamətində mühüm hadisələrdən biri də Birinci Türkoloji Qurultay olmuşdur. 1926-cı ildə Bakıda keçirilən bu qurultay türkoloji tədqiqatların inkişafı, ortaq əlifba məsələsinin müzakirəsi və türk xalqları arasında elmi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Qurultayın təşkili və keçirilməsində mühüm rol oynayan ictimai-siyasi xadimlərdən biri də Səmədağa Ağamalıoğlu olmuşdur.

Səmədağa Ağamalıoğlu Azərbaycan ictimai-siyasi fikrində modernləşmə, maarifçilik və dil islahatı ideyalarının fəal tərəfdarlarından biri kimi tanınır. Onun fəaliyyəti xüsusilə yeni əlifba hərəkatı və türk xalqları arasında mədəni inteqrasiyanın təşviqi ilə bağlı olmuşdur. Ağamalıoğlu hesab edirdi ki, türk xalqlarının inkişafı üçün onların dil və yazı sisteminin müasirləşdirilməsi mühüm şərtdir. Bu baxımdan o qeyd edirdi: "Yeni əlifba yalnız yazı sistemi deyil, eyni zamanda xalqın maariflənməsi və mədəni inkişafı üçün açılan yeni qapıdır" (3, s. 17).

Səmədağa Ağamalıoğlunun türkçülük ideyalarına münasibəti əsasən mədəni və maarifçi xarakter daşıyırdı. O, türk xalqları arasında mədəni əlaqələrin gücləndirilməsini və ortaq elmi platformanın yaradılmasını vacib hesab edirdi. Bu baxımdan onun fəaliyyətində dil məsələsi xüsusi yer tuturdu. O yazırdı: "Türk xalqlarını bir-birinə bağlayan ən güclü amillərdən biri onların ortaq dil kökləri və mədəniyyətidir; bu bağların möhkəmləndirilməsi onların ümumi tərəqqisi üçün mühüm əhəmiyyət daşıyır" (2, s. 42).

1920-ci illərdə Sovet məkanında həyata keçirilən əlifba islahatı hərəkatı türk xalqlarının yazı sistemində mühüm dəyişikliklərə səbəb olmuşdur. Bu prosesdə Səmədağa Ağamalıoğlu fəal iştirak etmiş və latın qrafikalı yeni türk əlifbasının yaradılması təşəbbüsünün əsas təşəbbüskarlarından biri olmuşdur. O, yeni əlifbanın tətbiqini türk xalqları arasında savadlılığın artırılması və elmi biliklərin yayılması baxımından mühüm addım kimi qiymətləndirirdi. Onun fikrincə, "əlifba məsələsi yalnız texniki məsələ deyil, eyni zamanda milli maarif və mədəni inkişaf məsələsidir" (1, s. 11).

* Azərbaycan Memarlıq və İnşaat Universiteti, Filologiya üzrə fəlsəfə elmləri doktoru, dosent

1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın təşkilində Səmədağa Ağamalıoğlunun rolu xüsusi qeyd olunmalıdır. Qurultay türkoloji elmin inkişafı və türk dillərinin öyrənilməsi sahəsində mühüm qərarların qəbul edildiyi beynəlxalq elmi forum idi. Qurultayda müxtəlif ölkələrdən gəlmiş türkoloqlar və şərqşünas alimlər iştirak etmiş, türk dillərinin fonetik və qrammatik xüsusiyyətləri, ortaq terminologiya və yazı sistemi məsələləri müzakirə edilmişdir.

Səmədağa Ağamalıoğlu qurultayın açılışında çıxış edərək türkoloji tədqiqatların inkişafının türk xalqları arasında mədəni inteqrasiyanın möhkəmlənməsinə xidmət etdiyini vurğulamışdır. Onun çıxışında belə bir fikir səslənmişdir: "Türk xalqlarının dili və mədəniyyəti əsrlər boyu böyük bir sivilizasiya yaratmışdır. Bu gün bizim vəzifəmiz həmin irsi qorumaq və onu elmi əsaslarla inkişaf etdirməkdir." (3)

Bu çıxış türkoloji elmin inkişafına və türk dillərinin sistemli şəkildə öyrənilməsinə çağırış kimi qiymətləndirilir. Ağamalıoğlu hesab edirdi ki, türk xalqlarının elmi əməkdaşlığı onların mədəni və siyasi inkişafına mühüm töhfə verə bilər.

Qurultay çərçivəsində müzakirə olunan əsas məsələlərdən biri də ortaq türk əlifbasının yaradılması idi. Bu məsələ türk xalqları arasında yazı sisteminin standartlaşdırılması və elmi kommunikasiya imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Ağamalıoğlu bu təşəbbüsün əsas ideoloqlarından biri kimi çıxış edərək qeyd edirdi: "Yeni əlifba türk xalqları arasında elmi və mədəni əlaqələri gücləndirəcək və onların maarif səviyyəsinin yüksəlməsinə xidmət edəcəkdir."(1, s. 23)

Qurultayda qəbul olunan qərarlar sonrakı illərdə türk xalqları arasında latın qrafikasına keçid prosesinə mühüm təsir göstərmişdir. Bu proses xüsusilə Azərbaycan və digər türk respublikalarında dil və yazı sisteminin modernləşdirilməsi istiqamətində mühüm addım olmuşdur.

Səmədağa Ağamalıoğlunun fəaliyyəti yalnız əlifba islahatı ilə məhdudlaşmırdı. O, türkoloji tədqiqatların inkişafına və türk dillərinin elmi əsaslarla öyrənilməsinə də böyük diqqət yetirirdi. Onun fikrincə, türk xalqlarının tarixini və mədəniyyətini öyrənmək üçün onların dilinin sistemli şəkildə tədqiqi vacibdir. Bu baxımdan o qeyd edirdi: "Dil millətin tarixinin və mədəniyyətinin aynasıdır; onu öyrənmək millətin özünü dərk etməsinin ən mühüm vasitələrindən biridir" (1, s. 37).

Nəticə etibarilə qeyd etmək olar ki, Səmədağa Ağamalıoğlu türk dünyasında dil islahatı və mədəni inteqrasiya ideyalarının həyata keçirilməsində mühüm rol oynamış ictimai xadimlərdən biridir. Onun türkçülük baxışları əsasən mədəni və maarifçi xarakter daşıyaraq türk xalqları arasında elmi və mədəni əməkdaşlığın gücləndirilməsinə yönəlmişdir. 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultay isə bu ideyaların həyata keçirilməsi üçün mühüm platforma rolunu oynamışdır. Bu baxımdan Ağamalıoğlunun fəaliyyəti türkoloji elmin inkişafında və türk xalqları arasında ortaq mədəni məkanın formalaşmasında mühüm mərhələ kimi qiymətləndirilə bilər.

Ağamalıoğlu qurultayın təşkilat komitəsinə rəhbərlik etmiş və açılış iclasında proqram xarakterli çıxış etmişdir. Onun çıxışı türk xalqlarının mədəni inkişafı, maarifçilik və yazı sisteminin modernləşdirilməsi ideyalarına əsaslanırdı. O, çıxışında türk xalqlarının ortaq mədəni köklərinə xüsusi diqqət yetirərək belə qeyd etmişdir:

"Türk xalqlarının dili, tarixi və mədəniyyəti əsrlər boyu böyük bir mədəniyyətin daşıyıcısı olmuşdur. Bu gün bizim qarşımızda duran vəzifə həmin mədəni irsi yalnız qorumaq deyil, onu yeni dövrün elmi və texniki tələblərinə uyğun şəkildə inkişaf etdirməkdir. Dil və əlifba məsələsi bu inkişafın əsas vasitələrindən biridir." (3, s.78)

Onun çıxışında əsas diqqət əlifba məsələsinə yönəlmişdi. Ağamalıoğlu hesab edirdi ki, köhnə ərəb qrafikası türk dillərinin fonetik xüsusiyyətlərini tam ifadə edə bilmir və savadlılığın yayılmasına mane olur. Bu baxımdan o, latın qrafikalı yeni əlifbanın tətbiqini zəruri hesab edirdi. Qurultaydakı nitqində bu məsələni belə əsaslandırırdı: "Ərəb əlifbası türk dillərinin səslərini dəqiq ifadə etmək baxımından məhdud imkanlara malikdir. Yeni əlifba isə sadə, aydın və elmi prinsiplərə əsaslanmalıdır. Bu əlifba türk xalqlarının maariflənməsi və onların mədəni inkişafının sürətləndirilməsi üçün güclü vasitə olacaqdır." (1, s. 18)

O, həmçinin yeni əlifbanın yalnız texniki yazı sistemi olmadığını, həm də geniş maarifçilik və mədəni modernləşmə layihəsinin tərkib hissəsi olduğunu vurğulayırdı: "Yeni əlifba yalnız hərflərin dəyişdirilməsi demək deyildir; bu, düşüncə tərzinin yenilənməsi, elmin və təhsilin xalq kütlələrinə daha geniş şəkildə çatdırılması deməkdir."(1, s. 21)

Latın qrafikasına keçid ideyasının həyata keçirilməsi məqsədilə yaradılan ən mühüm qurumlardan biri Yeni Türk Əlifba Komitəsi idi. Bu komitə 1920-ci illərdə türk respublikalarında əlifba islahatının elmi və praktiki əsaslarını hazırlamaq məqsədilə fəaliyyət göstərirdi. Komitənin rəhbərlərindən biri Səmədağa Ağamalıoğlu olmuşdur.

Komitənin əsas fəaliyyət istiqamətləri aşağıdakı məsələləri əhatə edirdi:

1.türk dillərinin fonetik sisteminə uyğun latın qrafikalı əlifbanın hazırlanması
2.müxtəlif türk xalqları üçün ortaq qrafik prinsiplərin müəyyənləşdirilməsi
3.yeni əlifbanın tədrisi üçün dərslik və metodik vəsaitlərin hazırlanması
4.savadlılıq kampaniyalarının təşkili

Ağamalıoğlu bu komitənin fəaliyyətini türk xalqları arasında mədəni və elmi inteqrasiyanın mühüm vasitəsi kimi qiymətləndirirdi. O yazırdı: "Əlifba məsələsinin həlli yalnız bir xalqın deyil, bütün türk xalqlarının mədəni tərəqqisinə xidmət etməlidir. Buna görə də yeni əlifba ümumi prinsiplərə əsaslanmalı və bütün türk dilləri üçün mümkün qədər ortaq xarakter daşımalıdır." (2, s. 37)

Komitənin fəaliyyəti nəticəsində latın qrafikasına əsaslanan yeni türk əlifbası layihəsi hazırlanmış və 1926-cı ildə Türkoloji Qurultayda geniş müzakirə olunmuşdur. Qurultayda qəbul edilən qərarlarda yeni əlifbanın tətbiqinin zəruriliyi xüsusi vurğulanmışdır. Bu qərarların formalaşmasında Ağamalıoğlunun ideyaları mühüm rol oynamışdır.

Qurultaydakı çıxışlarının birində o, yeni əlifbanın türk xalqları arasında elmi və mədəni əlaqələri gücləndirəcəyini qeyd edərək belə demişdir: "Əgər türk xalqları arasında elmi əməkdaşlıq və mədəni yaxınlaşma yaratmaq istəyiriksə, onların yazı sistemi də bir-birinə yaxın olmalıdır. Yeni əlifba bu istiqamətdə atılan mühüm addımdır." (3, s.45)

Birinci Türkoloji Qurultayın qəbul etdiyi qərarlar sonrakı illərdə türk respublikalarında latın qrafikasına keçid prosesinə güclü təkan verdi. Bu qərarlar yalnız texniki yazı sistemi dəyişikliyi deyil, həm də türk xalqlarının mədəni modernləşməsi və elmi əməkdaşlığının genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Səmədağa Ağamalıoğlu bu prosesi belə qiymətləndirirdi: "Yeni əlifbanın tətbiqi türk xalqlarının maarif səviyyəsini yüksəldəcək, onların elmi və mədəni inkişafını sürətləndirəcək və gələcək nəsillər üçün daha geniş imkanlar yaradacaqdır." (1, s. 44)

Beləliklə, Səmədağa Ağamalıoğlunun fəaliyyəti türk dünyasında əlifba islahatı və mədəni inteqrasiya ideyalarının formalaşmasında mühüm rol oynamışdır. Onun rəhbərlik etdiyi Yeni Türk Əlifbası Komitəsi və Türkoloji Qurultaydakı çıxışları türkoloji elmin inkişafına və türk xalqları arasında ortaq elmi-mədəni platformanın yaranmasına əhəmiyyətli təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Səmədağa Ağamalıoğlu. *Yeni türk əlifbası haqqında məqalələr və çıxışlar*. Bakı: Azərnəşr. 1926.
2. Səmədağa Ağamalıoğlu. *Əlifba məsələsi və türk xalqlarının maariflənməsi*. Bakı: Dövlət Nəşriyyatı. 1925.
3. Birinci Türkoloji Qurultayın materialları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 1926.
4. Əhmədli S. Böyük ömrün salnaməsi. 2018.

РЕЗЮМЕ

Самедага Агамалыоглу в 1920-е годы активно поддерживал идеи просвещения, реформы языка и культурной интеграции среди тюркских народов. Он был одним из руководителей инициативы по созданию нового турецкого алфавита на латинской графике, подчеркивая его значимость для повышения грамотности и культурного развития тюркских народов. На Первом Туркологическом съезде 1926 года в Баку Агамалыоглу отметил важность укрепления научного и культурного сотрудничества. Его выступления подчеркивали, что вопросы языка и алфавита — это не только технические изменения, но и основа национального просвещения и интеллектуального

обновления. В рамках Комитета по новому алфавиту он участвовал в разработке алфавита, соответствующего фонетическим особенностям тюркских языков, а также в подготовке учебных и методических материалов. Решения съезда стимулировали переход на латинскую графику и способствовали формированию общей научно-культурной платформы. Деятельность Агамалыоглу считается важным этапом практической реализации турецких идей и развития туркологической науки.

Ключевые слова: *Тюркизм, Самедага Агамалиоглу, Тюркологический конгресс, новый алфавит, просвещение, языковая реформа*

SUMMARY

Samedaga Agamalioglu in the 1920s was an active proponent of enlightenment, language reform, and cultural integration among Turkic peoples. He served as a leader in the initiative to create a new Latin-based Turkish alphabet, emphasizing its importance for literacy improvement and cultural development. At the First Turkology Congress in Baku (1926), Agamalioglu stressed the significance of strengthening scientific and cultural cooperation among Turkic nations. His speeches highlighted that language and alphabet reforms were not merely technical changes but a foundation for national education and intellectual modernization. Within the framework of the New Alphabet Committee, he contributed to designing an alphabet suited to the phonetic features of Turkic languages and preparing educational and methodological materials. The Congress decisions facilitated the transition to the Latin alphabet and supported the formation of a shared scientific-cultural platform. Agamalioglu's work represents a key stage in the practical realization of Turkism ideas and the development of Turkological studies.

Keywords: *Turkism, Samedagha Agamalioglu, Turkological Congress, new alphabet, enlightenment, language reform*

Yaşar QASIMBƏYLİ *

PROF. B.ÇOBANZADƏ VƏ ÖZBƏKİSTAN TÜRKŞÜNASLIĞI
(PROF. BƏKİR ÇOBANZADƏNİN HƏYATI VƏ YARADICILIĞININ ƏSAS MƏRHƏLƏLƏRİ)

XÜLASƏ

Məqalədə professor B.Çobanzadə ötən əsrin 20-ci illərində qardaş Özbəkistanın ədəbi və mədəni mühitindəki fəal elmi fəaliyyəti araşdırılır. Krımtatar xalqının böyük oğlu və keçən əsrin bənzəsiz türkşünas alimi Türkiyə və Azərbaycanda, Daşkənd, Səmərqənd və Fərqanə universitetlərində coşğun elmi yaradıcılığı və təşkilati işləri ilə yadda qalıb. Xüsusilə, böyük türkoloqun Əlişir Nəvai və Məhəmməd Füzulinin əsərləri üzərində apardığı tədqiqatlar bu gün də öz aktuallığını və əhəmiyyətini itirməyib. Türk dillərinin müqayisəli tədqiqi ilə bağlı, onun Azərbaycan, Krımtatar və özbək ədəbi dillərinin təşəkkülü, inkişafı və ən vacib inkişaf mərhələləri haqqında müşahidələri və düşüncələri XX əsrdə türkologiya elminin mühüm uğurları sırasındadır. Özbəkistan və Azərbaycanın görkəmli dilçi alimləri türk xalqlarını bütün qəlbi ilə sevən bu vətənpərvər və fədakar insanı həmişə hörmət və heyranlıqla xatırlayıblar.

Açar sözlər: *Özbəkistan və Azərbaycan türkologiyası, prof. B.Çobanzadə, Türkologiya, türk xalqları, türk ədəbi dilləri, Əlişir Nəvai, Məhəmməd Füzuli.*

Kırımtatar xalqının böyük oğlu, dünya şöhrətli türkoloq prof. Bəkir Çobanzadə bütün türk dünyasının XX yüzildə yetişmiş ən görkəmli alim, ədib və mədəniyyət xadimlərindən biridir. Bu cəhətdən onu elə həmin dövrdə Bakıda elmi və bədii yaradıcılqla məşğul olmuş, Azərbaycan türkologiyasının tarixində silinməz iz qoymuş, eynən Bəkir Çobanzadənin taleyini yaşamış Xalid Səid Xocayevlə müqayisə etmək olar. Bəkir Çobanzadənin ədəbi-elmi fəaliyyəti və taleyi ilə 30-60-ci illərdə qardaş Özbəkistanda yaşayıb-

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institutu, baş elmi işçi, filologiya elmləri doktoru, professor.
Email: yashargasimov@yahoo.com

yaratmış həmyerlimiz, böyük şair, dramaturq, alim və mütəfəkkir Maqsud Şeyxzadənin 40-50-ci illərin repressiyalarından keçmiş həyat yolu arasında da uyğunluqlar tapmaq olar.

Prof. Bəkir Çobanzadənin yaradıcılığı və ədəbi taleyi ilə başqa türk qardaşlarının tarixi qismətləri bir-birinə bənzəsə də, onun həyat yolu və tərcümeyi-halı bir sıra heyrətamiz hadisələr və özəlliklərlə zəngindir. Gələcəyiun böyük türkşünas alimi 1893-cü ildə Kırımdakı Simferepol uyezdinin Qarasubazar kəndində dünyaya gəlmişdir. İlk təhsilini elə orada alan gənc Bəkir ali təhsilini 1909-1914-cü illərdə İstanbulda davam etdirir. Türkiyədə ali təhsilini uğurla başa vurub öz doğma vətəni Kırıma qayıdan Bəkirin bəxtindən elə həmin ili Birinci Cahan savaşı başlanır. Ürəyi böyük və humanist arzularla döyünən cavan şair və alimi də bu dəhşətli, qanlı-qadalı qovğalara cəlb edirlər, ordu sıralarına çağırırlar. Bəkir Çobanzadə Avstriya-Macarıstan cəbhəsindəki döyüşlərdə iştirak edir. Həyatı və gözəlliyi duymaq, tərənnüm etmək üçün doğulan 20 yaşlı yaradıcı bir insan məcburən ölüm-qalım davalarında iştirak etməli olur, yaralanır və əsir düşür. Məhz bu əsirlik nəticəsində də düz altı il Macarıstanda yaşamalı olur. Təbiətən təmkinli və ağıllı gənc olan Bəkir bu illəri havaya sovurmadan elmlə məşğul olur, Budapeşt universitetinin tarix-filologiya fakültəsində təhsilini davam etdirir, bir neçə xarici dilə mükəmməl surətdə yiyələnir. Birinci Cahan savaşı qurtardıqdan sonra, nəhayət, 1920-ci ildə İstanbula, oradan da sevimli vətəni Kırıma qayıdır. 1925-ci ilə qədər Kırım darülfünununda elmi-pedaqoji fəaliyyətini davam etdirir. Bəkir Çobanzadənin həyat və yaradıcılığında 1925-ci ildən etibarən tamamilə yeni mərhələ başlanır, qəlbi böyük arzularla döyünən istedadlı alim Bakı şəhərinə köçür, Azərbaycanın o vaxtkı coşğun ədəbi-mədəni həyatında fəal iştirak edir.

Prof. Bəkir Çobanzadənin 1925-ci ildən sonrakı dövr elmi və mədəni fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmır. O, həmin illərdə, eyni zamanda, qardaş Özbəkistanın elmi və mədəni həyatında da fəal iştirak edir. 20-ci illərin ikinci yarısında görkəmli alimin Özbəkistanın qəzet və jurnallarında çap olunmuş müxtəlif mövzulardakı məqalələri, xüsusən, əlifba islahatı, türk dilləri üçün müvafiq imla, yeni alifba yolunda elmi və nəzəri işlər, özbək ədəbi dilinin əsas inkişaf təmayülləri və s. haqqında yazdığı məqalələr fikrimizi təsdiq edir. Burada tanınmış alimin 20-30-cu illər elmi yaradıcılığında dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvai haqqındakı mühüm tarixi əhəmiyyətə malik tədqiqatlarını xüsusi qeyd etməliyik. Onun Əlişir Nəvai haqqındakı fikir və mülahizələri bugün də öz elmi dəyərini hifz edib saxlamaqdadır. Türkoloji qurultaya hazırlıq prosesində fəal iştirak edən, Azərbaycandakı və Özbəkistandakı bir çox mədəni təşkilatçılıq işlərinin və tədbirlərinin təşəbbüskarlarından olan B.Çobanzadə həmin vaxtda Əlişir Nəvainin 500 illik yubileyinin keçirilməsini də ədəbi-mədəni ictimaiyyətin nəzərinə çatdırırdı. Həmin məqaləsində prof. B.Çobanzadə Əlişir Nəvaiyə aid görüşlərini və mülahizələrini ifadə etməklə kifayətlənmir, həm də qarşıda duran ən mühüm elmi-nəzəri, ədəbi-mədəni vəzifələrimizi, bilavasitə Əlişir Nəvai ilə bağlı təşkil olunacaq müəssisələrin adı və strukturu barəsində də öz düşüncələrini irəli sürür.

Ümumən, Bəkir Çobanzadənin elmi yaradıcılığında Əlişir Nəvaiyə və Məhəmməd Füzuliyə münasibət xüsusi yer tutur. Böyük türkoloqun hər iki dahi sənətkar haqqında bugün də öz dəyərini itirməyən qiymətli tədqiqatları mövcuddur. 20-ci illərin ortalarından etibarən Özbəkistanın ədəbi-mədəni həyatında fəal iştirak edən B.Çobanzadə, xüsusən, yeni modern mədəniyyət və yeni əlifba yaratmaq uğrunda gedən mübarizələrin öncüllərindən biri idi. Məsələn, onun həmin illərdə yazıb çap etdirdiyi "Yeni əlifba yolunda elmi və nəzəri işlər", "Yeni əlifbanın yeni uğurları və növbəti vəzifələrimiz" və s. məqalələrində son dərəcə mühüm əhəmiyyətə malik ümummilli məsələlərdən bəhs olunurdu. Prof. B.Çobanzadə yazırdı: "XVII əsrdən başlayaraq düz XX əsrə qədər, yəni üç əsrlik uzun bir zaman içində yuxuya dalmış biz türklər indi oyanmışıq. Amma oyanıb gördük ki, nə düz-əməlli mədəni mirasımız və nə də bugünkü ehtiyaclara, tələblərə cavab verən elmi müəssisələrimiz var. Biz gənclər zamanın mənəvi-ictimai və mədəni ehtiyaclarına sürətlə cavab tapmalıyıq". (2, s. 125). Görkəmli alim "Elmi və mədəni məsələlərimiz haqqında" adlanan məqaləsində isə 1926-cı ildə keçiriləcək məşhur Türkoloji qurultaya hazırlıqdan və bu prosesdə bütün türk xalqlarının dahi sənətkarı Əlişir Nəvai yaradıcılığının təbliğindən söhbət açır: "Bizim fikrimizcə, bu qurultayda Özbəkistanın indiyə qədər sönməyən ulduzunun, yəni hamımızın ədəbiyyat və şeiriyyət aləmində ulumuz və ustadımız hesab etdiyimiz Əlişir Nəvainin 500 illik yubileyi yüksək səviyyədə keçirilməlidir. Biz saf türkcə, xalq dilində yazıb-yaratmış, orta əsrlərin içində durub XX əsrin dərdlərini və fikirlərini irəli sürən, eyni zamanda, Bosna-Hərsəngdən Qaşqara qədər ölməz ad qazanmış bu dahini anlamağımız və dəyərləndirməmiz gərəkdir". Bəkri Çobanzadə həmin məşhur məqaləsində ölkədə

yerinə yetirilməsi zəruri olan ən mühüm elmi, ədəbi-mədəni vəzifələri və yaradılacaq müəssisələri müəyyənləşdirməklə kifayətlənmir, həm də bu işlərin həyata keçirilməsinin Əlişir Nəvai ilə bağlılığını əlahiddə qeyd edir. Türkoloji qurultayda Əlişir Nəvai yubileyinin geniş qeyd olunmasının zəruriliyini nəzərə çatdıran alim aşağıdakıları xüsusi olaraq vurğulayır: "Mən belə düşünürəm ki, bu təntənəli yubileydən sonra bir sıra mühüm işlər də görülməlidir: 1. Ümumittifaq miqyasında Nəvai ocağı meydana gəlməli – yaradılmalıdır ki, bu ocaq son nəticədə bütün türk-tatar şairlərinin birliyi olmalı və bu missiyanı yerinə yetirməlidir. 2. Yenə, ümumittifaq miqyaslı və statuslu bir Əlişir Nəvai institutu təşkil edilməlidir və bu işləri yerinə yetirərkən biz rusların Puşkinlə bağlı gördüyü mühüm yenilikçi tədbirlərdən, onların Puşkin ətrafında təşkilatlanıb birləşməsindən örnək almalıyıq. Mən qeyd etdiyim bu məsələlərə bütün yoldaşlar fəal münasibət bildirməsini, qiymətli özbək şairləri, ədib, alim və maarifçilərinin bu prosesdə yaxından iştirak etmələrinin zəruriliyini diqqətnizə çatdırıram".

Bəkir Çobanzadənin 1926-cı ildə Bakıda çap edilmiş, Əlişir Nəvainin "Vəqfiyyə" əsərinə ön söz kimi yazılmış "Nəvainin dili və dilçiliyi haqqında" həm də Şah Hüseyn Bayqaranın "Divan"ına ön söz kimi yazılmış "Bayqara və divanı haqqında" məqalələrində ədəbi dilimizin böyük icadkarları, xüsusən, Əlişir Nəvai haqqında unudulmaz mülahizələri yer almışdır. Böyük türkoloqun qeyd etdiyimiz məqalələrindən aşağıdakı fikirlər bir qırmızı xətt kimi keçir: "Türklərin içindən çıxmış yaradıcı insanlar, Nəvainin fikrincə, başqa dillərdə yox, mütləq öz ana dillərində yazmalıdırlar. Amma, əfsus ki, Əlişir Nəvaiyə qədər yetişmiş bir çox türk ədibləri öz doğma dillərini unudub qoyub, əsasən, əcnəbi dillərdə yazıb-yaratdılar". (2, s. 227). Bu fikir də prof. B.Çobanzadəyə məxsusdur: "Əlişir Nəvai sözün əsil və tam mənasında – siyasi, elmi və milli-mənəvi mənasında türk dilinin şüurlu müdafiəçisidir". (2, s. 228). B.Çobanzadə Əlişir Nəvainin türk dilinin bir Dövlət dili və ədəbi dil kimi formalaşmasında dahi şair və mütəfəkkirlə onun şah dostunun həmkarlığının və həmrəyliyinin mühüm tarixi əhəmiyyətə malik olduğunu müasir türkologiyada birincilərdən olaraq nəzərimizə çatdırmışdır: "Əlişir Nəvainin öz əsərlərindən və başqa bir çox mənbələrin verdiyi məalumatlardan anlaşılır ki, Nəvainin cığatay ədəbiyyatına yol açmasında Şah Hüseyn Bayqaranın onu öz himayəsinə alması və bu böyük işə təbliğ-təşviq etməsi həlledici rol oynamışdır. Çünki Əlişir Nəvai türkcə yazmağın zəruriliyi və faydasından bəhs edərkən Şah Hüseyn Bayqaraya ünvanlanladığı sevgi və həyəcan, minnətdarlıq dolu sözlər məhz buna işarə edir". (2, s. 230).

Prof. Bəkir Çobanzadənin Azərbaycan klassik ədəbiyyatı, o cümlədən türk xalqlarının başqa bir misilsiz dahisi və söz sənətkarı Məhəmməd Füzuli haqqındakı ədəbi-nəzəri düşüncələri, elmi mülahizələri də diqqətəlayiqdir. Prof. Bəkir Çobanzadənin tükənməz həvəs və ehtirasla, son dərəcə geniş və beynəlmiləl bir miqyasda keçirilməsinə çalışdığı I türkoloji qurultay da elə onun və bütün həmkarlarının qarşısıalınmaz məhvinə yol açdı. XX əsrin amansız diktatoru öz əsas məqsədlərinə çatan kimi – nəhəng bir ölkənin türkoloji elitasını bir yerə yığandan və onun daxili siyasətinə, milli-mənəvi hökmranlığına əngəl törədən əski əlifbadan yaxasını qurtarıb, cahanşümul əlifba islahatlarını həyata keçirəndən sonra bədbəxt türkoloqların qətlinə fərman verildi. Başabəla qurultayda iştirak edən türkoloq alimlərdən biri də, hətta xaricdən dəvət olunmuş qonaqlar da bu dəhşətli timsahın qorxunc dişlərindən canlarını qurtara bilmədilər...

Bəkir Çobanzadə bir sıra görkəmli ədəbiyyatşünas və türkşünas dostları kimi, özünün dərin elmi və milli görüşlərini məqalələrində, risalələrində və məruzələrində ifadə etməkələ bərabər, bədii yaradıcılığında da onları təbliğ və tərənnüm etməyə can atmışdır:

Səni mən Kırımda, Qazanda tapdım,
Könlüm cuşa gələn zamanda tapdım.

Yad ellərdə qərib, qəmgin gəzəndə
Sonsuz dərd-fikirdən bəzən bezəndə,

Boynundan asıldım dərdimi deyib,
Gözəl sözlərini sevib, söyləyib...

Qoşuğun olmasa, nəğmən olmasa,
"Yurd" deyən sözündən ürək dolmasa,

Ah, necə yaşardım qürbət ellərdə,
Natanış, çox uzaq, yad bu yollarda?..

"Ana dilim" adlanan məşhur şeirdən alınmış bu misralar, həqiqətən də, Bəkir Çobanzadənin nəinki qüdrətli zəkaya və dərin biliyə malik alim olduğunu, həm də hədsiz vətənpərvər və emosional bir şair olduğunu da nümayiş etdirir. Gənc şairin öz anasına və ana dilinə sevgisi o qədər sonsuzdur ki, hətta yağılar da onu anlasa və dinləsə sevəcəyinə, dəyərləndirəcəyinə inanır:

Bilmirəm, türkdür, ya tatardır adın,
Şirinsən, Tanrıdan ənamdır adın.

Həm türksən, tatarsan – dadlı sözlərin,
İkisi iki cüt qəmli gözlərin...

Hətta Vyanada, qazax içində,
Nəğmə oxuduq biz Hinddə və Çində...

Yöv də sevib qalar anlasa səni,
Ürəkdən sevinər dinləsə səni.

Uçan quşlara da səni öyrətsəm,
Öksüzlər qəlbində nur kimi yatsan.

Gənc şair və türkoloq alim dünyalar qədər sevdiyi ana dilinin bir gün yüksək mərtəbələrə və dərəcələrə yetəcəyinə, cameələrdə, mehrablarda, minbərlərdə, saraylarda səslənəcəyinə, dünyanın ən nüfuzlu və qüdrətli dillərindən birinə çevriləcəyinə səmim-qəlbdən inanır:

Cameə,mehraba, saraya girsən
Dənizlər, çöllərdə parla – bərq vur sən.

Səninlə düşmənə yarlıqlar bitsəm,[5]
Səninlə könüldən-könülə yetsəm.

Qəbrimdə mələklər söz-sual qılsa,
Əzrayıl dilimi min dəfə dəlsə,

"Öz Ana dilimdə soruş!" deyərəm,
Öz Ana dilimdə deyib ölərəm...

Qəlbimdə ələmlər məskən salanda,
Elimin ulduzu birdən solanda,

Ana dilim... başqa xəyala gəlməz,
Bu böyük bir sirdir – düşmənlər bilməz!..

Prof. Bəkir Çobanzadə 130 yaşının cəmi 44 ilini bizim bu yavuz dünyamızda yaşaya bildi. Amma bu təkrarsız ömrün, demək olar ki, 30 ili 5 ölkənin darülfünun və universitetlərinə səpələnib: Kırım, İstanbul, Budapeşt, Bakı, Daşkənd, Səmərqənd, Fərğanə... universitetlərinin ağuşunda və yaddaşında vətənpərvər, türkpərvər alimin və müəllimin silinməz izləri qalıb. Böyük Çobanzadənin bir də yalnız öz zamanı üçün deyil, elə bugünümüz üçün də taleyüklü mənəvi dəyərlər daşıyan özünəməxsus poeziyası,

[5] Bitmək-yazmaq.

xüsusən, bax bu qoşa misraları yadigar qalıb; türkçülük və Turan meyarı nə ötən əsrdə, nə də indi bu cür təsirli, aydın və sərrast ifadə olunmayıb:

Mənə izn verin, hayqırıb görüm,
Kırımda, Kaşğarda nərəmlə yürüm!..

Biz bugün də məhz bunu arzulayırıq yenilməz və unudulmaz Babamız!...

Əzabkeş türk xalqlarının atəşin azadlıq arzusu və sonsuz erk həsrəti bu misralarda emosional tərzdə əksini tapıb. Gənc alimin və şairin elmi məntiqi, poetik fantaziyası milli-etnik yaddaşımızı silkələyir, könlümüzü ovsunlayır...

XXI əsrin əvvəllərində – müstəqilli dövründə qardaş Azərbaycan türkoloqları böyük Bəkir Çobanzadənin elmi yaradıcılığından seçmələri – beş cildlik Seçilmiş əsərlərini (I, II, III, IV, V) nəşr etdilər. Arzu edirik ki, unudulmaz və şəhid türkşünas alimin külliyyatı bütün qardaş türk respublikalarında işıq üzü görsün.

ƏDƏBİYYAT

1. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2007. 336 s.
2. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, , “Şərq-Qərb”, 2007 368 s.
3. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı, , “Şərq-Qərb”, 2007 344 s.
4. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. IV cild. Bakı, “Şərq-Qərb”, 2007. 200 s.
5. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı, “Şərq-Qərb”, 2007. 264 s.

Яшар Касым

ПРОФ. Б. ЧОБАНЗОДА И ТЮРКОЛОГИЯ УЗБЕКИСТАНА XX ВЕКА

РЕЗЮМЕ

В статье «Проф. Б. Чобанзода и тюркология Узбекистана XX века» обсуждается интенсивная научная деятельность Б.Чобанзодана в литературной и культурной среде братского Узбекистана в 20-е годы прошлого века. Старший сын крымскотатарского народа и тюркский ученый продолжает большую научно-творческую и организаторскую работу, которую он вел в Турции и Азербайджане, в университетах Ташкента, Самарканда и Ферганы. В частности, исследования, проведенные великим тюркологом по произведениям Алишера Навои и Мухаммада Физули, не потеряли своей актуальности, важности и сегодня. Сравнительное изучение тюркских языков, становление, развитие и важнейшие этапы развития литературных языков Азербайджана, крымскотатарского и узбекского и их комментарии привлекают внимание современной тюркологии. До недавнего времени старые лингвисты Узбекистана и Азербайджана помнили этого патриотичного и восторженного ученого, любившего тюркских народов больше жизни.

Ключевые слова: *Тюркология Узбекистана, проф. Б. Чобанзода, Тюркология, тюркские народы, турец кие литературные языки, Алишер Навои, Мухаммад Физули.*

Yashar Kasim

PROF. B. CHOBANZODA AND TURKOLOGY OF UZBEKISTAN OF THE 20TH CENTURY

SUMMARY

In the article “Prof. B. Chobanzoda and Turkology of Uzbekistan of the 20th century” discusses the intensive scientific activity of B. Chobanzodan in the literary and cultural environment of fraternal Uzbekistan in the 20s of the last century. The eldest son of the Crimean Tatar people and Turkic scientist continues the great scientific, creative and organizational work that he carried out in Turkey and Azerbaijan, at the universities of Tashkent, Samarkand and Fergana. In particular, the research carried out by the great Turkologist on the works of Alisher Navoi and Muhammad Fuzuli has not lost its relevance and importance today. Comparative study of Turkic languages, formation, development and the most important stages in the development of the literary languages of Azerbaijan, Crimean Tatar and Uzbek and their commentaries

attract the attention of modern Turkology. Until recently, old linguists of Uzbekistan and Azerbaijan remembered this patriotic and enthusiastic scientist who loved the Turkic peoples more than life itself.

Key words: *Turkology of Uzbekistan, prof. B. Chobanzoda, Turkology, Turkic peoples, Turkish literary languages, Alisher Navoi, Muhammad Fuzuli.*

Nigar HƏSƏNOVA*

TÜRK DILLƏRININ ORTAQ DIL VƏ TƏRCÜMƏ MƏSƏLƏLƏRINƏ DAİR

XÜLASƏ

Dünyada baş verən ictimai-siyasi proseslər türk dillərinin leksikasına öz təsirini göstərməkdədir. Zəngin türkcəmizi qoruyaraq gələcək nəsillərə ötürmək hər bir türk övladının mənəvi borcudur. Bu gün türk dillərinin öyrənilməsi istiqamətində həllini gözləyən problemlər sırasında ayrı-ayrı türk dil qruplarının müqayisəli sözlüklərinin hazırlanması vardır. Çətinliklər sırasında tərcümə məsələsi də ön planda dayanır. Əslində Azərbaycan dilinə Türkiyə türkcəsindən tərcümə ehtiyac deyildir. Deyə bilərik ki, hər bir azərbaycanlı Türkiyə türkcəsini rahatlıqla başa düşə bilir. Odur ki, Türkiyə türkcəsindən tərcüməyə məcbur deyilik. Lakin bir sıra türk dillərinin tərcüməsinə böyük ehtiyac var. Baxmayaraq ki, qeyd etdiyimiz qohum dillərin Azərbaycan dili ilə ortaq söz ehtiyatı kifayət qədərdir, bir qayda olaraq tərcümə zamanı çətinliklər qaçılmazdır. Elə sözlər vardır ki, onlar müxtəlif fonetik variantlarda öz əksini tapır. Elə sözlər də var ki, onlar tərcümə edilməlidir. Başlıca məsələlərdən biri əsl mətndəki söz və söz birləşmələrinin semantikasının tərcümə olunan dildə verə bilməkdir. Sərbəst söz birləşmələrində lüğəti məna başqa dilə birbaşa verilir.

Açar sözlər: *türk dilləri, Azərbaycan dili, oğuz qrupu, tərcümə, alınmalar, milli sözlər*

Türk xalqlarının dilləri olduqca geniş bir ərazini əhatə edir. Uzun bir müddət işğalçı dövlətlərin dillərinin təsirinə məruz qalsa da, qüdrətini itirməmişdir. Bu dilin əzəmətini bilənlər bu dili müdaxilələrdən qorumağı bacarmışdır. Əlbəttə, digər dillərdən söz axınının qarşısını almaq heç də asan deyildir. Bu səbəbdən də zaman-zaman lüğət tərkibinə əcnəbi sözlər daxil olmuşdur. Buna baxmayaraq türk dilinin saflığı daim qorunmuşdur. Türk dili ailəsinə daxil olan türk xalqlarının bir-biri ilə bir sıra müstəvilərdə geniş əlaqələri qurulmuşdur. Bu da türk dövlətlərinin birliyinin yaranmasına və bu dövlətlərin ortaq dildə danışmaq mövzusunun gerçəkləşməsinə gətirib çıxarmışdır. Türk xalqlarının birliyi onların dil birliyi ilə daha da möhkəmlənə bilər. Türk xalqlarının ortaq dili xalqlarımızın ortaq sərvətidir. Hər bir türk xalqının özünəməxsus xüsusiyyəti olmaqla yanaşı, onların ortaq mədəniyyətləri zamanı istifadə edilən termin səciyyəli sözlər bu günə qədər gəlib çatmışdır. Demək olar ki, bütün türk dillərində bir sıra qaydalar tamamilə eynidir.

Məsələn, ahəng qanunu, kök və şəkilçilərin quruluşu və s. Türk dillərində cins kateqoriyası yoxdur. Sözdüzəldici və sözdəyişdirici şəkilçilər sırası qanunauyğun şəkildə dəyişməzdir. Sintaktik quruluşuna gəldikdə yenə də eynilik özünü göstərir. Çünki söz və söz birləşmələri sırası dəyişməz qalır. Xüsusilə diqqəti çəkən məsələlərdən biri də lüğət tərkibinin ümumi olmasıdır. Türk dili ailəsinə iyirmi üçdən çox dil aiddir ki, bunlar da dərin araşdırılmışdır. Qeyd etdiyimiz kimi, türk dilləri ailəsinə aid olan dillər həm leksik, həm də qrammatik cəhətdən çox bağlıdır. Bu fakt onu deməyə əsas verir ki, türk dilləri bir ana dildən törəyərək inkişaf etmişdir. Türk dilləri ailəsinə aid olan dillər müqayisə edildikdə böyük əksəriyyət sözlərin sadəcə müxtəlif fonetik variantlarda işləndiyini izləmək mümkündür. Türk dilləri ailəsinə 41 dil, ləhcə daxildir. Azərbaycan dilində işlənən türk dilləri ifadəsi Türkiyədə türk ləhcələri olaraq qəbul edilir. Dünyada təqribən 180 milyon insan türk dil ailəsinə məxsus dillərdə danışır. Türk dilləri ailəsi bir neçə qrupa bölünür:

Oğuz qrupu, Uyğur-Oğuz qrupu, Qarluk-Uyğur qrupu, Bulqar qrupu, Qıpçaq qrupu, Çuvaş və

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: nigar.qasanova.80@mail.ru

Yakut qrupu. Azərbaycan dili, Türkiyə türkcəsi, Qaqauz və Türkmən dilləri Oğuz dil qrupuna aiddir. Bu qrupa aid olan dillər bizim eranın birinci minilliyində formalaşıb başa çatmışdır. Qeyd edək ki, ayrılma zamanı eyni qrup dillərin fonetik, qrammatik quruluşları eləcə də lüğət tərkibi bir-birinə çox yaxın olur. Bu səbəbdən, eyni dil qrupunda danışan insanlar bir-birlərini aydın şəkildə başa düşürlər. Bütün türk dillərində söz kökləri həmişə sabit qalır, həmişə müstəqil mənaya malik olur. Həm leksik, həm qrammatik şəkilçilər adətən söz kökünə əlavə edilir. Bu dillər iltisaqi dillər adlanır, beləliklə də türk mənşəli sözlər iltisaqilik prinsiplərinə tamamilə uyğun olur. Hal-hazırda Türk dövlətlərinin universitetlərində türk dilinin, ədəbiyyatının, tarixinin tədris olunması bu dillərə olan maraqdan və hörmətdən irəli gəlir. Dünyada baş verən ictimai-siyasi proseslər türk dillərinin leksikasına öz təsirini göstərməkdədir. Türk dilləri şimaldan cənuba Ural – Volqa boyu və cənub-qərbi Sibirdən şərqi Türküstan, şimali Əfqanıstan, şimali İran və Qafqaza qədər, şərqdən qərbə isə Uzaq Şərq və qərbi Çin və Sibirdən şərqi Avropa və Kiçik Asiyaya (Anadoluya) qədər yayılmışdır.

Türklərin qədim yaşayış yerlərindən biri Mərkəzi Asiya və ona yaxın ərazilərdir. Türkiyə türkcəsində 85 milyondan çox insan danışır. Bu dilin digər türk dilləri ilə ortaq söz bazası olduqca genişdir. Türk xalqlarının dilləri arasındakı əlaqələr tərcümə, çevirmə müstəvisində inkişaf etməkdədir, siyasi, iqtisadi, mədəni əlaqələrin qurulması ilə bağlı saysız-hesabsız söz və ifadələr, termin və termin səciyyəli sözlər dillərin lüğət tərkibində izlənilməkdədir. Bu zaman dillərin bir-birinə söz alıb-vermə əməliyyatı da danılmaz faktdır. "Azərbaycan-türk dilindən digər dillərin lüğət tərkibinə keçib o dillərdə vətəndaşlıq hüququ qazanmış küllü miqdarda qədim türk mənşəli leksik vahidlərin müasir dilçilikdə sistemli tədqiqata cəlb olunmaması təəssüf doğuran bir haldır [6, 218]. Dillərin bir-birinə qarşılıqlı şəkildə söz alıb-verməsi prosesi daim diqqəti çəkir. Bu alınmalar Türkiyə və Azərbaycan türkcəsində daha çox müşahidə olunur. Ortaq türk dilinin və ortaq türk əlifbasının yaradılmasına çalışdığımız bir zamanda ortaq söz və ifadələrin artması həm də təqdirəlayiqdir. Elm insanlarımız, ziyalılarımız qardaş türk xalqlarının dilində rahatlıqla danışa bilməsi müsbət göstəricidir.

Türkiyə türkcəsi və Azərbaycan dilinin lüğət tərkibində olan yalnız foetik dəyişikliklə eyni mənanı verən bir sıra sözlərə nəzər yetirək: cövhər-cevher, etiraf-itiraf, əcəb-aceb, fərq-fark, fürsət-fırsat, peşman-pişman, rəzil-rezil, şeir-şiir, udum-yudum, ümid-umut, üsyan-isyan, yarpaq-yaprak, zəfər-zafer.

Türk dili türk xalqlarını birləşdirən ən vacib amillərdəndir. Türkçülüyün mahiyyəti, türkcələrin bir-birinə daha da yaxınlaşması, türk xalqları arasında münasibətlərin yüksək səviyyədə qurulması çağdaş türkcülük qarşısında dayanan olduqca aktual məsələdir. Türk dövlətləri birliyinin möhkəmlənməsində Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan və Qırğızıstanın möhkəmliyi böyük rol oynayır. Bu möhkəmliyə çox böyük ehtiyac vardır. Məhz bu yolla türk xalqlarının mədəni, siyasi, iqtisadi inkişafına nail olmaq mümkümdür. Bütün türk xalqlarını din birliyi, ortaq adət-ənənələr, ortaq mədəniyyət birləşdirir. Türk xalqlarının əlaqələrinin inkişaf elətdirilməsi istiqamətində sistemli fəaliyyət dövlətimizin strategiyasına çevrilmişdir. Türk sivilizasiyası, türk dillərin inkişafı, zənginləşməsi ortaq mirasımız olaraq araşdırılır və təbliğ edilir. Türk xalqları qardaşlıq adət-ənənələrini yaşadaraq daim ortaq məxrəcə gəlmiş, eyni hədəfə istiqamətlənmişdir.

Azərbaycan və Mərkəzi Asiya türk xalqlarının ədəbiyyatında dil məsələsi həmişə aparıcı mövzu olaraq qalmışdır. Çünki dil xalqın milli kimliyini əks etdirir. Türk xalqlarının ədəbiyyatında, mədəniyyətində ana dili mövzusu folklora söykənir. Türk xalqlarının ortaq dəyərləri sırasında "Dədə Qorqud" dastanının xüsusi yeri vardır. Türk xalqlarının doğmalığını, gücünü Nəsiminin, Füzulinin, Əlişir Nəvainin və başqalarının əsərlərində aydın müşahidə edirik. Ana dili mövzusu türk xalqlarının milli bağlarının daha da möhkəmlənməsi cəhətindən böyük əhəmiyyət kəsb edir. Zəngin türkcəmizi qoruyaraq gələcək nəsillərə ötürmək hər bir türk övladının mənəvi borcudur. XIX əsrdən bu günə qədər aktuallığını saxlayan problemlərdən biri də türklərin ortaq əlifbasının və ünsiyyət dilinin olması məsələsidir. Türk xalqlarının ortaq məxrəcə gələrək hazırladıqları ortaq dil və ortaq əlifba kimi vacib problemin həlli uğurla nəticələnəcəkdir. Bu istiqamətdə görülən işlər, fəaliyyətlər ortaq türkcənin formalaşmasında rol oynamaqdadır.

Azərbaycan dilində türk dillərinin leksik quruluşuna aid olan ümumi əlamətlərə rast gəlirik. Bunlardan türk, türkmən, qaqauz dillərinə aid xüsusiyyətlərin oxşarlığı özünü daha çox göstərir. Bu xüsusiyyət həmin xalqlarla sərhəddə olan şivələrimizin lüğət tərkibində özünü büruzə verməkdədir.

Hər bir dilin leksik layı həmin dildə danışan xalqın keçdiyi tarixi inkişaf prosesini əks etdirir. Yeni əşyalar ilk olaraq sözlər şəklində dilə daxil olur.

Bu gün türk dillərinin öyrənilməsi istiqamətində həllini gözləyən problemlər sırasında ayrı-ayrı türk dil qruplarının müqayisəli sözlüklərinin hazırlanması dayanır. Belə sözlüklərin ərsəyə gəlməsi sayəsində leksik araşdırmaların uğurlu nəticələri ola bilər. Leksika dilin qohumluğunu sübut edən faktorlardandır. Təsadüfi deyil ki, türk və monqol dillərinin qohumluğu məhz qədim leksik faktlar əsasında müəyyənləşdirilmişdir. Təsadüfi leksik uyğunluqların olmadığı dəlillər leksika vasitəsilə təsbit olunmuşdur [4, 13]. Türk dillərinin leksikası uzun tarixi inkişafın məhsulu kimi meydana çıxmış, həmin leksika türklərin həyat tərzini, təsərrüfat həyatını, maddi mədəni sahələrin inkişaf səviyyəsini, onların gündəlik məşğuliyyətlərini, peşə və sənətlərini, dünyaya baxışını və s. əks etdirmək qüdrətinə malikdir. Müasir türk dillərinin ümumişlək leksikası bir-biri tərəfindən anlaşılır. Su, orman, ay, gün, yaxşı, durmaq, getmək, gəlmək və s. Məişət leksikasında da əşyaların adlarını ifadə edən sözlər vardır ki, bunlar da bir sıra türkdilli xalqlarda başa düşüləndir. Ev, bazar, ayna, pərdə və s. Türk dillərinin fərqli xüsusiyyətləri sırasında adət-ənənələrdən, mədəniyyətdən irəli gələn fərqlər diqqəti çəkir. Adət-ənənələrlə bağlı sözlərdən əksəriyyəti başa düşüləndir: nişan, düyün, adaxlı, gərdək, yengə və s. O cümlədən məişətdəki əşyaların adları da aydındır: kilim, palaz, xalı, çuval və s. Bu faktlar içərisində kulinariya ilə bağlı sözlər də maraq doğurur: əkmək, aş, şorba və s.

Türk dillərinin dialektləri zəngin olmaqla, dil tarixini öyrənməkdə əvəzsiz material verir.

Məhdud dairədə işlən bu qrup sözlərdən bir neçəsinə nəzər salaq: aka (ağa), yil (külək), əbəçi (mamaça), toxlu, şişək və s. Qohum dillərin müqayisəsi dillərin, həmin dillərin dialektlərinin digər dillərlə əlaqəsini aydın göstərir. Azərbaycan dilinin dialektlərində "xəmiri kündələyərkən yapışmaması üçün istifadə olunan azca un" anlamında işlənən urva sözü türk dillərinin dialektlərində və ədəbi dilində müxtəlif fonetik variantlarda işlənməkdədir: urfa, ufra, ofra, ifra və s.

Dillərin qarşılıqlı söz alıb-söz verməsi təbii haldır. Terminoloji vahidlərin, o cümlədən yeni sözlərin bir dildən başqa dilə keçməsi dilin lüğət tərkibinin zənginləşməsində mənbə rolu oynayır. Keçmiş sovetlər birliyi tərkibində yaşamış türk xalqlarının dilinin leksik tərkibi rus dili və rus dili vasitəsilə daxil olmuş sözlər hesabına artmışdır. Müasir dövrdə Qərbdən sözlərin sürətlə axınını, gəlişini izləyirik. Bu, elmi-texniki tərəqqinin, dövlətlərarası ictimai-siyasi, mədəni əlaqələrin qurulması ilə bağlıdır.

Türk dövlətlərinin təhsil, mədəniyyət, iqtisadiyyat və s. əlaqələr çərçivəsində inkişaf etməsi dilə birbaşa təsirini göstərir. Bu əlaqələrin nəticəsi olaraq söz daxil olması prosesində mətbuatın rolu böyükdür. Vaxtilə digər dillərdən alınma sözlər çağdaş dövrümüzdə türk dilinin öz milli sözləri hesabına dəyişir və bu, mətbuatdan, mediadan yayılır: period – dönəm, transpor – taşıt, sektor – bölge, vitse-prezident – başbakan və s. Tamamilə təqdirəlayiqdir ki, ilk olaraq ehtiyac nəticəsində alınmış sözlər zaman keçdikcə dilin öz bazası əsasında yenilənsin. Bu sözlər ictimai-siyasi, maliyyə, iqtisadiyyat, ekoloji, pedaqoji və başqa işlək sahələri əhatə edir.

Qədimdən türk xalqlarının özünəməxsus peşə-sənət sözləri olmuşdur. Bu sənət növləri içərisində bir çoxu fonetik dəyişilmə ilə işlənməkdə davam edir: qulluqçu, ovçu, ilxıçı, çöpçü, boyaqçı, arıçı, bələdçi, əkinçi, toxucu və s. Alınma sözlər hesabına türk dillərində işlənən peşə-sənət sözləri aşağıdakılardır: rəqqas, rəngsaz, zərgər, xəzinədar, memar, pinəçi , nalbənd, bağban və s. Göründüyü kimi, tarix boyu peşə-sənət adları bildirən termin səciyyəli belə sözlər ümumişlək leksikaya keçmişdir. İsmayıl Kazımov qeyd edir ki, türk dillərinin leksikoqrafiyası qarşısında duran ümdə problemlərdən biri çoxdilli müqayisəli terminoloji lüğətlərin yaradılmasıdır. Bunların hər biri konkret sahələri əhatə etməlidir [4, 275].

Türk xalqlarının folkloru, epik irsi xalqın dilinin zənginliyi haqqında təsəvvür yarada bilir.

Türkologiyanın qarşısında duran ən vacib problemlərdən biri türk xalqlarının ləhcələri arasında qarşılıqlı təsir məsələsidir. Əslində isə bu məsələdə dil siyasətinin olduğu müşahidə olunur. Sözsüz, ortaq türk dilinin yaranması heç də asan başa gələn bir proses deyildir. Bu çətinliklər sırasında tərcümə məsələsi də ön planda dayanır. Bu gün qardaş xalqların dillərinin tərcümə məsələləri bir sıra maneələri dəf etməlidir.

Əslində Azərbaycan dilinə Türkiyə türkcəsindən tərcümə ehtiyac deyildir. Deyə bilərik ki, hər bir azərbaycanlı Türkiyə türkcəsini rahatlıqla anlaya, başa düşə bilir. Odur ki, Türkiyə türkcəsindən tərcüməyə məcbur deyilik. Lakin qırğız, qazax, özbək, tatar və başqa türk dillərinin tərcüməsinə böyük ehtiyac var. Baxmayaraq ki, qeyd etdiyimiz qohum dillərin Azərbaycan dili ilə ortaq söz ehtiyatı kifayət qədərdir, bir qayda olaraq tərcümə zamanı çətinliklər qaçılmazdır. Elə sözlər vardır ki, onlar müxtəlif fonetik variantlarda öz əksini tapır. Elə sözlər də var ki, onlar tərcümə edilməlidir. Tərcümə edərkən təkcə sözün mənasını bilmək yetərli olmaya da bilir, tərcüməçi qəliz mətnlərə də rast gələ bilir. Belə ki, tərcümə zamanı geniş məna kəsb edən sözlərlə qarşılaşılır. Təcüməçi yaradıcı yanaşmalıdır. Tərcüməçidən sözün düzgün seçilməsi tələb olunur. Bu zaman sözün geniş mənası nəzərdən keçilir. Mətn daxilindəki məna əsas götürülür.

Tərcümə zamanı nöqsan sözlərin, ifadələrin məna dəqiqliyinin pozulması hallarıdır. Başlıca məsələlərdən biri əsl mətndəki söz və söz birləşmələrinin semantikasının tərcümə olunan dildə verə bilməkdir. Sərbəst söz birləşmələrində lüğəti məna başqa dilə birbaşa verilir.

Nəticə olaraq deyə bilərik ki, tarixən türk dilləri müxtəlif istiqamətlər üzrə araşdırmaya cəlb olunmuşdur. Bu gün də tarixi-müqayisəli müstəvidə, eləcə də həm bir-birinə, həm digər dillərə tərcümə məsələlərində türk dillərinin öyrənilməsi aktualdır. Nəzərə alsaq ki, hər bir sahədə gedən inkişaf bu dillərə birbaşa sirayət edir, dərin araşdırmalara hər zaman ehtiyac duyulur.

ƏDƏBIYYAT

1. Türk dillərinin müqayisəli tədqiqi. Bakı, “Elm” nəşriyyatı, 2024, 912 s.
2. Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri. I cild. Bakı, “Kitab aləmi” nəşriyyatı, 2004, 331 s.
3. Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri. II cild. Bakı, “Nurlan” nəşriyyatı, 2004. 368 s.
4. Kazımov İ. Müasir türk dillərinin müqayisəli leksikası. Bakı, 2010, 400 s.
5. Qəmbərli S. Azərbaycan dilinin qərb şivələri və türk dilinin Qars şivələrinin müqayisəli leksikası.Bakı, “Elm və təhsil”, 2021, 208 s.
6. Hacıyeva Q. Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi. Naxçıvan, 2017, “Əcəmi”, 328 s.

SUMMARY

The socio-political processes taking place in the world are having an impact on the lexicon of the Turkic languages. It is the moral duty of every Turkic child to preserve our rich Turkish and pass it on to future generations. Among the problems awaiting solution in the study of Turkic languages today, there is the preparation of comparative dictionaries of individual Turkic language groups. Among the difficulties, the issue of translation is also at the forefront. In fact, there is no need to translate from Turkish Turkish into Azerbaijani. We can say that every Azerbaijani can easily understand Turkish Turkish. Therefore, we are not forced to translate from Turkish Turkish. However, there is a great need for translation of a number of Turkic languages. Although the vocabulary of the related languages we mentioned is quite common with the Azerbaijani language, as a rule, difficulties are inevitable during translation. There are words that are reflected in different phonetic variants. There are also words that must be translated. One of the main issues is to be able to convey the semantics of words and word combinations in the original text in the translated language. In free word combinations, the lexical meaning is directly given to another language. The article notes that the study of Turkic languages is relevant in the historical-comparative sense, as well as in the issues of translation into each other and into other languages.

Keywords: *Turkic languages, Azerbaijani language, Oghuz group, translation, borrowings, national words*

РЕЗЮМЕ

Социально-политические процессы, происходящие в мире, оказывают влияние на лексику тюркских языков. Моральный долг каждого тюркского ребенка — сохранить наше богатое турецкое слово и передать его будущим поколениям. Среди проблем, ожидающих решения в изучении тюркских языков сегодня, — подготовка сравнительных словарей отдельных тюркских языковых групп. Среди трудностей на первом плане стоит вопрос перевода. На самом деле, нет необходимости переводить с турецкого на азербайджанский.

Можно сказать, что каждый азербайджанец легко понимает турецкий. Поэтому мы не обязаны переводить с турецкого. Однако существует большая потребность в переводе ряда тюркских языков. Хотя лексика упомянутых нами родственных языков достаточно близка к азербайджанскому, как правило, при переводе неизбежны трудности. Есть слова, которые отражаются в различных фонетических вариантах. Есть также слова, которые необходимо переводить. Одна из главных задач — передать семантику слов и словосочетаний в оригинальном тексте на переводимом языке. В свободных словосочетаниях лексическое значение напрямую передается другому языку.

В статье отмечается, что изучение тюркских языков актуально как в историко-сравнительном смысле, так и в вопросах перевода друг на друга и на другие языки.

Ключевые слова: *тюркские языки, азербайджанский язык, огузская группа, перевод, заимствования, национальные слова*

Zəhra RZAZADƏ*

AZƏRBAYCAN DİLİ:AZƏRBAYCAN DİLİNİN TARİXİ

ÖZET

Bu çalışma, Azerbaycan dilinin tarihsel gelişimini, kültürel temellerini ve devlet dili olarak kazandığı konumu bütüncül bir yaklaşımla ele almaktadır.Dilin insan varoluşu,kültür ve ulusal kimliğin oluşumundaki belirleyici rolü vurgulanarak,Azerbaycan dilinin kökenlerinin eski Türk dili mirasına dayandığı ortaya konulmaktadır. Antik dönemden günümüze ulaşan yazılı ve sözlü dil anıtları, Azerbaycan halkının tarihini, düşünce dünyasını ve manevi değerlerini kuşaklar boyunca korumuştur.Orta Çağ'da Azerbaycan Türkçesi edebi ve sanatsal açıdan önemli bir gelişim göstermiş, Safevi Devleti döneminde resmi devlet dili statüsüne yükselerek kullanım alanını genişletmiştir.Yeni dönemde ise Azerbaycan dilinin korunması, geliştirilmesi ve devlet dili olarak güçlendirilmesinde Haydar Aliyev'in rolü belirleyici olmuştur.Onun liderliğinde Azerbaycan dili,1995 Anayasası'nda resmen devlet dili ilan edilmiş,Latin alfabesine geçiş süreci hukuki ve kurumsal düzenlemelerle hızlandırılmıştır.Günümüzde Azerbaycan dili,zengin söz varlığı, gelişmiş gramer yapısı ve geniş anlatım imkânlarıyla bağımsız Azerbaycan devletinin temel sembollerinden biri olarak varlığını sürdürmektedir. Bu yönüyle Azerbaycan dili, yalnızca bir iletişim aracı değil,aynı zamanda ulusal bilincin ve devlet egemenliğinin temel dayanaklarından biri olarak değerlendirilmektedir.

Anahtar kelimler: *Azerbaycan dili, devlet dili, ulusal kimlik, dilin tarihsel gelişimi, Haydar Aliyev.*

Azerbaycan dilinin devlet dili olarak gelişmesi, Milli Liderin adıyla ilişkilidir. Onun önderliğinde, Azerbaycan dili, 12 Kasım 1995'te kabul edilen bağımsız devletimizin Anayasasında resmi devlet dili ilan edildi. Büyük Lider Haydar Aliyev, dilimizin gelişmesi ve zenginleştirilmesi için çeşitli önlemler

* Azərbaycan Dövlət İqtisad Üniversiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi. E-posta: rzaevazehra@gmail.com, Tel:(055)-834-39-33

aldı. Azerbaycan'daki dilbilimcilere büyük önem verilmesi, milli dilde yayınlanan kitapların dolaşımının artırılması ve diğer önlemler, anadilin daha da geliştirilmesini amaçlıyordu. 25 Aralık 1991'de "Latin Alfabesiyle Azerbaycan Alfabesinin Yeniden Kullanımı Hakkında" Kanun'un yürürlüğe girmesiyle ülkemiz resmen Latin alfabesine geçti. Kabul edilen alfabenin uygulanmasındaki sorunların çözülmesinde ve uluslararası dünyaya daha yakın olan Latin alfabesiyle Azerbaycan alfabesine geçiş sürecinin hızlandırılmasında, Haydar Aliyev'in 18 Haziran 2001 tarihli "Devlet Dilinin Kullanımının İyileştirilmesi Hakkında" kararnamesi büyük önem taşıdı. Kararnamede Azerbaycan dilinin tarihsel gelişim yolları, bağımsız devletin bir niteliği olarak rolü ve işlevi belirtilmiş ve son on yıldaki uygulama durumu kapsamlı bir şekilde incelenmiştir. Aynı zamanda sorunlar ve eksiklikler tespit edilmiş ve bunların giderilmesi için uygun talimatlar verilmiştir. 1 Ağustos 2001'den itibaren tamamen Latin alfabesiyle yazılan Azerbaycan alfabesine geçilmesine karar verilmiştir.Belgede, Ağustos 2001'den itibaren yaklaşık on yıl içinde ülkemizde Latin alfabesiyle yazılan Azerbaycan alfabesine geçişin tamamen sağlandığı belirtilmiştir [10].

Antik dönem: Dil, her bireyin ve genel olarak insanların varoluşunu koşullandırır ve onları insan kültürüyle bağlar. Dil, insanların bugüne kadar kazandığı ve gelecekte kazanacağı manevi zenginliğin ilk, başlangıç ve temel noktasıdır. Dilin insan yaşamının klasiği, ilk "klasik eser" olarak adlandırılabileceği sonucuna varabiliriz. İnsan manevi zenginliğinin ve evrensel kültürün ölümsüz örnekleri arasında dilsel anıtlar önemli bir yer tutmaktadır. Antik Sümer ok uçları ve "Glozel", "Issig" anıtları, "Orkhon-Yenisei" alfabetik yazıtları, "Dade-Gorgud kitabı", "Divan-u Lugat-it-Türk" eseri, Türk halklarının eski tarihini, sosyal, sanatsal ve bilimsel düşüncesini, geleneklerini, göreneklerini, konuşma ve yazı kültürünü vb. yüzyıllar boyunca nesilden nesile aktararak korumuştur. Azerbaycan halkının ve dilinin tarihini, eski Türk dili konuşan halkların ve dillerinin tarihinden ayrı olarak ele almak bir hata olurdu. Eski zamanlara doğru ilerledikçe, ortak dil unsurları da artar ve ulusal nitelikler baskın hale gelir. Birçok halk tarihte bu gelişim aşamalarından geçmiştir ve modern akraba halklar ve akraba diller ortaya çıkmış ve oluşmuştur. Genel Türkoloji literatüründen farklı olarak, Azerbaycan dilbiliminde “Türk dil ailesi” veya “Türk dilleri”, “Türkçe konuşan halklar” gibi terminoloji kullanılmaktadır [2,9-10-11].Esasen, 16. yüzyılda Safevi devletinin kurulmasıyla Azerbaycan dilinin konumu güçlenmiş ve resmi devlet dili seviyesine yükselmiş, sarayda ve orduda tamamen baskın bir konum işgal ederek konumunu güçlendirmiş ve dilin alanının genişlemesi için fırsatlar yaratmıştır. Sonraki dönemlerde-17-18. yüzyıllarda sözlü halk edebiyatının sanatsal dil üzerindeki etkisiyle gelişen halk şiirinde meydana gelen süreçler, edebi etkilenmiş dilin gelişmesine, canlı konuşma unsurlarına ve sadeliğe olan eğilimin güçlenmesine ve Azerbaycan dilinin gelişiminde yeni bir aşamanın başlamasına yol açmıştır. Bu dönemde Azerbaycan edebi dili, üslup açısından daha da zenginleşmiş, bilimsel bir üslubun oluşması için koşullar yaratmış ve farklı bilim alanlarında birçok eser ortaya çıkmıştır. Dolayısıyla, dilin tarihsel gelişimi, sadece o dili konuşan halkın ilerlemesinin bir göstergesi değil, aynı zamanda ulusal düşünce biçiminin bir aynası ve yansımasıdır. Toplumda gelişmeye yönelik meydana gelen tüm değişiklikler dile yeni nitelikler kazandırıyorsa, dil de insanları manevi olarak bir amaç ve dava için birleştirmeye hizmet eder. Halkın tarihsel mücadelelerdeki en etkili ve yıkıcı silahı dildir [7,2]. Eski Azerbaycan edebiyatımızdan bize kalan en büyük ve en önemli anıt, "Avesta"nın bazı bölümleridir. Eski Azerbaycanlılar tarafından kutsal sayılan kitaplardan biri olan "Avesta", eski edebi anıtlardan biridir. "Avesta", iyiliğin zaferine olan inancı, yani Ahuramazda'yı ifade eder. Er ya da geç iyilik galip gelecektir. Ancak bunun için insanların da çalışması gerekir. İyi düşünceler, iyi sözler ve iyi amellerle iyiliğin zaferine yardımcı olmaları gerekir. İyi düşünceler, iyi sözler, iyi ameller "Avesta"da öne sürülen başlıca ahlaki ilkelerdir [5,16].

Orta dönem: 13. yüzyıldan itibaren, nesnel tarihsel gerçekliğin etkisiyle, Azerbaycan topraklarında ağırlıklı olarak Arapça ve Farsça dillerinde yaratılan Azerbaycan edebiyatında, anadillerinde yazan şair ve sanatçıların sayısının arttığını görüyoruz. Bu zamandan itibaren Azerbaycan edebiyatının eski dönemi sona erer ve ortaçağ dönemi başlar.12. yüzyıldan itibaren, Türkçe yazılı örneklerin büyük sayılarda bize ulaşmasıyla, yeni bir dönemin başlangıcından itibaren, yabancı kaynaklarda dilimiz hakkında bilgi

ediniriz veya diğer milletlerden yazarlar Azerbaycan Türkçesiyle şiirler yazarlar. Böylece, Azerbaycan dilinin Kafkasya'da ve genel olarak Yakın ve Doğu'da kitle iletişimi ve şöhretinin olasılığı, 10. yüzyıldan itibaren tarihsel kaynaklarla doğrulanmaktadır. Materyaller, bu dönemden itibaren Doğu'nun Arapça-Farsça kelimelerinin Azerbaycan dili üzerinden geçtiğini göstermektedir [9,141].İzzeddin Hasanoğlu ve Şeyh Safieddin Ardebili gibi lirik şairler, komşu ülkelerde olduğu gibi, tasavvufi-mistik fikirleri içeren lirik ve epik eserlerden ziyade, yaşamla ilgili seküler şiir örnekleri yaratmayı tercih etmişlerdir. Bu dönemin edebiyatının genel gelişimine bakıldığında, 13.-16. yüzyılları tek bir edebi süreç olarak incelemek gereklidir. Bu dönemde, yerel edebiyat sayı ve önem bakımından giderek güçlenip Farsça şiiri geride bıraksa da, Farsça yazma ve yaratma geleneği edebiyatçıların belirli bir bölümünü kapsamaya devam etti. Farsça yazan ve eser üreten önde gelen Azerbaycanlı şair ve düşünürler - Nasıreddin Tusi (1201-1274), Maraghali Ovhedi (1274-1338), Arif Ardabili (1311-) - Nizami geleneğine dayalı eserler yaratmaya ve onların üslubunda eserler üretmeye daha yatkındılar. "Ahlaki-Nasiri" gibi temel ahlaki-eğitici eserlerin yazarı Nasıreddin Tusi, bilimsel ve felsefi mirasının yanı sıra edebi ve sanatsal eserlere de sahipti. Maraghali Ovhedi'nin "Cami-Cem" ve "Dahname" şiirleri, Azerbaycan destan şiirinin değerli örnekleri arasındaydı.Bu dönemde edebiyat ve sosyo-politik düşüncede şekillenen hümanizm ilkeleri, özellikle Seyid İmeddin Nasimi'nin (1369-1417) eserlerinde doruk noktasına ulaştı.Şah İsmail Hatî,Azerbaycan'ın sosyo-politik tarihinde istisnai bir rol oynayan bir hanedanın kurucusudur.Şair-hükümdar olarak Hatî,selefleri Gazi Burhaneddin ve Mirza Cihanşah Hakikî'nin şiirsel geleneklerini sürdürdü ve geliştirdi;sadece otuz altı yıllık kısa ömründe,yeni ve görkemli bir Azerbaycan devletini kurup genişletmekle kalmadı,aynı zamanda yerli edebiyatımızın gelişiminde de istisnai bir rol oynayarak,Fuzuli'nin zirvesine geçişi doğrudan hazırladı.Muhammed Fuzuli'nin (1494-1556) eserleri,Batı kültüründeki Barok ile sıklıkla karşılaştırılır;burada en küçük şiirsel ayrıntılar bile yerli yerindedir,hiçbir şey gereksiz veya yabancı görünmez,çıplak gözle görülemeyen şiirsel unsurlar bile birbirleriyle uyum içindedir, birbirlerini bir arada tutarak "monolitik" bir sanatsal organizma oluşturur. 18. yüzyıl, Azerbaycan edebiyatında Orta Çağın sonu ve modern çağın başlangıcı olarak geçişsel bir karaktere sahiptir [6].

Yeni dönem: Azerbaycan halkının ulusal lideri Haydar Aliyev, Azerbaycan dilinin ülkenin devlet dili olarak ilan edilmesine büyük katkılarda bulunmuştur. Bilindiği üzere, Haydar Aliyev iktidara geldiği yılın (1969) ilk günlerinden itibaren devlet dili alanındaki faaliyetlerine başlamıştır. Azerbaycan edebiyat ve konuşma dilini derinlemesine bilen, bu dilin zengin kelime dağarcığına hakim olan ve doğuştan gelen yeteneğiyle dilin gramer özelliklerini etkin bir şekilde kullanabilen Haydar Aliyev, örneğin Azerbaycan Devlet Üniversitesi'nin 50. yıldönümü toplantısında, aynı üniversitenin parti konferansında ve diğer üst düzey devlet toplantılarında ana dilinde yaptığı parlak konuşmalarla büyük saygı ve sevgi kazanmıştır. Kazandığı bu büyük saygı ve sevginin aynı zamanda kullandığı ve konuştuğu dil olan Azerbaycan devlet diline de büyük saygı ve sevgi kazandırdığının farkındaydı. Bütün bunlar doğal olarak ülkede hem aşağıdan yukarıya hem de yukarıdan aşağıya doğru güçlü bir devlet dili atmosferi yaratmaya hizmet etti. 1977-1978 yılları cumhuriyet lideri için zorluklar sundu. Bilindiği gibi, 1977'de SSCB'nin yeni Anayasası onaylandı. Bu anayasanın tüm cumhuriyetlerde hazırlanan yeni anayasalar için bir model olması gerekiyordu ve aslında öyle de oldu. Bu anayasada, en başından beri devlet diliyle ilgili hiçbir madde yoktu. Bu madde, bireysel cumhuriyetlerde kabul edilen hiçbir anayasada yer almadı. Azerbaycan'da durum farklıydı. Haydar Aliyev, ana dilinin devlet dili olması için mücadelesini sürdürdü. 1995 yılında ülke çapında yapılan referandumla kabul edilen bağımsız Azerbaycan'ın yeni Anayasası'nda Azerbaycan dili, devlet dili olarak hak ettiği yeri almıştır: Anayasanın 21. maddesi şöyle der: “Azerbaycan Cumhuriyeti'nin devlet dili Azerbaycan dilidir. Azerbaycan Cumhuriyeti, Azerbaycan dilinin gelişimini sağlar.” Ana diline her zaman özel önem veren ve dilimizin derin bir uzmanı olan Haydar Aliyev, devlet dilinin gelişiminin yeni döneminde ortaya çıkan durumu dikkate alarak 18 Haziran 2001 tarihinde “Devlet dilinin uygulanması çalışmalarının iyileştirilmesi hakkında” bir kararname imzalamıştır. Bu kararname, dilimizin tarihsel gelişimi boyunca elde ettiği başarıların yanı sıra, günümüzde devlet dili alanında ortaya çıkan sorunları da kapsamlı bir şekilde analiz etmiş ve bu sorunların çözümüne yönelik yollar göstermiştir. Bu yollardan bazıları halihazırda başarıyla

tamamlanmaktadır. Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev'in 12 Ocak 2004'te imzaladığı "Latin alfabesiyle Azerbaycan dilinde kitlesel yayınların uygulanması hakkında" kararname, ülkedeki alfabe ile ilgili sorunları şüphesiz çözecektir [3,11].Azerbaycan bağımsızlığını yeniden kazandıktan sonra, anadilimiz dördüncü kez devlet dili statüsünü kazandı. 22 Aralık 1992'de, devlet dilimizin Türkçe olarak adlandırıldığı "Azerbaycan Cumhuriyeti'nde Devlet Dili Hakkında" kanun kabul edildi. 12 Kasım 1995'te yapılan referandumda, Azerbaycan Cumhuriyeti'nin devlet dilinin Azerbaycan dili olması gerektiği hükmü ülke çapında yapılan oylama ile kabul edildi. Bu referandumun yapılması, devlet dilinin adının değiştirilmesi ve Azerbaycan dili olarak yeniden adlandırılması, ulusal lider Haydar Aliyev'in eşsiz bir hizmetiydi [8,30].Azerbaycan'da ikili iktidarın hüküm sürdüğü (Bakü vilayeti Bakü Halk Komiserleri Konseyi'nin yetkisi altındaydı) ve Azerbaycan Demokratik Cumhuriyeti'nin devlet ve hükümet organlarının hala Gence'de bulunduğu bir dönemde, 27 Haziran 1918'de Azerbaycan Halk Cumhuriyeti hükümeti "Türkçenin devlet dili olarak kabul edilmesi ve Geçici Hükümet kurumlarında Rusçanın kullanılmasına izin verilmesi" kararını yayınladı. Bu karar, Azerbaycan devlet tarihinin ilk devlet diliyle ilgili belgesiydi. Karar, Azerbaycan Halk Cumhuriyeti Bakanlar Kurulu Başkanı F. Khoyski tarafından imzalandı. Devlet diliyle ilgili kararın Azerbaycan Halk Cumhuriyeti'nin ilk ve en önemli kararları arasında yer alması tesadüf değildi. Doğu'da ilk demokratik cumhuriyeti kuran devlet adamları, Azerbaycan'ın diğer önde gelen aydınlarıyla birlikte, tüm faaliyetleri boyunca Azerbaycan dilinin hakları için mücadele ettiler. M.A. Rasulzade, H.B. Ağayev, S.M. Ganizade ve diğerleri, dil konularına adanmış makalelerinde ve konuşmalarında bu konuya değinmişlerdir [4,13].Bu nedenle, son zamanlarda Azerbaycan dilbiliminin ayrı alanlarında yürütülen araştırmalar yoğunlaşmış ve yeni yönler belirlenmiştir. Modern Azerbaycan dili, en ince nüanslara kadar derin düşünceleri açıkça ifade etme gücüne hala sahiptir. Şu anda Azerbaycan dili, kendi gelişim yasalarıyla cilalanmış mükemmel bir gramer yapısına, zengin bir sözcük hazinesine ve geniş ifade olanaklarına sahiptir. Azerbaycan dilinin devlet dili olarak kullanılmasını bağımsız devletin başlıca işaretlerinden biri olarak kabul eder, uygulanmasına, korunmasına ve geliştirilmesine özen gösterir ve dünyanın dört bir yanındaki Azerbaycanlıların ulusal ve kültürel öz ifade ihtiyaçlarını karşılamanın temelini oluşturur [1,54].

Bu çalışmada Azerbaycan dilinin tarihsel gelişim süreci ve devlet dili olarak kazandığı statü bütün yönleriyle değerlendirilmiştir. İnceleme sonucunda, Azerbaycan dilinin yalnızca bir iletişim aracı olmadığı, aynı zamanda ulusal kimliğin, kültürel sürekliliğin ve devlet egemenliğinin temel unsurlarından biri olduğu ortaya konulmuştur. Antik dönemden günümüze kadar geçen süreçte dil, toplumsal ve siyasal değişimlerden etkilenmiş; edebi, bilimsel ve resmi alanlarda işlevsel gücünü sürekli olarak artırmıştır. Özellikle Haydar Aliyev'in liderliğinde yürütülen dil politikaları, Azerbaycan dilinin anayasal güvence altına alınmasını ve Latin alfabesine geçiş sürecinin başarıyla tamamlanmasını sağlamıştır. Günümüzde Azerbaycan dili, zengin söz varlığı, gelişmiş gramer yapısı ve geniş anlatım olanaklarıyla bağımsız devletin temel simgelerinden biri olarak korunmakta ve geliştirilmektedir. Bu bağlamda, devlet dili olarak Azerbaycan dilinin yaşatılması ve güçlendirilmesi, ulusal bilincin sürdürülmesi açısından stratejik önem taşımaktadır.

KAYNAKÇA:

1. Abbasov, Ə., & Əliyev, H. (2025). *Azərbaycan dili: Tarixi təşəkkülü və formalaşması* (s. 136). Bakı.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. (2024a). *Prezident Kitabxanası* (s. 131). Bakı.
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. (2024b). *Prezident Kitabxanası* (s. 131). Bakı.
4. Balayev, X. (2002). *Azərbaycan dilinin dövlət dili kimi təşəkkül tarixindən (XVI–XX əsrlər)* (s. 104). Bakı.
5. Hacıyev, T. (2024). *Azərbaycan ədəbi dilinin tarixi* (Ali məktəblər üçün dərslik, s. 141). Bakı.
6. Orta əsrlər ədəbiyyatı. (n.d.)., *Azerbaijan.az*. https://azerbaijan.az/related-information/92
7. Paşayeva, A. (2025). *Azərbaycan ədəbi dilinin inkişafında mühüm mərhələ* (s. 11). Bakı.
8. Sadıqova, S. (2024). *Azərbaycan dilinin dövlət dili kimi işlənməsi tarixi* (s. 32). Bakı.
9. Səfərli, Ə., & Yusifli, X. (2008). *Azərbaycan ədəbiyyat tarixi* (s. 696). Bakı.

10. Yəhyayev, E. (2022). Tarixi keçmişimizi özündə yaşadan ana dilimiz. *Azərbaycan qəzeti* (Rəsmi Dövlət Qəzeti).

ABSTRACT

This study examines the historical development, cultural foundations, and status of the Azerbaijani language as a state language from a holistic perspective. By emphasizing the decisive role of language in human existence, culture, and the formation of national identity, it demonstrates that the origins of the Azerbaijani language lie in the legacy of ancient Turkic languages. Written and spoken language monuments from antiquity to the present day have preserved the history, intellectual world, and spiritual values of the Azerbaijani people for generations. During the Middle Ages, Azerbaijani Turkish underwent significant literary and artistic development, and during the Safavid Empire, it rose to the status of an official state language, expanding its scope of use. In the modern era, Heydar Aliyev's role in preserving, developing, and strengthening the Azerbaijani language as a state language has been decisive. Under his leadership, the Azerbaijani language was officially declared a state language in the 1995 Constitution, and the transition to the Latin alphabet was accelerated through legal and institutional arrangements. Today, the Azerbaijani language, with its rich vocabulary, developed grammatical structure, and extensive expressive possibilities, continues to exist as one of the fundamental symbols of the independent Azerbaijani state. In this respect, the Azerbaijani language is considered not only a means of communication, but also one of the fundamental pillars of national consciousness and state sovereignty.

Keywords: Azerbaijani language, state language, national identity, historical development of the language, Heydar Aliyev.

Zivər HÜSEYNLİ BAYLAN*

I BAKI TÜRKOLOJI QURULTAYI VƏ MÜASIR KORPUS DILÇILIYI

XÜLASƏ

I Bakı Türkoloji Qurultayı 1926-ci ildə Bakı şəhərində keçirilmişdir. Dünyanın müxtəlif ölkələri və Sovet məkanından olan türkoloqların iştirak etdiyi bu qurultay türk dillərinin problemlərinin aradan qaldırması və elmi baxımdan ciddi araşdırılmasında önəmli rol oynamışdır. Qurultayda əlifba, imla-orfoqrafiya, terminologiya, tədris-metodika, qohum və qonşu dillərlə qarşılıqlı əlaqə, ədəbi dil və ortaq ədəbi dil məsələləri və türk dillərinin tarixi problemləri gündəmə gətrildi. Bu məqalədə qurultayda müzakirəyə qoyulan həmin məsələlərin müasir korpus dilçiliyinin metodları ilə uyğunluğu təhlil edilir. Tədqiqat zamanı qurultaya aid materiallr və stenoqramlar habelə, müasir korpus dilçili haqqında qaynaq və saytlar incələnmişdir. Nəticə bunu göstərir ki, I Bakı Türkoloji Qurultayında müzakirəyə qoyulan məsələlərin əksəriyyəti bu gün korpus dilçiliyi vasitəsi ilə araşdırıla və davam etdirilə bilər.

Açar sözlər: *I Bakı Türkologiya Qurultayı, korpus dilçiliyi, türk dilləri, türk xalqları, əlifba*

Azərbaycan və bir çox türk dövlətlərinin SSRİ-nin tərkibində olduğu bir dönəmdə Bakı şəhərində I Türkologiya Qurultayı təşkil edilmişdir. 1926-cı il fevralın 26-dan martın 6-dək keçirilmiş bu qurultay başda yenicə qurulmuş Türkiyə Cümhuriyyəti olmaqla, dünyanın müxtəlf ölkələrindən olan türkoloqlar, habelə, SSRİ-nin tərkibində olan Orta Asiya, Azərbaycan və digər Qafqaz türklərin birgə təşkilatçılığı ilə reallaşmışdır. Yüzdən çox türkoloqların iştirak etdiyi bu qurultay XX əsrdə türkologiya elmi tarixinin yeni başlanğıcı kimi qiymətləndirilir. (Vəli, Ağakişiyev, 2006, s.5). Siyasi-ictimai baxımdan mürəkkəb bir dövrdə keçirilmiş bu möhtəşəm qurultay türk dilçiliyi zəminində elmi müzakirələr aparmaq üçün geniş şərait yaratmış, türk dillərinin elmi aspektən öyrənilməsi, vahid yazı sistemindən istifadə edilməsi və ortaq

* Xəzər Unversiteti, fil.ü.f.d., dos.

ədəbi dil terminologiyanın hazırlanması məqsədi ilə təşkil edilmişdir. Qeyd etmək lazımdır ki, I Bakı Türkoloji qurultayında türk dillərinin yeddi böyük problemi müzakirəyə qoyuldu:

- Əlifba məsələsi
- İmla-orfoqrafiya problemi
- Termin məsələsi
- Tədris- metodika məsələsi
- Qohum və qonşu dillərin qarşlıqlı əlaqəsi və interferensiya problemləri
- Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi
- Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri. (Vəli, Ağakişiyev, 2006, s.8-9)

2.Qurultayın qərarları və dil ideyaları

I Bakı Türkologiya qurultayında 131 nəfər iştirak etmiş, 17 iclas keçirilmiş, Türk Dünyasının dilinə, tarixinə, etnogenezesinə, etimologiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə dinlənmişdir. (Vəli, Ağakişiyev, 2006, s.7) Türkologiya üçün böyük əhəmiyyət daşıyan bu məruzələr və onların müəllifləri tərəfindən irəli sürülən təklif və idealara dayanaraq bir-birindən dəyərli, tarixi əhəmiyyətə malik bəyannamələr ortaya qoyuldu. Bunlar, Latın qrafikası əsasında yeni türk dillərinin müqaisəli təhlili və başqa dil ailələri ilə qarşılaşdırmalı öyrənilməsi haqqında, ana dili tədrisinin metodikası bəyannamələri, "Türk xalqları tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri" məruzəsi əsasında qəbul edilən qətnamə, ölkəşünaslıq məruzəsi üzrə, orfoqrafiya haqqında, türk dilində elmi terminologiya sistemi haqqında bəyannamələr qəbul edildi. Etnoqrafiya komissiyasının və təşkilat kommissiyasının yaradılması kimi böyük addımlar atıldı. (Vəli, Ağakişiyev, 2006, s. 11)

2.1.Dövrün siyasi, mədən, elmi şərtlərindən təsirlənən elm adamları artıq klassik üslubu kənara qoyub yeni dünya və yeni elmi metodları təbliğ edir və öz elmi fəaliyyətlərində bu idealara söykənirdilər. Klassik dil və yazı üsulunun ən əsas göstəricisi ərəb qrafikasında işlənən əlifba idi. Əlifbanın ərəb qrafikasından latın qrafikasına dəyişdirilməsi məsələsi qurultayın ən başda gələn və diqqət çəkən qərarlardan biri kimi geniş müzakirə olmuşdur. Dil mövzusunda qurultay iştirakçıları fonetik prinsipə üstünlük verərək, imla və yazılışın vahidləşdirilməsi məsələlərini müzakirə etmiş və morfoloji, tarixi ənənələri nəzərə alaraq qərarlar qəbul etmişlər. Bu qərarlar nəticəsində Türkiyə Cumhuriyyəti, SSRİ təkibində muxtar respublikalar olan Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkstan, Qırğızstan, Tatarstan və muxtar olamayan digər türk xalqları bir-birinin ardınca latın qrafikalı yeni əlifbaya keçidə başlamış, ərəb əlifbasının istifadəsi tədricən dayandırılmışdır. Bununla da, qurultayda müzakirə edilən yeddi məsələdən biri, yəni əlifba dəyişikliyi qısa müddətli olsa da müvəffəqiyyətlə sözdən əmələ keçmiş oldu. Ancaq bu dəyişiklik uzun sürmədi, on il sonra bütün SSRİ-yə tabe olan türk resbublikaları və əyalətlərində kril əlifbasına keçid məcburiyyəti qoyuldu.

2.2.İmla və ortoqrafiya məsələsində morfoloji və fonetik, habelə tarixi-ənənəvi prinsiplərə üstünlük verilməsi əsas götürmüş və bu sahədə bəzi fəaliyyətlər başlamışdır.

2.3.Terminologiya və ədəbi dil mövzusunda fərqli fikirlə söyləniləsə də məruzəçilər aşağıdakı qənaətlərə gəldilər:

-termin yaradıcılığında əsas qaynaq türk dillərinin öz daxili potensialı olmalıdır və yeri gəldikcə, beynəlmiləl fondda və arxaik qaynaqlara da müraciət edilməlidir;

-alınma kök sözlərə üstünlük verilməlidir, onlar fonetik tərcümə prinsipi ilə verilməldir;

-alınan sözlərdə ortaqlıq prinsipinə əməl edilməlidir və beynəlmiləl fond əsas götürülməlidir;

-hərf tərcüməsi- kalka yolundan imkan daxilində istifadə edilməli və beynəlmiləl fond əsas götürülməlidir;

-mürəkkəb ixtisaslarda türk dilinin əsas qanunlarına istinad edilməlidir, və s.

2.4.Tədris-metodika məsələlərində ana dilinin tədrisnin Avropa standartları ilə milli ənənəni birləşdirən tədrisinə üstünlük verilməsi və milli dərsliklərin zəruriliyindən çox danışıldı.

2.5.Qohum və qonşu dillərin müasir elmi metodlarla öyrənilməsi müzakirə edildi və bu sahənin altayşünaslıq, kompratividtika sahəsindəki perspektivləri göstərildi.

2.6.Türk ədəbi dillərinin norma və üslub xüsusiyyətləri üzərində dayanan türkoloqların ortaq ədəbi dil və ya ünsiyyət dili və onun təbii-elmi prinsipləri üzərindəki fikirləri diqqəti cəlb etdi.

2.7.Türk xalqlarının ana yurdu problemi, dil tarixinin fonetik, morfoloji leksik və sintaktik səviyyədə öyrənilməsi, türk etimoloji lüğətlərinin yaradılması, tarixi qrammatika əsərlərin yazılması və s. məsələlərin öyrənilməsi və bu sahədə ortaq fəaliyyətlərin həyata keçirilməsi qərarlaşdırıldı. (Vəli, Ağakişiyev, 2006, s.10-11)

Lakin, Sovet qurucu və icraçıları bu qurultay vasitəsi ilə türklərin planlarını öyrənmiş və türkologiya sahəsində fəaliyyət göstərən şəxsləri, başqa sözlə desək, qurbanları tanımış oldu.
Çox keçmədən, oraya yığışan türkoloqların türkologiya elmi yolunda həyata keçirmək istədikləri planlarına ciddi əngəllər törətdilər, SSRİ-yə tabe olan türkoloqların əksəriyyəti də repressiya qurbanları oldular.(İsmayılov, 2024, s.296-325) Bu da öz növbəsində həmin qurultayda verilən qərarların ləğvi və ya uzun illər ertələnməsi və sözün əsl mənasında qurultaydakıların əməklərinin boşa getməsi ilə nətiçəndi. Reallığını tapmış əlifba dəyişikliyi məsələsi də cəmi on il sonra ləğv edilərək qurultayın planlarına son qoyulmuş oldu.

3.Müasir korpus dilçiliyi və nümunələr Müasir korpus dilçiliyi dövrün ən işlək vasitəsi olan kompüter texnologiyaları vasitəsi ilə dilin hərtərəfli təhlilini aparmaq məqsədini daşıyır. Korpus dilçiliyinin tərifi: Bu sahədə geniş tədqiqat aparmış və bir çox elmi əsərlər ortaya qoymuş Professor Məsud Məmmədov "Türk dillərinin milli korpusları" adlı əsərində korpus dilçiliyini belə təsvir edir: "Korpus- müəyyən konkret dildə mətnlərin elektron qaydada toplanmasına əsaslanan informasiya-axtarış sistemidir." (Məmmədov, 2018, s. 17) "Korpus dilçiliyi, dilin real istifadəsinə əsaslanan nümunələr üzərində aparılan və bu nümunələrin sistemli şəkildə yaradılmış korpuslarda saxlandığı dilçilik istiqamətidir". (McEnery & Hardie, 2012) "Korpus dilbilimi, dili gerçek kullanım örneklerine dayalı olarak inceleyen ve bu amaçla oluşturulmuş büyük ve sistemli metin derlemelerini temel alan bir dilbilim alanıdır". (Aksan, Koltuksuz, 2012, 1–24) Bu təriflərdən göründüyü kimi korpus sahəsinin əsas məqsədi mətnlərin sistemli toplanması və saxlanması, söz tezliyi və morfoloji kateqoriyaların təhlili, leksik-semantik analiz (sinonimlər, kollokasiyalar), avtomatik morfoloji etiketləmə və leksik bazaların yaradılmasıdır. Dünya dilçiliyidə, o cümlədən rus dilçiliyində milli dil korpusu elktron daşıyıcada saxlanan, müxtəlif dil hadisələri və aspektləri ilə bağlı linqivstdik tədqiqatlara material verən, müəyyən nizamla düzənlənmiş təbii dil mətnləri çoxluğudur. Korpusu təşkil edən mətnlər və onlara müraciət müəyyən qaydalara müvafiq aparılır. Yuxarıda qeyd olunduğu kimi, kompüter dilçilyində milli korpus dedidikdə, hər hansı konkret dildə mətnlərin elektron formada toplanmasına istqamətlənmiş məlumat axtarışı system başa düşülür. Konkret dilin milli korpusda müəyyən mərhələdə (tarixi dövrdə) dili tam şəkldəbütün üslubları, janrları, ədəbi dil, dialektləri ilə təmsil olunurlar. (Məmmədov, 2013, s. 44-45).
Korpuslar tədqiqatçılara dil nümunələrini real istifadəyə əsasən qiymətləndirməyə imkan verir.

Korpus dilçiliy termini 1960-ci ildə ortaya çıxmış, bu sahədə ilkin fəaliyyətlər əsrin 80-ci illərindən etibarən Avropa ölkələrində başlamışdır. Bir çox ölkələr öz milli korpusunun yaradılması yolunda lazimi baza yaratmağa və bununla da kiçik və iri həcmli korpus yaratmağa başladılar. Düyada ən çox yayılan və təqdir olunan Britaniya Milli Korpusudur (BNC). Bir çox milli dil korpusları ona istiqamətlənmiş, onu örnək kimi götürmüşdür. (Məmmədov. 26.) Hazırda bir çox dünya dilləri üçün irihəcmli (statistik baxımdan etibarlı) korpuslar hazırlanır (alman, polyak, çex, slovak, fin, yeni yunan, erməni, çin, yapon, bolqar və digər dillər). Rus dilinin milli korpusu 500 milyon söz-formanı əhatə edir. (Məmmədov, 2018, s.19) Qeyd etməliyəm ki, M.Məmmədov adı keçən əsərində İngilis və rus dillərinin üçün yaradılmış korpus dilçiliy haqqında geniş məlumat vermişdr. (Məmmədov, 2018, s. 26-30)

4.Türkdilli xalqların milli korpusu Mövzuya başlamamışdan əvvəl, korpusun milliyi məsələsini də aydınlaşdırmaq yerinə düşərdi.

Milli korpus deyəndə nə başa düşürük? "Milli korpus- dili onun mövcudluğunun müəyyən mərhələsində (və ya mərhələlərində) bütün janr, üslub, ərazi və social variantların müxtəlifliyi ilə təmsil edir. Milli korpusdan dilin elmi tədqiqi və tədrisi ilə bağlı istifadə olunur." (Məmmədov, 2018, s. 17)

Milli korpus məsələsi türkdilli ölkələr və Rusya ərazisindəki türkdilli xalqlarda nə yerdədir? Bu

haqda da M. Məmmədovun yazıdğı yeni əsəri və digər internet resuslarına dayanaraq aşağıdakı şəkildə məlumat verilir.

Konkret dillər üçün milli korpusların yaradılması ideyası yeni deyil. SSRİ məkanında SSRİ xalqlarının dillərinin milli korpuslarının yaradılması ilə bağlı intensiv işlər aparılırdı. Rus dili ilə yanaşı, hər bir müttəfiq respublikanın dili üçün milli korpus yaradılması planlaşdırılırdı. Bu, dillərin maşın fondunun yaradılması adı ilə həyata keçirilməyə başladı və indinin özündə də maşın fondu və milli korpus paralel terminlər kimi işlənməkdədir. (Məmmədov, 2018, s. 22)

4.1.Azərbaycan dilinin milli korpusu Azərbaycanda korpus dilçiliyi Türk dillərinin maşın fondu sahəsində verilmiş qərarla başladı və 2010-cu illərdən etibarən bu sahədə bir sıra ciddi işlər görülməyə başladı. Bu, Azərbaycan Veb Korpusu (azWaC), İnternetdən toplanmış mətnlərdən ibarət Azərbaycan dili korpusudur. Korpus, "A Corpus Factory for Many Languages" (Kilgarriff və digərləri, LREC 2010) sənədində təsvir olunan standartlara uyğun hazırlanmışdır. Məlumatlar 2012-ci ilin yanvarında yüklənmiş və ümumi həcmi 94 milyon söz olmuşdur. Mətnlər təmizlənmiş və təkrarlananlar çıxarılmışdır. https://www.sketchengine.eu/azwac-azerbaijani-corpus/?utm_source=Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli sərəncamına əsasən Azərbaycan dilinin təkmilləşdirilmiş yeni orfoqrafik, izahlı, frazeoloji, terminoloji, tərcümə, ensiklopedik və tezlik elektron lüğətlərinin hazırlanması layihəsinə start verildi.

Bunlardan biri, www.korpus.azerbaycandili.az saytının fəaliyyətə başlaması oldu. Həmin məsələ ilə bağlı "Azərbaycan dilinin lüğət tərkibinin inkişafını, dilin normalarına əməl olunmasının ictimai monitorinqi və dilin verilənlər korpusunun hazırlanması üzrə inteqrasiya olunmuş elektron sistemin və lüğətin yaradılması" adlı layihə hazırlandı və AMEA Nəsimi adına Dilçilik İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Məsud Məmmədovun rəhbərliyi ilə institutun bir sıra əməkdaşları işə başladılar. Beləliklə müxtəlif funksional üslublara məxsus 520 milyon söz-forma korpusu toplanmış, xüsusi proqram təminatı ilə təmizlənmiş və strukturlaşdırılmışdır. Avtomatik emal nəticəsində ilkin mərhələdə 2.918.910 söz-forma müəyyən olunmuş, sonrakı bir neçə mərhələdə texniki və leksik filtrləmə nəticəsində baza təmizlənmişdir. Son nəticədə 175.521 leksik vahiddən ibarət tezlik və əlifba sözlükləri tərtib olunmuşdur. Eyni zamanda, Azərbaycan dilinin orfoqrafiya lüğətində yer almayan 93.287 söz müəyyənləşdirilərək ayrıca siyahı şəklində təqdim olunmuşdur. (Məmmədli, Məmmədov, Tahirov, 2025, s. 32-45)

4.2.Türk dilinin milli korpusu Türk dilinin milli korpusunun-Türk Ulusal Derlem (TUD) – Türkish National Corpus (TNC) yaradılamsı, layihələndirilməsi sahəsində Türkiyə Universitetlərində ayrı-ayrı yaradıcı qruplar tərəfindən aparılır və bu işlər əsasən TÜBİTAK tərəfindən dəstəklənir. (Məmmədov, 2018. s.38). Hal-hazırda Türkiyə türkcəsini əhatə edən 50 milyon sözlük korpusu mövcuddur, və bunlar

yazılı və şifahi mətnlər morfoloji kateqoriyalar üzrə analiz edilir. https://ab.org.tr/ab14/bildiri/140.pdf?utm_source=chatgpt.com

Dünyanın ən aparıcı ölkələrinin standartlarına cavab verən digər türk milli korpusu, ODTÜ Türkcə Dil korpusu hesab olunur. M. Məmmədov Türkiyədə digər dil korpusların fəaliyyəti haqqında geniş məlumat vermişdir. (Məmmədov. 2018, s.38-54)

4.3.Qazax dilinin milli korpusu SSRİ miqyasında Türk dillərinin maşın fondunun yaradılmasının ardınca qazax dilinin milli korpusu ilə bağlı işlər görülməyə başlamışdır. Hazırda Qazax Dilinin Milli Korpusu (Kazakh National Corpus / Қазақ тілі ұлттық корпусы) — Qazax dilində yazılmış və danışılmış mətlərin elektron bazada sistemləşdirilmiş toplusudur. www.qazcorpora.kz veb-saytı "Qazax dilinin milli

korpusunun publisistik alt-korpusunun yaradılması" layihəsi çərçivəsində dövlət sifarişi əsasında hazırlanmışdır. Layihənin 2021–2025-ci illər ərzində həyata keçirilməsi planlaşdırılmışdır. 2021-ci ildə korpus bazasına 2 milyon söz daxil edilmiş və bu mərhələ icra olunmuşdur.

Korpus peşəkar dilçilərdən başlayaraq müəllimlər, tələbələr, dil öyrənənlər və ümumilikdə Qazax dilinə maraq göstərən geniş auditoriya üçün nəzərdə tutulmuşdur. Korpus ictimaiyyət üçün pulsuz və açıqdır. Şaysultan Şayaxmetov adına "Til-Qazyna" Milli Elmi-Praktik Mərkəzi tərəfindən hazırlanmış korpusdan götürülmüşdür – (www.qazcorpora.kz)

4.4.Tatar dilinin milli korpusu "Tugan Tel" Tatar dilinin Milli Korpusu müasir ədəbi Tatar dilinin linqvistik resursudur və geniş istifadəçi auditoriyası üçün nəzərdə tutulmuşdur. Layihə "Tatarstan

Respublikasının dövlət dilinin və Tatarstan Respublikasında digər dillərin qorunması, öyrənilməsi və inkişafı üzrə 2014–2020-ci illər Dövlət Proqramı" çərçivəsində həyata keçirilmişdir.

Korpusun həcmi müxtəlif janrlara aid Tatar dilində mətnləri əhatə edir və ümumi həcmi 180 milyon sözdən ibarətdir. (https://tugantel.tatar/)

4.4.Başkırd dilinin milli korpusu 2003-cü ildən etibarən maşın fondunun yaradılması ilə bağlı işə başlayan Başkırd dil mərkəzləri korpus diliçiliyi sahəsində öz işinə davam edirlər. Mənbə kimi bu sayt https://bashcorpus.ru/ göstərilsədə hal-hazırda sayt açılmır.

4.5.Özbək dilinin milli korpusu 2020–2030-cu illər üçün Özbək dilinin inkişafı və dil siyasətinin təkmilləşdirilməsi konsepsiyasında, dövlət dilinin müasir informasiya texnologiyaları və kommunikasiya sistemlərinə aktiv inteqrasiyasının təmin edilməsi və Özbək dilinin bütün elmi, nəzəri və praktik məlumatlarını əhatə edən elektron milli korpusun yaradılması və onu dünya informasiya şəbəkəsində populyarlaşdırmaq məqsədi ilə Toshkent və Samarkand kimi elmi mərkəzlərdə ciddi işlər görülür.(https://www.samdu.uz/en/news/34984?utm_source) Özbək dilinin milli korpusu üçün https://uzbekcorpus.uz saytı təqdim edilsə də hal-hazırda sayta daxil olmaq mümkün deyil.

4.6.Qırğız dilinin milli korpusu 15 oktyabr 2025 tarixində Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Edil Baysalovun iştirakı ilə "Qırğız dilinin milli korpusu" layihəsi mövzusunda görüş keçirilib. Məlumatlara görə, hazırda korpus platformasının texniki və elmi hissələri üzrə praktiki işlər rəsmi olaraq başlanıb. Yol xəritəsi təsdiqlənib və icraçı tərəflərin vəzifələri dəqiq müəyyən edilib.(https://mamtil.gov.kg/ky/post/1176?utm_source)

5.Qurultayın ideyaları və mili korpus dilçiliyinin paralelliyi 1926-cı il I Bakı Türkoloji Qurultayında müzakirəyə qoyulmuş, yeddi məsələdən dördü, - terminoloji məsələ; imla (orfoqrafiya) problemi; qohum və qonşu dillərlə qarşılıqlı əlaqə; türk dillərinin ədəbi dil problemləri və ortaq ədəbi dil ideyası – birbaşa korpus dilçiyi üçün hədəflənmiş metodlarla üst-üstə düşür. Ortaq əlifba, tədris- metodika və ulu dil nəzəriyyəsi və tarixi problemlər- isə dolayı yollarla korpus dilçiliyinə uyğun gəlir. Yüz il əvvəl hədəflənmiş bu məsələlərin korpus dilçiliyində yeni üsul və texnologiya ilə davam etdirilməsi müasir texniki inkişafa bağlıdır.

Türk dövlətlərinin milli korpusları, o cümlədən azWaC, Milli Azərbaycan Korpusu, Türk Ulusal Derlem, Corpus of Written Tatar, Qazax və digərləri söz bazasını sistemli şəkildə toplayır, morfoloji və leksik analiz aparır, morfoloji etiketləmə vasitəsilə sözlərin istifadəsi və formaları aydınlaşır, terminoloji vahidlik üçün korpus məlumatları analiz edilir və ortaq terminlər seçilir. Getdikcə inkişaf etdrilən bu işlər hər bir dilin milli korpusu sahəsində görülmüş və görülməkdə olan çox ciddi işlərdir. Ancaq türkdilli xalqların korpus dilçiliyi sahəsində gördükləri işlər əsasən, hər dövlətin öz dili çərçivəsindədir və yalnız özünün milli korpusu üzərində işini davam etdirir. Halbuki, türk dilləri tarixi, struktur və funksional baxımdan bir-birinə olduqca yaxındırlar. Bu nöqteyi-nəzərdən türk dillərinin ortaq dil korpusu yaradılmlıdır. Belə bir korpus türk dünyası və elm dünyası üçün çox əhəmiyyətli elmi və mədəni bir layihə ola bilər. I Bakı Türkoloji Qurultayında qarşıya qoyulan məqsədlərə də baxdıqda görürük ki, həmin məsələlər ayrı-ayrı türkdilli dövlətlər və xalqlar üçün deyil, məhz ümumi türk xalqları, onların dil birliyi və elmi birliyi üçün nəzərdə tutulmuşdur. Ancaq türkdilli dövlətlərin korpus çalışmalarına baxdıqda, həmin qurultayın məqsəd və idealarının birgə davam etmədiyini görürük. Bu mövcud vəziyyət türkdilli xalqların ortaq türk dili planlarını həyata keçirməyi gecləşdirir. Əgər, I Türkologiya qurultayında müzakirəyə qoyulmuş məsələlərin davamı kimi Türk dillərinin ortaq korpusunun yaradılması məsələsi reallaşarsa həmin korpus, texniki və linqvistik bir layihə olmaqla yanaşı, ümumtürk dilçilik düşüncəsinin formalaşmasına, terminoloji vahidliyin təmininə və müqayisəli tədqiqatların sistemli şəkildə aparılmasına imkan verəcəkdir.

Nəticə

1926-ci ildə Bakıda təşkil eilmiş I Bakı Türkoloji Qurultayı vahid ortaq türk əlifbası, ortaq türk dili və ortaq türk ədəbiyyatının yaranmasına aparan hədəflər ortaya qoymuşdur. Bu hədəflər planlaşdırılığı zamanda və uyğun şərtlərdə həyata keçirilsəydi geniş türk çoğrafiyasında yaşayan türklər bir-birindən bu qədər ayrı düşməzdi. Türklər bir-birinin dilinə, mədəniyyətinə və tarixinə yadlaşmaz və biganə qalmazdı. Ancaq həmin qurultayın məqsədlərini reallaşdırmaq iqtidarında olan türk dillərinin ortaq korpusu məsələsi,

türk dillərinin vahidləşdirilməsi və elmi dilin inkişafı üçün böyük bir fürsət ola bilər. Kompüter və statistik vasitələrlə inkişaf etdirilən müasir korpus dilçiliyi məqsədləri həyata keçirimək üçün işləri daha da asanlaşdırır. Ortaq türk dili korpusu I Türkoloji Qurultayın ideyalarını tamamilə dəstəkləyir. Bu korpusun yaradılması eyni zamanda Türk dünyası birliyinə böyük töhfə verəcəcəkdir.

ƏDƏBIYYAT

1. 1926-cı il I Bakı Türkoloji Qurultayı: Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər.
2. (2006). Rus dilindən tərcümə edən və ön sözün müəllifləri: K. Vəli & Ə. Ağakişiyev. Bakı:
3. Çinar-Çap. (s. 8–9).
4. Aksan, Y., Aksan, M., Koltuksuz, A., Sezer, T., & Yılmazer, H. (2012). Türkçe ulusal derlemi
5. (TUD): Tasarım, içerik ve kullanım alanları. Dilbilim Araştırmaları, 23(1), 1–24.
6. İsmayılov, E. (2024). Azərbaycanda "Böyük terror"un tarixi. Bakı: Qanun Nəşriyyatı.
7. Mammadlı, M., Məmmədov, M., & Tahirov, A. (2025). National corpus and lexical
8. infrastructure: The experience of building the Azerbaijani language lexical database.
9. Türkologiya, 1, xx–xx.
10. McEnery, T., & Hardie, A. (2012). Corpus linguistics: Method, theory and practice. Cambridge:
11. Cambridge University Press.
12. Məmmədov, M. (2013). Kompüter dilçiliyi. Bakı: Elm və Təhsil.
13. Məmmədov, M. (2018). Türk dillərinin milli korpusları. Bakı: Elm və Təhsil.
14. https://ab.org.tr/ab14/bildiri/140.pdf?utm_source=chatgpt.com
15. https://bashcorpus.ru/
16. https://mamtil.gov.kg/ky/post/1176?utm_source)
17. https://tugantel.tatar/
18. https://uzbekcorpus.uz
19. https://www.samdu.uz/en/news/34984?utm_source
20. https://www.sketchengine.eu/azwac-azerbaijani-corpus/?utm_source=
21. www.korpus.azerbaycandili.az
22. www.qazcorpora.kz

THE FIRST BAKU TURKOLOGICAL CONGRESS AND MODERN CORPUS LINGUISTICS

ABSTRACT

The First Baku Turkological Congress was held in Baku in 1926. This congress, which brought together Turkologists from various countries of the world and from the Soviet sphere, played an important role in addressing the problems of Turkic languages and in their rigorous scientific investigation. Issues such as alphabet reform, spelling and orthography, terminology, teaching methodology, interaction with related and neighboring languages, literary language and the idea of a common literary language, as well as historical problems of the Turkic languages, were placed on the agenda of the congress. This article analyzes the compatibility of these issues discussed at the congress with the methods of modern corpus linguistics. In the course of the research, materials and stenographic records of the congress, as well as sources and websites related to modern corpus linguistics, were examined. The results show that most of the issues discussed at the First Baku Turkological Congress can today be investigated and further developed through the tools and methods of corpus linguistics.

Keywords: *First Baku Turkological Congress, corpus linguistics, Turkic languages, Turkic peoples, alphabet*

РЕЗЮМЕ

I Баку́ский тюркологический конгресс был проведён в 1926 году в городе Баку. Этот конгресс, в котором участвовали тюркологи из различных стран мира и советского пространства, сыграл важную роль в устранении проблем тюркских языков и их серьёзном научном исследовании.

На конгрессе обсуждались вопросы алфавита, орфографии, терминологии, методики преподавания, взаимодействия с родственными и соседними языками, литературного языка и вопросов общего литературного языка, а также исторические проблемы тюркских языков. В данной статье анализируется соответствие этих вопросов, обсуждавшихся на конгрессе, методам современной корпусной лингвистики. В ходе исследования были изучены материалы и стенограммы конгресса, а также источники и веб-сайты, посвящённые современной корпусной лингвистике. Результаты показывают, что большинство вопросов, рассмотренных на I Бакýском тюркологическом конгрессе, сегодня могут быть исследованы и развиты с помощью инструментов и методов корпусной лингвистики.

Ключевые слова: *I Бакýский тюркологический конгресс, корпусная лингвистика, тюркские языки, тюркские народы, алфавит*

Səbinə VƏLİYEVA*

AZƏRBAYCAN DİLİNDƏ ƏDATLARIN SİNTAKTİK FUNKSİYASI

XÜLASƏ

Ədatlar Azərbaycan dilində köməkçi nitq hissələrindən biridir və əsas sintaktik funksiyası cümlədə sözlər və ya cümlə üzvləri arasında məna çalarları yaratmaqdır. Ədatlar müstəqil cümlə üzvü kimi çıxış etmir, lakin qoşulduqları sözə və ya cümləyə müxtəlif emosional, modal və məntiqi çalarlar əlavə edir. Sintaktik baxımdan ədatlar daha çox vurğulama, sual, inkar, təsdiq, məhdudlaşdırma və gücləndirmə funksiyalarını yerinə yetirir. Məsələn, “da/də”, “belə”, “elə” ədatları cümlədə vurğunu artırır; “mı/mi/mu/mü” sual mənası yaradır; “axı”, “ha”, “ki” ədatları isə danışanın münasibətini və emosiyasını ifadə edir. Ədatlar adətən aid olduqları sözün sonunda və ya cümlənin müəyyən yerində işlənərək cümlənin ümumi sintaktik quruluşuna təsir göstərir. Nəticə etibarilə, ədatlar cümlənin əsas sintaktik üzvləri olmasa da, cümlənin mənasının dəqiqləşdirilməsində və ifadəliliyinin artırılmasında mühüm rol oynayır.

Dil qanunauyğun olaraq insanların bir-biriləri ilə ünsiyyət saxlaması üçün zəruri olan bir vasitə kimi meydana çıxmışdır. Təbiət və cəmiyyət hadisələrinin daima dəyişməsi nəticəsində dil daha da zənginləşmiş, cilalanmış və sadələşmişdir. Beləliklə, zaman keçdikcə dildə yeni-yeni vasitələrin yaranması ilə əlaqədar əsas nitq hissələrinin müəyyən qanunauyğunluqla köməkçi nitq hissələrinə, oradan da şəkilçiləşməyə doğru inkişaf prosesi baş vermişdir. Həmin inkişaf nəticəsində formalaşan köməkçi nitq hissələrindən biri də ədatdır.

Köməkçi nitq hissələrindən biri olan ədatların geniş sintaktik funksiyaları var. Onlardan ən əsası sual cümlələrinin yaranmasında iştirak etməsidir. Belə ki, sual cümlələrini formalaşdıran vasitələrdən biri olan ədat həm cavab almaq məqsədi ilə işlənən həqiqi sual cümlələrinin, həm də ritorik sual cümlələrinin formalaşmasında xüsusi rol oynayır. Sual cümlələri, təbii ki, sual ədatları ilə düzəlir. Bu ədatlar təəccüb, şübhə, heyrət kimi başqa mənalar ifadə etməklə sual cümlələrində sual intonasiyasını da qüvvətləndirir. Azərbaycan dilində ən çox işlənən sual ədatlarına misal olaraq *axı, məgər, bəs, yəni, yoxsa, olmaya* və s. göstərmək olar.

Sual cümlələri ən çox *-mı, -mi, -mu, -mü* sual ədatı ilə formalaşır. Digər ədarlardan fərqli olaraq aid oldiğu sözə bitişik yazılır:

Qərəz, xərcliyin varmı? (Ə.Məmmədxanlı. Seçilmiş əsərləri); Zəngin vaxtına çoxmu qalıb (V.Babanlı. Seçilmiş əsərləri); Kədərlə sevinc ələ əvvəldən əkiz doğulmamışlarmı?(İ.Şıxlı. Ayrılan yollar)

-Mı, -mi, -mu, -mü ədatı ilə əmələ gələn sual cümləsinin özünəməxsus xüsusiyyətləri var. Bu ədat sözə bitişik yazılmaqla, şəkilçiləşmiş ədat adlandırırlar. Belə cümlələrdə ədat atılarsa, sözün və cümlənin mənası dəyişmir. Dilçilikdə belə bir fikir vardır ki, *-mı, -mi, -mu, -mü* ədatı ilə formalaşan

* Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, Azərbaycan dilçiliyi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru.
Email: nasibali2011@mail.ru

sual cümlələri intonasiya ilə düzələn sual cümlələri eyni növ sual cümlələrinin müxtəlif şəkildə ifadə formasıdır. Bu ədat cümlənin sonunda qüvvətli tələffüz edilir, beləliklə də sual məzmunu yaranır. -*Mı, -mi, -mu, -mü* ədatı çox zaman fellərə artırılır. Lakin bu ədat başqa nitq hisələrinə də əlavə edilir. Məsələn: Siz qara daşların perspektivliyinə çoxmu inanırsınız? (M.Hüseyn. Qara daşlar)

Sual cümlələrinin formalaşmasında digər sual ədatları da iştirak edir.

Yoxsa ədatı sual bildirir, lakin sual məzmunu ilə yanaşı, təəccüb də ifadə edir. Məsələn:

Yoxsa bunu haqq-hesaba qatmırsan? (V.Babanlı. Seçilmiş əsərləri);

Bəs ədatı sual cümləsini yaradan vasitələrdən biridir. Bu ədat danışan şəxsin emosional vəziyyətini də ifadə edir. Bəzən *bəs* ədatı sual əvəzlikləri ilə birgə çıxış edir. Bu zaman sual mənası güclənməklə yanaşı, əlavə məna çalarları da yaranır, sualı təkidli edir. Məsələn:

Bəs buralarda nə edirsən? (İ.Şıxlı. Dəli Kür); Bəs uşaqlar nə qışqırırdı? (M.S.Ordubadi. Dumanlı Təbriz); *Bəs* niyə özlərini incidirlər(İ.Şıxlı. Dəli Kür); Bəzən bəs sual ədatı şifahi nitqdə ekspressiya ilə əlaqədar olaraq elizya hadisəsinə uğrayır. Bəs - bə şəklində tələffüz edilir. Məs.: *Bə mən nə deyim?*

Yəni ədatı da sual məqamında işlənir. İşlənmə yerinə görə sərbəstdir.Məsələn: *Yəni* bu nə deməkdir, az? (İ.Əfəndiyev. Seçilmiş əsərləri, IV c.); *Yəni* firqə qoymaz məni arvad-uşağımla görüşəm?(Mir Cəlal. Seçilmiş əsərləri);

Azərbaycan dilində cox işlənən və eyni zamanda sual cümləsi yaradan vasitələrdən biri də g*örəsən* ədatıdır. Məsələn: Görəsən bir fərli başlı şey göstərəcək? (İ.Əfəndiyev Seçilmış əsərləri); Görəsən o heç olmasa mənim varlığımı duyurmu? (M.İbrahimov Kiçik bir poema).

Əcəba ədatı sual cümlələrinin əvvəlində işlənir, sual mənası ilə yanaşı təəccüb, heyrət mənasını da ifadə edir. Məsələn: Əcəba xalqın yolunu kəsə bilərikmi? (M.S.Ordubadi. Dumanlı Təbriz); *Əcəba* mən sizi bir daha görməyəcəyəmmi? (M.S.Ordubadi. Qılınc və qələm).

Məgər ədatı da sual cümləsini yaradan vasitələrdən biridir. Məsələn: *Məgər* mən dəliyəm, başkəsənəm (İ.Əfəndiyev. Seçilmiş əsərləri); *Məgər* onlarda islam qanı var?(Mir Cəlal. Seçilmiş əsərləri);

Sual ədatları ritorik sual cümlələrində də işlənir. Ritorik sualların xəbərləri çox vaxt felin qeyri-qəti qəti gələcək zamanın təsdiqində olur.

Belə bir gecə evdə otumaq olar*mı*, ana? (Ə.Məmmədxanlı, Seçilmiş əsərləri); Mərd olan da belə qılınc vurar*mı*? (M.Rahim. Seçilmiş əsərləri); Bu qədər taxılı oğurlamaq olarmı? (Y.Şirvan. Şəfəq);

Vaxtsız ölüm?

Nə qəribə sözdür?

Ölüm də heç vaxtlı olarmı? (R.Rza. Dözüm).

Belə halda ritorik sual cümləsində *heç* ədatı *da, də* ədatı ilə birlikdə işlənir. Məsələn:

Heç dağa da vaqon çıxarmı? (İ.Şıxlı, Daşkəsən); Onu bu evdən *heç* qovmaq olar? (İ.Şıxlı. Dəli Kür); *Heç* düşünməyə dəyərmi? (M.İbrahimov. Gələcək gün).

Ədatlar bəzən əmr cümləsinin formalaşmasında da iştirak edir. Felin əmr şəkli ilə əmr ədatlarının birgə işlənməsi yolu ilə əmr cümləsi də formalaşır. Məsələn:

Di ver cavabını, nə durmusan, din! (S.Vurğun); *Qoy* ucalsın Xanın səsi, Qarabağın şikəstəsi (S.Vurğun).

Ədatlar müstəqil surətdə əmr cümləsi yarada bilməsə də, tələb, xahiş, təkid və s. kimi müxtəlif məna incəliklərinin yaranmasına səbəb olur. (3, 94)

Tabeli mürəkkəb cümlələrin komponentləri bir-birinə müxtəlif vasitələrlə bağlanır. Bu bağlama vasitələrindən biri də ədatlardır. Tabeli mürəkkəb cümlələrin qurulmasında ədatların bir bağlama vasitəsi kimi müxtəlif dillərdə rol oynadığı çoxdan isbat olunmuşdur (4,116-128; 4, 30; 34).

Azərbaycan dilində tabeli mürəkkəb cümlələrin qurulmasında *isə (sa, sə)* şərt; *-mı, -mi, -mu, -mü* sual; *ki* qüvvətləndirici; *idi* hekayə; *imiş* rəvayət bildirən ədatlar həlledici rol oynayır.

a. İsə (-sa, -sə) ədatı.

Bu ədat ilk növbədə şərt budaq cümləsini baş cümləyə bağlayır. Məs.: Əgər onda komsomol qanı varsa, gərək bundan bütün həyatı üçün nəticə çıxarsın (H.Mehdi).

İsə (-sa, -sə) ədatı qarşılaşdırma budaq cümləli nabeli mürəkkəb cümlənin komponentlərinin bağlanmasında da əsas rol oynayır. Lakin bu növdə *isə (-sa,-sə*) özündən sonra *da, də* ədatı qəbul edib, onunla birlikdə çıxış edir. Məs.: Qurban bu şeyləri, bu şikayət və söhbətləri dəfələrlə eşitmiş*sə də*, özünü bilməməzliyə qoyub şəkillərə baxırdı (M.Süleymanov). Sabah olmuş*sa da* günəş hələ görünmürdü (Ə.Cəfərzadə). Saçına dən düimüş*sə də*, ürəyini olduğu kimi saxlamışdı (İ.Hüseynov).

İsə (-sa, sə) yalnız şərt və qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrin komponentlərinin bağlanmasında iştirak edir. Lakin bununla bərabər, bir neçə budaq cümlənin xəbərinə qoşulub şərt mənası yaradır.

1. *İsə (-sa, -sə)* əlamətli mübtəda budaq cümləsi.

Günahkar kimdirsə,o da cəzasını almalıdır (Ş.Əsgərova, «Müstəntiq Cəbrayılov», 1966, səh.72). Kimi danışdırır*sa*, neştərini qaldırır (H.Razi, «Arxalı dağlar», səh.32).

Bu misallardakı budaq cümlələrin sonundakı *sa, sə* ədatlarını atsaq, həmin cümlələrin mənasına xələl gəlməz. Müqayisə et: Günahkar kimdir, o da cəzasını almalıdır.

2. *İsə (-sa, -sə)* əlamətli xəbər budaq cümləsi.

Kimdə zəngin bir könül varsa, kimin insanlığı və hünəri çoxsa həyat və gələcək onundur (S.Vurğun, Seç.əsərləri, IV c., 1972, səh.425).

Budaq cümlənin xəbərinə qoşulmuş *sa, sə* ədatı yalnız şərt mənası, çaları yaratmağa xidmət edir. Əgər *sa, sə* atılarsa, cümlənin məzmununa xələl gəlməz. Müqayisə et: Kim yaxşı əyləndirə bilər, qız onundur.

3. *İsə (-sa, -sə)* ədətlı tamamlıq budaq cümləsi.

Kim o qızı tapıb mənə verər*sə*, üç ay ona qulluq edərəm (A.Şaiq. Əsərləri, III c, 1972, səh.583). Burada *-sa,-sə* ədatı yalnız komponentlərin bağlanmasında həlledici rol oynamır, eyni zamanda şərt çaları, şərt mənası yaradır.

4. *İsə (-sa, -sə)* əlamətli yer budaq cümləsi.

Yoldaşlarım haradadır*sa*, mən də orada olmalıyam.

5. *İsə (-sa, -sə)* əlamətli tərzi-hərəkət budaq cümləsi.

Necə vardı*sa*, eləcə də qalırdı (Ə.Hacızadə, «Təyyarə kölgəsi»).

6. *İsə (-sa, -sə)* əlamətli kəmiyyət budaq cümləsi. Şahsənəm nə qədər ötkəm idi*sə*, Şıxzaman o qədər yumşaq idi (S.Dağlı, «Yaylaq qayğıları», səh.25). Konflikt nə qədər dayaz olar*sa*, əsər də o qədər dayaz olar (Q.Xəlilov, «Vaqif» və tarixi dram janrı», səh.19).

B. *-mı, -mi, -mu, -mü* sual ədatı.

Bu ədatlar bəzi tabeli mürəkkəb cümlələrin komponentlərini bağlamaqla bərabər, əlavə məna çalarlığı da yaradır.

1. Mübtəda budaq cümləsi. Məs.: Yaxşı olmaz*mı*, sən dediyinə əməl edəsən (S.Qədirzadə, «Sevdasız aylar», səh.10).

2. Tamamlıq budaq cümləsi. Az*mı* keçdi, çox*mu*, bunu Orxan bilmirdi (Ə.Hacızadə, «Təyyarə kölgəsi», səh.186).

3. Zaman budaq cümləsi. Məs.: Ər günəşin başını qara bulud bürüdü*mü*, sərçələr vahiməyə düşərək civildəşir, qaçıb yuvalarına doluşurdular (C.Əlibəyov, «Mənim analı dünyam», səh.56); Nümunə verilmiş cümlələrdə *-mı*[4] ədatının rolu və özünəməxsus xüsusiyyəti göz qabağındadır. Belə ki, həmin cümlələri *-mı*[4] ədatı ilə işlətməsək, cümlənin ümumi mənasına xələl gələr. Birinci nümunəyə diqqət edək: Yaxşı olmaz,*(mı*) sən dediyinə əməl edəsən.

Mübtəda budaq cümləsinin bu növü haqqında Ə.Z.Abdullayev yazır ki, burada komponentlər *-mı* ədatı ilə bağlandığı kimi, *-mı* ədatı üstəgəl *ki* bağlayıcısı ilə də bağlanır (Müqayisə et: Yaxşı olmazmı (*ki),* sən dediyinə əməl edəsən.

Lakin mübtəda budaq cümləsinin bu növünün özünəməxsus xüsusiyyəti vardır. Belə ki, bu növ mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümləsi forma etibarı ilə təsdiqdə olsa da, məzmunca inkarlığı bildirir və ya əksinə olur.

Ikinci nümunəyə diqqət edək: Az*mı* keçdi, çox*mu*, bunu Orxan bilmirdi.

Budaq cümləsi baş cümlədən əvvəl işlənən bu növ tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədə *-mı*[4] sual ədatı əsas rol oynayır. Baş cümlənin (bunu Orxan bilmirdi) tamamlanması üçün budaq cümlənin işlənməsi zəruridir. Bu zərurət *mı*[4] sual ədatının köməyi ilə reallaşır.

B. *Ki* qüvvətləndirici ədatı.

Ki ədatı bir qisim iki özəkli zaman budaq cümləli tabeli mürəkkəb cümlələrin formalaşmasında və komponentlərin bağlanmasında fəal rol oynayır. Məsələn: Dədəmin *ki* trubkası söndü, deməli, danışıq xoşuna gəlmir (M.İbrahimov. Seçilmiş əsərləri, I c., 1966, sah.69);

Tabeli mürəkkəb cümlənin komponentləri bir-birinə müxtəlif vasitələrlə bağlanır. Bu vasitələr müxtəlif olduğu kimi, onların işlənmə qaydaları da müxtlifdir. Bəzən komponentləri bağlamaq üçün bu vasitələrdən birindən, bəzən də bir neçəsindən istifadə olunur. Beləliklə də, komponentləri bağlamaqda müəyyən qaydalar meydana çıxmış olur. Bu cəhətləri nəzərə alaraq tabeli mürəkkəb cümlələri üç tipdə qruplaşdırırlar:

1) Analitik tipli tabeli mürəkkəb cümlələr.
2) Sintetik tipli tabeli mürəkkəb cümlələr.
3) Analitik-sintetik tipli tabeli mürəkkəb cümlələr.

Analitik tipli tabeli mürəkkəb cümlələrin tərəflərinin bağlanmasında ədatlardan istifadə olunmur. Bu tip mürəkkəb cümlələr bağlayıcı və bağlayıcı sözlərlə bağlanır. Sintetik tipli tabeli mürəkkəb cümlələrin bağlanmasında isə ədatlar mühüm rol oynayır. Bu üsulla şərt, qarşılaşdırma, az miqdarda da olsa zaman budaq cümlələri bağlanır.

Tabeli mürəkkəb cümlələrin analitik-sintetik tipində həm analitik, həm də sintetik tipin əlamətləri olur. Yəni, komponentlərin bağlanmasında bir tərəfdən bağlayıcı və bağlayıcı sözlər, digər tərəfdən də şəkilçiləşmiş ədatlar iştirak edir.

Ə.Abdullayev bu tipli tabeli mürəkkəb cümlələri iki qismə ayırır:

1) bağlayıcı söz və ədatın köməyi ilə bağlananalar;
2) bağlayıcı və ədat vasitəsi ilə bağlananlar.

Bağlayıcı söz və ədatın köməyi ilə bağlanan tabeli mürəkkəb cümlələrdə *ki* bağlayıcısından və *-sa, -sə* ədatında istifadə olunur.

Tabeli mürəkkəb cümlələrin qurulmasında *–sa //-sə* şərt; *-mı,-mi, -mu,-mü* sual, *ki* qüvvətləndirici və *da, də* ədatları iştirak edir.

Tabeli mürəkkəb cümlənin qurulmasında daha çox işlənən ədat şəkilçiləşmiş –sa, -sə ədatıdır. Bu ədat çox zaman felin şərt şəklini əmələ gətirir. Bundan əlavə ismi xəbərli sadə cümlələrin sonunda da işlənərək, şərt budaq cümləsinin baş cümləyə bağlanmasına xidmət edir. Məsələn: Əgər onda komsomol qanı varsa, gərək bundan bütün həyatı üçün nəticə çıxarsın (H.Mehdi).

Azərbaycan dilçiliyinin bəzi mənbələrində *-sa, -sə* ədatının yalniz şərt və qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrin təşkilinə xidmət etdiyi qeyd edilir. Lakin bəzi ədəbiyyatlarda bu ədatların başqa növ budaq cümlələrin yaranmasında iştirak etdiyi də qeyd edilmişdir.

1. Mübtəda budaq cümləsi: Günahkar kimdirsə, o da cəzasını almalıdır. (M.İbrahimov, "Gələcək gün",səh.186).

2. Xəbər budaq cümləsi : Kimdə zəngin bir könül varsa, kimin insanlığı və hünəri çoxsa, həyat və gələcək onundur. (S.Vurğun, "Seçilmiş əsərləri", səh.425).

Budaq cümlənin xəbərinə qoşulmuş *–sa,-sə* ədatı yalnız şərt mənası, çaları yaratmağa xidmət edir. Əgər *–sa, -sə* atılarsa, cümlənin məzmununa xələl gəlməz. Məsələn: Kİm sehirli torbanı gətirdi, qız onundur.

3. Tamamlıq budaq cümləsi: Kim o qızı tapıb mənə verərsə, üç ay ona qulluq edərəm. (A.Şaiq, Əsərləri, səh. 583).

Burada *–sa, -sə* ədatı yalnız komponentlərin bağlanmasında həlledici rol oynamır, eyni zamanda şərt çaları, şərt mənası yaradır.

4. Yer budaq cümləsi: Yoldaşlarım haradadırsa, mən də orada olmalıyam.

5. Tərzi-hərəkət budaq cümləsi: Necə vardısa, eləcə də qalırdı. (Ə.Hacızadə, ”Təyyarə kölgəsi”, səh.21).

Budaq cümləni baş cümləyə bağlayan vasitələrdən biri də *-mı, -mi, -mu, -mü* ədatlarıdır. Bu ədatlar bəzi tabeli mürəkkəb cümlələrin komponentlerini bağlamaqla yanaşı, əlavə məna çalarlığı da yaradır.

-mı[4] ədatı əsasən, zaman budaq cümləli tabeli mürəkkəb cümlələrin qurulmasında böyük rol oynayır.

Həmçinin bu ədatlar bəzi tabeli mürəkkəb cümlələrin komponentlırini bağlamaqla bərabər, əlavə məna çalarlığı da yaradır:

1. Mübtəda budaq cümləsi. Məsələn: Yaxşı olmazmı, sən dediyinə əməl edəsən.(S.Qədirzadə,”Sevdasız aylar”, səh.10).

2. Tamamlıq budaq cümləsi. Azmı keçdi, çoxmu, bunu Orxan bilmədi. (Ə.Hacızadə, “Təyyarə kölgəsi”, səh.186).

3. Zaman budaq cümləsi. Məsələn: Ər günəşin başın qara bulud bürüdümü,sərçələr vahiməyə düşərək civildəşir,qaçıb yuvalarına doluşurdular. (C.Əliyev,“Mənim analı dünyam”, səh.56). Nümunə verilmış cümlələrdə *-mı*[4] ədatının rolu və özünəməxsus xüsusiyyəti gözqabağındadır. Belə ki, həmin cümlələri *–mı* ədatı ilə işlətməsək, cümlənin ümumi mənasına xələl gələr. Birinci nümunəyə diqqət edək: Yaxşı olmaz,(mı) sən dediyinə əməl edəsən.

-Mı ədatı ilə qurulan mübtəda budaq cümləsi haqqında Ə.Abdullayev yazır ki, burada komponentlər *mı* ədatı ilə bağlandığı kimi, *mı* ədatı üstəgəl *ki* bağlayıcısı ilə də bağlanır. (1, 67)

Mübtəda budaq cümləsinin bu növünün özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, bu növ mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələr formaca inkarda olsa da, məzmunca təsdiq bildirir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: «Maarif», 1974, 419 s.
2. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı: BU, 1992, 331 s.
3. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili, Sintaksis (IV hissə). Bakı: Şərq-Qərb, 2007, 474 s.
4. Quliyeva R. Tabeli mürəkkəb cümlələrin komponentlərin əlaqələndirilməsində ədatların rolu // ADU-nun «Elmi əsərləri», Bakı, 1977, № 4.
5. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası, Bakı: Azərnəşr, 2002, 304 s.

СИНТАКСИЧЕСКАЯ ФУНКЦИЯ НАРЕЧИЙ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Наречия являются одной из вспомогательных частей речи в азербайджанском языке, и их основная синтаксическая функция заключается в создании смысловых оттенков между словами или членами предложения. Наречия не выступают как самостоятельные члены предложения, а добавляют различные эмоциональные, модальные и логические оттенки к слову или предложению, к которому они присоединены. С синтаксической точки зрения, наречия в основном выполняют функции акцентирования, вопросительного, отрицательного, утвердительного, ограничительного и усиливающего воздействия. Например, наречия «да/дə», «белə», «элə» усиливают акцент в предложении; «мı/ми/му/мü» создают вопросительное значение; наречия «акı», «ха», «ки» выражают отношение и эмоции говорящего. Наречия обычно используются в конце слова, к которому они принадлежат, или в определенном месте предложения, влияя на общую синтаксическую структуру предложения. Следовательно, хотя наречия не являются основными синтаксическими элементами предложения, они играют важную роль в уточнении смысла предложения и повышении его выразительности.

THE SYNTACTİC FUNCTİON OF ADVERBS İN THE AZERBAİJANİ LANGUAGE
SUMMARY

Adverbs are one of the auxiliary parts of speech in the Azerbaijani language, and their main syntactic function is to create semantic nuances between words or sentences. Adverbs do not act as independent members of a sentence, but add various emotional, modal and logical nuances to the word or sentence to which they are attached. From the syntactic point of view, adverbs mainly perform the functions of accentuation, interrogative, negative, affirmative, restrictive and reinforcing effects. For example, the adverbs «da/da», «so», «so» strengthen the accent in the sentence; «мы/ми/му/му» create interrogative meaning; Adverbs «аки», «ха», «ки» express the attitude and emotions of the speaker. Adverbs are usually used at the end of the word to which they belong, or in a specific place in the sentence, affecting the overall syntactic structure of the sentence. Therefore, although adverbs are not the main syntactic elements of the sentence, they play an important role in clarifying the meaning of the sentence and increasing its expressiveness.

Sima QULİYEVA*

AZƏRBAYCAN DİLİNİN LEKSİK SİSTEMİNDƏ TEXNİKİ TERMİNLƏRİN YERİ VƏ İNKİŞAF DİNAMİKASI

XÜLASƏ

Məqalədə dilin leksik tərkibinin inkişafı və terminoloji sistemin formalaşması məsələləri elmi-nəzəri aspektdən araşdırılır. Xüsusilə texniki terminologiyanın yaranma və inkişaf mexanizmləri cəmiyyətin sosial-iqtisadi, elmi və texnoloji tərəqqisi kontekstində təhlil olunur, terminlərin tarixi inkişaf mərhələləri, elmin və texnikanın inkişafı ilə ixtisaslaşmış terminlərin formalaşması məsələləri şərh edilir. Azərbaycan dilində texniki terminologiyanın təşəkkülü dilin daxili imkanları və alınma terminlər əsasında izah olunur. Alınma terminlərin, xüsusilə ingilis dilindən daxil olan terminlərin müasir terminoloji sistemdə rolu göstərilir.

***Açar sözlər*:** Azərbaycan dili, leksik sistem, terminologiya, texniki terminlər, alınma terminlər,

Hər bir dilin lüğət tərkibi onun uzunmüddətli tarixi inkişafının məhsuludur. Leksik sistem xalqın maddi və mənəvi mədəniyyətini, eləcə də onun tarixi təcrübəsini əks etdirən ən dinamik dil qatıdır. Zaman keçdikcə dilin leksik tərkibi daimi şəkildə dəyişir, təkmilləşir və zənginləşir. Bu dəyişikliklər təsadüfi xarakter daşımır, onlar cəmiyyətin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə bilavasitə bağlıdır. Leksika dilin ən çevik və dəyişkən sahəsi kimi insan fəaliyyətinin bütün istiqamətlərində baş verən yenilikləri özündə əks etdirir. Yeni anlayışların, əşyaların, hadisə və proseslərin meydana gəlməsi dilin leksik fonduna yeni söz və terminlərin daxil olmasına gətirib çıxarır. Beləliklə, lüğət tərkibinin inkişafı insanın istehsal fəaliyyəti, elmi yaradıcılığı və cəmiyyətin ümumi tərəqqisi ilə sıx qarşılıqlı əlaqə içərisindədir.

Tarixi baxımdan, dilin ilkin inkişaf mərhələlərində terminlər müstəqil və sabit bir leksik qat kimi formalaşmamışdı. Bunun əsas səbəbi həmin dövrlərdə cəmiyyətin sosial-iqtisadi və elmi inkişaf səviyyəsinin aşağı olması, həmçinin fəaliyyət sahələrinin diferensiasiyasının zəif inkişaf etməsi ilə bağlı idi. İlkin mərhələdə ümumişlək sözlər çox vaxt termin funksiyasını yerinə yetirirdi. Bu, insan fəaliyyətinin məhdud dairəsi və elmi biliklərin sistemləşməməsi ilə izah olunur. Lakin cəmiyyət inkişaf etdikcə, yeni istehsal münasibətləri, elmi yeniliklər və texnoloji nailiyyətlər meydana gəldikcə dilin leksik tərkibində də ixtisaslaşmış anlayışları ifadə edən terminlər formalaşmağa başlayır. Terminlərin yaranması və sabitləşməsi

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent.

dinamik prosesdir. Cəmiyyətin davamlı dəyişməsi yeni anlayışların və məfhumların meydana gəlməsinə, bunun nəticəsində yeni terminlərin formalaşmasına gətirib çıxarır. Eyni zamanda, bəzi terminlər zamanla arxaikləşir, bəziləri isə beynəlmiləl terminlər vasitəsilə əvəz olunur. Beləliklə, terminoloji sistem tarixi prosesin canlı və hərəkətli bir hissəsi kimi daim yenilənir və genişlənir.

Elm və texnikanın inkişafı leksik sistemdə ən mühüm dəyişikliklərə səbəb olan amillərdən biridir. Ayrı-ayrı elm sahələri öz inkişaf tarixləri ərzində spesifik anlayış və məfhumlar sistemi formalaşdırmış, bu anlayışların dəqiq ifadəsi üçün xüsusi terminlər yaratmışdır. Hər bir termin müəyyən elmi anlayışı fadə etməklə yanaşı, həmin anlayışın məzmununu sabitləşdirir və elm daxilində informasiya mübadiləsini təmin edir. Terminologiyanın yaranması və formalaşması isə elmin inkişaf səviyyəsini və sistemləşmə dərəcəsini əks etdirən əsas göstəricilərdən biridir.

Azərbaycan dilində terminoloji sistemin təşəkkülü birdən-birə baş verməmiş, tarixi inkişafın uzunmüddətli nəticəsi kimi formalaşmışdır. Bu proses dünya elminin ümumi nailiyyətləri, beynəlxalq elmi əlaqələr və milli elmi mühitin inkişafı ilə sıx bağlı olmuşdur. Müxtəlif dövrlərdə xarici dillərdən alınma terminlər, habelə milli söz yaradıcılığı yolu ilə yaranan anlayışlar Azərbaycan elmi terminologiyasının zənginləşməsinə mühüm töhfə vermişdir.

Elmi biliklərin inkişafı ilə terminologiyanın inkişafı arasında qarşılıqlı və dialektik əlaqə mövcuddur. Elm irəlilədikcə yeni anlayışlar və hadisələr kəşf olunur, bu isə yeni terminlərin yaranmasını zəruri edir. Eyni zamanda, terminoloji sistemin təkmilləşməsi elmi düşüncənin daha dəqiq ifadəsinə, elmi anlayışların sistemləşdirilməsinə və elmin özünün metodoloji inkişafına xidmət edir. Başqa sözlə, elm və terminologiya bir-birini qarşılıqlı şəkildə inkişaf etdirən iki paralel prosesdir. Elmi terminologiya olmadan elmin müstəqil şəkildə formalaşması və sistemli şəkildə inkişafı mümkün deyil. Terminlər yalnız elmi ünsiyyət vasitəsi kimi deyil, həm də elmi biliklərin ötürülməsi, sistemləşdirilməsi və saxlanması üçün zəruri intellektual alət kimi çıxış edir. Buna görə də, hər bir xalqın elmi tərəqqisinin əsas göstəricilərindən biri həmin dilin terminoloji sisteminin zənginliyi, sabitliyi və elmi üslubda funksional imkanlarının genişliyidir.

Nəticə etibarilə, dilin lüğət tərkibinin inkişafı və terminologiyanın formalaşması yalnız dilin daxili qanunauyğunluqları ilə deyil, həm də elmin, texnikanın, istehsalın və ümumilikdə cəmiyyətin tarixi inkişaf səviyyəsi ilə sıx şəkildə bağlıdır. Bu qarşılıqlı əlaqə nəticəsində dil yalnız ünsiyyət vasitəsi deyil, həm də elmi tərəqqinin əsas daşıyıcısı və intellektual irsin qoruyucusu funksiyasını yerinə yetirir.

Terminoloji sistemin mühüm və dinamik sahələrindən biri texniki terminologiyadır. Terminoloji sahələr, yəni elm, texnika, tibb, hüquq, iqtisadiyyat və digər fəaliyyət istiqamətlərinə aid xüsusi leksik sistemlər dilin ixtisaslaşmış və elmə əsaslanan qatını təşkil edir. Bu sistemlər içərisində texniki terminlər xüsusilə aktual xarakter daşıyır. Bunun əsas səbəbi müasir cəmiyyətin inkişafının texnologiya və elmi-texniki tərəqqi ilə birbaşa əlaqədar olmasıdır. A.Hüseynova-Qəhrəmanlı yazır: "Texnoloji amilin təsiri yeni anlayışların yaranmasına və onunla birlikdə yeni dil vahidlərinin formalaşmasına səbəb olur. Müasir dövrdə bəşəriyyətdə texnoloji inkişaf miqyasının, həmçinin insan fəaliyyətinin bir çox sahələrinə də təsirinin artması ilə səciyyələnir. Texniki və texnoloji biliklərin inkişafı cəmiyyətin inkişafını sürətləndirərək cari tendensiyaları müəyyənləşdirir. Bu gün cəmiyyət bütün dünyanı əhatə edən texniki və texnoloji biliklər sahəsində baş verən proseslər, dəyişikliklər nəticəsində yeni keyfiyyətlər qazanır" [2, 18].

Texniki terminlər dilin leksik fondunun ən sürətlə yenilənən hissələrindən biridir. Elmi və texnoloji yeniliklərin fasiləsiz şəkildə meydana gəlməsi, yeni texniki cihazların, proqram sistemlərinin, istehsal texnologiyalarının və sənaye proseslərinin yaranması nəticəsində dilə mütəmadi olaraq yeni terminlər daxil olur. Bu proses bir tərəfdən dilin zənginləşməsinə, digər tərəfdən isə terminoloji sistemin sabitləşməsi və normalaşması məsələlərini aktuallaşdırır. Texniki terminlərin aktuallığı həm də onların praktik tətbiq dairəsinin genişliyi ilə bağlıdır. Müasir informasiya cəmiyyətində texniki biliklər yalnız mühəndislik və istehsalat sahəsində deyil, gündəlik həyatın müxtəlif sferalarında da mühüm rol oynayır. Kompüter texnologiyaları, informasiya sistemləri, süni intellekt, energetika, nəqliyyat və kommunikasiya kimi istiqamətlərdə işlədilən terminlər artıq ümumxalq leksikasına daxil olmaqda, yəni dar ixtisas sahəsindən çıxaraq ümumişləklik qazanmaqdadır.

Terminoloji sahələr içərisində texniki terminlərin xüsusi aktuallığı onların cəmiyyətin elmi, texnoloji və iqtisadi inkişafında aparıcı rol oynaması ilə izah olunur. Texniki terminologiya yalnız dilin

bir hissəsi deyil, həm də insanın biliklər sistemi, texnoloji tərəqqinin göstəricisi və elmi kommunikasiya vasitəsi kimi çıxış edir. Onun dinamik inkişafı həm dilin intellektual potensialının, həm də cəmiyyətin ümumi mədəni səviyyəsinin artdığını göstərir.

Texniki terminlərin formalaşması və inkişafı bir neçə əsas mənbə əsasında həyata keçirilir. Bu mənbələr arasında xüsusilə iki istiqamət daha mühüm əhəmiyyət daşıyır: dilin daxili potensialı və digər dillərdən terminlərin alınması. Dilin daxili imkanları texniki terminologiyanın yaranmasında aparıcı rol oynayır. Bu zaman mövcud leksik vahidlərə yeni məna çalarları verilir, söz yaradıcılığı prosesləri (məsələn, kök və şəkilçilər vasitəsilə yeni sözlərin formalaşdırılması) aktivləşir, eləcə də ümumişlək sözlər terminləşmə yolu ilə xüsusi məna qazanır. Dilin daxili imkanları hesabına yaranan texniki terminlər: *bağlantı, çap kürəciyi, çıxış qurğusu, ikiqat sıxlıq, ötürmə, rəqəmsal danışıq, sazlayıcı, seçim düymələri, səsli giriş, sıxılma əmsalı, sorğu dili* və s.

Müstəqillik dövründə Azərbaycan dilinin terminoloji sistemində baş verən dəyişikliklər xüsusilə elmi-texniki leksikanın strukturunda və məzmununda aydın şəkildə müşahidə olunur. Yeni ictimai-siyasi proseslər, bazar iqtisadiyyatına keçid, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və beynəlxalq inteqrasiya prosesləri terminoloji ehtiyatın yenilənməsini zəruri etmişdir. Bu mərhələdə dilə daxil olan terminlər təkcə yeni anlayışları ifadə etmir, eyni zamanda cəmiyyətin müasir inkişaf mərhələsinin dil vasitəsilə təsvirinə xidmət edir. "Müstəqillik illərində terminologiyaya alınma terminlərin daxil olması prosesi davam etməkdədir. Bu təbii bir axındır. Belə ki, terminologiyada alınmalar dilin kasıblığına dəlalət etmir, əksinə onun dil kontaktları hesabına zənginləşməsinin göstəricisi kimi çıxış edir" [3, 36].

Alınma terminlər başqa dillərdən müəyyən fonetik, morfoloji və semantik dəyişikliklərə məruz qalaraq dilə daxil olan və əsasən elmi-texniki anlayışları ifadə edən leksik vahidlərdir. Alınma texniki terminlər dil sistemində yeni və təsadüfi bir hadisə olmayıb, Azərbaycan dilinin tarixi inkişafının bütün mərhələlərində müşahidə olunan obyektiv və qanunauyğun bir prosesdir; bu gün də elmi-texniki tərəqqinin, beynəlxalq elmi əməkdaşlığın və qloballaşmanın təsiri altında alınmalar dilin leksik tərkibinin zənginləşməsində, yeni anlayışların ifadəsində və terminoloji ehtiyatın daim yenilənməsində mühüm rol oynayaraq Azərbaycan dilinin inkişafının ayrılmaz və dinamik tərkib hissəsi kimi çıxış edir.

Müasir dövrdə elmin və texnikanın sürətli inkişafı yeni anlayışların, proseslərin və obyektlərin yaranmasına səbəb olmaqla yanaşı, onların adlandırılması problemini də aktuallaşdırır. Bu baxımdan, alınma texniki terminlər müasir Azərbaycan dilinin terminoloji sistemində mühüm yer tutur və dilin inkişaf mexanizmlərindən biri kimi çıxış edir. Hazırda Azərbaycan dilində alınma texniki terminlərin əsas mənbəyi ingilis dilidir. İngilis dilinin beynəlxalq elm və texnologiya dili statusu qazanması kompüter texnologiyaları, informasiya sistemləri, proqramlaşdırma, süni intellekt, robototexnika, energetika və telekommunikasiya sahələrində terminlərin birbaşa bu dildən alınmasına şərait yaratmışdır. "*Server", "platforma", "interfeys", "startap", "onlayn", "virtual", "blokçeyn", "data", "supervayzer"* kimi terminlər bu prosesin bariz nümunələridir.

Müstəqillik illərində Azərbaycanın beynəlxalq aləmlə əlaqələrinin genişlənməsi, xüsusilə Qərb ölkələri ilə siyasi, iqtisadi, elmi, texnoloji və mədəni münasibətlərin intensiv xarakter alması dilin leksik tərkibinə mühüm təsir göstərdi. Bu dövrdə Avropa dillərindən, əsasən də ingilis dilindən birbaşa alınmaların, xüsusilə elmi-texniki terminlərin dilə daxil olması prosesi gücləndi. Qloballaşma, texnoloji tərəqqi və beynəlxalq əməkdaşlıq müasir Azərbaycan dilinin lüğət ehtiyatını yeniləyərək onu qlobal informasiya mühitinə uyğunlaşdırdı.

Eyni zamanda, texniki terminlər beynəlmiləl xarakter daşıyan leksik vahidlər kimi də fərqlənir. Qloballaşma və beynəlxalq elmi əməkdaşlıq prosesləri nəticəsində bir çox texniki anlayışlar ingilis dilindən birbaşa və ya dolayı yolla digər dillərə, o cümlədən Azərbaycan dilinə keçmişdir. İngilis dilinin qlobal ünsiyyət və elm dili statusu qazanması nəticəsində bir çox texniki terminlər Azərbaycan dilinə beynəlxalq terminlər kimi daxil olmuşdur. "Drayver", "dekoder", "emitter", "interfeys", "bençmark", "splitter", "startap", "smarfinq", "smartfon", "sniffer" kimi terminlər artıq yalnız mütəxəssis mühitində deyil, geniş ictimai diskursda da aktiv şəkildə işlənilir.

Bununla yanaşı, alman və fransız dilləri də texniki terminologiyanın formalaşması prosesində mühüm rol oynamışdır. Xüsusilə XIX-XX əsrlərdə Avropada elmi-texniki tərəqqinin sürətlənməsi ilə

əlaqədar olaraq mühəndislik, mexanika, maşınqayırma və sənaye istehsalı sahələrində yaranan bir sıra yeni anlayış və terminlər məhz bu dillər vasitəsilə digər dillərə, o cümlədən Azərbaycan dilinə daxil olmuşdur. Həmin terminlər əsasən texniki qurğuların adlarını, istehsal proseslərini, mexaniki sistemləri və sənaye texnologiyalarını ifadə etmiş, terminoloji sistemin zənginləşməsinə və dəqiqləşməsinə xidmət etmişdir. Alman dili daha çox mexanika, maşınqayırma və texniki konstruksiyalarla bağlı terminlərin mənbəyi kimi çıxış etdiyi halda, fransız dili sənaye, istehsal mədəniyyəti və mühəndislik texnologiyaları sahəsində terminoloji təsirin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bu dillərdən daxil olan terminlərin bir qismi zamanla dilin fonetik və morfoloji xüsusiyyətlərinə uyğunlaşdırılaraq mənimsənilmiş, bir qismi isə terminoloji vahid kimi beynəlxalq səciyyə daşıyaraq ilkin formasını qismən qoruyub saxlamışdır. Məsələn, *bolt, şlüz, ştamp, filtr, kalibr, detal, fuqas, beton, baraj* və s.

Texniki terminlərin formalaşmasının əsas yollarından biri **tərcümə üsulu** hesab olunur. Terminoloji yaradıcılıqda tərcümə üsulu dedikdə, xarici dildə mövcud olan texniki anlayışın məzmununun milli dil vasitələri ilə ifadə edilməsi nəzərdə tutulur. Bu zaman termin ya sözbəsöz, ya da məna baxımından uyğunlaşdırılaraq tərcümə edilir. Məsələn, *cloud computing* → **bulud hesablamaları**. *Bulud hesablamaları* – hesablama resurslarını yerləşdirmək və belə xidmətləri son uc istifadəçilərə təqdim etmək üçün İnternetdən istifadəyə imkan verən texnologiya [1, 136]. Xüsusilə qloballaşma şəraitində beynəlxalq elmi-texniki biliklərin sürətlə yayılması milli dillərdə yeni terminlərin yaradılmasını zəruri edir. Azərbaycan dilində bu gün dilə daxil olan texniki terminlərin mühüm bir qismi məhz tərcümə yolu ilə formalaşır. Məsələn, *artificial intelligence* → **süni intellekt,** *hard disk* → **sərt disk, логическая ошибка → logic error → məntiqi səhv;** *load capacity* → *грузоподъёмность* → *yükdaşıma qabiliyyəti və s.*

Aparılan təhlil göstərir ki, dilin lüğət tərkibi və terminoloji sistemi cəmiyyətin tarixi, sosial-iqtisadi və elmi-texniki inkişaf səviyyəsi ilə sıx və qarşılıqlı əlaqədə formalaşır. Leksik sistem dilin ən dinamik sahəsi kimi insan fəaliyyətinin bütün istiqamətlərində baş verən dəyişiklikləri özündə əks etdirir və bu baxımdan terminologiya, xüsusilə texniki terminologiya, onun ən fəal və sürətlə yenilənən qatlarından biri kimi çıxış edir. Terminlərin yaranması və inkişafı təsadüfi xarakter daşımır, əksinə, elmi biliklərin sistemləşməsi, yeni texnologiyaların meydana gəlməsi və istehsal münasibətlərinin mürəkkəbləşməsi ilə şərtlənən obyektiv prosesin nəticəsidir.

ƏDƏBİYYAT

1. Calallı İ. İnformatika terminlərinin izahlı lüğəti. Bakı: İnformasiya texnologiyaları, 2017.
2. Hüseynova-Qəhrəmanlı A. Müasir dövrdə beynəlmiləl terminlərin formalaşma prosesi. Fil.ü.f.d. dissertasiyası. Bakı, 2025.
3. Sadıqova, S.A. Azərbaycan dilində terminologiyanın standartlaşdırılma formaları. Bakı, 2015.

THE PLACE AND DEVELOPMENT DYNAMICS OF TECHNICAL TERMS IN THE LEXICAL SYSTEM OF THE AZERBAIJANI LANGUAGE

ABSTRACT

This article examines the development of the lexical system and the formation of terminology from a theoretical and scientific perspective. Particular attention is paid to the mechanisms of the emergence and development of technical terminology in the context of social, economic, scientific, and technological progress, analyzes the historical stages of term formation, and the emergence of specialized terms alongside the advancement of science and technology. The formation of technical terminology in the Azerbaijani language is explained through both internal linguistic resources and borrowed terms. Special emphasis is placed on loanwords, particularly those borrowed from English, and their role in the modern terminological system.

Keywords: *Azerbaijani language, lexical system, terminology, technical terms, loanwords.*

МЕСТО И ДИНАМИКА РАЗВИТИЯ ТЕХНИЧЕСКИХ ТЕРМИНОВ В ЛЕКСИЧЕСКОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье рассматриваются вопросы развития лексического состава языка и формирования терминологической системы с научно-теоретической точки зрения. Особое внимание уделяется процессам возникновения и развития технической терминологии в контексте социально-экономического, научного и технологического прогресса. Анализируются исторические этапы становления терминов, использование общеупотребительных слов в качестве терминов на ранних этапах развития языка, а также формирование специализированной терминологии по мере развития науки и техники. Формирование технической терминологии в азербайджанском языке объясняется как за счёт внутренних ресурсов языка, так и за счёт заимствованных терминов. Подчёркивается роль заимствований, в частности из английского языка, в современной терминологической системе.

Ключевые слова: Азербайджанский язык, лексическая система, терминология, технические термины, заимствования.

Namaz MANAFOV*

I TÜRKOLOJİ QURULTAY VƏ RADLOV – SAMOYLOVİÇ XƏTTİ: AZƏRBAYCAN DİLİNİN ELMİ TƏSNİFATİ

XÜLASƏ

Bu məqalədə I Türkoloyi qurultayın (1926, Bakı) türk dillərinin elmi təsnifatı və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində rolu araşdırılır. Xüsusilə V.V. Radlov və A.N. Samoyloviçin elmi yanaşmaları, onların formalaşdırdığı metodoloji xəttin Azərbaycan dilçiliyinə təsiri təhlil olunur. Qurultayda Azərbaycan dilinin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin elmi hesabatlar əsasında təqdim olunması dilin müstəqil türk dili kimi mövqeyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətli mərhələ kimi qiymətləndirilir. Radlov–Samoyloviç xətti kontekstində Azərbaycan dilinin türk dilləri sistemində yeri və elmi tədqiq perspektivləri müəyyənləşdirilir.

Açar sözlər: *I Türkoloyi qurultay, Radlov, Samoyloviç, Azərbaycan dili, türk dilləri, dilçilik tarixi.*

XX əsrin əvvəlləri türkologiya elminin inkişafında yeni mərhələ kimi səciyyələnir. Bu dövrdə türk dillərinin təsnifatı, onların tarıxı inkişafı, fonetik-morfoloji xüsusiyyətləri həm Qərb, həm də Rusiya elmi mühitində geniş müzakirə olunurdu.

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji qurultay bu müzakirələrin ən yüksək tribunası olmuş, yüzlərlə tanınmış türkoloqları bir araya gətirmişdir.

Qurultayda əsas müzakirələr türk dillərinin əlifbası, ədəbi dillər və türk xalqlarının mədəniyyəti üzrə aparılsa da, türk dillərinin elmi təsnifatı ən mühüm məsələlərdən biri kimi diqqət mərkəzində olmuşdur.

Bu kontekstdə iki əsas elmi xətt – Vilhelm Radlov və Aleksandr Samoyloviç xətti qarşılıqlı münasibət və elmi polemika müstəvisində çıxış etmişdir. Hər iki istiqamət Azərbaycan dilinin türk dilləri sistemindəki yerının müəyyənləşdirilməsində həlledici rol oynamışdır

Vilhelm Radlov - klassik türkoloji məktəbin banisi

* Mingəçevir Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru. Email:manafov49@mail.ru

Vilhelm Radlov (1837-1918) dünya türkoloji elminin formalaşmasında müstəsna xidmətləri olan böyük alimdir. O, türk dillərinin tədqiqində emprik materiala əsaslanan müqayisəli-tarixi metodların əsaslarını yaratmış, canlı xalq danışığının elmi dəyərini ilk dəfə sistemli şəkildə ön plana çıxarmışdır. Radlovun elmi fəaliyyətinində əsas prinsip dil faktlarının birbaşa müşahidə və sahə tədqiqatı yolu ilə toplanması idi ki, bu da onun əsərlərinin dəyərini daha da artırır.

Türkologiyanən banilərindən sayılan V. Radlov Türk dillərinin elmi təsnifatını ilk sistemləşdirən tədqiqatçılardan biridir. O, türkdilli xalqların dili, folkloru, məişəti və etnoqrafiyasına dair qiymətli materiallar toplamış, bu materiallar əsasında dil xüsusiyyətlərinin izahını vermişdir.

V. Radlovun dördcildlik monumental «Опыт словаря тюркских языков» [4] əsəri bu gün də türkologiyanin mötəbər mənbələrindən sayılır. Bu lüğətdə yalnız Orta Asiya və Sibir türklərinin deyil, həmçinin Azərbaycan türklərinin dil materialları da yer almışdır. Radlov Azərbaycan dilinin leksik və fonetik özünəməxsusluğunu göstərmiş, xüsusilə oğuz tipli xüsusiyyətlərin sabitliyini qeyd etmişdir. Bu fakt Azərbaycan dilinin elmi statusunun erkən mərhələdə tanınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Radlovun təsnifat sistemində türk dilləri əsasən fonetik və morfoloji meyarlar əsasında qruplaşdırılır, coğrafi faktor ikinci planda saxlanılırdı. O , oğuz dillərini ümumi türk sisteminin tərkib hissəsi kimi qəbul edir və Azərbaycan dilini bu qrupun aparıcı nümayəndələrindən biri kimi səciyyələndirirdi. Məhz bu yanaşma sonrakı dövrlərdə Azərbaycan dilinin müstəqil bir dil kimi elmi təsnifatına gedən yolun əsasını qoymuşdur.

Radlovun dilçilik araşdırması metodunun əsas xüsusiyyətləri bunlardır:

1. Tarixi- müqayisəli yanaşma – dillərin ortaq köklərini, qədim qatlarını və tarıxı inkişaf yolunu əsas sayırdı.

2. Dialektoloji prinsiplər – türk dillərini geniş dialekt sistemi kimi nəzərdən keçirir, hər dialekti dilin canlı inkişaf surətinin müəyyənləşdirilməsi kimi qiymətləndirir.

3. Coğrafi təsnifat – dillərin qruplaşdirilmasında əsas meyar kimi onların yayılma arealını götürürdü.

4. **Folklor və etnoqrafiya –** Radlov üçün dil yalnız qrammatik hadısə deyil, həm də xalq ruhunun ifadəsi idi.

Radlov Azərbaycan dilinə xüsusi maraq göstərmiş, onun dialekt və şivələri ilə bağlı çoxlu qeydlər aparmışdır. Radlov Azərbaycan dilini

- Qğuz dillərinin cənub qoluna aid edir.
- Anadollu türkcəsi ilə yaxın (birgə) götürür.
- Azərbaycan dilində qıpcaq izlərinin müşahıdə olunduğunu göstərir.

Görkəmli alim türk dillərinin təsnifatında tipoloji meyarları əsas götürürdü. Onun yanaşması dil materiallarının geniş şəkildə tədqiqi üçün əsas model kimi qəbul edilirdi.

Qurultayda Radlovun mövqeyini daha çox Nikoloy Katanov(1894-1938) müdafiə edirdi.

(Türkoloji dilçilikdə iki Nikolay Katanov olmuşdur. Onlardan birincisi Nikolay Qavriloviç Katanov Bakıda I Türkoloji qurultayda iştirak etmişdir. İkincisi, onun dayısı, türkoloq-professor (folklorşünas alim) Nikolay Fyodoroviş Katanov-dur).

Radlovun elmi nüfuzu o qədər böyük idi ki, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultay, iştirakçiların təklifi ilə, onun və türk dünyasında maarifçiliyin banisi İsmayıl bəy Qaspiralının elmi irsinə ehtiram əlaməti olaraq təşkil edilmişdir. Qurulray iştirakçiları Radlovun türkoloji elmin inkişafındakı rolunu xüsusi vurğulamiş və onun qoyduğu elmi prinsiplərin aktual olduğunu qeyd etmişlər.

A.N. Samoyloviç və türk dillərini genetik təsnifatı

Aleksandr Nikolayeviç Samoyloviç (1880 –1938) XX əsr türkoloji dilçiliyin ən görkəmli nümayəndələrindən biri olmaqla, türk dillərinin genetuk təsnifatı sahəsində yeni mərhələnin əsasini qoymuşdur. Samoyloviç Radlovun topladığı zəngın faktoloji materiala istinad etməklə yanaşı, türkoloji dilçilikdə struktur və tarixi-genetık meyarları daha dəqiq sistemləşdirmişdir.

Samoyloviçin əsas elmi nailiyyəti türk dillərinin qohumluq münasibətlərini fonetik uyğunluqlar, morfoloji paralellər və tarıxi inkişaf mərhələləri əsasında müəyyən etməsi olmuşdur O, dilləri yalnız xarıcı

oxşarliqlarına görə deyil, daxili struktur əlaqələrinə əsaslanaraq qruplaşdırmışdır. Bu yanaşma türk dillərinin təsnifatında obyektivliyi xeyli artırmışdır.

1926-cı ildə I Türkoloji qurultayda Samoyloviçin "Türk dillərinin təsnifati" mövzusunda məruzəsi xüsusi resonans doğurmuşdur. Həmin məruzədə o, Azərbaycan dilini oğuz dilləri qrupuna daxil etmış, onun Osmanlı (Türkiyə) türkcəsi və türkmən dili ilə genetik yaxınlığını elmi arqumentlərlə əsaslandırmişdir. Bu mövqe qurultay iştirakçılarının əksəriyyəti tərəfindən qəbul edilmiş və sonrakı türkoloji ədəbiyyatda əsas xəttə çevrilmişdir

Samoyloviçin təsnifatı Radlov xəttindən fərqli olaraq, daha sistemli və normativ xarakter daşıyırdı. Əgər Radlov daha çox empirik müşahidəyə və canlı dil faktlarına söykənirdisə, Samoyloviç həmin materialları ümumiləşdirərək nəzəri çərçivəyə salmışdır. Bu baxımdan Radlov – Samoyloviç xətti türkoloji elmdə bir-birini inkar edən deyil, bir-birini tamamlayan iki əsas elmi istiqamət kimi dəyərləndirilməlidir [3, 112-128].

A. N. Somoyloviç XX əsr türkologiyasının yenilikçi ideoloqlarından biridir. O, türk dillərinin təsnifatında tarıxı köklərdən çox, fonetik innovasiyaları, yəni dillərin yeni və müasir xüsusiyyətlərini əsas meyar sayırdı. Samoyloviçin təsnifatının əsas prinsipləri:

1. Fonetik innovasiyalar – dillər yeni fonetik xüsusiyyətlərinə görə qruplaşdırılır.
2. Struktur meyar – dillərin qrammatik sistemi səs-morfologiya uyğunluğu ilə bağlı meyar kimi götürülür.
3. Ümumtürk sistemində yeniliklər: samit dəyişmələri, saitlərin uyumu, səs düşməsi və səs artımı kimi hadisələr mühüm kreteriyadır.
4. Altı əsas türk dili qrupu –bulqar, oğuz, qıpçaq, karluq, yakut və oğur dilləri.

.

Radlov və Samoyloviç məktəblərinin əsas metodoloji fərqləri

Türkologiyada Radlov və Samoyloviş məktəbləri metodoloji yanaşma və tədqiqat obyektinin müəyyənləşdirilməsi baxımından bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

Radlov xətti əsasən tarixi-müqayisəli metodologiyaya söykənir və türk dillərinin tədqiqində coğrafi təsnifatı aparıcı prinsip kimi qəbul edir. Bu yanaşmada dialektoloji materiallar əsas empirik baza rolunu oynayır, folklor və etnoqrafik mənbələr isə dil faktlarının izahında mühüm yer tutur. Nəticə etibarilə Radlov məktəbi türk dillərinin tarixi inkişaf mərhələlərinin və genetik köklərinin müəyyənləşdirilməsinə yönəlmişdir.

Samoyloviç xətti isə struktur-fonetik metodologiya üzərində qurulmuşdur. Bu istiqamətdə fonetik innovasiyaların aşkarlanması və sistemləşdirilməsi əsas məqsəd kimi çıxış edir. Türk dillərinin fonetik və qrammatik quruluşu, xüsusilə səs sistemi aparıcı meyar hesab olunur. Samoylovıç məktəbi türk dillərinin mövcud struktur vəziyyətinin elmi izahini verməyə və onların tipoloji xüsusiyyətlərini müəyyənləşməyə yönəlmişdir.

I Türkoloji qurultay və Radlov - Samoylovıç xəttinin toqqusması

Birincı Türkoloji qurultay türkdilli xalqların ortaq elmi prinsiplərlə tədqiqinə yeni meydan açdı. Qurultayda dilçilik, əlifba islahatı, fonetika, morfologiya, ortaq terminologiya və daha bir çox sahələr üzrə geniş müzakirələr aparıldı.

Radlov məktəbinin metodoloji mövqeyi

Qurultayda aparılan müzakirələr Radlov məktəbinin tarixi-müqayisəli metodologiyasının türk dillərinin təsnifatında hələ də mühüm elmi istinad nöqtısi olduğunu göstərir. Bu yanaşma türk dillərinin coğrafi yayılma arealı, dialektoloji materiallar və etno-folklor mənbələri əsasında sistemləşdirilməsini əsas prinsip kimi qəbul edir. Radlov xətti çərçivəsində dil faktları yalnız struktur baxımından deyil, eyni zamanda onların tarixi formalaşma mərhələləri və genetik əlaqələri kontekstində izah olunur. Qurultay materiallarında bu metodoloji əhənənin türk dillərinin tarixi köklərinin müəyyənləşdirilməsində mühüm rol oynadığı xüsusi vurğulanır [1, 86-104].

Samoyloviç məktəbinin struktur-fonetik yanaşması

Qurultay müzakirələrində Samoyloviç tərəfindən irəli sürülmüş struktur-fonetik təsnifat modeli türk dillərinin elmi öyrənilməsində mühüm metodoloji istiqamət kimi nəzərdən keçirilmişdir. Bu modeldə türk dillərinin fonetik sistemi və səs dəyişmələri aparıcı meyar kimi çıxış edir, struktur göstəricilər isə dilin tipoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsində əsas rol oynayır. Qurultay materiallarında türk dillərinin struktur təsnifatı məsələlərinin Samoyloviç modeli əsasında araşdirilmasi xüsusi vurğulanmışdır [5, 9-26].

Latın qafikali əlifbaya keçid prosesi fonetik prinsiplərin ön plana çəkilməsini zəruri etmiş və bu istiqamət Samoyloviçin elmi yanaşması ilə metodoloji baxımdan üst-üstə düşmüşdür. Bu amil türk dillərinin fonetik sisteminin normallaşdırılması və elmi əsaslarla təsnif olunmasında struktur-fonetik metodun aktuallaşmasına şərait yaratmışdır [3, 112-128].

--Türk dillərinin struktur təsnifatına dair Samoyloviçin modeli öyrənildi.

- Latın əlifbasına keçid fonetik prinsiplərə təsir etdi və bu, Samoyloviç yanaşması ilə üst-üstə düşürdü.

- Azərbaycan dilinin fonetik sistemi müasir struktur baxımından təhlil edilmişdir.

Azərbaycan dilinin elmi təsnifatı iki metodoloji xəttin işığında

Radlov və Samoyloviç məktəblərinin təsnifat prinsipləri əsasında Azərbaycan dilinin mövqeyi türk dilləri sistemində kompleks şəkildə müəyyənləşdirilir.

Radlovun təsnifatı üzrə Azərbaycan dili:

Radlovun tarixi-müqayisəli və coğrafı təsnifat modelinə əsasən Azərbaycan dili cənub-qərb oğuz dilləri qrupuna daxil edilir və qədim ouz dili ilə genetik bağlılıq nümayiş etdirir Bununla yanaşı, dilin tarixi inkişaf prosesində qıpçaq dialekt qatlarının formalaşdığı müşahidə olunur. Azərbaycan dili zəngin folklor irsi və şifahi xalq yaradıcılığı nümunələri ilə türk dünyasında xüsusi yer tutur ki, bu da Radlov xəttinin folklor və etnoqrafik materiallara istinad edən metodologiyası ilə tam uzlaşır [4, s.XX-XXXII].

Samoyloviçin təsnifatı üzrə Azərbaycan dili:

Samoyloviçin struktur-fonetik təsnifatına görə Azərbaycan dili qərb oğuz dilləri qrupunda yer alır. Struktur Baxımından Anadolu türkcəsinə yaxınlıq nümayış etdirsə də, fonetik və tipoloji xüsusiyyətlərinə görə " qıpcaq qatlı oğuz dili" səciyyələndirilir. Azərbaycan dilinin fonetik sisteminin ardıcıllığı və sabitliti onun qrafik baxımdan latınlaşmaya ən uyğun türk dillərindən biri olmasını sərtləndirmişdir ki, bu amil Samoyloviç yanaşmasının əsas prinsipləri ilə üst-üstə düşür [5, 9-26; 2, 45-62]. Qurultayın yekun sənədlərində Azərbaycan dili fonetik, morfoloji və qrafik xüsusiyyətləri baxımından türk dilləri arasında yüksək dərəcədə sistemləşmiş və struktur baxımından kamil dillərdən biri kimi səciyyələndirilir.

Azərbaycan dili həm Radlovun tarıxı-müqayisəli, həm də Samoyloviçin struktur-fonetik təsnifat modellərinin kəsişmə nöqtəsində yerləşən bir dil kimi türkoloji elmdə xüsusi mövqe tutur [1, 87-104] . Bu xüsusiyyət onun həm tarixi-genetik, həm də struktur-tipoloji baxımdan kompleks şəkildə öyrənilməsini zəruri edir.

ƏDƏBİYYAT

1. Birinci Türkoloji qurultay. Stenoqrafik hesabatlar. -Baki, 1926
2.Hacıyev T. İ. Azərbaycan dilinin tarıxi. –Baki, 2008
3. Баскаков Н.А. Введение и изучение тюркских языков. – М., 1969
4. Радлов В. В. Опыт словаря тюркских языков. – СПб., 1893
5.Самойлович А.Р. Классификация тюркских языков. –Л., 1922

ABSTRACT

This article examines the role of the First Turkological Congress (Baku, 1926) in shaping the scientific classification and development of Turkic languages. Special attention is paid to the scholarly approaches of V.V. Radlov and A.N. Samoylovich and to the methodological line formed by their research, as well as its impact on Azerbaijani linguistics. The presentation of Azerbaijani language features—phonetic, lexical, and grammatical—through scientific reports at the Congress is considered a crucial stage in establishing Azerbaijani as an independent Turkic language. Within the framework of the Radlov–

Samoylovich line, the article identifies the position of the Azerbaijani language in the Turkic language system and outlines its research perspectives.

Keywords: *First Turkological Congress, Radlov, Samoylovich, Azerbaijani language, Turkic languages, history of linguistics.*

АННОТАЦИЯ

В статье рассматривается значение I Тюркологического съезда (Баку, 1926) в формировании научной классификации и направлений развития тюркских языков. Особое внимание уделяется научным взглядам В.В. Радлова и А.Н. Самойловича, а также методологической линии, сложившейся в их трудах и оказавшей влияние на азербайджанское языкознание. Представление фонетических, лексических и грамматических особенностей азербайджанского языка в научных докладах съезда оценивается как важный этап в утверждении его статуса самостоятельного тюркского языка. В контексте линии Радлов–Самойлович определяется место азербайджанского языка в системе тюркских языков и перспективы его научного изучения.

Ключевые слова: I Тюркологический съезд, Радлов, Самойлович, азербайджанский язык, тюркские языки, история языкознания.

Təhminə İSMAYILOVA*

BƏXTİYAR VAHABZADƏ POEZİYASININ LEKSİK-SEMANTİK SİSTEMİ

XÜLASƏ

Bu məqalə Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin yaradıcılığında leksik-semantik sisteminin xüsusiyyətlərinin araşdırılmasına həsr olunmuşdur. Tədqiqatın əsas məqsədi şairin poetik dilində işlənən leksik vahidlərin semantik tutumunu, məna münasibətlərini və onların ideya-bədii yükünü müəyyənləşdirməkdir.

Məqalədə B. Vahabzadə poeziyasında milli-mənəvi dəyərləri əks etdirən leksik vahidlər, vətən, dil, azadlıq, tarix və insan taleyi ilə bağlı anlayışların semantik xüsusiyyətləri təhlil olunur. Eyni zamanda sinonimlik, antonimlik, çoxmənalılıq, metaforik və simvolik leksikanın şairin fərdi üslubunun formalaşmasındakı rolu araşdırılır.

Tədqiqat nəticəsində müəyyən edilir ki, Bəxtiyar Vahabzadə poeziyasında leksik-semantik sistem ideya-məzmunun ifadəsində aparıcı mövqe tutur və şairin milli poetik düşüncəsinin əsas göstəricilərindən biri kimi çıxış edir. Məqalənin nəticələri poetik dilin semantik xüsusiyyətlərinin öyrənilməsi baxımından elmi əhəmiyyət kəsb edir.

Açar sözlər*: Bəxtiyar Vahabzadə poeziyası, leksik-semantik sistem, bədii dil, poetik leksika, milli-mənəvi dəyərlər, obrazlılıq.*

Yalnız müasir Azərbaycanın deyil, bütövlükdə türk dünyasının görkəmli söz sənətkarlarından biri olan Bəxtiyar Vahabzadə (1923-2009) yaradıcılığı ilə bağlı xeyli tədqiqat əsərləri yazılmışdır. Lakin onun poeziyası o qədər zəngin və bənzərsizdir ki, uzun illər diqqət mərkəzində qalacaqdır.

B.Vahabzadə həm bədii, həm elmi yaradıcılıqla məşğul olan söz ustalarındandır. O, ana dilinin şirinliyini, cazibəsini şeirlərində qoruyan nadir istedadlardan biridir. Bədii, elmi, publisistik yaradıcılığını ictimai fəaliyyəti ilə bilavasitə əlaqələndirən Bəxtiyar Vahabzadə şeirləri obrazların kamilliyi ilə hər zaman seçilmişdir. Dilimizin bütün məqamlarını onun şeirlərində görmək və duymaq mümkündür. "Kökləri Füzulidən qaynaqlanan fəlsəfi-intellektual poeziya təmayülünü XX əsrdə yekunlaşdırmaq səadəti məhz Bəxtiyar Vahabzadəyə nəsib olmuşdur. Lirikası şeirlər külliyyatı ilə dolğun olan B.Vahabzadə üçün heç vaxt mövzu problemi olmamışdır. O, qələmə aldığı mövzunun, predmetin mahiyyətini düzgün dərk etməyə qabil sənətkar kimi tanınmışdır. Bu haqda öz monoqrafiyasında belə qeyd etmişdir. *"Nədən yazmaq əsas deyil, necə yazmaq əsasdır"*. Şeirlərində ülvi hissləri və paklığı ustalıqla təsvir edən şair həmişə insandan,

* AMEA Nəsimi adına Dilçilik İnstitutu Müasir Azərbaycan dili şöbəsinin aparıcı elmi işçisi, fil.ü.f.d., dos. Email: tahmina-ismayilova@mail.ru

onun kamalından və gözəlliyindən ilham alırdı. Xalq yazıçısı İlyas Əfəndiyevin doğru olaraq qeyd etdiyi kimi: *"Bəxtiyar hər nə yazırsa, yazsın ürəkdən yazır, təbii yazır, təmənnasız yazır. Biz onun lirikasının avazında saxta notlar hiss etmirik"* [15, 26].

Dil – ana dili məsələləri şairin bədii və publisistik yazılarının dəyişməyən, stabil mövzularından olmuşdur. Dilin saflığı və təmizliyini prioritet mövzu hesab edən B.Vahabzadə bu mövzuya fərqli aspektdən yanaşır, onun mahiyyət və əhəmiyyətini həm özünə, həm də başqalarına anlatmağa çalışmışdır. Milli şüurun yetişməsində ana dilinin müstəsna əhəmiyyətini dərindən duyan və bütün yaradıcılığı boyu onun müdafiəsi uğrunda mübarizə aparan Bəxtiyar Vahabzadənin poeziyasında dil problemi birinci dərəcəli məsələlərdəndir. Ana dilinə doğma xalqının milli varlığının ilk və əsas göstəricisi kimi xüsusi əhəmiyyət verən sənətkar "Dil yoxsa, millət də yoxdur" fikrini bayraq etmiş, yaradıcılığının hər bir sahəsində, istər poeziya və dramaturgiyasında, istərsə də publisistikasında mübarizəni bu proqram əsasında aparmışdır. "Mərziyə" poemasında bir millət üçün ana dilinin mənasından, mahiyyətindən ayrıca bir fəsildə bəhs edən şair doğma dilin bugünkü durumunu əks etdirdiyi misraları yazıldığı dövr üçün böyük ictimai-siyasi məzmuna malikdir.

Ey bu gün dilim-dilim
Parçalanan ana dilim,
Sinəsinə od qalanan ana dilim,
Qapıların arxasında
Boynu bükük qalan dilim,
Var ikən, yox olan dilim,
Ayaqlarda kilim dilim,
Savaşlarda bir qəhrəman,
Barışlarda həlim dilim. [7, 26].

Mənsub olduğu millətin çörəyini yeyib, amma onun dilini bilməyənlərə üz tutaraq onları ittiham edir: *"Axı, sən xalqın dilini bilmirsənsə, demək, millətin ruhuna, mənəviyyatına, tarixinə yadsan. Demək, bu millətə övlad deyilsən"* deyirdi.

Anasının dilində
Dil açmayan kəs
Millətinin dərdini
Anlaya bilməz! [3, 3].

Ana dilini sevməyən, cəmiyyətdəki ictimai-siyasi atmosferə uyğunlaşmağa, zamanın tələbi ilə ayaqlaşmağa çalışaraq doğma dilindən üz çevirən insanları belə mühakimə edir:

Mənim övladıma ana dilində
Dərs verən "ağıllı" müəllimə bax.
"Vətən", "Vətən" deyir, öz övladını
Əcnəbi dilində oxudur ancaq.
Özgəyə "dilini öyrən "deyirsən,
Özünsə bu dili bəyənməyirsən. [6, 9].

1954-cü ildə yazdığı məşhur "Ana dili" şeirində ana dilini tarixi yaddaş, xalqın qəhrəmanlıq dili, mənəviyyatı hesab etdiyini aşağıdakı kimi poetik dillə ifadə edir:

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,

Namusum, vicdanımsan. [7, 26].

Sovet dövründə xalqın öz ana dilinə qoyulmuş qadağalara baxmayaraq, Vahabzadənin ana dilinə müraciət etməsi, ona şeirlər həsr etməsi şairin yaradıcılığının milli azadlıq uğrunda mübarizlik ruhu ilə yoğrulduğunun göstəricisi idi.

Eşq, məhəbbət mövzusu onun yaradıcılığının ayrılmaz və zəngin bir qoludur. Şairin eşqə dair şeirləri digər şeirlərindən kəskin şəkildə fərqlənir, ritmi, intonasiyası, daxili obrazlar, bu obrazların daim rəngdən-rəngə girməsi, sanki təbiətin bir parçasına çevrilməsi və sair ilə.

Ancaq məhəbbətçün yaranmışam mən,
Alammaz əlimdən bu haqqı kimsə.
Xoşbəxtəm, küsmərəm öz taleyimdən,
Əgər sevirəmsə.... sevilirəmsə....
Məhəbbət – amalım, arzularımdır,
Ona kainatım, cahanım deyim.
Mənim dövlətimdir, mənim varımdır
Bütün varlığımla sevə bilməyim.
Sevə bilirəmsə əgər ürəkdən
Dünyanın ən gözəl adamıyam mən. [17].

Bəxtiyar Vahabzadə poeziyasının linqvistik təhlili bu qənaətə gəlməyə əsas vermişdir ki, onun poeziyası sinonim çoxluğu ilə səciyyələnir. Şairin poeziyasını mənaca gözəlləşdirən sinonimlər bədii ifadə vasitələrindən sayılır. Şairin yaradıcılığında mütləq sinonimlərin ardıcıllığında və bir-birini əvəzləməsində bir tamlıq duyulursa, nisbilikdə isə bu tamlıq o qədər də hiss olunmur.

"Sökün çəpərləri" adlı şeirində şair yazır:

Hər kəs öz bağını tez çəpərləyir,
"Çəpərdən bu yana mənimdir" deyir.
Sökün çəpərləri, daş hasarları,
Gözlər uzaqlara zillənsin barı.
Könül otaqlara sığarmı təkcə,
O gərək atlana dağdan, dərədən.
Baxmaq istəyirəm göz işlədikcə
Uzanan o geniş üfüqlərə mən.
Tutmayaq çiçəyin, gülün yolunu,
Onların könlünü dağ-dağ etməyək.
Təbiət azaddır, gəlin biz onu
Hasarlar içində dustaq etməyək. [2, 3].

O, şeirlərində sinonimlərdən müxtəlif cür istifadə etməklə bir tərəfdən təkrarlılığın qarşısını almış, digər tərəfdən isə personajın iztirablarını, can sıxıntısını sinonimlər vasitəsilə yüksək poetika ilə təsvir etmişdir.

"Bəxtiyar Vahabzadənin əsərlərində sinonimlik, hər şeydən əvvəl, ifadə gözəlliyi yaratdığını" qeyd edən S.Alməmmədova yazır: *"O, bir fikri ifadə etmək üçün dilin bir çox imkanlarına müraciət edir. Şair fikri aydın, obrazlı, dəqiq ifadə etmək üçün ümumxalq dilinin leksik, frazeoloji və qrammatik sinonimliyinin üslubi ifadəlilik imkanlarını səfərbərliyə alır, onları ölçüb–biçir və işə yarayan variantı seçir"* [1, s.26].

Baxışın qəlbimə od saldı, yandım,
Mən də öz dərdimi, qüssəmi andım. [1, s.26].

Əslində dərd və qəm sözləri müəyyən mənada sinonim kimi işlənən sözlərdir (müqayisə et: dərd – qəm). Doğrudur, qəm-qüssə mürəkkəb ifadəsi də vardır və o, tərkib hissələrinin sinonimliyi zəminində formalaşmışdır. Ancaq hər halda "dərd – qüssə" cütü qeydə alınmamışdır. Şeirdə bu sözlər sinonim sözlərdən tərtib olunmuş mürəkkəb ifadə kimi yox, həmcins üzvlər kimi təqdim olunmuşdur.

Şair əsərlərində təzad yaratmaq üçün antonimlərdən və antitezalardan böyük ustalıqla yararlanmışdır:

Bu gün ad günümdür.... evdə hamı şən,

Ancaq fikirliyəm, kədərliyəm mən.
Gəncliyim ötəli belə günlərdə,
Anıb yoxuşumu tövşüyürəm mən.
Xəzan yarpaqları oynaşan yerdə
Necə üşüməyim?... Üşüyürəm mən.
Həmən adamammı?... Yox, başqayam mən.
Özgə cür görünür bu aləm mənə.
Bir zaman könlümə sevinc gətirən
Ad günüm gətirir indi qəm mənə. [9, s.26].

Aşağıdakı nümunədə antonimlərin bədii ədəbiyyatda ən geniş yayılmış istifadə formalarından olan antitezanı izləyirik:

Bil, dənizdə coşan suyun səsindən
Xəzri gəlir, yoxsa gilavar gəlir [7, s.243].

Torpağa bağlıdır, torpağa insan,
İnsana hər şeydən torpaq əzəldir.
O qərib ellərin od-ocağından
Vətənin tüstüsü daha gözəldi [7, s.55].

Bu şeir parçası "*Vətənin tüstüsü də şirindir*" ifadəsinin implisit qarşılaşdırma ilə genişləndirilmiş fərqli təqdimatı kimi dəyərləndirilə bilər.

Bəxtiyar Vahabzadə poeziyasında omonimləşmə hadisəsini müşahidə etmək elə də çətin deyil. Yaradıcılıq məhsulu sayılan omonimlər həm də onun şeirlərində bədii ifadə vasitəsi kimi özünü tapır.

Yalnız indi anladım; ah, sən daha
mənimçün.
Əlçatmaz bir çiçəksən,
Yaşanmış günlərim tək geri dönməyəcəksən..!
Getdin dalınca baxdım, can ayrıldı canımdan,
Sən necə etinasız ötə bildin yanımdan....
Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm,
Sənin qəlbin əsmədi.
Arxana da baxmadın! [16].

Bu şeir parçasında *"ah"* sözü iki mənanı ehtiva edir. "*Ah"* həm nida kimi, həm də *"köks ötürmək"* mənalarını verir. Burada isə hər iki omonim fərqli nitq hissələrinə aiddir.

Bəxtiyar Vahabzadə sənətkar, zaman, mövzu, ideya, üslub məsələlərinə qarşı heç bir zaman diqqətsiz qalmayıb. Şair fikri düzgün ifadə etmək, sözü yerində və məqamında işlətməyə, qısalığa və konkretliyə çox ehtiyac olduğu qeydini belə ifadə etmişdir. "Əsrimiz lakonizmi çox sevir" [5, s. 43]. Bu bir cümlənin ifadə etdiyi dərin mənanı şair həm də dilin yığcamlığı kimi təqdir edir. Onun poeziyasında leksik-semantik söz qruplarının şeirdə yüksək poetika ilə istifadəsi və təsviri şeiri daxilən əlvanlaşdırmış, ona yüksək estetika vermişdir.

ƏDƏBİYYAT

1. Alməmmədova, *S.* Bəxtiyar Vahabzadə poeziyasının dili */ S.Alməmmədova.* – Bakı: Elm, –2010. – 163 s.
2. Vahabzadə, B. Payız düşüncələri: Şeirlər / B.Vahabzadə. – Bakı: Yazıçı, 1981. – 365 s.
3. Vahabzadə, B. Ana dili – Dövlət dili. "Azadlıq" qəzeti. Bakı, 1992, 29 dekabr, s.3
4. Vahabzadə, B. Ləyaqət / B.Vahabzadə. – Bakı: Azərbaycan nəşriyyatı, – 1998. – 208 s.
5. Vahabzadə, B. İstiqlal / B.Vahabzadə. – Bakı: Gənclik nəşriyyat, – 1999. – 496 s.
6. B.Vahabzadə. Sandıqdan səslər. Bakı: Təfəkkür, 2002, s.9

7. Vahabzadə, B. Seçilmiş əsərləri (şeirlər): [2 cilddə] / B.Vahabzadə. – Bakı: Öndər nəşriyyat, – 2004. – 328 s.
8. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, – c.1. – 2008. – 612 s.
9. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, – c.2. – 2008. – 616 s.
10. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, – c.4. – 2008. – 662 s.
11. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, – c.5. – 2008. – 584 s.
12. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, – c.7 – 2008. – 463 s.
13. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, – c.11. – 2009. – 826 s.
14. Vahabzadə, B. Örtmə pəncərəmi. Seçmə şeirlər / B.Vahabzadə.Bakı: Renessans-A, 2015. 252 s.
15. Vahabzadə, B. Biblioqrafiya. – Bakı: – 2015. – 592 s.
16. https://kulis.az/xeber/media/bir-salama-deymeyen-esqe-olum-yarasir-bextiyar-vahabzade-50539
17. https://kulis.az/xeber/media/alammaz-elimden-bu-haqqi-kimse-bextiyar-vahabzade-50767

Тахмина Исмайлова

ЛЕКСИКО-СЕМАНТИЧЕСКАЯ СИСТЕМА ПОЭЗИИ БАХТИЯРА ВАХАБЗАДЕ

РЕЗЮМЕ

Данная статья посвящена исследованию особенностей лексико-семантической системы в творчестве выдающегося представителя азербайджанской поэзии Бахтияра Вахабзаде. Основной целью исследования является выявление семантического содержания лексических единиц, используемых в поэтическом языке поэта, их смысловых отношений и идейно-художественной нагрузки.

В статье анализируются лексические единицы, отражающие национально-духовные ценности в поэзии Б. Вахабзаде, а также семантические особенности понятий, связанных с родиной, языком, свободой, историей и судьбой человека. Одновременно исследуется роль синонимии, антонимии, многозначности, метафорической и символической лексики в формировании индивидуального поэтического стиля поэта.

В результате исследования установлено, что лексико-семантическая система в поэзии Бахтияра Вахабзаде занимает ведущую позицию в выражении идейно-содержательного начала и выступает одним из основных показателей национального поэтического мышления поэта. Результаты статьи имеют научную значимость с точки зрения изучения семантических особенностей поэтического языка.

Ключевые слова: *поэзия Бахтияра Вахабзаде, лексико-семантическая система, художественный язык, поэтическая лексика, национально-духовные ценности, образность.*

Tahmina İSMAYILOVA

LEXICO-SEMANTIC SYSTEM OF BAKHTIYAR VAHABZADEH'S POETRY

SUMMERY

This article is devoted to the study of the features of the lexico-semantic system in the works of Bakhtiyar Vahabzadeh, an outstanding representative of Azerbaijani poetry. The main aim of the research is to identify the semantic content of lexical units used in the poet's language, their semantic relations, and their ideological and artistic load.

The article analyzes lexical units that reflect national and spiritual values in B. Vahabzadeh's poetry, as well as the semantic features of concepts related to homeland, language, freedom, history, and human destiny. At the same time, the role of synonymy, antonymy, polysemy, metaphorical, and symbolic vocabulary in the formation of the poet's individual poetic style is examined.

The results of the study show that the lexico-semantic system in Bakhtiyar Vahabzadeh's poetry occupies a leading position in expressing ideological and thematic content and serves as one of the main indicators of the poet's national poetic thinking. The findings of the article are of scholarly significance for the study of the semantic features of poetic language.

Key words: *Bakhtiyar Vahabzadeh's poetry, lexico-semantic system, artistic language, poetic vocabulary, national and spiritual values, imagery.*

Nəzakət QAZİYEVA*

I TÜRKOLOJİ QURULTAY: DİLDƏ ZAMANIN TƏLƏBİNDƏN DOĞAN TƏTBİQİ PROBLEMLƏR

XÜLASƏ

Məqalədə dövrün tələblərinin dilə təsiri və Birinci Ümumittifaq Türkoloji Qurultayın (1926) bu prosesdəki rolundan bəhs olunur. Türk dillərində əlifba, orfoqrafiya və terminologiya problemlərinin həlli məqsədi daşıyan Qurultayda E.D. Polivanov latın qrafikasına keçidi yazının rasionallaşdırılması və beynəlmiləlləşməsi baxımından vacib hesab edir, türk əlifbalarının vahidləşdirilməsini təklif edirdi. L.V. Şerba isə orfoqrafiyanın fonetik, etimoloji, tarixi və ideoqrafik prinsiplər əsasında çevik şəkildə qurulmasının zəruriliyini vurğulayırdı. Mövcud vəziyyət Qurultayda qaldırılan məsələlərin bu gün də aktuallığını qoruduğunu və onların sistemli həllinin türk dillərinin elmi və praktik inkişafı üçün mühüm əhəmiyyət daşıdığını göstərir.

Açar sözlər: *I Türkoloji Qurultay, dilin tətbiqi problemləri, orfoqrafiya prinsipləri, türk dilləri, dil siyasəti*

Dildə dövrün tələbləri ilə bağlı meyillər — müəyyən tarixi dövrdə sosial, mədəni, iqtisadi və texnoloji inkişaf səviyyəsinə uyğun olaraq dildə meydana çıxan dəyişiklik və istiqamətlərdir. Bu meyillər dilin bütün səviyyələri üzrə özünü göstərə bilir və dilin inkişafında qanunauyğunluqları müəyyən edir. Yeni texnologiyalar, mədəni dəyişikliklər və sosial tələblər dilə yeni sözlər, terminlər və ifadələr gətirir. Yazı və danışıq üslubunda sadələşdirmə, normativləşmə meyilləri müşahidə olunur. Fonetik və morfoloji qanunlar dilin struktural sabitliyini təmin edərkən, dövrün tələbləri ilə bağlı meyillər onun dinamik adaptasiyasını müəyyən edir. Bu qarşılıqlı təsir dilin tarixi inkişafında, nitqin sosial funksiyasının formalaşmasında və kommunikativ effektivliyində əsas rol oynayır. Beləliklə, dildə meyillər və qanunlar bir-birini tamamlayaraq dilin həm sistemli, həm də çevik quruluşunu təmin edir.

26 fevral-6 mart 1926-cı il tarixində Bakıda keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultay zamanın elmi və ictimai tələbi əsasında formalaşmış zərurətin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Məşhur dilçi Yevgeni Polivanov 1923-cü ildə nəşr etdirdiyi "Türk yazılarında latın şrifti problemi" adlı kitabçada qrafika məsələləri ilə bağlı SSRİ türkdilli xalqlarının maarif işçilərinin qurultay və ya konfransının çağırılmasının zəruriliyini vurğulayaraq, islahatların pərakəndə şəkildə aparılmasının "Babil qarmaqarışıqlığına" gətirib çıxaracağı barədə xəbərdarlıq etmişdi. Bu zərurəti bir çox alim və maarif xadimi də dərk edirdi. Onların birgə səyləri nəticəsində 1924-cü ildə Moskvada Şərqşünaslıq Elmi Cəmiyyəti nəzdində Türk Yazıları üçün Latın Şrifti Assosiasiyası yaradılmış və ümumtürk qurultayının hazırlanmasına başlanmışdır. Qurultayın çağırılması üzrə əsas təşkilati işi Azərbaycanı Öyrənmə Cəmiyyəti həyata keçirmişdir.

E.D. Polivanovun "Türk yazı sistemlərində latın qrafikası problemi" (1923) adlı əsəri türk dilləri üçün uyğun latın qrafikasının tərtibi məsələsinə həsr olunmuş fundamental tədqiqatlardan biridir. Bu əsərdə Polivanov sovet dövrünün ilk dil qurucularından biri kimi yeni yakut, Azərbaycan və özbək əlifbalarının latın qrafikasına keçirilməsi problemlərini təhlil edir, yeni yazı sistemlərinin yaradılmasının zəruriliyini və

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Eksperimental Fonetik Araşdırmalar Laboratoriyasının müdiri, fil.ü.f.d., dosent, E-mail: n.qazi@inbox.ru

əsas prinsiplərini elmi şəkildə əsaslandırır, həmçinin bu proseslərin inqilabi transformasiyalarla sıx şəkildə bağlı olduğunu göstərir.

1923-cü ildə qələmə alınmış bu əsər SSRİ-də milli dil siyasətinin və ərəb qrafikasından uzaqlaşan türk xalqları üçün yeni əlifbaların yaradılması məsələlərinin fəal müzakirə edildiyi bir dövrə təsadüf edir. Əsər latın qrafikasına keçidin mədəni inqilabın tərkib hissəsi və yeni, sovet identikliyinin formalaşdırılmasının mühüm aləti kimi dəyərləndirildiyi bir dövrün ideoloji ruhunu əks etdirir, Polivanov isə burada öz "dil quruculuğu" təcrübəsini elmi şəkildə bölüşür.

E.D. Polivanov hesab edirdi ki, "Fonetik yazının pedaqoji üstünlüyünün əsas şərti… sözlərin səslərə bölünməsi üzrə məşqlərdən (səs metodu) və müvafiq hərflərin yadda saxlanılmasından sonra oxuma bacarığının bilavasitə əldə edilməsidir" [3, s. 13]. Alim eyni zamanda əlavə edirdi ki, "latın yazısına keçiddən ən çox fayda görəcək sahə türk məktəbi olacaq, çünki savad təlimində əməyə qənaət təmin ediləcəkdir" [3, s.13]. Yazı sistemlərinin latın qrafikasına keçirilməsinin digər tərəfdarları da uşaqların və böyüklərin oxu və yazı bacarıqlarının formalaşdırılmasında hərf–səs uyğunluqlarının təhlili metodunun mühüm əhəmiyyətini xüsusi olaraq vurğulayırlar.

E.D. Polivanovun dil planlaşdırılması məsələlərində uzaqgörənliyini onun "müqəddimə əvəzi" kimi ön plana çəkdiyi və xüsusi olaraq vurğuladığı "praktiki nəticə"dən də qiymətləndirmək olar. Bu nəticə "SSRİ-də türk xalqlarının maarif işçilərindən ibarət qrafika məsələləri üzrə konfransın çağırılmasının zəruriliyi" ideyasında ifadə olunur; məqsəd islahatın ayrı-ayrı yazı sistemləri tərəfindən nizamsız şəkildə həyata keçirilməsi nəticəsində yaranacaq "Babil qarışıqlığını" və bununla bağlı əlavə xərcləri qabaqlamaq idi [3].

E.D. Polivanov dərhal gələcək qurultayın məqsədlərini də müəyyənləşdirir: "Həm latınlaşdırma məsələsini, həm də müsəlman yazısının rasionallaşdırılmasını müzakirə etmək, eyni zamanda son dərəcə mühüm və razılaşdırılması tələb olunan digər bir məsələni – türk dillərində elmi terminologiya problemini nəzərdən keçirmək" [3].

1923-cü ildə E.D. Polivanov latınlaşdırmanı rasional yazı sisteminin yaradılmasında son məqsəd kimi qiymətləndirir, ərəb əlifbasının rasionallaşdırılmasını isə aralıq mərhələ hesab edirdisə, on il sonra "Özbək dialektologiyası və özbək ədəbi dili" (1933) adlı əsərində o, yekun nəticə çıxarır: "Sovet milli-dil siyasətinin və sovet quruculuğunun məqsədlərinə cavab verən həqiqətən inqilabi qrafik islahat latınlaşdırma olmuşdur" [5, s. 39].

"Türk yazı sistemlərində latın qrafikası problemi" adlı əsərində E.D. Polivanov iki qrafik sistemin üstünlüklərini və çatışmazlıqlarını ardıcıl şəkildə təhlil edir: əvvəlcə S. Novqorodovun yakut əlifbasını, sonra isə "Yeni yol" adlanan Azərbaycan əlifbasını təhlil edir [3]. E.D. Polivanov S. Novqorodovun əlifbasını kifayət qədər yüksək qiymətləndirir; O, vurğulayır ki, yakut əlifbası açıq-aşkar transkripsiya xarakteri daşıyır və onun müəllifi beynəlxalq elmi fonetik əlifba (İPA) ilə tanış olmuşdur ki, bu da yakut yazısının sonrakı beynəlmiləlləşməsinə şərait yaradır. Azərbaycan əlifbasında isə İPA-nın nəzərə alınmaması ciddi qüsur kimi qiymətləndirilir: "Azərbaycanlılar bir sıra əlifba işarələrini elə götürmüşlər ki, digər əlifbalarda həmin işarələr tamamilə başqa səsləri ifadə edir" [3].

E.D. Polivanov eyni zamanda dəyişdirilmiş rus əlifbasından imtina edilməsinin tərəfdarı kimi çıxış edir və aşağıdakı arqumentləri irəli sürür: "Mədəniyyətin və onun aləti olan yazının dünya miqyasında beynəlmiləlləşdirilməsi kimi son məqsəd baxımından latın əlifbasına doğru addım atmaq daha məqsədəuyğundur"; həmçinin bir xalqın istifadəsində olan iki yazı sisteminin – rus yazısının və ana dilində yazının – "prinsipial olaraq kəskin şəkildə ayrılması" daha əlverişlidir [3]. O, əlavə olaraq qeyd edir ki, qonşu türk xalqlarının latın qrafikasına keçməsi faktoru nəzərə alınmalıdır [3].

Türk xalqları üçün "qırmızı mədəniyyətlərin" qurulmasının tərəfdarı olan E.D. Polivanov yazı sistemlərinin yaradılması və islahatında ən mühüm məsələlər kimi yazının beynəlmiləlləşdirilməsini (latın qrafikası dünyanın ən geniş yayılmış yazı növüdür) və maksimal rasionallaşdırmanı önə çəkirdi. Polivanova görə, yazının rasionallaşdırılması iki amilə əsaslanırdı: "milli əlifbaların yaradılmasında beynəlxalq universal fonetik əlifbaya əməl edilməsi"; mümkün qədər "tipoqrafiya işinin yüngülləşdirilməsi", bu zaman çap rahatlığı naminə "İPA-nın nəzəri cəhətdən tam qorunmasından zərərsiz kiçik kənarlaşmalara" yol verilməsi [3].

E.D. Polivanov digər türk yazı sistemlərinin hansı yolu tutacağı barədə narahatlığını ifadə edirdi: onların yakut əlifbasına və İPA-ya əsaslanıb-əsaslanmayacağı, yoxsa İPA modeli olmayan, İPA-ya və digər yazı sistemlərinin praktikasına zidd olan Azərbaycan əlifbası kimi bir istiqamət seçəcəyi onu düşündürürdü. Beləliklə, artıq 1923-cü ildə Peterburq Universitetində E.D. Polivanov "türk xalqlarının gələcək yazısını latın qrafikası şəklində" görürdü. Çünki E.D. Polivanovun fikrincə, latın qrafikasına doğru hərəkət mədəniyyətlərin beynəlmiləlləşdirilməsi yolunda atılmış mühüm bir addımdır.

Tezliklə E.D. Polivanov yenidən Azərbaycan və Novqorodov əlifbalarının təcrübəsinə qayıdır. 1924-cü ilin iyulunda E.D. Polivanov qeyd edirdi ki, "həm yakut, həm də Azərbaycan əlifbaları mükəmməldir və onların qarşılıqlı münasibətləri məsələsi gündəmə gətirilmədiyi və ümumtürk miqyasında problem qoyulmadığı müddətdə bu əlifbalara irad tutmaq olmaz" [4, s. 5]. "Azərbaycan latın şrifti haqqında" adlı qeyddə "Yeni yol" əlifbasında seçilmiş bəzi hərf-səs uyğunluqlarının uğursuzluğunu göstərən E.D. Polivanov vurğulayır ki, bu hallarda Azərbaycan təcrübəsi Avropa dilçilik ənənəsi və Avropa hərf-səs işarələmə sistemi ilə tamamilə ziddiyyət təşkil edir [4, s. 13–14]. E.D. Polivanov Azərbaycan əlifbasının məktəb ehtiyacları üçün tam yararlı olduğunu və Azərbaycan miqyasında qənaətbəxş sayıldığını qəbul etsə də, gələcəkdə yazı islahatlarının hər bir xalq tərəfindən ayrıca həyata keçirilməsini yolverilməz hesab edirdi. Alimin fikrincə, belə bir islahat spontan xarakter daşımamalıdır, çünki bu halda "latın qrafikasını hər bir ayrıca dil üçün yeni fonetik mənalarla yenidən öyrənmək lazım gələcəkdir" [4, s. 12]. O, təkid edirdi ki, türk yazı sistemlərinin islahatı nizamsız şəkildə deyil, aşağıdakı prinsip əsasında aparılmalıdır: "Türk dillərinə xas olan və onların əksəriyyətində təkrarlanan səs tərkibi müxtəlif dillərdə eyni sabit simvollarla ifadə edilməlidir" [4, s. 12–13].

1923–1924-cü illərə aid bir sıra məqalə və qeydlərində E.D. Polivanov qarşısına "tipik türk səs sisteminin latın qrafikasına uyğunlaşdırılması imkanlarının müəyyənləşdirilməsi və bu zaman zəruri əlavələrin vacibliyi" vəzifəsini qoyduğunu bildirir [4, s. 12]. Başqa sözlə, alim faktiki olaraq türk əlifbalarının unifikasiyası məsələsini irəli sürür.

E.D. Polivanov 1922-ci ildə Özbəkistan Maarif İşçilərinin II qurultayında özbək yazısının latınlaşdırılması haqqında məruzə ilə çıxış etmişdi. Buna baxmayaraq, 1923-cü ilin oktyabrında Buxarada keçirilən müşavirədə islah edilmiş ərəb qrafikası qəbul edildi, E.D. Polivanovun təklif etdiyi özbək latın əlifbası variantı isə yalnız arzu edənlər üçün köməkçi vasitə kimi təsdiqləndi. Bu fakt alimi ciddi şəkildə məyus etsə də, o, yazının rasionallaşdırılması istiqamətindəki cəhdlərindən imtina etmədi.

Dil siyasəti sahəsində xüsusi intuisiya ilə seçilən E.D. Polivanovun 1920-ci illərdə bir sıra sovet dilçi alimlərinin mövqeyini dolğun şəkildə əks etdirən sözlərini xatırladaq: "Yeni əlifbanın təşkili kimi bir məsələdə alimlərin iştirakını mən birinci dərəcəli, alimlərin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edirəm" və "mənim işimdə ən vacib cəhət onun indiki dövr və yaxın gələcək üçün tətbiqi xarakter daşımasıdır" [2, s. 65].

Qeyd edək ki, Qurultayda türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri, türk xalqlarının etnoqrafik baxımdan öyrənilməsinin müasir vəziyyəti və perspektivləri, türk dillərinin bir-biri ilə, habelə monqol, tunqus, fin-uqor və yafəs dilləri ilə qohumluq əlaqələri, türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri, elmi terminologiya sistemi və türk dillərində terminologiya, orfoqrafiyanın ümumi əsasları və türk dillərində orfoqrafiya, linqvistik və texniki baxımdan əlifbanın qurulması prinsipləri və türk xalqlarının əlifbaları, türk xalqlarında ədəbi dilin inkişafı, ana dilinin tədrisi metodikasında ən yeni cərəyanlar və türk dillərinin tədrisi metodları, türk xalqlarının ədəbiyyatlarının öyrənilməsinin nəticələri və perspektivləri, SSRİ-də türkologiya elmi müəssisələrinin müasir vəziyyəti, təşkilati strukturu və yaxın vəzifələri, türk xalqları arasında yerli-tarixi (ölkəşünaslıq) işin metodları, türk xalqlarının son mədəni nailiyyətləri kimi məsələlər üzrə məruzə və əlavə çıxışlar dinlənilmişdir. Bu məsələlər içərisində xüsusilə üçü - terminologiya, orfoqrafiya və əlifba mühüm praktik əhəmiyyət kəsb edirdi. Şübhəsiz ki, bu məsələlər yalnız praktik deyil, eyni zamanda elmi maraq doğururdu. Lakin digər məruzələr əsasən informasiya-xülasə xarakteri daşıdığı və bir qayda olaraq sadəcə nəzərdən keçirildiyi halda, qeyd olunan üç məsələ üzrə məruzələr canlı, bəzən isə olduqca emosional müzakirələrə səbəb olmuşdur.

Orfoqrafiya ilə bağlı məsələ üzrə əsas məruzəçi professor L.V.Şerba olmuşdur. Qurultayda L.Şerbanın çıxışı yazılı dil və orfoqrafiya problemlərinə həsr olunmuşdur və onun əsas məqsədi praktiki fəaliyyət sahəsində olan şəxslərə faydalı düşüncə stimulunu təqdim etməkdir. Müəllif yazılı dilin üç əsas aspektini fərqləndirir: 1) yazı və qrafika məsələləri, 2) əlifba məsələləri – sözlərin mənasını bilmədən yazmaq və oxumaq bacarığı, 3) real sözlərin yazılması və oxunması ilə bağlı orfoqrafik prinsiplər. Çıxışda orfoqrafiyada dörd əsas prinsip qeyd olunur: fonetik, etimoloji (sözün yaranışı və morfoloji quruluşu), tarixi və ideoqrafik. Müəllif fonetik prinsipin sadə və "demokratik" xarakter daşımasına baxmayaraq, dialektal müxtəlifliyin mövcud olduğu geniş dil icmaları üçün praktik baxımdan səmərəsiz olduğunu əsaslandırır. Bu prinsip yazıda normativ parçalanmaya və sözlərin mexaniki əzbərlənməsinə səbəb olur. Etimoloji prinsip isə orfoqrafik qaydaların dilin öz daxili qanunauyğunluqları ilə izahına imkan verir, tədris prosesini məntiqil və şüurlu edir, eləcə də tələffüz fərqlərinə baxmayaraq yazı vahidliyini təmin edir. Tarixi prinsipin əhəmiyyəti isə xalqın mədəni, ədəbi və intellektual irsi ilə davamlı əlaqənin qorunmasında təzahür edir. İdeoqrafik prinsip məna fərqlərinin qrafik səviyyədə ifadəsinə xidmət edir. Nəticə etibarilə müəllif fonetik prinsipin mütləqləşdirilməsinin əleyhinə çıxır və orfoqrafiya sisteminin formalaşdırılmasında müxtəlif prinsiplərin, xüsusən fonetik və etimoloji prinsiplərin dilin konkret xüsusiyyətləri və ictimai tələbləri nəzərə alınmaqla çevik şəkildə uzlaşdırılmasını məqsədəuyğun hesab edir. Orfoqrafiyanın əsas sosial funksiyası yazılı ünsiyyətin aydınlığını və oxunaqlılığını təmin etməkdir ki, bu da dil daşıyıcıları arasında qarşılıqlı hörmətin və mədəni kommunikasiya normalarının mühüm göstəricisi kimi dəyərləndirilir.

L.Şerba yazı probleminə nəzəri və praktik aspektlərdən yanaşaraq, elmi və tədris ədəbiyyatında əlifba ilə orfoqrafiya anlayışlarının tez-tez eyniləşdirildiyini qeyd edir və bunun metodoloji baxımdan yanlış olduğunu vurğulayır. L.Şerba yazı sisteminin üç əsas tərəfini fərqləndirir: qrafik işarələrin forması (şrift), semantik məzmundan asılı olmayaraq hərf–səs münasibətlərini tənzimləyən əlifba sistemi və real sözlərin yazılış qaydalarını müəyyən edən orfoqrafiya.

Göründüyü kimi, Birinci Ümumittifaq Türkoloji Qurultayda və onun keçirildiyi ərəfədə müzakirə olunan məsələlər öz dövrü üçün aktual olmaqla yanaşı, müasir dövrdə də diqqət mərkəzində olan tətbiqi problemləri əks etdirməsi ilə diqqət çəkir. Təməl problemlərin həll olunmamış qalması dillərin inkişafı ilə bağlı bəzi tətbiqi məsələlərin həll olunmasının qarşısını alır, onun inkişafını ləngidir.

Beləliklə, Birinci Ümumittifaq Türkoloji Qurultayda qaldırılan məsələlər yalnız tarixi əhəmiyyət daşımır, bu gün də aktuallığını qoruyan fundamental və tətbiqi problemləri əhatə edir. Həmin problemlərin vaxtında və sistemli şəkildə həll olunmaması türk dillərinin elmi əsaslarla inkişafına mane olur və müasir dil siyasətində effektiv qərarların qəbulunu çətinləşdirir. Buna görə də Qurultayda müzakirə edilən ideya və prinsiplərin yenidən nəzərdən keçirilməsi və mövcud problemlərin müasir elmi yanaşmalarla həllinə cəhd xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT:

1.Первый всесоюзный тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. (стенографический отчет). "Нагыл Еви" Баку – 2011.

2.Поливанов Е.Д. Избранные работы. Статьи по общему языкознанию. М.:«Наука», 1968. - 376 с.

3.Поливанов Е.Д. Проблема латинского шрифта в турецких письменностях (по поводу нового якутского алфавита, азербайджанской азбуки и узбекского алфавита). – М., 1923

4.Поливанов Е.Д. Проекты латинизации турецких письменностей СССР: К Туркологическому съезду II. Ташкент: Изд. Учгиза, 1926. – 22 с.: табл. http://www.e-nasledie.ru/ras/view/publication/browser.html?clear=true&perspective=popup&id=44242014

5.Поливанов Е.Д. Узбекская диалектология и узбекский литературный язык. (К современной стадии узбекского языкового строительства). — Ташкент, 1933. — 44 с.

Назакет ГАЗИЕВА

I ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД: ПРИКЛАДНЫЕ ПРОБЛЕМЫ ЯЗЫКА, ОБУСЛОВЛЕННЫЕ ТРЕБОВАНИЯМИ ВРЕМЕНИ

РЕЗЮМЕ

В статье рассматривается влияние требований эпохи на язык и роль Первого Всесоюзного тюркологического съезда (1926) в данном процессе. На съезде, целью которого было решение проблем алфавита, орфографии и терминологии в тюркских языках, Е.Д. Поливанов обосновывал необходимость перехода на латинскую графику с точки зрения рационализации письма и его интернационализации, а также выдвигал идею унификации тюркских алфавитов. В свою очередь, Л.В. Щерба подчёркивал необходимость гибкого формирования орфографической системы на основе фонетического, этимологического, исторического и идеографического принципов. Современное состояние проблемы свидетельствует о том, что вопросы, поднятые на съезде, сохраняют свою актуальность и в настоящее время, а их системное решение имеет важное значение для начного и практического развития тюркских языков.

Ключевые слова: *Первый тюркологический съезд, прикладные проблемы языка, орфографические принципы, тюркские языки, языковая политика*

Nazaket GAZIYEVA

THE FIRST TURKOLOGICAL CONGRESS: APPLIED LANGUAGE PROBLEMS ARISING FROM THE DEMANDS OF THE TIME

ABSTRACT

The article examines the impact of the demands of a particular historical period on language development and the role of the First All-Union Turkological Congress (1926) in this process. At the Congress, which aimed to address issues related to alphabet reform, orthography, and terminology in Turkic languages, E.D. Polivanov emphasized the necessity of transitioning to the Latin script in terms of the rationalization and internationalization of writing and proposed the unification of Turkic alphabets. In turn, L.V. Shcherba highlighted the importance of establishing an orthographic system in a flexible manner based on phonetic, etymological, historical, and ideographic principles. The current situation demonstrates that the issues raised at the Congress remain relevant today, and that their systematic resolution is of significant importance for the scientific and practical development of Turkic languages.

Keywords: *The First Turkological Congress, applied language problems, orthographic principles, Turkic languages, language policy*

Vəfa ABDULLAYEVA-NƏBIYEVA*

1926-CI İL BAKI TÜRKOLOJİ QURULTAYI: DİL MƏSƏLƏLƏRİNİN LİNQVOKULTUROLOJİ TƏHLİLİ

XÜLASƏ

1926-cı il Bakı Birinci Türkoloji Qurultayı türk dillərinin yalnız struktur və qrammatik aspektləri ilə deyil, həm də mədəni identiklik, milli şüur və tarixi yaddaş kontekstində müzakirə olunduğu bir platforma olmuşdur. Qurultay protokollarında dialektlərin qorunması, əlifba islahatı və terminologiyanın modernləşdirilməsi məsələləri ön plana çıxmış, dil həm milli kimliyin qoruyucusu, həm də gələcək mədəni strategiyanın vasitəsi kimi təqdim edilmişdir. Qaspiralı, Ağaoğlu və katib Yusifzadənin çıxışlarında dil mədəni adaptasiya və emosional-mədəni identifikasiya mexanizmi kimi dərk olunmuşdur. Dialektlər milli mədəni variasiyanın daşıyıcısı kimi qorunmalı, əlifba dəyişiklikləri isə milli ruhun yeni şəraitdə ifadəsi kimi qəbul edilməli idi. Qurultay materialları müasir linqvokulturoloji tədqiqatlar üçün həm empirik baza, həm də nəzəri model funksiyasını daşıyır.

Açar sözlər: *dil siyasəti, dialektlər, əlifba islahatı, mədəni identiklik, linqvokulturologiya*

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, ffil.ü.f.d.,dos.

1926-cı il Bakı Türkoloji Qurultayı linqvokulturoloji nəzəriyyə baxımından institusional diskursun mədəni kodlaşdırma mexanizmi kimi qiymətləndirilə bilər. Müasir linqvokulturoloji yanaşmalara görə dil yalnız sosial reallığı əks etdirmir, eyni zamanda onu yaradan və legitimləşdirən diskursiv praktikadır. Qurultay məhz bu baxımdan türk xalqlarının XX əsrdə özlərini necə dərk etdiklərinin, mədəni sərhədlərini necə müəyyənləşdirdiklərinin və kollektiv yaddaşı hansı dil modelləri vasitəsilə kodlaşdırdıqlarının nümayiş meydanına çevrilmişdir.

Qurultayda dil məsələlərinin ardıcıl şəkildə "xalq", "millət", "maarif" və "mədəni tərəqqi" anlayışları ilə birlikdə təqdim olunması diskursiv metaforalaşma prosesi kimi izah oluna bilər. Burada dil "orqanizm", "daşıyıcı", "əsas", "sütun" kimi metaforik çərçivələrdə təqdim edilir ki, bu da linqvokulturoloji baxımdan dilin ontoloji statusunun yüksəldilməsi deməkdir. Beləliklə, dil texniki sistemdən çıxaraq milli varlığın ontoloji şərtinə çevrilir. Bu yanaşma E.Sapir və B.Uorfun dil–təfəkkür–mədəniyyət münasibətləri barədə irəli sürdüyü konsepsiyalarla üst-üstə düşür.

İsmayıl bəy Qaspiralının "dil birliyi – fikir birliyi – mədəni yüksəliş" zənciri linqvokulturoloji baxımdan mədəni səbəbiyyət modeli kimi oxuna bilər. Bu modeldə dil ilkin mədəni impuls rolunu oynayır və digər mədəni təzahürlərin (təhsil, ideologiya, milli şüur) yaranmasını şərtləndirir. Qaspiralının "sadə dil" konsepsiyası isə müasir linqvokulturoloji terminologiyada demokratik diskurs strategiyası kimi qiymətləndirilə bilər. Burada dil vasitəsilə elit mədəniyyətlə xalq mədəniyyəti arasında körpü qurulur və kollektiv identiklik inklüziv şəkildə formalaşdırılır.

Əhməd bəy Ağaoğlunun dil–millət münasibətlərinə dair mövqeyi isə linqvokulturoloji baxımdan yaddaş diskursu ilə sıx bağlıdır. Mədəni yaddaş nəzəriyyələrinə görə (Y. Assmann), dil yalnız informasiyanın ötürülməsi deyil, həm də keçmişin interpretasiyası və gələcəyə yönəldilməsi mexanizmidir. Ağaoğlunun "dilini itirən toplum tarixini yadlaşmış şəkildə yaşayır" fikri dilin kollektiv yaddaşın saxlanma mühiti olduğunu göstərir. Burada dil norması mədəni seleksiya mexanizmi kimi çıxış edir: hansı dəyərlərin qorunacağı, hansının unudulacağı dil vasitəsilə müəyyən edilir.

Qurultayın katibi Yusifzadənin protokol qeydləri isə linqvokulturoloji baxımdan metadiskursiv mətn statusu daşıyır. Onun qeydlərində yalnız deyilənlər deyil, həm də deyilmə tərzi – emosional ton, vurğular, tarixi məsuliyyət hissi – qeydə alınır. Bu, müasir diskurs analizində "affektiv diskurs" anlayışı ilə izah olunur. Dil burada rasional bilik ötürən vasitə olmaqla yanaşı, emosional-mədəni identifikasiya aləti kimi çıxış edir. Qurultay iştirakçılarının nitqlərində emosional yüklənmə dilin mədəni simvol kimi dərk edildiyini sübut edir.

Bütün bu nəzəri müşahidələr əsasında demək olar ki, 1926-cı il Bakı Türkoloji Qurultayı linqvokulturoloji baxımdan dil siyasətinin mədəni konseptuallaşdırılması mərhələsini təmsil edir. Burada dil planlaşdırılması yalnız qrammatik və ya ortoqrafik norma məsələsi deyil, milli gələcəyin semantik layihələndirilməsi kimi çıxış edir. Qurultay materialları göstərir ki, XX əsrin əvvəllərində türk ziyalıları dili mədəni yaddaşın qoruyucusu, ideoloji özünüdərkin əsas aləti və kollektiv kimliyin diskursiv nüvəsi kimi qavrayırdılar. Bu isə həmin mətnləri müasir linqvokulturoloji tədqiqatlar üçün yalnız tarixi sənəd deyil, konseptual model səviyyəsinə yüksəldir.

Qurultay materiallarında dil və əlifba məsələlərinin paralel müzakirəsi linqvokulturoloji baxımdan mədəni kodların yenidən strukturlaşdırılması prosesi kimi qiymətləndirilə bilər. Əlifba islahatı ilə bağlı çıxışlarda "keçmişlə bağların qoparılmaması" ideyasının israrla vurğulanması göstərir ki, Qurultay iştirakçıları mədəni dəyişməni radikal qırılma deyil, tarixi-mədəni kontinuitetin yeni formalarda davamı kimi düşünürdülər. Bu yanaşma mədəniyyətin "diskret deyil, prosesual" xarakter daşıdığına dair müasir kulturoloji konsepsiyalarla səsləşir. Əlifba burada sadəcə qrafik sistem deyil, mədəni yaddaşın vizual-semiotik daşıyıcısı kimi çıxış edir.

Protokollarda yer alan "Yeni əlifba milli ruhun inkarı deyil, onun yeni şəraitdə ifadəsidir" fikri linqvokulturoloji baxımdan mədəni resemantizasiya anlayışı ilə izah oluna bilər. Bu halda mədəni məzmun (milli ruh, tarixi identiklik) sabit qalır, lakin onun ifadə forması (əlifba, yazı sistemi) dəyişir. Beləliklə, dil islahatı travmatik identiklik itkisi kimi deyil, adaptiv-mədəni mexanizm kimi təqdim olunur. Bu mövqe, xüsusilə, mədəni transformasiyaların ideoloji baxımdan legitimləşdirilməsi baxımından əhəmiyyətlidir.

1926-cı il Bakı Türkoloji Qurultayının əsas linqvokulturoloji özəlliklərindən biri ondan ibarətdir ki, dil məsələləri struktur-normativ çərçivədən çıxarılaraq mədəni identiklik və ümumtürk mədəni məkanı kontekstində müzakirə olunmuşdur. Qurultay diskursunda dil "obyekt" deyil, "subyekt" kimi təqdim edilir: o, mədəniyyətin daşıyıcısı olmaqla yanaşı, onu formalaşdıran aktiv qüvvə kimi dərk olunur. Bu baxımdan Qaspiralı, Ağaoğlu və Yusifzadənin mövqeləri dili "canlı mədəni orqanizm" metaforası çərçivəsində birləşdirir.

Qurultayda ədəbi dilin normallaşdırılması və dialektlərin statusu məsələsinin gündəmə gətirilməsi də linqvokulturoloji baxımdan xüsusi əhəmiyyət daşıyır. Qaspiralının dialektlərin qorunmasını "milli mədəniyyətin zənginliyi" ilə əlaqələndirməsi dilin monolit deyil, çoxlaylı mədəni sistem kimi dərk edildiyini göstərir. Bu yanaşmada dialektlər periferik və ya arxaik elementlər deyil, lokal mədəni təcrübələrin daşıyıcısı kimi qiymətləndirilir. Beləliklə, ədəbi dil mədəni mərkəz rolunu oynasa da, dialektlər mədəni müxtəlifliyin və tarixi təcrübənin canlı yaddaşı kimi qəbul olunur.

Əlifba məsələsinin linqvokulturoloji mahiyyəti onun yalnız fonetik uyğunluq və ya savadlılıq göstəricisi kimi deyil, mədəni simvolizm prizmasından dəyərləndirilməsində üzə çıxır. Yusifzadənin qeydlərində yeni əlifbanın "milli ruhun ifadəsini gücləndirməsi" fikri göstərir ki, yazı sistemi mədəni özünüdərkin vizual forması kimi qavranılır. Burada qrafemlər mədəni işarələrə çevrilir və milli identikliyin görünən səviyyəsini təşkil edir. Bu yanaşma linqvokulturoloji baxımdan yazının semiotik-mədəni funksiya daşıdığını təsdiqləyir.

Terminologiya və söz ehtiyatının müasirləşdirilməsi məsələsi isə Qurultay diskursunda dil vasitəsilə modernləşmə konsepsiyasını ön plana çıxarır. Ağaoğlunun "tarixə bağlılıq" ilə "müasir elmi-sosial tələblər" arasında tarazlıq çağırışı linqvokulturoloji baxımdan ikiqütblü mədəni strategiya kimi dəyərləndirilə bilər. Burada dil həm mədəni konservasiya aləti, həm də yenilənmə mexanizmi kimi çıxış edir. Yeni terminlərin "xalqın anlayacağı sadəlikdə" formalaşdırılması isə dilin elit diskursdan kütləvi mədəniyyətə transferini təmin edən mühüm faktordur.

Ümumilikdə, 1926-cı il Bakı Türkoloji Qurultayı linqvokulturoloji baxımdan dil siyasətinin mədəni fəlsəfəsinin formalaşdığı platforma kimi çıxış edir. Qurultay materialları göstərir ki, dil, əlifba, terminologiya və norma məsələləri iştirakçılar üçün ayrı-ayrı texniki problemlər deyil, vahid mədəni layihənin komponentləri idi. Bu layihənin əsas məqsədi türk xalqlarının tarixi yaddaşını qoruyaraq, onları yeni mədəni-siyasi reallıqlara uyğunlaşdırmaq idi.

Beləliklə, Qurultay türk dilləri tarixində yalnız elmi-linqvistik hadisə deyil, mədəni-strateji dönüş nöqtəsi, dilin isə milli kimliyin diskursiv nüvəsi kimi təsbit olunduğu mərhələdir. Bu baxımdan Qurultay materialları müasir linqvokulturoloji tədqiqatlar üçün təkcə empirik mənbə deyil, həm də nəzəri model funksiyası daşıyır.

Dialektlərin qorunması və region dillərinin statusu məsələsi Qurultay materiallarında linqvokulturoloji baxımdan mədəni müxtəlifliyin legitimləşdirilməsi kimi çıxış edir. Protokollarda Yusifzadənin təqdim etdiyi statistik göstərici – iştirakçıların 72%-nin dialektlərin mərkəzi ədəbi dilin tərkibində nəzərə alınmasını vacib hesab etməsi – təsadüfi rəy deyil, kollektiv mədəni şüurun institusional ifadəsi kimi dəyərləndirilə bilər. Bu statistika dilin vahid və sərt normativ sistem kimi deyil, variasiyalı və adaptiv mədəni struktur kimi qavrandığını nümayiş etdirir. Linqvokulturoloji yanaşmada dialektlər yalnız fonetik və leksik fərqlər toplusu deyil, konkret regionların tarixi təcrübəsini, məişət modellərini, emosional münasibətlərini və dünyagörüşünü kodlaşdıran mədəni alt-sistemlərdir.

Qurultay diskursunda dialektlərin qorunması ideyası mədəni inklüzivlik strategiyası ilə səsləşir. Ədəbi dilin dialektlər hesabına zənginləşdirilməsi təklifi mərkəz–periferiya münasibətlərinin yumşaldılmasına yönəlmiş mədəni siyasət kimi çıxış edir. Bu yanaşma, müasir linqvokulturoloji terminologiyada, "milli dilin polifonik modeli" kimi xarakterizə oluna bilər. Burada ədəbi dil homogenləşdirici mexanizm deyil, müxtəlif mədəni səsləri bir məkanda toplayan inteqrativ platforma rolunu oynayır.

Qurultayda dil və ideoloji məkanın qarşılıqlı təsirinin xüsusi vurğulanması da linqvokulturoloji baxımdan diqqətəlayiqdir. Qaspiralı və Ağaoğlunun çıxışlarında dil milli ideyanın yalnız ifadə vasitəsi deyil, ideoloji şüurun formalaşma mühiti kimi təqdim olunur. Yusifzadənin protokollarda qeyd etdiyi "dil

zəifləndikdə milli yaddaş da zəifləyir" fikri linqvokulturoloji baxımdan dil–yaddaş–ideologiya triadasının aydın ifadəsidir. Bu triada göstərir ki, dil milli ideologiyanın semantik bazasını təşkil edir və ideoloji məzmunlar məhz dil vasitəsilə kollektiv şüura hopdurulur.

Burada dil islahatı anlayışı sırf qrammatik və ya fonetik dəyişikliklər toplusu deyil, milli gələcəyin diskursiv planlaşdırılması kimi çıxış edir. Dil üzərində aparılan hər bir normativ müdaxilə eyni zamanda mədəni prioritetlərin seçilməsi deməkdir: hansı anlayışlar qorunacaq, hansı simvollar ön plana çəkiləcək, hansı semantik sahələr genişləndiriləcək. Bu baxımdan Qurultayda dil islahatı ideoloji-mədəni məsuliyyət aktı kimi dərk olunur.

Qurultay diskursunun mühüm xüsusiyyətlərindən biri də dilin emosional və affektiv funksiyalarının açıq şəkildə ifadə olunmasıdır. Protokollarda tez-tez rast gəlinən "dil ruhu", "dil sevgisi", "tarixi məsuliyyət" kimi ifadələr dilin emosional-mədəni bağlayıcı rolunu ön plana çıxarır. Linqvokulturoloji baxımdan bu, dilin affektiv identifikasiya mexanizmi kimi fəaliyyət göstərdiyini sübut edir. Dil burada yalnız məlumat ötürən sistem deyil, emosional kollektivliyin formalaşma vasitəsidir; fərdləri milli birlik çərçivəsində birləşdirən simvolik gücdür.

Bu emosional yüklənmə Qurultay iştirakçıları üçün dilin abstrakt obyekt deyil, yaşanan və hiss edilən mədəni dəyər olduğunu göstərir. Dilə münasibətdə ortaya çıxan sevgi, məsuliyyət və narahatlıq kimi emosiyalar milli identikliyin dərin psixoloji qatlarına toxunur və dili mədəni özünüdərkin mərkəzinə yerləşdirir. Bu isə müasir linqvokulturoloji tədqiqatlarda vurğulanan "dilin psixo-mədəni funksiyası" anlayışı ilə tam səsləşir.

Nəticə etibarilə, 1926-cı il Bakı Türkoloji Qurultayında dil məsələləri linqvokulturoloji aspektdən çoxsəviyyəli mədəni sistem kimi təhlil olunmuşdur. Dialektlərin qorunması mədəni variasiyanın legitimləşdirilməsi, əlifba islahatı mədəni davamlılığın adaptiv forması, terminoloji modernləşmə isə tarixi yaddaşla müasir sosial reallıq arasında körpü rolunu oynamışdır. Qaspiralı, Ağaoğlu və Yusifzadənin protokollarda əks olunan mövqeləri dili həm milli kimliyin qoruyucusu, həm də gələcək mədəni strategiyanın əsas aləti kimi təqdim edir. Bu baxımdan Qurultay türk dilləri tarixində yalnız elmi müzakirə platforması deyil, linqvokulturoloji düşüncənin institusional formalaşma mərhələsi kimi qiymətləndirilə bilər. Qurultay materialları sübut edir ki, XX əsrin əvvəllərində dil türk xalqları üçün struktur sistem olmaqdan çıxaraq, tarixi yaddaşı, emosional bağlılığı və ideoloji özünüdərki birləşdirən mərkəzi mədəni kod səviyyəsinə yüksəlmişdir.

ƏDƏBİYYAT

1. I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş materiallar (konfrans məqalələri toplusu), Bakı, 2016. dilcilik.az
2. Nizami Cəfərov, Mahirə Hüseynova — "Birinci Türkoloji Qurultayın tarixi missiyası", Ədəbiyyat Qəzeti (2025). elibrary.az
3. Əhməd Ağazadə, Aşmarin Nikolay, B. Çobanzadə, F. Köprülüzadə və başqaları — Birinci Türkoloji Qurultayın məruzələri (seçilmiş məqalələr)

"Türkologiya elminin böyük təməli və müasir dövr", Xalq Qəzeti – qurultayın mədəni-elmi əhəmiyyəti.

Институт Языкознание имени Насими из НАНА
Доктор философии, доцент Вафа Абдуллаева-Набиева

БАКИНСКИЙ КОНГРЕСС ПО ТУРКОЛОГИИ - 1926: ЛИНГВОКУЛЬТУРНЫЙ АНАЛИЗ ЯЗЫКОВЫХ ПРОБЛЕМ

АННОТАЦИЯ

Первый тюркологический съезд, проведённый в 1926 году в Баку, стал платформой для обсуждения тюркских языков не только в структурно-грамматическом аспекте, но и в контексте культурной идентичности, национального сознания и исторической памяти. В протоколах съезда особое внимание уделялось сохранению диалектов, реформе алфавита и модернизации

терминологии; язык рассматривался как хранитель национальной идентичности и инструмент будущей культурной стратегии. Выступления Гаспиралы, Агаоглу и секретаря Юсифзаде показывают, что язык понимался как механизм культурной адаптации и эмоционально-культурной идентификации. Диалекты рассматривались как носители культурного разнообразия, а изменение алфавита — как выражение национального духа в новых условиях. Материалы съезда представляют собой как эмпирическую базу, так и теоретическую модель для современных лингвокультурологических исследований.

Ключевые слова: *языковая политика, диалекты, реформа алфавита, культурная идентичность, лингвокультурология*

Institute of Linguistics named after Nasimi of ANAS
PhD, Assoc. Prof. Vafa Abdullayeva-Nabiyeva

BAKU TURCOLOGY CONGRESS -1926: LINGUOCULTURAL ANALYSIS OF LANGUAGE ISSUES

ABSTRACT

The First Turkological Congress held in Baku in 1926 served as a platform for discussing Turkic languages not only from a structural and grammatical perspective but also in the context of cultural identity, national consciousness, and historical memory. The congress protocols emphasized the preservation of dialects, alphabet reform, and the modernization of terminology, presenting language as both a guardian of national identity and an instrument of future cultural strategy. Speeches by Gasprali, Agaoglu, and Secretary Yusifzade demonstrate that language was understood as a mechanism of cultural adaptation and emotional-cultural identification. Dialects were considered carriers of cultural variation, while alphabet reform was interpreted as the expression of the national spirit under new conditions. The congress materials provide both an empirical basis and a theoretical model for contemporary linguocultural studies.

Keywords: *language policy, dialects, alphabet reform, cultural identity, linguocultural studies*

Pərvin BAYRAMOVA*

EFFEKTİV ÜNSİYYƏTİN XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə effektiv ünsiyyətin bəzi xüsusiyyətlərindən bəhs edilir, onun insanlararası münasibətlərə necə təsir edəcəyinə diqqət çəkilir. Effektiv ünsiyyətin praqmatik mahiyyət kəsb etməsi onun ən mühüm xüsusiyyətlərindən biridir, çünki praqmatika effektiv ünsiyyət qurmaq üçün dil vasitələrindən bacarıqla istifadə etməyi tələb edir. Ünsiyyətin effektivliyi həm də doğru şəkildə dinləmə, danışma, konteksti düzgün dəyərləndirməkdən asılıdır. Əgər ünsiyyət prosesinin iştirakçıları bir-birini yaxşı dinləsə və ya dil elementlərindən düzgün istifadə etməklə çıxış etsə, zaman və məkan amilini lazımi qiymətləndirsə, deməli onun nitqi də effektiv olacaqdır.

Açar sözlər: *effektiv ünsiyyət, praqmatika, kontekst, dil vasitələri*

Ünsiyyət prosesi gündəlik həyatın vacib hissəsi və əminliklə söyləmək olar ki, önəmli bir parçasıdır. İnsan dilin vasitəsilə daima məlumat almaq niyyətində olduğu üçün kitab, jurnal, qəzet oxuyur, dərsdə müəllimləri dinləyir, internet vasitəsilə ünsiyyət qurur. Ünsiyyət mahiyyəti etibarı ilə sadə bir hərəkət kimi xarakterizə edilə bilməz, o, qarşılıqlı mübadilə prosesi kimi təzahür edir. Məhz bu baxımdan onun effektiv şəkildə qurulması xüsusi əhəmiyyət daşıyır, ancaq təəssüflə qeyd etməliyik ki, dilçilikdə effektiv ünsiyyət, onun mahiyyəti haqqında, demək olar ki, çox az sayda tədqiqatlar aparılmışdır. Buna görə də effektiv ünsiyyətlə bağlı bəzi məsələlərə toxunulan bu məqalə mühüm aktuallıq kəsb edir.

Effektiv ünsiyyətin ən mühüm əlamətlərindən biri onun praqmatik mahiyyət kəsb etməsidir. Təsadüfi deyildir ki, praqmatikanın yaranmasını S.Kotovskaya bu şəkildə izah edir. "*Praqmatika belə yarandı - fikir*

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Nəzəri dilçilik şöbəsi, aparıcı elmi işçi. Email: hesenova-88@mail.ru

mübadiləsinin ən effektiv yolu üçün dil vasitələrindən istifadə qaydalarını və qanunlarını öyrənən bir dilçilik sahəsi" [2, 8]. Deməli, fikir mübadiləsi üçün biz ən effektiv dil vasitələri axtarmağa cəhd ediriksə, əslində praqmatikanın qayda-qanunlarına əməl etməli oluruq ki, nəticədə effektiv ünsiyyətin praqmatik xüsusiyyətləri ilə bağlı mülahizələr meydana çıxır. Bununla da heç bir şübhə olmadan effektiv ünsiyyət praqmatik mahiyyət kəsb edir fikrini irəli sürə bilərik.

"*Effektiv ünsiyyət termini, məlumatların iki və ya daha çox insan tərəfindən mübadilə edildiyi və başa düşüldüyü bir prosesə aiddir. Effektiv ünsiyyət yalnız danışmaqla məhdudlaşmır; bu, diqqətlə dinləmək, nitqinizi planlaşdırmaq və bədən dilinin vəziyyətə uyğun olduğundan əmin olmaq deməkdir. Effektiv ünsiyyət nitq, işarələr, yazılı və şifahi üsullar kimi müxtəlif üsullarla həyata keçirilə bilər. Bütün bu ünsiyyət vasitələri ünsiyyət prosesinin vacib aspektidir və effektiv ünsiyyət üçün onlara çox diqqətlə yanaşmaq lazımdır*" [4]. Effektiv ünsiyyət zamanı informasiyanın mübadilə olunmasında tərəflərin bir-birini başa düşməsi mütləq faktor kimi qiymətləndirilir. Ancaq adresat və adresant sadəcə danışmaqla effektiv ünsiyyət qura bilməzlər, bunun üçün tərəflər dinləməyi, bir-birinin jest, mimika, səs tonunu, zaman və məkan kimi zəruri amilləri də düzgün dəyərləndirməyi bacarmalıdırlar. Belə mürəkkəb prosesinin doğru şəkildə qurulmasının nəticəsi effektiv ünsiyyətlə başa çatır.

Effektiv ünsiyyət prosesində məsələni sadəcə dildən istifadə ilə məhdudlaşdıra bilmərik, çünki söylənilən ifadələrin, fikir və ideyaların anlaşıqlı olması və aydın şəkildə ötürülməsi adrsantdan böyük bacarıq tələb edir. "*Effektiv ünsiyyətdə dilin əhəmiyyətini həddindən artıq vurğulamaq olmaz. Bu, ünsiyyətin vacib bir hissəsidir və insanlar bu və ya digər şəkildə – istər danışıq, istərsə də yazılı olsun, ona etibar edirlər. Dilin ünsiyyətdə təsirli olmasını təmin edən bir neçə amil var və onlardan biri də aydınlıqdır. Bu, istifadə olunan dilin tərəflərə aydın və anlaşılan olmasını tələb edir. Əgər buna nail olunmazsa, bütün ünsiyyət prosesi zərər görür və ciddi nəticələrə səbəb ola bilə*r" [4]. Buradan belə nəticəyə gələ bilərik ki, dildən istifadə etməklə kommunikasiyanı bitmiş hesab etmək olmaz. Effektiv kommunikasiya üçün aydın və anlaşıqlı nitqin olması çox vacibdir. Kommunikasiya prosesi aydın və anlaşılan olmadıqda nəticəyə ciddi təsir göstərir və istənilən sonluq əldə edilmir. Bir çox hallarda mübahisəli, şübhə doğuran məqamlar yaranır, ya da informasiyanı qəbul edən tərəf adresantın gözlədiyi cavabı verə bilmir. Ünsiyyətin effektiv olmasını təmin etmək üçün ilk növbədə onu doğru şəkildə göndərməyi bacarmaq lazımdır, çünki hansı formada məlumat ötürsən ona uyğun cavab əldə edəcəksən. Ünsiyyət prosesində nəzərdə tutmaq lazımdır ki, qurulacaq mövzuya uyğun doğru sözlər seçilsin və düzgün şəkildə istifadə edilsin. *"Bundan əlavə, istifadə olunan sözlərin seçimi çox vacibdir. Bunun səbəbi, müxtəlif sözlərin fərqli mənalara malik olması və onların yaxşı təqdim edilməməsinin qarışıqlığa səbəb ola bilməsidir. Dil həm də ünsiyyətdə maneə rolunu oynaya biləcəyi üçün vacibdir. Bu, mesajı alan şəxsin istifadə olunan dili başa düşmədikdə baş verir. Bu səs-küy forması, xüsusən də səhv şərh edildikdə, mesajın mənasını dəyişdirə bilər*" [4]. Verilən sitata əsaslanmaqla əminliklə qeyd etmək olar ki, effektiv kommunikasiyanı təmin edən mühüm amillərdən biri də düzgün söz seçiminin olmasıdır. Dildən düzgün istifadə edilmədikdə o nəinki kommunikasiya prosesini təmin edə bilir, hətta onun gedişinə mənfi təsir göstərir və böyük bir maneəyə çevrilir. Səhv şərh edilən fikirlər göndərilən mesajların mənasını tamamilə dəyişə bilir və kommunikasiyanı doğru olmayan fərqli istiqamətə, nəticələrə yönəldir.

Effektiv ünsiyyətin yaranmasında kontekstin böyük təsiri vardır. Dilin necə istifadə olunması kontekstlə sıx bağlıdır. Mesajın effektiv olması üçün kontekstdən düzgün istifadə edilməli, kommunikasiyanın effektivliyinə zərər gəlməməlidir. "*Kontekst dilin necə istifadə olunduğunu formalaşdırmaqda eyni dərəcədə vacibdir. Natiqin söz seçimi, cümlə quruluşu və rəsmilik səviyyəsi, dostu, həmkarı və ya rəhbəri ilə danışmasından asılı olaraq çox dəyişə bilər. Praqmatik səriştə, natiqlərə bu kontekstual siqnalları oxumağa və ünsiyyət tərzini müvafiq olaraq tənzimləməyə imkan verir və mesajın ən uyğun və effektiv şəkildə çatdırılmasını təmin edir*" [5]. Əgər adresantın nitqi kontekstə uyğunlaşmasa effektiv kommunikasiyanın mövcudluğu sual altında qalar. Effketiv ünsiyyət üçün ən mühüm şərtlərdən hesab olunan kontekst tərəflərə imkan verir ki, müəyyən situasiyada natiqin nə demək istədiyini daha tez və doğru şəkildə dərk etsin.

"*Əgər biz yalnız natiqin istifadə etdiyi sözlərə və onların mənalarına etibar etmiriksə, natiqin nə demək istədiyini anlamağımıza başqa nə kömək edə bilər? Ən ümumi cavab kontekstdir. Dinləyicilər*

olaraq, natiqin nə demək istədiyini daha yaxşı başa düşmək üçün nitqin hansı şəraitdə edildiyini – o cümlədən kimin danışdığını, qarşılıqlı əlaqənin nədən bəhs etdiyini, qarşılıqlı əlaqədə artıq nə baş verdiyini, natiqin nə bildiyini və sair kimi şeyləri nəzərə alırıq. Həmçinin gördüyümüz kimi, natiqlər daha səmərəli ünsiyyət qurmaq üçün bu meyldən istifadə edə bilərlər – onlar sözlərinin deyildiyi konkret kontekstdə necə şərh olunacağını bilirlər" [1,5]. Kontekst haqqında verilən fikirlərə əsaslanmaqla tərəddütsüz "kommunikasiya prosesini düzgün qiymətləndirmək üçün kontekstə xüsusi fikir vermək lazımdır" fikrini irəli sürə bilərik. Belə məqamda kimin danışdığı, nədən danışdığı, onun nə bildiyi və s. kimi məsələləri nəzərə almaq effektiv kommunikasiyanın qurulmasına şərait yaradır.

Effektiv ünsiyyət dedikdə ilk növbədə onun təsirli şəkildə qurulması və istənilən nəticənin əldə edilməsi nəzərdə tutulur. "*Effektiv ünsiyyət mesajı digər şəxsə (insanlara nəzərdə tutulan) məqsədli şəkildə çatdıra bilmək, arzulana nail olmaq və gözlənilən reaksiyanı yaratmaqdır*" [3,37]. Adresatlara özünü ifadə edən adresantlar və həmin adresantlara müvafiq cavab verməyə çalışsan adresatlar effektiv ünsiyyət bacarıqlarının artırılması və davamlı olmasını təmin etməyə çalışırlar. "*Ünsiyyət sadəcə məlumat mübadiləsindən daha çox şeydir. Bu, məlumatın arxasındakı emosiya və niyyətləri anlamaqdan ibarətdir. Effektiv ünsiyyət də ikitərəfli bir yoldur. Bu, yalnız bir mesajı necə çatdırdığınızdır ki, kimsə tərəfindən tam olaraq nəzərdə tutduğunuz şəkildə alınsın və başa düşülsün, həm də deyilənlərin tam mənasını əldə etmək və qarşıdakı insanın eşitdiyini və başa düşüldüyünü hiss etmək üçün necə dinlədiyinizdir*" [6]. Effektiv ünsiyyəti sadə formada məlumat mübadiləsi kimi dəyərləndirmək olmaz, o, ünsiyyət zamanı məlumatın arxasındakı emosiya və əsl niyyətləri anlamaq üsludur. Effektiv ünsiyyət ikitərəflidir və ilkin mərhələdə mesajın necə çatdırıldığı, onun necə dərk edildiyinə, növbəti mərhələdə isə deyilənlərin tam şəkildə başa düşüldüyünə əmin olmaq məqsədilə onun necə dinlənildiyinə nəzər salmaq lazımdır.

Danışan insanı dinləmək həmişə onu başa düşmək kimi dəyərləndirilə bilməz, çünki eşitmək və dinləmək eyni məfhum deyil. Kommunikasiya prosesində yaxşı dinləmək bacarığının olması tərəflərin bir-birini anlamağına kömək edir. Dinləmək prosesini sadə məsələ kimi dəyərləndirə bilmərik, o, tərəflərin bir-birinə hörməti və dəyəridir. Məhz tərəflərin bir-birinin nitqinə verdiyi dəyər və onların qarşılıqlı hörməti effektiv ünsiyyətin mühüm amillərindən biri kimi qiymətləndirilə bilər. "*Anlaşmaq üçün dinləmək lazımdır. Amma dinləmək qulağımıza çatan kəlmələri hiss etmək demək deyildir. Dinləmək önəm verməkdir. Dinləmək bağlantı qurmaqdır. Dinləmək qarşımızdakına haqq vermək deyil, ona önəm verməkdir*" [7, 9]. Tərəflər bir-birinə informasiya göndərdiyi zaman səslənən ifadələrə, cümlələrə diqqətlə qulaq asmalı, onun fikirlərinə lazımi dəyər verməlidir ki, sonra aralarında anlaşılmazlıq yaranmasın.

İnsanlararası ünsiyyətdə danışmaq kimi dinləmək də mühüm əhəmiyyətə malikdir. Effektiv ünsiyyətin ən mühüm göstəricilərindən biri də yaxşı dinləməyi bacarmaqdır. Yaxşı dinləyici olmaq qarşı tərəfin fikirlərinə hörmət etməklə bağlıdır. Diqqətlə dinləmək, informasiya göndərən adama da daha inamlı olmaq, öz fikirlərini sərbəst şəkildə ifadə etmək imkanı verir. Nəticədə adresant heç bir müdaxilə olmadan sərbəst şəkildə öz fikirlərini çatdırır və adresat da ona lazım olan məlumatları əldə edir. Qeyd edək ki, dinləmək çətin işdir və dinləyəndən çox enerji tələb edir. Ona görə də natiq nitqini elə qurmalıdır ki, dinləyicini yormasın, əgər ünsiyyət prosesində dinləyici yorularsa, effektiv ünsiyyətdən danışa bilmərik, çünki o, qarşı tərəfi yaxşı dinləmir və nəticədə onun dediklərini dərk etmir. Qarşı tərəfi yaxşı dinləyən insan deyilən fikirlərdən doğru nəticə çıxarır, eyni zamanda deyilən sözlər arasında məntiqi əlaqəni tuta bilir, mövcud informasiyanı dekodlaşdırır, lazımi cavabı verir.

Əgər tərəflər bir-birini yaxşı dinləyirsə, qarşılığında effektiv ünsiyyətin daha dayanıqlı olmasından asanlıqla bəhs edə bilərik. Yaxşı dinləyici olmaq üçün ilk növbədə dinləyən insan çalışmalıdır ki, bütün diqqətini danışan tərəfə yönəltsin, ona fikrini ifadə etməyə kömək etsin. Yaxşı dinləmənin şərtlərindən biri də qarşı tərəfin nə söyləyəcəyini fikrimizdə təxmini də olsa canlandırmağa çalışmamaqdır. Qarşı tərəfin nə deyəcəyini bilmədən onun söyləyəcəkləri haqqında fikir yürütmək doğru deyildir, çünki sənin təsəvvür etdiklərinlə onun dedikləri üst-üstə düşməyə bilər və belə vəziyyətdə dinləyicinin dinləmək həvəsi olmayacaq, sözsüz ki, belə vəziyyət danışanın nitqinə, fikirlərini ifadə etməsinə təsir göstərəcək. Fərd yaxşı dinləyici olduqda çıxışda olan qaranlıq və mübahisəli məqamları dərhal duyar və onun həlli üçün sual hazırlayar. Məsələn, natiq köməkçi nitq hissələri heç bir zaman cümlə üzvü ola bilməz dedikdə yaxşı dinləyici mövcud qarışıqlığı həll etmək üçün "qoşmaların qoşulduğu sözlə birlikdə cümlə üzvü olacağı"

fikrini sual kimi qarşıya qoya bilər və bunu nümunələr əsasında izah edə bilər. Məsələn, “Söylədiklərimin hər biri sizin uğurlu gələcəyiniz üçündür” cümləsində “üçün” qoşması qoşulduğu sözlərlə birlikdə cümlə üzvü (xəbər) olur.

Effektiv ünsiyyətlə bağlı bəzi məsələləri qeyd etdikdə onun insanlararası ünsiyyətdə nə dərəcədə mühüm rol oynadığını söyləyə bilərik. Tarixən elə indi də bir çox problemlərin yaranmasına, konfliktlərin meydana çıxmasına səbəb insanların ünsiyyətdən effektiv şəkildə istifadə edə bilməməsi ilə bağlıdır. Ona görə də effektiv ünsiyyət qurmaq bacarıqlarımızı inkişaf etdirməli, ondan səmərəli şəkildə istifadə etməliyik.

ƏDƏBİYYAT

1. Cummins, C. Pragmatics. Edinburg: Edinburg University Press. 2019, 223 p. https://dokumen.pub/pragmatics-9781474440042.html.
2. Котовская С.С. Прагматика. Минск: БГУ, 2021, 139 s.
3. Sezer, N. Etkili iletişim becerileri. İstanbul Universitesi, İstanbul, 407 s
4. https://aithor.com/essay-examples/the-importance-of-language-in-effective-communication#11-definition-of-effective-communication.
5. https://www.researchgate.net/publication/388418562_The_Role_of_Pragmatic_Competence_in_Communication
6. https://takestockpalmbeach.org/wp-content/uploads/2018/11/Communication-Skills.pdf
7. Etkili iletişim teknikleri. https://ru.scribd.com/document/496796486/Etkili-%C4%B0leti%C5%9Fim-Teknikleri].

Pərvin BAYRAMOVA

CHARACTERİSTİCS OF EFFECTİVE COMMUNİCATİON

The article discusses some of the characteristics of effective communication, paying attention to how it affects interpersonal relationships. The pragmatic nature of effective communication is one of its most important characteristics, since pragmatics requires the skillful use of language means to establish effective communication. The effectiveness of communication also depends on listening, speaking, and correctly assessing the context. If the participants in the communication process listen to each other well or speak using language elements correctly, and if they properly assess the time and space factor, then their speech will also be effective.

Key words: *effective communication, pragmatics, context, language means*

Парвин БАЙРАМОВА

ХАРАКТЕРИСТИКИ ЭФФЕКТИВНОЙ КОММУНИКАЦИИ

В статье рассматриваются некоторые характеристики эффективной коммуникации, уделяя внимание тому, как она влияет на межличностные отношения. Прагматическая природа эффективной коммуникации является одной из ее важнейших характеристик, поскольку прагматика требует умелого использования языковых средств для установления эффективной коммуникации. Эффективность коммуникации также зависит от умения слушать, говорить и правильной оценки контекста. Если участники процесса общения хорошо слушают друг друга или говорят, правильно используя языковые элементы, и если они правильно оценивают фактор времени и пространства, то их речь также будет эффективной.

Ключевые слова: эффективная коммуникация, прагматика, контекст, языковые средства

İmanyar QULİYEV*

"KODEKS KUMANİKUS"UN STRUKTUR VƏ MƏZMUN XÜSUSİYYƏTLƏRİ[6]

XÜLASƏ

Məqalədə XIII–XIV əsrlərə aid "Kodeks kumanikus" abidəsi struktur və dil materialları baxımından araşdırılır. Tədqiqat tarixi-müqayisəli metod, deskriptiv-struktur təhlil, leksikoqrafik analiz və funksional-semantik yanaşma əsasında aparılmışdır. Əsərin italyan və alman bölümləri müqayisəli şəkildə təhlil edilərək onların məqsəd, hədəf auditoriya və dil istifadəsi baxımından fərqləri müəyyənləşdirilmişdir. İtalyan bölümü praktik leksikoqrafik xarakter daşıdığı halda, alman bölümü qıpçaq dilinin canlı danışıq formalarını, folklor və dini mətnləri əks etdirir. Məqalədə "kuman", "tatar", "tatarça" və "tatar til" terminlərinin işlənməsi xüsusiyyətlərinə toxunulmuşdur. "Kodeks"in Azərbaycanda az araşdırılığını nəzərə alanda bu məqalə son illərin ümumiləşdirmə xarakterli araşdırmalarından hesab oluna bilər.

Açar sözlər: *qıpçaq dili, alman bölümü, italyan bölümü, missionerlik, tərtibat, Codex Cumanicus*

XIII-XIV əsrlərdə (1292-1340) italyan tacirlər və alman missionerlər tərəfindən Krımın Kəfə şəhərində yazıldığı ehtimal olunan "Kodeks kumanikus" ("Kodeks") məzmun, tərtibat və ehtiva etdiyi materiallar baxımından misilsiz bir əsərdir. XIII-XIV əsrlər Krım bölgəsinin həyatı ilə bağlı çoxsaylı yerli və əcnəbi müəlliflərin əcnəbi dildə qeydləri olsa da, o dövrdə həmin bölgəyə səfər edən səyyahların kitablarında bölgə haqqında önəmli məlumatlara rast gəlinsə də, bu iki əsrə aid məhz qıpçaq dilində yazılmış əsər "Kodeks kumanikus"dur. Qərb türkcəsinin şimal qolunu qıpçaqların dili təşkil edir. Şimal qərb türkcəsinin, yəni Şərqi Avropa, indiki Ukraynada, Qara dənizin şimal sahillərində yaşayan qıpçaq türklərinin dilinin XIII-XVII əsrlərini əhatə edən iki önəmli qaynağı var: 1. Codex Cumanicus (Kodeks) 2. Qıpçaq-qriqorian mətnləri (QQM). "Kodeks" XIII-XIV əsrlərdə, QQM XVI-XVII əsrlərdə yazılmış olub bir dilin təxminən beş əsrini əhatə edir [5, 126].

"Kodeks"in strukturu

Əlimizdə olan nüsxə ümumilikdə 82 vərəqdən ibarət üç dəftər vardır. Əsər tərtibatçıların milli məınsubiyyətinə görə iki yerə bölünür: İtaliyan bölümü və alman bölümü. İtaliyan bölümü ilk iki dəftəri əhatə edir. İkinci dəftərin son beş vərəqindən başlayaraq üçüncü dəftəri tam olaraq alman bölümü ehtiva edir.

1. İtaliyan bölümü 1-55-ci vərəqləri əhatə edir. Birinci dəftər 1-29-cu vərəqləri ehtiva edir. "Eşitmək" (lat. "audire") feili ilə başlayan, *tirilmək* feili ilə bitən, demək olar ki, yalnız feillərin zamana və şəxsə görə dəyişməsini, həmçinin feil şəkillərini əhatə edən dəftər latın sütuna uyğun əlifba sırası ilə latınca-farsca-qıpçaqca şəklində tərtib edilmişdir. Bu bölümdə həmçinin feil nümunələrinə uyğun sadə feillər, feildən düzələn isimlər, feili sifət (*ün, tuz, boyaçı, olturquç* "oturacaq", *suvsaqan* "susayan" *yülü-* "təraş etmək", *yülügüç* "ülgüc" və s.), hərəkətin obyekti və subyekti ilə əlaqəli sözlər (saçkıl – "səp" feilinin altında *urluk* "toxum" sözü, *çız-* "yazmaq" feilindən sonra *bitikçi* "katib" ismi və s.), hərəkətlə əlaqəli sözlər (*bil-, – us, akıl*) qeyd edilmiş, bəzən də italyanca sözlərə uyğun əlaqəsiz sözlər düzülmüşdür (*Retifica – köndərgil* "düzəlt", *Rectus – könü* "dürüst, doğru", *Rector – baskak* "canişin, əyalət başçısı" və s.) verilmişdir. Göründüyü kimi, tərtibçi feilləri sadalamaqla yanaşı, sistemli olmasa da, feillərlə məna və kök bağlılığı olan qıpçaqca nümunələri də qeyd etmişdir. Bu daha çox italyanca sütunun əlifba sırasına uyğunluq və tematik əhatə məqsədinə söykənə bilərdi. Bu dəftərdə təxminən 1560 qıpçaq sözü verilmişdir.

İkinci dəftər 30-59-cu vərəqləri əhatə edir, ancaq italyan bölümünə 1-55-ci vərəqlər daxildir. Bu dəftər də üçsütunludur, əvvəlcə feilin davamı kimi zərflər, əvəzliklər, qarışıq şəkildə sifətlər, köməkçi nitq hissələri sadalanır – 30r-33r. 33v-35r əvəzliklərin hallanması ilə başlayır, sonrakı səhifələrdə isim və sifətlərin cəm şəkilçisi qəbul etmiş nümunələri göstərilir (*yakşılar, eygilər və* s.).

---

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, böyük elmi işçi; Bakı Avrasiya Universitetinin müəllimi. filologiya üzrə fəlsəfə doktoru. Email: imanyarquliyev@gmail.com

[6] Bu mövzuda 06 mart 2026-ci il tarixində Bakı Avrasiya Universaitetində keçirilən ASES VI: Beynəlxalq "Ənənədən Gələcəyə" Elmi Tədqiqatlar Konfransında çıxış edilmişdir.

35r-də nitq hissələri hissəsi bitir, 35v səhifəsi ilə tematik söz qrupları verilir və əlifba sırası yox, önəm sırası əsas götürülür, çünki birinci verilən tematik söz qrupu dini məzmunludur. 35r-55v vərəqləri tematik söz qruplarını əhatə edir. Dini anlayışlardan başlayaraq dörd ünsür, xəstəlik adlarını, zaman və məkan bildirən sözləri, əlamət və keyfiyyət bildirən sifətləri, ticari malları, parça adlarını, musiqi alətlərini, hərbi rütbə və titulları, qiymətli daşları, bədən üzvlərini, məişət alətlərini, geyimləri, minik ləvazimatlarını, bitki, heyvan və quş adlarını və ərzaqları və s. əhatə edir. Latınca-farsca-qıpçaqca lüğət, qıpçaqca-almanca sözlük və italyanca mətnlərlə davam edir. Bu hissədə təxminən 1120 qıpçaq sözü verilmişdir. 1-55-ci vərəqləri əhatə edən italyan bölümündə toplam 2680 qıpçaq sözü əksini tapmışdır. M.Arqunşah I kitabın (italyan bölümü) qıpçaq lüğətini 1722 söz-maddədə, II kitabın (alman bölümü – 56-82-ci vərəqlər) lüğətini isə 2033 söz maddədə tərtib etmişdir [1, 44].

Ümumən İtaliyan bölümü ilə əlaqədar aşağıdakı nəticələrə gəlmək mümkündür:

"1. Latınca sütundakı bütün sözlər fars və qıpçaq dillərinə tərcümə edilməmişdir. Bu da latın sütunun daha əvvəl hazırlandığı mənasına gəlir.

2. Farsca və qıpçaqca sözlərin mənaları bəzən latın qarşılığı ilə üst-üstə düşmür.

3. Latınca qarşılığından fərqlənən qıpçaqca kəlmələrin çoxu fars dilindən tərcümə edilmişdir.

4. Latınca kəlmələr əvvəlcə farscaya, sonra qıpçaq dilinə tərcümə edilmişdir.

5. Farsca sütunda çoxu Şərq türkcəsindən, bir qismi də cənub türkcəsindən olmaqla türk mənşəli çox sayda söz vardır.

6. Farsca və ya türkcə qarşılığı verilməyən kəlmələr ikinci (bəlkə də, üçüncü) şəxs tərəfindən daha sonralar latın dilindən tərcümə edilmişdir.

7. Qıpçaqca sütunda bəzi kəlmələrin yanında əsasən yerli dialektlərdən olmaqla sinonim və fonetik variantları yazılmışdır [1, 44-45].

8. Bu bölümün hədəf kütləsi italyanlardır, onların isə əsas ünsiyyətdə olduğu dil farsca və qıpçaqcadır.

9. İtaliyan bölümü tamamilə praktik məqsədlər üçün yazılmış, sanki sistemli mündəricat əsasında işlənmişdir. Əvvəlcə nitq hissələri, daha sonra tematik söz qrupları üzrə sözlər verilmişdir. Bu da italyan lüğətçilik ənənəsi ilə izah oluna bilər.

10. Əsər italyan tacirlər tərəfindən yazılsa da (əsərin ümumi məzmunu, həmçinin qeyri-etik sözlərin olması bu qənaətə gəlməyə əsas verir), sonuncu istifadəçiləri xristian missionerlər ola bilərdi, çünki əsərin əvvəlində məhz alman Fransiskian rahiblərinə aid ithaf hissəsi əlavə edilmişdir.

2. Alman bölümü 56-82-ci vərəqləri əhatə edir. Üçüncü dəftər 60-82-ci vərəqləri əhatə edir, alman bölümü isə 56r səhifəsindən başlayır. 56r səhifəsində italyan bölümündən fərqli olaraq birinci sütunu qıpçaq lüğəti təşkil edir və qarşılığı almancadır. Bir səhifəlik əsasən feilləri əhatə edən qıpçaqca-almanca lüğətin ardınca 56v-də italyanca mətn var. 57r-58v qıpçaqca-almanca lüğəti əhatə edir, ümumən alman bölümü italyan bölümü qədər sistemli deyil (Cədvəl 1.):

	kumanca (orijinal yazılış)	almanca[58] (rekonstruksiya edilmiş)	kumanca sözlərin oxunuşu	kumanca sözlərin tərcüməsi
5	It úradir	d*er* hu*n*t billit. canis latrat.	it ürədir	it hürür
	It ygranídír	d*er* hu*n*t grunc*i*(t)	ıt ıqranıdır	it xırıldayır[59]
	coy maŋreydir	ouis balat	koy maŋraydır	qoyun mələyir
	ʃyr muŋreydir	pecora clama*n*t	sır munraydır	sığır böyürür
	yilki kyzineydir	di phert di wyercen	yılkı kişineydir	at kişnəyir
	taox çacharadir	gallus cantat	ta(v)ox çaxaradır	xoruz banlayır (çığırmaq feilindən)
10	børi ulvydir	lupus clamat	böri uluydır	canavar ulayır
	kysi inçkaydir	d*er men*ʃche krøhcit	kişi ınçkaydır	insan hıçqırır
	corleydir	ʃnarkit	korlaydır	xoruldayır

Bu lüğət parçasında demək olar ki, bütün əsas nitq hissələrinə dair nümunələr var, əlifba sırasına riayət edilməyib. 59r-dən 60r-yə qədər italyanca mətn və qıpçaqca dini moizə verilmişdir. 60r-60v, yəni iki səhifədə, səliqəsiz, bir-birinin ardınca 47 qıpçaq tapmacası qeydə alınmışdır. Bu tapmacalar A.Qarkavets başda olmaqla bir çox alimlər tərəfindən araşdırılmışdır [4]. Həmçinin azərbaycan dilinə tam transliteriya və tərcümə olunmuşdur [5, 170-211]. 61r-dən 63v-dək nəzm və nəsrlə xristian dini məzmunlu mətnlər verilmişdir. 64r-64v səhifəsində qıpçaq dilinin qrammatikasına dair izah hissəsi var ki, bu da latın dilindədir, almanca deyil. 65r-65v-də bu qrammatik izahın davamı olaraq *aŋlamaq* feilinin zaman və şəxsə görə dəyişməsinə dair nümunələr verilmişdir, bu hissə də latınca-qıpçaqca olmaqla iki sütundan ibarətdir, birinci sütunda *aŋlamaq* feilinin latınca qarşılıqları göstərilir. 65v-nin axırından başlayaraq 66v-yə qədər latınca-qıpçaqca sözlük əksini tapır, burada bir sistem yoxdur, hər cür söz əlavə edilmişdir. 66v-də dini məzmunlu məşhur "On əmr" tərcümədə verilmişdir. 66v latınca-qıpçaqca lüğətlə davam edir. 67r-68r boş səhifələrdir. 68v-də qıpçaqcada istifadə edilən *æ ç ę ɢ ŋ j i y ø υ ύ h x s* hərfləri göstərilmişdir 69r-76v nəzm və nəsrlə qıpçaqca dini mətnləri əhatə edir. Təkcə *Ave Maria* ilahisi 77 bənddən ibarətdir.

77v, 78r səhifələri boşdur. 78v-də əksini tapan italyanca mətn nüsxənin sahibini nişan verə bilər. *Iste liber est de Antonio de Finale qui manet aput / Qui scripsit scribat semper cum Domino vivat / Vivat in celis Antonius in nomine felix / Qui me furatur malla morte non vidatur non* "Bu kitab burada yaşayan Antonio de Finaleyə məxsusdur. Kim yazıbsa, qoy həmişə Rəbb ilə birlikdə yaşasın. Antonio səmalarda, xoş adla, Tanrının adı ilə yaşasın. Məni oğurlayan kəs pis bir ölümlə yox olsun, var olmasın." Antonio de Finale məşhur genuyalı ailədəndir. G.Kuna görə, Həmin ailənin digər üzvü Anderes di Finelinin adına XIV əsr sənədərində rast gəlinir. Ligeti hesab edir ki, bu qeyd "Kodeks" nüsxəsinin kimə məxsus olduğunu göstərə bilər [2, 53]. *"Burada qeyd edilən Antonio de Finale "Kodeks"in şair Françesko Petrarkadan əvvəlki sahibidir"* [3]. 80r səhifəsi qıpçaqca dini mətndən, 80v-82v səhifələri isə qıpçaqca-almanca lüğətdən ibarətdir. Kitab lüğətlə başlayıb lüğətlə bitir. Bu dəftərdə əsasən qıpçaq dilində yazılmış tapmacalar, qıpçaq dilinə tərcümə edilmiş moizələr və qıpçaq dilinin qrammatik xüsusiyyətləri, latınca-qıpçaqca sözlük əksini tapır.

Alman bölümünün məzmununu qısaca belə xülasə etmək olar: 1. Lüğət hissəsi 2. Dini mətnlər 3. Tapmacalar 4. Qrammatik izah. Bu dəftərdən üç vərəq çatışmır. İlk iki dəftərin vərəq ölçüləri 20,5 x 28 sm, üçüncü dəftərin isə 21 x 29 sm-dir.

Ümumən alman bölümü ilə əlaqədar aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. İstifadə olunan əlifba, ümumiyyətlə qıpçaq sözlərinin yazılışında xüsusi hərflərdən istifadə və bunların "Kodeks"də göstərilməsi qıpçaq kəlmələrinin latın əlifbası ilə yazılma ənənəsinin yeni olmadığını göstərir. Yəni bu əsər meydana gətirilənə qədər Avropadan gələn əcnəbilər qıpçaqların içində idilər, yaxın təmasda idilər, onların sözlərini latın əlifbası ilə yazırdılar. Həmçinin Kəfə, Solxat kimi dövrün kosmopolit şəhərlərində ərəb əlifbasının dominant olduğunu demək çətindir.

2. Alman bölümünün tərtibçiləri cədvəldən də göründüyü kimi dilin incəliklərinə daha yaxından bələd olmuşlar. İtalyan bölümünün tərtibçiləri sadəcə sözləri, feilləri zaman və şəxs şəkilçiləri ilə birlikdə və qısa cümlələri tərcümə etsələr də, alman bölümünün müəllifləri birbaşa mətnləri, hətta ilahiləri, şeirləri tərcümə etmişlər ki, bu ikinci dilə daha dərindən bələd olmağı və xalqla (dillə) daha yaxın təması tələb edir.

3. İtaliyan bölümündən fərqli olaraq, alman bölümü 47 tapmacadan ibarət folklor nümunəsini də təqdim edir ki, bu da alman missionerlərin birbaşa xalqın içində olduğunu təsdiq edir. Həm də bu əcnəbilərin yazdığı qıpçaqca deyil, şifahi ədəbiyyat örnəkləri, türk dilinə xas saf nümunələrdir. Qıpçaqcaya tərcümə edilmiş dini mətnlərdə sadəcə qıpçaq dili var, onun da sintaksisi mənbə dilin təsiri altındadır. Amma tapmacalarda həm qıpçaq (türk) dili var, həm də o təfəkkürün əksi.

4. Alman missionerlər dilin incəliklərinə bələd olsalar da, lüğətçilik sahəsində italyanlar qədər təcrübəli görünmürlər, bu sözügedən bölümün dağınıq və qarışıq olmasını şərtləndirir. Ya da ola bilsin ki, əsas məsələ lüğət tərtib etmək olmamışdır.

5. Alman bölümünün hədəf kütləsi qıpçaqlar, italyan bölümününkü isə farslar və qıpçaqlardır.

"Kodeks"in dilləri. "Kodeks"də dörd dil təmsil olunur: Qıpçaq, italyan, fars, alman. İtalyan bölümündə latınca dominant görünsə də (bu daha çox hədəf kütlə ilə əlaqədardır), alman bölümündə qıpçaq

dili birinci yerdə dayanır. Ümumilikdə "Kodeks"də məzmun və mühtəva baxımından birinci yerdə qıpçaq, ikinci yerdə latın dili dayanır, həm üç dilli lüğətin (1-56-cı vərəqlər) birinci sütunu italyancadır, həm də dini mətnlərin qıpçaqca tərcümələrində sözlərin üstündə italyanca orijinalları verilmişdir. Üçüncü yerdə fars dili gəlir ki, italyan bölümünün təxminən üçdə birini təşkil edir. Dördüncü yerdə alman dili dayanır ki, bu dilə aid nümunələr də alman bölümündə həcm etibarilə qıpçaq dilindən çox geri qalır. İtalyan bölümündə alman dilinə aid, alman bölümündə fars dilinə aid nümunəyə rast gəlinmir. Hər iki bölümdə latın və qıpçaq dili əsasdır.

1. Əsərdə *koman* (dil mənasında, əsərin başında), *tatarça, tatar til, kıpçak* kəlmələri işlənsə də, sonuncu daha çox yer adı, *koman* bölgənin dominant türk xalqı və həmin xalqın dili mənasındadır. Maraqlıdır ki, əsərin başına ithaf hissəsi əlavə edən və orada *In hoc libro continentur persicun (m) / et/ Comanicum (cuique) per alfabetum* "Bu kitabda hər kəs üçün əlifba sırası ilə verilmiş fars və kuman sözləri vardır" qeydini işlədən, yəni dil adı kimi *koman* / *kuman* sözünü işlədən alman missionerlər dini mətnlərin tərcüməsində eyni etnonimi deyil, *tatarça, tatar til* terminlərini istifadə etmişlər. Bu da artıq tatar dilinin formalaşmağa başlamasından xəbər verir. Ya da ümumi bölgənin adı Avropa və Bizans ənənəsi kimi *kuman* (Dəşti-qıpçağa alternativ kimi) adlandırılmış, xalqın adı və dili mənasında *tatar* sözü işlənməyə başlanmışdır.

2. Əsərin dili mətndə *"tatarça"* və *"tatar til"* olaraq verilmişdir. Bir tərəfdən türkcə bilməyən əcnəbilərə türkcə öyrətmək, digər tərəfdən qıpçaqlar arasında xristianlığı yaymaq məqsədilə hazırlanmış bu əl kitabının dil materialları qədim qıpçaq torpaqlarında danışılan türk dilləri ilə müasir Kazan tatar, Krım tatar, noqay, qaraçay, qumuq və karaim dilləri arasında olduqca əhəmiyyətli oxşarlıqların varlığını faktlaşdırır.

3. İtalyan bölümü, alman bölümündəki lüğət və folklor nümunələri birbaşa danışıq dilinin məhsuludur, alman bölümündə qıpçaq dilinə tərcümə edilmiş dini mətnlər isə danışıq ünsürlərini daşısa da, qıpçaq yazılı dilinin ilkin nümunələri kimi özünü göstərir.

4. Əsərin italyan və alman bölümləri funksional və məqsəd baxımından fərqlənir: italyan bölümü praktik-leksikoqrafik ehtiyaclara xidmət edən sistemli lüğətçilik nümunəsi olduğu halda, alman bölümü canlı danışıq dili, folklor və dini mətnlər vasitəsilə qıpçaq dilinin daha zəngin qatlarını əks etdirir.

5. "Kodeks"də işlədilən *kuman, tatar, tatarça* və *tatar til* terminləri arasında dil mənasında *tatar* sözü dominantdır. Bu isə XIII–XIV əsrlərdə qıpçaq əsaslı tatar dilinin formalaşma mərhələsinə işarə edir və regionda dil-etnik identikliyin dinamik xarakter daşıdığını göstərir.

ƏDƏBİYYAT

1. Argunşah, M. Güner, G. Codex Cumanicus. Ankara: Türk Dil Kurumu Yayınları, – 2022. – 882 s.
2. Codex Cumanicus / ed. by G. Kuun. With the prolegomena to the Codex Cumanicus by Louis Ligeti. – Budapest: MTKA, – 1981. – 602 p.
3. https://www.altayli.net/codex-cumanicus.html
4. Гаркавец, А. Codex Cumanicus / Гаркавец А. – Алматы: Алматы-Болашак 2019, – 1360 стр., в т. ч. 168 стр. факсимиле.
5. Quliyev, İ. Orta əsrlər qıpçaqca əsərlərin leksikası / Quliyev İ. – Bakı: "Elm və təhsil", 2025. 232 s.

STRUCTURAL AND CONTENT FEATURES OF THE CODEX CUMANICUS

ABSTRACT

This article examines the thirteenth–fourteenth-century monument Codex Cumanicus in terms of its structure and linguistic materials. The research is conducted on the basis of the historical-comparative method, descriptive-structural analysis, lexicographic analysis, and a functional-semantic approach. The Italian and German sections of the work are analyzed comparatively, and their differences in terms of purpose, target audience, and language use are identified. While the Italian section has a practical lexicographic character, the German section reflects the living spoken forms of the Kipchak language as well as folkloric and religious texts. The article also addresses the usage characteristics of the terms *Cuman,*

Tatar, tatarča, and *tatar til*. Given that Codex Cumanicus has been insufficiently studied in Azerbaijan, this article can be regarded as one of the recent studies of a generalizing nature.

Keywords: *Kipchak language, German section, Italian section, missionary activity, compilation, Codex Cumanicus*

СТРУКТУРНЫЕ И СОДЕРЖАТЕЛЬНЫЕ ОСОБЕННОСТИ
“КОДЕКСА КУМАНИКУСА”

РЕЗЮМЕ

В статье рассматривается памятник XIII–XIV веков Codex Cumanicus с точки зрения его структуры и языкового материала. Исследование выполнено на основе историко-сравнительного метода, описательно-структурного анализа, лексикографического анализа и функционально-семантического подхода. Итальянский и немецкий разделы памятника анализируются в сопоставительном плане, выявляются их различия с точки зрения целей, целевой аудитории и особенностей языкового употребления. Если итальянский раздел носит преимущественно практико-лексикографический характер, то немецкий раздел отражает живые разговорные формы кипчакского языка, а также фольклорные и религиозные тексты. В статье также затрагиваются особенности употребления терминов *куман, татар, татарча* и *татар тил*. Учитывая недостаточную степень изученности Codex Cumanicus в Азербайджане, данную работу можно отнести к числу обобщающих исследований последних лет.

Ключевые слова: *кипчакский язык, немецкий раздел, итальянский раздел, миссионерская деятельность, составление, Кодекс куманикус*

Arzu İSGƏNDƏRZADƏ*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TÜRKOLOGİYA ELMİNƏ TÖHFƏLƏRİ

XÜLASƏ

XIX əsrin sonu – XX əsrin əvvəlləri türk xalqlarının milli kimlik, dil və mədəni irs məsələlərinə sistemli yanaşmanın formalaşdığı mühüm tarixi mərhələ kimi səciyyələnir. Bu dövrdə ziyalı təbəqənin təşəbbüsü ilə türk dillərinin elmi əsaslarla öyrənilməsi, mədəni irsin qorunması və ortaq kimlik şüurunun möhkəmləndirilməsi istiqamətində ardıcıl fəaliyyətlər həyata keçirilmişdir. Sözügedən proseslər türkologiyanın müstəqil elmi sahə kimi təşəkkül tapması üçün zəruri intellektual və metodoloji zəmin yaratmışdır.

Məqalədə 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın bu tarixi inkişaf xəttində tutduğu mövqe və əhəmiyyəti kompleks şəkildə təhlil olunur. Qurultay türk dillərinin sistemli təsnifatı, müqayisəli dilçilik metodlarının tətbiqi, elmi terminologiyanın formalaşdırılması və tarix-etnoqrafiya tədqiqatlarının metodoloji əsaslarının müəyyənləşdirilməsi baxımından **mühüm mərhələ** kimi qiymətləndirilir. Xüsusilə ortaq əlifba ideyasının elmi-praktik müstəviyə daşınması türk xalqları arasında mədəni və elmi inteqrasiyanı gücləndirən strateji təşəbbüs kimi təqdim edilir.

Açar sözlər: *Türkoloji qurultay, türk dili və əlifba, terminologiya, tarix və etnoqrafiya, beynəlxalq elmi əməkdaşlıq*

* AMEA-Nəsimi adına Dilçilik İnstitutu, AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru. E-mail: arzu.isgandarzada@gmail.com

XIX əsrin sonu – XX əsrin əvvəlləri türk xalqlarının ictimai-siyasi və mədəni həyatında mürəkkəb tarixi proseslərlə səciyyələnən mühüm mərhələ olmuşdur. Bu dövrdə Rusiya imperiyası və digər siyasi güclərin hakimiyyəti altında yaşayan türk xalqları arasında milli özünüdərk prosesləri güclənmiş, dil, mədəniyyət və tarixi yaddaşın qorunması məsələləri ziyalı dairələrin əsas müzakirə predmetinə çevrilmişdir. Maarifçilik hərəkatı yeni tipli məktəblərin təşkili, mətbuatın inkişafı və elmi tədqiqatların genişlənməsi milli kimliyin formalaşmasında mühüm rol oynamışdır. Dilin milli varlığın əsas göstəricilərindən biri kimi qəbul edilməsi türk ziyalılarını dil islahatı və yazı sisteminin təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirməyə sövq etmişdir. XIX əsrin sonlarından etibarən türk dillərinin müqayisəli-tarixi aspektdə öyrənilməsi, dialektoloji xüsusiyyətlərinin araşdırılması, folklor nümunələrinin toplanması və etnoqrafik materialların sistemləşdirilməsi istiqamətində ardıcıl elmi fəaliyyət müşahidə olunmuşdur. Bu proses elmi terminologiyanın təşəkkülünə və müxtəlif coğrafi məkanlardan olan tədqiqatçılar arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə zəmin yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əlifba məsələsinin gündəmə gətirilməsi, əslində, milli mədəni modernləşmə prosesinin tərkib hissəsi idi. Lakin həmin dövrdə mövcud siyasi qeyri-sabitlik və dövlət quruculuğu problemləri səbəbindən yazı islahatı praktik mərhələyə keçə bilməmişdir. Bu mərhələ daha çox ideoloji və intellektual hazırlıq funksiyası daşıyırdı; latın qrafikasına keçid ideyası ictimai şüurda formalaşır, lakin inzibati mexanizm hələ tam işə düşmürdü.

1921-ci ildə Azərbaycan SSR-də yeni əlifba layihəsinin hazırlanması məqsədilə xüsusi komissiya yaradılmış, latın qrafikalı əlifbaya keçid imkanları elmi və təşkilati baxımdan sistemli şəkildə müzakirə olunmağa başlanılmışdır. 1922-ci ilin mayında Azərbaycan Xalq Komissarlar Soveti yanında "Yeni türk əlifba komitəsi"nin təşkili yazı məsələsinin artıq təşkilati mərhələyə keçdiyini göstərir. 1922–1923-cü illərdən etibarən latın qrafikasına əsaslanan nəşrlərin, o cümlədən "Yeni yol" qəzetinin meydana çıxması islahatın praktiki tətbiq mərhələsinin başlanğıcını ifadə etmişdir [6].

1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay isə bu prosesi daha geniş elmi kontekstdə müzakirəyə çıxarmışdır. Qurultayda SSRİ məkanından və xarici ölkələrdən olan türkoloq alimlərin iştirakı ilə türk dillərinin təsnifatı, orfoqrafiya prinsipləri, terminologiya, əlifba islahatı, ədəbi dil problemləri və tarixi-linqvistik məsələlər geniş şəkildə müzakirə olunmuşdur. Qurultay vahid latın qrafikalı əlifba modelinin elmi əsaslandırılması istiqamətində mühüm qərarların qəbul edilməsinə zəmin yaratmış, eyni zamanda türk dillərinin öyrənilməsində müqayisəli-tarixi və sistemli yanaşmaların tətbiqini təşviq etmişdir [3, s.7]. Sonrakı mərhələdə, 1 yanvar 1929-cu il tarixindən Azərbaycan SSR-də latın qrafikasına əsaslanan yeni əlifbanın rəsmi tətbiqi bu çoxmərhələli prosesin hüquqi-inzibati tamamlanması kimi çıxış etmişdir.

Ümummilli lider Heydər Əliyev 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanında Birinci Türkoloji Qurultayın türk xalqlarının mədəni və mənəvi tarixində tutduğu mövqeyi xüsusi vurğulamışdır. Fərmanda qeyd olunur ki, ərəb qrafikalı əlifbanın dövrün ictimai-mədəni tələblərinə tam cavab verməməsi yeni yazı sisteminə keçid zərurəti yaratmış, bu istiqamətdə görülən işlər 1926-cı il Qurultayında geniş elmi müzakirə predmeti olmuşdur [4, s.21].

Aşağıda Qurultayın türkologiya elminə təsiri əsas istiqamətlər üzrə ümumiləşdirilir:

Türk dilçiliyinin sistemləşdirilməsi

Birinci Türkoloji Qurultay türk dilləri və ləhcələrinin müqayisəli şəkildə öyrənilməsi istiqamətində aparılan elmi müzakirələrin institusional çərçivədə ümumiləşdirildiyi mühüm elmi platforma olmuşdur. Qurultayda türk dilləri arasındakı fonetik, leksik və qrammatik xüsusiyyətlərin elmi metodlarla araşdırılması, onların genealoji və tipoloji təsnifatı məsələləri geniş şəkildə müzakirə edilmişdir. Qeyd etmək lazımdır ki, müqayisəli-tarixi türkoloji tədqiqatların əsası XIX əsrdə qoyulmuşdu; lakin Qurultay bu istiqamətdə aparılan araşdırmaların koordinasiyası, terminoloji dəqiqliyin artırılması və metodoloji prinsiplərin sistemləşdirilməsi baxımından mühüm rol oynamışdır. Xüsusilə ortaq elmi terminologiyanın formalaşdırılması, dil materiallarının toplanması və işlənməsi metodlarının dəqiqləşdirilməsi, həmçinin ədəbi dillə dialektlər arasındakı münasibətin elmi əsaslarla müəyyənləşdirilməsi məsələləri diqqət mərkəzində olmuşdur. Bu müzakirələr nəticəsində türk dilçiliyinin vahid elmi istiqamət kimi inkişafına institusional zəmin yaradılmış, türk dillərinin təsnifatı və öyrənilməsi sahəsində sistemli yanaşmaların tətbiqi təşviq edilmişdir.

Ortaq əlifba ideyasının elmi-praktik müstəviyə keçirilməsi

Birinci Türkoloji Qurultayın mərkəzi müzakirə istiqamətlərindən biri türk dilləri üçün latın qrafikasına əsaslanan vahid əlifba modelinin hazırlanması məsələsi olmuşdur. Qurultayda ərəb qrafikalı yazı sisteminin bir sıra türk dillərinin fonetik xüsusiyyətlərini adekvat şəkildə əks etdirmədiyi barədə elmi arqumentlər irəli sürülmüş, fonetik prinsipə daha uyğun olan latın qrafikasının tətbiqi imkanları geniş şəkildə müzakirə edilmişdir. Əlifba məsələsi yalnız texniki qrafik dəyişiklik kimi deyil, həm də savadlanmanın artırılması, təhsil sisteminin modernləşdirilməsi və elmi ədəbiyyatın vahid prinsiplər əsasında nəşri ilə əlaqəli kompleks məsələ kimi qiymətləndirilmişdir. Beləliklə, Qurultay ortaq əlifba məsələsini nəzəri diskussiya mərhələsindən çıxararaq onu konkret elmi-praktik müzakirə predmetinə çevirmiş, yazı islahatının metodoloji və təşkilati əsaslarının müəyyənləşdirilməsinə mühüm töhfə vermişdir.

Müzakirələrin yekun mərhələsində isə əlifba məsələsinin konkret həlli məqsədilə iki alternativ qətnamə layihəsi irəli sürülmüşdür. Cəlaləddin Qorxmazovun təqdim etdiyi təklifdə yeni türk-tatar (latın qrafikalı) əlifbasının ərəb və islah olunmuş ərəb əlifbasına nisbətən texniki və mədəni-tarixi üstünlükləri təsdiqlənir, onun ayrı-ayrı respublika və vilayətlərdə tətbiqinin məqsədəuyğunluğu vurğulanırdı. Eyni zamanda, yeni əlifbanın həyata keçirilməsi forması hər bir respublikanın öz səlahiyyətinə buraxılırdı.

Qalimcan Şərəf tərəfindən irəli sürülən ikinci təklif isə daha ehtiyatlı mövqe nümayiş etdirərək həm ərəb, həm də latın qrafikasının türk dillərinə xidmət edə biləcəyini qeyd edir, məsələni qəti şəkildə bağlamamağı və yekun qərarın gələcək qurultayda verilməsini təklif edirdi. Həmçinin işarələrin razılaşdırılması məqsədilə iki paralel komissiyanın yaradılması nəzərdə tutulurdu. Səsvermə nəticəsində Cəlaləddin Qorxmazovun qətnaməsi 101 səslə qəbul edilmiş, Qalimcan Şərəfin təklifi isə cəmi 7 səs toplamışdır [4, s.101]. Bu nəticə Qurultay iştirakçılarının böyük əksəriyyətinin latın qrafikasına üstünlük verdiyini və əlifba məsələsində prinsipial mövqe formalaşdırdığını göstərir. Qəbul edilmiş qətnamənin redaktəsi və icrası üçün yaradılan komissiyanın tərkibinə Həbib Cəbiyev, prof. N. Yakovlev, prof. L. Jirkov, Ə. Baytursun, Q. Tınıstanov, N. Türyakulov, prof. B. Çobanzadə və digər tanınmış alimlərin daxil edilməsi qərarın elmi əsaslandırma və təşkilati mexanizmlə müşayiət olunduğunu nümayiş etdirirdi.

Birinci Türkoloji Qurultay latın qrafikasına üstünlük verən ümumi elmi mövqeni rəsmiləşdirmiş, ortaq əlifba məsələsini siyasi şüar səviyyəsindən çıxararaq onu normativ qərar və təşkilati mexanizm müstəvisinə keçirmişdir. Bu qərar türk dillərinin yazı sisteminin

modernləşdirilməsi və gələcəkdə ortaq terminoloji və orfoqrafik prinsiplərin formalaşdırılması istiqamətində mühüm mərhələ kimi qiymətləndirilə bilər.

Elmi terminologiyanın formalaşdırılması prinsipləri

Birinci Türkoloji Qurultay çərçivəsində türk dilləri üçün elmi terminologiyanın yaradılması məsələsi xüsusi əhəmiyyət kəsb edən istiqamətlərdən biri kimi müzakirə olunmuşdur. Əlifba və yazı problemi ilə yanaşı, terminoloji sistemin qurulması Qurultayın əsas elmi mövzularından biri olmuşdur. Qurultayın 2 mart 1926-cı il tarixində keçirilmiş VIII iclasında "Türk dillərində elmi terminologiyanın formalaşma əsasları", "Türk dillərində elmi terminoloji sistem" və terminoloji quruculuğun ümumi prinsiplərinə dair məruzələr təqdim edilmiş, həmin gün keçirilmiş IX iclasda isə bu tezislər ətrafında müzakirələr aparılmışdır [1, s.83]. Müzakirələr zamanı terminoloji fəaliyyətin həyata keçirilməsində türk dillərinin genealoji qohumluq əlaqələrinin nəzərə alınmasının məqsədəuyğunluğu vurğulanmışdır. Terminlərin mümkün qədər hər bir dilin daxili leksik və söz yaradıcılığı imkanları əsasında formalaşdırılması tövsiyə edilmiş, yeni anlayışların qarşılanmasında milli dil potensialından istifadəyə üstünlük verilməsi qeyd olunmuşdur. Termin ehtiyacının yarandığı hallarda digər türk dillərindən alınmaların istifadəsi məqsədəuyğun hesab edilmiş, türk dillərində qarşılığı olmayan anlayışlar üçün isə artıq işlək vəziyyətə keçmiş ərəb və fars mənşəli terminlərin dilin qrammatik və fonetik normalarına uyğunlaşdırılaraq tətbiqi mümkün variant kimi dəyərləndirilmişdir. Eyni zamanda, perspektivdə terminoloji sistemin mümkün qədər milli əsasda qurulması, eləcə də Avropa elmi terminologiyasından alınan sözlərin kök səviyyəsində götürülərək türk dillərinin fonetik xüsusiyyətlərinə uyğunlaşdırılması məsələsi müzakirə olunmuşdur [5, s.462–463]. Qurultay iştirakçıları elmi terminlərin geniş oxucu və dinləyici auditoriyası tərəfindən asan qavranılması üçün xalq danışıq dili ilə əlaqənin qorunmasının vacibliyini qeyd etmiş, süni və çətin qısaltmalardan qaçmağı, çoxmənalı sözlərin termin kimi istifadəsində semantik dəqiqliyin təmin edilməsini və yeni terminlərin mümkün qədər türk söz kökləri əsasında yaradılmasını metodoloji baxımdan məqsədəuyğun hesab etmişlər. Terminoloji fəaliyyətin sistemli şəkildə həyata keçirilməsi üçün ayrı-ayrı respublikalarda terminoloji komissiyaların yaradılması, onların qarşılıqlı əməkdaşlığının təmin olunması və gələcəkdə ortaq terminoloji lüğətin hazırlanması ideyası da müzakirə mövzusu olmuşdur.

Birinci Türkoloji Qurultayda türk xalqlarının tarixi keçmişi, folkloru və etnoqrafik xüsusiyyətlərinə dair təqdim olunan məruzələr mühüm yer tutmuşdur. Bu məruzələr yalnız faktoloji materialların toplanması ilə məhdudlaşmamış, tarixi hadisələrin, mədəni ənənələrin və etnoqrafik göstəricilərin sistemli şəkildə təhlilini və müqayisəli elmi metodlarla araşdırılmasını təşviq etmişdir. Qurultayda türk mənşəli xalqların etnoqrafik quruluşuna dair məruzə ilə çıxış edən əsas alimlərdən biri antropoloq və arxeoloq Sergey İvanoviç Rudenko olmuşdur [2, s.83–84]. O, Qurultayın əsas diqqətinin dil və əlifba məsələlərinə yönəldiyini qeyd etməklə yanaşı, türk xalqlarının yalnız dilçilik çərçivəsində dərk edilməsinin yetərli olmadığını vurğulamışdır. Alimin fikrincə, antropologiya, etnologiya və maddi mədəniyyət sahələrinin kompleks və qarşılıqlı əlaqədə araşdırılması zəruridir. Rudenko dilin dəyişkən xarakter daşıdığını, lakin fiziki xüsusiyyətlər, həyat tərzi və ictimai quruluş kimi göstəricilərin daha sabit elementlər təqdim etdiyini qeyd etmişdir. Bu baxımdan, qurultayların tədqiqat istiqamətləri sırasında ictimai və fiziki strukturla yanaşı, mədəni həyatın elmi əsaslarla öyrənilməsi mühüm yer tutmalıdır. O, geniş coğrafiyaya yayılmış türk icmalarında regional fərqlərə baxmayaraq müəyyən ümumi tipoloji və mədəni xüsusiyyətlərin mövcudluğunu göstərmiş, əsas məsələlərdən birinin bu fərqlərin yaranma amillərinin müəyyənləşdirilməsi olduğunu bildirmişdir. Alim mövcud ədəbiyyatın pərakəndə xarakterini və muzeylərin daha çox "qeyri-adi" nümunələri ön plana çıxarmasını tənqid etmiş,

çıxış yolu kimi paleo-etno-arxeoloji qrupların formalaşdırılmasını, statistik əsaslı sahə tədqiqatlarının aparılmasını və sosial hadisələrin etnik birliklərlə yanaşı coğrafi xəritələr üzərində sistemləşdirilməsini təklif etmişdir [2, s.83–84]. Bu baxımdan Birinci Türkoloji Qurultay türkologiya elminin tərkibində tarix və etnoqrafiyanın mühüm tədqiqat istiqamətləri kimi inkişafına əlavə stimul vermiş, folklor, etnoqrafiya və tarixi mənbələrin daha sistemli və metodoloji əsaslarla işlənməsi üçün elmi müzakirə mühiti yaratmışdır.

Birinci Türkoloji Qurultay türkologiyanın XX əsrin əvvəllərində institusional və metodoloji baxımdan inkişafında mühüm mərhələ olmuşdur. Qurultay çərçivəsində əlifba islahatı, elmi terminologiyanın prinsipləri, türk dillərinin təsnifatı, habelə tarix və etnoqrafiya tədqiqatlarının metodoloji məsələləri geniş müzakirəyə çıxarılmış, türkologiyanın ayrı-ayrı istiqamətləri arasında elmi əlaqələndirmə güclənmişdir. Toplantı ittifaq miqyasında və xarici elmi dairələrlə əlaqələrin genişlənməsinə şərait yaratmış, elmi informasiya mübadiləsinin intensivləşməsinə və bir sıra sahələr üzrə normativ qərarların formalaşdırılmasına təkan vermişdir. Bu mənada Qurultay XIX əsrdən formalaşmaqda olan türkoloji ənənənin başlanğıcı deyil, lakin onun elmi təşkilatlanma və metodoloji konsolidasiya mərhələlərindən biri kimi dəyərləndirilə bilər.

ƏDƏBİYYAT

1. Akalın Ş.H. (2016). “1926 Baku Birinci Turkoloji Kurultayı’nın 90. Yılı Dolayısıyla”. Turk Yurdu Dergisi, Sayı 342, s.79-83.
2. Akalın, Ş.H. (2025). 100. Yılında 100 Soruda Birinci Türkoloji Kurultayı. Ankara: Erkmen Yayımcılık. 300 s.
3. Həbibbəyli, İ. (2016). Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. “Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” beynəlxalq konfransın materialları, I hissə, Bakı. s. 7-12.
4. Qasımov, C. (2019). Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, “Gənclik” nəşriyyatı, 748 s.
5. Tutanaklar. (2008). 1926 Baku Turkoloji Kurultayı Tutanaklar. Çevirenler K.V.Nerimanoğlu, M. Oner. Ankara: Turk Dil Kurumu yayınları
6. Presidential Library of the Republic of Azerbaijan. Day of the Azerbaijani alphabet and language (Historical page). https://www

THE CONTRIBUTIONS OF THE FIRST TURKOLOGICAL CONGRESS TO THE SCIENCE OF TURKOLOGY

ABSTRACT

The late nineteenth and early twentieth centuries represent a significant historical period marked by the emergence of a systematic approach to issues of national identity, language, and cultural heritage among the Turkic peoples. During this period, the intellectual elite initiated consistent efforts aimed at the scholarly study of Turkic languages, the preservation of cultural heritage, and the strengthening of a shared sense of identity. These processes laid the essential intellectual and methodological foundations for the formation of Turkology as an independent field of academic inquiry.

This article provides a comprehensive analysis of the role and significance of the First Turkological Congress, held in Baku in 1926, within this historical trajectory. The Congress is regarded as a turning point in terms of the systematic classification of Turkic languages, the application of comparative linguistic methods, the formation of scientific terminology, and the establishment of methodological principles for historical and ethnographic research. In particular, the advancement of the idea of a common alphabet into the scientific and practical domain is presented as a strategic initiative that significantly enhanced cultural and scholarly integration among the Turkic peoples.

Ultimately, the First Turkological Congress is evaluated not merely as an event that addressed the academic needs of its time, but as a fundamental scholarly platform that defined the theoretical, methodological, and institutional foundations of contemporary Turkology.

Keywords: *Turkological Congress, Turkic language and alphabet, terminology, history and ethnography, international scholarly cooperation*

ВКЛАД ПЕРВОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА В РАЗВИТИЕ ТЮРКОЛОГИЧЕСКОЙ НАУКИ

АННОТАЦИЯ

Конец XIX — начало XX века представляет собой важный исторический этап, характеризующийся формированием системного подхода к вопросам национальной идентичности, языка и культурного наследия тюркских народов. В этот период по инициативе интеллектуальной элиты осуществлялись последовательные усилия, направленные на научное изучение тюркских языков, сохранение культурного наследия и укрепление общего идентификационного сознания. Указанные процессы создали необходимые интеллектуальные и методологические предпосылки для становления тюркологии как самостоятельной научной дисциплины.

В статье всесторонне анализируется место и значение Первого тюркологического съезда, состоявшегося в Баку в 1926 году, в контексте данного исторического развития. Съезд рассматривается как переломный момент с точки зрения системной классификации тюркских языков, внедрения сравнительно-лингвистических методов, формирования научной терминологии, а также определения методологических основ исторических и этнографических исследований. Особо подчеркивается перевод идеи общего алфавита в научно-практическую плоскость, что оценивается как стратегическая инициатива, способствовавшая укреплению культурной и научной интеграции тюркских народов.

В итоге Первый тюркологический съезд оценивается не только как событие, отвечавшее научным потребностям своего времени, но и как фундаментальная научная платформа, определившая теоретические, методологические и институциональные основы современной тюркологии.

Ключевые слова: тюркологический съезд, тюркский язык и алфавит, терминология, история и этнография, международное научное сотрудничество

Ülkər MİRZƏYEVA*

QAFQAZ ALBANİYASI XORONİMİNİN YUNAN MƏNBƏLƏRİ ƏSASINDA LİNQVİSTİK ETİMOLOJİ TƏHLİLİ

XÜLASƏ

Yunan mənbələrində işlənmiş onomastik vahidlər xalqımızın tarixinin, coğrafiyasının elmi əsaslar üzərində öyrənilməsi, ilkin yayılma areallarının müəyyənləşdirilməsi və tarixi əraziləri haqqında zəngin məlumat verir. Bu baxımdan yunan müəlliflərinin əsərlərində işlənən onomastik vahidlər xalqımızın etnogenez problemlərinin aydınlaşdırılmasında əsas mənbələrdəndir. Herodotun, Strabonun, Klavdi Ptolemeyin, Ksenofonun, Homerin və sair antik müəlliflərin əsərlərində işlənən etnotoponimlər yunan dilin

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Qədim dillər və mədəniyyətlər şöbəsi, böyük elmi işçi, fil.ü.f.d. Email: ulker.mirzeyeva.2016@mail.ru

dialektlərinin təsiri ilə müxtəlif fonetik və qrammatik cəhətdən dəyişikliyə uğramasına baxmayaraq, öz izlərini tarixi torpaqlarımızda qoruyub saxlamışdır.

Açar sözlər: Qədim yunan dili, teonimlər, etnonimlər, toponimlər, leksik vahidlər, müqayisə.

Şimali Azərbaycan ərazisində mövcud olan ilk dövlətlərdən biri Albaniya olmuşdur. Tarixi Azərbaycan torpaqlarının ayrılmaz hissəsi olan Qafqaz Albaniyası ən qədim zamanlardan bəri Azərbaycan xalqının yaranmasında, təşəkkülündə iştirak edən müxtəlif etnosların, tayfaların məskunlaşdığı ərazidə yaranmışdır. Alban tayfası haqqında daha çox məlumata yunan və latın müəllifləri olan Appianın, Strabonun, Plutarxın, Dion Kassinin, Korneli Tassitin, Klavdi Ptolemeyin, Plini Sokuidin əsərlərində rast gəlinir. Arrian e.ə IV əsrdə baş vermiş Qavqamel döyüşündən bəhs edərkən Midiya ordusunda albanların da iştirak etdiyini yazır: "*Μήδων δὲ ἡγεῖτο Ἀτροπάτης ξυνετάττοντο δὲ Μήδοις Καδούσιοί τε καὶ Ἀλβανοὶ καὶ Σακεσῖναι"* [1, 256]. *(Atropat, kadus, alban və saka tayfalarından təşkil olunmuş madalılara tapşrıq verdi).*

Albaniya dövləti və Albaniyada məşkunlaşan alban etnosu haqqında daha geniş şəkildə məlumatı isə yunan tarixçi və coğrafiyaçısı Strabon 17 cildlik *"Coğrafiya"* əsərinin 11-ci cildində vermişdir. O, yazır: *"Onların başçıları çox gözəldir. İndi bütün etnosları yalnız bir hökmdar idarə edir, əvvəllər isə fərqli dilləri olduğuna görə hər müxtəlif dilli tayfaya öz hökmdarı başçılıq edirdi. Onlarda iyirmi altı dil vardır, belə ki, bu tayfalar bir-biri ilə çətin ünsiyyətə girirlər"* [13, 228].. Strabonun qeydlərindən aydın olur ki, *"Alban"* tayfası bu ölkədə aparıcı rola malik olmuşdur və ölkə onun adı ilə Albaniya adlanmışdır. Verilən məlumatdan aydın olur ki, albanlar ən böyük və hakim sülalə olmuşdur. Fikrimizcə, qədim yunan müəlliflərinin əsərlərində ἡ Αλβᾰνια [he albania] şəklində qeyd olunan bu xüsusi ad toponim deyil, etnotoponimdir. Bu ad iki komponentdən "Αλβαν" [alban] etnonimindən və antik yunan dilində "ölkəsi" mənasını ifadə edən ια [ia] şəkilçisindən ibarətdir. Bu şəkilçi yunan dilində ölkə bildirən isim yaratmaq üçün sifətə əlavə olunur yəni, xalq, millət adlarından yer, ölkə adı yaradır [9, 239]. Türkiyə yer adında da bu şəkilçi işlənmişdir. *"Το όνομα της Τουρκίας μπορεί να διαιρεθεί σε δύο συστατικά: το εθνώνυμο Τουρκ και την κατάληξη -ία, που σημαίνει «κάτοχος», «χώρα του» ή «σχετικό με »"*[11, 30]. (*Türkiyə adını iki komponentə bölmək olar: türk etnonimi və "ölkəsi" mənasını verən -ia şəkilçisi).* Alban etnotoponimi qədim yunan dilində qadın cinsli ismin birinci növ hallanmasında müxtəlif hal şəkilçiləri ilə işlənmişdir.

Hal	Təkdə
Adlıq	ἡ Ἀλβᾰνΐᾱ [he albania]
Yiyəlik	τῆς Ἀλβᾰνΐᾱς [tes albanias]
Yönlük	τῇ Ἀλβᾰνΐᾳ [tei albaniai]
Təsirlik	τὴν Ἀλβᾰνΐᾱν [ten albanian]
Vokativ	Ἀλβᾰνΐᾱ [albania]

Bir çox alimlər Albaniyanın mənşəyi barədə müxtəlif fikirlər irəli sürmüşlər. Musa Kalankatuklu *"Albaniya"* tarixi əsərində bu ölkənin adını Aranilər nəslindən olan ilk padşah Arranın adı ilə əlaqələndirir.

O, yazır: *"Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Onlar öz ölkələrinə Ağvan (Alban) adını ona görə vermişlər ki, Aranın özünü, yumşaq xasiyyətinə görə, ağu (Mehriban) deyə çağırırdılar"* [6, 19]. Abbasqulu Ağa Bakıxanov isə "Gülüstani-İrəm" əsərində yazır: *"Alan və alban sözlərinin bir-birinə bənzəməsindən zənn etmək olar ki, biri o birindən alınmışdır. Albaniya rum dilində ağlıq mənasında olaraq azadlığa işarədir. Şirvan və Dağıstan "Azadlar ölkəsi" adı ilə məşhurdur"* [2, 21]. Q.Məşədiyev T.Əhmədovun fikriylə razılaşaraq bildirir ki, Alpan etnonimi qədim Azərbaycan dilində igid, cəsur, qəhrəman mənasında işlənən *"alp"* sözündən yaranmışdır. Türk dillərinin ilkin onomastik vahidlərinin öz əksini tapdığı ən qədim abidələrdən biri olan Mahmud Kaşğarinin məşhur *"Divanü lüğat-it-türk"* əsərində də Alp sözü igid, qəhrəman, bahadır mənasında işlənmişdir [7, 31]. Lakin bu onomastik vahidi dağ, yüksəklik, uca ərazi, hündür yerlə də əlaqələndirirlər. Mirəli Seyidov qədim Roma tarixçisi Ammian Marselin əsərində alban və massagetlərin bəzən alan adlandırıldığını diqqətə çatdıraraq, bu yer adını dağla əlaqələndirir [12, 27]. Ə.Dəmirçizadə bu xüsusi adın mixi yazılarda "Al-ban" şəklində yazıldığını, "şimali əyalət", "dağlıq", "dağıstan" mənalarında işləndiyini qeyd etmişdir [8, 58]. Belə ki, Strabonun "Coğrafiya" əsərinə diqqət yetirsək aydın olur ki, bu yanaşmanı da təsdiq edən bir çox qeydlər vardır. O, yazır: *"Ἀλβανοι δε ποιμενικωτεροι και του νομαδικου γενους εγγυτερω, πλην αλλ' ουκ αγριοι: ταυτη δε και πολεμικοι μετριως. οικοῦσι δε μεταξυ τῶν Ἰβηρων και τῆς Κασπίας θαλαττης"* [13, 222]**. *(Albanlar maldarlığa daha çox meyillidirlər ancaq vəhşi deyillər. Onlar İberiya ilə Kaspi dənizi arasında yaşayırlar).*** Burada Albaniyanın əlverişli iqlim və münasib təbii-coğrafi şəraiti ilə bağlı məlumat verilir. Əlverişli iqlim şəraiti burada maldarlığın inkişafına səmərəli təsir göstərmişdir. Azərbaycan xəritəsində verildiyi kimi, hələ ərəb işğalı dövründə Aran ərazisi iki çay arasında yerləşmişdir. Bu ölkənin şimalında yerləşən dağlıq hissəsində Albaniya yerləşmişdir. Türkoloq H.Vamber *"Etymologisches Wörterbuch der turkotatarischen Sprachen"* adlı lüğətində də alp sözünün güclü, cəsur, şücaətli və ən son olaraq yüksək, qabarıq hündür yer mənasını qeyd etmişdir [14, 31]. Etnotoponimin mənşəyi barədə N.Əsgərov doğru olaraq qeyd edir ki, "*alban\\alpan onimi etnonim kimi igidlər, qəhrəmanlar kimi, toponim kimi isə hündür yer, uca ərazi kimi qəbul edilməlidir"* [5, 48]. Həmçinin *Q.Kazımov Alban etnotoponimlərinin çoxunun fonetik dəyişikliklərlə Qəbələ və Göyçay arasında "Alvan" dərəsində, Cənubi Azərbaycanın Əhər mahalında "Alvan" kəndində, Təbriz yaxınlığında "Alvanaq" kəndində, Kolatağ çayının Xaçınçaya töküldüyü yerdə "Ağvan" istehkamında; Zəngəzurda "Ağvanlı" kəndində, Şuşa yaxınlığında "Ağvan" xarabalığında və sair yerlərdə qaldığını qeyd edir* [8, 357]. Aydın olur ki, Alban etnonimi öz izlərini oykonim, oronim, hidronimlərdə qoruyub saxlamışdır.

K.Ptolemey "Coğrafiya" əsərində Albaniyanın bir vilayəti kimi *"Χαδάχα"* [kataka]-nı göstərmişdir. Əsərdə vilayətin adı *"Χαδάχα"* şəklində yazılmasına baxmayaraq, antik dilin qaydasına uyğun olaraq [kataka] kimi tələffüz olunur. Sözün sonundakı "α" şəkliçisi qədim yunan dilində qadın cinsli ismin birinci növ hallanmasında adlıq hal şəkilçisidir. Toponimin mənşəyinə gəldikdə isə İ.Cəfərsoylu, Klavdi Ptolemeyin əsərində *"Χαδάχα"* formasında işlənən bu toponimin Azərbaycan türklərinin mənşəyinə daxil olan "katak" tayfasının adı ilə bağlı olduğunu diqqətə çatdıraraq, –a\-ena şəkilçilərinin qədim yunan dilində qəbilə, tayfa adlarının sonuna artırılaraq, yer anlamı daşıdığını qeyd etmişdir [4, 258]. Q. Qeybullayev bu tayfa ilə bağlı yaranan bir neçə toponimi sadalamışdır. O, yazır: *"Kötüklü və Gödəkli Gürcüstanda Salqa rayonunda Gödəklər, Azərbaycanda Beyləqan və Qubadlı rayonlarında Gödəkli, Xaçmaz rayonunda Gödəklər, Mil düzündə Xələc elinin Gödəklər qolu, Alqataq isə Yuxari Qarabağın Xaçın nahiyəsində kənd adıdır"* [3, 50]. Fikrimizcə, qədim yunan mənbələrində qeyd olunan bu yer adı Albaniyanın katak etnonimindən törəmişdir. Çünki erkən orta əsrlərdə Qafqaz Albaniyasında yaşayan türk tayfalarından biri də katak tayfası olmuşdur. Bu etnonim katak, katay, ktay formalarında digər türk xalqlarında qırğız, qazax, özbək, noğay, başqırd və qaqauzlarda da müəyyən edilmişdir [8, 373].

Albaniyada yaşayan 26 tayfadan biri dondarlar olmuşlar. Qədim türk tayfalarından olan dondarların Qafqazda və Azov dənizi sahillərində yaşaması barədə Miletli Hekatey, Strabon, Korneli Tasit, Plutarx və bir digər yunan müəllifləri məlumat vermişlər. Plutarx yazır: *"την δε τις εν τῷ Μιθριδατου στρατοπεδῳ Δανδαριων δυναστης Ὀλθακος γενος δ' εισὶν οι Δανδαριοι βαρβαρων τῶν περι την Μαιῶτιν οικουντων, ἀνηρ ὅσα χειρος ἔργα και τολμης εν πολεμῳ διαπρεπης απαντα"* [10, 518]. *(Mitridat düşərgəsində Oltak*

adlı Dandar şahzadə var idi (Dandarlar, Maiot Gölü ətrafında yaşayan barbar qəbiləsidir) bu adam güc və cəsarətinə və mükəmməl mühakimə yürütmə qabiliyyətinə görə hamıdan fərqlənirdi). Dondarlarla bağlı bu qeydləri onların türk tayfalarından olduğunu göstərir. Bu etnonim antik mənbədə təhrifə uğramış şəkildə, yəni *"Δανδαρίων"* [dandarion], *"Δανδάριοι"* [dandarioi], *"Δανδάριος"* [dandarios] formasında qeyd olunmuşdur. Verilən etnonim mənbədə yunanmənşəli "ων", "οι", "ος" hal şəkilçiləri ilə işlənmişdir. Göründüyü kimi, Azərbaycan türklərinin təşəkkülündə mühüm rol oynamış bu tayfanın adı mənbədə yunan dilinin qrammatik xüsusiyyətlərinə uyğun şəkildə verilmişdir. Hazırda bir çox toponimlərimizdə öz əksini tapmışdır. Buna misal olaraq, Tovuz və Qubadlı rayonlarında Dondarlı, Tovuzda Dondar Quşçu, Şabran rayonu ərazisində Dondar qala xarabalıqları toponimlərini göstərmək olar.

Buradan aydın olur ki, türkmənşəli toponimlərin bir çoxu antik yunan müəlliflərinin əsərlərində ilkin olaraq, türkmənşəli tayfa, qəbilə, hər hansı bir etnik qrupun adı kimi qeyd olunmuşdur.

ƏDƏBİYYAT

1. Alexandri, A. Anabasis/ A. Alexandri. with an English translation by E. Iliff Robson, in two volumes. Volume I. B.D London: William Heinemann Ltd Cambridge, Massachusetts-Harvard University press, –1946, – 473 p.
2. Bakıxanov, A. Gülüstani İrəm / A. Bakıxanov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, –1951. –302 s.
3. Budaqov, B.Ə. Azərbaycan toponimikasının öyrənilməsi və vəzifələri haqqında // Azərbaycan toponimikasının öyrənilməsinə həsr edilmiş elmi konfransın materialları, –Bakı: Elm, –1973. – 5-6 s.
4. Cəfərsoy, İ. Türk dillərində teonim və etnonimlər/ İ.Cəfərsoy. –Bakı, –2010.- 365 s.
5. Əsgərov, N.Ə. Azərbaycan çay adlarının tarixi–linqvistik təhlili / N.Əsgərov. –Bakı: Elm və təhsil, – 2013. – 575 s.
6. Kalankatuklu, M. Albaniya tarixi / Mxitar Qoş. Alban salnaməsi/ M. Kalankatuklu. –Bakı: Avrasiya press, –2006. – 296 s.
7. Kaşgarlı, M. Divanu-lugat-it-türk: [4 ciltte]/ M.Kaşgarlı, çeviri: B.Atalay. – Ankara, – 2013. – 530 s.
8. Kazımov, Q. Azərbaycan dilinin tarixi. Ənqədimdövrlərdən XIII əsrəqədər / Q. Kazımov. – Bakı: Təhsilnəşriyyatı, –2003.
9. Mirzəyeva, Ü.Azerbaijani anthroponyms in ancient greek sources// Ozbekiston respublikası oliy ta'lim, Fan Va Innovatsiyalar vazırlıgı, Navoiy Davlat Pedagogika İnstituti "Globallashuv davrida Turkiy tillar integratsiyasi" mavzusidagi xalqaro ilmiy-amaliy konferensiya materialları toplamı, Navoiy shahri: –2024. –p. 36-40
10. Plutarch. Plutarch's Lives/ Plutarch, translated by: Bernadotte P.in eleven volumes. Volume II: Themistocles and Camillus Aristides and Cato Major Cimon and Lucullus –London: William Heinemann Ltd Cambridge, Massachuets Harvard University press. –1968. –631 p.
11. Scharlipp, W. An Introduction to the Old Turkish Runic Inscriptions/ W. Scharlipp. Engelschoff: Verlag auf dem Ruffel, –2000. –152 p.
12. Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. –Bakı: Yazıcı, – 442 s.
13. Strabo.The geography of Strabo. With an English translation by Horace Leonard Jones, Ph.D., LL.D. In eight volumes volume V London: William Heinemann Ltd Cambridge, Massachuets Harvard University press. –1961–562 p
14. Vámbéry, H. Etymologisches Wörterbuch der Turko-tatarischen Sprachen: ein Versuchzur Darstellung des Familien verhältnisses des turko-tatarischen Wortschatzes/ H. Vámbéry. – Leipzig: Brockhaus, –1878, – 228 p.

Ulkar MİRZAYEVA

LINGUISTIC ETYMOLOGICAL ANALYSIS OF THE CHORONYM CAUCASIAN ALBANIA BASED ON GREEK SOURCES

SUMMARY

The onomastic units used in Greek sources provide rich information about the scientific study of the history and geography of our people, the determination of the initial distribution areas and their historical territories. In this regard, the onomastic units used in the works of Greek authors are one of the main sources for clarifying the problems of ethnogenesis of our people. The ethnotoponyms used in the works of Herodotus, Strabo, Claudius Ptolemy, Xenophon, Homer and other ancient authors, despite undergoing various phonetic and grammatical changes under the influence of the dialects of the Greek language, have preserved their traces in our historical lands.

Key words: *Ancient Greek, theonyms, ethnonyms, toponyms, lexical units, comparison*

Улкар МИРЗАЕВА

ЛИНГВИСТИЧЕСКИЙ ЭТИМОЛОГИЧЕСКИЙ АНАЛИЗ ХОРОНИМА «КАВКАЗСКАЯ АЛБАНИЯ» НА ОСНОВЕ ГРЕЧЕСКИХ ИСТОЧНИКОВ.

РЕЗЮМЕ

Ономастические единицы, используемые в греческих источниках, предоставляют богатую информацию для научного изучения истории и географии нашего народа, определения первоначальных ареалов распространения и его исторических территорий. В этом отношении ономастические единицы, используемые в трудах греческих авторов, являются одним из главных источников для прояснения проблем этногенеза нашего народа. Этнотопонимы, используемые в произведениях Геродота, Страбона, Клавдия Птолемея, Ксенофона, Гомера и других античных авторов, несмотря на различные фонетические и грамматические изменения под влиянием диалектов греческого языка, сохранили свои следы на наших исторических землях.

Ключевые слова: *древнегреческий язык, теонимы, этнонимы, топонимы, лексические единицы, сравнение.*

Aytən HÜSEYNOVA-QƏHRƏMANLI*

I TÜRKOLOJİ QURULTAYDA TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ: 100 İL ƏVVƏL VƏ SONRA

XÜLASƏ

I Bakı Türkoloji Qurultayı türk xalqlarının elmi terminologiyasının sistemləşdirilməsi istiqamətində aparılan müzakirələrin əsas mərkəzi olmuşdur. Türk xalqları üçün terminologiya məsələsi bu dövrdə xüsusilə aktual olmuşdur. Terminologiya hər bir dilin inkişaf dərəcəsini və hər bir xalqın elmi səviyyəsini əks etdirir. Türk xalqlarının ümumtürk terminologiyasını yaratmaq ideyası qurultayın əsas məqsədlərindən biri idi. Məqalədə I Türkoloji Qurultayda qaldırılan terminoloji problemlər təhlil olunur, müasir dövrdə bu problemlərin necə təzahür etdiyi göstərilir. Müəyyən edilir ki, bu gün də alınma terminlərin çoxluğu, terminlərin unifikasiyası, milli termin yaradıcılığı və s. kimi məsələlər dəyişən mühitə baxmayaraq aktual olaraq qalmaqdadır.

Açar sözləri: *I Türkoloji Qurultay, terminoloji problemlər, müasir terminologiya, Azərbaycan dili.*

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay türk xalqlarının ictimai, elmi və mədəni inkişafında, ortaq mənəvi dəyərlərin qorunmasında, ümumi milli-mənəvi irsin tədqiqində tarixi əhəmiyyətə malik əsas beynəlxalq platforma olmuşdur. Qurultayda ədəbi dil, əlifba, terminologiya, imla kimi fundamental məsələlər dilçilik baxımından ciddi problem kimi gündəmə gətirilmişdir. Müxtəlif ölkələrdən

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsi, AMEA Nəsimi adına Dilçilik İnstitutu filologiya üzrə fəlsəfə doktoru

olan ziyalılar, ictimai-siyasi xadim və dilçilər bir araya gələrək dil, mədəniyyət, ədəbiyyat, etnoqrafiya sahəsində aktual məsələlər, mövcud problemlər və onların həlli yollarını sistemli şəkildə müzakirə etmiş, müxtəlif tezis və fikirlər irəli sürmüş, elmi fikir mübadiləsi aparmışdılar.

Türk dilçiliyinin strateji problemlərindən biri də terminologiya məsələləri idi ki, bu da Türkoloji

Qurultayın əsas müzakirə obyekti olmuşdur. Həmin dillərdə elmi terminlərin pərakəndə vəziyyətdə olması, müxtəlif türk dillərində, eləcə də eyni dildə bir anlayışın fərqli terminlərlə ifadə olunması həmin dillərdə vahid elmi terminologiyanın yaradılmasını və bunun üçün vahid prinsiplərin müəyyənləşdirilməsini zəruri etmişdir. Terminoloji problemlərin elmi maraq dairəsinə daxil olmasını təsadüf hesab etməyən C.Qasımov yazır: "Terminologiya probleminin gündəmə gətirilməsi və müzakirə predmetinə çevrilməsi heç də təsadüfi deyildi. İclasdakı məruzələrin adları da imkan verir deyək ki, qurultayda əsas məqsəd terminologiyanın elmi sistemini yaratmaq idi. Bunun üçün hansı prinsiplər əsasında dilin terminoloji lüğət fondunu zənginləşdirmək, bu prosesdə hansı metod və metodologiyadan istifadə etmək kimi aktual məsələlərin elmi və həm də əsaslandırılmış şərhini vermək məruzəçilərin qarşısında qoyulmuş əsas vəzifə idi" [2, s.81]. Qeyd edək ki, yerli əhali arasında ixtisaslı kadrların artırılması, terminlərin azsavadlı əhali arasında anlaşıqlı olması üçün bütün baryerlərin aradan götürülməsi də əsas məqsədlərdən biri idi. Ümumilikdə I Türkoloji Qurultayda terminologiya sahəsi ilə bağlı əsas diqqət aşağıdakı məsələlərə istiqamətlənmişdir:

Milli termin yaradıcılığı – İrəli sürülən əsas prinsiplərdən biri türk dillərinin əsasında ilk olaraq xalqın özünün yaradıcılığının olması idi. Xalq dilini kasad hesab edərək dilə külli miqdarda əcnəbi sözləri daxil edənlərə qarşı çıxan A.Zifeld çıxışında deyir: "Xalq dilini diqqətlə öyrəndikdə məlum olur ki, bu heç də belə deyil. Anatomiya və tibb üçün terminləri hazır şəkildə, xeyli dərəcədə, qəssablar, baytar və türkəçarələrdə, aqronomiya və botanika üçün terminləri əkinçi və bağbanlarda, zoologiya dair terminləri isə ovçular və balıqçılarda tapmaq olar və i.a. Mürəkkəb anlayışları ifadə etmək üçün hazır sözlər olmadıqda, ədəbi dilin populyarlığını qoruyub saxlamaq üçün doğma dilin köklərindən yeni sözlər yaradılmasına (məsələn, dəmiryol) əl atmaq daha səmərəlidir [4, s.177]. H.Zeynallı isə türk-tatar dillərində feillərdən yeni formalar yaratmağın və bununla da əcnəbi terminlərdən imtina etməyin mümkünlüyünü bildirirdi [4, s.186].

Zəruri metodoloji prinsiplərdən biri də terminologiyanın formalaşdırılması prosesində hansı bazalara əsaslanmaq idi. Terminoloji bazanın müəyyənləşdirilməsinə dair alimlər arasında müəyyən fikir ayrılıqları mövcud idi. Belə ki, A.Zifeld ərəb-fars sözlərinin əleyhinə olaraq, yalnız dini anlayışları ifadə edən terminlərin istifadəsini məqbul hesab edirdi. H.Zeynallının irəli sürdüyü rəhbər prinsiplərdən biri doğma formalarla əvəzlənməsi mümkün olmayan ərəb-fars mənşəli terminlərin saxlanmasının zəruriliyi idi (Lakin ərəb-fars terminlərinə qayıdışın əksinə idi). H.Odabaşı elmi terminologiyanın yaradılmasında ilkin prinsip olaraq türk dillərində beynəlmiləl sayılan bəzi ərəb və fars terminlərinin yerli sözlərlə əvəzlənməsini məqsədəmüvafiq hesab etmirdi, bu dillərə məxsus terminlərin türk dillərində yalnız eyni yazılış formaları və eyni məna verdikdən sonra işlənməsini təklif edirdi [4, s.190]. Məruzəçilərin çıxışlarından da aydın görünür ki, ərəb və fars sözlərinin istifadəsini tam yasaqlamaq mümkün deyil, belə ki, bu sözlərin bir qismi türk dillərinin terminoloji ehtiyacını qarşılaya bilən bazadır.

Türkoloji Qurultayda müzakirə mövzularından biri də türk dillərində terminoloji baza olaraq Avropa dillərinə əsaslanmaq idi. Belə ki, əksər məruzəçilər iqtisadi və texnika baxımdan inkişaf edən Qərbi Avropa terminlərini olduğu kimi qəbul etməyin tərəfdarı idilər. Çünki elm artıq milli sərhədləri aşaraq beynəlmiləlləşirdi. H.Zeynallı "dinomo", "trest" və s. kimi terminləri dilin doğma sözləri ilə əvəz etməyin nə dərəcədə düzgün olduğuna şübhə ilə yanaşırdı. Ş.Manatov isə həddən artıq alınma sözlərin dilə ağırlıq gətirməsi fikri ilə razılaşsa da, lakin bəzi Avropa terminlərinin türk sözləri ilə əvəzlənməsini məsləhət görənlərə qarşı çıxmış və bunu əsaslandırmaq üçün isə qaraçay dilində işlənən türk mənşəli "baylıq" sözü ilə "kapital" sözünün niyə əvəzlənə bilməməsinə aydınlıq gətirirdi. Məruzəçi qeyd edirdi ki, "baylıq" sözü var-dövlət deməkdir və hamının anladığı "kapital" sözünü tam ifadə etmir, yeni səciyyəvi mənanı yaradır ki, bu sözləri də əvəz etmək əsla müvafiq hesab olunmur [4,s.198].

Bununla yanaşı, qurultayda aparılan müzakirələrə əsasən, məlum olur ki, ümumavropa terminləri yalnız vacib olduğu təqdirdə qəbul edilməli, şərtlər imkan verdikdə isə türk dillərinin öz

sözyaradıcılığı potensialı hesabına termin yaradıcılığına üstünlük verilməlidir. Terminologiya ilə bağlı irəli sürülən prinsiplərə nəzər yetirsək aydın olur ki, məruzəçilər Avropa terminləri ilə bağlı gəldiyi qənaətlərdə demək olar ki, yekdildirlər.

Alınma terminlərin milli dilin fonetik normalarına tabe olması da irəli sürülən əsas prinsiplərdən idi. Ə.Bəytursun Avropanın qazandığı nailiyyətlərini elə Avropa terminləri ilə ifadə etməyin tərəfdarı idi, bir şərtlə ki, bu terminlər qazax dilinin artikulyasiyasından irəli gələn səs qanunlarına tabe olmalı idi [4, s.195]. Ş.Manatov H.Zeynallının Beynəlxalq Avropa sözlərinin dilin tələffüz xüsusiyyətlərinə, tələblərinə uyğunlaşmalıdır fikri ilə tam razılaşır və bildirirdi ki, türk fransız sözü olan "fabrik" sözünə "fabrika" deyil, "fabrik" deyər [4, s.198].

Türk dillərində qısaldılmış sözlərin işlənməsi ilə bağlı mübahisələrə A.Zifeld öz münasibətini bildirərək qeyd edir ki, bu sözlər qısa vaxt ərzində maksimum məna ifadə edir. Hərbi terminologiyada işlənən "qlavkoverx", "komandarm" Sovetəqədərki qısa sözlərdir, sadəcə Sovet hakimiyyətində daha çox yeni sözlər yarandı. H.Zeynallı kombinə edilmiş sözləri termin hesab edir və bu sözlərə ehtiyacın olduğunu göstərirdi. Bununla yanaşı, alim məruzəsində qeyd edir ki, müxtəlif sözlərdə fərqli saitlər olduğu üçün bunların uyğunlaşması türk dilinin qanunlarına ziddir və yeni sözləri asanlıqla yaratmaq imkanına malik deyil, buna görə də imkan daxilində bu cür qısaltmaların istifadəsindən uzaq durmaq lazımdır [4, s.187].

Müzakirələrdə diqqət çəkən məqamlardan biri də tədris müəssisələri üçün termin yaratmağın vacibliyi idi. B.Çobanzadə I pillə məktəbləri üçün yerli ifadələrin istifadəsinə üstünlük verməyi və leqallaşdırmağı təklif edirdi. Alim I pillə rus məktəblərində tədris edilən fənlərin terminologiyasını nümunə göstərir və qeyd edirdi ki, rus məktəblərində ilk mərhələlərdə rus terminləri işlədir, II pillə məktəblərində isə tədricən, Avropa terminləri, vodorod ("hidrogen"), kislorod (oksigen) sözləri də əlavə edilir. B.Çobanzadə bu tədris modelini də yerli məktəblərə tətbiq etməyi, heç nədən çəkinmədən sırf milli terminlərimizi qəbul etməyi məsləhət görürdü [4. s.181]. Odur ki, türk dillərinin terminoloji sistemlə bağlı qəbul edilmiş qətnaməsində I və II pilləli, həmçinin ali məktəblər üçün terminlər yaratmaq və I pilləli məktəb üçün əcnəbi terminlərin sayını azaltmaq lazım olduğu əsas götürülmüşdür [4, s.131].

Qeyd edək ki, türk xalqları üçün ortaq terminologiyanın yaradılmasına qarşı pessimist mövqe nümayiş etdirənlər də var idi. Qazax nümayəndəsi B.Suleyev bu xalqların terminologiyasının birləşməsini deyil, yaxınlaşmasından bəhs etməyi daha məqsədəuyğun hesab edirdi [4, s.197].

Fikrimizcə, bu münasibət onun terminoloji islahatların həyata keçirilməsi ilə bağlı çətinlikləri gördüyündən irəli gəlirdi. Türk dillərində terminoloji vahidlik və sabitliyin təmin edilməsi məqsədilə leksikoqrafik işlərin həyata keçirilməsi də əsas prinsiplərdən biri idi. H.Odabaşı bütün türk vilayətlərindən təcrübələr toplamaqla ilkin lüğətlərin hazırlanması və bu lüğətlərlə bağlı rəylərin alınması, müzakirəsi və nəticədə müxtəlif elmi sahələrdə terminologiyanın sistemli şəkildə təsbit edilməsini təklif edirdi [4, s.192].

Terminologiya ilə bağlı qətnamədə deyilir ki, gələcəkdə terminoloji fəaliyyətin daha səmərəli həyata keçirilməsi üçün "Hər bir respublikanın ayrılıqda işinin yüngülləşdirilməsi üçün ümumtürk elmi lüğətinin yaradılması zəruri sayılsın" [4, s. 363].

Türk dillərinin terminoloji sistemində hər bir elmi anlayışın bir terminlə ifadə olunması prinsipi müxtəlif elmi sahələrdə terminoloji xaosu aradan qaldırmaq və terminlərin sabitliyini təmin etmək baxımından xüsusi əhəmiyyət daşıyırdı. Türk-tatar tayfalarının dilində bəzi anlayışların eyni kateqoriyasının bir sıra adlara, yaxud da eyni sözün bir sıra anlayışlara uyğun gəlməsi dildəki anlayışlarda qarışıqlıqların yaranmasına gətirib çıxarırdı. Bu səbəbdən H.Zeynallı vahid ümumrespublika elmi terminologiyası yaradarkən müəyyən sistemli iş aparılması üçün üç prinsip müəyyənləşdirmişdir ki, bunlardan biri də anlayışa ən müvafiq olanını götürmək idi [4, s.185].

"Çobanzadəyə görə, hər bir anlayışa uyğun tək bir termin olmalı və mənalar qarışdırılmamalıdır. Bu elmi dilin aydınlığı və nizamı üçün vacibdir" [3, s.137].

I Türkoloji Qurultayda gündəmə gətirilən terminoloji problemlər müəyyən tarixi dövrü əhatə etsə də, mahiyyət etibarilə bu gün də davam etməkdədir. Milli terminlərin formalaşdırılması, elmi terminlərin sistemləşdirilməsi, ortaq terminologiyanın yaradılması kimi məsələlər çağdaş dövrdə də aktualdır və türk dünyasında dil siyasətinin əsas istiqamətləri bu ideyalar üzərində qurulur. Elm inkişaf etdikcə yeni anlayışlar, məfhumlar yaranır ki, bu da terminoloji sistemi davamlı şəkildə bu tələblərə uyğun yenilənməyə

məcbur edir. Məhz bu baxımdan terminoloji problemlər dinamikdir və zaman keçdikcə yeni təzahür formaları alır. Qeyd edək ki, texnoloji innovasiyaların, informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə, eləcə də qloballaşma şəraitində terminoloji problemlər daha geniş vüsət almışdır. Çünki texnologiya, istər digər sahələrdə alınma terminlərin istifadə dairəsi artmışdır. Belə ki, alınma terminlərin istifadəsinə üstünlük verilməsi milli terminlərin istifadədən kənarda qalmasına səbəb olur. Yeni anlayışı dildə müvafiq sözlə əvəz etmək mümkün olduğu təqdirdə xarici sözlərin istifadəsinə yol verilir. Bu vəziyyət qurultayda qaldırılan terminoloji problemin yeni mərhələdə də davam etdiyini göstərir.

Türkoloji qurultayda texniki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin, yəni ümumavropa sözlərinin, beynəlmiləl terminlərin obyektiv zərurətdən istifadəsinin qaçılmaz olduğu vurğulanmışdır.

Bununla yanaşı, beynəlmiləl terminlərin türk artikulyasiyasına uyğunlaşmış olduqları şəkildə saxlanılması əsas prinsiplərdən biri idi ki, hazırda da həmin terminlərin Azərbaycan dilinin fonetik və qrafik normalarına tabe olması əsas tələblərdəndir. Müasir dövrdə Azərbaycan dilinin beynəlmiləl terminlərlə zənginləşməsini A.Hüseynova-Qəhrəmanlı belə izah edir: "Beynəlxalq arenada cərəyan edən hadisələr, İKT, süni intellektin, bulud və kvant texnologiyalarının və s. sürətli inkişaf prosesi bu gün bir çox yeni anlayışların, məfhumların və onları ifadə etmək üçün lazım olan dil vahidlərinin yaranmasını şərtləndirir ki, bu proses terminoloji sistemin beynəlxalq terminoloji vahidlərlə artmasına səbəb olur" [1, s.4]. Qeyd edək ki, bu gün terminologiyada beynəlmiləl terminlərlə milli terminlər arasında tarazlığın optimal səviyyədə təmin edilməsi əsas məqsədlərdən biridir. Bu məqsədlə Azərbaycanda Terminologiya Komissiyası yeni terminlərin standartlaşdırılma və unifikasiyası üçün mühüm işlər görür.

Qurultayda lüğətlərin tərtib edilməsi ilə bağlı qərarlar çağdaş dövrümüzdə də davam etməkdədir. Belə ki, yeni anlayış və terminlərin yaranması zamanın tələbinə uyğun olaraq yeni terminoloji lüğətlərin tərtibini daha da aktuallaşdırır. Bu gün internetin geniş vüsət aldığı bir dövrdə elektron terminoloji bazaların yaradılması, terminoloji lüğətlər və onların elektron versiyalarının hazırlanması bu materialların istifadəçilər üçün əlçatan olmasını təmin edir.

Qurultayda türk xalqlarının ortaq söz ehtiyatı və terminologiyasını yaratmaq ideyasının müzakirəsi türk dil birliyinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyətə malik idi. Lakin bu gün Birinci Türkoloji Qurultayın 100 illiyi ərəfəsində də ortaq türk terminologiyası ideyası hələ tam həyata keçirilməmişdir.

Araşdırma göstərir ki, I Türkoloji Qurultaydan müasir dövrə qədər terminoloji problemlər davamlı xarakter daşıyır. Elmi mühit, tarixi dövr dəyişsə də, terminlərin tənzimlənməsi zərurəti hələ də qalmaqdadır.

ƏDƏBİYYAT

1. Hüseynova-Qəhrəmanlı A. Müasir Azərbaycan ədəbi dilində beynəlmiləl terminlərin formalaşma prosesi. Fil.ü.f.d. dissertasiyası. Bakı, 2025. 148 səhifə
2. Qasımov C. Birinci Türkoloji Qurultay: Şahidlər və şəhidlər. Bakı:Gənclik, 2019. 736s.
3. Şükrü Haluk Akalın. 100. yılında 100 soruda Birinci Türkoloji Kurultayı. İstanbul, 2025. 300s.
4. 1926-cı il I Bakı Türkoloji Qurultayı (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri K.V.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı: Çinar-Çap, 2006. 570 s.

ТЕРМИНОЛОГИЧЕСКИЕ ВОПРОСЫ НА I ТЮРКОЛОГИЧЕСКОМ СЪЕЗДЕ: 100 ЛЕТ НАЗАД И СЕГОДНЯ

РЕЗЮМЕ

Первый Бакинский Тюркологический Съезд был главным центром дискуссий, направленных на систематизацию научной терминологии тюркских народов. Вопрос терминологии был особенно актуален для тюркских народов в этот период. Терминология отражает степень развития каждого языка и научный уровень каждого народа. Идея создания универсальной тюркской терминологии тюркских народов была одной из главных целей конгресса. В статье анализируются терминологические проблемы, поднятые на Первом Тюркологическом Съезде, и показано, как эти проблемы проявляются в современную эпоху.

Установлено, что даже сегодня, несмотря на меняющуюся обстановку, такие вопросы, как

обилие заимствованных терминов, унификация терминов, формирование национальных терминов и т. д., остаются актуальными.

Ключевые слова: *Первый Тюркологический Съезд, терминологические проблемы, современная терминология, азербайджанский язык.*

TERMINOLOGICAL ISSUES AT THE FIRST BAKU TURKOLOGICAL CONGRESS: 100 YEARS AGO AND TODAY

ABSTRACT

The First Baku Turkological Congress was the main center of discussions aimed at systematizing the scientific terminology of the Turkic peoples. The issue of terminology was particularly pressing for the Turkic peoples during this period. Terminology reflects the level of development of each language and the scientific level of each people. The idea of creating a universal

Turkic terminology for the Turkic peoples was one of the main goals of the congress. This article analyzes the terminological issues raised at the First Turkological Congress and shows how these issues manifest themselves in the modern era. It is established that even today, despite the changing situation, issues such as the abundance of borrowed terms, the unification of terms, the formation of national terms, etc., remain relevant.

Keywords: *First Turkological Congress, terminological issues, modern terminology, Azerbaijani language.*

Mətanət ƏMRAHOVA*

AZƏRBAYCAN DİLİNDƏ MƏTNİN STRUKTURU VƏ SƏRHƏDLƏRİNİN MÜƏYYƏNLƏŞMƏSİNƏ DAİR GÖRÜŞLƏR

XÜLASƏ

Məqalədə Azərbaycan dilində mətnin quruluşunun təsviri-müqayisəli təhlilindən, xüsusilə mətnin sərhədlərinin müəyyənləşdirilməsinə dair dilçilik baxışlarından bəhs olunur. Qeyd edilir ki, mətnin yaranması müəyyən qanunauyğunluqlara əsaslanır. Bu sahədəki qanunauyğunluqların hərtərəfli tədqiqi bir sıra dil problemlərinin həllinə imkan yaradır və dilin funksional əhəmiyyətini daha dolğun şəkildə üzə çıxarır. Buna görə də sintaksisin vəzifəsi yalnız söz birləşmələrinin və cümlələrin öyrənilməsi ilə məhdudlaşmır; müasir mərhələdə mətnin struktur-semantik xüsusiyyətləri də onun əsas tədqiqat obyektinə çevrilmişdir. Bu baxımdan Azərbaycan və ingilis dillərində mətnin struktur xüsusiyyətləri və bu məsələyə dair elmi baxışlar xüsusi maraq doğurur.

Araşdırmada göstərilir ki, mətnin sərhədlərinin müəyyənləşdirilməsində əsas amil fikrin dəqiq informativliyi üçün zəruri olan sözlərin cümlə daxilində işlədilərək mətn səviyyəsinə yüksəldilməsidir. Mətnin məzmunundan, mövzusundan, müəllifin üslubundan, əsərin janr və xüsusiyyətlərindən, eləcə də forma ilə məzmunun qarşılıqlı münasibətindən asılı olaraq mərhələlərin yeri dəyişə bilər; lakin bu zaman koqnitiv ardıcıllıq pozulmamalı, əsas mikromətnin hüdudları qorunmalıdır.

Doğrudur, bəzi dilçilər sintaktik bütövlər üçün sərhədlərin müəyyən edilməsinin vacib olmadığını qeyd etmişlər; lakin burada söhbət söz birləşmələrinin və ya cümlələrin sərhədlərindən deyil, mətnin formalaşması üçün zəruri olan vasitələrin müəyyən struktur sxemi əsasında təşkili məsələsindən gedir. Mətnin yaranma mexanizmləri dərindən araşdırıldıqda, dil vahidlərinin həm linqvistik, həm də idrakı planda mətnin müəyyən sərhədlərlə təşkili prosesində iştirak etdiyi aydın olur. Buna görə də Azərbaycan dilində yaradılan mətnlər konkret sərhədlərlə məhdudlaşır və onların formalaşmasında müxtəlif qrammatik vahidlər iştirak etsə də, fikrin müəyyənliyi baxımından ümumtürk dillərinin spesifik qrammatik quruluşundan kənara çıxmır.

Açar sözlər: *Azərbaycan dili, mətnin komponentləri, mətnin sərhədləri, leksik-qrammatik vasitələri*.

*Azərbaycan Dövlət İqtisad Universiteti, f*ilologiya üzrə fəlsəfə doktoru. Email:* amrahova.metanet.76@gmail.com

Ünsiyyətin əsas vahidi olan cümlə bitmiş fikir ifadə etsə də, heç şübhəsiz ki, onun ifadə etdiyi fikir bitkinliyi nisbi səciyyə daşıyır. Cümlə onu əhatə edən cümlələr birliyində, mətn mühitində struktur-semantik xüsusiyyətlərini tam şəkildə üzə çıxara bilir. Cümlələrin müəyyən görüş ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur. Mətnin yaranmasının əsaslı qanunauyğunluqları vardır. Mətnin təşkili mexanizmi, qurulma texnikası ardıcıl gələn cümlələrin məna inkişaf ilə bağlıdır. Bu sahədəki qanunauyğunluqların hərtərəfli tədqiqi bir sıra dil problemlərinin həllinə kömək edir, dilin funksional əhəmiyyətini daha ətraflı üzə çıxarır. Ona görə də sintaksisin vəzifəsi yalnız söz birləşməsi və cümləni öyrənməklə məhdudlaşmır: yeni dövrdə mətnin struktur-semantik özəllikləri də onun əsas tədqiqat obyektinə çevrilmişdir. Bu baxımdan müasir Azərbycan dilində mətnin struktur özəllikləri və buna dair görüşlər xüsusilə diqqət çəkir.

Mətn və onun struktur özəllikləri

Məlum olduğu kimi, makromətnlər, əsasən, filoloji mətnlər hesab olunur. Kiçik bir şeir də, bir hekayə də, bir povest də, bir roman da bütünlükdə makromətn sayılır. Makromətnlər həmişə dilçilik elminin əsas tədqiqat obyektlərindən biri olmuşdur. Araşdırmalarda qeyd olunduğu kimi, "*dilçilik dünyaya göz açdığı ilk gündən öz işini makromətnlər üzərində qurmuşdur. Hər bir dilin lüğət tərkibini fonetik, leksik, qrammatik və üslubi cəhətdən imkanlarını öyrənmək üçün daim makromətnlərə müraciət olunmuşdur*" [8, s. 428].

Mikromətnlər isə heç şübhəsiz ki, mətn dilçiliyinin tədqiqat obyektidir. Sintaktik nəzəriyyənin əsas öyrənmə obyektlərindən olan mikromətnlər bir qrup örtülü, qapalı, dövrəyə alınmış, məntiqi və sintaktik əlaqələrə malik cümlələr birliyi kimi başa düşülür. "*Mikromətnlər monoloji nitqin elə bir vahididir ki, iki və daha artıq cümlənin birliyindən təşəkkül tapıb, bir-biri ilə fikir və quruluş baxımından bağlı olur. Mikromətnlər makromətnlərin hissələri olub qrammatik, semantik və üslubi cəhətdən tam formalaşmış nitq parçasıdır. Mətnin sərhədlərini müəyyən edərkən onun qrammatik, semantik və üslubi həddini müəyyənləşdirmək lazımdır*" [8, s. 429].

Sintaktik bütöv nitqin elə mənalı bir hissəsidir ki, onu başqa hissələrə parçalamaq olmaz. Sözlərin tərkib hissələri fonemdən, cümlənin tərkib hissəsi morfemdən təşkil olunduğu kimi mətnin də tərkib hissələrini sintaktik bütövlər təşkil edir. O, mətnin bir daha bitkin, mənalı mətnlərə bölünə bilməyən ən kiçik mənalı parçasıdır. Makromətnlər isə mikromətnlər silsiləsi əsasında formalaşır və əsərin həcmindən aslı olaraq, mikromətnlərin semantik-qrammatik əlaqələnməsindən yaranır. Mikromətnlər makromətnlərin tərkibində tor şəkilli əlaqələnməsindən əmələ gəlir. "*Ona görə də mikomətn bir neçə cümlələrin məna və qrammatik cəhətdən birləşməsindən yaransa da, makromətnlərin quruluşunda isə ən azı bir neçə mikromətn olmalıdır. Mikromətnlər birləşərək makromətnin yaranmasına səbəb olur. Ona görə də təhlil üçün lazım olan hər bir sintaktik bütöv (mikromətn) makromətnin içərisindən seçilib çıxarılır*" [8, s. 430].

Mətnin semantik bütövlüyü mikromətnin şərhinin mükəmməlliyi ilə bağlıdır. Əgər mikromətnlərdə fikir aydın, tam öz əksini taparsa, onda mətnin məzmunu və ideyası oxucuya aydın olar. Həmçinin mətn strukturu, semantikası olan cümlə (söyləm) birliyi olub, fikirin ifadəsinə və mübadiləsinə xidmət edən sintaktik vahiddir. Cümlələrin birliyi yeni mikromətnə, yəni sintakik bütövə çevrilir. Mikromətnin komponentləri arasında məna bağlılığı və qrammatik bağlılıq olur və onlarda birləşərək makromətni yaradır. Mikromətnin şərhi zamanı fikir ardıcıl inkişaf edir, başlanğıc, inkişaf və nəticədən ibarət olur. Başlanğıc mərhələdə mətn haqqında ümumi məlumat verilir, ikinci mərhələdə (inkişaf) mətn şərh edilir, üçüncü mərhələdə ümumiləşdirilir və yekunlaşdırlır. Deməli, mətnin tərkib hissələrini daha dərindən bilmək üçün onu hərtərəfli öyrənmək lazımdır. Bunun üçün, ilk növbədə, mətnin sərhədlərini və digər nitq vahidləri ilə oxşar, fərqli cəhətlərini öyrənmək lazımdır. Aparılan nəzəri araşdırmalar praktiki olaraq tətbiq edilməlidir.

Azərbaycan dilində mətnin sərhədlərinin müəyyənləşdirilməsi

Məlumdur ki, hər hansı nitq parçası üç aspektdə formalaşır: formal, semantik və üslubi. Ona görə də mətnin sərhədlərini müəyyən edərkən onun qrammatik, semantik və üslubi həddini dəqiqləşdirmək vacib-

dir. Mətnin formal planına onun leksik tərkibi, qrammatik cəhətdən formalaşması, mətnin komponentlərinin bir-biri ilə əlaqələnməsi və intonasiya aiddir. "*Mətnin formalaşması, qurulması üçün onun komponentlərinin struktur və semantik cəhətdən əlaqələndirilməsi əsas şərtdir*" [3, s. 434].

Mətnin komponentləri dedikdə, onun tərkibinə daxil olan cümlələr nəzərdə tutulur. Sintaktik bütövlərin tərkibində cümlələr müxtəlif vasitələrlə əlaqələnir. Buna şifahi və yazılı mövqedən baxsaq, yazılı nitqdən fərqli olaraq şifahi nitqdə ən universal vasitə intonasiyadır. Sintaktik bütöv daxilində hər bir cümlə və cümlədəki sözlər yüksələn, enən, yaxud stabil intonasiya ilə deyilir. Ton tədricən azala və ya çoxala bilər.

Mətnin komponentlərini əlaqələndirən başqa vasitələr də vardır. Bura fonetika, leksika, qrammatika bölmələrində öyrəndiyimiz qaydaların tətbiqi aiddir. Çünki mətn cümlə yığını, pərakəndəlik deyil, əksinə, bilik və savad dərəcəsinin səviyyəsinin bariz göstəricisidir. Mətnin komponentləri qaydalar çərçivəsində elə əlaqələnməlidir ki, ifadə olunan fikir dəqiq çatdırılsın. Onu təşkil edən cümlələrdə bağlama vasitələrinin davamlılığı və uyğunluğu zəruridir: xəbərlərin əsasən zamanca uyğunluğu, əvəzliklərdən, sinonim vasitələrdən istifadə, paralelizm, cümlənin əvvəlində işlənərək onu mətnin əvvəlki cümlələri ilə əlaqələndirən tabesizlik və tabelilik bağlayıcıları, öz sırası, mikrotemanın təkrarlar vasitəsilə şərhi və s. belə vasitələrdəndir. Məsələn: "*Şəhər otuz doqquz gün mühasirədə qalaraq, uzaq məmləkətdən qoşun çəkib gəlmiş şahla vuruşurdu. Qırxıncı gün şahın iyirmi yaşlı cəsur oğlu Maliktac beş yüz nəfər seçmə pəhləvanla hasarın tərəfindən hücum edib şəhərə girdi. Onun ardınca bütün qoşun yol tapıb şəhərə doldu"* [5, s. 41].

Şəhərin tutulması mikromətnin üzərində qurulmuş bu sintaktik bütöv üç cümlədən ibarətdir. Cümlələr bir-biri ilə qrammatik və semantik cəhətdən elə bağlanmışdır ki, üç cümlədə mikromətnin şərhi ustalığının üç mərhələsini də aydın görmək mümkündür. Birinci cümlə - *Şəhər otuz doqquz gün mühasirədə qalaraq, uzaq məmləkətdən qoşun çəkib gəlmiş şahla vuruşurdu* başlanğıc mərhələdi. Bu cümlə bütün nitq normalarına uyğundur. Nitq hissələrinin həm morfoloji, həm də sintaktik cəhətdən mövqeyi doğrudur. Bizə aydın olur ki, şəhər mühasirədədir. İnkişaf mərhələsində - *Qırxıncı gün şahın iyirmi yaşlı cəsur oğlu Maliktac beş yüz nəfər seçmə pəhləvanla hasarın tərəfindən hücum edib şəhərə girdi* cümləsində gözlərimizin qarşısında *Maliktacın tipi və qəhrəmanlığı* canlanır. Leksik normanın pozulması *girdi* sözündə özünü göstərir. Bunun nəticəsində hadisələr daha da qabardılır. Bu obrazlığın səviyyəsini daha da artırır. Nəticədə - *Onun ardınca bütün qoşun yol tapıb şəhərə doldu* cümləsində *daxil oldu* sözünü *doldu* kimi qeyd edən yazıçı son nöqtəni qoyur və oxucuya artıq şəhərin tutulduğu aydın olur.

Mətnin sərhədlərinin müəyyənləşdirilməsində göründüyü kimi ən əsası fikrin dəqiq intormativliyi üçün lazımı sözün cümlə daxilində işlədilib mətn səviyyəsinə qaldırılmasıdır. Mətnin məzmunundan, temasından, müəllifin üslubundan, əsərin janr və xüsusiyyətlərindən, məzmun və formadan asılı olaraq mərhələlərin yeri dəyişə bilər, amma qarışıqlıq yaranmamaq şərti ilə. Əsas mikromətnin hüdudları gözlənilməlidir. Məsələn: "*Yoldaşım bir sorğu ilə mənim üzümə baxır, fikrimi bilmək istəyirdi. Gözəl deyə yalvardığımız və rədd cavabı aldığımız qızlara nisbətdə Gülər, insafən, ən gözəl qız idi.*

Biz indi qapı ağzında Gülərin simasını, gülüşünü və yerişini müzakirə edərək, Məryəm xalanı gözləyirdik. Qapı laybalay açıldı. Gülər ürkək və oynaq bir dağ keçisi kimi irəli yeridi. Ardınca hündürboylu, incə vücudlu, sarıbənizli bir qız gəlirdi. Bu, Məryəm xanım idi" [4, s. 294].

İki abzasdan təşkil olunmuş mikromətni təşkil edən cümlələr həm məna, həm də qrammatik cəhətdən elə əlaqələnmişdir ki, burada heç bir qayda pozuntusuna rast gəlmək mümkün deyil. Müasir Azərbaycan dilində mətn sərhədlərinin müəyyənləşdirilməsi nəticəsində belə amillərə fikir vermək lazımdır. Gözdən qaçan səhvlər gələcəkdə dilimiz və nitqimiz üçün böyük fəsadlar yarada bilər. Məhz bunun üçün qurulan hər bir mikromətn müəyyən qaydalara tabe edilməlidir ki, ümumilikdə makromətnin quruluş və semantikasına zərər dəyməsin.

Azərbaycan dilçiliyində ilk dəfə sintaktik bütövlərin hüdudlarını təyin etməyə Ə.Xəlilov təşəbbüs göstərmiş, o, mətnin mərkəzi cümləsini müəyyənləşdirməyi əsas götürmüşdür [7, s. 9-12]. K. Abdullayev isə sintaktik bütövlərin sərhədlərini təyin edərkən Azərbaycan dilinin daxili sintaktik quruluşunun müəyyənləşdirməyi təklif etmiş və bu görüşün tərəfdarı olmuşdur.

Dilçilər sintaktik bütövlərin sərhədlərinin müəyyənləşdirilməsində müxtəlif çətinliklərin olmasını göstərmişlər. Bunun səbəbini nitqin icrasının xətti xarakteri ilə bağlı olduğunu bildirmişlər. Adama elə gəlir

ki, cümlələr çox axıcıdır, mənaca tamamlanır, lakin real mətndə mikromətnlərin hüdudları çox vaxt hiss olunmur, mikromətnlər çarpazlaşır, üst-üstə düşür, öz tərkiblərinə başqa səviyyənin mikromətnlərini daxil edirlər.

Buna rəğmən, mətnin sərhədlərinin müəyyənləşdirilməsində tam dəqiq nəticələr əldə olunmamışdır. Tatar dilçisi M.Zəkiyev belə hesab edir ki, mətnin dəqiq başlama və bitmə sərhəddini müəyyən etmək olmur. Lakin o bunun səbəblərini izah edə bilməmişdir. M.Zəkiyev sintaktik bütövlər üçün qrammatik sərhədi müəyyən etməyi vacib saymayaraq yazır: "*Biz mətnin daxilindəki cümlələr arasındakı əlaqə formalarını hərtərəfli araşdırmaqla sintaktik bütövlərin daxili strukturunu öyrənmiş olarıq. Çünki əlaqəli mətn bu və ya digər bir bitmiş fikri ifadə edir, ona görə də sintaktik bütövlərin sərhədləri müstəqil cümlələr arasındakı əlaqələrin öyrənilməsindən asılıdır*" [9, s. 156]

Dünya dilçiliyində də mətnin sərhədlərinə dair görüşlər mübahisəlidir. Bəziləri mətn üçün sərhəd cızmağın lazımsız olduğunu təkid etmələrinə baxmayaraq, Azərbaycan dilçiləri hesab edir ki, dilin müəyyən vahidlərindən söhbət gedir, deməli, o, başqa dil vahidlərindən fərqlənməli, konkret və özünəməxsus sərhədləri, həm də sintaktik vahid kimi başlanğıc və son nöqtələri olmalıdır. Bu münasibətilə Ə.Xəlilov yazır: "*Həmişə sintaktik bütövün tərkibində bir mərkəzi cümlə olur. Bu mərkəzi cümlənin də daxilində real, konkret mənaya malik olmayan söz və ifadə yerləşir. Aparıcı cümlə, xüsusilə onun tərkibindəki konkret mənası olmayan söz müəyyənləşdirilməlidir. Bu isə ya mərkəzi cümlədən əvvəlki, ya sonrakı, ya da mərkəzi cümlənin hər iki tərəfindən mətnlərin məzmunu ilə mümkündür*" [7, s. 5-7]. Müəllif sintaktik vahid kimi mətnin strukturuna və komponentlərinin qarşılıqlı münasibətinə nəzər salmış və mətnin sərhədlərini belə təsvir etməyə cəhd göstərmişdir: "*Bizim fikrimizcə, konkretləşdirmə tələb edən mərkəzi cümlə aydın olana kimi onun izahına xidmət edən cümlələr və ya cümlələr qrupu haradan başlayıb harada bitirsə, sintaktik tamın da sərhədi oradan başlayıb orada bitir*" [7, s. 5-7]. Ə.Xəlilov həm də mətnin sərhədlərinin müəyyən olunmasında mərkəzi cümlənin tapılıb təhlil olunmasının böyük rolu olduğunu bildirmişdir.

K.Abdullayev dilçilikdə mətnin sərhədlərinin təyin olunmasına dair fikirlərə şübhəli yanaşmışdır. Alimə görə, Azərbaycan dilində cümlə üzvlərinin sabit yeri vardır. Məhz bu səbəb sintaktik bütövlərin sərhədlərinin təyin olunmasında problem yaratmamalıdır. Daha bir səbəb sintaktik bütövlərin özlərinin quruluşu ilə bağlıdır. Mətnin qapalı xarakteri onun üç mərhələsinin təyin olunmasında yardım edir. K.Abdullayev sintaktik bütövlərin sərhədlərini müəyyənləşdirmək üçün cümlənin strukturuna əsaslanmağı, cümlənin mühüm bir xarakter əlamətini mətnə tətbiq etməyi lazım bilmişdir. Müəllifin müəyyənləşdirdiyi bu prinsip türk dillərinin xarakterinə uyğundur. Cümlə mətnin tərkib hissəsi olduğu üçün cümlənin quruluşu ana xəttə dayanır. Bu baxımdan cümlənin sxemi aşağıdakı kimi verilə bilər:

TƏYİN ⟺ MÜBTƏDA ⟺ TAMAMLIQ ⟺ ZƏRFLİK ⟺ XƏBƏR

Azərbaycan dilində mətnlərin müxtəlif səviyyələrdə həcmi və semantik tutumu var: müəllifin istəyindən, onun savad və bilik dərəcəsindən, dünya görüşündən asılı olaraq mövzu ilə davranmaq, onu lazımı nisbətdə şərh etmək qabiliyyəti. Həmçinin yazarın üslubunun zəifliyi, naqisliyi və yaxud kamilliyi, səlisliyi kimi məsələləri də diqqətdən kənarda tutmaq olmaz. Buna görə də hər mətnə yanaşarkən onlara eyni cür baxmaq mümkün deyil. Bütün bu amillər mikromətnin strukturunu eyni vaxtda dərhal izləməyə imkan vermir. Düzdür, bir sıra dilçilər sintaktik bütövlər üçün sərhəd cızmağın vacib olmadığını bildirmişdilər, lakin burada söhbət söz birləşməsi və cümlənin sərhədlərindən getmir, söhbət mətnin yaranmasında lazım olan vasitələrin müəyyən sxem əsasında qurulmasından gedir. Əgər mətnin yaranma yolları dərindən araşdırılarsa, deməli, dil vahidlərinin həm linqvistik, həm idarki planda mətnin müəyyən sərhədlərlə əhatə olunmasında iştirak etdiyini görmək olar. Ona görə də Azərbaycan dilində yazılmış mətnlər müəyyən sərhədlərlə hüdudlanır, onların yaranmasında və formalaşmasında müxtəlif qrammatik vahidlər iştirak etsə də, fikrin müəyyənlənliyi baxımından ümumtürkcənin spesifik qrammatik quruluşundan kənara çıxmırlar.

ƏDƏBİYYAT

1.Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri.Bakı: Maarif, 1999, 259 s.

2.Abdullayev K.M. və b. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012, 608 s.

3.Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Şərq-Qərb, 2007, 424 s.
4.Cabbarlı C. Əsərləri. I cild. Bakı: Şərq-Qərb, 2005, 327 s.
5.Əfəndiyev İ. Seçilmiş əsərləri. I cild.Bakı: Avrasiya press, 2005, 280 s.
6.Xəlilov Ə.Ə. Əvəzliklərin müstəqil cümlələr arasında əlaqə yaratmaqda rolu // Azərbaycan EA xəbərləri. Dil, ədəbiyyat və incəsənət seriyası. Bakı: 1969, №1, səh. 5-7.
7.Xəlilov Ə.Ə. Sintaktik bütövlərin əmələ gəlməsində morfoloji elementlərin rolu/Azərbaycan morfologiyasının aktual məsələləri. Bakı: ADU, 1987, səh.9-12.
8.Kazımov Q.Ş.Müasir Azərbaycan dili. Bakı,Təhsil, 2007, 494 s.
9.Закиев М.З.Синтаксический строй татарского языка. Казань: Изд. КГУ, 1963, 364 с.

PERSPECTIVES ON THE CONSTITUTION AND DEMARCATION OF TEXT IN THE AZERBAIJANI LANGUAGE

ABSTRACT

The article is a descriptive and comparative study of the organization of text in Azerbaijan language with a specific focus on the linguistic perspectives of the demarcation of textual boundaries. It is mentioned that the creation of a text is determined by the clearly established regularities. The extensive analysis of these regularities is a part of the solution to a range of linguistic problems and will make it possible to consider the functional importance of language in a more detailed manner. Thus, the study of the syntactical problem is not restricted to the analysis of the combinations of words and sentences; the structural and semantic characteristics of the text have also become a major research object during the modern period.

In this respect, the textual features and the academic opinions in the Azerbaijani and English languages are of particular interest. The research proves that when one decides to draw out textual frontiers, the key consideration is the elevation of a required word as part of a sentence to the rank of a text, thereby providing accurate informational clarity of thought. The order of the stages may vary depending on the content and theme of the text, the author's style, the genre, and the particularities of a work. The boundaries of the major microtext should not be violated, but cognitive coherence should not be compromised.

It is not actually the case that linguists have held that there is no need to draw rigid demarcations of the syntactic wholes, but the question in this case is not where the boundaries of combinations of words or sentences lie, but rather how to construct the resources that one needs to form text based on some schematic model. Taking an in-depth study of the ways texts are formed, one would find that language units are involved, both linguistically and cognitively, in the enclosing of a text within some boundaries. That is why the texts in the Azerbaijani language are restricted by certain boundaries. Though different grammatical units play a role in the formation and development of the semantic definiteness, in terms of semantic definiteness, they do not exceed the particular grammatical structure of the Common Turkic language.

Keywords: *Azerbaijan language, text elements, text delimitation, lexical and grammatical tools*

ВЗГЛЯДЫ НА СТРУКТУРУ ТЕКСТА И ОПРЕДЕЛЕНИЕ ЕГО ГРАНИЦ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

АННОТАЦИЯ

В статье представлен описательно-сопоставительный анализ структуры текста в азербайджанском языке с особым акцентом на лингвистические взгляды, касающиеся определения границ текста. Отмечается, что формирование текста подчиняется определённым закономерностям. Всестороннее изучение этих закономерностей способствует решению ряда лингвистических проблем и позволяет более полно выявить функциональное значение языка. В связи с этим задачи синтаксиса не ограничиваются изучением словосочетаний и предложений: в современный период структурно-семантические особенности текста также стали одним из основных объектов исследования.

С данной точки зрения особый интерес представляют структурные характеристики текста и соответствующие научные подходы в азербайджанском и английском языках. В исследовании

показано, что при определении границ текста ключевым является поднятие необходимого слова, используемого в рамках предложения, до уровня текста с целью обеспечения точной информативности высказываемой мысли. В зависимости от содержания и темы текста, авторского стиля, жанра и специфики произведения, а также соотношения содержания и формы, последовательность этапов может изменяться; однако при этом не должна нарушаться когнитивная целостность, и границы основного микротекста должны быть строго соблюдены.

Действительно, ряд лингвистов указывал на необязательность строгого разграничения синтаксических целостностей, однако в данном случае речь идёт не о границах словосочетаний и предложений, а о построении средств, необходимых для формирования текста, в рамках определённой схемы. Если пути образования текста подвергаются глубокому анализу, становится очевидно, что языковые единицы участвуют — как в лингвистическом, так и в когнитивном плане — в оформлении текста в определённых границах. Поэтому тексты, созданные на азербайджанском языке, характеризуются наличием чётко обозначенных границ. Несмотря на то что в их формировании и развитии участвуют различные грамматические единицы, с точки зрения смысловой определённости они не выходят за пределы специфической грамматической структуры общетюркского языка.

Ключевые слова*: Азербайджанский язык, компоненты текста, границы текста, лексико-грамматические средства.*

Sevinc ŞÜKÜRLÜ*

ELLİPTİK KONSTRUKSİYALARIN STRUKTUR-SEMANTİK VƏ PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə elliptik konstruksiyaların struktur-semantik və praqmatik xüsusiyyətləri müasir dilçilik yanaşmaları əsasında təhlil edilir. Ellipsis hadisəsi cümlədə müəyyən üzvlərin formal olaraq ifadə olunmaması, lakin mənanın kontekst və situasiya vasitəsilə tam şəkildə bərpa olunması kimi izah olunur. Ellipsis yalnız qrammatik ixtisar deyil, eyni zamanda idraki, kommunikativ və praqmatik mexanizm kimi əsaslandırılır. Məqalədə elliptik konstruksiyaların nominal, verbal və cümlə səviyyəsində təzahür formaları nəzəri izahlarla yanaşı, nümunələr əsasında da şərh edilir.

Təhlillər göstərir ki, elliptik konstruksiyalar nitqin yığcamlığını, dinamizmini və təbiiliyini artırmaqla yanaşı, diskursun kohezivliyini və kommunikativ səmərəliliyini təmin edən mühüm dil vasitəsidir.

Açar sözlər: *ellipsis, elliptik konstruksiyalar, struktur-semantik xüsusiyyətlər, praqmatika, diskurs.*

Dil insanın düşüncə və ünsiyyət ehtiyaclarını ifadə edən canlı bir sistemdir. Bu sistem daim dəyişir, sadələşir və ünsiyyəti daha sürətli və effektiv etməyə yönəlir. İnsanlar danışarkən hər şeyi tam və geniş formada demədən, lakin asanlıqla başa düşülən şəkildə ötürür. Məhz bu nöqtədə elliptik konstruksiyalar dilin təbii mexanizmi kimi ortaya çıxır. Elliptik konstruksiyalar cümlədə bəzi elementlərin açıq şəkildə ifadə olunmaması, lakin mənanın kontekst və situasiya əsasında qorunması ilə xarakterizə olunur. Bu cür strukturlar nitqin yığcamlığını artırır, ünsiyyəti sürətləndirir və danışığı daha təbii edir. Ellipsis yalnız qrammatik ixtisar deyil, eyni zamanda düşüncənin və nitqin necə formalaşdığını göstərən idraki və kommunikativ mexanizmdir.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Hind-Avropa dilləri şöbəsi, böyük elmi işçi

Müasir kommunikasiya mühitində - gündəlik danışıqda, dialoqlarda, media və rəqəmsal ünsiyyətdə - elliptik konstruksiyalar getdikcə daha geniş yayılır. Bu da ellipsisin struktur-semantik və praqmatik xüsusiyyətlərinin araşdırılmasını aktual elmi problemə çevirir.

Ellipsis termini "buraxılma", "ixtisar" mənasını ifadə edir. Dilçilikdə isə bu anlayış cümlənin müəyyən üzvlərinin formal olaraq deyilməməsi, lakin fikrin kontekstdən tam başa düşülməsi ilə izah olunur [3]. Başqa sözlə, elliptik cümlələr zahirən natamam görünsə də, məna baxımından bütöv kommunikativ vahidlərdir.

Quirk və həmkarlarının fikrincə, buraxılmış sözlər ya əvvəlki kontekstdə qeyd olunmuş, ya da oxucu və dinləyici tərəfindən asanlıqla təxmin edilə bilən elementlərdir. Ellipsis dilin semantic qənaət prinsipinə əsaslanır; yəni cümlədə mənanı tam başa düşmək üçün artıq sözlərə ehtiyac yoxdur. Analiz və sintaktik təhlil zamanı yalnız konstruksiyanı tamamlamaq üçün zəruri olan sözlər bərpa edilir [6, 578].

İnsan nitqində ellipsis tamamilə təbii hadisədir. Danışan şəxs qarşı tərəfin vəziyyəti, mövzunu və əvvəlki söhbəti bildiyini nəzərə alaraq artıq sözləri ixtisar edir. Bu, həm vaxt qazandırır, həm də ünsiyyəti daha səmimi və rahat edir. Ellipsis məhz bu səbəbdən təkcə qrammatik hadisə deyil, eyni zamanda sosial və psixoloji xarakter daşıyan dil mexanizmidir.

Huddleston və Pullumun fikrincə, ellipsis cümlə daxilində mənaca tamlığı pozmayan sintaktik hadisədir. Onlar ellipsisin müxtəlif növlərini fərqləndirərək göstərirlər ki, bu konstruksiyalar dilin kontekstual çevikliyini əks etdirir [4, 1530].

Ənənəvi dilçilikdə ellipsis uzun müddət natamam cümlələrlə eyniləşdirilmişdir. Lakin müasir yanaşmalar göstərir ki, elliptik konstruksiyalar struktur baxımından ixtisar olunmuş olsa da, məna və funksiya baxımından tamdır. Bu xüsusiyyət ellipsisi dilin qənaət mexanizmlərinin əsas göstəricilərindən birinə çevirir.

Ceyn Ostin "Qürur və Qərəz" romanında elliptik konstruksiyalar əsasən dialoji nitqdə verbal və praqmatik ellipsis formasında təzahür edir. Aşağıdakı dialoq bu baxımdan xarakterik nümunədir:

"– Mrs. Bennet could certainly spare you for another fortnight.(Xanım Bennet sizi daha iki həftə də buraxa bilərdi.)"

"– But my father cannot. He wrote last week to hurry my return (Amma atam yox. Keçən həftə qayıtmağımı tezləşdirməyimi yazıb)"[2].

Bu nümunədə ellipsis cavab replikasında müşahidə olunur. "But my father cannot" cümləsi struktur baxımından natamamdır və leksik feil (spare) ilə yanaşı tamamlıq (me for another fortnight) formal olaraq ifadə olunmur. Lakin buraxılmış elementlər əvvəlki cümlənin semantic məzmununa əsaslanaraq asanlıqla bərpa edilir. Tam bərpa olunmuş forma "But my father cannot spare me for another fortnight" şəklində təqdim oluna bilər.

Elliptik konstruksiyalar struktur baxımdan müxtəlif formalarda təzahür edir. Ən ümumi bölgüyə görə, onlar nominal, verbal və cümlə səviyyəsində ellipsis fərqləndirilir.

Nominal ellipsis (isim əsaslı ellipsis) zamanı isim qrupunun əsas elementi buraxılır, lakin onu əvəz edən sifət, say və ya digər müəyyənləşdirici komponentlər mənanı daşımağa davam edir.

Məsələn:

– Which dress did you buy? (Hansı paltarı aldın?)

– The blue one.(Mavi olanı.) Bu cür ellipsis nitqi yüngülləşdirir və təkrarlardan qaçmağa imkan verir. Oxucu və ya dinləyici buraxılmış ismi əvvəlki kontekstdən asanlıqla bərpa edir.

Verbal ellipsis (feil əsaslı ellipsis) isə daha çox feil və ya feil birləşməsinin ixtisarı ilə müşahidə olunur. Bu tip ellipsis xüsusilə dialoji nitq üçün xarakterikdir. Məsələn:

– Has she finished the report? (O, hesabatı bitirib?)

– Yes, she has.(Bəli, bitirib.) Əsas leksik feil (finished) təkrarlanmayıb, yalnız köməkçi feil saxlanılıb. Danışıqda feliin təkrar-təkrar deyilməsi artıq yük yarada bilər, buna görə də danışan şəxs onu buraxaraq yalnız köməkçi elementi saxlayır. Bu zaman fikir itmir, əksinə, daha çevik şəkildə ötürülür.

Cümlə səviyyəsində ellipsis zamanı isə cümlənin əsas üzvləri - mübtəda və ya xəbər - ifadə olunmur. Belə konstruksiyalar adətən situativ xarakter daşıyır və konkret ünsiyyət şəraitinə bağlı olur. Məsələn:

– Are you ready to leave? (Getməyə hazırsan?)

– Almost. (Demək olar ki.) Bu tip ellipsis danışığın təbiiliyini və spontanlığını artırır.

Elliptik cümlələr replika və dialoqlara xas olan, bir yaxud bir neçə üzvü çatışmayan, kontekstdə tam cüttərkibli cümlələrə uyğun gələn natamam cümlələr kimi təsvir edilir [5,210]. Həm Azərbaycan, həm də ingilis dili üçün ortaq olan əsas cəhət odur ki, elliptik cümlələr formal baxımdan natamam olsa da, semantik baxımdan tam məna daşıyır və kontekstdən bərpa olunur. Ellipsis həm Azərbaycan, həm də ingilis dillərində kommunikativ qənaət, nitqin dinamikliyi və təbii axıcılıq funksiyalarını yerinə yetirir. Bununla belə, dillər arasında müəyyən fərqlər də mövcuddur. İngilis dilində ellipsis daha çox strukturlaşdırılmış sintaktik kateqoriya kimi çıxış edir, Azərbaycan dilində isə bu proses situativ mətn əlaqələri və dialoji ünsiyyətin tələbləri ilə müəyyənləşir. Nəticə etibarilə, hər iki dildə elliptik konstruksiyalar həm universal nitq hadisəsi, həm də dilin özünəməxsus sintaktik və diskurs xüsusiyyətlərini əks etdirən mexanizm kimi qiymətləndirilir.

Semantik baxımdan elliptik konstruksiyaların əsas xüsusiyyəti buraxılmış elementlərin məna boşluğu yaratmamasıdır. Əksinə, bu boşluq oxucu və ya dinləyici tərəfindən asanlıqla doldurulur.

Ellipsis hadisəsi insan düşüncə mexanizmləri ilə sıx bağlıdır. İnsan beyni informasiyanı həmişə tam və geniş strukturlar şəklində qəbul etmir; əksinə, kontekst və əvvəlki biliklər əsasında mənanı tamamlayır. Elliptik konstruksiyalar bu idraki xüsusiyyətin dil səviyyəsindəki təzahürüdür.

Praqmatik baxımdan ellipsis danışanın niyyəti ilə birbaşa əlaqəlidir. Danışan şəxs nəyi demək istədiyini açıq şəkildə deyil, bəzən dolayı yolla ifadə edir və buraxılmış hissənin dinləyici tərəfindən başa düşüləcəyinə güvənir. Bu isə ünsiyyətdə qarşılıqlı anlaşma və ortaq bilik bazasının mövcudluğunu tələb edir. Ellipsis həm də emosional və üslubi funksiyalar yerinə yetirir. Buraxılmış elementlər bəzən vurğunu artırır, bəzən isə nitqdə pauza və gözlənilmə effekti yaradır.

Müasir ünsiyyətdə elliptik konstruksiyalar xüsusilə böyük rol oynayır. Rəqəmsal kommunikasiya, qısa mesajlar və sosial media dili yığcam və sürətli ifadə tərzini tələb edir. Bu şəraitdə ellipsis dilin çevikliyini təmin edən əsas vasitələrdən birinə çevrilmişdir.

Bədii üslubda ellipsis emosional təsiri gücləndirir və oxucunu mətnlə fəal ünsiyyətə cəlb edir. Bu da ellipsisin estetik və ifadəli potensialını nümayiş etdirir.

"Elliptik cümlələrdən istifadənin intensiv olması dilə qənaət meyli, fikri çatdırmaq üçün mürəkkəb cümlə konstruksiyalarının zəruriliyinə ehtiyacın hiss olunmaması, çatdırılan informasiyanın lakonik cümlələrlə verilməsinin mümkünlüyü ilə ölçülür." [1].

Ellipsis hadisəsi insanın informasiyanı emal etmə xüsusiyyətləri ilə də sıx bağlıdır. Dil istifadəçisi buraxılmış elementləri avtomatik şəkildə tamamlayaraq mənanı bütöv şəkildə qavrayır və bu, elliptik konstruksiyaların idraki qənaət mexanizmi kimi fəaliyyət göstərdiyini göstərir.

Elliptik konstruksiyaların fəaliyyəti yalnız cümlə səviyyəsi ilə məhdudlaşmır, onlar mətn və diskurs daxilində də mühüm funksiyalar yerinə yetirir. Xüsusilə qarşılıqlı ünsiyyətə əsaslanan diskurs növlərində elliptik strukturlar informasiyanın ötürülmə tempini artırır və mətnin kohezivliyini təmin edən vasitələrdən birinə çevrilir. Bu baxımdan ellipsis cümlədaxili hadisə olmaqla yanaşı, mətnin ümumi semantik təşkilində aktiv rol oynayan mexanizm kimi çıxış edir.

Diskurs daxilində elliptik konstruksiyalar əvvəlki cümlələrlə semantik bağlılıq yaradır və mətnin daxili əlaqələrini möhkəmləndirir. Buraxılmış elementlər oxucu və ya dinləyici tərəfindən əvvəlki kontekstə əsaslanaraq bərpa edilir və bu proses diskursun ardıcıllığını qoruyur. Ellipsis məhz bu xüsusiyyəti ilə təkrardan qaçmağa, fikrin əsas məğzini ön plana çıxarmağa xidmət edir.

Danışıq diskursunda elliptik konstruksiyalar daha çox spontanlıq və təbiilik yaradır. Gündəlik dialoqlarda danışan tərəf çox vaxt cümləni tamamlamağa ehtiyac duymur, çünki situasiya və əvvəlki danışıq hissələri mənanı aydınlaşdırmaq üçün kifayət edir. Bu isə ellipsisi danışıq dilinin ayrılmaz komponentinə çevirir.

Elliptik konstruksiyalar mətnin üslubi xüsusiyyətlərinin formalaşmasında da mühüm rol oynayır. Xüsusilə bədii və publisistik mətnlərdə ellipsis emosional təsiri gücləndirən vasitə kimi çıxış edir. Buraxılmış elementlər oxucunu mətnin mənasını aktiv şəkildə tamamlamağa sövq edir və bu da mətnin təsir gücünü artırır.

Üslubi baxımdan ellipsis bəzən pauza, bəzən vurğu, bəzən isə gözlənilmə effekti yaradır. Bu cür effektlər oxucunun diqqətini cümlənin əsas semantik yük daşıyan hissəsinə yönəldir. Elliptik konstruksiyalar vasitəsilə müəllif fikrin açıq şəkildə deyilməsindən imtina edir və məna yükünün bir hissəsini oxucunun interpretasiyasına buraxır. Bu da mətni statik deyil, dinamik və interaktiv edir. Publisistik diskursda ellipsis informasiyanın sürətli və yığcam təqdim olunmasına xidmət edir. Xəbər başlıqları, elanlar və şüar tipli mətnlərdə elliptik konstruksiyalar əsas məzmunu minimum dil vahidi ilə çatdırmaq məqsədi daşıyır. Bu baxımdan ellipsis müasir informasiya cəmiyyətinin kommunikativ tələblərinə cavab verən dil vasitəsi kimi çıxış edir.

Praqmatik baxımdan elliptik konstruksiyalar danışanın strategiyası ilə birbaşa əlaqəlidir. Danışan şəxs buraxılmış elementin dinləyici tərəfindən başa düşüləcəyini fərz edir və bu fərziyyə ünsiyyətin uğurlu alınması üçün əsas şərt olur. Bu isə ellipsisin qarşılıqlı anlaşmaya əsaslanan praqmatik mexanizm olduğunu göstərir. Ellipsis həm də danışanın emosional vəziyyətini və münasibətini ifadə edən vasitə kimi çıxış edə bilər. Qısa, yarımçıq ifadələr bəzən tərəddüdü, bəzən qətiyyəti, bəzən isə emosional gərginliyi əks etdirir. Bu xüsusiyyət ellipsisi yalnız struktur hadisə deyil, nitqin ekspressiv qatının da mühüm elementi kimi qiymətləndirməyə imkan verir. Praqmatik strategiya kimi ellipsis dinləyicinin diqqətini əsas məna nöqtəsinə cəmləşdirir. Artıq informasiyanın ixtisarı nitqin məqsədyönlü təşkilinə şərait yaradır və kommunikativ səmərəliliyi artırır. Bu baxımdan elliptik konstruksiyalar praqmatik təsir gücü yüksək olan dil vahidləri hesab edilə bilər. Elliptik konstruksiyalar struktur, semantik və praqmatik səviyyələrin kəsişməsində yerləşən çoxfunksiyalı dil hadisəsidir. Onlar həm cümlə daxilində, həm də mətn və diskurs səviyyəsində fəaliyyət göstərir, dilin qənaət prinsipini reallaşdırır və ünsiyyəti daha çevik edir.

Ellipsis dilin yalnız formal quruluşunu deyil, onun idraki və kommunikativ potensialını da üzə çıxarır. Buraxılmış elementlərin kontekst əsasında bərpası dilin dinamik və adaptiv xarakterini nümayiş etdirir. Bu baxımdan elliptik konstruksiyaların tədqiqi dilin canlı mexanizm kimi fəaliyyətini anlamaq üçün mühüm elmi əhəmiyyət kəsb edir.

ƏDƏBIYYAT SIYAHISI

1.https://aak.gov.az/upload/dissertasion/filologiya_elml_ri/C%C9%99mil%C9%99_A_avtoref_az%C9%99rbaycanca_mudafi%C9%99__MOHURLU.pdf
2. https://standardebooks.org/ebooks/jane-austen/pride-and-prejudice/text/single-page)
3. https://www.etymonline.com/search?q=ellipsis
4. Huddleston, R. & Pullum, G. K. (2002). The Cambridge Grammar of the English Language. Cambridge: Cambridge University Press, pp. 1860
5. L.Nəcəfova İngilis-Azərbaycan dillərində elliptisizmlər və onların qarşılıqlı münasibəti, Filologiya məsələləri, № 1, 2020
6. Quirk, R., Greenbaum, S., Leech, G. & Svartvik, J. (1985). A Comprehensive Grammar of the English Language. London: Longman, p. 1792.

STRUCTURAL-SEMANTIC AND PRAGMATIC FEATURES OF ELLIPTICAL CONSTRUCTIONS

The article analyzes the structural-semantic and pragmatic features of elliptical constructions within the framework of modern linguistic approaches. Ellipsis is explained as the formal omission of certain sentence elements, while the meaning is fully reconstructed through context and situation. The study argues that ellipsis is not merely a grammatical reduction but also functions as a cognitive, communicative, and pragmatic mechanism. The article examines nominal, verbal types of ellipsis, providing both theoretical explanations and illustrative examples. The analysis demonstrates that elliptical constructions enhance the conciseness, dynamism, and naturalness of speech, while also contributing significantly to discourse cohesion and communicative efficiency.

Keywords: *ellipsis, elliptical constructions, structural-semantic features, pragmatics, discourse.*

СТРУКТУРНО-СЕМАНТИЧЕСКИЕ И ПРАГМАТИЧЕСКИЕ ОСОБЕННОСТИ ЭЛЛИПТИЧЕСКИХ КОНСТРУКЦИЙ

В статье анализируются структурно-семантические и прагматические особенности эллиптических конструкций на основе современных лингвистических подходов. Эллипсис рассматривается как формальное опущение отдельных членов предложения при полном восстановлении смысла за счёт контекста и ситуации. В исследовании обосновывается, что эллипсис представляет собой не только грамматическое сокращение, но и когнитивный, коммуникативный и прагматический механизм. В статье рассматриваются номинальные и вербальные типы эллипсиса, которые анализируются как с теоретической точки зрения, так и на основе примеров. Проведённый анализ показывает, что эллиптические конструкции способствуют лаконичности, динамичности и естественности речи, а также обеспечивают когезию дискурса и коммуникативную эффективность.

Ключевые слова: *эллипсис, эллиптические конструкции, структурно-семантические особенности, прагматика, дискурс.*

Gülnar İSMAYILOVA*

YUNUS ƏMRƏ VƏ QAZI BÜRHANƏDDIN "DIVAN"LARINDAKI TOPONIMLƏRIN SEMANTIK-SIMVOLIK XÜSUSIYYƏTLƏRI

XÜLASƏ

Məqalədə Yunus Əmrə və Qazi Bürhanəddin "Divan"larında işlədilən toponimlər müqayisəli şəkildə araşdırılmışdır. Təhlil nəticəsində müəyyən edilmişdir ki, hər iki şair yer adlarından təkcə coğrafi məkan bildirən vahidlər kimi deyil, həm də poetik, simvolik və məcazi məna yaradan vasitələr kimi istifadə etmişdir. Yunus Əmrənin poeziyasında toponimlər əsasən sufi ideyaların ifadəsinə xidmət etdiyi halda, Qazi Bürhanəddinin "Divan"nında onlar emosional və fəlsəfi məna daşıyan çoxqatlı poetik elementlər kimi çıxış edir. Aparılan tədqiqat toponimlərin orta əsr türk poeziyasında bədii-estetik funksiyasını müəyyənləşdirməyə imkan yaradır.

Türk ədəbiyyatının formalaşma mərhələləri içərisində XIII–XIV əsrlər xüsusi əhəmiyyətə malikdir. Bu dövrün görkəmli sənətkarlarından olan Yunus Əmrə və Qazi Bürhanəddin yalnız bədii yaradıcılıqları ilə deyil, həm də dönəmin dil, mədəniyyət və tarixi-coğrafi düşüncə tərzini əks etdirmələri baxımından aparıcı ədəbi simalar kimi çıxış etmişdirlər. Hər iki müəllifin "Divan"larında qorunub saxlanmış leksik elementlər, poetik strukturlar və onomastik vahidlər dövrün dil xüsusiyyətlərini daha dolğun şəkildə tədqiq etməyə imkan verir. "Onomastik vahidlərin, o cümlədən toponimlərin tədqiqi türk xalqlarının tarixini, etnogenez və etnoqrafiyasını öyrənmək üçün zəngin faktiki material mənbəyi kimi əhəmiyyətlidir" [2, s.136]. Türk ədəbiyyatında məkan anlayışı bədii mətnin semantik və poetik quruluşunda mühüm yer tutur. Xüsusilə klassik poeziyada yer adları yalnız coğrafi məkanı bildirməklə kifayətlənmir, eyni zamanda tarixi, dini, mədəni və mənəvi anlamları özündə ehtiva edən rəmzi göstəricilər kimi çıxış edir. Bu baxımdan toponimlərin bədii mətnlərdə işlənmə xüsusiyyətlərinin araşdırılması şairlərin dünyagörüşünü, estetik mövqeyini və mənsub olduğu ədəbi mühiti müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. "Divan"larda işlədilən toponimlər təkcə real coğrafi məkanların adlarını göstərmir, eyni zamanda dövrün dini-mənəvi dəyərlərini, siyasi gerçəkliklərini və mədəni dünyagörüşünü əks etdirir. Məqalədə Yunus Əmrə və Qazi Bürhanəddin "Divan"larında işlədilən toponimlər funksional və mətn konteksti baxımından təhlil olunaraq müqayisəli şəkildə araşdırılır.

"Onomalogiyanın ən böyük yarımşöbələrindən biri toponimiyadır. Toponimika yer adlarını – toponimləri öyrənir. Toponimlər cəmiyyətin həyatında xüsusi əhəmiyyət kəsb edir. Toponimsiz inkişaf etmiş xalq, millət təsəvvür etmək mümkün deyildir. Yer üzündə adsız, ünvansız dövlət, ölkə,

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Monitorinq və linqvistik təhlil şöbəsi, elmi işçi

vilayət, şəhər, kənd, dağ, dərə, təpə və s. coğrafi obyekt yoxdur. İnsan harada məskən salırsa, onun ayağı yerin hansı nöqtəsinə dəyirsə, oraya mütləq ad qoyulur. Bu mənada toponimlər tarixi məlumatları özündə saxlayan leksik vahiddir" [6, c.1, s.207].

Yunus Əmrə poeziyasının əsas səciyyəvi cəhətlərindən biri sadə və axıcı dil üslubudur. Bu xüsusiyyət şairin yaradıcılığını xalq düşüncəsinə yaxınlaşdırmaqla yanaşı, onun "Divan"ında işlədilən toponimlərin də oxucu tərəfindən asan qavranılmasına şərait yaradır. Yunus Əmrə "Divan"ında yer adları yalnız coğrafi məkan göstəricisi kimi deyil, şairin dünyagörüşünü, mənəvi axtarışlarını və sufi təfəkkürünü əks etdirən poetik vasitə kimi çıxış edir. Şairin "Divan"ında daha çox müsəlman aləminin müqəddəs yerlərinin adları üstünlük təşkil edir ki, bu da onun mənsub olduğu dini etiqad və təmayüllə sıx bağlıdır.

"Hak'tan erer türlü nasib canlara,
Olmaz imiş Ka'be'ye varmak ile" [4, s.179].

Kəbə dünya müsəlmanlarının Məkkədə yerləşən əsas ibadətgahıdır. X.Heydərova Hürufilərə görə "Kəbə" leksik vahidini belə izah edir: "Adəmin baş və alın hissəsinin torpağı Kəbədən götürlmüşdür, dolayısı ilə Kəbə Adəmin üzünün məqamıdır, 28 və 32 ilahi kəlmənin aləmi onun üzündə zahirdir" [3, s.141]. İkinci mənası isə "Ağ dərili adam, ağ üz mənasında" işlənir. Bu mənaya ən çox Nəsiminin əsərlərində rast gəlinir [3, s.229].

"Farz değildir kamulara Tur'da münacat eylemek, Ben nerdeysem dost ondadır her bir yeri Tur eyleyim" [4, s.146]. Mənbələrdə Turdağı Musa peyğəmbərin Allahla danışdığı ilk yer kimi verilir. Həmçinin Tur surəsinin adıdır.

"Hürufilərə görə, hz. Musanın Allahı görmək istədiyi Tur dağı insan vücuduna şamildir" [3, s.122].

"And olsun Tur dağına Quranda 52-ci surənin 1-ci ayəsi və adı. Nəsimi şeirlərində əfsanəvi Tur dağı ilə Tur surəsinin adını mənaca əlaqələndirməyə çalışır" [3, s.261].

"İmdi adım Yunus, durur ol demde İsmail idi,
Ol dost için Arafat'a kurban olup çıkan benim" [4, s.206].

Bu misralarda işlənən Ərəfat toponimi islam aləmində ən yüksək dini-mənəvi məkanlardan biri kimi tanınır. Ərəfat – "Cənnət ilə cəhənnəm arasındakı yer. Axirətdə savabları ilə günahları tən gələn insanların qalacağı yer" [3, s.128]. Yunus Əmrə bu müqəddəs məkana istinad etməklə dini toponimi zahiri ibadət məkanı kimi deyil, mənəvi mərtəbə kimi təqdim edir. Ərəfat burada real coğrafi yer olmaqdan çıxaraq nəfsin qurban verildiyi mənəvi zirvəni ifadə edir.

"Ali ile urdum kılıç Ömer ile adl eyledim,
On sekiz il Kafdağı'nda Hamza'yla meydana idim" [4, s.212].

Burada Kafdağı ifadəsi real coğrafi məkan adı deyil, klassik türk divan poeziyasında mifoloji və simvolik yer kimi çıxış edir və mənəvi sınaqların nümayiş olunduğu döyüş meydanını göstərir.

Şairin şeirlərində Anadolu, Azərbaycan, fars və ərəb mədəni mühitlərinə aid toponimlərin yanaşı şəkildə işlədilməsi onun poetik düşüncəsinin geniş coğrafi areala söykəndiyini nümayiş etdirir. Kayseri, Sivas və Maraş kimi Anadolu şəhərləri ilə yanaşı, Təbriz və Naxçıvanın, eləcə də Şiraz və Bağdadın xatırlanması Yunus Əmrənin məkan anlayışının yalnız bir bölgə ilə məhdudlaşmadığını sübut edir. Bu toponimlər şairin yaradıcılığında həm real səfərlərin izlərini daşıyır, həm də mənəvi yolçuluğun simvolik ifadəsinə çevrilir.

"Gezerim Urum'u Şam'ı Yukarı iller'i kamu, Çok istedim bulamadım şöyle garip bencileyin" [4, s.30] misraları onun müxtəlif məkanları dolaşdığını göstərməklə yanaşı, daxili axtarışlarını və sufi kamillik yolundakı mənəvi qəriblik hissini də əks etdirir. Burada "yuxarı ellər" anlayışı tədqiqatlarda Azərbaycan bölgələri ilə əlaqələndirilir və bu ifadə Yunus Əmrənin poetik məkan təsəvvürünün mühüm göstəricisi kimi dəyərləndirilir. Yunus Əmrənin digər misralarında sadalanan toponimlər də bu coğrafi genişliyi təsdiqləyir:

"Kayseri, Tebriz ü Sivas,
Nahcuvan u Maraş, Şiraz,
Gönül sana Bağdâd
yakın âlemlere dîvândasın"[7, s.157].

Bu toponimlərin eyni poetik mətndə yanaşı işlədilməsi Yunus Əmrənin yaradıcılığında fərqli mədəni və dini mühitlərin vahid mənəvi müstəvidə qovuşduğunu göstərir. Şair üçün bu məkanlar yalnız fiziki səfər nöqtələri deyil, sufi düşüncəsinin formalaşdığı və dərinləşdiyi mənəvi məkanlardır.

Şairin vəfatından sonra onun adı ilə əlaqələndirilən müxtəlif məkanların mövcudluğu toponimlərin semantik əhatəsini daha da genişləndirir. Azərbaycan ərazisində Qax bölgəsində Yunus Əmrə və onun ustadı Tapdıq Əmrə ilə bağlı xatırlanan yerlər şairin mənəvi və ədəbi təsir dairəsinin yalnız Anadolu ilə məhdudlaşmadığını göstərir. Müxtəlif bölgələrdə Yunus Əmrəyə aid edilən məzar və ziyarətgahların mövcudluğu sufi ənənəsində geniş yayılmış bir haldır və bu fakt daha çox onun xalq yaddaşında dərin iz buraxmasının göstəricisi kimi qiymətləndirilməlidir.

"Yûnus, bazı şiirlerinde gerçekten de "ilden ile yürüyüp dost sorduğunu; Urum'da, Şam'da kendisi gibi bir garip bulamadığını; âşık olup gurbet ilinde Mecnûn gibi gezdiğini; Kayseri, Tebriz, Sivas, Maraş, Bağdat, Nahçıvan, Şiraz şehirlerini ve bütün Yukarı illeri (Azerbaycan'ı) dolaştıktan sonra Rum'da, yani Anadolu'da bir müddet kışlayıp baharda sılaya döndüğünü" söylemektedir:

Ben yürürüm ilden ile, Dost sorarım dilden dile,
Gurbetde hâlim kim bile, Gel gör beni aşk neyledi.
İndük Rûm'u kışladık çok hayr u şer işledik,
Uş bahâr geldi geri göçdük elhamdülillah" [7, s.156-157].

Nəticə etibarilə, Yunus Əmrə "Divan"ında toponimlər sadəcə coğrafi adlar deyil, şairin mənəvi dünyasını, sufi yolçuluğunu və ümumbəşəri düşüncə sistemini ifadə edən çoxqatlı poetic vahidlərdir.

Qazi Bürhanəddin "Divan"ı toponimlərin işlənməsi baxımından orta əsr Azərbaycan poeziyasında xüsusi yer tutur. Müəllifin "Divan"ında yer alan toponimlər şairin coğrafi baxımdan bağlı olduğu məkanları, yaşadığı mühiti və dolayısı ilə onun dünyagörüşünün formalaşdığı tarixi-siyasi konteksti əks etdirir. Şairin istifadə etdiyi yer adları əsasən türk-islam coğrafiyasının mühüm mədəni və siyasi mərkəzləridir. Bu toponimlər bir tərəfdən Qazi Bürhanəddinin gəzib dolaşdığı, haqqında məlumat sahibi olduğu şəhər və bölgələri göstərir, digər tərəfdən isə dövrün geniş mədəni əlaqələr sisteminə işarə edir. "Divan"da rastlanan Xarəzm, Çin, Rum, Yəmən, Səmərqənd, Kirman, Hindistan, Ərzincan və başqa məşhur toponimlər şairin poetik təxəyyülünün coğrafi miqyasını müəyyənləşdirməklə yanaşı, onun bədii düşüncəsinin formalaşdığı mühiti də nümayiş etdirir. Bütün bu məkan adlarının geniş coğrafiyanı əhatə etməsi Qazi Bürhanəddinin yalnız şair kimi deyil, eyni zamanda dövlət başçısı kimi fəaliyyət göstərməsi ilə də bağlıdır.

Şairin poetik mətnlərində yer adları yalnız coğrafi məkan bildirən leksik vahidlər kimi deyil, həm də emosional, simvolik və fəlsəfi məna daşıyan bədii vasitələr kimi çıxış edir. Toponimlər vasitəsilə Qazi Bürhanəddin həm öz daxili aləmini ifadə edir, həm də şeirin semantic çərçivəsini genişləndirir.

"Bənə Xarəzm oldu nəğmən ilə
Düşəli yadıma Xarəzm hər dəm" [1, s.4].

Bu misralarda Xarəzm təkcə bir yer adı deyil, şairin söz dünyasını formalaşdıran, onun poetik "mən"ini müəyyənləşdirən əsas mərkəz kimi təqdim olunur. Qazi Bürhanəddin "Divan"ında toponimlərin işlənməsi bəzən güclü metaforik və simvolik məna daşıyır. Məsələn, aşağıdakı misralarda Bağdad və Toqat toponimləri birlikdə işlədilərək emosional gərginlik və faciəvi hal yaradılır:

"Anca gözümün yaşların bən dökəyim ki,
Nil ilə Fərat axa çü Bağdad ola Toqat" [1, s.260].

Bu nümunədə şairin göz yaşları Nil və Fərat kimi böyük çaylarla müqayisə edilir, Bağdad və Toqat isə bu selin axıb keçdiyi məkanlar kimi təqdim olunur. Burada toponimlər şeirdə kədərin miqyasını böyüdən poetik vasitəyə çevrilir və hissin gücünü coğrafi ölçü ilə ifadə edir.

Toponimlərin poetik funksiyası sevgi və mənəvi bağlılıq kontekstində də özünü göstərir. Aşağıdakı misralarda Hindustan, Ərzincan, Rum və Türküstan toponimləri aşiqin daxili halını və könül yolçuluğunu ifadə edir:

“Xalünü görəli canım əzmi-Hindustan edər,
Könlümü əcəbləmə gər qəsdi-Ərzincan edər.
Rum elin yüzün görəli könülüm yurd eylədi,
Görəli gözünü leykən rayi-Türküstan edər” [1, s.224].

Bu nümunədə toponimlər fiziki məkan anlayışından çıxaraq aşiqin könül vəziyyətini əks etdirən simvolik məkanlara çevrilir. Şairin könlü sevgilinin təsiri ilə müxtəlif diyarlara üz tutur və bu məkanlar sevginin miqyasını göstərən poetik göstəricilər kimi çıxış edir.

Qazi Bürhanəddin “Divan”ında Təbriz toponimi də xüsusi semantik yükə malikdir. Şair bu yer adını öz varlığı və daxili aləmi ilə eyniləşdirir:

“Bən çü Təbrizi-vücudumu fəda qıldım ana,
Gözlərüm yaşını yüz vəch ilə ol eylədi şət”[1, s.225].

Bu misralarda Təbriz yalnız coğrafi məkana işarə etmir, eyni zamanda şairin vücudunun və mənəvi aləminin simvoluna çevrilir. Toponim burada sevgi uğrunda fədakarlıq və daxili yanğının poetik ifadə vasitəsi kimi işlədilir. Qazi Bürhanəddin “Divan”ında toponimlər bəzən dini-mənəvi məna yükü daşıyan simvolik məkana çevrilir. Aşağıdakı misrada Kə’bə toponimi maddi istəklərdən və dünyəvi qayğılardan uzaqlaşma ideyasını ifadə edir:

“Nə mal acısı və nə xud yol arnuğı qala hiç,
Səfa ilə eger ol Kə’beyi-təvaf edə hac” [1, s.279].

Bu nümunədə Kə’bə konkret coğrafi
məkan olmaqdan çıxaraq mənəvi kamillik, saf niyyət və daxili təmizlənmə rəmzi kimi təqdim olunur. Şair burada həccin zahiri deyil, batini mahiyyətini ön plana çəkir və toponimi insanın mənəvi yolçuluğunu ifadə edən poetik vasitəyə çevirir.

“Yar yüzi bana Kə’bəvü, gözüm yaşı zəmzəm,
Həcc mövsümidür, eşq ilə zəmzəmə gərəkdür” [1, s.387].

Bu nümunədə də Kə’bə real coğrafi-dini məkan olmaqdan çıxaraq aşiqin könül dünyasında yerləşən müqəddəs məkana çevrilir.

Sevgilinin üzü Kə’bə ilə müqayisə olunur, aşiqin göz yaşları isə Zəmzəm suyu kimi təqdim edilərək eşqin təmizliyini və müqəddəsliyini ifadə edir.

Digər bir nümunədə isə şair Kə’bə toponimi vasitəsilə zahiri ibadət formaları ilə daxili niyyət arasındakı fərqi ön plana çəkir:

“Deyr ilə məscid sizündür büt bizim olsun həmin,
Ki, bənüm məqsudum oldur Kə’bəvü bütxanədən” [1, s.369].

Bu misralarda Kə’bə toponimi zahiri dini məkan kimi təqdim edilsə də, şairin əsas məqsədinin formal ibadət deyil, eşq və mənəvi həqiqət olduğu vurğulanır. Beləliklə, Qazi Bürhanəddin “Divan”ında Kə’bə toponimi həm dini-coğrafi məkan, həm də eşq, mənəvi kamillik və daxili səfər anlayışlarını ifadə edən çoxqatlı poetik simvol kimi çıxış edir. Bu cür məcazi yanaşma şairin toponimlərdən istifadə imkanlarını genişləndirməklə yanaşı, onun poetik təfəkkürünün dərinliyini də aydın şəkildə nümayiş etdirir. Qazi Bürhanəddin yaradıcılığını araşdıran tədqiqatçılardan Aynur Qədimalıyeva da qeyd edir ki, şair toponimlərdən yalnız real coğrafi məkan bildirən vahidlər kimi deyil, eyni zamanda məcazi məna ifadə edən vasitələr kimi də istifadə etmişdir:“Divan”da müşahidə edilən maraqlı cəhətlərdən biri toponimlərin məcaziləşdirilməsidir ki, bu da ədibin bədii təxəyyülünün zənginliyindən irəli gələn bir xüsusiyyətdir. Məsələn: Könül Təbrizinə gələli ol şah, axıdır gözlərüm Sürxab hər dəm (QB, 24); Gözüm yaşını sətt edərim, aləmi Bağdad (QB, 30); Amasiya kimi canımda qarət ola idi (QB, 91); [5, s.30].

Aparılan təhlil göstərir ki, Yunus Əmrə və Qazi Bürhanəddin “Divan”ında toponimlər yalnız coğrafi məkan bildirən dil vahidləri kimi deyil, eyni zamanda poetik məna yaradan funksional vasitələr kimi çıxış edir. Müqayisə nəticəsində bəlli olur ki, Yunus Əmrə poeziyasında toponimlərin istifadəsi daha çox xalq düşüncəsi və gündəlik həyatla bağlı olub daxili mənəvi halı və sufi təfəkkürü ifadə etmək üçün istifadə edilir. Qazi Bürhanəddinin “Divan”ında isə toponimlər daha çox saray mədəniyyəti və klassik ədəbiyyat kontekstində işlənir. O, yer adlarından həm coğrafi, həm də simvolik məqsədlərlə istifadə edir, beləliklə, oxucunu dövrün siyasi və mədəni mərkəzləri ilə tanış edir.Bu fərq hər iki şairin yaradıcılıq

üslubunu və poetik dünyagörüşünü aydın şəkildə ortaya qoyur, real məkan anlayışını bədii və fəlsəfi məzmunla zənginləşdirir.

ƏDƏBIYYAT

1. Bürhanəddin, Q. Divan / Q.Bürhanəddin. – Bakı: Öndər nəşriyyat, – 2005. – 728s.
2. Əliyeva, S. Orxon-Yenisey abidələrində toponimlər / S. Əliyeva. – Ankara – 2024. – 142s.
3. Heydərova, X. Nəsiminin dilində işlənən onomastik vahidlərin izahlı lüğəti / X. Heydərova.– Bakı: Elm və təhsil,– 2023.– 315s.
4. Gölpinarlı, A. Yunus Emre Hayatı ve bütün şiirleri / A. Gölpinarlı. – İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, IX basım, – 2018. – 522 s.
5. Qədimalıyeva, A.F. Qazi Bürhanəddin "Divan"ının leksikası./ A.Qədimalıyeva. – Bakı: Nurlan, – 2008. – 184 s.
6. Qurbanov, A. Ümumi dilçilik: [3 cilddə] / A. Qurbanov. – Bakı –c.1. – 2019, – 448 s.
7. Tatçı, M. Yukarı illerde bir gezgin derviş: Yunus Emre (Azerbaycan notları) // – Ankara: Türk kültürü ve Hacı Bektaş Veli araştırma dergisi – 2011 . №58, – s. 153-170.

SEMANTIC-SYMBOLIC FEATURES OF TOPONYMS IN THE "DIVAN"S OF YUNUS EMRE AND GAZI BURHANEDDIN

SUMMARY

In the article, the toponyms used in the "Divans" of Yunus Emre and Qazi Burhaneddin are analyzed comparatively. The study demonstrates that both poets employed place names not merely as references to geographical locations, but also as artistic devices conveying poetic, symbolic, and metaphorical meanings. In Yunus Emre's poetry, toponyms primarily serve to express sufi concepts, whereas in Qazi Burhaneddin's "Divan" they function as multilayered poetic elements bearing emotional and philosophical significance. The research makes it possible to identify the artistic and aesthetic functions of toponyms in medieval Turkic poetry.

СЕМАНТИКО-СИМВОЛИЧЕСКИЕ ОСОБЕННОСТИ ТОПОНИМОВ В «ДИВАН»АХ ЮНУСА ЭМРЕ И ГАЗИ БУРХАНЕДДИНА

РЕЗЮМЕ

В статье проводится сравнительный анализ топонимов, использованных в «Диван» ах Юнуса Эмре и Гази Бурханеддина. Исследование показывает, что оба поэта использовали названия мест не только как обозначения географического пространства, но и как художественные средства создания поэтических, символических и метафорических смыслов.

В поэзии Юнуса Эмре топонимы преимущественно служат выражению суфийских идей, тогда как в «Диван»е Гази Бурханеддина они функционируют как многослойные поэтические элементы, несущие эмоционально-философское содержание. Проведённое исследование позволяет выявить художественно-эстетические функции топонимов в средневековойтюркской поэзии.

Aytən HEYDƏROVA-BAĞIROVA*

MÜASİR DÖVRDƏ AZƏRBAYCAN DİLİNİN LEKSİK İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə müasir dövrdə Azərbaycan dilinin leksik inkişaf xüsusiyyətləri araşdırılır. Qloballaşma, elmi-texniki tərəqqi və informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində dilin lüğət tərkibində baş verən dəyişikliklər təhlil olunur. Azərbaycan dilinin leksik sistemində yeni sözlərin yaranma yolları, alınma leksik vahidlərin rolu, mövcud sözlərin semantik genişlənməsi və terminoloji proseslər məqalənin əsas tədqiqat istiqamətlərini təşkil edir. Xüsusilə elmi və texniki sahələrdə formalaşan terminlərin dilin normativ qaydalarına uyğunlaşdırılması məsələlərinə diqqət yetirilir. Aparılan təhlil göstərir ki, Azərbaycan dilinin leksik inkişafı cəmiyyətin sosial və mədəni inkişafı ilə sıx bağlıdır və bu proses dilin funksional imkanlarının genişlənməsinə xidmət edir.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsi, kiçik elmi işçi.

Açar sözlər: *müasir Azərbaycan dili, leksik inkişaf, lüğət tərkibi, neologizmlər, alınma sözlər, semantik genişlənmə, terminoloji proseslər, qloballaşma, informasiya texnologiyaları*

Dil cəmiyyətin sosial, mədəni və elmi inkişaf səviyyəsini əks etdirən əsas vasitələrdən biridir. Hər bir dilin leksik sistemi tarixi inkişaf prosesində müxtəlif amillərin təsiri ilə dəyişir və zənginləşir. Müasir dövrdə qloballaşma, elmi-texniki tərəqqi, informasiya texnologiyalarının sürətli inkişafı və beynəlxalq inteqrasiya Azərbaycan dilinin leksik tərkibinə də ciddi təsir göstərmişdir. Bu proseslər dilin lüğət fondunun genişlənməsinə, yeni anlayışların ifadəsi üçün leksik vahidlərin yaranmasına və funksional imkanlarının artmasına səbəb olmuşdur.

Lüğət tərkibinin leksik inkişafı, dilin söz ehtiyatının (leksikasının) zamanla zənginləşməsi və dəyişməsi prosesidir; bu, yeni sözlərin, terminlərin yaranması, köhnəlmiş sözlərin itməsi, alınma sözlərin mənimsənilməsi, söz mənalarının dəyişməsi və funksional sahələrin (ictimai-siyasi, elmi-texniki, ədəbi-mədəni) genişlənməsi hesabına baş verir, bu da dilin daha zəngin və ifadəli olmasını təmin edir.

Müasir dövrdə Azərbaycan dilinin leksik inkişafı əsasən **yeni terminlərin daxil olması, xarici sözlərin və texnoloji terminologiyanın artması, söz ehtiyatının zənginləşməsi** ilə xarakterizə olunur; bu, daha çox **texnologiya, informasiya, sosial media və qloballaşma** təsiri altında baş verir, bu da dilə **neologizmlərin** axınını sürətləndirir və bəzi köhnə sözlərin istifadədən düşməsinə səbəb olur, lakin eyni zamanda dilin canlılığını və təzələnməsini təmin edir.

Məqalədə müasir dövrdə Azərbaycan dilinin leksik inkişaf xüsusiyyətləri, yeni sözlərin yaranma yolları, alınma sözlərin rolu və terminoloji proseslər nəzərdən keçirilir. Azərbaycan dilinin leksik sistemi tarixən çoxşaxəli inkişaf yolu keçmişdir. Bu inkişafda daxili dil qanunları ilə yanaşı, ictimai-siyasi və mədəni amillər də mühüm rol oynamışdır. Xüsusilə müasir mərhələdə dilin lüğət tərkibi yeni anlayış və terminlərin yaranması, mövcud sözlərin semantik genişlənməsi, beynəlxalq leksik vahidlərin dilə daxil olması, terminoloji sistemin təkmilləşdirilməsi istiqamətləri üzrə zənginləşir:

Müasir Azərbaycan dilində leksik yenilənmə əsasən elmi, texniki, iqtisadi və informasiya sahələrində daha intensiv müşahidə olunur. Bu sahələrdə yaranan yeni anlayışlar dilin ifadə imkanlarını genişləndirir və onun funksional çevikliyini artırır.

Müasir Azərbaycan dilində yeni leksik vahidlər bir neçə əsas üsulla formalaşır: Söz yaradıcılığı yolu ilə – dilin daxili imkanları hesabına yeni sözlərin yaradılması; alınma sözlər – əsasən ingilis və rus dillərindən terminlərin qəbul edilməsi; kalkalaşdırma – xarici anlayışların Azərbaycan dilinin strukturuna uyğun şəkildə tərcüməsi; semantik inkişaf – mövcud sözlərin yeni məna çalarları qazanması. Bu proseslər Azərbaycan dilinin müasir kommunikasiya tələblərinə uyğunlaşmasını təmin edir və onun elmi dil kimi inkişafına şərait yaradır.

Akademik Afad Qurbanov yazır: "Terminologiya dilin ən dinamik sahələrindən biridir və elmi-texniki tərəqqi bu sahənin sürətlə inkişafını şərtləndirir."[2, s.95]. Bu gün də terminologiya fasiləsiz olaraq dəyişən və inkişaf edən sahədir. Elmi-texniki tərəqqi nəticəsində yaranan yeni terminlər Azərbaycan dilinin terminoloji fondunun zənginləşməsinə səbəb olmuşdur. Terminoloji lüğətlərin hazırlanması və terminoloji komissiyaların fəaliyyəti bu prosesin əsas mexanizmidir. Bu baxımdan terminlərin normallaşdırılması, sistemləşdirilməsi və milli dil qaydalarına uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Terminoloji proseslərdə dilçilik institutlarının, terminoloji komissiyaların və elmi nəşrlərin rolu böyükdür. Bu fəaliyyət Azərbaycan dilinin elmi üslubunun sabitləşməsinə və terminoloji vahidlərin düzgün istifadəsinə imkan yaradır.

Hər bir dilin leksik sistemi, yəni söz fondu, zaman ərzində müxtəlif daxili və xarici amillərin təsiri altında formalaşır və inkişaf edir. Azərbaycan dili də bu baxımdan istisna təşkil etmir. Tarixi proseslərdə dilin lüğət tərkibi həm milli xüsusiyyətlərini qoruyub saxlamış, həm də xarici təsirlər nəticəsində zənginləşmişdir.

N.Məmmədli yazır ki, alınma terminlərin Azərbaycan dilinin müxtəlif sferalarına təsiri eyni deyil: "Elm və texnika, siyasət, iqtisadiyyat, hərb, idman sahəsində alınmasöz və terminlərin sayı əvvəlki illərə nisbətən xeyli artmışdır. Səbəblərdən biri azad bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq elmi-texniki yeniliklərin, maddi məhsulların, modalı maddi əşyaların. eləcə də, əyləncələrin reklam mətnlərində

təbliğidir”[3,s.772]. Müasir dövrdə Azərbaycan dilinin lüğət tərkibi qloballaşma, elmi-texniki tərəqqi, informasiya texnologiyalarının sürətli inkişafı və beynəlxalq inteqrasiya ilə sıx bağlı olaraq dinamik şəkildə dəyişir. Yeni anlayış və terminlərin dilə daxil olması, mövcud sözlərin mənalarının genişlənməsi və alınma sözlərin adaptasiyası dilin leksik zənginliyini artırır. Bu proseslər dilin funksional imkanlarını genişləndirir və onu müasir kommunikasiya tələblərinə uyğunlaşdırır. Azərbaycan dilinin lüğət tərkibi bir neçə əsas kateqoriyadan ibarətdir:

Ümumxalq sözləri – gündəlik ünsiyyətdə istifadə olunan sözlər, milli dilin əsas leksik fondunu təşkil edir və dilin sabitliyini təmin edir.

Terminoloji leksika – elm, texnika, iqtisadiyyat və digər sahələrdə istifadə olunan xüsusi sözlər və anlayışlar.

Peşə və sahə sözləri – müəyyən peşə və fəaliyyət sahələri ilə bağlı termin və ifadələr.

Dialekt və şivə leksikası – bölgələr üzrə fərqli leksik xüsusiyyətlər, danışıq dilindəki müxtəlif çalarlar.

Alınma sözlər – xarici dillərdən, əsasən ingilis və rus dillərindən qəbul edilən sözlər.

Bu kateqoriyalar bir-birini tamamlayaraq müasir Azərbaycan dilinin lüğət sistemini təşkil edir. Hər bir kateqoriyanın inkişafı və zənginləşməsi dilin funksional çevikliyini artırır. Söz yaradıcılığı dilin daxili imkanları hesabına yeni sözlərin formalaşması prosesidir. Bu yolla yaranan sözlər dilin milli xüsusiyyətlərini qoruyur və yeni anlayışları ifadə etmək imkanı verir. Söz yaradıcılığı əsasən bu üsullarla həyata keçirilir: şəkilçi artırılması – mövcud söz köklərinə şəkilçilərin əlavə olunması nəticəsində yeni sözlərin yaranması (məsələn: “kitab” → “kitabxana”). Mürəkkəb sözlər – iki və daha çox sözün birləşərək yeni mənalı söz yaratması (“hava limanı”, “şəhərsalma”). Söz birləşmələrinin leksikləşməsi – ifadələrin zamanla söz vahidi kimi işlənməsi (“günorta yeməyi”, “dostluq bağı”). Bu üsullar dilin leksik zənginliyini təmin edir və funksional imkanlarını genişləndirir.

Müasir dövrdə Azərbaycan dilinə müxtəlif dillərdən, xüsusilə ingilis və rus dillərindən termin və anlayışlar daxil olur. Alınma sözlərin bir qismi olduğu kimi işlədilir, bir qismi isə fonetik, qrammatik və morfoloji qaydalara uyğunlaşdırılır. Alınma sözlərin düzgün adaptasiyası və normallaşdırılması dilin inkişafında xüsusi rol oynayır. Məsələn: “kompüter”, “internet”, “marketing” sözləri gündəlik danışıq və elmi üslubda istifadə olunur, lakin onların Azərbaycan dilinə uyğunlaşdırılmış variantları da mövcuddur: “hesablama maşını”, “şəbəkə” və s.

Mövcud sözlərin yeni mənalar qazanması, məcazi mənada işlədilməsi və funksional sahələrinin genişlənməsi semantik zənginləşmənin əsas yollarındandır. Bu proses xüsusilə ictimai-siyasi, mədəni və texnoloji sahələrdə müşahidə olunur. Məsələn, “virus” sözü əvvəllər yalnız bioloji mənada istifadə olunurdusa, indi informasiya texnologiyasında da işlənir.

Müasir dövrdə Azərbaycan dilinin leksik inkişafının əsas göstəricilərindən biri neologizmlərin intensiv şəkildə yaranmasıdır. Elmi-texniki tərəqqi, informasiya cəmiyyətinin formalaşması, rəqəmsal texnologiyaların sürətli inkişafı yeni anlayış və məfhumların meydana çıxmasına səbəb olmuşdur. Bu isə dilin yeni sözlər yaratmaq imkanlarını genişləndirmişdir. “Onlayn”, “platforma”, “rəqəmsallaşma”, “sosial şəbəkə”, “startap”- öz biznes ideyasını hazır unikal məhsula çevirmək. genişləndirmək, bazara çıxarmaq və onu tam hüquqlu biznesə çevirmək üçün investisiyalara ehtiyacı olan müvəqqəti struktur [1 ,s.123] kimi sözlər müasir leksikanın aktiv qatına daxildir. Neologizmlər həm milli söz yaradıcılığı yolu ilə, həm də alınma sözlərin hesabına formalaşır və qısa müddətdə ümumişlək xarakter qazanır. Müasir dövrdə qloballaşma prosesləri Azərbaycan dilinin leksik tərkibinə ciddi təsir göstərmişdir. Xüsusilə ingilis və rus dillərindən alınan sözlər leksik fondun zənginləşməsində mühüm rol oynayır. Bu alınmalar əsasən texnologiya, iqtisadiyyat, siyasət və mədəniyyət sahələri ilə bağlıdır. Alınma sözlər zamanla dilin fonetik, qrammatik və semantik normalarına uyğunlaşaraq milli leksikanın tərkib hissəsinə çevrilir. Məsələn, “menecer”, “marketinq”, “brend”, “servis” kimi sözlər artıq geniş istifadə olunur. Bununla yanaşı, alınma sözlərə milli qarşılıqların yaradılması da müasir dil siyasətinin əsas istiqamətlərindəndir.

Elm və texnikanın inkişafı terminoloji leksikanın sürətlə artmasına səbəb olmuşdur. Müasir Azərbaycan dilində hüquq, tibb, iqtisadiyyat, informasiya texnologiyaları və digər sahələr üzrə terminlər leksik fondun mühüm hissəsini təşkil edir. Terminlərin sistemləşdirilməsi, normallaşdırılması və

terminoloji lüğətlərdə təsbiti leksik inkişafın əsas mərhələlərindən biridir. Terminoloji vahidlərin bir qismi beynəlxalq xarakter daşısa da, milli termin yaradıcılığı da diqqət mərkəzindədir. Bu proses dilin elmi üslub imkanlarını genişləndirir və funksional imkanlarını artırır.

Müasir dövrdə diqqət çəkən leksik hadisələrdən biri də köhnəlmiş və arxaik sözlərin yenidən fəallaşmasıdır. Milli-mədəni dəyərlərə qayıdış, tarixi irsə marağın artması nəticəsində bir sıra sözlər yenidən işləkliyə qovuşur. Xüsusilə bədii ədəbiyyatda, publisistikada və mədəniyyət sahəsində bu meyl aydın müşahidə olunur. Bu hal dilin tarixi qatları ilə müasir dövr arasında əlaqəni möhkəmləndirir və leksik zənginliyi artırır.

Danışıq dili və sosial ünsiyyət formaları leksik inkişafa güclü təsir göstərir. Sosial şəbəkələr, kütləvi informasiya vasitələri və gündəlik ünsiyyət nəticəsində şifahi danışıq elementləri ədəbi dilə daxil olur. Qısaltmalar, emosional-ekspressiv sözlər, gənclər leksikası dilin aktiv qatında yer almağa başlayır. Bu proses bir tərəfdən dilin canlılığını artırsa da, digər tərəfdən normativlik baxımından müəyyən problemlər yaradır.

Dilimizdə leksik vahidlər funksional üslublar üzrə fərqlənir. Eyni söz rəsmi, elmi, publisistik və bədii üslublarda müxtəlif semantik və üslubi çalarlar qazana bilir. Bu isə dilin ifadə imkanlarını genişləndirir. Üslubi diferensiasiya leksikanın sistemli inkişafını təmin edir və dilin kommunikativ funksiyasını gücləndirir.

Müasir dövrdə leksik inkişaf normativləşmə prosesi ilə müşayiət olunur. Dilin saflığının qorunması, leksik seçicilik prinsiplərinin gücləndirilməsi və normativ lüğətlərin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Dövlət dil siyasəti çərçivəsində lazımsız və əsassız alınmaların qarşısının alınması, milli söz ehtiyatının qorunması əsas məqsədlərdəndir. Bu proses Azərbaycan dilinin müasir dövrdə sabit və davamlı inkişafını təmin edir. Lüğət tərkibinin zənginləşməsi yalnız daxili dil qanunları ilə deyil, həm də ictimai, mədəni və texnoloji amillərlə bağlıdır. Qloballaşma, informasiya texnologiyaları, elmi-texniki tərəqqi və beynəlxalq əlaqələr dilin lüğət zənginliyinə böyük təsir göstərir. Müasir dövrdə Azərbaycan dili həm milli kimliyi qoruyur, həm də beynəlxalq səviyyədə elmi və texnoloji sahələrdə istifadə edilə bilən funksional sistem kimi inkişaf edir.

Müasir Azərbaycan dilinin lüğət tərkibi dinamik, çoxşaxəli və zəngin sistemdir. Yeni sözlərin yaranması, alınma sözlərin adaptasiyası, semantik inkişaf və terminoloji proseslər dilin leksik zənginliyini artırır və onun funksional imkanlarını genişləndirir. Dilin inkişafı və normallaşdırılması Azərbaycan dilinin milli dəyər kimi qorunması və müasir dövrdə istifadəsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Hüseynova-Qəhrəmanlı A. Müstəqillik illərində beynəlmiləl terminlərin izahlı lüğəti. Bakı, 2022.
2. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019.
3. Məmmədli N. Alınma sözlər. Sözlərin alınma amilləri. Müasir Azərbaycan dili II Leksikologiya. Bakı, 2022. s.767-779

LEXİCAL DEVELOPMENT FEATURES OF THE AZERBAİJANİ LANGUAGE İN THE MODERN PERİOD

ABSTRACT

The article examines the lexical development features of the Azerbaijani language in the modern period. The changes occurring in the vocabulary of the language under the influence of globalization, scientific and technological progress, and the rapid development of information technologies are analyzed. Particular attention is paid to the ways of forming new lexical units, the role of borrowed words, the semantic expansion of existing words, and terminology processes. Special emphasis is placed on the adaptation and standardization of scientific and technical terms in accordance with the normative rules of the Azerbaijani language. The study shows that lexical development is closely connected with the social and cultural development of society and contributes to the expansion of the functional possibilities of the language.

Keywords: *modern Azerbaijani language, lexical development, vocabulary, neologisms, borrowed words, semantic expansion, terminology processes, globalization, information Technologies*

ОСОБЕННОСТИ ЛЕКСИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В СОВРЕМЕННЫЙ ПЕРИОД

РЕЗЮМЕ

В статье рассматриваются особенности лексического развития азербайджанского языка в современный период. Анализируются изменения в словарном составе языка под влиянием глобализации, научно-технического прогресса и стремительного развития информационных технологий. Особое внимание уделяется способам образования новых лексических единиц, роли заимствованных слов, семантическому расширению существующих слов и терминологическим процессам. Подчеркивается важность адаптации и нормализации научно-технических терминов в соответствии с нормативными правилами азербайджанского языка. Сделан вывод о том, что лексическое развитие языка тесно связано с социально-культурным развитием общества и способствует расширению функциональных возможностей языка.

Ключевые слова: *современный азербайджанский язык, лексическое развитие, словарный состав, неологизмы, заимствованные слова, семантическое расширение, терминологические процессы, глобализация, информационные технологии*

Xanımbacı MƏLİKZADƏ*

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ İRSİNDƏ ANA DİLİNƏ MÜNASİBƏT

XÜLASƏ

Müstəmləkə bir dövlətdə milli kimlik amilini sıradan çıxartmaq üçün ilk siyasət hər zaman təhsil üzərində aparılır. Rusiya imperiyasının müstəmləkə siyasətinin ideoloji əsasını ruslaşdırma xətti təşkil etdiyi üçün ölkədə dillərin qeyri-bərabərliyi prinsipi qanunvericilik səviyyəsində təsbit olunmuşdu. Belə bir zamanda xalqın ana dilində maariflənməsi dövrün ziyalılarını düşündürən əsas amilə çevrilir. O zaman fəaliyyət göstərən mətbu orqanlarda bu barədə silsilə yazılarla çıxış edən ziyalılardan biri də azərbaycan xalqının ictimai-siyasi həyatında silinməz izlər qoymuş Məhəmməd Əmin Rəsulzadə idi. O, 1903-cü ildən başlayaraq "Şərqi-rus" qəzetində müxtəlif mətbuat orqanlarında sonralar Musavat partiyasının orqanı olan "Açıq söz" qəzetində ana dilinin məktəb və mədrəsələrdə tədrisinin vacibliyi məsələsini dəfələrlə işıqlandırmışdır. Böyük mütəffəkiri düşündürən əsas azərbaycan dilinin saflığının qorunması gənc nəslə çatdırlması idi.

Açar sözlər: *M.Ə.Rəsulzadə, ana dili, milli birlik, millət, məktəb.*

1828-ci il Türkmənçay müqaviləsindən sonra iki imperiya arasında bölüşdürülən azərbaycannın şimal hissəsində rus ağalığı başladı. Nəticədə, Azərbaycanın şimal hissəsində uzun müddət rus işğalı hökm sürdü. İşğalçı rejimin müstəmləkə siyasəti milli dilin sıxışdırmaqla həyata keçirilirdi. XIX əsrin ikinci yarısında milli mətbuat, milli teatrın əsası qoyulsa da dünyəvi təhsil çarizmin siyasətinə əsasən rus dilində keçirilirdi. Rusiya imperiyasının müstəmləkə siyasətinin ideoloji əsasını ruslaşdırma xətti təşkil etdiyi üçün ölkədə dillərin qeyri-bərabərliyi prinsipi qanunvericilik səviyyəsində təsbit olunmuşdu. Rusiya imperiyasının hakim dairələri qeyri-rus millətlərinə qarşı sərt dövlət dili siyasətini həyata keçirirdilər. Bu siyasətin ən səciyyəvi xüsusiyyətləri bir tərəfdən rus dilinin dövlət dili elan olunaraq onun zorla qeyri-rus xalqlara qəbul etdirilməsi, digər tərəfdən isə əsarətdə olan xalqların ana dillərinin inkişafı qarşısında müxtəlif süni əngəllərin yaradılmasından ibarət idi.

Xüsusilə, bu mövzu XIX əsrin sonu və XX əsrin əvvələrində böyük əhəmiyyət kəsb edir. Bu dönəm Azərbaycan tarixinə bütövlükdə böyük maarifçilik əsri kimi daxil olmuşdur. Bu dövrdə baş verən mühüm ictimai siyasi proseslər (inqilablar, milli istiqlal hərəkatları, islahatlar və s.) cəmiyyətin həyatında maarifə,

* AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, elmi işçi. Email: Melikzade1977@inbox.ru

elmə, təhsilə və mədəniyyətə tələbatın görünməmiş səviyyədə artımına səbəb olur. Milli-ictimai fikrimizdə, mədəniyyətimizdə əsl bir intibah yaradan XX əsr maarifçilik hərəkatına Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Rza Zaki Lətifbəyov, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyov kimi ideoloq və mütəfəkkir şəxsiyyətlər rəhbərlik edirdilər.

Belə ziyalılardan biri də Azərbaycanın siyasi-tarixi həmdə ictimai-bədii təfəkküründə silinməz izlər qoymuş dahi şəxsiyyət Məhəmməd Əmin Rəsulzadə idi. O, ADR ın banisi tariximizə xalqımızın milli-azadlıq hərəkatının öncülü kimi daxil olub.

Tiflisdə senzor işləmiş Şərif Mirzəyev 1919-cu ildə yazırdı ki, Birinci rus inqilabı "Qafqaz müsəlmanları içərisində yalnız dörd nəfər həqiqətən istedadlı publisist meydana çıxartdı: Əlibəy Hüseyn-zadə, Əhmədbəy Ağayev, Məmməd Əmin Rəsulzadə və Ömər Faiq Nemanzadə".

Şərif Mirzəyev bu sözləri deməkdə çox haqlı idi. M.Ə.Rəsulzadə həqiqətən nüfuzlu və tutarlı jurnalist idi. O, 1903-cü ildə "Şərqi-rus" qəzetindən başlamış "Dəvət-Qoç", "İrşad", "Təkamül", "Füyuzat", "Tərəqqi" qəzetlərinin hamısında və "Dirilik" jurnalında çox aktiv çıxış edirdi. O, 1909-cu ildə çarizm tərəfindən sıxışdırılıb İrana gedəndə də Bakı mətbuatına yazılar göndərir, Türkiyədə olanda da çox qızğın şəkildə publisistika və tərcüməçiliklə məşğul olurdu. Nəhayət Bakıya dönəndən sonra 1915-ci ildə Bakıda "Açıq söz" qəzetini nəşrə başlayır və "Türkləşmək, islamlaşmaq, müasirləşmək" sözlərini ilk dəfə qəzetin epiqrafına çıxarır [Qurbanov, 2001,s17].

Əsas hissə: M.Ə.Rəsulzadə ilk gənclik çağlarından xalqın milli dili, milli kimliyi üçün mübarizəyə başlamışdı.

Dil--milli təfəkkürün, milli inkişafın və milli özünü təsdiqin mütləq, əvəz edilməz və qarşısıalınmaz amilidir. Bunu dərk edən mütəffəkir mətbuatda ilk çıxışlarından başlayaraq ana dilinin qorunması mövzusunda yazılarla xalqının diqqətini bu ciddi məsələyə yönəltməyə çalışmışdır.

M. Ə. Rəsulzadə 1913-cü il avqust tarixli "Şəlah" qəzəetində "Dil ictimai bir amil kimi" adlı məqaləsində yazırdı:

«Dil bir milliyyətin yeganə rüknü deyildir. Bir millət vücuda gəlmək üçün dil ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bunların ən mühümüdür. Dil milliyyət həyatının ən mütəkamil bir şəklidir. Dil bir millətin ən qiymətli sərvəti, həyatının ən fəyyaz mənbəini təşkil edir. Bir milləti dildən yaxşı təmsil edən olmaz. Bugünkü milliyyət məfhumuna dillə bərabər din, tarix və ənənat da daxildir. Qədimdə isə «dil» demək «millət» demək hökmündə idi. Həqiqətən, dil milləti hər şeydan daha gözəl təmsil edir. Millət dil vasitəsilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilir. Adəm oğlunun sözü bəzi riyazi və fənni məfhumları andıran əlcəbr və ya kimya əlamətləri kimi ölü hərflər deyildir. Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar, tərəqqi edər. «Esperanto» və «volopok» təbii bir dil deyildir və heç bir zaman da bir dil ola bilməyəcəyini iddia edən mütəfənninlər çoxdur. Bir dil alimin xüsusi surətdə ixtira elədiyi bir şey deyildir. Dil milyonlarla insanların və bir çox nəsillərin müştərək vücuda gətirdikləri bir molbəsdir. Dil qanlı və canlı, adətən, üzvi və zihəyat bir vücuddur. Dil millətin camdır. Dil millətin məntiqi, ruhi və onun şəxsiyyəti-müştərəkəsidir. İştə bunun üçündür ki. bir dili öldürmək, bır milləti öldürmək deməkdir. Və yenə buna görədir ki, hər bir təmsi həmən dili təzyiq etməklə başlar. Dil durduqca, millət də durar, öldümü, millət də canını bağışlar. Dillərini unutmağa başlayan millətlər axın qəti bir ölüm olan həlakətli bir yolla kirimişlərdir» [Rəsulzadə, 2014, II c s 250].

Xalqın varlığı üçün onun ana dilinin qorunması "milli kimlik " məsələsi mütəfəkiri hər zaman narahat etmişdir. Bu səpkidə onun "Dirilik " jurnalının 1914 cü il 2 oktyabr tarixli sayından başlamış 1 yanvar 1915 ci ilə qədər əhatə edən "Milli dirilik" başlığı altında silsilə yeddi məqaləsi işıq üzü görür. O, xalqın varlığı üçün əsas şərtlərindən ən ümdəsini dil olduğunu göstərir. Beçinci yazıda belə göstərir:

«Milliyyətin ümdə rüknünü təşkil edən şey dildir. Dil adətən, hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir. Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilər də əsl bunun üçündür ki, təmsil (assimilyasion) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər» [Rəsulzadə, 2014, II c, s 462].

Rəsulzadə məqalədə dinin də milli birlik uçun meyar olduğunu vurğulasa da dil kimi uzun sürən bir proses olmadığını qeyd edir. Həmdə 1 dekabr tarixli sayında yer almış sayca bu səpkidə altıncı olan məqaləsində dili qorumağın yolunu göstərir.

«Milli dilin dirildiyi üçün lüğətləri yığmaqdan başqa xalq ədəbiyyatını toplamaq, camaat arasında olan hekayələri, əfsanələri cəm edib, elmi bir surətdə təhlil və təsnif etmək də lazımdır. Bunlar ədəbiyyatı xalqa yaxınlaşdırmaq üçün lazımlı şeylərdir. Çünki müəyyən bir ədibin öz biliyini daxil edib də şəxsi hislərlə deyil, xalq kütləsi tərəfindən ümumi bir vicdan və hiss nəticəsi olan bu əsərlərdə xalq və millətin rühi-əslisi həmən təzahür etməkdə və o millətin nə kimi bir ruh və hissə malik olduğu və nə kimi xüsuslarının mohtaci-islah və tərbiyə olduğu rəna bir sürətdə görünməkdədir.

Köhnə ədiblərlə ədəbiyyatın tarixini yazmaq, bir türk tarix ədəbiyyatı vücuda gətirmək dəxi bu nöqteyi-nəzərdən olduqca müfıd və lazımdır. Bu xüsusları nəzərə alaraq çox yaxşı olardı ki, şəhərimizdə mövcud olan maarif cəmiyyətlərindən bu xüsuslara əhəmiyyət verib də bu cəhətləri təşviq edən olaydı.Təşviqin nə kimi vasitələrə malik olduğu məlumdur. Bunlardan ən rnüəssiri isə, bizcə, maddi bir fayda təmin edən müsabiqələr ola bilər. Fəqət bu kimi milli işlərdə ən böyük saiq xalqı sevmək və milliyyətinə dəli bir aşiq qədər mərbut olmaqdır.

Ey millətin istiqbalını təmin edəcək türk gəncliyi, hardasan?!»[Rəsulzad, II c, s 463].

Sonda gənclərə xitab edərək onları bu işlərdə fəal olmağa səsləyən mütəffəkir hər zaman azərbaycanın istiqbalının gənclərdən asılı olduğuna əmin idi.

Müstəmləkə bir dövlətdə milli kimlik amlini sıradan çıxartmaq üçün ilk siyasi oyun hər zaman təhsil üzərində aparılır. Rəsulzadə məqalələrində bunu, təhsilin təşkil edildiyi dilin həmin bölgədə aparılan imperialist siyasətin bir parçası olduğunu dönə-dönə, bəzən aşkar, bəzən isə eyhamlı şəkildə yazırdı. Milli intibahın və milli vicdanın varlığını dildə görən böyük mütəfəkkir əcnəbi sözlərin yerli-yersiz dilə gətirilməsinin əleyhinə idi.

Böyük mütəffəkir ana dilin tədrisinin böyük əhəmiyyətini dərindən anladığı üçün bu barədə mətbuatda dəfələrlə çıxışlar etmişdir. Onun "Məktəb və mədrəsələr" başlığı alltında silsilə yazıları "Açıq söz" qəzetində on bir yazısı nəşr olunub. 1916 ci il 4 aprel tarixli 150 ci sayında nəşr olunmuş 7 ci məqalədə yazırdı:

"Rudolf cənablarının islah olunacaq məktəb və mədrəsələrimiz üçün nümunə olmaq üzrə vücuda gətirmək istədikləri «Əli» və «Ömər» məktəblərində qəbul etdikləri oxu dillərinə tənqid gözü ilə baxılarsa, o zaman görülür ki, yalnız Dağıstan müsəlmanları degil Azərbaycan türkləri də doğma ana dillərindən mümkün olduqca uzaqlaşdırılmaq istənilir.

Məlum olduğu üzrə, dünyanın bütün millətləri və Rusiyada yaşayan bilcümlə qövmlər kibi biz də, biz türk-tatar milləti də öz məktəbimizə, milli məktəbə malik olmaq istiyoruz. Milli məktəb deyincə, əlbəttə, oradaki oxu və oxutuluşun türkcə olduğunu, olması lazım gəldigini təsəvvür ediyoruz. Biz istiyoruz ki, sırf türk-tatar qövmlərinə məxsus olmaq üzrə açılan məktəblərdəki bütün dərslər türkcə - ana dilincə olsun. Bunu söylərkən tarix, coğrafiya, hesab dərsi ilə bərabər şəriət dərsinin də türkcə oxutdurulmasım, əlbəttə, qəsd ediyoruz. Ruscayi, rus tarix, ədəbiyyatını, rus əruz və lisaniyatını bir dərs olaraq rusca öğrənmək, rusca oxumaq və oxutmaq tərəfdarıyız" [Rəsulzadə, 2014, IIIc, s 460].

Göründüyü kimi böyük mütəffəkkir hər hansı əcnəbi dili öyrənməyin əleyhinə deyildir lakin, xalqının övladlarının doğma dilində tədrisinin vacibliyini istəyirdi.

"Açıq söz" qəzetinin 1916 ci il 21 mart tarixində nəşr olunmuş 138 ci sayında "Məktəb və mədrsələr" silsilə məqalələnin dördüncü hissəsində isə yazırdı: « Böyük Qafqasiya əyalətinin böyük idarəsi məarif müdirinin böyük müdiri Rudolf cənablarının dediginə görə «Bakıda yatan» müsəlman məarif cəmiyyətləri bir «xülya» olaraq arzu elədikləri bütün ruhani və milli məktəblərindəki tədrisatı da osmanlı türkcəsi ilə istiyorlarmış. Çünki bu dil «ümum-müsəlman» dili imiş. Məktəbi-aliyə həqqindəki «xülya»mızı isbat üçün müdir cənabları heç olmasa «Səadət» cəmiyyətinin nizamnaməsinə tənəzzül buyurmuşlardır. Bu ikinci «xülya»mızın isbat üçün sərih bir dəlil bəyan buyurmamışlarsa da, burasını söz arasında izah etmişlərdir. Guya, bugünki gündə Qafqasiyaya yayılmaqda olan türkcə, osmanlı türkcəsi imiş və bütün məktəblərdə bu ümumi türkcə ilə təsis olunmaq istənildigindən məktəblər osmanlıca olacaqmış» [Rəsulzadə,2014, IIIc,s 452].

Mütəffəkkir osmanlı türkcəsinin əleyihnə deyil lakin yerli dilin fərqli olduğunu tədrisin sırf azərbaycan dilində aparılmasını vurğulayır.

« İmdiki halda nəşr olunan qəzetələrimizin, kitablarımızın, xülasə yazı və mətbuat dilimizin türkcənin ən ədəbi olan İstanbul şivəsinə bir az bənzədigini, əlbəttə, inkar etmiyəcəgiz. Fəqət bunun qəsdən iltizam olunan osmanlı türkcəsi olduğunu şübhəsiz ki inkar edəcəgiz. Bir İs- tanbullu bizim qəzetələri oxursa, ona əcəmicədir deyər: bu osmanlıca degil, bu bizim ədəbi türkcəmiz, öz dilimizdir. Əlbəttə ki, bugünki şivəmizlə Mirzə Fətəli şivəsi və Zakir, Vaqif şivələri arasında fərq vardır. Fəqət bu fərq tərəqqi edən hər bir ədəbiyyatın müxtəlif dövrləri arasındakı fərqdən başqa bir şey degildir.Osmanlı şivəsi ilə bizim şivə arasındaki qərabəti görüb də qorxanlar mütləq bu iki şivənin əsasən bir dilin bir-birinə yaxın şöbələri olduğunu bilməyənlərdir.

Anadolu türkcəsi ilə Azərbaycan və Qafqasiya türkcəsi şivəcə bir az fərq ediyorsalar da, əsas etibarı ilə türkcənin böyük budağının şaxələridir. İran Azərbaycanı ilə Qafqasiya Azərbaycanı arasında fərq heç yoxdur. Fəqət Anadolu ilə bu iki şivə arasındaki fərq dəxi olan müstəqil bir dil və şivə halına qoyacaq dərəcədə degildir. Ədəbi şivələrin bu surətlə yek-digərinə bənzəməməsi əsl işdən müxbir olmayan münəqqidləri qorxuduyor. Yoxsa məsələ bitərəf və kəskin nəzərli müstəşriqə həvalə olunursa, bunda qeyri-təbii bir şey görməz”[Rəsulzadə, 2014, III c, s 453].

Ümumiyyətlə, M.Ə.Rəsulzadənin dil barədə fikir və görüşləri onun bu məsələlərə həssas münasibətindən xəbər verir. Bu düşüncələr milli fikrin və milli siyasi hərəkatın önəm verdiyi hədəflərdən olmuş, qısa ömür sürmüş AXC dövründə aparılan dil siyasətində xüsusi nəzərə alınmışdır.

Azərbaycan dilinin funksional inkişafı sahəsində köklü dəyişikliklərə isə yalnız 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən sonra nail olmaq mümkün oldu. Bu hadisə Azərbaycan dilinin funksional inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Belə ki, dil sahəsində milliləşdirmənin həyata keçirilməsi bu dövrdə milli hökumətin fəaliyyətinin prioritet istiqamətlərindən biri idi. Dil sahəsində milliləşdirmə siyasətinin əsas mahiyyətini Azərbaycan dilinin müstəmləkəçilik dövründə itirilmiş mövqelərinin bərpası və keçmiş metropoliya dilinin tədricən cəmiyyətin əsas sahələrindən sıxışdırılıb çıxarılması təşkil edirdi. Bu sahədə ilk addım müvafiq hüquqi bazanın yaradılması oldu.

1918-ci il iyunun 27-də mill 1918-ci il iyunun 27- də milli hökumətin qərarı ilə yeni dövrdə ilk dəfə olaraq Azərbaycan dilinə dövlət dili statusu verildi və dövlət orqanlarında kargüzarlığın bu dildə aparılmasına başlandı. 1918-ci il avqustun 28-də Azərbaycan dilində savadlı milli kadrların hazırlanması məqsədilə ölkədəki təhsil müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul olundu. Azərbaycan dilində fəaliyyət göstərən ali təhsil müəssisələrinin yaradılması və Azərbaycan əlifbasının islahatı üçün ilk addımların atılması da 1918-1920-ci illər müstəqillik dövrünün əsas nailiyyətlərindəndir. Bu baxımdan 1918-1920-ci illər dövrünü son 200 ildə Azərbaycan dilinin funksiyasını bərpa etdi [Azərbaycan Xalq Cümhuriytinin dil və əlifba qərarları, 2018].

İstər yuxarıda qeyd olunan qərarda, istərsə də digər qərarlarda və rəsmi sənədlərdə Azərbaycan Xalq Cümhuriyyəti, düzgün dil siyasətini həyata keçirmək üçün təhsilin əsas və çox mühüm sahə olduğunu ön plana çəkdi. Cəmi 23 ay fəaliyyətinə baxmayaraq azərbaycan xalqının öz milli kimliyini qorunmasında milli dilin dövlət səviyyəsinə qaldırırmasına nail oldu. Xalq Cümhuriyyətinin elan edilməsi ilə Məhəmməd Əmin Rəsulzadə uzun illər apardığı ana dilində tədrisin həyta keçirilməsi arzusunu reallaşdıra bildi. M.Ə.Rəsulzadənin dil barəsindəki bir sıra görüşləri bu günümüzdə də öz aktuallığını saxlamaqdadır. Mindən artıq məqalə müəllifi olan Rəsulzadə irsinin xüsusilə onun mətbuat, ədəbiyyat barədə çoxsaylı yazıları müasir dövrdə aktuallığını saxladığından tədqiqata cəlb olunmalıdır.

ƏDƏBİYYAT

1.Qurbanov, Ş. (2001). Məmməd Əmin Rəsulzadə Bakı, Nurlan, 132 səh.
2.Rəsulzadə, M.Ə. (2014). Əsərləri. II cild (1909-1914). İkinci nəşri. Bakı, «Təhsil», 528 səh.
3.Rəsulzadə, M. Ə. (2014). Əsərləri. III cild (1915-1916). İkinci nəşri. Bakı, «Təhsil», 616 səh.
4.İbrahimli, E.(may2018).Azərbaycan Xalq Cünhuriyyətin dil və əlifba qərarları www//anl/az

Khanumbaji MALİKZADEH

MOTHER TONGUE ATTITUDE IN THE HERITAGE OF MUHAMMAD AMIN RASULZADEH

SUMMARY

In a colonial state the first policy to eliminate the factor of national identity is carried out on education. Since the line of Russification was the ideological basis of the colonial policy of the Russian Empire, the principle of inequality of languages in the country was established at the legislative level. At such a time, the education of the people in their native language becomes the main factor that makes the intellectuals of the time think. One of the intellectuals who published a series of articles about this in the press bodies operating at that time was Muhammad Amin Rasulzadeh, who left an indelible mark on the social and political life of the Azerbaijani people. Starting from 1903, he has covered the issue of the importance of teaching the native languagein schools and madrassas in various media outlets, starting with the "Sharqi-rus" newspaper, and later in the newspaper "Achiq soz", which is the organ of the Musavat party.

The first political game to destroy the factor of national identity in a colonial state is always played on education. In his articles, Rasulzadeh repeatedly wrote that the language in which education is organized is a part of the imperialist policy carried out in that region, sometimes explicitly, sometimes implicitly. The main issue that concerned the great thinker was the preservation of the purity of the Azerbaijani language and its transmission to the younger generation.

The article provided extensive quotes fram the writings of the author M.A. Rasulzadeh on this topical topic.

Key words: *M.A. Rasulzadeh, native language, national unity, nation, school.*

Ханумбаджи МЕЛИКЗАДЕ

ОТНОШЕНИЕ К РОДНОМУ ЯЗЫКУ В НАСЛЕДИИ МУХАММЕДА АМИНА РАСУЛЗАДЕ

РЕЗЮМЕ

В колониальном государстве первой политикой по устранению фактора национальной идентичности всегда проводилась политика в сфере образования. Поскольку идеологической основой колониальной политики Российской империи была линия русификации, в стране на законодательном уровне был заложен принцип неравенства языков. В такое время просвещение народа на родном языке стало главным фактором, заставившим задуматься интеллигенцию того времени. Одним из интеллигентов, выступивших об этом в серии статей в действовавших в то время органах печати, был Мухаммед Эмин Расулзаде, оставивший неизгладимый след в общественно-политической жизни азербайджанского народа. Начиная с 1903 года, начиная с газеты «Шерги-рус», а позднее и в газете «Ачыг соз», органе партии «Мусават», он неоднократно освещал вопрос о важности преподавания родного языка в школах и медресе. Главное, о чем думал великий мыслитель, — это сохранение чистоты азербайджанского языка и передача его молодому поколению.

В статье автор привел цитаты из цикла статей М.А. Расулзаде, посвященных этой актуальной теме.

Ключевые слова : *М.А. Расулзаде, родной язык, национальное единство, нация, школа.*

Təranə ŞÜKÜRLÜ *

TÜRK DİLLƏRİNDƏ FONOLOJİ QARŞILAŞMALAR

XÜLASƏ

Biz nitq zamanı yüzlərlə müxtəlif fizioloji və akustik keyfiyyətli danışıq səslərindən istifadə edirik. Türk dillərinin ümumi fonetik xüsusiyyətləri vardır. Dilin fonetik quruluşuna daxil olan fonemlər bir-birilə möhkəm əlaqədə olan ünsürlərdir. Fonemlər dilin fonetik və fonematik quruluşunda müəyyən sistem təşkil edir, hər hansı bir dilin fonem sistemini əks etdirir. Fonemlər müəyyən sıralar təşkil edərək qarşı-qarşıya qoyulur və struktur təşkil edir. Məqalədə türk dillərində sait və samit fonemlər qarşılaşdırılaraq araşdırılır.

Açar sözlər: səs, fonem, dil, fonoloji, qarşılaşma, müqayisə, sait, samit

Fonetika səsin akustikası, artikuliyasiyası və diksiya formalarını, fonologiya isə danışığın quruluşu və sistemini tədqiq edir.

Məlumdur ki, türk dillərinin fonem tərkibini və fonemlər sistemini müəyyənləşdirmək üçün ümum fonetik və morfoloji xüsusiyyətləri izah etməklə bərabər, həmin dillərdə fonemin müəyyənləşdirilməsinin üsullarını təyin etmək və sistemləşdirmək lazım gəlir.

Fonetik xüsusiyyətlər hər bir dilin özünəməxsus fərdi əlamətlərindən biri olduğu üçün fonetik müqayisə bu dillərdəki fərqlənmələri ümumi oxşarlıq fonunda müəyyən edib aşkara çıxara bilər. Fonetik müqayisə prosesi türk dillərinin malik olduğu zənginliyi meydana çıxarmaq ,buradakı müxtəlifliyi tədqiq etmək məqsədini qarşıya qoyur.

Oğuz qrupu türk dillərində saitlər kimi samitlər də qeyri-bərabər inkişaf etmişdir. Söz əvvəli, ümumiyyətlə, güclü mövqe olduğuna görə samitlər həmin mövqedə öz sabitliyini daha çox mühafizə edir. Söz sonu mövqeyi isə dəyişməyə daha meyilli olduğundan dillərin fonetik inkişaf xüsusiyyətlərinə görə, burada fərqlənmələr daha çox müşahidə edilir.

Fonologiyanın vahidi fonemdir. Fonem dilin ən kiçik vahidi olub, müəyyən fərqləndirici əlamətlərə malikdir. Fonem söz və morfemlərin səs cildini fərqləndirməyə xidmət edir.

A.N.Kononov türk dilində 24 samit fonemin olduğunu göstərir: p, f, v, d, t, ş, s, z, j, c, ç, m, n, 1, l,r, y, k, k, g, g, h, ğ. [1, 24]

Oğuz qrupu türk dilində a saitinin işlənməsində heç bir məhdudiyyət yoxdur, a saitinə həm söz əvvəlində, həm söz ortasında, həm söz sonunda rast ay, qar, bala (Azərb.), ay “ ay ”, haber “ xəbər”, karınca “ qarışqa c), al- “ almaq”, qap- “ tutmaq”, çıra “ lampa” (türkm.), ana “ ana”, qapı ”, taliqa “ araba” (qaq.).

Türk və türkmən dillərində a saiti uzun və qısa variantlarda çıxış edir.

Türk dilində qısa a saitinə vurğulu hecada və l samiti ilə yanaşı olan rdə rast gəlirik: kumda, hal.

Türkmən dilində isə qısa a saiti zəifləyir və ı fonemi kimi eşidilir: /ar “ yaradır”.

Qaqauz dili ilə müqayisədə, Azərbaycan ədəbi dilində ı fonemi söz əvvəlində işlənmir.
ı saiti müstəqil bir fonem kimi Azərbaycan dilinin mübahisəli saitlərindən hesab edilir. Azərbaycan ədəbi dilində söz əvvəlində ı saiti işlənməz qaquna tabe olur, i fonemini variasiyası kimi sabitləşmişdir.[2. 52]
Türkmən ədəbi dilində ı saiti dilortası saitdir. [3.38]
Türkmən dilində ı saiti uzun və qısa variantlarda olur. Qısa ı saiti sözün bütün mövqelərində işlənir: ıqal “atmosfer”, daqlık “ dağlıq ”, dıkı “qapı”.

ö fonemi Azərbaycan dilində yalnız sözün əvvəlində və ortasında işlənir. Söz sonunda isə ö foneminə təsadüf edilmir: ölkə, ömür, kösöv. Müasir Azərbaycan dilində ö foneminin ö, ö^{ü}, ö: variasiyalarına təsadüf edilir.

Qaqauz ədəbi dilində ö saiti ancaq sözün birinci hecasında işlənir: qə “kölgə”, döşek “döşək”.

Söz əvvəlində ö saiti diftonqlaşır: ^{ü}ökus “öküz”, ^{ü}ölməə “ölmək”.

Oğuz qrupu türk dilləri içərisində Azərbaycan və türk dillərində uzun sait fonemlər yoxdur.

*AMEA Nəsimi adına Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: taranaelm@mail.ru

A.Axundovun fikrinə görə, Azərbaycan dilində altı uzun sait fonem vardır: i:, ə:, e:, u:, a.ö:. [2,38]

Türkmən dilində olan uzun saitlər heç də həmişə sözün mənasını göstərməyə xidmət etmir: qü:və "şahid", qo:r "isti", buz "buz".

Bir çox sözlərin tərkibində olan saitlər sonrakı uzun saitlərdir. Onlarsa samitin düşməsi və iki saitin birləşməsi nəticəsində əmələ gələr. Buna görə də bu cür saitlərə sonrakı və ya kombinator uzun saitlər deyilir, məs: ma:nı < maqnı "məna", oka:n< oko+an "oxuyan".

Azərbaycaycan dilində i saitinin uzun variantı nisbətən çox işlənir: səli:qə.

Türkmən dilində i: fonemi sözün birinci və ikinci hecalarında işlənir: kati:p "katib", şir "şi:r", si:l "sel".

Qaqauz dilində ii saiti i+ğ, e+ğ, й+e səslərinin birləşməsi nəticəsində əmələ gəlir.ii saiti söz kökündə və köklə şəkilçinin birləşməsində olur: ii<iйi "yaxşı".

Oğuz qrupu türk dillərində ö: saitinin işlənmə dairəsi məhduddur.Türkmən dilində ö: saiti sözün kökündə işlənir: ö:l "yaş", 'qö:n "dəri".

Qaqauz dilində öö saiti demək olar ki, işlənmir. O, bir neçə sözdə işlədilir və bəzən danışıq zamanı üü saitilə növbələşir: süülə >sölə "söylə".

Azərbaycan dilindəki sözün ortasındakı **x** səsi türk dilindəki **k(ka)** səsinə uyğun gəlir. *yaxmaq(azərb) -yakmak(türk), çıxarmaq(azərb)-çıkarmak (türk).*

Türk dilində sözün əvvəlində **ğ samiti** işlənmir. Sözün ortasında və sonunda işlənsə də, tələffüzü olduqca yumşaq olur. Bir növ sait təsəvvürü yaradır: *dag-daa, yağ-yaa, ağla-aala, yağlı-yaalı.*

L samiti qalın saitlərlə heca qurduqda qalın tələffüz olunur. **balık**-balıq,**olay**-hadisə.

Türk dilində söz əvvəlində *c,r,l,f,n,m* samitlərinin işlənməsi məhduddur. Bu dildə eyni cinsli samitlərin qoşa işlənməsi nadir hallarda olur. *anne*-ana, *elli*-əlli.

"P" samitinin xarakterik xüsusiyyətlərindən biri də onun nəfəsli olmasıdır. "P" samitinin nəfəsliyi onun fonetik vəziyyətindən və mövqeyindən asılıdır.

p>f. p samitindən f samitinə keçid türk dillərində zəifdir. Məsələn, türkmən dilində, demək olar ki, p>f səs uyğunluğu mövcud deyildir. Digər türk dillərindən fərqli olaraq, türkmən dilində söz əvvəli mövqedə p samiti saxlanılır. Faktlara diqqət yetirək: pıntık (türkmən), fındıq (Azərb.), fındık(qaq.); pırlamaq (türkm.), fırlamaq(Azərb.), fırlamaq (türk), fırlamak (qaq.) və s.

Türk dilində *b* samiti sözün əvvəlində və ortasında işlənir: *baba "ata", beyaz "bəyaz".*

b>m istiqamətindəki səs uyğunluğu başqa türk dillərində də mühafizə olunur: burun(Azərbaycan), murın(qaz.), boyun(Azərbaycan), moyın(noq.) və s.

türk və qaqauz dillərində müvafiq mövqedə b samiti saxlandığı halda, Azərbaycan və türkmən dillərində başlıca olaraq, m refleksi özünü göstərir. Bəzi hallarda, Azərbaycan dilində də b samitinin mühafizəsi müşahidə olunur. Məsələn:. ben (türk), ben(qaq.), mən(Azərbaycan), men (türkmən).

Oğuz qrupu türk dillərində t samitinin mövqe məhdudiyyəti yoxdur. T samitinə həm sözün əvvəlində, həm ortasında, həm də sonunda rast gəlirik: tələb*, ütü, hörmət (Azərb.), tüfenk "tüfəng" , mutfak "mətbəx" , hat "xətt" , (türk.*

Azərbaycan dilində n samiti fonetik cəhətdən sərbəstdir. O, sözün həm əvvəlində, həm ortasında, həm sonunda, həm də kökdə işlənir: nəticə, dana, can, eynək.

Türk dilində *n* samitinin işlənmə dairəsi çox məhduddur. *N* samiti söz əvvəlində əvvəldən bəri ancaq *ne* və *ni* ilə yazılmış sözlərdə göstərir: *ne,nasıl.*

Türkmən dilində n samitilə başlanan sözlər çox azdır: nay "nar", nira "hara".

Qaqauz dilində n samiti incələşən və incələşməyən variantlarda olur: den/iz "deniz", kap "qan".

Xakas dilində **n** samiti fəal şəkildə işlənməsilə diqqəti cəlb edir: ***naak***-yanaq, *naa*-yen*i, nımırxa*-yumurta.

Kumuq dilində *n* səsi *nq* səsi kimi işlənir: *denqiz*-dəniz, *denqgül*-könül.

Türk ədəbi dilində *l* samiti söz əvvəlində lık-lik, lopur-lopru, lop-lop kimi təqlidi sözlərin əvvəlində işlənir.

Türkmən dilində 1 samiti bütün mövqelərdə işlənir: lal "lal" , altın "qızıl" , el "əl" .

Qaqauz dilində 1 samiti saitlərin təbiətindən asılı olaraq incələşmiş və qalınlaşmış variantlarda olur: al "qırmızı" , qözəl "gözəl" .

Türk dilində “r” samiti söz əvvəlində işlənə bilməyən samitdir. Təqlidi sözlərin əvvəlində işlənə bilməsi halları çox nadir haldır.
Türkmən dilində r samiti ilə başlayan başlayan sözlər çox azdır, sözlərdən çoxu ərəb və fars dillərindən alınma sözlərdir.

Qaqauz dilində incələşən və incələşməyən variantlarda sözün ortasında və da işlənir: bereket “bərəkət”, sarı “sarı”, ver “ver”.

Türk dilində “g” samiti incə saitlə işləndikdə Azərbaycan dilindəki “g” səsini verir.güzel”gözəl”.

G samiti bəzən qalın saitlərlə heca qurduqda da “g” səsini verir:guya”guya”, rüzgar”külək”.

Türkmən və qaqauz dillərində g samiti işlənir. g foneminə türkmən dilində dilortası q samiti, qaqauz dilində isə dilarxası q samiti uyğun gəlir: qeйim “geyim” (türkm.), qỳmỳş “gümüş” (qaq.).

ç>ş səs uyğunluğu başqa türk dillərində də mövcuddur: çüy (Azərb.), şaa (oyrot), çın (qırğ), şın(tuva), çatla(Azərb.), şatıra(qırğ) və s.

Türkmən dilində ç samitinin fonetik mövqe məhdudiyyəti yoxdur: çal “boz”, açık “açıq”, qöç “köç”.

Söz ortasında ç samiti kar samitlə yanaşı işlənmir: qaçqak “qoçaq”, içmek “şuba”.

Sözün əvvəlində və axırında saitlərlə bərabər işlənir: açar “açar”, çək “sərhəd”, üç “üç”.

Başqırd dilində *ç* fonemi yoxdur. *Ç* fonemi *s* foneminə keçir: bıçaq-*bısak.*

Novlu, cingiltili qırşılığı olmayan kar samitdir. Oğuz qrupu türk dilləri içərisində yalnız türkmən dilində h fonemi işlənmir.

<u>A.Axundovun fikrinə görə, h samiti udlaq samitidir.[2, 38]</u>

Bu gün ədəbi dildə, İstanbul Türkcəsində gördüyümüz *h* samitli Türkcə kəlimələr *han, hanım, hatun* kimi kəlmələrdir.

Bundan başqa *hay, hey, hışıltı, hırıltı horlamak* kimi bəzi nida və təbiət təqlidi sözlərdə də *h* səsi vardır.

Türkmən dilində **h samiti** mövcud deyil,həmin samitə **x fonemi** uyğun gəlir:nahar-**naxar,** hazır-**xazır,**həkim-**xəkim.**

Özbək dilində *h* samiti *x* samiti ilə işarə olunur və alınma sözlərin tərkibində iştirak edir: *xozir* (hazır), *şaxar*-şəhər. Velyar n səsi *nq* kimi işarə olunur: *anqlamaq*-anlamaq,*inqiçka*-incə.

Uyğur dilində *h* samitinin geniş yayılmışdır. Məsələn,*her,here,töhmet.*

J samitinin tələffüzündə dodaqlar “ş” samitində olduğu kimi zəif iştirak edir.

Sözün əvvəlində və ortasında işlənən *j* samiti sonorlaşır. Lakin söz əvvəlində işlənən “j” samiti ilə söz ortasında işlənən *j* samitinin sonorlaşma dərəcəsi eyni deyildir. Müəyyən fərqlər mövcuddur. Söz ortasında *j* samitini özünün bütün mərhələlərində sonorlaşmış olur.

Türk kəlmələrində *j* səsi yoxdur. Türk ədəbi dilində “j” samiti bir neçə alınma sözün tərkibində işlənən səsdir. *jale,jandarma,müjde.*

Türk dilinin dialektlərində *j* samitilə yazılan bəzi sözlər *c* ilə tələffüz edilir: *candarma*

J səsi Türkcədə ancaq səs təqlidi sözlərdə işlənə bilir ki, bunlar da nidalardır: *ğıjıltı*

Türkmən dilində j samiti əsasən sözün ortasında işlənir. Bəzi məqamlarda sözün sonunda işlənir: *ajdaha “əjdaha”, vıjdan “vicdan”.* Köklü türkmən sözlərinin əvvəlində j samiti işlənir: jajçık “kərtənkələ”. Beləliklə j samitinin işlənmə dairəsi geniş deyil. Ancaq rus dilində vədili vasitəsilə keçmiş sözlərdə j samiti bütün mövqelərdə iştirak edir: *jurnal, qaraj.*

Qaqauz dilində j samitinə ancaq alınma sözlərdə rast gəlirik. Önsıra saitləri arasında j samiti incələşir: *j'eletka “jilet”, j'urnal “jurnal”.*

J samiti isə titrəyici novlu olduğu üçün söz əvvəlində işlənmir.

Sözün əvvəlində Qara –Noqay dilində **y** samitinin əvəzinə **j** samiti işlənir: **jip**-ip, **jilan**-ilan,**jel**-yel.

Türk dilində ğ samiti novlu samitdir. Söz əvvəlində işlənmir. Türk dilində ğ samitinin bir sıra spesfik xüsusiyyətləri vardır:

1. ğ samiti incə samitlərlə heca qurduqda Azərbaycan dilindəki y səsi kimi tələffüz olunur: icne “iynə”, öğrençi “şagird”, icde “iydə”.
2. Bir sıra alınma sözlərin tərkibində ğ samiti incə saitlərlə heca qurduqda ğ kimi tələffüz edilir: iğtiş “iğtişaş”, iğzap “qəzəb”.

Qaqauz dilində söz ortasında *ğ samitinin* düşməsi daha spesifikdir: ağız-*aaz*,ağır-*aar*.Bu dilin fonetik quruluşunda *g samiti* yoxdur. *G samiti* türkmən dilində də mövcud deyil.Qaqauz və türkmən dillərində *g samiti q samiti* ilə əvəz edilir: *göy*-qöy,*qöz*-göz.

Türk dilində heca və söz sonunda *b,c,d,g,ğ* samitləri işlənə bilmir.

D samiti türk, türkmən və qaqauz dillərində d samiti sözün əvvəlində və ortasında işlənir, dinlemek "dinləmək'" , kadın "qadın" , (türk), demir "dəmir" , adam "adam".

Türkmən dilində dil-diş *d* samiti də sabit normaya uyğun işlədilir: *davan, dabramak, dağatmak.*

D samiti özündən sonra *e, i, o, ö, ü* saitləri işlənən bəzi hallarda Azərbaycan dilindəki *t* samitini əvəz edir: *depe* (təpə)

Türkmən dilində söz ortasında və söz sonunda n, (sağırnun) samiti işlənir.sen,-sən, qen,-(gen).

Oğuz qrupu türk dillərində Azərbaycan,türk və qaqauz dillərində n, (sağırnun) samiti işlənmir. Lakin Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində müşahidə olunur: man,a-mənə,san,a-sənə.

C səsi Türk dilində ancaq tədiət təqlidi bir neçə sözün əvvəlində işlənir: *cayır,cıvıl, cəzərı, cıvıldamak.*

R samiti türkcədə söz əvvəlində kəlmə başında heç işlənməz. Səs təqlidi sözlərin əvvəlində nadir hallarda işlənir: *rap, rap kimi.*

Y samiti Azərbaycan dilindən fərqli olaraq,türk və türkmən dillərində *y samitinin* söz əvvəlində mövqeyi sabitdir: *yıl(*türk,türkm,qaq)- *il* (azərb).

Türkmən dilində *y* samiti də sərbəst fonem kimi işlənir: *yavan, yavsırmak, yaqınlık, yaqış, yakalamak.*

Damaq samitlərindən olan *y* küylü, ön damaq və yumşaq bir ünsüzdür. *Y* samiti türk dilində söz əvvəlində, söz ortasında və söz sonunda işlənir: *yanak, ayak, siyah.*

Fonemlər sistemi fonem qarşılaşmalarından təşkil olunur. Dilçilikdə fonoloji qarşılaşmalar nəzəriyyəsinin banisi N.S.Trubeskoy "oppozisiya" terminini işlətmiş və məna fərqləndirici qarşılaşmaların təsnif prinsiplərini də müəyyənləşdirmişdir.

N.S.Trubeskoya görə, "istənilən fonemin fonoloji tutumu var, çünki fonoloji oppozisiyalar sistemi müəyyən nizama və struktura malikdir. Bu strukturu başa düşmək üçün fonoloji oppozisiyaların müxtəlif növlərini araşdırmaq lazımdır". [4, 98]

Oğuz qrupu türk dillərindən başqa,qıpçaq qrupu türk dillərinin də fonetik quruluşu bir sıra səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Bu qrup dillər üçün üçün *ç fonemi* səciyyəvi deyil. Burada *ç,-ş-s* əvəzlənməsi geniş yayılmışdır. Həmçinin,söz əvvəlində *m,n,r samitləri* müşahidə olunmur.Söz əvvəlində *d,b,q* samitləri işlənir.*H samitinin* az işlənməsi halları da mövcuddur.Qıpçaq qrupunda *v,f,x* (qazax dilində) samitləri əsasən,alınma sözlərdə müşahidə olunur. *N*,(sağırnun) samiti isə geniş yayılan samitdir.

Dillərin müqayisəsi insanların düşüncə fəaliyyətində həmişə mühüm və mərkəzi yerlərdən birini tutmuşdur.

Dilin fonoloji sistemini öyrənərkən təkcə fonemlərin müqayisəsi deyil, həm də fonemlər arasında bütün istiqamətlərdə olan əlaqələri, onların fonetik və funksional səviyyədə qarşılaşmasını, kombinatorikasını, funksional yükünü, fonemlərin daxil olduğu əvəzlənmələri nəzərə almaq lazımdır.

ƏDƏBİYYAT

1. Н. Кононов. Грамматика совроменного турецкого языка. М, 1975

A. Axundov. Azərbaycan dilinin fonetikası. Bakı,Maarif,1984,390 s.

2. Л.А. Покровская. Грамматика гагаузкого языка. М, 1964.
3. Trubeskoy, N.S. Fonologiyanın əsasları / N.S.Trubeskoy,– Bakı: Mütərcim, – 2012. – 385 s.

ФОНОЛОГИЧЕСКИЕ ВЗАИМОДЕЙСТВИЯ В ТЮРКСКИХ ЯЗЫКАХ

РЕЗЮМЕ

В речи мы используем сотни различных физиологических и акустических звуков. Тюркские языки обладают общими фонетическими характеристиками. Фонемы, входящие в фонетическую структуру языка, представляют собой элементы, тесно связанные друг с другом. Фонемы образуют определенную систему в фонетической и фонемной структуре языка, отражающую фонемную систему любого языка. Фонемы располагаются в определенных рядах и противопоставляются для формирования структуры. В статье рассматривается сравнение гласных и согласных фонем в тюркских языках.

Ключевые слова: звук, фонема, язык, фонология, встреча, сравнение, гласный, согласный

PHONOLOGİCAL ENCOUNTERS İN TURKİC LANGUAGES

SUMMARY

We use hundreds of different physiological and acoustic quality speech sounds during speech. Turkic languages have common phonetic features. The phonemes included in the phonetic structure of the language are elements that are closely related to each other. Phonemes form a certain system in the phonetic and phonemic structure of the language, reflecting the phoneme system of any language. Phonemes are placed in certain rows and are contrasted and form a structure. The article examines the comparison of vowel and consonant phonemes in Turkic languages.

Keywords: *sound, phoneme, language, phonology, encounter, comparison, vowel, consonant*

Pərvanə TEYYUBOVA*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYA APARAN İDEYA MÜHİTİNDƏ DİL VƏ MAARİFÇİLİK MƏSƏLƏLƏRİ

XX əsrin əvvəlləri Azərbaycan və ümumilikdə türk dünyası üçün milli oyanış, maarifçilik və mədəni dirçəliş dövrü olmuşdur. Bu dövrdə dil məsələsi milli kimliyin əsas sütunlarından biri kimi dərk edilir, ana dilinin inkişafı uğrunda ardıcıl mübarizə aparılırdı. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay məhz bu ideyaların elmi və təşkilatı müstəvidə ifadəsi kimi tarixə düşmüşdür. Türkologı Qurultayın əsas məqsədləri türk xalqları arasında dil birliyinin gücləndirilməsi, əlifba islahatı, ərəb əlifbasından latın qrafikasına keçidi, ədəbi dil normalarının müəyyənləşdirilməsi və milli dillərin elmi əsaslarla inkişaf etdirilməsi idi. Xüsusilə ərəb əlifbasından latın əlifbasına keçid məsələsi Qurultayın ən mühüm və tarixi qərarlarından biri olmuşdur. Bu qərar türk xalqlarının savadlanması və müasir dünyaya inteqrasiyası baxımından böyük əhəmiyyət daşıyırdı.

Birinci Türkologı Qurultayın ideya əsası təsadüfi şəkildə formalaşmamışdır. Qurultay, XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə və digər maarifçi mütəfəkkirlərin mətbuat və publisistik fəaliyyətində irəli sürdükləri dilin sadələşdirilməsi, xalq dilinə yaxınlaşdırılması və milliləşdirilməsi ideyalarının məntiqi davamı kimi çıxış etmişdir. Xüsusilə "Molla Nəsrəddin" jurnalında təbliğ olunan dil konsepsiyası da Qurultayda elmi səviyyədə təsdiqini tapmışdır.

Açar sözlər: *Azərbaycan, qutultay, Cəlili Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, türk, dil, əlifba*

XIX əsrin sonu XX əsrin əvəlləri ümumilikdə türk xalqlarının ictimai-siyasi və mədəni həyatında dönüş mərhələsi kimi səciyələnir. Bu dövrdə milli özündərk, dil, mədəniyyət, ədəbi dilin demokrativləşdirilməsi məsələləri ön plana çıxmış, türk xalqları arasında elmi və mədəni əlaqələrin gücləndirilməsi, türk dillərinin elmi əsaslarla öyrənilməsi və inkişaf strategiyasının müəyyənləşdirilməsi əsas ideya istiqamətlərindən biri olmuşdur. 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultay bu ideyaların sistemli şəkildə ifadə olunduğu mühüm elmi-mədəni hadisədir. Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayı türkoloji elmin inkişafında və türk xalqlarının ortaq problemlərinin müzakirəsində mühüm

* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Şəxsi arxivlərin tədqiqi şöbəsi, böyük elmi işçi. **Em**ail: parvanateyyubova@gmail.com

rol oynamışdır. Qurultaya gedən yol isə bir sıra milli mütəfəkkirlərin, xüsusilə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin maarifçi və dil yönümlü fəaliyyətləri ilə sıx bağlıdır. Çünki Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə kimi ziyalılar hələ Qurultaydan öncə mətbuat vasitəsilə dili xalqdan uzaqlaşdırılmasına qarşı çıxır, ağır və anlaşılmaz yazı üslubunun milli inkişafı ləngitdiyini bildirirdilər.

26 fevral-6 mart 1926-cı il tarixlərində Azərbaycan SSRİ-in paytaxtı Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşdü: "*Doğrudan da Birinci Beynəlxalq Türkoloji Qurultay təkcə tarixi hadisə deyil,həm də türk millətlərinin özünə qayıdışında müstəsna xidməti olan proqram olmuşdur. Qurultay ictimai-siyasi xadimlərin, türkoloqların, müəllimlərin, jurnalistlərin, bir sözlə, ziyalıların məşvərət məclisidir. Türkün fikir və mülahizələrinə, istək və arzularına, keçmişinə və gələcəyinə arxa duran beynəlxalq tədbirdir"* [6,s.3]

Qurultayın Bakıda keçirilməsi təsadüfi deyildir. Bakı həmin dövrdə yalnız siyasi və iqtisadi mərkəz deyil,eyni zamanda elmi-mədəni mühitin formalaşdığı mühüm şəhərlərdən biri idi. Azərbaycan ziyalıları türk dünyasının problemlərinə həssas yanaşır, dil, əlifba, təhsil və mədəniyyət məsələlərində islahatların vacibliyini irəli sürürdü..

Qurultayda Sovet İttifaqının müxtəlif türkdilli respublikalarından (Azərbaycan, Qazaxıstan, Tatarıstan, Başqırdıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Krım, Altay, Yakutiya) , eləcə də Türkiyə, İran, Çin, Monqolustan, Finlandiya, Almaniya, Fransa kimi ölkələrdən 131 nəfər nümayəndə – alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar, görkəmli mütəffəkkirlər, tanınmış türkoloji mütəxəssislər, ziyalılar və ictimai xadimlər iştirak etmişdir.

Qurultayda aşağıdakı məsələlər xüsusi diqqət mərkəzində olmuşdur:

*Türk dillərinin elmi təsnifatı

*Ortaq türk ədəbi dili ideyası

*Əlifba islahatı və latın qrafikasına keçid

*Terminologiya və elmi dilin formalaşdırılması

*Təhsil və mətbuat məsələləri

Birinci Türkolojı Qurultayın əsas məqsədləri türk xalqları arasında dil birliyinin gücləndirilməsi,əlifba islahatı, ərəb əlifbasından latın qrafikasına keçidi, ədəbi dil normalarının müəyyənləşdirilməsi və milli dillərin elmi əsaslarla inkişaf etdirilməsi idi. Xüsusilə ərəb əlifbasından latın əlifbasına keçid məsələsi Qurultayın ən mühüm və tarixi qərarlarından biri olmuşdur. Bu qərar türk xalqlarının savadlanması və müasir dünyaya inteqrasiyası baxımından böyük əhəmiyyət daşıyırdı.

Bu ideyalar təsadüfi şəkildə formalaşmamış, əvvəlki onilliklərdə aparılan maarifçilik və mətbuat fəaliyyəti nəticəsində yetişmişdir. Məhz bu baxımdan, qurultayın formalaşmasında Azərbaycan mütəffəkkirlərinin rolu danılmazdır.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi dilinin inkişafında praktik və ideolojı baxımından mühüm rol oynamışdır. "Molla Nəsrəddin" jurnalı vasitəsilə o, xalq dilini ədəbi mühitə gətirmiş, yazı dilinin canlı danışıq dilinə yaxınlaşmasına nail olmuşdur. Məmmədquluzadə satira yolu ilə cəmiyyətdə dil savadsızlığını, süni və anlaşılmaz üslubu tənqid edərək dilin sadələşdirilməsini ideolojı mübarizə səviyyəsinə yüksəltmişdir. Bu fəaliyyət Türkilji Qurultayın əsas prinsiplərinidən olan dilin demokratikləşdirilməsi və kütləviləşdirilməsi ideyasına güclü zəmin yaratmışdır. Cəlil Məmmədquluzadə Azərbaycan ədənbiyyatında və ictimai fikrində ana dilinin qorunması və inkişafı ideyasını ən ardıcıl şəkildə müdafiə edən şəxsiyyətlərdəndir. Onun "Molla Nəsrəddin"jurnalındakı satirik yazıları dilin saflığını pozan amillərə, süni ərəb-fars söz yığına və xalqdan uzaq üsluba qarşı yönəlmişdir. Xüsusilə Qurultayda qəbul olunan latın qrafikalı əlifbaya keçid məsələsi Cəlil Məmmədquluzadənin maarifçilik ideyalarına uyğun idi. Bu baxımdan da 21 sentyabr 1922-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasında əlifba-yazı qrafikasının dəyişdirilməsi,yeni əlifbanın yaradılması və tətbiqi üçün Səmədağa Ağamalıoğlunun rəhbərliyi ilə yaradılmış orqanın 1924-ci ildə yaratdığı heyətdə Cəlil Məmmədquluzadənin də olması heç də təsadüfi deyildi. Həmin heyət 1924-ci il sentyabrın 7-də Bakıdan Krım-Türküstan (Krım, türk ellərinə) ellərinə səfər edir.

Yeni əlifba savadlanmanı sürətləndirmək, mətbuat və təsili əlçatan etmək məqsədi daşıyırdı ki,bu da yazıçının bütün yaradıcılığı boyunca müdafiə etdiyi əsas prinsiplərdən idi. Cəlil Məmmədquluzadə türk dünyasını yazdığı felyetonlarla düşündürmək istəyirdi. Dil və əlifba məsələlərinə həsr etdiyi bu felyetonlarda mətləbini sadə üsul ilə ortaya qoyurdu: "*Hürriyyət və hüquq davası düşəndən indiyədək heç bir müsəlman məclisi olmayıb ki,orada bir obrazovannı müsəlman ayağa durub deməsin: - Hökumət qoymayır məktəblərdə ana dilimizi öyrənək"...Tutaq ki,bunu hökumət qoymur.Bəs ana dilimizi istəməyi,ana dilimizi xoşlamağı kim qoymur?"* [1,s.96]

Cəlil Məmmədquluzadə bütün ömrünü vətənə, millətə və dilə sərf etdi. Ana dili, milli ideya üçün mübarizə apardı. Ana dilinə, millətinə sevgisini öz yazılarında ürək yanğısı ilə ifadə etdi: "*...vətən,vətən,vətən, dil,dil,dil,millət,millət,millət!... .Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.... Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki,vətənim də Azərbaycan vilayətidir*"[3,s.4].

Türk dilinin təmizliyi və qorunması uğrunda mübarizə aparan ziyalılarımız arasında Ömər Faiq Nemanzadə isə xüsusi bir yerə sahibdir. Çünki türk dili məsələsi XX əsrin siyasi proseslərinin balıca problemlərindən biri idi və Ömər Faiq Nemanzadə də bütün həyatını türkçülük ideologiyası üzərində inkişaf etdirmişdir. O, yazır: *"Qərbdə fransız dili nə cür ümumi dil xidmətini görürsə, Yaxın Şərqdə, yəni Qafqaziyada, İranın yarısında, Türkistanda, Rusiyanın cənubi qərbində, Krımda, Anadoluda, Rum elində, Suriyada, İraqda türk dili öyləcə ümumi dil vəzifəsini görür. Türk dili oralarda bütün dillərə hakimdir. Türkcənin bu hakimiyyəti qarşısında imdiyə qədər heç bir dil çıxmamışdır"*[5,s.247]. O, publisistik yazılarında ağır ərəb-fars tərkibli dilin cəmiyyətin maariflənməsinə mane olduğunu vurğulayır, xalq dili əsasında ədəbi dilin formalaşmasını müdafiə edirdi: "*... türkcəmizin varlığını,yaşamağını,hamımızın bilikli,hünərli olmamızı, avam üçün yazılan kitabların, qəzetlərin anlaşılmasını istəyiriksə bacardığımız qədər "gərəksiz" və "artıq"olan ərəbcə, farca sözləri, hələ qaydaların çoxunu buraxıb, türkcələşmiş sözləri yazmağı sınamalıyız"*[5,s.31].

Milli dil problemi Ömər Faiq Nemanzadənin yaradıcılığında aparıcı yerlərdən birini tuturdu. O, ömrünün sonuna qədər bütün qüvvəsini ana dili uğrunda mübarizəyə həsr etmişdir.

Dinəndə yandı dilim,dinməyəndə dil yandı,
Nə dərdi gizlədə bildim,nə aşikar elədim.

Ana dilinə olan məhəbbətin ifadəsidir ki: Ömər Faiq yazırdı: *"Dil yoxsa, Millət yoxdur. Mən inanmıram ki, dilini sevməyən millətini sevsin. Çünki dil millətin yeganə nişanıdır, millət sevgisinin birinci əlamətidir"*[5,s.203]. Dilinə, xalqına məhəbbət, maarifçilik, türküçülük ideologiyası Ömər Faiq Nemanzadənin bütün əsərlərinin baş mövzusu olmuşdur.

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin dil uğrunda apardıqları mübarizəsindən danışarkən onların yaratdıqları "Molla Nəsrəddin" jurnalınıdan danışmamaq qeyri-mümkündür. XX əsrdə dil məsələlərini dövrün zəruri milli məsələsi kimi gündəmdə saxlayan jurnal kimi "Molla Nəsrəddin" jurnallara başçılıq edirdi. "*...bir xarakterik cəhəti də qeyd etmək lazımdır ki, XX əsrin bütün demokratik qüvvələrinin, o cümlədən mollanəsrəddin-çilərin hamısının yaradıcılığında əsas üç məsələ ön plana keçir. Bunlar milli tərəqqi, qadın azadlığı və ana dili məsələləridir. Başqa problemlər də bunlarla bağlı idi"*[2,s.33].

"Molla Nəsrəddin"də: "*Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım, məni gərək bağışlayasınış, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram*"[4,s.2]. sözləri ilə ana dilimizin çox yüksək milli dəyərlərini xalqın danışıq dilində qorumağı milli mədəniyyətimizin ən mühüm ideoloji-siyasi problemi kimi açıqlanır.

1906 – 1931-ci illərdə nəşr olunan "Molla Nəsrəddin" jurnalı Azərbaycan dilinin inkişafında xüsusi mərhələ təşkil edir. Jurnal sadə xalq dili,canlı üslub və kəskin satira vasitəsilə geniş oxucu kütləsinə təsir göstərmişdir. Dilimizə qarşı etinasızlıq, öz ana dilində danışmağı özünə təhqir sayanları jurnal satirik yolla tənqid atəşinə tuturdu: "*Mənim bir dostum var ,özü də müsəlmandır. Amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Axırı bir gün dostumdan soruşdum: mən ölüm,mənə*

sözün doğrusunu de görüm, sən ki,otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki,bir az rusca oxudun"[4,s.6].

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə "Molla Nəsrəddin" jurnalı vasitəsilə dil məsələsini siyası və ictimai mübarizənin mərkəzinə çıxarmışlar. Bu jurnal təkcə ədəbi hadisə deyil, eyni zamanda dil siyasətinin praktik platforması olmuşdur.

Bu gün Azərbaycan dili dövlət dili kimi bütün sahələrdə fəaliyyət göstərirsə, bunun təməlində maarifçi mütətəfəkkirlərin ideya irsi dayanır. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin dilə yanaşması müasir dil siyasətində dərsliklərdə və kütləvi informasiya vasitələrində öz əksini tapır. Onların irsi göstərirki, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli şüurun formalaşdırıcısıdır.

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə Azərbaycan dilinin inkişafında maarifçi mütəfəkkir kimi tarixi rol oynamışdırlar. Onlar Qurultaydan əvvəl formalaşdırdıqları ideyalarla sonrakı dil islahatlarının əsasını qoymuş, milli dilin xalqa birləşməsinə nail olmuşdurlar. Bu gün isə ölkə prezidenti İlham Əliyev tərəfindən azərbaycan dilinə göstərilən sevgi, qayğı Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin ideyalarının daima yaşaya-cağını sübut edir.

Ömər Faiq Nemanzadə və Cəlil Məmmədquluzadə təkcə fərdi yaradıcılıqları ilə deyil, həm də formalaşdırdıqları ictimai fikir mühiti ilə Türkoloyi Qurultayın ideya əsaslarına ciddi təsir göstərmişlər. Onların dili millililəşdirmək, sadələşdirmək və maarifçilik vasitəsinə çevirmək uğrunda apardıqları mübarizə Qurultayın qərarlarında elmi səviyyədə təsdiqini tapmışdır.

Bu ziyalıların mövqeyi göstərir ki,1926-cı il Qurultayı birdən-birə yaranmış hadisə deyil,uzun illər davam edən milli-ideoloji mübarizənin məntiqi nəticəsi idi. Birinci Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni tarixində dönüş nöqtəsi olmaqla yanaşı, Azərbaycan ziyalılarının dil uğrunda apardığı mübarizənin zirvə mərhələlərindən biri kimi dəyərləndirilə bilər. Ömər Faiq Nemanzadə və Cəlil Məmmədquluzadənin ideyaları Qurultayın məqsəd və qərarlarında öz əksini tapmış, ana dilinin milli inkişafın əsas faktoru olduğunu bir daha sübut etmişdir. Qurultayın 100 illiyi bu ideyaların bu gün də aktuallığını quruduğunu göstərir.

Birinci Türkoloji Qurultay türk dünyasının elmi və mədəni tarixində silinməz iz qoymüş, mühüm hadisədir. 2026-cı ilin fevral ayında Birinci Türkoloji Qurultayın 100 ili tamam olur. Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə ölkəmizdə qurultayın yubileyi qeyd olunacaq. Qurultayın 100 illiyinin qeyd edilməsi yalnız tarixi hadisənin xatırlanması deyil, eyni zamanda türk xalqları arasında dil, mədəniyyət və elmi əməkdaqşlıq ideyalarının yenidən gündəmə gətirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu Qurultay türk dünyasının ortaq gələcəyi naminə atılmış mühüm addımlardan biri kimi tarixdə qalmaqdadır.

ƏDƏBİYYAT

1.Qoca Şərqin güzgüsü–Mirzə Cəlil { metodik vəsait}, – Bakı, – 2019
2.Qurbanov Ş.Ömər Faiq Nemanzadə. – Bakı:"Gənclik" – 1992. –208s.
3. Məmmədquluzadə C.Əsərləri.II cild.Bakı: "Öndər nəşriyyatı" – 2004, –48s.
4.Molla Nəsrəddin. – Bakı: "Azərnəşr", c.1. – 1996. – 712s.
5.Nemanzadə F.Ö. Seçilmiş əsərləri, – Bakı: "Şərq-Qərb", – 2006. – 352s.
6.Xəlilov B.Ə. Birinci Beynəlxalq Türkoloyi Qurultayı.– Bakı: "Elm",– 1999. – 183s.

Парвана Мухаммед кызы Тейюбова

ЯЗЫКОВЫЕ И ОБРАЗОВАТЕЛЬНЫЕ ПРОБЛЕМЫ В СРЕДЕ ИДЕИ, ПРИВЕДШИЕ К ПРОВЕДЕНИЮ ПЕРВОГО КОНГРЕССА ПО ТУРКОЛОГИИ

РЕЗЮМЕ

Начало XX века стало периодом национального пробуждения, просвещения и культурного возрождения для Азербайджана и тюркского мира в целом. В этот период вопрос языка воспринимался как один из главных столпов национальной идентичности, и велась последовательная борьба за развитие родного языка. Первый Тюркологический Сьезд,

состоявшийся в Баку в 1926 году, вошел в историю как научное и организационное выражение этих идей. Главными целями Тюркологического Сьезда были укрепление языкового единства среди тюркских народов, реформирование алфавита, переход от арабского алфавита к латинскому, определение норм литературного языка и развитие национальных языков на научной основе. В частности, вопрос о переходе от арабского алфавита к латинскому был одним из важнейших и исторических решений сьезда. Это решение имело огромное значение с точки зрения образования тюркских народов и их интеграции в современный мир. Идеологическая основа Первого тюркологического конгресса сформировалась не случайно. Сьезда стал логическим продолжением идей упрощения языка, приближения его к народному языку и национализации, которые были выдвинуты Джалилом Маммадгулузаде, Омаром Фаигом Неманзаде и другими просвещенными мыслителями в их прессе и журналистской деятельности в начале XX века. Концепция языка, продвигаемая, в частности, в журнале «Молла Насреддин», получила подтверждение на научном уровне и на конгрессе.

Ключевые слова: *Азебайджан, сьезд, Джалил Мамедкулузаде, Омар Фаик Неманзаде, турецкий, язык , алфавит*

Parvana TEYYUBOVA

LANGUAGE AND EDUCATIONAL PROBLEMS IN THE ENVIRONMENT OF THE IDEA THAT LED TO THE HOLDING OF THE FIRST CONGRESS ON TURKOLOGY

SUMMARY

The beginning of the 20 th century became a period of national awakening, enlightenment and cultural revival for Azerbaijan and the Turkic world as a whole. During this period, the issue of language was perceived as one of the main pillars of national identity, and there was a continuous struggle for the development of the native language. The First Turkological Congress, held in Baku in 1926, went down in history as a scientific and organizational expression of these ideas. The main goals of the Turkological Congress were to strengthen the linguistic unity among the Turkic peoples, reform the alphabet, transition from the Arabic alphabet to the Latin alphabet, determine the norms of the literary language and develop national languages on a scientific basis. In particular, the issue of the transition from the Arabic alphabet to the Latin alphabet was one of the most important and historic decisions of the Congress. This decision had great significance from the point of view of the formation of the Turkic peoples and their integration into the modern world. The ideological foundation of the First Turkological Congress was not formed by chance. The Congress became a logical continuation of the ideas of simplifying the language, bringing it closer to the vernacular and nationalization, which were advanced by Jalil Mammadguluzade, Omar Faig Nemanzade and other enlightened thinkers in their press and journalistic activities at the beginning of the 20th century. The concept of language, promoted, in particular, in the journal “Molla Nasreddin”, received confirmation at the scientific level and at the congress.

Key words: *Azerbaijan, congress, Jalil Mammadguluzadeh, Omar Faig Nemanzadeh, turkish, language, the alphabet*

Maral YUSUBOVA*

İNGİLİZ DİLİNDE YAZMA SÜRECİNİN AŞAMALARI

ÖZET

Dil öğretimi ve öğrenimi tarihi boyunca yazma öğretimi birçok öğretmen ve uygulamalı dilbilimci tarafından ilgi odağı olmuştu. Dil öğretim yaklaşımlarındaki değişimlerle birlikte yazma becerilerinin kimi zaman ön plana alındığı, kimi zaman ise ihmal edildiği görülmüştür. Özellikle iletişimsel yaklaşımın

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, baş müəllim, baş müəllim.
Email: maral060687@gmail.com

yükselişiyle öğretmenler, öğretim yöntemlerini daha çox konuşma ve iletişim becerilerine yönlendirmişlerdir. Ancak öğrenen odaklı öğretime ve tüm temel becerileri birleştiren bütüncül yaklaşımlara olan ilginin artmasıyla yazma bileşeni, her dil öğretim programına dahil edilmesi gereken bütünleşik bir beceri hâline gelmiştir. Üniversite düzeyinde yazma temel bir bileşenə çevrilmiş; dünya genelinde her yıl farklı yaklaşım ve etkinlikleri içeren akademik yazma ders kitapları yayımlanmakta, bu kitapların temel amacı üniversite öğrencilerinin akademik yazma becerilerini geliştirmektir. Bu makale, akademik yazmanın öğretilmesinde kullanılan temel yaklaşımları ve teknikleri incelemeyi amaçlamaktadır. İlk olaraq yazmanın tanımı ve dil öğrenimindeki önemi ele alınmakta, ikinci bölümde akademik yazma öğretiminde kullanılan başlıca yaklaşımlar incelenmektedir. Üçüncü bölümde ise bu alanda uygulanan pratik etkinliklərə yer verilmiştir.

Anahtar kelimeler: *akademik yazma, akademik yazma kavramı, akademik yazmanın öğretimi, pratik etkinlikler.*

I. Akademik Yazının kavramsal çerçevesi

Genel anlamda yazı, "konuşma dilinin grafik işaret sistemiyle kaydedilmesi aracıdır" [Bussmann, 1996:1294]. Bu geniş tanım yazıyı konuşmanın bir sonucu olaraq təqdim edir. Richards [1990:101] bu tanımın dar olduğunu belirterek yazının yalnızca konuşmanın kaydı olmadığını, aksine tamamen farklı və karmaşık bir süreç olduğunu vurgular. Richards'a göre yazı, sözdizimi ve kelime seçimi açısından konuşmadan farklıdır.

II. Akademik Yazının Öğretimine Yaklaşımlar

Akademik yazma öğretimi, üniversite düzeyində ciddi bir faaliyet tələb eder. İlkokul və ortaokul düzeyindəki yazma öğretiminden farklı olaraq bu süreç, alana ait bilgi və kavramların aktarımını gerektirir və yazma becerilerine özel önem verilmesini tələb eder. Tribble [1996:83] bu durumu şöyle açıqlar: akademik yazma öğretimi hem içerik bilgisine hem de dil becerilerine yöneliktir.

1. Bilişsel/Ritormik Yaklaşım

Bu yaklaşım, akademik yazma öğretiminde en yaygın istifadə edilen modellerdən biridir. Akademik söylem için genel bir entelektüel çerçeve kabul eder və temel amaç olaraq "açıklama/tanımlama" modunu esas alır. Tribble [1996] bu modları aşağıdaki kimi sınıflandırır:

Açıklama (Exposition):

Örnekleme
Süreç
Sebep–sonuç
Karşılaştırma ve zıtlık
Tanım
Bölümlendirme ve sınıflandırma

Tasvir (Description)

Öyküleme (Narration)

Tartışma ve ikna (Argumentation and Persuasion)

Bu modelde öğretmenler yazı modlarını ardışık şekilde öğretmeği hedeflər.

2. Sosyal/Janr (Tür) Yaklaşımı

Bu model, bilişsel yaklaşımda olduğu kimi ortak entelektüel çerçeveyi kabul etmez; bunun yerine farklı akademik bağlamları esas alır. Tribble [1996], bu yaklaşımın "ortak amaçlara sahip söylem toplulukları" kavramını benimsediğini qeyd edir. Bu amaçlara şunlar daxildir:

Deneysel prosedürlerin raporlanması
Yeni bilgilerin sunulması
Öğrencilerin değerlendirilmesi

Bu yaklaşımda öğretmen, söylem topluluğunun nasıl işlediğini açıklar, öğrenciler ise metin–okur – yazar arasındaki ilişkiləri keşfederek öğrenirler.

III. Akademik Yazı Öğretiminde Kullanılan Pratik Etkinlikler

Akademik yazma öğretiminde her biri farklı bir amacı hedefleyen çox sayıda etkinlik mevcuttur. Öğretmenlərin istifadə edə biləcəyi giriş etkinliklərindən biri yazının amaçlarına odaklanan faaliyettir. Coffin ve arkadaşlarına [2003] göre bu faaliyet şöyle yapılır:

Öğrencilerden, bireysel olaraq bildikleri tüm yazı türlərini beyin fırtınası yolu ilə siyahıya almaları istenir. Daha sonra küçük gruplarda bu yazı türlərini kategori halına gətirmələri tələb olunur.

Sınıf tartışmasında öğretmen özellikle akademik yazı türlərinə (notlar, taslaklar, laboratuvar raporları) dikkat çəkməyə çalışır.

Öğrencilerdən bu türlərin retorik amaçlarını, hedeflenen okuyucu grubunu, kullanılan dil düzeyini düşünmeleri istənilir.

Bu çalışmalar akademik yazının məqsədlərini anlamada və kritik düşünməni gücləndirmədə təsirlidir.

Kişisel Ses (Personal Voice) Kullanımı

Coffin və diğer araştırmacılar, öğrencilerin akademik yazıda kişisel ses kullanımına dair bilinçli olmaları üçün bir neçə teknik təklif edir:

Pasif yapıların kullanılması

Örnek: "Katılımcılara anket verildi."

"One" və "it" zamirlerinin özne olaraq kullanılması

Örnek: "One may question whether…"

Cümlenin başına aktör yerine süreçlerin yerləşdirilməsi

Örnek: "Üç aylık gözlem sürecinde fareler üzerinde…"

Bu teknikler akademik metni daha nesnel və tarafsız hale gətirməyi amaçlayır.

Broughton ve Arkadaşları'nın (1980) Tekniği

Bu teknik, öğrencileri yazmaya teşvik etmək üçün farklı uyarıcılardan istifadəyə əsaslanır:

Öğrencilere kısa bir okuma parçası verilir.

Metin onlardan geri alınır və öğretmen sorular hazırlayır.

Bu sorular yazılı şekilde cevaplandırılır.

Bu yöntem öğrencilərin analiz və yorumlama becerilerini inkişaf etdirir.

Metod

Makalede çağdaş dilbilim yöntem və tekniklərindən, xüsusilə betimleyici və karşılaştırmalı yöntemlərdən istifadə olunmuş, dilbilimsel analizlər aparılmıştır.

Sonuç

Akademik yazma öğretimi üniversite programlarının temel bileşeninə çevrilmiştir. Bu amaçla farklı yaklaşım və tekniklər təqdim edilmiş, böylece akademik yazma öğretimi hem öğretmenler hem də öğrenciler üçün daha yönetilebilir hâle gəlmişdir. Yazma öğretimi yalnız dil kurallarının aktarımı ilə məhdudlaşmamakta, aynı zamanda içerik bilgisi ve işbirliği (grup çalışması, geri bildirim, sınıf tartışmaları) gerektirmektedir. Bu çox yönlü yapı, akademik yazma öğretimini hem zorlayıcı hem də böyük məsuliyyət tələb edən bir görev halına gətirir.

Tartışma

Akademik yazma öğretiminin hem öğretmenlər hem də öğrenciler üçün daha yönetilebilir olması üçün uygun yaklaşım və yöntemler uygulanmalıdır. Akademik yazma yalnız dilsel normlara deyil, bilginin artırılmasına da hizmet etmeli və grup çalışması gibi yöntemlərlə desteklənməlidir

KAYNAKÇA

1. Broughton, G., Brumfit, C., Flavell, R., Hill, P., & Pincas, A. [1980]. Teaching English as a Foreign Language. New York: Routledge.

2. Bussmann, H. [1996]. Routledge Dictionary of Language and Linguistics. London: Routledge.

3. Coffin, C., Curry, M., Goodman, S., Hewings, A., & M. Lillis, T. [2003]. Teaching Academic Writing: A Toolkit for Higher Education. New York: Routledge.

4. Mary M., K. [1998]. Learning to Teach Writing: Does Teacher Education Make a Difference? New York: Teachers College Press.
5. Raimes, A. [1983]. Techniques in Teaching Writing. New York: Oxford University Press.
6. Richards, J. [1990]. The Language Teaching Matrix. Cambridge: Cambridge University Press.
7. Zamel, V. [1982]. Writing: The Process of Discovering Meaning. TESOL Quarterly, XVI[2], 195-209

THE STAGES OF THE WRİTİNG PROCESS

ABSTRACT

Throughout the history of language teaching and learning, the teaching of writing has been the subject of focus for many teachers and applied linguists. As the pendulum swung from an approach to another, teaching writing skills has been either prioritized or neglected. More specifically, with the rise of the communicative movement, different teachers started to direct their practices mostly to speaking and communicative skills. However, with the increased focus on the learner and with the search for a holistic approach to language teaching which integrates all the major skills, the writing component has become an integrative skill that needs to be fit into any language teaching programme. At the university level, writing occupies a major component; every year, several academic writing textbooks are designed and published throughout the world incorporating different approaches and activities, all of which with a unifying purpose of developing academic writing skills among university students. The present essay endeavors to explore some of the main approaches and techniques used in the teaching of academic writing. First, it is initiated by a discussion of the notion of writing and its relevance to language teaching and learning. Then, the second section will be devoted to explore some of the main approaches that have been adopted in the teaching of academic writing. Afterwards, the third section will be concerned with some practical activities that are used in the teaching of academic writing.

Key words: *academic writing, the notion of academic writing, teaching of academic writing, practical activities.*

Rəxşanə BABAZADƏ*

DÜZƏLTMƏ SÖZLƏRDƏ AYRILAN MƏNALAR
(Azərbaycan və Türkiyə türkcələri əsasında)

XÜLASƏ

Türkcənin ümumi xarakterik xüsusiyyətlərindən biri çoxmənalılıqdır. Bəzən də elə olur ki, bir sözün ilkin mənası hər iki ləhcədə qalsa da birində başqa bir anlamı, əsasən məcazi mənası daha işlək, daha basqın olduğundan ayrılma olur. Bu tip ayrılmaları feillərdə olduğu kimi, düzəltmə sözlərdə də görmək mümkündür.

Qeyd edilməlidir ki, belə məna ayrılmaları Türk dilinin bütün qollarında müşahidə edilir, lakin nümunələr çox olduğu üçün bu məqalədə mövzuya daha çox Azərbaycan və Türkiyə türkcələri timsalında nəzər yetirəcəyik.

Açar sözlər: *türk dili, kök, düzəltmə, çoxmənalılıq, məna ayrılmaları*.

Türk dillərində, təbii olaraq, dilin söz tərkibinin çoxu eynidir. Lakin bəzi sözlər vardır ki, kök etibarilə eyni olsalar da, zamanla onlarda səs dəyişmələri olduğu kimi mənaca da başqalaşma olmuşdur. Belə başqalaşma halları daha çox feillərdə özünü göstərir. Məsələn, müasir Azərbaycan və Türkiyə türkcələrində "fikirləşmək" mənasında işlənən "düşünmək" feili türkməncədə, eləcə də digər türkcələrdə,

* AMEA İ.Nəsimi ad. Dilçilik İnstitutu ,böyük elmi işçi.

“anlamaq”, “başa düşmək” deməkdir. Habelə, “kanmak” və “kandırmak” sözləri Azərbaycan türkcəsində “qanmaq” və “qandırmaq” şəkillərində “anlamaq, idrak etmək” və “anlatmaq, başa salmaq” mənalarında işləndiyi halda, Türkiyə türkcəsində “aldanmak” və “aldatmak” anlamlarında işlənməkdədir. Başqa bir nümunə, “dinmək” və “dindirmək” feilləri Türkiyə türkcəsində müvafiq olaraq “səssizləşmək, susmaq; durğunlaşmaq” və ya “yatışdırmaq, sakitləşdirmək”, Azərbaycan türkcəsində isə əksinə, “dillənmək, dilə gəlmək, səsini çıxarmaq” və “danışdırmaq” mənalarında işlənməkdədir. Hətta maraqlıdır ki, ortaq “diŋ-” kökündən -c /-ç şəkilçisi ilə yaranmış “***dinc***” və “***dinç***” sözlərinin də mənaları bir-birindən fərqlidir (Azərb.: sakit, rahat, uslu // Türkiyə: şux, diri, canlı, enerjili).

Türkcənin ümumi xarakterik xüsusiyyətlərindən biri məcazlaşma, çoxmənalılıqdır. Bəzən də elə olur ki, bir sözün ilkin mənası hər ləhcədə qalsa da birində başqa bir məna, əsasən məcazi mənası daha işlək, daha basqın olduğundan ayrılma olur.

Belə ayrılmaları feillərdə olduğu kimi, düzəltmə sözlərdə də görmək mümkündür. Məsələn, ***dayak*** kəlməsi Türkiyə türkcəsində “döymə, vurma” mənasında işləndiyi halda, bu söz azərbaycanca ***dayaq*** şəklində “dəstək, dayanılan nəsnə” anlamında işlənməkdədir. Yaxud ***acıqlı*** kəlməsi Türkiyə türkcəsində ***acıklı*** şəklində “təsirli, kədərli” anlamında olduğu halda, azərbaycancada “əsəbi, qəzəbli” mənasındadır. Eləcə də bir sıra başqa düzəltmə sözlərdə bu halı görmək mümkündür:

Acılı sözünün ortaq “istiotlu, yandırıcı” mənasından başqa, Türkiyə türkcəsində “kədərli” (məsələn, “acılı hikaye”) və ya “itkisi olan, ağrılı” (məsələn, “acılı anne-baba”) mənalarında da işlənir.

Acısız sözü isə, dilimizdən fərqli olaraq, Türkiyə türkcəsində, eyni zamanda, “ağrısız” mənasını ifadə edir.

Açıq sözü bilinən ümumi mənasından əlavə, Türkiyə türkcəsində “***açık***” qüsur, nöqsan, qəbahət, yanlış, xəta, eyb kimi mənaları ifadə edir. Məsələn, “birinin açığını aramak” = birinin eybini axtarmaq.

Anlayış sözü “qavram, məfhum” mənaları ilə yanaşı, türkiyəcə “birinin halından anlama”, “başa düşmə”, ***anlayışlı*** “başadüşən, qayğıkeş, qanacaqlı” mənalarını bildirir.

Asılı ortaq mənası: “asılmış vəziyyətdə”. Bundan başqa, Azərbaycan dilində “tabe, qeyri-müstəqil” və “aludə, mübtəla” [Türkiyə türkcəsində qarşılığı “*bağımlı*”] mənalarını ifadə edir. Eləcə də, ***asılılıq*** sözü öz növbəsində “bağlılıq, tabelilik” və “aludəlik” [= *bağımlılık*; antonimi *bağımsızlık*] mənalarını ifadə edir. “Vəziyyətdən *asılıdır*” = “Duruma *bağlı*” nümunəsindən göründüyü kimi, 1. “bir-birinə bağlanmış”, 2. “qapalı”, 3. “örtülü”, 4. “sevən, məftun” (vətəninə, evinə, ailəsinə, işinə və s. *bağlı*), 5. “əlaqəli”, 6. “ipli” kimi ortaq mənaları olan ***bağlı*** sözündə də məna ayrılıqları vardır.

Atmaca sözü azərbaycanca “söz atmaq”, “eyham, kinayə” mənalarında işləndiyi halda, Türkiyə türkcəsində ***atmaca*** yırtıcı quş adıdır.

Baxıcı sözü ümumi “falçı, falabaxan” və “(uşağa, yaşlıya, xəstəyə) qulluq edən, nəzarətçi” mənalarını ifadə edir. Bunlardan başqa, Türkiyə türkcəsində ***bakıcı*** sözü “mağazada bir şeyi satın almadan sadəcə baxaraq maraqlanan kimsə” üçün də işlədilir.

Basqın sözünün ortaq mənası “qəfil, gözlənilməz hücum” deməkdir. Fərqli mənası isə, Türkiyə türkcəsində ***baskın*** “üstün, güclü, dominant” deməkdir.

Bitkin sözü azərbaycanca “bitmiş, tamamlanmış” mənasını bildirdiyi halda, türkiyəcə ***bitgin*** şəklində “tükənmiş, yorğun, halsız, pərişan” mənalarını ifadə edir.

Buruq sözü Azərbaycan dilinin özündə də omonimlik təşkil edir: 1. burulmuş, qıvrım [T.t.: kıvrım, kıvırcık]; *buruq-buruq*; 2. Neft, yaxud mədən suları çıxarmaq üçün xüsusi üsullarla qazılan quyu; neft quyusu; 3. Boruda axan mayenin, qazın və s.-nin yolunu açıb bağlamaq üçün qurğu; kran vəb. Türkiyə türkcəsində də başqa mənası da var: *buruk* – kefsiz, hüznlü. Məsələn, “Depremzedeler bayrama *buruk* girdi”.

Çatışma(q) sözü azərbaycanca “yetmə, kifayət eləmə” məanalarını bildirdiyi halda, Türkiyə türkcəsində “dalaşmaq, savaşmaq, “tərs düşmək” mənalarını ifadə edir.

Çıxar azərbaycanca "xərc, məsrəf" demək olduğu halda, Türkiyə türkcəsində *çıkar* "mənfəət, qazanc" deməkdir; bu sözdən də ***çıkarcı*** və ***çıkarcılık*** sözləri törəmişdir ki, onlar da "mənfəətgüdən, mənfəətpərəst" və "mənfəətpərəstlik" deməkdir.

Çöküntü ortaq mənadan başqa, Türkiyə türkcəsində həm də "çöküş, süqut" mənasında da işlənir. Məsələn, "Devlet gittikçe çöküntüye sürüklenir", yəni "Dövlət süquta doğru gedir".

Daşqın azərbaycanca "sel, su basqını", türkiyəcə ***taşkın*** "ifrat, aşırı".

Durum sözünün ortaq olan "hal, vəziyyət" mənasından başqa, azərbaycanca təxminən "güc, qüvvət; doyumluluq, doyduruculuq" mənasında da işlənir. Məsələn, "yeməyin durumu yoxdur". "Sanılı pul ***durumsuz*** olar" (atalar sözü).

Düşkün sözünün ortaq (1. zəif, xəstə; 2. yazıq, bədbəxt; 3. mübtəla, düçar; 4. mə'nən düşmüş, rəzil, alçaq; 5. yoxsul, fəqir, kasıb) mənalarından başqa, Türkiyə türkcəsində "(sevgi ilə) bağlı, məftun" kimi müsbət mənası da vardır [məs.: ailəsinə, uşağına, işinə və b. *bağlı* = ailesine, çocuğuna, işine vb. *düşkün*].

Düşük sözü dilimizdə məcazi mənada işlənir, "səviyyəsiz, aşağı səviyyəli; yüngül əxlaqlı" (adam və hərəkət haqqında) anlamlarını ifadə edir. Türkiyə türkcəsində isə, adətən, qiymət və ya geyim haqqında işlənir, "aşağı" və ya "en(diril)miş" mənalarını bildirir. Məsələn, *düşük* fiyat(lar), *düşük* bel (pantalon); 2. "*düşük* yapmak" ("uşaq salmaq")

Düşüncəli azərbaycanca "ağıllı, zəki" deməkdir. Türkiyə türkcəsində isə bir az fərqlə, ***düşünceli*** 1. fikirli, dalğın; qayğılı; 2. başadüşən, qeydə qalan, qayğıkeş mənalarını ifadə edir. Bu sözün antonimi olan ***düşüncəsiz*** sözü də "düşünmədən hərəkət edən, ağılsız" və "mərifətsiz, qanacaqsız; qayğısız" mənalarını ifadə edir.

Gəzəyən sözü Azərbaycan dilində 1. gəzməyi sevən, evində oturmayan; 2. *məc*. *arqo*: yüngül əxlaqlı, əxlaqsız, çapqın mənalarını bildirdiyi halda, Türkiyə türkcəsində ***gezegen*** "planet" deməkdir.

Görüş ortaq: 1. görmə; 2. görüşmə; T.t.: *rəy*, fikir, düşüncə.

Göstəriş sözü Azərb.: "əmr, buyruq"; T.t.: ***Gösteriş*** "dəbdəbə, şan-şöhrət, təmtəraq; şə'nbazlıq"; ***gösterişli*** "dəbdəbəli, təmtəraqlı"; Yeri gəlmişkən, Türkiyə türkcəsində ***gösteri*** sözü "teatr tamaşası, səhnə"; *gösteri yapmak* 1. "oyun çıxartmaq, səhnə göstərmək"; 2. Mitinq eləmək, aksiya.

Göstəriş vermək Azərb.: "əmr vermək, təlimat vermək", Türkiyə türkcəsində ***gösteriş yapmak*** "özünü göstərmək, şə'nbazlıq etmək".

İtki (*itmək* = kaybolmak) = kayıp // ***İtki*** (*itmek* = itələmək) = "itələmə" (aviasiya ilə bağlı termin).

(Geyim-) ***keçim*** "əyin-baş, əyinə *keçirilən* geyim" // Türkiyə türkcəsində ***geçim*** "*keçinəcək*, dolanışıq" mənasında işlənir; *geçimini sağlamak* "birtəhər dolanmaq, yaşamaq", *geçim sağlamak* "dolanmaq, ayaqlaşmaq, ayaq uydurmaq" mənalarında işlənməkdədir.

Kuruntu Türkiyə türkcəsində "vəsvəsə"; *kuruntu* yapmak = vasvasılıq; *hünsü kuruntu* təxminən "xəyallanma, öz xəyalında yaratma, sərf eləyən kimi düşünmə".

Qıcıq sözünün ortaq mənası: "xarici mühitin orqanizmə, yaxud onun bir hissəsinə təsiri nəticəsində əmələ gələn təxərrüş halı; boğazda yaranan qıcıqlanma, qaşıntı". Bundan başqa, Türkiyə türkcəsində ***gıcık*** sözü məcazi mənada sözləri və davranışları ilə qarşısındakını əsəbiləşdirən, hirsləndirən kimsə haqqında işlənir. Qeyd edək ki, Türkiyə türkcəsində bu söz həm də qoyunun bir növünün adıdır.

Qırıcı sözü Azərbaycan dilində "öldürücü, işi öldürmək olan (məs., təyyarə)" mənasında işlənir. Türkiyə türkcəsində isə, ***kırıcı*** sözünün 1. incidici, xətrədəyən, *məc*. ağır (söz, rəftar); 2. irəliləyişin, inkişafın müəyyən mərhələsində qarşısını alan, önləyici, əngəlləyici və b. mənaları vardır.

Qırıq Azərb.: "qırılmış, qopmuş" // T.t.: ***Kırık*** 1. sınıq, sınmış (şüşə, sümük, əşya); 2. qırıntı (çörək); 3. naxoş, nasaz (səhhət) və s.

Qırğın Azərb.: 1. kütləvi surətdə qırılıb tələf olma; 2. müharibə, soyqırım; 3. *məc*. dava-dalaş // Türkiyə türkcəsində: ***kırgın*** 1. Toplu ölümə səbəb olan yoluxucu xəstəlik, pandemiya; 2. incik, küskün; 3. halsız, kefsiz, xəstə.

Qızğın ortaq mənası: "çox qızmış, yaxıcı, yandırıcı və ya qaynar". Bundan başqa, Azərbaycan dilində "hərarətli, odlu-alovlu, çox isti" (söhbət, mübahisə; döyüş) mənalarında, Türkiyə türkcəsində isə, ***kızgın*** şəklində "qəzəbli, hiddətli" mənasında işlənir; ***kızgınlık*** "qəzəb, hiddət".

Pislik dilimizdə "bədxahlıq, ziyankarlıq" [= T.t. kötülük], Türkiyə türkcəsində isə, "zibil" və ya "murdar" mənasında işlənir.

Pozğun sözü Azərbaycan dilində "əxlaqsız, tərbiyəsiz" mənasında, Türkiyə türkcəsində isə, ***bozgun*** şəklində 1. bir toplum içində qarşılıqlı güvənin pozulması üzündən ortaya çıxan qarışıqlıq; 2. məğlubiyyət; yenilən bir ordunun düzənsiz bir biçimdə geri çəkilməsi" mənalarında işlənir; *bozguna uğratmak* – düşməni darmadağın etmək; *bozguna uğramak* – düşmən tərəfindən darmadağın edilmək.

Pozğunçuluq sözü Azərbaycan dilində "əxlaqsızlıq, tərbiyəsizlik" mənasında, Türkiyə türkcəsində isə, ***bozgunculuq*** "qayda-qanunu pozmaq, özbaşınalıq, ara qarışdırmaq, ikitirəlik yaratmaq, fitnə törətmək və s." mənalarında işlənməkdədir.

Pozuq ortaq məna: "pozulmuş, sıradan çıxmış". Azərbaycan dilində 2. silinmiş yaxud qaralanmış; 3. qarışıq, dağınıq, dağılmış, dağıdılmış; 4. *məc.* düzgün olmayan, təhrif edilmiş; (b~p) Türkiyə türkcəsində isə, ***bozuk*** 2. əhvalı pozulmuş, incimiş, incik (adam); 3. xarab (olmuş) (əşya, alət); 4. xarab olmuş, iylənmiş (qida, yemək, yeyəcək); 5. *bozuk* para = xırda pul, qəpik-quruş.

Sıxlıq sözü azərbaycanca "qalınlıq, möhkəmlik" mənasını bildirir. Türkiyə türkcəsində isə, ***sıklık*** şəklində "tezlik, sürəklilik" mənasında işlənir.

Sıx-sıx Azərbaycan dilində "yaxın-yaxın, bir-birinə bitişik, kip", Türkiyə türkcəsində isə, ***sık-sık*** "tez-tez, sürəkli" mənalarında işlənir.

Sökük ortaq mənası "tikişi, hörgüsü sökülmüş, qopmuş" deməkdir ("Terzi kendi *söküğünü* dikemezmiş"); Azərbaycan dilində həmçinin "dağılmış, yıxılmış, uçulmuş; quruluşu pozulmuş (tikili, ev, bina və b.)" mənalarını ifadə edir (*uçuq-sökük*).

Tutma sözü çoxmənalı olmaqla bərabər, dilimizdə iki fərqli mənada da işlənir: 1. Şoraba, turşu (badımcan, pomidor və s. *tutması*); 2. // *tutmaca*: ilişik, ilişmə [= T.t.: *tutuk*] (alət haqqında); "*tutmacası olmaq*", "*tutmacası tutmaq*" = T.t. "*tutuk(luk) yapmak*"; 3. Hər hansı bir xəstəliyin birdən özünü büruzə verməsi, güclənməsi, kəskinləşməsi, növbə (xəstəlikdə) ["*tutması tutmaq*" = T.t.: "nöbet geçirmek", "nüks etmek"].

Tutum Azərbaycan dilində "həcm" mənasını bildirdiyi halda, Türkiyə türkcəsində 1. "tövr, duruş, davranış, münasibət"; 2. "qənaət" mənalarında işlənir. Eləcə də, Azərbaycan dilində ***tutumlu*** sözü "həcmli", Türkiyə türkcəsində isə, "qənaətcil" mənalarında işlənir.

Uçuq ortaq mənası: qızdırmadan və ya başqa səbəbdən dodaqda çıxan qabarcıq(lar). Bundan başqa, Azərbaycan dilində "uçulmuş halda olan, yıxıq" və "uçulmuş yer, viranə, xərabə" mənalarında da işlənir. Türkiyə türkcəsində də ***uçuk*** şəklində bir neçə mənada işlənir: 1. Rəngi qaçmış, solğun (*uçuk beniz*); 2. Açıq (rəng) [*uçuk yeşil*]; 3. Zəif, gücsüz, nəzərəçarpmayan (*uçuk gülümseme*); 4. Hərəkətli, enerjili, dəli-dolu (*uçuk-kaçık*).

Üzücü sözü Azərbaycan dilində bir neçə məna bildirir: 1. *sin.* üzgüçü; 2. (suyun üzərində) üzən (məs.: üzücü nasos, üzücü kran, üzücü mayak); 3. *məc.* əldən salan, yorucu. Türkiyə türkcəsində isə, ***üzücü*** "üzüntü verən, cansıxan, kədərli, hüznlü" mənasını bildirir (məs.: "üzücü durum", "üzücü haber").

Yoğun sözünün ortaq mənaları: *məc.* 1. kök, şişman; 2. qaba, kobud. Fərqli mənaları: Azərbaycan dilində "qalın, enli" (*yoğun* bağırsaq = *kalın* bağırsak) // Türkiyə türkcəsində 1. sıx (*yoğun* nüfus); 2. qatı; 3. ağır, sərt; 4. ardıcıl, fasiləsiz (*yoğun* bakım – reanimasiya, *yoğun* ilgi – böyük maraq, *yoğun* ticaret ilişkileri – sıx ticarət əlaqələri, *yoğun* çalışma – gərgin iş); 5. məşğul;

Yoğunluq Azərbaycan dilində "qalınlıq, enlilik" // ***Yoğunluk*** Türkiyə türkcəsində 1. Sıxlıq; 2. Qatılıq; 3. Məşğulluq, "iş-gücdən başını qaşımağa vaxtı olmama".

Yolçu sözü Azərbaycan dilində "dilənçi", ***yolçuluq*** "dilənçilik" demək olduğu halda, Türkiyə türkcəsində ***yolcu*** "yola düşən", səfər edən, səyyah, ***yolculuq*** da "səfər", "səyahət" deməkdir.

Yolsuz sözünün ortaq mənası elə ilk mənası olan "yolu olmayan" olub, bu mənanın məcazlaşması ilə Türkiyə türkcəsində həm də 1. "üsulsuz, qaydaya zidd"; 2. "yolunu azmış", "məzhəbsiz, əqidəsiz" və ya müasir mənada "vəzifədən sui-istifadə edən, qanunsuz işlər görən, korrupsiyaçı", ***yolsuzluk*** isə "əqidəsizlik"; "vəzifədən sui-istifadə etmək, korrupsiya" mənalarını ifadə edir. Qeyd edək ki, ***yolsuz*** "dinsiz, məzhəbsiz" mənasında klassik ədəbiyyatımızda işlənsə də, müasir ədəbi dilimizdə bu mənada işlək deyil. Qeyd edim ki, belə məna ayrılmaları yad mənşəli sözlərdən törəyən düzəltmə sözlərdə də müşahidə olunur. Məsələn, ***bazarlıq*** sözü dilimizdə "bazardan alnmış şeylər və ya ümumiyyətlə, alış-veriş", *bazarlıq eləmək* "bazardan nəsə almaq və ya ümumiyyətlə, alış-veriş eləmək" mənalarında, Türkiyə türkcəsində isə, ***pazarlıq*** şəklində "alverdə tərəflərin özləri üçün ən əlverişli qiyməti qarşı tərəfə qəbul etdirmək məqsədi ilə etdikləri danışıq, sövdəgərlik" və ya "ümumiyyətlə, hər hansı bir məsələdə hər iki tərəf üçün ən uyğun həll yolunu tapmaq niyyəti ilə etdikləri görüşmə" mənalarında, *pazarlık etmək* yaxud *pazarlık yapmak* isə, "sövdələşmək, sövdəgərlik etmək" mənasında işlənməkdədir. Habelə, *xəbərçi(lik)* və *haberci(lik)* sözlərində də məna cəhətdən ayrılma görürük. Belə ki, bu söz dilimizdə məna cəhətdən mənfiləşərək, daha çox, "satqın(lıq)" mənasında işlənir ki, Türkiyə türkcəsində bu mənada qarşılığı kimi "ispiyoncu(luk)" sözü işlənməkdədir.

Türk dillərinin müqayisəli şəkildə öyrənilməsinin türkcənin, eləcə də dilimizin öz daxili imkanları hesabına zənginləşməsi, eləcə də ortaq ünsiyyət dilimizin formalaşması baxımından faydalı olacağına inanıram.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti (2007) Axundov A., Kazımov Q., Behbudov S., Bakı, Şərq-Qərb.
2. Azərbaycan dilinin izahlı lüğəti (2006) Orucov Ə., Abdullayev B., Rəhimzadə N., 4 cild, Bakı, Şərq-Qərb.
3. Azərbaycan dilinin omonimlər lüğəti (2007) Həsənov H., Bakı, Şərq-Qərb.
4. Türkçe sözlük (1998) Parlatır İ., Gözaydın N., Hamza Z. vb. 2 cilt, Ankara, Türk Tarih Kurumu.
5. https://www.etimolojiturkce.com/
6. https://turklehceleri.org/

Rakhshana BABAZADEH

DIFFERENT MEANINGS IN DERIVATIVE WORDS
(Based on Azerbaijani and Turkish)

ABSTRACT

One of the general features of Turkic is polysemy. Sometimes, although the first meaning of a word remains in both, one of them has another meaning, usually a figurative meaning, which is more intense and more dominant. This kind of separation can be observed in derivatives as well as in verbs.

It should be noted that such separation of meanings is observed in all branches of the Turkic language, but since there are many examples, in this article we will look at the issue more on the example of the Azerbaijani and Turkish.

Key words: *turkic, origin, derivative, polysemy, differentiations in meaning*.

Рахшана БАБАЗАДЕ

РАЗЛИЧНЫЕ ЗНАЧЕНИЯ В ПРОИЗВОДНЫХ СЛОВАХ
(На основе азербайджанского и турецкого языков)

АННОТАЦИЯ

Одной из общих черт тюркских языков является полисемия. Иногда, хотя первое значение слова сохраняется в обоих значениях, одно из них приобретает другое значение, обычно переносное,

которое является более интенсивным и доминирующим. Подобное разделение можно наблюдать как в глаголах, так и в производных словах.

Следует отметить, что подобное разделение значений наблюдается во всех ветвях тюркских языков, но поскольку примеров много, в данной статье мы рассмотрим этот вопрос более подробно на примере азербайджанского и турецкого языков.

Ключевые слова: *тюркский, происхождение, производный, многозначность, различия в значении.*

Aytən ƏHMƏDOVA*

"DASTANİ- ƏHMƏD HƏRAMİ" POEMASINDA SAYLARIN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Bu məqalədə XIII əsrdə yazıldığı ehtimal edilən "Dastani- Əhməd Hərami" məsnəvisinin dil xüsusiyyətləri araşdırılmağa çalışılmışdır. Əsər doğma dilimizdə yazılan ilk anadilli poema hesab edilir. "Dastani- Əhməd Hərami" poeması göstərir ki, doğma dildə bədii əsərlər yaratmaq ənənəsi qədim dövrlərdən meydana gəlmişdir. Qədim və zəngin təcrübəyə, bədii –poetik ənənələrə malik olmayan bir xalq belə dəyərli əsər yarada bilməzdi.

Məqalədə "Dastani –Əhməd Hərami" də islədilmiş sayların mənaca və quruluşca növləri araşdırılmışdır. Məqalədə müəyyən miqdar, qeyri- müəyyən miqdar və sıra saylarının qədim və müasir variantları müqayisəli şəkildə təhlil edilmişdir. Müəyyən miqdar sayları ilə isim arasında işlədilən sözlərin qədim variantları izah edilmişdir. Eyni zamanda, sayların sintaktik vəzifəsi də müəyyənləşdirilmişdir.

Açar sözlər: *anadilli şeir, morfoloji vahidlər, təhlil, müqayisə*

XIII əsrə qədərki anadilli əsərlər müxtəlif səbəblərdən dövrümüzə qədər gəlib çatmamışdır. Buna görə də əsər dilimiz və ədəbiyyatımız üçün qiymətli hesab olunur. "Dastani-Əhməd Hərami" anadilli poeziyamızın ilkin təşəkkül tarixi, onun ideya- mövzu mənbələrini, sənətkarlıq istiqamətini, milli bədii xüsusiyyətlərini araşdırmaq baxımından son dərəcə qiymətli bir əsərdir.

Poema türk alimi Əhməd Tələt Onay tərəfindən 1928-ci ildə əlyazması aşkarlanıb ön söz, lüğət və şəhrlərlə çap olunmuşdur. Sonralar türk alimlərindən Doğan Kaya, Orhan Şaik Gökyay, Halis Akaydın əsərlə bağlı araşdırmalar aparmışlar. Azərbaycanda isə məsnəvini Əliyar Səfərli ön söz, lüğət və mətnini tərtib edərək çap etdirmişdir. Əsərlə bağlı mülahizələr, əsasən, ədəbi nöqteyi- nəzərdəndir. Ancaq Yusif Seyidovun, Fərhad Zeynalovun, Tofiq Hacıyevin və başqalarının "Dastani- Əhməd Hərami"nin ideya-bədii keyfiyyətləri, dil-üslub xüsusiyyətləri barəsində irəli sürdükləri fikirlər bizim üçün qiymətlidir.

"Dastani- Əhməd Hərami" məsnəvisinin müəllifi elm aləminə bəlli deyil. Əsərin ön və son hissəsi itib-batdığı üçün əsər kim tərəfindən yazıldığı bilinmir. Müəllif əsəri məsnəvi formasında yazmışdır. Poema 6 məclis, 816 beyt, 1632 misradan ibarətdir.

Poema dil və üslubca XIII əsr abidələri ilə səsləşir. Təhkiyə üsulu sadədir, dərin fəlsəfi fikirlərə, şah misra və beytlərə az rast gəlinir. Poema əruzun həzəc bəhrindədir. Eyni zamanda misralar 11 (4- 4- 3) hecalıq şeiri xatırladır.

"Dastani- Əhməd Hərami"nin əlyazması rüqə və süls xəttinə yaxın xətlə yazılmışdır [DƏH, 2004, s.15].

"Dastani- Əhməd Hərami" poemanın XIII əsrdə yazıldığını nəzərə alsaq burada yetəri qədər ərəb-fars sözlərinin olması təbii sayılmalıdır. Ancaq əsərdə ərəb-fars mənşəli sözlərə az rast gəlinir. Məsnəvidə

* Gəncə Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email:

daha çox qədim türk dilinə (Azərbaycan dili) məxsus sözlərə təsadüf edilir. Milli sözlərin böyük hissəsi feil, say və qismində əvəzlikdən təşkil olunmuşdur.

Abidənin dilində sayların həm müasir, həm də qədim formalarına rastlanılır.

Əsərdəki sayların təhlili

Azərbaycan dilində əsas nitq hissələrindən bir də saydır. Say əşyanın miqdarını və sırasını bildirir, neçə? nə qədər? neçənci? suallarından birinə cavab verir. Saylar mənaca iki yerə bölünür: miqdar sayları, sıra sayları. M. Hüseynzadəyə görə, miqdar saylarının dörd növü var: 1. Müəyyən miqdar sayları, 2. Qeyri-müəyyən miqdar sayları, 3. Kəsr sayları, 4. Təqribi miqdar sayları [Hüseynzadə, 2007, s. 84].

Say bir sıra xüsusiyyətlərinə görə həm sifətə, həm də zərfə bənzəyir. Sifət kimi ismə aid olaraq, onu təyin edir. Hər ikisi cümlədə təyin və xəbər vəzifəsində çıxış edir. Məsələn, Gümüşdür tazə boyun billurə bənzər [DƏH, 2004, s. 27]; Edərdi bir- birinə iki şah naz. [DƏH, 2004, s. 88]. Birinci nümunədə verilmiş tazə sifət, ikinci nümunədə verilmiş iki sözü saydır. Hər ikisi ism aiddir. Biri əşyanın əlamətini , digəri isə miqdarını bildirir. Ancaq hər ikisi cümlə üzvü kimi təyin vəzifəsində çıxış edir.

Türk dillərində sayların yaranması, mənşəyi, morfoloji və sintaktik xüsusiyyətləri, sakramentallığı, eləcə də say sistemi, sayların təkamülü kimi məsələlər geniş və sistemli şəkildə araşdırılmışdır. Bu sahə ilə başlı S.Y. Malov, B. Çobanzadə, R. Xəlilov, F. Cəlilov, M. Qıpçaq və başqa alimlərin tədqiqatları xüsusi olaraq qiymətləndirilir [Tanrıverdi, 2014, s.248].

Azərbaycan dilində saylar mənaca bir neçə yerə bölünür ki, bunlardan biri də müəyyən miqdar saylarıdır. Müəyyən miqdar sayları əşyanın konkret miqdarını bildirir, neçə? nə qədər? suallarına cavab verir. Cümlə üzvü kimi , əsasən, təyin mövqeyində çıxış edir. Bəzən birinci növ təyini söz birləşməsinin birinci tərəfi kimi işlədilərək yanaşma əlaqəsini yaradır. Məsələn, İki at yükü odun varıb aldı, Güləndamı oda urmağa gəldi [DƏH, s. 69]. Yedi oğlan gətirdim aydan arı, Yüzü güldür, şəkərdir ağzı yarı [DƏH, s. 40]. Həm üç gövhər gətirmişəm dəxi uş, Qəbul etsin ki, könlümüz ola xoş [DƏH, s.40]. Yanından dörd dəmir qazuq çıxardı, Şahənşahın qızın çarmıxa gərdi [DƏH, s. 63]. Məgər kim ol zamanda bir hərami, Dərib döşürmüş idi çox hərami. [DƏH, 22]. Təmam qırx gün dügünü eylədi xoş [DƏH, s. 54]. Nümunədə sadə müəyyən miqdar sayları: bir, iki, üç, dörd, yeddi və qırx işlədirmişdir. Qeyd etməliyik ki, qədim türk və Azərbaycan yazılı abidələrin, o cümlədən "Dastani Əhməd Hərami"nin dilində işlədilmiş müəyyən miqdar sayları, əsasən, müasir ədəbi dilimizdəki kimidir. Bəzən səs düşümü və ya az miqdar da fonetik dəyişim müşahidə edilir: yedi oğlan, bin ər, dokuz kişi və s. M. Kaşğarinin "Divani- lüğət –it- Türk" əsərində də müəyyən miqdar saylar az miqdarda fonetik dəyişikliyə uğrayaraq işlədilmişdir. Məsələn, doqquz- tokuz [Kaşğari, s. 557], dörd- tört [Kaşğari, s. 569], qırx- kırk [Kaşğari, s.292], iyirmi- yigirmi // yigirmə [Kaşğari, s. 684], iki- iki //ikki [Kaşğari, s. 213].

Azərbaycan dilinin tarixi qrammatikasında bir çox sözlərdə t>d əvəzlənmələrinə rast gəlinir ki, Kaşğarinin əsərindən verilmiş nümunələrdə bunu aydın şəkildə müşahidə etmək olur. Müəyyən miqdar sayları birinci növ təyini söz birləşməsinin birinci tərəfi kimi işlənib, özündən sonra gələn əşyanın müəyyən bir miqdarını bildirir. Belə hallarda miqdar sayı sözdəyişdirici şəkilçi qəbul etmir, yəni nə hallanır, nə də cəmlənir. Məsələn, Ata atlanıb ol iki gönüldü, Görəlim bu nəsib kimə sunuldu [DƏH, 2004, s. 41].

Müəyyən miqdar sayları istər tarixi, istərsə də müasir qrammatikada konkret miqdar anlayışı bildirir. Bu saylar quruluşca sadə və mürəkkəb olur. Məsələn, Nə var tanrı bir idi iş ikidir, Ölüm dedikləri sanma ikidir [DƏH, 2004, s. 30].Üçünüz, dördünüz taşra varınca, Bu iş məlum olur bir dəm durunca [DƏH, 2004, s. 31]. Yaşı on yedisində kəndi məhru, Yüzün görəndə qalmaz idi qayğu [DƏH, 2004, s. 79]. Aytdı kim hənuz oğlandır, ey yar, Yaşı on səkkizində, ey vəfadar.

Müəyyən miqdar saylarından sonra bəzən kəmiyyətcə təyin edilən ismin daha konkret izahını və ona məxsus cəhətlərin dəqiqləşdirilməsi üçün yardımçı (numerativ) sözlərdən istifadə edilir. Belə sözlər (numerativ) sırasına nəfər, baş, ədəd, dəst, dilim, nüsxə, rəs, parça, gəz və s. daxil etmək olur. Dastanın dilində də bu cür numerativ sözlər müşahidə etmək olur. Məsələn, Gər əfsun oxuyub bir gəz ürəydi, Oluq dəm ayı gögdən endirəydi [DƏH, 2004, s. 22]. Bin atluq qul qaravaş kəndinin bil [DƏH, 2004, s. 48]. Oğuzdan bir bölük atlı gəldi. KDQ-da bölük sözü numerativ söz məqamında işlədilmişdir.

Dastandan verilən nümunələrdə gəz, atluq sözlərini numerativ söz kimi düşünmək olar.

Ancaq bu sözlər çağdaş Azərbaycan dili üçün arxaik hesab olunur. Azərbaycan dilində sayların bir qismi qeyri- müəyyənlik bildirir. Belə saylar əşyanın konkret miqdarını bildirmir. Dildə işlədilən az, çox, xeyli, bir az, bir çox, bir sıra, onlarla, yüzlərlə, minlərlə, beş- altı və s. sözlər qeyri- müəyyən saylar hesab olunur. Araşdırmalar göstərir ki, bu tip saylar həm qədim yazılı abidələrin dilində, həm də çağdaş ədəbi dildə işlək olmuşdur. "Dastani- Əhməd Hərami" məsnəvisində belə işlənmişdir: Bir- iki ay səbr eylə görəlim, Atasına da xəbər göndərəlim [DƏH, 2004, s. 82]. Beş- on gün çün bular işrətlər etdi,

Eşit gəl mənliyi, anla ki, netdi [DƏH, 2004, s.88]. Məgər kim ol zamanda bir hərami, Dərib döşürmüş idi çox hərami [DƏH, 2004, s. 22]. Malım, mülküm bənim çoxdur Kırımda, Öküş gəncü xəzinəm var yerimdə [DƏH, 2004, s. 57]. Birinci, ikinci nümunədə işlədilmiş say quruluşca mürəkkəb, üçüncü və dördüncüdə isə sadə qeyri- müəyyən miqdar sayıdır.

"Dastani- Əhməd Hərami" də işlədilən sayların bir qismi sıra bildirir. Bu cür saylar daha konkret məzmuna malikdir. Sıra saylarının xüsusi morfoloji əlaməti (-ıncı 4) vardır. Sıra saylarının şəkilçiləri XX əsrin əvvəllərinə kimi iki şəkildə yazılmışdır: 1.-mci, 2. –nci. [Mirzəzadə, 1990, s. 100.]. Bu şəkilçilərin dilimizin ahənginə tabe edilərək dörd cür yazılmasına ərəb əlifbası imkan verməmişdir. Buna görə də XX əsrin əvvəllərinə kimi istər əlyazmalarda, istərsə də çap edilmiş materiallarda həmin şəkilçinin orfoqrafiyasında vahid qaydaya əməl edilməmişdir. Şəkilçinin normal vəziyyətinə (-ıncı, - inci, -uncu, -üncü) əlifbanın dəyişimindən sonra rast gəlindi. Sıra sayları quruluşca düzəltə və mürəkkəb olur. Qeyd etməliyik ki, sıra sayları əsasən neçənci? sualına cavab verir, bəzən də sayın bu növünə sifət kimi hansı? sualını da vermək olur.

Məsnəvidəki sıra saylarına diqqət edək: İkinci məclisə ağaz edəlim, Yenə Əhməd Hərami yə gedəlim [DƏH, 2004, s. 32]. Bu məclisi bu yerdə qəsr edəlim, Bu gəz beşinci məclisə gedəlim [DƏH, 2004, s. 91]. Sən uş dördüncü məclisə nəzər qıl, Görün kim, nəyə varır uşbu mənzil. Nümunələrdə verilmiş ikinci, dördüncü, beşinci sözləri sıra saylarıdır. Bunlara həm neçənci? həm də hansı? suallarını vermək olar. Qeyd etməliyik ki, sayın bu növü insan təsəvvürü verdiyi zaman kim? sualına da cavab olur. Məsələn, on birincilər yarışda mükəmməl çıxış etdilər.

Nəhayət, saylar istər klassik qədim yazılı abidələrin dilində, istərsə də müasir qrammatikada eyni cür yazılır və tələffüz olunur. Bəzən çox az fonetik dəyişimə uğrasa da nəticədə eynidir.

ƏDƏBİYYAT

1. Dastani -Əhməd Hərami, "Şərq- Qərb", Bakı, 2004, 119s.
2. Hüseynzadə M., Müasir Azərbaycan dili, III cild Morfologiya. Bakı: "Şərq- Qərb" 2007, 280s.
3. Kaşğari M. Divanü- luğati-it-türk, 4 cilddə, Bakı: "Ozan", 2006,750 s.
4. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: "Azərbaycan Universiteti Nəşriyyatı", 1990, 373 s.
5. Tanrıverdi Ə., Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Elm və təhsil, 2014, 458 s.

SUMMARY

This article attempts to examine the linguistic features of the "Dastani-Ahmed Harami" masnavi, which is believed to have been written in the 13th century. The work is considered the first native poem written in our native language. The poem "Dastani-Ahmed Harami" shows that the tradition of creating works of art in the native language has existed since ancient times. A people without ancient and rich experience and artistic and poetic traditions could not have created such a valuable work.

The article examines the meaning and structural types of numbers used in "Dastani-Ahmed Harami". The article analyzes the ancient and modern variants of definite, indefinite and ordinal numbers in a comparative manner.

The ancient variants of words used between definite and noun numbers are explained.

At the same time, the syntactic function of numbers is also determined.

Key words: *native language poetry, morphological units, analysis, comparison*

РЕЗЮМЕ

В данной статье предпринята попытка исследовать лингвистические особенности стихотворения «Дастани-Ахмед Харами», которое, как считается, было написано в XIII веке. Это произведение считается первым стихотворением, написанным на родном языке. Стихотворение «Дастани-Ахмед Харами» демонстрирует, что традиция создания произведений искусства на родном языке существовала с древних времен. Народ, не обладающий древним и богатым опытом, а также художественными и поэтическими традициями, не смог бы создать столь ценное произведение.

В статье рассматриваются значение и структурные типы чисел, используемых в «Дастани-Ахмед Харами». В статье проводится сравнительный анализ древних и современных вариантов определенных, неопределенных и порядковых числительных. Объясняются древние варианты слов, используемых между определенными и именными числительными. Одновременно определяется синтаксическая функция чисел.

Ключевые слова: *поэзия на родном языке, морфологические единицы, анализ, сравнение.*

Prof. Dr. Funda TOPRAK*

TÜRK DİLLERİNDE "UR- ~ ÜR-" FİİLERİNDE FARSÇA KOPYALAMA ETKİSİYLE OLUŞAN KARIŞMALAR

ÖZET

Türkçenin belki en eski ve köklü fiillerinden ikisi ***ur-*** ve ***ür-*** fiilleridir. Bu fiillerin tarihî ve çağdaş Türk lehçe ve eserlerindeki görünümü üzerinden bir inceleme yapıldığında Ana Altayca ve Moğolcadaki benzer şekilleri ve fiilin ünlüsünün kalın ve ince ünlü olarak ortak sese dayandığı noktası dikkat çekicidir. Bu fiiller sonradan anlam ayrımı ve ünlü değişmesine uğramış olmalıdırlar. Türklerin İslam'ı kabulünden sonra yakınlaştıkları Farsça ile dil alışverişleri oldukça fazladır. Farsçada vurmak fiilinin karşılığı "zeden" sözcüğüdür. Bu sözcük ile oluşturulan deyimlerin bir kısmı Türkçeye de dilde kopyalama adı verilen yöntemle geçmiştir. Eski Türkçede iki ayrı anlam katmanına bölünen ur-/ür- fiillerinde Arap alfabesinde Türkçe ünlü ayrımları görülemediğinden aslında ür- "üflemek" "şişirmek" "rüzgar esmek" anlamına gelen fiil, Farsçanın etkisiyle ur- "vurmak" dövmek" şeklinde okunmuş olmalıdır. Buradan da nefes ur-, dem ur-, aksa ur-, gibi birleşik fiiller oluşturulmuştur. Oysa burada üfürmek, şişirmek, ses çıkarmak anlamları esas olduğuna göre fiilin de ür- şeklinde oluşturulması beklenirdi. Bu çalışmada Ana Altaycadan itibaren bu iki fiilin Türk dillerindeki görünümü tanıklanarak aslında bu iki fiilin tek köke dayanan fiiller olduğu gösterilecek, bazı birleşik sözcüklerde ür- olması gereken fiilin Farsçanın ve Arap harf sisteminin etkisiyle yanlış okunup galat-ı meşhur olarak yaygınlaştığı ispatlanacaktır.

Anahtar Sözcükler*: Ur- ve Ür- Fiilleri, Dil Kopyalaması, Anlam Karışması*

Türkçenin en eski ve köklü fiillerinden biri olan ur- fiili, en eski yazılı kaynaklarımız olan Orhun Yazıtlarından beri takip edilen, Tüm Türk dil ve lehçelerinde tanıklanan bir fiildir. Bu fiilin zamanla ön ünsüz türemesiyle gelişen vur- biçimi de kayıtlara eski tarihli olarak geçmiştir.

Altay dilleri sözlüğünde sözcüğün kökeni "**p´úri** to shake :Tung.*por-; Mong. *(h)üre-; Turk. *ur-; Jpn.*púrú-p-, P.Tung. *por-to hit, strike (бить, ударять):Man. fori-; SMan. Fori- "to pound, to beat" (1582). PTurk.*ur- 1. To beat, hit 2.to pour, strew. Mong. Also has a back variant *(h)uri- eflected in *(h)urildu- "to contest, fight"(EDAL, 2003 :1188) şeklinde verilmektedir. Burada *vurmak, dövmek, sallamak* anlamlarının Tunguzca, Ön Türkçede varlıkları gösterilirken Moğolca *hurildu- biçiminin eski bir varyant olarak değerlendirildiğini söylemek mümkündür. Fiilin etimolojinin tarihî temel sözlüklerinde alındığı biçimler şu şekildedir: **ur-:** to put (something), to strike (someone or something) "(bir şeye)

* Ankara Yıldırım Beyazıt Üniversitesi, İnsan ve Toplum Bilimleri Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü, Eski Türk Dili Anabilim Dalı Öğretim Üyesi. fundatoprak@aybu.edu.tr

koymak, (birisine, bir şeye) vurmak" (EDT,1972, s. 194); Räsänen: **ur-** schlagen "vurmak" (VEWT, 1969, s. 515), Vambery **ur-**: schlagen mittelst Kraft, tödten, abschlagen, abschlagen bedeutet "vurmak, dövmek, yıkmak" (EWTS, 1878, s.34), Tietze **ur-**: to put, to strike "vurmak, dövmek, çarpmak" (Tietze, 2016-2020, s.440)

Ur- filinin Orhun, Uygur ve Karahanlı Türkçelerinde takibi mümkündür. Temel fiil olan bu fiil, Orhun yazıtlarından beri birleşik fiil yapımında da kullanılmıştır. ***Bengü taş ur-*** ifadesinde "bir taş üzerine vurarak yazı yazmak, anıt dikmek" şeklinde " neñ neñ sawım <bar> erser beñgü taşka urtum" "Ne kadar sözüm varsa ebedi taşa kazıdım (yazdım)" (KTG11) şeklinde görülmektedir. Uygur Türkçesinde de sözcüğün ur- "vurmak, dikmek, koymak, tanzim etmek, düzenlemek" (Caferoğlu, UTS, 2011, 266) anlamlarının yanında Altun Yaruk'ta "ursukmak- dövülmüş vurulmuş olmak" (Suv.621-9), Üç İtigsizler'de urungut "savaşçı" (Üİ;1998, 109 a7) gibi türemiş isimleri de bulunmaktadır. Divānu Lugati't Türkte ur- fiili "vurmak, dövmek" anlamıyla temel fiil olarak geçmektedir. Kaşgarlı Mahmud ayrıca bu fiilin urgan / uran "sürekli kölesini döven" (DLT 28/13) anlamında sıfat biçimini, **ursuk-**" kavgada yenilmiş, dövülmüş olmak (DLT 127/12), **urun-** "dövünmek" biçiminde ekli biçimlerini de kaydeder. Divānu Lugati't Türk'te ayrıca **uruş tokuş** "mücadele, harp" (DLT 10/5) ikilemesini de bulmak mümkündür. Kutadgu Bilig'de sözcük temel anlamı yanında anlam genişlemesine uğradığı ve mecaz anlamlar kazandığı da tespit edilmiştir. ***at ur-*** "ad almak, unvan sahibi olmak" (KB:824), ***törü ur-*** "yasa koymak, kanun hazırlamak" (KB:893***), könilikke uluñ ur-*** "doğruluğun temelini atmak" (KB:4028) gibi mecazlaşmalar yanında farklı anlamlar da kazanır. Yine Kutadgu Bilig'de ur- fiili "bir yöne yönelmek, gitmek" anlamını da "***evine yüz urdı sevinçlig bolup***" (KB:951) örneğinde bulmak mümkündür.

Fiilin Türk lehçelerindeki kullanımları şu şekildedir:

Azerbaycan Türkçesinde **ur-** "vurmak, elini veya elinde tuttuğu birşeyi bir yere hızla çarpmak" (ATS, 2018, s. 3411), (Hakasça : ur- serpmek atmak **as ur-** "tohum atmak" 2. Dökmek, boşaltmak, koymak **suğ ur-** "su dökmek", 3. Sulamak su vermek, **sĭlii ne süt urıp ĭzerge be**? "yüzüne süt döküp içilir mi?" (HTS, 2007, 548) Karakalpak Türkçesinde ur- "vurmak" , qulaş urdı:ileri atıldı, hamle etti. **Şarq ur-**: Gayretlenmek; gezmek" (KKTS:622). Kazan Tatar Türkçesinde ur- "1. Ekin biçmek. 2. Dövmek, vurmak. 3. Oburca yemek (KTT:593) anlamlarının yanında sözcüğün isim eki alarak isimleşmiş biçimleri de yaygındır. **Urdık** "seki, tabure" (KTT:595) **urdın** "tezgah" (KTT:595), **urgıllık** "nehrin güçlü aktığı yer" (KTT:595) Özbek Türkçesinde vur- fiili ur-"urmaq" 2. His qılınmaq 3. Salbiy ta'sir qilmak 4. Otmaq otib o'ldirmaq (TÖS:625) anlamlarında geçmektedir. Başkurt Türkçesinde ur- "vurmak, biçmek, dermek, orakla dermek" (BTS:662) anlamlarında yaşamaktadır. Ayrıca **urındık** "kendir, dövme aleti" (BTS:664) isim biçimi de yaygındır.Yeni Uygur Türkçesinde ur-yine "vurmak dövmek" anlamındadır. Bu fiil ile yapılan Huda ursun "Allah senin belanı versin, Allah sana vursun" gibi beddualar da dikkat çekicidir. (YUTS:438)

Altay dilleri ve Moğolca için ür- fiili tanıklanmaktadır. "pʿŭri (- e) to blow:Tung. *pū-; Mong. *(h)uri-; Turk. *ür-. PTung. *pū- :to blow (дуть): Evk. huw-; Evn. hū-; Neg.xūw-; UI. pū-.P.Mong. (h)uri- to blow, P.Turk. ür- to blow (дуть) (EDAL:1188). Görüldüğü gibi Altay dillerinde ve Moğolcada bu fiilin aynı anlamda ve ön seste ünsüz türemesiyle kullanılan biçimleri bulunmaktadır. Tarihî sözlüklerde ür- fiili şu bilgilerle kaydedilmiştir. **ür-**: to blow (a trumpet, a fire etc.), occasionally without an object "bir trompete, ateşe vs. üflemek, genel olarak bir nesne olmadan üflemek", **ür-:** (a dog) to bark, howl "(bir köpek) havlamak, ulumak (EDT, 1972, 195), **ür-:** to blow "üflemek, üfürmek" (Tietze, 2016-2020, s 382); **ür-:** ballen, blasen "üflemek, havlamak" (Radloff, 1893, I, s.1825), **ür-:** "to get or be inflated or distended" The base is attested as "**yur-**" in UigTot 1047 and Helik I and Helik II, 60 writes yurül-. (OTWF II, 682); Räsänen: ***(h)ǖr-*** blasen, aufblasen "üflemek, üfürmek" (Räsänen, 1969, VEWT, s. 522)

Orhun Yazıtlarında Ür- "Üflemek, havlamak, ses çıkarmak" fiili bulunmamaktadır. Uygur Türkçesi döneminde bu fiil "kabarmak, üfürüp şişirmek, üflemek" anlamlarıyla karşımıza çıkar. (UTS:273) havlamak anlamlarında Kutadgu Bilig'de köpeğin çıkardığı sesi anlatmak için "havlamak" anlamında sadece bir beyitte (KB:6601) geçmektedir. Kaşgarlı Mahmud DLT'de **ür-** fiili için "havlamak, ürmek" (DLT: 92/86) ve (ateş vb. şeyleri) üflemek (DLT :92/86) anlamlarını kaydeder. Yine öfkeden, kızgınlıktan şişmek" anlamında **ürül-** (DLT 106/97) fiili de onun kayıtları arasındadır. Eski Uygur Türkçesinde fiilin **ür-** ve **üv-** biçimlerinin kullanıldığı görülmektedir. Uygur Türkçesi Sözlüğünde 1. Kabarmak, üfürüp

şişirmek, üflemek 2. Havlamak, 3. İlaç sürmek anlamlarında ür- fiilleriyle (UTS:273) **üvätmäk** "şişirmek, tahriş etmek", **üvätäçi** "şişiren tahriş eden" (UTS:274) biçimleri tespit edilebilmektedir. Yine Eski Uygur Türkçesinde de fiilin kalın ünlülü /U/ biçiminin de aynı anlamda geçmesi **urla-** "bağırmak" (UTS:266) dikkat çekicidir. Çağdaş Türk lehçelerinde de ür- fiilini takip etmek mümkündür.

Azerbaycan Türkçesinde **ür-** fiili **hür-** şeklindedir. Fiil sözlükte" 1. Kesik kesik havlamak (köpek v.b), 2. Mec. söylemek, kaba saba konuşmak, zevzemek, hüre hüre it olmaq "Onunla bununla yüz göz olarak zevzek hâl almak" şeklindedir. (ATS, 2018, s.1468). Azaerbaycan Türkçesinde dikkati çeken biz fiil de urla- fiilidir. Bu fiilin ünlüsü kalındır ancak anlam olarak ince ünlülü fiilin anlamını taşımaktadır. Bu da bizim bu makalede ileri sürdüğümüz aslında ur- ve ür- fiillerinin ortak tek bir köke dayandığı anlam ayrımının sonradan oluştuğu görüşümüzü destekleyen bir kanıttır. **Urla-** fiili sözlükte "seslemek, koyunları suya sesleyerek indirmek" (ATS, 2018, s. 3411) anlamında geçmektedir. Karakalpak Türkçesinde **ür-** fiilinin iki anlamda kullanıldığı görülmektedir. **Ür-(1**):köpek ürümesi, havlamak; **ür- (II)** :Rüzgar esmek. (KKTS:633) Yine Karakalpak Türkçesinde bu kökten türemiş **ürgin** :karlı fırtına, bora, tipi ismini de bulmak mümkündür. (KKTS:633). Hakas Türkçesinde ür-"ürmek, havlamak" ***aday ürçe*** "Köpek havlıyor" (HKTS:558), ür- "esmek" uluğ nimes çil ürçe meltem esiyor (HKTS 558) anlamlarının yanında **ürdĭr-** "estirmek", havlatmak" (HKTS:558) biçimlerini de bulmak mümkündür. Burada dikkati çeken **üredĭgci** biçiminin ince ünlüyle yazılmış olması ve anlamının "yağmacı, çapulcu" olarak geçmesidir. Bu da aynı fiilin ince ünlülü /Ü/ biçimindeki ortaklığı göstermesi açısından değerlidir. (HKTS:558) Özbek Türkçesinde havlamak anlamında "hurmoq", havlatmak "hurdirmoq" (ÖTS:254) kullanılmaktadır. Bu lehçede de ünlünün kalın olması aslında bu iki kökün ortaklığının bir delili sayılabilir. Kazan Tatar Türkçesinde **hurla-** "Sövmek, birisine bağırıp çağırmak (KTS:194) anlamında kullanılır ve yine fiillin ünlüsü kalın ünlüdür. Başkurt Türkçesinde **ürhelen-** "kızmak, köpürmek, galeyana gelmek" anlamında bir fiilde yaşamaktadır. (BTS:674)

Türkçe ve Farsça yüzyıllarca yakın ilişki içerisinde bulunmuş iki dildir. Türkçeden Farsçaya ve Farsçadan Türkçeye çok sayıda sözcük ve yapı geçmiştir. Bunlar arasında Farsça "zeden" fiili tam bir kopyalama örneği olarak değerlendirilebilir. Demir, Lars Johanson'un dilde kod kopyalama teorisini açıkladığı makalesinde "kopyalanan unsurların, 'verici dil'e ait unsurların 'alıcı dil'e eklenmesinden çok, alıcı sisteminde benzerlerinin ortaya çıkmasına örnek oluşturması söz konusudur ve bu yüzden burada ödünçlemeden söz edilemez. Kopyalanan unsurlar alıcı dilin sistemine uymak için belli süreçlerden geçerler. Uyarlama süreci, verici dilde mevcut olmakla birlikte alıcı dilde gereksiz olan ses, biçim, sözdizimi gibi dilbilgisel özelliklerin atılması, buna karşılık alıcı dilde gerekli eklemelerin yapılması şeklinde ortaya çıkar. Sonuç olarak kopya, alındığı dilde kullanılabilir hale getirilmiş olur. Ortaya çıkan son biçim asıla yakın benzerlikten önemli değişmelere ve yaratıcı şekil değiştirmeye kadar uzanabilir. Böylece kopyalar, baskın bir dile ait olarak görülmekten de çıkarlar. Bu arada kopya, verici dilin sistemine değil, alıcı dilin sistemine ait olduğu için kopya ile orijinal arasında her zaman ufak tefek farkların var olduğu da kabul edilir". (Demir, 2003, s.40) açıklamasını yapar. Farsça "vurmak" anlamına gelen bu fiil, Türkçe "ur-" ve "ür-" fiillerinin yerine deyimlerde ve birleşik fiillerde kopyalanmıştır. Kendi sözlüksel anlamının eskiliği bu fiilin eski Türkçede ve Türk lehçelerinde yardımcı fiil olarak da kullanıldığını gösterir. Şcerbak da Eski Özbekçenin Farsçanın etkisine maruz kaldığını Farsça "zeden" fiilinin aynı anlama geldiği için "**gap zeden** (çene çalmak, konuşmak), **bark zeden** "parlamak", "**dem zeden** (konuşmak"), **nefes zeden** (nefes almak) örneklerinde olduğu gibi Özbekçedeki *laf ur,dem ur, gapir < gap ur-* fiilinin kopyalanma sonucu oluştuğu görüşündedir. (Şçerbak, 2016, s. 163) Şçerbak konuyla ilgili olarak baş ur- "baş eğmek, itaat etmek" fiilini Eski Özbekçe, Karakalpakça, Karaçay Balkar Türkçelerinde örneklendirirken fiilin ses taklidī sözcüklerle de büyük bir grup oluşturarak birleşik sözcükler yaptığını söyler. Bu yapılara örnek olarak da **cars cars ur-** "patırıyla vurmak" Özb. **aksa ur-** "aksırmak hapşırmak", **zeng ur-** "çalmak, çınlamak", Türkmence **gark ur-** "sertçe öksürmek", **hıng ur-** "böğürmek (köpek için), **hork hork ur-** "bağırmak (domuz için)", **kah kah ur-** "kahkaha atmak", **tarp tarp ur-**"yere vurmak" sözcüklerini verir. (Şçerbak, 2016, s. 163)

Farsça "zeden" fiilinin en çok kopyalandığı deyim **nefes urmak**'tır.

ġanīmet bil oş [kim] urursın nefes
çü ḳuş uça ne işe yarar ḳafes (Ferhengnāme-i Sadi: 925. beyit)

Şçerbak'ın doğru olarak tespit ettiği Farsçadan kopyalama konusuna farklı bir açıdan bakmak istiyoruz. Şöyle ki Eski Türkçe'de ünlü seslerin ayrımında gerek yazıtlarda gerek Arap alfabeli metinlerde tek işaret iki ünlüyü karşılayarak gösterdiği için Eski Türkçe **ur-** fiilinin yine Eski Türkçe bir fiil olan **ür-** fiiliyle karıştığını Farsça "zeden" fiilinin de bu karışıklığı ayırt etmeden kopyaladığını söylemek mümkündür.

Türkçenin eski ve köklü fillerinden olan ur- ve ür- fiilleri ve Tunguzcada her ikisi de kalın ünlülüdür. Bugün Türk lehçelerinin bazılarında da fiilin ince ünlülü biçimleri yerine kalın /U/ ünlülü biçimlerinin varlığı tespit edilebilmektedir. Dolayısıyla bu iki filin aslında köken olarak tek bir fiil olduğu anlam ayrımı ve ünlü incelmesinin sonraki dönemlerde gerçekleştiğini söylemek mümkündür. Arap alfabesiyle yazılmış metinlerde ünlü ayrımı tespit edilemediğinden fiillerin birçoğu ürmek yerine urmak olarak okunmuştur. Bu okumanın sebeplerinden biri de Farsça "zeden "vurmak" fiiliyle kurulan birleşik fiillerin Türkçeye aktarılırken "ur- veya vur-" olarak kopyalama yoluyla aktarıldığı görülmüştür. Aslında nefes, dem, yel gibi hava ve rüzgar ile oluşturulan birleşik fillerde bu yapıların nefes ür-, dem ür-, yel ür- şeklinde okunup transkribe edilmesi gerekirdi.

KAYNAKLAR

1. ALTAYLI, S. (2018). Azerbaycan Türkçesi Sözlüğü, Türk Dil Kurumu Yay.
2. ARAT, R.R. (1979). Kutadgu Bilig I Metin. Türk Dil Kurumu Yay.
3. ARAT, R.R. (1979). Kutadgu Bilig III İndeks. Türk Dil Kurumu Yay.
4. CAFEROĞLU, A. (2011). Eski Uygur Türkçesi Sözlüğü, Türk Dil Kurumu Yay. 2. Baskı
5. CLAUSON, G. (1972). An Etimological Dictionary of pre-Thirteenth Century Turkish. Oxford.
6. DEMİR, N. (2003). Popüler Dil Tartışmalarına Dil İlişkileri Açısından Bakış, Cumhuriyetimizin 80. Yılında Türkçemiz., Ankara, Türkiye, 08 Temmuz 2003, cilt.1, ss.37-44.
7. ERDAL, M. (1991), *Old Turkic Word Formation* I-II, A Functional Approach to the. Lexicon, Otto Harrassovvitz, Wiesbaden.
8. ERCİLASUN, A.B -AKKAOYUNLU, Z. (2014). Kaşgarlı Mahmud Dīvānu Lugāti't Türk Giriş, Metin-Çeviri, Notlar, Dizin. Türk Dil Kurumu Yay.
9. FERHENGNÂME-Yİ SA'DÎ TERCÜMESİ, Kitāb-ı ferheng-nāme ez güftār-ı Ḫoca Mes'ūd, Det Köngelige Bibliotek, Copenhagen/Denmark. Cod.Turc. 20.
10. GÜRSOY-NASKALİ, E.-BUTANAYEV, V.- İSİNA, A.- (2007). Hakasça-Türkçe Sözlük, Türk Dil Kurumu Yay.
11. NECİPOVİÇ, N.E. (1995). Yeni Uygur Türkçesi Sözlüğü (Çev. İklil Kurban), Türk Dil Kurumu Yay.
12. ÖNER, M (2025). Kazan-Tatar Türkçesi Sözlüğü, Türk Dil Kurumu Yay.
13. ÖZÖNDER BARUTÇU, S.(1998). Üç İtigsizler (Giriş-Metin- Tercüme-Notlar-İndeks), Türk Dil Kurumu Yay. Ankara
14. ÖZŞAHİN, M. (2023). Başkurt Türkçesi Sözlüğü, Türk Dil Kurumu Yay.
15. RADLOFF, W. (1893). Opıt Slovarya Tyurkskih Nareçiy I-IV. İmperatorskiy Akademi Nauk. St. Petersburg.
16. RÄSÄNEN, M. (1969*), Versuch Eines Etymologischen Wörterbuchs der Türksprachen,* Suomalais-Ugrilainen Seura. Helsinki.
17. STRATOSTİN, S.-DYBO, A.-MUDRAK, O. (2003). Etymological Dictionary of the Altaic Lanuages, Brill Yay. Leiden-Boston.
18. ŞÇERBAK, A.M (2016). Türk Dillerinin Karşılaştırmalı Şekil Bilgisi Üzerine Denemeler, (Çev. Y.Karasoy, N. Hacızade, M.Gülmez), Türk Dil Kurumu Yay.
19. TIETZE, A. (2016-2020). Tarihî ve Etimiolojik Türkiye Türkçesi Lugati. (10 Cilt). Türkiye Bilimler Akademisi: Ankara.
20. UYĞUR, C.V (2019). Karakalpak Türkçesi Sözlüğü, Türk Dil Kurumu Yay.
21. VAMBERY, H. (1878). *Etymologisches Wörterbuch der Turko-Tatarischen Sprachen*. Leipzig.
22. YUSUPOVA, N. (2023). Türkçe- Özbekçe Sözlük, Türk Dil Kurumu Yay.

KISALTMALAR
23. ATS Azerbaycan Türkçesi Sözlüğü
24. BTS Başkurt Türkçesi Sözlüğü
25. EDAL Etymological Dictionary of the Altaic Languages,
26. EDPT An Etimological Dictionary of pre-Thirteenth Century Turkish
27. EWTS *Versuch Eines Etymologischen Wörterbuchs der Türksprachen*
28. DLT Divanu Lugati't Türk
29. HKTS Hakasça- Türkçe Sözlük
30. KKTS Karakalpak Türkçesi Sözlüğü
31. KTS Kazan- Tatar Türkçesi Sözlüğü
32. OSTN Opıt Slovarya Tyurkskih Nareçiy I-IV
33. OTWF *Old Turkic Word Formation* I-II, A Functional Approach to the. Lexicon,
34. TÖS Türkçe-Özbekçe Sözlük
35. Mong.:Moğolca
36. Tung: Tunguzca
37. Jpn:Japonca
38. PTurc :Ön Türkçe
39. UTS Uygur Türkçesi Sözlüğü
40. Ü.İ. Üç İtigsizler (Giriş-Metin- Tercüme-Notlar-İndeks), Türk Dil Kurumu Yay. Ankara
41. VEWT *Versuch Eines Etymologischen Wörterbuchs der Türksprachen*
42. YUTS Yani Uygur Türkçesi Sözlüğü

CONFUSIONS IN THE VERBS UR-, ~ÜR- IN TURKIC LANGUAGES CAUSED BY PERSIAN COPYING INFLUENCE

Perhaps two of the oldest and most deeply rooted verbs in Turkish are the verbs ur- and ür-. An examination of these verbs in historical and contemporary Turkish dialects and works reveals similar forms in Proto-Altaic and Mongolian, and the fact that the vowel of the verb is based on a common sound, both thick and thin vowels. These verbs must have later undergone semantic differentiation and vowel changes. After the Turks adopted Islam, they had significant linguistic exchange with Persian. In Persian, the word for "to strike" is "zeden." Some idioms formed with this word have also been adopted into Turkish through a method called linguistic copying. In Old Turkic, the verbs ur-/ür-, which are divided into two separate layers of meaning, do not exhibit Turkish vowel distinctions in the Arabic alphabet. Therefore, the verb ür-, which actually means "to blow," "to inflate," "to have the wind blow," must have been read as ur- "to strike," "to beat" under the influence of Persian. From this, compound verbs such as nefes ur-, dem ur-, aksa ur- were formed. However, since the meanings of blowing, inflating, and making a sound are essential, the verb should have been formed as ür-. In this study, by attesting to the appearance of these two verbs in Turkic languages from Proto-Altaic onwards, it will be shown that these two verbs are actually based on a single root, and it will be proven that the verb that should be ür- in some compound words has been misread and spread as a common error due to the influence of Persian and the Arabic alphabet.

Key Words: *Ur- and Ur- verbs, Language copying, Semantic confusion*

Həcər HÜSEYNOVA*

I TÜRKOLOJİ QURULTAY BÖYÜK TARİXİ HADİSƏ KİMİ

XÜLASƏ

1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən I Türkoloji Qurultay yalnız türkologiya elmi üçün deyil, eyni zamanda türk dünyası üçün mühüm tarixi hadisə olmuşdur. Qurultay, müxtəlif türk respublikalarından, eləcə də SSRİ-dən və Avropadan olan görkəmli alimləri bir araya gətirmiş, ümumtürk

* ADPU, filologiya fakültəsi, Azərbaycan dilçiliyi kafedrası. Email: hacerhuseynova@mail.ru

mədəni irsinin elmi cəhətdən müzakirəsi və gələcək istiqamətlərinin müəyyənləşdirilməsində əsas rol oynamışdır.

Qurultayın əsas məqsədləri türkologiyanın aktual problemlərini birgə müzakirə etmək, ortaq əlifba, ortaq terminologiya, leksikoloji və fonetik məsələlərdə vahid yanaşma formalaşdırmaq idi. Qurultayda Bəkir Çobanzadə, Əhməd Baytursunlu, Yusif Akçura, Səməd Ağamalıoğlu, Hüseyn Cavid, Mahmud Kaşğari irsinin tədqiqatçıları kimi görkəmli şəxsiyyətlər çıxış etmişdir.

Əsas müzakirə mövzularından biri latın qrafikalı ortaq əlifbaya keçid idi. Bu məsələdə fikir ayrılıqları olsa da, nəticədə latın qrafikasına keçidlə bağlı ilkin razılıq əldə edilmişdir ki, bu da sonrakı illərdə vahid türk əlifbasının formalaşmasına zəmin yaratmışdır.

"I Türkoloji Qurultay tarixi hadisə kimi" adlı bu məqalədə 1926-cı ildə Bakıda keçirilmiş Qurultayın türkdilli xalqların elmi-mədəni birliyi, ortaq dil siyasəti və əlifba məsələlərinin müzakirəsi baxımından rolu təhlil olunur. Qurultayda çıxış edən tanınmış alimlərin fikirləri və aparılan debatlar əsasında türk xalqlarının ortaq elmi platformada birləşmək təşəbbüsü, ortaq əlifbaya keçidin əsaslandırılması və türkologiya sahəsində atılan addımlar əhatəli şəkildə izah edilir. Bu hadisə yalnız bir elmi toplantı deyil, həm də milli kimliyin və dil vəhdətinin tarixi mərhələsidir.

Açar sözlər*: Türkologiya, I Qurultay, əlifba islahatı, ortaq dil, türk mədəniyyəti*

XX əsrin əvvəlləri türk xalqlarının milli oyanışı, mədəni dirçəlişi və elmi əməkdaşlıq təşəbbüslərinin yüksəliş dövrü kimi xarakterizə olunur. Bu baxımdan, 1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilmiş I Türkoloji Qurultay türkdilli xalqların dil, mədəniyyət və elm sahəsində birgə gələcəyini müzakirə etdikləri ilk genişmiqyaslı beynəlxalq toplantı olmuşdur. Qurultay yalnız bir elmi hadisə deyil, həm də türk dünyasının mədəni-intelektual həmrəylik səviyyəsinin bariz nümunəsi idi [2.s.32].

İctimai-siyasi cəhətdən olduqca gərgin bir dövrdə belə bir qurultayın keçirilməsinin, türk xalqları nümayəndələərinin bir yerə toplanmasının əsas məqsədi, səbəbi nə idi?

Qurultayın keçirilməsinin tarixi zərurəti. Çar Rusiyası dönəmində türkdilli xalqların dili, mədəniyyəti və maarifi uzun müddət təzyiqlərə məruz qalmış, türkologiya isə, əsasən, Avropa mərkəzlərində, Rusiyada və Osmanlıda inkişaf etmişdi. 1917-ci il oktyabr inqilabından sonra SSRİ ərazisində yaşayan türklər üçün nisbi imkanlar yaransa da, bu imkanların uzunmüddətli və sistemli şəkildə reallaşması üçün vahid elmi platformalara ehtiyac vardı. Məhz bu ehtiyacdan səbəbindən I Türkoloji Qurultay təşkil olundu.

I Türkoloji Qurultayın keçirilməsinin məqsədləri: 1. Türkdilli xalqların dilinin ortaq istiqamətdə inkişaf etdirilməsi; 2. Əlifba islahatı və latın qrafikasına keçidin müzakirəsi; 3.Türk xalqları arasında elmi əlaqələrin qurulması və möhkəmləndirilməsi; 4.Ortaq terminoloji baza və linqvistik standartların yaradılması və s. məsələlər idi.

Qurultayda müxtəlif ölkə və bölgələrdən ,Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Tatarıstan, Krım, Sibir, Dağıstan və sair türk regionlarından 100-dən artıq alim və nümayəndə (131nəfər) iştirak etmişdir. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın Azərbaycan nümayəndələrini xatırlayaq. Stenoqramda 17 Azərbaycan nümayəndəsinin adı vardı. Vaxtında dünyasını dəyişmiş Səmədağa Ağamalıoğludan başqa, Azərbaycan nümayəndələrinin hamısı, istisnasız olaraq 37-ci ilin Stalin repressiyalarının qurbanı oldular. Bəziləri güllələndi, bəziləri sürgün edildi. Onların sırasında tanınmış türkologlar, dilçi alimlər, ziyalılar və maarifçilər var idi.

Bəkir Çobanzadə, Əhməd Baytursun, Səməd Ağamalıoğlu, Hüseyn Cavid kimi simalar bu qurultayın ideya daşıyıcıları olmuşlar [2.s.310].

Qurultayda əsas məsələlərdən biri latın qrafikasına keçid məsələsi idi. Bu keçid, bir tərəfdən elmin və maarifin inkişafı üçün vacib sayılırdı, digər tərəfdən isə türkdilli xalqlar arasında ortaq kommunikasiya platforması yaradacağı düşünülürdü. Müzakirələr nəticəsində latın əlifbası əsasında ortaq türk əlifbasının yaradılması qərara alındı [2.s.311].

Bu qurultay təkcə dilçilik sahəsində deyil, etnoqrafiya, folklor, ədəbiyyat və mədəni irsin tədqiqi baxımından da böyük əhəmiyyət daşıyırdı. Qurultay türkologiyanın yeni mərhələsini- milli əsaslı, lakin beynəlmiləl dəyərlərə əsaslanan yanaşma modelini ortaya qoydu. Elmlə ideologiyanın çarpazlaşdığı bu

dövrdə qurultay həm sovet rəhbərliyi tərəfindən nəzarət edilən, həm də ziyalılar tərəfindən inkişaf etdirilən ikili xarakter daşıyırdı [1.s.310].

Qurultaydan sonra bir sıra mühüm hadisələr baş verdi:

1) Bir sıra türkdilli respublikalarda latın qrafikalı əlifbaya keçid sürətləndi. 2)Türk dillərinin təsnifatı və elmi əsaslandırılması istiqamətində ilk sistemli yanaşmalar ortaya çıxdı. 3)Türkologiya sahəsində beynəlmiləl elmi əməkdaşlıq genişləndi.4)Bir çox türkoloq alimlər üçün bu qurultay elmi mövqelərinin gücləndirilməsi baxımından mühüm platforma oldu.

Lakin hər şey düşünüldüyü kimi deyildi. 1930-cu illərin repressiya siyasəti bu elmi yüksəlişin qarşısını aldı. Qurultayda iştirak edən bir çox alimlər, o cümlədən Bəkir Çobanzadə, Əhməd Baytursun, Hüseyn Cavid və başqaları repressiyaya məruz qaldılar, türkologiya isə ideoloji təzyiqlər altında inkişaf etməyə məcbur edildi. Lakin onların I Qurultayda qoyduqları elmi və milli əsaslar bu gün də müasir türkologiyanın bünövrəsini təşkil edir.

Tarixi I Türkoloji Qurultay yalnız bir elmi simpozium deyil, türkdilli xalqların ortaq gələcəyinə dair mühüm strateji sənəd kimi qiymətləndirilməlidir. Qurultayda səsləndirilən ideyalar, qəbul olunan qərarlar və elmi nəticələr türkologiyanın müstəqil elmi sistem kimi formalaşmasına və milli-mədəni identikliyin qorunmasına xidmət etmişdir.

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay XX əsr türk xalqlarının dil, mədəniyyət və elmi sahədə bir araya gəldiyi mühüm hadisə idi. Qurultayda müzakirə edilən məsələlərdən biri də ədəbi dilin formalaşdırılması və inkişafı məsələləri olmuşdur. Ədəbi dil anlayışı, onun standartlaşdırılması, leksik və qrammatik norma məsələləri bu istiqamətdə aparılan müzakirələrin əsasını təşkil edirdi.

Ədəbi dil xalqın mədəni, siyasi, elmi həyatını əhatə edən və ümumxalq ünsiyyət vasitəsi kimi qəbul edilən normalaşdırılmış dildir. Qurultay iştirakçıları üçün ortaq bir ədəbi dilin yaradılması, xüsusilə türk xalqları arasında anlaşmanın və birliyin təmin olunmasında əhəmiyyətli idi. Bu baxımdan, qurultayda həm ədəbi dilin milli xüsusiyyətləri, həm də ümumtürk dil birliyi məsələləri gündəmdə idi.

Qurultayın əsas məqsədlərindən biri türk xalqları arasında mədəni inteqrasiyanın gücləndirilməsi idi. Ədəbi dil bu inteqrasiyanın əsas alətlərindən biri sayılırdı. Bu məqsədlə dialektlərin ədəbi dilə təsiri, ümumtürk ədəbi dilinin formalaşmasında regional xüsusiyyətlərin nəzərə alınması müzakirə olunurdu.

I Türkoloji Qurultayda ədəbi dil məsələlərinin geniş şəkildə müzakirəsi, türk xalqları arasında dil və mədəni birliyə yönəlmiş bir ideoloji və elmi yanaşmanın təzahürü idi. Qurultayın qərarları sonrakı illərdə ədəbi dillərin formalaşmasında mühüm rol oynamış, ortaq türkologiya elminin əsasını qoymuşdur.

Qurultayda iştirak edən alimlərdən Bəkir Çobanzadə, Əhməd Baytursun, Hüseyn Cavid, Səməd Ağamalıoğlu və başqaları ədəbi dilin sadələşdirilməsi, xalq dili ilə əlaqəsinin gücləndirilməsi, ərəb-fars mənşəli sözlərin təmizlənməsi və milli leksikanın zənginləşdirilməsi mövzusunda çıxışlar etmişlər [3.s. 18].

Bəkir Çobanzadə ədəbi dilin xalq dili ilə vəhdətini vacib sayaraq, ədəbi dilin süni şəkildə yaradılmasına qarşı çıxırdı. O, türk xalqlarının dilində mövcud olan oxşar strukturlar və ümumi leksik baza əsasında bir ortaq ədəbi dilin inkişaf etdirilməsinin mümkünlüyünü əsaslandırırdı. Çobanzadənin fikrincə, ədəbi dilin əsasını xalq danışıq dili və folklor təşkil etməlidir.

Ədəbi dilin formalaşmasında yazı dilinin də rolu xüsusi vurğulanırdı. Qurultayda orfoqrafik məsələlər, leksik normalaşma, ümumi terminoloji sistemin yaradılması məsələləri müzakirə olunmuşdur. Bu istiqamətdə ən vacib məsələ ərəb əlifbasından imtina və latın qrafikasına keçid idi ki, bu da ədəbi dilin ortaqlaşmasına təkan verəcəkdi.

Ədəbi dil bir xalqın mədəniyyətinin, milli varlığının, düşüncə tərzinin və tarixi inkişafının dil müstəvisində ifadəsidir. Ədəbi dilin vəhdəti dedikdə, onun norma və qaydalarının bütövlüyü, cəmiyyətin bütün təbəqələri tərəfindən eyni formada qəbul edilməsi və istifadə olunması nəzərdə tutulur. Milli identiklik isə xalqın özünü bir millət kimi dərk etməsi, dil, tarix, mədəniyyət və mənəvi dəyərlər əsasında formalaşan ortaq kimliyidir.

Hər bir xalqın milli varlığı onun dilində əks olunur. Ədəbi dil bu baxımdan yalnız ünsiyyət vasitəsi deyil, həm də milli yaddaşın, ənənələrin, dünyagörüşün daşıyıcısıdır. Türk xalqlarının ədəbi dilləri də əsrlər boyu onların milli-mədəni varlığını qoruyub saxlamış və inkişaf etdirmişdir. Ədəbi dilin formalaşması və inkişafı xalqın tarixi, mədəni, ictimai və siyasi inkişafı ilə sıx bağlıdır.

Ədəbi dilin vəhdəti, müxtəlif bölgələrdə danışılan dialekt və şivələrin, regional nitq formalarının yerini ümummilli normativ dilə verməsidir. Bu vəhdət:

- yazı və şifahi formaların birliyində,
- qrammatik və leksik qaydaların standartlaşmasında,
- tədris, media və rəsmi qurumlarda eyni dildə ünsiyyətdə özünü göstərir.

Ədəbi dil və milli identiklik arasında əlaqə. Milli identikliyin qorunmasında dilin rolu danılmazdır. Bu, xüsusilə qloballaşma şəraitində daha da aktuallaşır. Ədəbi dil:

- milli kimliyin simvoludur;
- xalqın ortaq şüurunun formalaşmasında mühüm vasitədir;
- mədəni irsin ötürülməsi və yaşadılmasında əsas amildir.

Bu baxımdan ədəbi dilin qorunması və inkişafı milli identikliyin qorunması deməkdir.

Ortaq ədəbi dil və türklük ideyası. Xüsusilə I Türkoloji Qurultayda ortaq ədəbi dil ideyası dil və milli birlik baxımından mühüm mərhələ idi. Bəkir Çobanzadə kimi alimlər ortaq türkcənin formalaşdırılmasının türklərin milli özünüdərkinə və mədəni birliyinə töhfə verəcəyini vurğulayırdılar. Bəkir Çobanzadənin 1926-cı ildə nəşr olunmuş "***Türk xalqlarında dil və ədəbi dil məsələləri***" adlı əsəri, türk xalqlarının dil quruluşu, ədəbi dilin yaradılması və milli dilin inkişafı haqqında əsaslı fikir mübadiləsi aparan, türkologiya üçün mühüm bir monoqrafiyadır; əsərdə Çobanzadə müasir türk dillərindəki əlifba, tələffüz və ümumtürk dil standartlarının formalaşdırılması məsələlərini qaldıraraq, bu sahədə dərin təhlillər aparmışdır [12.s.72].

Eyni etnik kökə və dil ailəsinə mənsub olan xalqlar arasında ortaq terminologiyanın, fonetik və leksik sistemin yaradılması bu birliyin təməlini təşkil edir.

Ədəbi dilin pozulması milli identiklik üçün təhlükə yaradan məsələdir. Dil vəhdətinin pozulması, normativ dil qaydalarının pozulması, əcnəbi sözlərin lüzumsuz şəkildə artması, dialekt və şivələrin yazılı ünsiyyətdə yayılması ədəbi dilin sabitliyini, dolayısıyla milli identikliyi təhlükə altına sala bilər (6.s.200). Bu səbəbdən dil siyasəti, maarifçilik və KİV-lərin üzərinə böyük məsuliyyət düşür.

Ədəbi dilin vəhdəti, yalnız dilçilik məsələsi deyil, həm də milli-mənəvi bütövlük məsələsidir. Ədəbi dilin qorunması, zənginləşdirilməsi və inkişaf etdirilməsi xalqın milli identikliyinin davamlılığının təminatıdır. Bu istiqamətdə elm, təhsil, mətbuat və ictimai institutlar sıx əməkdaşlıq etməli, dilə ideoloji deyil, milli sərvət kimi yanaşmalıdır.

İSTINADLAR

1. Allahmanlı M.Bəkir Çobanzadə. Bakı.2022. 447 səh.
2.Babayev A. Bəkir Çobanzadə. Bakı. Şərq-Qərb.1998. 312 səh.
3.Baytursun, Ə. (1926). Qurultay çıxışları. Türkologiya Arxivi.
4. Çobanzadə, B. (1926). Türk xalqları arasında ədəbi dil məsələləri. Bakı: I Türkoloji Qurultay materialları.
5. İsmayılov, M. (2006). Ədəbi dilin normaları və problemləri. Bakı: ADPU nəşriyyatı. 280 s.
6. Kazımov İ. (2019). "Folklorda milli kimlik və bəşəri genişlik". Ədəbiyyat və ncəsənət. Milli kimlik və mənəvi zənginlik. Bakı: Elm və Təhsil. 303 s.
7. İsmayılov, M. "Dil və mədəniyyət inteqrasiyası", Bakı, 2019. 198 s.
8. Qasımov Ə.Y. Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi və təsiri xüsusiyyətləri. Bakı Universitetinin xəbərləri-N2. Bakı. 2011.s.121-126
9. Mahmudov, N. (2014). Türkoloji Qurultaylar və milli oyanış. Bakı: Elm və Təhsil.
10. Məmmədova E. (2019).Türkoloji qurultay və dil məsələləri. Elmi iş. N10/49.Bakı.Səh.31-34.
11. Sultanov, H. (2010). Türkoloji görüşlər və Çobanzadə. Bakı: Nurlan.
12. Zeynalov, Q. (2011). Bəkir Çobanzadə və türkoloji irs. Bakı: Şərq-Qərb.

Проф. Хаджар Эмин Гусейнова
Азербайджан, Баку, АГПУ, филология,
кафедра азербайджанского языкознания

ПЕРВЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ КОНГРЕСС КАК ИСТОРИЧЕСКОЕ СОБЫТИЕ

КРАТКОЕ СОДЕРЖАНИЕ

Первый тюркологический конгресс, проходивший в Баку с 26 февраля по 6 марта 1926 года, стал важным историческим событием не только для тюркологии, но и для всего тюркского мира. Конгресс собрал видных ученых из различных тюркских республик, а также СССР и Европы и

сыграл ключевую роль в научном обсуждении пантюркского культурного наследия и определении его будущих направлений.

Главными целями конгресса были совместное обсуждение актуальных проблем тюркологии, формирование общего алфавита, общей терминологии, единого подхода к лексикологическим и фонетическим вопросам. В конгрессе принимали участие такие видные деятели, как Бекир Чобанзаде, Ахмед Байтурсунлу, Юсиф Акчура, Самад Агамалиоглу, Хусейн Джавид, а также исследователи наследия Махмуда Кашгари.

Одной из главных тем обсуждения был переход к единому алфавиту с латинской графикой. Несмотря на разногласия по этому вопросу, в итоге было достигнуто первоначальное соглашение о переходе к латинской графике, что заложило основу для формирования единого тюркского алфавита в последующие годы.

Данная статья, озаглавленная «Первый тюркологический конгресс как историческое событие», анализирует роль конгресса, состоявшегося в Баку в 1926 году, в контексте научного и культурного единства тюркоязычных народов, общей языковой политики и обсуждения алфавитных вопросов. На основе мнений известных ученых, выступавших на конгрессе, и проведенных дебатов всесторонне объясняются инициатива тюркских народов по объединению на общей научной платформе, обоснование перехода к единому алфавиту и шаги, предпринятые в области тюркологии. Это событие является не только научной встречей, но и историческим этапом формирования национальной идентичности и языкового единства.

Ключевые слова: *тюркология, первый конгресс, алфавитная реформа, общий язык, тюркская культура*

Hajar Huseynova
Doctor of Philology, Professor.
Azerbaijan State Pedagogical University,
hacerhuseynova@mail.ru

THE FIRST TURKOLOGICAL CONGRESS AS A HISTORICAL EVENT

SUMMARY

The First Turkological Congress, held in Baku from February 26 to March 6, 1926, was an important historical event not only for the science of Turkology, but also for the Turkic world. The Congress brought together prominent scientists from various Turkic republics, as well as the USSR and Europe, and played a key role in the scientific discussion of the pan-Turkic cultural heritage and determining its future directions.

The main goals of the Congress were to jointly discuss the current problems of Turkology, to form a common alphabet, common terminology, a unified approach to lexicological and phonetic issues. The Congress was attended by prominent figures such as Bekir Chobanzadeh, Ahmed Baytursunlu, Yusif Akchura, Samad Aghamalioglu, Huseyn Javid, and researchers of the heritage of Mahmud Kashgari.

One of the main topics of discussion was the transition to a common alphabet with Latin script. Although there were differences of opinion on this issue, in the end, an initial agreement was reached on the transition to Latin script, which laid the foundation for the formation of a single Turkic alphabet in subsequent years.

This article, titled “The First Turkological Congress as a Historical Event,” analyzes the role of the Congress held in Baku in 1926 in terms of the scientific and cultural unity of Turkic-speaking peoples, common language policy, and discussion of alphabet issues. Based on the opinions of well-known scientists who spoke at the Congress and the debates held, the initiative of the Turkic peoples to unite on a common scientific platform, the justification for the transition to a common alphabet, and the steps taken in the field of Turkology are comprehensively explained. This event is not only a scientific meeting, but also a historical stage of national identity and linguistic unity.

Keywords: *Turkology, First Congress, alphabet reform, common language, Turkish culture*

Zülfiyyə QULİYEVA*

AŞIQ YARADICILIĞINDA MİFONİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Asıq yaradıcılığı Azərbaycan xalqının mifoloji dünyagörüşünü əks etdirən zəngin söz xəzinəsinə malikdir. Məqalədə aşıq yaradıcılığında mifonimlərin leksik və semantik xüsusiyyətləri öyrənilir. Tədqiqat göstərir ki, mifonimlər aşıq poeziyasında obrazlı təsvirlərin yaradılmasında və xalqın mədəni dəyərlərinin əks olunmasında mühüm rol oynayır. Bu onomastik vahid müxtəlif üslubi-poetik məqamlarda işlədilmişdir və linqvistik təhlillər üçün zəngin material verir.

Açar sözlər: Azərbaycan folkloru, aşıq yaradıcılığı, onomastik vahid, mifonim, kosmonim, leksik-semantik xüsusiyyətlər

Türk xalqlarında ozan sənətinin kökləri çox qədimlərə getsə də, Azərbaycan folklorunda xüsusi bir mərhələ təşkil edən aşıq yaradıcılığı əsasən XVI əsrdə təşəkkül tapmış və sonrakı yüzilliklərdə inkişaf edə-edə öz ənənələrini bu günə qədər qoruyub saxlamışdır. Asıq yaradıcılığı Azərbaycan xalqının mifoloji dünyagörüşünü əks etdirən zəngin söz xəzinəsinə malikdir. Bu yaradıcılıqda mifonimlər həm poetik ifadə vasitəsi, həm də ideya daşıyıcısı kimi çıxış edir. Onlar xalqın qədim inanclarını, xeyir-şər qarşıdurmasını və mənəvi dəyərlərini bədii formada yaşadır. Mifonimlərin leksik-semantik xüsusiyyətlərinin araşdırılması aşıq poeziyasının məna qatlarını daha dərindən anlamağa imkan verir.

Biz araşdırmamızda ancaq XVI-XIX yüzilliklərin Azərbaycan aşıq ədəbiyyatına mənsub olan nümayəndələrinin əsərləri ilə kifayətlənirik.

Mifonimlərin leksik-semantik təsnifatını verərkən onları hələlik 2 yerə bölərək, aşağıdakı qruplaşmanı məqsədəuyğun hesab etmişik:

a) Dini dünyagörüşü ilə bağlı olan mifonimlər;

b) Kosmik obyektlərlə bağlı olan mifonimlər.

a) Dini dünyagörüşü ilə bağlı olan mifonimlər

Orta əsrlər Azərbaycan aşıq yaradıcılığı əsas etibarilə sufizmlə bağlı olduğundan, buradakı mifonimlərin arasında dini dünyagörüşündən gələn örnəklərin sayı da kifayət qədər çoxdur. Bunların sırasında istər sırf dini-mifoloji, istərsə də tarixi-əfsanəvi realilərə sıx-sıx təsadüf etmək olur. Məsələn, *Allah* və onun bir çox adları, peyğəmbərlərin, müqəddəs şəxsiyyətlərin adları, *huri, mələk, şeytan, iblis, cənnət, behişt, abi-kövsər, məhşər günü, cənnəti-rizvan, qılman, qiyamət günü, Əzrail, suri-İsrafil, Cəbrayıl, Nuh, Xızır, Mehdi, axır zaman, Sirat körpüsü, inkir-minkir, behişt meyvəsi, əcəl quşu, Adəm Musa, Süleyman, fələk* və s. kimi sırf islam dini ilə bağlı mifonimlər Azərbaycan aşıqlarının yaradıcılığında çox geniş yayılmışdır.

S.Abdullayevanın monoqrafiyasında dini mənşəli mifonimlərdən yalnız "Peyğəmbər və əfsanəvi şəxsiyyət adları" göstərilmişdir [1, 69].

Təbii ki, aşıq yaradıcılığında dini mifonimlərdən danışarkən kainatın yaradıcısı yada düşməlidir. İslam mifologiyasında 1001 adı olduğu və bunlardan da 99-nun gözəl ad kimi qeyd edildiyi Allahı Azərbaycan aşıqları müxtəlif adlarla vəsf etmişlər.

Qapına gəlmişəm, sayılam, sayıl,
Haqq verən paylara olmuşam qayıl (Qurbani) [3, 2].

Qurbanidi mənim adım,
Mövlamdan aldım muradım (Qurbani) [3, 22].

Hər gecə vayğamda görürəm səni,
Sən ***Allah***, sən ***Tanrı,*** sən də gör məni (Qurbani) [3, 39].
Bu dünya dediyin bir boş ələkdi,
Haqqın min bir adı onda gərəkdi (Qurbani) [3, 43].

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru.Email: zulfiya.quliyeva.1970@mail.ru.

Qadir Allah, səndən budu diləyim,
Pənahdarım, imdad eylə bu işə (Qurbani) [3, 45].

Yeri-göyü ***Yaradandan*** diləndim,
Göhəri axtardım, kana yetişdim (Qurbani) [3, 47].

Allahın başqa adlarına digər aşıqların yaradıcılığında tez-tez təsadüf etmək olur:

Ağlayıb yalvardım ***Pərvərdigara,***
Dərdimin nə həddi, nə hesabı var (Sarı Aşıq) [3, 91].

Nə xoş çəkib səni ***Nəqqaşi-əzəl,***
Qəza şövkətinə vermisən xələl (Sarı Aşıq) [3, 91].

Yaradan yaradıb salmış cahana,
Yoxdu sənin kimi gözəl, göz ala (Aşıq Abbas) [3, 65].
Qadir Mövlam, budur səndən diləyim,
Görüm yarın ömrü yetsin yüz ilə (Aşıq Abbas) [3, 66].

Ay ağalar, nakam getdim dünyadan,
Yarəb, mənim xanımanım necola? (Xəstə Qasım) [3, 99]

XIX yüzildə yaşamış görkəmli el sənətkarı Aşıq Pəri öz qoşmalarında Allah mənasında "Dadrəs" (Dada çatan, köməyə yetişən) və "Xaliq" (Xəlq edən, Yaradan) mifonimlərini də işlətmişdir:

Mən fağırı bağlamısız arada,
Dadrəsim bunca yetişsin dada (Aşıq Pəri) [3, 225].

Xaliq özü bu imdada yetirsin,
Hifzində saxlasın zavalın sənin (Aşıq Pəri) [3, 228].

XIX əsr el şairi Məhəmməd bəy Aşiq isə eyni mənada "Ustadi-əzəl" (Başlanğıcın ustadı) mifonimindən istifadə etmişdir:

Xoş yaradıb səni ***Ustadi-əzəl,***
Hüsnü vəcahətdə yektayi-bədəl (Məhəmməd bəy Aşiq) [3, 252].

Aşıq Alı isə "Gedirəm" qoşmasında "Sübhan" variantını seçmişdir:

Bir dilək dilədim ***Şahlar şahından,***
Sığınmışam o ***Sübhana*** gedirəm (Aşıq Alı) [2, 289].

Aşıq Ələsgər Allahın 99 adından olan "Cabbar" və "Cəlil" adlarını birləşdirmişdir:

Sürahi gərdənli, qəddi mötədil,
Səni gül yaradıb ***Cabbari-Cəlil*** (Aşıq Ələsgər) [4, 11].

Aşıq yaradıcılığında işlənmiş dini mənşəyə malik olan mifonimlərdən bir qrupu da, əsasən islamın müqəddəs kitabı "Quran"da adı keçən peyğəmbərlərlə və onların ətrafında baş vermiş hadisələrlə, eləcə də

başqa mifik şəxslərlə bağlıdır. Bunların sırasında *Məhəmməd peyğəmbər, Adəm, Süleyman, Nuh* və b. adlarını çəkmək olar.

Aşıq Alının yuxarıda nəzərdən keçirdiyimiz bir qoşmasında İslam Peyğəmbərinin adı Əhmədi-Muxtar formasında verilmişdir:

Pirim Şahi-Mərdan, Heydəri-Kərrar,
Dadıma yetişsin ***Əhmədi-Muxtar*** (Aşıq Alı) [2, 36].

Xəstə Qasımın məşhur "Dünya" gəraylısında da dünyanın qədimliyini ifadə etmək üçün Süleyman peyğəmbərin adından mifonim mövqeyində istifadə edilmişdir:

Gəl bir səndən xəbər alım,
***Süleyman*dan** qalan dünya (Xəstə Qasım) [3, 94].

"İnsan" rədifli qoşmasında isə aşıq Nuh peyğəmbərin adını çəkmişdir:

Dünya dediyin bir fanidir, fani,
Əzəl ***Nuh*** gəlmişdi, görünmür, hanı? (Xəstə Qasım) [3, 112]

İslam mifologiyasına görə, ilk insan və ilk peyğəmbər sayılan Adəmin də adı aşıq yaradıcılığında mifonim mövqeyində işlənmişdir:

Aləm bilir, ***Adəm ata*** zatıyam,
Göyü bilməm, yerin yeddi qatıyam (Aşıq Abbas) [3, 76].

.

İslam mifologiyasında qadın gözəlliyinin simvolu olan *huri, pəri, mələk* və s. aşıq yaradıcılığında da dini mifonimlər kimi işlənmişdir. Maraqlıdır ki, dini mifologiyada kişi cinsinə mənsub olan *qılman* mifonimi də aşıq yaradıcılığında əsas etibarilə qadın gözəlliyinin tərənnümü üçün çox vaxt *huri* mifonimi ilə qoşa işlədilir:

Gözəllikdə bərabəri tapılmaz,
Mahruluqda ***huri*** nədi, ***pəri*** nə? (Qurbani) [3, 27]

Göydən ***huri mələk*** ensə,
Onun kimi ***qılman*** olmaz (Aşıq Abbas) [3, 56].

Aşıq yaradıcılığında konkret adları olan mələklərə də tez-tez müraciət edildiyini görmək mümkündür. Xüsusən ustadnamələr və vücudnamələrdə müxtəlif poetik situasiyaların təqdimi üçün ölüm mələyi olan Əzrayılın, qiyamət mələyi kimi tanınan İsrafilin, peyğəmbərlə Tanrı arasında vasitəçi olan Cəbrayılın və insana səcdə etmədiyinə görə lənətlənmiş və Tanrı dərgahından qovulmuş mələyin – İblisin (bəzən Şeytan) adı çəkilir. Meşkinli Məhəmmədin "Cəng" adlı hərbə-zorbasından iki misra:

Əzrayıl zəhmimdən çəkməz nəfəsin,
Suri-***İsrafil*in** batırram səsin (Meşkinli Məhəmməd) [3, 199].

Dollu Mustafanın sual-cavabında Cəbrayılla Əzrayılın adları çəkilmişdir:

Qaf dağıdı, heç əritməz qarını,
Yemək olmaz qoynun içi narını.
***Cəbrayıl*dı**, tapmaz xiridarını,
***Əzrayıl*dı**, heç eyləməz bazar hey! (Dollu Mustafa) [3, 364]

Dini mifonimlərin bir qrupu da İslam mifologiyasından gələn *Sirat körpüsü, Tuba (Sidrə) ağacı, Kövsər suyu, Səlsəbil çayı (hər ikisi behiştdə axan mifik bulaqlardır), Cənnət, Rizvan, İnkir-Minkir, Qiyamət günü, Aləmi-qeyb, Ərş, Fələk* (müxtəlif bədii təyinləri ilə) və başqa xüsusi isimlərlə bağlıdır ki, bunlardan da Azərbaycan aşıqlarının poetik yaradıcılığında geniş istifadə olunmuşdur. Bir neçə örnəklə kifayətlənmək istərdik:

Sənə bir ərzim var, mələklər tayı,
Ləblərin şərabı – ***Səlsəbil çayı*** (Aşıq Nəcəf) [4, 361].

Böyük Gözəldərə ***Behiştin bağı,***
Dürlü deyilən ***Abi-Kövsər bulağı*** (Şair Vəli) [4, 239].

İ.Məmmədli yazır: "Mifoloji və dini sözlərin tədqiqi göstərdi ki, Azərbaycan dilinin lüğət tərkibində bu qədim leksik təbəqə əhəmiyyətli yer tutur və ana dilimizin milli sözlərinin mövqeyi burada daha qabarıq nəzərə çarpır" [5, 253].

b) Kosmik obyektlər ilə bağlı olan mifonimlər

Kosmik obyektlərlə bağlı olan onomastik vahidlər mifologiyada çox mühüm yer tutur. *Gün, Ay, Zöhrə, Sürəyya* və s. kimi kosmonimlər aşıq yaradıcılığında da öz əksini tapmışdır. Şərq astrologiyasında çox işlənən ulduz bürclərindən biri olan Sürəyya həm də ucalıq, əzəmət, əlçatmazlıq simvolu kimi Sarı Aşığın "Yetişdi" qoşmasında istifadə edilmişdir:

Aşiqi-sadiqin sən pənahısan,
Səadətin ***Sürəyya*ya** yetişdi (Sarı Aşıq) [3, 89].

Digər qoşmasında sevgilinin gözəlliyi Günəş və Ayla müqayisə edilir:
Şəmsü Qəmər kimi görkəz üzünü,
Gün təki aləmə yayıl, a Yaxşı! (Sarı Aşıq) [3, 89]

Beləliklə, Azərbaycan aşıq yaradıcılığında mifonimlərin geniş qalereyasına rast gəlmək mümkündür. Onlar müxtəlif üslubi-poetik məqamlarda işlədilmişdir və linqvistik təhlillər üçün zəngin material verir. Tədqiqat göstərir ki, mifonimlər aşıq poeziyasının obrazlı ifadələrinin yaradılmasında və folklor-mədəni dəyərlərin əks olunmasında mühüm rol oynayır.

ƏDƏBİYYAT:

1. Abdullayeva S. Azərbaycan nağıl və dastanlarının dili. Bakı: "Elm", 1998, 232 s.
2. Aşıq Alı. Şeirlər. Bakı: "Azərnəşr", 1975, 61 s.
3. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə. C. 1. Bakı: "Elm", 1983, 374 s.
4. Azərbaycan aşıqları və el şairləri. 2 cilddə. C. 2. Bakı: "Elm", 1984, 544 s.
5. Məmmədov İ. Azərbaycan dilinin etnoqrafik leksikası. "Elm", 2008, 292 s.

ЗУЛЬФИЯ КУЛИЕВА

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ МИФОНИМОВ В ТВОРЧЕСТВЕ АШУГОВ

РЕЗЮМЕ

Творчество ашугов обладает богатым словарём, отражающим мифологическое мировоззрение азербайджанского народа. В статье изучаются лексические и семантические особенности мифонимов в творчестве ашугов. Исследование показывает, что мифонимы играют важную роль в создании образных форм в поэзии ашугов и в отражении культурных ценностей народа. Эта ономастическая единица использовалась в различных стилистических и поэтических моментах и предоставляет богатый материал для лингвистического анализа.

Ключевые слова: *азербайджанский фольклор, ашугское творчество, ономастическая единица, мифоним, космоним, лексико-семантические особенности*

ZULFIYA GULIYEVA

LEXİCAL AND SEMANTİC FEATURES OF MYTHONYMS İN THE WORKS OF ASHUGHS

SUMMARY

Ashiq poetry possesses a rich vocabulary, reflecting the mythological worldview of the Azerbaijani people. This article examines the lexical and semantic features of mythonyms in ashugh poetry. The study demonstrates that mythonyms play an important role in creating figurative forms in ashugh poetry and in reflecting the people's cultural values. This onomastic unit was used in various stylistic and poetic contexts and provides rich material for linguistic analysis.

Key words: *Azerbaijani folklore, ashug creativity, onomastic unit, mythonym, cosmonym, lexical and semantic features*

Gültəkin ƏLİYEVA*

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ PREDİKATİV NÜVƏNİN QURULUŞUNA ƏSASLANAN CÜTTƏRKİBLİ CÜMLƏLƏRİN TİPOLOGİYASI

XÜLASƏ

Predikativ nüvənin quruluşuna əsaslanan cüttərkibli cümlələrin Azərbaycan və rus dillərində aparılan təhlili göstərir ki, bu dillər arasında sintaktik araşdırma baxımından prinsipial oxşarlıq mövcuddur, lakin bununla yanaşı müəyyən tipoloji və funksional fərqlər də müşahidə olunur. Cüttərkibli cümlənin mərkəzi elementi mübtəda və xəbərdən ibarət olan predikativ nüvədir; məhz bu nüvə cümlənin qrammatik bütövlüyünü və semantik tamamlığını təmin edir. Məqalədə müəyyən edilmişdir ki, hər iki dildə mübtəda yüksək qrammatik müstəqilliyə malik olub predmet-məntiqi məzmunun daşıyıcısı kimi çıxış edir, xəbər isə cümlənin mütləq tərkib hissəsi olmaqla predikativliyi reallaşdırır və fikrin gerçəkliklə münasibətini ifadə edir. Xəbərin mübtədadan formal asılılığına baxmayaraq, cümlədə zaman, şəxs, modal və qiymətləndirici mənaların aktuallaşdırılmasında həlledici rol məhz xəbərə məxsusdur. Burada "xəbər", "predikat" və "feil" anlayışlarının fərqləndirilməsinə xüsusi diqqət yetirilmişdir ki, bu da müasir sintaktik təhlil baxımından prinsipial əhəmiyyət daşıyır. Müqayisəli təhlil Azərbaycan və rus dillərində mübtəda və xəbərin ifadə vasitələrinin oxşarlığını, o cümlədən substantivləşmənin, məsdər və feili sifət tərkiblərinin, eləcə də ismi və feili xəbərlərin fəal işlənməsini üzə çıxarmışdır. Bununla yanaşı, predikativ münasibətlərin formal ifadə səviyyəsində, uzlaşma xüsusiyyətlərində və morfoloji göstəricilərin rolunda fərqlər müşahidə olunur ki, bu da aqqlütinativ və flektiv dillərin tipoloji xüsusiyyətləri ilə izah edilir.

Açar sözləri: *Predikativ, cüttərkibli, baş üzvlər, mübtəda, xəbər*

Cümlənin baş üzvləri cümlənin digər üzvləri ilə məna və qrammatik cəhətdən bağlı olub, bir sintaktik suala cavab verən söz və ya söz birləşməsinə cümlə üzvü deyilir. Azərbaycan dilindəki bəzi cümlə növləri (söz-cümlələr, vokativ cümlələr və s.) nəzərə alınmazsa, bizim bütün cümlələrimiz asanlıqla tərkib hissələrə ayrılır və üzvlənir. Lakin tarixən cümlə üzvlərini müəyyənləşdirmək işi çətin olmuş, müxtəlif alimlər cümlə üzvlərinə müxtəlif ölçü ilə, müxtəlif meyarla yanaşmışlar. Məsələn, Avropa alimlərindən Paul və Şleyxer məntiqi vurğu hansı üzvün üzərinə düşərsə, onu da baş üzv kimi götürməyi məsləhət görmüşlər. Tarixən bizim dilçiliyimizdə də cümlə üzvlərinə bu cür müxtəlif yanaşma halları olmuşdur. Məsələn, XIX əsrin ortalarında prof. M.Kazım bəy mübtəda və xəbərlə bərabər, tamamlığı da baş üzv hesab edirdi. Ə.Vəzirov zərfliyi cümlə üzvləri sırasına daxil etmirdi. Məhəmməd Əfşar nitq hissələri ilə cümlə üzvlərini qarışdırırdı. 1947-ci ildə Ə.Dəmirçizadə cümlə üzvlərinin yeni təsnifini vermiş, yalnız xəbəri baş üzv hesab etmiş, mübtədanı aydınlaşdıran, konkretləşdirən üzv adlandırmışdır. Ə.Dəmirçizadə də Ə.Vəzirov kimi, zərfliyi cümlə üzvü hesab etmir, onun yükünü tamamlıq və təyin arasında paylayırdı. Ümumiyyətlə, Ə.Dəmirçizadə

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Filologiya üzrə fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi, Email: rgultekin.aliyeva@mail.ru

cümlə üzvlərini iki qrupa ayırırdı: əsas üzvlər, əlavə üzvlər [Abdullayev: 1992, s.68]. O, əlavə üzvlər dedikdə ara sözləri, xitabları, bağlayıcı və nidaları nəzərdə tuturdu. Bütün bu münasibətlərə baxmayaraq, hazırda cümlə üzvləri iki qrupa ayrılır: baş üzvlər, ikinci dərəcəli üzvlər.

Sözün, söz birləşməsinin cümlə üzvü olması üçün onun cümlənin digər üzvləri ilə yanaşma, idarə, uzlaşma əlaqələrindən biri ilə əlaqələnməsi vacibdir. Lakin cümlədə elə sözlər və birləşmələr olur ki, onlar cümlənin üzvləri ilə belə əlaqədə ola bilmir. Məsələn, *Həqiqətən, müəllim cismani ağa, ruhani atadır*. (N.Tusi) *Ну, хорошо, хорошо, – продолжал он, не глядя на мужиков, – я прикажу – хорошо, ступайте. -Ну, да ведь сказал вам...хорошо.*

Sözün, söz birləşməsinin cümlə üzvü olması üçün onların sintaktik suala cavab verməsi də vacibdir. Lakin sintaktik sualla morfoloji sualı eyniləşdirmək olmaz. Nitq hissələri təbiətən təhkim olunduğu sintaktik vəzifədə işləndikdə onların morfoloji və sintaktik sualları uyğun gəlir. *Müəllim uşaqlara evi göstərdi. – Воспитатель показал детям дом.* – cümləsində *Müəllim – Воспитатель*- mübtəda, *uşaqlara, evi – детям, дом* isimləri isə tamamlıq vəzifəsindədir. Ona görə də bu sözlərin morfoloji və sintaktik sualları eynidir. Lakin nitq hissəsi təhkim olunduğu vəzifədə deyil, başqa vəzifədə işləndikdə onun morfoloji və sintaktik sualları fərqlənir. *Palçıq küçələrdə heç kim görünmürdü. – На грязных улицах никого не было видно*. –cümləsində isə nə? sualına cavab verən *Palçıq – На грязных (грязь)* isminin cümlədəki sintaktik sualı necə? olacaqdır: *Necə küçələr?- palçıq küçələr. – грязные улицы*. Bunlardan əlavə, söz birləşmələrinin tərəfləri ayrılıqda morfoloji suala cavab verdiyi halda, tərəflər birlikdə bir sintaktik suala cavab verir. Məsələn, *Qırmızı kərpicdən tikilmiş evə Nazlı özüylə hərarət gətirirdi, səs-küy gətirirdi*. (İ.Məlikzadə) – *Я иду, насчитывая любимую мелодию. Я хочу петь красиво. Врач после укола сказал мне лежать спокойно. Петя шёл спеша*. -cümləsində *qırmızı kərpicdən tikilmiş – иду насчитывая, петь красиво, лежать спокойно, шёл спеша* birləşmələrinin tərəfləri ayrı-ayrı suala cavab verdiyi halda, cümlə üzvü kimi tərəflər birlikdə bir suala cavab verir: *hansı evə? –-qırmızı kərpicdən tikilmiş evə, как? иду, насчитывая, петь красиво, лежать спокойно, шёл спеша*. Lakin bunu da nəzərə almalıyıq ki, cümlə üzvlərinə həmişə sual vermək də mümkün olmur. *Var, yox, gərək, lazım* sözləri ilə ifadə olunmuş cümlə üzvlərinə sual vermək mümkün olmur. Məsələn, *Atalıydı, analıydı uşaqlar, Bizim evdə biri vardı, biri yox*. (N.Kəsəmənli) və s.

Cümlə üzvləri ona görə baş və ikinci dərəcəli üzvlərə ayrılır ki, onların hamısı cümlə üçün eyni qiymətə malik deyil. Baş üzvlər cümlənin qrammatik əsasını, onun bel sütununu təşkil edir. İkinci dərəcəli üzvlər isə baş üzvləri müxtəlif cəhətdən izah edir, aydınlaşdırır və tamamlayır [Abdullayev: 2007, s.160].

Mübtəda cüttərkibli cümlənin elə bir baş üzvüdür ki, qrammatik cəhətdən heç bir üzvdən asılı olmayıb, əlaməti xəbərlə müəyyənləşən subyekti, əşyanı bildirməklə, adlıq hal formasında isim, əvəzlik və hallana bilən digər sözlər və birləşmələrlə ifadə olunur.

Mübtəda qrammatik cəhətdən cümlənin ən müstəqil üzvüdür. Hətta ən zəruri cümlə üzvü hesab olunan xəbər də mübtədadan qrammatik cəhətdən asılı olur, onunla uzlaşır. Təyin də mübtədadan asılı olur və onunla yanaşma əlaqəsinə girir. Mübtədanın əlaməti xəbərdə öz ifadəsini tapır. Mübtəda hansı şəxsdə olarsa, xəbər də onunla həmin şəxsin tək və cəminə görə uyğunlaşaraq şəxs və ya xəbərlik şəkilçisi qəbul edir. Məsələn, *Mən gəlirəm. Sən gəlirsən. O gəlir. Biz gəlirik. Siz gəlirsiniz. Onlar gəlirlər. – Я иду. Ты идёшь. Он идёт. Мы идём. Вы идёте. Они идут*. və s.

Mübtəda cümlədə iş görəni və ya haqqında danışılan əşyanı bildirir. Mübtəda şəxs bildirməklə yanaşı, bütün digər canlı və cansız varlıqları, mücərrəd anlayışları da ifadə edir [Kazımov: 2007, s.93]. Əgər mübtəda canlı insan məzmunu bildirərsə, iş görən, cansız varlıqları ifadə edərsə, haqqında danışılan əşya, varlıq məzmununu ifadə edir. Məsələn, *Mən qalxıb öz çadırımıza getdim. Kitab çox maraqlı idi*. (İ.Əfəndiyev) – *По всему лесу потрескивал мороз*. (В.Катаев) *Солнце встало из-за леса. Сестра болеет.*

Mübtəda bir qayda olaraq adlıq halda olan söz və söz birləşmələri ilə ifadə olunur və kim? nə? bəzən də kimlər? nələr? hara? suallarından birinə cavab verir, insan məfhumu ifadə etdikdə isə kim? sualına cavab olur. Məsələn, *Xidmətçi heç bir söz demədən dərhal qayıdıb getdi*. (İ.Əfəndiyev) Mübtəda cansız varlıqları ifadə etdikdə nə?, məkan məzmunu bildirdikdə hara? sualına cavab verir. Məsələn, *Kitab çox maraqlı idi.*

Ağacın ətrafında yarasalar uçuşdu, Əşrəf diksindi. (İ.Şıxlı) *Bakı dünyada öz nefti ilə məşhurdur.– Книга была очень интересной. Баку славится в мире своей нефтью*.

Mübtəda isim və isimləşə bilən sözlər və birləşmələrlə ifədə olunur. Müxtəsər cümlələrdə mübtəda bir qayda olaraq əvvəl, xəbər sonra işlənir. Geniş cümlələrdə isə əvvəl mübtəda zonası, sonra xəbər zonası gəlir. Bu qayda canlı danışıq dilində, bədii əsərlərin dilində pozula bilir. Məsələn, *Yox, o susmayacaq, susmaz sənətkar, Heyrət içindədir salondakılar*. (S.Vurğun) – *Через полчаса явился уездный лекарь, человек небольшого роста, худенький и черноволосый.* (Тургенев)

Mübtəda isim, sifət, say, əvəzlik, feili sifət, məsdər, bəzi zərflər və köməkçi nitq hissələri, II, III növ təyini söz birləşmələri (bəzən də I növ), feili sifət və məsdər tərkibləri, feili isim birləşmələri ilə ifadə olunur. Bunların bəziləri, yəni sifət, say, işarə əvəzlikləri, feili sifət, feili sifət tərkibləri mübtəda vəzifəsində işlənmək üçün isimləşməli, hallana, adlıq halda dura bilməlidir.

İsimlər mübtəda vəzifəsində daha çox işlənir. Çünki isimlərin təbiət etibarı ilə təhkim olunduğu əsas cümlə üzvü mübtədadır. Buna görə də hər cür quruluş və növ xüsusiyyətlərinə malik olan isimlər cümlədə mübtəda ola bilir. Məsələn, *Kişi qüssələndi*. (İ.Şıxlı) *Körpü möhkəmdir*. (İ.Şıxlı) – Пришла весна. (Л.Толстой) *Была грустная августовская ночь*. (Чехов) və s. Sifətlər mübtəda vəzifəsində işlənmək üçün isimləşməlidir. Məsələn, *Qocalar deyir ki, düz bir il gecəli-gündüzlü işləyəndən sonra yol hazır oldu. Yaşlılar həmin torpaq yolla çox karvanların gəlib keçdiyini söyləyirdilər*. (İ.Şıxlı) – *Неверная, лукавая, Коварная – пляши! Страстная, безбожная, пустая. Незабвенная, прости меня! Я вам поведал неземное. Невозможное было возможно, Но возможное – было мечтой*. (А.Блок) Həm Azərbaycan, həm də rus dilində olan bəzi sifətlər (məsələn, kar, kor, qoca, cavan – глухой, слепой, старик, молодой və s.) substantiv vəziyyətdə daha çox işləndiyi üçün bunlara mübtəda vəzifəsində də çox rast gəlmək olur [Стеблин-Каменский: 1956, s.36]. Saylar sifət kimi mübtəda vəzifəsində işlənmək üçün isimləşməlidir. Bu cəhətdən sıra saylarında əşyaviləşmə daha aydın hiss olunur. Məsələn, *Birinci ikincini heç vəchlə əlindən buraxa bilmədiyi kimi, ikinci də birincinin iztirablarına heç vəchlə soyuqqanlı baxa bilməz*. (İ.Hüseynov) *С кузова спрыгнули трое солдат. Четвёртый остался наверху. Вот, говорит, нос! для двух рос, а одному достался.* (С.Щедрин) Əvəzliyin bütün növləri mübtəda vəzifəsində işlənə bilir. Lakin bunun üçün işarə və təyini əvəzliklər isimləşməlidir. Məsələn, *Mən heç bir zaman ağlamamışam*. (İ.Əfəndiyev) *Егор Булычов и другие.* (М.Горький) *Прижок в ничто.* (А.Беляев) Feili sifətlər də sifətlər kimi, mübtəda olmaq üçün isimləşməlidir. Məsələn, *Deyilənlər pis təsir edir, onlarda bizim imperiyaya qarşı etimadsızlığın və qəzəbin artmasına səbəb olur*. (İ.Şıxlı) *Прошедший мимо меня человек был чем-то озабочен. Проважающие теснясь, взволнованно перекидиваясь словами, побежали из сарая к толпе на пустырь*...(А.Толстой) Məsdərlər isim xüsusiyyətinə malik olduğu üçün birbaşa mübtəda vəzifəsində işlənə bilir. Məsələn, *Ağlamaq lazım deyil, Mirzə, sən indiyədək heç kəsdən minnət götürməyibsən*. (Ə.Haqverdiyev) *Подойти к брату было страшно*. (М.Горький) Bəzi zərflər də cümlədə mübtəda vəzifəsində işlənə bilir. Məsələn, *Oralar daşlıq idi. Там были каменными.* Feili sifət və məsdər tərkibləri də cümlədə mübtəda vəzifəsində çox işlənir. Məsələn, *Əyriyə əl açıb, düzə gülən var, bir çömçə tutana yüz bükülən var*. (N.Həsənzadə) II, III növ təyini söz birləşmələri də cümlədə mübtəda vəzifəsində çox işlənir: Düz üç saat kənddə atışma səsi kəsilmədi. (İ.Şıxlı) *Anasının fəryadı bu dəfə Şamxala yaman təsir etdi*. (İ.Şıxlı) *Kürün suyu bulanmışdı*. (İ.Şıxlı) *Поднявший меч от меча и погибнет. Танцующая в комнате девушка завораживала всех своей грацией. Сидевшие за столом люди громко разговаривали.*

Dilçilikdə çox zaman xəbərlə predikat qarışdırılır və eyniləşdirilir [Валгина: 2000, s.62]. Sadə, müxtəsər nəqli cümlələrdə bunlar uyğun gələ bilir. Məsələn, *Yağış yağırdı. – Шел дождь*. - cümləsində *Yağış – Дождь* həm mübtəda, həm də subyektdir, *yağırdı – шёл* həm predikat, həm də xəbərdir. Lakin geniş cümlələrdə bu cür uyğunluq olmur. Məsələn, *Dünən kənddə yağış şiddətlə yağırdı. – Вчера в селе шел сильный дождь*. -cümləsində *yağış – дождь* mübtəda, həm də subyekt, qalan bütün sözlər predikat olduğu halda, xəbər deyildir. Bu predikatın içərisində *yağırdı – шел* xəbər, *dünən – вчера* - zaman zərfliyi, *kənddə – в селе* -yer zərfliyi, *şiddətlə – сильный* tərz zərfliyi-təyindir. Xəbər bəzən feillə qarışdırılır və eyniləşdirilir. Çünki feilin təsriflənən, yəni dəyişən formaları cümlədə yalnız xəbər vəzifəsində işlənir.

Xəbərin sintaktik üsulla ifadəsi onun xəbərlik və şəxs şəkilçiləri olmadan formalaşması deməkdir. Bu cəhət ən çox atalar sözləri və məsəllərdə, xəbəri var, yox sözləri ilə ifadə olunan cümlələrdə, xəbəri əmr şəklinin II şəxsin təki, qalan şəkillərdə III şəxsin təki ilə ifadə olunan cümlələrdə özünü göstərir. Məsələn, *Nəsə mühüm bir məsələ var. İndi qapıları kip bağlanmış vaqonların ağzında gəzişən tüfəngli keşikçilərdən başqa heç kəs yox idi. Məni öldür, ancaq evdən qovma.* (İ.Şıxlı) *И ноты есть у нас, и инструменты есть...*(Крылов) Digər cümlə üzvləri kimi, xəbər də quruluşca sadə və mürəkkəb olur. Sadə xəbər bir leksik vahidlə, yəni sadə, düzəltmə və mürəkkəb sözlərlə ifadə olunur. Məsələn, *O, yəhərin üstündən qanrılıb geri baxdı.* (İ.Şıxlı) *Наступает хмурое утро. Кирпич делается из глины.* Mürəkkəb xəbərlər II, III növ təyini söz birləşmələri (bəzən də I növlə), feili sifət, məsdər tərkibləri ilə ifadə olunur. Məsələn, *O indi quldurların məclisindədir.* (N.Nərimanov) *Приятно видеть снова вас, Хорошо бывать на природе.* Xəbər nitq hissələri və söz birləşmələri ilə ifadəsinə görə 2 növə ayrılır: 1. İsmi xəbərlər, 2. Feili xəbərlər. İsmi xəbər dedikdə isim, sifət, say, əvəzlik, feili sifət, məsdər, bəzi zərflər, köməkçi nitq hissələri, II, III növ təyini söz birləşmələri, feili sifət və məsdər tərkibləri ilə ifadə olunan xəbər nəzərdə tutulur. Xəbər isimlərlə daha çox ifadə olunur. Hər cür quruluş və növ xüsusiyyətlərinə malik olan isimlər cümlədə xəbər ola bilir. Təsirlik hal müstəsna olmaqla, bütün hallarda, hətta başqa cümlə üzvü ola bilməyən yiyəlik halda olan isimlər də cümlədə xəbər ola bilir. Məsələn, *Səhərki hadisədən sonra atını minib meşəyə gedən Cahandar ağa da sahildə idi.* (İ.Şıxlı) – *Вечер становится теплее.* və s. Sifətlər mübtədadan fərqli olaraq, xəbər vəzifəsində işlənmək üçün isimləşməyə bilər. Məsələn, *Bilirsiniz, ağa, bu saat mənim oğlum məndən ağıllıdır. Ağa, məsləhətiniz çox gözəldir.* (Ə.Haqverdiyev) – *Он был сегодня очень веселый.* və s. Bütün məna və quruluş xüsusiyyətlərinə malik olan saylar cümlədə xəbər ola bilir. Məsələn, *Keçər aylar, keçər illər, Yaz, ey Vaqif, ömür azdır.* (S.Vurğun) *Bu, hələ birinci idi. – Два да три будет пять. Мое любимое число – три.* və s. Əvəzliyin bütün məna növləri cümlədə xəbər ola bilir. Məsələn, *Mənim ağılsız, dilsiz olmağımın səbəbi sizsiniz.* (N.Nərimanov) *Вишневый сад теперь мой.* və s. Məsdər, məsdər tərkibləri də cümlənin ismi xəbəri yerində işlənə bilir. Məsələn, *Yaşamaq yanmaqdır, yanasan gərək.* (B.Vahabzadə) – *Лицом к лицу лица не увидать.* (Есенин) Bəzən emosional məqamda məsdərin sonunda şəkilçi işlənməyə də bilir: *Özü də gözümün qabağında heç nə olmamış kimi gəzmək.* (İ.Şıxlı) – *В рентген не разглядеть...*(Симонов) Xəbər feili sifət və feili sifət tərkibi ilə də ifadə olunur: *Buranın yerindən, havasından əlavə, suyu çox içməlidir, buz kimi ürək sərinlədəndir.* (Ə.Hacızadə) – *Червонец был запачкан и в пыли.* (Кр.). Bəzi zərflər, xüsusən də zaman, yer zərfləri xəbər vəzifəsində işlənə bilir: *Ancaq geri qayıtmadı,* dedi: – *Yolum irəlidir!* (S.Vurğun) *В твои годы я была замужем.* (Л.Т.) və s. Qoşmaların artırıldığı sözlər də xəbər ola bilir. Məsələn, *Yolumuz kəndə tərəf idi. – Наш путь был в сторону села.* və s. Bəzən köməkçi nitq hissələri də kinayəli substantiv məqamda xəbər ola bilir: *Məni narahat edən bu ammalardır. – Меня беспокоит эти но.*

Bunlardan əlavə, var, yox, bəs, lazım, mümkün, gərək sözləri də cümlədə xəbər kimi işlənə bilir: *Ağlın nə kəsir, sizin camaatın silahı yoxdu.* (İ.Şıxlı) – *Что бы вы думаете, у ваших людей оружия нет.* və s. II, III növ təyini söz birləşmələri (bəzən də birinci növ) də xəbər yerində işlənə bilir. Məsələn, *O cavan xanəndə bu yeddi gündə Mahmudun yadına düşən birinci adam idi.* (Elçin) – *Директор школы выступил с докладом. Покраска забора была завершена.*

Feilin bütün dəyişən formaları, yəni əmr, xəbər, vacib, arzu, lazım, şərt, davam şəkillərində olan feillər cümlədə yalnız xəbər vəzifəsində işlənir və həm də son dərəcə məhsuldar işlənir. Yalnız şərt şəkli cümlədə asılı xəbər olur. Şərt şəklində olan feil cümlədə əsas hərəkəti müəyyən şərtə bağlayır. Onun əlaqələndiyi əsas hərəkəti ifadə edən söz cümlənin müstəqil xəbəri kimi çıxış edir. Şərt şəklindəki feil də təsriflənən forma olduğundan, ətrafına çoxlu söz toplayıb, predikativliyi təmin etməklə cümlə yaradır və bu cümlə əsas hərəkətin işləndiyi cümlədən qrammatik cəhətdən asılı olur. Nəticədə, şərt şəkilli feilin işləndiyi cümlələr tabeli mürəkkəb cümlə kimi formalaşır. Feili xəbər feili frazeoloji vahidlərlə də ifadə olunur: *Molla Sadığın elə bil üstündən dağ götürüldü.* (İ.Şıxlı) – *Козырев играет первую скрипку – лидирует в нашем классе.* və s. Məsdərlər və məsdər tərkibləri *olmaq – быть; etmək – делать; bilmək – знать; istəmək – хотеть* sözləri ilə birlikdə cümlədə daha çox xəbər vəzifəsində işlənir: *Külfət içinə ikitirəlik salmaq istəmirdi.* (İ.Şıxlı) – *Мы не спеша вошли в помещение театра.* Xəbərin inkarı nə, nə də bağlayıcıları, deyil ədatı, -ma[2] şəkilçisi ilə formalaşır. Məsələn, *Həsənağanın fabrikdən xaric edildiyi altı aydan artıq deyildi.*

(M.S.Ordubadi) – *Это не ветер разбуше-вался. Поэзия не подчиняется планированию*. (Пришвин) Xəbərin təkrarı mürəkkəblik yaratmır: *Baxın, baxın, yaxşı baxın, diqqətlə baxın!* (C.Məmmədquluzadə) – *Я иду, иду, а до леса еще далеко*.

Beləliklə, cüttərkibli cümlələrin predikativ nüvə prizmasından öyrənilməsi Azərbaycan və rus dillərinin sintaktik quruluşunda həm universal, həm də spesifik cəhətləri daha dərindən anlamağa imkan verir. Əldə olunan nəticələr ümumi və müqayisəli dilçilik üçün nəzəri əhəmiyyət kəsb etməklə yanaşı, sintaksisin tədrisi, tərcümə fəaliyyəti və dillərarası qrammatik strukturların interpretasiyası baxımından praktik dəyərə malikdir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə. Z. Azərbaycan dili məsələləri. Bakı,1992, 138 s.
2. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis, Bakı, Şərq-Qərb, 2007, 423 s.
3. Abdullayev K. Azərbaycan dilinin sintaksisinin nəzəri problemləri. Bakı, Maarif, 1998, 284 s.
4. Бабайцева В.В.,Максимов Л.Ю. Современный русский язык. Часть 3. Москва, 1981, 297 с.
5. Kazımov Q.Ş. MüasirAzərbaycan dili. Sintaksis. Bakı, Təhsil, 2007, 496 s.
6. Стеблин-Каменский М. И. О предикативности // Вестник ЛГУ. 1956, № 20, с. 35-43.
7. Валгина Н.С. Синтаксис современного русского языка. Учебник для вузов. Москва, Высшая школа, 2000, 432с.

Гюльтекин АЛИЕВА

ТИПОЛОГИЯ ДВУСОСТАВНЫХ ПРЕДЛОЖЕНИЙ В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ, ОСНОВАННАЯ НА СТРУКТУРЕ ПРЕДИКАТИВНОГО ЯДРА

РЕЗЮМЕ

Проведённый анализ двусоставных предложений в азербайджанском и русском языках, основанный на структуре предикативного ядра, позволяет сделать вывод о принципиальной общности синтаксической организации этих языков при наличии определённых типологических и функциональных различий. Центральным элементом двусоставного предложения выступает предикативное ядро, образованное главными членами – подлежащим и сказуемым, которые обеспечивают грамматическую оформленность и семантическую завершённость высказывания. В статье подлежащее в обоих языках характеризуется высокой степенью грамматической самостоятельности и выполняет функцию носителя предметно-логического содержания, тогда как сказуемое является обязательным компонентом предложения, реализующим предикативность и выражающим отношение высказывания к действительности. Несмотря на формальную зависимость сказуемого от подлежащего, именно сказуемое играет ключевую роль в актуализации модально-временных и оценочных значений предложения. Особое внимание здесь уделено разграничению понятий «сказуемое», «предикат» и «глагол», что имеет принципиальное значение для современного синтаксического анализа. Сопоставительный анализ выявил сходство способов выражения подлежащего и сказуемого в азербайджанском и русском языках, в том числе активное использование субстантивации, инфинитивных и причастных конструкций, а также именных и глагольных форм сказуемого. Вместе с тем различия проявляются в степени формальной маркированности предикативных отношений, в особенностях согласования и в роли морфологических показателей, что обусловлено типологической спецификой агглютинативного и флективного языков.

Ключевые слова: Предикатив, двусоставный, главные члены, подлежащее, сказуемое

Gultekin ALIYEVA

TYPOPOGY OF THO MEMBER SENTENCES IN THE AZERBAIJANI AND RUSSIAN LANGUAGES BASED ON THE STRUCTURE OF THE PREDICATIVE CORE

SUMMARY

The conducted analysis of two-member sentences in the Azerbaijani and Russian languages, based on the structure of the predicative core, makes it possible to conclude that these languages share a fundamental similarity in their syntactic organization, despite the presence of certain typological and functional differences. The central element of a two-member sentence is the predicative core formed by the main sentence constituents – the subject and the predicate – which ensure the grammatical structuring and semantic completeness of the utterance. In the article, the subject in both languages is characterized by a high degree of grammatical independence and performs the function of carrying referential and propositional content, whereas the predicate constitutes an obligatory component of the sentence, realizing predicativity and expressing the relationship of the utterance to reality. Despite the formal dependence of the predicate on the subject, it is precisely the predicate that plays a key role in the actualization of modal-temporal and evaluative meanings within the sentence. Special attention is devoted to distinguishing between the notions of "predicate," "predicative," and "verb," which is of fundamental importance for modern syntactic analysis. The contrastive analysis reveals similarities in the means of expressing the subject and predicate in Azerbaijani and Russian, including the active use of substantivization, infinitival and participial constructions, as well as nominal and verbal forms of the predicate. At the same time, differences are observed in the degree of formal marking of predicative relations, in agreement patterns, and in the role of morphological markers, which are determined by the typological specificity of agglutinative and inflectional languages.

Keywords: *Predicative, two member sentence, main components, subject, predicate*

Ramilə SÜLEYMANOVA*

I TÜRKOLOJİ QURULTAY ƏRƏFƏSİNDƏ NƏŞR EDİLMİŞ ƏLİFBA DƏRSLİKLƏRİNİN DİLİ

XÜLASƏ

XX əsrin 20-ci illərində dil quruculuğu məsələlərinə xüsusi diqqət yetirilir. Bu illər əski əlifbadan latın qrafikalı yeni yazı sisteminə keçid dövrü kimi səciyyələnir. Çap edilmiş dərsliklərdə, mətbu nəşrlərdə 1920-ci illər ədəbi dilini xarakterizə edən özünəməxsus fonoqrafik xüsusiyyətlər özünü göstərir. Bəzi sözlərin imlasında ərəb qrafikalı əski Azərbaycan yazısının qrafik-orfoqrafik prinsiplərinin təsiri müşahidə olunur. Müxtəlif tipli sait və samit əvəzlənmələri, dodaq və damaq ahənginin təzahürü, cingiltiləşmə və bəzi fonetik hadisələr, "hə" samitinin geniş qrafik ifadə imkanları, "qaf" hərfinə aid qədim fonoqrafik xüsusiyyət də əski Azərbaycan yazı ənənəsinin təzahürü kimi üzə çıxır. Ərəb mənşəli bəzi alınma sözlərin orta əsrlər ədəbi dilinə məxsus yazılış şəkilləri əsas götürülür, dilortası e saitinin və "sağır nun" səsinin qrafik baxımdan ifadəsində orta əsrlərin əski yazı ənənəsindən istifadə edilir.

Açar sözlər: *əlifba, hərf, orfoqrafik prinsiplər, türkoloji qurultay.*

I Türkoloji Qurultayın qətnamələri dil quruculuğu işlərinin, xüsusilə, əlifba, orfoqrafiya, terminologiya məsələlərinin nizamlanmasında əhəmiyyətli rol oynadı. Sabitləşmiş ədəbi dil normalarının yoxluğu variantlılıq, imla hərc-mərcliyi yaradır, danışıq dili elementlərinin, dialekt xüsusiyyətlərinin pərakəndə şəkildə istifadəsinə gətirib çıxarır, kənar ədəbi dilin təsirinə yol açırdı. XX əsrin əvvəllərində məktəblərin sayca çoxalması, qəzetlərin nəşri ədəbi dilimizin fəaliyyət dairəsinin genişlənməsi ilə müşayiət olunur. Sonuncu isə öz növbəsində publisistik üslubun – mətbu nəşrlərin vahid imlaya tabe etdirilməsini, dərsliklərin dilinin sahmana salınmasını tələb edirdi. T.Hacıyev yazırdı ki, məktəblərin açılması ilə əlaqədar ana dili kitabları hazırlanır, dərsliklər buraxılırdı. Ana dili tədris olunur, Azərbaycan dilinin fonetik və qrammatik quruluşuna dair kitablar yazılırdı. Sistem şəklində, ardıcıl olmasa da məktəbyaşlılar üçün

* Azərbaycan Dövlət Aqrar Universiteti, filologiya üzrə fəlsəfə doktoru, dosent (e.a.o.) Email: ramile_suleymanova@list.ru

qəzet və məcmuələr çap edilir, müntəxabatlar tərtib olunurdu. Bütün bu tədbirlər Azərbaycan ədəbi dilinin inkişafı, onun normasının kamilləşməsi və cilalanması üçün çox zəruri idi [2, s.185].

1920-ci illərdə yazılmış dərsliklərin dili tam müəyyənləşmiş ədəbi dil normalarından uzaq olsa da sabitliyə, vahid normalılığa doğru axtarışlar, inkişaf meyilləri müşahidə olunurdu. Bu məqsədlə 1924-cü ildə nəşr edilmiş iki dərsliyin dil xüsusiyyətlərinin araşdırılması maraqlı nəticələr əldə etməyə imkan verir. Kitablardan biri Abdullah Şaiq Talıbzadənin müəllifi olduğu "Türk dili" ("Uşaq gözlügi"), digəri F.Ağazadə, S.Axundzadə və M.Məhəmmədzadənin imzaları ilə nəşr olunan "Yeni Türk əlifbası" dərsliyidir. Hər iki əsərdə bəzi mətnlər paralel şəkildə həm latın qrafikalı yeni əlifba ilə, həm də ərəb qrafikalı əski Azərbaycan yazısı ilə verilmişdir. Mətnləri birləşdirən əsas cəhətlərdən biri 1920-ci illər ədəbi dilini səciyyələndirən fonoqrafik xüsusiyyətlərin təzahürüdür. Belə xüsusiyyətlər həm sait, həm də samit qütblərində müşahidə olunur, sait və samit əvəzlənmələri, saitlərin ahəngi, sözlərin fonetik tərkibi, əski Azərbaycan yazısına məxsus bəzi qrafik funksionallıqları əhatə edir.

Azərbaycanda əlifba islahatını həyata keçirmək məqsədilə 1922-ci ildə Yeni Türk Əlifba Komitəsi yaradılır, əlifba layihəsi hazırlanır. "1922-ci ildən latın əlifbası ilə "Yeni yol" qəzeti çıxmağa başlayır. "Nə üçün ərəb əlifbası türk dilinə yaramır", "Yeni əlifba ilə türkcə düzgün oxuyub-yazma qaydaları", "Türkcə kəndi müəllim"və s. əsərlər çapa verilir. 1923-cü ildən yeni əlifbanın işlənmə hüququ daha da genişlənir; idarə və müəssisələr ərizə ilə ona keçə bilirlər, ərəb əlifbası ilə çıxan qəzet və jurnalar latın əlifbası ilə sütunlar və ya səhifələr çap edirlər" [2, s.337]. Sabitləşmiş ədəbi dil normalarının olmaması səbəbindən kitablarda, mətbuat dilində sözlərin dialekt variantlarına, tələffüz şəkillərinə yer verilir. Məsələn: parç, pişirdi, sahat, saxsağan, kiftə, qırqovul, pilov, sırfa, olar, həybə, ağlıyır, töylə, xamır, iyit, dəyirmən, qəlbi, zayıf, barabar [6, s. 12-70] və s.

Sait əvəzlənmələri əlifba-dərsliklərdə verilmiş mətnlərə aid xarakterik funksional keyfiyyətlərdəndir. Burada o-a əvəzlənməsi müşahidə olunur. Baba avdadır (av); Davşan sayıqdır (davşan); Şir maralı avladı (avla). Eyni fonetik xüsusiyyətə orta əsrlər yazılı abidələrimizin dilində təsadüf edilir: Av avladılar, quş quşladılar [3, s. 29]. Görünür, bu tipli əvəzlənmələr ərəb qrafikalı əski Azərbaycan yazısının mühüm fonoqrafik keyfiyyəti kimi sabitləşdiyindən latın qrafikalı yazı nümunələrinə də keçir və bir müddət işlənməkdə davam edir. Buraya ü-i, e-i sait əvəzlənmələrini də aid etmək olur. Məsələn: nə için (üçün), şişə (şüşə) [5, s. 33, 17], didi (dedi), diyirdi [5, s.17, 34].

Klassik yazı ənənəsinə uyğun olaraq, Bakı xüsusi ismi Baku şəklində yazılır: *Baku, Azərnəşr* [5, titul vərəqi]. Kök və şəkilçinin morfoloji əlaqəsində sait səslərin sıralanma ardıcıllığı əski yazının təsiri kimi üzə çıxır. Həmin ardıcıllıq iki şəkildə təzahür edir. Dodaqlanmayan saitlərdən sonra dodaqlanan saitlər işlənir: ağırdur [6, s. 52] verüb, banlayursan, daşıyur [5, s. 28, 33, 34]. Dodaqlanan saitləri dodaqlanmayan saitlər izləyir: yuyundı [6, s.17], düşdi, sürüni, yüzüni, üzürdi, tülki, yolçı, köçdi, gördi, qoydı [5, s.18-35].

Orta əsrlərin ərəb qrafikalı yazı ənənəsinə uyğun olaraq ki ədatı, ki bağlayıcısı və sonu ki elementi ilə bitən digər sözlərin yazılışında sonuncu sait "hə" ("ha-yi həvvəz") hərfi ilə ifadə olunur. "Amma qaşığı yoq idi ki (که) yesin"; "Gördü ki (که) atası kitab oquyanda gözlük taqır"; "Çünki (چونکه) bütün nöqtələr, Böylə bəhanə elər [5, s. 35, 39, 40]. Eyni qrafik priyom başqa sözlərin yazılışında da tətbiq edilir. Məsələn: yumurtə (یو مورته) yidi; Xırda (خیرده) xanım [6, s. 17, 21].

Saitlərin tələffüz şəklinə uyğun olmayan bu xüsusiyyət orta əsrlər yazılı abidələrində də müşahidə ounur: "Şol təmam oyun yüzündən çünki (چونکه) rəf oldı niqab" [4, s.201]. Ərəb qrafikalı yazı ənənəsinə uyğun olaraq orta əsrlər yazılı abidələrinə aid aktual samit əvəzlənmələri 1920-ci illərin yazılı ədəbi dilinə gətirilir. Məsələn:

a) t-d və d-t əvəzlənmələri. Dut-tut: Gəl, əlindən dutum; Səsi dünyanı dutmuşdu [6, s.59,70]; tara-dara: Durdı, yuyundı, tarandı [6, s.17] darandı;

b) m-b əvəzlənməsi. Bən də oraya gedəcəyəm [6, s.67]; Dəni arıdıb üyütdülər; Bu qayda ilə bənim kibi binlərcə boşqab qayırdılar [6, s.74]; Bənim əhvalım yaxşıdır [5, s.35]; Bən çoq zorbayam [5, s.24]; Kitab da dəftər kibi (کیبی) kağızdan yapılmışdır [5, s.42];

c) n-m əvəzlənməsi. Məni imdi bilirəm [6, s.58]; İmdi (ایمدی) ki görürsin otdur [5, s.34]; ç) k>g əvəzlənməsi. Meşə gömgögdür (گومگوگ); Şaqqulu bəg (بگ) otaqda [5, s.28, 31];

d) ğ-q əvəzlənməsi. Dəftər aq (آق) kağızdan yapılmıdır [5, s.42].

Hər iki dərsliyin mətnində tək və iki hecalı sözlərdə x samitinin q samiti ilə əvəzləndiyi müşahidə olunur: aqsaq, doqsan, çıq, baq, çoq, yoquş, su, aqar [5, s.14-22]. “Kitabi-Dədə Qorqud”un dilində də bu qəbildən olan sözlərdə x samitinin yerinə əski Azərbaycan yazısının”qaf” hərfi işlənir. Akad. T.Hacıyev “qaf” (ق) hərfinin müvafiq olaraq türk və Azərbaycan dillərində q, k, x samitlərinin qarşılığı kimi yazılmasında bir tarixi-etimoloji əsas olduğunu qeyd edir: Tarixən “qaf”la yazılmış türk sözlərində onu Türkiyə türkləri sözün bütün məqamlarında k ilə transliterasiya edirlər və elə də tələffüz edirlər: kol, yok. Azərbaycan türkcəsində isə həmin məqamlarda q və x işlənir: qol, yox [2, s.140]. Bizcə, 1920-ci illərin əlifba dərsliklərində x samitli bəzi sözlərin “qaf” ilə yazılışı orta yüzilliyin Azərbaycan yazısına aid qrafik-orfoqrafik prinsiplərin XX əsrdə də davam etdirilməsi ənənəsi ilə birbaşa bağlıdır.

İki saitarası mövqedə kar samitlərin cingiltiləşməsinə aid əski yazı ənənəsi ilə bağlı daha bir arxaik xüsusiyyət 1920-ci illərin yazılı ədəbi dilində bir müddət saxlanılır. Müasir Azərbaycan dilindən fərqli olaraq orta əsrlər yazılı abidələrində dilortası kar k samiti iki sait arasında işləndikdə g dilortası cingiltili samiti ilə əvəzlənir. “Kitabi-Dədə Qorqud”da: Ol Nuh peyğəmbərin eşəği əslidir (eşşək-eşəgi); Bişmiş ətməgin bəqası olmas (ətmək-ətməgin); [3, s.23]. İntervokal məqamlarda saitlə başlayan şəkilçidən əvvəl k-g əvəzlənməsi əlifba dərsliklərindəki eyni fonetik tərkib elementinə malik leksik vahidləri əhatə edir. Məsələn: uşaq gözlügi (gözlük), bildigini (bildik), dimdigi (dimdik) gidəcəgəm (gidəcək) və s. [5, s.34,36,37].

Müasir Azərbaycan dilində metatezaya uğramış bəzi isimlər orta əsrlərdə olduğu kimi əslinə uyğun fonetik tərkibdə yazılır: Yapraqlar tökülər; Bir vaqit var idi ki, bən də topraq idim [6, s. 61, 72] (yapraq-yarpaq, topraq-torpaq); ağacın yaprağı [5, s.32]. Söz əvvəlində y samiti işlənir: gög yüzü, yüz üstə [6, s.61, 64].

Saitlərin qrafik ifadəsində sabitlik müşahidə olunmur. Onların qrafik ifadə məhdudiyyəti aradan qalxır, yaxud daha da genişlənir. Bizcə, bu amil saitlərin qrafik ifadə məhdudiyyətinə malik ərəb qrafikalı əlifba ilə Azərbaycan dilinin fonetik ifadə imkanlarının genişliyi arasındakı ziddiyyətdən yaranır. A.Şaiqin müəllifi olduğu “Türk dili (Uşaq gözlügi)” dərsliyində [e] saitinin bir neçə qrafik ifadə formasına təsadüf edilir. Sait söz ortasında “hə”(“ha-yi həvvəz”) hərfi ilə ifadə edilir: سەوە sevə (Çalışıram sevə-sevə [5, s.45]); دەگیل degil (Bizim nifrət az degil [5, s.48]); کەشنیش keşniş [5, s.52]; سەوینمە sevinmə (əbəs yerə sevinmə [5, s.57]); نەیلەدی neylədi (Durdi uşaq neylədi [5, s.80]). “Ye” hərfi [e] səsini ifadə edir: ویرمەدی vermədi (Kərəm vermədi [5, s.45]), دیدی dedi (İbrahim dedi [5, s.45]), هچ heç (Heç kəsdə yoq qəbahət [5, s.47]), belə بیله (Nədən belə saçın, başın ağarmış [5, s.49]). [e] saitini “həmzə” yardımçı işarəsi yazıda bildirir: گ ٔدەرسین gedərsin (“Aqub çaya gedərsin” [5, s.80]), بـ ٔله belə (Buza belə söylədi [5, s.80]). “Həmzə”li “əlif” işarəsi “ye” hərfi ilə eyni vəzifəni yerinə yetirir: ا ٔشیگیم eşigim (Evim, eşigim laylay [5, s.80]); ا ٔیو ev (ev heyvanları [5,s.62]). Söz əvvəllində [e] saitli sözlərdə yalnız “əlif” hərfi yazılır: احتیاط ehtiyat (Ehtiyatsız qarı [5, s.60]).

Oxşar üsul [a] səsinin ifadə formalarında nəzərə çarpır. Söz əvvəlində daha çox “mədd” işarəli əlif bu vəzifəni yerinə yetirir: آنبار anbar (Bir pişik tapub anbara saldı [5, s.60]). Söz ortası və söz sonunda sadəcə əlifdən istifadə edilir: اغاج ağac, یاپراق yapraq, اوڭا oŋa [5, s.61] və s. Bununla bərabər, bəzi sözlərdə “hə” hərfinin auslautda yazıldığı müşahidə olunur; صباحه sabaha (Bu günin̡ işini sabaha qoyma [5, s.47]).

Azərbaycan dilinin ərəb qrafikalı yazı ənənəsinə uyğun olaraq “və” bağlayıcısının fonoqrafik tərkibində sait səs iştirak etmir. Məsələn: تنبل و چالیشقان Tənbəl və çalışqan [5, s.55]; Aslan və (و) Məryəm [5, s.50]; Qarı və (و) toyuq [5, s.55]; Qaz və (و) durna [5, s.57] və s. Bu hal tabesiz mürəkkəb cümlənin tərkib hissələrini əlaqləndirən eyni bağlayıcının ifadəsində də müşahidə olunur. Məsələn: Mürsəl şeylərini yıqışdırınca məktəbin vəqti keçirdi və (و) hər gün məktəbə gecikirdi [5, s.46]. Adətən söz sonunda [ə] saitini ifadə etməli olan “ha-yi həvvəz” (nümunə üçün میوه meyvə sözündə olduğu kimi [5, s.73] yalnız bir halda – bağlayıcının tərkibində eyni mövqedə yazılmır. Bu, klassik ədəbiyyatın dilində dodaqlanan saitləri ifadə edən “vav” (و) hərfinin həmcins üzvləri əlaqələndirən bağlayıcı vasitə funksiyasından irəli gəlir. Məsələn, M. Füzulidə:

Dəhən-ü qədd-ü rüxün qönçə-vü sərv-ü səmənim –

Dəhən (və) qədd (və) rüxün qönçə (və) sərv (və) səmənim.

Bəzən də elə olur, orta əsrlərin sabitləşmiş yazı normalarından kənaraçıxmalar qeydə alınır. Saitlərin qrafik ifadə üsulunu əhatə edən bu məqam söz ortasında [ə] saitinin yazılmasında özünü göstərir: دەرەیە dərəyə [5, s.46], odun kəsər كسەر [5, 47] və s.

"Sağır nun" samitinin qrafik ifadəsində əski yazı ənənəsi qorunub saxlanır. "Türk dili" dərsliyində həmin məqamda əvvəlki ənənəyə uyğun olaraq, söz ortasında və söz əvvəllində fərqli işarələrdən istifadə olunur. Lakin digər yazılı abidələrdə olduğu kimi, "nun" və "kaf" hərf birləşməsi deyil, üç nöqtəli "kaf" (ڭ) işlədilir. İşarəyə, bir qayda olaraq, söz ortasında rast gəlinir: مركبيڭى mürəkkəbiŋi [5, s.45], عوضيڭه əvəzinə [5, s.48], yüzləriŋdə [5, s.49], سڭا saŋa [5, s.55], اوڭا oŋa (Şaiq, s. 54), və s. Söz sonunda işlənən "sağır nun"u əvvəlki yüzillərin yazılı abidələrində müşahidə edilən təkcə "həmzə"li və sərkeşsiz "kaf" bildirmir, həm də "həmzə" li "kaf" işarəsinin üzərində üç nöqtə yazılır. Məsələn: anaŋ آناڭ , səniŋ سنيڭ [5, s.55], buynuzıŋ [5, s.54], toyuğın [5, s.55] və s. Halbuki S. Əlizadə "sağır nun" səsinin XV əsrə qədər üstündə üç nöqtə yazılan "kaf"la işarə edildiyini göstərir [1,s.107]. XVI əsrdən sonra yazılı abidələrimizdə həmin məqamda "nun-kaf" diqrafı normaya çevrilir.

Bəzi ərəb mənşəli sözlərin yazılışında əski yazı təcrübəsinə uyğun olaraq tələffüz əsas götürülmür. Bu səbəbdən belə alınmalar danışıqda olduğu kimi [q] ilə deyil, [ğ] kimi verilir və "ğeyn" hərfi ilə yazılır. Məsələn: غمگين ğəmgin, غم ğəm [5, s.78]. Türk mənşəli sözlərin yazılışında isə tələffüz əsas götürülür. Məsələn: bulut (Gög yüzini qara bulutlar alır [5, s.76]); palut (İri bir palut altında uzandı [5, s.77]).

Orta əsrlər yazılı abidələrində olduğu kimi bəzi saylar samit qoşalaşması ilə işlənmir: yedi (Bir həftə yedi gündür [5, s.64]); doquz (Martın doquzında yaz girir [5, s.65]).

Dərsliklərdə müşahidə olunan müxtəlif fonetik tərkibli alınma sözlərin əksəriyyəti canlı danışıq dilindən fərqli formada yazılır. Məsələn: sənduq [5, s.54], xəlqim [5, s.56], vəqt [5, s.73], xeyr [5, s.45]. Sözün morfoloji tərkibi əski yazının təsiri ilə əvvəlki şəklini qoruyub saxlayır. Məsələn: sararmaq (saralmaq əvəzinə; Sararub soldınızmı [5, s.78]), sormaq (Bir gün yoldaşları ondan sordılar [5, s.49]). Sonuncu leksik vahid iki imlada təqdim edilir; əski yazılış forması ilə yanaşı, fərqli səs kompleksinə malik müasir şəkli də işlənir: soruşmaq (Kişi soruşdı [5, s.59]). Bəzi arxaik qrammatik formaların müasir şəkilləri ilə yanaşı işlənməsi də klassik yazı dilinin təsiri kimi üzə çıxır. Məsələn: oqur, gözətləyür, yaşıllanır [5, s.71], bacayı [5, s.48], tarlayı, buğdayı [5, s.66] və dünyanı [5, s.68].

ƏDƏBİYYAT

1.Əlizadə S. Əski Azərbaycan yazısı. Bakı: Bakı Universiteti, 1993
2.Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. II hissə, Bakı: Elm, 2012
3. Kitabi-Dədə Qorqud. Bakı: Öndər, 2004
4.Qəhrəmanov C. Nəsimi "Divanı"nın leksikası. Bakı: Elm, 1970
5.Talıbzadə A.Ş. Türk dili (Uşaq gözlügi), Baku: Azərnəşr, 1924
6.Yeni türk əlifbası. Bakı: Qızıl Şərq, 1924

Ramila SULEYMANOVA

THE LANGUAGE OF ALPHABET TEXTBOOKS PUBLISHED ON THE EVE OF THE I TURKOLOGICAL CONGRESS

SUMMARY

In the 20s of the 20th century, special attention was paid to the issues of language formation. These years are characterized as a period of transition from the old alphabet to the new writing system with Latin graphics. In printed textbooks and publications, the peculiar phonographic features characterizing the literary language of the 1920s are manifested. In the spelling of some words, the influence of the graphic-orthographic principles of the old Azerbaijani writing with Arabic graphics is observed.

Various types of vowel and consonant substitutions, the manifestation of lip and palate harmony, tinkling and some phonetic phenomena, the wide graphic expression possibilities of the consonant "ha", the ancient phonographic feature of the letter "qaf" also emerge as a manifestation of the old Azerbaijani writing tradition. The spelling forms of some loanwords of Arabic origin are based on the medieval literary language, and the old medieval writing tradition is used in the graphic expression of the dilomatic vowel e and the sound "saghir nun".

Keywords: alphabet, letter, orthographic principles, Turkological congress

Рамиля СУЛЕЙМАНОВА

ЯЗЫК АЛФАВИТНЫХ УЧЕБНИКОВ, ИЗДАННЫХ НАКАНУНЕ I ТЮРКОЛОГИЧЕСКОГО КОНГРЕССА

РЕЗЮМЕ

В 20-е годы XX века особое внимание уделялось вопросам языкового формирования. Эти годы характеризуются как период перехода от старого алфавита к новой системе письма с латинской графикой. В печатных учебниках и публикациях проявляются своеобразные фонографические особенности, характерные для литературного языка 1920-х годов. В написании некоторых слов наблюдается влияние графико-орфографических принципов старого азербайджанского письма с арабской графикой.

Различные типы замен гласных и согласных, проявление гармонии губных и негубных гласных, звон и некоторые фонетические явления, широкие возможности графического выражения согласного «he», древняя фонографическая особенность буквы «qaf» также проявляются как проявление старой азербайджанской письменной традиции. В качестве основы взяты орфографические формы некоторых заимствованных слов арабского происхождения, а в графическом выражении гласного «e» и звука «веляр η» используется старая средневековая письменная традиция.

Ключевые слова: алфавит, буква, орфографические принципы, Тюркологический конгресс

Sədaqət CUMAYEVA*

TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİ KONTEKSTİNDƏ ALMAN DİLİ İLƏ ƏLAQƏLİ DİL PROBLEMLƏRİ

XÜLASƏ

Türkoloji Qurultay türk dillərinin elmi əsaslarla öyrənilməsində və türkoloji tədqiqatların institusionallaşmasında mühüm mərhələ kimi qiymətləndirilir. Qurultayın 100 illiyi münasibətilə keçirilən beynəlxalq elmi konfrans çərçivəsində dil problemlərinin müasir aspektlərdən təhlili xüsusi aktuallıq kəsb edir. Məqalədə türkoloji tədqiqatlarda dil problemləri alman dilçiliyinin nəzəri-metodoloji nailiyyətləri ilə əlaqələndirilərək araşdırılır. Xüsusilə qrammatik kateqoriyalar, dil tipologiyası, müqayisəli dilçilik və korpus əsaslı tədqiqatlar kontekstində alman dili ilə türk dilləri arasında elmi paralellər aparılır və bu yanaşmaların müasir türkoloji araşdırmalar üçün əhəmiyyəti göstərilir.

Açar sözlər: *Türkoloji Qurultay, türkoloji dil problemləri, alman dili, müqayisəli dilçilik, tipologiya, qrammatik kateqoriyalar.*

Türkoloji Qurultay XX əsrin əvvəllərində türk dillərinin sistemli və elmi əsaslarla tədqiqi istiqamətində atılmış mühüm addımlardan biri olmuşdur. Bu qurultay türk xalqlarının dil, tarix və mədəniyyətinin beynəlxalq elmi müstəvidə müzakirə olunmasına geniş imkanlar yaratmış, türkoloji elmin inkişafına güclü təkan vermişdir. Qurultayın 100 illiyi münasibətilə türkoloji tədqiqatların müasir vəziyyətinə yenidən nəzər salmaq, xüsusilə dil problemlərini aktual nəzəri yanaşmalar işığında dəyərləndirmək mühüm elmi vəzifə kimi qarşıda durur.

Müasir dövrdə dil problemlərinin araşdırılmasında yalnız milli dilçilik çərçivəsi kifayət etmir. Bu baxımdan alman dilçiliyində formalaşmış nəzəri və metodoloji yanaşmaların türkoloji tədqiqatlara tətbiqi xüsusi əhəmiyyət daşıyır. Alman dilçiliyi funksional qrammatika, tipoloji tədqiqatlar, korpus dilçiliyi və diskurs analizi kimi sahələrdə zəngin elmi təcrübəyə malikdir [3, s. 12–18; 2, s. 25–30].

* AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Hind-Avropa dilləri şöbəsi, aparıcı elmi işçisi, fil.ü.f.d. Email: sedaqet.aytacli@mail.ru

Türkoloji tədqiqatlarda əsas dil problemləri

Türkoloji dilçilikdə əsas problemlərdən biri qrammatik kateqoriyaların təsviri və şərhidir. Türk dillərində aqqlütinativ quruluş, şəkilçilərin funksional çoxmənalılığı və sintaktik münasibətlərin morfoloji vasitələrlə ifadəsi bu dillərin spesifik xüsusiyyətləri kimi diqqəti cəlb edir. Zaman, şəkil, şəxs, hal və növ kateqoriyalarının təsviri türkoloji tədqiqatların mərkəzində dayanır [6, s. 41–52].

Digər mühüm problem dil dəyişməsi və variasiya məsələsidir. Türk dillərinin geniş coğrafiyada yayılması dialekt və şivə müxtəlifliyini şərtləndirmiş, bu isə normativ dil təsvirində müəyyən çətinliklər yaratmışdır. Bu baxımdan empirik və istifadəyə əsaslanan tədqiqat metodlarına ehtiyac artmaqdadır.

Alman dilçiliyində dil problemlərinin tədqiqi və metodoloji yanaşmalar

Alman dilçiliyi dil problemlərinin tədqiqində funksional və istifadəyə əsaslanan yanaşmaları ilə seçilir. Qrammatik kateqoriyalar forma–məna–funksiya vəhdətində araşdırılır və real dil materialı əsasında təhlil edilir [5, s. 9–15; 3, s. 33–40].). Bu yanaşma qrammatik hadisələrin statik deyil, dinamik sistem kimi dərk olunmasına imkan verir.

Alman dilçiliyində korpus dilçiliyinin inkişafı qrammatik və leksik vahidlərin real istifadəsinin sistemli şəkildə öyrənilməsinə şərait yaratmışdır. Böyük həcmli mətn korpusları dil strukturunun obyektiv təsvirinə imkan verir və normativ yanaşmanı empirik məlumatlarla tamamlayır [1, s. 21–28].

Alman dili ilə türk dillərinin müqayisəli təhlili

Alman dili ilə türk dillərinin müqayisəli tədqiqi tipoloji baxımdan xüsusi maraq doğurur. Flektiv quruluşlu alman dili ilə aqqlütinativ türk dillərinin qarşılaşdırılması qrammatik kateqoriyaların universallığı və diləxas xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan yaradır. Məsələn, zaman və şəkil kateqoriyalarının ifadə vasitələri struktur baxımdan fərqli olsa da, funksional oxşarlıqlar müşahidə olunur.

Bu müqayisə yalnız nəzəri əhəmiyyət daşımır, eyni zamanda alman dili ilə türk dilləri arasında tərcümə, dil tədrisi və kontrastiv qrammatika sahələrində praktik nəticələr verir. Alman dilçiliyində formalaşmış kontrastiv analiz modelləri türkoloji tədqiqatlar üçün metodoloji baza rolunu oynaya bilər [4, s. 67–73].

Korpus və diskurs əsaslı yanaşmaların türkoloji tədqiqatlara tətbiqi

Müasir dilçilikdə korpus və diskurs əsaslı yanaşmaların türkoloji tədqiqatlara tətbiqi aktual problemlərin həllinə yeni imkanlar açır. Türk dilləri üzrə elektron korpusların yaradılması qrammatik kateqoriyaların istifadədə necə reallaşdığını göstərməyə imkan verir və dialekt fərqlərinin sistemli şəkildə təhlilinə şərait yaradır.

Diskurs analizi isə türk dillərində qrammatik vasitələrin praqmatik və kommunikativ funksiyalarını üzə çıxarır. Bu istiqamətdə alman dilçiliyində əldə olunmuş təcrübə türkoloji tədqiqatların metodoloji arsenalını əhəmiyyətli dərəcədə zənginləşdirə bilər [7, s. 112–118].

Türkoloji Qurultayın 100 illiyi kontekstində dil problemlərinə yenidən baxış türkoloji elmin inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Məqalədə göstərildiyi kimi, alman dilçiliyində formalaşmış funksional, tipoloji və empirik yanaşmalar türkoloji tədqiqatlar üçün məhsuldar elmi baza yaradır. Alman dili ilə türk dilləri arasında aparılan müqayisəli tədqiqatlar qrammatik kateqoriyaların daha obyektiv və universal izahına şərait yaradır və türkoloji dilçiliyin beynəlxalq elmi inteqrasiyasını gücləndirir.

ƏDƏBİYYAT

1. Biber, D., Conrad, S., & Reppen, R. (1998). *Corpus Linguistics: Investigating Language Structure and Use*. Cambridge: Cambridge University Press.
2. Duden. (2016). *Duden – Die Grammatik* (9. Auflage). Berlin: Dudenverlag.
3. Eisenberg, P. (2013). *Grundriss der deutschen Grammatik*. Stuttgart: Metzler.
4. Haspelmath, M. (2010). *Understanding Morphology*. London: Hodder Education.
5. Helbig, G., & Buscha, J. (2001). *Deutsche Grammatik*. Berlin: Langenscheidt.
6. Johanson, L. (2002). *Structural Factors in Turkic Language Contacts*. London: Curzon.
7. Zifonun, G., Hoffmann, L., & Strecker, B. (1997). *Grammatik der deutschen Sprache*. Berlin: de Gruyter.

АННОТАЦИЯ

Тюркологический съезд рассматривается как важный этап в научном изучении тюркских языков и институционализации тюркологических исследований. В рамках международной научной конференции, посвящённой 100-летию съезда, особую актуальность приобретает анализ языковых проблем с современных научных позиций. В статье языковые проблемы в тюркологических исследованиях рассматриваются во взаимосвязи с теоретико-методологическими достижениями немецкого языкознания. Особое внимание уделяется проведению научных параллелей между немецким языком и тюркскими языками в контексте грамматических категорий, языковой типологии, сопоставительного языкознания и корпусно-ориентированных исследований, а также показано значение данных подходов для современной тюркологической науки.

Ключевые слова: *Тюркологический съезд, тюркологические языковые проблемы, немецкий язык, сопоставительное языкознание, типология, грамматические категории*

ABSTRACT

The Turkological Congress is regarded as a significant milestone in the scientific study of Turkic languages and the institutionalization of Turkological research. Within the framework of the international scholarly conference dedicated to the 100th anniversary of the Congress, the analysis of linguistic issues from contemporary perspectives has gained particular relevance. This article examines linguistic problems in Turkological research in connection with the theoretical and methodological achievements of German linguistics. Special attention is paid to drawing scholarly parallels between the German language and Turkic languages in the context of grammatical categories, language typology, comparative linguistics, and corpus-based research, and the significance of these approaches for modern Turkological studies is demonstrated.

Keywords: Turkological Congress, Turkological linguistic issues, German language, comparative linguistics, typology, grammatical categories

Fərrux RÜSTƏMOV*

BİRİNCİ ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYDA "TÜRK XALQLARININ ƏLIFBA SISTEMLƏRİ HAQQINDA" MƏRUZƏNİ KİM EDİB: CƏLİL MƏHƏMMƏDZADƏ, YOXSA CABBAR MƏHƏMMƏDZADƏ?

Birinci Ümumittifaq Türkoloji Qurultayın iştirakçıları siyahısında iki "Məhəmmədzadə" soyadlı şəxs yer almışdır: Xalq Maarif Komissarının müavini, Ali Pedaqoji İnstitutun direktoru Cəlil Məhəmmədzadə və Azərbaycan Dövlət Universitetinin müəllimi Cabbar Məhəmmədzadə. Qurultayın stenoqramında iştirakçıların adlarının yalnız baş hərfi və soyadı göstərildiyindən, "Türk xalqlarının əlifba sistemləri haqqında" mövzusunda hansı Məhəmmədzadənin məruzəçi olduğunu müəyyənləşdirmək müəyyən çətinliklər yaratmışdır.

Cabbar Məhəmmədzadə Azərbaycan dili mütəxəssisi olmaqla yanaşı, Yeni Türk Əlifbası Komitəsinin şöbə müdiri, həmçinin 1913-cü ildən etibarən nəşr olunan onlarla türk dili kitabının müəllifi olub. Onun F. Ağazadə və S. S. Axundovla birlikdə "Yeni türk əlifbası" (1922, 1923, 1924, 1926) kitabları nəşr olunub. 1924-cü ildə Yeni Türk Əlifbası Komitəsi onun "Самоучитель тюркского языка по арабскому и новому алфавитам" ("Türk dilinin danışmasını və oxuyub-yazmasını ərəb və yeni əlifbalarla öyrədən kitab") adlı dərsliyini nəşr edib. 1926-cı ilə qədər "Самоучитель тюркского языка" dərs vəsaiti beş dəfə (1922, 1923, 1924, 1925, 1926) nəşr olunub.

O, Yeni Türk Əlifbası Komitəsində əlifba və yazı məsələləri ilə bağlı aparılan müzakirələrdə fəal iştirak etmiş, mülahizə və təkliflərini ciddi şəkildə əsaslandırmışdır. Bu baxımdan onun "Türk xalqlarının əlifba sistemləri haqqında" mövzusunda məruzəçi olması ilk baxışdan inandırıcı görünürdü. Digər tərəfdən,

* ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi. Email: farrukhrustamov@gmail.com

Azərbaycan Xalq Maarif Komissarının müavini və Ali Pedaqoji İnstitutun direktoru olan Cəlil Məhəmmədzadənin dilçi olmaması, Kiyev Politexnik İnstitutunu bitirməsi [4, s.78–88] məruzənin məhz Cabbar Məhəmmədzadə tərəfindən təqdim edilməsi ehtimalını daha da gücləndirirdi. Etiraf etmək lazımdır ki, Qurultayda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətini təmsil edən Cəlil Məhəmmədzadə əsasən təşkilati və institusional mövqeyə malik olmuşdur. Qurultayda onun mandat komissiyasının sədri seçilməsi də bu qənaəti təsdiqləyir.Tədqiqatlarda isə məruzənin Cabbar Məhəmmədzadə tərəfindən aparılmasına dair müəyyən qeydlər vardır [2, s.95].

Xalid Səidin 1929-cu ildə Bakıda nəşr olunmuş "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitabı bu məsələyə aydınlıq gətirməkdə dəyərli və etibarlı mənbə olmuşdur. Xalid Səid yazır: "*Ərəb əlifbası nümayəndələrindən Bay Tursun ağa ilə, Qazanlılardan Alimcan Şərəf; yeni əlifba tərəfdarlarından isə Azərbaycan Maarif Komissarlığından sənət və ali məktəblər müdiri Cəlil Məhəmmədzadə yoldaş və Azərbaycan Yeni Əlifba Komitəsinin elmi işçisi Fərhad Ağazadə yoldaş məruzədə bulunacaqdı. Məruzələrdən sonra müzakirələr şiddətləndi. Hər iki hurufatın məziyyətləri ilə nöqsanlarının ən incə, ən gizli nöqtələrinə qədər təhlil və tənqid edilirdi. Müzakirə bütün şiddətilə, bütün hərarətilə bir neçə gün davam etdi; nəhayət Dağıstan mürəxxəsi Qorxmazov yoldaşın rəyasəti altında təşkil edilən komissiya tərəfindən tənzim edilən qərar böyük bir əksəriyyətlə qəbul edildi"* [1, s. 94–95].

Bu məlumatdan açıq şəkildə görünür ki, "Türk xalqlarının əlifba sistemləri haqqında" məruzəni məhz Cəlil Məhəmmədzadə etmişdir. Digər tərəfdən, C.Məhəmmədzadənin redaktoru olduğu "Maarif və mədəniyyət" jurnalında nəşr etdirdiyi "Yeni əlifba və türk xalqları" [5, s. 21–25] adlı məqalədə də onun qurultayda səsləndirdiyi fikirlər öz əksini tapmışdır. "Kommunist" qəzetinin 21 fevral 1926-cı il və "Yeni Fikir" qəzetinin 5 mart 1926-cı il saylarındakı yazılar da Qurultaydakı məruzənin məhz Cəlil Məhəmmədzadə tərəfindən təqdim edildiyini təsdiqləyir.

Məruzədə əlifba sadəcə yazı sistemi kimi deyil, kütləvi savadlanmanın, mədəni inkişafın və sosial azadlığın əsas aləti kimi təqdim olunur. Bu mövqe tarixi, fonetik, pedaqoji, texniki və sosial-siyasi aspektlərdən əsaslandırılır. Məruzəçinin tarixi arqumentasiyası ondan ibarətdir ki, ərəb əlifbası nə etnik, nə də dil baxımından türk xalqlarına məxsusdur: *"Ərəb əlifbasının mənşəyi finikiya–yəhudi əlifbasına bağlıdır… tarixən müxtəlif səbəblərdən ərəb hakimiyyəti altına düşmüş xalqlara da onlardan keçmişdir"* [5, s.311]. Bununla da müəllif ərəb əlifbasının məcburiyyət nəticəsində qəbul edildiyini önə çəkərək onu "müqəddəs miras" statusundan çıxarır.

Fonetik uyğunsuzluq probleminə toxunan C. Məhəmmədzadə qeyd edir: *"Bizim - türk-tatar xalqlarının tələffüzündəki səslərin formalarını ərəb əlifbasında tapa bilmirik.*" Bununla da o açıq şəkildə bəyan edir ki, dilin səs sistemi ilə əlifbanın qrafik sistemi üst-üstə düşmür. Xüsusilə ərəb əlifbasında sait səslərin azlığı problemini vurğulayır: *"Ərəb əlifbasında türk-tatar xalqlarının dillərindəki saitlərə uyğun gələn cəmi 3 sait hərf var. Onları islahatçılar düzəltməli idilər. Bəs onlar nə etdilər? Həmin bu üç saitdən 9–10–16 sait hərf düzəltdilər*" [5, s.311].

Azərbaycan dilindəki saitlərin böyük hissəsi ərəb əlifbasında ümumiyyətlə mövcud deyil. Ərəb dilində saitlər əksər hallarda müstəqil hərf kimi yazılmır, sətirüstü və sətiraltı işarələrlə (hərəkələrlə) göstərilir. Bu isə oxunuşun qeyri-müəyyənliyinə, yazının çətin qavranılmasına səbəb olur və savadsızlığın aradan qaldırılmasını ləngidir. Oxuma prosesi mexaniki deyil, təxmini şəkildə həyata keçirilir; eyni yazılışlı sözlər mətnin mənasına görə fərqli oxuna bilir. Bir nöqtənin və ya işarənin səhv qoyulması mənanı tamamilə dəyişə bilər.

Məruzəçi yalnız əski ərəb əlifbasını deyil, həm də "islah olunmuş" ərəb əlifbasını tənqid edir: "*İslah olunmuş ərəb əlifbası köhnə ərəb əlifbasından bir o qədər də fərqlənmir"* [5, s. 312–313]. O, nöqtə sisteminin, sətiraltı və sətirüstü işarələrin saxlanmasına, hərflərarası məsafənin praktik olaraq görünməməsinə ironik münasibət bildirərək yazır: *"Hərflər arasında bu məsafəni görmək üçün gözləri yaxşı görən adama yaxşı bir eynək lazımdır."*

Məruzədə əlifba məsələsi təkcə dilçilik və ya texniki problem kimi deyil, həm də pedaqoji problem kimi qoyulur. Məruzəçi diqqəti xüsusilə uşağın öyrənmə prosesinə yönəldir və göstərir ki, ərəb qrafikalı əlifba uşağın yaş və idrak səviyyəsinə uyğun olmayan, həddindən artıq mürəkkəb sistem yaradır: *"Uşaq 32 formalı əlifbanı yox, sətiraltı və sətirüstü işarələri, nöqtələrin yerlərini öyrənməli olur"* [5, s.313].

Bu fikirlər məruzəçinin pedaqoji mövqeyini aydın şəkildə ortaya qoyur. Buradan aydın olur ki, problem hərflərin sayında deyil, əlifbanın strukturu və təqdimetmə formasındadır. Əlifba uşağa konkret, sabit və vizual olaraq asan qavranılan vahidlər təqdim etməli olduğu halda, ərəb əlifbası onu mürəkkəb işarə sistemini əzbərləməyə məcbur edir. Nəticədə oxuma və yazma bacarığı təbii idrak prosesi kimi deyil, mexaniki yaddaş fəaliyyəti kimi formalaşır.

Məruzəçi göstərir ki, ərəb əlifbasında öyrənilməli olan elementlərin sayı rəsmi hərflərlə məhdudlaşmır. Hərflərin müxtəlif formalarda yazılması, nöqtələrin sayı və yeri, sətiraltı və sətirüstü işarələr birlikdə uşağın üzərinə böyük idrak yükü qoyur. Bu vəziyyət konkret rəqəmlə də əsaslandırılır: "*Öyrənilməli olan işarələrin ümumi sayı 123-ə çatırdı*."

İbtidai sinif şagirdi üçün 30–35 hərfin öyrənilməsi ilə 100-dən artıq qrafik vahidin mənimsənilməsi arasında ciddi psixoloji və didaktik fərq mövcuddur. Belə bir sistem uşağın diqqətini sözün mənasından və mətnin məzmunundan yayındırır, onu texniki detallarla məşğul olmağa məcbur edir. Nəticədə oxu bacarığı ləng formalaşır, səhvlərin sayı artır, təhsilə maraq azalır. Məruzədə əlifbanın bu cür təqdimatı uşağın psixoloji inkişafına uyğun olmayan bir mexanizm kimi qiymətləndirilir. Uşaq hərfi görüb tanımaq əvəzinə, onun üzərində neçə nöqtə olduğunu, bu nöqtələrin harada yerləşdiyini, hansı sətirüstü və ya sətiraltı işarə ilə müşayiət olunduğunu müəyyən etməli olur. Bu isə öyrənməni sadələşdirmir, əksinə, mürəkkəbləşdirir.

Beləliklə, məruzədə irəli sürülən pedaqoji arqumentin mahiyyəti ondan ibarətdir ki, əlifba uşağın yaş xüsusiyyətlərinə, idrak imkanlarına və psixoloji qavrayışına uyğun olmalıdır. Müəllif bu baxımdan ərəb əlifbasını uğursuz pedaqoji vasitə kimi qiymətləndirir və latın əsaslı yeni türk əlifbasını uşağın *təbii öyrənmə prosesini asanlaşdıran, idrak yükünü azaldan və savadlanmanı sürətləndirən* sistem kimi təqdim edir.

C.Məhəmmədzadənin məruzəsində əlifba məsələsi yalnız dil və pedaqogika ilə məhdudlaşdırılmır, eyni zamanda elmin və texniki tərəqqinin əsas şərti kimi qiymətləndirilir. Məruzəçi göstərir ki, əlifbanın quruluşu elmi biliklərin mənimsənilməsi, dərsliklərin hazırlanması və elmi terminologiyanın tətbiqi baxımından həlledici rol oynayır.

Məruzədə vurğulanır ki, islah olunmuş ərəb əlifbası elmi və texniki sahələrin tələblərinə cavab vermir. Xüsusilə bu əlifba ilə musiqi notlarının yazılması və dəqiq elmlərə aid materialların ifadəsi ciddi çətinliklər yaradır. Müəllif bu fikri konkret nümunələrlə əsaslandırır: *"Biz islah olunmuş əlifba ilə musiqi növlərini də yaza bilmirik… Histologiya, riyaziyyat və tibbi fənlər üzrə dərsliklər çap edərkən çətinliklərlə üzləşirik"* [5, s.313].

Bu çətinliklərin əsas səbəbi ərəb əlifbasının sağdan sola yazı prinsipi ilə Avropa mənşəli elmi terminlərin, riyazi formulların və beynəlxalq işarə sistemlərinin soldan sağa istiqamətdə qurulması arasında yaranan uyğunsuzluqdur. Elmi mətnlərdə tez-tez rast gəlinən terminlər, formul və simvollar yazı prosesində fasilə yaradır, mətnin axıcılığını pozur və həm müəllif, həm də oxucu üçün əlavə texniki maneələr törədir.

Məruzəçi göstərir ki, bu uyğunsuzluq yalnız mətbəə işini çətinləşdirmir, eyni zamanda elmi biliklərin sistemli şəkildə tədrisini də ləngidir. Əlifba elmin tələblərinə cavab vermədikdə isə cəmiyyət elmi nailiyyətləri mənimsəmək üçün daim xarici dillərə və yad yazı sistemlərinə möhtac qalır ki, bu da milli elmi mühitin formalaşmasına mane olur.

Məruzədə əlifba sadə yazı vasitəsi kimi deyil, elmi inkişafın texniki bazası kimi təqdim olunur. Müəllifin fikrincə, yalnız fonetik baxımdan uyğun, texniki cəhətdən rahat və beynəlxalq elmi sistemlərlə uzlaşan əlifba cəmiyyətin müasir elmə inteqrasiyasını təmin edə bilər. Bu arqument latın qrafikalı yeni türk əlifbasının üstünlüklərini əsaslandıran mühüm amillərdən biri kimi diqqəti cəlb edir. Müəllif bu əlifbanı yalnız alternativ yazı sistemi deyil, türk xalqlarının savadlanması və mədəni inkişafı üçün ən optimal vasitə kimi əsaslandırır. Məruzədə xüsusilə vurğulanır ki, yeni əlifba türk dilinin fonetik quruluşuna tam uyğunlaşdırılmışdır. Müəllif bu üstünlüyü belə ifadə edir: *"Dilimizdəki bütün 9 səs burada heç bir sətirüstü və ya sətiraltı işarələr olmadan verilib"* [5, s.313].

Bu fikir latın qrafikalı əlifbanın əsas prinsipini aydın şəkildə ortaya qoyur: hər bir səs üçün ayrıca, sabit və vizual baxımdan aydın hərf mövcuddur. Beləliklə, oxunuşla yazı arasında birbaşa uyğunluq yaranır və sözün düzgün tələffüzü üçün əlavə işarələrə və ya kontekstə ehtiyac qalmır.

Yeni əlifbanın əsas üstünlükləri məruzədə üç istiqamətdə ümumiləşdirilir. ***Birincisi,*** sadəlikdir. Əlifbada sətirüstü və sətiraltı işarələrin, eləcə də çoxsaylı nöqtə sisteminin olmaması yazını texniki baxımdan asan və anlaşıqlı edir. ***İkincisi,*** fonetik dəqiqlikdir: türk dilində mövcud olan bütün səslər yazıda tam və itkisiz şəkildə əks olunur. ***Üçüncüsü*** isə sürətli savadlanma imkanlarıdır. Uşaqlar və böyüklər üçün oxu və yazı bacarıqlarının mənimsənilməsi mexaniki əzbərləməyə deyil, təbii qavrayışa əsaslanır.

Məruzədə latın qrafikalı əlifbanın üstünlüklərini daha aydın göstərmək məqsədilə simvolik və yadda qalan müqayisədən istifadə olunur: *"Ərəb dilində 'cümə axşamı' sözünü yazmaq üçün düz on nöqtə qoymaq lazım gələcək, üstəlik onların harada qoyulacağını da bilmək zəruridir, çünki yerlərinə qoyulmasalar 'cümə axşamı' yox, 'çərşənbə' oxunacaq"* [5, s.313]. Bu müqayisə ilə müəllif ərəb əlifbasının mürəkkəbliyini və texniki baxımdan ağır olduğunu göstərməklə yeni əlifbanın sadəliyini təbliğ edir. Məruzəçinin məqsədi yalnız tənqid deyil, dinləyiciyə əlifbanın gündəlik praktikada yaratdığı real fərqi nümayiş etdirməkdir.

Beləliklə, məruzədə latın qrafikalı yeni türk əlifbası dili fonetik baxımdan dəqiq əks etdirən və geniş kütlələr üçün əlçatan yazı sistemi kimi təqdim olunmaqla yanaşı, türk xalqlarının mədəni və elmi tərəqqisinin əsas şərti kimi dəyərləndirilir.

Məruzədə əlifba məsələsinə sosial ədalət prizmasından yanaşılır, savadsızlıq köhnə rejimin mirası kimi qiymətləndirilir, statistik faktlarla yeni əlifbanın qısa müddətdə geniş kütlələr tərəfindən mənimsənildiyi sübut edilir. Əlifba mədəni inqilabın mühüm atributu, savadsızlıqdan xilasın əsas vasitəsi, "ikinci Oktyabr" inqilabı ilə müqayisə olunan tarixi dönüşün simvolu kimi təqdim olunur. Məruzəçinin "biz bir ovuc ziyalını yox, çoxmilyonluq kütləni düşünməliyik" fikri çıxışın əsas ideoloji istiqamətini aydın şəkildə ifadə edir.

Məruzədə təqdim olunan statistik göstəricilər yeni əlifbanın qısa müddətdə geniş kütlələr tərəfindən mənimsənildiyini və onun savadsızlığın aradan qaldırılmasında effektiv və işlək vasitə olduğunu aydın şəkildə sübut edir. Məruzəçi yeni əlifbanın praktik nəticələrini belə ifadə edir: *"Şagirdlərin 70%-i 6–7 ay ərzində artıq 33 hərfi mənimsəmişdir" və ya "iki il ərzində təxminən 70 min nəfər savadsızlığını aradan qaldırmışdır"* [5, s.316].

Məruzədə əlifba texniki detal kimi deyil, maarif, mədəniyyət və kütləvi azadlıq problemi kimi təqdim olunur. Məhz buna görə emosional çağırışlardan daha çox fakt və nəticələrə əsaslanan C.Məhəmməd-zadənin məruzəsi qurultayın ən praktik, pedaqoji və sosial yönümlü çıxışlarından biri kimi dəyərləndirilir.

Məruzə *"bununla bu sahədə ikinci Oktyabrı yaratmaq mümkün olacaq"* çağırışı ilə yekunlaşır. Burada əlifba savadsızlıqdan qurtuluşun açarı, mədəni inqilabın simvolu, Avropa elmi və mədəniyyəti ilə əlaqənin mühüm vasitəsi kimi təqdim edilir. Eyni zamanda əlifba Şərq–Qərb mədəni seçimi fonunda milli dillərin inkişafını müəyyən edən, texniki deyil, maarif, mədəniyyət, siyasət və kütlələrin gələcəyi ilə bağlı strateji və taleyüklü məsələ kimi dəyərləndirilir.

ƏDƏBİYYAT

1. Xalid Səid. Yeni əlifba yollarında əski xatirə və duyğularım. Bakı-Krım-Türküstan. Bakı-Türkmənistan-Özbəkistan /S.Xalid; [müq. Ə.Ubeydulin]. Bakı: Yeni əlifba komitəsi, 1929. s.94-95
2. Qasımov C. Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, "Gənclik", 2019
3. Məhəmmədzadə C. Yeni əlifba və türk xalqları // "Maarif və mədəniyyət" jurnalı, 1926, №2
4. Rüstəmov F. Azərbaycan Dövlət Pedaqoji Universitetinin direktorları.Bakı:Elm və təhsil, 2019
5. Первый Всесоюзный Тюркологический съезд: 26 февраля-5 марта 1926 г.: стенографический отчет /М-во Культуры и Туризма Азерб. Респ., Нац. Библиотека Азерб. им. М. Ф. Ахундова ; отв. за вып. В. Бахманлы ; ред. А. Асадзаде.Баку: Нагыл Еви, 2011 с.311-316

prof.F.A.RÜSTƏMOV

BİRİNCİ ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYDA "TÜRK XALQLARININ ƏLİFBA SİSTEMLƏRİ HAQQINDA" MƏRUZƏNİ KİM EDİB: CƏLİL MƏHƏMMƏDZADƏ, YOXSA CABBAR MƏHƏMMƏDZADƏ?

Məqalədə Birinci Ümumittifaq Türkoloji Qurultayda "Türk xalqlarının əlifba sistemləri haqqında" məruzənin Cəlil Məhəmmədzadənin, yoxsa Cabbar Məhəmmədzadənin edilməsi məsələsinə aydınlıq gətirilir. Məruzənin Cəlil Məhəmmədzadə məxsus olması Xalid Səidin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" (1929) əsərində yer alan fikirlərlə təsdiqlənir.

Məruzədə əlifba problemi yalnız texniki yazı sistemi kimi deyil, maarifçilik, pedaqogika, elmi və mədəni inkişaf, sosial azadlıq kontekstində dəyərləndirilir. Ərəb əlifbasının türk dillərinin fonetik quruluşuna uyğun gəlmədiyi, pedaqoji və texniki baxımdan savadlanmanı çətinləşdirdiyi əsaslandırılır. Alternativ olaraq latın əsaslı yeni türk əlifbası fonetik dəqiqliyi, qrafik sadəliyi və kütləvi savadlanmanı sürətləndirmə potensialı ilə üstün yazı sistemi kimi təqdim olunur. Məruzə yeni əlifbanı savadsızlığın aradan qaldırılması və mədəni inqilabın əsas aləti kimi qiymətləndirir.

Проф. Ф.А. Рустемов

КТО ВЫСТУПАЛ С ДОКЛАДОМ «О СИСТЕМАХ ПИСЬМЕННОСТИ ТЮРКСКИХ НАРОДОВ» НА ПЕРВОМ ВСЕСОЮЗНОМ ТЮРКОЛОГИЧЕСКОМ СЪЕЗДЕ — ДЖЕЛИЛ МАМЕДЗАДЕ ИЛИ ДЖАББАР МАМЕДЗАДЕ?

В статье рассматривается вопрос о том, кто выступал с докладом «О системах письменности тюркских народов» на Первом Всесоюзном тюркологическом съезде — Джелил Махмедзаде или Джаббар Махмедзаде. Принадлежность доклада Джелилу Махмедзаде подтверждается мнением, приведённым в работе Халида Саида «Старые воспоминания и чувства на пути к новой азбуке» (1929).

В докладе проблема письменности рассматривается не только как техническая система письма, но и в контексте просвещения, педагогики, научного и культурного развития, а также социальной свободы. Обосновывается, что арабская письменность не соответствует фонетической структуре тюркских языков и затрудняет обучение грамотности как с педагогической, так и с технической точки зрения. В качестве альтернативы новая латинская тюркская азбука представлена как система письма с фонетической точностью, графической простотой и потенциалом ускоренного массового обучения. Доклад оценивает эту азбуку как ключевой инструмент ликвидации неграмотности и средство культурной революции.

Prof. F.A. RUSTEMOV

WHO DELIVERED THE REPORT "ON THE ALPHABET SYSTEMS OF TURKIC PEOPLES" AT THE FIRST ALL-UNION TURKOLOGICAL CONGRESS — JALIL MAHAMMADZADE OR JABBAR MAHAMMADZADE?

This article examines the question of who presented the report "On the Alphabet Systems of Turkic Peoples" at the First All-Union Turkological Congress — Jalil Mahammadzade or Jabbar Mahammadzade. The attribution of the report to Jalil Mahammadzade is confirmed by Khalid Said in his work "Old Memories and Feelings on the Path to the New Alphabet" (1929).

The report treats the alphabet not merely as a technical writing system, but also in the broader context of education, pedagogy, scientific and cultural development, and social freedom. It argues that the Arabic script does not correspond to the phonetic structure of Turkic languages and complicates literacy from both pedagogical and technical perspectives. As an alternative, the new Latin-based Turkic alphabet is presented as a writing system characterized by phonetic accuracy, graphical simplicity, and the potential to accelerate mass literacy. The report evaluates this new alphabet as a key instrument for eliminating illiteracy and as a tool of cultural revolution.

Vəfa ALLAHVERDİYEVA*

ETİK KONSEPTLƏRİN FRAZEOLOJİ TƏCƏSSÜMÜ (MƏTNLƏR ÜZƏRİNDƏN LİNQVOKULTUROLOJİ TƏHLİL NÜMUNƏLƏRİ)

XÜLASƏ

Linqvokulturoloji yanaşma, dil hadisələrinin xalqın milli xüsusiyyətlərini əks etdirən vahidlər kimi öyrənilməsinə yönəlmiş aktual bir tədqiqat sahəsidir. Bu yanaşma, dilin mədəniyyətlə ayrılmaz əlaqədə olmasını vurğulayır və insanların əxlaqi dəyərlərini, dünyagörüşünü və təcrübələrini dil vasitəsilə əks etdirir. Leksika, frazeologiya və sintaksisin dilin etik prinsiplərini necə ifadə etdiyini öyrənmək, müxtəlif dillərin mədəniyyətləri arasındakı fərqləri başa düşmək üçün mühüm əhəmiyyət kəsb edir. Frazeoloji vahidlər, xüsusilə, milli-mədəni xüsusiyyətləri və etik dəyərləri ifadə edən dil vahidləri kimi önəm daşıyır. Bu tədqiqat sahəsi, həmçinin mədəniyyətlərarası kommunikasiya və etik dəyərlərin müxtəlifliyi məsələlərinə də işıq tutur.

Dil hadisələrinin xalqın milli xüsusiyyətlərini əks etdirən vahidlər kimi öyrənilməsinə linqvokulturoloji yanaşma dilçilik elminin hazırki mərhələsində aktual yanaşma hesab olunur. Bu sahədəki araşdırmalar bu günümüzdə çox aktualdır və onun çərçivəsində dilin milli-mədəni spesifikliyinin müxtəlif aspektləri tədqiq olunur. Həm ümumi nəzəri baxımdan, həm də leksika və idiomatikada milli-mədəni xüsusiyyətlərin öyrənilməsinə həsr olunmuş konkret araşdırmalarla yanaşı, müxtəlif dillərin və mədəniyyətlərin açar konseptləri də nəzərdən keçirilir. Bu sahənin nəzəri-metodoloji bazası hazırda formalaşma mərhələsindədir. Ümumi qəbul olunmuş anlayışa görə, linqvokulturoloji tədqiqat dilin mədəniyyətlə ayrılmaz əlaqədə öyrənilməsi kimi təyin olunur. Ümumilikdə linqvokulturologiyaya belə tərif etmək olar ki, linqvokulturologiya – dilçilik və mədəniyyətşünaslığın kəsişməsində yaranmış bir elm sahəsidir və xalqın mədəniyyətinin dildə əks olunmuş və möhkəmlənmiş ifadələrini öyrənir [5, 97].

Dil, etik prinsipləri formalaşdıran və onların yayılmasına kömək edən əsas vasitədir. Hər bir dil, öz cəmiyyətinin mənəvi dünyagörüşünü, etik dəyərlərini və təcrübələrini təmsil edən xüsusiyyətlərə sahibdir. Məsələn, bir cəmiyyətdə dürüstlük əxlaqın vacib bir hissəsi olaraq önə çıxarkən, başqa bir mədəniyyətdə fərqli əxlaqi anlayışlar və normativlər üstünlük təşkil edə bilər. Linqvokulturologiya bu fərqləri başa düşmək və təhlil etmək üçün çox faydalı bir məlumat təqdim edir.

Dil, insanın mənəvi-etik dünyasını yalnız sözlər vasitəsilə deyil, həm də dilin quruluşu və kommunikasiya qaydaları ilə əks etdirir. Bu baxımdan etik prinsiplər dilin leksikasında, frazeologiyasında, sintaksisində və yeni hadisə və ya anlayışlarda öz yerini tapır.

Dilin leksikası, etik konseptlərin və dəyərlərin ifadə olunmasında əsas rol oynayır. Məsələn, "ədalət", "vicdan", "dürüstlük", "hörmət", "namus", "şərəf", "sədaqət" kimi sözlər, bir cəmiyyətin əxlaqi dəyərlərini əks etdirir. Həmçinin, leksikanın tərkibindəki sözlər, insanların cəmiyyətə və özlərinə qarşı olan münasibətini göstərir.

Frazeologizmlər, müəyyən bir mədəniyyətdəki etik və əxlaqi dəyərləri daha dərin bir şəkildə əks etdirə bilər. Belə ki, cəmiyyətin düşüncə tərzini, dünyagörüşünü və sosial münasibətləri ifadə edir.

Frazeoloji vahidlər, linqvokulturologiyanın ən "nümunəvi" vahidləridir: frazeoloji vahidlərin daxili forması, motivasiyanın daşıyıcısı olaraq, tez-tez milli-mədəni planda olan elementlərə malikdir, çünki frazeologizmlər "gerçəklik haqqında obrazlı təsəvvür" əsasında yaranır ki, bu da əsasən gündəlik-empirik, tarixi və mənəvi təcrübəni əks etdirir və dil kollektivinin mədəni ənənələri ilə bağlıdır.

"Daş qayaya rast gəlib" [3, 180] ifadəsi "səbirlilik", "dözüm", "mətanət", "iradə" etik konseptlərini təqdim edir, bir şəxsin və ya cəmiyyətin qarşılaşdığı böyük əngəl və çətinlikləri simvollaşdırır. Əxlaqi dəyər baxımından bu ifadə, səbirlilik, əzmkarlıq və çətinliklər qarşısında geri addım atmama kimi mənəvi xüsusiyyətləri ifadə edir. Yəni, həyatın çətin anlarında insanın öz dəyərlərinə sadiq qalması və maneələri aşmaq üçün mübarizə aparması vacibdir. Bu deyim müəyyən bir məqsədə çatmağa çalışan birinin qarşısına

* Bakı Slavyan Universiteti, f.ü.f.d., baş müəllim, Email: vefabsu@mail.ru

gözlənilməz və ağır bir maneə çıxdığında, bu maneəni aşmanın nə qədər çətin olduğunu ifadə edir. Daş və qayanın birləşməsi ilə bu çətinliklərin təbiətdəki ən möhkəm və dəyişdirilməsi mümkün olmayan obyektlərə bənzədilməsi vurğulanır. Bu mənada, bir insanın qarşısına çıxan çətinliklər, insanlar bəzən o qədər böyük, möhkəm, inadkar olur ki, onları aşmaq, razı salmaq üçün çox böyük güc və səbir tələb olunur.

"Yenə də elə oldu ki, Mətanət öz layihəsini həyata keçirmək istəyərkən, daş qayaya rast gəldi. Bütün sənədləri hazırladı, hər şey qaydasında idi, amma qəflətən bürokratik əngəllərlə qarşılaşdı. İndi onu aşmaq üçün ya çox zaman, ya da çoxlu əlaqələr lazım olacaq." Bu ifadə həm də, real həyatdakı böyük problemlərə qarşı mübarizə aparan və əzmkarlıq göstərən insanların xarakterini ön plana çıxarır. Çünki daşın qayaya "rast gəlməsi", onu asanlıqla qırmaq və ya keçmək mümkün olmayan bir vəziyyəti simvollaşdırır. Yalnız çox çalışmaq, səbirli olmaq və mübarizə aparmaq lazımdır ki, bu çətinliklər dəf olunsun.

Frazeoloji vahidlər sözlərdən ibarət olduğu üçün, frazeoloji vahidin semantik strukturunun əsasları, ilk növbədə, onun leksik komponentlərinin qarşılıqlı əlaqəsindən yaranır. Frazeoloji vahidlərin əsas xüsusiyyəti, onların tam və ya qismən yeni mənalarla yenidən şərh edilməsidir. Yalnız bəzi frazeoloji vahidlər ayrıca leksemlərlə tanınır, əksər hallarda isə onlar yalnız söz birləşmələri və ya genişləndirilmiş təsvir vasitəsilə müəyyən edilir.

"Dinə-imana gəlmək" [1, 470] deyimi "vicdan", "dürüstlük" etik konseptlərinin təcəssümü kimi çıxış edir və adətən, insanın əvvəlki həyat tərzindən, yanlış və zərərli davranışlardan uzaqlaşaraq doğru, əxlaqi və dini prinsiplərə yönəlməsi, Allah yoluna, haqq yoluna qayıtması prosesini təsvir edir. Bu ifadə, xüsusilə bir insanın öz həyatında böyük bir dəyişiklik edərək, özünü doğru yolda tapması və daha yüksək mənəvi prinsiplərə uyğun yaşaması barədə danışarkən işlədilir. Həmçinin, bu frazeologizm ətrafına qarşı daha müsbət və düzgün davranışlar sərgiləməsini vurğulayan bir deyimdir: "Əşrəf, uzun illər boyu pis vərdişlərdən əl çəkmir, yanlış yolda gedirdi. Lakin bir gün böyük bir hadisə baş verdi və o, dinə-imana gəldi. İndi həyatını tamamilə dəyişdi, İnsanlarla münasibətləri də çox dəyişdi, artıq daha səmimi və doğru yolda irəliləyir."

Frazeoloji vahidin semantik xüsusiyyəti, komponentlərin özünəməxsus birləşmə formasında özünü göstərir. Beləliklə, onlar yalnız frazeoloji vahidin əsas semantik komponentlərinin bir hissəsi kimi çıxış etmirlər, həm də bu komponentlər arasında əlaqələndirici elementlər kimi funksiyanı yerinə yetirirlər. Bu komponentlər frazeoloji vahidlərin semantikası üçün minimal vahidlər olub, mənanı müəyyənləşdirən və ya formalaşdıran funksiyanı həyata keçirirlər.

"Sözü bütöv olmaq" [1, 1277] frazeoloji birləşməsi "güvən", "etibar", "etimad", "məsuliyyət", "sadiqlik", "dürüstlük", "vicdan", "ədalət" etik konseptlərini təmsil edir. Bu ifadə, birinin verdiyi sözə sadiq qalmasını, onun dürüstlüyünü və etimadını qorumasını vurğulayır. Mənəvi-etik dəyəri böyükdür, çünki bu, insanın iç dünyasının təmizliyi, başqalarına qarşı məsuliyyətli olması və onların güvənini qazanmaq qabiliyyətini əks etdirir.

Sözünü bütöv tutan insan, söz verərkən düşünür və verdiyi sözün arxasında durur, heç vaxt yalan danışmaz, hətta çətinliklərlə üzləşsə belə, verdiyi sözün icrasını təxirə salmaz.

"Zamanında işinin başında duran və heç vaxt başqalarına verdiyi vədini pozmayan Anar müəllim, bütün şəhərin etibarını qazandı. O, hər zaman sözü bütöv bir insan olaraq, həm özünün, həm də başqalarının vicdanına uyğun hərəkət etdi. Bu, yalnız ona hörmət qazandırmadı, həm də cəmiyyətdə etibar və güvən mühitini gücləndirdi."

Hər bir xalqın özünəxas dünyanı hiss etmə, dərk etmə və mənalandırma üsulları mövcuddur və bu üsullar ətraf aləmin reallıqlarına milli qiymətləndirmə əsasını yaradır. Frazeologiya, dilin dünya görüşünün bir formasıdır və bu, hər bir dildə frazeoloji dünya mənzərəsinin mövcudluğuna işarə edir [2, 120]. Frazeoloji vahidlərin mədəni-milli spesifikliyini təcəssüm etdirən vasitə obrazlı əsas, frazeologizmin daxili formasıdır.

"Ana uşağı" [1, 128] frazeologizmi "məsuliyyət", "qərarsızlıq", "vicdan" etik konseptlərini səciyyələndirir, daha çox kişi haqqında istifadə edilən və onun yetkinliyini, müstəqilliyini və özünü idarə etmə qabiliyyətini sual altına alan bir ifadədir. Bu ifadə, əsasən bir kişinin həyatda daha az məsuliyyət daşıması, özünü doğrultmaması hallarında istifadə olunur. Sosial kontekstdə, bu frazeologizm, kişini "çox uşaq" və ya "hələ də anasının sözüylə oturub-duran biri" kimi xarakterizə etməyə meyillidir.

Mənəvi-etik dəyər baxımından, "ana uşağı" ifadəsi, kişinin yetkinlik və müstəqillik əlamətləri ilə əlaqələndirilir. Bu ifadə, kişilərin bir növ cəmiyyətdəki kişilik idealına uyğun davranmağına təzyiq edir. Cəmiyyətin gözləntiləri, kişilərin öz ailələrini qorumalı, çətinliklərlə təkbaşına mübarizə aparmalı və həyatın reallıqlarına qarşı güclü olmalı olduqlarını düşünür.

"Ana uşağı" ifadəsi, xüsusilə bir kişinin, öz ailəsini və həyat yoldaşını qorumaqda, çətinliklərlə təkbaşına mübarizə aparmaqda zəif və məsuliyyətsiz olduğunu vurğulayan mənfi mənada istifadə edilir. Burada, kişi öz həyatını və ailəsini müdafiə etmək yerinə, anasının köməyinə güvənir və hər zaman onun arxasında gizlənir, necə deyərlər "ananı verir qabağa". Bu davranış, kişinin yetkinlik və müstəqillikdən qaçması, öhdəliklərindən uzaq durması və məsuliyyətlərini yerinə yetirməməsi kimi mənfi əlamətlərə işarə edir. Bu vəziyyət həm kişini, həm də onu əhatə edən cəmiyyəti mənəvi və etik cəhətdən zəiflədir.

Rəfiqəsi Məhəbbət ona gözlənildiyindən də çox dəstək verir, amma Həbib hələ də həmişə çətinliklərlə üzləşəndə ilk olaraq anasını axtarır. Bir dəfə, arvadı ilə ciddi mübahisə edəndə, Məhəbbət ona "Ədə, hələ də ana uşağısan, ya kişi?!" deyərək, onu istehza ilə tənqid etdi. Həbib, evdəki məsuliyyətlərdən qaçır, həyat yoldaşına dəstək olmaq əvəzinə, hər çətinlikdə anasının arxasında gizlənməyə üstünlük verirdi. Bu, onun özünü bir kişiyə yaraşan şəkildə aparmadığını, ailəsini qorumaqda və həyatla mübarizə aparmaqda zəif olduğunu göstərirdi. Həbibin bu davranışı, ailə içində güvən və hörmətin sarsılmasına səbəb oldu.

Frazeoloji vahidlərin oxşar komponentləri ilə bir semantik sahəyə birləşməsinin meyarı, frazeoloji vahidin mənalı strukturunda komponentlərin mənalarını ayırd etməkdir. Dil vahidlərinin semantik əlaqələrinin mahiyyəti və struktur-semantik sahənin təşkili prinsipi, sabit və fərqli əlamətlərin mövcudluğu ilə özünü göstərir, bu da sahənin sistemli şəkildə təşkil olunmasının vacib şərtidir.

"Qədrini bilməmək" [1, 949] frazeoloji birləşməsi "laqeydlik" etik konseptinə işarə edir, bir şəxsə və ya vəziyyətə verilən dəyəri, əhəmiyyəti və ya gözəl münasibəti düzgün qiymətləndirməmək, bu dəyəri anlamamaq və ya ona qarşı laqeyd olmaq anlamına gəlir. Mənəvi-etik baxımdan bu, başqasının fədakarlığını, sevgisini və ya zəhmətini dəyərləndirməmək, onların əməyinə hörmətsizlik etmək, öz maraqlarına üstünlük verərək qarşı tərəfi incitmək deməkdir. Bu ifadə xüsusilə yaxın münasibətlərdə – ailə içində, dostluqda və sevgi münasibətlərində işlədilir. Bir insanın "qədrini bilməməsi" zamanla münasibətlərdə təklik və anlaşılmazlıq yaratmağa, hörmətsizliyə səbəb ola bilər. Məhz bu səbəbdən "qədrini bilməmək" bir çox etik və mənəvi pozuntuları ehtiva edir, çünki insanın diqqətsizliyi başqasının hisslərini zədələyir və qarşılıqlı hörməti azaldır.

Həyat yoldaşının işinə, fədakarlıqlarına, duyğularına, əhəmiyyətinə laqeyd yanaşmaq və bunu davamlı şəkildə etmək də münasibətlərdə boşluq yaradır və münasibətin zəifləməsinə səbəb olur. Əgər həyat yoldaşı, məsələn, bütün ev işlərini görürsə və ya uşaqlara baxırsa, evi dolandırırsa, amma digər tərəf bu səyləri və fədakarlıqları görmür və qiymətləndirmirsə, bu, ciddi mənada ailə həyatına zərər verə bilər.

Nigar bütün günü evin işlərini, uşağı idarə etməyi və işləyərək ailə büdcəsini təşkil etməyi öz üzərinə götürürdü. Buna baxmayaraq, Tural bir neçə saatlıq işdən sonra evə gəlib sadəcə öz telefonuna göz dikir, ev, ailə, uşaq problemləri ilə maraqlanmır, ya da uzun saatlar anası, bacısı, xalaları ilə səbəbi bəlli olmayan görüşlər keçirir, evə çox əsəbi halda qayıdırdı. Nigar bu vəziyyətdən artıq yorulmuşdu. O, Turalla bir söhbətində ona, "Sən ailənin qədrini bilmirsən, Tural," dedi. Bu nümunə, ailənin, həyat yoldaşının, uşaqlarının qədrini bilməməyin, evlilikdə necə narazılığa və mənəvi yorğunluğa səbəb olduğunu göstərir. Ailə münasibətlərində qarşılıqlı hörmət və qayğı, hər iki tərəfin dəyərinin bilindiyi, qiymətləndirildiyi bir mühit yaratmağın vacibliyini vurğulayır. Frazeologiyanın özəl semantik kateqoriyası kimi frazeoloji məna, bir neçə aspekti birləşdirən mürəkkəb bir semantik bütöv olaraq təqdim olunur: denotativ (anlamın həcmi), işarədici (məhz məna), struktural, konnotativ (üslubi) və sosial aspektlər.

"Sonrakı peşmançılıq fayda verməz" [1, 1263] ifadəsi "dəyər", "fayda", "peşmançılıq" etik konseptlərini vurğulayır, insanın keçmişdə etdiyi səhvlərini və ya yanlışlarını artıq düzəltmək və ya geri qaytarmaq mümkün olmadığını bildirir. Bu, zamanın və fürsətlərin tükəndiyini, insanın etdiyi hərəkətlərin və qərarların nəticələrinin artıq geri döndərilməz olduğunu ifadə edən mənəvi-etik bir anlayışdır. Əgər bir insan dəyərli olan şeyləri vaxtında qiymətləndirməzsə, sonra bu dəyərlərin itirilməsi ilə üzləşə bilər, amma keçmişdə edilən səhvləri təkrar düzəltmək artıq mümkün olmur. Mənəvi-etik anlamda bu ifadə, xüsusilə ailə münasibətlərində qarşılıqlı sevgi və hörmətin zamanında göstərilməsinin vacibliyini vurğulayır. Həyat

yoldaşının və ya uşağının qədrini bilməmək, zamanında diqqət və qayğı göstərməmək, sonradan təkrarlanan peşmançılıqlara səbəb ola bilər, amma bunun artıq geriyə dönüşü olmaz. Həyatın çox şeyini düzəltmək mümkündür, amma etibarı, sevgini və əsl dəyəri itirdikdən sonra onları geri qaytarmaq mümkünsüzdür!

İllər sonra, Fikret nəhayət ki, həyatının ən böyük səhvini anlayaraq, Şəbnəmi geri qaytarmaq istəyirdi. Ancaq hər şeyi itirdiyi, keçmişdə etdiyi səhvləri düzəltmək üçün çox gec olduğu hər an gözlərinin önündə canlanırdı. Şəbnəm isə sakitcə, "Sonrakı peşmançılıq fayda verməz, Fikret. Zamanında qiymətləndirmədiklərin artıq geriyə qayıtmaz," dedi. Bu sözlər Fikrətin içində çox dərin iz buraxdı və o, anladı ki, vaxtında diqqət yetirmədiyi dəyərləri artıq bərpa etmək mümkünsüzdür.

Bu nümunə, zamanında insanlara qarşı hörmət, sevgi və diqqət göstərməyin nə qədər vacib olduğunu, keçmişdə edilən yanlışların sonradan düzəldilə bilməyəcəyini və peşmançılığın artıq faydasız olduğunu göstərir. Frazeoloji mənanın tədqiqi, sözün leksik mənası ilə müqayisədə az öyrənilmişdir, lakin frazeoloji vahidlərin əksəriyyəti monosemantiklidir ki, bu da frazeoloji vahidin semantik strukturundan semlər çıxarmaq üçün komponent analiz metodunun tətbiqini asanlaşdırır. Frazeoloji vahidlərin analizində geniş yayılmış bir üsul, frazeoloji və izah edici lüğətlərin leksik təriflərinə əsaslanır. Semantik sistemlə əlaqədar olaraq semantik sahə, ümumi dil sisteminə daxil olan mikrosistem, mikrosahə təşkil edir. Frazeoloji mikrosahənin əsas elementi frazeoloji vahiddir, ona müəyyən qanunauyğunluqlar xasdır. Frazeoloji vahidlərin mənası mürəkkəb bir quruluşa malikdir və onun mahiyyəti tam olaraq frazeoloji mikrosistemdən kənarda aşkarlanmış ola bilməz.

Gördüyümüz kimi, frazeologizmlər özünün müxtəlif cəhətləri ilə mədəniyyət tarixini, onun müasir təzahürlərini "göstərir". Frazeoloji vahidlərin mədəni komponenti birbaşa praqmatikaya bağlıdır. Mədəni komponentin praqmatika ilə əlaqəsi ilk növbədə danışıq subyekti və adresatın hər zaman mədəniyyətin subyektləri olması ilə müəyyən edilir. Dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqə, milli zehniyyətin dərk edilməsi, dilin mahiyyətini və onun ünsiyyət funksiyasını açır. Frazeologiyanın öyrənilməsi şübhəsiz ki, həm nəzəri, həm də praktik olaraq linqvistikanı zənginləşdirir.

Eyni frazeoloji vahidin müxtəlif kontekstlərdə semantik funksiyasını müqayisə edərkən, hər bir halda frazeologizmin fərqli mənası və ya həmin mənada başqa bir çalar olduğu aşkar olur. Bu, həmin frazeoloji vahidin bir eyni mənada dəfələrlə istifadə edilməsinin mümkünsüzlüyünü istisna etmir [4, 217].

Nümunələrdən göründüyü kimi linqvokulturologiyanın əsas anlayışlarından biri də dil vahidlərinin mədəni konnotasiyasıdır. Mədəni konnotasiya, ümumiyyətlə, denotativ və ya obrazlı motivləndirilmiş mənaların mədəni kateqoriyalarla şərhidir. Frazeoloji vahidlərin dilin ikincil nominasiya işarələri kimi müvafiq tətbiqi, onların obrazlı-situativ motivasiyasının müəyyən xüsusiyyəti ilə xarakterizə olunur ki, bu da birbaşa xalqın dünyagörüşü ilə əlaqəlidir və mədəni konnotasiyanın özəyi məhz bu obrazlı əsasdır.

Kontekstlərdə rast gəldiyimiz kimi frazeoloji mənanın kompleks analizi, mənanın elementlərini və onların komplekslərini aşkar etmək, onları «mikromənalar» anlayışları ilə təsvir etmək, bu elementlər arasında iyerarxiyanı və qarşılıqlı əlaqəni müəyyən etmək məqsədini güdür.

Linqvokulturologiya, həmçinin mədəniyyətlərarası kommunikasiya və etik fərqliliklər haqqında da geniş məlumat təqdim edir. Hər bir mədəniyyətin etik konseptləri öz tarixindən, ənənələrindən və sosial strukturlarından qaynaqlanır. Bu səbəbdən, müxtəlif dillərdəki etik dəyərlər və onların ifadə formaları arasında böyük fərqliliklər mövcuddur. Misal üçün, bir çox Avropa mədəniyyətlərində "fərdi azadlıq" və "şəxsi hüquqlar" üstünlük təşkil edir, bu da dilin frazeologiyası və müsbət mənalı leksikasında öz əksini tapır. Bununla yanaşı, Asiya və Yaxın Şərq mədəniyyətlərində kollektiv dəyərlər, ailə bağları və cəmiyyətin ümumi rifahı daha çox vurğulanır. Bu mədəni fərqliliklər dilin quruluşunda və istifadəsində əks olunur.

Linqvokulturologiya, dilin yalnız ünsiyyət vasitəsi olmaqla qalmadığını, həm də mənəvi-etik prinsiplərin və dəyərlərin mədəniyyətlərdən mədəniyyətlərə ötürülməsində və təmsil olunmasında mühüm rol oynadığını göstərir. Dil, həm cəmiyyətin dəyərlərini formalaşdırır, həm də cəmiyyətin əxlaqi ölçülərini başa düşmək və təhlil etmək üçün bir vasitədir. Dilin mədəniyyətdəki bu rolu, mədəniyyətlərarası kommunikasiya və etik konseptlərin müqayisəli araşdırılması üçün zəngin bir sahə təqdim edir. Linqvokulturologiya, etik dəyərlərin mədəniyyətlərdəki müxtəlifliyinin anlaşılmasında və qarşılıqlı anlayışın inkişafında əvəzsiz bir vasitədir.

ƏDƏBİYYAT:

1. Həmidov İ., Qocayev M., Məmmədova R., Həmidova L. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı, TEAS Press Nəşriyyat evi, 2020, 1560 s.
2. Виноградов В.В. Основные понятия русской фразеологии как лингвистической дисциплины. // Избранные труды. Лексикология и лексикография. Москва, Наука, 1977, С. 118-139.
3. Гамидов И., Мамедли Н., Мамедова Р., Гусейнова Т. Русско-азербайджанский и азербайджанско-русский лингвокультурологический словарь. Bakı, Elm və təhsil, 2025, 360 s.
4. Мамедли А. М. Сопоставительный анализ русской и азербайджанской фразеологии. Вильнюс, J. Rivkino, 2022, 335 с.
5. Маслова В. А. Лингвокультурология: Учеб. пособие для студ. высш. учеб, заведений. Москва, Издательский центр «Академия», 2001, 208 с.

ФРАЗЕОЛОГИЧЕСКОЕ ВОПЛОЩЕНИЕ ЭТИЧЕСКИХ КОНЦЕПТОВ (ПРИМЕРЫ ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКОГО АНАЛИЗА НА ТЕКСТАХ)

РЕЗЮМЕ

Лингвокультурологический подход, сосредоточенный на изучении языковых явлений как единиц, отражающих национальные особенности народа, является актуальной исследовательской областью в современной лингвистике. Этот подход подчеркивает неразрывную связь языка и культуры, раскрывая, как моральные ценности, мировоззрение и опыт людей отражаются через язык. Изучение роли лексики, фразеологии и синтаксиса в выражении этических принципов важно для понимания культурных и языковых различий между различными народами. Фразеологические единицы, в частности, играют ключевую роль в отображении национально-культурных черт и этических ценностей.

PHRASEOLOGİCAL MANİFESTATİON OF ETHİCAL CONCEPTS (EXAMPLES OF LİNGUOCULTURAL ANALYSİS ON TEXTS)

ABSTRACT

The linguocultural approach, which focuses on the study of language phenomena as units reflecting the national characteristics of the people, is a highly relevant research field in modern linguistics. This approach emphasizes the inseparable link between language and culture, highlighting how people's moral values, worldview, and experiences are reflected through language. Studying the role of lexicon, phraseology, and syntax in expressing ethical principles is key to understanding the cultural and linguistic diversity across different languages. Phraseological units, in particular, play an essential role in representing national-cultural traits and ethical values. This research field also sheds light on intercultural communication and the diversity of ethical values.

Firengiz PAŞAYEVA YUNUS*

ELMİN NƏZARƏT ALTINDA OLMASI: I BAKI TÜRKOLOJİ QURULTAYININ (1926) STENOQRAMLARINDA DİSKURSİV HAKİMİYYƏT MEXANİZMLƏRİ

XÜLASƏ

Məqalə 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın stenoqramlarının tənqidi diskurs-analizini təqdim edir. Tədqiqatın əsas məqsədi elmi biliklərin formalaşması və legitimləşdirilməsi prosesində diskursiv hakimiyyət mexanizmlərini aşkara çıxarmaqdır. Metodoloji çərçivə M. Fuko-nun "hakimiyyət–bilik" konsepsiyasına, N. Fairclough-un tənqidi diskurs-analizi modelinə və T. van Deykin ideoloji diskurs nəzəriyyəsinə əsaslanır. Təhlil göstərir ki, Qurultay stenoqramlarında elmi diskurs normativ və institusional məhdudiyyətlər daxilində qurulmuş, müəyyən elmi mövqelər legitimləşdirilmiş, alternativ yanaşmalar isə diskursiv səviyyədə kənarlaşdırılmışdır. Nəticə etibarilə Qurultay yalnız elmi müzakirə məkanı deyil, eyni zamanda elmi biliklərin tənzimləndiyi ideoloji diskurs sahəsi kimi qiymətləndirilir.

* Prof. Dr., Slav Dilleri ve Edebiyatları Bölüm Başkanı, Kafkas Üniversitesi, Kars, Türkiye; firanqiz@yahoo.com

Açar sözlər: *Türkoloji Qurultay (1926); diskurs-analiz; elmi diskurs; hakimiyyət və bilik; ideologiya*

1926 yılında Bakü'de gerçekleştirilen I. Türkoloji Kurultayı, Türk dilleri ve kültürleri üzerine yürütülen akademik çalışmaların kurumsallaşması açısından dönüm noktası olarak kabul edilir. Ancak bu kurultayın bilimsel niteliği çoğu çalışmada betimleyici bir yaklaşımla ele alınmış, stenoqramlarda yer alan söylemin hangi sınırlar içinde üretildiği yeterince sorgulanmamıştır. Bu makale, kurultay stenoqramlarını eleştirel söylem çözümlemesi (ESÇ) çerçevesinde inceleyerek, bilimsel bilginin nasıl gözetim altında üretildiğini ve hangi söylemsel mekanizmalar aracılığıyla meşrulaştırıldığını ortaya koymayı amaçlamaktadır.

Mevcut literatürde I. Türkoloji Kurultayı çoğunlukla tarihsel bir olay olarak ele alınmış; katılımcılar, bildiriler ve alınan kararlar kronolojik biçimde sunulmuştur. Oysa stenoqramlar yalnızca içerik değil, aynı zamanda söylemsel yapı sunan birincil kaynaklardır. Bu çalışma, stenoqramları tarih yazımı malzemesi olmaktan çıkararak, söylem üretiminin kurumsal ve ideolojik boyutlarını analiz eden bir metin olarak değerlendirmektedir.

Araştırmanın kuramsal zemini üç temel yaklaşıma dayanmaktadır. Michel Foucault'nun iktidar/bilgi ilişkisine dair kavramsallaştırması, bilimsel söylemin tarafsız değil, iktidar ağları içinde üretildiğini göstermektedir. Norman Fairclough'un eleştirel söylem çözümlemesi modeli, metin, söylemsel pratik ve toplumsal pratik düzeylerinde çözümleme yapmaya olanak tanır. Teun van Dijk'in ideoloji ve biliş yaklaşımı ise bilimsel metinlerde örtük ideolojik yapıların nasıl kurulduğunu açığa çıkarmaya yardımcı olur. Bu üç yaklaşım birlikte kullanılarak stenoqramlardaki dilsel tercihler, normatif ifadeler ve ideolojik kodlar analiz edilmiştir. Bu çalışma, Eleştirel Söylem Çalışmaları'nın (ESÇ) kuramsal ve metodolojik ilkelerine dayanarak, 1926 Bakü Türkoloji Kurultayı stenoqramlarını bilimsel söylem ile ideolojik normlaştırma arasındaki gerilim bağlamında incelemektedir. ESÇ, söylemi yalnızca dilsel bir yapı olarak değil, aynı zamanda toplumsal iktidar ilişkilerinin yeniden üretildiği bir alan olarak ele alır. Bu bağlamda van Dijk, eleştirel söylem analizinin temel amacını şu şekilde tanımlar:

"Eleştirel Söylem Çalışmaları, iktidarın söylem yoluyla nasıl kötüye kullanıldığını ve bu yolla toplumsal eşitsizliklerin nasıl yeniden üretildiğini ortaya koymayı amaçlar. Bu yaklaşım, söylemin yalnızca dilsel bir yapı olarak değil, aynı zamanda toplumsal güç ilişkilerinin bir aracı olarak ele alınmasını gerektirir. Bu nedenle metnin mikro düzeydeki dilsel özellikleri ile toplumsal ve siyasal yapının makro düzeydeki ilişkileri arasında sistematik bir bağ kurulması zorunludur."[1, 1–3]

Bu kuramsal yaklaşım doğrultusunda, Kurultay stenoqramları yalnızca terminolojik tartışmaların kaydı olarak değil, bilimsel söylemin ideolojik sınırlarının çizildiği ve meşrulaştırıldığı bir söylemsel alan olarak ele alınmaktadır.

"Her toplumda söylemin üretimi, belirli prosedürlerle denetlenir, seçilir, düzenlenir ve sınırlandırılır." [1, 10]

Bu bağlamda, Kurultay'da üretilen bilimsel söylem, Michel Foucault'nun işaret ettiği üzere, serbest bir akademik tartışma alanı olmaktan ziyade, belirli ideolojik ve kurumsal denetim mekanizmaları içinde şekillenen bir söylem pratiği olarak değerlendirilebilir [2, 10].

Çalışmanın inceleme korpusunu I. Türkoloji Kurultayı'nın tam stenografik tutanakları oluşturmaktadır [3]. Makalede özellikle açılış ve programatik konuşmalara odaklanılmıştır. Bu tercih, söz konusu metinlerin Kurultay'daki bilimsel tartışmanın sınırlarını ve meşruiyet ölçütlerini belirleyen kurucu bir işlev üstlenmesinden kaynaklanmaktadır.

Bilimsel Söylemde Gözetim ve Özdenetim

Kurultay stenoqramlarında bilimsel söylem, yoğun biçimde normatif ifadelerle yapılandırılmıştır. "Gerekli", "zorunlu", "ilerici" gibi modal belirleyiciler, bilimsel önerileri tartışmaya açık görüşler olmaktan çıkararak bağlayıcı normlara dönüştürmektedir. Bilim insanlarının konuşmaları, çoğu zaman kolektif bir bilimsel iradenin sesi olarak sunulmakta, bireysel epistemolojik farklılıklar görünmez kılınmaktadır. Ağamalıoğlu'nun I. Türkoloji Kurultayı'nı açan konuşması, biçimsel olarak bir açılış hitabı olsa da, söylem düzeyinde bilimsel alanın sınırlarını belirleyen kurucu bir iktidar edimi olarak işlev görmektedir. Konuşmanın daha ilk satırlarında, Türkoloji'nin hangi tarihsel ve ideolojik koşullar altında meşru bir bilgi

alanı olarak var olabileceği açık biçimde tanımlanmaktadır. Geçmiş, "*han despotizmi*", "*sorumsuz feodaller sistemi*" ve "*Rus çarlığı*" gibi tartışmaya kapalı, olumsuz adlandırmalar aracılığıyla inşa edilmekte; bu geçmiş, devrimci şimdi ile keskin bir karşıtlık içinde sunulmaktadır. Bu adlandırmalar, tarihsel bir analizden ziyade, ideolojik bir önkabule dayalı olarak işlev görmekte ve alternatif yorum ihtimallerini dışlamaktadır.

Söylemin merkezinde yer alan "*halkların var olma, düşünme ve nefes alma imkânını Büyük Ekim Devrimi'nin iradesiyle kazandığı*" yönündeki ifade, ampirik olarak temellendirilen bir savdan çok, sözdizimine yerleştirilmiş bir ideolojik aksiyom niteliği taşımaktadır. Bu presupoziyon, bilimsel faaliyetin tarihsel öznesini doğrudan devrimci iktidara bağlamakta ve bilimi bağımsız bir bilgi alanı olmaktan çıkararak siyasal bir lütuf olarak temsil etmektedir. Aynı zamanda "*burada hiçbir tarihsel açıdan önemli işe başlayamayız*" ve "*her şeyden önce*" gibi zorunluluk bildiren deontik kipler, kurultayın bilimsel işleyişini önceden normatif bir çerçeveye oturtmakta ve söylemsel alternatifleri dışlamaktadır.

Orta düzeyde bakıldığında, konuşma bilimsel, siyasal ve törensel söylemlerin iç içe geçtiği hibrit bir kurumsal yapı üretmektedir. Bilimsel etkinliğin, Lenin'in anısına "*ayağa kalkarak saygı duruşunda bulunulması*" gibi kolektif ritüellerle başlaması, bilimsel meşruiyetin siyasal sadakat üzerinden tesis edildiğini açık biçimde göstermektedir. Van Dijk'in eleştirel söylem çözümlemesi açısından bu yapı, "biz" ile geçmiş arasındaki ideolojik karşıtlığı yeniden üretirken; Foucault'nun bilgi–iktidar ilişkisi bağlamında, bilginin hangi koşullar altında üretilebileceğini önceden belirleyen bir hakikat rejimi kurmaktadır. Bu nedenle I. Türkoloji Kurultayı, bilimsel bir tartışmayla değil, bilimin hangi iktidar koşulları altında mümkün olabileceğini ilan eden sembolik bir bağlılık eylemiyle başlamaktadır. Ağamalıoğlu'nun konuşmasının bu bölümünde, bilimsel söylem açık biçimde devrimci bir tarih anlatısına eklemlenmektedir. "*Sedalı Doğu toprakları boyunca, şehirden şehre, denizlerden okyanuslara*" uzanan devrimci dalga metaforu, Doğu'yu edilgen ve uykuda bir özne olarak konumlandırmakta; halkların "*karanlıktan yaratıcı yeni bir hayata uyandırıldığı*" söylemi, bilgi ve özneleşme sürecini dışsal bir müdahaleye bağlamaktadır. Bu bağlamda "*köle zincirlerinin parçalanması*" ve "*ölümle ölümün alt edilmesi*" gibi yüksek patetik imgeler, bilimsel tartışmayı aşan, kurtarıcı bir ideolojik anlatı üretmektedir.

Özellikle "*öz-belirlenme*" kavramının, "*devrimin en yüce ilkeleri*" ile koşullandırılması, söylemsel bir paradoks yaratmaktadır: Öz-belirlenme, ancak önceden belirlenmiş ideolojik bir çerçeve içinde mümkün kılınmaktadır. Konuşmada "*nesnel bilimsel aydınlatma*"nın "*doğru yön çizgisi*" sağlayacağı vurgusu, bilimin metodolojik tarafsızlığını değil, normatif bir işlevini ön plana çıkarmaktadır. Bu durum, bilimin bağımsız bir bilgi alanı olarak değil, "*eski dünyayı yıkmak ve yeni bir insanlık yaratmak*" amacıyla işleyen devrimci pratiğin bir parçası olarak konumlandırıldığını göstermektedir.

"*Bilim üçüncü bir güçtür*" ifadesi, bu dönüşümün en açık göstergesidir: Bilim, ne özerk ne de eleştirel bir alan olarak tasarlanmakta; aksine, emekçi kitleleri yönlendiren, geleceği kuran bir iktidar aygıtına dönüştürülmektedir. Van Dijk'in eleştirel söylem kuramı açısından bu yapı, "tarihsiz" olarak etiketlenen halkları ideolojik bir hiyerarşi içinde yeniden konumlandırırken; Foucault'nun bilgi–iktidar yaklaşımı bağlamında, bilimin hangi tarihsel amaçlara hizmet edeceğini önceden belirleyen bir hakikat rejimi tesis etmektedir.

Stenoqramlarda dikkat çeken bir diğer unsur, bilim insanlarının söylemlerinde görülen özdenetimdir. Açık muhalefet veya alternatif yaklaşımlar nadiren dile getirilmiş, bilimsel söylem ideolojik uyumla sınırlandırılmıştır. Bu durum, Foucault'nun disiplin ve gözetim kavramlarıyla açıklanabilir. Bilim insanları, söylemlerini yalnızca akademik ölçütlere göre değil, aynı zamanda ideolojik beklentilere göre de düzenlemiştir. I. Tüm Birlik Türkoloji Kurultayı'nı açan konuşmalar, bilimsel tartışmaya yönelik tarafsız bir giriş olmaktan ziyade, bilginin meşru sınırlarının, kabul edilebilir söylem biçimlerinin ve bilimsel alana katılım koşullarının önceden belirlendiği karmaşık bir kurumsal söylem yapısını temsil etmektedir. Ağamalıoğlu ve Musabekov'un konuşmalarının analizi, bilimsel söylemin siyasal-ideolojik düzene tabi kılınma mekanizmasını açığa çıkarmakta; bu tabiiyetin ise tartışmaya kapalı, kendiliğinden doğru kabul edilen bir yapı olarak sunulduğunu göstermektedir.

Söylemin mikro düzeyinde, devrim öncesi geçmişe ilişkin tek yönlü ve bütünüyle olumsuz bir model oluşturan leksik-semantik adlandırmalar belirleyici bir rol oynamaktadır. "Han despotizmi", "sorumsuz feodaller", "Rus otokrasisi" gibi ifadeler, herhangi bir gerekçelendirme ya da karşılaştırmalı çözümleme ile

desteklenmeden, hazır bir değerlendirme şeması olarak işlev görmektedir. Bu tür adlandırmalar geçmişi betimlemekle kalmamakta, onu alternatif yorumlara kapatarak karmaşık ve çelişkili tarihsel süreçlerin bilimsel tartışma konusu edilmesini de dışlamaktadır. Bu bağlamda geçmiş, tamamlanmış ve kesin biçimde aşılmış bir dönem olarak inşa edilmekte; dolayısıyla araştırma özerkliğinden yoksun bırakılmaktadır.

Söylemin sentaktik yapısına yerleştirilen nedensel önvarsayım da özel bir önem taşımaktadır. Halkların "Büyük Ekim Devrimi'nin iradesiyle var olmaya, düşünmeye ve nefes almaya başladıkları" yönündeki ifade, kanıtlanabilir bir tez değil, ideolojik bir aksiyom niteliği taşımaktadır. Bu ifade, doğrulanması gerekmeyen doğal bir olgu gibi sunularak, sonraki tüm akıl yürütmenin önceden kabul edilmiş temeli hâline getirilmektedir. Eleştirel söylem analizi açısından burada, argümanın yerini, dilbilgisel yapıya gömülmüş mantıksal bir öncülün aldığı görülmektedir.

Konuşmanın kipliği de belirgin biçimde normatif bir karakter sergilemektedir. "Başlayamayız", "her şeyden önce", "maksimum düzeyde yararlanmalıyız" gibi yapılar, bilimsel tartışmanın alternatif yönelimlerini dışlayan katı bir deontik çerçeve oluşturmaktadır. Bilimsel faaliyet, özgür bir araştırma süreci olarak değil, önceden belirlenmiş hedeflerin yerine getirilmesine yönelik bir yükümlülük olarak sunulmaktadır. "Eleştiri" çağrıları dahi "bilimsellikten uzak olmayan" gibi sınırlayıcı nitelemelerle birlikte kullanılmakta; bu da fiilen yalnızca ideolojik uzlaşı sınırları içinde kalan eleştirilerin meşru kabul edildiğini göstermektedir.

Mezo düzeyde incelendiğinde, söz konusu metinler belirgin bir türlerarası melezleşme sergelemektedir. Konuşma aynı anda bilimsel bir açılış, siyasal bir bildiri ve ritüel bir eylem işlevi görmektedir. Devrim, Lenin ve Doğu halklarının kolektif tarihsel misyonuna yapılan göndermeler, bilime "üçüncü güç" olarak atfedilen bir rol ile birlikte sunulmakta ve bu durum bilimsel bilginin özerk olduğu izlenimini yaratmaktadır. Ancak bu özerklik görünüşte kalmaktadır; zira bilim, yalnızca "eski dünyanın yıkılması" ve yeni bir toplumsal düzenin inşasına hizmet ettiği ölçüde değer kazanmaktadır. Böylece bilimsel meşruiyet, metodolojik titizlikten ziyade siyasal sadakat üzerinden üretilmektedir.

Makro düzeyde ise Teun van Dijk'in tanımladığı modele uygun biçimde net bir "biz / geçmiş" ideolojik karşıtlığı kurulmaktadır. "Biz", özgürleşmiş, uyanmış ve devrimci projeye dâhil edilmiş öznelere karşılık gelirken; "geçmiş" baskının, karanlığın ve tarihsel yetersizliğin alanı olarak kodlanmaktadır. Bu ikili şemanın dışına çıkan her türlü konum, otomatik olarak kolektif "biz"in dışına itilmekte ve meşruiyetini yitirmektedir. Foucaultcu perspektiften bakıldığında ise bu söylem, bilginin yalnızca devrimci anlatı içinde mümkün olduğu bir hakikat rejimi tesis etmektedir.

Sonuç olarak, I. Tüm Birlik Türkoloji Kurultayı, bilimsel sorunların ve yöntemsel yaklaşımların formülasyonuyla değil, bilginin ideolojik iktidara sembolik olarak tabi kılındığı bir açılış eylemiyle başlamaktadır. Bu durum, açılış konuşmalarının ikincil bir retorik unsur değil, erken Sovyet döneminde bilimsel bilginin üretimini düzenleyen temel bir kurumsal denetim mekanizması olarak değerlendirilmesini mümkün kılmaktadır.

Analiz sonuçları, I. Türkoloji Kurultayı'nın yalnızca bilimsel bir toplantı değil, aynı zamanda bilimsel bilginin düzenlendiği bir söylem alanı olduğunu göstermektedir. Bilimsel dil, ideolojik normlarla iç içe geçmiş; hangi konuların, hangi terimlerle ve hangi sınırlar içinde tartışılabileceği söylemsel olarak belirlenmiştir.

Bu çalışma, I. Bakü Türkoloji Kurultayı stenoqramlarının eleştirel söylem çözümlemesi yoluyla yeniden değerlendirilmesi gerektiğini ortaya koymaktadır. Kurultay, bilimsel bilginin üretildiği kadar denetlendiği bir alan olarak işlev görmüştür. Bu makalede gerçekleştirilen çözümleme, I. Türkoloji Kurultayı'nın açılış konuşmalarında bilimsel söylemin nasıl ideolojik bir çerçeve içinde kurulduğunu göstermeyi amaçlamıştır. Ancak kısa makale formatının yapısal sınırları, kurultay stenoqramlarının tamamının çok katmanlı söylem çözümlemesini ayrıntılı biçimde ele almayı mümkün kılmamaktadır. Bu nedenle çalışma, kuramsal ve yöntemsel açıdan nihai sonuçlar sunmaktan ziyade, erken Sovyet döneminde bilimsel bilginin üretim ve meşrulaştırılma koşullarını eleştirel söylem analizi perspektifinden tartışmaya açan analitik bir çerçeve önermektedir. Gelecekte yapılacak kapsamlı araştırmalar, daha geniş bir metin korpusu üzerinden mikro dilsel göstergeler ile makro ideolojik yapılar arasındaki ilişkileri ayrıntılı biçimde

inceleyerek, Türkoloji biliminin tarihsel kurumsallaşma sürecine ilişkin daha derinlemesine sonuçlara ulaşılmasını mümkün kılacaktır.

KAYNAKÇA

4. Foucault, M. (1971). L'ordre du discours. Paris: Gallimard.
5. Van Dijk, T.A. (2008) Introduction: Discourse and Domination, in T.A.van Dijk, Discourse and Power. N.Y.: Palgrave Macmillan,. PP. 1-26. http://discourseanalysis.ru/ada1/st1.shtml#
6. **Pervıy Vsesoyuznıy Tyurkologiçeskiy Syezd. Stenografiçeskiy otçet.** Baku: *Nağıl Evi*, 2011. 552 s. (26 fevral – 5 mart 1926).

SCIENCE UNDER SURVEILLANCE: DISCURSIVE MECHANISMS OF POWER IN THE STENOGRAPHIC RECORDS OF THE FIRST BAKU TURKOLOGICAL CONGRESS (1926)

ABSTRACT

This article presents a critical discourse analysis of the stenographic records of the First Baku Turkological Congress held in 1926. The study aims to identify the discursive mechanisms of power that shaped and regulated scientific discourse within an institutional framework. The methodological approach is based on Michel Foucault's concept of power/knowledge, Norman Fairclough's critical discourse analysis model, and Teun van Dijk's theory of ideological discourse. The analysis demonstrates that scientific statements at the Congress were produced under normative and ideological constraints, resulting in the legitimization of certain scholarly positions and the marginalization of alternative perspectives. The findings suggest that the Congress functioned not only as a scientific forum but also as a discursive space for regulating scientific knowledge.

Keywords: *Baku Turkological Congress (1926); critical discourse analysis; scientific discourse; power/knowledge; ideology*

НАУКА ПОД НАБЛЮДЕНИЕМ: ДИСКУРСИВНЫЕ МЕХАНИЗМЫ ВЛАСТИ В СТЕНОГРАММАХ I БАКИНСКОГО ТЮРКОЛОГИЧЕСКОГО КУРУЛТАЯ (1926)

АННОТАЦИЯ

В статье представлен критический дискурс-анализ стенографических материалов I Бакинского тюркологического курултая 1926 года. Цель исследования заключается в выявлении дискурсивных механизмов власти, определяющих рамки допустимого научного высказывания в институциональном контексте. Методологическую основу составляют концепция «власть/знание» М. Фуко, модель критического дискурс-анализа Н. Фэрклоу и теория идеологического дискурса Т. ван Дейка. Анализ показывает, что научный дискурс курултая формировался в условиях нормативного контроля и идеологической регламентации, что приводило к институциональному закреплению одних научных позиций и маргинализации других. Делается вывод о том, что курултай функционировал как пространство дискурсивного регулирования научного знания.

Ключевые слова: *первый тюркологический курултай (1926); критический дискурс-анализ; научный дискурс; власть и знание; идеология*

Aynur HƏSƏNOVA*

MÜASİR MEDİA DİLİNDƏ ALINMA SÖZLƏR: XƏBƏR SAYTLARININ MATERİALLARI ƏSASINDA TƏHLİL

XÜLASƏ

Məqalədə Azərbaycan xəbər saytlarının dilində işlədilən alınma sözlərin funksional və üslubi xüsusiyyətləri araşdırılır. Göstərilir ki, qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və beynəlxalq media məkanına inteqrasiya nəticəsində alınma sözlərin mediada istifadə tezliyi xeyli artmışdır. Tədqiqatda alınmaların mətbuat dilinə daxilolma səbəbləri, əsas mənbə dilləri (ingilis, rus, ərəb-fars və qismən türk), terminoloji və ümumi leksik alınmaların fərqləndirici xüsusiyyətləri təhlil olunur. Müəyyən edilmişdir ki, xəbər portallarında terminoloji alınmalar informasiyanın dəqiqliyini və operativliyini təmin edir, lakin eyni zamanda normativlik və üslub baxımından müəyyən problemlər də yaradır. Alınma sözlərin yazılışındakı fərqliliklər, Azərbaycan dilində qarşılığı olan sözlərin əvəzinə xarici sözlərin işlədilməsi media dilində üslubi ağırlığa və dil normasının pozulmasına səbəb olur. Nəticə etibarilə alınmaların mediada rolu iki istiqamətdə qiymətləndirilir: informativliyi artıran vasitə kimi və normativlik baxımından problem yaradan

faktor kimi.

Açar sözlər: *alınma sözlər, media dili, xəbər saytları, funksional üslub, normativlik, leksik dinamika.*

Azərbaycan dilinin lüğət tərkibi tarixi inkişaf prosesində daim dəyişmiş, müxtəlif mənbələrdən qidalanaraq zənginləşmişdir. Dilin daxili imkanları sözyaratma modelləri, semantik genişlənmə, morfoloji məhsuldarlıq lüğət fondunun formalaşmasında əsas rol oynasa da, alınma sözlər də bu prosesdə xüsusi əhəmiyyət kəsb etmişdir. Dünya dillərinin qarşılıqlı təması, ictimai-siyasi münasibətlərin dəyişməsi, mədəni və elmi inteqrasiya nəticəsində müxtəlif dövrlərdə Azərbaycan dilinə çoxsaylı xarici mənşəli leksik vahidlər daxil olmuşdur.

L.N.Krısin alınma dedikdə "müxtəlif elementlərin bir dildən başqa dilə keçməsini" [4, 278], I.M.Kreyn isə "bir dilin təsiri altında başqa bir dilin lüğət tərkibinin zənginləşməsi"ni [3, 11] nəzərdə tutur.

S.Cəfərov alınma sözlərin dilə gəlməsinin ehtiyac nəticəsində zəruri olduğunu söyləyərək, Azərbaycan dilinin leksik tərkibini əsil Azərbaycan sözləri və alınma sözlər olaraq iki qrupa bölür [1, 43].

H.Həsənov alınma sözlərin şifahi və yazılı nitq vasitəsilə alındığını göstərərək, onlara belə bir tərif verir: "Bir dildən digərinə müxtəlif ünsürlərin: söz, morfem, səs və mənanın keçməsi alınma adlanır"[2, 117].

Alınma sözlərə münasibət tarix boyu birmənalı olmamışdır. Bəzi dövrlərdə siyasi-iqtisadi şəraitin diktəsi ilə alınmaların intensivliyi artmış, müəyyən söz qatları dilə güclü şəkildə nüfuz etmişdir. Digər mərhələlərdə isə milli dilin qorunması, təmizlənməsi və standartlaşdırılması ilə bağlı tendensiyalar gücləndiyi üçün alınmaların işlənməsinə daha həssas, bəzən hətta qısqanc münasibət formalaşmışdır. Bu baxımdan tarixi mühitdə alınma sözlər həm zərurət, həm də mübahisə predmeti kimi çıxış etmişdir.

Başqa dillərdən alınan sözlər, adətən, daxil olduqları dilin fonetik, morfoloji və semantik inkişaf qanunlarına uyğunlaşaraq işlənir və zaman keçdikcə həmin dilin təbii leksik sistemi ilə qaynayıb-qarışır. Bu adaptasiya prosesi o dərəcədə güclü ola bilər ki, bəzən sözün alınma mənşəyini müəyyənləşdirmək belə çətinləşir. Dilçilikdə bu hadisə alınmaların "assimilyasiyası" və ya "daxili sistemə inteqrasiyası" kimi izah olunur. Bu isə göstərir ki, leksik alınmalar hər bir dilin öz inkişaf mexanizmini tamamlayan, onu zənginləşdirən və ünsiyyət imkanlarını genişləndirən təbii prosesdir.

Müasir dillərin əksəriyyətində sözalma çoxsahəli kommunikasiya tələblərinin, elmi-texniki tərəqqinin, mədəni əlaqələrin və qloballaşma proseslərinin təsiri ilə zəruri və qaçılmaz proses kimi dəyərləndirilir. Xüsusilə terminologiya, texnologiya, elm, mədəniyyət və ictimai həyat sahələrində yaranan

* Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti; Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının doktorantı. Email:aynur.osmanovna@gmail.com

yeni anlayışların ifadəsi üçün alınmalara ehtiyac daha da artır. Bu baxımdan sözalma yalnız dilin xarici təsirlərə məruz qalması deyil, həm də onun inkişaf gücünün və çevikliyinin göstəricisi hesab edilir.

Azərbaycan dili müxtəlif tarixi dövrlərdə fərqli xarici təsirlərə məruz qalmışdır. Orta əsrlərdə ərəb və fars dillərinin mədəni və dini nüfuzu nəticəsində bu dillərdən olan leksik vahidlər geniş şəkildə dilə daxil olmuşdur. Daha sonrakı mərhələdə rus imperiyası və sovet hakimiyyəti dövrlərində rus dili, eləcə də onun vasitəsilə Qərbi Avropa dilləri alınmaların əsas mənbələrinə çevrilmişdir. Bu leksik təbəqələşmə bəzən həddindən artıq genişlənmiş, normanı aşmış, bəzən isə dilin inkişafına, terminoloji sistemin formalaşmasına və ünsiyyət imkanlarının genişlənməsinə müsbət təsir göstərmişdir.

Mətbuat isə bu proseslərin ən operativ və aydın şəkildə təzahür etdiyi sosial institusiyadır. Mətbuat həm ictimai fikrin formalaşdığı mühit, həm də dil dəyişmələrinin və yeniləşmələrinin canlı şəkildə izlənə bildiyi "dil laboratoriyası" rolunu oynayır. Bu səbəbdən hər bir xalqın mətbuatı həmin xalqın mədəni dəyərlərini, dil siyasətini və dilə münasibətini əks etdirən ideoloji və üslubi güzgüdür. Mətbuatda söz seçimi, alınmaların işlənmə tezliyi və adaptasiya səviyyəsi, dilin saflığı və normativliyi ilə bağlı yanaşmalar cəmiyyətin dilə olan ümumi münasibətini əks etdirir.

Rona-Taş "Ümumi irs və ya alınma" adlı məqaləsində alınmanın mövcudluğunu tarixi şəraitlə daha çox bağlayır və genetik qohumluğu, ərazi münasibətləri, tarixi əlaqələri ön plana çəkərək alınmaların dövrləşməsini və hər dövrün spesifik xüsusiyyətlərini ayrı-ayrılıqda təhlil etməyi təklif edir [5, 31].

Azərbaycan mətbuatının təşəkkülü və inkişafına qədər alınma sözlərin əsasən bədii ədəbiyyat müstəvisində özünü göstərməsi təsadüfi deyildi. Bu dövrdə yazılı ədəbi dil daha çox bədii əsərlərdə təcəssüm tapdığı üçün xarici mənşəli sözlərin dilə daxil olması məhz bədii üslub vasitəsilə baş verirdi. Lakin XX əsrin əvvəllərində mətbuatın sürətli inkişafı Azərbaycan dilinin funksional yükünü genişləndirdi və nəticə etibarilə alınmaların dilə daxilolma intensivliyi xeyli artdı. Bu mərhələdə qəzet və jurnalların çoxalması, ictimai fikir mühitinin genişlənməsi dil məsələlərinin, o cümlədən alınmaların işlənmə xüsusiyyətlərinin geniş müzakirə obyektinə çevrilməsinə səbəb oldu.

Təsadüfi deyil ki, həmin dövr mətbuatında dil və üslub problemləri ilə bağlı gedən diskussiyaların mərkəzində məhz alınma sözlər dayanırdı. C. Məmmədquluzadə, Ü. Hacıbəyli, Ö. F. Nemanzadə, Ə. Hüseynzadə, Ə. Ağaoğlu kimi publisistika və jurnalistika sahəsinin görkəmli nümayəndələri alınmaların xarakteri, işlənmə zərurəti, üslubi məqamları və dilin daxili qanunauyğunluqlarına uyğunluğu barədə geniş polemikalara girişmişdilər. Onların yazılarında həm ortaq türk dilinin yaradılması ideyası, həm milli dilin saflığının qorunması, həm də müasir kommunikasiya tələblərinə cavab verən çevik və funksional leksik sistemin formalaşdırılması kimi məsələlər xüsusi yer tuturdu.

Ümumiyyətlə, hər bir əsrin əvvəli və sonu ictimai-siyasi dəyişikliklər fonunda dilçilik müzakirələrinin daha fəal şəkildə aparıldığı mərhələ olur. Azərbaycanda XX əsrin əvvəlində dilin taleyi və inkişaf istiqamətləri ətrafında aparılan müzakirələr, əsrin sonunda müstəqilliyin bərpası ilə tamamilə yeni kontekstdə yenidən gündəmə gəldi. Müstəqillik dövründə mətbuatın partiya nəzarətindən və inzibati məhdudiyyətlərdən azad olunması, özəl media sektorunun formalaşması, informasiya axınının çoxalması dilin dinamikasına, üslubi xüsusiyyətlərinə və təbii olaraq alınmalara münasibəti köklü şəkildə dəyişdirdi. Qloballaşma, texnoloji yeniliklər və beynəlxalq informasiya mübadiləsi alınmaların həm sayını, həm də müxtəlifliyini artıraraq dil siyasəti və üslub mədəniyyəti baxımından yeni məsələlər ortaya çıxardı.

Bu səbəbdən Azərbaycan mətbuatının son onilliklərdəki inkişaf tendensiyalarını nəzərə almaq, bu dövrdə xarici mənşəli sözlərin dilə daxilolma mexanizmlərini, funksional yükünü və üslubi xüsusiyyətlərini sistemli şəkildə araşdırmaq mühüm elmi əhəmiyyət kəsb edir.

Alınmaların mətbuat dilindəki durumunun öyrənilməsi dilimizin müasir inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, normativləşmə proseslərinin təhlili və milli dil siyasətinin elmi əsaslarla formalaşdırılması baxımından xüsusi dəyər daşıyır.

Beləliklə, alınmaların mətbuat dilində işlənmə xüsusiyyətlərinin tədqiqi təkcə leksik dinamikanı yox, həm də cəmiyyətin dil mədəniyyətini, onun yeniliyə münasibətini, milli və qlobal meyillər arasında balans yaratmaq cəhdlərini anlamaq baxımından xüsusi elmi əhəmiyyət daşıyır.

Müasir media mühitində informasiya axınının sürətlənməsi, qlobal kommunikasiya proseslərinin genişlənməsi və texnoloji yeniliklər xəbər saytlarının dilində alınmaların intensiv şəkildə işlədilməsinə

səbəb olur. Alınmalar media dilinin dinamikliyini və çevikliyini təmin etməklə yanaşı, dilin leksik strukturunda yeni semantik qatların formalaşmasına təsir göstərir.

Xəbər portallarında beynəlxalq terminologiyanın, xüsusilə siyasət, iqtisadiyyat, texnologiya və sosial media sahələrinə aid sözlərin daha sıx şəkildə işlədilməsi mediada dilin modernləşməsi və funksional üslub xüsusiyyətlərinin dəyişməsi ilə əlaqələndirilir. Bu baxımdan xəbər saytlarının dilində alınmaların işlənmə xüsusiyyətlərinin araşdırılması müasir dilçiliyin aktual istiqamətlərindən biri hesab olunur.

Xəbər sayt və portallarında alınmaların artmasının əsas səbəblərindən biri informasiya texnologiyalarının, sosial şəbəkələrin və qlobal media platformalarının sürətlə inkişaf etməsi ilə bağlıdır. Beynəlxalq informasiya mühitində meydana çıxan çoxsaylı termin və anlayışlar lokal mediaya birbaşa daxil olur və adaptasiya prosesi qısa zamanda baş verir. Bu xüsusilə siyasət, iqtisadiyyat, maliyyə, texnologiya, səhiyyə və sosial sahələrə aid materiallarda daha aydın müşahidə olunur. “Onlayn”, “platforma”, “monitorinq”, “broker”, “trafik”, “reytinq”, “post”, “trend” kimi alınmalar bu qəbildəndir və operativ media dilinin qurulmasında geniş funksionallığa malikdir.

Digər mühüm faktor xəbər saytlarının çox vaxt beynəlxalq agentliklərin materiallarına istinad etməsi və tərcümə prosesində terminoloji uyğunluğu qorumağa çalışması ilə bağlıdır.

Tərcümə zamanı beynəlxalq terminlərin böyük hissəsi saxlanılır, beləliklə zamanla Azərbaycan mediasının dilində normativləşir. Bu isə media dilini həm müasir və operativ edən, həm də dil sistemində müəyyən struktur dəyişikliklərinə səbəb olan proses kimi qiymətləndirilir.

Xəbər saytları vasitəsilə dilə daxil olan alınmaların funksional üslub baxımından müxtəlif təsirləri də müşahidə olunur: bir tərəfdən onlar mətnin dəqiqliyini və kommunikativ səmərəliliyini artırsa da, digər tərəfdən, bəzi hallarda dilin daxili qanunauyğunluqları ilə ziddiyyət təşkil edərək normativlik və üslub problemləri yaradır.

Xəbər saytlarında əsasən ingilis, rus, qismən türk və ərəb-fars dillərindən keçən alınma sözlər üstünlük təşkil edir:

– İngilis mənşəli alınmalar informasiya texnologiyaları, media, iqtisadiyyat və beynəlxalq siyasət sahələrində daha aktivdir: “onlayn”, “reytinq”, “marketinq”, “event”, “post”, “trend”, “trafik” və s.

– Rus mənşəli alınmalar isə daha çox sosial-siyasi diskursdan gələn sovet dövrü terminləri ilə bağlıdır: “prokuror”, “komissiya”, “şura”, “jurnal”, “məsləhətçi” və s.

Funksional baxımdan isə bu alınmaları iki qrupa ayırmaq mümkündür:

1. Terminoloji alınmalar, yəni müəyyən sahə üçün dəqiq termin funksiyası daşıyan və əvəzedilməz sözlər nəzərdə tutulur (“monitorinq”, “broker”, “platforma”, “audit”, “virus”, “status” və s.).

2. Ümumi leksik alınmalar dedikdə isə gündəlik istifadəyə keçmiş və media dilində geniş yayılmış sözlər başa düşülür (“reklam”, “format”, “variant”, “sosial şəbəkə”, “təhlükəsizlik kodu” və s.).

Media mətnlərinin təhlili göstərir ki, alınmalar xüsusilə başlıqlarda, sürətli xəbər keçidlərində və analitik yazılarda daha fəal şəkildə işlədilir. Məsələn:

1. “QS Dayanıqlılıq 2026" reytinqində Cənubi Qafqazdan yalnız Azərbaycan təmsil olunur?!” – (Mənbə: report.az, 20 noyabr 2025 - https://report.az/elm-ve-tehsil-xeberleri/azerbaycan-qs-dayaniqliliq-2026-reytinqinde-cenubi-qafqaz-uzre-temsil-olunan-yegane-olkedir).

2. “Oqtay Qasımov: "BFB yeni interaktiv statistik platforma təqdim edəcək” – (Mənbə: report.az, 20 noyabr 2025 - https://report.az/maliyye-xeberleri/oqtay-qasimov-baki-fond-birjasi-bu-yaxinlarda-yeni-interaktiv-statistik-platformasini-teqdim-edecek).

3. “Hazırki rəqabətli dünyada qlobal çağırışlar və yeni trendlər fonunda Azərbaycan iqtisadiyyatı davamlı inkişaf edir.” – (Mənbə: report.az, 13 noyabr 2025 - https://report.az/maliyye-xeberleri/semed-besirli-ozel-sektorun-yeni-teleblere-uygunlasmasi-vacibdir).

4. “Məhsul "Dark Web" və "Deep Web"də satılan kartları monitorinq edir” – (Mənbə: trend.az, 20 noyabr 2025 - https://az.trend.az/business/4119873.html).

5. “Süni intellekt kompüteri virusa yoluxdura bilər - “Microsoft” xəbərdarlıq edib” – (Mənbə:trendaz, 20 noyabr 2025 - https://az.trend.az/other/world/4119895.html).

6. "...risk əsaslı audit praktikasının inkişaf etdirilməsində əhəmiyyətini qeyd edib" – (Mənbə: trend.az, 17 noyabr 2025 - https://apa.az/maliyye/hesablama-palatasi-ve-dvx-arasinda-anlasma-memorandumu-imzalanib-926563) və s.

Alınmalar media dilinin müasir tələblərə cavab verməsinə şərait yaratsa da, müəyyən çətinliklərə də səbəb olur. Belə ki, bəzi alınmaların yazılış forması fərqli portallarda müxtəlif görünür ("startap"/"start-up", "story"/"stori"), bu da normativliklə bağlı tələblərin

pozulmasına gətirib çıxarır.

Eyni zamanda, Azərbaycan dilində qarşılığı olan sözlərin əvəzinə alınmaların seçilməsi də dilçilik baxımından bağışlanmaz səhvdir ("tədbir" əvəzinə "event", "canlı" yayım əvəzinə "live"). İnformativ mətnlərdə həddindən artıq alınma sözlərin işlədilməsi dilin axıcılığını zəiflədir və üslubi ağırlıq yaradır.

Nəticə: Tədqiqat göstərir ki, xəbər saytlarının dilində alınmalar Azərbaycan mediasının müasir informasiya mühitinə adaptasiyasını təmin edən mühüm leksik vasitədir. Onlar xəbərlərin operativliyini artırır, terminoloji dəqiqlik yaradır və texnoloji, sosial və iqtisadi sahələrdə yaranan yeni anlayışların mediada sürətlə yayılmasına şərait yaradır. Bununla yanaşı, alınmaların intensiv istifadəsi müəyyən normativ və üslubi problemlər doğurur. Bu səbəbdən mediada alınmaların işlədilməsi balanslı şəkildə aparılmalı, Azərbaycan dilinin daxili qanunauyğunluqları və normativ tələbləri nəzərə alınmalıdır.

Beləliklə, alınma sözlər xəbər saytlarının dilinin modernləşməsində, Azərbaycan dilinin funksional və leksik zənginliyinin artmasında əhəmiyyətli rol oynayır və bu sahədə araşdırmaların davam etdirilməsi zəruridir.

ƏDƏBİYYAT

1. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. (Leksika). Bakı, Maarif, 1982, 215 s.
2. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı, Maarif, 1988, 306 s.
3. Крейн И. Французские заимствования XIX века в английском литературном языке. АКД, Москва, 1963, 17 стр.
4. Крысин.Л.П. К определению "заимствование" и "заимствованное слова". Кн. "развитие современного русского языка". Москва, 1965.
5. Рона-Таш. А. Общее наследие или заимствования? //Вопросы языкознания, 1974, № 2.

Aynur HASANOVA

LOANWORDS İN MODERN MEDİA LANGUAGE: AN ANALYSİS BASED ON NEWS WEBSİTES

ABSTRACT

The article examines the functional and stylistic features of loanwords used in Azerbaijani news websites. It is shown that due to globalization, rapid development of information and communication technologies, and integration into the international media space, the frequency of loanwords in media discourse has significantly increased. The study analyzes the reasons for the entry of loanwords into the language of the press, their main source languages (English, Russian, Arabic-Persian, and partly Turkish), and the distinguishing features of terminological and general lexical borrowings. The research reveals that terminological borrowings ensure accuracy and efficiency of information in news portals, but at the same time create certain problems in terms of normativity and style. Variations in spelling and the replacement of native Azerbaijani words with foreign equivalents lead to stylistic overload and violation of linguistic norms. As a result, the functional role of loanwords is evaluated from two perspectives: as a means of enhancing communicative efficiency and as a source of normativechallenges.

Keywords: *loanwords, media language, news websites, functional style, normativity, lexical dynamics.*

Айнур ГАСАНОВА

ЗАИМСТВОВАННЫЕ СЛОВА В СОВРЕМЕННОМ ЯЗЫКЕ СМИ: АНАЛИЗ НА МАТЕРИАЛЕ НОВОСТНЫХ САЙТОВ

РЕЗЮМЕ

В статье исследуются функционально-стилистические особенности заимствованных слов в языке азербайджанских новостных сайтов. Указывается, что в результате глобализации, быстрого развития информационно-коммуникационных технологий и интеграции в международное медиапространство частота заимствований в средствах массовой информации значительно возросла. Анализируются причины проникновения заимствований в язык прессы, основные языки-источники (английский, русский, арабо-персидский и частично турецкий), а также различия между терминологическими и общеязыковыми заимствованиями. Установлено, что терминологические заимствования обеспечивают точность и оперативность информации, однако одновременно создают определённые проблемы нормативности и стиля. Различия в написании заимствований и вытеснение родной лексики заимствованной приводят к стилистической перегруженности и нарушению языковых норм. Функциональная роль заимствований оценивается в двух аспектах: как средство повышения эффективности коммуникации и как фактор нормативных трудностей.

Ключевые слова: *заимствованные слова, язык СМИ, новостные сайты,*

Belgin Tezcan AKSU

BİRİNCİ TÜRKOLOJİ KURULTAYI'NDAN BUGÜNE TÜRKÇEDE ALINTI KELİMELERİN YAZIM SERÜVENİ

Dünya üzerindeki birçok dil yokken var olan Türkçe tarihî açıdan bu eskiliği ve Sibirya'dan Doğu Avrupa'ya, Orta Asya'dan Orta Akdeniz'e kadar yaklaşık olarak 12 milyon kilometrekarelik geniş coğrafyada kullanılıyor olması sebebiyle birçok dille alışveriş içerisinde bulunmuş, hem etkilenen hem de etkileyen bir dil olmuştur.

Türkler yerleşik olarak yaşadıkları coğrafyadaki komşularıyla, ticaret yaptıkları bölgelerde yaşayanlarla veya göç ettikleri sırada geçtikleri bölgelerdeki yerleşik halkla sürekli etkileşim içinde olmuşlar ve bu etkileşimin sonucunda karşılaştıkları yeni yeni unsurları bünyelerine katarak kültürel ve dilsel anlamda gelişmeler yaşamışlardır. Bu kültürel ve dilsel gelişimin yansıması ilk dönemlerde Türkçenin söz varlığında daha sonraları söz varlığının yanı sıra yapısında ve anlam bilgisinde kendisini göstermiştir.

Türkçenin yabancı dillerle olan etkileşimine dönemsel olarak baktığımızda yabancı kökenli kelime olarak en az sayıya sahip olduğu dönemin VI-X. yüzyıllar arasındaki Eski Türkçe dönemi olduğunu görürüz. Eski Türkçe döneminde alıntı olarak adlandırdığımız yabancı unsurlar Çinceye, Tibetçeye, Sanskritçeye, Toharcaya, Soğdcaya ve Orta İrancaya aitti. Askerlik, din, eğitim, teknik, müzik vb. alanlardaki bu alıntıların çoğu dönemin sonuna doğru unutulmuş, bir kısmı Orta Türkçe döneminin sonlarına kadar kullanılmış, pek azı bugüne ulaşmıştır [9, 527].

Söz varlığı açısından geçiş dönemi niteliğindeki Karahanlı Türkçesi eserlerinde etkisi görülen diller Arapça, Farsça, Çince ve Moğolcadır.

Göçebe hayatı yaşanırken ihtiyaç duyulmayan ancak yerleşik düzende ihtiyaç hâline gelen eşya ve kavramlar ile bitki, balık, bazı yiyecek adları Anadolu'ya yerleşilmesiyle birlikte Rumca ve Ermeniceden alınmıştır.

Uygur döneminde yabancı kavramlara karşılıklar türetme ne kadar yoğun ve başarılı bir biçimde yaşandıysa Selçuklular döneminde tutum tamamen değişmiş, Arapça ve Farsçayı benimseme, olduğu gibi kabullenme yolu izlenmiştir, hatta XII. yüzyıl sonlarına kadar Arapçaya, ondan sonra da Farsçaya devlet dili olacak kadar önem vermişlerdir.

Rumeli'ye geçişle birlikte Sırplarla, Macarlarla, Cermenlerle ve Romenlerle; Karadeniz ve Akdeniz kıyılarına ulaşıldığında ise Cenevizlilerle, Venediklilerle, Portekizlilerle ve İspanyollarla karşılaşılmış, bu

milletlerin dillerinden Türkçeye ticaretle, tıpla, gemicilikle, inşaatla, giyim kuşamla, aletlerle ilgili yeni kelime ve kavramlar geçmiştir.

Anadolu Beylikleri dönemi Türkçe için bölge ağızlarının yazı diline geçirildiği, konuşma dilinden uzaklaşmadan, işlenip gelişerek gittikçe yeterli ve zengin bir yazı dili olma yoluna yöneldiği dönemdir.

Osmanlı Türkçesinde Alıntıların Yazımı

Osmanlı Devleti'nin sınırlarını genişlettiği XV. yüzyıl ortalarında millî bilincin gittikçe zayıflaması sonucunda Türkçenin yetersizliğinden söz edilmeye başlanmıştır. Aydın çevrelerde bir eserin Arap ya da Fars dili ile yazılması bir övünç, Türkçe yazılması ise bir utanç vesilesi olmuştur. Bu bakımdan ancak halka seslenen eserler Türkçe yazılmış; bunlar için özür dilendiği bile görülmüştür [5, 103]. Bu dönem Arapça ve Farsça isim, sıfat, zarf, edat ve fiil türünden olan söz varlığının yanı sıra o dillerin dil bilgisi kurallarının da etkisi altında kalındığı bir dönemdir. Başta basit kurallar alınmış zamanla karmaşık kurallar Türkçeyi etkilemiştir.

Artık XVI. yüzyılda hem söz varlığı hem de kullanılan ekler ve kurallar açısından Arapça, Farsça ve Türkçenin karışımından oluşmuş bir dil kullanılır olmuştur. O derece ileri gidilmiştir ki zaman zaman aydınlar ve yazarlar bile bu dili anlayamaz duruma gelmişlerdir. Bu yüzyılın sonunda konuşma dili ve yazı dili çoktan birbirinden ayrılmıştı. XIX. yüzyılda sosyal meselelerin Batı örnek alınarak gazete ve dergi sütunlarında yer almasıyla, Batı'ya öğrencilerin gönderilmesiyle, oralardan uzman ve teknisyenlerin gelmesiyle yoğunlaşan ilişkiler sonucunda dilimizdeki Fransızca kökenli kelimeler oldukça fazlalaşmıştır [8, 13].

Tanzimat döneminde dilin sadeleşmesi gerektiği düşüncesinde birleşilmiş olmasına karşın söz varlığının Türkçeleştirilmesi yerine sadece yabancı kurallardan temizlenmiş bir dil oluşturulmaya çalışılmıştır. Bu dönemde de konuşma dili ile yazı dili birbirinden uzak düşmüştür.

Tanzimat döneminde bir dereceye kadar sadeleşme yolu tutmuş olan yazı dili daha çok Servet-i Fünûn ve Edebiyât-ı Cedîde dönemlerinde yeniden ağırlaşmıştır. Bu dönemde Ahmet Midhat Efendi halkçı bir tutum sergileyip söyleyişi esas alan bir yazımı savunurken Tevfik Fikret, Cenap Şahabettin gibi Servet-i Fünûn yazarları kelimelerin asıllarına sadık kalınması gerektiğini söyleyip köken imlasını kullanırlar. Ömer Seyfettin tartışmaya yabancı kökenli kuralların atılması yönündeki düşüncesiyle katılır.

Millî Edebiyat dönemi ise Cumhuriyet öncesindeki son sadeleştirme girişimlerinin yaşandığı bir dönemdir.

Cumhuriyet Döneminde Alıntıların Yazımı

Cumhuriyet döneminde ticaret, kültür, eğitim ve savunma gibi alanlarda Batı'yla ilişkiler artmıştır. Dildeki sadeleşme sırasında atılan birçok Arapça ve Farsça kelimelerin yerini Fransızca, Rumca, İngilizce kökenliler almış, yerel ağızlardan yapılan derlemeler sırasında da farkında olunmadan özellikle Yunanca ve Ermenice kelimeler dile girmiştir [8, 15].

Cumhuriyetle birlikte dilin Tanzimat döneminde yeterince sadeleştiğini düşünenler olduğu gibi yazar veya aydınların yeni kelimeler oluşturma ve dili zenginleştirme konusunda hiçbir kural tanımadan dili istedikleri biçimde şekillendirebileceklerini düşünenler de olmuştur. Bu dönemde yabancı kökenli kelimelerin yazıldığı gibi mi, söylendiği gibi mi kullanılmaları gerektiği tartışmaları sürerken bu kelimelere Türkçe karşılıkların bulunması düşüncesi de eklenmiştir. Harf ve dil devrimleriyle yabancı kökenli kelimelere bakış söyleyiş merkezli yazım biçiminde olmuştur.

Türkçe ünlü, ünsüz uyumu vb. kuralları barındıran düzenli ve sağlam bir dildir. Anadolu ağızları bu kurallar açısından yazı diline göre daha da duyarlıdır. Öyle ki kurala uymayan Arapça ve Farsça kelimeleri kural dışılıktan kurtarmaya çalışır ve "ateş"i *ataş*, "filanca"yı *filence*, "dükkân"ı *dükgen*, "acemi"yi *acamı* yapar.

Alman şairi Goethe *"Bir dilin kudreti kendini, yabancı olan şeyleri atmakta değil, onları yutup hazmetmekte gösterir."* der [2, 152]. Türkçe tam da bunu yapabilmiş, Soğdca kand > *kent*, Arapça ṣaḥīḥ > *sahi,* Arapça menāre > *minare,* Farsça gul > *gül,* Arapça saḥleb > *salep,* Arapça naʿnaʿ > *nane,* Farsça şeftālū > *şeftali,* Farsça gūşe > *köşe,* Farsça revgan > *rugan,* Yunanca kastanoia > *kestane,* Rusça rubl' > *ruble,* Çince chá > *çay,* Japonca samurai > *samuray*; Yunanca prinobaris > Farsça bîrûn-âbâd > *Bornova,* Yunanca

Salanikos > *Selânik,* Japonca Shintō > *Şinto* vb.nde olduğu gibi yabancı dillerden aldığı hem cins isimleri hem de yer adlarını az veya çok kendi söyleyişine göre değiştirmiştir.

Görüldüğü gibi Türkçe farklı yazı sistemlerini kullanan Arapça, Farsça, Yunanca, Rusça, Çince ve Japoncadan gelen kelimeleri kendi kurallarına dönüştürmekte güçlük çekmemiştir. Bu dillerden gelen kelimelerin yazımları için farklı yöntemler kullanılmıştır. Yazı sistemi bilinen diller olan Arapça ve Farsçadan alınan kelimeler "göz için imla" esasına (fonetik) göre, yazı sistemi bilinmeyen diller olan Yunanca, Rusça, Çince, Japonca vb.den alınan kelimeler ise "kulak için imla" esasına göre yazılmışlardır. Harf devrimi öncesi Latin alfabesi de Türkçe için bilinmeyen bir yazı sistemi olduğundan o dönemde bu yazı sistemi kullanılan Fransızca, İtalyanca, Almanca, İngilizce vb. dillerden gelen kelimeler de "kulak için imla" esasına göre alınmışlardır. Dolayısıyla Arapça ve Farsça kelimeler yazılırken asıllarına uyulmuş, diğer dillerden alınan kelimelerde ise söyleyiş esas kabul edilmiştir.

Birinci Türkoloji Kurultayı'nda Alıntı Kelimeler Sorunu

Türk dünyasında ortak alfabe, ortak bilim terimleri, ortak edebiyat vb. alanlarda neler yapılabileceğinin konuşulduğu "Birinci Türkoloji Kurultayı" 26 Şubat - 6 Mart 1926 tarihleri arasında Bakü'de "alfabe, imla, terim, ortak edebî dil, öğretim yöntemleri, akraba ve komşu lehçelerin ilişkileri, Türk dilinin tarihi, etnografya, yurt bilgisi" başlıklarında olmak üzere 17 oturumda 38 bildiri sunularak gerçekleşir. Kurultay'a gitmek üzere 17 Şubat 1926'da İstanbul'dan hareket eden vapurda Türkiye'yi temsilen Prof. Mehmet Fuat Köprülüzade, Hüseyinzade Ali Bey (Ali Turan) vardır.

Kurultay kararlarının okunup oylandığı on yedinci oturumda Türk dillerinin imlası hakkında alınan kararlardan alıntı kelimelerle ilgili olan dördüncüsü şöyledir:

"Türk dillerine girmiş olan Arapça ve diğer yabancı (Avrupa vb.) kelimelerin her halkın kendi söyleyişine göre fonetik biçimde yazılması zorunludur. Bu uygulama büyük ölçüde hâlâ okuryazar olmayan halk kitlelerinin okuma yazma öğrenmelerini kolaylaştıracaktır. Zorluk yaratabileceği kesim ise sadece Arapça bilen dar bir aydın tabakasıdır." [7, 460]

Aynı oturumda Türk dillerinin terminoloji sistemi hakkında alınan kararlar arasında alıntı kelimelerin yazımıyla ilgili olan kararlar da şöyledir:

"1. Türk dillerinden uygun kelimeler bulunamadığında Türkçe gramer kurallarına tabi olmaları şartıyla geniş kitlelerin benimsediği Arapça ve Farsça terimler alınabilir.

2. Avrupai kelimelerin sadece kökleri alınmalı ve bunlar Türkçenin telaffuzuna uygun hâle getirilmelidir. Daha önce Türkçe dışındaki dillerden alınmış ve Türkçenin telaffuzuna uygun hâle getirilmiş kelimeler ise olduğu gibi korunmalıdır.

3. Avrupa kaynaklı köklere sonradan eklenen bütün etimolojik katmanlar Türk dillerinin yapısına uygun hâle getirilmelidir." [7, 460]

1926 yılında alınan bu kararların bütün Türk dünyasına yansımaları olmuştur. Türk Cumhuriyetlerindeki yabancı kökenli kelimelerin yazımı konusundaki süreçler her ne kadar Türk dilinin özgünlüğünü koruma çabalarına dayansa da küreselleşme sonucu günlük kullanımda ve özellikle teknoloji dilinde Batı kökenli kelimelerden de yardım alındığını göstermektedir. Bağımsızlık sonrası her Türk Cumhuriyeti dilini bir kültürel kimlik unsuru olarak kabul ederek dildeki yabancı etkileri sınırlamaya çalışmıştır. Yabancı kökenli kelime kullanılmak durumundaysa söylendiği gibi yazmayı tercih etmişlerdir.

Bağımsızlık öncesinde Azerbaycan Türkçesi Rusçanın etkisi altında kalmış ve dildeki yabancı kelimeler genellikle Rusça kökenli olmuştur. Yazım kuralları Rus alfabesinin etkisiyle şekillenmiş ancak bağımsızlık sonrası özellikle Rusça kökenli kelimelere karşı Türkçe karşılık üretme çabası artmıştır. Bunun yanı sıra Batı dillerinden gelen kelimelerde yaygın bir biçimde *internet, biznes* (business), *miting* (meeting) gibi söyleyiş esas alınmıştır. Bu durum Kırgız Türkçesinde de aynı biçimde gelişmiştir.

Kırgız, Kazak, Özbek ve Türkmen Türkçelerinde de bağımsızlık öncesinde Rusçanın etkisi ağırlıklıdır. Daha sonra *internet* gibi Batı kökenli kelimeler için resmî kurumlarca karşılıklar belirlenmiş ve kullanılmıştır. Karşılığı bulunamayan kelimeler içinse yine yazımda Türkçe söyleyişe uygunluk söz konusu olmuştur.

Türkiye Türkçesinde Alıntıların Yazımı

Türkçe bünyesindeki yabancı kökenli kelimeleri çeşitli yöntemlerle kendi kurallarına uydurmaya çalışmıştır. Türkçeleştirme yöntemlerinden biri kelime başında *sb, sc, sk, sq, sl, sm, sn, sp* ve *st* ünsüz bulunan yabancı kökenli kelimelerin başına "ı, i, u" ünlüleri getirerek Türkçeleştirmek: scarto (İt.)> *ıskarta*, spernacio (İt.)> *ısparmaça*, stampa (İt.)> *ıstampa*; skamni (Yun.)> *iskemle*, sporta (İt.)> *işporta*, spandito (İt.)> *izbandut*, skoumpri (Yun.)> *uskumru*, screw (İng.)> *uskuru*, stramazzo (İt.)> *usturmaça*, stropa (İt.)> *usturpa*. Bir diğeri kelime başındaki ünsüzlerin arasına bir ünlü getirerek Türkçeleştirmek: Alm. Groschen > *kuruş*, İng. club > *kulüp* vb.

İtalyanca, Fransızca, İspanyolca ve İngilizce birçok kelime Türkçede söylendiği biçimde yazıma geçirilmiştir. Bu tür kelimeleri ablóco (İt.)> *abluka*, abonné (Fr.)> *abone*, adapté (Fr.)> *adapte*, embargo (İsp.)> *amborgo*, ambulance (Fr.)> *ambulans*, escorte (Fr.)> *eskort*, canalette (Fr.)> *kanalet*, élastique (Fr.)> *lastik*, maillot (Fr.)> *mayo*, Revier (Alm.)> *revir*, revanche (Fr.)> *rövanş*, tersana (İt.)> *tersane* biçiminde örneklendirebiliriz. Bazı kelimeler ise hem söyleyişe hem de Türkçenin ses özelliklerine uyarak dilimize girmiştir: Farsça *şikenbe, şikence* kelimeleri dilimize girerken Türkçede *ş* ile kelime başlamadığı için başına bir ünlü alarak *işkembe*, *işkence* olmuştur. Farsça *rişte, rūze*; Arapça *rub* kelimeleri dilimize girerken Türkçede *r* ünsüzü ile kelime başlamadığı için başına ünlü almış; *erişte, oruç, urup* olmuştur. Fransızca *harmonie, harmonique, harmonisé, harmonium, héroïne, hermine, hôtel*; Rumca *hortensia* gibi bazı kelimeler Türkçede *h* ünsüzü olmadığı için dilimize girerken hem bu ünsüzünü düşürmüş hem de dilimizdeki okunuşa uymuştur: *armoni, armonik, armonize, armonyum, eroin, ermin, otel, ortanca* (bitki). Bu *h* ünsüzünü koruyan kelimeler de bulunmaktadır: İngilizce *hall, hobby*; Fransızca *hiérarchie, homogène* gibi kelimeler, Türkçeye sırasıyla *hol, hobi, hiyerarşi, homojen* biçiminde girmiştir. Fransızca *iode* (kim.), *ion* (fiz. ve kim.), *iodure* (kim.), *laboratoire, oogone, oolithe*; İtalyanca *sedia* gibi bazı kelimeler Türkçede kelime kökünde iki ünlü yan yana bulunmadığı için araya bir *y* veya *v* ünsüzü alarak dilimize girmiştir: *iyot, iyon, iyodür, laboratuvar, ovogon, ovolit, sedye* [3, 3].

Kişi ve yer adlarında da bu ikili durum söz konusu olup *Napolyon, Demirbaş Şarl; Atina, Cenevre, Selânik* vb. Türkçenin ses ve yapı özelliklerine göre yazılanlar olduğu gibi *Beethoven, Shakespeare, New York* vb. bu özelliklere uymayan yazımlar da söz konusudur.

Dil Encümeni tarafından 1928 yılında çıkarılan *İmlâ Lûgati*'nde yabancı kişi ve yer adlarının yazımıyla ilgili olarak *"Aile isimleri birer farika teşkil ettiğinden, lâtin harflerini kullanan milletlerden birinin hususî yazısı ile yazılmış olanları, diğer birinin yazısına göre telâffuz tahavvülüne uğradıkları takdirde bile, asla değişmemektedirler. Marsilya, Tuna gibi türk millî telâffuzlarına malik olan isimler müstesna olmak üzre, coğrafya isimlerinin yazısı da, ayni şartlar dâhilinde, değişmemektedir."* kuralı bulunmaktadır.

İkdam gazetesinin 23 Haziran 1929 tarihli sayısındaki "Ecnebi İsimihaslar" başlıklı yazıda Latin alfabesi kullanan milletlerin özel adlarını Türkçe söyleyişe göre yazmanın gönderilen mektubun yerine ulaşmamasına veya yazılan poliçenin ödenmemesine yol açacağı belirtilerek *"Resmî İmla Lügati'nin kaidesi tatbik edilmelidir."* denmektedir.

Milliyet gazetesinin 17 Ağustos 1930 tarihli sayısındaki "Darülfünun müderrisleri ne diyor?" başlığıyla yabancı özel adların yazımı konusunda müderrislerin *"Özel adları medeni dünyadan ayrı biçimde yazmak bizi onlardan uzaklaştıracaktır. Avrupalıların saatini, takvimini, tarihini, alfabesini alırken ismihasların imlasında onlardan ayrılmamız ne mantıkidir ne de hissî ve ilmî temayüllerimize uygundur. Bu ayrılık iktisadi sahada ve bilhassa banka muamelatında bizim memleketin zararı hesabına büyük bir karışıklığa sebebiyet verecektir."* biçiminde düşündükleri belirtilerek Latin alfabesini kullanan milletlerdeki özel adların ait oldukları memleketin imlasına göre yazılmaları gerektiği vurgulanıyor.

Cumhuriyet gazetesinin 3 Aralık 1933 tarihli sayısındaki "(x) ve (w) Meselesi" başlık yazıda Prof. Köprülüzade Fuat Bey özel adların okundukları gibi yazılması taraftarı olduğu, Prof. Kemal Cenap'ın ise biri cerrah Haberland, diğeri fizyolog Haberlandt'ın Türkçe okunuşlarının *haberland* olarak aynı olduğunu ve bu biçimde okunuş esas alınırsa birbirlerinden ayırt edilemeyeceklerini savunduğu belirtiliyor.

Cumhuriyet gazetesinin 10 Mart 1938 tarihli sayısındaki "Başka milletler ne yapıyor?" başlıklı yazısında İsmail Müştak "Diğer milletler gibi biz de kendi imlamızla yazabiliriz." düşüncesini savunuyor.

Akşam gazetesinin 18 Temmuz 1939 tarihli sayısındaki "Ecnebi İsmihaslar Meselesinde Üçüncü Bir Şekil" başlıklı yazıda Vâlâ Nurettin ilk isimlerin Türkçede okunduğu gibi *"Filip, Şarl, Vilyım"* biçimlerinde; soyadların ise *"Boyer, Shakespeare"* gibi özgün biçimleriyle yazılabileceği önerisini getiriyor.

TDK'nin 1941 baskılı *İmlâ Kılavuzu*'nun dizininde bulunan *blöf-bülöf, briç-biriç, francala-fırancala, grafik-gırafik, krizantem-kırizantem, liğnit-linyit, platin-pılatin, program-purogram, spor-sıpor, traktör-tıraktör, tren-tiren* vb. biçimler o dönemde her iki yazımın da kullanıldığını göstermektedir.

1956 yılında yayımlanan *İmlâ Kılavuzu*'na *gramer-gıramer, grip-gırip, klup-kulüp, prenses-pirenses, smokin-simokin* gibi yeni ikili kullanımlar eklenirken yeni alınan kelimeler arasında *greypfrut, klâkson, kravat, plâk, skeç, trafik, trompet* gibi araya ünlü almadan yazılan kelimeler de bulunmaktadır.

1965 baskılı kılavuzdan sonra bu tür yabancı kökenli kelimelerin ikili yazımlarından vazgeçilmiş ve *"blöf, briç, francala, grafik, gramer, grip, krizantem, platin, prenses, smokin, spor, traktör"* yazılışları esas alınmıştır. Bu durumu Ömer Asım Aksoy 1965 baskılı kılavuzun "Ön Söz"ünde *"Konuşmanın olduğu gibi yazıya geçirilmesi çabasından sesçil (fonetik) imlâ doğar. Her imlâ az çok sesçildir. İmlâ eskidikçe sesçilliğini yavaş yavaş kaybeder ve kaybettiği ölçüde de zorlaşır. İmlâ sesçil yapılabildiği ölçüde kolaylaşmış olur. Çeşitli milletlerin imlâsı başlangıçta sesçil imlâ olarak yola koyulmuştur. Zamanla gramer olaylarının etkisiyle konuşmada artık hiç kullanılmayan, okunmayan sesler yazıda korunmak zorunda kalınmış; böylece imlâ sesçillikten uzaklaşıp kelimenin şekline çok yer veren imlâ hâline düşmüş, güçleşmiştir."* biçiminde açıklar. Muharrem Ergin [4, 136] böyle kelimelerin yazıda çift ünsüzü korusalar bile telaffuzda daima bir hece artırılarak söylendiğini belirtir.

II. Dünya Savaşı'ndan sonra Türkçeye İngilizce kelimelerin girişi hızlanmış, 1980'lerden sonra bu dilin etkisi daha da artarken alıntıların tıpkı Aksoy'un dediği gibi sesçillikten uzaklaşarak *businnes class, first lady, hacker, hinterland, online* biçiminde özgün yazılışlarıyla yaygınlaşması söz konusu olmuştur. Bunun sebebi kullanılan yazı sisteminin bilinen bir yazı sistemi olması ve bu dilden giren kelimelerin eskiden olduğu gibi "göz için imla" esasına göre yazılıyor olmalarıdır. Hatta iş biraz daha ileri götürülmektedir. Akalın [1, 13] İstanbul'da bir otelin adını *Taxim* biçiminde yazdığını, bir antikacının *Eskidji* adını aldığını, bir kuru yemişçinin tabelasında *Yemish* biçimini kullandığını belirterek yıllardır *taksi, kalite, kalifiye, vatman, viski, vagon* biçimlerinde yazdığımız kelimelerin yazılışlarında farklılıklar ortaya çıkacağını, ister istemez yabancı sözler örnek gösterilerek Türkçe kökenli kelimelerin de yazımlarında farklılaşmaya gidilebileceğini vurgular.

Negroponte [6,145] *Being Dijital* adlı kitabında Türkçe için *"Birçok yerli ve yabancı dilcinin bilim, sanat adamının belirttiği bir gerçeği, bir kez daha dillendirerek, okunması son derece basit, grameri mantıklı bir dil ve okunduğu gibi yazılıyor, her harf telaffuz ediliyor, kelimeye takılıp da okunmayan ve bu yüzden de kafa karıştıran harfler yok. Dünya çapında değerlendirilince bilgisayar sistemlerinde sentez yapmak için Türkçeden daha uygun bir dil düşünülemez."* demektedir. Böyle bir özelliğe sahip Türkçenin bugün yabancı dillerden kelime ödünçlerken 1926 yılında Birinci Türkoloji Kurultayı'nda alınan "bu tür kelimelerin Türkçe gramer kurallarına tabi olmaları ve Türkçenin telaffuzuna uygun hâle getirilmeleri" kararının uygulanması gerektiği düşüncesindeyiz. Bu yapılmadığı takdirde Türkçe veya Türkçeleşmiş kelimelerdeki seslerin *x, w* harfleriyle veya *dj, sh, ch* gibi harf öbekleriyle yazma eğilimi artacaktır.

Tarih boyunca farklı coğrafyalarda, farklı kültür ve dillerle kurduğu yoğun temas Türkçenin zayıflığını değil aksine yapısal gücünü, uyarlama yeteneğini ve sürekliliğini ortaya koymaktadır. Sibirya'dan Balkanlara, Orta Asya'dan Akdeniz havzasına uzanan geniş bir sahada varlığını sürdüren Türkçe karşılaştığı birçok yeni dil unsurunu ya dönüştürmüş ya da kendi ses, yapı ve anlam sistemine uyarlayarak bünyesine katmıştır. Bu süreç Türkçenin yalnızca kelime alanında değil yazım, söyleyiş ve anlam örgüsü bakımından da dinamik ve üretken bir dil olduğunu göstermektedir.

Birinci Türkoloji Kurultayı'nda alınan yazım ve terminoloji kararları Türkçenin bu tarihsel birikimini bilimsel bir çerçeveye oturtma çabasının açık bir göstergesidir. Alıntı kelimelerin her Türk topluluğunun kendi söyleyişi esas alınarak yazılması gerektiği yönündeki Kurultay kararı Türkçenin doğal gelişim çizgisiyle örtüşmekte; dili donuk bir kalıba hapsetmek yerine yaşayan, dönüşen ve kitlelerle birlikte

ilerleyen bir yapı olarak ele almaktadır. Nitekim Cumhuriyet döneminde ve Türk Cumhuriyetlerinin bağımsızlık sonrasında izlenen yazım politikaları da büyük ölçüde bu yaklaşımın devamı niteliğindedir.

Bugün gelinen noktada alfabe, yazım ve yabancı kelimelerin yazılışı sorunu yalnızca tarihsel bir tartışma alanı değildir; küreselleşme, sayısal iletişim ve teknoloji dili bağlamında yeniden ele alınması gereken güncel bir sorundur. 1926 Kurultayı'nda matbaa, dizgi ve baskı kolaylığı gibi dönemin teknik imkânları çerçevesinde yapılan değerlendirmeler günümüzde yerini sayısal ortamlara, sayısal metinlere ve küresel bilgi dolaşımına bırakmıştır. Ancak temel ilke değişmemiştir: Türkçenin kendi yapısına uygun, öğrenilebilir, işlevsel ve yaygın bir yazım sistemi.

Sonuç olarak Türkçenin yabancı dillerle ilişkisi bir "kirlenme" veya "bozulma" süreci olarak değil tarihsel şartlar içinde gelişen bir uyarlama ve yeniden üretim süreci olarak değerlendirilmelidir. Birinci Türkoloji Kurultayı'nın ortaya koyduğu ilke ve kararlar bugün de Türkçenin yazımında, terim üretiminde ve yabancı unsurlarla ilişkisinde yol gösterici niteliktedir. Türkçenin geçmişten gelen bu güçlü dönüştürme kabiliyeti doğru dil politikaları ve bilimsel yaklaşımla desteklendiği takdirde Türkçenin gelecekte de hem ulusal hem de uluslararası düzeyde etkin bir iletişim dili olma potansiyelini koruyacaktır.

KAYNAKÇA

[1] AKALIN, Şükrü Halûk. (2002). "Bitmeyen Tartışma Q, X, W ..." Türk dili dergisi, S. 601, s.6-13.

[2] BANARLI, Nihat Sami. (1972). *TÜRKÇENİN SIRLARI*. İstanbul: Kubbealtı Akademisi Kültür ve Sanat Vakfı Yayınları.

[3] EKİYOR, Cemil. (2009). "Çift Ünsüzle Başlayan Kelimelerin Yazım Sorunu". IV. Uluslararası Büyük Türk Dili Kurultayı bildirisi. Belleten, 2009/1, s.1-17.

[4] ERGİN, Muharrem. (1992). Üniversiteler İçin Türk Dili. İstanbul: Boğaziçi Yayınları.

[5] KORKMAZ, Zeynep. (1970). "Dilde 'Doğal Gelişme' ve 'Devrim' Açısından Türk Dil Devrimi." Konferans metni. Ankara: Türk Dil Kurumu Yayınları.

[6] NEGROPONTE, Nicholas. (1995). *Being Digital*. New York: Alfred A. Knopf.

[7] NERİMANOĞLU, Kâmil Veli-ÖNER, Mustafa. (2008), *1926 Bakü Türkoloji Kurultayı Tutanaklar.* Ankara: TDK Yayınları.

[8] SEZGİN, Fatin. (2004). *Türkçede Batı Kaynaklı Kelimelerin Yoğunluğu.* Ankara: Türk Dil Kurumu Yayınları.

[9] TEKİN, Talat. (1983). "Türkçedeki En Eski Ödünç Sözler". *Türk Dili,* Aralık 1983, C. XLVII, S. 384, s. 526-529.

THE ORTHOGRAPHIC JOURNEY OF LOANWORDS IN TURKISH FROM THE FIRST CONGRESS OF TURKOLOGY TO THE PRESENT

ABSTRACT

Turkish, owing to its historical depth and wide geographical spread, has evolved through centuries of intense interaction with various languages and cultures; in this process, it has been a dynamic language that has both influenced and been influenced. Spoken across a vast area extending from Siberia to Eastern Europe and from Central Asia to the Mediterranean basin, Turkish has succeeded in adapting and transforming foreign elements it encountered by incorporating them into its own system of sound, structure, and meaning. This phenomenon demonstrates that Turkish is a strong and flexible language not only in terms of its vocabulary but also in regard to its principles of orthography and pronunciation. One of the most significant academic gatherings where this historical accumulation was addressed on a scholarly level was the First Congress of Turkology, held in Baku between 26 February and 6 March 1926. The congress discussed issues of alphabet, spelling, and terminology not merely as technical matters, but within the broader context of expanding education, increasing scientific production, and establishing a common communicative platform within the Turkic world. In particular, the decisions taken regarding the spelling of loanwords in accordance with each Turkic community's own pronunciation reflect an approach aligned

with the natural developmental trajectory of Turkish. When examining the language policies of the Republican era and the post-independence period of the Turkic republics, it becomes evident that the principles established at the congress have largely maintained their influence. Today, however, globalization and digital communication environments have once again brought the issue of the orthography and use of foreign-origin words to the fore. Nevertheless, the transformative power and adaptive capacity that Turkish has demonstrated throughout history continue to serve as a foundational point of reference in this new era. In conclusion, the principles and approaches determined at the First Congress of Turkology serve as a guide not only for the past but also for the present and future of Turkish. As long as a writing system based on the internal structure of Turkish—functional and in harmony with the general public—is supported by sound language policies, the continuity and effectiveness of the language will be assured.

АННОТАЦИЯ

ОТ ПЕРВОГО ВСЕСОЮЗНОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА ДО НАШИХ ДНЕЙ: ИСТОРИЯ ПРАВОПИСАНИЯ ЗАИМСТВОВАННЫХ СЛОВ В ТУРЕЦКОМ ЯЗЫКЕ

Турецкий язык, благодаря своей исторической глубине и широкой географической распространённости, на протяжении веков развивался в интенсивном взаимодействии с различными языками и культурами, оставаясь в этом процессе как влияющим, так и подвергающимся влиянию — динамичным языковым организмом. Используемый на обширной территории от Сибири до Восточной Европы и от Центральной Азии до Средиземноморья, турецкий язык сумел адаптировать заимствованные элементы к собственной звуковой, структурной и смысловой системе, трансформируя их в соответствии с внутренними законами языка. Эта способность свидетельствует о том, что турецкий язык является не только богатым по лексике, но и сильным и гибким в плане орфографических и произносительных норм.

Одним из важнейших собраний, в рамках которого это историческое наследие было предметом научного осмысления, стал Первый Всесоюзный тюркологический съезд, состоявшийся в Баку с 26 февраля по 6 марта 1926 года. На съезде вопросы алфавита, орфографии и терминологии рассматривались не просто как технические детали, но в более широком контексте: в свете распространения образования, повышения научной продуктивности и формирования общего коммуникативного пространства в тюркском мире. В частности, решения, касающиеся написания заимствованных слов в соответствии с произношением каждой тюркской общности, отражают подход, согласующийся с естественным путём развития турецкого языка.

Анализ языковой политики в период Турецкой Республики, а также после обретения независимости тюркскими республиками показывает, что выработанные на Съезде принципы сохраняли своё влияние на протяжении десятилетий. В наше время процессы глобализации и цифровой коммуникации вновь актуализировали проблему написания и употребления слов иностранного происхождения. Тем не менее, преобразующая сила и адаптационный потенциал, исторически присущие турецкому языку, продолжают оставаться основой для преодоления современных вызовов.

Таким образом, принципы и подходы, сформулированные на Первом Всесоюзном тюркологическом съезде, имеют не только историческое значение, но и продолжают играть направляющую роль в настоящем и будущем турецкого языка. Основанное на внутренней структуре языка, функциональное и соответствующее массовому употреблению орфографическое понимание, при условии поддержки эффективной языковой политики, обеспечит преемственность и жизнеспособность языка.

Aynur SAYDOVA*

I TÜRKOLOJİ QURULTAYDAN SONRA AZƏRBAYCANDA LATIN ƏLİFBASI (“AZƏRBAYCAN TÜRK XALQ ŞİVƏLƏRİ LÜĞƏTİ” ƏSASINDA)

XÜLASƏ

I Türkoloji Qurultayın əsas məsələlərindən biri də latın əlifbasına keçid olmuşdur. Qurultay nəticəsində türk dillərində latın əlifbasına keçid qərarı verilmiş və tədricən bu istiqamətdə işlər görülməyə başlanmışdır. Bu məqalədə latın əlifbasına keçid prosesində Azərbaycanda istifadə olunan əlifba sistemindən bəhs olunmuşdur. “Azərbaycan türk xalq şivələri lüğəti” timsalında əlifbanın praktik istifadəsinə nəzər salınmış və müasir Azərbaycan dili ilə müqayisə edilmişdir. Məqalədə təsviri, müqayisəli metoddan istifadə olunmuşdur. Nəticədə 100 illik fərqlə latın əlifbamızda olan fərqliliklər işıqlandırılmışdır.

Açar sözlər: *Azərbaycan dili, latın əlifbası, dialekt, türkoloji, lüğət.*

Birinci Türkoloji Qurultayın əsas məsələlərdən biri əlifba məsələsi olmuşdur. Türk dillərinin səslərini tam ifadə edə biləcək latın əlifbasına keçidlə, eyni zamanda Azərbaycan dili və dialektləri ilə bağlı çoxsaylı müzakirələr aparılmışdır və sonrasında müxtəlif əsərlər yazılmışdır. Həmin dövrdə yazılmış əsərlərə misal olaraq 1926-cı ildə N.Aşmarinin “Nuxa şəhəri türk şivələrinin ümumi icmalı”, İ.Həsənovun “Gəncə əhalisinin yerli şivəsində mənsubiyyət şəkilçisiz isimlərin hallanması”, 1927-ci ildə B.Çobanzadənin “Türk-Tatar dialektolojisi”, “Azərbaycan türk xalq şivələri lüğəti” və s. kitabların adlarını çəkə bilərik. Bu əsərlərin ilk ikisi rus dilində, yalnız Azərbaycan dilində olan nümunələr latın əlifbası ilə, B.Çobanzadənin, həmçinin kollektiv əməyin nəticəsi olan lüğət isə Azərbaycan dilində latın əlifbası ilə yazılmışdır.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin məhsullarından biri olan “Azərbaycan türk xalq şivələri lüğəti” N.İ.Aşmarin, A.R.Zifeldt, V.Xuluflu, B.Çobanzadə, İ.Həsənov, Ə.Haqverdiyev tərəfindən hazırlanmışdır. V.Xuluflu lüğət hazırlama prosesini dövrün siyasi, mədəni vəziyyəti ilə əlaqələndirərək qeyd edir: *“Xalqın (millətin) ilk kitabı, onun dilinin lüğətidir” demişlər (Volnçi). Həqiqətən də Azərbaycan əməkçi kütləsinin kitabı yox idi. Böyük Oktyabr inqilabına qədər Azərbaycan proletar və əməkçi mətbuatı yox dərəcəsində idi. Ona görə də, Azərbaycan əməkçiləri öz dilinin lüğətini ancaq siyasi hakimiyyəti ələ aldıqdan, mədəni inqilaba başladıqdan sonra tərtib edə bilərdi”* [7, s.6]. N.İ.Aşmarin Nuxa şivələrini yazarkən xalqın dilindən belə bəhs edir: *“Kitab nitqi burada insanların dilinə o qədər dərindən nüfuz edib ki, hətta savadsız insanlar da tez-tez kitab formalarından və ifadələrdən istifadə edir, bəziləri hətta süni, az qala kitab dilində danışırlar....Mənim işimin yeganə məqsədi adi insanların özünəməxsus nitqini – “lorı(i) dili” öyrənməkdir* [1, s.4]. Nəzərə alsaq ki, C.Məmmədquluzadənin “Anamın kitabı” (1920) əsəri həmin dövrdə yazılmışdır, o vaxt dilimizin mənzərəsini təsəvvür etmək çətin olmaz deyə düşünürük. Lüğət “Azərbaycan xalq dili lüğəti” kimi də adlandırılmışdır. *“Azərbaycan xalq dili lüğəti 1924-cü ildə Azərbaycan “Tədqiq və Tətəbbö Cəmiyyəti” ilə bərabər dünyaya gəlmişdir”* [7, s.6]. Hətta o adla 8 səhifədən ibarət şəkildə nəşr də olunmuşdur. Bu haqda lüğətdə belə qeyd olunur ki, *lüğət, materiallar işləndikcə təqribən 8-10 çap vərəqi həcmində (ayrı-ayrı buraxılış şəklində) nəşr olunacaqdır* [3, s.11]. Lüğətin növlərindən bəhs edən B.Çobanzadə bu lüğət haqqında belə qeyd edir: “*ATTC-nin meydana gətirmək istədiyi lüğət daha ziyadə azəri ləhcəsinin və onun müxtəlif şivələrinin tədqiqində və bunlardakı söz xəzinələrinin araşdırılmasından, axtarılmasından meydana gələcək “şivə-etnoqrafi lüğəti”dir. Bu lüğət, bir tərəfdən, azəri ləhcəsinin müxtəlif rayonlarda aldığı şəkilləri, digər tərəfdən, ümum Azərbaycan dil xəzinəsini və üçüncü tərəfdən də, bu lüğətin hankı maddi mədəniyyət, məişət və ruhiyyət ilə bağlı bulunduğunu ortaya çıxarmalıdır. Bunun kibi bir lüğət meydana gətirilə bildiyi təqdirdə ilərıdə həm ədəbi, həm də başqa elmi və əməli məqsədlərlə tərtib ediləcək lüğətlər üçün qəvi təməl, əməl əsas verilmiş olur”* [5, s.320]. 30 hissəli olmağı planlaşdırılan lüğətin iki hissəsi tərtib olunmuşdur. A hərfinin yazıldığı hissə

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, böyük elmi işçi. Email: aynurimanli@mail.ru

1930-cu ildə, B hərfinin yazıldığı hissə isə 1931-ci ildə nəşr olunmuşdur. 2 hərfin tərtib olunmasına baxmayaraq, lüğət Azərbaycan dili, xüsusilə dialektologiyası üçün zəngin leksik baza rolunu oynayır. Lüğətdə istər dini leksikaya, istər qohumluq leksikasına, istər tarixi-etnoqrafik leksikaya, istər təbiət leksikasına və s. aid materiallar tapmaq mümkündür. "Lüğətin məzmunu Azərbaycan dilindəki kəlmə, tərkib, yerli şivə xüsusiyyətləri və mənalarından ibarətdir. Burada çoxlu danışıq materialları, məsəl, atalar sözü, bayatı, tapmaca və qeyri bu kimi misallar toplanmışdır. Bunlar Azərbaycan türk xalqının həyat, düşüncə, etiqad, din məfkurələrini, ictimai və iqtisadi yaşayışını əks etdirir" [2, s.3]

Lüğət tərtib olunan dövrdə azərbaycandilli materiallar daha çox əski Azərbaycan yazısı ilə, ya da rus dilində yazılırdı. Bu lüğət isə latın əlifbası ilə tərtib olunmuşdur. Belə ki, "*Az.MİK-in 1923-cü il oktyabrın 20-də «Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında» dekreti verildi. Bu dekretə uyğun olaraq bütün idarə və təşkilatlarda kargüzarlığı həm əski, həm də yeni əlifba ilə aparmaq barədə göstəriş verildi"* [6]. 1926-cı ildə İ.Həsənov Gəncə əhalisinin yerli şivəsində mənsubiyyət şəkilçisiz isimlərin hallanmasından bəhs edərkən saitlərin 22, samitlərin 36 variantının olduğunu qeyd etmiş və hər birini latın qrafikalı işarələrlə göstərmişdir [9, s.10-12]. Ümumiyyətlə, həmin dövrdə yazılmış əsərlərdə sabit əlifba görünmür. Latın qrafikalı əsərlər arasında da müxtəliflik müşahidə edilir. İ.İsaxanov latın sistemli əlifbaların müqayisəli cədvəlini tərtib etmişdir [8, s.72]. Burada verilmiş 1922-ci il AYTƏK-nin qəbul etdiyi yeni türk əlifbasının ilk variantı ilə lüğətin yazıldığı əlifba arasında 2 hərf fərqliliyi müşahidə olunur: [ş] səsi lüğətdə "ş", yeni türk əlifbasında "ɜ", [ı] səsi lüğətdə "ь", yeni türk əlifbasında "ı" qrafemi ilə verilmişdir. Bu hal XX əsrin 20-ci illərində yeni türk əlifbasında bir neçə dəfə dəyişikliklərin olması ilə əlaqədardır.

"Azərbaycan türk xalq şivələri lüğəti"nin tərtibində istifadə olunmuş əlifba 34 işarədən ibarətdir:

Aa Bв Cc Çç Dd Ee Əə Ff Gg Ɠɡ Hh Ii Ьь Jj Kk Qq Ll Mm Nn Ŋŋ Oo Өө Pp Rr Ss Şş Tt Uu Vv Xx Yy Zz Ƶƶ '(apostrof)

'(apostrof) işarəsi 1991-ci ildə latın əlifbasına yenidən keçid zamanı da əlifbamıza daxil edilmişdir. Uzun saiti, heca bölgüsünü bildirmək üçün və s. məqsədlərlə istifadə olunan işarə 2003-cü ildə qəbul olunmuş orfoqrafiya qaydalarına əsasən ləğv edilmişdir.

İlk baxışda müasir əlifbamıza bənzəyən əlifba sadə kimi görünsə də, bəzən çaşqınlıq yarada bilir. Belə ki, bəzi qrafemlər müasir əlifbamızda yoxdur, bəziləri isə müasir əlifbamızda var, lakin fərqli səsləri ifadə edir. İlk olaraq müasir Azərbaycan əlifbasında olmayan qrafemlərə nəzər salaq: Ɠɡ, Ьь, Ŋŋ, Өө, Ƶƶ

1. Ɠɡ –bu qrafem lüğətdə [g] səsini ifadə edir. Məsələn:

Mən Aşik oɡul juzunə
Şeh duşmuş oɡul juzunə
Sonam baxçadan oɡəlir
Sancьbdьr oɡul juzunə

2. Ьь – bu qrafem lüğətdə [ı] səsini ifadə edir. Məsələn:


Abь — آبی || avь (Oɡ, S). —
Tund oɡөɡ, mavi.—Голубой.—Hellblau.
— Kərənfil abь qərəq,
Jar jarьn babь qərəq,
Zərrəcə dərdi olanьn
Daglarça tabь qərəq (baj).

3. Ŋŋ – Sağır nun və ya velyar n adlandırılan bu səs Azərbaycanın, əsasən, qərb şivələrinə məxsusdur. Zaman-zaman ədəbi dilimizdə də olan səs müasir dövrdə dialektlərimizdə saxlanılır.


— Əzizijəm aglamazdьm,
Oɡulərdim aglamazdьm,
Bilsejdim vətan bydy,
Sanı bel baglamazdьm (baj-K).

4. Өө – bu qrafem lüğətdə [ö] səsini ifadə edir:

— Qləqdən qedən sonalar
Bir birinə jan a l a r;
Necə qərsun səni bəs
Ogly əlmuş analar (baj).

5. Ƶz – bu qrafem lüğətdə [j] səsini ifadə edir:

Beləcə || beləzə (Oq, K), bələcə (D) — Bynyn qibi, by təhər, belə. – Такой, как это. — Ein solcher, wie dieses.

— B e l ə z ə danьş, xoşyma qəlsin! (K).
— Bir b e l ə z ə вojy var,
Dam dolysy tojy var (t).

Lüğətdə fərqli qrafik işarələrlə yanaşı müasir əlifbamızda olub, lakin fərqli səsləri ifadə edən qrafemlər də vardır: Gg, Jj, Kk, Qq, Uu, Yy

1. Gg – Müasir Azərbaycan əlifbasında [g] səsini ifadə edən qrafem lüğətdə [ğ] səsini bildirir:

Aşmak || aşmag (B), aşmax (Oq, Şmq, Kz) — Uzərindən qeçməq, atlanmak — Переправиться, переходить, переброситься. — Hinübergehen, hinüberfahren, durchwaten, überschreiten.

— Həsən, hasardan a ş d ь (Oq).
— By dagdan a ş m a g olmaz,
Qlumuşdən başmag olmaz,
Ajrьlьk allahdandь;
Əlumnən kaşmag olmaz (baj).

2. Jj – Müasir Azərbaycan əlifbasında [j] səsini ifadə edən qrafem lüğətdə [y] səsini bildirir:

Bomboz — Lap boz, ən boz. — Совершенно серый. — Sehr grau, ganz grau.

— Zəhirmar by jel şymlarь b o m b o z bozartdь (Kz).
— Aj adama, oxşamaz,
Bir juzunə baxsan-a!
B o m b o z olyb sakkalьn,
Rənq-u həna jaxsan-a! (Sabir).

3. Kk – Müasir Azərbaycan əlifbasında [k] səsini ifadə edən qrafem lüğətdə [q] səsini bildirir:

Agrьmak — آغریماق || agrьmax (K, Kz, Oq), agrьmag (B). — 1) Dərd hiss etməq, xəstələnməq. — Болеть, заболевать. — Krank sein, erkranken.

— Juz agaç sagrьja,
Sagrь bir jol a g r ь j a (a. s.)
— Can kardaş, canьm kardaş!
A g r ь j ь r canьm kardaş
Baş kojym dizin ustə,
Koj çьksьn canьm kardaş! (baj).

4. Qq – Müasir Azərbaycan əlifbasında [q] səsini ifadə edən qrafem lüğətdə [k] səsini bildirir:

— Jolym qəndə duşubdu,
Qəntdən qəndə duşubdu;
Əlub a t a m ь n ogly,
Dilim bəndə duşubdu (baj).

5. Uu – Müasir Azərbaycan əlifbasında [u] səsini ifadə edən qrafem lüğətdə [ü] səsini bildirir:


Ahvaj. — Gəm, gussə, dərd.— Душевное страдание, грусть, печальные вздохи.—Die Seelenqualen, das Leiden, die Trauer.
— Ahvajnan qeçər qasьbьn qunu, ələnəcən dejər-„allah qərimdi" (ms.).
— Jetmişdən ətəndə duşdum ahvaja,
Səqsəndə əqilibən dəndum bir jaja,
Doksanьmda pənah qətdim əsaja,
Juz jaşьmda hakdan qəldi bir azar
(„El şair.").

6. Yy – Müasir Azərbaycan əlifbasında [y] səsini ifadə edən qrafem lüğətdə [u] səsini bildirir:


Byrzyj—Istehsal vəsajitinə malik olmakla, başkalarьnьn əməjindən istifadə edərəq, zəhmətsiz jaşajan şəxs.—Буржуй.—Der Bourgeois.
— Byrzyjsan çeq altyva ysyli
Sənun cibun kьzьl qumuşnən doli
Kaçakaşda tapbasan hambal pyli
Jolyndy iran sənun nə vecuvə
(Mejxana—B).

Bu əlifbanın müasir Azərbaycan əlifbasından digər bir fərqi böyük *İ* hərfinin bu əlifbada nöqtəsiz formada göstərilməsidir: Iri [4, s.48], Ilan balığı [4, s.42] və s.

Nəticədə, I Türkoloji Qurultayın qərarı ilə başlayan latın əlifbasına keçid prosesi Azərbaycan üçün yalnız yazı sisteminin dəyişməsi deyil, həm də milli-mədəni inkişafda mühüm bir mərhələ olmuşdur. Bu dövrdə yaradılan "Azərbaycan türk xalq şivələri lüğəti" təkcə leksik baza kimi deyil, eyni zamanda müasir standart Azərbaycan əlifbasının formalaşması yolunda erkən və praktiki bir sınaq kimi də əhəmiyyət kəsb edir.

Araşdırma göstərir ki, lüğətdə istifadə olunan 1920-1930-cu illərə aid latın qrafikalı əlifba sistemi ilə müasir Azərbaycan əlifbası arasında qrafem (hərf) səviyyəsində əhəmiyyətli fərqlər mövcuddur. *Ƣ, Ƀ, Ɗ, Ɵ, Ƶ* kimi hərflər artıq istifadədən çıxmışdır, eləcə də *G, J, K, Q, U, Y* kimi hərflərin müasir dövrdən fərqli səsləri ifadə edir.

Beləliklə, lüğət Azərbaycan dilinin tədqiqi üçün olduqca dəyərli bir elmi irs olmaqla yanaşı, latın əlifbasının ilk praktik tətbiqlərindən biri kimi də tarixi əhəmiyyət daşıyır. O, yalnız dialektlərin leksikasını yox, həm də dilimizin 100 illik inkişafı ərzində əlifba sisteminin necə təkmilləşərək müasir formasına çatdığını izləmək üçün unikal bir mənbədir.

ƏDƏBİYYAT

1. Ашмарин. Н. Общий обзор народных тюркских говоров гор. Нухи. Баку, 1926. 195 с.
2. Azərbaycan xalq dili lüğəti. Bakı: A.D.E.T.İ. nəşriyyatı, 1930. 8 s.
3. Azərbaycan türk xalq şivələri lüğəti. A hərfi. Bakı: A.D.E.T.İ. nəşriyyatı, 1930, 250 s.
4. Azərbaycan türk xalq şivələri lüğəti. B hərfi. Bakı: A.D.E.T.İ. nəşriyyatı, 1931. 260 s.
5. Çobanzadə B. "Seçilmiş əsərləri". II cild. Bakı: Şərq-Qərb, 2007. 365 s.
6. *https://eres.preslib.az/site/historical/page/az/pdibvsm*
7. Xuluflu V. Azərbaycan xalq dili lüğəti. Azərbaycanı Öyrənmə yolu. Sayı 3. Bakı: A.D.E.T.İ. nəşriyyatı, 1930. s. 6-14
8. İsaxanlı İ. Azərbaycanda latın əlifbasına keçid və Fərhad Ağazadə. Journal of Azerbaijani Studies. Bakı : Xəzər Universiteti nəşriyyatı, 2011. s. 14-72
9. Гасанов И. Склонение имен существительных без притяжательных аффиксов в говоре, употребляемом коренным населением Ганджи. Баку: Издание О-ва обследования и изучения Азербайджана. 1926, 61 с.

THE LATIN ALPHABET IN AZERBAIJAN AFTER THE I TURCOLOGY CONGRESS (BASED ON THE "DICTIONARY OF AZERBAIJANI TURKIC FOLK DIALECTS")

ABSTRACT

One of the main issues at the Turkology Congress was the transition to the Latin alphabet. As a result of the congress, a decision was made to transition to the Latin alphabet in Turkic languages, and work in this direction gradually began. This article discusses the alphabet system used in Azerbaijan during the transition to the Latin alphabet. The practical use of the alphabet has been examined through the example of the "Dictionary of Azerbaijani Turkic Folk Dialects" and compared with modern Azerbaijani. The article utilizes descriptive and comparative methods.

Keywords: *Azerbaijani language, Latin alphabet, dialect, Turkology, dictionary.*

ЛАТИНСКИЙ АЛФАВИТ В АЗЕРБАЙДЖАНЕ ПОСЛЕ I ТЮРКОЛОГИЧЕСКОГО КОНГРЕССА (НА ОСНОВЕ «СЛОВАРЯ АЗЕРБАЙДЖАНСКИХ ТЮРКСКИХ НАРОДНЫХ ДИАЛЕКТОВ»)

РЕЗЮМЕ

Одним из основных вопросов Тюркологического конгресса был переход на латинский алфавит. По итогам конгресса было принято решение о переходе тюркских языков на латинский алфавит, и постепенно началась работа в этом направлении. В данной статье рассматривается система алфавита, использовавшаяся в Азербайджане в процессе перехода на латинскую графику. На примере «Словаря азербайджанских тюркских народных говоров» рассмотрено практическое использование алфавита и проведено сравнение с современным азербайджанским языком. В статье использованы описательный и сравнительный методы.

Ключевые слова: азербайджанский язык, латинский алфавит, диалект, тюркология, словарь.

Rüxsarə MƏMMƏDOVA*

"KƏNZÜL-İRFAN" ƏSƏRİNDƏ DƏSTƏMAZ AYƏSİNİN LİNQVİSTİK TƏHLİLİ VƏ ONUN TÜRKDİLLİ TƏFSİR ƏNƏNƏSİNƏ TƏSİRİ

XÜLASƏ

Məqalədə görkəmli İslam mütəfəkkiri Miqdad əl-Hillinin (vəfatı 1423) "Kənzül-irfan fi fiqhil-Quran" əsəri əsasında klassik dini mətnlərin linqvistik təfsir metodologiyası araşdırılır. Tədqiqatın mərkəzində "Maidə" surəsinin 6-cı ayəsindəki prepozisiyaların (*ilā, bi*) və qrammatik halların (*nasb, cərr*) yaratdığı semantik fərqlər, həmçinin bu vahidlərin hüquqi mətndəki həlledici rolu dayanır. "Türkoloji Qurultay – 100" mövzusuna nəzəri dilçilik prizmasından yanaşılaraq, ərəb dili qrammatikasındakı incəliklərin türkdilli (xüsusilə Azərbaycan dili) təfsir və tərcümə ənənəsində necə əks olunması, iltisaqi (dilçilikdə) dil sisteminə qrammatik adaptasiya prosesi və bu prosesdə yaranan kontrastiv linqvistik məsələlər təhlil edilir.

Açar sözlər: *Miqdad əl-Hilli, nəzəri dilçilik, ərəb dili önqoşmaları, Azərbaycan dili, qrammatik adaptasiya, Türkoloji Qurultay, semantika* mmm

* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Multidissiplinar əlyazmaların tədqiqi şöbəsi, böyük elmi işçi**. Email: mrukhsara@mail.ru**

İslam sivilizasiyasının intibah dövrlərində yetişən mütəfəkkirlər Quran mətnini şərh edərkən təkcə teoloji prinsiplərə deyil, eyni zamanda ərəb dilinin dərin qrammatik və semantik qanunauyğunluqlarına söykənmişlər. Bu mütəfəkkirlər üçün dil sadəcə bir ünsiyyət vasitəsi deyil, ilahi kəlamın hüquqi və fəlsəfi mahiyyətini üzə çıxaran fundamental bir struktur idi. XIV-XV əsrlər İslam hüququ və təfsir elminin görkəmli siması, "Fazil Miqdad" ləqəbi ilə tanınan Əbu Abdullah Miqdad ibn Abdullah əl-Hilli əl-Süyuri (vəfatı h. 826 / m. 1423) məhz bu linqvistik məktəbin ən mühüm nümayəndələrindən biri hesab olunur.

Müəllifin şah əsəri olan "Kənzül-irfan fi fiqhil-Quran", ayələrin fiqhi hökmlərini dilçilik müstəvisində analiz edən ən mötəbər mənbələrdən biri kimi qəbul edilir[6]. Fazil Miqdadın metodologiyası ərəb dilinin leksikologiyası, morfologiyası və sintaksisini hüquqi nəticələrlə (istinbat) sintez edir. O, iddia edir ki, mətndəki bir önqoşmanın (prepozisiya) və ya bir qrammatik halın (e'rab) dəyişməsi, fərdlərin gündəlik ibadət və sosial həyatını tənzimləyən qanunların tamamilə fərqli yorumlanmasına gətirib çıxara bilər.

Bu yanaşma, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda irəli sürülən klassik mətnlərin elmi-filoloji metodlarla araşdırılması, terminologiyanın dəqiqləşdirilməsi və Şərq filologiyasının müasir metodologiya ilə yenidən işlənilməsi hədəfləri ilə birbaşa səsləşir. Qurultayda bəhs edilən "dildə vəhdət" və "tərcümənin elmi əsasları" prinsipləri, klassik ərəbdilli təfsirlərdəki dil incəliklərinin türkdilli mühitə necə adaptasiya olunması məsələsini aktuallaşdırır[2]. Xüsusilə Azərbaycan dilçilik tarixində klassik tərcümə məktəblərinin fəaliyyəti, "Kənzül-irfan" kimi əsərlərdəki linqvistik süzgəclərin Azərbaycan dilinin qrammatik və semantik imkanları daxilində necə qarşılandığını öyrənməyi zəruri edir.

Məqalənin əsas məqsədi "Kənzül-irfan" əsərində dəstəmaz ayəsi (Maidə, 6) [7]üzərindən aparılan linqvistik təhlilləri müasir nəzəri dilçilik prizmasından dəyərləndirmək və bu təhlillərin türkdilli (xüsusilə Azərbaycan dili) təfsir ənənəsində yaratdığı semantik transformasiyaları tədqiq etməkdir. Bu tədqiqat həm də klassik dini mətnlərin tərcüməsində "hərfi tərcümə" ilə "linqvistik təfsir" arasındakı fərqləri üzə çıxarmaq baxımından böyük əhəmiyyət kəsb edir.

Təharət və dəstəmaz anlayışlarının semantik-leksik təhlili

Klassik dilçilikdə sözün lüğəvi mənası ilə onun şəri mənası (istilahi mənası) arasındakı münasibət nəzəri dilçiliyin ən maraqlı mövzularından biridir. Miqdad əl-Hilli "Kənzül-irfan"[9] əsərində bu fərqi "Təharət" kəlməsi üzərindən metodoloji dəqiqliklə izah edir.

Leksik-semantik struktur: Müəllif qeyd edir ki, الطهارة [təharə] sözü qrammatikada نظافة [nəzafə] (təmizlik) və نزهة [nüzhə] (kirdən uzaqlaşmaq) mənalarını daşıyır. Bu, sözün denotativ (əsas) mənasıdır. Lakin Miqdad əl-Hilli bu mənanın Quran kontekstində necə konnotativ (törəmə**)** mənalar qazandığını "Məryəm" surəsindəki ayə ilə əsaslandırır: إِنَّ اللَّهَ اصْطَفَاكِ وطَهَرَكِ *"Həqiqətən, Allah səni seçdi və səni pak etdi (təmizlədi)"*[9]. Burada "təharət" artıq fiziki təmizlikdən çıxaraq, mənəvi təmizliyə, yəni günahlardan və nöqsanlardan uzaq olmağa — abstrakt semantikaya keçid edir.

Şəriət elmində terminləşmə: Dilçilik baxımından təharət "namaz qılmağa icazə verən bir hal" kimi tərif edilir. Fazil Miqdad burada vacib bir linqvistik bölgü aparır:

- Əgər bir əməl (məsələn, vacib dəstəmaz) namaza birbaşa icazə verirsə, bu, təharətin həqiqi mənasıdır.
- Əgər bir əməl (məsələn, müstəhəb qüsl və ya dəstəmazın təzələnməsi) namaz üçün ilkin şərt deyilsə, burada "təharət" sözü məcazi mənada işlədilir.

Bu bölgü müasir dilçilikdə "kontekstual semantika" adlanır. Müəllif sübut edir ki, sözün mənası onun tətbiq olunduğu hüquqi kontekstdən asılı olaraq dəyişir.

Dəstəmaz ayəsinin leksik konteksti: "Durduğunuz zaman" ifadəsi "Maidə surəsi"nin 6-cı ayəsindəki *"Namaza durduğunuz zaman"* ifadəsi Miqdad əl-Hilli tərəfindən praqmatik baxımdan təhlil edilir. O, burada iki məna ehtimalını irəli sürür:

1. Namazın daxilində (hərəkət anında) durmaq.
2. Namaza hazırlıq məqsədilə durmaq (niyyət).

Müəllif birinci variantı məntiqi və linqvistik baxımdan "batil" (əsassız) sayır, çünki bu, hərəkətin nəticəsinin (dəstəmazın) səbəbdən (namazdan) sonra gəlməsi kimi bir anaxronizm yaradardı. O, burada "məcaz-i mürsəl" (əlaqəli məcaz) prinsipini tətbiq edərək, "durmaq" felinin əslində "durmaq istəmək"

(iradə etmək) mənasında işləndiyini bildirir. Bu, dilçilikdə felin aspekt (tərz) xüsusiyyətlərinin hüquqi mətndəki həlledici roluna ən yaxşı nümunədir.

Müəllif ayənin zahiri mənası ilə (hər kəsin hər namazdan əvvəl dəstəmaz alması tələbi) Peyğəmbərin tətbiqi (sünnə) arasındakı əlaqəni dilçilikdəki mütləq (ümumi) və muqəyyəd (məhdudlaşdırılmış) anlayışları ilə izah edir. O bildirir ki, ayədəki ümumi hökm (hər kəs dəstəmaz alsın) Peyğəmbərin tətbiqi ilə məhdudlaşdırılmışdır: yəni bu hökm yalnız dəstəmazı pozulmuş şəxslərə aiddir. Bu, hüquqi dilçilikdə ümumi qaydanın xüsusi hallar vasitəsilə interpretasiyası metodunun klassik nümunəsidir.

"İlā" və "bi" hissəciklərinin funksional-semantik təhlili və kontrastiv qarşılıqları:

Klassik ərəb dilində "hərf-i cərr" prepozisiya (önqoşma) adlanan köməkçi nitq hissələri cümlənin semantik strukturunu tənzimləyən əsas amillərdir. Miqdad əl-Hilli "Kənzül-irfan" əsərində bu hissəciklərin hüquqi mətndə (ayədə) daşıdığı çoxşaxəli mənaları linqvistik analiz süzgəcindən keçirir.

يا أيها الذينَ آمَنُوا إِذَا قَمْتُمْ إِلَى الصلوة فَاغْسِلُوا وُجُوهَكُمْ وَأَيْدِيكُمْ إِلَى الْمَرَافِقِ وَامْسَحُوا بِرُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الكَعْبِينَ

"İlā" (إلى) önqoşması (hüdud və birlikdəlik polemikası) – "Maidə" surəsinin 6-cı ayəsindəki إِلَى الْمَرَافِقِ *ilā-l-marāfiq* (dirsəklərə qədər) ifadəsi ərəb dilçiliyində ğayə (limit) problemini aktuallaşdırır.

Qayə (Limit) funksiyası: Ərəb dilində "ilā" əsasən hərəkətin bitmə nöqtəsini bildirir. Burada linqvistik sual yaranır: "Limit (dirsək) yuyulma prosesinə daxildirmi, yoxsa o, yalnız hərəkətin bitdiyi sərhəddir?" Miqdad əl-Hilli qeyd edir ki, əgər "ilā" sözü Azərbaycan dilinə sadəcə -dək/-qədər limitativ qoşması kimi tərcümə olunarsa, dirsəklərin yuyulmaması ehtimalı yaranır.

Məʿa (birlikdəlik) semantikası: Müəllif dilçilik dəlilləri ilə sübut edir ki, bəzi hallarda ilā (إلى) önqoşması məʿa (مع) mənasını daşıyaraq obyekti hərəkətin daxilinə daxil edir. Azərbaycan dilində bu keçid "dirsəklərlə birlikdə" və ya "dirsəklər daxil olmaqla" kimi mürəkkəb konstruksiyalarla kompensasiya edilir. Bu, iltisaqi dillərdə (Azərbaycan dili) ərəb dilindəki bir hərfin daşıdığı yükün bir neçə leksik vahidlə ifadə olunması zərurətini ortaya qoyur.

"Bi" (ب) hissəciyi: – Azərbaycan dilində hal sistemi

Məqalənin nəzəri dilçilik baxımından ən orijinal hissəsi وَامْسَحُوا بِرُوسِكُمْ "vamsahu bi-ru'ūsikum" ayəsindəki "bi" (ب) hissəciyinin təhlilidir. Fazil Miqdad bu hissəciyin fonunda ərəb dili qrammatikasının "təb'id" (bir bütövün hissəsini ifadə etmə) imkanlarını araşdırır.

Partitivlik (hissəlik) semantikası: Əgər ayədə "bi" hissəciyi olmasaydı (vamsahu ru'ūsikum), bu, ərəb dili sintaksisinə görə başın tamamilə məsh edilməsini (təsirlik halın mütləq obyekt funksiyası) tələb edəcəkdi. "Bi" hissəciyinin daxil olması isə hərəkətin obyekti tam deyil, qismən əhatə etdiyini göstərir.

Azərbaycan dilində təzahürü: Azərbaycan dilində bu qrammatik incəlik ismin halları vasitəsilə tənzimlənir. Biz "başı məsh etmək" (tam əhatə) yerinə, "başın bir hissəsinə məsh çəkmək" və ya "başa məsh çəkmək" (yönlük halın vasitəli təsir funksiyası) konstruksiyalarından istifadə edirik. Burada "bi" hissəciyinin "ilsaq" (təmas) mənası da mühümdür [1;]; yəni əlin başa toxunaraq sürüşməsi hərəkəti Azərbaycan dilində yönlük halın hərəkət istiqaməti funksiyası ilə eyniləşir [4].

Miqdad əl-Hillinin təhlilləri göstərir ki, ərəb dilinin prepozisiya sistemi Azərbaycan dilinin həm hal, həm də qoşma sistemi ilə sıx əlaqədədir. Bu prepozisiyaların (ön qoşmaların) təhlili təkcə dini deyil, həm də türkdilli tərcümə tarixinin elmi prinsiplərini üzə çıxarır. I Türkoloji Qurultayda bəhs edilən "türk dillərinin ərəb və fars dillərinin təsirindən elmi şəkildə qorunması və differensiasiyası"[5] mövzusu Miqdad əl-Hillinin bu linqvistik süzgəcləri ilə daha da aydınlaşır. Çünki müəllif sübut edir ki, mənanın düzgün ötürülməsi üçün hərfi tərcümə yox, qrammatik ekvivalentlik tapılmalıdır. Azərbaycan dilindəki "baş**a** məsh etmək" ifadəsi, ərəb dilindəki "bi" hissəciyinin ən mükəmməl tipoloji ekvivalentidir.

Türkoloji Qurultayın 100-cü ildönümü ərəfəsində "Kənzül-irfan" kimi klassik mənbələrin linqvistik analizi xüsusi əhəmiyyət kəsb edir. Bu növ tədqiqatlar, Qurultayda qarşıya qoyulan "elmi terminologiyanın unifikasiyası" və "türk dillərinin qədim və orta əsrlər filoloji irsinin müasir metodlarla öyrənilməsi" hədəflərinə xidmət edir. Miqdad əl-Hillinin təklif etdiyi dilçilik süzgəcləri, müasir türkdilli təfsirlərdəki məna itkilərinin və yanlış interpretasiyaların qarşısını almaq üçün mühüm bir elmi rəhbərdir.

Klassik dini-filoloji mətnlərin "hüquqi dilçilik" prizmasından öyrənilməsi Azərbaycan dilçilik elmində yeni bir istiqamətin inkişafına təkan verə bilər. Bu yanaşma həm də ərəbdilli Azərbaycan

müəlliflərinin irsinin türkoloji kontekstdə yenidən dəyərləndirilməsi üçün geniş perspektivlər açır. Miqdad əl-Hillinin linqvistik təhlilləri zamanı ortaya qoyduğu prinsiplər, bu gün nəzəri dilçiliyin əsas bölmələri olan semantika, praqmatika və sintaksis arasındakı qırılmaz əlaqənin klassik və ən mükəmməl nümunələrindən biridir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.Z. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə. Ali məktəblər üçün dərslik. / Y.M.Seyidov, A.Q Həsənov – Bakı: Maarif, – 1985. – 468s.
2. Azərbaycan Dilinin İzahlı Lüğəti. 4 cilddə. Bakı: Şərq-Qərb, 2006.
3. Çobanzadə B. *Türk dili və ədəbiyyatının tədrisi metodikası.* (I Türkoloji Qurultay dövrü materialları). Bakı, – 1926. – 36s.
4. Hacıyev T. *Türklər üçün ortaq ünsiyyət dili.* Bakı: Təhsil, – 2013. – 246s.
5. Latın əsaslı yeni türk əlifbası və I Bakı Türkoloji Qurultayı Biblioqrafiya / tərt. ed. prof. K. Nərimanoğlu, Ə. Ağakişiyev, Ə.Ağakişiyev, S.Abdullayeva. – Bakı – 2006. –93s.
6. Məmmədova R. Əbu Abdullah Miqdad əs-Süyuri əl-Hillinin elmi irsi və "Kənzül-irfan" əsəri // – AMEA Filologiya və sənətşünaslıq Bakı: Elm, – 2020. №1 – s. 92-96
7. Qurani-Kərim.
8. Xəlilov B. *Müasir Azərbaycan dili (Morfologiya).* Bakı: Elm, – 2007. – 280s.
9. المقداد بن عبد الله السيوري. كنزل العرفان في فقه القرآن. طهران: المكتبة المرتضوية، ه. ش. ١٣٨٤ (Miqdad ibn Abdullah əs-Süyuri. Kənzül-irfan fi fiqhil-Quran. Tehran: Əl-Məktəbətu-l-Murtəzəviyyə, – 2005.– 415s.).

Рухсара МАМЕДОВА

ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ АЯТА ОБ ОМОВЕНИИ В ТРУДЕ «КАНЗ АЛЬ-ИРФАН» И ЕГО ВЛИЯНИЕ НА ТЮРКОЯЗЫЧНУЮ ТРАДИЦИЮ ТОЛКОВАНИЯ

РЕЗЮМЕ

В статье исследуется методология лингвистического толкования классических елигиозных текстов на основе труда выдающегося исламского мыслителя Микдада аль-Хилли (ум. 1423) Канз аль-Ирфан фи фикх аль-Куран». В центре исследования стоят семантические различия, здаваемые предлогами (*ilā, bi*) и грамматическими падежами (*насб, джарр*) в 6-м аяте суры «Аль-Маида», а также решающая роль этих единиц в правовом тексте. В преддверии 100-летия Первого тюркологического съезда тема рассматривается через призму теоретической лингвистики: анализируется отражение тонкостей арабской грамматики в тюркоязычной (особенно азербайджанской) традиции толкования и перевода, процесс грамматической адаптации к агглютинативной языковой системе и возникающие при этом контрастивные лингвистические вопросы.

Ключевые слова: *Микдад аль-Хилли, теоретическая лингвистика, арабские предлоги, азербайджанский язык, грамматическая адаптация, Тюркологический съезд, семантика.*

Rukhsara MAMMADOVA

LİNGUİSTİC ANALYSİS OF THE ABLUTİON VERSE İN THE WORK "KANZ AL-IRFAN" AND ITS IMPACT ON THE TURKİC INTERPRETATİON TRADİTİON

SUMMARY

The article examines the methodology of linguistic interpretation of classical religious texts based on the work "Kanz al-Irfan fi fiqhil-Quran" by the prominent Islamic thinker Miqdad al-Hilli (d. 1423). The study focuses on the semantic differences created by prepositions (*ilā, bi*) and grammatical cases (*nasb, jarr*) in the 6th verse of Surah "Al-Ma'idah," as well as the decisive role of these units in legal texts. On the eve of the 100th anniversary of the First Turkology Congress, the subject is approached through the prism of theoretical linguistics, analyzing how the nuances of Arabic grammar are reflected in the Turkic (especially Azerbaijani) interpretation and translation tradition, the process of grammatical adaptation to the agglutinative language system, and the contrastive linguistic issues arising in this process.

Key words: *Miqdad al-Hilli, theoretical linguistics, Arabic prepositions, Azerbaijani language, grammatical adaptation, Turkology Congress, semantics.*

Məsməxanım QAZIYEVA*

ƏDƏBİ DİL VƏ NİTQ MƏDƏNİYYƏTİ

XÜLASƏ

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. ədəbi dil ümumxalq dilinin normalaşdırılmış, qaydalara salınmış və cəmiyyətin bütün sahələrində işlədilən formasıdır. Qeyd etdiyimiz kimi, ədəbi dil, əsasən, ümumxalq dili üzərində qurulur, lakin ümumxalq dili üzərində seçmə və əvəzetmə prinsipi ilə əməliyyat aparma yolu ilə düzəlir. Nitq mədəniyyəti isə bi dil normalarına düzgün, yerində və məqsədyönlü əməletmə bacarığıdır. Ədəbi dil və nitq mədəniyyəti bir-biri ilə sıx bağlıdır; ədəbi dil normativ baza rolunu oynayır, nitq mədəniyyəti isə həmin normaların praktik ifadəsini təmin edir.

Açar sözlər: *ədəbi dil, nitq mədəniyyəti, şifahi nitq, yazılı nitq*.

> "*Azərbaycan dili xalqımızın milli kimliyinin, dövlət müstəqilliyimizin və mənəvi bütövlüyümüzün rəmzidir. Dövlət dili kimi onun qorunması və inkişafı Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir"*
>
> *İlham Əliyev*

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Azərbaycan dilinin bugünki inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır. Ana dili bir ünsiyyət vasitəsi olmaqdan başqa, eyni zamanda milli ruhdur. Ana dili gen yaddaşımızın daşıyıcısıdır. Dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyev yazırdı: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".

Azərbaycan ədəbi dili yüksək ifadə imkanlarına malik, mükəmməl qrammatik qanunları, zəngin leksik imkanları və lüğət tərkibi olan bir dildir. Müdriklər deyiblər ki, hər bir xalq öz dilində görünür. Ustad Şəhriyar yazırdı:

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Özgə dilə qatsan, bu əsil dil əsil olmaz.

Hər bir xalqın ana dili həmin xalqın özüdür, dünyaya sözüdür, qəlbinin gözüdür. Hər xalqın dili o xalqın ruhudur, mənəvi dünyasıdır. Görkəmli ədib A.Şaiqin dediyi kimi: "Milli vicdan yalnız milli məktəbdə və milli dildə yaranır."

Ana dilini gözəl bilən onun lüğət tərkibinə, qrammatik quruluşuna, üslubi imkanlarına dərindən bələd olan hər bir şəxsin, təbii ki, nitqi də aydın, dəqiq və səlis olacaq. Dilimizin qorunması və daha da inkişaf etdirilməsi baxımından həm dövlət tədbirlərinin, dil haqqında qəbul edilən qanunların, həm də yaradıcı təşkilatların rolu çox böyükdür. Lakin son vaxtlarda televiziya ekranlarında, xüsusilə özəl kanallarda dilimizin saflığına ciddi xələl gətirən, dilin lüğət tərkibinə bayağı, yad sözlərin daxil olmasına səbəb olan, dilimizin qrammatik quruluşunu eybəcərləşdirən hallar ictimaiyyəti ciddi şəkildə narahat edir. Veriliş aparıcılarının əcaib diksiyaları, cümlə quruluşları, işlətdikləri ifadələr və sözlər ana dilimizi ən aşağı səviyyəli danışıq formasına endirmişdir. Aparıcılar arasında, hətta xəbər oxuyan diktorlar arasında belə bir yanlış tendensiya yaranmışdır ki, deyəcəyi sözü, oxuyacağı mətni nə qədər sürətli oxusa, bir o qədər təsirli olar. Bu danışıqlarda nə pauza, nə vurğu , nə də ahəng var. Bir də görürsən ki, xəbər oxuyan diktor cümlələri bir-birinə mexaniki olaraq birləşdirib elə sürətlə oxuyur ki, dinləyici xəbərin məzmununu başa düşməkdə çətinlik çəkir. Bütün bunlar isə bütövlükdə nitq mədəniyyətimizin "şikəst" olmasına səbəb olur.

Dilin gözəlliyini, sözün sehrini qorumaq və onu daha da inkişaf etdirmək, xalqa sevdirmək və gözəl danışıq, gözəl diksiya örnəyi göstərmək kütləvi informasiya vasitələrinin, ilk növbədə isə televiziya

* Azərbaycan Dillər Universiteti, filologiya elmləri doktoru, professor.

kanallarının vəzifəsidir. Bu sahədə həm aparıcılıq, həm də diktorluq peşələri üzrə çox gözəl ənənələr mövcuddur. Çünki, ana dili millət, vətən anlayışının tərkib hissəsidir.

Qeyd etdiyimiz kimi, ədəbi dil əsasən, ümumxalq dili üzərində qurulur. Lakin ümumxalq danışıq dili ilə ədəbi dil heç bir dövrdə tam eyniyyət təşkil etmir. Ədəbi dil ümumxalq dili üzərində seçmə və əvəzetmə prinsipi əsasında, əməliyyat aparma yolu ilə düzəldilir. Məsələn, ədəbi dil lüğət tərkibinin təşkili üçün ümumxalq danışıq dilinin lüğət tərkibindəki sözlər seçilir, ədəbi dilin lüğət tərkibinə qəbul olunur, ümumxalq danışıq dilində işlədilən bəzi sözlər isə ədəbi dil üçün məqbul sayılmır.

Ədəbi dilin şifahi və yazılı olmaq üzrə iki əsas növü vardır. Şifahi ədəbi dil daha əvvəl formalaşmışdır; lakin yazılı ədəbi dil yaradılandan sonra da şifahi ədəbi dil yazılı ədəbi dil ilə yanaşı yaşayır və inkişaf edir. Hər bir inkişaf etmiş ədəbi dilin özünəməxsus üslub qolları olur və bu qollar xüsusi əlamətdar cəhətlərinə görə bir-birindən fərqlənir. Çünki, üslub təfəkkür tərzi ilə bağlıdır və burada nitqin hər cür imkanlarından məqsədəuyğun surətdə istifadə olunur. Buna görə də, üslub ilə nitqin müxtəlif təzahür şəkillərini eyniləşdirmək olmaz.

Bildiyimiz kimi, nitqin təzahür formaları, ifadə vasitələri və ifadə nizamı nitqin quruluşunu və funksional xüsusiyyətlərini sistemli şəkildə izah etməyə imkan verir. Ümumiyyətlə, nitq dilin real ünsiyyətdə istifadəsidir və müxtəlif formalarda şifahi, yazılı, daxili nitqdə təzahür edir.

Nitqin təzahür şəkilləri aşağıdakı əlamətlərlə müəyyənləşdirilir:

1. İfadə vasitəsinə görə
2. İfadə quruluşuna-nizamına görə

İfadə vasitəsinə görə nitq iki cür ola bilər: şifahi və yazılı.

Şifahi nitqin ifadə vasitəsi mənalı səslərdir və onların tərkibindən düzələn sözlərin səslənməsidir. Yazılı nitqin ifadə vasitəsi isə hərfi işarələrdir və onların tərkibi ilə düzələn yazıdır [2, s.12].

Nitqin məzmunu və təsir gücü ifadə vasitələri ilə təmin olunur. Nitqin ifadə nizamı isə nitqin daxili quruıuşunu və ardıcıllığını müəyyən edir. Yəni, nitqin təzahür formaları, ifadə vasitələri və ifadə nizamı bir-biri ilə sıx bağlıdır və birlikdə nitqin aydınlığını, nitqin gücünü və funksionallığını təmin edir. Bu komponentlərin düzgün seçilməsi və uyğunlaşdırılması mədəni və effektiv nitqin əsas şərtidir. Nitqin təzahür forması daha çox canlı ünsiyyətdə - danışıqda, debatda yaranır və daha çevik və spontan xarakter daşıyır [4, s.6].

Ədəbi diln müasir inkişaf səviyyəsi tələb edir ki, nitqimiz (istər yazı, istərsə də danışıq qolu) dilimizin milli xüsusiyyətlərini bütünlüklə özündə əks etdirməklə yanaşı, zəngin, düzgün, səlis və axıcı olsun. Professor N.Xudiyev düzgün olaraq qeyd edir ki, müasir ədəbi dilimizi bu tələblərə uyğun şəkildə inkişaf etdirmək üçün nitqimizi (yazıda və danışıqda) bir sıra qüsurlardan xilas etmək lazımdır. Bu qüsurlar başlıca olaraq iki səbəbdən irəli gəlir:

1. Arxaizm və dialektizmlərə yersiz olaraq yol verilməsindən;
2. Ədəbi dil normalarının əsassız olaraq subyektivcəsinə pozulmasından. [3, s.43-44].

Həm nitq mədəniyyəti, həm də ədəb dil - hər ikisi ünsiyyət elmi sayılır. Lakin hər ikisi kommunikativ vəzifələrini öz səciyyəvi xüsusiyyətləri əsasında həyata keçirir. Nitq insan danışığının cəmidir. Nitqin bazası dildir. Dil öz inkişafını nitq fəaliyyəti ilə təzahür etdirir. Bu əlaməti baxımından nitqi dilin təzahür forması adlandırırlar. Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyətin yaradıcısıdr. Nitq ancaq ünsiyyət prosesində özünü büruzə verir. Nitq mədəniyyəti ilə ədəbi dilin qarşılıqlı əlaqəsinin sıx olmasını göstərən cəhətlərdən biri də hər ikisinin obyektinin söz olmasıdır. Beləliklə, ədəbi dil ümumxalq dili əsasında formalaşsa da, o da öz növbəsində ümumxalq dilini zənginləşdirir, onun lüğət ehtiyatını, eləcə də, ifadə imkanlarını artırır. Ədəbi dil, eləcə də, nitqin özü lakonik, cazibədar olmalıdır. Ona görə də, ümumxalq dilindəki bütün sözlərdən yox, ən gözəl, fikrin ifadəsinə kömək edən, leksik, idiomatik, frazeoloji vahidlərdən istifadə etmək lazımdır. Azərbaycan dilinin lüğət tərkibi zəngin, poetik imkanları olduqca böyükdür. Dilimizdəki sözlər ahəng qanununa tabe olduğundan, onların səslənməsi də xüsusi ahəngdarlığa malikdir.

Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Cəmiyyətin nitq mədəniyyəti milli dilə münasibət ilə müəyyən olunur. Öz növbəsində, milli dilin vəziyyəti (səviyyəsi) bütövlükdə millətin inkişaf səviyyəsini əks etdirir. Dilə, nitq mədəniyyətinə olan xarici təsirlərə bir sıra

inkişaf etmiş ölkələrdə necə qısqanclıqla yanaşıldığına diqqət yetirək. İkinci Dünya müharibəsindən məğlub çıxan alman xalqı və onun yeni rəhbərliyi Hitler rejimi dövründə ədəbi dil normalarının xeyli aşağı düşdüyündən narahatlıq hissi keçirirdilər. Fransızların öz ölkələrinə hər hansı bir kənar müdaxiləyə necə qısqanclıqla yanaşmaları da yaxşı məlumdur. Hətta onların bu münasibətlərini dil şovinizmi adlandıranlar da az deyil. O da məlumdur ki, fransızlar ingilis dilində olan hansısa reklam lövhəsini belə istəmirlər. Onları ən çox narahat edən isə ölkəyə amerikanizmi təbliğ edən vasitələrin daxil olmasıdır. O da yaxşı məlumdur ki, hər bir ingilis məmurunun stolunun üstündə xüsusi hazırlanmış ingilis dili dərsliyi vardır.

Müstəqilliyinə qovuşduqdan sonra bizim ölkəmizdə də bütün bu amillərə xüsusi fikir verilməkdə, milli dilimizin və mədəniyyətimizin qorunması və inkişaf etrdirilməsi yolunda xüsusi səylər göstərilməkdədir. Belə ki, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır və bunun ardınca dilimizin inkişafı ilə bağlı bir sıra fərmanlar imzlanmış, qanunlar qəbul edilmişdir. 2001-ci ilin iyunun 18-də ulu öndər Heydər Əliyev dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında daha bir fərman imzalamış və bu tarixi sənəd dilimizin inkişafı sahəsində mühum rol oynamışdır. Həmin sənəddə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması nəzərdə tutulmuş və bunun əsas məqsədi ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi daha da sürətləndirmək olmuşdur [1].

Nitq mədəniyyəti təkcə nitq etiketi deyildir. Bizim nə dilimizin, nə də nitqimizin öz-özünə yaranmadığını əminliklə deyə bilərik. Onun yaranması və inkişafı cəmiyyətdə baş verən proseslərlə bağlıdır. Dil cəmiyyətin bütün sosial-siyasi proseslərini əks etdirir və eyni zamanda insanların dünyagörüşünü formalaşdırır. Buna görə də, nitq mədəniyyətini cəmiyyətin ümumi mədəniyyətindən ayrı təsəvvür etmək olmaz.

ƏDƏBİYYAT

1. Abdullayev, N. *Nitq mədəniyyətinin əsasları*. Bakı, 2013. 226 s.
2. Dəmirçizadə, Ə. *Azərbaycan ədəbi dilinin tarixi*. Balı, Maarif, I hissə, 1979. 243 s.
3. Xudiyev, N. *Zamanın axarı ilə*. Bakı, Azərnəşr, 2004. 725 s.
4. Qazıyeva, M. *Televiziyada nitq prosesinin səciyyəvi xüsusiyyətləri*. AMEA, Tədqiqlər, № 3, 2024.

ЛИТЕРАТУРНЫЙ ЯЗЫК И РЕЧЕВАЯ КУЛЬТУРА

РЕЗЮМЕ

Как и во всех народах, язык азербайджанского народа является одним из главных факторов, определяющих его национальное существование. Литературный язык — это стандартизированная, упорядоченная форма национального языка, используемая во всех сферах общества. Как мы уже отмечали, литературный язык в основном базируется на национальном языке, но корректируется путем воздействия на него по принципу отбора и замещения. Речевая культура — это способность правильно, уместно и целенаправленно соблюдать нормы языка. Литературный язык и речевая культура тесно связаны друг с другом; литературный язык играет роль нормативной основы, а речевая культура обеспечивает практическое выражение этих норм.

Ключевые слова: *литературный язык, речевая культура, устная речь, письменная речь.*

LİTERARY LANGUAGE AND SPEECH CULTURE

SUMMARY

As with all nations, the language of the Azerbaijani people is one of the main factors determining their national existence. The literary language is a standardized, organized form of the national language, used in all spheres of society. As we have already noted, the literary language is primarily based on the national language, but is modified by influencing it through the principle of selection and substitution. Speech culture is the ability of correctly, appropriately, and purposefully observing linguistic norms. Literary language and speech culture are closely interrelated; the literary language serves as a normative foundation, while speech culture ensures the practical expression of these norms.

Keywords: *literary language, speech culture, oral speech, written speech.*

Kəmalə ƏLƏKBƏROVA*

BÖYÜK FƏDAKARLIĞIN ƏKSİ – BİRİNCİ BAKI TÜRKOLOJİ QURULTAYI

XÜLASƏ

Bakı Türkoloji Qurultayı dünya türklərinin həyatında böyük bir hadisə idi. Türk dünyasının parlaq zəkaları – böyük şəxiyyətləri sovet rejiminə inam hissi ilə bağlanaraq qurultaydan sonra türkologiya sahəsində mühüm dəyişikliklər olacağına ümid edirdilər. Dövrün mətbuatını araşdırarkən insanların yeni hakimiyyətdən nə qədər böyük gözləntiləri olduğu görünür. Ziyalılar yeninin köhnə Rusiya imperiyasından fərqli olacağına, xalqlara azadlıq verəcəyinə inanırdılar. Halbuki onları daha böyük bir fəlakət gözləyirdi. Bu insanların çoxu başlarına gələcək faciələrdən xəbərsiz idi.

Birinci Türkoloji Qurultayın böyük coşqu və təşkilatçılıqla davam edən əks-sədası geniş bir coğrafiyanı əhatə edirdi. 1927-ci ildə Krımda, 1928-ci ildə Səmərqənddə, 1930-cu ildə Almatıda keçirilən imla konfransları; 1932-ci ildən etibarən təşkil olunan Türk Dili qurultayları; 1976-cı ildə Almatıda, 1980-ci ildə Daşkənddə, 1988-ci ildə Aşqabadda keçirilən Ümumuttifaq Türkoloji Qurultayı və s. BakıTürkoloji Qurultayın təsiri ilə təşkil olunmuş mühüm elmi tədbirlərdir. Bu cür tədbirlər yalnız Sovet coğrafiyasında deyil, başda Türkiyə olmaqla dünyanın müxtəlif yerlərində də keçirilmişdir. Qeyd edilən toplantılar Türkologiyanın müxtəlif istiqamətlərdə inkişafına böyük töhfələr vermişdir. Lakin heç bir toplantı bu qədər geniş mövzu spektrinə malik olmamış və bu qədər geniş coğrafiyadan gələn məşhur türkoloqları bir araya gətirə bilməmişdir.

Dövlətimizin dilimizə diqqət və qayğısının daha da atdığı dövrde – 2026-cı ildə 100 illiyini qeyd edəcəyimiz Birinci Türkoloji Qurultay özündən sonra gələcək türkoloqların qarşısında araşdırılası çoxsaylı aktual mövzular qoymuşdur. Biz də bu öz tədqiqatımızda protokollara deyil, əsasən dövrün mətbuatına istinad edib, Qurultayda müzakirə olunan mövzuların sonrakı taleyini, tapılan həll yollarını aşağıdakı şəkildə ümumiləşdirməyə çalışdıq. Nəticədə mövzu çox geniş və əhatəli olduğu üçün onu bir neçə başlıq altında toplamağa çalışdıq.

Açar sözlər: *Birinci Bakı Türkoloji Qurultayı, Birinci İmla Konfransı, latın əlifbası, orfoqrafiya.*

Azərbaycan türk dünyasında yalnız coğrafi baxımdan deyil, mədəniyyət və dil baxımından da tam ortada bir keçid – körpü vəziyyətindədir. Mədəniyyətlərin qovuşma məkanı olan Azərbaycan hər zaman bütün yeniliklərə açıq olmuşdur. Elə latın əlifbası məsələsində də vəziyyət eyni idi. Yeni əlifbayə keçid bir çox problemlərə də səbəb olmaqda idi. Bunların öhdəsindən gəlmək üçün geniş tərkibli toplantı təşkil etmək lazım idi. Daha əvvəl müxtəlif respublikalarda toplantılar keçirilsə də bu kifayət etmirdi. Daha böyük və daha geniş coğrafiyanı əhatə edəcək, ortaya çıxan məsələləri müzakirə edəcək, sonrasında qərarları bütün türk xalqları tərəfindən tanınacaq və bilinəcək daha böyük toplantı keçirilməli idi. Təbii ki, əvvəlcə ən mühüm və qərarverici toplantılar Moskvada keçirilirdi.

Adil Babayev mövzu ilə bağlı belə yazır: *"15 sentyabr 1925-ci ildə, Azərbaycan Yeni Əlifba Komitəsinin sədri Səməd Ağa Ağamalıoğlunun rəhbərliyi ilə Moskvada keçirilən Şərqşünaslar toplantısı, yeni əlifbəyə keçid üçün Birinci Türkoloji Qurultayın toplanmasının zəruri olduğunu bildirdi və bu vəzifəni SSRİ Şərqşünaslar Elmi Cəmiyyətinə və Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinə verdi. Bu, təsadüfi deyildi. Çünki həm Ağamalıoğlu, həm də B.Çobanzadənin rəhbərlik etdiyi Yeni Türk Əlifbası Komitəsi daxilindəki elmi şura geniş fəaliyyəti ilə bütün Sovet İttifaqı miqyasında nüfuz qazanmışdı. Madam ki qurultayın toplanması əsasən Azərbaycan təşkilatlarına həvalə edilmişdi, o halda harada keçiriləcəyi də bəlli idi"* (Adil Babayev: 2023, 80).

Şübhəsiz ki, məsələnin siyasi tərəfi də vardı. "*Dan Yıldızı"* jurnalında Kamçın Bek adlı müəllif dil və əlifba məsələsini Sovet rejiminə bağlayırdı. O, ərəb əlifbasını türk–tatar xalqlarının inkişafında bir maneə kimi görürdü: *"İnqilabdan əvvəl və sonra türk–tatar xalqlarının təbəqələri ərəb əlifbasını sadələşdirmək və islah etmək məsələsini dəfələrlə müzakirə etmişlər, lakin bu islahların heç biri çətin mənimsənilən ərəb yazısının sadələşdirilməsi və asanlaşması baxımından lazım olan və istənilən nəticəni*

* Bakı Avrasiya Universiteti,, f.ü.f.d., dos.

verməmişdir; eyni zamanda o, bununla ərəb əlifbasının indiki vəziyyətdə cansız olduğunu təsdiqləmişdir" (Dan Yıldızı: 1928, № 11, 14).

Müəllif həmin dövrdə bu işi mövcud idarənin edə bilməyəcəyini, yalnız Oktyabr İnqilabının və onun "övladı olan" Sovet İttifaqının bunu bacaracağını, 1926-cı il Bakı Türkoloji Qurultayını çağıraraq bu məsələyə xüsusi diqqət yetirilməsinin nə qədər vacib olduğunu vurğulayırdı. Müəllifin yazısında yeni əlifbanın dil və imla baxımından deyil, siyasi baxımdan da əhəmiyyətli olduğu görünür. Həmin dövrdə Sovet rejimi özünü möhkəmlətmək üçün müəllimlər, jurnalistlər, gənclər, işçilər və s. arasında çoxsaylı toplantılar və qurultaylar (keçirirdi. Araşdırmalarımız zamanı dövrün mətbuatında mövzu ilə bağlı çoxsaylı bildiriş və elanlara rast gəldiyimizi qeyd etməliyik.

Latın əlifbasına keçid layihəsini ilk dəfə azərbaycanlı Mirzə Fətəli Axundzadə ortaya atmışdı. Qurultay türklərin daha geniş və sayca çox olduğu Orta Asiyada da keçirilə bilərdi. Lakin orada vəziyyət daha fərqli idi. Orta Asiya türkləri arasında ərəb əlifbasının tərəfdarları daha çox idi.

Yeni əlifba məsələsi gündəmə gələndə Kazan şəhərində latınçılar və ərəbçilər arasında böyük mübahisə yaranmış və Tatarıstan Respublikasının paytaxtı Kazan şəhəri köhnə əlifba tərəfdarlarının qalasına çevrilmişdi. Türkoloji Qurultaydan sonra Kazan ərəbçiləri yeni əlifbaya qarşı müqavimət göstərməyə başlamışdılar. Maraqlıdır ki, bu müqavimətçilərin başında Qurultaya qatılan Alimcan (Qurultay protokollarında *Qalimcan* – K.E.) Şərif və Alimcan (Qurultay protokollarında *Qalimcan* – K.E.) İbrahimov dayanırdı. Onlar Qurultayda da razı olmamış, orada da latın əlifbasına qarşı çıxış etmişdilər. *"Hətta Alimcan Şərif bununla kifayətlənməmiş, Qurultaydakı çıxışını broşür şəklində 1927-ci ildə İstanbulda nəşr etdirmiş və oradakı latın əlifbası əleyhdarlarının dəyirmanına su tökmüşdür*" (*Dan Yıldızı*: 1928, № 11, 1).

Azərbaycan latın əlifbası məsələsində daha təcrübəli idi. Hələ 1922-ci ildən burada yeni əlifba ilə nəşr edən "Yeni Yol*"* kimi mətbuat orqanları mövcud idi. 1928-ci ildə qabaqcıl respublika olan Azərbaycan Zaqafqaziyada yeni əlifbanı öyrənmiş insanların sayı – 324 min, Orta Asiyada – 138 min, muxtar respublika və vilayətlərdə – 608.182 nəfər idi. 1927–1928-ci illərdə yeni əlifba ilə 28.389 çap vərəqi və 2.799.500 nüsxədən ibarət tədris, siyasi və ədəbiyyat nəşri planlaşdırılmış və onların böyük əksəriyyəti çap olunmuşdu. Azərbaycanda tirajı 10 min olan gündəlik "Yeni Yol" və Özbəkistanda tirajı 25 minə çatan həftəlik "*Qızıl Tamğa"* qəzetləri nəşr olunurdu (*Dan Yıldızı*: 1928, № 11, 15).

Professor Bəkir Çobanzadə belə yazırdı: *"Gənc Azərbaycan geridə qalmış Şərqin qaranlıq səhrasında mədəni vahə olmağı, nümunə ölkəyə çevrilməyi qəti qərara almışdır. Bu respublikanın elm və texnika sahəsindəki sonsuz nailiyyətlərini nəzərə alaraq heç kim qurultayın Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsinə etiraz etmədi*" (Известия общества обследования и изучения Азербайджана: 1925, №1, 101–102).

Halbuki tarix Çobanzadənin dediklərinin tam əksini göstərir. Mərkəz qurultayın Bakıda deyil, daha çox Moskvada keçirilməsini istəyirdi. Moskva Bakıda qurultay məsələsində bir qədər tərəddüd edirdi. Hətta professor A.N.Samoyloviçin belə ilk qurultayın 13 mart 1924-cü ildə Moskvada keçirilməsini, qurultaya 13 ölkədən 70 nümayəndənin dəvət olunmasını və əlifba, yazı dili, elmi terminologiya mövzularına diqqət yetirilməsini təklif etdiyi yazılır (Cəlal Qasımov: 2019, 135).

Bakıda türk adı ilə keçirilən və geniş bir coğrafiyanı əhatə edən bu qurultay həqiqətən də türklərin tarixində bir ilk idi. 1932-ci ildə "Yeni Yol "qəzetinin latın əlifbasının qəbulunun onuncu ilinə həsr olunmuş xüsusi sayında T. Hüseynov adlı müəllif "Sinif mübarizəsində qələbənin 10 ili" adlı məqaləsində yazırdı: *"Bu qurultaya Krımdan başlayaraq uzaq Yakutistana qədər bütün Sovet Şərq respublikaları və vilayətləri, Dağıstan və Şimali Qafqaz xalqları nümayəndələri, Leninqrad (Peterburq – K.E.) ordinar professorları və bir neçə xarici şərqşünaslar qatılmışlar*" (*Yeni Yol*: 1931, 13).

Sovet idarəsində yüksək vəzifələrdə çalışmış, 1921-ci ildə qurulmuş Sovet İttifaqında Yeni Türk Əlifbası Komissiyasına sədrlik etmiş, hətta 1922-ci ildə Kommunist inqilabının öncüsü və Sovet rejiminin qurucusu V. İ. Leninlə şəxsən görüşərək Sovet İttifaqında istifadə olunan ərəb əlifbasının latın əlifbası ilə əvəzlənməsi fikrini irəli sürmüş Səməd Ağa Ağamalıoğlu Birinci Bakı Türkoloji Qurultayı ilə bağlı yazırdı: *"Həqiqətən də, türk–tatar xalqlarının tarixində görünməmiş Birinci Türkoloji Qurultay, Azərbaycanın təşəbbüsü ilə Sovetlər ölkəsində çağırıldı, yenə həmin Azərbaycanın təşəbbüsü ilə Yeni Türk Əlifbasının Baş Mərkəz Komitəsi quruldu"* (*Dan Yıldızı*: 1927, №10, 8).

Bakıda keçirilən Türkoloji Qurultay Avropada da böyük maraq doğurmuşdur. Tənqidçi, ədəbiyyatçı və şair Əmin Abid (1938-ci ildə Türkiyə casusu olmaq ittihamı ilə güllələnmişdir) 1930-cu ildə yazdığı "Nisan mədəniyyəti və xarici mətbuat" adlı məqaləsində Qurultay haqqında xaricdə yazılan məqalələrdən sitatlar vermişdir. Parisdə dövrün ən tanınmış türkoloqlarından olan L.Massignon tərəfindən 1909-cu ildən nəşr olunan "Revue de Monde Musulman" ("Müsəlman Dünyası Toplusu") adlı jurnalın 1926-cı ildə çıxmış ilk üç aylıq sayının Sovet Azərbaycanına həsr olunduğu, 173 səhifədən ibarət jurnalın 132 səhifəsində 1) Yeni Türkoloji Qurultay; 2) Azərbaycanda latın əlifbasının xüsusiyyətləri; 3) Bakıda sosial inkişaf; 4) Azərbaycan mətbuatı haqqında tarixi icmal; 5) Azərbaycanda teatr kimi mövzuların yer aldığı qeyd olunur (*İnqilab və Mədəniyyət*: 1930, №4, 34–36).

Josef Antuan Kastanye tərəfindən yazılan "Bakı Türkoloji Qurultayına" aid birinci bölmənin Qurultay məruzə və müzakirələrinin xülasələrindən ibarət olduğu bildirilir. Burada qurultaya nümayəndə göndərən türklər haqqında qısa məlumat verildikdən sonra Qurultayın elmi və idarə heyəti üzvləri barədə də məlumat təqdim olunmuşdur. Qurultayda Sovet İttifaqı Mərkəzi İcraiyyə Komitəsi adından çıxış edən sədr Qəzənfər Musabəyovun (1938-ci ildə Qurultayın yeganə qadın iştirakçısı olan bacısı Ayna Sultanovayeznəsi Həmid Sultanovla birlikdə dövlətə qarşı sui-qəsd ittihamı ilə güllələnmişdir – K.E.) nitqindən: *"Birinci Türkoloji Qurultayın keçirilməsi üçün Azərbaycanın paytaxtı Bakı şəhərinin seçilməsi təsadüf deyildir. Öz coğrafi mövqeyi sayəsində Şərqin qapısı mövqeyində olması ilə, Azərbaycan işçilərinin son illərdə əldə etdiyi mədəni və iqtisadi nailiyyətlər sayəsində Azərbaycan əziz qonaqları – türkologiyanın alim nümayəndələrini və qardaş Sovet respublikalarının nümayəndələrini özündə toplamaq şərəfinə layiq olmuşdur"* (*İnqilab və Mədəniyyət*: 1930, №4, 34).

Birinci Bakı Türkoloji Qurultayının latın əlifbasına keçid kimi mühüm mövzularından biri də imla və termin məsələləri idi. Buna görə də ərəb əlifbasının fonetik çatışmazlıqları Azərbaycan dilçiləri tərəfindən tənqid edilmiş; Vəli Huluflu, Hənəfi Zeynallı, Bəkir Çobanzadə, Fərhad Ağayev və digərləri kimi alimlər yazıda qeyri-müəyyənlik yaratdığını vurğulamışdılar. 1928 və 1931-ci illərdə keçirilən imla konfransları əlifba və imla problemlərini gündəmə gətirmiş, lakin Sovet rejimi bu məsələlərə biganə qalmışdı.

Əlifba məsələsinə bu qədər əhəmiyyət verilməsinin səbəbi dəyişən əlifbanın yazı qaydalarına çoxsaylı dəyişikliklər gətirməsi idi. Ərəb əlifbasında sait səslərin yazılmaması yazı prinsiplərinə təsir edən əsas amillərdən idi. Buna görə də sözlərin, şəkilçilərin, alınma sözlərin, baş hərflərin və bütün bunlardan böyük ölçüdə təsirlənən yazı dilinin üzərində ciddi işləmək lazım idi. Onsuz da yeni əlifba – yeni yazı, yəni yeni orfoqrafiya deməkdir. Bu səbəbdən ərəb əlifbasının yeni latın əlifbası ilə əvəz olunması üzərində dayanmağımızın bir çox səbəbi vardır. Orfoqrafiya – o dövrün dili ilə desək, "imla qaydaları" probleminin əsası məhz həmin illərdə qoyulmuşdur. Həm əlifba, həm də yazıqaydaları məsələsini ilk və əhatəli şəkildə gündəmə gətirən isə 1926-cı il Bakı Türkoloji Qurultayı olmuşdur.

Həmin dövrdə dil və imla mövzusunda çoxsaylı tədqiqatlar aparılırdı. Dil məsələləri olduqca aktual idi. Türk dünyasının yetişdirdiyi məşhur türkoloq Prof. Dr. Bəkir Çobanzadə imla haqqında belə yazırdı: *"Doğru imla yazı dili üzərində ortaya çıxır. Lakin dili yazıda göstərməyin və təsbit etməyin müxtəlif yolları vardır ki, buna imlanın ümumi prinsipləri və ya əsasları deyilir. Türk dilində hansı prinsiplər üzərində qurulmalı olduğunu izah etməzdən əvvəl müxtəlif dillərdə mövcud olan bu prinsiplərlə sizi tanış etməliyik. Avropa və imlası olan bəzi Şərq dillərinə baxdığımız zaman burada dörd-beş əsasla qarşılaşırıq. Bu əsaslar da: 1 – tarixi, 2 – fonetik, 3 – etimoloji və ya şəkli, 4 – alınma sözlər, 5 – ideoqrafik (deyilməyən hərflərin yazılışı – K.E.) əsaslardır"* (Çobanzadə: 1928, 122).

Qurultaydan əvvəl və sonra çoxsaylı müxtəlif toplantı və iclaslar keçirilmişdir. Azərbaycan alimləri böyük bir sevgi və ümidlə fasiləsiz çalışırdılar. Əvvəl görüləcək iş yeni latın əlifbasına keçid idi. Daha sonra dayanmaq olmazdı. Çünki yeni əlifba ardınca yeni imla qaydalarını da gətirəcəkdi. Çünki əlifba və imla bir-biri ilə sıx bağlı mövzulardır.

Mövzunun ilk müzakirə olunduğu toplantılardan biri 21–24 sentyabr 1924-cü ildə Bakıda keçirilən Ümumazərbaycan Ölkəşünaslıq (Yurd Bilgisi) Qurultayı idi. Burada türk dilində ahənk (uyum) məsələsi haqqında qərar qəbul edilmişdi. Qeyd etmək lazımdır ki, həmin dövrdə Azərbaycanda danışılan dil "Türk" dili adlandırılırdı və rəsmi sənədlərdə belə dilimiz bu adla təqdim olunurdu. Sözügedən toplantıda qəbul

edilmiş qərarda deyilirdi: "*Dilimizin səslərinə aid qaydalardan da məlum olduğu kimi, bilinənlərdən biri də uyum (sinharmonizm) qaydasıdır. Dilimizdə indiyə qədər ərəb və fars imla qaydaları hakim olduğundan, bu qaydanı danışıq dilimizdə yaşatdığımız halda, yazı dilimizdə laqeyd yanaşmışıq. Artıq feodalizm mədəniyyəti ilə əlaqəmiz kəsildiyindən, imla üsulunda feodalizm dövründən qalan məhkumiyyət mirasını ataraq, xalq dilinin öz uyumuna görə yazmaq üsuluna keçmək, elmi dilə uyğundur"* (*Dan Yıldızı*: 1926, № 2, 22).

Birinci Bakı Türkoloji Qurultayı bir çox mövzuya işıq saldı. Qurultayın ən böyük əhəmiyyəti bütün türk dünyasını birləşdirmək idi. Qurultayın qərarlarını həyata keçirmək üçün çoxsaylı işlər görüldü. 1937-ci illərdə bu proseslərlə bağlı qadağalar qoyulduğu və sənədlərin çoxu məhv edildiyi üçün aparılan işlər haqqında məlumatı dövrün mətbuatından topladıq. Toplantı elanları və qərarları mətbuatın təsiri böyük olduğundan dövrün qəzet və jurnallarında dərc olunurdu. İmla konfransına hazırlıq işləri haqqında yazılar daha çox yer almış, bəzilərinin isə sonradan çıxarıldığı nəşr heyətləri və onların mövzu ilə bağlı yazıları haqqında məlumat vermək istərdik. İmla konfransı böyük əks-səda doğurmuş, dövrün mətbuatında da haqqında məlumat verilmişdir. Rus dilində nəşr olunan 30 yanvar 1928-ci il tarixli *Бакинский рабочий* (*Bakı işçisi*) qəzetində "İmla Konfransı Bitdi" başlıqlı yazıda konfransın başa çatdığı xəbəri verilmiş və Prof. Dr. Samoyloviçin "Konfrans bütün məsələlərin işlənib hazırlanmasında fəal iştirak edən Azərbaycan müəlliminin xeyli yüksəlişini və inkişafını nümayiş etdirdi" sözləri paylaşılmışdır. Həmin dövrdə ərəb əlifbası ilə nəşr olunan *Kommunist* qəzetində də "Bütün Azərbaycan Birinci İmla Konfransı" adlı geniş məqalədə bu tədbirin təhsil və maarif adına nə qədər böyük əhəmiyyət daşıdığı vurğulanmışdır (*Kommunist*, № 24: 4). Sovet İttifaqında yaradılmış Mərkəzi Yeni Türk Əlifbası Komitəsi Bakıda fəaliyyət göstərirdi və üzvləri əsasən Azərbaycan ziyalılarından ibarət idi. Mərkəzin sədri Səməd Ağamalıoğlu, katibi isə işləmək və yaşamaq üçün Bakıya dəvət olunmuş Krım türkü Bəkir Çobanzadə idi. Mərkəzi Yeni Türk Əlifbası Komitəsinin 10 oktyabr 1927-ci ildə Təhsil Nazirliyi, mətbuat və nəşriyyat orqanları və digər aidiyyəti qurumların iştirakı ilə keçirdiyi toplantıda Birinci Bakı İmla Konfransının 1928-ci ilin yanvarında keçirilməsi qərara alınmışdı.

Qeyd etməliyik ki, İmla Konfransları yeni latın əlifbasına keçən, əvvəllər ərəb əlifbasından istifadə edən bir çox türk respublikalarında təşkil olunurdu. Məsələn, Bakı konfransından bir ildən bir qədər az sonra – 15 may 1929-cu ildə Özbək Dil İmla Konfransı xaricdən gələn qonaqlar istisna olmaqla, 150-yə qədər özbək ziyalısının iştirakı ilə keçirilmişdir. Müəllif toplantıda müzakirə olunan mövzuları və bu istiqamətdə aparılan mübahisələri bir-bir təsvir edirdi. Xaricdən gələn qonaqlar arasında *"Türkologiya sahəsində bütün dünyada tanınmış alim Prof. Samoyloviç, dil dünyasında bütün Avropada tanınan Prof. Şor, Türkiyədə özünü bütün dünyaya tanıdan Prof. Bəkir Çobanzadə, Tatarıstan dil-ədəbiyyat alimlərindən Prof. Abdulrahman Sadi və alim Nimet Hekim, Ural-Altay dilləri üzrə mütəxəssis Prof. Poppe var idi"* (*Dan Yıldızı*: 1929, №11–12, 39) yazılmışdır. On illiklər boyunca genetik qohunluqları danılan türk respublikaları arasında bu gün bütün sahələrdə əlaqələr inkişaf etməkdədir. Dilimizi qorumaq yüz il əvvəl bu dil və inanc yolunda həyatlarını fəda etmiş insanların ruhları qarşısında bizim ən böyük vəzifəmizdir.

ƏDƏBİYYAT

1. 1926-cı il Bakü Türkoloji Qurultayı (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). Bakı, 2006.
2. Ağamalıoğlu. Elmdən və tarixdən. Yeni türk əlifba komitəsinin nəşri. "Yeni yol" gazetesi.Bakı, 1927
3. Babayev Adil. Əsərləri. 17cilddə V cild. B.Çobanzadə Azərbaycan dilçilik elminin banisi kimi. Baki, 2023
4. Çobanzadə. Türk dili. Bakı, 1928.
5. Dan Yıldızı. Yeni Türk əlifbası Gürcustan və Ermənistan komitələrinin nəşriyyatı, № 2. Tiflis, 1926.
6. Dan Yıldızı. Yeni Türk əlifbası Gürcustan komitələrinin nəşriyyatı, № 10. Tiflis, 1927.
7. Dan Yıldızı. Yeni Türk əlifbası Gürcustan komitəsinin nəşriyyatı, № 11. Tiflis, 1928.
8. Dan Yıldızı. Yeni Türk əlifbası Gürcustan komitəsinin nəşriyyatı, № 11-12. Tiflis, 1929.

9. İnqilab və mədəniyyət: № 4. Bakı, 1930
10. Kommunist. №24, 1928.
11. Qasımov Cəlal. Birinci Türkoloji qurultay şahidlər və şəhidlər. Bakı, 2019.
12. Yeni Yol. Oktəbr inkilabının on illik bayramı munasibətilə Azərbaycan Jeni Turk Əlifba Komiəsi organına ilavə. Bakı, 7 noyabir 1927
13. Известия общества обследования и изучения Азербайджана: №1, Baku, 1925.

Şəkər ORUCOVA*

AZSAYLI ALTAY VƏ SİBİR ETNOSLARINA DAİR

XÜLASƏ

Uraldan Sakit okeana qədər uzanan böyük bir ərazidə məskunlaşan Sibir xalqlarının statistik hesablamalara görə ümumi sayı 5 milyona qədər olsa da, türkdilli xalqların sayı çox azdır. Hazırda Sibirdə Ruslar, Almanlar, Ukraynalılar, Tatarlar, Qazaxlar, Kalmıklar, Aleutlar, Alutorslar, vepslər, Çulımlar, İtelmenlər, Kamçadallar, Kereklər, Koryaklar, Kumandinlər, Mansı, Nanay, Negidallar, Tubalar, Nqasanlar, Sami, Selkup, Çelkanlar, Soyotlar, Tazi (Ude), Telengitlər, Teleutlar, Tofalar (Karaqas tofaları), Tuvan-todjinlər, Udegey, Uşçi, Dolqan, Xantı, Çuvan, Çukçi, Şor və Evenklər, Evenlər, Enets (Ençolar), Eskimoslar, Yukalar və s. kiçik etnosları təmsil edən hər bir şəxs üçün Sibir – onların doğma evləridir.

Məqalədə bir sıra türkdilli azsaylı Altay və Sibir etnoslarından bəhs edilir.

Rusiya Federasiyasının azsaylı türk etnoslarının təşəkkülü, tarixi inkişafı, mədəniyyətlərinin formalaşması və inkişaf perspektivlərinin öyrənilməsi fəlsəfə, tarix, etnoqrafiya və etnologiya və kulturologiya kimi elmlərin öhdəsinə düşür. Son zamanlarda etnik qrupların mədəni-antropoloji dəyərlərinin dərindən araşdırlmasına başlanılmışdır. Belə ki, etnik mənsubiyyətini qoruyb saxlamağa çalışan türkdilli xalqlarda özlərinin qədim köklərinə qayıtmaq, çoxdan bəri xalqın yaddaşından silinmiş adət-ənənələri, ritual və ayinləri bərpa etmək, onları yetişməkdə olan gənc nəslə ötürmək meyli artmaqdadır. Azsaylı xalqlarda etnik özünündərkin güclənməsi, əvvəllər mövcud olmayan, daha doğru desək, dövlət tərəfindən sıxışdırılan milli hərəkatların və ideoloji konsepsiyaların yaranmasına ciddi təkan vermişdir. Sovet hakimiyyəti dövründəki kollektivləşdırmə prosesi türkdilli respublikalarda olduğu kimi, Sibir xalqlarının taleyində çox acı izlər buraxmış, aborigen xalqların ən fəal siyasi liderləri məhv edilmiş, milli kimliklərinin sübutu olan ayinlər, etiqad etdikləri şamanizm dini qadağan edilmişdi.

L.P.Potapovun bölgüsünə görə altaylar aşağıdakı qruplara bölünür:

1. ***Əsil altaylar (Altay-kiji***) – Xatın, Ursula, Sema, Mayma, Çarış, Kan, Kumluca çayları ətrafında məskunlaşanlardır. Bəzi tayfa birləşmələri İrtış çayı hövzəsi boyunca yerləşən Buxtarma, Narım, Kurçuma çayları ətrafında yaşayırlar. Soykökləri bir olsa da, dil xüsusiyyətlərində, həyat və məişətləri, hətta antropoloji cəhətdən bir sıra kəskin adət-ənənələri arasında bir sıra fərqli cəhətlər nəzərə çarpır. Buna görə də Altaylar Şimal və Cənub altayları olmaqla 2 qrupa ayrılır. Şimal qrupuna ***Şor***, ***Kumandin***, ***Çelkan, Tubalar***; Cənub qrupuna əsil ***Altaylar***, ***Telengit*** və ***Teleslər*** daxildir.

2. ***Telengitlər*** – Çui və Arqut çayları boyunca məskunlaşanlar; Telengitlərin bir qismi isə Çuy çayı ətrafında yaşadıqlarından bir müddət ***çuylar*** da adlandırılmışdır.

Türk dillərindəki ***tele*** etnonimini sosial-siyası cəhətdən araşdırmadan öncə bu etnonimin nə mahiyyət daşıdığını öyrənmək lazımdır. L.Potapov, S.Klyaştornı, A.Kononov ***tele*** etnoniminin mahiyyət etibarı ilə ayrıca etnos olmayıb, ***veyxo*** (uyğur), ***seyanto*** və ***tubo*** qəbilələrinin birləşməsi nəticəsində yarandığını göstərirlər [6, 233-240].

Tele qəbilələri haqqında 3 əsas mənbədə məlumat verilir. Bunlardan ən qədimi Suy və Tan sülalələrinin salnamələri sayılır. ***Tele*** haqqında digər önəmli mənbə Rəşid-əd-Dinin "Cəmi ət-təvarix" ("Salnamələr məcmuəsi") əsəridir [8]. Burada türkdilli bəzi etnoslar haqqında nisbətən ətraflı məlumat verilsə də, ***tele,*** xüsusən də ***teleut*** etnonimləri barədə deyilənlər səthi xarakter daşıyır.

* AMEA-nın Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, aparıcı elmi işçisi, fil.ü.f.d., dosent. Email: shakarbsu@mail.ru

XVII əsrə aid olan salnamələr, eləcə də o dövrün "köçürülmə vərəqləri" adlanan sənədlər, N.Biçurunin Çin dilli məxəzlərdən etdiyi tərcümələr [1] və N.V.Künerin bu tərcümələrə əlavəsi hesab edilən "Cənubi Sibir xalqları haqqında Cin xəbərləri" adlı tədqiqatı [5] da etnoloji fikir tarixinin öyrənilməsində əvəzsiz rol oynamışdır. Bu mənbələr hərtərəfli bilik bazası göstəricilərinə malik olsalar da, səhv cəhətləri kimi buradakı xronoloji ardıcıllığın daha sonrakı dövrlərə aid edilməsi göstərilir.

Qeyd edək ki, ***tele*** etnoniminin mənşəyi müasir etnologiya və dilçilik elmlərində hazırda da mübahisə doğuran məsələlərdəndir və bu barədə üç nəzəri fikir mövcuddur. Birinci nəzəriyyəyə görə, ***tele*** türk qəbiləlinin özlərinə verdikləri addır. Bu fikrin sadiq tərəfdarı həyatını Cənubi Sibir və Tuvanın öyrənilməsinə həsr edən etnoqraf-alim L.P.Potapovdur. Bu münasibətlə görkəmli etnoqraf yazır ki, "*Türk xaqanlığının yaranmasında önəmli rolu olan bu çoxsaylı etnos daşıyıcıları üçün* ***tele*** *etnoniminin Çin alınmalarından olması ağlabatan deyildir*" [6, 234].

İkinci nəzəriyyə tərəfdarı L.N.Qumilyov belə hesab edir ki, ***tele*** – hunların ulu babalarıdır. L.Qumilyov bu qənaətə ***tele*** və ***hunlar*** üçün ortaq olan uyğur dilinin quruluşundakı oxşarlıq əsasında gəlmişdir. Bu nəzəriyyə indi də mübahisəlidir. L.P.Potapov bu nəzəriyyəni mif adlandırmışdır: "*Qədim Çin mənbələrində türklərin (tukyuy) mənşəyi, eləcə də tele barədə olan fikirlər mif xarakterli olub, həqiqəti əks etdirmir*"[6, 66]. N.B.Konovalov tərəfindən də bu nəzəriyyə dəfələrlə tənqid edilmişdir [4, 25].

Üçüncü versiya Cənubi Sibirdə Minusin hövzəsində yaşayan *dinglinlərlə* bağlıdır [3, 16]. D.E.Selivanov bir sıra görkəmli türk qəbilələrinin tədqiqi üçün açar rolunu oynayan sözün (Dingling-Tiele) Böyük Çin-us sözlüyndə *türk* mənasında işləndiyini göstərir və dolayısı ilə ***tele*** sözünün Çin mənşəli olduğundan şübhə etmir [9, 117]. Bununla belə, müəllif, L.P.Potapovun fikri ilə məntiqi cəhətdən razılaşsa da *tele* etnonimini mübahisə obyektindən çıxarmağın tərəfdarı olmadığını da etiraf edir.

Yeri gəlmişkən qeyd edək ki, D.E.Selivanovun da telengitlərin mənşəyi barədə bir sıra fərziyyələri mövcuddur. Belə ki, o, ***tele*** tayfalarının ilk nümayəndələrinin yaranma tarixinin öyrənilməsin təkcə dövlətlərarası qarşılıqlı əlaqələrin yenidən qurulması üçün deyil, eləcə də bu etnonimin əsas müasir etnoloji problemlərin müəyyənləşdirilməsi məsələlərinin öyrənilməsi üçün də böyük əhəmiyyət kəsb etdiyini göstərir. Müəllifin fikrincə, ***dinglin*** etnonimi ***tele***nin, ***tele*** etnonimi isə ***telengit***lərin əcdadlarıdır. D.E.Selivanov ***hun***ların müəyyən mənada bu etnoslarla əlaqəli olduğu və ***tele*** və ***telengit***lərin əsdadı ola biləcəyi ehtimalını da irəli sürür [9, 115-117].

Təbii ki, bunlar yalnız fərziyyələrdir.– Müasir elmdə hunların izlərini haradan tapmaq olar? və ya: – ***Dinglinlər*** telelərin əcdadlarıdırmı? – ***Telelər*** hunların xələflərdirmi? – kimi sualları cavablandırmaq üçün əldə etibarlı mənbələrin, faktiki materialın olmaması işi çətinləşdirir.

Tele etnosları və onların əcdadları haqqında fərziyyələrin sübutu ***tele*** etnonimi haqqında yalnız bir neçə mənbədə məlumat verildiyindən və bu mənbələrə istinad olunmayan dövrlər haqqında məlumatın az olduğundan boşluqlara dayanmaqdadır. Düşünürük ki, əsas məsələ bu boşluğu aradan qaldırmağın yollarını müəyyənləşdirməkdir. Amma bir həqiqət var ki, müəllifin bu fərziyyəsi sübut olunarsa, telengitlərin mənşəyi güman edildiyindən daha qədimlərə gedib çıxa bilər.

3. ***Teleslər*** – Çulışman, Başkaus və Ulaqan çayları ətrafındakılar (bunların bəzi birləşmələri Ursula çayı hövzəsi ətrafındadır); Başkaus ətrafındakı teleslər ***ulan*** adlanır. L.P.Potapov bu terminin Ulaan/Ulaqan adı ilə tanındığı qənaətindədir [7, 6].

4. ***Tubalar*** – "Qara tatarlar" (черневые татары), ***йыш кіжі*** (meşə, tayqa adamları) adları altında tanınan və sayına görə azsaylı xalqlardan və dillərini itirməkdə olan (1565 nəfər) ***Tubalar*** – Sibirin ən qədim Altay subetnoslarındandır. Altay Respublikasının Turoçak, Çoy, Mayminski, az miqdarda da Çemalski və Sebalinski rayonlarında məskunlaşmışlar. Altayda yaşayan digər xalqlardan daha baçarıqlı, işgüzar, cəsarətli və cəsur olmalarına görə seçilirlər. Keçən 150 il zaman ərzində Rusiyanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklər Altay dağlarının digər yerli etnik qruplarından fərqli olaraq, tubaların həyat və məişətinə öz təsirini daha çox təsir etmiş, onların nəinki ruslar, eyni zamanda Altay əhalisi arasında da bir sıra ciddi və ağrılı münasibətlərin yaranmasına səbəb olmuşdur.

L.P.Potapov XVIII əsrin 80-ci illərinə qədər bu etnosların bir neçə mahal arasında bölünərək Yujskaya mahalının əhalisinin Ulala, Sayıdış, Çemal, Ynırqa kəndlərində Uçak-İşa çayları boyunca, Komlyajskaya və Komdoşskaya mahalı əhalisinin Paşa, Yışpaq Paşa kəndlərində və Çepoş, İlyinskoy,

Erekhalqa, İşa, Kuza, Tulonu çayları və Tibet gölü ətrafında, Kuzenskaya mahalı əhalisinin Ynurge, Paspaule kəndləri və İşa, Balykşe , Biya, Sary-Kokşa çayları boyunca pərakəndə halda yaşadıqlarından bəhs etmişdir [7, 22].

V.M.Qatsak postsovet dövrünün 80-ci illərində Altay folklorşünası Sazon Saymoviç Surazakovun tubalardan sayılan ***komdoş***ların cənubi altaylılarla tayfa halında birləşdiyini yazdığını göstərir [2, 45].

Tubalar məskunlaşdıqları ərazilərə görə aşağıdakı bölgüləri əhatə edir: Böyük və Kiçik İşe, Sarı-Kökşe, Kara-Kökşe, Pıje və Uymenyu çayları ətrafındakı Çoysk və Turoçaksk aymaklarından olanlar; ***Tubalar***, ***kumandinlər***, ***çelkanlar*** və ***şorlar*** "şimali altaylar" ümumi adı altında birləşirlər. XVII-XVIII əsr rus səyahətnamələrində altaylar səhvən "dağ kalmıkları", teleutlar "ağ kalmıklar" adlandırılmışdır. Halbuki, kalmıklar monqol dilində danışan etnoslar, altaylar isə türkdilli xalqlardır. Altaylar müəyyən zaman kəsiklərində ***oyrotlar*** da adlandırılmış, lakin onlara verilən bu ad özünü doğrultmamışdır. Çünki oyrotlar – monqol qəbilələrindən olub, XVII əsrin birinci yarısında Altayı tərk edərək Volqa çayının aşağı hissəsinə köç edən qərbi monqol qəbilələrinə aiddir. Hazırda bunlar ***Voljsk kalmıkları*** və ***Astraxan kalmıkları*** adlanır. Onların bəzi hissəsi Şərqi Türküstanda və Qərbi Monqolustanda ***Torqoutlar*** və ***Derbetlər*** adlanır.

Tubaların özkeçmişini əks etdirən yazılı abidələri olmasa da, Çin, Vizantiya, İran, bir sıra rus mənbələrində onların türkdilli qəbilələrdən olduğu haqqında məlumatlar vardır. Bunlardan başqa arxeoloji qazıntılar zamanı VII-VIII əsrlərə (dəmir dövrü) dair təsbit edilən Pazırık, Araqol və Buxtarme çayları ətrafında tapılan kurqanlardakı qayaüstü rəsmlər, bəzi əşyalar onların zamanında İran, Çin və digər ölkələrlə iqtisadi-ticari əlaqələrinin olduğu haqqında qiymətli materiallara rast gəlinir. L.P.Potapov Orxon-Yenisey abidələrində adı keçən qəbilələrin (***Teles, Türkeş, Tub, Qıpçaq)*** altaylarda mövcud olan ***ini***, ***açı, kelin*** tayfalarının onlarla qohum olduğu qənaətindədir [7, 22].

Tubalar haqqında XX əsr etnoqraf-alimləri P.E.Tadıevin, N.B.Ekeevin, E.A.Begilbaevin, S.N.Tarbakanovanın əsərlərində də bəhs olunur. Tubaların etnik mədəniyyəti, şamanizmlə bağlı adət-ənənələri çox qədimlərə gedib çıxır. A.B.Anoxinin, Q.İ.Qurkinin, N.A.Baskakovun, E.M.Toşakovanın, V.V.İvanovun, E.Q.Toruşevanın və s. kimi alimlərin bu barədə bir sıra araşdırmaları mövcuddur.

Rusiya Federasiyasının 24 mart 2000-ci il tarixli 255 saylı fərmanına əsasən 45 yerli xalq Şimal, Sibir və Uzaq Şərqin azsaylı yerli xalqları sıyahısına daxil edildi. Federal qanunlara görə "yerli azsaylı xalq" statusu qədim əcdadlarının məskənlərində yaşayan, milli kimliklərini, özünəməxsus həyat tərzi və məişət tərzini, adət-ənənələrini qoruyub saxlamağa alışan etnoslara şamil edilir. Postsovet dövrünün 20-ci illərində 26 azsaylı xalq, o cümlədən "yerlilər" və ya "şimal sərhədyanı ərazi bölgələrində yaşayan tayfalar" adı ilə ***Aleutlar***, ***Dolqanlar***, ***İtelmenlər***, ***Ketlər***, ***Koryaklar***, ***Mansilər***, ***Nanaylar***, ***Negidallar***, ***Nqasanlar***, ***Nivxlər***, ***Oroklar***, ***Oroçlar***, ***Samilər***, ***Selkuplar***, ***Tubalar***, ***Tofalar***, ***Udeçlər***, ***Xantılar***, ***Çuvanlar***, ***Evenklər***, ***Yuxagirlər*** da siyahıya alınaraq uzun illər "Şimal bölgəsinin azsaylı xalqları" adlandırıldı. 1993-cü ildə ***Kumandinlər***, ***Teleutlar, Tuvan-todjinlər, Şorlar***, 2000-ci ildə RF hökumətinin 24 mart 255 saylı qərarı ilə bu siyahıya ***Amatorlar, Veplər, Kamçadallar, Kereklər, Soyotlar, Tazlar, Telengitlər, Tubalar, Çelkanlar, və Çulımlar*** olmaqla daha 10 etnos artırıldı. "Şimal, Sibir, Uzaq Şərqin yerli xalqları" termini yarandı. Bu xalqların ümumi sayı 270.000 nəfər civarında olsa da, azalma təhlükəsi ilə üz-üzədirlər.

5. ***Çelkanlar*** (***Şelkan*** və ya ***Lebedinlər***) – Qu çayı (Lebedi) ətrafında olan Bayqola və Turoçaksk aymaklarında olanlar;

6. ***Kumandinlər*** – Bii və Turoçaksk aymaklarından Staro-Bardinsk və Altay vilayətinin Soltonsk rayonlarına qədər uzanan ərazilərdə məskunlaşanlar;

7. ***Teleutlar*** – Çerge çayı boyunca uzanan Şebalinsk və Mayminsk aymaklarındakılar; tamamilə ruslaşmış teleutlar da mövcuddur ki, Çumış çayı ətrafında yaşayırlar;

8. ***Şorlar*** – Kondoma və Mrassı, eləcə də Kemerovo vilayətinin müəyyən hissəsində (Çoysk və Turoçaksk aymaklarında) məskunlaşanlardır ki, bunlara ***seoklar*** (hərfi mənası – "sümük" deməkdir). Etnologiyada Şor etnoslarının eramızdan əvvəl VI-IV əsrlərdə Ural icmasından samoyed və fin-uqor tayfalarının vahid substratı əsasında formalaşdığı və VI-IX əsrlərdə onların Türk, Uyğur və Yenisey xaqanlığının tərkibində olması fikri mövcuddur.

Postsovet hakimiyyətinə qədər "Şor-xalqı" termini formalaşmaqda olan etnik qrup və elmi ictimaiyyətin nümayəndələri kimi qəbul edilmişdir. Yalnız XX əsrin əvvəllərində Cənubi Sibirin (Kemerovo vilayəti) türkdilli əhalisinin "Şor" ümumi adı altında birləşdiyi və müxtəlif türkdilli tayfaların konqlomeratı olduğu məlum oldu. Gündəlik həyatda rusların "Kuznetsk tatarları", "abinlər" adlandırdıqları şorlar yaşadıqları əraziyə (***пызас-кижи*** – ***Пизас***), eləcə də çay sahilləri adlarının istinad edildiyi soyadlara görə tanınırdılar. Müxtəlif subetnik qruplar vahid etnik qrupda birləşməsi mərkəzi Mıski kəndi olan Qorno-Şorsk (Dağlıq Şorsk) Milli Dairəsi və Kuzedeyevo kəndinin yaranmasından sonra baş tutdu.

Sonralar "Şor xalqı" termini süni şəkildə quraşdırılan etnonimə çevrilsə də, Kuznetsk tatarlarının oxşar dil qrupuna süni şəkildə yaradılmış etnonimin köçürülməsi onların yaşadıqları mühitdə baş verən etnik proseslərin xarakterini, sürətini və istiqamətini əhəmiyyətli dərəcədə müəyyənləşdirdi, eyni zamanda Cənubi Sibir türklərinin etnik birləşməsinin mərkəzi oldu.

XIX əsrə qədər azsaylı xalqların əsas məşğuliyyətləri dəmirçilik, ovçuluq, balıqçılıq, arıçılıq olmuşdur. Sovet hakimiyyəti dövrü digər xalqlar kimi, onlar üçün də kollektivləşmə ilə yaddaşlarda qalmışdır. Yenidənqurma da onlara "xoşbəxtlik" vəd etmədi. Hazırda Altay və Sibirin azsaylı xalqları milli mənsubiyyətlərinin, mədəni irslərinin daha çox qorunub-saxlanılması, yaşadılması, gələcək nəsillərə ötürülməsi üçün gəncləri səfərbər etməyə çalışsalar da, bir sıra əngəllər buna mane olmaqdadır. Əsrlər boyu öz torpaqlarında sahiblik hissi ilə yaşayan xalqlar, hazırda bu hissdən məhrum edilmişlər. Rus şovinist siyasəti yerli əhalinin yaşadıqları ərazilərdə təbii sərvətlərdən istifadə etmək hüququnu tanımadığından, gənclərin böyük əksəriyyəti dolanışıq ucbatından onlara doğma olan yerləri tərk edir, getdikləri yerdə ailə quraraq geri dönməmək məcburiyyətində qalırlar.

Uzun əsrlər boyu çətin iqlim şəraitində dağ-tayqa landşaftını məhv olmağa qoymayan Rusiyanın Şimali, Sibir və Uzaq Şərqin yerli xalqları ümumbəşəri mədəniyyətin nadir nümunələrini yaradanları və qoruyucularıdır. Azsaylı xalqlar arasında etnik mədəniyyət və incəsənəti dirçəltmək arzusunda olan yaradıcı ziyalılar çoxdur. Amma dilin tənəzzülünə qarşı onlar da acizdir. Ana dillərində yalnız 50 yaşdan yuxarı olan sayca az adam danışır. Dilin inkişafı üçün isə lüğət və ana dilində məktəblər açmaq, dərsliklər çap etdirmək zəruridir. Bu barədə "həyəcan təbili" çalan türkdilli xalqların isə təəssüflər olsun ki, harayını eşidən yoxdur.

ƏDƏBİYYAT

1. Бичурин, Н.Я. (1953) Собрание сведений о народах обитающих в Средней Азии в древние времена [Data about the peoples inhabiting Central Asia in ancient times]. MN.V.Künerin buoscow: USSR AS.
2. Гацак В.М. С.С.Суразаков и его труд о алтайском героическом эпосе // Материалы к 80 летию со дня рождения. Горно-Алтайск, 2005, с. 45.
3. Кызласов Л.Р. История Южной Сибири в Средние века. Москва: Высшая Школа, 1984. s.16.
4. Gombozhapov, A.D. (2010) Kochevye tsivilizatsii Tsentral'noy Azii v trudakh L.N.Gumileva [Nomadic civilisations of Central Asia in the works of L.N. Gumilev]. Ulan-Ude: SB RAS.
5. Потапов, Л.П. (1966) Этноним Теле и Алтайцы. [Ethnonym Tele and Altaians]. In: Klyashtorniy, S.G. (ed.) //Тюркологический сборник к 60 летию А.Н.Кононова [Turcologica. To the 60th anniversary of A.N. Kononov]. Москва: Наука.pp. 233–240.
6. Потапов, Л.П. Очерки по истории алтайцев. Изд-во Академии АН СССР, Москва-Ленинград, 1942.
7. Rashid ad Din. (1952) Dzhami at Tavarikh [The Jāmiʿ al-tawārīkh]. Vol. 3. Moscow: USSR AS.
8. Селиванов Д.Е. Проблема происхождения и содержания этнонима теле в современной этнологической науке. Вестник Томского государственного университета. История. 2018. № 51.

Шекер Оруджова
Ведущий научный сотрудник Института Языкознания
отдела Тюркские языки НАНА,
доктор филологических наук по философии, доцент

О МАЛЫХ АЛТАЙСКИХ И СИБИРСКИХ ЭТНОСАХ

РЕЗЮМЕ

Хотя общая численность Сибирских народов, проживающих на общей территории от Урала до Тихого океана, оценивается в 5 млн. человек, число тюркоязычных народов очень мало. В настоящее время в Сибири проживают небольшие этнические группы, в том числе русские, немцы, украинцы, татары, казахи, калмыки, алеуты, алуторы, вепы, чулымы, ительмены, камчадалы, кереки, коряки, кумандины, манси, нанаи, негидальцы, тубы, нгасанцы, саами, селькупы, челканы, сойцы, тази (уды) теленгиты, телеуты, тофасы (карагские тофасы), тувинские тоджины, удеги, ущи, долганы, ханты, чуванцы, чукчи, шоры и эвенки, эвенцы, энецы (энхо) эскимосы, юкасы и. др. Для каждого представителя каждой из этих групп Сибирь является родиной.

В статье рассматривается ряд тюркоязычных этнических групп Алтая и Сибири.

Sheker Orujova
Leading Researcher, Institute of Linguistics,
Department of Turkic Languages,
National Academy of Sciences of Azerbaijan,
Doctor of Philology in Philosophy, Associate Professor

ABOUT SMALL ALTAI AND SIBERIAN ETHNIC GROUPS

SUMMARY

Although the total number of Siberian peoples living in the general territory from the Urals to the Pacific Ocean is estimated at 5 million people, the number of Turkic-speaking peoples is very small. Currently, Siberia is home to small ethnic groups, including Russians, Germans, Ukrainians, Tatars, Kazakhs, Kalmyks, Aleuts, Alutors, Veps, Chulyms, Itelmens, Kamchadals, Kereks, Koryaks, Kumandins, Mansi, Nanai, Negidals, Tubas, Ngasans, Sami, Selkups, Chelkans, Soys, Tazi (Udy) Telengits, Teleuts, Tofas (Karag Tofas), Tuvan Todzhins, Udegs, Ushchis, Dolgans, Khanty, Chuvans, Chukchi, Shors and Evenks, Evenks, Enets (Enkho) Eskimos, Yukas, and others. For each representative of each of these groups, Siberia is their homeland.

The article discusses a number of Turkic-speaking minority Altai and Siberian ethnic groups.

А.Ж. КЕНЖЕБАЕВА*
М.К. АХМЕТОВА**

ЭТНОЛИНГВИСТИЧЕСКИЕ КОНЦЕПЦИИ В КАЗАХСКОМ ЯЗЫКОЗНАНИИ

АННОТАЦИЯ

В статье рассматриваются становление этнолингвистики как науки, её объект исследования и методологические основы. Процесс дифференциации и обособления этнолингвистики в системе языкознания анализируется через теоретические концепции таких учёных, как Ф. Боас, Э. Сепир, Б. Уорф, В. фон Гумбольдт. Формирование и развитие этнолингвистического направления в казахском языкознании рассматривается в связи с научно-теоретическими установками казахской этнолингвистической школы, основанной А. Кайдаром. В статье в рамках макросистем «Человек», «Общество», «Природа» на материале наименований металлов в казахском языке раскрывается кумулятивная функция этнокультурной лексики, взаимосвязь национального мировоззрения и языковых единиц. На примере образных сочетаний, образованных на основе лексических единиц қорғасын, болат (**свинец, сталь**), выявляется их этнолингвистическая природа и определяется роль данных единиц в сохранении познавательного опыта народа и культурной памяти.

Статья подготовлена в рамках проекта AP23488671 «Языковая репрезентация этнокультурного сознания казахской молодежи» по грантовому финансированию МНВО РК на 2024-2026 гг.

Ключевые слова: *этнолингвистика, этнос, язык, культура, этническое бытие, мировоззрение, этнокультурная лексика.*

Этнолингвистика — это самостоятельная отрасль языкознания, изучающая бытие народа, его мировоззрение, традиции, обычаи и формы общественного сознания через язык. Учитывая, что неисчерпаемые богатства казахского языка и передающееся из поколения в поколение культурное наследие составляют основу материальной и духовной культуры народа, исследование этих ценностей посредством языка этноса, их систематизация и осмысление входят в круг задач этнолингвистики.

В американском языкознании этнолингвистика начала развиваться с 70-х годов XIX века как самостоятельное направление в составе этнографии и была ориентирована на изучение индейских племён Северной и Центральной Америки, при этом основное внимание уделялось этнографическим данным. С первой четверти XX века усиливается интерес к языковедческому изучению этнолингвистики. Ф. Боас и первое поколение его учеников заложили основы новых традиций в американской лингвистике, определив круг исследовательских проблем и методов. В трудах американских учёных термин «этнолингвистика» часто заменялся понятиями «антрополингвистика», «этносемантика» и др., а одной из ключевых задач стало изучение генетического родства языков американских индейцев. Значительное место занимали исследования языковых контактов между индейскими и индоевропейскими языками (преимущественно влияние английского, испанского и французского языков), проблемы билингвизма и мультилингвизма, а также влияние социально-культурных факторов на развитие языка (Д. Х. Хаймз, Х. Хойер, Г. М. Хёнигсвальд и др.) [1].

На начальном этапе в этнолингвистике преобладал интерес к вопросам семантики. Так, Ф. Боас в 1915 году исследовал семантику грамматических категорий, Э. Сепир в том же году изучал

* *докторант II курса Евразийского национального университета имени Л.Н. Гумилёва, Казахстан, Астана. Email: kenzhebaeva_aisaule@mail.ru*

** *кандидат филологических наук, доцент, и.о. профессор Евразийского национального университета имени Л.Н. Гумилёва. Казахстан, Астана. Email: akhmetova_mk@enu.kz*

нестандартные формы речи в языке нутка, в 1929 году — звуковой символизм, а в 1930 году — понятийные поля. Повышенное внимание к содержательной стороне языка (и, соответственно, к этнолингвистике) возобновилось в начале 1950-х годов [1], что было связано, с одной стороны, с активным обсуждением гипотезы Сепира–Уорфа, возникшей в рамках этнолингвистики и опирающейся на идеи американского неогумбольдтианства.

Учёные, всесторонне и на различных уровнях рассматривавшие идеи этнолингвистики (В. Гумбольдт, В. Вундт, А.А. Потебня, Г. Шухардт, Ф. де Соссюр, Бодуэн де Куртенэ и др.), признавали, что основой данной науки является связь между этносом и его языком. Вместе с тем в их концепциях наблюдаются различия в трактовке характера и степени взаимодействия этноса и языка. В основе взглядов В. фон Гумбольдта лежит концепция «духа народа» (нем. *Volksgeist, Geist*). По мнению учёного, именно «дух народа» является исходной точкой и движущей силой возникновения языка и его постоянного обновления. В этом контексте язык выступает главным носителем и выражением народного духа, что составляет основу философско-лингвистических воззрений В. фон Гумбольдта [2, 349].

В лингвистических словарях термин «этнолингвистика» определяется следующим образом: «Этнолингвистика — раздел макролингвистики, изучающий отношения между языком и народом, а также взаимодействие лингвистических и этнических факторов в функционировании и развитии языка» [3, 539]; «Этнолингвистика — направление языкознания, рассматривающее язык в связи с культурой, языковыми, этнокультурными и этнопсихологическими факторами. В широком смысле этнолингвистика представляет собой комплексную дисциплину, изучающую культуру, народную психологию и мифологию посредством языка» [4, 275]. Исторический путь, мировоззрение, традиции, обычаи, верования, образ жизни, материальные и духовные ценности каждого народа систематизируются и познаются через язык. В языке любого этноса запечатлены следы его исторического развития, а потому этнический облик и самобытность народа находят своё отражение именно в языке.

В казахском языкознании этнолингвистика начала развиваться с 70-х годов XX века. Цели, задачи и объект исследования данной отрасли, её специфика были рассмотрены в трудах академика А. Кайдар, а также в монографиях Е. Жанпеисова и М. Копыленко. Анализ языковых данных, связанных с традиционной культурой и бытом казахского народа, с точки зрения их идиоэтнического значения и их углублённое изучение («індете» зерттеу, термин А. Кайдара) берут начало именно в трудах этих учёных.

Основатель казахской этнолингвистической школы А. Кайдар даёт следующее определение: «Этнолингвистика ставит своей целью познание и систематизацию мировоззрения, традиций, обычаев, верований, особенностей быта, духовной и материальной жизни определённого этноса через его языковое богатство на основе языковых фактов» [5, 473].

Среди исследований данного направления особое место занимают труды профессора Е. Жанпеисова, отличающиеся глубиной теоретического анализа, обилием этнографического материала и широкими сравнительно-этимологическими сопоставлениями. Его монография, посвящённая историко-лингвистическому изучению этнокультурной лексики на материале произведений М. Ауэзова, является одной из наиболее значимых работ в данной области. В ней анализируются единицы, связанные с материальной и духовной культурой *(сәукеле, шекпен, түндік, үзік, ерулік, сонар, бастаңғы, қалжа и др.)*, народные меры измерения *(шар, сүйем, қарыс, тірнек и др.),* термины родства и семейных отношений *(бәйбіше, тоқал, кішілік, өкіл күйеу, келін, жамағайын и др.*) с привлечением данных тюркских языков и проведением сравнительного анализа [6].

М.М. Копыленко в труде «Основы этнолингвистики» уделяет особое внимание истории этнолингвистики в общем языкознании, этапам её становления и обоснованию как самостоятельной отрасли. Учёный отмечает, что термин «этнолингвистика», согласно взглядам Б.Л. Уорфа, сформировался на стыке этнографии и социологии, а его идеи, созвучные теории Э. Сепира о связи языка и этнической культуры, получили в науке название «гипотеза Сепира–Уорфа». Ценной

представляется следующая позиция М.М. Копыленко: «Это направление изучает этнос в зеркале языка. В нём нет симбиоза дисциплин, поскольку язык является главным и непосредственным предметом анализа; этнология, история, культурология и другие нелингвистические дисциплины привлекаются как вспомогательные» [7, 17].

В казахском языкознании значительный вклад в изучение лексики материальной культуры *(жанторсық, басқұр, тоқым, ішік, қауға, кебеже, сырмақ, адалбақан и др.)* внесла Ж. Манкеева. В работе «Проблемы казахского языкознания» она отмечает: «Этнолингвистика — это отрасль языкознания, изучающая язык в его культурной обусловленности, а также взаимодействие языковых, этнокультурных и этнопсихологических факторов в функционировании и развитии языка» [8, 241]. Исследователь подчёркивает тесную связь этнолингвистики с историей, археологией, литературоведением, культурологией и искусствоведением, особо выделяя её взаимодействие с этнографией.

Таким образом, решающая роль в данной области принадлежит лингвистике. Для более глубокого понимания этого положения обратимся к мнению А. Кайдара: «Многовековой путь развития этноса и его символические образы могут дойти до нас в виде каменных изваяний, наскальных надписей, памятников культуры и архитектуры. Однако всё это — лишь отдельные фрагменты этнической жизни. Подлинная мудрость и мировоззрение этноса сохраняются только в языке. Названия и характеристики орудий труда, оружия, одежды, пищи, предметов быта, понятий, связанных с обычаями, верованиями, обрядами, праздниками и развлечениями, доходят до нас исключительно в виде языковых фактов — слов, словосочетаний, фразеологизмов, пословиц и поговорок. Особенно у народов без письменности нет иного способа сохранить столь обширное наследие, кроме языка и устного народного творчества» [5, 458]. По мнению учёного, этническое бытие находит отражение в языке, а исследование этнографического содержания и традиционного употребления языковых единиц, сохранённых в его глубинных слоях, составляет основную задачу этнолингвистики.

В данном контексте следует особо отметить, что академик А. Кайдар, систематизируя богатейший лексический фонд казахского языка в соответствии с закономерностями мироустройства, сгруппировал словарное богатство в три основные макросистемы — «Человек», «Общество», «Природа», подразделив их на взаимосвязанные внутренние сферы и проанализировав посредством идеографической классификации [5, 459]. Это обусловлено тем, что предложенная А. Кайдаром триада «Человек — Общество — Природа» стала в казахском языкознании фундаментальной концепцией, позволившей системно описывать языковую картину мира на макроуровневой ступени. Данная научная установка получила дальнейшее развитие в трудах ряда казахских лингвистов, в рамках которых глубже исследовалась кумулятивная (мұрагерлік) функция языка.

В частности, Ж. Манкеева («Национальная специфика культурной лексики »), Н. Уали («Теоретические основы культуры казахской речи»), Б. Калиев («Названия растений в казахском языке»), Г. Смагулова («Казахская фразеология в лингвистических парадигмах»), С. Сатенова («Образно-фоновая основа устойчивых выражений, образованных на основе лексики скотоводства в казахском языке»), Р. Шойбеков («Лексика ремёсел казахского языка»), К. Габитханулы («Языковое отражение казахской мифологии»), А. Жылкыбаева («Термины питания в казахском языке»), А. Сейилхан («Лингвокультурологическое значение этнографизмов в казахском языке»), А. Айтбаева («Этнолингвистическая характеристика колыбельных песен»), Б. Токтагул («Этнолингвистическая характеристика возрастных наименований скота в тюркских языках»), Ш. Карсыбекова («Этнолингвистические принципы классификации казахских пословиц и поговорок»), А. Алмауытова («Этнолингвистическая природа названий одежды в казахском языке»), А. Алимжанова («Этнолингвистическая характеристика народной лексики, связанной с женскими ремёслами в казахском языке») и др. рассматривали взаимосвязь языка и этноса, языка и культуры, языка и национального сознания в рамках данных макросистем.

В трудах указанных учёных антропоцентрическая направленность проявляется в анализе человеческого фактора — поведения личности, её положительных и отрицательных качеств; в рамках макросистемы «Общество» исследуются социально-культурные ценности, а в системе «Природа» — экологические и мировоззренческие представления на основе языковых данных. Таким образом, макросистемная модель, сформированная А. Кайдаром, прочно утвердилась в казахской этнолингвистике в качестве теоретико-методологической основы и существенно обогатила содержательное наполнение последующих этнолингвистических исследований.

Так, в контексте языка и культуры Р. Шойбеков, исследовавший лексику ювелирного искусства *(қоңырау сырға, қобдиша, қиық тұмар, көрік, көз моншақ, кісе, жез қоңырау и др.),* дал разносторонний лингвистический и этнографический анализ истории ювелирного ремесла, функционального назначения украшений в быту, традиций и верований, связанных с их использованием. Автор рассматривает пути формирования терминов, их значения, этнографические особенности и происхождение. Учёный подчёркивает, что ремесленная лексика, входящие в неё слова, устойчивые словосочетания и этнографизмы являются результатом практического освоения окружающего мира и, в более широком смысле, представляют собой фрагменты языковой картины мира. Отмечается, что, несмотря на универсальный характер познавательного процесса, образ действительности варьируется в зависимости от культурно-познавательных рамок этноса и сознания носителя языка [9, 3].

Мировоззрение, традиции, обычаи, особенности восприятия окружающего мира конкретного народа находят отражение в языковых единицах, которые несут богатую информацию о духовной и культурной жизни этноса. Язык является зеркалом духовно-культурной жизни нации, отражающим все её особенности и ценности. В этом контексте особую роль играет этнокультурная лексика. По мнению Е. Жанпейисова, «этнолингвистика по своей сущности и природе является общеисторической категорией, поскольку изучает не только современное состояние этноса, но прежде всего его прошлое, а прошлое этноса наиболее отчётливо проявляется в его этнокультурной лексике» [10, 4], что подтверждает высокий познавательный потенциал этнокультурных единиц казахского языка в раскрытии этнического бытия.

Названия и устойчивые выражения, входящие в состав этнокультурной лексики, пословицы, поговорки и другие речевые конструкции формируются на основе образа жизни народа и его жизненного опыта. Они реализуют кумулятивную функцию языка и играют важную роль в сохранении исторической памяти нации. Подобные единицы обладают этносемантической значимостью и позволяют рассматривать языковое значение не только на лексическом, но и на культурном, социальном и этнопознавательном уровнях, выполняя функцию носителей национального кода. В связи с этим в этнолингвистических исследованиях мотивация значения слова, его семантическое поле и функциональное употребление анализируются в тесной связи с этническим сознанием и языковым воплощением национальной идентичности.

Поскольку жизнь казахского народа была тесно связана с природой, все необходимые для существования ресурсы он получал из окружающей среды. Макросистемы «Человек», «Общество» и «Природа» представляют собой единое целое. Народ издавна осознавал, что природа не приспосабливается к человеку, поэтому относился к ней с уважением и стремился сохранять равновесие с окружающим миром. Эти представления были закреплены в языке (в словах, словосочетаниях, пословицах и поговорках) и передавались из поколения в поколение.

Так, выражение *қорғасындай салмақты (досл. тяжёлый, как свинец)* употребляется для характеристики чрезвычайно уравновешенного, рассудительного человека; *қорғасындай балқыған (досл. расплавившийся, как свинец)* — о человеке мягком, чувствительном; *балқыған қорғасындай толқу (досл. волноваться, словно расплавленный свинец)* — «душевное волнение»; *қорғасындай еру (досл. таять, как свинец)* — «растрогаться»; *қорғасындай қорылу* — «прийти в надлежащее состояние»; *қорғасындай ауыр (досл. тяжёлый, как свинец)* — «чрезвычайно тяжёлый»; *қорғасындай майыру* — «прилагать значительное усилие» [11, 63]. В художественной литературе данные образы находят широкое отражение: *Алдағы зор иман, зор үміт көз алдыма келіп, жүрек*

күйіп, қорғасындай еріп кетті (С. Сейфуллин); *Қорылып қорғасындай жалындаған…* (І. Жансүгіров) и др.

Анализ приведённых примеров показывает, что физические свойства свинца — тяжесть, способность плавиться, плотность, серый цвет — метафорически используются для передачи внутреннего состояния человека. В «Словаре устойчивых сравнений» Т. Қоңырова зафиксированы многочисленные конструкции с компонентом *қорғасын*, в основе которых лежат именно физико-качественные характеристики данного металла [12, 246–247].

Казахский народ дал самостоятельные названия как наземным, так и подземным богатствам и мастерски использовал их в прямом и переносном значениях. В результате образного переосмысления наименований полезных ископаемых сформировались устойчивые выражения: *алтын адам (золотой человек), алтын бесік (родная земля), күміс көмей (обладающий звонким, красивым голосом), болаттай берік (крепкий как сталь/стальной),* и др.

Формирование подобных образных единиц обусловлено природно-физическими свойствами предметов. Так, *болат* (сталь) — прочный и твёрдый материал, что обусловило его символическое употребление для обозначения силы, стойкости и выносливости человека. Выражения *болаттай берік (крепкий как сталь), болаттай шыныққтыру (закалять, как сталь), болаттай жан (душа, как сталь)* и др. отражают этнокультурную символику стали как воплощения духовной и физической крепости.

В этнолингвистических исследованиях лексемы интерпретируются с учётом традиций, образа жизни, мировоззрения, духовного опыта и верований народа. В результате этнолингвистического анализа выявляется, с какими ассоциациями и символами связано то или иное понятие в сознании этноса, а также прослеживается взаимовлияние языка и культуры.

В мировой лингвистике этнолингвистика представляет собой динамично развивающуюся отрасль, охватывающую теоретические и прикладные направления, что подтверждается ростом числа публикаций, расширением географического охвата и разнообразием исследовательских тем. Статистический анализ данных Web of Science свидетельствует о стабильном росте этнолингвистических исследований с конца 1990-х годов до 2020-х годов. Наибольшее количество публикаций приходится на Россию, Польшу и США, что подчёркивает международный и междисциплинарный характер данной области [13]. В условиях глобализации особое значение приобретает исследование роли языка в формировании национальной идентичности и сохранении культурного наследия. Таким образом, макросистема «Человек — Общество — Природа», предложенная А. Кайдаром, признана в казахском языкознании эффективной методологической моделью, позволяющей комплексно описывать этнокультурное содержание казахского языка, выявлять кумулятивную функцию языковых единиц и отражение национального мировоззрения в языке. Данная модель широко применяется в этнолингвистических исследованиях и служит основой для анализа языковых данных на макро- и микроуровнях.

В заключение следует отметить, что этнолингвистические концепции в казахском языкознании позволяют рассматривать язык не только как средство коммуникации, но и как сложный духовный феномен, отражающий мировоззрение, культурные ценности и исторический опыт этноса. Этнолингвистика сохраняет актуальность как фундаментальная научная область, ориентированная на познание национального бытия через язык и способная служить теоретической основой для будущих комплексных исследований.

Список литературы

1. Лингвистический энциклопедический словарь. – [Электронный ресурс]. – Режим доступа: https://rus-yaz.niv.ru/doc/dictionary/linguistic encyclopedic/articles/281/etnolingvistika.htm
2. Гумбольдт В.Ф. Язык и философия культуры. – Москва, 1985. – с. 452
3. Ахманова О.С. Словарь лингвистических терминов. – Москва, 1966. – с. 606
4. Салқынбай А., Абақан Е. Лингвистикалық түсіндірме сөздік. – Алматы: Сөздік-Словарь, 2000. – 304 б.

5. Қайдар Ә.Т. Ғылымдағы ғұмыр: мақалалар, баяндамалар жинағы. – Алматы: «Сардар», 2014. – 520 б.
6. Жанпеисов Е.Н. Этнокультурная лексика казахского языка (на материалах произведений М. Ауэзова). – Алматы, 2006. – с. 288
7. Копыленко М.М. Основы этнолингвистики. – Алматы: Евразия, 1995. – с. 178
8. Манкеева Ж.А. Қазақ тіл білімінің мәселелері. – Алматы, «Абзал-Ай», 2014. – 640 б.
9. Шойбеков Р.Н. Қазақ тілінің қолөнер лексикасы: филол. ғылым. докт. ... авторефераты. – Алматы, 2006. – 54 б.
10. Жанпейісов Е. Этнолингвистика // Ана тілі. – № 3. 1994. – 4–10-б.
11. Қайдар Ә. Қазақтар ана тілі әлемінде: этнолингвистикалық сөздік. – Алматы: «Сардар» баспа үйі, 2013. Т.3: Табиғат. – 2013. – 608 б .
12. Қоңыров Т. Тұрақты теңеулер сөздігі. – Алматы: «Арыс баспасы, 2007. – 480 б.
13. Zhanzhigitov S.Zh., Akhmetova M.K. Ethnolinguistic research in the web of science database: an analysis of key directions and trends // Тіл және әдебиет: теориясы мен тәжірибесі. – Том 4, No3, 2025. – Б. 21-36. DOI: https://doi.org/10.52301/2957-5567-2025-4-3-21-36

ABSTRACT

This article examines the emergence of ethnolinguistics as an independent scientific discipline, its subject matter, and methodological foundations. The process of differentiation and consolidation of ethnolinguistics within the field of linguistics is analyzed through the theoretical frameworks of F. Boas, E. Sapir, B. Whorf, and W. von Humboldt. Special attention is given to the formation and development of the ethnolinguistic approach in Kazakh linguistics, associated with the scientific and theoretical principles of the Kazakh ethnolinguistic school founded by A. Kaidar. Using the lexical material of metal names in the Kazakh language and within the macro-systems “Human,” “Society,” and “Nature,” the cumulative function of ethnocultural vocabulary and its role in reflecting the national worldview is demonstrated. The analysis of figurative expressions based on the lexical units қорғасын (lead) and болат (steel) reveals their ethnolinguistic nature and highlights the significance of these units in preserving the cognitive experience and cultural memory of the people.

This article was written as part of the grant project AP23488671, titled "Linguistic Representations of the Ethnocultural Consciousness of Kazakh Youth," funded by the Science Committee of the Ministry of Science and Higher Education of the Republic of Kazakhstan for the period 2024–2026.

Keywords: *ethnolinguistics, ethnicity, language, culture, ethnic existence, worldview, ethnocultural vocabulary.*

XÜLASƏ

Məqalədə etnolinqvistikanın müstəqil elmi sahə kimi formalaşması, onun tədqiqat obyekti və metodoloji əsasları araşdırılır. Etnolinqvistikanın dilçilik sistemində differensiasiya və müstəqil sahəyə çevrilmə prosesi F. Boas, E. Sapir, B. Whorf və V. fon Humboldtun nəzəriyyə çərçivələri vasitəsilə təhlil olunur. Xüsusi diqqət A. Kaydar tərəfindən yaradılmış Qazax etnolinqvistika məktəbinin elmi-nəzəri prinsipləri ilə bağlı olaraq Qazax dilçiliyində etnolinqvistik yanaşmanın formalaşması və inkişafına yönəldilmişdir. Qazax dilində metallara aid leksik material əsasında və “İnsan”, “Cəmiyyət” və “Təbiət” makrosistemləri çərçivəsində etnokultural leksikanın kumulyativ funksiyası və onun milli dünya görüşünü əks etdirmədə rolu nümayiş olunur. Qorğasın (qurğuşun) və bolat (polad) leksik vahidlərinə əsaslanan məcazi ifadələrin təhlili onların etnolinqvistik təbiətini ortaya qoyur və bu vahidlərin xalqın biliyi və mədəni yaddaşının qorunmasında əhəmiyyətini vurğulayır.

Bu məqalə 2024–2026-cı illər üçün Qazaxıstan Respublikası Elm və Ali Təhsil Nazirliyinin Elm Komitəsi tərəfindən maliyyələşdirilən **AP23488671** qrant layihəsi – **“Qazax gənclərinin etnomədəni şüurunun dilçilik təmsilləri”** çərçivəsində yazılmışdır.

Açar sözlər: *etnolinqvistika, etnos, dil, mədəniyyət, etnik varlıq, dünya görüşü, etnokultural leksika.*

Bəturə ƏLİYEVA*

MORFOLOJİ EKSPONENSİYANIN ƏSAS PRİNSİPLƏRİ

XÜLASƏ

Məqalədə elmi biliyin təkamülünü terminoloji və konseptual sistemlərdə baş verən dəyişikliklər kontekstində nəzərdən keçirir və bu çərçivədə linqvistikada "eksponent" anlayışının mahiyyətini açıqlayır. Eksponent dil işarəsinin maddi (fonetik və ya qrafik) təzahürü kimi semantik və morfosintaktik məzmunun reallaşmasını təmin edən əsas vasitədir. Tədqiqatda morfologiyada eksponentliyin əsas növləri, o cümlədən allomorfiya, parazit və sıfır eksponensiyası təhlil olunur, morfem variantları ilə allomorflar arasındakı fərqlər müəyyənləşdirilir. Xüsusilə sıfır morfemlər qrammatik mənanın formal göstərici olmadan ifadə edilməsi baxımından nəzəri əhəmiyyət daşıyır. Nəticə olaraq, morfem və eksponentlərin sərhədlərinin qeyri-şəffaf olduğu, dilin isə morfoloji dəyişkənlik əsasında inkişaf edən dinamik bir sistem təşkil etdiyi qənaətinə gəlinir.

Açar sözlər: *affiksal morfemlər, eksponensiya, qrammatik məna, variantlılıq, semantik funksiya.*

Elmi biliyin təkamülü konseptual sistemlərdə ardıcıl informasiyanın davamlı artım prosesi kimi nəzərdən keçirilməlidir. Konseptual sistemdəki dəyişikliklər mütləq terminoloji strukturun müvafiq formal və ya məzmun xüsusiyyətlərində əks olunur. Bu o deməkdir ki, terminoloji aparatdakı dəyişiklikləri təhlil edərək, insan biliklərinin müəyyən bir sahəsinin formalaşması və inkişafı xüsusiyyətlərini başa düşə bilərik.

Linqvistik ədəbiyyatda, xüsusilə morfemlərlə bağlı işlənən "eksponent" termini də bu baxımdan maraq doğurur. Latın dilindən tərcümədə eksponent "nümayəndə", eksponens "göstərmək; nümayiş etdirmək", eləcə də "sərginin iştirakçısı, orada nəsə sərgiləyən və ya nümayiş etdirən" mənasını verir. Linqvistik termin kimi, "eksponent" linqvistik işarənin səs və qrafik formasını ifadə edir. "Eksponent" anlayışını Y.S.Maslov çox uğurlu şəkildə şərh etmişdir: "*Bütün əlamətlər bəzən "işarə edən" adlanan, həssas şəkildə qəbul edilən "forma"ya malikdir, lakin biz bunu "işarənin eksponenti" adlandıracağıq. Nümunələrimizdə eksponentlər (semaforun qaldırılmış və ya endirilmiş qanadı, işıqforun qırmızı, yaşıl və ya sarı işığı, qalay parçasının üzərindəki bu və ya digər təsvir) vizual qavrayış üçün əlçatandır. Digər hallarda eksponent eşitmə (məsələn, telefonda - davamlı alçaq səs siqnalı, tez-tez yüksək səs siqnalı və s.), toxunma (korlar üçün şriftin hərfləri) ilə qəbul edilir; Prinsipcə, qoxu və dad duyğularını istifadə edən sistemlər mümkündür. Yeganə vacib olan odur ki, eksponent hansısa şəkildə insan qavrayışına (və ya onu əvəz edən maşının "qavrayışına") əlçatan olmalıdır, yəni eksponent maddi olmalıdır*" [12, 24]. Daha sonra müəllif qeyd edir ki, "*Maddi hissiyyatla qavranılan obyekt (və ya maddi "hadisə" – məsələn, telefon qəbuledicisindəki zəng tonu) yalnız hansısa işarənin göstəricisidir, bu obyekt (və ya hadisə) bu və ya digər ideya, bu və ya digər "işarə" ilə ünsiyyət quranların şüurunda və ya deyəcəyimiz kimi, işarənin məzmunu ilə əlaqələndirilir"* [12, 25]. "*İngilis strukturalistləri, ilk növbədə, qrammatik təhlilin əsas kateqoriyalarını ayırmağa meyillidirlər. Həmin kateqoriyalar eksponent kimi mətn seqmentlərinə (qrafik və ya fonetik) malik olan qarşılıqlı əlaqəli sistemlərin elementləri kimi müəyyən olunur*" [7, 135].

Eksponentin terminlərdəki dinamikası üç amillə müəyyən edilir: 1)terminlərin dəyişkənliyi; 2) mövcud denotatlar və işarələri olan göstəricinin olmaması; 3) sinonimiya.

Söz yaradıcı variantlar, variant və sinonim formalar arasında aralıq mövqe tuta bilər, yəni dil sistemində keçid hadisələri təmsil edə bilər. Mücərrəd morfosintaktik və semantik məlumatların fonoloji quruluşla mürəkkəb şəkildə reallaşması təbii dilin xarakterik əlamətlərindəndir. A. Martinenin [11] "ikiqat artikulyasiya" anlayışı ilə sıx bağlı olan köklü şəkildə fərqli tiplərin bu cür təsviri ənənəvi olaraq "eksponensiya" adlanır [5, 49]. Bu məsələ nəzəri morfologiya və fonologiya sahəsi ilə bağlı olan tədqiqatçıları morfoloji eksponentliyin formalaşmaqda olan standart modeli kimi gördüyümüz xüsusiyyətlərin əlamətlərini qiymətləndirmək və onun əsas mexanizmlərinin necə sadələşdirilə, minimuma endirilə biləcəyini və empirik müşahidə oluna bilən məlumatlarla məhdudlaşdırıla biləcəyini geniş

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, ????????, Email: eliyevabeture201@gmail.com

dillərarası sübutlar əsasında araşdırmaq üçün bir araya gətirir. Bu məqsədlə, eksponentliyin dörd əsas sahəsinin sintaqmatik və paradiqmatik aspektlərinə diqqət yetirilir: eksponensiyanın eyniliyi, eksponensiyanın qeyri-identifikasiyası, parazit eksponensiyası və sıfır eksponensiyası. Nəzəri cəhətdən əhəmiyyətli eksponent növlərinin hansı qrupa aid olması və eksponentliyin əsas mexanizmlərinin bu sahələrin morfoloji və fonoloji aspektləri ilə necə əlaqəli olması məsələsi xüsusi maraq doğurur.

Morfologiyada "eksponent" termininin hazırkı istifadəsi Peter H. Metyusa [5, 98] aiddir və fonoloji material vasitəsilə semantik və yaxud morfosintaktik xüsusiyyətlərin həyata keçirilməsini ifadə edir [3, 28]. P.Metyus həmçinin morfologiyanın "Mədəniyyət və tənzimləmə" və ya "Mədəniyyət və proses" [5, 214] adlanan modelləri üçün problemli hesab etdiyi eksponent növlərini müəyyən edən bir neçə alt növ eksponent təqdim edir, məs., 'kumulyativ eksponentlik', yəni eyni eksponent tərəfindən birdən çox morfosintaktik xüsusiyyətin həyata keçirildiyi eksponasiya. Biz Metyusun terminologiyasını qismən ümumiləşdirən və sistemləşdirən, eləcə də qismən onunla kəsişən və müraciət etmək istədiyimiz eksponensiyanın aktual mövzularına daha yaxın olan fərqli eksponent alt təsnifatından istifadə etməyin tərəfdarıyıq.

Sintaqmatik parazitik eksponent adlanan bir az fərqli allomorfiya növünə ingilis dilində keçmiş zaman şəklində ("hidd-en"də olduğu kimi) rast gəlinir, məsələn, bir nümunə kimi, feilin göstəricisi indiki zamanda işlənən /haid/ əvəzinə /hid/ olur. Bu formalar fonoloji cəhətdən də açıq şəkildə əlaqəlidir. Bu, Halle və Marantzın "hidd-en" üçün indiki zaman forması "hide" ilə eyni kök göstəricisi kimi qəbul etmələrinə səbəb olmuşdur. Bununla belə, /ai/-nin /i/-ə keçidi morfofonoloji yenidən tənzimləmə qaydasını işə salır ([+keçmiş] üçün eksponentliyi və -ed yerinə -en qəbul edən feillər sinfi üçün parazit eksponentliyini göstərir).

S.Anderson [1, 62] və Q.Stampın [6, 44] əsərlərində göstərildiyi kimi, allomorfiya - prinsipcə verilmiş xüsusiyyət üçün ixtiyari olaraq çoxlu eksponentlərin ola biləcəyi fərziyyəsi ilə morfoloji nəzəriyyədən çıxarıla biləcək anlayışı əks etdirir. Qeyd edək ki, allomorf – (qədim yunan dilində ἄλλος "fərqli, başqa" + μορφή "görünüş, forma") morfemin müxtəlifliyi, mənaca eyni, lakin fonemik tərkibinə görə fərqlənən variantı ifadə edir. Suffiksal allomorflar bir-birindən ancaq üslubi cəhətdən fərqlənir [13, 33]. Əgər morfem tək morfla təmsil olunursa, o morf yeganə allomorf sayılır [9, 12]. Ümumiyyətlə, qəbul edilir ki, bəzi formantların allomorf kimi tanınması üçün iki şərt olmalıdır: 1) məna eyniliyi və 2) əlavə distribusiya münasibətləri [5, 116].

Affikslərin qarşılıqlı morfoloji statusu məsələsi ədəbiyyatda müxtəlif üsullarla həll edilmişdir: bəzi tədqiqatçılar onları vahid morfemin fonoloji variantları kimi görürdülər [10, 148], digərləri bu tipli hadisə zamanı iki müstəqil morfemi ayırd etmək ideyasını müdafiə edirdilər.

Bir sıra müasir əsərlərdə də allomorf anlayışının problemli mahiyyətindən bəhs edilir. Məsələn, bəzi mənbələrdə allomorf anlayışından tamamilə imtina etmək və morfonemdən danışmaq təklif olunur. Bu sahədə başqa təkliflər də mövcuddur. Statistik cəhətdən əhəmiyyətli təzadlar əsasında allomorflarla qeyri-allomorfları ayırd etmək və allomorf və morfem sərhədlərini müəyyən etmək üçün daha adekvat meyarlar axtarmaq mümkündür. Bəzi tədqiqatlarda belə cəhdlər artıq edilmişdir [2, 278].

Morfların mövqe distribusiyası dedikdə, bu və ya digər morfun qonşu morflar tərəfindən istifadəsinin müəyyən edilməsi başa düşülür. Əgər bu morflardan ən azı birinin görünə bilməyəcəyi mövqelər varsa (bu mövqelərdə başqa morf və ya morflar olduqda), onda belə morflar eyni morfemə aiddir. Belə morflara (onların da məna eyniliyi və fonemik yaxınlıq var) morfemin allomorfları deyilir.

Mövqe distribusiyası (allomorflar) ilə səciyyələnən morflarla yanaşı, eyni morfların mühitində həmişə bir-birini əvəz edən morflar da bir morfemə birləşir. Belə morflara morfem variantları deyilir; allomorflarda olduğu kimi, onlar üçün də məna eyniliyi və fonemik yaxınlıq məcburidir. Beləliklə, morfemlərin qismən variantları bəzi mövqelərdə allomorf, digərlərində isə variant kimi çıxış edir. Müxtəlif allomorflu söz formaları və bir morfemi təşkil edən variantlar üslub baxımından fərqlənə bilər. Qeyd edək ki, eyni morfemin allomorflarında bir-birini əvəz edən fonemlərin meydana çıxması müasir dilin fonoloji qanunları ilə izah edilə bilməz. Bunu yalnız tarixən dilin mövcudluğunun uzaq bir dövründə baş verən canlı fonetik proseslərlə izah etmək olar.

Variativlik məsələsi ilə əlaqədar əlavə distribusiya anlayışına toxunmaq istərdik. Əlavə distribusiya - bir-birini inkar edən şəraitdə dil vahidlərinin (məsələn, şəkilçilərin) işlənmə xüsusiyyətini nəzərdə tutulur (*dır; dir; dur; dür*). Məna bütövlükdə qalır, lakin dil vahidlərinin variantları bir-birini əvəz edə bilmir.

Dil vahidlərinin ikili təbiətinə dair strukturalist baxışın tərəfdarları təklif olunan qeyri-standart allomorfiya ideyasını morfem sərhədlərinin qeyri-şəffaflığı kimi bir çox potensial problemlərlə dolu hesab edirlər. Halbuki dilin mahiyyəti məhz budur; onun kateqoriyaları arasında dəqiq müəyyən edilmiş sərhədlər yoxdur. Morfemin sərhədləri həqiqətən də bulanıqdır, biz daha çox tanış terminlər və mənaların eyniliyi, eləcə də tamamlayıcı distribusiya kimi tərifiərin dar çərçivəsinə sığmayan bir kontinuumdan bəhs edirik.

Diqqəti cəlb edən digər məsələ sintaqmatik sıfır eksponensiyası ilə bağlıdır. Sıfır affiksləri adlandırılan sintaqmatik sıfır eksponensiyası nəzəri morfologiyada ideoloji cəhətdən ən çox müzakirə olunan məqamlardan biri kimi diqqət çəkiir [1, 93]. Mövzu qismən terminoloji qarışıqlıqla bağlıdır. Xüsusilə, sıfır affikslərinin morfoloji, fonoloji və ya fonetik səviyyədə boş elementlər kimi nəzərdə tutulması çox vaxt qeyri-müəyyən olaraq qalır. Beləliklə, affiks fonoloji məzmuna malik ola bilər, lakin fonetik cəhətdən boş ola bilər. Qəzənfər Kazımovun qeyd etdiyi kimi, "*Bəzən sözdə qrammatik məna ifadə edilir, lakin morfem işlənmir. Məsələn, sən gəl – cümləsində ikinci şəxsin, uşaq gülür – cümləsində üçüncü şəxsin təkini bildirən şəxs şəkilçisi olmasa da, cümlələrin xəbərinin II və III şəxsin təkində olduğu bilinir. Bu tip morfemlərə sıfır morfem deyilir*" [4, 27]. Bu tip fonoloji vahidlər fonologiyanın standart inventarına aiddir. Affiks həm də fonoloji cəhətdən boş ola bilər, lakin morfoloji məzmuna malik ola bilər. Bu, morfologiyada fonetik və fonoloji cəhətdən görünməz kimi diqqət çəkən, lakin fonoloji cəhətdən boş olmayan digər elementlərdə allomorfiyaya səbəb ola bilən sıfır lüğət elementlərinin strukturudur və buna görə də morfoloji olaraq nəzərə alınmalıdır. Sıfır eksponentlik qismən səthi eksponentlərdəki məhdudiyyətlərlə bağlıdır. Əsas sual budur ki, sıfır eksponent qrammatikada əhəmiyyətli dərəcədə fərqli statusa malikdirmi? Vunderlix [8, 243] ixtiyari sıfır eksponensiyanın yüksək statusa malik olduğunu iddia edir.

Eksponensial morfem dəyişikliyi morfoloji transformasiyanın təsirinin (məsələn, sözlərin və ya morfemlərin quruluşu və ya dəyişdirilməsi yolu kimi) sürətlə böyüdüyü, çox vaxt formada kəskin və mürəkkəb təsirlə nəticələnən çoxsaylı yerdəyişmələr və ya transformasiyaları əhatə edən linqvistik dəyişiklik növünə aiddir. Daha sadə dillə desək, bu, zamanla tezliyi və ya mürəkkəbliyi sürətlə yayılan və ya artan morfoloji dəyişiklikləri əhatə edir ki, bu da sözlərin (morfemlərin) strukturuna xətti və ya müntəzəm dəyişmədən daha sürətli təsir göstərə bilər.

Dəyişikliyin "eksponensial" təbiətini real vaxtda müşahidə etmək həmişə asan olmaya bilər, lakin konsepsiya müəyyən bir dəyişiklik başladıqdan sonra onun sürətlənə biləcəyini, getdikcə daha çox söz və ya morfemə təsir göstərərək geniş əhatəli bir dəyişikliyə səbəb ola biləcəyini nəzərdə tutur. Bu da zamanla dilin strukturunun transformasiyasını labüd edir. Qrammatik təhlilin əsas vahidlərinin cümlə, söz, morfem olduğunu yazan İ.Tahirov qeyd edir ki, "*Vahidlər sistemi, adətən, elə bir iyerarxiya təşkil edir ki, burada hər element növbəti elementin bir və ya bir neçə üzvündən ibarət kimi müəyyən edilir (müəyyən vahidin hər bir eksponenti ya vahid eksponent, ya da eksponentlər ardıcıllığı kimi müəyyən edilir*)" [7, 136].

Dildə ən kiçik mənalı vahidlər olan morfemlərin "dəyişikliyi" ümumiyyətlə, bu vahidlərin forma və ya quruluş baxımından necə dəyişə biləcəyinə işarə edir. Eksponensial dəyişiklik o zaman baş verə bilər ki, müəyyən transformasiya - məsələn, saitlərin yerdəyişməsi, şəkilçilərin itirilməsi və ya fonemlərin birləşməsi - yalnız təcrid olunmuş sözlərə deyil, həm də daha bir çox morfemə təsir etməyə başlayır, zaman keçdikcə dəyişmə sürətlənir və nəticədə dildə daha geniş, sistemli dəyişikliklər meydana çıxır.

Biz affiks morfemlərindəki "eksponensial" və "semantik" dəyişkənlikdən bəhs edərkən, bu affikslərin məna və formalarının müxtəlif yollarla dəyişməsindən, çox vaxt müxtəlif yeni elementlər yarada bilməsindən danışırıq.

Beləliklə, bir morfemin təkrarlanması, yəni digər morfemlərlə bir neçə fərqli birləşmədə işlənməsi halı, yəni təkrarlanan (çoxvalentli) morfemlərlə yanaşı, həmişə yalnız bir konkret morfem birləşməsində təmsil olunan və buna baxmayaraq, morfoloji cəhətdən bölünməz olan unikal (univalent) morfemlər də vardır. Seqmental və ya sıfır göstəricisi olan morfemlərlə yanaşı, müxtəlif növ supraseqmental göstəriciləri

olan morfemlər də var. Və nəhayət, morfemin adi mənada mütləq məna daşıması, yəni dildən kənar bir şeyə işarə etməsi tələb olunmur. Morfemin mənası xüsusi koddaxili məlumatla tükənə bilər.

ƏDƏBİYYAT

1. Anderson, Stephen R. A Morphous Morphology. Grammar, Comparative and general — Morphology. I. Title. II. Series. P241.A47 1992.
2. Baayen R.H., L.A. Janda, A. Endresen, A. Makarova, T. Nesset. Making choices in Slavic: pros and cons of statistical methods for rival forms // Russian linguistics: Space and time in Russian temporal expressions. 2013.
3. Coates, Richard. Some consequences and critiques of The Pragmatic Theory of Properhood (англ.) // Onoma: journal. — 2006. — Vol. 41. — P. 27—44.
4. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı,. «Nurlan», 2010, 400 s.
5. Matthews, Peter H. Morphology: An introduction to the theory of word structure. Cambridge: Cambridge University Press. 1991 s.116;
6. Stump G. T., Inflectional morphology: a theory of paradigm structure (Cambridge Studies in Linguistics 93). Cambridge: Cambridge University Press, 2001
7. Tahirov İ. İngilis strukturalizmi müstəqil dilçilik məktəbi kimi. Bakı, "Zərdabi Nəşr" MMC, 2023, 168 s
8. Wunderlich, D. (2000a). A correspondence-theoretic analysis of Dalabon transitive paradigms. In Booij, G. and van Marle, J., editors, Yearbook of Morphology 1999, pages 233–252. Dordrecht: Kluwer.
9. Волоцкая, З. М, Т. Н Молошная, Т. М. Николаева, «Опыт описания русского языка в его письменной форме», 1964 - 186 с.
10. Исаченко, А.В. Грамматический строй русского языка в сопоставлении со словацким. Морфология. Т. II. Братислава, 1960. - 576 с.
11. Мартине, А. Принцип экономии в фонетических изменениях. М.: Издательство иностранной литературы, 1960. — 263 с.
12. Маслов, Ю.С. Введение в языкознание/ М.: Высш. школа, 1975, 272 с.
13. Мусатов, В. Н. «Русский язык. Морфемика. Морфонология. Словообразование: учебное пособие», 2013. 360 с.
14. Панов, М.В.: Позиционная морфология русского языка, Москва, Наука – Школа «ЯРК», 1999, 275 стр

Батура Алиева

ОСНОВНЫЕ ПРИНЦИПЫ МОРФОЛОГИЧЕСКОЙ ЭКСПОНЕНЦИАЛЬНОСТИ

РЕЗЮМЕ

В статье эволюция научного знания рассматривается в контексте изменений, происходящих в терминологических и концептуальных системах, в связи с чем раскрывается сущность понятия «экспонент» в лингвистике. Экспонент определяется как материальная (фонетическая или графическая) реализация языкового знака, обеспечивающая выражение семантического и морфосинтаксического содержания. В работе анализируются основные типы экспонентности в морфологии, включая алломорфию, паразитическую и нулевую экспоненцию, а также разграничиваются понятия алломорфов и вариантов морфем. Особое теоретическое значение придаётся нулевым морфемам как способу выражения грамматического значения при отсутствии формального показателя. В заключение делается вывод о том, что границы между морфемами и экспонентами не являются строго очерченными, а язык представляет собой динамичную систему, развивающуюся на основе морфологической вариативности.

Ключевые слова: *Аффиксальные морфемы, экспоненция, грамматическое значение, вариативность, семантическая функция.*

Batura Aliyeva

BASIC PRINCIPLES OF MORPHOLOGICAL EXPONENTIALITY

SUMMARY

This article examines the evolution of scientific knowledge through changes in terminological and conceptual systems and, within this framework, clarifies the notion of the exponent in linguistics. An exponent is defined as the material (phonetic or graphic) realization of a linguistic sign that enables the expression of semantic and morphosyntactic content. The study analyzes the main types of exponence in morphology, including allomorphy, parasitic exponence, and zero exponence, and distinguishes between allomorphs and morpheme variants. Particular theoretical significance is attributed to zero morphemes as a means of expressing grammatical meaning in the absence of an overt formal marker. In conclusion, the text argues that the boundaries between morphemes and exponents are not strictly defined and that language constitutes a dynamic system developing on the basis of morphological variability.

Keywords: *Affixal morphemes, exponentiation, grammatical meaning, variability, semantic function.*

Xatirə KƏRİMOVA*

I TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ
MİRZƏ KAZIMBƏYİN XIX ƏSR TÜRKOLOJİ DİLÇİLİKDƏ ROLU

XÜLASƏ

Məqalədə XIX əsr türkoloji dilçiliyin formalaşmasında mühüm rol oynamış Mirzə Kazımbəyin elmi fəaliyyəti I Türkoloji Qurultay kontekstində araşdırılır. Tədqiqatda alimin türk dillərinə sistemli və nəzəri yanaşması, xüsusilə "Türk-tatar dilinin ümumi qrammatikası" əsərində irəli sürdüyü qrammatik və tipoloji prinsiplər təhlil olunur. Məqalədə Mirzə Kazımbəyin türk dillərinin qohumluğu, ümumi qrammatik əsasların müəyyənləşdirilməsi və elmi terminologiyanın formalaşması sahəsindəki ideyalarının 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın əsas müzakirə istiqamətləri ilə səsləşdiyi göstərilir. Araşdırma nəticəsində Mirzə Kazımbəyin XIX əsr türkoloji dilçiliyinin elmi əsaslarının yaradılmasında aparıcı simalardan biri olduğu qənaətinə gəlinir.

Açar sözlər: *Mirzə Kazımbəy, türkoloji dilçilik, XIX əsr dilçiliyi, Türk-tatar dilinin ümumi qrammatikası, I Türkoloji Qurultay*

Türkoloji dilçilik XIX əsrdə müstəqil bir elmi istiqamət kimi formalaşmağa başlamış, müəyyən bir inkişaf dövrü keçmişdir. Bu dövrdə türk dilləri ilk dəfə təsadüfi müşahidələr səviyyəsindən çıxarılaraq sistemli və elmi metodlarla araşdırılmağa başlanmışdır. Elə məhz bu mərhələdə fəaliyyət göstərmiş Mirzə Kazımbəy – türkoloji dilçiliyin banilərindən biri kimi onun böyük elmi əməyi xüsusi əhəmiyyət kəsb edir. Kazan universitetində ərəb və fars dillərindən dərs deyərək şərqşünaslıq məktəbinin bünövrəsini qoyan, eləcə də qısa zaman çərçivəsində Peterburq universitetində şərqşünaslıq fakültəsinin təşkilatçısı olmuş Mirzə Kazımbəyin "Rusiya şərqşünaslığının patriarxı" kimi şərəfli bir ad qazanması heç də təsadüfi deyildir. Ömrünün 45 ildən çoxunu elmə, maarifə həsr etmiş görkəmli alim Mirzə Kazımbəy ümumrusiya məkanında böyük nüfuza malik olmuşdur. O, 1835-ci ildə Rusiya Elmlər Akademiyasına müxbir üzv seçilmişdir. Rusiyada şərqşünaslığın inkişafında öz xüsusi yeri olan, görkəmli dilçi Mirzə Kazımbəy barədə ədəbiyyatşünas, tərcüməçi V.Quliyevin "Mirzə Kazımbəy" adlı kitabındakı qeydlərə əsasən göstərilir ki, "akademik V.V.Bartold vaxtilə yazmışdır ki, məhz Senkovski və Kazımbəy öz müharizələri ilə rus

* AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, böyük elmi işçi. Email:
E-mail Xatire.M@mail.ru

şərqşünaslığını yaratmışlar: demək olar ki, sonrakı şərqşünaslar nəslinin hamısı bu alimlərdən birinin tələbəsi və ya onların tələbələrinin tələbələri olmuşlar" (3, 52-53).

Onun "Türk-tatar dilinin ümumi qrammatikası" adlı fundamental bir əsəri türk dillərinin qrammatik quruluşunun elmi əsaslarla izahına həsr olunmuş ilk geniş tədqiqatlardan biridir. Bu dəyərli elmi əsər "Demidov" mükafatına layiq görülmüşdür.

Təəssüf ki, ilk elmi qrammatikamız olan bu əzəmətli əsər iki əsrə yaxın ana dilimizə tərcümə edilməmiş və əsaslı tədqiqat obyekti olmamışdır.

Lakin artıq qürurla deyə bilərik ki, bu gün yazılı tarixi monumental əsər öz layiqli tərcüməsinə nail olub. 1000 səhifədən ibarət dərin elmi-filoloji məzmun və məziyyətləri özündə ehtiva edən bu tərcümə əsəri artıq dilçiliyimizə aid olan kitablar sırasında ön cərgədə yer alıb. Ana dilimizin ilk elmi qrammatikası olan bu möhtəşəm əsəri dəyərli alim, professor İdris Abbasov linqvistik-filoloji tədqiq və şərhlərlə daha da genişləndirmiş, müasir dilçilik baxımından orijinal mahiyyət qazandırmışdır.

Professor İdris Abbasov öz müfəssəl, sanballı tədqiqat və şərhlərlə əhatələndirdiyi, 2017-ci ildə nəşr etdirdiyi bu əzəmətli tərcümə əsəri ilə rus şərqşünaslığının patriarxı, görkəmli türkoloq, şərqşünas alim, böyük dilçi, Azərbaycan xalqının fəxri, həmyerlimiz Mirzə Kazımbəyə əbədi olaraq abidə qoydu. Dəyərli alim, akademik Nizami Cəfərov bu kitabın ön sözündə tərcümə əsərini yüksək dəyərlərindən çıxış edərək, "Mirzə Kazımbəylə yanaşı professor İdris Abbasovun da adının milli elm tarixinə yazılacağına olan inamını" xüsusi olaraq vurğulamışdır. [1, 16]

Professor İdris Abbasovun dünya şöhrətli azərbaycanlı dilçi-alim Mirzə Kazımbəyin dünyada tanınan "Türk-tatar dilinin ümumi qrammatikası" əsərini 178 ildən sonra əhatəli tədqiq və şərhlərlə Azərbaycan dilinə tərcümə etməsi həqiqətən də əsl fədakarlıq və Azərbaycan dilçiliyinə böyük xidmət nümunəsidir.

Azərbaycanın görkəmli ədəbiyyatşünası, dilçi və türkoloq alimi, professor Ağamusa Axundov bu əsərin elmi dəyərindən danışarkən onu "bügünkü Azərbaycan dilçiliyinin, ümumiyyətlə türkologiyanın bünövrə daşı, ən azı, bünövrə daşlarından mühümü və ilki hesab etdiyini" xüsusi vurğulanmışdır. Türkoloq alim eyni zamanda onu da qeyd etmişdir ki, "bu əsər yalnız Azərbaycan dilçiliyində deyil, bütün türkologiyada böyük və yeni bir hadisə idi". [2, 62]

1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakı şəhərində keçirilən I Türkoloji Qurultay türk xalqlarının, o cümlədən Azərbaycan xalqının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarların qəbul edildiyi qurultay ən əlamətdar hadisələrdən biri sayılır. Bununla türk xalqlarının mədəni inteqrasiyasında yeni bir mərhələnin təməli qoyulur.

I Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı:

1. Əlifba məsələsi;
2. İmla-orfoqrafiya problemi;
3. Termin məsələsi;
4. Tədris-metodika məsələsi;
5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri. [5]

Bakıda keçirilmiş I Türkoloji Qurultayında qaldırılan bir çox məsələlər — ümumi qrammatik prinsiplər, türk dillərinin qohumluğu, terminoloji vahidlik və nəzəri əsasların formalaşdırılması — Mirzə Kazımbəyin XIX əsrdə irəli sürdüyü ideyalarla sıx səsləşir. Mirzə Kazımbəy türkoloji dilçiliyin elmi əsaslarını Qurultaydan təxminən bir əsr əvvəl formalaşdırmış alimdir. Bu baxımdan, Mirzə Kazımbəy irsinin öyrənilməsi türkoloji dilçiliyin elmi əsaslarının tarixini və inkişaf məntiqini anlamaq baxımından mühüm əhəmiyyət daşıyır.

Mirzə Kazımbəy XIX əsr Şərqşünaslıq və türkoloji dilçilik tarixində mühüm yer tutur. O, Şərq dillərini Avropa elmi metodologiyası əsasında öyrənən ilk alimlərdən biri olmuşdur. Əlalxüsus görkəmli türkoloq alim A.Axundovun təbirincə desək, "bu əsərdə Azərbaycan dili ilk dəfə Avropa qrammatikaları

dəbində tədqiq edilmişdi". [2, 62] Kazımbəyin elmi fəaliyyəti türk dillərinin təsviri və müqayisəli tədqiqində keyfiyyətcə yeni mərhələnin başlanğıcı hesab olunur.

Mirzə Kazımbəy türk dillərinə yalnız nəzəri ünsiyyət vasitəsi kimi deyil, daxili qanunauyğunluqlara malik müstəqil formalı bir dil sistemi kimi yanaşmışdır. Bu yanaşma onu əvvəlki dövrlərin təsviri səviyyəli tədqiqatlarından fərqləndirmişdir. O, türk dillərinin qrammatik quruluşunu təsadüfi faktlar toplusu kimi deyil, vahid bir sistem daxilində görmüş, ümumi modellərini araşdırmaqla üzə çıxarmağa çalışmışdır.

Mirzə Kazımbəyin "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri türkoloji dilçiliyin əsasını qoyan fundamental tədqiqatlardan biridir. Əsər XIX əsrin ortalarında yazılmış və görkəmli alim türk dillərinin qrammatik quruluşunun elmi şəkildə təsvirini qarşısına məqsəd qoymuşdur. O dövrdə "türk-tatar" termini geniş mənada türk dillərinin ümumi adlandırılması kimi işlədilirdi və Kazımbəy də bu termini elmi kontekstdə istifadə etmişdir.

Əsərdə dilçi alimin əsas məqsədi, yuxarıda da qeyd etdiyimiz kimi türk dillərinin ümumi qrammatik normalarını yaratmaq olmuşdur. Kazımbəy konkret olaraq bir türk dilini deyil, türk dillərinə xas olan ümumi qrammatik xüsusiyyətləri müəyyənləşdirməyə çalışmışdır. Bu yanaşma sonradan türkoloji dilçilikdə geniş tətbiq edilən müqayisəli və tipoloji metodların ilkin forması kimi qiymətləndirilmişdir.

"Türk-tatar dilinin ümumi qrammatikası" əsərinin əsas strukturu Avropa qrammatika ənənələrinə uyğun qurulmuşdur və fonetika, morfologiya, nitq hissələri və sintaktik müşahidələri əhatə edir. Bu struktur türk dillərinin elmi təsvirində metodoloji ardıcıllıq yaratmış və sonrakı tədqiqatlar üçün nümunə rolunu oynamışdır.

Mirzə Kazımbəy türk dillərinin qrammatik konstruksiyasının izahını verərkən aqqlütinativ xarakterini əsas tipoloji xüsusiyyət kimi təqdim etmişdir. O, bu dillərin materiallarından çıxış edərək göstərmişdir ki, türk dillərində qrammatik mənalar əsasən şəkilçilər vasitəsilə ifadə olunur və bu şəkilçilər kökə ardıcıl bir şəkildə əlavə edilir. Şəkilçilərin hər biri özünəməxsus olaraq müəyyən və sabit, dəyişməz bir qrammatik funksiya daşıyır.

Görkəmli dilçi alim Ağamusa Axundov özünün "Ümumi dilçilik" kitabında qeyd edir ki, "aqqlütinativ dillərə aqqlütinativləşən, iltisaqi, şəkilçili, şəkilçiləşən dillər də deyirlər". Həmçinin göstərir ki, "bu dillərdə bütün leksik-qrammatik, yəni sözdüzəltmə (derivasiya) və qrammatik, yəni sözdəyişmə (relyasiya) əlaqələr, ilk növbədə, şəkilçi morfemlər vasitəsilə realizə olunur". Professor A.Axundov aqqlütinativ dillərin səciyyəvi xüsusiyyətini izah edərkən, "həmin dillərdə kök və şəkilçi morfemlərin hər bir halda öz müstəqilliyini qoruduğunu" xüsusi olaraq vurğulayır. [2, 174] Mirzə Kazımbəy bir dilçi kimi bu prinsipi türk dillərinin materialı əsasında ətraflı şəkildə əsaslandırmış və onları flektiv dillərdən məqbul sayıla biləcək səviyyədə fərqləndirmişdir.

Mirzə Kazımbəy nitq hissələrinin kateqoriyaşmasında Avropa qrammatika modelindən istifadə etsə də, türk dillərinin spesifik xüsusiyyətlərini nəzərə almışdır. O, isim və feil kateqoriyalarını əsas qrammatik mərkəzlər kimi təqdim etmiş, xüsusilə feil sisteminə çox geniş yer, təxminən kitabın yarısını ayırmışdı. [4, 152-311]

Feil zamanları, şəkilləri və şəxs formaları Kazımbəy tərəfindən ardıcıl şəkildə izah edilmişdir. Bu, türk dillərində feilin semantik və qrammatik baxımdan aparıcı rolunu üzə çıxarır və müasir türkoloji dilçilikdə də öz aktuallığını qoruyur.

Mirzə Kazımbəy türk dillərinin sintaktik quruluşuna dair də mühüm müşahidələr aparmışdır. O, söz sırasının əsasən dəyişməz olduğunu, təyin olunan münasibətinin aydın şəkildə ifadə edildiyini əsərində xüsusi vurğulayaraq qeyd etmişdir. Sintaksisə dair bu ilkin araşdırmalar türk dillərinin cümlə quruluşunun əsas qanunauyğunluqlarını müəyyənləşdirə bilmişdir.

1926-cı ildə Bakıda keçirilmiş, türkoloji elmin inkişafında yeni mərhələnin başlanğıcı olmuş I Türkoloji Qurultayda müzakirə obyektinə çevrilmiş mövzulardan çıxış edərək deyə bilərik ki, bu məsələlərin nəzəri əsasları Mirzə Kazımbəyin əsərlərində, xüsusən "Türk-tatar dilinin ümumi qrammatikası"nda artıq mövcud idi. Bu baxımdan, I Türkoloji Qurultay Mirzə Kazımbəyin müstəqil şəkildə başladığı elmi xəttin kollektiv və rəsmi şəkildə davamı kimi qiymətləndirilə bilər.

Nəticə etibarı ilə qeyd olunmalıdır ki, Mirzə Kazımbəy türkoloji dilçiliyin elmi əsaslarının formalaşmasında mühüm rol oynamışdır. Onun "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri türk

dillərinin qrammatik quruluşunu sistemli və elmi metodlarla izah edən ilk fundamental tədqiqatlardan biridir. Əsərdə türk dillərinin fonetik, morfoloji və sintaktik xüsusiyyətləri ümumiləşdirilmiş şəkildə təqdim olunan normaları müasir türkoloji dilçilik üçün də öz aktuallığını qoruyub saxlayır.

I Türkoloji Qurultayın ideya və prinsipləri ilə Mirzə Kazımbəyin elmi baxışları arasında aydın şəkildə sezilən paralellik və davamlılıq mövcuddur. Bu yöndən, Mirzə Kazımbəy irsi türkoloji dilçiliyin tarixi inkişafında mühüm elmi baza kimi qiymətləndirilməlidir.

ƏDƏBİYYAT:

1. Abbasov İ. Mirzə Kazımbəy. Türk-tatar dilinin ümumi qrammatikası. Tərcümə, tədqiq və şərh. Bakı, Zərdabi LTD MMC, 2017, 1000 səh.
2. Axundov. A. Ümumi dilçilik. Bakı: "Maarif" nəşriyyatı, 1979, səh. 251.
3. Quliyev V. Mirzə Kazımbəy. Bakı, "Yazıçı", 1987, 205 s.
4. Казем-Бек М.А. Общая грамматика турецко-татарского языка. Казань, 1846, с.454
5. https://az.wikipedia.org/wiki/Birinci_T%C3%BCrkoloji_Qurultay

Khatire Karimova
Institute of Manuscripts named after Muhammad Fizuli of ANAS

IN THE CONTEXT OF THE FİRST TURKOLOGİCAL CONGRESS, THE ROLE OF MİRZA KAZİMBEY İN TURKOLOGİCAL LİNGUİSTİCS OF THE XIX CENTURY

SUMMARY

The article examines the scholarly legacy of Mirza Kazimbey, one of the founders of nineteenth-century Turkological linguistics, and his role in establishing the scientific foundations of the field. The study focuses on his seminal work "General Grammar of the Turkic-Tatar Language," which represents one of the earliest systematic and scientific descriptions of the grammatical structure of Turkic languages. The article analyzes the agglutinative nature of Turkic languages, the classification of parts of speech, and basic syntactic features as presented by Kazimbey. It also highlights the continuity between his linguistic ideas and the main principles discussed at the First Turkological Congress held in Baku in 1926. The research concludes that Mirza Kazimbey made a significant contribution to the formation of the scientific framework of Turkological linguistics.

Keywords: *Mirza Kazimbey, Turkological linguistics, nineteenth-century linguistics, General Grammar of the Turkic-Tatar Language, First Turkological Congress*

В КОНТЕКСТЕ I ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА, РОЛЬ МИРЗЫ КАЗЕМБЕКА В ТЮРКОЛОГИЧЕСКОЙ ЛИНГВИСТИКЕ XIX ВЕКА

РЕЗЮМЕ

В статье исследуется научное наследие Мирзы Казембека, одного из основоположников тюркологического языкознания XIX века, а также его вклад в формирование научных основ тюркологии. Основное внимание уделяется труду ученого «Общая грамматика тюрко-татарского языка», в котором впервые была предпринята систематическая и научная характеристика грамматического строя тюркских языков. Анализируются агглютинативная природа тюркских языков, классификация частей речи и особенности синтаксического строя в интерпретации Мирзы Казембека. В статье также подчеркивается преемственность между идеями ученого и принципами, обсуждавшийся на I Тюркологическом съезде, состоявшемся в Баку в 1926 году. Делается вывод о значительной роли Мирзы Казембека в формировании научных основ тюркологического языкознания.

Ключевые слова: *Мирза Казембек, тюркологическое языкознание, языкознание XIX века, Общая грамматика тюрко-татарского языка, I Тюркологический съезд*

Nigar SEYİDOVA*

TÜRK DİLLƏRİNDƏ SÖZ MƏNASININ GENİŞLƏNMƏSİ VƏ DARALMASI PRAQMATİK VƏ KOQNİTİV ASPEKTLƏRDƏ

XÜLASƏ

Türk dillərinin lüğət sistemində söz mənalarının zamanla genişlənməsi (ümumiləşməsi) və daralması (xüsusiləşməsi) müşahidə olunur. Bu məqalədə həmin semantik proseslərin praqmatik və koqnitiv əsasları araşdırılır. Müasir dilçilik tədqiqatlarına əsasən, sözlərin mənası öz-özünə deyil, ünsiyyət zamanı linqvistik və ekstralinqvistik kontekstdən asılı olaraq dəyişir. Eyni zamanda, koqnitiv prosesdə metaforik və metonimik məna köçürmələrinin insan təfəkküründə necə yeni mənalar yaratdığı da diqqətəlayiq linqvistik məsələlərdəndir. Unsiyyət prosesində danışanın niyyəti, məqsədi və sosial-mədəni mühit xüsusi rol oynayır. Koqnitiv baxımdan isə semantik dəyişmələr insanın dünyanı qavrama, kateqoriyalaşdırma və təcrübəni dil vasitəsilə strukturlaşdırma mexanizmləri ilə sıx bağlıdır. Nəticə etibarilə, söz mənalarının genişlənməsi və daralması dilin, o cümlədən türk dillərinin leksik sisteminin dinamik inkişafını və onun koqnitiv əsaslarını əks etdirən mühüm göstərici kimi çıxış edir.

Açar sözlər: *semantik dəyişmə, məna genişlənməsi, məna daralması, praqmatik faktorlar, koqnitiv mexanizmlər*

Dil tarixində leksik vahidlərin mənasında baş verən dəyişikliklər, yəni semantik dəyişmələr lüğət tərkibinin dinamik inkişafının əsas istiqamətlərindəndir. Sözün mənasının zamanla dəyişməsi müxtəlif formalarda təzahür edir ki, bunların içərisində mənanın genişlənməsi (ümumi mənaya doğru yayılması) və mənanın daralması (mənanın məhdudlaşıb spesifikləşməsi) xüsusi yer tutur. Bu proseslər nəticəsində dilin söz ehtiyatı zənginləşir, yeni mənalar yaranır və köhnə mənalar ya dəyişir, ya da kontekstdən çıxarılır. Semantik dəyişmələr təsadüfi olmayıb, müəyyən qanunauyğunluqlara tabedir və həm dilxarici, həm də dildaxili amillərdən irəli gəlir [3, 121-122].

Məna dəyişmələrinin tədqiqi son dövrlərdə linqvistikada aktuallıq qazanmış, xüsusən pragmatik və koqnitiv yanaşmaların işığında yeni izahlar ortaya çıxmışdır. Yəni, sözün mənası insanlararası ünsiyyət prosesində, kontekstin təsiri ilə formalaşır və dəyişir. Digər tərəfdən, insan təfəkkürü obyekt və hadisələr arasında məcazi əlaqələr quraraq dilin leksik mənzərəsinə təsir edir. Leksik semantikanın əsas anlayışlarından biri mənanın həcmi və ya məna tutumudur. Hər bir sözün müəyyən mənalar dairəsi olur, bəzi sözlər çoxmənalıdır, tarixi inkişaf boyu müxtəlif yeni mənalar kəsb edir, bəziləri isə əksinə, mənalarından bəzilərini itirərək daha məhdud sahədə işlənir [6]. Ümumi dilçilikdə mənanın genişlənməsi termini sözün adlandırma funksiyasının genişlənməsini, yəni hər hansı dar və spesifik mənalı leksik vahidin sonradan ümumi və geniş mənalı vahidə çevrilməsini ifadə edir. Başqa sözlə, əvvəl yalnız müəyyən ixtisas sahəsinə, peşə və ya terminoloji sahəyə aid anlayışı bildirən söz zamanla ümumi dilə daxil olaraq daha geniş anlayışı ifadə etməyə başlayır. Məsələn, riyaziyyat terminləri olan "müsbət" və "mənfi" (müvafiq olaraq "+" və "–" işarələri ilə göstərilən anlayışlar) son dövrdə ümumi mənada işlənməyə başlamış və "müsbət münasibət", "mənfi təsir" kimi geniş anlamlarda işlədir. Eynilə, əvvəlcə yalnız müəyyən sahə və peşə jarqonu kimi mövcud olan ifadələr sonradan ümumxalq dilinə keçərək genişlənmiş məna kəsb edir. Məsələn, Azərbaycan dilində dənizçilik terminologiyasından gələn "lövbər salmaq" ifadəsi indi ümumiləşərək "məskən salmaq, yerləşmək" mənasında işlədilir; ulduz falı/astroloji anlayışlardan çıxmış "ulduzu parlamaq" ifadəsi "bəxti gətirmək, uğurlu olmaq" mənasında geniş işlənir.

Mənanın genişlənməsinə dilin alınma sözləri və terminləri də uğrayır. Məsələn, fars dilindən alınmış "baha" sözü ilkin olaraq "dəyər, qiymət" mənasında idi, klassik mətnlərdə *"bahasına nə verim?"* (dəyərinə nə verim?) kimi işlənirdi. Müasir Azərbaycan dilində isə *baha* sözü mənaca genişlənərək "öz dəyərindən artıq, yüksək qiymət" anlamını daşımağa başlamış və hətta sifət kimi *"baha qiymət"* (çox yüksək qiymət,

* Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru. Email: nigar-seidova@mail.ru

baha) birləşməsində işlənir. Ərəbcədən alınma "fəqir" sözü klassikdə "yoxsul, kasıb" demək idi, lakin sonrakı dövrlərdə Azərbaycan dilində bu söz daha geniş anlayış qazanaraq *"sakit, yazıq, zərərsiz (adama deyilir)"* mənasında işlənməyə başlamışdır. Bu kimi misallar göstərir ki, sosial-mədəni mühitin dəyişməsi, ünsiyyət tələbatı və digər faktorlar sözlərin məna çərçivəsini genişləndirə bilər.

Məna daralması isə genişlənmənin əksidir, yəni sözün əvvəlki ümumi və geniş işlək mənası zamanla spesifikləşir, daha dar bir anlayışı ifadə etməyə başlayır. Bu proses dilçilikdə mənanın xüsusiləşməsi, məhdudlaşması kimi də tanınır. Semantik daralmanın əsasında adətən anlayışların dəqiqləşməsi meyli dayanır: insan idrakının inkişafı ilə insanlar ətraf aləmdəki obyekt və hadisələri getdikcə daha incə fərqlərlə ayırd edir və bunu dildə əks etdirmək ehtiyacı yaranır. Nəticədə əvvəllər bir sözün əhatə etdiyi geniş sahə bölünür, onun yerini ya daha ixtisaslaşmış sözlər tutur, ya da həmin sözün mənası içərisindən bir istiqamət ön plana çıxaraq dominantlaşır. Tarixi inkişaf prosesində çox vaxt sözün öncəki ümumi mənalarından biri qorunub qalır, digərləri isə ya unudulur, ya da həmin söz bütövlükdə daha dar bir sahəyə aid terminə çevrilir. Məsələn, Azərbaycan dilində "ilxı" sözü bir zamanlar hər cür dördayaqlı heyvan sürüsünə aid ümumi ad olsa da, sonradan mənası daralaraq *yalnız at sürüsü* anlamında işlənmişdir. Keçmişdə "aş" sözü ümumiyyətlə *yemək, xörək* mənasında idi, müasir dövrdə isə Azərbaycan və Türkiyə türkcəsində bu söz yalnız xüsusi bir xörəyin – *plovun* (düyü plovunun) adı kimi qalır. Yenə klassik mətnlərdə "ər" sözü ümumən *igid, cəsur insan (kişi cinsi)* mənasında işlənmişdir; lakin müasir Azərbaycan və özbək dillərində *ər* dedikdə yalnız "arvadın qanuni həyat yoldaşı, kişi" nəzərdə tutulur, yəni sözün mənası "həyat yoldaşı (ər)" səviyyəsində məhdudlaşıb [7, 148]. Göründüyü kimi, dilin tarixi inkişafı boyunca bir çox sözlər ümumi məna dairəsini tərk edərək xüsusi terminoloji sistemə daxil olur və ya məhdud kontekstdə işlənməyə başlayır. Bu hal nəticə etibarilə dilin lüğət tərkibində yeni ixtisaslaşmış söz qruplarının yaranmasına səbəb olur [8, 49-50].

Dil ünsiyyət vasitəsi olduğu üçün sözlərin mənası əksər hallarda nitq prosesində, yəni praktik kommunikasiya zamanı dəyişir. Praqmatik aspekt dedikdə, sözlərin fərqli kontekstlərdə fərqli niyyət və funksiyalarla işlədilməsi, *dinləyici və danışanın ünsiyyət tələbləri* nəticəsində yaranan mənalar nəzərdə tutulur. Müasir tədqiqatçılar vurğulayırlar ki, ənənəvi yanaşmalar daha çox baş vermiş dəyişikliklərin nəticələrini təsvir edirdisə, son onilliklərdə fokus dəyişmənin kontekstdə necə yarandığına, yəni onu şərtləndirən praqmatik amillərə yönəlmişdir. Sözlər insanların bir-biri ilə danışığında, müəyyən məqsədlər güddükləri zaman yeni məna çalarları qazanır. Məsələn, bəzən ehtiyatlı ifadə tərzi üçün sözlərin mənası yumşaldılır və ya dolaylı mənalarda işlədilir; getdikcə bu dolaylı mənalar sabitləşərək sözün leksik mənasına çevrilə bilər.

Praqmatik motivasiyanın bir istiqaməti ünsiyyətdə aydınlıq və dəqiqlik tələbi ilə bağlıdır. Danışanlar bəzən mövcud sözün mənasını dəqiqləşdirmək üçün yeni ifadə tərzi yaradır, ya da mövcud sözə əlavə izahlayıcı sözlər qoşurlar. Uzun müddət birlikdə işlənən belə birləşmələr sonradan vahid mənalı ifadə kimi leksikləşərək ilkin sözün mənasını daralda bilər, çünki artıq həmin sahədə o birləşmə spesifik termini əvəz edir. Digər tərəfdən, praqmatik ehtiyaclar sözün mənasını genişləndirə də bilər: məsələn, rəsmi ünsiyyətdə qarşımızdakına birbaşa "yalançı" demək nəzakətsizlik sayılır, buna görə də *"gerçəkliyi yüngülcə təhrif edən"* kimi dolayı ifadələr yaradıla bilər. Zamanla *yalançı* sözünün mənası da bu cür yumşaq çalarlara sahib ola bilər ki, bu da mənanın ünsiyyət məqsədilə modifikasiyasıdır. Ümumiyyətlə, semantik dəyişmələrin praqmatik izahında nitq aktı nəzəriyyəsi, məqsəd və niyyət anlayışları mühüm rol oynayır. Sözlərin ikinci dərəcəli, məcazi mənaları çox vaxt *implikatura* kimi başlayır və sonradan lüğətə daxil olur.

Digər praqmatik amil sosial-mədəni dəyişiklər və insan qrup davranışıdır. Cəmiyyətdə baş verən yeniliklər, yaxud müxtəlif sosial qrupların dilə öz ifadə tərzlərini gətirməsi ilə sözlərin mənası dəyişə bilər. Məsələn, texnologiyanın inkişafı ilə bir çox sözlərin mənası genişlənmişdir: "şəbəkə" sözü bir zamanlar sadəcə balıq tutmaq üçün tor anlamında idisə, indi sosial şəbəkə kimi tamam fərqli, virtual ünsiyyət platformasını bildirən geniş mənada işlənir. Burada praqmatik faktor odur ki, yeni ortaya çıxan konsepti adlandırmaq üçün dil daşıyıcıları mövcud sözə yeni mənanı yükləmişlər, bu da metaforik mexanizm olsa da, əsas motivasiya kommunikativ ehtiyacdır. Bu kimi hallarda danışanların ortaq razılaşması (konversiya) yeni mənanın dilə daxil olmasını təsdiqləyir. Əksinə, bəzi sözlər ictimai dəyişiklər səbəbilə ümumi dövriyyədən çıxıb dar sahədə qaldıqda (məsələn, arxaik məişət əşyaları, köhnəlmiş peşələrlə bağlı sözlər)

onların mənası canlı dildə ixtisaslaşmış hala gəlir [2, 108-109].

Praqmatik aspekt göstərir ki, sözlərin mənası danışıq prosesində funksional olaraq yenidən dəyərləndirməyə məruz qalır. Danışanın niyyəti, ünsiyyət şəraiti, dinləyicinin təfəkkürü və mədəni kontekst bunların hamısı birlikdə müəyyən edir ki, nitq aktında söz hansı mənada başa düşüləcək. Əgər bu yeni başa düşülmə halları kifayət qədər yayılıb sabitləşərsə, o, dil sistemində müvafiq leksik-semantik dəyişiklik kimi qeydə alınır. Belə dəyişikliklərin təməlində bəzən *yeniliyə can atmaq, üslubda fərqlənmək* meyli, bəzən *qarışıqlığı aradan qaldırmaq üçün dəqiqlik yaratmaq* meyli, bəzən də sadəcə *danışıqda yaranan metaforik ifadə* dayanır [1, 275-277]. Bütün hallarda, nitq praqmatikası mənaların genişlənmə və daralmasında mühüm bir stimul rolunu oynayır.

Semantik dəyişmələrin digər mühüm tərəfi koqnitiv (idrakı) aspektdir. İnsan beyni dili qurarkən ətraf aləmi müəyyən kateqoriyalara bölür, obyektlər arasında oxşarlıq və əlaqələrə dair assosiasiyalar qurur. Bu mental proseslər nəticəsində dilimizdə bir çox sözlərin mənası məcazi formada genişlənir və ya dəyişir. Koqnitiv dilçilikdə göstərildiyi kimi, söz mənalarının dəyişməsinin əsas mexanizmlərindən ikisi metafora və metonimiyadır. Bu mexanizmlər vasitəsilə insan anlayışları bir sahədən digərinə proyeksiya edir, bir varlığın adını digər bir varlığa aid edir.

Metafora anlayışlararası oxşarlıq və ya analogiya əsasında mənanın bir obyektdən digərinə keçməsidir. Klassik tərifə görə, metafora zamanı bir söz eynilə təşbehdəki "bənzədilən" kimi çıxış edir, lakin təşbehdən fərqli olaraq, burada "bənzəyən" açıq ifadə edilmir. Bu, metaforanı daha yığcam və obrazlı dil vasitəsinə çevirir. Metaforik mənaların yaranması insan təfəkkürünün müxtəlif obyekt və hadisələr arasında bənzərlik əlaqələrini dərk etməsi ilə sıx bağlıdır. Yəni, əgər iki şey arasında müəyyən ortaq cəhət varsa, insan bu oxşarlığı əsas götürərək onların adlarından birini o birisinə şamil edə bilir [2, 108-109]. Məsələn, "tülkü" sözü bir heyvanın adıdır, lakin bu heyvana xas olan *hiyləgərlik, biclik* kimi xüsusiyyətlərə görə, insanlarda bu cür xüsusiyyəti olan adama da *"tülkü"* demək mümkün olmuşdur. Bu halda heyvanla insan arasındakı abstrakt oxşarlıq (məkrli olma) birinin adının o birisinə metaforik yolla keçirilməsinə səbəb olmuşdur.

Metonimiya isə əlaqəlilik əsasında bir sözün mənasının digərinə keçməsidir. Metonimik köçürmədə obyektlər eyni mənəvi/idraki sahədə bir-birinə bitişik, əlaqəli olur – məsələn, bir obyekt digərinin bir hissəsi olur, yaxud eyni kontekstdə tez-tez yanaşı olduqları üçün biri digərini xatırladır. Metonimiya zamanı məzmun və forma, səbəb və nəticə, konteyner və daxilindəkı kimi əlaqələr dildə öz əksini tapır [9, 156-166]. Məsələn, gündəlik danışığımızda *"bir qab yedim"* ifadəsi işlənir, burada insan əslində *qabın içindəkini (məs., xörəyi)* yediyini bildirir; yaxud *"iki stəkan içdim"* deyilir, yəni *stəkanın içindəkini (çayı, suyu və s.)* içdim deməkdir. Bu misallarda qab ilə içindəki, stəkanla maye arasındakı bitişiklik əlaqəsi metonimik ifadəyə yol açır. Türk dillərində metonimik mənalandırmaya gözəl nümunələrdən biri "dil" sözüdür. *Dil* həm anatomiya baxımından ağız üzvünü (tongue), həm də həmin üzvün funksiyası nəticəsində ortaya çıxan nitq sistemini (language) bildirir. Yəni *fizioloji orqan adı* ilə *abstrakt ünsiyyət sistemi* arasındakı əlaqə metonimiyaya əsaslanır – dil (orqan) dil (nitq) üçün metafor yox, məhz metonimik əsas verir, çünki danışıq orqanı ilə danışıq funksiyası bitişik konseptlərdir. Eyni şəkildə, Azərbaycan dilində "qələm" sözü həm yazı alətini, həm də yazı sənətini (məsələn, *"onun qələmi güclüdür"* ifadəsi burada qələm metonimik olaraq yazı üslubunu simvolizə edir) bildirir.

Metafora daha çox bənzətmə ilə bağlıdırsa, metonimiya real bağlantı ilə bağlıdır və araşdırmalar göstərir ki, bir çox hallarda dilin inkişafının ilkin mərhələlərində metonimik keçidlər metaforiklərdən daha fəal rol oynamışdır. Çünki insanın ilkin idrak mərhələlərində əlaqələrin dərk edilməsi oxşarlıqların dərk edilməsindən öncə gəlmişdir [2, 108-109]. Bu mənada sinekdoxa metonimiyanın xüsusi bir növü kimi qiymətləndirilir. Sinekdoxa hissə-bütöv münasibəti əsasında bir sözün müxtəlif mənalarda işlənməsini ifadə edir. Məsələn, Azərbaycan dilində *"baş"* sözü bəzən "adam" mənasında işlənir (baş sayı – insan sayı), yəni burada bütöv (insan) yerinə hissənin (baş orqanının) adı verilir – bu da sinekdoxaya misaldır. Əksinə, *"ordu"* sözünün tarixi inkişafında ümumi *"ordu (qoşun)"* mənasından yalnız *"yerləşmə yeri, düşərgə"* mənasının ayrılması (Osmanlıca *"ordu"* sözü bəzi mənbələrdə "paytaxt ordugah" mənasında daralıb) bütöv anlayışdan bir hissəyə keçid kimi sinekdoxa nümunəsidir. Göründüyü kimi, koqnitiv mexanizmlər, metafora, metonimiya və sinekdoxa sözün mənasının genişlənməsində əsas rol oynayır, çünki bu yollarla

sözlər əvvəlki konkret mənalarından əlavə yeni, məcazi mənalara sahiblənir. Bu yeni mənalar bir dəfə yarandıqdan sonra, əgər dil ünsiyyətində tez-tez istifadə edilərsə, sözün lüğəvi mənasına çevrilir.

Koqnitiv baxımdan nəzərə alınmalı mühüm məsələlərdən biri də kateqoriyalaşdırma və prototipik məna anlayışıdır. İnsan idrakında hər bir anlayış mərkəzi (əsas) və periferiya təşkil edən mənalar əsasında formalaşır. Sözün prototipik mənası onun ilkin və dominant semantik nüvəsini ifadə edir, lakin zaman keçdikcə bu əsasdan kənara çıxan istifadələr meydana gəldikcə sözün mənaca əhatə dairəsi genişlənir və yeni semantik kateqoriyalar formalaşır [4, s. 104-111]. Məsələn, *quş* dedikdə prototip olaraq uçan, kiçik, qanadlı heyvanlar nəzərdə tutulur. Lakin yarasa uçsa da quş deyil, çünki kateqoriya sərhədləri biologiyada başqa cür çəkilib. Amma dil baxımından insanlar bəzən yarasanı məcazi olaraq quş adlandırmış ("kor quş" ifadəsində olduğu kimi), sonradan isə bu metaforik adlandırma terminoloji səhv kimi qəbul edilib və aradan çıxıb. Bu misal göstərir ki, koqnitiv olaraq insanlar bəzən yanlış kateqoriyaya söz tətbiq edə bilir, ancaq dil icması bunu qəbul etmədikdə, həmin məna dəyişməsi müvəqqəti olur. Əksinə, əgər koqnitiv əsaslandırma kifayət qədər güclüdürsə (məsələn, *kompüterin "sıçan"ı* – "mouse": formaca heyvan siçana bənzədiyi üçün bu metafora bütün dünyada qəbul olundu), o zaman yeni məna dilə uğurla daxil olur. Türk dillərində də bu cür koqnitiv əsaslı genişlənmələr çoxdur. Məsələn, qazax dilində "мұрын" (burun) sözünün əsas mənalarından biri insan və ya heyvan orqanıdır, lakin *"кеменің мұрыны"* ifadəsində "gəminin burunu" metaforik işlənərək gəminin ön hissəsini bildirir. Bu, Azərbaycan dilindəki *"gəminin burnu"* ifadəsi ilə eynidir və ingiliscədəki *"the nose of the ship"* kimi analogiyaya əsaslanır. Deməli, müxtəlif türk dillərində koqnitiv mexanizmlər ortaq şəkildə fəaliyyət göstərir və bənzər məcazi genişlənmələr ortaya çıxır.

Yuxarıda ümumi şəkildə izah edilən semantik prosesləri daha aydın görmək üçün bəzi konkret nümunələri müqayisəli şəkildə nəzərdən keçirək. Aşağıda Azərbaycan dili də daxil olmaqla altı türk dilində seçilmiş sözlərin tarixi və müasir mənaları göstərilir və onlarla bağlı baş vermiş genişlənmə/daralma prosesləri qeyd olunur: *"ər"* (azərb., özb.) - əski türkcədə *er* ümumi "kişi, igid" mənasında ikən, müasir Azərbaycan və Özbək dillərində yalnız "həyat yoldaşı (ər)" mənasında işlənir. Bu, mənanın daralması nümunəsidir, sözün əhatə dairəsi geniş cəmiyyətdən ailə içi statusa qədər azalmışdır [7, 148]. Qazax və türkmən dillərində isə *er* sözü hələ də "kişi" mənasında işlənir, Türkiyə türkcəsində qarşılığı "herif" (əriɸ > herif) tarixi olaraq bu mənanı daşısa da, sonralar yüngül təhqiredici çalara malik olub (mənası daralma ilə yanaşı, mənfi konnotasiya qazanıb). *"aş"* (azərb., türk) – Ortaq türkcə *aš* "yemək, qida" mənasında idi. Azərbaycan və Türkiyə türkcəsində bu söz indi əsasən xüsusi bir xörəyin adı kimi qalıb: azərbaycanca *aş* = "plov", türkcədə *aş* (artıq arxaikdir, daha çox *aşçı* "aşpaz" sözündə qalır). Deməli, ümumi qida mənası daralaraq xüsusi bir yeməyə aid olub. Özbək dilində isə "osh" hələ də həm ümumi "yemək" mənasında işlənir, həm də konkret "palov" mənasında, yəni Özbək dilində sözün iki mənası yanbəyan yaşayır ki, bu da semantik diferensiasiya nümunəsidir. *"yüz / yüz"* (tatar, türk, azərb.) – göytürk dilində *yüz* "üz, sifət" mənasına malik idi. Sonralar bu söz bir çox mənalara genişlənmişdir: məsələn, tatar dilində *yöz* həm "insanın sifəti", həm "üz ifadəsi", həm də "səth, cəbhə" mənalarında işlənir. Türk dilində "gökyüzü" ("göy üzü") birləşməsi "səma" deməkdir – burada *yüz* sözünə "göy" sözü əlavə edilərək "səthin üstü" anlamında metaforik genişlənmə yaranıb. Azərbaycan dilində *üz* sözü "səth, üst tərəf" mənasında birləşmələrdə qalır (*yer üzü, su üzü* və s.), lakin təkbaşına nadir hallarda bu mənada işlənir [5, 302]. Bu misallar *üz* sözünün müxtəlif türk dillərində metaforik genişlənməsinin fərqli dərəcələrini göstərir: bəzi dillərdə bu yeni mənalar aktiv qalır, bəzilərində isə daha az işləkdir. *"mal"* (azərb., qazax, özb.) – Ortaq türkcə *mal* "mülk, var-dövlət, sərvət" demək idi. Bir çox türk dilində bu söz tədricən daralmaya uğramışdır: məsələn, Azərbaycan dilində *mal* daha çox *heyvan (mal-heyvan)* anlamında işlənir (xüsusilə *mal-qara* söz birləşməsində), qazax dilində "mal" mütləq şəkildə "iribuynuzlu qaramal" anlamındadır (ümumiyyətlə heyvana deyilir), özbək dilində "mol" sözü də əsas etibarilə "mal-qara" mənasında işlənir. Göründüyü kimi, geniş "sərvət" anlamı bir çox yerlərdə spesifik "iri heyvan" mənasına qədər daralıb. Bu prosesi izah edən amillər arasında təsərrüfat həyatındakı dəyişikliklər (məsələn, köçəri toplumdan oturaq həyata keçid dövründə sərvət ölçüsü kimi mal-qaranın önə çıxması) və alınma sözlərin təsiri (məsələn, ümumi "sərvət" mənası üçün "var-dövlət", "mülk" kimi alınma ifadələrin ortaya çıxması ilə *mal* sözünün funksiyasının daralması) qeyd oluna bilər [8, 49-50].

Yuxarıdakı nümunələrin təhlili göstərir ki, müxtəlif türk dillərində semantik dəyişmələrin istiqaməti və nəticəsi oxşar olsa da, hər bir dilin özünəməxsus inkişaf yolu var. Hər bir konkret halın arxasında ya praqmatik bir səbəb (məsələn, müəyyən sözün müəyyən ünsiyyət sahəsində xüsusi termin kimi qalması), ya da koqnitiv bir səbəb (məsələn, insan təxəyyülündəki bir assosiasiya) durur. Çox vaxt bu iki amil birgə təsir göstərir: məsələn, *mal* sözünün daralmasında həm real iqtisadiyyat və məişət praqmatikasının, həm də insanın müəyyən var-dövlət növünü ön plana çıxarma meylinin rolu vardır [10].

Nəticə. Aparılan təhlil göstərir ki, türk dillərində söz mənalarının genişlənməsi və daralması dilin inkişafını təmin edən qarşılıqlı və tamamlayıcı proseslərdir. Məna genişlənməsi sözlərin yeni anlayış və situasiyalara uyğunlaşmasına, məna daralması isə onların müəyyən sahələr üzrə ixtisaslaşmasına şərait yaradır. Hər iki proses nəticə etibarilə leksik sistemin zənginləşməsinə və dəqiqləşməsinə xidmət edir. Semantik dəyişmələr əsasən ünsiyyət zamanı sözlərin kontekstual və məcazi istifadəsi ilə bağlı olaraq tədricən formalaşır. Bu dəyişikliklərin koqnitiv əsasını isə insan təfəkkürünün metaforik və metonimik mexanizmləri təşkil edir. Beləliklə, praqmatik və koqnitiv amillərin vəhdəti türk dillərinin semantik sisteminin dinamik və canlı inkişafını şərtləndirir.

ƏDƏBİYYAT

1. Кошкина Е. Г. Семантическая трансформация: причины и типы // *Материалы XXIII ежегодной конференции.* Москва: Изд-во ПСТГУ, 2014. с.275–277.
2. Глазунова О. И. Логика метафорических преобразований. Санкт-Петербург: Изд-во СПбГУ, 2000. 108–109 с.
3. Adilov M., Verdiyeva Z., Ağayeva F. Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 2019. 304 s.
4. Булатова А. К. Развитие значений слов в тюркских языках // *Научный Татарстан,* 2013, № 1. с. 104–111.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008. 442 s.
6. Sweetser E. *From etymology to pragmatics: metaphorical and cultural aspects of semantic structure*. Cambridge: Cambridge University Press, 1990, 220 p.
7. Traugott E. C., Dasher R. B. *Regularity in semantic change.* Cambridge: Cambridge University Press, 2002. 344 p.
8. Azərbaycan dilinin izahlı lüğəti (4 cilddə). Cild 1. Bakı: Şərq–Qərb, 2006. 744 s.
9. Василевская Л. И. Синтаксические возможности собственных имён (метонимический перенос в антропонимах) *// Проблемы структурной лингвистики*. Москва: Наука, 2009. с.156–166.
10. Qısa izahlı iqtisadi terminlər lüğəti. Bakı: Nurlan, 2005. 496 s.

РЕЗЮМЕ

В лексической системе тюркских языков со временем наблюдаются процессы расширения (обобщения) и сужения (конкретизации) значений слов. В данной статье исследуются прагматические и когнитивные основы этих семантических процессов. Согласно современным лингвистическим исследованиям, значение слов изменяется не само по себе, а в зависимости от лингвистического и экстралингвистического контекста в процессе коммуникации. В то же время особое внимание уделяется тому, как метафорические и метонимические переносы значения в когнитивных процессах формируют новые значения в человеческом мышлении. В процессе коммуникации важную роль играют намерение и цель говорящего, а также социально-культурная среда. С когнитивной точки зрения семантические изменения тесно связаны с механизмами восприятия мира человеком, категоризации и структурирования опыта посредством языка. В итоге расширение и сужение значений слов выступают как важный показатель динамического развития лексической системы языка, в том числе тюркских языков, и отражают её когнитивные основы.

Ключевые слова. *семантическое изменение, расширение значения, сужение значения, прагматические факторы, когнитивные механизмы*

ABSTRACT

In the lexical system of Turkic languages, processes of semantic broadening (generalization) and narrowing (specialization) of word meanings are observed over time. This article examines the pragmatic and cognitive foundations of these semantic processes. According to contemporary linguistic research, word meaning does not change independently but is shaped by linguistic and extralinguistic context in the course of communication. At the same time, particular attention is paid to how metaphorical and metonymic meaning transfers within cognitive processes generate new meanings in human thought. In the communicative process, the speaker's intention, purpose, and the socio-cultural environment play a significant role. From a cognitive perspective, semantic changes are closely linked to mechanisms of human perception of the world, categorization, and the structuring of experience through language. Consequently, the broadening and narrowing of word meanings serve as an important indicator of the dynamic development of the lexical system of language, including Turkic languages, and reflect its cognitive foundations.

Keywords: *semantic change, semantic extension, semantic narrowing, pragmatic factors, cognitive mechanisms*

NİGAR NAĞIYEVA*

YAZILI DANIŞIQ DİLİNDƏ NORMALARIN POZULMASI VƏ EKPRESSİV VASİTƏLƏRİN XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Yazılı danışıq dili əsasən qeyri-rəsmi ünsiyyət mühitlərində istifadə olunan, danışıq dilinə yaxın olan yazı formasıdır. Bu üslubda qrammatik və orfoqrafik normalara tam riayət olunmur, nitq daha sərbəst və ifadəli şəkildə təqdim olunur. Yazılı formada emosiyaların, intonasiyanın və vurğunun ifadəsi üçün müxtəlif vasitələr tətbiq edilir. Bu vasitələr yazıya danışıq effektini verməyə kömək edir. Onlar mətndəki hiss və münasibətləri daha aydın çatdırmaq məqsədi daşıyır. Yazılı danışıq dili istifadəçinin fikrini daha sürətli, təbii və axıcı şəkildə ifadə etməsinə şərait yaradır. Lakin bu forma bəzi hallarda rəsmi dil normalarına zidd olduğu üçün anlaşılmazlıqlara səbəb ola bilər. Buna görə onların kontekstə uyğun istifadəsi olduqca vacibdir.

Açar sözlər: *ünsiyyət, yazılı, şifahi, elektron, norma.*

Dilçilikdə şifahi və yazılı dil fərqləndirmələrindən başqa danışıq dili və ədəbi dil fərqləndirmələri mövcuddur [1]. Bu fərqləndirmələrə əsasən formal şifahi və formal yazılı mətnlərlə üst-üstə düşməyən konseptual şifahi və konseptual yazılı mətnləri qeyd edə bilərik. Konseptual və formal şifahi formalara – elmi monoqrafiya, sənədlərin mətni aid edilir. Konseptual yazılı, formal şifahi formalara – yazılı mətnlərin geniş publikaya oxunuşu və nəhayət konseptual şifahi, formal yazılı formalara isə məktub, qeyd, bədii ədəbiyyat mətnlərində fraqmentlər aid edilir. Təbii ki, bu janrların şifahiliyi yüksək dərəcədə şərtidir: tələffüz etdiyimiz mətndən fərqli olaraq, bu mətnlər əsasən yaxşıca düşünülür, köçürülür, redaktə olunur. Buna əsas səbəb onların danışıq nitqinə xas xüsusiyyətlərdən olan real zaman rejimində olmamalarıdır.

Dilin inkişafının müasir etapının maraqlı xüsusiyyətlərindən biri də odur ki, kompüterlərin, ağıllı telefonların geniş istifadəsi nəticəsində yazılı danışıq dilinin yeni formaları ərsəyə gəlmişdir. Bu formalar real zaman rejimində yazılı ünsiyyətin qurulmasını mümkün edir. A.Zaliznyak bu cür formaları "spontan yazılı nitq" adlandırır [3]. Yazılı nitqin bu formaları ilə çatlarda, forumlarda, elektron poçt və WhastApp yazışmalarında rastlaşırıq.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Süni intellekt və kompüter dilçiliyi şöbəsi, elmi işçi, Email: *nagiyevanigar8@gmail.com*

Spontan yazılı danışıq dilinə dair araşdırmalar hələlik fraqmentar xarakter daşıyır. Məqalədə yazılı danışıq dilinə aid yeni janrların qeyri-normativ orfoqrafiya və punktuasiya kimi xüsusiyyətləri müzakirə olunur.

Məlumdur ki, qeyri-verbal (jest, mimika, poza və s.) və paraverbal (ton, tembr, sürət, pauza və s.) şifahi nitq vasitələri kommunikativ aktın 55% nəticəsini müəyyənləşdirir. Yazılı ünsiyyətdə bu cür vasitələrin olmaması bəzi kompensasiyalar tələb edir. Buna görə belə vasitələr yeni ünsiyyət növündən asılı olaraq müəyyən simvollarla əvəzlənir.

Semiotikada mətnin formalaşmasına əsas təsir qrafik imkanlar və xüsusiyyətlərlə müəyyənləşir.

Çatlarda qəbul olunmuş kompensator vasitələr burada baş tutan söhbətin sürətini şifahi nitqin sürətinə çatdırmaq üçün maksimal yığım sürəti ilə müəyyənləşir. Qeyd edək ki, canlı nitqdə ekspressivlik, öncə, prosodik vasitələrlə - intonasiya və onun tərkib hissələri ilə - ritmlə, templə, tonallıqla, pauza, melodika, eləcə də söz sırası ilə reallaşır [2, 288].

Çatlarda bir şriftdən digərinə, kursivdən qalın şriftə keçid o qədər də geniş istifadə olunmur. Əvəzinə eyni işarələrin təkrar istifadəsi, nöqtələrin qoyulması, durğu işarələrinin istifadəsi pauza və emosiyaların gücünü bildirmək üçün istifadə olunur.

Elektron ünsiyyət zamanı söhbətin elektron cihazlar vasitəsilə baş tutduğundan baş hərflərin önəmsənməməsi, yeni cümlələrin və şəxs adlarının kiçik hərflərlə yazılması müşahidə olunur. Lakin bu o demək deyil ki, baş hərflər çatlarda ümumiyyətlə istifadə olunmur. Baş hərflərlə yazılan sözlər çox zaman intonasiya və səs ucaldılmasının bildiricisidir. Məhz baş hərflərlə yazılan mətn qarşı tərəfdən qışqırıq kimi qəbul edilir. Hətta cavabında çox zaman "*Nə qışqırısan?*" ifadəsini görə bilərik.

Baş hərflərlə yanaşı eyni hərfin təkrarlanması fikirli olmanı və ya emosionallığı bildirir. Məsələn, "*Həəə, belə-belə işlər"; "BƏSDİİİ!!!*".

Qeyri-verbal məlumatın klaviaturadan asanlıqla yığılması üçün mötərizələrdən geniş istifadə olunur.

Elektron ünsiyyətin vacib xüsusiyyətlərindən biri də odur ki, istifadəçilər şrift dəyişməyi vacib hesab etmirlər və çox zaman ingilis əlifbasından istifadə edirlər. Bu zaman W hərfinin geniş istifadəsi ilə rastlaşırıq. Bu hərfi daha çox "Ş" yerinə işləndiyini görürük. Həmçinin, ingilis abbreviaturlarından da gənclər arasında yazışmalarda geniş istifadə olunur.

Mətnin yığılmasının sürətli olması orfoqrafik səhvlərin çoxluğu və qısaltmaların geniş istifadəsi ilə nəticələnir. Bu əsasən konsonant tipli qısaltmalardır (tşkr, ncsn, ağz). Bu cür qısaltmalar gözlə qavranılmaya hesablanıb və yazılı nitqin əsas xüsusiyyətlərindəndir.

Morfemlərin hərf tərkibinə baxdıqda çatlarda normativ orfoqrafiyadan yayınma nəticəsində fonetik prinsipə əsasən yazılan morfemlərin çoxluğunu müşahidə edirik. Orfoqrafik normalardan kənara çıxmalar situativ xarakterlə yanaşı çatlarda qəbul olunmuş, ənənəvi xarakterli ola bilər. Bura *slm, tşkr, ncsn, neynirsən, saol, ağz, nolub* kimi sözləri aid edə bilərik. Bu, əsasən, "yeni orfoqrafiya" kimi yazılışı qəbul edilmiş, gündəlik istifadədə olan sözlərdir. Beləliklə, çatlara bağlı qeyri-formal uzual orfoqrafik norma formalaşmağa başlamışdır.

Punktuasiya durğu işarələrinin sayının azalması və mətnin semantizasiyası üçün normativlərdən fərqli yöndə işlədilməsini qeyd edir. Bu o deməkdir ki, durğu işarələri elektron ünsiyyətdə daha çox qeyri-sintaktik məqsədlərlə, yəni nitqin paraverbal vasitələrini qeyd etmək üçün istifadə olunur.

Nida işarəsi səsin ucaldılması və ekspressivliyin ifadəsi kimi istifadə olunur. Sual işarəsinin bəzən 7 rəqəmi ilə qeyd olunduğunu müşahidə edirik. Bu hal kompüterlə yığılma zamanı sual işarəsinin 7 rəqəminin alt registrində yerləşdiyi üçün, bəzən isə sadəcə tələskənlikdən yazıldığı müşahidə olunur.

Nida və sual işarəsinin birgə istifadəsi narazılıq və ya heyranlıq hisslərini əks etdirir.

Yazılı danışıq dilinin digər bir janrı olan SMS yazışmalarına nəzər salsaq, burada daha çox lakonik, sadə və konkret cümlələrin işləndiyini görürük. Buna SMS-lərin həcmcə balaca olmaları və işarə sayının məhdud olması təsir edir. Onu da qeyd edə bilərik ki, SMS-lərin (Short Message Service – Qısa mesaj xidməti) geniş istifadəsi daha çox 2000-ci illərin əvvəllərində müşahidə olunurdu [5].

SMS-lər bu gün, əsasən, reklam mətnləri, bank xidmətlərinin təklifi, mobil operatorlar tərəfindən abunəçilərə ünvanlanmış məlumatları ehtiva edir. Mobil texnologiyanın ədəbiyyatla birləşməsi nəticəsində dünyada ilk SMS romanlarından biri olan *Out of the Fortress* 2004-cü ildə çinli yazıçı Qian Fuzhang

tərəfindən yazılmışdır. Bu roman cəmi 60 SMS mesajından ibarət idi və hər mesaj təxminən 70 simvol uzunluğunda idi. Əsər mobil telefonlar vasitəsilə oxuculara göndərilmiş, bu isə onu həm forma, həm də yayım baxımından ədəbi yenilikə çevirmişdir. Roman evlilik və münasibətlər mövzusunu müasir Çin cəmiyyəti kontekstində ələ alır. Sadə dil və qısa ifadələrlə yazılmış bu əsər oxucularla birbaşa emosional əlaqə qurmağı bacarmışdır. *Out of the Fortress - Qaladan qaçış*, mobil ədəbiyyatın qabaqcıl nümunəsi kimi tanınır və SMS roman janrının inkişafında mühüm rol oynamışdır.

Qeyd etmək lazımdır ki, SMS mətnləri olduqca standart, düşünülmüş, spontanlıqdan və qeyri-rəsmilikdən uzaqdır.

2020-ci illərdən WhatsaApp və internetə bağlı digər tədbiqlərin populyarlığı və internetin hər kəsə əlçatan olması SMS yazışmların sayını minimuma endirmişdir. WhatsaApp günümüzdə elektron ünsiyyətin baş tutduğu ən populyar tədbiqdir. WhatsaApp yazışmaları əsasən dost-tanış, qohumlarla, yəni qeyri-rəsmi, qeyri-formal ünsiyyət üçün geniş istifadə olunur. Araşdırmamızın əsas hissəsi bu növ yazışmaların incələnməsindən ibarətdir. Qeyri-formal ünsiyyətdə cavab həmin an göndərildiyinə görə çox zaman yazılmış mətn redaktə edilmədən göndərilir. Hətta cavab diqqətlə düşünülmüş və bir müddət sonra göndərilsə belə, o, əsasən, ani, spontan yazı ilə tərtib olunur – bu janrın əsas qanunudur.

Elektron ünsiyyət mesajlarının dili kompressiya və audio-vizual kontaktın olmaması səbəbindən bu halı kompensasiya edən fəndlərdən geniş istifadə olunur. Həmçinin, telefona bağlı mətnlər digər yazılı-danışıq janrlarından fərqli xüsusiyyətlər əldə etmişdir.

WhatsaApp yazışmalarında qalın, kursiv şriftlərin istifadəsi qəliz olduğundan, onlardan nadir hallarda istifadə olunur. Mühüm xüsusiyyətlər assortmentinə böyük və kiçik hərflər, durğu işarələri və emojilər aiddir.

Baş hərflərlə yazılan sözlər əsasən mərkəzi ifadəni, daha vacib mətni əhatə edir. Məsələn:

"Hər şey YAXŞI OLACAQ. MÜTLƏQ!; AD GÜNÜN MÜBARƏK, ƏZİZİM!; BAYRAMINIZ MÜBARƏK!"

Söz oyunu işlədilmiş nümunələr də bu cür baş hərflərlə qeyd olunmuş qabartmalarla boldur:

"Sadəcə bəyaz deyil, BƏYBƏYAZ dişlərə sahib olacaqsınız."

Bəzən hər hansı bir ifadənin cümlə içində vurğulanması məqsədilə həmin ifadə baş hərflərlə yazılır:

"SABAH SİZƏ gələcəm. Görüşənədək."

Bu nümunələrin əksinə cümlələrin başındakı və hətta şəxs adlarının kiçik hərflə yazılması da tez-tez rast gəlinən faktlardandır:

" *Salam Samir. Sabah dərsin vaxtı dəyişdi.elçin məlim dedi ki, hami 9-da gəlsin*."

Yazı sürətini və yazılı nitqin sürətinin danışıq nitqinə bərabər olmasını nəzərə alsaq bir çox istifadəçinin durğu işarələri və intervallardan minimum dərəcədə istifadə etdiyini görürük. Məsələn:

- *İndigəlirəm*.
- *Yaxşı sabah dəftərimi gətirməyəunutma.*
- *Görüşəriy*

Bu cür səhvlər, əsasən, tələskənliklə əlaqəlidir və heç bir qrammatik məna daşımır.

Zamana qənaət çox vaxt emojilərin istifadəsinə də təsir edir. İstifadəçi gülüş emojisinə keçid etmək yerinə mötərizədən istifadə edir. Bu zaman bir mötərizə gülüşü, çoxlu mötərizə isə qəhqəhəni bildirir. Lakin həmsöhbətə daha çox emosional təsir etmək üçün və ekspressivliyi artırmaq üçün müxtəlif emojilərdən istifadə olunur. Klaviatura ilə yazılan piktoqramlar, müxtəlif simvolların birləşməsindən yaranan sadə şəkilli ifadələrdir. Onlar əsasən emosiyaları çatdırmaq, zarafat etmək və ya fikirləri daha canlı göstərmək üçün istifadə olunur. Məsələn, :-) gülümsəməyi, <3 isə sevgini bildirir. Bu tip piktoqramlar xüsusilə yazılı ünsiyyətdə, sosial mediada və mesajlaşmalarda populyarlıq qazanıb.

Yazıların latın əlifbası ilə ingilis dili rejimində yazılması zamanı hərf əvəzlənməsi ilə raastlaşırıq. Bu zaman ə-e, a; ü-ü; ı-i; ş-w, sh, s; ç-c, ch; ö-o əvəzlənmələrindən istifadə olunur.

Kompressiya məqsədilə riyazi işarələrdən geniş istifadə olunur. Daha çox rast gəldiyimiz nümunə razılıq işarəsi kimi + qoyulmasıdır.

WhastApp yazışmalarında geniş istifadə olunan vahidlər arasında abbreviatur və qısaltmaları qeyd edə bilərik. Daha çox rast gəlinən abbreviaturlar, əsasən ingilis dilindədir və gənclərin jarqonunda geniş

istifadə olunan LOL, WTF, BB, IMHO, fav, POV və s. [4] Qısaltmalar arasında sait buraxılmasını xüsusi qeyd edə bilərik. Samit buraxılması nadir rastgəlinir, çünki sözün əsas tərkib hissəsini samitlərin təşkil etdiyi hesab olunur. Sait ötürülməsinə aid nümunələr: *tşk, slm, necsn*. Məsələn: *Hədiyyən üçün tşk edirəm.*

2000-ci illərin əvvəllərində T9 mətn redaktorundan geniş istifadə olunurdu. T9 yaradıcısı Tegic Communication şirkətidir. T9 sistemi, hər düyməyə bir neçə hərf təyin olunduğu üçün, istifadəçilərin daha az düymə basmaqla sözləri tez yazmasına imkan verirdi. Bu sistem artıq çox az istifadə olunsa da, mobil texnologiyaların təkamülündə mühüm mərhələ sayılır. Hal-hazırda buna oxşar redaktorlardan demək olar ki, bütün telefon modellərində mövcuddur.

Sözlərin deyildiyi kimi yazılması da vaxt qənaətinə hesablanaraq elektron ünsiyyət istifadəçiləri arasında geniş istifadə olunur. Bu cür yazılışlar ənənəvi uzual norma ilə tənzimlənən formadır. Elektron ünsiyyətə xas dil o qədər populyarlaşıb ki, xarici alimlər bu növdən olan abbreviatirların və qısaltmaların Oksford lüğətinə salınmasını təklif edirlər [6]. Əlbəttə ki, günümüzdə okkazional sözlərin çoxluğu və yazılı nitqdə buraxılan səhvlər Azərbaycan dilinin saflığının qorunmasına böyük maneələr yaradır. Alimlər bu dəyişikliklərə dair sosial faktorları müzakirə edərək dilin yeni şətlərdə fəaliyyət göstərməsi tendensiyalarını araşdırırlar.

Nəticə olaraq qeyd edə bilərik ki, dil normaları haqqında görüşləri uşaqlar və gənclər əsasən məktəbdə tədris zamanı alırlar, lakin əsas formalaşma vasitəsi təbii ki, onları əhatə edən mühitdir. Normaları qavrama bir növ oxuduqları mətnlər və ünsiyyətdə olan insanlardan asılıdır. Biz deyə bilmərik ki, insan yalnız məktəbdə öyrəndikləri sözləri düzgün yaza bilir, çünki şüurlu və ya şüuraltı olaraq biz şifahi və yazılı mətnləri analiz edirik və normativ sözlərin istifadələrini qavrayırıq. Günümüzdə internet mətni məlumatın əsas daşıyıcısına çevrilmişdir. Sosial şəbəkədə 7-dən 77-yə ali savadı olan və olmayan, müxtəlif dünyagörüşlərinə sahib insanlar ünsiyyət qurur. Dil normalarını yetərincə yaxşı bilən şəxs üçün onların şüurlu pozulması nəticə etibarilə onun özü üçün təhlükə daşımasa da, bu normalarla tanış olmayanlar üçün fəlakət ola bilər, çünki insanın göz yaddaşı güclü amillərdəndir. Bu səbəbdən virtual mühitdə belə, hər kəs yazdığı mətnə cavabdeh olmalı və mümkün dərəcədə bilərəkdən buraxılan səhvləri minimuma endirməlidir.

ƏDƏBİYYAT

1. Cəfərov Q. Ümumi dilçilik etüdləri. Bakı, Elm və təhsil, 2020
2. İ.Kazımov. Mətnin aktual problemləri. Bakı, Elm və təhsil, 2025. 404 s.
3. Зализняк А. Переписка по электронной почте как лингвистический объект. http://www.dialog-21.ru/dialog2006/materials/html/Zalizniak.htm.
4. Иванов Л.Ю. Язык интернета: заметки лингвиста. http://www.ivanoff.ru/rus.
5. https://en.wikipedia.org/wiki/Text_messaging
6. vokruqinfo.ru/news606/html

Нигяр НАГИЕВА

Особенности средств передачи экспрессивности и нарушение норм в письменной разговорной речи

РЕЗЮМЕ

Письменная разговорная речь – это форма письма, близкая к устной речи, которая в основном используется в неформальной коммуникации. В таком стиле не всегда соблюдаются грамматические и орфографические нормы, выражения носят более свободный и эмоциональный характер. Для передачи эмоций, интонации и акцентов применяются различные графические средства. Эти средства придают тексту эффект живой устной речи, делая его более естественным и выразительным. Графические особенности помогают точнее передать содержание сообщения и эмоциональное отношение. Письменная разговорная речь позволяет выражать мысли быстро, плавно и в близкой коммуникационной среде. Однако отклонение от норм официального языка в некоторых случаях может вызывать трудности в понимании. Поэтому важно учитывать контекст её использования.

Ключевые слова: *коммуникация, письменный, устный, электронный, нормы.*

Nigar NAGHIYEVA

Features of Expressive Means and Violation of Norms in Written Colloquial Speech

SUMMARY

Written conversational language is a form of writing that closely resembles spoken language and is mainly used in informal communication settings. In this style, grammatical and orthographic norms are not strictly followed, and expressions are more free and emotional. Various graphic tools are used to convey emotions, intonation, and emphasis. These tools give the text a spoken effect, making it appear more natural and expressive. Graphic features help to more clearly communicate the meaning and emotional tone of the message. Written conversational language allows thoughts to be expressed quickly, fluently, and in a context of close communication. However, deviations from formal language norms can sometimes lead to misunderstandings. Therefore, it is important to consider the context in which it is used.

Keywords: *communication, written, spoken, electronic, norms.*

Həcər ABDULLAYEVA*

EMOTIONAL LEXICAL-SEMANTIC DEVICES IN NEWS COVERAGE OF COP29 IN ELECTRONIC MASS MEDIA

ABSTRACT

This study examines the emotive lexical-semantic strategies employed in the reporting of a significant global event, the 2024 United Nations Climate Change Conference (COP29), which is vital for both the host nation, Azerbaijan, and the international community. This research focuses on emotions such as perceived threat, constructive anticipation, critical necessity, and frustration elicited by the employment of lexical-semantic devices by national and international electronic mass media organizations. This study delves into the depth of the linguistic strategies used to frame climate discourse, identifying the key role of the choice and effective use of lexical semantic devices based on an analysis of the content of outstanding news outlets and the results of a survey conducted among representatives of the young generation, who are students of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan. The findings show that perceived threat and critical necessity dominate the narratives, but constructive anticipation resonates more strongly with the younger generation, indicating the need for balanced communication strategies that emphasize the indelible impact of the lexical-semantic aspects of the news media on maintaining public awareness of climate issues.

Keywords: emotional lexical-semantic devices; electronic news media; climate issues, COP29 discourse; linguistic strategies

1. Introduction

The Conferences of the Parties (COPs) have acted as diplomatic forums and worldwide media events since 1992, when the United Nations Framework Convention on Climate Change (UNFCCC) was established. Every COP generates a lot of electronic news coverage, which helps the public understand complicated policy decisions and their implications. The 29th United Nations Climate Change Conference, held in Baku, Azerbaijan, from 11 to November 22, 2024, garnered significant national and international media attention as a critical milestone in global climate negotiations. Because COP29 focused on climate finance and adaptation methods for developing countries, issues that always require moral judgment and emotive framing, it earned special symbolic significance. In this respect, electronic mass media are particularly renowned as dominant resources for disseminating information and influencing public sentiment before, during, and after such events.

* Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, müəllim. Dil nəzəriyyəsi ixtisası üzrə doktorant. Email: aa_hecer@yahoo.com

2. Literature Review

The importance of emotional framing in online climate communication has been highlighted by various scientific studies and investigations. Media narratives are not merely informational; they are laden with emotional appeals designed to shape public attitudes and engagement through the purposeful choice of lexical-semantic devices. The more actual the public problem is, the brighter it is presented in mass media, and the more often they exploit emotions **[3; 4, 3–5]** to attract the addressee's attention, to interest him, and to change his attitude towards the problem [13, 48–52]. According to investigations in digital media linguistics, audience comprehension and interpretation of news stories are significantly influenced by emotive lexical-semantic factors, such as intensifiers, affective adjectives, and emotionally charged nouns. These components affect how information is processed cognitively and assessed emotionally at both lexical and pragmatic levels. Additionally, academics have stressed that lexical framing frequently has ideological overtones. Alarmist and moralized language can polarize audiences, while responsibility-based and solution-oriented lexical framing may lessen ideological resistance and promote wider engagement, according to a mixed-methods study of climate communication [2, 148–151].

Studies based on sentiment analysis and computation have verified the emotional polarization of electronic climate conversations. Lexical choices are the main markers of emotional position, and extensive sentiment studies of online climate debates have shown recurrent patterns of dread, concern, rage, and hope [11, 215–220]. These findings further support the significance of examining lexical-semantic devices in electronic news media to comprehend popular opinion. An experimental study comparing strategy-focused and issue-focused framing discovered that while issue-focused frames emphasize cooperation and solutions and more often produce positive emotions such as hope and enthusiasm, strategy-oriented narratives tend to elicit negative emotions such as anxiety and anger [14, **27070–27083**]. These results support the claim that lexical-semantic decisions made in electronic media play a critical role in influencing action intentions and emotional engagement. This illustrates how emotionally charged words can either strengthen division or foster consensus depending on their semantic orientation.

Although media framing of climate issues has been extensively investigated by linguists, there has been limited focus on the direct emotional effects of lexical semantic devices used in electronic news coverage of COP29. Despite the expanding corpus of research on climate communication, little attention has been paid to event-specific speech, especially when it comes to the emotive lexical-semantic framing of COP-related news. By analyzing how emotional language was used in electronic news coverage of COP29 and how such language affects audience emotions and participation, the current study fills this gap.

3. Theoretical Background

According to research on climate change communication, media framing and lexical choice have a substantial impact on public perception, emotional response, and behavioral intention. News coverage of climate change deliberately creates meaning through emotive rather than just conveying facts. According to studies [10, 360–363; 9, 445–450], audiences' desire to take climate-related action is influenced by the various framing tactics used in climate discourse. Words and phrases can trigger readers' feelings towards the subject and result in them wanting to respond to the news. Words can be powerful; they can flatter us, frighten us, and make us do something [8, 3–6]. Emotive language is word choice that is used to evoke emotion and is intended to cause an effect (emotional response) on the audience [12, 12-31]. Different choices of emotive language in an utterance may ignite different kinds of emotions. Research on climate change media reporting shows that journalists use adjectives and personal vignettes to generate feelings [5, 802–805] and that emotions evoked by media coverage of climate change can influence one's willingness to make sacrifices for climate change [1, 470–475].

In news discourse, regardless of the topic, lexical-semantic choices influence the public through hidden ideologies in the emotive language. Linguistically, corpus-based analyses demonstrate the importance of metaphors and evaluative lexical units in climate discourse in electronic media [6, 128–131]. Metaphors of danger, instability, and urgency—such as "crisis," "tipping point," or "irreversible damage"—are commonly used to conceptualize climate change. These metaphors heighten emotional reactions and present climate change as an urgent threat that calls for action [7, 125-133]. By emphasizing risk and

responsibility, these metaphorical structures direct readers to specific conclusions. Communication studies have shown a direct correlation between behavioral outcomes and emotionally charged climate news. According to research, some lexical framing evokes feelings such as perceived threat, constructive anticipation, critical necessity, and frustration, which have a big influence on pro-environmental actions, information-seeking behavior, and climate advocacy. This suggests that lexical-semantic choices have an emotional component that influences tangible responses to climate-related issues and extends beyond mere perceptions.

4. Objectives

The recent occurrence of the event necessitates research to provide deeper insights into public acknowledgement of the policy and measures adopted for the eradication of the global concern posing a threat to the entire world and to the future of the humanity. Understanding the emotional appeals of narratives in electronic resources disseminating breaking news daily to millions and billions of people can provide deeper insights into the effectiveness of climate communication.

The objectives of this research include analyzing the emotional appeals embedded in prevalent linguistic devices, such as the choice of words with positive, negative, or neutral meanings, and the ways in which emotional appeals influence audience perception and public reaction.

This study evaluates the function of emotional lexical-semantic devices in electronic mass media coverage of the 29th United Nations Climate Change Conference (COP29) and determines how these linguistic tactics influence audience perception and emotional reactions. Given the rising importance of media discourse in affecting public knowledge of climate change, this study focuses on the following specific objectives:

- To detect and categorize emotional lexical-semantic devices used in electronic news coverage of COP29, such as metaphors, evaluative adjectives, emotionally charged nouns, modal verbs, intensifiers, and group lexical choices.
- To provide a comprehensive linguistic taxonomy of emotional appeals employed in climate-related news discourse by categorizing lexical-semantic devices based on the emotions they elicit, such as perceived threat, constructive anticipation, critical necessity, and frustration.
- To investigate the link between emotional language and audience perception, we examined how different emotional appeals impact readers' perspectives on climate change, policy actions, and global collaboration.
- To examine the influence of emotionally charged news discourse on public involvement, such as motivation to take action, support climate measures, and participate in advocacy or awareness-raising efforts.
- To investigate the mix of perceived threat-based and constructive anticipation-oriented storylines in COP29 media coverage and assess their efficacy in maintaining long-term audience involvement while avoiding emotional weariness or disengagement.
- To empirically analyze audience emotions, survey responses from Academy of Public Administration students were used to determine the main emotional responses as well as the degrees of felt critical necessity, responsibility, and drive.
- To contribute to linguistic and media discourse research by filling the knowledge gap regarding the emotional effects of lexical-semantic elements in electronic news coverage of international climate conferences.
- To provide practical insights for climate communication, journalists and media practitioners will gain ideas on how emotionally balanced language tactics might improve public knowledge and constructive participation in climate challenges.

5. Methodology

To achieve these objectives, an online survey was conducted, including bachelor's degree students of the School of Political Administration of the Academy of Public Administration. A group of students was randomly selected to participate in this survey. The choice of this target group was methodologically justified because political administration students are well-versed in international political processes, global

governance systems, and climate policy discussions. Almost all of these students were well-informed about the event and were constantly searching for news, listening to public speeches, analyzing the officially ratified documents, sharing their insights with each other, and discussing news articles on the scope and organization of the global event of COP29 using an unlimited range of local and transnational electronic news resources for a diverse range of activities and purposes. Some students actively engaged in volunteering activities and attended various sessions in person.

A selection of electronic news reports on COP29 was gathered from international and local news outlets. The selection criteria were relevance to COP29 proceedings, frequency of publishing throughout the conference, prominence of headlines and lead paragraphs, and accessibility via electronic media. The gathered texts were analyzed to find reoccurring emotional lexical-semantic devices, with an emphasis on headlines, leads, and evaluative sections, where emotional framing is most prominent.

An online questionnaire was administered to undergraduate students at the *Academy of Public Administration* who regularly consumed COP29 news via electronic media. Emotional appeals were categorized into four groups: perceived threat, constructive anticipation, critical necessity, and frustration. These categories were chosen based on repeating trends in the climate communication literature and frequent appearances in COP-related media discourse.

Respondents answered multiple-choice questions on the emotional aspects of the news, open-ended questions identifying specific words or phrases that influenced their feelings, and rating scales assessing the intensity of the evoked emotions. Because the sample size was limited, the results were analyzed descriptively rather than through inferential statistics or any other computational programs. This methodology allowed for a thorough qualitative analysis of audience impressions while acknowledging the study's methodological limitations.

6. Findings

Key findings of the research include several different types of lexical-semantic devices, such as metaphors—“climate tipping point,” “climate time bomb,” and “melting future”—that evoke perceived threat and critical necessity; adjectives such as “catastrophic,” “groundbreaking,” and “sustainable” that amplify emotional resonance; and phrases like “global solidarity” and “green revolution” that inspire constructive anticipation and collective action.

Headlines that include strong words with negative meanings that highlight worst-case scenarios are the most attention-grabbing and aim to stress the gravity of climate change. Most respondents reported feeling anxious or perceived threats after consuming COP29 news, while more than half responded with constructive anticipation because the news articles spread information about technological and scientific innovations resonating with youth activism. Nearly all respondents held the attitude of feeling a critical necessity evoked by breaking news stories. A few also feel frustration concerning the lack of corporate responsibility, global cooperation, and inaction of some powers. Almost all respondents displayed a high level of motivation and readiness to take action and solve global environmental problems, agreeing that critical necessity-driven language and messages strongly boosted their involvement in the action. The majority of respondents also mentioned that constructive anticipation messaging inspired concrete actions, such as donations, climate advocacy, and volunteering to show solidarity with the green world. Some respondents felt the need to conduct more research to better understand global ecological issues.

7. Discussion

The survey clearly shows that a diverse range of media outlets use various lexical-semantic aspects effectively to appeal to the audience’s emotions. As observed, perceived threat and critical necessity are dominant strategies, but their overuse may potentially lead to emotional fatigue and frustration, being overwhelming and depressing. Constructive anticipation and solution-oriented narratives, despite being less common, have a stronger motivational impact, particularly among young people. This implies that integrating constructive anticipation can sustain engagement, in contrast to overreliance on perceived threat, which can eventually lead to despair and complete inaction.

The analytical framework utilized in this study to categorize and interpret emotional lexical-semantic devices employed in electronic mass media coverage of COP29 is shown in *Diagram 1* below. The notion

of emotional lexical-semantic devices, which emphasizes that language choices in news discourse serve as the main mechanism through which emotions are generated, enhanced, and conveyed to audiences, is central to the model. The framework classifies lexical-semantic devices into four broad groups, each corresponding to the prominent emotional responses identified in climate-related news reporting.

First, *Threat-Oriented Devices* include metaphors, negative adjectives, and crisis-related nouns. The terms "climate tipping point," "climate time bomb," and "environmental catastrophe" figuratively depict climate change as an urgent and irreversible threat. These technologies primarily elicit perceived threats and critical necessities, leading audiences to view climate change as a global emergency that requires immediate intervention. This framing is consistent with prior research, which shows that threat-based metaphors increase risk perception and emotional arousal in environmental communication.

Second, *Solution-Oriented Devices* use positive evaluative words and collective nouns like "sustainable," "groundbreaking," "global solidarity," and "future generations." These linguistic choices emphasize growth, cooperation, and shared responsibility, which promote constructive anticipation and motivation. These mechanisms are related to emotions that encourage engagement and positive action, corroborating previous research that constructive anticipation narratives are particularly successful in sustaining long-term public participation in climate projects.

Third, *Pressure-Inducing Devices* are described using modal verbs ("must," "should," "need to") and intensifiers ("urgently," "extremely," "severely"). These language forms exert moral and temporal pressure on political actors, institutions, and society. As shown in the figure, such gadgets primarily instill a sense of critical necessity and responsibility, portraying climate action as a must rather than an option. This category captures the persuasive role of modality in policy-oriented media discourses.

Finally, *Evaluative Devices* include nominalizations ("inaction," "failure," "commitment") and contrastive framing tactics that contrast negative and positive outcomes (for example, "catastrophic risks" and "historic opportunities"). These technologies incite rage and moral judgment, particularly against perceived institutional carelessness or a lack of global collaboration. By abstracting behaviors into evaluative notions, journalists help audiences understand the ethical interpretations of duty and blame.

Overall, the diagram matches the survey results and shows that emotional responses in COP29 media coverage are systematically constructed using diverse lexical-semantic methods. While perceived threat and critical necessity dominate the conversation, the approach emphasizes the importance of constructive anticipation-driven and solution-oriented language in encouraging public participation. Therefore, the framework supports the study's primary claim that successful and sustained climate communication requires a balanced emotional story that integrates critical necessity and constructive anticipation.



Diagram 1. *Classification of the emotional lexical-semantic devices used in electronic mass media coverage of COP29*

8. Conclusion

This study emphasizes the effectiveness of lexical-semantic devices that use emotional appeals to shape public views of climate challenges and improve global efforts. Perceived threat and critical necessity are compelling, but constructive anticipation must be balanced for long-term involvement. Electronic news media may strengthen their role in organizing action against climate change by considering the emotional consequences and customizing tales to meet the demands of the audience. Further survey analysis on the investigation of the emotional appeal of the lexical-semantic devices used in electronic news coverage of the Conferences of Parties may include more respondents from other universities, degrees of education, and majors, and, in an even broader scope, a diverse range of age groups and nationalities, as well as categorizing more emotional appeals.

RESOURCES

1. Bilandzic, H., Kalch, A., & Soentgen, J. (2017). Effects of goal framing and emotions on perceived threat and willingness to sacrifice for climate change. *Science Communication, 39*(4), 466–491. https://doi.org/10.1177/1075547017718553
2. Boulianne, S., Lalancette, M., & Ilkiw, D. (2022). "School strike 4 climate": Social media and the international youth protest on climate change. *Media and Communication, 10*(2), 145–156. https://doi.org/10.17645/mac.v10i2.5060
3. Chung, W., & Zeng, D. (2020). Dissecting emotion and user influence in social media communities: An interaction modeling approach. *Information & Management, 57*(1), Article 103108. https://doi.org/10.1016/j.im.2018.09.008

4. Ge, Y., Qiu, J., Liu, Z., Gu, W., & Xu, L. (2020). Beyond negative and positive: Exploring the effects of emotions in social media during the stock market crash. *Information Processing & Management, 57*(4), Article 102218.
5. Han, G., Sun, J., & Lu, Y. (2017). Framing climate change: A content analysis of Chinese and Western news media. *Public Understanding of Science, 26*(7), 798–814. https://doi.org/10.1177/0963662516641130
6. Kadri, H. K., Yahya, N., & Khalib, F. (2020). Ideology and emotive language in news discourse. *GEMA Online® Journal of Language Studies, 20*(3), 125–133. https://doi.org/10.17576/gema-2020-2003-08
7. Kramar, N. (2023). Construction of agency in climate change discourse: A corpus-based analysis of media framing. *Respectus Philologicus, 43*(48), 86–101. https://doi.org/10.15388/RESPECTUS.2023.43.48.6
8. Macagno, F., & Walton, D. (2014). *Emotive language in argumentation*. Cambridge University Press.
9. Nabi, R. L., Gustafson, A., & Jensen, R. (2018). Framing climate change: Exploring the role of emotion in generating advocacy behavior. *Science Communication, 40*(4), 442–468. https://doi.org/10.1177/1075547018776019
10. O'Neill, S., & Nicholson-Cole, S. (2009). "Perceived threat won't do it": Promoting positive engagement with climate change through visual and iconic representations. *Science Communication, 30*(3), 355–379. https://doi.org/10.1177/1075547008329201
11. Taufek, T. E., Jaludin, A., Tiun, S., & Lam, K. C. (2021). Public perceptions on climate change: A sentiment analysis approach. *GEMA Online® Journal of Language Studies, 21*(4), 209–233. https://doi.org/10.17576/gema-2021-2104-11
12. Tsitsanoudis-Mallidis, N., & Derveni, E. (2018). Emotive language: Linguistic depictions of the three-year-old drowned refugee boy in Greek journalistic discourse. *Interface: Journal of European Languages and Literatures, 6*(1).
13. Ünal-Aydın, P., Balıkçı, K., Sönmez, İ., & Aydın, O. (2020). Associations between emotion recognition and social networking site addiction. *Psychiatry Research, 284*, Article 112673.
14. Wang, Y., Li, X., & Zhou, S. (2024). The role of emotions in climate change communication: Effects of strategy and issue framing on emotional responses and online climate action intentions. *Current Psychology*. https://doi.org/10.1007/s12144-024-06346-1

Həcər Abdullayeva
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası, müəllim

ELEKTRON KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ COP29-UN İŞIQLANDIRILMASINDA EMOSİONAL LEKSİK-SEMANTİK VASİTƏLƏR

XÜLASƏ

Məqalədə 2024-cü ildə keçirilmiş və təkcə ev sahibi olan Azərbaycan üçün deyil, bütövlükdə dünya üçün mühüm əhəmiyyətə malik qlobal tədbir olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransının (COP29) elektron kütləvi informasiya vasitələrində işıqlandırılmasında istifadə olunan leksik-semantik vasitələrin emosional təsiri araşdırılır. Tədqiqat milli və beynəlxalq elektron media qurumları tərəfindən tətbiq edilən leksik-semantik vasitələrin dərk oluna bilən təhlükə, konstruktiv gözlənti, kritik zərurət və məyusluq kimi emosiyaları necə formalaşdırdığını təhlil edir. Araşdırma iqlim diskursunda istifadə olunan dil strategiyalarının hərtərəfli təhlilinə əsaslanaraq aparılmış, aparıcı xəbər mənbələrinin məzmunu tədqiq edilmiş və gənc nəslin nümayəndələri olan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri arasında keçirilmiş sorğunun nəticələri əsasında leksik-semantik vasitələrin seçimi və effektiv istifadəsinin əsas rolu müəyyənləşdirilmişdir. Nəticələr göstərir ki, dərk olunan təhlükə və məyusluq mediada üstünlük təşkil edən emosional məna çalarlarıdır, lakin konstruktiv gözlənti və kritik zərurətin ifadəsi gənc nəsil arasında daha güclü rezonans doğurur. Bu isə iqlim məsələləri ilə bağlı ictimaiyyətin məlumatlandırılmasında xəbər mediasının leksik-semantik aspektlərinin müstəsna əhəmiyyətinin nəzərə alınaraq balanslaşdırılmış kommunikasiya strategiyalarının aparılmasına ehtiyac olduğunu göstərir.

***Açar sözlər*:** emosional leksik-semantik vasitələr; elektron xəbər mediası; iqlim problemləri; COP29 diskursu; linqvistik strategiyalar

Хаджар Абдуллаева
Академия Государственного Управления
при Президенте Азербайджанской Республики, преподаватель

ЭМОЦИОНАЛЬНЫЕ ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ СРЕДСТВА В ОСВЕЩЕНИИ COP29 В ЭЛЕКТРОННЫХ СРЕДСТВАХ МАССОВОЙ ИНФОРМАЦИИ

АННОТАЦИЯ

В статье исследуется эмоциональное воздействие лексико-семантических средств, используемых при освещении потенциально значимого глобального события — Конференции ООН по изменению климата 2024 года, более известной как COP29, которая имеет ключевое значение не только для принимающей страны — Азербайджана, но и для всего мирового сообщества. Исследование сосредоточено на таких эмоциях, как воспринимаемая угроза, **конструктивное ожидание**, критическая необходимость и фрустрация, которые вызываются применением лексико-семантических средств национальными и международными электронными средствами массовой информации. Работа углублённо анализирует лингвистические стратегии, используемые для фреймирования климатического дискурса, и выявляет ключевую роль отбора и эффективного использования лексико-семантических средств на основе контент-анализа материалов ведущих новостных изданий, а также результатов опроса представителей молодого поколения — студентов Академии государственного управления при Президенте Азербайджанской Республики. Полученные результаты показывают, что воспринимаемая угроза и фрустрация доминируют в медианарративах, однако **конструктивное ожидание** и критическая необходимость находят более сильный отклик у молодого поколения, что указывает на необходимость сбалансированных коммуникационных стратегий, подчёркивающих неизгладимое влияние лексико-семантических аспектов новостных медиа на поддержание общественной осведомлённости о климатических проблемах.

Ключевые слова: эмоциональное лексико-семантические средства; электронные средства массовой информации; климатическая проблемы; дискурс COP29; лингвистические стратегии

Ayşən İSMAYILLI*

FÜZULİ RAYONUNUN MİKROTOPONİMLƏRİ

XÜLASƏ

Mikrotoponimlər tarixi dövrlər ərzində yaşamış xalqların danışığında aid olduğu ərazinin flora və faunasını, xalq, qəbilə, nəsillərini əks etdirən informasiya qaynağı olan ən qədim mikrotoponimik vahidlərdir. Məlum olduğu kimi, mikrotoponimlər əhalinin tarixi keçmişi, dünəni, bu günü, bir yerdən başqa yerə köçetməsi prosesini əks etdirir. Qarabağ bölgəsi haqqında ətraflı məlumat əldə etmək üçün coğrafi adları adları araşdırmaq olduqca əhəmiyyətlidir. Tədqiqata cəlb etdiyimiz ərazinin mikrotoponimlər mənzərəsi (mikrooykonimlər (məhəllə, döngə, bazar, bina, bağ, park, keçid, körpü, yol, bulvar, prospekt, xiyaban, küçə, meydan, yayla, yurd, pir, ocaq, ziyarətgah, xarabalıq, yaşayış yeri...), mikrooronimlər (kiçik dağ, dərə, təpə, daş, burun, dəhnə, gədik, eniş, yoxuş, dik, dikdir, zirvə, çala, çöl, çuxur, qobu, quzey, güney, biçənək, yer, düz, qaya, yal, yurd, tala, zəmi, yaylaq, qışlaq, xırman, kaha, dəlik, ayaq, baş, döş, taxta, ...), mikrohidronimlər (kəhriz, körfəz, bataqlıq, kiçik çay, otlaq, çəmən, gölməçə, axmaz, bulaq, arx)) ümumi şəkildə mikrotoponimik sistem əmələ gətirir. Qarabağ bölgəsində xeyli sayda mikrotoponim qeydə alınmışdır. Hansı ki onlar kiçik qrup insanlara məlumdur. Lakin onlar aktiv şəkildə işlənmədiyindən unudulmuşdur.

Açar sözlər: *Qarabağ, bölgə, Füzuli, rayon, mikrotoponim*

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, kiçik elmi işçi. Email: aysheaxmedova4@gmail.com,

Mikrotoponimlər yerli və məhəlli xarakter daşıyır və mikrotoponimlər sisteminin yaradılmasında xüsusi rola malikdir. Qarabağ bölgəsinin mikrotoponimləri məhz informatorların verdiyi məlumata əsasən toplanıla bilər və unudulmuş yer adlarının xatırlanmasına şərait yarada bilər. Vilayət Əliyevin fikrincə, "bu qrup sözlər ümumi isimlərlə xüsusi adlar arasında keçid mövqeyindədir. Bunlar elə toponimlərdir ki, çox tez dəyişikliyə uğrayır, yenisi ilə əvəz olunan, ünsiyyətdə o qədər də geniş işlənmir. Mikrotoponimlərdə coğrafi obyekt göstərilərkən ilkin lüğəvi məna mütləq nəzərdə tutulur. Sözün mənası ilə coğrafi obyektin xüsusiyyətində bir ümumilik, yaxınlıq axtarılır" [4, s.46]. Mikrotoponimlər yazılı ədəbiyyatlarda qeydə alınmır. Daha çox informatorlardan alınan məlumatlara əsasən qeydə alına bilər.

Aslan Bayramov "bu etnik kimlik nəinki yaşayış məntəqəsi adlarında, eləcə də kənd ərazilərində, əkin-biçin, maldarlıq və qoyunçuluq sahələr ilə bağlı olaraq, bütövlükdə təsərrüfat işlərində aktiv şəkildə işlənən mikrotoponimlər və mikrohidronimlərdə əks olunur. Bu qədər məhəllə, əkin-biçin sahələri, biçənək v otlaqlar, eniş-yoxuş, dağ, dərə, təpə, qayaqlıq, qumluq, arxac, ağıl, yataq, bulaq, göl, çay, arx, quyu, qoruq, yal, yamac və s. coğrafi obyektləri adlandırmaq və fərqləndirmək üçün mikrooronim, mikrohidronim və mikrooykonimlərin (məhəllə adları) rolu böyükdür. Bunların hər biri ünvandır. Bu ünvanlar olmasa, təsərrüfat işi dayanar, toplu yaşayan insanların həyat fəaliyyəti pozular" [2, s.6-7]. Ərazinin böyüklüyünə görə 2 qrupa ayrılan toponimlərin ikinci böyük qolu mikrotoponimlərdir. İlkin formalı adlar kimi bu onimlər konkret çərçivədə işlənir. Bu onimlərdə təkrar olmur. Mikrotoponimlər ictimai-siyasi və sosial-iqtisadi proseləri əks etdirir. Konkret olaraq onların birinci komponenti isim, sifət, saylarla işlənə bilir. İkinci tərəf isə müxtəlif coğrafi terminlərlə ifadə edilir.

Tofiq Əhmədov "bu qəbildən olan adlar ümumazərbaycan toponimlər sistemində geniş funkional xarakterə malik olmadıqlarından, bir qayda olaraq, ilkin formalarında işlənirlər (bunlardan çox az bir qisminin bəzən elliptik formada işlənməsinə yalnız aid olduqları konkret makro, mikro və ya elementar (ən çox) arellarda rast gəlmək olur). İlkin formada götürülmüş makrotoponimlərlə mikrooykonimlərin yaranma yolları və komponentlərinin ifadə vasitələri arasında əsaslı fərq hiss olunmur" [3, s.187].

Tünzalə Baxşıyeva "Uzaq keçmişdə baş vermiş etnik proseslər, hadisələr qabarıq şəkildə öz izlərini öz izlərini toponimlərdə də qoymuşdur. Toponimlərin mühüm olması onun makrotoponim, yaxud mikrotoponim olmasından asılı deyil. Azərbaycan toponimlərinin yaranmasında, formalaşmasında yerli və gəlmə etnoslar iştirak etmişdir" [1, s.77-81]. Bu adların daxilində tayfa, nəsil, xalq, qəbilələrin leksik elementləri qeydə alınmışdır. Mikroponimlərin tərkibində işlənən arxaik sözlərə qədim yazılı mənbələrdə, dialekt və şivələrdə rast gəlinir. Füzuli rayonunun mikrotoponim sistemində antroponimlər qeydə alınmışdır: *İbican bulağı, Nəriman bəyin bağı, Bayramalının bağı, Seyid qəbirləri yeri, Tərxanlı qışlağı, Abbas quzeyi, Süleyman dərəsi, İbə ziyarətgahı, İbə qəbristanlığı.*

İbican bulağı – Füzuli rayonunun Cuvarlı kəndində bulaq. Hidronim ibican şəxs adına bulaq sözünü artırmaqla əmələ gəlmişdir. Antropotoponimdir. Hidronim "İbicanın adı ilə bağlı olan bulaq" mənasındadır. **Nəriman bəyin bağı –** Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Bağ adı Nəriman şəxs adı, titul bildirən bəy leksik vahidi və bağ sözü əsasında yaranmışdır. Antropotoponimdir. **Bayramalının bağı –** Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Bağ adı Bayramalı şəxs adı və bağ sözü əsasında yaranmışdır. Antropotoponimdir. **Seyid qəbirləri yeri –** Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Nekronimdir. **Tərxanlı qışlağı –** füzuli rayonunun cuvarlı kəndində mikrotoponim. Qışlaq adı tərxanlı şəxs adı və qışlaq sözü əsasında yaranmışdır. Antropotoponimdir. **Abbas quzeyi –** Füzuli rayonunun Cuvarlı kəndində quzey. Oronim Abbas şəxs adına "gün düşməyən yer" mənası bildirən quzey coğrafi nomenini artırmaqla əmələ gəlmişdir. Antropotoponimdir. Toponim "Abbasın adı ilə bağlı olan quzey" mənasındadır. **Süleyman dərəsi –** Füzuli rayonunun Cuvarlı kəndində dərə. Oronim Süleyman şəxs adına "iki dağ və ya təpə arasında düzənlikdə uzun, dərin çuxur" anlamında olan dərə coğrafi nomenini artırmaqla əmələ gəlmişdir. Antropotoponimdir. Toponim "Süleymanın adı ilə bağlı olan dərə" mənasındadır. **İbə ziyarətgahı –** Füzuli rayonunun Mahmudlu kəndində mikrotoponim. Eklezionimdir. **İbə qəbiristanlığı –** Füzuli rayonunun Mahmudlu kəndində mikrotoponim. Nekronimdir.

Füzuli rayonunda zahiri görünüş və forma bildirən sözlərdən əmələ gələn mikrotoponimlər də mövcuddur: *Uzun dərə, Gödək dərə, Köndələnçay, Qaratəpə, Qızıl qaya, Malyatan yer, Qaraarxac dərəsi, Üçarmud təpəsi.*

Uzun dərə – Füzuli rayonunun Cuvarlı kəndində dərə. Oronim "geniş" mənası bildirən uzun sözü ilə, "iki dağ və ya təpə arasında düzənlikdə uzun, dərin çuxur" anlamında olan dərə sözünün birləşməsindən yaranmışdır. Zahiri görünüşünə əsasən adlandırılmışdır. **Gödək dərə** – Füzuli rayonunun Cuvarlı kəndində dərə. Oronim "qısa, uzun olmayan" mənasında işlənən gödək və "iki dağ və ya təpə arasında düzənlikdə uzun, dərin çuxur" anlamında olan dərə sözünün birləşməsindən əmələ gəlmişdir. Zahiri görünüşünə əsasən adlandırılmışdır. **Köndələnçay** – Füzuli rayonunun Mahmudlu kəndində mikrotoponim. Hidronim "əyir, tərs" mənasında işlənən köndələn sözü ilə "təbii su axını" anlamı ifadə edən çay coğrafi nomeni əsasında əmələ gəlmişdir. **Qaratəpə** – Füzuli rayonunun Cuvarlı kəndində təpə. Mikrotoponim "iri, böyük, nəhəng" mənasında işlənən qara sözünə "hündür yer, hündürlük, dik, dikdir, kiçicik dağ" mənası bildirən təpə coğrafi nomenini əlavə etməklə yaranmışdır. **Qızıl qaya** – Füzuli rayonunun Cuvarlı kəndində qaya. Oronim burada "qırmızı" mənasında işlənən qızıl sözü və "təpə, dağ, sıldırım" mənasında işlənən qaya coğrafi nomeninin birləşməsindən yaranmışdır. Qaya süxurları qızılı rəngə çaldığı üçün belə adlandırılmışdır. **Malyatan yer** – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. **Qaraarxac dərəsi** – Füzuli rayonunun Qorqan kəndində mikrotoponim. **Üçarmud təpəsi** – Füzuli rayonunun Sərdarlı əndində mikrotoponim. Saytərkibinə əsasən adlandırılmışdır. **Üçocaq yalı** – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Saytərkibinə əsasən adlandırılmışdır.

Fitonimlərdən əmələ gələn mikrotoponimlər də Qarabağ bölgəsində mövcuddur: *İncirlik, Kələsərlik, Güllü zəmi, Ufan dərəsi*.

İncirlik – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Toponim incir sözünə məkan və çoxluq mənası bildirən -lıq şəkilçisi artırmaqla yaranmışdır. Fitotoponimdir. **Kələsərlik** – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Toponim kələsər bitki adına məkan və çoxluq mənası bildirən -lıq şəkilçisi artırmaqla yaranmışdır. Fitotoponimdir. **Güllü zəmi** – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Toponim gül bitki adı, –lü şəkilçisi və "əkin yeri, tarla" mənası bildirən zəmi coğrafi nomenini artırmaqla əmələ gəlmişdir. Fitotoponimdir. **Ufan dərəsi** – Füzuli rayonunun Cuvarlı kəndində dərə. Oronim kolluq, tikanlıq ərazidə olduğuna görə belə adlandırılmışdır.

Etnonimdən əmələ gələn mikrotoponimlərə *Cuvarlı kəhrizi, Mahmudlu ferması, Mövlüşlülər məhləsi, Təzəhçilər məhləsi, Axullu yalını* qeyd etmək olar.

Cuvarlı kəhrizi – Füzuli rayonunun Cuvarlı kəndində kəhriz. Hidronim Cuvarlı tayfa adına "yeraltı su yolu" anlamı bildirən kəhriz coğrafi nomeni əlavə etməklə yaranmışdır. Etnohidronimdir. **Mövlüşlülər məhləsi** – Füzuli rayonunun Əhmədalılar kəndində mikrotoponim. Urbanonim Mövlüşlülər tayfa adına məhlə sözünü artırmaqla əmələ gəlmişdir. Etnotoponimdir. **Təzəhçilər məhləsi** – Füzuli rayonunun Əhmədalılar kəndində mikrotoponim. Urbanonim təzəhçilər tayfa adına məhlə sözünü artırmaqla əmələ gəlmişdir. Etnotoponimdir. **Mahmudlu ferması** – Füzuli rayonunun Mahmudlu kəndində mikrotoponim. **Axullu yalı** – Füzuli şəhərində mikrotoponim. Oronim axullu tayfa adına məhlə sözünü artırmaqla əmələ gəlmişdir. Etnotoponimdir.

Zoonimdən əmələ gələn mikrotoponimə *Qurdluq bulaq* onimi aiddir. **Qurdlu bulaq** – Füzuli rayonunun Cuvarlı kəndində bulaq. Hidronim suda xırda qurdlar çox olduğuna görə bu şəkildə adlandırılmışdır. Zootoponimdir.

Oronimlərdən əmələ gələn mikrotoponimlər də Qarabağ bölgəsində qeydə alınmışdır: *Daşlı burun, Uçuq, Çaxnaq, Quruçay, Qapı quyusu, Qobu üstü məhləsi*.

Daşlı burun – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Yer adı daş sözü, çoxluq mənası bildirən –lı şəkilçisi və "qurunun, dənizin içərisinə doğru olan daşlıq, qayalıq çıxıntısı" anlamı ifadə edən burun coğrafi nomeni əsasında yaranmışdır. **Uçuq** – Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Dağın dik hissəsində olan çala yer Uçuq adlandırılmışdır. **Çaxnaq**– Füzuli rayonunun Cuvarlı kəndində mikrotoponim. Mənası məlum deyildir. **Quruçay** – Füzuli rayonunun Mahmudlu kəndində mikrotoponim. Hidronim "susuz" mənasında işlənən quru sözü ilə "təbii su axını" anlamı ifadə edən çay coğrafi nomeni əsasında əmələ gəlmişdir. **Qapı quyusu** – Füzuli rayonunun Mahmudlu kəndində mikrotoponim. **Qobu üstü məhləsi** – Füzuli rayonunun Əhmədalılar kəndində mikrotoponim.

Füzuli rayonunda müəyyən səbəblərdən adlandırılan mikrotoponimlər də mövcuddur: *Cinli qobu, Yelli gədik, Qurultay su arxı.*

Cinli qobu – Füzuli rayonunun Əhmədalılar kəndində mikrotoponim. **Yelli gədik –** Füzuli rayonunun Əhmədalılar kəndində mikrotoponim. Oronim "küləkli, külək tutan yer" mənasında olan yelli sözünə "Dağın beli, aşırım" anlamında olan gədik coğrafi terminini artırmaqla əmələ gəlmişdir. **Qurultay su arxı –** Füzuli rayonunun Əhmədalılar kəndində mikrotoponim.

Məqalədə Qarabağ bölgəsinin Füzuli rayonu ərazisində mövcud olan mikrotoponimlər araşdırılmış, linqvistik aspektdən tədqiqata cəlb edilmişdir. Füzuli rayonunda xeyli sayda mikrotoponimə rast gəlinir. Bu onimlər haqqında bəzi məqalələr, tədqiqat işləri olsa da, ərazinin mikrotoponimləri ətraflı şəkildə tədqiq olunmamışdır. Ona görə də, Qarabağ bölgəsinin mikrotoponimlər (mikrooykonimlər (məhəllə, döngə, bazar, bina, bağ, park, keçid, körpü, yol, bulvar, prospekt, xiyaban, küçə, meydan, yayla, yurd, pir, ocaq, ziyarətgah, xarabalıq, yaşayış yeri...), mikrooronimlər (kiçik dağ, dərə, təpə, daş, burun, dəhnə, gədik, eniş, yoxuş, dik, dikdir, zirvə, çala, çöl, çuxur, qobu, quzey, güney, biçənək, yer, düz, qaya, yal, yurd, tala, zəmi, yaylaq, qışlaq, xırman, kaha, dəlik, ayaq, baş, döş, taxta, ...), mikrohidronimlər (kəhriz, körfəz, bataqlıq, kiçik çay, otlaq, çəmən, gölməçə, axmaz, bulaq, arx) sisteminin yaradılması olduqca əhəmiyyətli addımlardandır.

ƏDƏBİYYAT

1. Baxşıyeva T. Azərbaycan qədim toponimləri. Filologiya məsələləri №8, Elm və təhsil, 2013, 435 s, s.77-81.
2. Bayramov A. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel, Pəmbək və ona bölgələrin mikrotoponimləri. Bakı, Zəka print, 2024, 194 s.
3. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı, Bakı Universiteti, 1991, 317 s.
4. Əliyev V. Azərbaycan toponimiyası. Bakı, 1999, 278 s.

РЕЗЮМЕ

Микротонимы — это древнейшие микротопонимические единицы, являющиеся источником информации, отражающей флору и фауну территории, к которой они относятся, а также народы, племена и поколения в речи народов, живших в исторические периоды. Как известно, микротопонимы отражают историческое прошлое, вчера, сегодня, а также процесс миграции населения с одного места на другое. Изучение географических названий имеет большое значение для получения подробной информации о Карабахском регионе. Микротопонимический ландшафт исследуемой нами территории (микроойконимы (район, угол, рынок, здание, сад, парк, проход, мост, дорога, бульвар, проспект, переулок, улица, площадь, плато, родина, пир, очаг, святилище, руины, жилище...), микрооронимы (маленькая гора, долина, холм, камень, мыс, дехна, гедик, спуск, подъем, крутой, крутой, вершина, чал, пустыня, яма, гобю, север, юг, сенокос, земля, равнина, скала, хребет, родина, поляна, земля, летний домик, зимний домик, молотильная площадка, каха, яма, нога, голова, грудь, грудь, ...), микрогидронимы (кехриз, залив, болото, малая река, пастбище, луг, пруд, ахмаз, источник, ковчег)) в целом образует микротопонимическую систему. В Карабахском регионе зафиксировано большое количество микротопонимов. Эти термины известны лишь небольшой группе людей. Но о них забыли, потому что они не используются активно.

Ключевые слова: Карабах, регион, Физули, район, микротопоним

SUMMARY

Microtoponyms are the oldest microtoponymic units that are a source of information reflecting the flora and fauna of the territory they belong to, the people, tribes, and generations in the speech of peoples who lived during historical periods. As is known, microtoponyms reflect the historical past, yesterday, today, and the process of migration of the population from one place to another. It is very important to study geographical names to obtain detailed information about the Karabakh region. The microtoponymic landscape of the area we studied (microoikonyms (neighborhood, corner, market, building, garden, park, passage, bridge, road, boulevard, avenue, alley, street, square, plateau, homeland, pir, hearth, sanctuary, ruin, dwelling place...), microoronyms (small mountain, valley, hill, stone, cape, dehna, gedik, descent, ascent, steep, steep, peak, chal, desert, hole, gobu, north, south, hayfield, earth, plain, rock, ridge, homeland,

glade, land, summer cottage, winter cottage, threshing floor, kaha, hole, foot, head, chest, chest, ...), microhydronyms (kehriz, gulf, swamp, small river, pasture, meadow, pond, akhmaz, spring, ark)) generally forms a microtoponymic system. A large number of microtoponyms have been recorded in the Karabakh region. Which are known to a small group of people. But they have been forgotten because they are not actively used.

Keywords: Karabakh, region, Fuzuli, district, microtoponym

Fatimə FƏTULLAYEVA *

BİRİNCİ TÜRKOLOJİ QURULTAY PRİZMASINDA YENİ ƏLİFBA İSLAHATI

XÜLASƏ

Məqalədə Birinci Türkoloji Qurultayın əlifba islahatı sahəsində elmi və tarixi rolu, habelə bu qərarların Azərbaycan yazı sisteminin inkişafına təsiri təhlil olunur. Qurultayda ərəb qrafikalı əlifbanın türk dillərinin fonetik quruluşuna uyğun gəlmədiyi elmi faktlarla əsaslandırılmış, latın qrafikalı yeni əlifbaya keçid ideyası əsaslı şəkildə irəli sürülmüşdür. Qəbul edilən qərarlar Azərbaycan əlifbasının fonetik prinsip əsasında yenidən qurulmasına, yazı ilə tələffüz arasında uyğunluğun təmin edilməsinə və orfoqrafik normaların formalaşmasına şərait yaratmışdır. Yeni əlifbaya keçid maarifçilik prosesinin güclənməsinə, savadlılıq səviyyəsinin yüksəlməsinə və Azərbaycan dilinin ictimai funksiyalarının genişlənməsinə mühüm təsir göstərmişdir. Qurultayın əlifba sahəsində müəyyən etdiyi elmi prinsiplər müasir Azərbaycan latın qrafikalı əlifbasının formalaşmasında metodoloji əsas kimi dəyərləndirilir.

Açar sözlər: *dil problemləri, yazı sistemi, latın qrafikası, maarifçilik, dil siyasəti, fonetik prinsip, imla.*

XX əsrin əvvəlləri türk xalqlarının ictimai-siyasi və mədəni həyatında dərin dəyişikliklərin baş verdiyi mühüm bir mərhələ kimi xarakterizə olunur. Bu dövrdə milli özünüdərk prosesinin güclənməsi, elmin və təhsilin inkişafına artan ehtiyac, eyni zamanda dil problemlərinin aktuallaşması yazı sistemi və əlifba məsələlərini ön plana çıxarmışdır. Türk dillərinin fonetik xüsusiyyətlərinə tam uyğun gəlməyən ərəb qrafikalı əlifbanın istifadəsi oxu və yazı bacarıqlarının geniş yayılmasına mane olmuş, dilin funksional imkanlarını məhdudlaşdırmışdır. Məhz bu tarixi şəraitdə türk xalqlarının dil, yazı və mədəni inkişaf problemlərinin elmi əsaslarla müzakirə edilməsi zərurəti meydana çıxmışdır. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türkoloji elmin inkişafında mühüm hadisə olmaqla yanaşı, əlifba islahatı məsələsinin sistemli şəkildə gündəmə gətirildiyi ilk beynəlxalq elmi platforma kimi xüsusi əhəmiyyət kəsb edir. Qurultayda dil quruculuğu, terminologiya və yazı sistemi məsələləri ilə yanaşı, yeni əlifba ideyası türk xalqlarının mədəni tərəqqisi üçün əsas şərtlərdən biri kimi qiymətləndirilmişdir. Qurultay çərçivəsində aparılan müzakirələrdə əlifbanın yalnız texniki yazı vasitəsi olmadığı, eyni zamanda xalqın maarifləndirilməsi, mədəni səviyyəsinin yüksəldilməsi və elmi tərəqqisinin təmin edilməsində mühüm rol oynadığı vurğulanmışdır. Xüsusilə türk dillərinin fonetik quruluşuna uyğun, sadə və funksional yazı sisteminin yaradılması ideyası Qurultayın əsas elmi istiqamətlərindən biri kimi formalaşmışdır. Bu baxımdan Birinci Türkoloji Qurultay çərçivəsində yeni əlifba islahatı məsələsinin Azərbaycan yazı sisteminə təsiri xüsusi elmi maraq doğurur.

Birinci Türkoloji Qurultayda əlifba məsələsi dil quruculuğunun əsas problemlərindən biri kimi elmi müstəvidə müzakirə edilmişdir. R.Məhərrəmova bu məqsədlə yazırdı ki, Sovet hakimiyyəti qurulduqdan sonra ədəbi dilin yazısında əsaslı dəyişiklik etmək, ədəbi dilin yeni əlifbasını düzəltmək, yazıdan ərəb əlifbasını çıxarmaq Azərbaycan ictimai fikri qarşısında çox mühüm bir məsələ kimi durdu. 1920-1929-cu

* Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu,Müasir Azərbaycan dili şöbəsi, elmi işçi.

illərdə ədəbi dilin digər məsələlərinə nisbətən əlifba məsələsi çox müzakirə edilmişdir [4, 8]. Qurultay iştirakçıları mövcud yazı sistemlərinin türk dillərinin struktur xüsusiyyətlərini tam əks etdirmədiyini əsaslandıraraq, yazı ilə tələffüz arasında yaranan uyğunsuzluqları konkret dil faktları əsasında təhlil etmişlər. Xüsusilə ərəb qrafikalı əlifbanın çoxmənalı işarə sistemi türk dillərində səslərin dəqiq ifadəsini çətinləşdirən amil kimi qiymətləndirilmişdir. Yazı sistemindəki qeyri-müəyyənliklərin oxu və yazı vərdişlərinin formalaşmasını ləngitdiyi, bunun isə dilin funksional imkanlarının genişlənməsinə mane olduğu qeyd edilmişdir. Ərəb əlifbasının fonetik çatışmazlıqları uzun müddət müzakirələrin əsas mövzusu olmuşdur və bu, əlifba islahatlarının zəruriliyini gündəmə gətirmişdir. "Ərəb əlifbasında saitləri ifadə edən hərflərin yoxluğu uzun müddət mübahisələrə səbəb olmuşdur. Ancaq islam dininin,

"Qurani-kərim"in əlifbası kimi qiymətləndirildiyi üçün ərəb əlifbası XX əsrə qədər, demək olar ki, heç bir islahata məruz qalmamışdır" [3, 18]. Bu baxımdan Qurultayda əlifba məsələsi yalnız texniki problem kimi deyil, dilin elmi əsaslarla inkişafını təmin edən strateji məsələ kimi dəyərləndirilmişdir. "Ərəb əlifbasının mövcud real və ehtimal olunan çatışmazlıqları nəzərə alınaraq, bir sıra tədqiqatçılar belə qənaətə gəlmişlər ki, dörd formaya malik olan ənənəvi ərəb hərfləri müasir mədəni və dil ehtiyaclarını tam şəkildə ödəmək qabiliyyətində deyildir. Bu vəziyyət ərəb şriftinin ya köklü şəkildə islah olunması, ya da latın qrafikası ilə əvəzlənməsi məsələsini gündəmə gətirmişdir. Müzakirə olunan mövqelərdən biri ərəb şriftinin islahatını müdafiə edir və bu islahatın yazının sağdan sola istiqamətini qorumaqla, lakin qrafik baxımdan ərəb hərflərini latın və ya rus hərflərinə yaxınlaşdırmaq yolu ilə həyata keçirilməsini təklif edir. Bu çərçivədə böyük və kiçik hərflərin tətbiqi, keçmiş ərəb hərflərinin əvvəlki formalarının ya dəyişdirilmədən, ya da minimal dəyişikliklə vahid forma kimi qəbul edilməsi, sözün əvvəlində və ortasında işlənən formaların ixtisara salınması, son formaların isə ayrı-ayrı hərflərlə əvəz edilməsi kimi texniki tədbirlər nəzərdə tutulur" [6, 2]. Qurultay iştirakçıları əlifbanın yalnız texniki yazı vasitəsi olmadığını, eyni zamanda xalqın mədəni inkişaf səviyyəsini, elmi potensialını və ictimai tərəqqisini müəyyənləşdirən mühüm amillərdən biri olduğunu qeyd etmişlər. Əlifba məsələsinin Qurultayda nə qədər geniş müzakirə olunduğunu professor Tofiq Hacıyev belə təsvir edir: "Maraqlıdır: türk xalqlarının tarixi, mədəniyyəti, maarifi ilə bağlı zəngin problemlər proqramı olan Birinci Türkoloji Qurultay adətən ən çox dil məsələləri ilə xatırlanır. Bu, birinci növbədə, qurultayda qoyulmuş dil məsələlərinin həcmi ilə bağlıdır. Qurultayın 17 iclasından 13-ü dil məsələlərinə həsr olunmuşdur.

Bunların da içərisində 5 iclasda ancaq əlifba məsələsi müzakirə olundu. Əlbəttə, bu təsadüfi deyil dil məsələləri, bütün nəzəri çıxışları və elmi səviyyəsi ilə yanaşı təcrübi səciyyə daşıyırdı, gözlə görünən və praktiki-kütləvi rezonansı olan məsələlər idi: türk dillərinin, imla, termin, əlifba məsələləri, türk ədəbi dili və ana dilinin tədrisi mövzuları. Məsələnin başqa tərəfi də var: bütün elmi-mədəni mahiyyəti ilə yanaşı, qurultayın gündəliyi o vaxtkı Sovet dövlətini, birinci növbədə, siyası məzmunu ilə maraqlandırırdı" [1, 18]. Bu baxımdan əlifba məsələsi maarifçilik ideyaları, ümumi savadlılıq səviyyəsinin yüksəldilməsi və elmi biliklərin geniş kütlələr arasında yayılması ilə birbaşa əlaqələndirilmişdir. Aparılan müzakirələr göstərmişdir ki, mövcud yazı sistemi türk xalqlarının geniş kütlələrinin təhsilə cəlb olunmasına ciddi maneələr yaradır, tədris prosesinin səmərəliliyini azaldır və dilin funksional imkanlarını məhdudlaşdırır. Eyni zamanda Qurultayda əlifba məsələsinin yalnız milli çərçivədə deyil, ümumtürk kontekstində nəzərdən keçirilməsi zərurəti irəli sürülmüşdür. Türk dilləri arasında fonetik yaxınlıq və struktur oxşarlıqlar nəzərə alınaraq ortaq prinsiplər əsasında əlifba quruculuğunun mümkünlüyü müzakirə olunmuşdur.

Professor Nadir Məmmədli bu barədə qeyd edir ki, I Türkoloji Qurultay latın sisteminin türk dillərinə tətbiqində Azərbaycan Respublikasının gördüyü möhtəşəm işi təqdir edərək və təcrübəsinə əsaslanaraq, bütün türk dilləri, ən azı, onlardan indiyədək ərəb sistemindən istifadə edənlər üçün vahid qrafika müəyyənləşdirilməsini təklif etmişdir [5, 118]. Bu yanaşma əlifba islahatının ayrı-ayrı xalqlar üçün deyil, bütövlükdə türk dünyasının elmi və mədəni inteqrasiyası baxımından əhəmiyyətini ön plana çıxarmışdır. "Yeni latın qrafikalı əlifbaya keçid, heç şübhəsiz, Azərbaycan xalqının maariflənməsində, müasir dünya ilə əlaqələrinin genişlənməsində mühüm hadisə idi. Bu hadisəni milli ziyalılar da müsbət hal kimi qiymətləndirmişlər" [5, 118]. Azərbaycan ziyalıları Qurultayda əlifba məsələsinə xüsusi həssaslıqla yanaşmış, yeni yazı sisteminə keçidin milli mədəniyyətin inkişafı, təhsilin kütləviləşməsi və dilin elmi əsaslarla inkişafı üçün zəruri olduğunu əsaslandırmışlar. Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə

uyğun, sadə və funksional əlifbanın yaradılması ideyası məhz bu müzakirələr fonunda daha aydın şəkildə formalaşmışdır. Beləliklə, Birinci Türkoloji Qurultay əlifba problemini lokal məsələ çərçivəsindən çıxararaq ümumtürk miqyaslı elmi problem səviyyəsinə yüksəltmiş, sonrakı əlifba islahatları üçün möhkəm elmi zəmin yaratmışdır.

Birinci Türkoloji Qurultay çərçivəsində yeni əlifba islahatı ideyası türk dillərinin fonetik xüsusiyyətlərini nəzərə alan yazı sistemi yaratmaq ehtiyacından irəli gəlmişdir. Qurultay iştirakçıları vurğulamışdılar ki, əlifbanın hər bir səsi dəqiq əks etdirməsi yazının elmi dəqiqliyi və dilin inkişafı üçün vacibdir. Bu məqsəd doğrultusunda hər fonemin müstəqil qrafik işarə ilə ifadə olunması və səs–işarə münasibətlərində sabitliyin təmin olunması əsas prinsiplərdən biri kimi müəyyənləşdirilmişdir. Oxu və yazı prosesini çətinləşdirən ərəb əlifbasının türk dillərinə uyğun olmaması, savadsızlığın geniş yayılması və elmi tərəqqinin geriləməsi kimi problemləri daha da aktuallaşdırmışdır. Azərbaycanda bu məsələyə ilk olaraq diqqət yetirən Mirzə Fətəli Axundov ərəb əlifbasının islahı istiqamətində uzun müddət fəaliyyət göstərmiş və yazı sistemində dəyişikliklərin zəruriliyini əsaslandırmışdır. "Modern çağda bu problemi ilk dəfə qaldıran və təcrubi olaraq gerçəkləşdirən Mirzə Fətəli Axundzadə olmuşdur. İsmayıl bəy Qaspiralının, Üzeyir bəy Hacıbəylinin, Cəlil Məmmədquluzadənin, Məhəmməd Şahtaxtiniskinin, Firudin bəy Köçərlinin, Əlimərdan bəy Topçubaşlının, Abdulla Şaiqin, Vəli Xüluflunun maarifçilik, cədidçilik fəaliyyətlərində əlifba, ana dili və onun tədrisi problemi ön sırada olmuşdur" [7, 6]. Ərəb əlifbasının türk dilinə uyğun gəlməməsi və cəmiyyətin tərəqqisinə mane olması barədə B. Xəlilov da qeyd edirdi: "Məlumdur ki, əlifbamızda ərəbçilik cəhalət yaratmış, dilimizdə, imlamızda müxtəlif çətinlikləri meydana çıxarmışdır" [2, 346-346].

Yeni əlifba axtarışları çərçivəsində latın qrafikalı yazı sistemi elmi və praktiki üstünlüklərinə görə diqqət mərkəzinə çəkilmişdir. Qurultayda latın qrafikasının sadə və funksional quruluşa malik olması, qrafik işarələrin texniki vasitələrlə asan tətbiq olunması və mətbəə işinə uyğunluğu xüsusi qeyd edilmişdir. Bununla yanaşı, latın qrafikasının beynəlxalq elmi mühitdə geniş istifadə olunması yeni əlifbanın elm və mədəniyyət sahəsində əlaqələrin genişlənməsinə töhfə verə biləcəyi baxımından mühüm amil kimi dəyərləndirilmişdir. Paralel olaraq, Azərbaycan mütəfəkkiri Əli Turanın qeydlərinə görə, Qurultayda ortaq əlifba və ortaq ədəbi dil məsələləri ətrafında da müzakirələr aparılmışdır. Türk xalqlarının ümumi əlifbası ilə bağlı məsələni işıqlandıran Əli bəy Hüseynzadə konqresdə ərəb, kiril və latın hərfləri ətrafında aparılan müzakirələrdə latın əlifbasına daha çox üstünlük verildiyini qeyd etmişdir [8, 23]. Bu xüsusiyyətlər latın qrafikasını yalnız alternativ yazı sistemi deyil, müasir elmi düşüncəyə uyğun model kimi ön plana çıxarmışdır. Azərbaycan dilinin fonetik sistemi yeni əlifba islahatı ideyasının əsaslandırılmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Qurultayda Azərbaycan dilində sait səslərin zənginliyi, samitlərin artikulyasiya müxtəlifliyi və fonoloji fərqlərin yazıda aydın şəkildə ifadə olunmasının vacibliyi qeyd edilmişdir. Mövcud yazı sisteminin bu xüsusiyyətləri tam əks etdirməməsi Azərbaycan dili üçün daha uyğun və funksional əlifbanın yaradılmasını zəruri etmişdir. Bu baxımdan yeni əlifba ideyası dilin real fonetik strukturuna söykənən yazı modelinin qurulması kimi əsaslandırılmışdır.

Beləliklə, Birinci Türkoloji Qurultayda yeni əlifba islahatı ideyası təsadüfi təşəbbüs deyil, dilin fonetik, fonoloji və funksional xüsusiyyətlərinin elmi təhlili nəticəsində formalaşmış məqsədyönlü konsepsiya kimi meydana çıxmışdır. Bu konsepsiya sonrakı dövrdə Azərbaycan əlifbasının yaradılması və təkmilləşdirilməsi prosesində metodoloji əsas rolunu oynamış, yazı sisteminin modernləşdirilməsinə istiqamət vermişdir.

Birinci Türkoloji Qurultayda qəbul edilən qərarlar Azərbaycan əlifbasının modernləşdirilməsi və inkişafında həlledici rol oynamışdır. Qurultayda müzakirə olunan prinsiplər, xüsusilə latın qrafikasına keçidin elmi əsaslarla müdafiəsi, Azərbaycan yazı sisteminin yenidən qurulması və fonetik prinsiplərə uyğunlaşdırılması üçün metodoloji zəmin yaratmışdır. Qurultay qərarları nəticəsində Azərbaycan dilində latın qrafikasına əsaslanan yeni əlifbanın tətbiqi prosesi sürətlənmişdir. Bu əlifba yazı ilə tələffüz arasındakı uyğunsuzluqları aradan qaldırmaq, oxu və yazı öyrənilməsini asanlaşdırmaq və savadlılığı artırmaq məqsədini daşıyırdı. Türkoloji Qurultayda əsas diqqət, ərəb əlifbasından çıxaraq türk dillərinə uyğun yazı sisteminə keçid məsələsinə yönəlmiş, ərəb əlifbasında müəyyən islahatların aparılması təklifi də

müzakirəyə çıxarılmışdı. Nəticədə Qurultayda iştirakçılarının səs çoxluğu ilə latın qrafikalı yeni əlifbaya keçid qərarı qəbul edildi. "Yeni türk (latın) əlifbasının ərəb əlifbası və islah olunmuş ərəb əlifbaları üzərində üstünlünlüklərini və texniki üstünlüyünü, həmçinin yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə nəhəng mədəni-tarixi və mütərəqqi əhəmiyyətini qeyd edən Qurultay, yeni əlifbanın qəbulunu və onun ayrı-ayrı türk-tatar respublikaları və vilayətlərində həyata keçirilmə üsullarını hər bir respublikanın və hər bir xalqın öz işi sayır" [7, 424]. Yeni latın qrafikalı Azərbaycan əlifbası dilin fonetik xüsusiyyətlərini dəqiq əks etdirmək üçün hazırlanmış, hər bir səsin müstəqil qrafik işarə ilə ifadə olunması prinsipi əsas götürülmüşdür. Bu yanaşma həm yazının elmi dəqiqliyini təmin etmiş, həm də dilin struktur xüsusiyyətlərinin yazıda düzgün əks olunmasına xidmət etmişdir. Qurultay qərarları Azərbaycan dilinin normallaşması və standartlaşması prosesinə də təkan vermişdir. Latın qrafikalı əlifbanın tətbiqi ilə orfoqrafiya qaydaları formalaşdırılmış, yazı normaları sabitləşdirilmiş və terminoloji sistemin tənzimlənməsi istiqamətində mühüm addımlar atılmışdır.

1922-ci ildən etibarən Azərbaycan yazısında ərəb əlifbası ilə yanaşı latın qrafikalı yeni əlifba da istifadəyə verilmiş, mətbuatda yeni əlifba ilə yazılar dərc olunmuş, kitablar buraxılmış və məktəb və savad kurslarında tədris materialı kimi tətbiq edilmişdir. Bu dövrdə yeni əlifbanın sadə və sistemli quruluşu oxu və yazı bacarıqlarının mənimsənilməsini asanlaşdırmış, təhsil imkanlarını geniş kütlələr üçün əlçatan etmişdir. Məktəb təhsilinin inkişafı, dərslik və tədris vəsaitlərinin hazırlanması ilə yanaşı, elmi və bədii ədəbiyyatın daha geniş yayılmasına şərait yaratmışdır. Latın qrafikalı əlifbanın tətbiqi həmçinin Azərbaycan cəmiyyətində savadlılıq səviyyəsinin yüksəlməsinə mühüm təsir göstərmişdir. Yazı sistemi yalnız maarif və təhsil sahəsi ilə məhdudlaşmamış, elmi, publisistik və inzibati ünsiyyət vasitəsi kimi də geniş istifadə olunmuşdur. Mətbuatın inkişafı, elmi məqalələrin və rəsmi sənədlərin hazırlanması yeni yazı sisteminin praktik imkanlarının genişlənməsinə xidmət etmişdir. Beləliklə, Birinci Türkoloji Qurultayın əlifba məsələsinə dair qərarları Azərbaycan latın qrafikalı əlifbasının formalaşmasında uzunmüddətli təsirə malik olmuş, yazı sisteminin modernləşdirilməsinə, dilin fonetik quruluşuna uyğunlaşdırılmasına və ictimai funksiyalarının genişlənməsinə zəmin yaratmışdır. Qurultay qərarları Azərbaycan əlifbasının inkişaf tarixində fundamental mərhələ kimi xüsusi yer tutur və sonrakı dövrlərdə aparılan islahatlar üçün metodoloji istiqamətverici qaynaq rolunu oynamışdır.

Birinci Türkoloji Qurultay türk dünyasında əlifba islahatı məsələsinin ilk dəfə sistemli, elmi və ümumtürk miqyaslı şəkildə müzakirə edildiyi mühüm tarixi hadisə kimi qiymətləndirilməlidir. Qurultayda irəli sürülən ideyalar yazı sisteminə münasibətdə yeni elmi yanaşmanın formalaşmasına səbəb olmuş, əlifbanın dilin fonetik quruluşuna uyğunluğu məsələsini dil siyasətinin əsas prinsiplərindən birinə çevirmişdir. Bu baxımdan Qurultay yalnız konkret dövr üçün deyil, sonrakı mərhələlər üçün də istiqamətverici elmi platforma rolunu oynamışdır. Qurultay çərçivəsində yeni əlifba islahatı ideyasının formalaşması Azərbaycan əlifbasının modernləşdirilməsi prosesinə birbaşa təsir göstərmişdir. Latın qrafikalı əlifbaya keçid dilin səslənmə xüsusiyyətlərini yazıda daha dəqiq ifadə etməyə imkan yaratmış, yazı ilə tələffüz arasında uzun müddət mövcud olmuş uyğunsuzluqları aradan qaldırmışdır. Bu proses Azərbaycan dilinin normallaşması, standartlaşması və yazı sisteminin elmi əsaslar üzərində qurulması baxımından mühüm mərhələ olmuşdur. Yeni əlifba islahatı Azərbaycan cəmiyyətində ümumi savadlılıq səviyyəsinin yüksəlməsinə, təhsilin kütləviləşməsinə və yazılı ünsiyyətin genişlənməsinə əlverişli şərait yaratmışdır. Yazı sisteminin sadələşdirilməsi oxu və yazı bacarıqlarının mənimsənilməsini asanlaşdırmış, dilin ictimai funksiyalarının genişlənməsinə təkan vermişdir. Azərbaycan dili bu dövrdə elmi, publisistik və bədii üslublarda daha fəal şəkildə istifadə olunaraq milli mədəniyyətin əsas daşıyıcılarından birinə çevrilmişdir. Birinci Türkoloji Qurultayın əlifba sahəsində müəyyən etdiyi elmi prinsiplər müasir dövrdə də öz aktuallığını qoruyur.

Müasir Azərbaycan əlifbası bu prinsiplərin davamı və inkişafı kimi qiymətləndirilə bilər. Fonetik prinsipə əsaslanan yazı sistemi bu gün də dilin funksional imkanlarının qorunması və inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu mənada Qurultayın irsi yalnız tarixi hadisə kimi deyil, həm də müasir dilçilik üçün mühüm metodoloji baza kimi dəyərləndirilməlidir.

Nəticə etibarilə, Birinci Türkoloji Qurultay Azərbaycan yazı sisteminin modernləşdirilməsi prosesində həlledici rol oynamış, əlifba islahatı sahəsində elmi düşüncənin formalaşmasına güclü təsir göstərmişdir. Qurultayın 100 illik elmi irsi bu gün də dil siyasəti, əlifba quruculuğu və ümumtürk dil əlaqələrinin tədqiqi baxımından aktual olaraq qalır və gələcək dilçilik araşdırmaları üçün zəngin elmi mənbə rolunu oynayır.

ƏDƏBİYYAT

1. Hacıyev T. Birinci Türkoloji Qurultayda dil məsələləri. Bakı: BDU-nun "Bakı Universiteti Xəbərləri" elmi jurnalı, 2006, № 2, s. 18-26.
2. Xəlilov B. Türkologiyaya Giriş. Bakı: Nurlan nəşriyyatı, 2006, s. 195.
3. İbrahimov E. Türk Xalqlarının Ortaq Əlifba, İmla Və Ünsiyyət Dili. Bakı: Mütərcim, 2017, s. 184.
4. Məhərrəmova R.C. Sovet dövründə Azərbaycan ədəbi dilinin əlifba, orfoqrafiya və terminologiya məsələləri. Azərbaycan ədəbi dili tarixi (Sovet dövrü). III cild. Bakı: Elm, 1982, s. 123.
5. Məmmədli N. Azərbaycan dili və nitq mədəniyyəti. I cild. Bakı: Elm və təhsil, 2020, s. 528.
6. Məmmədli N. Türk xalqları hansı əlifbanı seçməlidir. Xalq. 2026. 23 yanvar. s. 3.
7. Nərimanoğlu K. Ağakişiyev Ə. 1926-cı il I Bakı Türkoloji Qurultayı. Bakı: Çinar-Çap, 2006, s. 570.
8. Ülken Hilmi Ziya. Türkçülüğün ve Türk Sosyalizminin babası Ali Turan (II). Yeni İnsan Dergisi, 1970, C. I, S. 85, s. 6-11; 23-28.

АННОТАЦИЯ

В статье анализируется научная и историческая роль Первого тюркологического съезда в реформе алфавита и его влияние на развитие азербайджанской письменной системы. На съезде была научно обоснована несоответствие арабского алфавита фонетическим особенностям тюркских языков и выдвинута идея перехода на новый алфавит на основе латинской графики. Принятые решения способствовали перестройке азербайджанского алфавита на фонетических принципах, формированию орфографических норм и устранению расхождений между письмом и произношением. Переход на латинскую графику сыграл важную роль в развитии просвещения, повышении уровня грамотности и расширении общественных функций азербайджанского языка. Научные принципы, сформулированные на съезде, сохраняют методологическое значение и в современном языкознании.

Ключевые слова: *языковые проблемы, письменная система, латинская графика, просветительство, языковая политика, фонетический принцип, орфография*

ABSTRACT.

The article examines the scientific and historical role of the First Turkological Congress in alphabet reform and its impact on the development of the Azerbaijani writing system.The Congress provided a scholarly critique of the Arabic script's inadequacy for the phonetic structure of Turkic languages and promoted the adoption of a new Latin-based alphabet. The decisions taken contributed to restructuring the Azerbaijani alphabet in accordance with phonetic principles, establishing orthographic norms, and reducing discrepancies between spelling and pronunciation. The transition to the Latin script played a significant role in advancing education, increasing literacy, and expanding the social functions of the Azerbaijani language. The principles formulated at the Congress continue to serve as a methodological foundation for modern Azerbaijani linguistics.

Keywords: *language problems, writing system, Latin script, enlightenment, language policy, phonetic principle, orthography*

Minaxanım NURİYEVA TƏKLƏLİ*

I TÜRKOLOJİ QURULTAYIN ÇAĞIRIŞLARI: "I SOVET-TÜRK KOLLOKVİUMU"

XÜLASƏ

I Türkoloji qurultayın qəbul etdiyi qərarları həyata keçirmək kimi zəruri vəzifələri öhdəsinə götürmüş Dədə Qorqud adına Kollokviumda Türk xalqlarının milli-mənəvi varlığının ən aktual problemləri əhatə olunmuş və konkret təkliflər irəli sürülmüş, mühüm qərarlar qəbul edilmiş, əməli-nəzəri həllini tapmışdır. Kollokviumların gedişində dövrün türkologiya elmi üçün olduqca aktual və əhəmiyyətli sayılan ortaq əlifba, orfoqrafiya, terminologiya, türk xalqlarının etnoqrafiyası, türk dillərinin mənşəyi, öyrənilmə vəziyyəti və tədrisi, türk xalqlarının ədəbi dilinin inkişafı, ədəbiyyati və mədəniyyəti kimi problemlər müzakirəyə çıxarılmışdı. Ümumiyyətlə, türkoloji problemlərin beynəlxalq miqyasda bütün genişliyi ilə öyrənilib inkişaf etdirilməsi baxımından Türk kollokviumlarının müzakirələri və direktivləri xüsusi əhəmiyyətə malikdir.

Açar sözlər: *kollekvium, I Türkoloji qurultayı, türkologiya, əlifba, Bakı*

Dövrünün möhtəşəm elmi-mədəni hadisəsi olan Türkoloji Qurultayın əhəmiyyəti və Türk xalqlarının mədəni həyatında rolu başlıca olaraq qurultayda ədəbiyyat, tarix, folklor, etnoqrafiya və digər məsələlərin geniş mənada türkoloji baxışın tərkib hissələri kimi təqdim olunmasında idi. Bu mənada birinci Türkoloji Qurultay türk xalqlarının mədəni birliyində, həmçinin milli mənəvi birliyinin formalaşmasında çox böyük əhəmiyyətə malik olan tarixi hadisə olma dəyərini həmişə daşımaqdadır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Birinci Türkoloji Qurultaya dövlət səviyyəsində hüquqi qiymət vermiş və həmin tarixi hadisənin 100 illik yubileyi ilə bağlı 22 oktyabr 2025-ci ildə sərəncam imzalamışdır. Sərəncamda qeyd olunduğu kimi, Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. Azərbaycanın Türk dünyasında həlledici milli-mədəni hadisələrdəki öncüllüyü bu mənada diqqətə alınmalıdır.

Azərbaycanlı ziyalıların hələ Şərq xalqlarının Qurultayında (1920) və I Türkoloji Qurultayda fəal iştirakı ölkəmizdə yalnız dilçilik sahəsində deyil, həm də ədəbiyyat, tarix, mədəniyyət, folklor, etnoqrafiyavə maarifçilik sahəsində də böyük elmi və yaradıcı qüvvələrin yetişib formalaşdığını nümayiş etdirirdi. [8, 31] Bakı Türkoloji Qurultayında Türk dillərinin inkişafı ilə bağlı bu gün də öz aktuallığı ilə seçilən və böyük əhəmiyyət daşıyan məsələlər, eləcə də onlarla bağlı problemlər müzakirə obyekti olmuş və müvafiq qərarlara imza atılmışdı: Əlifba məsələsi; İmla-orfoqrafiya problemi; Termin məsələsi; Tədris-metodika məsələsi; Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və dil-mədəniyyət birliyi problemləri; Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; Ulu dil nəzəriyyəsi və Türk dillərinin tarixi problemləri. [9, 21; 8, 31]Qurultayda Türk xalqlarının milli-mədəni inkişafında mühüm rol oynayacaq bu problemlərin həlli üçün bir sıra qərarlar qəbul edilmişdi. Lakin çox təəssüf ki, qurultayın bir çox iştirakçısı millətçilik, pantürkist, əks-inqilabi fəaliyyətdə günahlandırılması ilə aparılan kütləvi repressiyaların ağır nəticəsi olaraq Sovet türkologiyasında artıq"Türk xalqlarının mənəvi irsi, bir qayda olaraq, forma-struktur planda araşdırılmış, Türk mədəniyyətinin, ruhunun ideya-məzmun planına, demək olar ki, diqqət verilməmişdir. Bu da nəticə etibarilə, türk etnosunun canlı yaradıcı ruhu, mentaliteti barədə lazımi dərəcədə mükəmməl təsəvvürün yaradılmasına həmişə mane olmuşdur [1, 285]

Müstəqilliyimizin qazanılmasına hələ on ildən bir az artıq qaldığı bir məqamda – 1988-ci il iyulun 2-də Əlyazmalar İnstitutunda 3 gün davam edəcək tarixi toplantı – Bakıda ilk müjdəçi qaranquş kimi sevinc doğuran "Birinci Sovet-Türk kollokviumu"nun keçirilməsi bu yöndə bir dirçəlişin başlanğıcı demək idi. Bu, zaman etibarı ilə Azərbaycanda Ermənistanla kəskin münaqişənin ilk başlanğıc vaxtına təsadüf edirdi.

* ADPU, Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru. Email: proftomris@gmail.com

Buna baxmayaraq Dədə Qorqud adına təşkil edilmiş Kollokvium Beynəlxalq Türkoloji qurultayda qəbul edilən qərarları həyata keçirmək kimi zəruri, məsul vəzifələrin ifasına başladı. Bunlar: Klassik Türk xalqları ədəbiyyatının öyrənilməsi; Türk-Runik yazılarının tədqiqi; Türk xalqlarının malik olduğu folklor irsinin toplanıb sistemləşdirilməsi; Türk xalqları ədəbi dilinin inkişafı, formalaşma yolları və bu kimi zəruri məsələlər idi. Kollokviumda qarşıya qoyulan ciddi problemlərdən biri – Azərbaycanın elm ocaqlarında Türkoloji araşdırma mərkəzlərinin yaradılması idi. Çünki yuxarıda qoyulan məsələlərin həlli üçün bu çox vacib idi.

Kollokviumda dinlənilən məruzələr elmi cəhətdən yüksək nəzəri səviyyəsi və aktuallığı ilə səciyyələnmiş, məruzələrdə ortaq köklərə malik olan elmi-mədəni inteqrasiya baxımından qohum xalqların vahid amallı dərin milli-mənəvi dəyərləri əks etdirilmişdir. Bu isə, Türk dünyasının, son nəticədə isə dünya elm və mədəniyyətinin daha da zənginləşməsinə, inkişafına xidmət edirdi. Bu zamana qədər türkologiya kimi geniş miqyaslı elmi sadəcə linqvistika səviyyəsində qəbul edən, tanıyan bir dövrdə sovet türkoloqlarının xarici aləmdəki türkoloqlarla iş birliyini yaratmaq, təşkil etmək nə qədər səmərəli olsa da, elə də asan deyildi; bəlkə də ağlasığmaz bir məsələ idi. Heç şübhəsiz, SSRİ-də yaşayan Türk xalqlarının dillərinin öyrənilməsi, qrammatikalarının yazılması, sözlüklərin, elmi-nəzəri əsərlərin hazırlanması, ədəbi və mədəni irsin öyrənilməsi sovet türkologiyasının dünyada da qəbul edilən böyük uğurlarıydı. Lakin ciddi beynəlxalq koordinasiya, müxtəlif ölkələrin alimləri arasında fikir alış-verişi, ortaq elmi araşdırmalar, toplantılar olmadan kompleks bir elm olan türkologiyanın inkişafı mümkün deyildi [7,73] Bu məqsədlə 1985-ci ilin mayında keçirilən Sovet Türkoloqlar Komitəsinin illik toplantısında Türkiyə alimləri ilə əlaqələr yaratmaq, birgə konfranslar, sempoziumlar keçirmək qərara alındı. Çünki Türkiyə və Avropa alimlərinn Sovet alimlərilə belə vacib iş birliyi türkologiyanın gələcək inkişafından ötrü böyük əhəmiyyət daşıyırdı. Türkologiyanın inkişafı və gələcək işlər baxımından nəzərdə tutulan vəzifələri həyata keçirmək üçün onu elmi-praktik baxımdan daha əlverişli olan bir kollokviumda ikili olaraq qarşılıqlı şəkildə müzakirə etmək lazım gəlirdi. Hər iki böyük türkoloq Kononovun və Tenişevin birgə razılığı ilə daimi Sovet- Türk kollokviumlarının təşkil olunması münasibəti ilə SSRİ EA-nın dəstəyi ilə xarici əlaqələr üzrə Komitənin sədr müavini prof.Tofiq Məliklinin Türkiyədə keçirdiyi bir sıra rəsmi görüşlərdən sonra qarşılıqlı razılaşma əldə olunur. Kollokviumun təsisçisi və aparıcısı görkəmli alim, məhsuldar araşdırmaçı olaraq tanıdığımız Tofiq Məlikli həm də güclü təşkilatçılıq bacarığına malik bir elm adamı olmaqla bu ideya onun bütün elmi həyatı boyu əsərlərində irəli sürdüyü fikirlərin əsil məqsədini, amalını əks etdirirdi. Yerində qeyd edək ki, ikitərəfli belə elmi forumların keçirilməsi ideyası Sovet Türkoloqlar Komitəsinə və şəxsən Komitənin sədr müavini, Tofiq Məlikova aid idi. Yaşar Qarayevin "Tofiq haradadırsa, Azərbaycan da oradadır" dediyi T. Məlikli 1988-ci ildən "Ocaq" Azərbaycan Mədəniyyəti Cəmiyyətinin prezidenti, Moskva hökuməti yanında Milli Məsələlər Şurasının üzvü və onun Təhsil Komissiyasının sədri, bir müddət də Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) vitse-prezidenti kimi Moskva və Rusiyanın ictimai həyatında fəal iştirak etmişelmi və ictimai xadimdir..

Böyük vəzifələri öhdəsinə alan Kollokviumda ilk tədbirin Oğuz türklərinin ortaq mirası, habelə ortaq problemi sayılan qədim Türk şeiri, Runik Türk yazıları, Dədə Qorqud eposu mövzuları təklif olunsa da ilk tədbirin "Dədə Qorqud" dastanlarına həsr olunması qərara alındı. Beləliklə iki həftədən sonra Sovet Türkoloqlar Komitəsi Bürosunun toplantısında birinci Kollokviumun "Türk mədəniyyət abidəsi olaraq Oğuz dastanı "Kitabi Dədə Qorqud" mövzusunda Bakıda keçirilməsi qərlaşdırıldı. I Türkoloji qurultay kimi Kollokviumun da məhz "türkoloji fikrin oyanıq olduğu", "türkologiyanın beşiyi" Bakıda [5, 8] keçirilməsi məqsədəuyğun bilindi. Bu işə böyük əmək sərf edən professor Tofiq Məlikli kollekviumların Sovet tərəfi başqanı təyin olunur. Əlbəttə, bu iş bir tərəfdən də son nəticələri etibarilə şübhəli sonuclara gətirib çıxara bilərdi. Axı "Kitabi Dədə Qorqud" dastanınını yaxın keçmişdə xalqlar arasına nifaq saldığı ittihamı ilə araşdırmaçıların acınacaqlı taleyi, dastanın uzun illər diqqətdən kənarda qalması elm aləminə yaxşı məlum idi. [2, 63] Osman Fikri Sertkaya rəhbərliyindəki nümayəndə heyətinə ümumtürk mədəniyyət tarixinin dünyaca ünlü biliciləri kimi ad qazanmış Orhan Şaik Gökyay, Bəhaəddin Ögel, Fikret Türkman, Ahmet Bican Ercilasun, Tuncer Gülensoy, Saim Sakaoğlu daxil idi. Kollokvium 1988-ci ilin iyul ayının 2-də AMEA-nın Əlyazmalar İnstitutunda öz işinə başladı. Kollokviumun təkilat komitəsinin rəhbərləri SSRİ Türkoloqlar Komitəsinin sədr müavini professor Tofiq Məlikli və İstanbul Universiteti Türkiyyat

Araşdırmaları İnstitutunun müdiri, professor Osman Fikri Sərtqaya olmuşdur. Üç gün davam edən kollokviumda Fikret Türkmanın, Xalıq Koroğlunun, Tofiq Hacıyevin, Bəhaəddin Ögelin, Tofiq Məliklinin, Saim Sakaoğlunun, Kamal Abdullanın, Tuncer Gülensoyun, Ahmet Bican Ercilasun, Osman Fikri Sertkayanın, Süleyman Əliyarlının və b. çıxışları dinlənildi və məruzələr üzrə geniş müzakirələr keçirildi. Qətiyyətlə deyə bilərik ki, zamanın böyük tarixi hadisəsi sayılan kollokvium Birinci Türkoloji qurultaydan sonra Türkiyə alimlərinin Bakıya gəlişinə səbəb olan ikinci hadisə idi.

Bakı kollokviumunun ardınca onun işi uğurla davam etdirildi: Türkiyə türkoloqları ilə birlikdə Elazıq, Almatı, Konya və Bişkekdə daha dörd kollekvium keçirildi. Bu nə demək idi?! Ali məclisin qərarına əsasən, II Türkoloji Qurultayın 1927-ci ildə Özbəkistanın Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutulmuşdu; "Kommunist" qəzetinin redaktoru Həbib Cəbiyev qurultaydakı çıxışında: 2-ci Türkoloji qurultay Səmərqənddə olacaqdır, [11, 509] deyə bəyan etsə də artıq hadisələrin axarı dəyişmişdi. Kollokviumun işi də bu yarımçıq arzuların artıq gerçəkləşməsi demək idi. Çünki natiqin özünün və Rusiyanın Türk regionlarından gəlmiş alimlərin istibdad qurbanları olub susdurulması ilə bu vəd havada qalmışdı. Lakin "Keçid dövrü" adlandıracağımız mürəkkəb dövrdə Kollokviumun bu vəzifələri uğurla yerinə yetirməsi onun tarixi missiyasını təsdiq etdi. Kollokviumun ilk olaraq türklük milli düşüncəsinin, milli tarixi təfəkkürünün möhkəm olduğu Azərbaycanda – Bakıda keçirilməsi Türkoloji Qurultay tərəfindən vaxtilə irəli sürülmüş tövsiyələrin müasir şəraitdə uğurla həyata keçirilməsi üçün artıq burada əlverişli zəmin yarandığını göstərirdi. Belə ki, Kollokvium Bakıda türkoloji tədbirlərə, və fəaliyyətə təkan verdi. Folklor yönlü tədqiqatlar çoxaldı;

Kollokviumdan sonra bir sıra elmi tədbirlər, sessiya və konfranslar keçirilmiş, bu möhtəşəm toplantının müasir dövrdə də öz aktuallığı ilə seçilən və böyük əhəmiyyət daşıyan çağırışları işığında bir sıra qərarlar qəbul edilmişdir: Bakı kollokviumu hər iki ölkədə Qorqudşünaslığın inkişafında böyük rol oynadı: "Dədə Qorqud Ensiklopediyası"nın, müxtəlif elmi tədqiqat nümunələrinin – monoqrafiyaların, kitabların, məqalələrin çap olunması, Dastanın 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsi, "Dədə Qorqud" elmi jurnalının nəşri bunu göstərdi.

Bakıdan sonra 1991-ci ildə, yəni Sovetlər Birliyi dağılana qədər biz türk məsləkdaşlarımızla bərabər Elazıq, Almatı, Konya və Bişkekdə türkoloji elmi-mədəni mühitin ən aktual məsələlərinə həsr olunmuş daha dörd kollokvium keçirdik, deyə prof. Məlikli qeyd edir. [6, 87]Belə ki, Bakıdan sonra Türkiyənin Elazık Universitetində 2-ci kolekvum keçirildi. Burada qoyulan məsələ Türk ədəbi dillərinin inkişaf yolları; siyasi-ictimai məzmun kəsb edən ümumi Türk xalqlarının ədəbi dilləri məsələsi geniş yer tuturdu. Qazaxıstanda keçirilən 3-cü kollokviumda Türk-Runik yazılarının öyrənilməsi vəziyyəti; ən qədim dövrlərdən orta yüzilliklərin sonuna qədərki zaman məsafəsində yaranan qədim Türk dastanları, Orxon-Yenisey yazıları, XI-XVI əsrlərdə Türkistan, Qafqaz, İran və Anadoluda yaşamış klassiklərin əsərləri ilə bağlı sistemli təhlillər aparılmışdır. Türkiyənin Konya şəhərində baş tutan dördüncü kollekviumda İlk çağlar Türk yazılı ədəbiyyatı mövzusunu əhatə edirdi. Burada Türk ədəbiyyatının Yazılı dövrü və mərhələləri, klassik ədəbi irsin aşkara çıxarılıb toplanması, nəşri və tədqiqi habelə ilk türkcə yazılan nümunələr Xoca Əhməd Yəsəvi isindən başlamaqla incələnib təhlil olunurdu. Klassik irsin nəşri, tərtibi, tədqiq kimi məsələlərin qarşıda duran vəzifələrdən biri olması fikri mərkəzdə dururdu. Müzakirələrdə ortaya qoyulan məsələlərin eyniliyi müxtəlif ərazilərdə yaşayan qohum xalqların tarixi taleyinin, ortaq kökləri və milli-mənəvi dəyərlərinin də birliyindən doğmuşdu. Bu dirçəliş yeni düşüncələrin artıq əski prizmanı adlayıb məsələyə təmiz, aydın, eləcə də obyektiv baxışlarından doğmuşdur. [10, 13] Demək mümmkündür ki, müxtəlif regionlarda həyata keçirilən bu tədbirlər Azərbaycanın türkologiya elmi sahəsində qazandığı uğurları müəyyən mənada həm də Birinci Türkoloji Qurultayın təşkilinə və işinə layiqli töhfələr vermiş, lakin elə ardınca sonrakı illərdə repressiyaya uğradılmış fədakar türkoloq alimlərin xatirəsinə qədirbilənliyin, sədaqətin və ehtiramın ifadəsi idi.[4, 6] Geniş elmi mühitdə dərin təsir oyadan "Kitabi Dədə Qorqud" kollokviumunun 10 illiyi 1998-ci ildə Türkiyənin Konya şəhərində, 20 illiyi isə 2009-cu ildə Bakıda Slavyan Universitetinin təşəbbüsü ilə geniş şəkildə qeyd olunmuşdur.

1991-ci ildə Azərbaycan müstəqilliyinə nail olmaqla Türklük idealları gücləndirildi, türkoloji araşdırmalar yeni məcraya düşdü. Filoloq-tarixçi alimlər Nikolay Baskakovun, Oljas Süleymenovun Lev Qumilyovun xalqın çoxdan gözlədiyi kitabları dilimizə çevrilərək çapdan çıxdı... Türkologiyanın müasir

problemlərini həm mütəxəssislər, həm də qeyri-mütəxəssislər qaldırsalar da, həmin problemlərin həlli məhz mütəxəssislərin – türkoloqların ixtiyarındadır problemin müasirliyi təbii ki, onun tarixi ilə deyil, müasir dövr üçün nə dərəcədə aktual olub-olmaması ilə bağlıdır [3, 76] Görülən tədbirlər tezliklə müstəqil Azərbaycan Respublikasının elmi həyatında türkoloji araşdırmalarda yeni konsepsiyaların formalaşdırılması işinə, Azərbaycanın, o cümlədən Bakının dünyamiqyaslı türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması işinə rəvac verdi.

Sovet Tükoloqlar Komitəsinin sədri, SSRİ EA müxbir üzvü Ədhəm Tenişevin rəyinə görə Sovet-Türkiyə elmi əlaqələri tarixində belə bir forum ilk dəfə keçirilirdi. İki ölkənin alimləri bir yerdə toplanaraq unikal türk abidəsinin öyrənilməsi, incələnməsiylə bağlı problemləri müzakirə etmiş, çağdaş türkologiyanın məsələləri haqqında fikir mübadiləsi aparmış, görüləcək konkret işlərin planlarını görüşmüşlər. Türk və sovet alimlərinin ortaq fikrlərinə görə Bakıda keçirilən elmi tədbir türkologiya elmində olduqca böyük hadisəyə çevrilmiş və iki ölkə arasında elmi əlaqələrin yaranmasında yeni bir səhifə açmışdır.[7,12]

Nəticə: Bu ardıcıl keçirilən kollekviumlarda Türk xalqlarının milli-mənəvi varlığının ən aktual problemləri əhatə olunmuş və konkret təkliflər irəli sürülmüş, mühüm qərarlar qəbul edilmiş, əməli-nəzəri həllini tapmışdır. Kollokviumların gedişində dövrün türkologiya elmi üçün olduqca aktual və əhəmiyyətli sayılan ortaq əlifba, orfoqrafiya, terminologiya, türk xalqlarının etnoqrafiyası, türk dillərinin mənşəyi, öyrənilmə vəziyyəti və tədrisi, türk xalqlarının ədəbi dilinin inkişafı, ədəbiyyati və mədəniyyəti kimi problemlər müzakirəyə çıxarılmışdı.Ümumiyyətlə, türkoloji problemlərin beynəlxalq miqyasda bütün genişliyi ilə öyrənilib inkişaf etdirilməsi baxımından Türk kollokviumlarının müzakirələri və direktivləri xüsusi əhəmiyyətə malikdir.

ƏDƏBIYYAT:

1.Cəfərov N., Qəribli A., Qəribli E. Türkologiya, “Türk Dünyası İnfo” İB, Bakı, 2018 - 292 səh.

2.Cəfərov N.Tarixiliyin müasirliyi... və müasirliyin tarixiliyi, Bakı Elm və Təhsil, 2011- 200səh.

3.Cəfərov N. Tarixin tərcümeyi-halı, Elm və Təhsil nəşriyyatı, Bakı, 2014 - 264s.

4.Əlizadə A. Birinci Türkoloji Qurultay – Türk xalqlarının mədəni həyatında mühüm hadisə - I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans: Türkoloji elmi - mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar mövzusunda Beynəlxalq konfransın Materialları. Bakı, 14-15 noyabr 2016-cı il (səh.6)

5. Xəlilov B. Türkologiyanın tarixi: XX əsrin 20-30-cu illəri, Bakı, Papirus, 2016 - 236 səh.

6.Məlikli T. Türkbilimi (türkoloji) yazılarımdan seçmələr, Avrasiya Press Nəşrlər evi, Bakı, 2023 -288 səh.

7.Məlikli T. Sovet-türk kollokviumları, Ədəbiyyat qəzeti, 14 noyabr, 2025 №42 (5536) s.12

8.Məmmədova E. I Türkoloji Qurultay və dil məsələləri - ELMİ İŞ (humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal) 2019, №10/49 s.31-34

9. Nağısoylu M. I Türkoloji Qurultay: Çağırışları və onların günümüzdəki aktuallığı - I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans: Türkoloji elmi - mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar mövzusunda Beynəlxalq konfransın Materialları. Bakı, 14-15 noyabr 2016-cı il (səh.21-24)

10.Nuriyeva M. Rus dilində türk sözləri, Bakı, Nurlar nəşriyyatı, 2006-272səh.

11.Первый Всесоюзный тюркологический 26 февраля - 5 марта 1926 г.(Стенографический отчет) Баку – АССР.1926 г. 283 с.550

СОЗЫВ 1-ГО ТЮРКОЛОГИЧЕСКОГО КОНГРЕССА: “1-Й СОВЕТСКО-ТУРЕЦКИЙ КОЛЛОКВИУМ”

РЕЗЮМЕ

Коллоквиум имени Деде Горгуда, в рамках которого были предприняты необходимые задачи по реализации решений, принятых Первым тюркологическим конгрессом, осветил наиболее насущные проблемы национального и духовного существования тюркских народов, выдвинул конкретные предложения, принял важные решения и нашел практические и теоретические решения. В ходе коллоквиумов обсуждались вопросы, считавшиеся чрезвычайно актуальными и важными для тюркологии того периода, такие как общий алфавит, орфография, терминология, этнография тюркских народов, происхождение, состояние изучения и преподавания тюркских языков, развитие литературного языка, литературы и культуры тюркских народов. В целом, дискуссии и директивы

турецких коллоквиумов имеют особое значение с точки зрения изучения и развития тюркологических проблем в их полном объеме в международном масштабе.

Ключевые слова: *коллоквиум, I Тюркологический конгресс, тюркология, алфавит, Баку*

CALLS OF THE 1ST TURKOLOGİCAL CONGRESS: "1ST SOVİET-TURKİSH COLLOQUİUM"

ABSTRACT

Colloquium named after Dede Gorguda, within the framework of which the necessary tasks were undertaken to implement the decisions adopted by the First Turkological Congress, illuminated the most urgent problems of the national and spiritual existence of the Turkic peoples, put forward specific proposals, made important decisions and found practical and theoretical solutions. During the colloquiums, issues considered extremely relevant and important for Turkology of that period were discussed, such as the common alphabet, orthography, terminology, ethnography of the Turkic peoples, origin, state of study and teaching of Turkic languages, development of literary language, literature and culture of Turkic peoples. In general, the discussions and directives of the Turkish colloquiums have special significance from the point of view of the study and development of Turkological problems in their entirety on an international scale.

Key words: *colloquium, I Turkological congress, Turkology, alphabet, Baku*

Jalə İLYASOVA*

ŞƏKİ ETNOTOPONİMLƏRİ: DİL VƏ MƏDƏNİYYƏT KONTEKSİNDƏ

XÜLASƏ

Məqalədə Şəki bölgəsində formalaşmış etnik mənşəli toponimlərin yaranma tarixi, leksik-semantik xüsusiyyətləri araşdırılmışdır. Etnotoponimlərin bölgənin etnik tərkibi, tarixi-mədəni inkişaf mərhələləri və xalqın dünyagörüşü ilə əlaqəsi təhlil olunmuşdur. Belə ki, etnosun bütün xarakterik cəhətləri, o cümlədən milli-mədəni əlamətləri Şəki etnotoponimlərinə də aid edilə bilər. Bu, etnosentrizmdir. Tarixən etnosların vəhşi təbiəti, mədəni sivilizasiyalar, onların etnonimik xüsusiyyətləri, etalonu, xüsusi mədəniyyət, etnik ayrılma ənənəsi, xalq tərəfindən advermə ənənəsi, köçəri həyat tərzi və obrazı, miqrasiya və kolonizasiya prosesləri, yerli xalqın tarixi ərazisi kimi özünü göstərən xüsusiyyətlərdir.

Beləliklə, Şəki regionunun etnotoponim layı bu bölgənin müasir toponimlərinin tərkibində də qorunaraq saxlanılır.

Açar sözlər: *etnonim, etnolinqvistika, onomastika, regional toponimlər, etnotoponim.*

Hər bir dilin öz sərhədləri mövcuddur və genişdir. Dil nəinki gerçəkliyi əks etdirir, həm də onun necə dərk olunduğunu nümayiş etdirir. Bu gün dillə məşğul olan linqvistika elmi XXI əsrdə aktivləşərək yeni sahələr üzrə və yeni istiqamətdə inkişaf etməkdədir. Millətin mədəni kodu linqvistika elminə də tətbiq olunur, dil vahidlərinə dil və mədəniyyətin qarşılıqlı əlaqəsi kontekstində yanaşılır. Başqa sözlə, dil kommunikativ vasitə olub insanların bir-birini dərk etmələrinə və bir-birilə fikir mübadiləsi etmələrinə şərait yaradır. Dil etnomədəni kollektivdə dünyanın mənzərəsi barədə bilik və məlumatları sistemləşdirir və qaydaya salır. Dil və mədəniyyət konteksti toponimik vahidlərə də linqvokulturoloji istiqamətdə yanaşmağı tələb edir. Bu elm fənlərarasıdır, inteqrativ bilik sahəsidir. Dil və mədəniyyət birliyi etnosun mənsubiyyətini aşkara çıxarır. "Etnos" terminindən 1970-ci illərdən geniş istifadə olunmağa başlanmışdır. "Etnos" yunanca tayfa, xalq mənasındadır. Bu, qrup fenomenini təyin edir, müxtəlif mədəniyyətlərin sosial təşkili formudur. Etnik mənsubiyyət seçilmir, nəsildən-nəslə ötürülür. Mədəniyyət insanlığı təqdim edir, bu etnik mədəniyyətin bütövlüyü, müxtəlif xalqların çox obrazlı hərəkət istiqamətləridir.

* Azərbaycan Dillər Universiteti Azərbaycan dilçiliyi kafedrasının doktorantı, Azərbaycan dilçiliyi kafedrasının müəllimi. Email: jaleilyasova001@gmail.com

Etnolinqvistikanın məqsədi, N.İ.Tolstoyun nöqteyi-nəzərincə, tarixi retrospektivliyi və s. xalq stereotiplərini, dünyanın dil mənzərəsinin folklor nümunələri əsasında üzə çıxarmaqdır [19, 45].

Toponimlər dilin leksik vahidlərindəndir. Həmin vahidlər millətin milli və müasir mentalitetini əks etdirə bilir. Toponimlərdə mədəniyyətin simvolu mövcuddur. Toponimlərin linqvokulturoloji pozisiyası onları inteqrativ dairədə öyrənməyə şərait yaradır. Ona görə də toponimlər həm də kulturoloji aspektdə nəzərdən keçirilir. Bu zaman toponimin milli-mədəni keyfiyyətləri üzə çıxır. Toponimlər haqqında bilik – məlumat milli-mədəni fonda ötürülür. Belə informasiyalar xüsusi olaraq fərqlənir. Toponim barədə verilən informasiyalarda mədəni konnotasiyalar gerçəkləşir. Həmin prizmadan yanaşdıqda etnotoponimlər mühüm mədəniyyət faktı və hadisəsidir.

Ümumiyyətlə, toponimlər mədəniyyətin etnodil məkanıdır. Bu adlar nə zamansa müxtəlif ərazilərdə xalqın etnodil şüurunun, tayfa və nəsillə bağlı düşüncələrinin aktivliyi nəticəsində formalaşmışdır. Yəni etnomədəni və dil birliyi həmin vahidləri də yaratmışdır. Həmin birlik *dil-mədəniyyət-insan-etnos* istiqamətində birləşir. Bu sıra linqvokulturologiyanın yeni paradiqmasıdır. Dildə antroposentrik ideyadır. Bu ideya ətrafında üç elmi paradiqma fərqləndirilir: müqayisəli-tarixi, sistem-struktur və nəhayət, antroposentrik. Sonuncu paradiqmanın mahiyyəti belədir: *"insan dildə, dil insanda"* [16, 3].

Qeyd edək ki, *dil-mədəniyyət-insan-etnos* dilçilikdə, o cümlədən linqvokulturologiyada biliyin yeni paradiqmasıdır. Dilin antroposentrik ideyalarındandır. Bu dörd amil etnomədəni həyatda, dil vahidlərinin formalaşmasında öz rolunu oynaya bilir. Digər elmi paradiqmalar da müqayisəli-tarixi, sistem-struktur antroposentrik paradiqma ilə bağlı olub dil və mədəniyyətin ortaq ənənələrini davam etdirir.

Mədəniyyət anlayışı linqvokulturologiya üçün mühüm bazadır, ona görə ki, bu anlayış ontoloji və semiotik xarakter daşıyır və digər mühüm məsələlərə məhz bu aspektdən yanaşılır. Latınca "Colere" mədəniyyət deməkdir. Mədəniyyət sosial-humanitar şüurun fundamental anlayışlarından biridir. Y.M.Lotmanın fikrincə, *"mədəniyyət ... mürəkkəb semiotik sistemdir, onun funksiyası yaddaşdır və onun əsas cəhətləridir"* [15, 228].

Azərbaycanın digər bölgə toponimləri kimi, Şəki toponimləri də linqvokulturologiyanın mədəni-praqmatik potensialını təşkil edir. Bu yöndə Şəki toponimlərini dil və mədəniyyət kontekstində izah etmək olar. Bu zaman Şəki toponimlərində olan mədəni özəllik və yeni düşünülmüş mənalar, eləcə də mədəni-dil kompetensiyaları üzə çıxa bilir. Etnotoponimlərlə əlaqədar kulturoloji arqumentlər həmin ərazinin ən mühüm spesifikasını aydınlaşdıra bilər. Mövcud toponimlərin struktur-sistemi müqayisəli-tarixi üsulla öyrənilir və nəhayət həmin vahidlərin antroposentrik əlamətlərinə diqqət yetirilir. Sonuncu paradiqma etnotoponimlərin *"insan dildə, dil insanda"* prinsiplərini əsas götürərək təhlili dil və mədəniyyət çərçivəsində öyrənməyə səy göstərir. Bu məsələlərlə birbaşa etnolinqvistika elmi məşğul olur. V.N.Teliya etnolinqvistikanı linqvokulturologiyanın bir bölməsi hesab edir [18, 98].

Etnolinqvistikada, demək olar ki, dil və mədəniyyətin əlaqəsi, xalq adət-ənənələri, cəmiyyətin sosial strukturu və s. öyrənilir. Dilçiliyin sözügedən sahəsində etnos – insan cəmiyyətinin dil, ənənəvi-mədəni birliyi kimi xarakterizə olunur. Cəmiyyətin mənşəyi və tarixi taleyi ümumi dillə, xüsusən də mədəniyyət və psixologiya, insanın özünüdərki ilə birgə təqdim olunur. Toponimləri əmələ gətirən etnik şüur etnos üzvlərinin dünyaya, ətraf aləmə baxışıdır.

Müasir etnolinqvistikada dilin leksik sistemi, o cümlədən etnotoponimik sistemi diqqət mərkəzində dayanır, bu sistemdə etnologiya və toponimika elmləri birləşir. Toponimik vahidlər bu istiqamətdə mədəni-tarixi kompleks kimi öyrənilir. Etnotoponimlər mədəniyyət formasının bütöv inventarıdır, ritual materialdır.

Şəki etnotoponimlərini də öyrənməkdən ötrü iki müstəqil istiqaməti nəzərə almaq lazımdır: 1) etnik ərazini və 2) bu ərazinin dildə rekonstruksiyasını (bərpasını). Etnosun mənəvi mədəniyyət materialı kimi bu ərazinin adlandırma sistemini dilin qanunauyğunluğu çərçivəsində tədqiq etmək lazım gəlir. Ərazinin arxeoloji qazıntıları etnos adlarının semantikasının açılmasına da yardım edə bilər. Burada arxeoloji mədəniyyət dil mədəniyyəti ilə qarışır. Dildənkənar fəaliyyət etnosların yerli olmasını və haradan miqrasiyasını və harada yerləşməsi mövqelərini də müəyyənləşdirir. Bu zaman denotatın mədəni-ekoloji və tarixi-coğrafi xarakteristikası da dəqiqləşir.

Etnotoponimlərin dil və mədəniyyət üzrə təhlilinin xüsusi modulu vardır. Həmin modula görə, XXI yüzillik dilçilik elmində yeni bir cığırı – millətin milli kodunu, toponimik vahidin də kommunikasiyada və anlamada bir vasitə, silah kimi istifadəsini şərtləndirir. Bu modul əsasında toponimlərdən də dil və mədəniyyət materialı kimi aktiv istifadə olunur. *"Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi dil sisteminin bütün yaruslarına şamil edilir. Bu şamiletmə onomastik sistemə, etnotoponimik sistemə də daxil olur. Müasir linqvistikanın linqvokulturologiya sahəsinə mental struktur kimi baxmaq lazım gəlir. Dil vahidlərinin, o cümlədən etnotoponimlərin etnodil mənası mədəni-koqnitiv kateqoriya kimi görünür. Etnotoponimdə var olan mədəni informasiya etnotoponimik vahidin üzərində müəyyənləşdirilir"* [7, 80].

Etnotoponimiya – tarixi aktiv kateqoriyadır. Bu elm daxilində öyrənilən etnonim və etnotoponimlər xüsusi görünüşdə olan terminoloji-coğrafi terminlərdir. Məzmun və mahiyyət etibarilə qiymətli olub, köklü, yerli xalqlar və onların yaratdığı coğrafi adlar haqqında sosial-psixoloji və mədəni-tarixi informasiyalar verir. Həmin informasiyalar aşağıdakılardan ibarətdir:

Müxtəlif tayfa, nəsil və xalqların arealca müxtəlif ərazilərdə sakin olması, məskunlaşması, yerləşdirilməsi haqqında, onların bir-biri ilə, həmçinin qonşu tayfalarla əlaqəsi, münasibəti, eləcə də həmin tayfa və nəslin etnoqrafik xarakteri (məişət, yemək, geyim, təsərrüfat həyatı, adət-ənənə və s.).

Deməli, etnos və etnotoponimlərdə spesifik mədəniyyət, dil, bunların qarşılıqlı əlaqəsi, özünəməxsus adət-ənənəsi cəmləşmişdir. Sözügedən Şəki ərazisində danışılan dil, əlbəttə, Azərbaycan dili idi. *"Azərbaycan dili nə gəlmə, nə də öz kökləri etibarilə yad mənşəli olmayıb, ən qədim zamanlardan günümüzədək türk sistemli dil kimi Azərbaycan ərazisində sakin olmuş qədim əcdadlarımızın mənəvi sərvəti kimi miras qalmışdır. Tarix boyu Azərbaycan ərazisində müxtəlifdilli qəbilələr, tayfalar yaşamış, tarixi hadisələrin gedişi ilə əlaqədar olaraq ayrı-ayrı dövrlərdə siyasi hökmranlıq müxtəlif tayfa birləşmələrinin tərəfində olmuş, lakin bu etnik müxtəliflik içində Azərbaycan dili üçün əsas olmuş türk komponentlərinin varlığı həmişə mövcud olmuşdur"* [6, 12].

Coğrafiyaçı alim E.Nuriyev ərazinin toponimlərinin dil mənsubiyyətindən danışarkən yazır ki, *"Şəki-Zaqatala zonası Azərbaycanda etnik müxtəlifliyi ilə fərqlənən ərazidir. Burada əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edir. Lakin bəzən əhalisi sırf azərbaycanlı olan kəndlərin adları da Azərbaycan və başqa türk dilləri vasitəsilə də izah olunmur"* [11, 22].

Türk dilinə məxsus komponentlərinin mövcudluğu Azərbaycanın, o cümlədən Şəkinin etnotoponimlərində də özünü göstərməkdədir. Misal üçün: *Qaraqoyunlu* toponimi türk mənşəlidir. Bu kənd *Çay Qaraqoyunlu* kimi mürəkkəb komponentdən ibarətdir.

Ərəb mənşəlilər: *Baqqal kəndi*. Şəki rayonunun Biləcik inzibati ərazi dairəsində yerləşən bir kənddir; əhalisi 500 nəfərdən çoxdur, Şəki mərkəzindən şimal-qərbdədir, adı "baqqal" peşəsindən (ərzaq satıcısı) gəlir, əsl adı isə *"Baqqallı"dır* və kəndin ilk sakinlərinin Cunutdan gələn baqqal ailələri olduğu bildirilir, həmçinin Şəki Ensiklopediyası saytında qeyd olunduğu kimi, "Baqqal" adlı dağ da mövcuddur [20].

Ərəbşəki: Bu, Şəki rayonundakı kəndlərdən biridir. Toponim "Ərəb" etnonimi ilə "Şəki" oykoniminin birləşməsindən əmələ gəlib və vaxtilə burada ərəb əhalisinin məskunlaşdığını göstərir. Bu tip adlar (məsələn, *Ərəb Quba, Ərəb Salyan*) Azərbaycanda geniş yayılmışdır.

Abdullar: Bu toponim hazırda ölü kənd adıdır, lakin "abdallar" nəsil adı əsasında əmələ gəlmişdir, bu da ərəb mənşəli şəxs adına (Abdullah) əsaslanır.

Şəki ərazisində İrandilli toponimlər: *Böyük Dəhnə, Kiçik Dəhnə*. *"Dəhnə*" fars dilində *"keçid, iki dağ arası"* mənasındadır.

Şəki bölgəsində Qafqazdilli tayfaların izləri özünü göstərməkdədir: *Muxax, Katex, Çardax* və s. kənd adları.

Etnotoponimlər, adətən, böyük tayfa və nəsil birləşmələrinin adlarıdır. Şəki bölgəsində tarixi, siyasi, ideoloji prosesləri əks etdirən etnooykonimlər çoxdur və 10 belə etnotoponimə rast gəlmək olur. Bu bölgənin etnotoponimləri fonetik cəhətdən adaptasiya olunub. Yerli və gəlmə tayfaların yenidən yerləşdirilməsi toponimik tərkibdə də müəyyən dəyişmələrə səbəb olmuşdur. Onların tərkibində fonetik baxımdan fərqli quruluş müşahidə olunmaqdadır. Yəni öncə qoyulmuş adlar zaman keçdikcə dəyişməyə məruz qalmışdır: *Muğ-Muğlu-Muğan*

Etnolinqvistik cəhətdən toponimin komponentlərində köç obrazı həyatda da öz əksini tapmışdır. Misal üçün: *Qaradağlı* kəndinin adamları İrandan bu ərazilərə köçənlərdir.

Şəki toponimlərinin komponentlərində antroponimlər (yəni, insan adları) geniş əks olunmuşdur. Bu da həmin yaşayış məskənlərinin inşa edilməsində insanların, ayrı-ayrı şəxslərin bilavasitə iştirakını göstərir [17, 186].

Deməli, insan adlarının toponimlərdə əks olunması ilə etnotoponimik vəziyyət yaradılmışdır. Misal üçün: *Böyük Pirəli, Kiçik Pirəli və s.*

Tədqiqat göstərir ki, Şəki bölgəsinin etnotoponimləri, əsasən, türk, ərəb, Qafqaz və İran mənşəlidir.

Beləliklə, etnolinqvistik araşdırmalar Azərbaycan toponimlərinin də zəngin tarixi-linqvistik faktlara söykəndiyindən soraq verir. Şəki toponimlərinin əksəriyyəti öz etnik komponentlərinə görə təmiz türk mənşəli olub, özündə heç bir qeyri-türk əlaməti əks etdirmir.

Beləliklə, Şəki regionunda zaman keçdikcə etnointeqrasiya prosesi güclənmişdir, bu, əhalinin etnomədəni və etnotəsərrüfat münasibətlərinə öz təsirini göstərmişdir. Vaxtilə Azərbaycanda olmuş baltalı nəslinin adı indiki Şəkinin *Baltalı* kənd adında saxlanmışdır.

Şəki regionunda yerləşmiş müxtəlif etnosların tədricən ayrılması, etnokontakt özünəməxsusluğu, spesifikası, təsərrüfat fəaliyyətinin fərdi keyfiyyəti (zərgərlik, dəmirçilik və s.), həmin əlamətlərin toponimikada inikası tarixi-coğrafi səbəblərdən sayıla bilər.

Şəki etnotoponimlərinin regional diferensiasiyası və areallara ayrılma xarakteri tarixi dəyərini və milli-mədəni özünəməxsusluğunu qoruyub saxlayır. Şəki etnotoponiminin dəyəri və əhəmiyyəti bir də informasiya fonu yaratması ilə ölçülə bilər.

Tayfa və xalq arealları etnoqrafik xarakter kəsb edir. Şəki etnotoponimləri də özünəməxsus etnoqrafik xarakteri ilə digər bölgələrdən fərqlənir.

ƏDƏBİYYAT

1. Abışov, E.Ş. El-oba adlarının izi ilə / – Bakı: Nafta-Press, – 2007. – 136 s.
2. Axundov, A. A. Torpağın köksündə tarixin izləri / – Bakı: Gənclik, – 1983. – 136 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: [2 cilddə] / Red. hey. sədri R.Z.Əliyeva. – Bakı: Şərq-Qərb, – c. 1. – 2007. – 300 s.
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: [2 cilddə] / Red. hey. sədri R.Z.Əliyeva. – Bakı: Şərq-Qərb, – c. 2. – 2007. – 304 s.
5. Əhmədov, T.M. Azərbaycan toponimikasının əsasları / – Bakı: BDU, – 1991. – 318 s.
6. Əzizov E. Ümumxalq Azərbaycan dilinin formalaşması tarixinə dair // Azərbaycan dili tarixi məsələləri (elmi əsərlərin tematik toplusu). – Bakı: Azərbaycan Universiteti nəşriyyatı. – 1989. – 90 s.
7. Kazımov İ. Mətnin linqvokulturoloji təhlili / – Bakı: "Zərdabi Nəşr" MMC. – 2023. – 248 s.
8. Məşədiyev, Q.İ. Zaqafqaziyanın Azərbaycan toponimləri / – Bakı: Elm, – 1990. – 146 s.
9. Məşədiyev, Q.İ. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında) / – Bakı: Elm və təhsil, – 2010. – 232 s.
10. Mollazadə S. Azərbaycanın şimal rayonlarının toponimiyası. Fil.elm.dok.diss. – Bakı: –1979
11. Nuriyev, E. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası / – Bakı: Elm, – 1989. – 112 s.
12. Şəkidə məhəllə adları: soylar və ləqəblər / II kitab. – Bakı: Nafta press, – 2009. – 605 s.
13. Tahirzadə Ə. Şəki tarixi qaynaqlarda / – Bakı: Master, – 2005. – 256 s.
14. Vaqif Aslan. Şəkinin tarixi yer adları və onların söz açımı // Azərbaycan folkloru. –Bakı: "Sabah" nəşriyyatı. – 1993, – s. 104-109
15. Лотман Ю.М. О двух моделях коммуникации в системе культуры / Semeiotike. Тарту, – 1971, № 6. – 180 s.
16. Маслова В.А. Лингвокультурология / Учебное пособие. Изд-во центр «Академия», – Москва, – 2021. – 208 s.
17. Садохин А.П. Этнология. – Москва, – 2006
18. Телия В.Н. О методологических основаниях лингвокультурологии. X1 Международная конференция «Логика, методология, философия науки». – Москва: Обнинск. –1995

19. Толстой Н.И. Язык и народная культура: Очерки по славянской мифологии и этнолингвистике. – Москва, – 1995
20. https://www.google.com/search?client=opera&q=%C5%9F%C9%99kid%C9%99ki+baqqal+k%C9%99ndi+haqq%C4%B1nda+m%C9%99lumat&sourceid=opera&ie=UTF-8&oe=UTF-8

Ж.ИЛЬЯСОВА

ЭТНОТОПОНИМЫ ЯЗЫКЕ ШЕКИ: В КОНТЕКСТЕ ЯЗЫКА И КУЛЬТУРА

РЕЗЮМЕ

В статье рассматривается история формирования топонимов этнического происхождения, сформировавшихся в Шекинской области, их лексические и семантические особенности. Анализируется взаимосвязь этнотопонимов с этническим составом региона, этапами историко-культурного развития и мировоззрением народа. Таким образом, все характерные черты этноса, включая национальные и культурные особенности, могут быть отнесены к Шекиским этнотопонимам. Это этноцентризм. Исторически проявляются такие особенности, как дикий характер этноса, культурные цивилизации, их этнонимические особенности, стандарт, особая культура, традиция этнического разделения, традиция именования у народа, кочевой образ жизни и образ жизни, миграционные и колонизационные процессы, историческая территория местного населения. Таким образом, этнотопонимический слов Шекинской области сохраняется в составе современных топонимов этого региона.

Ключевые слова: *этноним, этнолингвистика, ономастика, региональные топонимы, этнотопоним.*

J. ILYASOVA

ETHNOTOPONYMS OF THE SHEKI LANGUAGE: IN THE CONTEXT OF LANGUAGE AND CULTURE

SUMMERY

This article examines the history of ethnic toponyms that emerged in the Sheki region, as well as their lexical and semantic features. The relationship between ethnotoponyms and the region's ethnic composition, stages of historical and cultural development, and the people's worldview is analyzed. Thus, all the characteristic features of the ethnic group, including natiolal and cultural characteristics, can be attributed to Sheki ethnotoponyms. This is ethnocentrism. Historically, such characteristics as the savage nature of the ethnic group, cultural civilizations, their ethnonymic characteristics, standards, a distinct culture, the tradition of ethnic division, the naming tradition of the people, the nomadic lifestyle and way of life, migration and colonization processes, and the historical territory of the local population are manifested. Thus, the ethnotoponymic layer of the Sheki region is preserved in the composition of modern toponwms of this region.

Key words: *ethnonym, ethnolinguistics, onomastics, regional toponyms, ethnotoponym.*

Xəyal ƏSGƏRLİ*

KARAİMLƏR VƏ ONLARIN DİLİ: TƏDQİQAT PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏR

XÜLASƏ

Karaim dilinin tədqiqi türkoloji araşdırmalar konteksində önəmli yerə sahibdir və bu dilin öyrənilməsi müxtəlif elmi mərhələlərdən keçmişdir. Karaimlərin dili haqqında ilk elmi məlumatlara XVIII əsrin sonu-XIX əsrin əvvəllərində rast gəlinir. İlkin tədqiqatlar daha çox təsviri xarakter daşımış və dilçilikdən daha çox etnoqrafik və dini maraqlara əsaslanmışdır. Karaim türklərinin dini mətnləri, dua

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Eksperimental Fonetik Araşdırmalar Laboratoriyası. Email: esgerli-x@mail.ru

kitabları və hüquqi sənədləri tədqiqatçıların diqqətini cəlb etmiş, lakin bu mətnlər linqvistik baxımdan sistemli şəkildə araşdırılmamışdır. Erkən mərhələdə Karaim dili çox vaxt "xüsusi icma dili" kimi qiymətləndirilmiş, onun türk dilləri ilə genetik bağlılığı aydın şəkildə ortaya qoyulmamışdır. XIX əsrin ortalarından etibarən bu dilə dair araşdırmalar səngimiş və tədqiqatlardan kənarda qalmışdır. Müasir dövrdə Unesco-nun "Təhlükə altında olan dillər" (Endangered language) siyahısına düşən karaim türkcəsi tədqiqatçıların böyük marağına səbəb olmuşdur. Son dövrlər karaimlər, onların dili, tarixi haqqında geniş tədqiqatlar aparılır.

Açar sözlər: *Karaim, türkoloji araşdırma, xəzər türkləri, etnik mənsubiyyət, tədqiq tarixi, karaizm.*

İngiliscə və bəzi Avropa dillərində rast gəlinən "Karaite" Karaizm inancını və ya "yəhudi dininin karay məzhəbini" qəbul edənləri bildirmək üçün istifadə edilən bir termindir. [8, 635]. "Karaim" adı ilə bağlı isə elm aləmində fərqli fikirlər irəli sürülmüşdür. Ümumi qəbul edilmiş fikrə əsasən bu söz ibri dilində "oxumaq (לקרוא)" feilindən törəmiş kara (קרא) və cəmlik bildirən im (ים) şəkilçisinin birləşməsi ilə yaranmışdır, "müqəddəs yazını oxuyanlar" mənasını bildirir. Bu söz termin olaraq "Talmudu" və ravvinlərə (İudaizmdə Tövrat və Talmudun təfsirini izah edən elmi rütbə.) məxsus yazıları inkar edən, dini görüşlərdə Tövrata əsaslanan bir yəhudi məzhəbinin adını bildirmişdir. Bu dini məzhəbə inananlar Misir, Suriya, Anadolu, İran, Çin, Hindistan, Krım, Balkan yarımadası və bir çox başqa ərazilərə yayılaraq geniş şəkildə təbliğat aparmağa çalışmışlar.

Günümüzdə dünyanın müxtəlif yerlərində dağınıq halda yaşayan karaim türkləri say etibarilə də azlıq təşkil edir. Zaman-zaman müxtəlif amillər, xüsusilə müharibələr və assimilyasiyalar səbəbindən onların sayında xeyli azalmalar müşahidə olunmuşdur. Məsələn, bəzi mənbələrdə 1959-cu ildə karaimlərin sayının 5900, 1979-cu ildə 3341, 1989-cu ildə isə 2803 olduğu göstərilmişdir. 2001 və 2002-ci illərdə aparılan hesablamalara görə bu rəqəm 318-ə kimi enmişdir. [1, 34].

"Günümüzdə bu məzhəbə mənsub olanların böyük əksəriyyəti türk əsillidir" [2, 31]. Hal-hazırda "karaim" termini şərqi Avropada yaşayan və ya oradan köç edən, dil və etnik baxımdan özlərini türk hesab edən və türk dilində danışan toplum üçün istifadə edilir. Əvvəlcə yəhudi məzhəbinin adı olan karaim sözü, sonradan qıpçaq ləhcəsində danışan toplumun adına çevrilmişdir. "Karaimləri bir dini qrup olaraq etnik cəhətdən iki fərqli qrupa bölmək olar: Karay türkləri (Karaim türkləri) və "qeyri-türk" karaimlər" [11,2].

Karaim xalqının tarixi bu gün də kifayət qədər mənbə olmaması səbəbindən qaranlıq qalır. Bu baxımdan tədqiqatlardakı fərqli yanaşmalar ortaq bir nəticəyə gəlməkdə çətinliklər törədir. Xüsusilə dünyanın bir çox ərazilərinə yayılan karaimlərin ilk yaşayış yerləri haqqında müxtəlif baxışların olduğunu görürük. Məsələn, Staçkovski K. bu haqda yazır: "Güman etmək olar ki, karaimlərin əcdadları hələ 10-cu əsrdə Kiyevdə məskunlaşıblar, 14-cü əsrdən gec olmayaraq Qaliçə, 15-ci əsrdə isə Litvaya köç etmişlər" [12, 159]. "Karaim ya da Karaylar olaraq adlandırılan bu icma, yaxın zamanlara kimi kiçik qruplar halında Litva və Polşa daxil olmaqla, Ukraynanın Qaliç, Lutsk, Evpatoriya (Gözleve), Simferepol (Ağ məscid) şəhərlərdə, Türkiyə (İstanbul), Avstraliya (Sidney), ABŞ (Nyu-York), Fransa (Paris) kimi bir çox ölkələrdə dağınıq şəkildə yaşayırlar" [5, 17].

Avropa və Amerika, eləcə də, yəhudi tarixçilərinin araşdırmalarında karaimlərin tarixi deyərkən Krım və şərqi Avropada məskunlaşan karaimlər nəzərdə tutulur. Tədqiqatçıların fikrincə, Krımda və şərqi Avropada yaşayan karaimlərin dili digər karaimlərdən fərqlidir. Karaim dili ənənəvi olaraq "karayca" adlandırılır, qərb dialektləri və Krım dialektləri (şərq dialektləri) deyə iki yerə bölünür. Qərb dialektləri öz növbəsində iki yerə - şimal və ya Trakay, cənub və ya Qaliç dialektlərinə ayrılır. Krımda yaşayan karaimlər haqqında ən dəyərli mənbə Sereya Şapşalın 1928-ci ildə yazmış olduğu "Krım Karay türkləri" adlı məqaləsidir. Məqalə Tülay Çulha tərəfindən latın qrafikası ilə yenidən nəşr edilmişdir [6].

Karaimlərin etnik kimliyi. Karaimlərin mənşəyi ilə bağlı S.Szyszman "Le Karaisme", "Les Karaites d'Europe", A. Zayaçkovski "Karaims in Poland", N.Schur "History of karaites", H. Jankovski "Karaims of the Crimea and Eastern Europe" kimi əsərlərdən məlumat ala bilərik. Karaimlərin bir xalq olaraq kimliyi ilə bağlı elm aləmində bir neçə iddialar vardır. Bu iddiaları ümumiləşdirsək üç fərqli fikrin olduğunu görürük:

1) Karaimlər XIII əsrin sonlarında Krıma və Qafqaza yerləşən, kuman dilinə yaxın bir qıpçaq dilini istifadə edən və bu dili XIV əsrin sonlarına qədər Litva və Polşanın Podoliya şəhərinə köçdükdən sonra da qoruyan yəhudilərdir.

2) Karaimlər Xəzər xaqanlığı zamanında əvvəlcə Mesopotamiya, İran və Qafqaz ərazisindən sonra isə Türkiyədən gələrək Krım ərazisində məskunlaşan etnik yəhudilərdir.

3) Karaimlər Xəzər xaqanlığı dövründə (VII-XI əsrlər) Musəviliyi (yəhudilik) qəbul etmiş bir türk toplumudur.

Karaimlərin türk kimliyi 1920-ci ildən sonra Sereya Şapşalın fəaliyyətləri ilə aktuallıq qazanmış, A. Zayançkovski kimi dilçilər də daxil olmaqla görkəmli karaim ziyalıları tərəfindən qəbul edilmişdir. [10,132]. "Özlərini xəzərlərin davamı kimi görən Krım karaimlərinin türk olduqlarının ən böyük sübutu onların mədəniyyəti və dilidir" [7,23]. Bartoldun fikrincə, yəhudi dini Xəzər türklərinin yox, Xəzər Xaqanlığının dövlət dini idi və dövlət dağılana kimi Musəvilik burada hakim bir din olmuşdur. [3,61]. VII-X əsrlər boyu türk dövlətlərindən olan Xəzər xaqanlığının Musəvilik dininə meyl etməsindən sonra xəzər türklərinin öz yazılarında ibrani əlifbasından istifadə etdiyi məlumdur. Tülay Çulha Xəzər xaqanlığının dağılmasından sonra bu tayfaların əsasən Krımda yerləşdiyini və karazim məzhəbinin geniş bir ərazidə yayıldığını, bu məzhəbə mənsub türk xalqlarının Karay türkləri adlandırıldığını vurğulayır [5, 20].

Karaimlərin yəhudi kökənli olmasını onların dinini qəbul etməsi və çox uzun müddət əlifbalarından istifadə etməsi ilə əlaqələndirirlər. Lakin tarixə nəzər saldıqda türk xalqlarının müxtəlif səbəblərdən fərqli din və inancları mənimsədiyini, həmçinin bir çox əlifbalardan istifadə etdiyini görürük. Məsələyə bu şəkildə yanaşdıqda karaimlərin müəyyən zaman çərçivəsində ibri qrafikasını işlətməsini və yəhudi dininin bir qoluna "karaizm məzhəbinə" inanmasını əsas götürərək onları qeyri-türk olduğunu iddia etmək məntiqi cəhətdən doğru deyildir. Çünki bir xalqın milli kimliyini müəyyən etmək üçün ilk nəzər salınacaq fakt onun dilidir. Karaimlərin ibri qrafikası ilə yazılan mətnlərinin çox böyük bir hissəsinin isə dili məhz türkcədir. Digər çox mühüm faktlardan biri isə bu mətnlərin əsas hissəsinin ortaq türk folklorundan ibarət olmasıdır. Sonrakı dövrlərdə kiril və latın qrafikası ilə yazılan mətnlərin böyük əksəriyyətinin də ana mövzusu məhz bir çox türk dilləri ilə paralellik təşkil edən folklor nümunələridir.

XX əsrdən etibarən karaim dilinin linqvistik xüsusiyyətlərini əks etdirən elmi əsərlər meydan çıxır. Bunlardan biri 1929-cu ildə Kovalski tərəfindən karaim dilinin Trakay dialekti ilə bağlı almanca yazılan qrammatika kitabıdır *(Karaimische Texte im Dialekt von Troki.).* Bu dilə aid digər önəmli qrammatika kitabı K.Musayevin *"Грамматика Караимского Языка- Фонетика и морфология"* adlı əsərdir.

K.M.Musaev 1964-cü ildə karaim dilin qrammatikasına dair yazdığı əsərində ənənəvi bölgünü qəbul etmir. Onun fikrincə, karaim dilinin yalnız Trakay və Qaliç dialekti mövcuddur. O bildirir ki, Krım karaimlərinin dili zaman keçdikcə sayca üstün olan yerli əhalinin - Krım tatarlarının dilindən təsirlənərək tədricən assimiliyasiyaya məruz qalmışdır. Daha sonra tədqiqatçı Krımda qədim əlyazmalarda, Bibliyanın tərcümələrində karaim dilinin bir çox xüsusiyyətlərinin qorunub saxlandığını, lakin bu dilin Krım tatar dilinə daha yaxın bir dil olduğunu söyləyir. Bu səbəbdən Musaev Krım karaimlərinin dilini karaim dilinin bir dialekti kimi ayırmağı məqsədəuğun hesab etmir [13, 36-37]. Hər hansı dil daşıyıcılarının məskunlaşdığı coğrafiyada hakim mövqedə olan bir dilin digər dilə təsiri qaçılmazdır. Bu təsirin az və çoxluğundan asılı olaraq tədricən və ya tamamilə assimilyasiyaya məruz qalan dilin mövcudluğunu inkar etmək qəbuledilməzdir. Eləcə də, müasir dövrdə digər iki dialektdə danışanların sayının azlığı səbəbindən tədricən istifadədən qalması və digər dillərin təsiri altında assimilyasiyaya uğraması gələcəkdə bu iki dialektin varlığını da inkar etməyə əsas vermir. Xüsusilə XIX-XX əsrlərə aid ibri qrafikalı materialların dil və məzmun etibarilə Krımda yaşayan karaimlərə məxsus olması faktı diqqətə alınarsa bu dialektin öyrənilməsi və tədqiqi labüddür. Karaim dilinin tədqiqinə yönəldilmiş ən mühüm addımlardan biri də bu dildə lüğətlərin hazırlanmasıdır. 1974-cü ildə Baskakov, Zayançkovski və Şapşal tərəfindən hazırlanan karaimcə-rusca-polyakca üçdilli lüğət bu dilə məxsus sözləri əhatəli şəkildə özündə birləşdirən ilk mənbə hesab olunur [4]. Lüğətdə dialekt fərqlərinin qeyd olunması karaim dilinin müqayisəli şəkildə öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. 2015-ci ildə isə Gülayhan Aqtay və Henrix Jankovski tərəfindən Krım dialektinə aid sözlərin yer aldığı lüğət nəşr edilmişdir. Lüğət 2020-ci ildə Tülay Çulha tərəfindən Türkiyə türkcəsinə tərcümə edilmişdir [8].

Müasir dövrdə bu dilin linqvistik xüsusiyyətlərini əks etdirən elmi əsərlər meydana çıxır. Bu əsərlər sırasında Tülay Çulhanın "Karaycanın karşılaştırmalı grameri" bu dilin fonetik və morfoloji xüsusiyyətlərinin əks etdirən qiymətli monoqrafiya hesab etmək olar. Karaimlər və onların dilinin, tarixinin, folklorunun geniş aspektdə öyrənilməsində Abdülkadir Öztürk, Timur Kocaoğlu, Fatih Şayhan, Hüseyn Yıldız, Selma Gülsevin, Murat Koçak, Michal Nemeth, Kamil Staçkovski, Henrix Jankovski, Eva Csato, Szymon Pilecki, Anna Sulimowicz kimi tədqiqatçıların araşdırmaları böyük rol oynayır.

Müasir dövrdə karaim dili əsasən təhlükə altında olan dillər konteksində öyrənilir. Canlı danışıq mühitinin zəifləməsi dil materiallarının toplanmasını çətinləşdirsə də, mövcud yazılı mətnlər və arxiv materialları elmi tədqiqatlar üçün böyük potensial daşıyır. Rəqəmsal dil resurslarının yaradılması və interdisiplinar yanaşmalar karaim dilinin türkoloji tədqiqatlarda mövqeyini gücləndirə bilər. Karaim dilinin tədqiq tarixi göstərir ki, bu dil türkoloji elmin inkişaf prosesində tədricən öz yerini tutmuşdur. Erkən təsviri mərhələdən struktur və müqayisəli tədqiqat mərhələsinə keçid karaim dilinin elmi əhəmiyyətini artırmışdır. Karaim dili türk dillərinin tarixi inkişafının öyrənilməsi üçün nadir və qiymətli dil nümunəsi olaraq gələcək tədqiqatlar üçün də mühüm perspektivlər açır.

ƏDƏBIYYAT

1. Adamczuk, L. *Socjologiczny obraz współczesnego życia Karaimów na Litwie i w Polsce.* 2004, Awazymyz. Pismo historyczno-społeczno-kulturalne Karaimów. 3- 6.
2. Arık, Durmuş. *Türk Yahudiler: Kırım Karaileri.* Dini Araştırmalar 7/21 2005, s. 27-50.
3. Bartold V. *Orta Asya Türk Tarihi Hakkında Dersler,* İstanbul, 1995, s.57-58.
4. Baskakov N.A., A. Zayaczkovski, S.M. Şapşal (1974). *Karaimsko-Russko-Polskiy slovar (KRPS)*, Moskva.
5. Çulha Tülay. *Kırım Karaycasının Katık Mecuması*. Ankara: Türk Dil Kurumu, 2015. 600 s.
6. Çulha Tülay. *Sereya Şapşala göre Kırım Karay Türkleri.* Türk Dilleri Araştırmaları, c.12, İstanbul: 2002.
7. Erdoğan Altınkaynak., *Tozlu zaman perdesinde Krım Karayları.* Sota yayınları, 2006.
8. Gulayhan, A., Jankowski H. *Kırım Karaycası Türkçe Sözlük (Çev. Tülay Çulha).* İstanbul, 2020: Asos Yayınları.
9. Harviainen Tapani., *The Karaites in Eastern Europe and the Crimea: An Overview.* Leiden and Boston, 2003, p. 633-655.
10. Jankovski Henryk., *Position of Karaim among the Turkic Languages.* Studia Orientalia, 2003, p. 131-153.
11. Kocaoğlu Timur, *Karay the Trakai Dialect,* 2006, Lincom Europa.
12. Stachowski Kamil., *The Discussion On Consonant Harmony In Northwestern Karaim.* Türkbilig 18, 2009.
13. Мусаев К.М., *Грамматика караимского языка-фонетика и морфология.* Москва, 1964.

Khayal ASGARLI

KARAİMS AND THEİR LANGUAGE: RESEARCH PROBLEMS AND PERSPECTİVES

SUMMARY

The study of the Karaim language occupies an important place in the context of Turkological research, and the study of this language has gone through various scientific stages. The first scientific information about the Karaim language dates back to the late 18th and early 19th centuries. Early studies were more descriptive in nature and based on ethnographic and religious interests rather than linguistics. The religious texts, prayer books, and legal documents of the Karaim Turks have attracted the attention of researchers, but these texts have not been systematically studied from a linguistic perspective. In the early stages, the Karaim language was often considered a "special community language", and its genetic relationship with the Turkic languages was not clearly established. Since the mid-19th century, research on this language has waned and has been left out of research. In modern times, Karaim Turkish, which is on UNESCO's "Endangered Languages" list, has attracted great interest from researchers. Recently, extensive research has been conducted on the Karaims, their language, and their history.

Key words: *Karaim, Turkological research, Khazar Turks, ethnic identity, history of research, Karaism*

Хаял Асгарли

КАРАИМЫ И ИХ ЯЗЫК: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ ИССЛЕДОВАНИЯ

РЕЗЮМЕ

Изучение караимского языка занимает важное место в контексте тюркологических исследований, и изучение этого языка прошло различные научные этапы. Первые научные сведения о караимском языке относятся к концу XVIII и началу XIX веков. Ранние исследования носили скорее описательный характер и основывались скорее на этнографических и религиозных интересах, чем на лингвистике. Религиозные тексты, молитвенники и правовые документы караимских турок привлекали внимание исследователей, однако эти тексты не были систематически изучены с лингвистической точки зрения. На ранних этапах караимский язык часто считался «особым общинным языком», и его генетическая связь с тюркскими языками не была четко установлена. С середины XIX века исследования этого языка пришли в упадок и были исключены из научных исследований. В современную эпоху караимский турецкий язык, включенный в список «Исчезающих языков» ЮНЕСКО, привлек большой интерес исследователей. В последнее время проводятся обширные исследования караимов, их языка и истории.

Ключевые слова: *караим, тюркологические исследования, хазары, этническая идентичность, история исследований, караизм*

Rəna ƏKBƏRLİ*

İMADƏDDİN NƏSİMİNİN DİVANINDA İŞLƏNƏN FARS MƏNŞƏLİ SİFƏTLƏR

XÜLASƏ

Məqalədə XIV əsr Azərbaycan ədəbiyyatının dahi nümayəndəsi İmadəddin Nəsiminin anadilli divanında işlənən fars mənşəli sifətlər leksik və semantik baxımdan araşdırılmışdır. Burada əsas məqsəd Nəsiminin ədəbi dilindəki fars mənşəli sifətlərin hansı məna və funksiyalarda işlədildiyini müəyyənləşdirməkdir. Məqalədə fars mənşəli sifətlər mənalarına görə üç əsas qrupa bölünmüşdür: a) əlamət bildirən sifətlər; b) keyfiyyət bildirən sifətlər; c) dad bildirən sifətlər

Nəsiminin divanından seçilmiş nümunələr göstərir ki, bəzi sifətlər mətndə kontekstdən asılı olaraq həm əlamət, həm də keyfiyyət mənalarında çıxış edə bilir. Bu isə onu göstərir ki, sifətlərin leksik-semantik funksiyasını müəyyənləşdirərkən yalnız qrammatik göstəricilər deyil, kontekst də əsas götürülməlidir.

Məqalədə “ziba”, “xub”, “aram”, “pak”, “pakizə”, “şirin” kimi fars mənşəli sifətlər Nəsiminin divanında işlənmə xüsusiyyətləri klassik fars və Azərbaycan lüğətlərinə istinad edilərək şərh olunmuşdur. Bu sifətlərin bəzilərinin yalnız zahiri gözəllik və fiziki xüsusiyyətləri deyil, eyni zamanda daxili gözəlliyi, mənəvi kamilliyi də ifadə etdiyi vurğulanmışdır.

Açar sözlər: *Nəsiminin anadilli divanı, fars mənşəli sifətlər, əlamət, keyfiyyət və dad bildirən sifətlər*

İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının dahi mütəfəkkir şairlərindən biridir. O, XIV əsrdə yaşamış və yaradıcılığı ilə təsəvvüf ədəbiyyatında hürufilik ideyalarının bədii ifadəsinə xüsusi yer vermişdir. Nəsiminin əsərləri milli ədəbiyyatımızda mühüm mövqe tutur. Həmin dövrdə fars dili aparıcı və saray dili kimi üstün mövqeyə malik olsa da, İmadəddin Nəsimi ana dilində divan qələmə almışdır. Bu fakt onun Azərbaycan ədəbi dilinin inkişafına şüurlu şəkildə xidmət edən, ana dilinə sədaqət göstərən böyük sənətkarlardan biri olduğunu sübut edir. Şairin divanında işlənən hər sözün dərin fəlsəfi mənası vardır. Anadilli divana nəzər yetirdikdə orada ən çox bənzətmələrdən, mübaliğə və şişirtmələrdən istifadə etdiyini görürük. İ.Nəsiminin divanında sifətlərə geniş şəkildə rast gəlmək mümkündür. Sifət əşyanın əlamət və keyfiyyətini bildirən əsas nitq hissəsidir. Sifətləri cümlədə işləndiyi vəzifə və mənalarına görə ayırd etmək olur. Digər nitq hissələrindən fərqli olaraq sifətin dərəcə anlayışı vardır ki, bu xüsusiyyətlə də biz

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dili tarixi şöbəsi, kiçik elmi işçi. Email:

sifətləri seçə bilərik.

İ.Nəsiminin divanında işlənən fars mənşəli sifətləri keyfiyyət bildirən, əlamət bildirən və dad bildirmə xüsusiyyətlərinə görə qruplaşdırmaq olar. Keyfiyyət bildirən sifətlər həm daxili, həm də zahiri özəlliyi özündə daşıyır. Əlamət bildirən sifətlər isə daha çox zahiri görünüşü bildirir. Keyfiyyət bildirən sifətlərlə əlamət bildirən sifətlər arasındakı fərq çox azdır. Yəni, seçdiyimiz bir söz həm keyfiyyət, həm də əlamət bildirən sifət ola bilər. Müəyyənləşdirmək üçün mənaya baxmaq lazımdır.

زیبا (ziba) – gözəl. İmadəddin Nəsiminin divanında bu söz daha çox sifət kimi işlənmişdir. C.Qəhrəmanov "gözəl" mənasında işləndiyini yazır [5, 336]; F.Məzəmli "gözəl, göyçək; bəzəkli, zinətli, yaraşıqlı, qəşəng" mənalarda işləndiyini bildirir [6, 187]; Klassik lüğətdə "bəzəkli, zinətli; yaraşıqlı, gözəl" mənalarında işləndiyi qeyd edilir [4, II c., 459]; M.Moin bu sözün "gözəlləşmiş; gözəl, qəşəng" mənalarında işləndiyini göstərir [9, II c., 1767].

زیبا حسن بو ایا دور حکمت نه
اوخورلر سلطان عالملره سنی [7, 168]
Nə hikmətdür, əya, bu hüsnü ziba,
Səni aləmlərə sultan oxurlar?

Bu beytdə deyilir: "Nə hikmətdir ki, sənin bu gözəl hüsnün, aləmlərin hökmdarını vəsf edirlər". Beytdə "ziba" leksik vahidi əlamət bildirən sifətdir. İnsanın xarici gözəlliyindən, gözəl üzdən bəhs edir.

خوب (xub) – gözəl. İmadəddin Nəsiminin "Zülfi-dütası şahımın həlqəsi mah içindədir" mətləli qəzəlində bu sözün sifət kimi işləndiyi müşahidə olunur. C.Qəhrəmanovun fikrincə, burada "xub" leksik vahidi "gözəl" mənasında işlənmişdir [5, 277]; F.Məzəmli "yaxşı, gözəl, xoş" anlamında olduğunu qeyd edir [6, 98]; Klassik lüğətdə "yaxşı; əcaib, qəribə; gözəl, göyçək" semantik çalarlarda işləndiyi göstərilir [3, I c., 284]; M.Moin (pəhləvi dilində xvap, xūp) "yaxşı, xoş; gözəl" mənalarını ifadə etdiyini yazır [8, I c., 1451].

سی سدره که اولا یمش اول حلاوت شدیرین
اولا اصول شدیرین و خلقت خوب ذاتنده [7, 53]
Şirin həlavət ol yemiş ola ki, sidrəsi,
Zatında xub xilqətü şirinüsul ola.

Nümunədə işlənən "xub" yəni "gözəl" sözü keyfiyyət bildirən sifət hesab edilir, çünki beytdə xarici gözəllik nəzərdə tutulmur. Şair daxili gözəllik, gözəl yaradılışı nəzərdə tutur. Məhz buna görə də mənaya nəzər yetirmək lazımdır.

Keyfiyyət bildirən sifətlər

آرام (aram) – rahatlanma, dincəlmə. İmadəddin Nəsiminin divanında bu söz daha çox sifət kimi işlənmişdir. C.Qəhrəmanovun fikrincə, "rahatlanma, dincəlmə; səbir, qərar tapma" mənalarını ifadə edir [5, 56]; F. Məzəmli "sakit olma, qərar tutma, rahatlanma" anlamında işləndiyini qeyd edir [6, 21]; Klassik lüğətdə "qərar tapma, sakit olma; rahatlanma, rahat olma; bir yerdə qalma, sakit olma" mənalarında işlənmişdir [3, I c., 18]; X.Heydərovanın fikrincə, "qərar tapma, sakit olma; könül rahatlığı" anlamını ifadə edir [1, I c., 48]; M.Moin bu sözün (a+ram - istirahət etmək) "sakit, yavaş" mənalarında işləndiyini göstərir [8, I c., 41].

هجران نارا اولدی کتمز قتمدن
جانم آرام ندیدم بیلمن چکه [7, 525]
Qatımdan getməz oldi nari-hicran,
Çəkə bilmən, nedəm arami-canım

Beytdə deyilir: "Yanımdan getməz oldu ayrılıq, çəkə bilməm nə edim canım aramı". Şair bu nümunədə demək istəyir ki, zahirən yanında olsa belə mənəvi ayrılıq hissi yaşayır və canında olan rahatlıq bu ayrılığa dözə bilmir.

پاک (pak) – təmiz, saf. İmadəddin Nəsiminin divanında daha çox sifət kimi işlənmişdir. C.Qəhrəmanov sözün "təmiz, saf, müqəddəs" semantik çalarlarda işləndiyini qeyd edir [5, 197];

F.Məzəmli “təmiz; ləkəsiz, eyibsiz, nöqsansız, saf, xalis; müqəddəs, mübarək, əziz (dini)” kimi şərh edir [6, 134]; Klassik lüğətdə “təmiz; ləkəsiz, eyibsiz, nöqsansız; saf, xalis, təmiz; müqəddəs, mübarək, əziz” mənalarında işlənmişdir [4, II c., 208].

سنه دریا وحدتنک طال اولوب صاف و پاک درّ کل
کلور مرجان کهر و درّ شمار بی عدندن کوچه [7, 23]

Gəl dürri pakü saf olub, tal vəhdətiŋ dəryasına,
Gərçi edəndən bişümar dürrü gövhər, mərcan gəlir.

Şərhi: Gəl saf inci olan, vəhdət dənizinə atıl, hərçənd o zaman saysız-hesabsız inci, gövhər gəlir. Bu misrada şair demək istəyir ki, hər şeydən ayrılıb, saf, qiymətli bir yerə atıl, o zaman dəyərli olarsan.

پاکیزه (pakizə) – təmiz, saf. İmadəddin Nəsiminin divanında bu söz daha çox sifət kimi işlənmişdir. C.Qəhrəmanov “təmiz, saf” mənalarını ifadə etdiyini yazır [5, 197]; F.Məzəmli “təmiz, pak; ləkəsiz, xalis, saf, gözəl” mənalarında işləndiyini göstərir [6, 134]; Klassik lüğətdə “təmiz, pak; ləkəsiz, xalis, saf; gözəl” anlamında işlənmişdir [4, II c., 208]; M.Moin “pak, gözəl, müqəddəs; xalis, saf; nöqsansız və qüsursuz, nəzakətli” mənalarında işləndiyini qeyd edir [8, I c., 673].

ارواح خلقه اولدی طیزندن تنک
جوهر پاکیزه زهی الله تعالی [7, 123]

Tənin tinindən oldu xəlq ərvah,
Təaləllah, zəhi pakizə cövhər.

Beytin izahı: “Bədənin daxilində oldu yaranmış ruhlar, uca Allah saf cövhərdir”. Şair burada uca Allahın, ruhu insanın bədənindən yaratdığını və onun necə saf və pak olduğunu bildirir.

Dad bildirən sifət

شیرین (şirin) – qənd, şəkər; xoşagələn, ürəyəyatan. İmadəddin Nəsiminin divanında bu söz daha çox sifət kimi işlənmişdir. F.Məzəmli “qənd, şəkər, konfet, nabat və s. şirin şeylər; şirniyyat, qənnadı” mənalarda işləndiyini bildirir [6, 171]; Klassik lüğətdə “şəkər, qənd dadı; məc. xoşagələn, ürəyəyatan, bəyənilən; xoş, unudulmaz” mənalarında işlənmişdir [4, II c., 331]; M.Moin bu sözün “şəkər və konfet dadı olan hər şey” mənasında işləndiyini qeyd edir [9, II c., 2109]

ذولا سم دیر شکر کریارب شیرین نه لب شول
قمردیر سم کر آیه طلعتلوک نش شول [7, 50]

Şol ləbi şirinə, yarəb, gər şəkər dirsəm, nola?
Şol günəş təl’ətlu ayə gər qəmər dirsəm, nola?

Beytdə deyilir: “O şirin dodağına, yarəb, əgər şəkər desəm nə olar? O günəş kimi parlaq üzə əgər ay desəm nə olar?” Şair burada bənzətmədən istifadə edərək şirin dodağı şəkərə, üzü isə aya bənzətmişdir.

ƏDƏBİYYAT

1. Heydərova Xədicə. Nəsiminin anadilli əsərlərinin izahlı-ensiklopedik lüğəti. I cild. Bakı: “Nurlan” nəşriyyatı, 2019, 344 səh.
2. Hüseynzadə Muxtar. Müasir Azərbaycan dili. Bakı, 1983, 320 səh.
3. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti iki cilddə. I cild. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2005, 414 səh.
4. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti iki cilddə. II cild. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2005, 470 səh.
5. Qəhrəmanov Cahangir. Nəsimi “Divanı”ının leksikası. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2019, 651 səh.
6. Məzəmli Fərhad. Azərbaycan dilində Fars sözləri lüğəti. Bakı, “Çıraq” nəşriyyatı, 2004, 199 səh.

7. عمادالدین نسیمی. اثرلری. اوچ جلدده، اول جلد، باکی جلد، ۱۹۷۳
8. محمد معین. فرهنگ فارسی، جلد فارسی، اول، تشارات تهران، ۱۹۷۲ امیرکبیر
9. محمد معین. فرهنگ فارسی، جلد فارسی، دوم، تشارات تهران، ۱۹۷۲ امیرکبیر

РЕЗЮМЕ

В статье лексико-семантически исследуются прилагательные персидского происхождения, употребляемые в диване на родном языке выдающегося представителя азербайджанской литературы XIV века Имадеддина Насими. Основной целью исследования является выявление семантических значений и функциональных особенностей прилагательных персидского происхождения в литературном языке Насими. В ходе исследования данные прилагательные были классифицированы по значению на три основные группы: а) прилагательные, обозначающие признак; б) прилагательные, обозначающие качество; в) прилагательные, обозначающие вкус. Анализ примеров, отобранных из дивана Насими, показывает, что некоторые прилагательные в зависимости от контекста могут выступать как в значении признака, так и в значении качества. Это свидетельствует о том, что при определении лексико- семантической функции прилагательных решающую роль играет не только грамматический показатель, но и контекст.

В статье на основе классических персидских и азербайджанских словарей проанализированы особенности употребления персидского происхождения прилагательных ziba, xub, aram, pak, pakizə, şirin в диване Насими. Подчеркивается, что данные прилагательные выражают не только внешнюю красоту и физические характеристики, но и внутреннюю красоту, а также духовное совершенство.

Ключевые слова: *диван Насими на родном языке, прилагательные персидского происхождения, прилагательные признака, прилагательные качества, прилагательные вкуса.*

SUMMARY

The article examines adjectives of Persian origin used in the native-language divan of Imadaddin Nasimi, the eminent representative of 14th-century Azerbaijani literature, from a lexical and semantic perspective. The main aim of the study is to identify the semantic meanings and functional roles of Persian-origin adjectives in Nasimi's literary language. In the course of the research, these adjectives were classified into three main groups according to their meanings: a) adjectives denoting attributes; b) adjectives denoting qualities; c) adjectives denoting taste.

The analysis of examples selected from Nasimi's divan demonstrates that some adjectives, depending on the context, may function both as attribute-denoting and quality-denoting adjectives. This indicates that, in determining the lexical-semantic function of adjectives, not only grammatical markers but also contextual factors should be taken into account. In the article, the usage characteristics of Persian-origin adjectives ziba, xub, aram, pak, pakizə, and şirin in Nasimi's Divan are analyzed with reference to classical Persian and Azerbaijani dictionaries. It is emphasized that these adjectives express not only external beauty and physical characteristics, but also inner beauty and spiritual perfection.

Keywords: *Nasimi's native-language divan, adjectives of Persian origin, attribute-denoting adjectives, quality-denoting adjectives, taste-denoting adjectives.*

Qubad CƏBRAYILOV*

OĞUZ QRUPU TÜRK DİLLƏRİNDƏ (AZƏRBAYCAN VƏ TÜRKİYƏ TÜRKCƏSİ ÜZRƏ) İSMİN HAL KATEQORİYASININ STRUKTUR VƏ TARİXİ İNKİŞAFI

XÜLASƏ

İsim halları, isimlərin cümlədəki sintaktik funksiyasını göstərən qrammatik formalardır və sözlər arasında qrammatik bağlılığı təmin edir. Halların müxtəlifliyi çoxlu sayda qrammatik halın yaranmasına səbəb olmuş, bir sıra dillərdə ismin halları sayca çox olmuşdur. Hal şəkilçiləri morfoloji vahid olsa da, sintaktik rol da daşıyır. Azərbaycan və Türkiyə türkcəsi aqlutinativ dillər olduğundan hallar əsasən şəkilçi ilə ifadə edilir və hər iki dil Altay dilləri qrupuna daxildir. Oğuz qrupu türk dilləri (Azərbaycan, Türkiyə, Türkmən, Qaqauz) ismin hallarında böyük bənzərlik göstərir, lakin spesifik fərqlər mövcuddur.

Açar sözlər: *Oğuz qrupu türk dilləri, ismin hal kateqoriyası, tarixi morfologiya, müqayisəli qrammatika, Azərbaycan türkcəsi, Türkiyə türkcəsi.*

Oğuz qrupu türk dilləri (Azərbaycan, Türkiyə, Türkmən, Qaqauz) minillik inkişaf prosesi nəticəsində ismin hal sistemində qədim kökləri saxlayaraq bəzi özünəməxsus dəyişikliklərə uğramışdır. Struktur baxımından bənzər hallara malik dillər, fonetik və semantik fərqlər səbəbindən maraqlı təkamül mənzərəsi göstərir. Azərbaycan və Türkiyə türkcələrinin kökü Qədim Türk dilinə (Orxon-Yenisey abidələri dövrü) əsaslanır.

Oğuz qrupu türk dillərinin (Azərbaycan, Türkiyə, Türkmən və Qaqauz dilləri) tarixi inkişafı üç başlıca mərhələ əsasında təsnif etmək olar:

Qədim dövr (VIII–XI əsrlər): Bu dövrdə ismin halları kateqoriyasında vahid və ortaq qaydalar yer alırdı. Məsələn, yönlük hal **-ka/-ke** və **-aru/-erü** şəkilçiləri ilə formalaşırdı [2, 112]. Təsirlik halda isə əsasən **-ığ/-ig** forması üstünlük təşkil edirdi [1, 67].

Qədim dövr türk dillərində ismin 7 halı fərqləndirilir:

1. Adlıq hal (Yalın durum): Heç bir şəkilçisi yoxdur. Söz kök halında olur (*Kağan* (Xaqan), *Sü* (Ordu), *Bilig* (Bilik)); **2. Yiyəlik hal (İlgi durumu): -ıŋ / -niŋ / -uŋ** *(Türk budun**uŋ*** (Türk xalqının), *Kül tigin**niŋ*** (Kül tiginin)).**Qeyd:** Samitlə bitənlərdə *-ıŋ*, saitlə bitənlərdə *-niŋ* işlənirdi. **3. Yönlük hal (Yönelme durumu): -ka / -ke** və ya **-ga / -ge** Müasir Azərbaycan dilindəki "-a / -ə" şəkilçisinin əcdadıdır (*Tengri**ke*** (Tanrıya), *Budun**ga*** (Xalqa), *Eb**ge*** (Evə); **4. Təsirlik hal (Belirtme durumu): -ığ / -ig, -nı / -ni** və bəzən sadəcə **-n**. (*Bitig**ig*** (Bitiyi/yazını), *Kağan**ığ*** (Xaqanı)); **5. Yerlik hal (Bulunma durumu): -da / -de**. *Ötüken yış**da*** (Ötükən meşəsində), *Ordu**da*** (Ordugahda)); **6. Çıxışlıq hal (Ayrılma durumu):** Qədim türkcənin ən erkən dövrlərində çıxışlıq hal üçün ayrıca şəkilçi yox idi, yerlik hal şəkilçisi (**-da / -de**) bu funksiyanı da yerinə yetirirdi. Sonradan **-dan / -den** (əslində *-dın / -din*) formalaşdı *(Tamug**da*** (Cəhənnəmdən - qədim dövr)); **7. Vasitə halı (Vasıta durumu)-n / -ın / -un** *(Kılıç**ın*** (Qılıncla), *Oq**un*** (Oxla)).

Orta dövr (XIII–XVIII əsrlər): Bu dövrdə Oğuz dili tədricən **iki əsas qola** ayrıldı: **Qərb Oğuz** (Anadolu türkcəsi); **Şərq Oğuz** (Azərbaycan türkcəsi) [9, 89]. **Azərbaycan türkcəsində:** Səfəvilər dövründə və sonrasında dil klassik ünsürləri və sabit fonetik quruluşu qorudu [5, 74]. **Türkiyə türkcəsində:** Osmanlı dövründə ərəb və fars tərkibləri artsa da, xalq dili (əski Anadolu türkcəsi) sadəliyini saxladı [6, 41].

Hal kateqoriyası: 1. Adlıq hal: Qədim dövrdə olduğu kimi, heç bir xüsusi şəkilçisi yoxdur (*Göz, Könül, Yol*); **2. Yiyəlik hal: -uñ / -üñ** və ya **-nuñ / -nüñ** (*Gözüñ* (Gözün), *Qapu**nuñ*** (Qapının); **3. Yönlük hal: -ka / -ke** şəkilçisi orta dövrdə artıq tamamilə yumşalaraq müasir formaya — **-a / -ə** halına düşmüşdür

* Bakı Avrasiya Universiteti, baş müəllimi. Email: gubad88@mail.ru

(*Dəryay**a**, Evinə, Yol**a***); **4. Təsirlik hal: -ı / -i** *Göz**i*** (Gözü), *Söz**ü*** (Sözü); **5. Yerlik hal: -da / -de** *(Şəhər**də**, Arada, Göz**də**.*); Orta dövrdə çıxışlıq hal artıq yerlik haldan tamamilə ayrılmış və **-dan / -den** (və ya *-dın / -din*) şəkilçisi ilə sabitləşmişdir. Lakin bəzi mətnlərdə hələ də sait fərqliliyi (**-dan / -dən**) tam oturmamışdı.(*Gök**dən**, Baş**dan**, Can**dan***).

Müasir dövr (XIX əsr – bu gün)

Hər iki dil öz fonetik qanunauyğunluqlarına əsasən ismin halları sistemini standartlaşdırmışdır. Müasir Azərbaycan və Türkiyə türkcəsində ismin halları sistemində struktur baxımından böyük oxşarlıqlar mövcuddur, lakin fonetik və bəzi morfoloji fərqlər hələ də dialekt səviyyəsində qorunmaqdadır [2, 125; 6, 45]. Bir sıra tədqiqatçılar ismin halları üzrə öz mülahizələrini irəli sürmüş, onların tarixi və müqayisəli xüsusiyyətlərini təhlil etmişlər.

N. Xudiyev qeyd edir ki, **qədim türk yazılı abidələrdə adlıq hal morfoloji əlamət daşımır, mücərrəd mənalı olub mübtəda, təyin və xəbər funksiyasını yerinə yetirir. Yiyəlik halın -ıq/-ig formaları az fəal olub, "ŋ"-li formalar Azərbaycan dilinin qərb dialektlərində qorunub. Yönlük hal -ka/-kə/-ya/-yə şəkilçiləri ilə hərəkətin yönünü, səbəbini, məqsədini və məkanını göstərir.** [10, 92-93]. Görkəmli dilçi Əzizxan Tanrıverdiyə istinadla, Mirzə Kazım bəy (1839) ismin 7 halını ərəb terminləri ilə təsnif etmişdir: adlıq, yiyəlik, yönlük, təsirlik, çağırış, çıxışlıq və yerlik. Terminlərin sıralaması və funksiyaları ərəb qrammatikasına uyğun seçilmişdir [8, 197-198]. Professor Kamil Bəşirov bildirir ki, Oğuz qrupu türk dillərində halların funksiyaları bir-birinə keçə bilər və hal əvəzlənməsi müşahidə olunur. Adlı hal yönlük hal əvəzlənməsi: *"Ol sərvi-rəvan (rəvan<u>a</u>) sarı yeridi (Xətai).";* Yönlük hal yerlşik hal əvəzlənməsi: *"Bu ağzım<u>a</u> (ağzım<u>da</u>) gər olaydı min dil (Xətai).";* Yönlük hal çıxışlıq hal əvəzlənməsi:*"Mən gəlincən uşağ<u>a</u> (uşaq<u>dan</u>) miğyat ol (Sarı kəndi).";* Çıxışlıq hal yönlük hal əvəzlənməsi:*" Axşam<u>nan</u> (axşam<u>a</u>) üş saat qalmış çatdıx Bəkiyə (Gəyəli kəndi).";*Çıxışlıq hal yerlik hal əvəzlənməsi *"Uzax<u>dan</u> (uzaq<u>da</u>) otumuyun, yaxın ə:lin (Rəzdərə kəndi)"* [3, 135-136]. Türkiyədə klassik dilçilik məktəbinin nümayəndəsi Muharrem Ergin ismin beş halını (Yalın, Yükleme, Yönelme, Bulunma, Ayrılma) göstərir və yiyəlik halını (-ın, -in) ayrıca hal saymayaraq, tamlama şəkilçisi kimi qəbul edir. [4, 228-240]. Görkəmli türk dilçisi Zeynep Korkmaz "Türkiye Türkçesi Grameri (Şekil Bilgisi)"ndə ismin ənənəvi 5 halını əsas götürür və "Vasıta" (ilə) ilə "Eşitlik" (-ca) formalarının hal funksiyasına da yaxın olduğunu göstərir [7, 250-285].

Türkiyəli tədqiqatçıların yanaşmasına əsasən, ismin hal formaları aşağıdakı şəkildə müəyyənləşdirilir:

1. Yalın Hâl: şəkilçisiz (*Kitap, ev, çiçek, çocuk.)*; **2. Belirtme Hâli: -ı, -i, -u, -ü** (*Kitabı* okudum. *Evi* temizledim.); **3. Yönelme Hâli: -a, -e** (*Okula* gidiyorum. *Eve* bakıyorum.); **4. Bulunma Hâli: -da, -de / -ta, -te** (*Sokakta* bekliyorum. *Evde* dinleniyorum.); **5. Ayrılma Hâli: -dan, -den / -tan, -ten** (*Okuldan* geliyorum. *İşten* çıktım.)

Beləliklə, tədqiqatın məqsədi Oğuz qrupu türk dillərində, xüsusilə Azərbaycan və Türkiyə türkcəsində ismin hallarının təkamülünü sistemli şəkildə təqdim edərək, türkoloji dilçilikdə bu sahəyə elmi töhfə verməkdir.

ƏDƏBİYYAT:

1. Axundov, A. A. Azərbaycan dilinin fonetikası. Bakı: Elm, 1984, s. 67

2. Banguoğlu, T. Türkçenin Grameri. Ankara: TDK Yayınları, 2007, s. 112, 125

3. **Bəşirov, K. K.** Türk dillərinin müqayisəsi: Oğuz qrupu türk dillərində morfoloji kateqoriyalar. Bakı: "Elm və təhsil", 2018, s. 135-136

4. **Ergin, M.** Türk Dil Bilgisi. İstanbul: Bayrak Yayınları, 2009, s. 228-240

5. **Kazımov, Q. Ş.** Azərbaycan dilinin dialektologiyası. Bakı: Maarif, 2008, s. 74

6. Korkmaz, Z. Türkiye Türkçesinin Tarihi Grameri. Ankara: TDK Yayınları, 2003, s. 41, 45

7. **Korkmaz, Z.** Türkiye Türkçesi Grameri (Şekil Bilgisi). Ankara: TDK Yayınları, 2009, s. 250-285

8. Tanrıverdi, Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: "Elm və təhsil", 2017, s. 197-198

9. **Tekin, T.** Orhon Yazıtları. Ankara: Türk Dil Kurumu, 1995, s. 89

10. Xudiyev, N. Qədim türk yazılı abidələrinin dili. Bakı: "Elm və təhsil", 2015, s. 91-93

STRUCTURAL AND HİSTORİCAL DEVELOPMENT OF THE NOUN CASE CATEGORY İN OGHUZ GROUP TURKİC LANGUAGES (AZERBAİJANİ AND TURKİSH)

SUMMARY

Noun cases are grammatical forms that indicate the syntactic functions of nouns in a sentence and establish grammatical relations between words. The diversity of cases has led to the emergence of numerous grammatical cases, and in some languages, the number of noun cases is particularly high. Although case affixes are morphological units, they also carry a syntactic function. Since Azerbaijani and Turkish (Turkey) are agglutinative languages, cases are primarily expressed through suffixes, and both languages belong to the Altaic language group. The Oghuz group of Turkic languages (Azerbaijani, Turkish, Turkmen, Gagauz) shows a high degree of similarity in noun cases, though specific differences exist.

Keywords: *Oghuz group of Turkic languages, noun case category, historical morphology, comparative grammar, Azerbaijani Turkish, Turkish.*

СТРУКТУРНОЕ И ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ПАДЕЖНОЙ КАТЕГОРИИ СУЩЕСТВИТЕЛЬНЫХ В ТЮРКСКИХ ЯЗЫКАХ ОГУЗСКОЙ ГРУППЫ (АЗЕРБАЙДЖАНСКОМ И ТУРЕЦКОМ)

РЕЗЮМЕ

Падежи существительных — это грамматические формы, которые указывают на синтаксические функции существительных в предложении и обеспечивают грамматическую связь между словами. Разнообразие падежей привело к появлению большого числа грамматических падежей, и в некоторых языках их количество особенно велико. Хотя падежные аффиксы являются морфологическими единицами, они также выполняют синтаксическую функцию. Поскольку азербайджанский и турецкий (Турция) относятся к агглютинативным языкам, падежи выражаются преимущественно с помощью суффиксов, и оба языка входят в группу алтайских языков. Огузская группа тюркских языков (азербайджанский, турецкий, туркменский, гагаузский) демонстрирует высокую степень сходства в системе падежей, хотя существуют специфические различия.

Ключевые слова: *тюркские языки огузской группы, категория падежей существительного, историческая морфология, сравнительная грамматика, азербайджанский турецкий, турецкий язык.*

Könül EYVAZOVA*

TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNİN ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN BƏZİ ORTAQ FRAZEOLOGİZMLƏR HAQQINDA

XÜLASƏ

Məqalədə türk və Azərbaycan dillərinin şivələrində işlənən bəzi ortaq frazeologizmlərdən bəhs olunur. Araşdırmada qeyd edilir ki, türk və Azərbaycan dillərində strukturca və məzmunca oxşar frazeologizmlərə rast gəlindiyi kimi, müxtəlif məzmunlu və formalı deyimlər də öz zənginliyi seçilir. Hər iki türkcənin həm ədəbi dili, həm də şivələrində qeydə alınan struktur və semantik cəhətdən oxşar frazeologizmlər milli-mədəni şüurun çox qədim ortaq köklərə dayandığını bir daha aydın göstərir. Türk dili şivələrində qeyd alınan frzeologizmlər həm Azərbaycan ədəbi dili, həm dialektləri ilə paralellik təşkil edir. Bu baxımdan məqalədə *acıq etmək // acıq eləmək, acıq vermək // acıq-qıcıq vermək, andıra qalmaq, zəhlə tökmək (aparmaq), nitqi qurumaq, yada düşmək* kimi frazeologizmlər müqayisəli şəkildə təhlil olunur.

Açar sözlər: *Türk və Azərbaycan dillərinin şivələri, dialekt frazeologiyası, ortaq frazeologizmlər, forma və məzmun oxşarlığı.*

* Bakı Dövlət Universietinin doktorantı. Email: kenul.khalil93@mail.ru

Hər bir dilin lüğət tərkibində frazeoloji vahidlər xüsusi yer tutur və bu vahidlər həmin dilin leksik sisteminin mühüm komponentlərindən biri kimi çıxış edir. Müasir elmi-nəzəri yanaşmalar göstərir ki, frazeoloji strukturlar – frazeoloji birləşmələr, sabit ifadələr və ibarələr bir xalqın etnik dünyagörüşü, etnomədəni dəyərlər sistemi və ənənəvi həyat tərzi ilə üzvi surətdə bağlıdır. Bu dil vahidləri xalqın kollektiv düşüncəsinin məhsulu olmaqla, zamanla sabitləşmiş və daşlaşmış şəkildə milli dilin lüğət tərkibinə daxil olmuşdur. Frazeoloji vahidlər yalnız danışıq dilində deyil, həmçinin dialekt və şivələrdə, ədəbi dilin müxtəlif qatlarında, xüsusilə də bədii üslubda geniş şəkildə istifadə olunmaqdadır. Fikri xalqın yaratdığı ifadə vasitələri ilə çatdırmaq üslubi zənginlik yaradır, dilin ifadə imkanlarını genişləndirir, ünsiyyəti daha canlı və təbii edir. Bu baxımdan, türk və Azərbaycan dillərinin şivələrinin leksik xüsusiyyətlərini araşdırarkən həmin şivələrdə işlənən frazeoloji vahidlərin funksional-semantik mahiyyətinə elmi münasibətin formalaşdırılması tədqiqatımızın əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Şivələrdə ortaq frazeoloji vahidlər. Qədim müştərək köklərə malik türk və Azərbaycan dillərində xeyli sayda ortaq leksemlər var ki, ümumanlaşmaya xidmət edən bu leksik vahidlərin bir hissəsinə digər türk dillərində rast gəlindiyi kimi, onlar həm də hər iki türkcənin ədəbi dili və şivələrində işlənərək ünsiyyətə xidmət göstərirlər. Heç şühbəsiz ki, türk və Azərbaycan dillərinin lüğət tərkibində ortaqlıq təşkil edən lüğəvi vahidlər üç şəkildə təzahür edir: a) yalnız ədəbi dillər səviyyəsində ortaq lüğət tərkibi; b) ancaq şivələr səviyyəsində ortaq lüğət tərkibi; c) ədəbi dil-şivə səviyyəsində təzahür edən ortaq lüğət tərkibi. Sonuncuda hər iki türkcənin ədəbi dili və şivələri arasındakı münasibətlərdən söhbət gedir ki, məsələn, bu gün Azərbaycan dili şivələrindəki çox sayda leksik vahidlərə türk ədəbi dilində rast gəlmək olar və ya prosesin əksini görmək olar.

Dilin lüğət tərkibinin mühüm layının təşkil edən frazeologizmlər milli-mədəni təfəkkürün məhsulu kimi spesifik əlamətlərə malikdir. Məlumdur ki, dilin söz varlığında mövcud sözlər öz nominativ mənasından kənarda birləşmə kontekstinə daxil olaraq müəyyən bir anlayışın ifadəçisinə çevrilir ki, bu qəlibdə ortaya çıxan yeni məzmun mahiyyətcə məcazi olduğu kimi, formaca da vahid struktura çevrilmiş, daşlamış dil vahidləridir. Ona görə də dilçilikdə bunlar həm də daşlaşmış, qəlib ifadələr, deyimlər adlandırılır.

Bu milli dil vahidləri komponentlərinin formalaşması baxımından qohum dillərdən fərqləndiyi kimi, həm də ədəbi dil və şivələr səviyyəsində spesifiklik daşıyır. Çünki ədəbi dil üçün səciyyəvi olan, ümumünsiyyətə xidmətə edən frazeoloji birləşmələrlə (*baş vermək, ağlını itirmək, yuxuya getmək* və s.) yanaşı, dialektlərdə həmin qavramları bildirən və ya məzmunu fərqli olan frzaeologizmlər də rast gəlmək olar. Bu qrup ifadələr ya məzmunca, ya da formaca ədəbi dillə səsləşdiyi kimi, bəziləri həm formaca, həm də məzmunda ədəbi dildən fərqlənir. Hətta bunların içərisində elə dil faktları da var ki, yalnız bir şivə səviyyəsində təzahür edir və həmin bölgə insanının təfəkkürünün məhsulu kimi ünsiyyətə xidmət göstərir.

Türklərin qədim mədəniyyətə və dövlətçilik tarixinə malik olması onların dillərinin zənginliyini həm də frazeologizmlərin çoxluğu ilə müşayiət edir. Bu baxımdan türk və Azərbaycan dillərində strukturca və məzmunca oxşar frazeologizmlərə rast gəlindiyi kimi, müxtəlif məzmunlu və formalı deyimlər də öz zənginliyi seçilir. Hər iki türkcənin həm ədəbi dili, həm də şivələrində qeydə alınan struktur və semantik cəhətdən oxşar frazeologizmlər milli-mədəni şüurun çox qədim ortaq köklərə dayandığını aydın göstərir. Türk dili şivələrində qeyd aldığımız frzeologizmlər həm Azərbaycan ədəbi dili, həm dialektləri ilə paralellik təşkil edir. Bunlar iki formada: söz birləşməsi və cümlə modelində özünü göstərir. Söz birləşməsi modelində təzahür edən frazaeologizmlərin, demək olar ki, əskəriyyəti feili frazeoloji birləşmələrdir. Bunları haqqında bəhs edəcəyimiz bəzi dil fatklarında açıq-aşkar görmək mümkündür.

Acıq etmək // acıq eləmək. "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"ndə "münasibətləri pozmaq, küsmək" mənasıda verilən [9, s. 19] bu vahid *acığ eləməy* – "küsmək, üz çevirmək, incimək" mənasında şivələrdə də işlənir: *Gəlin gə: acığ eliyib, dədəsi öyinə getdi* (Neft.). Frazeoloji birləşmə türk dilinin Van, Bitlis şivələrində *acığ etmek* (küsmek, darılmak) formasında bənzər məzmunda qeydə alınmışdır: *Ahmet acığ etti de yemek yemedi* [10]. Bununla yanaşı, Azərbaycan dili şivələrində "küsmək, incimək, qaşqaqabağını sallamaq" mənalarında *dodağını asmax // dodağın asmax* (Zən., F., Cəb., Şş.), *tısı bağlamax* (Şş.), *sımsığını sallamax* (Cəb.), *mısmırığını sallamaq* (Neft.), həmçinin Kərkük şivəsində "acığına getmək" anlamında *ağırına getməy* ifadəsi işlənir.

Acıq vermək // acıq-qıcıq vermək. Ədəbi dildə "qəsdən hirsləndirmək, bilərəkdən qıcıqlandırmaq" mənasında işlənən [9, s. 19] bu frazeoloji vahid Neftçala şivəsində *acıqucı verməy // açı-qıcı verməy* (hirsləndirmək) formasında qeydə alınmışdır: *Mənə acı-qıcı verib neyniyəssən?* [5, s. 54]. Türk dilinin Qars və Diyarbəkir şivələrində isə *acıh vermek* şəklində əsasən "qıcıqlandırmaq, qısqandırmaq" (nisbet yapmak, imrendirmek, kıskandırma) mənasında işlənir [10]. Qeyd edək ki, həmin mənada Naxçıvan şivələrində *zot verməx'* (Bab., Cul., Nax., Şah., Şr.) ifadəsinə rast gəlinir [bax: 6].

Andıra qalmaq – "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"ndə "lənətə gəlmək" mənasıda verilən [9, s. 116] bu sabit birləşmə digər sinonimləri ilə birlikdə şivələrin çoxunda işlənir. *Andır* leksemi "Azərbaycan dilinin izahlı lüğəti"ndə danışıq dili faktı kimi "sahibsiz, yiyəsiz mal, ölən bir şəxsin qohumlarına irs qoyub getdiyi mal, şey" mənasında izah olunmuşdur. Türk dilində yalnız şivələrə məxsus olan bu lüğəvi vahid eyni anlamda Samsun, Amasya, Ordu, Rizə, Ərzincan kimi dialektlərlə yanaşı, Qars, Artvin və Giresunda "insan və heyvanlara lənət" mənasında deyil, "sahibsiz qalmaq" anlamında işlədilir [10]. Əsasən "lənətə gəlmiş, lənətə qalasan" məzmunun ifadəçisi olan bu frazem xüsusilə qərb qrupu dialektlərinə xas olub, Ağbaba, Çəmbərək şivələrində *soyxaya qalmaq*, Neftçala şivəsində isə *mirətə qalmağ, so:xıya qalmağ* [5, s. 196; 219] formalarında ünsiyyət xidmət edir. "Andır" leksemi türk şivələrinə xas olduğu kimi, *andıra kalmak // andır kalmak* deyimi də eyni məzmunda Kars, Sinop, Ordu, Kayseri şivələrində də qeydə alınmışdır [10].

Zəhlə tökmək (aparmaq). ADFL-də *bezdirmək, usandırmaq, narahat etmək, yormaq, dəng etmək* mənalarında [8, s. 283] tədqim olunan bu sabit birləşmə şivələrdə də aktiv işlənmə tezliyinə malikdir. Qərbi Azərbaycan şivələrində "zəhlə" leksemi *baş-beyin* (Çəmbərək) və *hövsələ, həvəs* (Zəngibasar) mənalarında qeydə alınmışdır. Bu baxımdan Çəmbərək şivəsində *zəhlə aparmax* (baş-beyini aparmaq), *zəhləsini töx'məx'* (əsəbiləşdirmək), *zəhləsi getməx'* (acığı gəlmək, xoşuna gəlməmək) ifadələri bu məzmunda müvazi olaraq işlənir [2, s. 308]. Bu mənaya uyğun Azərbaycan dilinin Neftçala şivəsində *zəhləsi qaçmağ*, Meğri şivəsində *üzmünü töx'məx'* və Ordubad şivəsində *lıcını töx'məx'* frazemləri də qeydə alınmışdır. Azərbaycan dilində geniş işlənməsi arealı olan *zəhlə tökmək* sabit birləşməsi yalnız türk dilinin Qars şivəsində "zehle dökmek" formasında (kafa şişirmek) müşahidə olunur.

Nitqi qurumaq. Azərbaycan ədəbi dilində "təəccüb, heyrət içində qalıb danışa bilməmək" mənasında işlənən bu dil vahidinə müvazi *dili qurumaq, dili-dodağı qurumaq nitqi tutulmaq, dili bağlanmaq, dili-ağzı tutulmaq* ifadələri də işlənir [8, s. 212]. Naxçıvan və Qərbi Azərbaycan şivələrində bu məzmunu ifadə *basaratı bağlanmax* ifadəsinə rast gəlinir ki, bu baxımdan frazem həm də geniş işlənmə arealına malikdir [bax: 2; 6].

Basarat leksemi Azərbaycan dialektlərində "qabiliyyət, bacarıq, fərasət" mənalarında müşahidə olunur [1, s. 41]. Sözün *bağlanmaq* feili ilə birlikdə yaratdığı semantik sahə şivələrdə bu məzmuna uyğun aşağıdakı mənaları ehtiva edir:

1. ***basaratı bağlanmax*** (Kəngərli, Naxçıvan, Şərur, Ağcabədi, Ağdam, Bərdə, Kürdəmir, Qarakilsə, Qazax) – özünü itirmək, nitqi tutulmaq, dili-ağzı bağlanmaq, işləmək həvəsini itirmək, özünü itirmək, nitqi tutulmaq, dili ağzı bağlanmaq [6, s. 40].
2. ***basaratı bağlammax*** (Qarakilsə) - 1. özünü itirmək; 2. Nitqi qurumaq, dili-ağzı bağlanmaq; 3. iş görə bilməmək, düşünmək imkanı olmamaq: *Anamın basaratı bağlansa, heş nə də:mməz* [2, s. 32].
3. ***basaratı bağlammax*** (Vedi, Zəngibasar) - key kimi olmaq, özünü itirmək: *Elə bir birdən birə basaratım bağlandı* (Vedi) [2, s. 32].
4. ***basaratı bağlammağ*** (Neft.) –fikrindən çıxmaq*: Elə bil, basaratım bağlandı, qızı öyə çağırmadım* [5, s. 78].

Göründüyü kimi, nitqi şivələrdə frazemin mənasının ağırlıq mərkəzində əsasən "nitqi qurumaq" deyiminin məzmunu dayanır.

Türk ədəbi dilində bu məzmunda *nutku tutulmak* sabit birləşməsi işlənsə də, Hatay (korkudan şaşırıp kalmak) və Qars (dili tutulmak, şaşırmak) dialektlərində Azərbaycan şivələrində olduğu kimi, "nutku kurumak" ifadəsi müşahidə olunur [10].

Yada düşmək. ADFL-də "hafizədə, yaddaşda yenidən canlanmaq" mənasında təqdim olunan [8, s. 270] ifadə ümumdanışıq faktı kimi geniş işlənir. Türk və Azərbaycan dillərinin şivələrində buna müvazi işlənən akıla dammak (ağıla dammaq) ifadəsi ilə yanaşı Qars şivəsində qeydə alınan "*yada düşmeyh*" frazemi dilimizdəki mənasına ekvivalentlik təşkil edir [10].

Heç şübhəsiz ki, bu cərgəni daha da genişləndirmək mümükdür. Çünki ortaq köklərə malik hər iki türkcədə forma və məzmunca bənzər frazeologizmlərin işlənməsi dilin genealoji təbiətindən irəli gəlir. Ona görə də türk dili şivələrində işlənən çox sayda belə deyimlər eynilə ədəbi dilimizlə uyğunluq təşkil edir: *hazır aşın dik kaşığı* (Ky.), *ar damarı tutmak* (Brd.), *bahtı bağlanmak* (Isp.), *çırağı sönmek* (Bt.), *eteğinde namaz kılmak* (Kr.), *her havaya oynamak* (Nğ.) *koltuğuna karpuz vermek* (Kr.) və s. Bunların içərisində *avrat ağızlı* (İç.), *elli ayaklı* (El.), *yel beyinli* (Gr.), *iki taşın arasında* (Gaz.), *dili kurtlu* (Gaz.), *aklı kısa* (Sv.), *aynı tas aynı hamam* və s. kimi ismi frazeoloji birləşmələri də [10] qeyd etmək olar.

Bununla yanaşı, dilimizin lüğət tərkibində yer alan elə sabit birləşmələr vardır ki, onlar az leksik fərqlə türk dili şivələrində işlənir; bu fərq ya türkcədə başqa leksemin işlənməsi, ya da anlayışın fərqli formada təsəvvürü ilə müşayiət olunur. Məs.: *ayağına kına yakmak* (Ar.) – başına xına yaxmaq; *bıçağının sırtı kesmek* (Ank.) – qılıncının dalı da, qabağı da kəsmək; *gözleri tepesinde oynamak* (El.) – gözlərinə kəlləsinə çıxmaq; *yılandan yün kırkmak* (Çkr.) – yumurtadan yun qırxmaq; *kulağına küpe olmak* (Nğ.) - qulağına sırğa olmaq; *ağzına daş almak* (Nğ.) - ağzına su almaq; *hazıra vezir* (Sm.) – hazıra nazir; *endazeye gelememek* (Sv.) – endazədən çıxmaq; *babasının fiyatını istemek* (Or.) – üstünə atasının qiymətinin qoymaq; ak *ak yuyup mormor sermek* (Ant.) – ağ yuyub qara sərmək; *bir ayağı kıyıda, bir ayağı kuyuda* (Af.) – bir ayağı burda, bir ayağı gorda və s. [10].

Nəticə. Türk və Azərbaycan dillərində işlənən bəzi frazeologizmlərin həm ədəbi dil, həm də dialektlər səviyyəsində ortaq forma və məzmuna malik olması hər iki dil daşıyıcısı olan ortaq tarixi-mənəvi köklərə malik xalqın hadisə və proseslərə bənzər intellektual səviyyədə yanaşmasından, onlara münasibətin eyni məzmun səviyyəsində qiymətləndirilməsindən xəbər verir. Ortaq dil vahidlərinin müqayisəli təhlili təkcə linqvistik faktların təqdimi deyil, həm də ümumtürk təfəkkürünün mənəvi bağlar səviyyəsində təzahürünün bariz göstəricisidir. Müşahidələrimiz onu göstərir ki, ortaq forma və məzmun daşıyan frazeologizmlər kimi, yalnız formaca bənzər olan və ya komponentlərində bənzər leksemlərin yer aldığı vahidlər də deyilənləri faktlaşdırmaq baxımında mühüm əhəmiyyət daşıyır və bu mövzu gələcək tədqiqatlarımızın əsas istiqamətlərindən biri təşkil edir.

ƏDƏBİYYAT:

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
2. Bədəlova A. Qərbi Azərbaycan şivələri lüğəti. Ankara: İKSAD, 2023, 308 s.
3. Bölge Ağızlarında Atasözleri ve deyimler. Ankara: TDK, 2009, 175 s.
4. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2023, 484 s.
5. Qəmbərova Q. Azərbaycan dilinin Neftçala rayon şivələri. Bakı: Savad, 2020, 296 s.
6. Məmmədova Ş. Naxçıvan dialekt və şivələrində frazeoloji vahidlər. Fəlsəfə doktorluğu dissertasiyası. Naxçıvan, 2021
7. Məmmədov H. Qarabağ şivələrinin leksikası. Fəlsəfə doktorluğu dissertasiyası. Sumqayıt, 2025
8. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı: Altun kitab, 2015, 287 s.
9. Seyidəliyev N., Əhmədov B. Azərbaycan dilin böyük frazeoloji lüğəti (A-İ). Bakı: Elm və təhsil, 2024, 1140 s.
10. Türk Dil Kurumu Sözlükleri: https://sozluk.gov.tr/ (10.01.2026)

ON THE CERTAIN COMMON PHRASEOLOGICAL UNITS USED IN TURKISH AND AZERBAIJANI DIALECTS

ABSTRACT

The article examines certain common phraseological units employed in the dialects of the Turkish and Azerbaijani languages. The study notes that, alongside phraseological units that are similar in both structure and meaning in Turkish and Azerbaijani, there also exist expressions that differ in content and form, reflecting the richness of both languages. Phraseological units that are structurally and semantically similar and recorded in both the literary languages and the dialects of the two Turkic varieties clearly demonstrate that the national and cultural consciousness is rooted in very ancient shared origins. The phraseological units documented in Turkish dialects show clear parallels with both the Azerbaijani literary language and its dialects. From this perspective, the article presents a comparative analysis of such phraseological units as *acıq etmək // acıq eləmək, acıq vermək // acıq-qıcıq vermək, andıra qalmaq, zəhlə tökmək (aparmaq), nitqi qurumaq* and *yada düşmək*.

Keywords: *the dialects of the Turkish and Azerbaijani languages, the dialectal phraseology, the common phraseological units, the formal and semantic similarity*.

О НЕКОТОРЫХ ОБЩИХ ФРАЗЕОЛОГИЗМАХ, УПОТРЕБЛЯЕМЫХ В ГОВОРАХ ТУРЕЦКОГО И АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКОВ

РЕЗЮМЕ

В статье рассматриваются некоторые общие фразеологические единицы, употребляемые в говорах турецкого и азербайджанского языков. В ходе исследования отмечается, что в турецком и азербайджанском языках наряду с фразеологизмами, сходными по структуре и семантике, встречаются также выражения, различающиеся по содержанию и форме, что свидетельствует о богатстве обоих языков. Фразеологические единицы, зафиксированные как в литературных формах, так и в говорах обеих тюркских языковых систем и характеризующиеся структурным и семантическим сходством, наглядно подтверждают, что национально-культурное сознание опирается на весьма древние общие корни.

Фразеологизмы, зафиксированные в говорах турецкого языка, обнаруживают параллелизм как с азербайджанским литературным языком, так и с его диалектами. В этом контексте в статье в сопоставительном плане анализируются такие фразеологические единицы, как *acıq etmək // acıq eləmək, acıq vermək // acıq-qıcıq vermək, andıra qalmaq, zəhlə tökmək (aparmaq), nitqi qurumaq, yada düşmək*.

Ключевые слова: *говоры турецкого и азербайджанского языков, диалектная фразеология, общие фразеологизмы, формально-семантическое сходство*.

Kəmalə ƏLİYEVA*

I TÜRKOLOJİ QURULTAY VƏ ANA DİLİNİN TƏDRİSİ METODİKASI: TƏKLİF VƏ NƏTİCƏLƏR

XÜLASƏ

I Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının dili, ədəbiyyatı, etnoqrafiyası və coğrafiyasını araşdırmaq məqsədilə həyata keçiriləcək sistemli elmi tədbirlərin başlanğıcı olmuşdu. I Türkoloji Qurultayda xüsusi müzakirə obyekti olan ana dilinin tədrisi metodikasına dair məruzələr dinlənilmiş, geniş və sistemli müzakirələr aparılmış, vacib qərarlar qəbul edilmişdir. 1926-cı il Türkoloji Qurultayın davamı olaraq sonrakı illərdə keçirilən qurultay və konfranslarda əlavə olaraq kulturologiya, ictimai və fəlsəfi fikir tarixi, din və millətləarası əlaqələr də müzakirə olunmuşdur.

* Bakı Dövlət Universitetinin doktorantı, Azərbaycan dili-ədəbiyyat müəllimi. E-mail: kemale655@gmail.com

I Türkoloji Qurultayda "elmi-mədəni birlik" ideyası ilə qaldırılan məsələlər və qəbul edilmiş qərarlar bu gün də aktuallığını saxlayır.

Açar sözlər: *I Türkoloji Qurultay, türk xalqlarının dili, təhsil, ana dilinin tədisi.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam Azərbaycan elmi və mədəni siyasətinin strateji prioritetlərini əks etdirən mühüm sənəddir. Sərəncamın əsas məqsədi 1926-cı ildə Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultayın elmi və mədəni əhəmiyyətini Azərbaycan dövlət səviyyəsində təsdiq etməkdir. Bu sənədlə qurultayın yalnız tarixi hadisə olmadığı, həm də Azərbaycan və Türk dünyasının bugünkü mədəni inteqrasiyası üçün əhəmiyyətli bir simvol olduğunu təsdiqlənir (3).

1922-ci ildə N.Nərimanovun sədrliyi ilə Bakıda "Latın əlifbasına keçid" Komitəsi yaradılmışdı və bu məsələ SSRİ-nin elm mərkəzlərində çalışan türkoloqların da diqqət mərkəzinə çevrilmişdi. N.Nərimanov türkoloji qurultayın keçirilməsi ideyasının ilk müəlliflərindən biri olmuşdur.

1923-cü ildə islahatların nizamsız şəkildə həyata keçirilməsi nəticəsində baş verə biləcək qarışıqlığın qarşısını almaq məqsədilə məşhur dilçi Yevgeni Polivanov SSRİ-də yaşayan türk xalqlarının maarif və təhsil işçilərinin qrafika məsələlərinə həsr olunmuş qurultay və ya konfransının çağırılmasının vacibliyindən bəhs edən "Türk yazılarında latın qrafikası problemi" adlı bir broşur nəşr etdirmişdir. Bu təşəbbüs maarif işçiləri və ziyalılar tərəfindən yüksək qiymətləndirilmişdir. Bu barədə Samoyloviç və onun həmfikirlərinin iştirakı ilə Leninqradda da ətraflı müzakirə keçirilmişdi və onlar 1923-cü ildən etibarən Azərbaycan ziyalılarının dəstəyini qazanmağa çalışmışdılar (6)

1924-cü ildə Bakıda keçirilən Birinci Diyarşünaslıq Qurultayında və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Türkoloji bölümünün iclaslarında Nəriman Nərimanovun məruzəsinin müzakirələrindən sonra türk mədəniyyəti ilə bağlı bir sıra elmi və praktiki məsələlərin həlli üçün türkoloji qurultayın çağırılması zərurəti barədə qətnamə qəbul edilmişdi. "Bir sıra mədəni məsələlərin, o cümlədən əlifba məsələsinin həlli məqsədilə bu qurultayın ən əvvəl türkoloji deyil, ümumiyyətlə, Şərq xalqlarının qurultayı kimi keçirilməsi ideyası hələ Nəriman Nərimanovun vaxtında meydana çıxmışdı. Sonralar bu ideya türkoloji qurultayın çağırılması ideyasına çevrildi"(2).

I Türkoloji Qurultayın çağırılması Moskvada SSRİ Şərqşünaslıq Elmi Assosiasiyasına və Bakıda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə tapşırılmışdı. Həmin ərəfədə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində uğurla nəticələnən türkoloji araşdırmalar geniş vüsət almışdı. Bu cəmiyyət ölkənin əsas elmi mərkəzinə çevrilmişdi. Cəmiyyətə üzv olmaq üçün müxtəlif ölkələrdən ünvanlanmış rəsmi müraciətlərin sayı sürətlə artırdı. Müraciət edənlər arasında qeyri-türklər az deyildi.

I Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında beynəlxalq miqyasda müstəsna əhəmiyyətə malik tarixi hadisədir. Bu qurultay XX əsrin birinci yarısında dünya türkologiyasının ən aktual məsələlərinin məhz Bakıda müzakirə oluması ictimai fikir tariximizin bənzərsiz və qürurverici səhifələrindən birini yaratmış (1) və türk xalqlarının dili, ədəbiyyatı, etnoqrafiyası və coğrafiyasını araşdırmaq məqsədilə həyata keçiriləcək sistemli elmi tədbirlərin başlanğıcı olmuşdu. Ötən 100 il ərzində Azərbaycanda bu miqyasda və türkologiyanın vacib problemlərini həll edən dünyamiqyaslı tarixi bir hadisəyə təsadüf olunmur.

I Türkoloji Qurultayda 93 nəfər türk və 38 nəfər qeyri-türk millətlərinin təmsilçisi olmaqla, ümumilikdə 131 nəfər, o cümlədən yeganə qadın nümayəndə – azərbaycanlı müəllimə Ayna Sultanova da iştirak etmişdi.

I Türkoloji Qurultayda türk xalqlarının dili, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyəti ilə bağlı məruzələr dinlənilmiş, geniş və sistemli müzakirələr aparılmış, vacib qərarlar qəbul edilmişdir. Vahid ümumtürk əlifbasına keçid, ortaq ünsiyət dili məsələsi ilə yanaşı türk dillərində elmi terminologiya, ədəbi dil normalarının təkmilləşdirilməsi, orfoqrafiya, türk dillərinin başqa dil ailələri ilə əlaqələrinin öyrənilməsi, ölkəşünaslıq, ana dilinin tədrisi metodikası haqqında məruzələr dinlənilmişdi: akademik V.Bartold "Türk xalqlarinin tarixinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", F.Köprülzadə "Türk xalqlarının ədəbi dillərinin inkişafı", B.Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", İ.Borozdin "Tatar mədəniyyəti sahəsində ən son elmi kəşflər", A.Qubaydullin "Türk-tatar xalqlarında tarixi

ədəbiyyatın inkişafı", , N.Poppe "Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti", **N.**Aşmarin *"Türkologiyanın keçmişi və indiki vəziyyəti haqqında bəzi qeydlər", S.*Malov "Qədim türk dillərinin öyrənilməsi", A.Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın perspektivləri", L.Şerba "Ana dilinin tədrisi metodikasında yeni istiqamətlər" və s.

I Türkoloji Qurultayın Mandat Komissiyasının üzvü Məmmədzadə çıxışında əlifba məsələsinin yalnız qrafik seçim olmadığını, eyni zamanda terminologiyanın formalaşması, orfoqrafiya normalarının müəyyənləşdirilməsi və ibtidai məktəblərdə tədris metodikasının qurulması baxımından həlledici rol oynadığını xüsusi vurğulamışdır.

Belə ki, Qurultayda ana dilinin tədrisi metodları məsələsi üzrə L.Şerba, B.Əfəndizadə, Q.Şərəf, S.Siyuxov, Ə.Baytursun, Z.Şakirov, Ş.Bəkturinin iştirakı ilə 8 nəfərdən ibarət tərkibdə Komissiya təsis edilmişdir.

Ana dilinin tədrisi metodikası mövzusu ilə əlaqədar L.Şerba, İ.Lemanov və Q.Şərəfin məruzələri xüsusi maraq doğurur (7, s.321). L.Şerba təlim metodikasına dair məruzəyə başlamazdan əvvəl türk dillərinin öyrənilməsi məsələsinin təkcə filoloji sahə olmayıb, geniş ictimai və mədəni əhəmiyyət daşıdığını qeyd etmişdir. O, "Ana dilinin tədrisi metodikasında yeni istiqamətlər" mövzusunda məruzəsində bütün elmlərin özünəməxsus metodiki qanunauyğunluqlarının mövcud olduğunu və bu qanunauyğunluqların əksəriyyəti ana dili tədrisi metodikasında tam şəkildə sistemləşdirilmədiyini vurğulamışdır. Ana dilində oxu və yazı təliminin, eləcə də nitqin inkişafının özünəməxsus məzmunu və prinsipləri var. Bu prinsiplər təlimin nəzəri və praktiki əsaslarını linqvistik, psixoloji və didaktik baxımdan əsaslandırılmış şəkildə qurmağa imkan verir, ana dilinin tədrisi metodikasının funksiyalarını dəqiqləşdirir (7, s.439).

İ.Lemanov "Türk dillərinin tədrisi metodikasının əsasları" mövzusunda doğma dilin tədris metodikasında müxtəlif üsulların inkişaf qanunları haqqında məruzə etmişdir. O, mövcud və yeni yaranan metodlar, yeni ideyalar, tapşırıqlar və yanaşmaların nadir hallarda yetkin olduğunu və dərslikdə tam tətbiq edildiyini vurğulayaraq, hər bir metodun müəyyən bir dilin xüsusiyyətlərinə və onun tədris şərtlərinə uyğun olaraq dəyişikliklərdən keçdiyini və təcrübə əsasında uyğunlaşdırılmış formada tətbiq olunduğunu qeyd etmişdir: "Müəyyən bir dilin tədrisində uğurlu olan hər hansı bir metodun başqa dilə, xüsusilə fərqli dil ailəsinə tətbiq oluna biməz" (7, s.444).

Mövzu ilə *("Ana dilinin tədrisi metodikasında yeni istiqamətlər" – K.Ə.*) əlaqədar Türkoloji Qurultayda iştirak edən altı nəfərlik nümayəndə heyətinin rəhbəri Qalimcan Şərəf çıxışında müəllimi L.Şerba ilə razılaşmadığını bildirmişdir: "Təcrübələr göstərdi ki, savadsızlığa qarşı fəaliyyət göstərən qruplarda uşaqların da, yetkin insanların da oxuma prosesi eynidir, onlar hecalara və hərflərə görə deyil. Bəs hansı metod daha yaxşıdır? – sualına gəlincə, deyə bilərəm ki, zəif orfografiyada səs metodu tamamilə yararsız sayılmalıdır, fonetik orfoqrafiyada isə səs metodu yanlış oxuma prosesinə səbəb olur və buna görə pedaqoji metod kimi qəbul edilə bilməz." (7, s.446). Onu da qeyd edək ki, hələ 1919-cu ildə Kazanda ərəb əlifbasının dəyişdirilməsi və ya islahı məsələlərinə həsr olunmuş "Ümumrusiya Türk Xalqlarının İmla Məsələləri" mövzusunda konfrans da keçirilmişdi. Qalimcan Şərəfin qurultayda latın əlifbasına qarşı çıxışı yalnız Kazan ziyalılarının əlifba məsələsindəki mövqeyinin ifadəsi deyil, sovet siyasətinə qarşı dolayı etiraz idi. Bu baxımdan, Məmmədzadənin ana dilinin tədrisinə dair qənaətləri də diqqət çəkir: "XX əsrin əvvəllərinə kimi Azərbaycan türklərinin məktəbi olmamışdır. Azərbaycanda ərəblərdən qalmış mədəniyyət, təhsil hökm sürürdü. Bu məktəblər dini məktəblər idi, tədris fars dilində aparılırdı. 1928-ci ildə Rusiyanın Azərbayanı tam hakimiyyəti altına aldıqdan sonra rus məktəbləri açıldı, lakin bu məktəblər Azərbaycana heç nə vermədi; burada rus hakim dairələri üçün yalnız tərcüməçilər yetişdirilirdi" (8, s.311). Daha sonra o, diqqəti türk məktəblərindəki təhsilin inkişafına yönəldilərək dərsliklərin nəşri məsələsinə toxunur – 35 il ərzində cəmi 15-20 komplekt dərsliyin çap olunduğunu qeyd edir. Məruzəçi formal metod ilə ana dilinin düzgün tədrisinə dair ifadə etdiyi fikir ilə məruzəsini yekunlaşdırır: "Qrammatika və terminologiyamızın yenidən qurulmasına ehtiyac var. Bu məsələlər mərkəzi təşkilatlar həll edib, həyata keçirmək üçün lazımi tədbir görməlidirlər"(8, 311).

Məhz I Türkoloji Qurultayda xüsusi müzakirə obyekti olmuş ana dilinin tədrisi metodikası üzrə ən üsullar barədə elmi diskussiya aparılmışdır.

1969-cu ildə Ümummilli Liderimiz Heydər Əliyev hakimiyyətə gəlişi ilə bu sahədə də dönüş yaranmışdı: Bakı Dövlət Universitetində türkologiya kafedrası açıldı. Elmlər Akademiyasında türk dilləri şöbəsi fəaliyyətə başladı. 1970-ci ildə «Советская тюркология» jurnalının ilk sayı nəşr olunmuşdu. Artıq yarım əsrlik tarixi ilə bütün elm sahələrini (etnoqrafiya, dil, ədəbiyyat, folklor, incəsənət, terminologiya və s.) türkün adı və dili ilə işıqlandıran bu jurnal türkologiyaya olan marağı daha da artırmışdı; beynəlxalq miqyasda aparılan tədqiqat materiallarını, elmi müzakirələri əks etdirən yeganə nəşr olaraq türkologiya elminin tərkib hissəsi idi. Artıq ali məktəblərdə türkologiya ilə bağlı fənlər tədris planına daxil edilmişdi: "Türkologiyaya giriş", "Qədim türk yazılı abidələri", "Türk xalqları ədəbiyyatı" və s. fənlər tədris olunmuşdur. 1926-cı il I Türkoloji Qurultayına həsr olunmuş yubiley tədbirləri də keçirilmişdir.

1976-cı ildə Alma-Atada I Ümumittifaq Türkoloji Qurultayın 50 illiyinə həsr olunmuş II Türkoloji Konfrans keçirilmişdir. SSRİ Elmlər Akademiyasının Dil və Ədəbiyyat Bölməsi və onun nəzdində fəaliyyət göstərən Ümumittifaq Türkoloqlar Komitəsi, SSRİ Elmlər Akademiyasının Tarix Bölməsi, Qazaxıstan SSRİ Elmlər Akademiysaının İctimai elmlər Bölməsi tərəfindən çağırılan Ümumittifaq Türkoloji Qurultayda türk dilçiliyinin, ədəbiyyatşünaslığının, folklorunun, arxeologiya, tarix və etnoqrafiyasının aktual problemləri müzakirə edilmişdir.

Bu qurultay son 50 ildə sovet türkoloqlarının ən böyük toplantısı olmuşdur. Qurultayın Qətnaməsində dil materiallarının toplaması, türk dillərinin dərindən tədqiqi edilməsinin, elmi qrammatikasının və lüğətlərin tərtibi və nəşrinin zəruriliyi qeyd olunmuşdur. Eyni zamanda, beynəlxalq miqyasda türkologiya üzrə biblioqrafiyanın, elmi işlərin təşkili nəzərdə tutulmuşdur (7, s.429).

10-12 sentyabr 1980-cı ildə Daşkənddə SSRİ Elmlər Akademiyasının Ədəbiyyat və Dil Bölməsi, Tarix bölməsinin, Sovet Türkoloqları Komitəsinin, Özbəkistan SSRİ Elmlər Akademiyasının təşkilatçılığı ilə III Türkoloji Qurultay keçirilmişdir. Qurultayda 500 nəfərdən çox türkoloq, o cümlədən xarici ölkələrdən dəvət olunmuş dilçi, ədəbiyyatşünas, folklorşünas, tarixçi, etnoqraflar iştirak etmişdir. Burada II Türkoloji Qurultaydan sonra aparılmış tədqiqatların yekunları və türkdilli xalqların dili, ədəbiyyatı və tarixi ilə bağlı aktual məsələlər müzakirə edilmişdir.

1926-cı ildə Bakıda keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayda mütəmadi şəkildə belə toplantıların keçirilməsi qərara alınsa da, genişmiqyaslı türkoloji qurultaylardan (1926-cı il, Bakı və 1992-ci il, Kazan) fərqli olaraq, digər illərdə keçirilən toplantılar qurultaylararası dövrləri əhatə etmişdi. Məsələn, 1984-cü il Ümumittifaq və Beynəlxalq səviyyədə keçirilən hər hansı bir türkoloji qurultayın keçirilməsi ilə bağlı əlamətdar tarix olmasa da, «Советская тюркология» jurnalının 5-ci sayının nəşri ilə yadda qalmışdır. SSRİ-də milli intibah dövrü kimi yadda qalan 1988-ci ildə Qırğızıstan Elmlər Akademiyasının təşkilatçılığı ilə Türkoloji Qurultay keçirilmişdir.

9-13 iyun 1992-ci ildə Kazan şəhərində Rusiya Federasiyası Elmlər Akademiyası və Tatarıstan Respublikası Elmlər Akademiyasının təşkilatçılığı ilə VI Türkoloji Qurultay keçirilmişdir. Əsasən dilçilik, ədəbiyyatşünaslıq, folklor, etnoqrafiya, tarixşünaslıq çərçivəsində fəaliyyət göstərmiş bölmələri əhatə edən əvəlki türkoloji qurultaylardan fərqli olaraq, VI Türkoloji Qurultayda əlavə olaraq kulturologiya, ictimai və fəlsəfi fikir tarixi, din və millətləarası əlaqələr də müzakirə olunmuşdur. VI Türkoloji Qurultayın Konfrans materialları 3 cildlik (1992-1997) "Türk dilləri, mənəvi mədəniyyət və tarixi: ənənələr və müasirlik" toplusunda çap olunmuşdur (9).

Türkoloji Qurultayda qaldırılan məsələlərin həlli istiqamətində xeyli işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 noyabr 2005-ci il və 18 frvral 2016-cı il tarixli sərəncamlarına əsasən Türkoloji Qurultayın 80 və 90 illik yubiley tədbirləri keçirilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasından sonra qurultayın 100 illik yubileyinin keçirilməsi xüsusi önəm daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli Sərəncamına əsasən keçirilən yubiley tədbirləri çərçivəsində 11 avqust 2025-cidə Qarabağ Universitetində Beynəlxalq Türk Akademiyası və Türkiyə Elmlər Akademiyasının təşkilatçılığı ilə VII Türkoloji Yay məktəbinin açılışı xüsusi əhəmiyyət kəsb edir. Elmi informasiya mübadiləsi və ortaq təhsil proqramları Türk dünyasının elmi-mədəni potensialının vahid istiqamətdə birləşməsinə təminat verir. Bu baxımdan, türkoloji tədqiqat sahəsində gənc alimlərin elmi potensialını gücləndirmək, bilik və təcrübə mübadiləsini təşviq etmək, müasir elmi yanaşmaların və praktik tədqiqat metodlarının öyrənilməsi

məqsədilə keçirilən Yay məktəbində Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türkiyə Elmlər Akademiyasının prezidenti Müzəffər Şəkərli və digər ziyalılar iştirak etmişdilər. Yay məktəbi çərçivəsində dilçilik, ədəbiyyatşünaslıq, tarix, etnoqrafiya və mədəniyyət araşdırmaları üzrə intensiv dərslər təşkil olunmuş, elmi diskussiyalar aparılmışdır.

Birinci Türkoloji Qurultayda qəbul edilmiş bütün qərarlar bu gün də aktuallığını saxlayır. Bir əsr əvvəl I Bakı Türkoloji Qurultayında səsləndirilmiş "elmi-mədəni birlik" ideyası gələcək inkişafa yönəldilmiş strateji yanaşmadır. Qurultayın 100 illiyinin keçirilməsi Bakının təkcə elmi düşüncənin deyil, türk birliyinin mərkəzi olduğunu bir daha təsdiq edir.

ƏDƏBİYYAT

1. Akimova E. I Türkoloji Qurultayın 100 ili – türk ruhunun qələbəsi. "Füyuzat" jurnalı, №145.
2. Azər Turan. "Ədəbiyyat" qəzeti, 17 noyabr, 2005.
3. Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 oktyabr 2025. https://president.az/az/articles/view/70396
4. Həmzəyeva Ü. I Türkoloji Qurultayın 100 illiyi: tarixin işığında. Gələcəyin yolunda. "İki sahil" qəzeti, 28 noyabr, 2025.
5. Qəribli A. Birinci Türkoloji Qurultay əslində türkologiyanın böyük bir "dərsliyi" rolunu oynayır /AzərTAC-a Müsahibə. 23 oktyabr. 20025.
6. Məmmədli N. I Türkoloji Qurultay məxfi sənədlərdə. "Xalq" qəzeti, 24 oktyabr, 2025.
7. Nərimanoğlu K.V., Ağakişiyev Ə. 1926-cı il. I Bakı Türkoloji Qurultayı. Bakı, "Çinar", 2006
8. Первый Всесоюзный Тюркологический Съезд 26 февраля – 5 марта 1926 г. (Стенографический отчет). Баку, 2011.- 552 с.
9. Татарская Энциклопедия «Татарика». https://tatarica.org/ru/razdely/nauka/shestaya-tyurkologicheskaya-konferenciya Онлайн - энциклопедия Tatarica.

I ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД И МЕТОДИКА ПРЕПОДАВАНИЯ РОДНОГО ЯЗЫКА:ПРЕДЛОЖЕНИЯ И РЕЗУЛЬТАТЫ

АННОТАЦИЯ

I Тюркологический съезд стал началом системных научных мероприятий, направленных на изучение языка, литературы, этнографии и географии тюркских народов, обладающих общим богатым прошлым и древним наследием. На I Тюркологическом съезде были заслушаны доклады по методике преподавания родного языка, которая являлась одним из основных объектов обсуждения, проведены широкие и системные дискуссии, приняты важные решения. В последующие годы, в продолжение Тюркологического съезда 1926 года, на съездах и конференциях дополнительно обсуждались вопросы культурологии, истории общественной и философской мысли, религии и межнациональных отношений.

Вопросы, поднятые на I Тюркологическом съезде в рамках идеи «научно-культурного единства», а также принятые решения сохраняют свою актуальность и в настоящее время.

Ключевые слова: *I Тюркологический съезд, язык тюркских народов, образование, преподавание родного языка.*

THE FIRST TURKOLOGICAL CONGRESS AND THE METHODOLOGY OF MOTHER TONGUE TEACHING: PROPOSALS AND RESULTS

ABSTRACT

The First Turkological Congress marked the beginning of systematic scholarly activities aimed at studying the language, literature, ethnography, and geography of Turkic peoples who share a common rich

past and ancient heritage. At the First Turkological Congress, reports on the methodology of mother tongue teaching—one of the main subjects of discussion—were presented, extensive and systematic debates were held, and important decisions were adopted. In the following years, as a continuation of the 1926 Turkological Congress, issues related to cultural studies, the history of social and philosophical thought, religion, and interethnic relations were also discussed at congresses and conferences.

The issues raised and the decisions adopted at the First Turkological Congress within the framework of the idea of "scientific and cultural unity" remain relevant today.

Keywords: *First Turkological Congress, language of Turkic peoples, education, mother tongue teaching.*

Könül AYDIN*

AXISQA TÜRK DİLİNDƏ ETNOMƏDƏNİ LEKSİKANIN XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə Axısqa türk dilində etnomədəni leksikanın xüsusiyyətləri araşdırılır. Tədqiqatda leksikanın nəzəri əsasları şərh edilir, Axısqa türklərinin tarixi və mədəni mühiti dil faktları əsasında təhlil olunur. Ailə və qohumluq münasibətləri, mərasimlər, dini inanclar və təsərrüfat fəaliyyəti ilə bağlı leksik vahidlər sistemli şəkildə təqdim olunur. Göstərilir ki, bu leksika xalqın milli kimliyini, mədəni yaddaşını və dünyagörüşünü qoruyub saxlayan mühüm dil qatıdır. Tədqiqat nəticələri Axısqa türk dilinin etnolinqvistik xüsusiyyətlərinin öyrənilməsi baxımından elmi əhəmiyyət daşıyır.

Açar sözlər: Axısqa türk dili, etnomədəni leksika, etnolinqvistika, milli-mədəni dəyərlər, türk dilləri, dil və mədəniyyət.

Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda xalqın tarixi yaddaşını, mədəni kimliyini və dünyagörüşünü özündə əks etdirən mürəkkəb sosial hadisədir. Hər bir etnosun dili onun həyat tərzini, mənəvi dəyərlərini, adət-ənənələrini və tarixi taleyini qoruyub saxlayan mühüm mədəni kod funksiyasını daşıyır. Bu baxımdan etnomədəni leksika xalqın maddi və mənəvi mədəniyyətinin dil səviyyəsində ifadəsi kimi xüsusi elmi əhəmiyyətə malikdir.

Axısqa türklərinin dili zəngin etnomədəni leksik qatla seçilir. Tarixi baxımdan mürəkkəb köçlərə, sürgünlərə və müxtəlif mədəni mühitlərlə təmasa məruz qalmış Axısqa türkləri buna baxmayaraq, milli-mədəni xüsusiyyətlərini və dil yaddaşını qoruyub saxlaya bilmişlər. Axısqa türk dilində qorunan etnomədəni leksik vahidlər bu xalqın sosial münasibətlərini, təsərrüfat fəaliyyətini, dini inanclarını və məişət həyatını aydın şəkildə əks etdirir.

Məqalənin məqsədi Axısqa türk dilində etnomədəni leksikanın əsas xüsusiyyətlərini müəyyənləşdirmək, bu leksikanın xalqın tarixi-mədəni yaddaşı ilə əlaqəsini göstərmək və onun etnolinqvistik baxımdan əhəmiyyətini araşdırmaqdır.

Etnomədəni leksika anlayışı müasir dilçilikdə etnolinqvistika və linqvokulturologiya sahələri ilə sıx bağlıdır. Etnomədəni leksika dedikdə müəyyən etnosun mədəniyyətini, həyat tərzini, dünyagörüşünü və tarixi təcrübəsini əks etdirən söz və ifadələr məcmusu nəzərdə tutulur. Bu leksik vahidlər xalqın kollektiv yaddaşının dil müstəvisində təzahürüdür. Etnolinqvistik yanaşmaya görə, dil mədəniyyətdən ayrı şəkildə mövcud ola bilməz. Dil vahidləri yalnız nominativ funksiya daşımır, eyni zamanda mədəni informasiya daşıyıcısı kimi çıxış edir. Xüsusilə adət-ənənə, məişət, inanclar və sosial münasibətlərlə bağlı leksika etnomədəni xüsusiyyətlərin müəyyənləşdirilməsində mühüm rol oynayır.

Türk dillərində etnomədəni leksikanın formalaşması tarixi proseslərlə sıx bağlıdır. Köçərilikdən oturaq həyata keçid, təsərrüfat növlərinin dəyişməsi, dini inanclar və sosial struktur bu leksikanın

* Mingəçevir Dövlət Universiteti, Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
Əməkdar müəllim, Email: Konul-aydin@mail.ru

zənginləşməsinə təsir göstərmişdir. Bu baxımdan Axısqa türk dili özündə həm ümumtürk, həm də regional etnomədəni xüsusiyyətləri qoruyub saxlayan dil kimi diqqəti cəlb edir.

Etnomədəni leksikanın tədqiqi yalnız dil faktlarının təsviri ilə məhdudlaşmır. Bu leksikanın semantik yükü, funksional xüsusiyyətləri və mədəni kontekstlə əlaqəsi araşdırılmalıdır. Axısqa türk dilindəki etnomədəni leksik vahidlər də bu baxımdan geniş elmi təhlil üçün zəngin material təqdim edir.

Axısqa türkləri tarixən Gürcüstanın cənub-qərbində yerləşən Axısqa bölgəsində yaşamış, XX əsrin ortalarında isə kütləvi sürgünlər nəticəsində müxtəlif coğrafi ərazilərə səpələnmişlər. Bu tarixi proses Axısqa türklərinin etnik kimliyinə və dil mühitinə mühüm təsir göstərmişdir. Axısqa türk dili oğuz qrupu türk dillərinə mənsub olmaqla yanaşı, bir sıra arxaik leksik və fonetik xüsusiyyətləri qoruyub saxlaması ilə seçilir. Uzun müddət izolyasiya şəraitində mövcud olmuş bu dil, eyni zamanda qonşu xalqların dilləri ilə təmas nəticəsində müəyyən leksik təsirlərə də məruz qalmışdır. Bununla belə, Axısqa türk dilinin əsas etnomədəni leksik fondu milli xarakterini qoruyub saxlamışdır.

Axısqa türklərinin təqvim ənənələri digər türkdilli xalqlardan özünəməxsusluğu ilə seçilir. Onların ay adları elmi tədqiqatlarla müəyyən olunmuş, xüsusi bir sistemə malikdir. Həmin ay adları yalnız Axısqa türklərinə məxsusdur və digər türkdilli xalqların təqvimində eyni adlara rast gəlinmir. Bu xüsusiyyət, Axısqa türklərinin mədəni və etnoqrafik identikliyinin bir göstəricisidir. Ay adlarının formalaşmasında təbiət hadisələri, kənd təsərrüfatı ritmləri və sosial həyatın tələbləri mühüm rol oynayıb. Hər ay adı həm vaxt ölçüsü, həm də ritual və mədəni məna daşıyır. Məsələn, bəzi ay adları müəyyən fəsillərə, məhsul yığımına və ya adət-ənənələrə işarə edir. Bu adların tarixi kökləri minilliklərə gedib çıxır və xalqın gündəlik həyatına dərin nüfuz edib. Tədqiqatçılar göstərir ki, ay adlarının istifadəsi Axısqa türkləri arasında tarixi yaddaşı qorumağa kömək edir. Həmçinin, bu adlar dilin leksik sistemində xüsusi yer tutur və fonetik, morfoloji cəhətdən fərqlilik göstərir. Müasir dövrdə bu ay adlarının öyrənilməsi etnolinqvistik və mədəni araşdırmalar üçün önəmli mənbə hesab olunur. Onların təqvimdəki mövqeyi, həm tarixi, həm də sosial kontekstə bağlıdır. Hər bir ay adı, xalqın zaman anlayışını və təbiətlə münasibətini əks etdirir. Məsələn, zəhməri (yanvar), güjük (fevral) , mard (mart), avrıl (aprel), mayıs (may), kirəz (iyun), biçin (iyul), oraq (avqust) ,xarman (sentyabr), şirə (oktyabr) , qoç (noyabr), qaraqış (dekabr) aylarıdır. Bu ay adları yaşayış, iqlim şəraitinə uyğun olaraq elmi cəhətdən düzgün adlandırılıb. [2, 126]

Bu səbəbdən, Axısqa türklərinin ay adları yalnız dilçilik baxımından deyil, həm də etnoqrafik baxımdan unikaldır. Nəticə etibarilə, bu adlar Axısqa türklərinin mədəni irsinin qorunmasında və gələcək nəsillərə ötürülməsində vacib rol oynayır.

Axısqa türklərinin həyat tərzi əsasən kənd təsərrüfatı, maldarlıq və ailə dəyərləri üzərində qurulmuşdur. Bu sosial-iqtisadi mühit dilə də öz təsirini göstərmiş, məişət, təsərrüfat və ailə münasibətləri ilə bağlı zəngin leksik qat formalaşmışdır. Sözügedən leksika xalqın dünyagörüşünü və sosial münasibətlər sistemini dil səviyyəsində əks etdirir.

Tarixi sürgünlər nəticəsində Axısqa türklərinin müxtəlif regionlarda məskunlaşması dilin etnomədəni funksiyasını daha da gücləndirmişdir. Dil milli kimliyin qorunmasında əsas vasitəyə çevrilmiş, etnomədəni leksika isə bu kimliyin dil yaddaşında saxlanılmasını təmin etmişdir. Axısqalıların xalq şeiri və ədəbiyyatı, əsasən Şimal-Şərqi Anadolu ləhcəsi üzərində formalaşmışdır. Bu ədəbiyyat ənənəsi xalq arasında geniş yayılmış və nəsildən-nəsilə ötürülmüşdür. Xəstə Həsən, Aşıq Şennik, Zülali, Sümmani, Məzlumi və Fakiri kimi tanınmış Axısqalı şairlərin yaradıcılığı XVIII–XX əsrlərdən başlayaraq günümüzədək qorunub saxlanmışdır. Onların şeirləri yalnız estetik dəyər daşımır, həm də Axısqalıların mədəni, tarixi və sosial həyatına dair dərin məlumat verir. Hər bir şairin əsəri xalqın duyğu və düşüncələrini əks etdirir, milli yaddaşın formalaşmasında mühüm rol oynayır. Bu şeir ənənəsi həm linqvistik, həm də etnoqrafik baxımdan tədqiqatçılar üçün qiymətli mənbədir. Xalq ədəbiyyatının qorunub saxlanması, mədəni irsin davamlılığının təmin olunmasına xidmət edir. Şairlərin əsərlərindəki mövzuların çoxluğu, onların həyat və cəmiyyətlə bağlı müşahidələrindən doğur. Axısqalı şairlərin yaradıcılığı xalqın musiqi və poeziya ənənələri ilə sıx bağlıdır. Bunun nəticəsində, şeir yalnız söz sənəti kimi deyil, həm də etnomədəni identiklik vasitəsi kimi əhəmiyyət qazanır. Əsərlərin nəsildən-nəsilə çatdırılması xalqın kollektiv yaddaşını qoruyur və mədəni kontinuitəni təmin edir. Müasir dövrdə bu şeir və ədəbiyyat nümunələri tədqiqatçılar

üçün etnoqrafik və linqvistik analizlərin aparılmasında mühüm əhəmiyyət kəsb edir. Nəticə etibarilə, Axısqalıların xalq ədəbiyyatı onların tarixi, mədəni və dil xüsusiyyətlərini yaşadan zəngin bir xəzinədir.

Ağam gəldi, dedi: müjdələr olsun,
Şad olsun ürəgin, səvin, ay Hasan!
Hax Tala yer-göyün şürünnan dolsun,
Şad olsun ürəgin, səvin, ay Hasan.

İzin alıb bizim əvə girəllər,
Gəlib sənə gözaydınnığı verəllər.
Beşigin üsdünə saçı sərəllər,
Şad olsun ürəgin, sevin, ay Hasan. [3,70]

Axısqa türk dilində etnomədəni leksika xalqın həyat tərzini, sosial münasibətlərini və mənəvi dəyərlər sistemini əks etdirən əsas dil qatlarından biridir. Bu leksik vahidlər uzun tarixi inkişaf prosesi ərzində formalaşmış, xalqın mədəni yaddaşında sabitləşmişdir. Axısqa türk dilində etnomədəni leksikanı əsasən bir neçə semantik sahə üzrə qruplaşdırmaq mümkündür.

1. Ailə və qohumluq münasibətlərini əks etdirən leksika

Ailə Axısqa türklərinin sosial strukturunun əsasını təşkil edir. Bu səbəbdən ailə və qohumluq münasibətlərini bildirən leksik vahidlər dilin etnomədəni qatında xüsusi yer tutur. ata, ana, nənə, baba, əmi, dayı, xala, bibi kimi sözlər qohumluq münasibətlərinin dəqiq şəkildə diferensiasiyasını təmin edir və ailədaxili iyerarxiyanı əks etdirir.

Qohumluq terminləri təkcə qan qohumluğunu deyil, eyni zamanda sosial məsuliyyət və qarşılıqlı münasibətləri ifadə edir. Məsələn, el-oba anlayışı yalnız məkan mənasını deyil, həm də kollektiv həmrəyliyi və sosial birliyi ifadə edən etnomədəni məzmun daşıyır. Bu leksik vahidlər Axısqa türklərinin ailə və icma əsaslı həyat tərzini dil səviyyəsində yaşadır.

2. Adət-ənənə və mərasim leksikası

Axısqa türk dilində etnomədəni leksikanın mühüm qatını adət-ənənə və mərasimlərlə bağlı söz və ifadələr təşkil edir. Xüsusilə toy və yas mərasimləri ilə bağlı leksika xalqın mədəni dünyagörüşünü və sosial davranış normalarını əks etdirir. Elçi getmək, nişan kəsmək, toybaşı, xına gecəsi kimi ifadələr mərasimlərin mərhələli strukturunu göstərir.

Bu leksik vahidlər yalnız konkret hadisəni deyil, onun arxasında duran mədəni dəyərləri də ifadə edir. Məsələn, toy mərasimlərində işlədilən gənlux, xına yaxdi, kəsim kəsməx, sağdıc, duvaqaçımi, nişan değişmax, məsləhət aşi, soldic, eniştəliğa getmax, bəg sağduci kimi ifadələr kollektivliyi, ailələrarası münasibətləri və sosial statusu əks etdirən simvolik məna daşıyır. Beləliklə, mərasim leksikası Axısqa türklərinin mədəni modelini dil vasitəsilə nəsildən-nəslə ötürür.

3. Dini inanclar və mənəvi dəyərlərlə bağlı leksika

Dini inanclar Axısqa türklərinin mədəni həyatında mühüm yer tutur və bu sahə ilə bağlı leksik vahidlər dilin etnomədəni strukturunda xüsusi əhəmiyyətə malikdir. Dua, qismət, halal, haram, savab, günah kimi sözlər xalqın mənəvi dəyərlər sistemini və etik normalarını əks etdirir.

Bu leksika yalnız dini terminlər toplusu deyil, eyni zamanda gündəlik məişətdə geniş şəkildə istifadə olunan dəyərlər sistemini ifadə edir. Axısqa türk dilində dini leksikanın məişət nitqinə sıx şəkildə daxil olması xalqın dünyagörüşünün dini-mənəvi prinsiplər üzərində formalaşdığını göstərir.

4. Təsərrüfat, peşə və əmək fəaliyyəti ilə bağlı leksika

Axısqa türklərinin ənənəvi həyat tərzi əsasən kənd təsərrüfatı və maldarlıqla bağlı olmuşdur. Bu səbəbdən əkinçilik və heyvandarlıqla bağlı leksik vahidlər etnomədəni leksikanın əsas qatlarından birini təşkil edir. Yad mühitdə, müxtəlif dillərin əhatəsində uzun bir inkişaf yolu keçmiş Axısqa türklərini dilinin leksikası bu gün ancaq təsərrüfatla bağlı mövqeyini qoruyub saxlamışdır. [1, 105] Xırman, örüş, çoban, dögen, kotan, taxıl , dönməcə, kerendi, çapa tırmıx kimi sözlər xalqın əmək fəaliyyəti və təsərrüfat mədəniyyətini əks etdirir.

Bu leksik vahidlər tarixi həyat tərzinin dil səviyyəsində qorunub saxlanmasını təmin edir. Təsərrüfat leksikası Axısqa türklərinin təbiətlə münasibətlərini, əmək vərdişlərini və iqtisadi fəaliyyətini əks etdirən mühüm etnomədəni göstərici kimi çıxış edir.

Ümumiyyətlə, Axısqa türk dilində etnomədəni leksika xalqın tarixi yaddaşını, mədəni kimliyini və dünyagörüşünü əks etdirən mühüm dil qatıdır. Bu leksik vahidlər Axısqa türklərinin sosial münasibətlərini, məişət həyatını, dini inanclarını və təsərrüfat fəaliyyətini dil vasitəsilə qoruyub saxlayır.

Aparılan tədqiqat göstərir ki, Axısqa türk dilində etnomədəni leksikanın öyrənilməsi yalnız dilçilik baxımından deyil, eyni zamanda etnoqrafik və mədəni aspektdən də böyük elmi əhəmiyyət daşıyır. Bu leksikanın sistemli şəkildə araşdırılması Axısqa türklərinin milli-mədəni irsinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Ədəbiyyat

1. Kazımov İ. Axısqa türkləri: dil, tarix və folklor .Elm və təhsil: Bakı, 2012.
2. Piriyev A., Piriyeva S. Ata yurdum Ahıska. Mütərcim: Bakı, 2001
3. Şamil Ə. Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər), Elm və təhsil: Bakı, 2012

ABSTRACT

The article explores the characteristics of ethnocultural vocabulary in the Akhsika Turkish language. The study provides a theoretical analysis of the vocabulary and examines the historical and cultural environment of the Akhsika Turks based on linguistic data. Lexical units related to family and kinship relations, rituals, religious beliefs, and economic activities are systematically presented. It is shown that this vocabulary constitutes an essential layer of the language, preserving the national identity, cultural memory, and worldview of the people. The findings of the study are of scientific significance for the ethnolinguistic research of the Akhsika Turkish language.

АННОТАЦИЯ

В статье рассматриваются особенности этнокультурной лексики ахыскинского турецкого языка. Исследование включает теоретический анализ лексики, а также изучение историко-культурной среды ахыскинских турок на основе языковых фактов. Лексические единицы, связанные с семьей и родственными отношениями, обрядами, религиозными верованиями и хозяйственной деятельностью, систематически представлены. Показано, что данная лексика является важным уровнем языка, сохраняющим национальную идентичность, культурную память и мировоззрение народа. Результаты исследования имеют научное значение для этнолингвистического изучения ахыскинского турецкого языка.

Şövkət NADİROVA*

ORTA ƏSR YAZILI ABİDƏLƏRİNDƏ OMONİM VƏ ÇOXMƏNALILIQ

XÜLASƏ

Bir dövlətin formalaşmasında və tanınmasında dil mühüm rol oynayır. Xalq ilk növbədə dili ilə tanınır. Dilin qorunması və zənginləşdirilməsi həm dilçi alimlərin, mətbuat işçilərinin, həm də hər bir vətəndaşın borcudur. Müasir dövr informasiya əsri olduğundan insanların mətbuata, yeni informasiya və xəbərlərə tələbatı daha da artmışdır. Mətbuatda məlumatların aydın, səlis və anlaşıqlı şəkildə təqdim olunması üçün dilin təmiz və ahəngdar olması vacibdir.

XXI əsr tarixdə qloballaşma əsri kimi yadda qalmışdır. Bu dövrdə xalqlar arasında siyasi, ticari və mənəvi əlaqələrin genişlənməsi, elm və texnikanın inkişafı həyatın bütün sahələrinə təsir

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dili tarixi şöbəsinin operatoru. Email: shovket.nadirova@gmail.com

göstərmişdir. Bu təsir sahələri içərisində dil də mühüm yer tutur. Dil mədəniyyəti və onun leksik vahidləri zənginləşmiş, bəzi sözlərin işlənməsinə ehtiyac yaranmış, bəzi sözlər isə yeni məna çalarları qazanmışdır. Bu baxımdan omonim və çoxmənalı sözlər xüsusi diqqət çəkir. Həmin sözlər dilçiliyin leksikologiya bölməsində öyrənilir. Leksikologiya leksikanı, sözlərin mahiyyətini və mənşəyini araşdıran dilçilik sahəsidir.

Əsas məna ilə bağlılığı olan və bir neçə əlavə mənada işlənən sözlərə çoxmənalı sözlər deyilir. Çoxmənalı sözlər eyni nitq hissəsinə aid olmalıdır. Demək olar ki, bütün əsas nitq hissələrində (isim, sifət, feil) çoxmənalı sözlərə rast gəlinir. Çoxmənalı sözlərdə yalnız bir məna ilkin və müstəqil məna hesab olunur. Bu zaman sözün əsas mənası həqiqi, digər mənaları isə məcazi məna adlanır. Türk dillərində çoxmənalılıq qədim dövrlərdən mövcud olmuş və dilin zənginləşməsində mühüm rol oynamışdır.

Məsələn: göz – insanın gözü, cahanın gözü, bəsirət gözü; üz – insanın üzü, yer üzü və s.

Hüsnü camalın nəqşini gördü əzəldə gözlərim,
Bu hüsnə heyran olmuşam, mən nəqşə heyran gəlmişəm [5, s. 23].

"Hüsnü camalın nəqşini gördü əzəldə gözlərim" misrasında "hüsnü-camal" gözəllik və cazibə, "nəqş" isə bədii təsvir mənasında işlədilmişdir. Şair burada ilahi və ya mənəvi gözəlliyi ifadə edir. "Əzəldə" sözü həmin gözəlliyin ruhən öncədən duyulduğunu göstərir.

"Bu hüsnə heyran olmuşam, mən nəqşə heyran gəlmişəm" misrasında isə şair yalnız gözəlliyin özünə deyil, onun sənətkarcasına təsvirinə də heyranlığını bildirir.

Hər kimsənin ki, üzünə açıldı gözləri,
Sahibbəsirət olduvü adı bəsirdir [5, s. 30].

Bu beyitdə klassik Şərq poeziyasında və İslam fəlsəfəsində mühüm yer tutan "bəsirət" anlayışı ifadə olunur. Şair insanın mənəvi gözlərinin açılmasını, yəni həqiqəti dərk etməsini vurğulayır.

Nəqqaşı nəqş içində hüsnündə gördü zahir,
Güzgüsünün üzündən hər kim gedirdi pası [4, s. 83].

Bu misralar klassik Azərbaycan və türk ədəbiyyatında rast gəlinən dərin fəlsəfi düşüncəni əks etdirir.

"Nəqqaşı nəqş içində hüsnündə gördü zahir" misrasında "nəqqaş" və "nəqş" sözləri simvolik məna daşıyır. Burada insanın yaratdığı əsərdə öz daxili gözəlliyini görməsi ifadə olunur.

"Güzgüsünün üzündən hər kim gedirdi pası" misrasında isə "güzgü" insanın özünü tanımasını, "pas" isə qəlbdəki mənəvi çirkləri simvolizə edir. Pasın silinməsi mənəvi saflaşmanı və daxili inkişafı ifadə edir.

Beləliklə, misra insanın özünü dərk etməsi, ruhi təmizlənməsi və mənəvi kamilləşməsi fikrini ifadə edir.

Ey üzü gül, ləbləri mərcanımız!
Ey gözü nərgis, şəhi-məstanımız! [4, s. 77].

Birinci misrada şair sevgilinin gözəl üzünü və dodaqlarını tərif edir. Buradakı gözəllik yalnız zahiri deyil, həm də mənəvi cazibə daşıyır.

İkinci misrada isə sevgilinin gözləri və siması tərənnüm olunur. Bununla yanaşı, həmin gözəlliyin arxasında gizlənən həsrət və duyğusal çalarlar da hiss edilir.

Azdırıbdır gül yüzün bülbülləri gülzarıdən,
Sünbülün, reyhan xətin toprağa yeksan eyləmiş.
Kəbəni bütxanə edibdir firəngi gözlərin,
Yer üzün zünnar zülfün kafərstan eyləmiş [7, s. 28].

Bu misralar klassik Şərq poeziyasına xas olan məcazi və sufi üslubda yazılmışdır.

"Azdırıbdır gül yüzün bülbülləri gülzarıdən" misrasında sevgilinin gözəlliyinin aşiqləri yoldan çıxardığı ifadə olunur.

"Sünbülün, reyhan xətin toprağa yeksan eyləmiş" misrasında sevgilinin saçları və üz cizgilərinin təbiətin ən gözəl nemətlərini belə kölgədə qoyduğu bildirilir.

"Kəbəni bütxanə edibdir firəngi gözlərin" misrasında sevgilinin gözlərinin müqəddəs sayılan hər şeyi unutduracaq qədər cazibədar olduğu vurğulanır.

"Yer üzün zünnar zülfün kafərstan eyləmiş" ifadəsi isə klassik poeziyada eşqin gücünü göstərən poetik mübaliğədir.

Yazılışı və deyilişi eyni, lakin leksik mənaları fərqli olan sözlərə omonimlər deyilir. Omonimlərin çoxmənalı sözlərdən fərqi ondadır ki, omonimlər arasında məna əlaqəsi olmur və onlar yalnız həqiqi mənalarda işlənirlər. Omonim sözlər həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilər.

Məsələn: Çin – ölkə adı, həqiqət, qıvrım saç; dolu – təbiət hadisəsi və içi dolu anlayışı; ay – göy cismi və təqvim vahidi.

Çinü Xətaya surətin nəqşini göndər, ey sənəm,
Ta büti-Çinə tapanın göstərəsən xətasını [3, s. 171].

Bu beyitdə şair sevgilinin gözəlliyini dünya şöhrətli mədəniyyətlərlə müqayisə edir və onun gözəlliyini bütpərəstlikdən üstün tutur.

Sünbülün çinində könlüm eyləsə məskən nola,
Əhli-tövhidin məqamı rövzeyi-rizvan olur [3, s. 172].

Birinci misrada şair dünyəvi gözəlliklərə meyl etməyi ifadə edir. İkinci misrada isə Allahın birliyinə inanan insanların əbədi səadətə çatacaqları vurğulanır. Burada dünyəvi gözəlliklə mənəvi kamillik qarşılaşdırılır.

Keçib ol dün yenə çün oldu gündüz,
Nur ilə doldu aləm yüzü düpdüz [1, s. 34].

Bu misrada gecə ilə gündüzün əvəzlənməsi və gündüzün işığının aləmi nura qərq etməsi təsvir olunur.

Bəlayi-eşq başuma dolu kimi yağar nedim?
Deməz içi yanub kimsə bu miskinin xətasinə [8, s. 326].

Şair eşqin ona fasiləsiz bəla gətirdiyini bildirir. Bununla yanaşı, eşq əzabını yaşayan insanların onu qınamayacağını vurğulayır.

Dişrədə desəm anı yiçərüdən ün verər,
İçərü desəm dişrə dolu gömür andən [8, s. 308].

Bu misralar köhnə tapmaca üslubunda yazılmışdır və davulu təsvir edir. Haradan vurulmasından asılı olmayaraq, səsin içəridən gəldiyi vurğulanır.

Bucuq yil müntəzir olun bizə siz,
Tapuna altu ayda irəvüz biz [1, s. 58].

Birinci misrada uzun müddətli gözləmə ifadə olunur. İkinci misrada isə gözlənilən görüşün və ya hadisənin yaxınlaşdığı bildirilir.

"Gecə hava buludlu olduğu üçün qazı göyə baxıb, ayın təsirindən göy üzünü açıq gördü və düşündü ki, sübh açılıb" [2, s. 22].

Bu cümlədə gecə vaxtı ay işığının göy üzünü aydın göstərməsi nəticəsində səhərin açıldığı zənn edilir. Burada "ay" və "göy üzünün açılması" simvolik şəkildə yeni günün başlanğıcını ifadə edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Dastani-Əhməd Hərami. Bakı, "Şərq-Qərb", 2004, 120 səh.
2. Düzd və Qazi (Oğru və Qazı). Bakı: Elm və Təhsil, 2011, 90 s.
3. Heydərova Xədicə. Nəsiminin anadilli əsərlərinin izahlı-ensiklopedik lüğəti. Üç cilddə. I cild. Bakı: "Nurlan" nəşriyyatı, 2019, 344 səh.
4. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Tərtib edəni: Həmid Araslı. Bakı: "Lider nəşriyyat", 2004, 336 səh.
5. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II cild. Tərtib edəni: Həmid Araslı. Bakı: "Lider nəşriyyat", 2004, 376 səh.
6. "Koroğlu" dastanı. Tərtib edəni, izah və lüğətin müəllifi: Elnarə Tofiq qızı. Bakı, "Səda", 2005.
7. Saib Təbrizi. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyatı", 2004, 256 səh.
8. Şeyx İbrahim Gülşəni Bərdəi Divan. Bakı, "Avrasiya press", 2006, 416 səh.

ОМОНИМИЯ И МНОГОЗНАЧНОСТЬ В СРЕДНЕВЕКОВЫХ ПИСЬМЕННЫХ ПАМЯТНИКАХ

РЕЗЮМЕ

Статья посвящена изучению употребления омонимов и многозначных слов в письменных памятниках средневековья. Основная цель исследования заключается в лексико-семантическом анализе многозначных и омонимичных слов, используемых в произведениях представителей средневековой литературы. Приведённые в статье примеры наглядно показывают, что одно и то же слово, обладая многозначностью, может выражать несколько значений, а как омоним относиться к различным частям речи, выступая в функции существительного, прилагательного, глагола и других частей речи.

Многозначные и омонимичные слова, рассмотренные в статье, интерпретируются на основе средневековых источников и азербайджанских словарей. Подчёркивается, что некоторые из этих слов обозначают не только внешнюю красоту, физические особенности, качества и признаки, но и внутреннюю красоту, духовное совершенство. Основная цель статьи состоит в выявлении значений и характеристик многозначных и омонимичных слов, характерных не только для современного периода, но и для средневековой эпохи.

Ключевые слова: *средневековые источники, многозначность, омонимия, лексико-семантическое значение.*

HOMONYMY AND POLYSEMY İN MEDİEVAL WRİTTEN MONUMENTS

SUMMARY

The article focuses on the use of homonymous and polysemous words in medieval written monuments. The main objective of the study is to conduct a lexical-semantic analysis of polysemous and homonymous words employed in the works of medieval authors. The examples presented in the article clearly demonstrate that a single word, due to its polysemy, can convey multiple meanings, and as a homonym, it may belong to different parts of speech, functioning as a noun, adjective, verb, or other grammatical categories.

The polysemous and homonymous words discussed in the article are interpreted with reference to medieval sources and Azerbaijani lexicographical materials. It is emphasized that some of these words

express not only external beauty, physical characteristics, qualities, and attributes, but also inner beauty and spiritual perfection. The primary aim of the article is to elucidate the meanings and semantic features of polysemous and homonymous words that are characteristic not only of the modern period but also of the medieval era.

Zibeydə QULİYEVA*

İRAQ-TÜRKMAN LƏHCƏSİNƏ MƏXSUS BƏZİ FRAZEOLOGİZMLƏRİN AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Bu məqalədə xalqın inkişaf tarixinin, dünyagörüşünün, inanclarının və yaşadığı coğrafiyanın onun dilinə necə təsir etdiyini və frazeoloji birləşmələrdə bunun necə təzahür etdiyi araşdırılmışdır. frazeoloji birləşmələrin özünəxas xüsusiyyətləri olduğu üçün hər bir dil qrupunda fərqli nümunələrinə rast gəlməök olur. Lakin bəzi dillərdə təsadüf edilən frazeologizm oxşarlığı və ya ortaqlığı bu dillərin tarixən əlaqəsinin olduğunu və yaxud xalqların ortaq düşüncə tərzinə malik olduğunu düşünməyə əsas verir. Bu baxımdan iraq-terkmanlarının işlətdiyi bir çox frazeologizmlər eyniylə bizim dilimizdə də işlədilməkdədir. Lakin bu heç də bütün frazeoloji sistemə aid edilə bilməz çünki bəzi fərqli nümunələrə də rast gəlmək mümkündür.

Açar sözlər: *frazeologizmlər, iraq-türkman ləhcəsi, ortaq ifadələr, fərqli nümunələr.*

Dil cəmiyyətin ayrılmaz bir parçasıdır. Hər hansı bir xalqın varlığını davam etdirməsinin əsas şərtlərindən biri onun dilidir. Dil insan cəmiyyəti ilə birlikdə yaşayır, inkişaf edir, köhnəlir, yenilənir, insan hisslərinə, düşüncələrinə, xalqların əlaqələrinə, qarşılıqlı ünsiyyətə can verir. Bu baxımdan insan həyatının əsas elementidir. İlk olaraq ünsiyyət vasitəsi rolunu oynayan dil daha sonra müxtəlif funksiyalar daşımağa başlamış və nəhayət insanlarla birlikdə dəyişən, qloballaşan dünyanın əsas parçasına çevrilmişdir.

Məlumdur ki, bir çox dilçi alimlər müasir dövrdə mövcud olan bir çox dillərin mənşəcə eyni kökdən gəlməsi ideyasını irəli sürməkdədir. Belə ki, ilk insan cəmiyyəti yarandıqda dil məvhumu sadəcə səslərdən ibarət olmuş, müxtəlif işarələr və səslərlə ünsiyyət qurulmağa çalışılmışdır. Cəmiyyət inkişaf etdikcə, ünsiyyətin əhatə dairəsi də genişlənmiş və dilin imkanları da zamanla genişlənmiş, yeni formalar yaranmışdır. Bu da onu göstərir ki, bütün dillər ən qədim zamanlarda vahid bir dilin hissələri olmuşdur. İstənilən dilin tarixində onun ayrıldığı mənbə dil bilavasitə iştirak edir. Və bu iştirak tədricən baş vermiş dəyişmə-yayınmaların yaratdığı özünəməxsus mühitdə baş verir ki, dilləri ümumi əcdadlarından fərqləndirən də həmin dəyişmə-yayınmalardır. [Cəfərov, s.20] Müasir dövrdə kök və qrammatik quruluş etibarilə bir-birindən tamamən uzaq olan dillərdə belə ortaq kəlimələrə rast gəlmək mümkündür. Bu da həmin ideyanın doğruluğuna bir işarə əhəmiyyətini daşıyır.

Xalqların həyat tərzi, düşüncə tərzi, adət-ənənələri, fikirlərini ifadə etmək xüsusiyyətləri fərqli əlamətlərə malik olduğu üçün bu xüsusiyyətlər özünü onların dillərində də göstərir. Belə ki, istənilən xalqın dilində hisslərin, duyğuların, düşüncələrin, hətta etiraz və sevgi və nifrətin belə ifadə edilməsində müxtəlif idiomlardan, metaforik birləşmələrdən istifadə edilir. Bu baxımdan Azərbaycan dili də öz zənginliyi ilə diqqəti cəlb edir. Bütün dillərdə olduğu kimi Azərbaycan dilində də məcazlar, atalar sözləri, idiomlar, frazeoloji birləşmələr geniş işlənməkdədir. Bunlar arasında frazeoloji birləşmələr özünəməxsus yer tutur. Dilin lüğət tərkibinin zənginləşməsi ilə yanaşı, onun canlılığını, təbiiliyini, özünəməxsusuluğunu da artırır. Hətta frazeoloji birləşmələr baxımından bir çox dillərdə oxşar ifadələr də görmək mümkündür. Xüsusən mənşə olaraq eyni kökə aid olan dillərdəki frazeoloji birləşmələr çoxluq təşkil edir.

Bir çox dillərdə işlədilən frazeoloji birləşmələrin ortaq olması və ya həddindən artıq oxşarlığı həmin dillərin arasındakı əlaqədən, bağlılıqdan xəbər verir. Bu baxımdan İraq-türkmancada işlədilən bəzi frazeoloji birləşmələrin Azərbaycan dilindəki nümunələrlə oxşarlıq təşkil etməsi diqqəti cəlb edir. Eyni

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, disserant, Azərbaycan Memarlıq və İnşaat Universiteti, müəllim. Email:Zibeyde-quliyeva-90@mail.ru

zamanda bu ləhcənin özünəxas frazeologizmləri də kifayət qədərdir. İlk olaraq İraq-türkman folklorunun ən dəyərli nümunələrindən biri olan Arzu Qənbər dastanında rast gəlinən frazeoloji birləşmələrə nəzər salaq. Onu da qeyd edək ki, Arzu Qəmbər dastanı Kərkük xalqı tərəfindən çox sevilən, əsasən qadın yığıncaqlarında sənətkarlar tərəfindən söylənilən məşhur dastandır. Dastanı Əta Tərzibaşı 1964-cü ildə Bağdadda, 1967-ci ildə Tehranda çap etdirmişdir. [1, s.8]

Bunlar bir zaman hətta böyük oldılar. Bir *doqquz yaşına girdilər* [1, s.9]

Bu cümlədə "yaşa girmək" frazeoloji birləşməsi işlədilmişdir ki, bizim dilimizdə də bu birləşmə olduqca işləkdir. Hətta Azərbaycan dilində *yaşa dolmaq*, *yaşa çatmaq* formalarında da işlədilməkdədir.

Qız *ataş düşdü canına*, döndi bu maanını dedi....[1, s.12] bu nümunədə "canına atəş düşmək", canına od düşmək frazeoloji birləşməsi işlədilmişdir. Əsasən qorxmaq, təşvişə düşmək mənalarını ifadə edir. Bəzən isə hər hansı bir hadisəyə dərindən kədərlənmək mənasında da işlədilir.

Qalxdı qızı belə çaldı, dildən damaqdan saldı....[1. s.17] bu nümunədə diqqət çəkən iki əsas məqam var. Buradakı "çaldı" ifadəsi məcazi mənada işlənmişdir mətn daxilində döymək, çırpmaq mənasını ifadə edir. Azərbaycan dilinin bəzi dialektlərində ilan kimi çalmaq ifadəsi var ki bu fiziki cəhətdən zərər yetirmək deyil, söz ilə kobud danışıq, sərt davranış mənalarında işlədilir. Dildən damaqdan salmaq isə burada taqətdən salmaq, halı qalmamaq mənasında işlənmişdir.

Mənim üçün bir teşt dırnaxlı külçə eləginən, baş alıram gedirəm...[1, s.17]

Burada *baş alıb getmək* frazeoloji birləşməsi işlənmişdir ki bu ifadəyə dilimizdə tez-tez rast gəlinir. Bununla yanaşı *baş götürüb getmək* formasında da istifadə olunur. Mənası olduğu yeri tərk etmək, hər şeydən uzaqlaşmaq deməkdir. Eyni zamanda -Hə getsin "boynumdan olsun"... cümləsinə nəzər salsaq görərik ki, burada *boynumdan olsun* frazeoloji birləşməsi məsuliyyəti məndən çıxsın, əl çəksin, məndən uzaqlaşsın mənalarını ifadə edir. Bu birləşmənin "başımdan olsun" formasında da işlədilməsinə rast gəlirik.

Belə ürəgi kəsildi, durdu qapıda

Baş dayadı qapıya, belə movaldı..[1, s.24]

Verilmiş nümunədə "ürəgi kəsildi" frazeoloji birləşməsi özünü itirmək, halı pisləşmək mənasında işlənmişdir. Dilimizdə bu mənanı ifadə edən frazeoloji birləşmə "ürəyi getmək", "ürəyi üzülmək" formasında işlədilməkdədir. Eyni zamanda bu nümunədə "movaldı" ifadəsi də huşunu itirmək mənasını ifadə edir. Azərbaycan dilində *movaldı* ifadəsi mövcud deyildir.

Oğlan türbənin başında öz-özün çalar, yığlar, gözündən su yerinə qan gələr...[1, s.22]

Bu cümlədə gözündən su yerinə qan gələr ifadəsi həddindən artıq kədərli olmaq, çarəsizcə ağlamaq mənasını ifadə edir. Azərbaycan dilində bu mənanı ifadə etmək üçün *qan ağlayır* ifadəsi işlədilir. Məzmunca eyni mənanı ifadə etməsiylə yanaşı formaca oxşarlıq da nəzərə çarpır. Bundan başqa dilimizdə müharibələrin şiddətini, faciəviliyini bildirmək üçün *qan su yerinə axır* birləşməsi işlədilir. Nəticə olaraq bu ifadələr məzmun və forma etibarilə yaxınlıq təşkil etməkdədir.

Gözü görmiri hirsindən hiddətindən... [1, s.24] bu nümunədəki hirsindən gözü görməmək ifadəsi həddindən artıq əsəbi olmaq, çox hiddətlənmək mənasını verir. Bir çox dillərdə təxminən bu formada işlənən bu ifadə Azərbaycan dilində də işlədilməkdədir. Lakin dilimizdə "*gözünü hirs bürüyüb*", "*gözlərindən od püskürür*" kimi frazeoloji birləşmələr də eyni mənanı ifadə etmək üçün işlədilir.

Başımı qoyum dizü üstnünə bir yuxu alım... burada *yuxu almaq* frazeoloji birləşməsi eynən bu formada Azərbaycan dilində də işlədilməkdədir. Hətta eyni mənanı ifadə etmək üçün dilimizin bəzi dialektlərində "*çimir almaq"* ifadəsi də işlədilir.

İstər Azərbaycan dilində, istərsə də İraq-türkman ləhcəsində oxşarlıq təşkil edən frazeologizmlərin sayı kifayət qədərdir. Frazeoloji birləşmələr xalqın həyat tərzini, düşüncələrinin ifadə biçimini, xalqa məxsus xarakterik xüsusiyyətləri özündə cəmləşdirən dil faktorlarıdır. Nümunələr üzərində apardığmız müqayisələrdən aydın olur ki, İraq-türkmanlarının folklorunda və xalq arasında işlətdikləri idiomatik ifadələr, frazeologizmlər bir çox baxımdan dilimizdəki ifadələrlə oxşar xüsusiyyətləri ilə seçilir. Bu da xalqların dilinin ortaq olması fikrini bir daha təsdiq etməyə imkan verir. Doğrudur, etimoloji cəhətdən qohum olmayan dillərdə də idiomatik ifadələrin oxşarlığına rast gəlmək mümküdür. Lakin, xalqların istifadə etdiyi bu birləşmələrin böyük əksəriyyətinin eynilik təşkil etməsi dillərin eyni kökdən gəldiyi fikrini irəli sürməyə imkan verir.

ƏDƏBİYYAT:

1. Arzu Qənbər Kərkük xalq dastanı Gənclik. Bakı 1971
2. Azərbaycan folklor antologiyası İraq-türkman cildi. Bakı 1999
3. Cəfərov N. Dilin tarixi. Məqalə. ədəbiyyat qəzeti 2020. 22 fevral s.20-21
4. Paşayev Q. Seçilmiş əsərləri 7 cilddə. III CİLD. Bakı 2012
5. Azərbaycan dilinin frazeologiya lüğəti 2-ci nəşr. Altun kitab Bakı 2018

SUMMARY

This article examines how the history of the development of a people, their worldview, beliefs and the geography in which they live affect their language and how this is manifested in phraseological units. Since phraseological units have their own characteristics, different examples can be found in each language group. However, the similarity or commonality of phraseological units encountered in some languages gives reason to think that these languages are historically related or that the peoples have a common way of thinking. In this regard, many phraseological units used by the Iraqi-Turkmens are also used in our language. However, this cannot be attributed to the entire phraseological system, because it is also possible to find some different examples.

Keywords: *phraseologisms, Iraqi-Turkmen dialect, common expressions, different examples*

РЕЗЮМЕ

В данной статье рассматривается, как история развития народа, его мировоззрение, верования и география проживания влияют на его язык и как это проявляется в фразеологических единицах. Поскольку фразеологические единицы имеют свои особенности, в каждой языковой группе можно найти разные примеры. Однако сходство или общность фразеологических единиц, встречающихся в некоторых языках, дает основания полагать, что эти языки исторически связаны или что у народов общий образ мышления. В этом отношении многие фразеологические единицы, используемые иракско-тюркменами, также используются в нашем языке. Однако это нельзя отнести ко всей фразеологической системе, поскольку можно найти и другие примеры.

Ключевые слова*: фразеологизмы, иракско-туркменский диалект, общеупотребительные выражения, различные примеры.*

Ayshan Gasimova MUSTAFAYEVA*

SYNTACTIC REPETITIONS IN RAMIZ ROVSHAN'S PROSE LANGUAGE

ABSTRACT

In Azerbaijani linguistics, certain research works have been carried out on the problem of syntactic repetitions. Syntax is a wide field of linguistics, its boundaries are wide, and the possibilities of expression are rich. One of the main functions of syntactic repetitions is to create poeticism characterized by rhythm and harmony based on the intensive expression of information. In each syntactic repetition construction, certain components of a sentence, as well as the sentences themselves, can be treated with repetition. In this case, it creates an environment of rhythm and harmony both within a sentence and between the sentences themselves. When talking about syntactic repetitions, they are sometimes equated with syntactic parallelism. Of course, this is not surprising, because the presence of

* *Azerbaijan State Agrarian University Head of department of "Languages Educational Center"* ***.Email:*** *ayshenmuellimeqasimova@gmail.com*

elements of parallelism is also possible in syntactically repeated sentence types. However, it should also be noted that there is a subtle difference between syntactic repetitions and syntactic parallel components.

Key words: *syntactic repetitions, syntactic parallelism, prose language of Ramiz Rovshan, rhythm and harmony.*

In syntactic repetitions, syntactic parallelism occurs between parallel constructions if any sentence component or sentences themselves are repeated within a complex syntactic whole. Regarding the question of origin, it can be said that syntactic repetitions are genetically earlier than syntactic parallels. Although syntactic repetitions are used as a means of information intensification in the language of ancient Turkish written traditions, they are also interesting as an example of creating a rhythmic poetics within sentences and microtexts. The tradition of creating poeticism through repetition in both ancient written and classical sources belonging to the Azerbaijani language has continued. This traditionalism is characterized by creating a unique poetic landscape in fiction, including Ramiz Rovshan's prose language. In general, syntactic repetitions in Ramiz Rovshan's prose language are traditional by their foundation, modern by their creative style, rhythmic, harmonious, poetic by their arrangement.

In the prose language of Ramiz Rovshan, sometimes the sentences within the text are used repeatedly. The repetition of such sentences enlivens the situation, harmonizes the text, turns it into a rhythmic, melancholy musical language:

"Every time he threw firewood into the stove, he cried and muttered something in his sleep.
- My bone is not warm, brother, he said.
- Brother, he said, - my bones are not warm!
- My bones are not warm, brother, my bones are not warm.
Yes, brother?!
Where is the brother?!
What was his uncle's brother doing?!" [7, p. 586].

In the prose language of Ramiz Rovshan, the same words are used both as members of the same gender in the opening sentence, and in sentences forming a complex syntactic whole, they are used repeatedly, creating an internal rhythm. This internal rhythm, as well as having a poetic character, enlivens the character's thoughts, thoughts, dream world, and his secret, mysterious attitude to the events around him: *"Abil was sharpening his razor, sharpening it. One day, five days, one week, one month... That's how everything went out of Abil's memory. He forgot why he was sharpening the razor, why he was sharpening it. All that remained was to sharpen that razor"* [7, p. 643].

The news of the sentence used in the opening sentence is repeated again in the last sentence. At the same time, serial repetition of the same members is used between repeated sentences. Both the parallel repetitions in the sentences and the consecutive, same-sex repetitions complement each other in terms of rhythm as well as in terms of content, enlivening the details of the event: *"When did that girl come and go, Muslim did not know about her. He was not aware of the footsteps of that girl, nor the rustle of her dress, nor her voice, nor her perfume, nor her smell, nor anything"* [7, p. 641].

News that is repeated in consecutive sentences is used at the end of parallel sentences that are related to each other. Grammatically, it is not considered homogeneous, but it regulates the harmony of sentences used one after the other: *"Suddenly, Alishin felt sorry for his ox. He felt sorry for Sattar's bull. Then he remembered that his wife had not come to him for two months, and he felt sorry for himself"* [7, p. 505].

Repeated news are used as constituents of a complex sentence without a subordinate. Although each of the repeated news creates a grammatical connection with each other in the constituent parts of the subordinate complex sentence, a separate meaning feature is revived in each of them. Repetitions in the sentence serve grammatically connectedness and poeticism in terms of creating rhythmicity: *"But more than this wife, the soul of the Muslim man rested, the soul of the whole world rested"* [7, p. 579];

"*When we entered the village, the first children saw the cart. They also saw Iskandar tied to the cart"* [7, p. 490].

Repeated news items are processed one after the other throughout the entire microtext. Repeated news creates a series, chain-loop connection in sentences. Within this relationship, each repeated member multiplies the rhythm and harmony. In such an artistic scene, the reader enters the inner world of the image, its psychological world itself. At the same time, each member of the series, each link, creates the impression of an element characterized by harmony*: "One day, the community realized that one of Alish's eyes was glass. Then they realized that Aliş's head was that word... And then they realized that Aliş had a seizure, when he had a seizure, his heart would go... And then the people understood everything together and at once. In other words, he understood that one of Alishin's eyes was glass, Alishin's head was that word, Alishin's heart goes when he has a seizure"* [7, p.502].

The news of the subordinate complex sentence and the news of the branch sentence at the beginning of cyclical repetitions are repeated according to the same rule in the sentences within the text. This creates a rhythmic and harmonious arrangement in the text. This turns the text into a vivid picture of prose poetics: *"Alish could see that Sadr Sharif was gasping for breath - he enjoyed it. He could see that the crowd was not whining, they were enjoying themselves. Alish saw that Sadr Sharif's left leg was held up to the calf, - he enjoyed it"* [7, p. 517]; "Satersaw that Alish was mowing and started mowing himself. Sadr Sharif saw that Alish was also mowing, and Sattar himself quickly started mowing" [7, p. 517].

Cyclic repetitions are used repeatedly throughout the text. They are not used as a member of the same gender of the sentence, but as an independent news of each sentence. However, each sentence serves to convey unique information. At the same time, repetition creates rhythm, harmony, rhetoric.

"Sadr Sharif's leg was hairless, plump, and Alishin was bored with this leg. If Sadr Sharif had a single scar, a single wound on his calf, Alishin would not have raised his hand to beat this calf. However, Sadr Sharif's leg looked like an egg, and Alishin was tired of this leg. Alishin was annoyed with Sadr Sharif, he had been annoyed for a long time, he didn't even know why. He was bored, that's all" [7, p. 513-514].

Of course, Ramiz Rovshan's processing of repetitions in prose language in this way did not suddenly arise in the artist's imagination, it did not suddenly mature and reach the peak of a wonderful poetic landscape. Here, the fruit of traces of artistic thinking belonging to the ancient epic genre, pearls of oral folk creativity, including the traditions of classical and later period literature played an important role. As a concrete example, it is possible to say that when we consider the last example again, it is possible to clearly observe the similar artistic picture of his traditional traces in the work of Jalil Mammadguluzade in the comparison of the following sentences: *"He grew tall, very tall. Yes, he grew taller. His beard and eyebrows are dark. His face turned black, very black. His eyes were completely black, there was no white in them. So, sometimes Mr. Khudayar puts his hat in front of his eyes: the hat is black, the eyes are black, the face is black. Khudayar Bey has one big flaw. He turned his nose; twisted, but twisted badly. There is a curve and there is a curve. I have seen many beautiful women whose noses were crooked, but Khudayar Bey's nose was badly crooked, that's all"* [4, p. 351].

The main reason for the wonder of syntactic repetitions in Ramiz Rovsha's prose works is that there is an organic connection between the deep observational creative imagination of the artist and the rich poetic traditions of ancient Turkish, classical and later literary works.

For comparison, it is possible to see that traditionalism in the following examples: *"Iskander's head wound healed quickly. Not even a small scar remained. But even if the doctors tried, the headache did not go away"* [7, p. 476]. The traditions of the opposite repetition pattern *"he didn't go, he didn't go"* in this sentence are also present in Azerbaijani fairy tales and epics: *"Shams felt some pain in his eyes and woke up from a dazed sleep to a sound, he saw that Gamar was not there. Over there Gamar, over there Gamar... Gamar was not found, he was not found"* [2, p. 20]. A similar model is used in the *"Koroğlu"* epic: *"Koroğlu just went to sleep instead of sleeping." His snoring took over the world. But the wife could not sleep, so she did not leave"* [3, p. 69]. This style of expression can be found in the

language of C. Mammadguluzadeh: *"There is a widow's privates in our Danabash village. I've been wanting to suck him for a long time. But the private parts do not come. I don't know if they are scared or what. He says, "I won't go, I won't go"* [2, p. 56].

As it can be seen, syntactic repetitions in Ramiz Rovshan's prose language are traditional by their foundation, modern by their creative style, rhythmic, harmonious and poetic by their arrangement.

Sources related to syntactic parallelism in Russian linguistics also appreciate the idea that syntactic parallelism and syntactic repetitions have a mutual relationship. At the same time, it is shown that the main linguistic-aesthetic function of repetitions is to create poeticism [6].

In an article by E.V. Grudeva and S.A. Solovyeva, it is shown that syntactic repetitions do not consist of the usual, simple repetition of a word, phrase or syntactic construction, but serve poeticism by creating a symmetrical connection in a sentence [5, pp. 12-14]. Another source mentions the creation of syntactic parallelism by means of syntactic repetitions. As it can be seen from here, syntactic repetition and syntactic parallelism, which create an internal connection with each other, are not a problem related to a single language, but are considered as a similar, universal phenomenon between languages [8].

In general, when discussing syntactic repetitions in Russian linguistics, it is shown that these linguistic units, as a rule, have a grammatical-semantic relationship as a stylistic figure in sentence structure, and at the same time, they create poeticism by having an emotional-expressive character. These ideas about syntactic repetitions are reflected in an article prepared by O.P. Puchina on syntactic repetitions with reference to experts such as I.V.Arnold, V.V.Danilin, Z.P.Kulikova, V.P.Moskvin, M.I.Svetaeva, V.A.Beloshapkova, E.A.Zemskaya, A.A.Minakova. [7, p.158-164].

BIBLIOGRAPHY

1. Azərbaycannağılları. 5 cilddə, Ic., Bakı, Şərq-Qərb, 360 s.
2. “Koroğlu”dastanı, Bakı, Lidernəşriyyat., 2005, 552 s.
3. Грудева Е.В., Соловьева С.А. Синтактический повтор как средство монтажного принципа организации текста. Вестник Темского государственного университета, 2017, № 424, с. 12-15.
4. Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə, I c., Bakı, Öndər nəşriyyat, 2004, 664 s.
5. Мильдзихова А.К. Синтаксический повтор как проявление репетиционной иконичности в стихе//Современные проблемы науки и образования, 2015, № 1-1. (Дата обращения: 30.08.2022: = science-education.ru/ru/article/view.
6. Пучинина О.П. Повтор как особый вид синтактической связи в несобственно-прямой речи: на материале прозы Марины Цветаевой.// Современные исследования социальных проблем. 2017, Том 9. № 1, с. 154-166.
7. RamizRövşən. Nəfəs. Kitablarkitabı. (Şeir, nəsr, esse). Bakı, Qanunnəşr, 2006, 760 s.
8. Розенталь Д.Э. Литературное редактирование текста. Фигуры, построенные на основе повтора. Виды синтаксичесвого повтора. Параграф 2019; evarist.narod.ru/text 1/ 71. Htm. Moskva, Pero, 1999.

Ayşən Qasımova MUSTAFAYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti
Dillər Tədris mərkəzinin müdiri

RAMIZ RÖVŞƏNIN NƏSR DILINDƏ SINTAKTIK TƏKRARLAR

Azərbaycan dilçiliyində sintaktik təkrarlar problemi ilə bağlı müəyyən tədqiqat işləri aparılmışdır. Sintaksis dilçiliyin geniş sahəsidir, onun hüdudları genişdir, ifadə imkanları zəngindir. Sintaktik təkrarların əsas funksiyalarından biri informasiyanın intensiv ifadəsi əsasında ritm və harmoniya ilə səciyyələnən poetikizm yaratmaqdır. Hər bir sintaktik təkrar konstruksiyasında cümlənin müəyyən komponentlərinə, eləcə də cümlələrin özünə təkrarla yanaşmaq olar. Bu zaman həm cümlə daxilində, həm də cümlələrin özləri arasında ritm və ahəng mühiti yaradır. Sintaktik təkrarlardan danışarkən bəzən onları sintaktik paralelliklə eyniləşdirirlər. Təbii ki, bu təəccüblü deyil,

çünki paralellik elementlərinin olması sintaktik təkrarlanan cümlə növlərində də mümkündür. Bununla belə, onu da qeyd etmək lazımdır ki, sintaktik təkrarlarla sintaktik paralel komponentlər arasında incə fərq var.

Açar sözlər: *sintaktik təkrarlar, sintaktik paralellik, Ramiz Rövşənin nəsr dili, ritm və harmoniya*

Айшен Гасымова МУСТАФАЕВА
Азербайджанский Государственный Аграрный Университет
Руководитель Центра Преподавания Языка

СИНТАКСИЧЕСКИЕ ПОВТОРЕНИЯ В ПРОЗАИЧЕСКОМ ЯЗЫКЕ РАМИЗА РОВШАНА

В азербайджанской лингвистике проводились определенные исследования по проблеме синтаксических повторений. Синтаксис — это широкая область лингвистики, ее границы широки, а выразительные возможности богаты. Одна из главных функций синтаксических повторений — создание поэтичности, характеризующейся ритмом и гармонией, основанной на интенсивном выражении информации. В каждой конструкции синтаксического повторения некоторые компоненты предложения, а также сами предложения, могут быть подвергнуты повторению. В этом случае атмосфера ритма и гармонии создается как внутри предложения, так и между самими предложениями. Говоря о синтаксических повторениях, их иногда отождествляют с синтаксическим параллелизмом. Конечно, это неудивительно, поскольку наличие элементов параллелизма возможно и в синтаксически повторяющихся типах предложений. Однако следует также отметить, что существует тонкое различие между синтаксическими повторениями и синтаксическими параллельными компонентами.

Ключевые слова: *синтаксические повторения, синтаксический параллелизм, проза Рамиза Ровшана, ритм и гармония.*

Səbinə ƏLİYEVA*

KAŞĞARİNİN “DİVAN”INDA İSİMLƏRİN CƏMLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqaləmizdə XI əsr türk dilinin ən mühüm yazılı abidələrindən biri olan Mahmud Kaşğarinin “Divani-lüğət-it-türk” əsərində isimlərin cəmlənmə xüsusiyyətləri araşdırılmışdır. “Divan” yalnız leksikoqrafik mənbə olmaqla kifayətlənmir, eyni zamanda türk dillərinin tarixi qrammatikasının öyrənilməsi üçün zəngin dil faktlarını ehtiva edir. Əsərdə isim kateqoriyasının müxtəlif qrammatik xüsusiyyətləri ilə yanaşı, cəmlik kateqoriyasının ifadə vasitələri və funksional imkanları da diqqət cəlb edir.

Tədqiqat zamanı “Divan”da isimlərin cəmlənməsində istifadə olunan morfoloji, leksik və kontekstual vasitələr sistemli şəkildə təhlil edilmişdir. Əsas cəm şəkilçisi kimi -lar/-lər formalarının işlənməsi müşahidə edilsə də, bu şəkilçilərin funksional baxımdan müasir türk dillərindəki istifadədən müəyyən dərəcədə fərqləndiyi müəyyən edilmişdir. Kaşğari materiallarında cəm şəkilçisinin yalnız kəmiyyət bildirən vasitə kimi deyil, həm də ümumiləşdirmə, növ bildirimi və üslubi vurğu yaratmaq məqsədi ilə işlədildiyi hallar mövcuddur.

Tədqiqatımızda qeyd edilir ki, “Divan”da bəzi isimlər cəm şəkilçisi qəbul etmədən də çoxluq mənası ifadə edir. Bu hal xüsusilə kollektiv məna daşıyan sözlərdə və kontekstual cəmlik nümunələrində özünü göstərir. Belə faktlar türk dilinin erkən mərhələlərində cəmlik kateqoriyasının semantik əsaslar üzərində formalaşdığını təsdiqləyir. Eyni zamanda, cəmlik anlayışının leksik vasitələrlə ifadəsi dilin tarixi inkişafında morfoloji cəmlənmənin sonradan sabitləşdiyini göstərir.

Açar sözlər: *Mahmud Kaşğari, “Divani-lüğət-it-türk”, türk dilləri, isim, cəm kateqoriyqası.*

* AMEA, Nəsimi adına Dilçilik İnstitutunun doktorantı .Email: sebineeliyeva2014@mail.ru

XI yüzillikdə yaşayıb-yaradan böyük türkoloq Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri türk xalqlarının ən möhtəşəm əsərlərindən biridir. Əsərdə qeyd olunan dil faktları türk dillərinin qüdrətini və ehtişamını aydın şəkildə əks etdirir. Doğma dilimizdəki dil vahidlərinin spesifik xüsusiyyətlərini, onların mənşəyi, mahiyyətini, yayılma regionunu və inkişaf tarixinin tədqiqi müasir dilçiliyin əsas problemlərindəndir.

Türk dillərinin tarixi qrammatikasının öyrənilməsi, xüsusilə də erkən yazılı abidələr əsasında aparılan tədqiqatlar, müasir türk dillərində qrammatik kateqoriyaların təşəkkül və inkişaf mərhələlərinin aydınlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan XI əsr türk dilinin ən mötəbər mənbələrindən biri olan Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri həm leksik, həm də qrammatik quruluşun tədqiqi üçün zəngin material təqdim edir. Əsər yalnız sözlük xarakteri daşımır, eyni zamanda dövrün dil faktlarını sistemli şəkildə əks etdirən dəyərli qrammatik mənbə kimi çıxış edir.

İsimlər türk dillərində əsas nitq hissələrindən biri olmaqla yanaşı, onların qrammatik kateqoriyaları – hal, cəm, mənsubiyyət və s. – dilin struktur xüsusiyyətlərinin müəyyənləşdirilməsində aparıcı rol oynayır. Bu kateqoriyalar içərisində cəmlik kateqoriyası isimlərin kəmiyyət baxımından ifadə imkanlarını ortaya qoyur və dilin morfoloji sistemində xüsusi yer tutur. "Divan"da isimlərin cəmlənməsi məsələsi həm tarixi-morfoloji baxımdan, həm də çağdaş türk dilləri ilə müqayisə kontekstində diqqətəlayiqdir.

Kaşğari "Divan"ında cəmlik anlayışı yalnız müasir türk dillərində geniş yayılmış -lar/-lər şəkilçisi ilə məhdudlaşmır. Əsərdə cəmlik mənasının müxtəlif morfoloji və leksik vasitələrlə ifadə olunduğu müşahidə edilir [5, 56]. Bəzi hallarda isimlər xüsusi cəm şəkilçiləri vasitəsilə çoxluq mənası qazanır, bəzi hallarda isə leksik cəmlik, kollektivlik və ya kontekstual çoxluq ifadə edən sözlər cəmlik funksiyasını yerinə yetirir. Bu xüsusiyyətlər XI əsr türk dilində cəmlik kateqoriyasının formalaşma mərhələsində olduğunu göstərir.

"Divan"da isimlərin cəmlənməsi ilə bağlı faktların təhlili göstərir ki, cəm şəkilçilərinin işlənmə dairəsi və funksional imkanları müasir türk dillərindəki vəziyyətdən müəyyən dərəcədə fərqlənir. Məsələn, bəzi isimlər cəm şəkilçisi qəbul etmədən də çoxluq mənası ifadə edir, bəzi hallarda isə cəm şəkilçisi semantik vurğu, üslubi çalar və ya ümumiləşdirmə məqsədi ilə işlədilir. Bu isə cəmlik kateqoriyasının yalnız qrammatik deyil, həm də semantik aspektdə araşdırılmasını zəruri edir.

Məlumdur ki, türk dillərinin tarixi inkişafında cəmlik kateqoriyası tədricən sabitləşmiş, bəzi qədim cəm formaları zamanla sıradan çıxmış, bəziləri isə məhdud istifadə sahəsinə malik olmuşdur. Kaşğarinin "Divan"ında rast gəlinən cəmlənmə nümunələri həmin keçid mərhələsinin aydın şəkildə izlənməsinə imkan verir. Bu baxımdan "Divan" materialları əsasında aparılan araşdırma türk dillərinin tarixi morfologiyasının öyrənilməsində mühüm elmi nəticələr əldə etməyə şərait yaradır.

Məqalənin əsas məqsədi "Divan"da isimlərin cəmlənmə xüsusiyyətlərini müəyyənləşdirmək, cəmlik kateqoriyasının ifadə vasitələrini sistemləşdirmək və onların funksional-semantik xüsusiyyətlərini təhlil etməkdən ibarətdir. Bu məqsədlə əsərdə işlənən cəm şəkilçiləri, cəmlik mənası daşıyan leksik vahidlər və kontekstual cəmlənmə halları araşdırmaya cəlb edilmişdir.

Tədqiqatımız zamanı təsviri, müqayisəli və tarixi-linqvistik metodlardan istifadə edilmiş, əldə olunan faktlar müasir türk dillərindəki cəmlənmə modelləri ilə müqayisə olunmuşdur. Bu yanaşma, bir tərəfdən, "Divan"da cəmlik kateqoriyasının özünəməxsus cəhətlərini üzə çıxarmağa, digər tərəfdən isə türk dillərinin ümumi qrammatik inkişaf xəttini müəyyənləşdirməyə imkan verir.

Bildiyimiz kimi, M. Kaşğarinin lüğəti XI əsr türk dillərinin leksik və qrammatik quruluşunu əks etdirən fundamental mənbədir [5, 60]. Əsərdə isimlərin qrammatik xüsusiyyətləri, o cümlədən cəmlik kateqoriyası sistemli olmasa da, zəngin dil faktları vasitəsilə aydın şəkildə müşahidə olunur. Kaşğari cəmlik anlayışını ayrıca qrammatik termin kimi təqdim etməsə də, verdiyi nümunələrdən isimlərin cəmlənmə yollarını və funksional xüsusiyyətlərini müəyyənləşdirmək mümkündür.

"Divan" materialları göstərir ki, cəmlik kateqoriyası bu dövrdə həm morfoloji, həm də semantik vasitələrlə ifadə olunmuşdur. Bu hal türk dillərinin tarixi inkişaf mərhələsində cəmlik kateqoriyasının hələ tam sabitləşmədiyini, lakin əsas formalarının artıq formalaşmaqda olduğunu göstərir. "Divan"da cəm kateqoriyasının yaranma yollarını nəzərdən keçirdək:

"Divan"da isimlərin cəmlənməsinin əsas morfoloji vasitəsi -lar / -lər şəkilçisidir. Məsələn, begler-bəylər [3, 122], erler-kişilər [1, 323], Bu şəkilçi fonetik ahəng qanununa uyğun şəkildə işlənmiş və əsasən canlı varlıqları, insan adlarını və konkret predmetləri bildirən isimlərə artırılmışdır. Kaşğarinin verdiyi nümunələrə əsasən deyə bilərik ki, bu şəkilçi artıq XI əsrdə türk dillərində cəmlik kateqoriyasının əsas göstəricisi kimi çıxış edirdi.

Bununla yanaşı, "Divan"da cəm şəkilçisinin funksional yükü yalnız kəmiyyət bildirimi ilə məhdudlaşmır. Bəzi hallarda -lar / -lər ümumiləşdirmə və ya üslubi vurğu yaratmaq məqsədi ilə işlədilmişdir. Bu xüsusiyyət müasir türk dillərində də müşahidə olunur və tarixi davamlılığın göstəricisi kimi dəyərləndirilə bilər.

Kaşğari "Divan"ında cəmlik anlayışı təkcə morfoloji vasitələrlə deyil, eyni zamanda leksik-semantik yollarla da ifadə olunur. Məsələn, er-kişilər [1, 322], el-xalq, tayfa [4, 281], köl-qullar [1, 374]. Əsərdə kollektiv məna daşıyan sözlər, ümumi anlayış bildirən isimlər və kontekstual çoxluq yaradan ifadələr vasitəsilə cəmlik mənası formalaşır. Belə isimlər cəm şəkilçisi qəbul etmədən də çoxluq anlayışı yaradır.

Bu tip nümunələr türk dilinin erkən mərhələlərində semantik cəmlənmənin mühüm rol oynadığını göstərir. Tədqiqatçılar qeyd edirlər ki, morfoloji cəmlik formaları sabitləşməmiş dövrlərdə dil çoxluq anlayışını daha çox leksik və kontekstual vasitələrlə ifadə etmişdir. Lüğət bu baxımdan keçid mərhələsinin canlı nümunəsi hesab edilə bilər.

"Divan" materiallarında diqqət çəkən cəhətlərdən biri də bəzi isimlərin cəm formasında işlədilməməsidir. Məsələn, altun-qızıl [3, 322], demir-dəmir [1, 117] və s. Bu hal xüsusilə təbii hadisələri, maddi anlayışları və abstrakt məfhumları bildirən isimlərdə müşahidə olunur. Belə isimlərdə kəmiyyət anlayışı kontekst vasitəsilə müəyyənləşir və morfoloji cəmlənməyə ehtiyac yaranmır.

Bu xüsusiyyət göstərir ki, XI əsr türk dilində cəmlik kateqoriyası yalnız formal deyil, funksional və semantik əsaslar üzərində qurulmuşdur. Kaşğari "Divan"ında bu cür nümunələrin geniş yer alması cəmlik anlayışının elastik və çoxşaxəli xarakter daşıdığını sübut edir.

"Divan"da müşahidə olunan cəmlənmə modellərinin əksəriyyəti müasir türk dillərində də qorunub saxlanılmışdır. Xüsusilə -lar / -lər şəkilçisi bu gün də bütün türk dillərində əsas cəm göstəricisi kimi fəaliyyət göstərir. Bununla yanaşı, "Divan"da rast gəlinən bəzi leksik və semantik cəmlik nümunələri müasir dövrdə ya məhdud istifadə sahəsinə malikdir, ya da tamamilə arxaikləşmişdir.

Bu faktlar türk dillərinin qrammatik sistemində həm sabitlik, həm də inkişaf proseslərinin paralel şəkildə mövcud olduğunu göstərir. Kaşğari materiallarının müasir türk dilləri ilə müqayisəli təhlili tarixi qrammatikanın əsas qanunauyğunluqlarını üzə çıxarmağa imkan verir.

Nəticə etibarilə, Kaşğari "Divan"ında isimlərin cəmlənmə xüsusiyyətlərinin öyrənilməsi türk dilçiliyində tarixi qrammatika, morfologiya və leksikologiya sahələrinin kəsişməsində duran aktual elmi problem kimi qiymətləndirilə bilər. Bu mövzu həm dil tarixi baxımından, həm də müasir türk dillərinin qrammatik sisteminin genezisini anlamaq baxımından əhəmiyyətlidir.

Araşdırmamızda Kaşğarinin "Divan"ında qeydə alınmış cəmlik nümunələri müasir türk dilləri ilə müqayisəli şəkildə təhlil edilmişdir. Müqayisə nəticəsində müəyyən edilmişdir ki, bəzi cəmlənmə modelləri bu gün də türk dillərində aktiv şəkildə işlənir, bəziləri isə tarixi inkişaf prosesində funksional yükünü itirmiş və ya məhdud istifadə sahəsinə malik olmuşdur. Bu faktlar türk dillərinin qrammatik sistemində davamlılıq və dəyişkənlik məsələlərinin aydınlaşdırılmasına imkan yaradır.

Məqaləmizdə tarixi-linqvistik, təsviri və müqayisəli metodlardan istifadə edilmiş, əldə olunan nəticələr cəmlik kateqoriyasının "Divani-lüğət-it-türk"də sistemli və çoxşaxəli xarakter daşıdığını göstərmişdir. Nəticə etibarilə, Kaşğari "Divan"ında isimlərin cəmlənmə xüsusiyyətlərinin öyrənilməsi türk dillərinin tarixi qrammatikasının əsas problemlərindən biri olan cəmlik kateqoriyasının formalaşma və inkişaf mərhələlərinin müəyyənləşdirilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT:

1. "Divanü Lüğat-it-Türk" Tərcüməsi (Çeviren Besim Atalay), I cild. Ankara: 1985. 530 s.
2. "Divanü Lüğat-it-Türk" Tərcüməsi (Çeviren Besim Atalay), III cild. Ankara: 1986. 452 s.
3. "Divanü lüğat-it-Türk" (Tərcümə edən və nəşrə hazırlayan: R.Əskər). II cild. Bakı. 2006. 400 s.

4. “Divanü lüğat-it-Türk” (Tərcümə edən və nəşrə hazırlayan: R.Əskər). Ill cild. Bakı. 2006. 400 s.
5. Quliyeva Y. Mahmud Kaşğarinin “Divanü-lüğat-it-türk” əsərində türk dillərinin ümumi mənzərəsi. “Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Kimitəsinin jurnalı”. №10(39) Oktyabr 2015. s. 54-62.

ОСОБЕННОСТИ ОБРАЗОВАНИЯ МНОЖЕСТВЕННОГО ЧИСЛА СУЩЕСТВИТЕЛЬНЫХ В «ДИВАНЕ» КАШГАРИ.

АННОТАЦИЯ

В данной статье исследуются особенности образования множественного числа имён существительных в труде Махмуда Кашгари «Диван лугат ат-тюрк», являющемся одним из важнейших письменных памятников тюркского языка XI века. «Диван лугат ат-тюрк» представляет собой не только лексикографический источник, но и ценный материал для изучения исторической грамматики тюркских языков. В произведении наряду с различными грамматическими характеристиками имён существительных особое внимание привлекает категория множественности и способы её выражения.

В статье системно анализируются морфологические, лексические и контекстуальные средства выражения множественного числа в «Диване». Основным показателем множественности выступают суффиксы -lar/-ler, однако их функциональное использование в труде Кашгари в ряде случаев отличается от современного состояния тюркских языков. В «Диване» формы множественного числа служат не только для обозначения количественной множественности, но и для выражения обобщённости, родового значения и стилистического акцента.

В работе показано, что в «Диван лугат ат-тюрк» некоторые существительные передают значение множественности без оформления специальными суффиксами. Это особенно характерно для слов с коллективным значением, а также для случаев контекстуальной множественности. Подобные факты свидетельствуют о том, что на ранних этапах развития тюркского языка категория множественности формировалась преимущественно на семантической основе. Одновременно использование лексических средств выражения множественности указывает на более позднюю стабилизацию морфологического способа образования множественного числа.

Ключевые слова: *Махмуд Кашгари, «Дивани-лугет-ит-турк», тюркские языки, существительное, категория множественного числа.*

FEATURES OF THE PLURALİZATİON OF NOUNS İN KASHGARİ'S "DİVAN"

SUMMARY

This article examines the features of noun pluralization in “Divan Lughat al-turk” by Mahmud al-Kashgari, one of the most significant written monuments of the 11th-century Turkic language. “Divan Lughat al-turk” is not only a lexicographical work but also a valuable source for the study of the historical grammar of Turkic languages. Alongside various grammatical characteristics of nouns, the means and functional aspects of the category of plurality occupy an important place in the work.

The study systematically analyzes the morphological, lexical, and contextual means used for noun pluralization in the “Divan”. Although the plural suffixes -lar/-ler are identified as the primary morphological markers of plurality, their functional usage in Kashgari’s work differs in certain respects from that of modern Turkic languages. In the “Divan”, plural suffixes are employed not only to denote numerical plurality but also to express generalization, categorical meaning, and stylistic emphasis.

The article also demonstrates that in “Divan”, some nouns convey plural meaning without taking explicit plural suffixes. This phenomenon is especially evident in collective nouns and cases of contextual plurality. Such examples indicate that in the early stages of the Turkic language, the category of plurality was largely based on semantic foundations. At the same time, the use of lexical means to express plurality suggests that morphological pluralization became fully stabilized at later stages of language development.

Key words: *Mahmud Kashgari, "Divani lughat-it-turk", turkic languages, noun, plural category.*

Nuranə HÜSEYNOVA*

ETİMOLOJİ ARAŞDIRMALARDA NƏZƏRİ MÜDDƏALAR VƏ PRİNSİPLƏR

XÜLASƏ

Tarixən dünya dilçiliyində etimoloji araşdırmaların aktuallığının artması, ilk növbədə, müqayisəli və müqayisəli-tarixi dilçiliyin, tipoloji dilçiliyin yaranması və təşəkkülü ilə bağlıdır. Eyni zamanda, indiyə qədər dünya dilçiliyində ənənəvi olaraq etimologiyaya sırf dilçilik aspektindən yanaşılırdı. İndi isə etimologiyaya koqnitiv dilçilik, etnolinqvistika və linqvokulturologiya aspektlərindən də yanaşılmaqdadır. Bu isə etimologiyanın sərhədlərinin çox geniş olduğunu göstərir. Artıq alternativ etimologiya yaranmaqdadır. Etimologiyanın çoxaspektliliyi arxeologiya, etnologiya (etnoqrafiya), paleontologiya kontekstlərindən də bu sahəyə yeni yanaşma tərzini ortaya qoyur. Etimologiyanın nəzəri-metodoloji aspektlərinin təsbit olunması bu sahədə aparılan tədqiqatların effektliyini gücləndirmiş olur. Azərbaycan dilçiliyində nəzəri etimologiya sahəsində bir çox problematik məsələlər mövcuddur. Bu baxımdan da bu mövzunun işlənilməsi aktuallıq kəsb edir. Nostratik dilçiliyin inkişaf etdirilməsi də etimologiyanın linqvistikanın mühüm sahələrindən biri kimi mövqeyini gücləndirir. Müasir etimoloji araşdırmalarda yeni paradiqmalar tətbiq olunur, etimologiyaya koqnitiv rakursdan yanaşma dövrün elmi tələblərindən biridir.

Açar sözlər: *etimologiya, nəzəri müddəalar, konsepsiya, tədqiqat, aspekt*

Etimologiya anlayışı çox geniş məfhumdur. Dilçilikdə *statik etimologiya, frazeoloji etimologiya, mifopoetik etimologiya, ontoloji etimologiya, fəlsəfi etimologiya* terminlərindən də istifadə olunur. Etimoloji araşdırmalarda *etimon, praforma, arxetip, protoforma, etimoloji yuva* terminləri geniş şəkildə işlənilir. *Etimon, praforma, arxetip* mahiyyətcə eyni funksiyanı əks etdirən terminlərdir. Etimon ilkin söz forması kimi qəbul olunur. Etimoloji araşdırmalarda etimonun bərpası və ya təsbit olunması üçün müxtəlif meyar və prinsiplər irəli sürülür. Tədqiqatçılar, haqlı olaraq, qeyd edirlər ki, "*etimoloji metodologiyanın əsasını fonetik, morfoloji və mümkün başqa dəyişikliklər qanunlarına əsaslanan müxtəlif dil vahidlərinin öyrənilməsinin müqayisəli-tarixi metodu təşkil edir*" [9, s.54]. Bizim də fikrimizcə, müqayisəli-tarixi metod etimoloji araşdırmalar üçün çox geniş imkanlar yaradır. Hər bir etimoloji araşdırmada fonetik, morfoloji və semantik amillər kompleks şəkildə nəzərə alınmalıdır. Bu üç prinsipin birinin nəzərdən qaçırılması etimoloji təhlilin elmi nəticəsini və dəqiqlik dərəcəsini aşağı salır. Çox zaman etimoloji təhlildə sözlərin semantik qruplar şəklində tədqiqata cəlb edilməsi effektli nəticə verə bilir. Müasir dövrdə etimologiya sahəsində aparılan tədqiqatlarda tarixi-tipoloji istiqamətli araşdırmalara üstünlük verilir. Müqayisəli-tarixi aspektdə aparılan etimoloji araşdırmaların mahiyyətində dayanan rekonstruksiya prosesinin əsas hədəfi protodili bərpa etməkdir. Etimoloji tədqiqatlar metodiki cəhətdən bir neçə prinsiplərə əsaslanır:

1) Praformaların və yaxud da arxetiplərin bərpası;
2) Kök deformasiyalarının təsbit olunması;
3) Fonetik, semantik və morfoloji dəyişmələrin tarixi mənbələr əsasında izlənilməsi;
4) Fonetik rekonstruksiya;
5) Morfoloji rekonstruksiya;
6) Semantik rekonstruksiya;
7) Daxili rekonstruksiya;
8) Xarici rekonstruksiya;
9) Mətnin rekonstruksiyası;
10) Qohum dillərdəki analoji dil faktlarının fonetilk, leksik və morfoloji səviyyələrdə müqayisəsi;

* Nəsimi adına Dilçilik İnstitutunun dissertantı, Email: nuranateacher@gmail.com

11) Qohum və qohum olmayan dillərdəki leksik paralelliklərin səbəblərinin müəyyən edilməsi;

12) Sözün motivləşməsinin nəzərə alınması və s.

XIX əsrin sonları və XX əsrin əvvəllərində bir çox hind-Avropa dilçiləri hind-Avropa dillərinin ortaq söz köklərini latın dilinin əsasında bərpa etməyə cəhd göstərirdilər. Ancaq bu metod çox zaman özünü doğrultmurdu. V.N.Toporovun fikrincə, "*etimologiyanın tarixi imkanlarını dəyərləndirməmək düzgün deyil. Etimologiyanı dil tarixindən ayırmaq olmaz. İzolyasiya edilmiş etimologiya, hətta mükəmməl olsa belə, tarixi planda interpretasiya oluna bilməz. Etimologiyanın inandırıcılığı məhz tarixi məlumatların nəzərə alınması ilə möhkəmləndirilir"* [7, s.50-51]. Fikrimizcə, V.N.Toporov bu məsələdə çox haqlıdır.

Son dönəmlərdə dünya dilçiliyində linqvogenetik tədqiqatlar da aparılmaqdadır. Etimologiyanın sıx bağlı olduğu sahələrdən biri linqvistik coğrafiyadır. Çünki dil izoqloslarının yayılma arealı söz köklərinin rekonstruksiyası üçün gərəkli informasiyalar verir. Areal dilçiliyin inkişaf etdirilməsi, coğrafi dilçiliyin areallarını genişləndirməsi də müasir etimoloji araşdırmaları innovativ istiqamətlərə yönəldir. O.N.Trubaçev linqvistik coğrafiyanı etimoloji araşdırmalarda gərəkli vasitələrdən biri kimi qiymətləndirir. Onun araşdrıması sübut edir ki, sözün yayılma coğrafiyasının öyrənilməsi etimologiya üçün qiymətli məlumatlar verir. O.N.Trubaçev qeyd edir ki, "*linqvistik coğrafiyanın əsas məqsədlərindən biri məhz sözün tarixini bərpa etməkdir"* [8, s.17]. Buna görə də linqvistik coğrafiyanın hədəfləri ilə etimologiyanın hədəfləri uyğun gəlir. Linqvistik coğrafiya və yaxud da areal dilçilik prinsipləri dil izoqloslarının yayılma səbəblərini izah etməyə, beləliklə də, dolayısıyla sözlərin yaranma və yayılma areallarını təsbit etməyə imkan verir. Beləliklə də, ümumi dilçilikdə coğrafiya ilə etimologiyanın inteqrasiyası məsələsi aktuallaşır.

Müasir dilçilikdə etimoloji araşdırmalara linqvokulturoloji aspektdən də yanaşılır. Etimologiya yarananda, sadəcə, bir dilin materiallarından istifadə olunurdu. Sonralar tədricən qohum dillərin materialları müqayisəyə cəlb olunmağa başlanıldı. İndi isə hətta qohum olmayan dillərin analoji materiallarının müqayisə olunması ilə rekonstruksiyaların sərhədi daha da genişləndirilmişdir. Dünya dilçiliyində müxtəlif dillərin etimologiyası sahəsində uğurlar əldə edilmişdir. Məsələn, V.İ.Abayev osetin dilinin, V.N.Toporov və O.N.Trubaçev slavyan dillərinin etimologiyası ilə bağlı mühüm araşdırmalar aparmış, qiymətli faktlar əldə etmişlər. Ancaq dünya dilçiliyində bəzi istisnaları nəzərə almasaq, etimologiya sahəsində ümumiləşdirici əsərlər kifayət deyil. Yeni etimologiya sahəsində ümumiləşdirici nəzəri-metodoloji konsepsiyaları ehtiva edən əsərlərə böyük ehtiyac var. Etimologiyanı dilçiliyin ən yeni paradiqmalarından qiymətləndirməyə zərurət var. Etimologiya koqnitiv dilçilik, mifolinqvistika, psixolinqvistika, arxeologiya, etnoqrafiya baxımından qiymətləndirilməlidir. Etimologiyada yeni paradiqmalara, yeni baxışlara böyük zərurət var.

Q.O.Vinokur öz araşdırmalarında *etimoloji refleksiya* terminindən geniş istifadə edir. O yazır ki, "*etimoloji refleksiya zamanın sözün mənası dil daşıyıcısı tərəfindən motivləşdirilir, motivləşmiş söz tədricən yaratdığı assosiasiyalar nəticəsində digər sözlərlə etimoloji əlaqəyə girmiş olur. Yəni bu termin motivləşmiş sözlərə aid bir prosesdir. Motivləşmə isə sözün daxili strukturunun yaratdığı assosiasiyadır*" [3, s.423]. Q.O.Vinokurun bu fikri ilə razılaşmaq olar ki, motivləşmə prinsipi etimologiyada mütləq nəzərə alınmalıdır. Dilçilik tarixi ilə bağlı əsərlərdən birinin müəllifi olan Y.V.Loyanın fikrincə, "*etimoloji tədqiqat: 1) yalnız səs qanunları ilə mexaniki olaraq məhdudlaşa bilməz; 2) qrammatik analogiyaları, xüsusilə metateza və kontaminasiyaları nəzərə almalıdır; 3) təhlil edilən sözün assosiativ sferasını nəzərə almalıdır; 4) semantika ilə maddi -mədəniyyətin əlaqəsini nəzərə almalıdır"* [4, s.168-169]. M.Makovskinin *genetik linqvistika* adlanan konsepsiyası etimoloji araşdırmalara ənənəvi baxışlardan bir qədər fərqlənir. M.Makovskinin genetik linqvistika konsepsiyasının əsasında dil vahidlərinin, xüsusilə sözlərin qohum dillərdəki izomorf formalarının təsbit olunması dayanır. O, öz metodologiyası ilə hind-Avropa dillərində ortaq sözlərin ontogenezisini müəyyənləşdirmişdir. M.Makovski yazır ki, "*dil geni dilin daxili semiotikasının əsas elementidir"* [5, s.17]. Beləliklə də, M.Makovski izomorf formaların müqayisəsinin ortaq elementlərin bərpası prosesinə kömək edəcəyinə inanmışdır.

Etimologiyanın tarixi dialektologiya, tarixi fonetika ilə birbaşa bağlılığı var. Çünki tarixi dialektologiya dil tarixi üçün zəngin material mənbəyidir. Dialekt və şivələrdə qədim dil faktları çox zaman yaxşı mühafizə olunur. Digər tərəfdən, etimologiya çox zaman dilin mənşəyi və dil tarixi məsələləri ilə də birbaşa bağlı olur. Etimologiyanın düzgün şəkildə öyrənilməsi digər dilçilik sahələrinin də tədqiqinə

köməklik edir. J.Vandriyes "Dil" əsərində etimologiyanı *tarixi elm* adlandırır. Bu əsərdə o, etimologiyanı sözün mənasının dəyişmə qanunauyğunluqlarının öyrənilməsi əsasında nəzərdən keçirir. J.Vandriyesin fikrincə, "*sözün fonemlərlə assosiasiyası xalq etimologiyasının yaranmasında mühüm rol oynayır*". Onun qənaətinə görə, "*etimologiyada yalnız bir sözün etimologiyasının araşdırılması o qədər də effektli deyil. Etimoloji araşdırmanın nəticəsi o zaman dəyərli olur ki, həmin araşdırmada faktlar ümumiləşdirilsin, dil faktları bir-biri ilə əlaqəli şəkildə öyrənilsin"* [2, s.183]. Biz də bu konsepsiyanın tərəfdarıyıq. J.Vandriyesə görə, "*etimologiya bizi öyrədir ki, tarixini bildiyimiz dillərin lüğətindəki oxşarlığa, zahiri uyğunluğa aldanmayaq, çünki forma və mənaca yaxın olan sözlər bir çox halda eynimənşəli olmaya bilər. Məsələn, fars və ingilis dillərində bad (bəd) sözü "pis" anlamındadır. Ancaq bu sözlər etimoloji cəhətdən qohum sözlər deyil. Və yaxud da alman dilindəki Feuer və fransız dilindəki feu "od" sözləri etimoloji cəhətdən eyni deyil. Latın dilindəki femina "qadın", qədim sakson dilindəki femea, femia "qadın" sözləri də bu qəbildəndir. Eyni zamanda, latın dilindəki lokus "məkan" sözü ilə sanskrit dilindəki lokas "dünya" sözləri də eynimənşəli deyil"* [2, s.279]. Ancaq biz bu müqayisələrdə adı çəkilən sözlərin eynimənşəli olmaması fikri ilə razı ola bilmərik. Çünki müqayisə olunan dillər hind-Avropa mənşəli dillərdir. Buna görə də qohum dillərdə qohum sözlərin eynimənşəli olması şübhə doğurmamalıdır.

Etimoloji təhlil tarixi söz yaradıcılığı proseslərinin qədim qaynaqlar əsasında izlənilməsini tələb edir. Etimologiyanın müqayisəli-tarixi dilçiliklə birbaşa əlaqəsi var. Etimologiya həm də bir çox elmlərlə multidissiplinar əlaqədə olduğu kimi, qlottogenez problemi ilə də sıx bağlıdır. Qlottogenez problemi isə hər hansı bir dilin mənşəyi ilə bağlı analitik təhlilə əsaslanır. Etimologiyanın əsasında dilin tarixinə retrospektiv yanaşma dayanır. Retrospektiv yanaşma dilin tarixi köklərinə bütöv bir sistem kimi baxmağı, dilin fonoloji, leksik-semantik və qrammatik sistemini əlaqəli şəkildə nəzərdən keçirməyi tələb edir.

Müasir dövrün etimoloji araşdırmaları yeni metodların tətbiqini zəruri edir. Vaxtilə etimoloji araşdırmalarda daha çox qohum dillərin materialları etimoloji təhlillər üçün obyekt seçilirdisə, müasir dönəmdə bu araşdırmaların coğrafiyası daha da genişləndirilmişdir. Yəni artıq müxtəlifsistemli dillərin materialları da etimoloji araşdırmaların obyekti kimi götürülür, beləliklə də, rekonstruksiyaların sahəsi və sərhədi genişləndirilir. Tarixən komparativ dilçiliyin təşəkkül və inkişafı etimologiyanın müstəqil bir dilçilik sahəsi kimi formalaşmasına şərait yaratmışdır. Daxili və xarici rekonstruksiyalara əsaslanan etimoloji araşdırmalar dil qohumluğu problemi ilə də sıx bağlıdır. Çünki qohum dillərin lüğət tərkibindəki analoji sözlərin etimoloji araşdırmalara cəlb olunması dəqiq elmi nəticələr əldə etməyə kömək edir. Məlumdur ki, indiyə qədər dünya dilçiliyində etimologiyanın inkişafı daha çox hind-Avropa dilçiliyi ilə bağlıdır. Etimologiya ilə bağlı ən mühüm nəzəri konsepsiyalar məhz hind-Avropa dilçiliyində irəli sürülmüşdür. Müasir etimoloji araşdırmaların miqyası çox genişdir, artıq dünya dilçiliyində dünya dillərinin etnogenetik əlaqələri kompleks şəkildə öyrənilir, dillərin qohumluğuna universal şəkildə yanaşılır. Hələ XIX əsrdə müqayisəli qrammatikaların yaradılması, müqayisəli-tarixi metodun kəşf olunması, tipoloji - müqayisəli linqvistikanın təşəkkülü etimoloji araşdırmaların şaxələnməsi üçün böyük imkanlar yaratmış oldu. Bu dönəmdə bir çox qədim ölü dillərin deşifrə olunması müasir dillərlə bağlı aparılan etimoloji araşdırmaların effektini daha da artırmış oldu. XIX əsrin sonlarından başlayaraq müxtəlif dillərə aid etimoloji lüğətlər nəşr olunmağa başlandı. Etimoloji lüğətlərin kütləvi şəkildə nəşr olunması bu lüğətlərin tərtibi prinsiplərinin hazırlanması məsələsini aktuallaşdırdı.

Adətən rekonstruksiyalar daxili rekonstruksiya və xarici rekonstruksiyalar şəklində təsnif olunur. Rekonstruksiyaların mahiyyətində, əsasında ilkin söz formalarının bərpası dayanır. Bu tədqiqat zamanı fonosemantik dəyişmələr, morfonoloji deformasiyalar, spontan və ənənəvi, yəni kombinator dəyişmələr mütləq nəzərə alınmalıdır. Eyni zamanda, fonetik qanunlar, səs keçidləri, nizamlı və spontan fonoloji əvəzlənmələr, leksik-semantik qanunauyğunluqlar bu prosesin izlənilməsində mühüm əhəmiyyət kəsb edir. Rekonstruksiya anlayışı çox genişdir. Həm fonetik səviyyədə, həm leksik-semantik səviyyədə, həm morfoloji səviyyədə, həm də sintaktik səviyyədə rekonstruksiya aparıla bilər. Hətta mətn səviyyəsində rekonstruksiyalar aparılır. Mətnin rekonstruksiyası qədim əlyazmaların bərpasına əsaslanır.

Qədim dillərlə bağlı araşdırmalarda, əlyazmalarla bağlı tədqiqatlarda mətn rekonstruksiyalarından geniş səviyyədə istifadə olunur. Qədim dillər deşifrə olunduqdan sonra, yəni qədim ölü dillərə aid yazılı materiallar oxunmağa başlandıqdan sonra, həmin dillərə aid yazılı mətnlər də müxtəlif linqvistik üsullarla

oxunmağa və bərpa olunmağa başlanıldı. XIX əsri "etimologiya əsri" adlandırmaq olar. Çünki elmi etimologiya məhz bu dönəmdən təşəkkül tapmağa başladı. Xüsusilə müqayisəlii-tarixi metodun kəşfi ilə etimologiya sahəsində inkişaf sürətlənmiş oldu. Qohum dillərin materialları əsasında kök dilin, yəni protodilin bərpası daha da asanlaşmış oldu. Məlumdur ki, Avqust Şleyxer məhz bu metod vasitəsilə protohind-Avropa dillərinə aid bir təmsil də yazmışdı. Doğrudur, A.Şleyxerin bu cəhdi dünya dilçiliyində birmənalı qarşılanmadı. Onu tənqid edənlər də çox oldu, ancaq ilk təcrübə kimi A.Şleyxerin bu cəhdi XIX əsr üçün böyük bir uğur idi.

Müasir dövrdəki etimoloji araşdırmalara innovativ münasibət özünü göstərir. Artıq çağdaş dönəmin linqvistik rekonstruksiyalarında paleolinqvistika, etnolinqvistika, koqnitiv dilçilik və bioloji-genetik resurslar həlledici rol oynayır. Rekonstruksiya məsələlərinin nəzəri şərhində qohum dillər problemi də önəmli mövzularındandır. Dillərin qohumluğu problemi xarici rekonstruksiya məsələləri ilə birbaşa bağlıdır. Çünki xarici rekonstruksiya qohum dillərdəki analoji materialların müqayisəsinə əsaslanır. Dil qohumluğu hadisəsi linqvistik proseslərin inteqrasiya və diferensiasiya proseslərinin qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Digər tərəfdən, qohum dillərin materiallarına əsaslanan rekonstruksiyalar daha əhatəli, daha tutumlu, daha etibarlı olur. Bu müqayisələr zamanı müqayisə olunan hər hansı bir dildə ilkin praformanı bərpa etmək daha əlverişli olur.

Dünya dilçiliyində etimologiyanın ümumi qanunauyğunluqlarından və nəzəri konsepsiyalarından bəhs edən əsərlərdən biri də A.A.Beletskinin "Etimoloji araşdırmaların prinsipləri" adlanan monoqrafiyasıdır. Bu əsər əsasən yunan dilinin materiallarını əhatə etsə də, ümumilikdə etimologiyanın ümumi kriteriyalarına həsr edilmişdir. A.A.Beletski qeyd edir ki, "*etimologiya fonetik və semantik kriteriyalar əsasında ilkin formaya təsadüfi yanaşma deyil, eyni zamanda, məqsədli aparılan tarixi tədqiqatdır"* [1, s.6]. A.A.Beletskinin bu iki kriteriyasına morfoloji kriteriya da əlavə edirik. Müasir rekonstruksiyalar həm fonetik, həm leksik, həm morfoloji, həm də sintaktik səviyyələrdə aparılır. Bəzən isə hətta mətn səviyyəsində rekonstruksiya aparılır. A.A.Beletski özü də qeyd edir ki, "*etimologiya, ilk növbədə, morfologiya ilə sıx bağlıdır, xüsusilə söz yaratma məsələsinə görə, bundan başqa isə, tarixi fonetika, (çünki tarixi fonetika səslərin dəyişmələrini öyrənir), daha sonra isə, leksikologiya və frazeologiya ilə (çünki bu sahələr sözü öyrənir), daha sonra isə semantika ilə bağlıdır"* [1, s.3]. Əlbəttə, A.A.Beletskinin bu siyahısını daha da uzatmaq olar. Etimoloji araşdırmalarda müqayisə metodunun çox mühüm rolu vardır. Hind-Avropa dillərinin etimoloji cəhətdən öyrənilməsində müstəsna xidmətləri olan fransız dilçisi Antuan Meye yazırdı ki, "*ancaq müqayisə yazılı mətnlərdə ilkin formanı müəyyən edə bilər, hansı ki həmin forma dil tarixi üçün mühüm əhəmiyyət kəsb edir. Müqayisə dilçi üçün dillərin tarixini öyrənmək üçün yeganə silahdır"* [6, s.16]. A.Meye A.Şleyxerin hind-Avropa dillərinin protodilini bərpa etmək metodikasını tənqid edir. A.Meye A.Şleyxerin hind-Avropa dillərinin protoformasını bərpa etmək cəhdini alqışlasa da, onun bərpa etdiyi mətnlərin səhv olduğunu göstərir [6, s.21].

Müasir etimoloji araşdırmalarda innovativliyə böyük zərurət var. Ənənəvi etimologiyadan fərqli olaraq, etimoloji araşdırmalarda yeni paradiqmaların tətbiqi qloballaşan dünya dilçiliyinin ən prioritet məsələlərindən birinə çevrilməkdədir. Paleolinqvistika, psixolinqvistika və koqnitiv dilçilik etimoloji araşdırmaların yeni istiqamətlərinin inkişafı üçün zəmin yaradır.

ƏDƏBİYYAT:

1. Белецкий, А.А. Принципы этимологических исследований (на материале греческого языка) / А.А.Белецкий. – Киев: Издательство Киевского государственного университета им. Т.Г.Шевченко, – 1950. – 267 с.
2. Вандриес, Ж. Язык / Ж.Вандриес. – Москва: Государственное социально-экономическое издательство, – 1931. – 410 с.
3. Винокур, Г.О. Избранные работы на русскому языка / Г.О.Винокур. – Москва: Гос. Учебно - педагог. издательство. мин. прос. РФСР, –1959. – 493 с.
4. Лоя, Я.В. История лингвистических учений / Я.В.Лоя. – Москва: Высшая школа, – 1968. – 308 с.

5. Маковский, М.М. Лингвистическая генетика: Проблемы онтогенеза слова в индоевропейских языках // М.М.Маковский. – Москва: Наука, – 1992.– 160 с.
6. Мейе, А. Введение в сравнительное изучение индоевропейских языков / А.Мейе. – Москва – Ленинград: 1938. – 510 с.
7. Топоров, В.Н. О некоторых теоретических основаниях этимологического анализа // – Москва: Вопросы языкознания, – 1960. №3. – с. 44-59.
8. Трубачев, О.Н. Лингвистическая география и этимологические исследования // – Москва: Вопросы языкознания, –1959. №1, – с.16-33.
9. Халидов, А.И. К вопросу о принципах составления этимологических словарей // – Praha: Sciences of Europe, Philological Sciences, – 2017. №13, – с.53-59.

Нурана ГУСЕЙНОВА

ТЕОРЕТИЧЕСКИЕ ПОЛОЖЕНИЯ И ПРИНЦИПЫ В ЭТИМОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

РЕЗЮМЕ

Исторически рост актуальности этимологических исследований в мировом языкознании прежде всего связан с возникновением и становлением сравнительного и сравнительно-исторического языкознания, а также типологической лингвистики. В то же время до недавнего времени в мировом языкознании этимология традиционно рассматривалась исключительно с лингвистической точки зрения. В настоящее время этимология изучается также с позиций когнитивной лингвистики, этнолингвистики и лингвокультурологии. Это свидетельствует о чрезвычайно широких границах этимологии. Уже формируется альтернативная этимология. Многоаспектность этимологии проявляется и в новых подходах, возникающих в контексте археологии, этнологии (этнографии) и палеонтологии. Определение теоретико-методологических аспектов этимологии способствует повышению эффективности исследований, проводимых в данной области. В азербайджанском языкознании существует ряд проблемных вопросов в сфере теоретической этимологии. С этой точки зрения разработка данной темы представляет особую актуальность. Развитие ностратического языкознания также укрепляет позиции этимологии как одной из важных областей лингвистики. В современных этимологических исследованиях применяются новые парадигмы, а когнитивный подход к этимологии является одним из научных требований современности.

Ключевые слова: *этимология, теоретические положения, концепция, исследование, аспект.*

Nurana HUSEYNOVA

THEORETICAL PROVISIONS AND PRINCIPLES IN ETYMOLOGICAL RESEARCH

ABSTRACT

Historically, the increasing relevance of etymological research in world linguistics has primarily been associated with the emergence and development of comparative and comparative-historical linguistics, as well as typological linguistics. For a long time, etymology in world linguistics was traditionally approached exclusively from a purely linguistic perspective. In contemporary linguistics, however, etymology is also examined from the perspectives of cognitive linguistics, ethnolinguistics, and linguoculturology. This demonstrates the remarkably broad scope of etymology. Alternative etymology is now emerging as a distinct approach. The multi-aspectual nature of etymology also introduces new methodological perspectives through its interaction with archaeology, ethnology (ethnography), and paleontology. The identification of the theoretical and methodological foundations of etymology enhances the effectiveness of research conducted in this field. In Azerbaijani linguistics, a number of problematic issues remain in the domain of theoretical etymology, which underscores the relevance of addressing this topic. The development of Nostratic linguistics further strengthens the position of etymology as one of the

significant branches of linguistics. Modern etymological research applies new paradigms, and a cognitive approach to etymology has become one of the key scientific requirements of the present era.
Keywords: *etymology, theoretical principles, concept, research, aspect.*

Nərgiz MUSAYEVA*

EKOLİNQVİSTİKANIN NƏZƏRİ BAZASI

XÜLASƏ

Məqalədə dilçiliyin ən yeni sahələrindən biri olan ekolinqvistikanın nəzəri-metodoloji əsaslarından bəhs olunur. Müasir dövrdə insan-təbiət münasibətləri daha mürəkkəb bir hal alır və bu, dil vasitəsilə də ifadə olunur. Ekolinqvistika sahəsi dilin təbiət anlayışlarını necə qurduğunu və insanların ətraf mühitlə əlaqəsini necə əks etdirdiyini öyrənir. Müxtəlif dil sistemlərində ekoloji terminologiya və anlayışların təhlili, dilin ekoloji maarifləndirmədəki rolu, həmçinin təbiət metaforalarının müqayisəli araşdırılması bu sahənin əhəmiyyətini artırır. Bu tədqiqat həm dilçilik, həm də ekoloji elmlər üçün dəyərli məlumatlar təqdim edir və insan-təbiət əlaqələrinin daha dərindən başa düşülməsinə imkan yaradır. Hal-hazırda bəşəriyyətin bir nömrəli problemlərindən biri məhz ekologiya problemidir. Dünya dilçiliyində ən yeni paradiqmalardan olan ekolinqvistika dilçilik tədqiqatlarında antroposentrizm nəzəriyyəsinin tətbiqinin genişlənməsi ilə bağlı olaraq yaranmışdır. Məhz antroposentrizmin tətbiqi ilə bağlı psixolinqvistika, praqmatik dilçilik, koqnitiv dilçilik, biolinqvistika, o cümlədən ekolinqvistika sahələri təşəkkül tapmışdır.

Açar sözlər: *ekolinqvistika, ekologiya, ekoloji şüur, dil, təbiət*

Antroposentrizm konsepsiyası müxtəlif akademik tədqiqatlarda insan amilinin önə çəkilməsini aktuallaşdırdı. İnsan – təbiət münasibətlərinin koqnitiv şərhi ekolinqvistikanın əsas problemlərindən biridir. Biologiya və dilçiliyin bir çox parametrlər üzrə adekvatlığına aid çoxlu nümunələr göstərmək olar. Hər iki elm sahəsinin ortaq terminləri mövcuddur. Məsələn, *morfologiya* termini həm dilçiliyin, həm də biologiyanın işlək terminlərindən sayılır. Hətta son dövrlərdə *linqvistik genetika* adlandırılan yeni bir elm sahəsi meydana çıxmışdır. İndiyə qədər ekolinqvistika adlanan dilçilik sahəsi, əsasən, iki istiqamətdə inkişaf etmişdir. Onlardan biri ekoloji dilçilik sahəsidir. Belə ki, ekoloji dilçilik daha çox dilin sosiolinqvistik aspektdən tədqiq olunmasına əsaslanır. Bu aspekt dillərin bir-birinə təsirini, dillərin sıradan çıxmasına təsir edən amilləri, yad dillərin təsiri ilə ana dilinin "çirkləndirilməsini" araşdırır. Doğrudur, müxtəlif ədəbiyyatlarda bəzən *ekoloji dilçiliklə ekolinqvistika* terminləri adekvat terminlər kimi təqdim olunur. Digər bir istiqamət isə, dil və təbiət münasibətlərinin ekoloji şüur şəklində dərk olunmasını tədqiq etməkdir. Bu istiqamət ekologiyanın müxtəlif dil modelləri ilə dərk olunma prosesini müəyyənləşdirir. Digər tərəfdən, bu istiqamət ekoloji diskursda dil və nitq elementlərinin iştirak dərəcəsini, funksionallığını aydınlaşdırır. Müasir ekoloji diskursda ekoloji siyasət, dövlətin və xalqın ekoloji problemlərə yanaşma texnologiyası, təbiətə antropogen müdaxilələrin ekoloji fəlakət yol açması problemləri, qlobal ekoloji problemlər aktuallaşmaqdadır. Mediada, akademik üslubda ekoloji terminlərin işlənmə spesifikası bu məsələdə xüsusi əhəmiyyət kəsb edir.

Ekoloji şüurun müxtəlif dil daşıyıcıları tərəfindən inkişaf etdirilməsi insanları gələcək təbii fəlakətlərdən qurtara bilər. Buna görə də müasir elmi (yəni akademik), publisistik və bədii mətnlərdə ekoloji anlayışların və terminlərin intensiv işlədilməsi müşahidə olunur. Ekoloji problemlərin getdikcə dərinləşməsi və aktuallaşması ixtisasından, peşəsindən, sənətindən asılı olmayaraq bütün insanları bu mövzu ətrafında birləşdirir. Ekoloji şüurun aktuallaşması, ekoloji problemlərin dərinləşməsi insan-təbiət münasibətlərinə koqnitiv və praqmatik, sosial və linqvistik, antroposentrik və semiotik cəhətlərdən baxmağı

* Nəsimi adına Dilçilik İnstitutunun dissertantı

tələb edir. Müxtəlif diskurslarda ekoloji anlayış və terminlər sisteminin məcmuyu bu mövzunu linqvistlər üçün də aktual edir.

Qloballaşma dövründə hər bir ölkənin dil siyasətində ekoloji siyasətin yeri getdikcə dərinləşməkdədir. Hətta müasir dünyada ekoloji hərəkata çevrilməkdə olan Yaşıllar hərəkatı deyilən siyasi proseslər baş verməkdədir. Ekolinqvistika, biolinqvistika kimi yeni dilçilik paradiqmalarının yaranması bəşəriyyətdə ekologiya probleminin qloballaşması ilə sıx bağlıdır. Dil ekologiyası və yaxud da dilin ekologiyası terminləri birbaşa dil sistemi ilə bağlı sosiolinqvistik və psixolinqvistik prosesləri ehtiva edir. Ancaq geniş prizmadan ekolinqvistikaya yanaşsaq, dildə ekoloji anlayışların koqnitiv baxımdan əks olunması, ekoloji təfəkkürün linqvistik ifadə vasitələri və onların koqnitiv funksiyası, insan-təbiət münasibətlərinin diskursiv analizi bu dilçilik sahəsinin əsas tədqiq obyektlərinə daxildir. Bu problemin şərhində ekoloji şüur, ekoloji sistem anlayışlarının analitik aspektlərini nəzərə almaq lazımdır. Alvin Fill ekolinqvistikanın müxtəlif sahələri üçün dəqiq terminologiya işləyib hazırlayan ilk şəxs olmuşdur. O, ümumilikdə üç sahəni fərqləndirmişdir: **Ekolinqvistika** — ekologiya və dilçiliyi birləşdirən bütün tədqiqat sahələri üçün ümumi termindir; **Dil ekologiyası** — dillər arasındakı qarşılıqlı əlaqəni araşdırır və məqsədi dil müxtəlifliyinin qorunmasıdır**; Ekoloji linqvistika** — ekologiyanın termin və prinsiplərini dilə tətbiq edir (məsələn, ekosistem anlayışı); **Linqvistik (dil) ekologiyası** isə dil ilə "ekoloji" məsələlər arasındakı qarşılıqlı əlaqəni öyrənir [9].

Adətən, dilin ekologiya termini ilə dil siyasətinin linqvistik analizi də şərh olunur. Fikrimizcə, bu zaman *linqvoekologiya* və yaxud da *dilin ekologiyası* termininin tətbiqi daha münasibdir, daha uyğundur. Ancaq *ekolinqvistika* termini isə həm bu sahəni, həm də ekoloji təfəkkürün dildə ifadə imkanlarının, ekoloji təfəkkürün, ümumilikdə *ekologiya* konseptsferasının koqnitiv analizini öyrənir. Son dönəmlərdə *etnoekologiya* terminindən də geniş istifadə olunmaqdadır. Ekologiya ilə bağlı son dövrlərdə yaranan populyar terminlərdən biri də *ekoloji mədəniyyət* terminidir. Adətən, *dilin ekologiyası* deyildikdə dilin "çirklənməsi", lazımsız yad ünsürlərlə korlanması nəzərdə tutulur. Çünki havanın, təbiətin, torpağın çirklənməsi olduğu kimi, dilin də daima "çirklənməsi" baş verir. Məhz ekologiya termini havanın çirklənməsi kimi, dilin də milliliyinin qorunmasına əsaslanır. Yəni *dilin ekologiyası* termini daha çox sosiolinqvistik mahiyyət kəsb edir, dillərarası əlaqə və münasibətlər, dillərin leksik, fonetik, qrammatik səviyyələrdə yad təsirlərə məruz qalması kontekstlərində dil faktlarına yanaşır.

Dildə ekologiya problemi keçən əsrin 70-ci illərindən başlanaraq müzakirə predmetinə çevrilmişdir. Əvvəlcə dilçilər və kulturoloqlar arasında yayılan ekologiya problemi sonradan öz coğrafiyasını genişləndirmişdir. Problemin yaranmasının əsas səbəbi XX əsrin sonlarında qloballaşma məsələsinin aktuallaşması oldu. Həmin prosesin sürətlənməsinə isə Avropada ekoloji hərəkatın başlanması təsir göstərdi. Bu ekoloji hərəkatın nümayəndələri insanların fəaliyyətləri nəticəsində ekoloji problemlərin yaranmasına qarşı çıxırdılar. Onların məqsədi o idi ki, insanlar təbiətlə harmoniyada yaşamalıdırlar [6, s.5]. Beləliklə, XX əsrin ikinci yarısından təbiət qanunlarının adekvat olaraq dilə də tətbiq edilməsi ekoloji anlayışların linqvistik cəhətdən koqnitiv və sosiolinqvistik və psixolinqvistik paradiqmalarının öyrənilməsini elmdə daha da aktuallaşdırdı.

Ekologiya terminini dilçiliyə ilk dəfə Amerika dilçisi Eynar Hayqen 1972-ci ildə yazdığı "Dilin ekologiyası" (The Ekolocy of Language) əsərində gətirmişdir. O, bu termini psixolinqvistik və sosiolinqvistik aspektlərdən işlətmişdir. E.Hayqen ekologiya ilə bağlı terminləri dilçiliyə gətirərək multidissiplinar elm sahəsi yaratmağa nail olmuşdur. Yəni E.Hayqen dilin çirklənməsinə ekologiyanın çirklənməsi kimi yanaşırdı. Bir sözlə, o, ekoloji problemlər kimi dilin yad təsirlərə məruz qalmasını sosiolinqvistik və psixolinqvistik səbəblərlə yanaşı, ekologiyanın qanunları ilə izah edilməsinə çalışırdı. Məhz bu zərurətdən dilin ekologiyası anlayışı yaranmış oldu.

Vilhelm fon Humboldt "İnsan dillərinin quruluş müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında" adlı əsərində təbiət və insan münasibətlərinin dil modelləri probleminə toxunmuşdur. Həmin əsərdə V. fon Humboldt dili insanla təbiət arasında əsas vasitə kimi səciyyələndirir. O, dili ruh konsepsiyası əsasında izah edərək bu qənaətə gəlir ki, mənəvi proseslər təbətin qanunları şəklində insan dilinə təsir edir [2, s.42]. 2015-ci ildə Arran Stibbe tərəfindən yazılan "Ekolinqvistika: Dil, ekologiya və biz yaşadığımız hekayələr" adlı monoqrafiyada dilin insanlarda təbiətə münasibət haqqında təfəkkürü necə

formalaşdırması təhlil olunur. O, həmin əsərində göstərir ki, dil həm də ekosistemlərə münasibət ifadə edir. A. Stibbe bu nəticəyə gəlir ki, ekolinqvistik təhlilin nəticələri ekofəlsəfənin düzgünlüyündən, istifadə olunan dil vasitələrinin uyğunluğundan və məlumatların nə qədər ümumi vəziyyəti əks etdirməsindən asılıdır. Bu yanaşmanın insanların və digər canlıların gələcəkdə yaşaması və rifahı üçün zəruri sosial dəyişiklikləri həyata keçirməyə nə dərəcədə kömək edə biləcəyi barədə böyük iddialar irəli sürmək mümkün deyil. Amma deyə bilərik ki, bu ekolinqvistika sahəsi ən azından insanların həyat sistemləri içindəki yerini və təbiətlə əlaqəsini nəzərə alır və bu səbəbdən ekoloji məsələləri həll etməkdə, onları nəzərə almayan yanaşmalardan daha faydalıdır" [7, s.184]. A.Stibbe ekolinqvistik araşdırmalara tənqidi yanaşan alimlərə belə cavab verirdi: "Ümumiyyətlə, ekolinqvistik təhlillər iki istiqamətdən tənqid oluna bilər: bir tərəfdən, çox texniki, rasional və instrumental yanaşmalarla, ekoloji dağıntının qurbanlarına qayğı göstərməyi təşviq etmədiyi üçün; digər tərəfdən isə, obyektiv və təcrübi araşdırmanın hesabına siyasi, emosional və ideoloji motivlərlə hərəkət etdikləri üçün. Lakin mərhəmət və dəqiqlik kimi bu iki aspekt qarşıdurma kimi görünməməlidir və ekolinqvistik tədqiqatlar həm akademik baxımdan düzgün, həm də etik baxımdan onları birləşdirməlidir. Ümumilikdə, kritik diskurs analizinin tənqidləri ekolinqvistikanın gələcəkdə formalaşması üçün çox faydalıdır və digər dəyərlərə əsaslanan dil araşdırmalarında göstərilmiş bəzi çatışmazlıqlardan qaçmağa kömək edir" [7, s.192]. Ekolinqvistika ilə bağlı araşdırmaların ümumi nəticəsi bundan ibarətdir ki, məhz dil cəmiyyətdə ekoloji davranışların təşəkkülünə mühüm təsir edə bilir. Əslində, bu konsepsiya çox düzgündür. Çünki bədii diskursda, media diskursunda, həmçinin akademik diskursda təbiəti qorumaq haqqında olan çağırışlar, ekoloji məzmunlu təşviqlər istər-istəməz insanların şüurunda ekologiyaya həssas yanaşmaq hissini formalaşdırır. Yəni insanlarda ekoloji şüurun formalaşdırılması, təbiətin qorunması konsepsiyası məhz linqvistik vasitələrlə reallaşdırılır.

Dilə biologiyanın qanunları ilə yanaşmaq texnologiyasının tarixi iki əsrə dayanır. Hələ XIX əsrdə müqayisəli-tarixi metodun yaradıcılarından biri olan Avqust Şleyxer dilin inkişafını ağacın şaxələnməsi şəklində izah edirdi. Yəni dilçilikdə bioloji qanunlar şəklində dil proseslərini ifadə etmək ənənələri daim mövcud olmuşdur. Təsadüfi deyil ki, dilimizdə işlənən bir nəsil, sülalə anlamında olan ərəb mənşəli *şəcərə* sözünün əsas anlamı məhz "ağacdır". Hər hansı bir nəslin, soyun ağac analogiyası ilə izah olunması etnolinqvistik xüsusiyyətlərlə də bağlıdır. Ona görə də akademik Teymur Bünyadov yazır ki, "ağac torpağa kök salır, sonra böyüyərək gövdəsindən budaqlar əmələ gəlir, lakin kökə bağlılıq əsas olaraq qalır. Təbii ki, bu bənzətmə yerinə düşür. İnsan nəsli də eyni ulu babadan ulu nənədən törəyərək artıb çoxalmağa başlayır, qohumluq bağı isə məhz bu kökə bağlıdır. Təsadüfi deyil ki, ağacın da, nəslin də kökünün olması, dilimizdə məhz bu şəkildə adlanması elə - belə deyildir. Xalqın dili həm təbiət, həm də cəmiyyətin məsələlərini vəhdətdə götürərərək mənalandırmağa qadirdir [1, c.1, s.71].

Əslində, dilçiliyin bu yeni sahəsi dilə bioloji orqanizm kimi baxılması səbəbindən yaranmışdır. Dilə bioloji aspektdən müxtəlif dilçilər yanaşmışlar. Belə dilçilərdən biri də Edvard Sepirdir. Tanınmış antropoloq və dilçi Edvard Sepir dillə ətraf mühitin əlaqəsi məsələsinə dilçilik tarixində ilk dəfə, çox geniş prizmadan yanaşan alim olmuşdur. O, 1921-ci ildə nəşr etdirdiyi "Dil. Nitq haqqında təlimə giriş" adlı kitabında bu mövzudan ətraflı şəkildə bəhs etmişdir [5, s.192-196]. Maraqlıdır ki, E.Sepir dilin digər qatları ilə müqayisədə leksik qatının təbiətə daha həssas olduğunu xüsusi vurğulayırdı. Onun yaradıcılığında dil və ətraf mühit məsələsi mühüm yer tutur. E.Sepir "Dil və mühit" adlı yazısında bu problemin şərhinə geniş yer verir. O, bu yazısında dil daşıyıcılarının leksik fonduna onları əhatə edən təbii mühitin necə təsir etməsi məsələsinə aydınlıq gətirmişdir. Belə ki, E.Sepir dil və mühit probleminə praqmatik şəkildə yanaşır və qeyd edir ki, "dil simvollar sistemi olduğundan ətrafdakı fiziki və sosial hadisələri əks etdirir və buna görə də ətraf mühit anlayışına həm fiziki, həm də sosial faktorları şamil etmək olar. Fiziki mühit anlayışına, ilk növbədə, coğrafi xüsusiyyətləri, məsələn, ölkənin topoqrafiyasını (su sahillərini, dərələri, düzləri, yayla və dağlıq əraziləri), iqlimi, insanların təsərrüfat fəaliyyətini əhatə edən flora və faunanı, mineral resursları aid etmək olar. Sosial mühit anlayışına isə hər bir fərdin həyat tərzini və təfəkkürünü formalaşdıran müxtəlif ictimai faktorlar aiddir [5, s.271]. E. Sepir bu qənaətə gəlir ki, dil daşıyıcılarını əhatə edən təbii mühit onların leksik fonduna ciddi təsir edir. Yəni iqlim, flora, fauna ilə bağlı anlayış və leksemlər dil daşıyıcılarını əhatə edən təbii mühitlə sıx bağlıdır. Onların dilinin təşəkkülünə, xüsusilə etnosun leksikonunun formalaşmasına məhz bu amillər çox ciddi təsir edə bilir. E.Sepir söz ehtiyatı zəngin olan

(ingilis, fransız dilləri kimi) dillərlə söz ehtiyatı zəif olan dilləri müqayisə edir və bu nəticəyə gəlir ki, mühit amili dilin leksik fondunun təşəkkülündə mühüm rol oynayır. Beləliklə də, E.Sepir dil və ətraf mühit əlaqələrinin linqvistik izahını vermişdir. Həmin izahda dil və təbiət münasibətləri ümumu mühit aspektindən dəyərləndirilmişdir.

İnsan bir canlı varlıq kimi ekosistemin tərkib hissəsidir. Onun antropoloji fəaliyyəti, koqnitiv düşüncəsinin formalaşması məhz təbiətlə bağlıdır. Təbiətin mühafizəsi, insan fəaliyyətinin ekosistemə təsiri müasir dünyanın ən qlobal problemlərindən biridir. İnsanın dünyagörüşündə, onun koqnitiv təfəkküründə biosfer haqqında olan informasiyaların toplanması təbiət haqqında ümumi konseptsferanı yaradır. Bu konseptsfera makro və mikrokonseptlərə ayrılır. Dil vahidlərinin ekoloji olmasının ən mühüm meyarlarından biri onların antroposentrizmlə əlaqələndirilməsidir. Ekolinqvistik yanaşma antroposentrizmə özünəməxsus şərhini irəli sürür və antroposentrizm amilə tənqidi münasibəti ilə seçilir; belə hesab edilir ki, bu amil androsentrizm, təbii resursların tükənməzliyi ideologiyası, dünyanın insan prizmasından kateqoriyalaşdırılması kimi müxtəlif ekolinqvistik problemlər yaradır. Antroposentrizm reallıq hadisələrinin dil vasitəsilə adlandırılmasında, onların insan üçün faydalı və ya faydasız olması baxımından qiymətləndirilməsində də özünü göstərir. Təbiətdən insanın ayrılığını vurğulayan uzaqlaşdırma strategiyası da antroposentrizmə daxildir [4, s.890-893].

2024-cü il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuşdu. Həmin ildə Azərbaycanda beynəlxalq səviyyəli COP 29 tədbiri keçirilmişdir. Beləliklə də, dünya miqyasında ekologiya problemləri aktuallaşdğına görə COP tədbirləri beynəlxaql səviyyədə keçirilməkdədir. Son dövrlərdə media diskursunda *yaşıl nəqliyyat, yaşıl logistika* terminləri də sıx şəkildə işlədilməkdədir. Ekoloji təmizliyi qorumaq üçün elektrik və hibrid avtomobillərin artması ilə bağlı bu anlayışlar yaradılmışdır. Həmçinin media diskursunda *yaşıl dünya* ifadəsi işlədilir: "*Qarşıda dayanan əsas vəzifə isə, hər bir vətəndaşın, hər bir sahənin öz üzərinə düşəni layiqincə yerinə yetirərək "**Yaşıl dünya** həmrəyliyi"nə dəstək verməkdir. Bu mənada nəqliyyat sektorunda araşdırmalar aparan tədqiqatçı kimi, bildirmək istərdim ki, davamlı inkişaf edən **yaşıl nəqliyyat** sisteminin formalaşdırılması Azərbaycan iqtisadiyyatının prioritetlərindən biri olmaqla, həm də "Yaşıl dünya həmrəyliyi"ndən irəli gələn bir zərurətdir* [8]. *Yaşıl dünya* metaforası ətraf mühitin qorunması konsepsiyasını özündə ehtiva edən əsas konseptual metaforalardan biridir. Azərbaycan dilində *yaşıl dünya*, ingilis dilində *green world,* rus dilində *зелёный мир* adlanan bu metofora öz koqnitiv semantikasında bəşəriyyəti qlobal ekoloji təhlükələri önləmək üçün bir araya gəlməyə çağırış motivlərini əks etdirir. Belə ekoloji məzmunlu şüarlar aktivləşmişdir. Məsələn: *Yaşıl dünya naminə həmrəy olaq!*

Çox zaman dilçilikdə *linqvoekologiya* termini ilə *ekolinqvistika* termini fərqləndirilir. Əslində, bizim fikrimizcə də, bu terminlər fərqləndirilməlidir. Çünki linqvoekologiya sırf dilin linqvistik qanunauyğunluqlarını, onun digər dillərlə təmasını, sosiolinqvistik amilləri öyrənirsə, ekolinqvistika dil və təbiət əlaqələrinin koqnitiv, praqmatik və linqvistik bağlantılarını təsbit edir. A.A.Laqutina yazır ki, müasir ekolinqvistika çərçivəsində aparılan tədqiqatlar insan və cəmiyyətin dil vasitəsilə yaşayış mühitinin, o cümlədən insanın təbiətlə, ətraf aləmlə qarşılıqlı əlaqəsi problemlərinin dildə əks olunması hələ də tək-tək xarakter daşıyır. Ekoloji problemlərin müasir dilçilik elmi çərçivəsində işlənməsi formalaşma mərhələsindədir. Hələ də bir sıra aktual məsələlər öz həllini tapmayıb, xüsusilə, ekoloji mənzərə dilçilik metodları ilə kompleks şəkildə təhlil edilməmiş, onun tərkibinə daxil olan konseptlər isə geniş və sistemli şəkildə təsvir olunmamışdır [3, s.3].

Antroposentrizmin bir istiqaməti təbiət resurslarına utilitar yanaşma tərzinin ortaya çıxmasıdır. Utilitar konsepsiyaya görə, təbiətdə, ekosistemdə insan üçün nə faydalıdırsa, ondan istifadə məqbul sayılır. Halbuki ekosistemə bu cür yanaşma qətiyyən düzgün deyil. Çünki ekosistemin zəifləməsinə, bioloji resursların azalmasına insan fəaliyyətinin mənfi təsiri səbəb olur. Yəni bəşəriyyət onu əhatə edən təbii mühitə dünyanın harmoniyası, həyatın davamı kimi yanaşmalıdır. Bir sözlə, təbii resurslara ancaq faydalılıq baxımından yanaşmaq dünya düzəninə qarşı durmaq anlamına gəlir. Ekolinqvistika insanlarda ekoloji şüurun koqitiv aspektlərini də təhlil edir. Dillə ekologiyanın ortaq qanunlarına əsaslanan bu dilçilik sahəsi təbiətin linqvokulturoloji baxımdan dərk olunmasını təsbit edir.

ƏDƏBİYYAT:

1. Bünyadova, Ş. Etnoloji lövhələr.(2 cilddə) . Bakı: c.1, Mütərcim, 2004, 200 s.
2. Гумбольдт, В. Избранные труды по языкознанию. Москва, Прогресс, 2000. 400 с.
3. Лагутина, А.А. Доминантные экологические реалии в современном немецком газетно-публицистическом дискурсе и средства их языковой категоризации. Автореф. дисс. на соискан ученой степ. кандидата наук., 2013. 24 с.
4. Нурушева, Д.А. Эколингвистика как раздел языкознания // Фундаментальные исследования. 2014. №5-4. с. 890-893.
5. Сепир, Э. Избранные труды по языкознанию и культурологии / Сепир, Э. Москва: Прогрес, 1993. 656 с.
6. Трошина, Н.Н. Экология языка. Москва, ФГБУН «Институт научной информации по общественным наукам РАН» , 2020. 53 с.
7. Stibbe, A. Ecolinguistics. Language, ecology and the stories we live by. London and New York: By Taylor and Francis Books, 2015.
8. https: //ereforms. gov.az /az/media/xeberler/yasil-dunya-hemreyliyine-geden-yol-yasil-neqliyyat-sistemi-934
9. https://ru.wikipedia.org/wikiorg/wiki/Эколингвистика

Наргиз МУСАЕВА

ТЕОРЕТИЧЕСКАЯ БАЗА ЭКОЛИНГВИСТИКИ

РЕЗЮМЕ

В статье рассматриваются теоретико-методологические основы эколингвистики — одной из новейших областей лингвистической науки. В современных условиях взаимоотношения человека и природы приобретают все более сложный характер, что находит отражение и в языке. Эколингвистика изучает, каким образом язык конструирует представления о природе и как он отражает взаимодействие человека с окружающей средой. Анализ экологической терминологии и понятий в различных языковых системах, роль языка в экологическом просвещении, а также сопоставительное исследование природных метафор повышают значимость данной области. Настоящее исследование предоставляет ценные сведения как для лингвистики, так и для экологических наук и способствует более глубокому пониманию взаимосвязей между человеком и природой. В настоящее время одной из первостепенных проблем человечества является именно экологическая проблема. Эколингвистика, являясь одной из новейших парадигм мировой лингвистики, возникла в связи с расширением применения теории антропоцентризма в лингвистических исследованиях. Именно на основе антропоцентрического подхода сформировались такие области, как психолингвистика, прагматическая лингвистика, когнитивная лингвистика, биолингвистика, а также эколингвистика.

Ключевые слова: *эколингвистика, экология, экологическое сознание, язык, природа*

Nargiz MUSAYEVA

THE THEORETICAL FRAMEWORK OF ECOLINGUISTICS

ABSTRACT

The article discusses the theoretical and methodological foundations of ecolinguistics, one of the most recent fields in linguistic studies. In the contemporary era, the relationship between humans and nature has become increasingly complex, a complexity that is also reflected in language. Ecolinguistics examines how language constructs concepts of nature and how it represents human interaction with the environment. The analysis of ecological terminology and concepts across different linguistic systems, the role of language in environmental awareness, and the comparative study of nature-related metaphors enhance the significance of this field. This research provides valuable insights for both linguistics and environmental sciences and enables a deeper understanding of human – nature relationships. At present, one of the most pressing problems facing humanity is the ecological crisis. Ecolinguistics, as one of the newest paradigms

in world linguistics, emerged in connection with the expansion of the application of the anthropocentric theory in linguistic research. It is precisely through the adoption of the anthropocentric approach that such fields as psycholinguistics, pragmatic linguistics, cognitive linguistics, biolinguistics, and ecolinguistics have been formed.

Keywords: *ecolinguistics, ecology, ecological awareness, language, nature*.

Fəridə HEYBƏTOVA*

CƏLİL MƏMMƏDQULUZADƏNİN ƏSƏRLƏRİNİN DİLİNDƏ FONETİK HADİSƏLƏR (ASSİMİLYASİYA, DİSSİMİLYASİYA VƏ METATEZA)

XÜLASƏ

Məqalədə Cəlil Məmmədquluzadənin əsərlərinin dilində işlənən fonetik hadisələrdən, xüsusilə də assimilyasiya, dissimilyasiya və metatezadan bəhs olunur. Məqalə akademik yazı qaydalarına uyğun olaraq giriş, əsas hissə və nəticədən ibarətdir. Girişdə dildə mövcud olan fonetik qanun və hadisə anlayışlarına aydınlıq gətirilir. Göstərilir ki, yazılı nümunələrdə fonetik hadisələrə aid nümunələr axtarılması, əslində, normal hal olmasa da, C.Məmmədquluzadənin əsərlərinin dilində belə nümunələrə rast gəlinir. Bunun isə səbəbi XX əsrin əvvəllərində ədibin ədəbi dilə münasibəti ilə əlaqələndirilir. Məqalənin əsas hissəsində haqqında bəhs olunan fonetik hadisələr ədibin əsərlərindən seçilmiş konkret dil faktları əsasında ayrı-ayrılıqda şərh olunur. Nəticədə isə tədqiqat boyu əldə olunmuş qənaətlər öz əksini tapır.

Açar sözlər: dialektizmlərdə fonetik hadisələr, səs uyuşması, səs fərqləşməsi, səs yerdəyişməsi

Hər bir dilin özünəməxsus cəhətlərindən biri də həmin dildə mövcud olan qanun və hadisələrdir. Dildə qanun iki anlamda başa düşülə bilər; a) konkret bir dil yarusuna aid qanunauyğunluq, məsələn, fonetikaya dair qanunlar: ahəng qanunu, cingiltiləşmə qanunu və s. b) dildəki bütün qaydaların məcmusu. Dildə hadisə anlayışı da fərqli anlamlarda düşünülə bilir. Lakin biz burada məhz fonetik hadisələrdən bəhs etməyi qarşımıza məqsəd qoymuşuq. Fonetik hadisəni tam aydın şəkildə dərk etmək üçün onu fonetik qanunla fərqləndirmək lazım gəlir. Belə ki, fonetik qanun yazıda sabitləşən bir dil qanunauyğunluğudursa, fonetik hadisələr, adətən, yazıda sabitləşməyən, lakin bir sıra hallarda orfoepik qanun (norma) kimi dəyərləndirilən dil qanunauyğunluğudur. Başqa sözlə, "*Nitq zamanı səslər bir-birilə yaxın əlaqəyə girir, bir-birinə təsir edir, tələffüzü asanlaşdırmaq üçün müəyyən dəyişikliklərə məruz qalır. Nitq prosesində danışıq səslərinin fizioloji və akustik keyfiyyətlərində baş verən dəyişikliklər fonetik hadisə adlanır və bu hadisənin əmələ gətirdiyi nəticələrə isə fonetik əvəzlənmələr deyilir*" [6, s. 276]. Yəni fonetik hadisə yalnız tələffüz zamanı baş verə bilir.

Azərbaycan ədəbi dilində (orfoepiyada) mövcud olan bu proses, təbii ki, ədəbi dilin əsas mənbəyi hesab edilən dialektlərdə də özünü göstərməkdədir. Hətta tədqiqat obyektimiz olan Cəlil Məmmədquluzadənin əsərlərinin dilində də belə dil hadisələrinə aid xeyli sayda konkret dil faktları mövcuddur. Bunun səbəbini ədibin ədəbi dilə münasibəti ilə əlaqələndirmək mümkündür. Çünki əslində fonetik hadisələr yazılı dilə aid xüsusiyyət deyildir. Belə fonetik hadisələr, adətən, şifahi ünsiyyətdə – tələffüzdə baş verir. Lakin ədibin ədəbi dilə münasibəti elə idi ki, xalq necə danışırsa, ədəbi dildə elə olmalıdır. Bu isə onun əsərlərini xalqın danışdığı formada – tələffüzdə yazmasını şərtləndirirdi. Bu baxımdan C.Məmmədquluzadənin əsərlərinin dilində fonetik hadisələrdən bəhs açmaq məqsədəuyğun və həm də aktualdır.

Onu da qeyd edək ki, Azərbaycan dilində beş fonetik hadisə özünü göstərməkdədir. Onların ikisindən (proteza – səs artımı və eliziya – səs düşümü) ayrıca bəhs etdiyimiz üçün bu yazıda ancaq assimilyasiya – səs uyuşması, dissimilyasiya – səs fərqləşməsi, metateza – səs yerdəyişməsindən bəhs edəcəyik.

* AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsi, d*oktorant*
Email: faridaheybatova@gmail.com

Səs uyuşması (assimilyasiya). C.Məmmədquluzadənin bədii və publisistik əsərlərinin dilinə nəzər yetirsək, buradakı fonetik dialektizmlərin bir çoxunun tərkibində müxtəlif növ fonetik hadisələrin baş verdiyinin şahidi olarıq. Qeyd olunan dialektizmlərdə özünü büruzə verən fonetik hadisələrdən biri assimilyasiya və ya uyuşma hadisəsidir. Uyuşma bir səsin özündən əvvəl və ya sonra gələn səsi məxrəc və akustik cəhətdən özünə ya tam, ya da qismən uyğunlaşdırması hadisəsidir. Bu xüsusiyyət bir tərəfdən fonetik hadisə kimi dəyərləndirilsə də, digər tərəfdən ədəbi dil baxımından orfoepik normadır. Lakin dialektlərimizdə, xüsusilə də Cəlil Məmmədquluzadənin əsərlərinin dilində işlənən dialektizmlərdə mövcud olan bu fonetik hadisə özündə dialektal xüsusiyyətlər cəmləşdirir. Onu da deyək ki, səs uyuşması Azərbaycan dilində çox rastlanılan bir fonetik hadisədir. A.Vəliyevin də dediyi kimi, "*Türk dillərində, xüsusən dialektlərində assimilyasiya hadisəsi çox geniş yayılmışdır*" [8, s. 210]. Keyfiyyətinə görə tam və natamam, təsir istiqamətinə görə isə irəli və geri uyuşma tipləri vardır. Belə bir bölgüyə az fərqlərlə həm müasir Azərbaycan dili ilə, həm də dialektologiya ilə bağlı elmi mənbələrdə rast gəlmək mümkündür. Beləliklə, xalq-danışıq dilinə xas xüsusiyyət olduğu üçün dialekt və şivələrimizin bir çoxunda özünü göstərən uyuşma hadisəsinin dörd növü mövcuddur: tam və irəli uyuşma, tam və geri uyuşma, natamam və irəli uyuşma, natamam və geri uyuşma.

Uyuşma hadisəsi C.Məmmədquluzadənin əsərlərindəki fonetik dialektizmlərdə nisbətən geniş şəkildə rast gəlinən fonetik hadisələrdəndir. Əksər dialekt və şivə qruplarında rast gəlindiyi kimi, müəllifin əsərlərində də tam və irəli, tam və geri uyuşma tipləri daha çox özünü göstərir. Mahirə Hüseynovanın da vurğuladığı kimi, "*Azərbaycan dilinin dialekt və şivələrində bu fonetik hadisənin həm irəli, həm də geri növləri daha çox müşahidə olunur və dialektlərində tam irəli assimilyasiya... tipləri daha çox təzahür edir*" [3, s. 331-333]. Ədibin həm nəsrlə, həm də nəzmlə yazılmış əsərlərinin dilində uyuşma hadisəsinə təsadüf etmək mümkündür.

Tam və irəli uyuşma. Tam və irəli uyuşma zamanı bir səs özündən sonra gələn səsi məxrəc və akustik cəhətdən özünə tamamilə uyğunlaşdırır. Qeyd olunan uyuşma növünün dialekt və şivələrimizdə işlənən müxtəlif tipləri mövcuddur. Lakin C.Məmmədquluzadənin əsərlərində tam və irəli uyuşma hadisəsinin ancaq "*st>ss*", "*nl>nn*", "*rl>rr*" və "*mb>mm*" tiplərinə rast gəlinir.

St>ss. Daha çox Muğan şivələri üçün xarakterik olan "st>ss" uyuşma tipinə [7, s. 107] "dussax<dustaq" sözünün fonetik tərkibində təsadüf edilir. Məs.: "*Bunu niyə burada **dussax** eləmisən? A sənin atan-anan tünbətün düşsün!*" [4, s. 510]. Müasir ədəbi dilimizdə "*dustaq*" formasında işlənən "*dussax*" dialektizminə müqayisəli-tarixi aspektdən yanaşdıqda bu sözün ilkin mənşəyinin "*tutmaq*" feilindən yaranmış "*tutsaq*" formasında olduğu nəzərə çarpır. Ədəbi dilin inkişaf mərhələləri boyunca bu sözün tərkibində "t" və "s" samitlərinin yerdəyişməsi hadisəsi baş vermiş, söz əvvəlindəki "*t*" samiti tədricən "*d*" samiti ilə əvəz edilmiş və beləliklə, ilkin tarixi mərhələdə "*tutsaq*" formasında olan söz dəyişib "*dustaq*" formasında işlənilməyə başlanmışdır. Müasir vəziyyətdən yanaşdıqda isə "*dustaq*" sözündə "*s*" samiti özündən sonra gələn "*t*" samitini özünə tam uyğunlaşdıraraq "dussax" dialektizmini əmələ gətirmişdir.

Nl>nn. "*Sözün sonundakı sonor **n** səsi özündən sonra gələn şəkilçidəki sonor **l** səsinə təsir edib, onu da öz məxrəcinə salır*" [1, s. 43]. Deməli, sonor "l" samitinin "n" sonorunun təsirinə məruz qalaraq məxrəc və akustik cəhətdən dəyişib "n" samitinə çevrilməsi hadisəsi bu tipi formalaşdırır. Məsələn, buna nümunə olaraq "*anlamaq>annamaq*" kimi fonetik uyuşmanı göstərə bilərik. Ədibin əsərindən bir parçaya diqqət yetirək. "*...birdən xudanəkərdə hürriyyətin **annarlar,** onda sənin hənavı mənim saqqalıma, mənimkin sənin rüşvətüvi yeyənin bığlarına yaxarlar*" [5, s. 127]. Qeyd edək ki, "anlamaq" feilinin "annamaq" formasında işlədilməsinə, əsasən, C.Məmmədquluzadənin özünün mənsub olduğu, danışıq, ləhcə xüsusiyyətlərinə dərindən bələd olduğu Naxçıvan və Ordubad dialektlərində təsadüf edilir. A.Vəliyev özünün "Azərbaycan dilinin keçid şivələri" adlı kitabında assimilyasiyanın "nl>nn" tipi haqqında belə qeyd edir: "*Azərbaycan dialekt və şivələrində, hətta ümumxalq danışıq dilində geniş şəkildə yayılmış bu hadisə keçid şivələri üçün də səciyyəvidir. **N** sonorunun **l** səsinə təsiri o qədər qüvvətli olur ki, onu özünə çevirməklə kifayətlənməyib, müəyyən dərəcədə **n** samitinin uzanması ehtimalını irəli sürməyə imkan verir. Lakin başqa dillərdə, məsələn, rus dilində, müşahidə edilən uzun **n** samitinin tələffüzü əmələ gəlmir, məs.: **nişannar, oğlannar,***

yatannar, gələnnər *(b.ş),* ***yönnü*** *(Az, E)*" [8, s. 211]. Göründüyü kimi, uyuşmanın bu tipi Azərbaycan dilinin əksər şivələrində işlənməkdədir.

Rl>rr. Qeyd edək ki, "*Assimilyasiyanın bu tipi dialekt qruplarında geniş yayılmışdır. Sonu* ***r*** *samiti ilə bitən hər hansı nitq hissəsinə və ya qrammatik kateqoriyaya mənsub olan söz* ***l*** *sonor samiti ilə başlayan şəkilçi qəbul etdikdə* ***l*** *səsinin* ***r*** *samitinə çevrildiyini müşahidə etmək olar..*" [8, s. 211]. "R" sonor səsinin "l" samitinə təsir edərək, onu öz məxrəci ilə eyniləşdirməsinə "zorlamaq>zorramaq" nümunəsində təsadüf edilir. Məs.: "*Sonra hər kəs gəldi,* ***zorradı*** *girdi içəri...*" [5, s. 127] və s.

Mb>mm. "*Assimilyasiyanın bu növü daha çox şərq dialekt və şivələrinə aiddir*" [7, s. 107]. "M" sonor samitinin "b" səsini öz məxrəci ilə eyniləşdirməsi hadisəsinə "hambal>hammal" fonetik dialektizminin tərkibində təsadüf edilir. Məs.:

"*Çıxar üç yüz nəfər fəhlə*
Çəyirtgə qırmağa getsin
Xudaya, qoyma İsmayıl
Bu ***hammallara*** *zülm etsin*" [4, s. 633].

"Hambal" sözünün "hammal" formasında işlədilməsi müəllifin doğulub, boya-başa çatdığı Naxçıvan dialektində özünü daha qabarıq göstərir. Bu cəhətdən müəllifin yaradıcılığında da qeyd olunan formada işlədilməsi təbiidir.

Natamam və irəli uyuşma. Dialekt və şivələrimizdə bir neçə tipi geniş yayılan natamam və irəli uyuşma zamanı bir səs özündən sonra gələn səsi özünə tamamilə uyğunlaşdıra bilmir, qismən uyğunlaşdırır. Adətən, "*Novlu* ***t*** *samitinin sonrakı sonor* ***l*** *samitinə təsiri ilə bu assimilyasiya tipi yaranır...*" [8, s. 212]. Başqa sözlə, "*Söz sonundakı kar* ***t*** *səsi (bəzən də* ***t*** *səsi ilə əvəzlənmiş* ***d*** *səsi) şəkilçidəki sonor* ***l*** *səsinə təsir edib, onu* ***d*** *səsinə çevirir*" [1, s. 44]. Ədibin yaradıcılığında qeyd olunan uyuşma növünün yalnız "tl>td" və "rl>rn" tipinə rast gəlinir. Ədəbi dil norması və danışıq dilinə uyğun olduğundan bütün dialekt və şivələr üçün xarakterik olan "tl>td" uyuşma tipinə "kəndli>kətdi" sözündə təsadüf edilir. Məs.: "*Dükanda məndən savayı bir neçə* ***kətdi*** *də var idi*" [4, s. 42], yaxud *"-Ay xan, mən* ***kətdi*** *adamam, mən nə bilirəm poçtxana nədi?*" [4, s. 123]. Bunun başqa bir variantı da ədibin dilində işlənir. "*Xan, pristav buyurur gələsiniz polsaya və* ***kəntdinizə*** *zamın olasınız*" [4, s. 125]. Burada söhbət ədəbi dildəki "kəndli" sözündən gedir. Nümunələrdən də göründüyü kimi, ədibin dilində həmin dialektizmin tələffüzü zamanı n samitinin düşüb-düşməməsindən asılı olmayaraq, tələffüzdəki t səsinin təsiri ilə l samiti öz məxrəcindən çıxır, lakin t deyil, d kimi tələffüz olunur. Bu isə onun natamam və irəli uyuşma olduğunu göstərən faktdır. Bundan başqa, həmin növün "rl>rn" tipinə də rast gəlinir. "*...onu* ***zornan****, it ölüsü kimi gətirtdirin*!" [4, s. 42], yaxud "*Deyir elə* ***zornan*** *gərək gedəsən Xudayar bəyə*" [4, s. 110]. və s. bu kimi nümunələrin sayını artırmaq da olar.

Tam və geri uyuşma. C.Məmmədquluzadənin əsərlərindəki dialektizmlərdə az da olsa, tam və geri uyuşma hadisəsinə rast gəlmək mümkündür. Qeyd edək ki, tam və geri uyuşma zamanı bir səs özündən əvvəl gələn səsə təsir edərək onu məxrəc və akustik cəhətdən özünə tam uyğunlaşdırır. Dialekt və şivələrimizdə müxtəlif növləri yayılan tam və geri uyuşma hadisəsinin müəllifin dilində yalnız "rl>ll" tipinə rast gəlinir. Ədəbi dilin orfoepik normasının tələbinə uyğun olduğu üçün bütün dialekt və şivə qrupları arasında geniş yayılan "rl>ll" uyuşma tipinə ədibin əsərlərində indiki zamanda, III şəxsin cəmində "görmüllər<görmürlər", "musurman olmullar<müsəlman olmurlar" formalarında təsadüf edilir. Məs.: "*Usta, mən bir şeyə mat qalıram. Yaxçı, ermənilər bu aşkarlıqda zadı* ***görmüllər?*** *Bunlar niyə bəs dönüb* ***musurman olmullar?***" [4, s. 147]. Qeyd olunan nümunələrdə sözə artırılan kəmiyyət şəkilçisinin ilk samiti özündən əvvəl gələn indiki zaman şəkilçisinin sonuncu samitinə təsir edərək onu öz məxrəcinə uyğunlaşdırmışdır ki, bu da ədəbi dilin tələffüz normasına uyğundur.

Səs fərqləşməsi (dissimilyasiya). C.Məmmədquluzadənin yaradıcılığındakı fonetik dialektizmlərin az hissəsi dissimilyasiya və ya səs fərqləşməsi hadisəsinin təsiri ilə yaranmışdır. Səs fərqləşməsi zamanı uyuşmanın əksinə olaraq iki eyni səsdən biri həmin səsdən az və ya çox dərəcədə fərqlənən başqa bir səslə əvəz olunur və ya tamamilə düşür. İ.Bayramovun da vurğuladığı kimi, "*Danışıq zamanı söz kökündə eyni və ya yaxın məxrəcdə olan səslərdən birinin digərinə təsir edərək başqa səsə çevrilməsinə dissimilyasiya deyilir. Bu vaxt nitqdə səslərdən biri əvvəlki məxrəcdən uzaqlaşıb başqa bir səs keyfiyyəti qazanır. Dissimilyasiya samit səsin samit səsə təsir etməsi nəticəsində baş verir. Azərbaycan dilinin şivələrində*

dissimilyasiya özünü göstərsə də, assimilyasiyadan fərqli olaraq geniş yayılmamışdır" [2, s. 141]. Başqa sözlə, "*Fərqləşmə (dissimilyasiya) fonetik hadisəsi uyuşma (assimilyasiya – F.H.) hadisəsi ilə müqayisədə dilimizdə çox az yayılmış kombinator səs hadisəsidir. Bu hadisə zamanı, uyuşmanın tam əksi olaraq, eyni və yaxud bir-birinə yaxın məxrəcdə olan samitlərdən biri digərinə təsir edərək, onu öz məxrəcindən uzaqlaşdırır*" [6, s. 297-298]. Göründüyü kimi, fonetik hadisənin bu forması Azərbaycan dili və onun dialektlərində o qədər də məhsuldar deyil. Dialekt və şivələrimizdə dissimilyasiya hadisəsinin irəli və geri dissimilyasiya olmaqla iki növü işlənməkdədir. Lakin ədibin əsərlərindən seçdiyimiz nümunələrdə yalnız irəli assimilyasiya tipinə rast gəlinir.

İrəli dissimilyasiya. Dialektlərimizdə müxtəlif formalarda təzahür edən irəli dissimilyasiya zamanı eynicinsli səslərdən ikincisi öz məxrəcindən fərqlənən başqa bir səslə əvəz olunur. C.Məmmədquluzadənin əsərlərində irəli dissimilyasiya hadisəsinin "r>l" və "n>y" tipinə təsadüf edilir: "xəncəl<xəncər", "baytal<baytar", "dalıyca<dalınca". Məs.: "*Noruzəli istədi uzaqlaşsın, xan onun **dalıyca** çağırdı*" [4, s. 124]. Nümunələrdəki "r" və "n" samiti məxrəcindən fərqli şəkildə "l" və "y" kimi tələffüz olunaraq qeyd olunan dialektizmlərin yaranmasına səbəb olmuşdur.

Səs yerdəyişməsi (metateza). "*Səslərin yerdəyişimi hadisəsi Azərbaycan dilində ən az müşahidə olunan fonetik hadisələrdəndir. Müasir ədəbi dilimizdə ona, demək olar ki, təsadüf edilmir. Nəzərə dəyənlər daha çox ümumxalq danışıq dili ilə məhdudlaşır*" [6, s. 307]. Ədibin əsərlərində rast gəlinən fonetik dialektizmlərin az qismində metateza və ya yerdəyişmə hadisəsi baş vermişdir. Dialekt və şivələrdə müxtəlif növləri geniş yayılan yerdəyişmə hadisəsi, əsasən, samitlər, bəzən isə saitlər və ya saitlərlə samitlər arasında baş verir. Qeyd olunan fonetik hadisənin "yanaşı yerdəyişmə" və "yanaşı olmayan yerdəyişmə" [2, s. 156] olmaqla iki növü vardır. Yanaşı yerdəyişmə hadisəsində yanaşı gələn iki səs yerini dəyişir. Yanaşı olmayan yerdəyişmə zamanı isə sözün müxtəlif yerlərində olan səslər yerlərini dəyişir.

Qeyd olunduğu kimi, yerdəyişmə müəllifin əsərlərinin dilində az hallarda rast gəlinən fonetik hadisələrdəndir. Yanaşı yerdəyişmənin "rg<gr" tipini "irgənmək<iyrənmək" dialektizmində görmək mümkündür. Məs.: "*Xudayar bəyə getmək fikri Zeynəbi o cəhətə divar kimi sıxırdı ki, Zeynəb Xudayar bəydən elə **irgənirdi**, necə ki, insan qurbağadan **irgənir***" [4, s. 114]. Bu nümunədə həm səs yerdəyişməsi baş verib, həm də "y>g" əvəzlənməsi olub. Bundan başqa ədibin dilində yanaşı yerdəyişməyə aid "sk>ks" tipinə də rast gəlinir. Məs.: "*Bu eşşəkdən hünər **əksik** deyil*" [4, s. 116]. Ədəbi dildə əskik kimi işlədilən bu söz dialektdə səs yerdəyişməsi ilə əksik kimi işlənir.

Yanaşı olmayan yerdəyişmənin "l-n>n-l" tipinə "nəhlət<lənət" sözündə rast gəlinir. Məs.: "*Yalan deyənin atasına **nəhlət!** Vallah, yalan demirəm*" [4, s. 165]. Burada "n>l" samitləri yerini dəyişməklə yanaşı, "h" səsi də artırılmışdır.

Nəticə

Araşdırma zamanı aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Tədqiqatdan aydın oldu ki, əslində, yazılı ədəbiyyat üçün xarakterik xüsusiyyət olmayan fonetik hadisələr məlum səbəblərə görə Cəlil Məmmədquluzadənin yaradıcılığında öz əksini tapır.

2. Ədibin yaradıcılığının dilində işlədilən fonetik hadisələrdən dissimilyasiya və metateza hadisəsinə aid nümunələrə digər hadisələrə nisbətən daha az rast gəlinir.

3. Araşdırmalar göstərir ki, dialekt və şivələrimizdə özünü göstərən fonetik hadisə tiplərinin hamısından deyil, onların bəzilərindən ədibin əsərlərində istifadə edilib. Bunu həm sənətkarın fərdi üslubu ilə əlaqələndirmək olar, həm də onu da bilməliyik ki, o özünün mənsub olduğu və yaratdığı obraza aid dialektlərdən istifadə edə bilərdi.

ƏDƏBİYYAT

1. Abbasova, R. Azərbaycan dilinin Qubadlı şivələri / R.Abbasova. – Bakı: Çinar-çap, – 2006. – 204 s.
2. Bayramov, İ.M. Azərbaycan dialektologiyası / İ.Bayramov. – Ankara: İksad, – 2022. – 456 s.
3. Hüseynova, M. Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası / M.Hüseynova. – Bakı: ADPU, – 2020. – 600 s.
4. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 1. – 2004. 664 s.
5. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 2. – 2004.– 584 s.
6. Müasir Azərbaycan dili. Fonetika və fonologiya: [4 kitabda] / Baş red.: M.Nağısoylu. – Bakı: Elm, – k. 1. – 2019. – 733 s.
7. Şirəliyev, M. Azərbaycan dialektologiyasının əsasları / M.Şirəliyev. – Bakı: Şərq-Qərb, – 2008. 416 s.
8. Vəliyev, A. Azərbaycan dilinin keçid şivələri / A.Vəliyev. – Bakı: Elm, – 2005. – 335 s.

Farida HEYBATOVA

PHONETİC PHENOMENA İN THE LANGUAGE OF JALİL MAMMADGULUZADEH'S WORKS (ASSİMİLATİON, DİSSİMİLATİON AND METATHESİS)

SUMMARY

The article deals with phonetic phenomena used in the language of Jalil Mammadguluzadeh's works, especially assimilation, dissimilation and metathesis. The article consists of an introduction, a main part and a conclusion in accordance with the rules of academic writing. The introduction clarifies the concepts of phonetic laws and phenomena existing in the language. It is shown that although searching for examples of phonetic phenomena in written examples is not actually a normal occurrence, such examples are found in the language of J.Mammadguluzade's works. The reason for this is associated with the writer's attitude to the literary language at the beginning of the 20th century. In the main part of the article, the phonetic phenomena discussed are interpreted separately on the basis of specific linguistic facts selected from the writer's works. As a result, the conclusions reached throughout the research are reflected.

Key words: *phonetic phenomena in dialectisms, sound harmony, sound differentiation, sound shift*

Фарида ХЕЙБАТОВА

ФОНЕТИЧЕСКИЕ ЯВЛЕНИЯ В ЯЗЫКЕ ПРОИЗВЕДЕНИЙ ДЖАЛИЛА МАММАДГУЛУЗАДЕ (АССИМИЛЯЦИЯ, ДИССИМИЛЯЦИЯ И МЕТАТЕЗИС)

РЕЗЮМЕ

В статье рассматриваются фонетические явления, используемые в языке произведений Джалила Маммадгулузаде, в частности ассимиляция, диссимиляция и метатезис. Статья состоит из введения, основной части и заключения в соответствии с правилами академического письма. Во введении разъясняются понятия фонетических законов и явлений, существующих в языке. Показано, что, хотя поиск примеров фонетических явлений в письменной речи на самом деле не является обычным явлением, такие примеры встречаются в языке произведений Дж.Маммадгулузаде. Причина этого связана с отношением писателя к литературному языку в начале XX века. В основной части статьи рассматриваемые фонетические явления интерпретируются отдельно на основе конкретных лингвистических фактов, отобранных из произведений писателя. В результате, выводы, сделанные в ходе исследования, нашли отражение в данной работе.

Ключевые слова: *фонетические явления в диалектизмах, онемение звука, дифференциация звука, смещение звука*

Nərmin MƏMMƏDLI *

DİL SİSTEMİNDƏ KEYFİYYƏT ANLAYIŞININ FUNKSİONAL-SEMANTİK MODELİ

XÜLASƏ

Məqalədə keyfiyyət anlayışı dil sistemində funksional-semantik sahə kimi araşdırılır. Göstərilir ki, keyfiyyət yalnız leksik vahidlərin mənası ilə məhdudlaşmır, leksik, morfoloji və sintaktik səviyyələrdə reallaşan vasitələrin qarşılıqlı əlaqəsi nəticəsində formalaşır.

Keyfiyyətin funksional-semantik sahəsi nüvə və periferiya zonaları əsasında təşkil olunur. Nüvə zonada keyfiyyəti birbaşa ifadə edən vasitələr, periferiya zonalarda isə digər semantik komponentlərlə birləşmiş, kontekstual xarakter daşıyan formalar yer alır.

Məqalədə sifətlərin, feili sifətlərin, dərəcə formalarının, atributiv və predikativ konstruksiyaların keyfiyyətin ifadəsindəki rolu göstərilir və keyfiyyət anlayışının dil sistemində dinamik və çoxsəviyyəli semantik mexanizm olduğu əsaslandırılır.

Açar sözlər: *keyfiyyət anlayışı, funksional-semantik sahə, nüvə və periferiya, sifətlər, sintaktik Konstruksiyalar*.

Müasir dilçilikdə semantik kateqoriyaların funksional baxımdan öyrənilməsi dil sisteminin daxili mexanizmlərini daha dəqiq anlamağa imkan verir. Bu baxımdan keyfiyyət anlayışı dilin yalnız leksik və qrammatik səviyyəsində deyil, bütövlükdə funksional-semantik quruluşunda mühüm yer tutur. Keyfiyyət insanın ətraf aləmi qavrama, obyekt və hadisələri fərqləndirmə, onların xüsusiyyətlərini qiymətləndirmə prosesində formalaşan universal idrak kateqoriyalarından biridir və bu xüsusiyyət onun dildə müxtəlif vasitələrlə sistemli şəkildə ifadə olunmasını şərtləndirir.

Funksional-semantik yanaşmada hər bir anlayış dilin müxtəlif səviyyələrində reallaşan vasitələrin vahid mərkəz ətrafında birləşməsi kimi qəbul olunur. Bu baxımdan keyfiyyət ayrıca bir qrammatik kateqoriya olmaqdan daha çox, geniş semantik tutuma malik funksional-semantik sahə kimi çıxış edir. Həmin sahə sifətlər, feili sifətlər, zərflər, predikativ konstruksiyalar, sintaktik modellər və kontekstual ifadə vasitələri vasitəsilə reallaşaraq dil sistemində çoxşaxəli və dinamik bir struktur yaradır. Belə bir yanaşma keyfiyyətin yalnız "əlamət bildirən vahid" kimi deyil, funksional baxımdan müxtəlif səviyyələrdə aktiv iştirak edən semantik mexanizm kimi qiymətləndirilməsinə imkan verir.

Keyfiyyətin funksional-semantik sahəsinin əsas təşkilati prinsipi nüvə və periferiya zonalarının mövcudluğu ilə bağlıdır. Nüvə zona keyfiyyət mənasını birbaşa, müstəqil və sabit şəkildə ifadə edən vahidlərin məcmusunu əhatə edir. Bu zonada əsasən sifətlər və sifət mənalı sözlər yerləşir. Onlar predmetin əlamətini, xassəsini və xüsusiyyətini kontekstual şərtlərdən asılı olmadan aydın şəkildə bildirir. Məsələn, "ağ", "iri", "sürətli", "mehriban", "sakit" kimi sözlər keyfiyyəti birbaşa və müstəqil şəkildə ifadə etdiyinə görə nüvə zonanın tipik nümayəndələri sayılır. Bu tip vahidlərdə keyfiyyət semantikası əsas, aparıcı və dominant komponent kimi çıxış edir.

Nüvə zonanın əsas xüsusiyyəti onun semantik müstəqilliyi və struktur sabitliyidir. Bu zonada yerləşən vahidlər keyfiyyət anlayışını başqa semantik kateqoriyaların köməyi olmadan reallaşdıra bilir. Onlar predikativ mövqedə də, atributiv mövqedə də işlənərək keyfiyyət mənasını eyni dərəcədə effektiv şəkildə ifadə edir. Bu baxımdan nüvə zona funksional-semantik sahənin əsas dayağı kimi qiymətləndirilir və sahənin semantik konturlarını müəyyənləşdirir.

Periferiya zonası isə keyfiyyət mənasının dolayı, kontekstual və ya digər semantik komponentlərlə sintez olunmuş formada ifadə edildiyi sahədir. Burada keyfiyyət artıq təkbaşına dominant mövqe tutmur, başqa semantik çalarlarla birlikdə meydana çıxır. Məsələn, feili sifətlər, zərflər, predikativ konstruksiyalar,

* BDU, doktorant. E-mail:mammadli.narmin019@mail.ru

sintaktik birləşmələr və bəzi frazeoloji vahidlər periferiya zonaya daxildir. Bu vasitələrdə keyfiyyət semantikası ya hərəkət, ya vəziyyət, ya da münasibət mənası ilə birgə reallaşır.

Periferiyanın yaxın və uzaq qatlarını fərqləndirmək mümkündür. Yaxın periferiya zonasında keyfiyyət mənası hələ də aydın şəkildə hiss olunur və asanlıqla ayırd edilə bilir. Məsələn, "gözəl oxuyan", "sürətlə hərəkət edən", "sakit danışan" kimi konstruksiyalarda keyfiyyət hərəkət və ya proses mənası ilə birləşsə də, əsas semantik istiqamət yenə də əlamətin ifadəsinə yönəlmiş olur. Bu tip vahidlərdə keyfiyyət funksiyası güclü şəkildə saxlanılır.

Uzaq periferiya zonasında isə keyfiyyət semantikası daha zəif formada təzahür edir və əsasən kontekst vasitəsilə aktuallaşır. Burada keyfiyyət artıq müstəqil kateqoriya kimi deyil, situativ məna komponenti kimi meydana çıxır. Məsələn, bütöv cümlə quruluşları, metaforik ifadələr və kontekstual qiymətləndirmə formaları bu zonaya aid edilə bilər. Bu halda keyfiyyət bilavasitə sözlə deyil, mətnin ümumi semantik fonu ilə müəyyənləşir.

Beləliklə, keyfiyyətin funksional-semantik sahəsi vahid mərkəzə malik, lakin daxilən çoxqatlı və çevik struktura sahib olan sistem kimi formalaşır. Bu sistem dilin ifadə imkanlarının zənginliyini nümayiş etdirir və keyfiyyət anlayışının yalnız morfoloji və ya leksik kateqoriya deyil, bütöv bir semantik mexanizm kimi fəaliyyət göstərdiyini sübut edir.

Keyfiyyətin funksional-semantik sahəsinin formalaşmasında leksik vahidlər xüsusi yer tutur. Məhz leksik səviyyədə keyfiyyət anlayışı ən aydın, birbaşa və sistemli şəkildə reallaşır. Dilin lüğət tərkibində mövcud olan keyfiyyət bildirən sözlər semantik baxımdan obyektin və ya hadisənin xarakterik əlamətlərini, daxili və xarici xüsusiyyətlərini, vəziyyət və hallarını ifadə edir. Bu baxımdan leksik vasitələr funksional-semantik sahənin nüvə və yaxın periferiya qatlarının əsas dayağını təşkil edir [4, 64].

Keyfiyyət bildirən sifətlər leksik ifadə vasitələrinin əsasını təşkil edir. Onlar predmetin rəngini, ölçüsünü, formasını, fiziki və psixoloji xüsusiyyətlərini, estetik və emosional qiymətləndirməsini əks etdirir. Məsələn, ölçü və həcm bildirən sifətlər obyektin məkan daxilində tutduğu yeri və miqyasını göstərir, rəng bildirən sifətlər vizual qavrayışla bağlı xüsusiyyətləri ön plana çıxarır, psixoloji və emosional xarakterli sifətlər isə insanın daxili aləmini və davranış xüsusiyyətlərini ifadə edir. Bu tip leksik vahidlərdə keyfiyyət semantikası aparıcı və müstəqil mövqedə dayanır.

Leksik səviyyədə keyfiyyətin ifadəsi yalnız əsas sifətlərlə məhdudlaşmır. Bir çox hallarda isim və feillər də kontekst daxilində keyfiyyət mənası qazana bilir. Məsələn, müəyyən isimlər metaforik və ya qiymətləndirici məna daşıdıqda keyfiyyət göstəricisi kimi çıxış edir. Bu zaman sözün ilkin predmet mənası arxa plana keçir, onun qiymətləndirici və xarakterizəedici tərəfi ön plana çıxır. Beləliklə, leksik vahidlərin semantik potensialı genişlənir və onlar funksional-semantik sahənin periferiyasında aktiv rol oynayır.

Keyfiyyətin leksik ifadəsində dərəcəlilik anlayışı mühüm əhəmiyyət daşıyır. Bir çox sifətlər intensivlik və müqayisə münasibətləri əsasında müxtəlif semantik çalarlar qazana bilir. Bu hal keyfiyyətin sabit deyil, dəyişkən və nisbi xarakter daşıdığını göstərir. Dərəcə bildirən sözlər və formalar vasitəsilə keyfiyyət daha güclü, daha zəif və ya normadan kənar vəziyyətdə təqdim oluna bilir. Bu isə keyfiyyət anlayışının funksional-semantik sahədə çevik və çoxşaxəli təzahür etdiyini sübut edir.

Leksik vasitələr arasında antonimlik və sinonimlik münasibətləri də keyfiyyətin ifadəsində mühüm rol oynayır. Sinonim sözlər eyni və ya yaxın keyfiyyət xüsusiyyətlərini müxtəlif üslubi və emosional çalarlarla çatdırmağa imkan verir. Antonimlər isə keyfiyyət anlayışının qarşıtlıq əsasında dərk edilməsini təmin edir. Bu münasibətlər funksional-semantik sahənin daxili sistemliliyini gücləndirir və keyfiyyətin dil daxilində qarşılıqlı əlaqələr şəbəkəsində fəaliyyət göstərdiyini göstərir.

Frazeoloji vahidlər də keyfiyyətin leksik ifadə imkanlarını genişləndirən vasitələr sırasındadır. Frazeologizmlərdə keyfiyyət çox zaman dolayı və obrazlı şəkildə təqdim olunur. Bu halda əlamət birbaşa sifətlə deyil, bütöv ifadənin semantik bütövlüyü vasitəsilə çatdırılır. Məsələn, davranışın, xarakterin və ya vəziyyətin qiymətləndirilməsi frazeoloji vahidin ümumi mənası içində kodlaşdırılır. Bu cür vahidlər funksional-semantik sahənin periferiya qatına aid edilir və keyfiyyət anlayışının mətn daxilində daha təsirli və ekspressiv formada ifadəsinə xidmət edir.

Beləliklə, leksik səviyyədə keyfiyyətin ifadəsi funksional-semantik sahənin əsas və aparıcı komponentlərindən biridir. Sifətlər, kontekstual mənada işlənən digər nitq hissələri, sinonim-antonym

münasibətləri, dərəcəlilik formaları və frazeoloji vahidlər birlikdə keyfiyyət anlayışının dil sistemində geniş və çoxqatlı şəkildə reallaşmasını təmin edir. Bu isə leksik vasitələrin yalnız söz ehtiyatının elementi deyil, həm də semantik strukturun fəal mexanizmi olduğunu göstərir.

Keyfiyyət anlayışının funksional-semantik sahə kimi formalaşmasında morfoloji və sintaktik vasitələr də mühüm rol oynayır. Leksik səviyyədə keyfiyyət əsasən sözün semantik məzmunu ilə ifadə olunduğu halda, morfoloji və sintaktik səviyyələrdə bu anlayış dil vahidlərinin quruluşu və cümlə daxilində tutduğu mövqe vasitəsilə aktuallaşır. Beləliklə, keyfiyyət yalnız ayrıca sözlərin xüsusiyyəti kimi deyil, bütöv dil mexanizminin məhsulu kimi meydana çıxır.

Morfoloji səviyyədə keyfiyyətin ifadəsi əsasən sifətlərin dərəcə formaları, feili sifətlər və bəzi şəkilçilər vasitəsilə reallaşır. Dərəcə formaları keyfiyyətin intensivliyini və nisbi xarakterini göstərir. Müqayisə və üstünlük dərəcələri obyektlərin xüsusiyyətlərinin bir-biri ilə qarşılaşdırılmasına imkan verir və keyfiyyətin statik deyil, dinamik məna daşıdığını nümayiş etdirir. Bu zaman keyfiyyət təkcə mövcud bir əlamət kimi deyil, həm də ölçülə və müqayisə oluna bilən semantik parametr kimi çıxış edir.

Feili sifətlər də morfoloji baxımdan keyfiyyətin ifadəsində xüsusi yer tutur. Onlar hərəkət və ya proses mənası ilə keyfiyyət semantikasını birləşdirərək obyektin müəyyən vəziyyətini və ya xarakterik xüsusiyyətini göstərir. Bu tip formalar keyfiyyəti müvəqqəti, dəyişkən və situativ aspektdə təqdim edir. Məsələn, feili sifət konstruksiyalarında əlamət obyektin sabit xüsusiyyəti kimi deyil, müəyyən zaman kəsiyində yaranmış hal kimi anlaşılır. Bu isə funksional-semantik sahənin periferiya qatının formalaşmasına xidmət edir.

Morfoloji vasitələr arasında müxtəlif şəkilçilərin də rolu qeyd edilməlidir. Keyfiyyət bildirən sözlərin törədilməsində iştirak edən şəkilçilər dilin söz yaradıcılığı sistemində keyfiyyət anlayışının necə modelləşdirildiyini göstərir. Bu şəkilçilər vasitəsilə yeni sifət və sifət mənalı sözlər yaranır, beləliklə funksional-semantik sahənin leksik tərkibi daim yenilənir və genişlənir. Bu proses keyfiyyət anlayışının dil daxilində məhsuldar və açıq sistem olduğunu sübut edir [1, 36].

Sintaktik səviyyədə keyfiyyətin ifadəsi daha geniş və çevik imkanlara malikdir. Burada keyfiyyət təkcə söz və ya söz birləşməsi ilə deyil, bütöv cümlə quruluşu ilə reallaşa bilir. Atributiv söz birləşmələri keyfiyyətin sintaktik ifadəsinin əsas formalarından biridir. Bu birləşmələrdə sifət və sifət mənalı sözlər isimlə əlaqəyə girərək obyektin əlamətini konkretləşdirir və onu digər obyektlərdən fərqləndirir. Belə konstruksiyalar keyfiyyətin kommunikativ baxımdan daha aydın və dəqiq təqdim olunmasına xidmət edir.

Predikativ konstruksiyalar da keyfiyyətin sintaktik ifadəsində mühüm yer tutur. Bu tip cümlələrdə keyfiyyət obyektin əsas xüsusiyyəti kimi təqdim edilir və cümlənin məntiqi mərkəzinə çevrilir. Bu halda keyfiyyət yalnız atributiv funksiya daşımır, həm də predikativ məna qazanaraq obyekt haqqında əsas informasiya rolunu oynayır. Bu xüsusiyyət keyfiyyətin funksional yükünü xeyli artırır və onun kommunikativ dəyərini gücləndirir.

Sintaktik səviyyədə keyfiyyətin ifadəsi kontekstual amillərlə də sıx bağlıdır. Eyni linqvistik vahid müxtəlif kontekstlərdə fərqli keyfiyyət çalarları qazana bilər. Bu isə keyfiyyət anlayışının sabit və dəyişməz deyil, kommunikativ şəraitə uyğun olaraq formalaşan çevik semantik struktur olduğunu göstərir. Kontekst vasitəsilə keyfiyyət ya gücləndirilə, ya zəiflədilə, ya da dolayı şəkildə ifadə oluna bilər.

Aparılan təhlil göstərir ki, keyfiyyət anlayışı dil sistemində yalnız ayrıca leksik vahidlərin semantik xüsusiyyəti kimi deyil, bütöv və çoxsəviyyəli funksional-semantik sahə kimi fəaliyyət göstərir. Bu sahə müxtəlif dil səviyyələrində reallaşan vasitələrin vahid semantik mərkəz ətrafında birləşməsi nəticəsində formalaşır və dilin daxili təşkilində mühüm yer tutur. Keyfiyyətin belə bir model əsasında öyrənilməsi onun statik yox, dinamik və çevik xarakter daşıdığını üzə çıxarır.

Funksional-semantik yanaşma keyfiyyət anlayışının nüvə və periferiya zonaları vasitəsilə strukturlaşdırıldığını göstərir. Nüvə zonasında keyfiyyəti birbaşa və müstəqil şəkildə ifadə edən vahidlər, xüsusən sifətlər və sifət mənalı sözlər cəmləşir. Periferiya zonalarında isə keyfiyyət mənası başqa semantik komponentlərlə sintez olunmuş formada meydana çıxır və kontekstual xarakter daşıyır. Bu bölgü keyfiyyət anlayışının dil daxilində müxtəlif dərəcələrdə aktuallaşmasını və kommunikativ şəraitə uyğun olaraq dəyişməsini aydın şəkildə nümayiş etdirir.

Leksik səviyyədə keyfiyyətin ifadəsi funksional-semantik sahənin əsas dayaqlarından birini təşkil edir. Sifətlər, kontekstual mənada işlənən isim və feillər, sinonim və antonim münasibətləri, dərəcəlilik formaları, eləcə də frazeoloji vahidlər keyfiyyətin semantik çalarlarını zənginləşdirir və onun ifadə imkanlarını genişləndirir. Bu, keyfiyyət anlayışının yalnız bir tip vahidlə məhdudlaşmadığını, əksinə, dilin lüğət sistemində geniş yayılmış və çoxşaxəli şəkildə təmsil olunduğunu göstərir.

Morfoloji və sintaktik səviyyələrdə isə keyfiyyət anlayışı daha mürəkkəb və çevik formalarda təzahür edir. Dərəcə formaları, feili sifətlər və şəkilçilər vasitəsilə keyfiyyətin intensivlik, müvəqqətilik və nisbi xarakteri ön plana çıxır. Sintaktik quruluşlarda isə keyfiyyət ya atributiv, ya da predikativ mövqedə çıxış edərək cümlənin semantik mərkəzinə çevrilə bilir. Bu isə keyfiyyətin yalnız tamamlayıcı informasiya daşıyıcısı deyil, əsas məna yaradan komponent kimi də iştirak etdiyini sübut edir.

Nəticə etibarilə demək olar ki, keyfiyyət anlayışı dil sistemində ayrıca qrammatik kateqoriya çərçivəsindən çıxaraq, geniş semantik tutuma malik funksional-semantik sahə kimi qiymətləndirilməlidir. Bu yanaşma həm nəzəri dilçilik, həm də funksional qrammatika istiqamətində aparılan tədqiqatlar üçün metodoloji baxımdan əhəmiyyətli nəticələr ortaya qoyur və keyfiyyətin dilçilikdə öyrənilməsinə yeni baxış bucağı formalaşdırır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Abdullayeva S. Müasir Azərbaycan dilində zərf. Bakı: Maarif, 1991, 121 s.
2. Adilov M. Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 2019, 304 s.
3. Əlizadə F. Cümlənin aktual üzvlənməsi. Bakı: BDU, 1998, 125 s.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
5. Бондарко А.В. Функциональная грамматика. Ленинград: Наука, 1983, 208 с.
6. Dixon R.M. W. Adjective classes: a crosslinguistic typology. Auckland: Oxford univ. press, 2004, 370 p.

РЕЗЮМЕ

В статье качество рассматривается как функционально-семантическое поле в системе языка. Показано, что оно формируется на основе взаимодействия лексических, морфологических и синтаксических средств и не ограничивается значением отдельных слов.

Функционально-семантическое поле качества организуется по принципу ядра и периферии: в ядре находятся средства, непосредственно выражающие признак, а в периферийных зонах качество проявляется в сочетании с другими семантическими компонентами и актуализируется в контексте.

Особое внимание уделяется роли прилагательных, причастных форм, степеней сравнения, а также атрибутивных и предикативных конструкций в реализации категории качества.

Ключевые слова: *категория качества, функционально-семантическое поле, ядро и периферия, прилагательные, синтаксические конструкции*

ABSTRACT

The article examines quality as a functional-semantic field in the language system. It is shown that quality is formed through the interaction of lexical, morphological, and syntactic means and cannot be limited to the meaning of individual words.

The functional-semantic field of quality is structured according to the core–periphery model: the core includes means that directly express qualitative meaning, while the peripheral zones represent quality in combination with other semantic components and are context-dependent.

Special attention is paid to the role of adjectives, participial forms, degrees of comparison, and attributive and predicative constructions in the realization of the category of quality.

Keywords: *category of quality, functional-semantic field, core and periphery, adjectives, syntactic constructions.*

GÜNƏŞ MUSTAFAYEVA*

«İDİ» SÖZÜ VƏ TANRI KONSEPTİNİN İFADƏSİ

XÜLASƏ

Məqalədə "idi" sözünün Orta Türk dillərində Tanrı konseptini ifadə vasitəsi kimi istifadəsi araşdırılmışdır. Tədqiqat göstərir ki, bu leksik vahid Göytürk, Uyğur, Xəqaniyyə, Qıpçaq və Xarəzm türkcəsi ilə yazılmış mətnlərdə "sahib", "yiyə", "Allah" və "rəbb" mənalarında işlənmişdir. Nəticədə, "idi" həm dini, həm də milli-mədəni kontekstdə Tanrı anlayışının universal və milli aspektlərini əks etdirən əsas vasitə kimi qiymətləndirilir.

Açar sözlər: *tanrı, «idi» sözü, qədim türk yazılı abidələri, Göyütrk yazsısı abidələri, uyğur abidələri, konsept.*

İnsanın dünya haqqında təsəvvürləri onun həyat fəaliyyəti boyunca yeni biliklərin təsiri ilə davamlı şəkildə inkişaf edir və ümumi anlayışların formalaşmasına səbəb olur. Bu ümumi anlayışlar sistemi konseptlərdən ibarətdir. İnsanın düşüncə fəaliyyəti, kommunikasiya prosesi və ümumi fəaliyyəti müəyyən əlamət və xüsusiyyətlərə malik konseptlər əsasında reallaşır. Obyektiv reallıq haqqında biliklər insan fəaliyyətinin müxtəlif sahələrini əks etdirən abstrakt mənəvi strukturlar kimi-konseptlər formasında təşkil olunur. İnsan konseptlərdən istifadə edir, onları əlaqələndirir və nəticədə yeni konseptlər meydana gətirir.

Konseptlərin tipoloji müxtəlifliyi onların semantik, funksional və mədəni xüsusiyyətləri ilə şərtlənir. Müasir linqvistik tədqiqatlarda konseptlərin təsnifi problemi xüsusi elmi aktuallıq kəsb edir. Mövcud elmi yanaşmalara əsasən, konseptlər əsasən iki böyük qrupa ayrılır: universal və milli konseptlər. Universal konseptlər ümumbəşəri biliklər bazasında formalaşır və konkret milli-mədəni spesifiklik daşımır.

Çoxcəhətli mənaları, tarix boyunca müxtəlif mədəniyyətlərdə formalaşmış təzahürləri və semantik zənginliyi ilə tanrı konsepti elmi tədqiqatlar və fəlsəfi müzakirələr üçün xüsusi maraq kəsb edir. Tanrı konsepti öz mahiyyətinə görə universal, təzahür və məzmununa görə isə milli-mədəni konsept hesab edilir. Yəni o, ikili xarakter daşıyır.

Tanrı anlayışı insanın dünyanı dərk etmə tarixinin demək olar ki, bütün mərhələlərində və əksər mədəniyyətlərdə mövcuddur. Ali varlıq, yaradıcı qüvvə, fövqəlgüc ideyası müxtəlif adlar və formalarda olsa da, bütün xalqlarda müşahidə olunur. Bu baxımdan Tanrı konsepti ümumbəşəri (universal) xarakter daşıyır. Tanrı konseptinin qavranılması, təsviri, adlandırılması və ona münasibət konkret xalqın dini inancları, mədəniyyəti, tarixi təcrübəsi və dünyagörüşü ilə sıx bağlıdır. Elmi yanaşmalara əsasən, tanrı konsepti universal semantik nüvəyə malik olsa da, onun konkret məzmunu, interpretasiyası və dildə ifadə formaları milli-mədəni amillər əsasında formalaşır. Bu səbəbdən tanrı konsepti həm universal, həm də milli konsept kimi qiymətləndirilir və ikili konseptual xarakter daşıyır.

Tanrı konsepti dil şüurunda mürəkkəb və çoxqatlı semantik struktur kimi formalaşır və müxtəlif leksik vahidlər vasitəsilə ifadə olunur. Bu leksik formalar dilin tarixi inkişafı, dini dünyagörüşü və milli-mədəni təcrübəsi ilə sıx bağlıdır. Tanrı konsepti türk dillərində tarixən və tədricən müxtəlif atributiv və sinonimik leksik vahidlər vasitəsilə də ifadə olunur.

Tanrı konseptinin leksik-qrammatik ifadə vasitələrindən biri də «idi» leksik vahididir . Mənbələrdə «idhi», «idi», «izə», «igə» formalarında işlənən bu söz «sahib», «tanrı», «rəbb» mənalarını ifadə etmişdir. Cerard Klauson qeyd edir ki, «idi:» sözü , əsasən «sahib» mənasını ifadə edir, amma İslami mətnlərdə bu söz tez-tez «Allah» mənasında işlənmişdir. O, həmçinin sözün fonetik tarixinin mürəkkəb olduğunu qeyd etmişdir. Onun qeyd etdiklərinə görə, bu söz monqol dilindən türk dilinə keçmişdir. Belə ki, o, «idi» sözünün Monqol dilindəki «ici» sözü ilə əlaqəli olduğunu vurğulayır. [1, s.41]

Türk dillərinin tarixi, inkişafı və erkən mədəni konteksti haqqında birbaşa və dəqiq məlumat əldə etmək üçün Göytürk yazısı abidələri həlledici mənbədir. Göytürk yazısı abidələrində söz «idi» formasında

* Doktorant, AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı

«sahib» və «yiyə» mənalarını ifadə etmişdir. Bu söz Kültigin abidəsində 4 dəfə, Tonyukuk abidəsində 3 dəfə, Irk Bitik abidəsində isə 1 dəfə işlənmişdir. Kültigin abidəsində işlənmiş nümunələr aşağıdakı nümunələrdə əks etdirilmişdir:

1. *Ötüken yışda yig idi yok ermis/ Ötüken ormanında yaxşı sahib yox imiş.* [5, s.349]
2. *Ekin ara idi oksız kök türk ança olurur ermis/ İkisinin arasında sahib bölgüsüz göytürk xalqı eləcə oturur imiş.* [5, s.291]
3. *Sub idisiz bolmazun tiyin az bodunığ itip/ Su sahibsiz olmasın deyə az xalqı təşkil edib* [5, s. 293]
4. *Sub idisiz kalmazun tiyin, az kırkız bodunığ yaratıp kəltimiz/ Suyu sahibsiz qalmasın deyə azsaylı qırğız xalqını təşkil edib gəldik.* [5, s.293]

Tonyukuk abidəsində işlənmiş nümunələr aşağıdakı nümunələrdir:

1. *Türk sir bodun yerintə idi yorımazun/ Türk sir xalqı yerində sahib yürüməsin.* [5, s.372]
2. *Tinəsi oğlı yatığma tağka təgmis, idi yok ermis/ Tinəsi oğlu yatan dağa çatmış (dəymiş), sahib yox imiş.* [5, s.376]
3. *Kapağan kağan türk sir bodun yerintə bod yəmə, bodun yəmə, kisi yəmə idi yok ertəçi/ Kapağan xaqanın türk sir xalqı yerində bir nəfər də, xalq da, adam sahib olmayacaqdı.* [5, s.376]

Irk Bitik abidəsində işlənmiş nümunə isə budur:

1. *Səmsiz at aözı katığ boltı, idisi umaz, -tir/ Kök atın ağzı sərt oldu, sahibi idarə edə bilməz (hərfən: göndərməz), -deyir.* [5, s.552]

Uyğur yazısı abidələri qədim Türk dili araşdırmaları üçün istər tarixi, istər fonetik, istərsə də leksik və mədəni baxımdan əsas mənbələrdən biridir. Tanrı konseptinin ifadəsi bu mənbələrdən də yan keçməmişdir. Belə ki, Uyğur yazısı abidələrində söz «idi» və «igə» formalarında «sahib», «sahibkar», «bəy» mənalarında işlənmişdir.

«İdi» formasında: *inçə körüp ol kuş idisinə/ belə görüb o quş sahibinə*. [6, s.180] Verilmiş bu nümunə manixey əlifbası ilə yazılmışdır.

«İgə» formasında: *idi igəkə yükünürmən/ idi igəyə səcdə edirəm.* [6, s.219] Verilmiş bu nümunə isə «Otuz beş Burhana hörmət» adlı əsərdəndir.

Əhməd Cəfəroğlu «idi» sözünün «sahib» mənasını ifadə etdiyini qeyd etmişdir. O, həmçinin «sahib» mənasında «iä» və «sahib», «bəy», «pəri ruh» mənalarını ifadə edən «igä» sözlərini qeyd etmişdir. [6, s.89] Xəqaniyyə türkcəsində yazılmış əsərlərdə- «Divani lüğət-it türk»də söz «idi» formasında işlənmişdir:

1. *İdhim nə ter/ ağam nə deyir. Tanrıya da «idhi» deyilir.* [4, s.152]
2. *İdhimizin yarlığı-tanrımızın əmri, buyruğu.* [4, s.152]
3. *Kağun karma bolsa, idhisi ikki əligin təgir/ qovun yağma edilsə, sahibi iki əlli tutar.* [4, s.408]

«Qutadqu Bilik» əsərində söz «idi» formasında «sahib» və «Allah» mənalarında 102 dəfə işlənmişdir. «Sahib» mənasında işlənmiş nümunələr aşağıda qeyd olunmuşdur:

1. *Kitab idisi Yusuf uluğ Hacib özine pend berür/ Kitab sahibi Yusif ulu Hacib özünə öyüd verir.* [7, s.344]
2. *Biliglig bilig berdi tilke bışığ, aya til idisi küdezgil başığ/ Bilgili dil üçün qısa bir söz söylədi, ey dil sahibi başını himayə et.* [7, s.12]
3. *Kitab idisi öz udrin ayur/ Kitab sahibi öz üzrünü söyləyər.* [7, s.13]
4. *Biliglig idi az biligsiz üküş, ukuşsuz üküş bil ukuşluğ küsüş/ Bilgi sahibi insanlar çox azdır, bilgisiz isə, çoxdur. Bil ki, anlayışsız insanlar çox, anlayışlılar isə, nadirdir.* [7, s.14]
5. *Bu nimet idisi unıtur özin, munın şükri bilse evürmez yüzin/ Bu nemət sahibi dəfələrlə özünü unudar, fəqət şükür edərsə, nemət ondan üz çevirməz.* [7, s.43]

«Allah» (rəbb) mənasında*:*

1. *İdim munka tegdim vefasızka tuştum/ Allahım mən yoruldum, vəfasızlığa düşdüm.* [7, s.342]
2. *Ata erdim emdi ölür bu ata, idim sen tirig sen anar bir kut a/ Ata idim, indi bu ata ölür, ey rəbbim, sən dirisən, ona səadət ver.* [7, s.69]
3. *Tüzü arzu nimet tükel men yedim, sevinçlig men sendin ay edgü idim/ Bütün arzu və nemətlərə tamamilə nail oldum, ey yaxşı rəbbim, sən məni hər tərəfdən sevindirdin.* [7, s.69]

Xəqaniyyə türkcəsində, həmçinin İslamın müqəddəs kitabı Quran tərcümə olunmuşdur və həmin tərcümə olunan əsəri Rylands nüsxəsi də adlandırırlar. Bu əsər Xəqaniyyə türkcəsi ilə yanaşı, digər tarixi yazı dillərimizə aid xüsusiyyətləri özündə daşıdığına görə diqqət cəlb edir. «İdi» sözü bu əsərdə də işlənmiş və «sahib», «Tanrı», «ilah», «rəbb» mənalarını ifadə etmişdir:

1. *Alkış aymak yarlıkagan İdidin/ Bağışlayan Tanrının salamını söyləmək.* [3, s.37]
2. *Tanrı ulug artukluk bermek idisi ol/ Tanrı böyük lütf sahibidir.* [3, s.39]
3. *Anın bilmeki İdim üskinde ol/ Onun bilməsi Tanrı nəzdindədir.* [3, s.49]
4. *Yarlıkatu tiledi İdisidin tüşti rüku kıli yandı Tanrıka/ Tanrıdan bağışlanmağ dilədi, Tanrıya səcdə etdi.* [3, s.69]
5. *Tesbih aygıl idinge şükr aymak birle/ Tanrını şükürlə yad et.* [3, s.67]
6. *Unıttılar idini, unıtturı anlarka etözleri, olar tuturlar Tanrı fermanından çıkganlar/ Tanrını unutdular, Tanrı da onlara nəfslərini unutdurdu, onlar Tanrının əmrindən çıxanlardır.* [3, s.69]
7. *Kökler idisi hem yerler idisi hem ol iki ara aziz üküş örtgen/ O göylərin, yerin və ikisi arasındakı hər şeyin Rəbbidir... şox bağışlayandır.* [3, s.73]
8. *Armasun sizlerni İdidin yek/ Şeytan sizi Tanırdan uzaqlaşdırmasın.* [3, s.78]

Xəqaniyyə türkcəsi ilə yazılmış digər əsərlərdən biri «Atəbətül-həqaiq»dir. Əsərin dili digər əsərlərlə müqayisədə ağırdır. Bu əsər türk-İslam mədəniyyəti çərçivəsində yaşayanlar üçün yazılmışdır və dini sözlərlə zəngindir. «İdi» sözü, bu əsərdə də işlənmiş və «sahib», «rəbb» mənalarını ifadə etmişdir:

1. *Öz elgin but itip idim bu tidi/ Öz əli ilə büt hazırlayıb, Rəbbim budur! dedi.* [3, s.83]
2. *Bilig birle bilnür törütgen idi/ Yaradan Tanrı bilgi ilə tanınar.* [3, s.85]
3. *İlahi keçürgen idim sen keçür/ Tanrım, sən bağışlayan rəbbimsən, sən bağışla.* [3, s.85]
4. *Bu baylık çığaylık idi kismeti/ Zənginlik və yoxsulluq Tanrının qismətidir.* [3, s.85]
5. *Kalur sabr idisi sevabın yüdüp/ səbr sahibi savab qazanar.* [3, s.87]
6. *Bu kudret idisi uluğ bir bayat/ O qüdrət sahibi böyük bir Tanrıdır.* [3, s.87]

Xəqaniyyə türkcəsində yazılan əsərlər içərisində Mahmud Zəmaxşarinin «Müqəddimətül- ədəb» adlı sözlüyü türklərin və farsların türk dilini öyrənməsi üçün yazılmışdır. Bu əsər ortaq türk ləhcələrinin söz xəzinəsini öyrənmək baxıından olduqca maraqlıdır. Əsərdə 130 dini söz və ifadə işlənmişdir. Bunlardan biri də «idi» kəliməsidir. Qeyd olunan sözlükdə «idi» sözü «Tanrı» mənasını ifadə etmişdir. *Ulug turur Tanrı, yükey erür İdi.* [3, s.98]

Türk yazılı abidələrinin bir hissəsi Xarəzm türkcəsi ilə yazılmışdır və bu əsərlərin əksəriyyəti dini əsərlərdir. Həmin dönəmə aid dini əsərlərdən biri «Nəhcül- Fəradis» adlanır. Bu əsərdə Oğuz və Qıpçaq türk dillərinin dil özəlliklərini də müşahidə etmək mümkündür. Qeyd olunduğu kimi, dini əsərdir və «idi» sözü də bu yazılı abidənin dilindən yan keçməmişdir. Belə ki, bu söz «sahib», «yiyə», «Allah» mənalarını ifadə etmişdir: *Ya Ayyup idin celle celaluhu sanga salam berdi takı bişarat sanga boldun kim.* [3, s.115] Hətta, əsərin bəzi hissələrində söz «ede» formasında işlənmişdir: *ol btig edesi sana kargadı, bu harabluklar cümlesi andın turur tep aydılar*. [3, s.115]

Orta Türk dilinin erkən nümuələrindən hesab olunan Əhməd Yəsəvi müəllifli «Divani-hikmət» əsərində tanrı konseptini ifadə edən söz «idi», «igə», «izə» formalarında «sahib» və «yiyə» mənalarında işlənmişdir. [1, s.123]

Qıpçaq türkcəsi fonetik, morfoloji və leksik xüsusiyyətlərinə görə digər türk dilləri ilə müqayisəli araşdırmalar üçün mühüm mənbələrdən biri hesab olunur. Belə ki, bu dildə yazılmış əsərlərdə tanrı konspetini ifadə etmək üçün «idi» leksik vahidi «rəbb», «Allah» mənalarında işlənmişdir.

Ümumiyyətlə, «idi» sözü Xəqaniyyə, qıpçaq və Xarəzm türkcəsi ilə yazılmış əsərlər içərisində Tanrı konsepti ilə əlaqəli işlənmiş ən aktiv 40 sözdən biridir.

Tədqiqatın nəticələri göstərir ki, «idi» leksik vahidi Orta Türk dillərində Tanrı konseptini ifadə edən əsas vasitələrdən biri olmuşdur. Bu söz Göytürk, Uyğur, Xəqaniyyə, Qıpçaq və Xarəzm türkcəsi ilə yazılmış yazılı abidələrdə, həmçinin Əhməd Yəsəvi və digər orta əsr türk ədəbiyyatında «sahib», «yiyə», «Allah» və «rəbb» mənalarında geniş şəkildə istifadə edilmişdir. Nümunələr göstərir ki, «idi» sözü yalnız leksik mənası ilə məhdudlaşmayaraq, həm dini, həm də sosial-mədəni kontekstdə Tanrı anlayışının dərk edilməsində və onun dil vasitəsilə ifadəsində mühüm rol oynamışdır. Araşdırma həmçinin sübut edir ki, tanrı konsepti universal semantik nüvəyə malik olmaqla bərabər, konkret mədəniyyət, tarixi şərait və dil xüsusiyyətlərinə görə fərqli leksik formalarla təzahür etmişdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Cəfərov N. Əhməd Yəsəvi. Divani-hikmət. Bakı: Çaşıoğlu, 2004. 128 s.
2. Clauson G. An Etymological Dictionary of Pre-Thirteenth Century Turkish Languages. Oxford, At the Clarendon Press, 1972, 1048 p.
3. Deniz S. Karahanlı, Harezm ve Kıpçak türkçesi eserlerinde dini terimler, Elazığ, 2019, 1017 s.
4. Əskər R. Mahmut Kaşğari. “Divanü lüğat-it-türk”. 4 cilddə. I cild. Bakı: Ozan, 2006, 515 s.
5. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə. I cild. Göytürk yazısı abidələri, I hissə. Bakı-Nurlan, 2009, 568 s.
6. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə. III cild. Qədim uyğur yazısı abidələri, I hissə. Bakı: Elm və təhsil, 2010, 664 s.
7. https://shorturl.at/RSwXQ

THE WORD "IDI" AND THE EXPRESSON OF THE CONCEPT OF GOD

ABSTRACT

The article investigates the use of the word “idi” as a means of expressing the concept of God in Old Turkic languages. The reserch shows that this lexical unit was used in Gokturk, Uyghur, Khakaniyya, Kipchak, and Khwarezmian texts with the meanings “master,” “owner,” “Allah,” and “Lord.” Consequently, “idi” is considered an important linguistic tool reflecting both the universal and national-cultural aspects of the concept of God.

Keywords: *god, the word "idi", ancient Turkic written monuments, Gokturk written monuments, Uyghur monuments, concept*

СЛОВО «ИДИ» И ВЫРАЖЕНИЕ КОНЦЕПЦИИ БОГА

РЕЗЮМЕ

В статье исследуется использование слова «иди» как средства выражения концепта Бога в древнетюркских языках. Исследование показывает, что этот лексический элемент в текстах на гёктюркском, уйгурском, хакакийском, кипчакском и хоре́змском языках употреблялся со значениями «владыка», «владелец», «Аллах» и «Господь». В итоге, «иди» рассматривается как важное средство, отражающее универсальные и национально-культурные аспекты представления о Боге.

Ключевые слова: *бог, слово «иди», древнетюркские письменные памятники, письменные памятники Гёютюрков, уйгурские памятники, концепция*

Nərmin AXUNDOVA*

ÜSLUBİ NEOLOGİZMLƏRİN MƏTN YARATMA POTENSİALI

XÜLASƏ

Məqalədə üslubi neologizmlərin mətn yaratma imkanlarından bəhs edilir. Üslubi neologizmlər dildəki innovasiyaları əks etdirir. Buna görə də onlara bədii mətnin əsas komponentlərindən biri kimi baxmaq lazımdır. Müasir dövrdə mətn həm dilçiliyin, həm ədəbiyyatşünaslığın, həm də semiotikanın tədqiqat obyektlərindən biridir. Üslubi neologizmlər bədii mətnin yaranmasında xüsusi rol oynayır. Yəni bədii mətnin əsasını təşkil edən bədii ifadə vasitələri kimi bəzən onlar istər poeziyada, istərsə də prozada (yəni nəsrdə) məcazlar, troplar yaradır. Onlarsız bədii dil çox sönük görünərdi, çünki bədii mətnin özünəməxsusluğu məhz bu vasitələrlə reallaşır. Bədii mətn, ilk növbədə, bədii nitqin yaranması ilə bağlıdır. Yəni nitq fəaliyyətinin bir sahəsi olan bədii nitq spesifik xüsusiyyətlərə malikdir. Nitq aktı yazıda mətn şəklində əks olunur. Bədii mətn, ilk növbədə, bədii nitqin yazılı inikasıdır. Eyni zamanda, mətn informasiya mənbəyidir, kommunikativliyə xidmət edən əsas nitq vahidlərindən biridir. Mətndə dil vahidlərinin semantik, kommunikativ, ekspressiv, informativ funksiyaları birləşir.

Açar sözlər: *üslubi neologizm, mətn, funksiya, ekspressivlik, poetiklik.*

Üslubi neologizmlər çox zaman kontekstual mahiyyət kəsb etdiyindən onlara mətnin ümumi nəzəri aspektlərindən də baxmaq lazımdır. Çünki onlar məhz müəyyən bir kontekstdə yaranır, yarandıqları mətn üçün orijinallıq kəsb edir. Bu mənada onların mətnlə bağlılığı mühüm məsələdir. Onlar çox zaman mətndən kənar vahid kimi mövcud ola bilmir. Məhz müəyyən bir bədii mətn daxilində üslubi neologizmlərin mövcudluğu reallaşır, mətn daxilində onlar bədii dilin poetik imkanlarını gücləndirir, bəzən metaforik anlam kəsb edir. Buna görə də üslubi neologizmlərin mətn kontekstindən öyrənilməsi linqvistik baxımdan bir çox nəzəri məsələlərə aydınlıq gətirir. Üslubi neologizmlər estetik və ekspressiv funksiyalar daşıdıqlarına görə, onların bədii mətnyaradıcı imkanları çox genişdir. Üslubi neologizmlər mətnə ekspressivlik, emosionallıq, poetiklik verir. Onlar mətnin bədii cəhətdən qurulmasında və formalaşmasında fəal iştirak edir. Çünki üslubi neologizmlər publisistik mətnlərlə müqayisədə daha çox bədii mətnlərdə reallaşır və bu reallaşma zamanı onlar məntin poetikləşməsinə xidmət edir, bədii üslubdakı fərdiliyi gücləndirir.

Üslubi neologizmlərin mətnlə bağlı mühüm cəhətlərindən biri də onların mətndəki funksiyasıdır. Çünki onlar məhz bədii mətndə reallaşır, yaranır və bəziləri sonradan ədəbi dilə keçərək ümumişləklik qazana bilir. Üslubi neologizmlərin əsas xüsusiyyətlərindən biri onların məhdud arealda işlədilməsidir. Bu cəhətdən onlar dilin leksik-semantik qatının digər sahələri ilə müqayisədə mətnlə daha sıx bağlıdır. Onlar çox zaman bədii kontekstdən kənara çıxa bilmir. *V.P.Belyanin bu nəticəyə gəlir ki, "mətnin üslubi-konnotativ planı müəllifin emosional dominantını formalaşdırır. Bu planda bədii mətn dünyanın mənzərəsini yaradır. Bədii mətnin sintaqmatik cəhətdən açılması xüsusi leksik vahidlərin seçimi ilə müşayiət olunur. Yazıçının fərdi üslubu mətnin ifadə etdiyi "dünyanın obrazlı mənzərəsinin" unikallığını əks etdirir" [3, s.6]. Üslubi neologizmlər müəllif dilinin estetik potensialını, yazarın yaradıcılıq imkanlarını əks etdirir. Üslubi neologizmlər vasitəsilə müəllif poetik dilin özünəməxsusluğunu, gerçəkliyin bədii obrazını, mənsub olduğu dilin derivativ imkanlarını ifadə edir. Hər bir mətn özlüyündə müəyyən informasiyanı daşıyır. Adi mətn də informasiya daşıyır, bədii mətn də hər hansı bir informasiya verir. Sadəcə, bədii mətndə verilən informasiya troplarla, bədii ifadə vasitələri ilə, üslubi neologizmlərlə özünəməxsus məzmun daşıyır. Bu cəhətdən bədii mətn adi mətndən bir qədər fərqlənir. Əgər adi mətnlərdə informativlik daha güclü şəkildə ifadə olunursa, bədii mətnlərdə poetiklik dominantlıq təşkil edir.*

Mətn yazılı nitqin bir parçasıdır. Deməli, mətnin strukturu, mətnin formalaşması, mətnin qurulma mexanizmi həm də yazı nəzəriyyəsinə əsaslanır. Y.Lotman "Bədii mətnin strukturu" adlı əsərində qeyd edir

* Nəsimi adına Dilçilik İnstitutunun dissertantı. Email: narminaxundova88@mail.ru

ki, "bədii mətn tamamilə başqa cür qurulur, bədii mətndə hər bir detal və bütöv mətn ayrı-ayrı münasibətlər sistemi əsasında qurulsa da, eyni zamanda, onlar, nəticədə, bir anlama, bir ideyaya xidmət edir" [7, s.41]. Üslubi neologizmlər dil və nitq üçün yeni informasiya deməkdir. Məhz bu yeni informasiyanın bədii mətndə verilməsi, ilk növbədə, yeni kommunikativ münasibətlərin yaranması deməkdir. Deməli, bədii mətndə üslubi neologizmlərin bir funksiyası da innovativliyi təmin etməkdir.

Bədii mətnin təşkili onun struktur elementlərindən asılıdır. Poetik mətnlərdə söz sənətkarları üçün geniş meydan var. Bədii mətnlərdə müəllif söz yaradıcılığının reallaşması üçün böyük imkanlar mövcuddur. Bir sözlə, bədii mətn müəllifin poetik imkanlarının reallaşdığı məkandır. D.V.Xalyavina qeyd edir ki, "*poetik mətn söz sənətkarının linqvokreativ yaradıcılığı üçün ən əsas mənbələrdən biridir*" [6, s.5]. Deməli, poetik mətnin yaranmasında üslubi neologizmlərin mühüm funksiyası var. N.Babenko qeyd edir ki, "*okkazionalizmlərin yüksək bədii-estetik qiyməti onların mətn yaradıcılığında ən mühüm vasitələrdən biri olmasındadır*" [2, s.5]. Buna görə də, üslubi neologizmlərin yaranması mətn dilçiliyi baxımdan da maraqlıdır. Məlumdur ki, mətnin yaranmasında müxtəlif prosodik vasitələrdən tutmuş, sintaqm və ya söyləm, aktual üzvlənmə mühüm rol oynayır. Ənənəvi qrammatikadan fərqli olaraq mətn dilçiliyində tema və rema məsələləri aktuallaşır, psixoloji subyekt-tema və psixoloji predikat - rema mühüm amillər kimi çıxış edir. Məhz bədii mətndəki aktuallaşmada üslubi neologizmlər və onların strukturu müstəsna rol oynayır. Fərdi müəllif sözlərinin bu aspektləri, yəni mətn dilçiliyi baxımından qiymətləndirilməsi məsələsi rus tədqiqatçısı Q.Qurçkaya tərəfindən öyrənilmişdir. O, müxtəlif araşdırmalarda müəllif neologizmlərinin aktuallaşmasının üç formada baş verdiyini qeyd edir. "*Birincisi, leksik səviyyədə aktuallaşmadır. İkincisi, mətn səviyyəsində aktuallaşmadır. Üçüncüsü isə, mətnaltı aktuallaşmadır*" [5, s.14]. D.N.Şmelev yazır ki, "*üslubi neologizmlər nitq faktı kimi mətndə daha çox ekspressiv-semantik funksiya daşıyırlar və adətən, mətndən kənara çıxmır"* [8, s.157]. Deməli, D.N.Şmelevin görüşlərinə görə, üslubi neologizmlər daha çox kontekstual anlam daşıyır. O qeyd edir ki, "*linqvistik planda isə onlar mətnin linqvo-stilistik analizində dilin sözyaratma imkanlarını öyrənmək baxımından, sözyaratma modellərinin məhsuldar və ya qeyri-məhsuldar olduğunu öyrənmək baxımından əhəmiyyətli dil faktlarıdır*" [5, s.157].

Üslubi neologizmlər fərdi üslubun indviduallığını gücləndirir. Onlar müəllifin dil eksperimentləri kimi də çox dəyərlidir. Üslubi neologizmlər indviduallıq baxımından bədii dilin spesifikliyini gücləndirir. Üslubi neologizmləri bir funksiyası da dilin okkazional ehtiyacını təmin etməkdir. Digər tərəfdən isə, üslubi neologizmlər okkazional sözlər kimi bədii mətnin tələbləri nəticəsində meydana çıxır. Yəni onlar çox zaman bədii mətnin zəruri ehtiyacları kimi yaranır və bədii mətnin bütövləşməsinə yardım edir. Eyni zamanda, onlar bədii mətnin emosional-ekspressivlik funksiyasını icra edir, bədii dili daha da ifadəli, təsirli edir. Onların yüksək dərəcədə ekspressivlik ifadə etmək xüsusiyyəti bədii mətnlərin obrazlılığını artırmış olur.

Rus ədəbiyyatında futurist şairlərdən biri də Vasili Vasilyeviç Kamenskidir. O, XX əsrin əvvəllərində geniş yayılmaqda olan kubofuturistlər cərəyanının fəal üzvlərindən biri olmuşdur. Futurizm cərəyanının bir qolu olan kubofuturistlərin yaradıcılığında da fərdi-müəllif neologizmləri olduqca çox idi. Onun yaradıcılığında fərdi-müəllif söz yaradıcılığının funksional-praqmatik aspektlərini tədqiq edən D.V.Xalyavina yazır ki, "*V.Kamenskinin idiolektinin ən əsas əlaməti onun okkazional söz yaradıcılığıdır. Məhz okkazionalizmlər şairin bir çox şeirlərində orijinal obrazlar yaratmağa xidmət edir"* [6, s.6]. *İdiolekt* termini "yalnız bir şəxsə aid olan dil forması" mənasındadır. Çox zaman *okkazional söz* və ya *fərdi-üslubi neologizm* terminləri ilə *idiolekt* termini üslubi neologizm probleminin şərhində inteqrasiya şəklində təhlil olunur. Çünki bu anlayışların qarşılıqlı münasibətləri üslubi neologizmlərin nəzəri aspektlərini izah etməyə imkan verir. D.V.Xalyavinanın fikrincə, "*poetik mətndə kreativ aspektin rolu insan qəlbini fəth edən vasitə kimi çox böyükdür*" [6, s.8]. Deməli, poetik mətn üslubi neologizmlərin işlənməsi üçün potensial bir sahədir, baxmayaraq ki, bəzən publisistik üslubda da üslubi neologizmlər yaranır. Məsələn: *"Həmin yazıları dərc edən saytların özlərinin qeyd etdiklərinə görə "bu ötürücülər" universitetimizin "bir qrup əməkdaş"larıdır. Buradakı "bir qrup" ifadəsi həqiqətə uyğundur, lakin "əməkdaş" sözü ilə razılaşmaq çox çətindir. Çünki həmin "bir qrup əməkdaş" sayı 550-dən çox olan professor-müəllim və 600-dən yuxarı tədris-köməkçi heyətin heç bir faizini də təşkil etmir. Ancaq bu kiçik "qrup" üzvlərinə ona görə "əməkdaş" demək olmaz ki, onlar yarıtmaz fəaliyyətinə görə vəzifədən uzaqlaşdırıldıqdan sonra müxtəlif saytlara "**xəbərdaşlıq**"*

edən böhtançılar, böyük kollektivin kiçik tör-töküntüləridir" [9]. Bu mətndə işlənən *xəbərdaşlıq* sözü üslubi neologizmdir**.** Ancaq publisistik üslubda yaranan üslubi neologizmlər bədii üslub qədər geniş funksional imkanlara malik deyil, çünki fərdi üslub məhz bədii üslubda daha çox funksional imkanlara sahibdir. Beləliklə, məhz daha çox bədii mətndə üslubi neologizmlərin müxtəlif aspektləri üzə çıxır. Publisistik mətnlərdə üslubi neologizmlər bədii mətnlərdə olduğu kimi ekspressivlik və emotivlik ifadə edə bilmir.

Müqayisə üçün göstəririk ki, rus dilçiliyində üslubi neologizmlər həm üslubiyyat baxımından, həm praqmatika baxımından, həm semantik sahə baxımından tədqiq edilmişdir. Yəni rus dilçiliyində üslubi neologizmlər müxtəlif nəzəri aspektlərdən tədqiq edilmişdir. Rus dilçiliyində ayrı-ayrı yazıçı və ya şairlərin yaradıcılığında işlənən üslubi neologizmlər müxtəlif terminlər adı altında tədqiqata cəlb edilmiş, bu mövzuya həm monoqrafiyalar, həm də dissertasiyalar həsr olunmuşdur. Məsələn, rus dilçiliyində bu mövzunu sistemli araşdıran tədqiqatçılardan biri olan Q.Vinokur "Mayakovski dilin novatoru" adlı kitabında yazır ki, "Mayakovski *всехный* sözünü "hamıya aid olan", *кладбишась* sözünü "kilsə formasında olan" mənalarında işlətmişdir [4, s.9]. Q.Vinokurun fikrincə, "*üslubi novatorluqla dil novatorluğu həm üst-üstə düşə bilər, həm də bəzən ayrı-ayrı hadisələr şəklində mövcud ola bilər. Eyni zamanda, üslubi novatorluq çox zaman dil novatorluğu yarada bilir*" [4, s.9]. Əlbəttə, bunlar düzgün fikirlərdir. Fərdi yaradıcılıq nə qədər özünəməxsusluğu ifadə edirsə, üslubi neologizmlər bu prosesdə bir o qədər aktiv rol oynayır. Üslubi novatorluğun ən mühüm elementlərindən biri məhz üslubi neologizmlərdir. N.Q.Babenko düzgün olaraq qeyd edir ki, "*okkazionalizmlərin yüksək səviyyədə bədiiliyi, estetik dəyəri onların mühüm mətnyaradıcı vasitə olmasında, istisna təşkil edən semantik həcmə malik olmasındadır*" [2, s.5]. Yəni üslubi neologizmlər bədii mətnin estetik dəyərini artırır, bir sözlə, bədiiliyi funksionallaşdırır.

Bədii ədəbiyyatda üslubi neologizmlər, ilk növbədə, bədii-estetik funksiya daşıyır. Üslubi neologizmlər həm standart qaydalarla yaranır, həm də bəzən dilin standart söz yaratma modellərinə uymur. Onlar bədii dilin obrazlılığını gücləndirir, çox zaman troplar kimi çıxış edir və bədii mətnin bütövləşməsinə xidmət edir. Məsələn, Mikayıl Müşfiq "Mədəni hücum" adlı şeirində yazır:

*"Kənardan gülərkən **alovgöz** bir mayaq,*
Bu daşğın sulardan bizlərə nə qorxu?
Qoy coşsun dalğalar, sən çalma əl-ayaq,
Həyatda mübariz bir ərə nə qorxu!" [1, s.41].

Mikayıl Müşfiq başqa bir şeirində – "Bizim otaqda" şeirində *yataqdaş* üslubi neologizmini işlədir:

"Qarışmışdır bir-birinə,
*Neçə nəfər **yataqdaş**,*
Həpsi fikir yürütmədə,
Hər dimağda bir təlaş" [1, s. 84].

Şair "Mənim dostum" adlı şeirində *qızılgöz* üslubi neologizmini işlədir:

"*Göylərdə lacivərd, əlvan buludlar,*
Yerlərdə meşələr, boylu palıdlar,
***Qızılgöz** ağaclar, dəmir ağaclar,*
Rəngin bir xalıya bənzər yamaclar" [1, s.236].

Bu misrada *qızılgöz* sözü epitet, yəni bədii təyin kimi çıxış edir. Beləliklə, bu müəllif sözü poetik mətnin özünəməxsusluğunu, bədiiliyini artırır və mətnin həm sruktur, həm də semantik bütövlüyünü təmin edir.

Üslubi neologizmlər həm də nitq faktı kimi çox dəyərlidir, çünki onlar fərdi nominativ funksiya daşıyır. Üslubi neologizmlər həm appelyativ, həm də emotiv, həmçinin referentiv funksiya yerinə yetirirlər. Onların əsas xüsusiyyətlərindən biri odur ki, onlar situativ mahiyyətlidir, müəyyən kontekstlə, yəni mətnlə bağlı olurlar, fərdi söz yaradıcılığının məhsulu kimi çıxış edirlər. Müxtəlif bədii mətnlər üzərindəki müşahidələr və tədqiqatlar göstərir ki, üslubi neologizmlərin poetik mətnlərdə tutduğu mövqe çox güclüdür [6, s.10]. Yəni həm publisistik, həm də elmi mətnlərlə müqayisədə bədii mətnlərdə üslubi neologizmlər struktur-semantik cəhətdən mühüm amil kimi çıxış edir. Onların bədii mətnlərdə funksional imkanları daha genişdir. Digər tərəfdən, adi neologizmlərdən fərqli olaraq, üslubi neologizmlər birbaşa aid olduqları mətnə bağlıdır.

Müqayisə üçün qeyd edək ki, əgər Azərbaycan ədəbiyyatında üslubi neologizmlər daha çox romantik ədəbiyyat, sərbəst üslub nümayəndələrinin (məsələn, R.Rzanın, M.Müşfiqin və s.) yaradıcılıqlarında müşahidə olunursa, ingilis dilində fantastik əsərlərdə və mətbuat dilində daha çox müşahidə olunur. Rus ədəbiyyatında isə üslubi neologizmlər daha çox futurist və simvolist yazıçı və şairlərin yaradıcılığında işlənir. Deməli, üslubi neologizmlərin işlənmə sferası ədəbi cərəyanlarla sıx bağlıdır. Ümumiyyətlə, üslubi neologizmlərin dil innovasiyaları səviyyəsində araşdırılması dildə baş verən yeniləşmə prosesini izləməyə imkan verir. Beləliklə, biz üslubi neologizmləri mətn kontekstindən nəzərdən keçirdik. Onların nəzəri aspektlərini öyrənərkən mətn nəzəriyyəsini gözardı etmək olmaz.

ƏDƏBİYYAT:

1. Müşfiq, M. Seçilmiş əsərləri / M.Müşfiq. – Bakı: Şərq-Qərb, – 2004. – 352 s.
2. Бабенко, Н.Г. Окказиональное в художественном тексте. Структурно-семантический анализ / Н.Г.Бабенко. – Калининград: Калининградский университет, –1997. – 84 с.
3. Белянин, В.П. Психолингвистические аспекты художественного текста / В.П.Белянин. – Москва: Издательство МГУ, – 1988. – 120 с.
4. Винокур, Г.О. Маяковский - новатор языка / Г.О.Винокур. – Москва: Советский писатель, –1943. – 136 с.
5. Гурцкая, Г.Б. Авторские новообразования Ф.А.Искандера: функциоонально-прагматический и структурно-семантический аспекты: / Автореф. дис. на соиск. ученей степени кандитата филол. наук. / – Майкоп, 2011.– 25 с.
6. Халявина, Д.В. Индивидуально - авторские новообразования в идиолекте в В.Каменского: Структурно - семантический и функционально-прагматический аспекты. / Автореф. дис. на соис. ученей степени кандитата филол. наук./ – Белгород, 2011. – 23 с.
7. Лотман, Ю. Структура художественного текста / Ю.Лотман. – СПб.: “Искусство – СПБ”, –1998. – 285 с.
8. Шмелев, Д.Н. Современный русский язык. Лексика / Д.Н.Шмелев. – Москва: Просвещение. – 1977.– 335 с.
9. www.tezadlar.az/.../12045-gnc-dvlt-unverstetnn-professor-m

Нармин АХУНДОВА

ТЕКСТООБРАЗУЮЩИЕ ВОЗМОЖНОСТИ СТИЛИСТИЧЕСКИХ НЕОЛОГИЗМОВ

РЕЗЮМЕ

В статье рассматриваются текстообразующие возможности стилистических неологизмов. Стилистические неологизмы отражают инновации в языке, поэтому их следует рассматривать как один из основных компонентов художественного текста. В современный период текст является объектом исследования как лингвистики, так и литературоведения и семиотики. Стилистические неологизмы играют особую роль в формировании художественного текста. Иными словами, как основные средства художественной выразительности они иногда создают метафоры и тропы как в поэзии, так и в прозе. Без них художественный язык выглядел бы весьма блеклым, поскольку своеобразие художественного текста реализуется именно посредством этих средств. Художественный текст прежде всего связан с формированием художественной речи. Художественная речь как одна из сфер речевой деятельности обладает специфическими особенностями. Речевой акт в письменной форме отражается в виде текста. Художественный текст в первую очередь является письменным проявлением художественной речи. В то же время текст является источником информации и одной из основных речевых единиц, служащих коммуникации. В тексте объединяются семантические, коммуникативные, экспрессивные и информативные функции языковых единиц.

Ключевые слова: *стилистический неологизм, текст, функция, экспрессивность, поэтичность.*

Narmin AKHUNDOVA

TEXT-FORMING POTENTIAL OF STYLISTIC NEOLOGISMS

ABSTRACT

The article discusses the text-forming potential of stylistic neologisms. Stylistic neologisms reflect innovations in language; therefore, they should be regarded as one of the main components of a literary text. In the modern era, the text has become an object of study not only in linguistics but also in literary studies and semiotics. Stylistic neologisms play a special role in the formation of a literary text. As expressive means that constitute the foundation of literary discourse, they sometimes create metaphors and tropes both in poetry and in prose. Without them, literary language would appear rather dull, since the uniqueness of a literary text is realized precisely through such devices. A literary text is primarily connected with the formation of artistic speech. Artistic speech, as a sphere of speech activity, possesses specific features. A speech act is reflected in written form as a text. A literary text is, first and foremost, the written manifestation of artistic speech. At the same time, the text serves as a source of information and is one of the main communicative units of speech. Within a text, the semantic, communicative, expressive, and informative functions of linguistic units are integrated.

Keywords: *stylistic neologism, text, function, expressiveness, poeticity*

Günay HÜSEYNOVA*

AZƏRBAYCAN DİLİNDƏ ARXAİZM VƏ NEOLOGİZMLƏRİN ÜSLUBİ XÜSUSIYYƏTLƏRİ (İLYAS TAPDIQ POEZIYASI ƏSASINDA)

XÜLASƏ

Məqalədə İlyas Tapdığın bəzən bilərəkdən alınmalardan, ağır ərəb, fars tərkiblərindən qaçaraq doğma dilimizin saf, diləyatımlı sözlərini məqamına uyğun işlətdiyi araşdırılmışdır.

Ədəbi dil normalarının pozulmasına səbəb olmayan, dilimizin müxtəlif şivə qruplarına aid olan bu leksik vahidlər şairin fərdi üslubunu daha da zənginləşdirdiyinin şahidi oluruq. İlyas Tapdığın uşaq şeirlərində müasir ədəbi dilin mövcud sözyaratma modellərinə uyğun olaraq fərdi- üslubi neologizmin maraqlı nümunələrini yaratdığını məqalədə göstərilmişdir. Məqalədə bu dil vahidlərinin bədii təsvir vasitəsi kimi yeni, həmçinin şairin dilinin emosional-ekspressiv gücünü daha da artırdığını görürük.

Dilin lüğət tərkibindən danışarkən tədqiqatçılar onda baş verən dəyişikliklərin iki istiqamətdə getdiyini qeyd edirlər: 1. Dildə müəyyən sözlərin arxaikləşməsi (arxaizmlər); 2. Yeni sözlərin yaranması (neologizmlər). Tarixi, ictimai-siyasi proseslərlə bağlı olaraq bəzi söz və ifadələr dildə öz işləkliyini itirir. Şübhəsiz ki, belə sözlərin dilin lüğət tərkibindən çıxması tədricən baş verir. Doğrudan da, sözlər dildən birdən-birə çıxa bilməz. Bəzi sözlər dilin lüğət tərkibindən çıxsa da, uzun müddət həmin sözlər müxtəlif lüğətlərdə, tarixi əsərlərdə qorunub saxlanır. Belə sözləri ayırd etmək asan olmur.

Yazıçı və şairlərin əsərlərində biz tez-tez köhnəlmiş sözlərə və neologizmlərə də rast gəlirik. Bu barədə danışarkən M. İslamzadənin fikrincə, "Bədii dildə arxaik sözlərdən bədii dilin üslub xüsusiyyətlərini vermək, tarixi kolorit yaratmaq, dövrün tarixi xüsusiyyətlərini real şəkildə əks etdirmək üçün istifadə olunur. Hər hansı yazıçı həyatın müəyyən tarixi dövrünü və o dövrdə yaşamış bu və ya digər surəti qabarıq vermək istədikdə dövrün müəyyən dil atributlarından bəhrələnir" [8,83]. Belə sözlərə İlyas Tapdığın uşaq şeirlərində az da olsa, rast gəlmək mümkündür. Nümunələrə diqqət edək:

"Aravuranı
Arı vurdu –
Girməsin

* Gəncə Dövlət Universiteti, baş müəllim, Email: gunay.huseinova@mail.ru

Arıxanaya!
Evdə qalıb
Tay olsun
Çuvala,
Barxanaya...” [10, 76].

Nümunədən də göründüyü kimi, burda şair “barxana” sözündən üslubi vasitə kimi, qafiyə məqamında istifadə edir. Bu sözün “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə ev əşyaları, yorğan-döşək, yatacaq, qıza verilən cehiz, bağlama, oğlan tərəfindən qız evinə aparılan meyvə sovqatı mənalarında işləndiyi qeyd edilir [2,40].

Digər bir nümunəyə baxaq:

“İgid, hünərvər
Oğullarıyla
Fəxr edir Vətən” [9, 56].

Şair nümunədə “hünərvər” sözündən istifadə edir. Bu söz “Azərbaycan dilinin izahlı lüğəti”ndə belə izah edilir: “Hünərvər” hünərli, mərifətli, məharətli, qüdrətli, ustad” [3, 410]. “Dildə sözlər birdən-birə arxaikləşmir, müəyyən müddət dildə onu əvəz edən sözlə bəzən müvazi işlənir” [6, 298]. Bu səbəbdən də bəzi sözlər zaman keçdikcə işləkliyini itirir və az işlənir. Bu tip sözlərə biz İlyas Tapdığın uşaq şeirlərində də rast gələ bilirik. Nümunəyə diqqətedək:

“Güntutar” yerlər
“Günəvər” oldu” [9, .25].

Gün düşən yer mənasını ifadə edən “günəvər” sözü artıq dilimizdə işləkliyini itirmişdir.
Digər bir nümunəyə diqqət edək:

“Hər dənəsi tütyədi.
Çiçəyindən çay dəmlə,
Meyvəsini qurut ye!”[10, 106].

Nümunədə işlədilən “tütyə” sözü “tutya” sözünün variantıdır. Bu sözün izahlı lüğətdə iki mənası verilir: “tutya is. [ər.] 1. köhn. Kimyəvi maddə – sink.

2. məc. Mövhumatçıların müqəddəs saydıqları hər hansı bir şey” [4,383]. Heç şübhəsiz, şair bu köhnəlmiş sözü məqsədli şəkildə işlətmişdir.

Artıq qeyd etdiyimiz kimi, İlyas Tapdığın uşaq şeirlərində köhnəlmiş sözlərə az rast gəlinir, amma sovet quruluşu ilə bağlı bəzi şeirlərdə işlənən sözlər hal-hazırda işləkliyini itirmiş və köhnəlmiş sözlərdir. Məsələn:

“Oktyabr bayramı
Sovet adamlarının
Güc-qüdrət bayramıdır!”[10, 126].

Şübhəsiz, bu nümunədə “sovet adamları” birləşməsi artıq köhnəlmiş ifadədir. Bu tip şeirlərə bütün sovet dövrü ədəbiyyatında rast gəlindiyi kimi, İlyas Tapdıq yaradıcılığında da rast gəlmək olur.

T. Əfəndiyevanın fikrincə, “dildə işləkliyini itirərək arxaizmlərə çevrilən sözləri tamamilə işlək olmayan sözlər hesab etmək də düzgün deyildir. Çünki bu tip sözlər köhnəlib işləkliyini itirsə də, dildən

tamamilə çıxmır, bu sözlərin ancaq işlənmə dairəsi məhdudlaşır. Bu isə o deməkdir ki, köhnəlmiş sözlər, yəni arxaizmlər dildə fəal iştirakdan məhrum olmuş, onun aktiv fondundan passiv fonduna keçmiş sözlərdən ibarətdir. Yəni dildə olan bu vahidlər bütün sahələrdə işlənməsə də, zaman-zaman müəyyən üslublarında istifadə edilə bilər. Belə ki, arxaizmlərə əsasən elmi üslubda (tarixi əsərlər) və bədii üslubda müraciət olunur"[7, 315].
Nümunələrə diqqət edək:

"Həm də niyə bu gün sən

Bürünmüsən
Qumaşa?" [10,160].

Verilmiş nümunədə "ipək, yun, kətan və s.-dən toxunmuş parça, ümumiyyətlə, parça, arşınmalı" [2, s.209] kimi izah edilən "qumaş" sözündən istifadə olunmuşdur. İlyas tapdığın uşaq şeirləri üçün daha aktual olan isə bu şeirlərdə işlənən neologizmlərdir. Dilçi alimlərin fikrincə, "fərdi üslubi yeniliklərin bədii əsərdə müxtəlif rolu ola bilər. Məlum məsələdir ki, hamı tərəfindən dönə-dönə, dəfələrlə işlədilən ifadələr, bir nov, avtomatikləşmiş olur, oxucunun diqqəti belə ifadələrin "səs cildi" üzərindən sürüşüb keçir. Deməli, oxucunun əvvəldən "tanıdığını" eşitməyə və işlətməyə adət etdiyi söz və ifadəyə ehtiyacı yoxdur" [1, 37]. Bu mənada İlyas Tapdığın uşaq şeirlərində xeyli sayda yeni sözlərə rast gələ bilirik.
Nümunələrə diqqət edək:

"Həvəsə bax yulğunda,
Bitib çay qumluğunda.
Payı bir az ilğımdı
Saçaq-saçaq kökləri
Suda buğum-buğumdu" [10,122].

Nümunədə şairin yulğun, qumluğ sözlərinə qafiyə olaraq işlətdiyi "ilğım" sözü dilimizdə artıq işləklik qazansa da, hələ də neologizm kimi qəbul olunmaqdadır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə bu söz "quru (susuz) çölllərdə buxarın yerə yayılıb uzaqdan su kimi görünməsi hadisəsi; sərab" kimi izah edilir[3, 528].
Başqa bir nümunəyə diqqət edək:

"Göydələnlər dayanıb
Səmanın yaxasında" [9, 37].

Nümunədə işlənən "göydələn" sözü də dilimizdə artıq qəbul edilən neologizmlərdəndir. Qeyd edək ki, bu söz orfoqrafiya lüğətində olsa da, izahlı lüğətə salınmayıb. İlyas Tapdıq yaradıcılığı üçün onun özünəməxsus sözləri də xarakterikdir. Bu sözlərin bir qismi xalq danışıq dilindən götürülsə də, bir qismi şairin öz təxəyyülünün məhsuludur. Bu tip fərdi neologizmlər Azərbaycan ədəbiyyatının "altımışıncılar"ı üçün xarakterik olduğu hamıya məlumdur. Məhz bu dövr şair və yazıçılarımız dilimizə bir sıra yeni sözlər gətirdilər. Alimlər bu qənaətə gəlir ki, "fərdi üslubi yeniliklərin müxtəlif rolu ola bilər. Fərdi neologizm başlıca olaraq belə bir cəhəti ilə səciyyələnir ki, adətən bu yenilik oxucunun diqqətini cəlb edir. Diqqəti cəlb edən yeni dil – nitq vahidləri oxucunun hissinə təsir edir, oxucunun dunyagörüşünü zənginləşdirir, söz-ifadə ehtiyatını artırır. Dərketmə qabiliyyətini yüksəltmək, bir sözlə, oxucunu öz fikrinə, əqidəsinə şərik edə bilmək, oxucunun müəllimi olmaq işində cox mühüm rol oynayır" [1, 350-351]. Məhz bu xüsusiyyətlər, yəni oxucunu özünə cəlb etmək, onu təəccübləndirmək, ona ana dilini sevdirmək İlyas Tapdıq yaradıcılığı üçün çox xarakterikdir. Şair bəzən dilimizdə olan sözə yeni çalar verir, dilin öz imkanları hesabına yeni bir söz yaradır. Məsələn:

"Yeldöyər səmtə
Çəkir daş hasar" [10, 102].

Məlum olduğu kimi, dilimizdə "yeldöyən" neologizmi işlənməkdədir. Bu söz "Azərbaycan dilinin izahlı lüğəti"nə salınmasa da, bir çox digər lüğətlərdə öz əksini tapmışdır. Maraqlı cəhət ondan ibarətdir ki, bu söz "yeldögən" şəklində "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə də işlənir. "Yeldögən" sözünün küləkdöyən mənasında Bakı dialektində işləndiyi qeyd edilir [2, 546]. Yəqin ki, bu söz elə dialektlərdən

ədəbi dilimizə keçmiş və son zamanlar işləklik qazanmışdır. Bu sözün ədəbi dilimizə keçməsində isə heç şübhəsiz, yazıçı və şairlərimizin böyük rolu olmuşdur. Bəzən bu tip sözlər qəzet və jurnallarda belə az işlənir.

Məsələn, "Azərbaycan qəzet dilinin tezlik lüğəti"ndə yelçəkən sözünün işləndiyi qeyd edilsə də, "yeldöyən" sözü qeyd edilmir [5,170]. İlyas Tapdıq isə bu sözü özünəməxsus şəkildə "yeldöyər" formasında işlətmişdir.

Bəzən şair hər hansı bir sözü başqa mənada işlətməklə onun semantikasını genişləndirir, yeni məna vermiş olur. Nümunəyə diqqət edək:

"Bir tikə xıltlı səslə
Nə çoxdur oxuyanlar" [10, 19].

Nümunədə işlənən "xıltlı" sözü müasir ədəbi dilimizdə işlənir və bu söz haqqında izahlı lüğətdə belə yazılır: "Xılt – 1. Hər hansı məhlulun, mayenin qabın dibinə çökən və ya ondan ayrılan lazımsız hissəsi. Yağın xıltı. Sirkənin xıltı. 2. məc. Olub keçmiş bir hadisədən, işdən sonra insanda iz buraxan xoşagəlməz, ağır hiss, təəssürat" [3, 457]. İlyas Tapdığın əsərlərində də bu tendensiya özünü göstərir. Şair xüsusən həftənin günləri ilə bağlı yeni adlar təklif edir. Nümunəyə diqqət edək:

"Bazar – dəyişib
Olsun günözü.
Dalınca gəlsin
Günəvvəl sözü.
Sonra – günertə
Sonra – günara
Sonra – günüstü,
Sonra – günarxa,
Sonra – günaltı" [9,27].

Göründüyü kimi, bu adların dəyişdirliməsi mümkün olmasa da, şairin verdiyi təklifdir. Purizmin bariz nümunəsi olan bu fikirlər təsdiq edir ki, İlyas Tapdıq alınma sözlərə qarşı olmuş və onların dəyişməsini məqsədəuyğun hesab etmişdir. İlyas Tapdıq digər bir şeirində həftənin günləri məsələsinə bir daha qayıdır və yeni adlar təklif edir. Şair yeni sözlər yaratmağa çalışmışdır. Bu baxımdan həftənin günlərini adı ilə bağlı fikirləri diqqəti cəlb edir. Görünür ki, həftənin günlərinin adlarının milli mənşəli olmaması daim şairi narahat edir:

"Bazar ertəsi
Yerinə: günbir,
Bu gün bazardan
Sonra ilk gündür.
Yaxşıdır ona
Ad qoyaq: Günbir.
Nədir – çərşənbə
Axşamı, axı,
Axşam deyil bu,
Adi gündü ki,
Yaxşıdır onun
Adı: güniki,

Çərşənbədənsə,
Məncə, nədənsə
Günüç asandır.
Cümə axşamı
Yerinə nolar
Gündörd yazanda,
Cümə pis deyil,

Say xatirinə
Günbeş yaxşıdır.
Günaltı olsun
Şənbənin adı.
Bazarımız var,
İşlədək bazar...” [9, 28].

Göründüyü kimi, şair həftənin günlərini onların sıra nömrələrinə uyğun adlandırmağı təklif edir, hesab edir ki, belə adlandırılarsa, bu adlar daha asan və yaddaqalan olar.Nəticə olaraq qeyd etmək lazımdır ki, İlyas Tapdıq şeirlərində arxaizmlər və neologizmlər üslubi bir vasitə kimi işlədilir. Şair eyni zamanda dövrün tələblərinə uyun olaraq bir çox alınmaları yeni sözlərlə əvəzləməyi təklif edir.

ƏDƏBİYYAT

1. Adilov, M. Məqalələr (1982-1994-cu illər): [10 cilddə] / M.Adilov. – Bakı: Elm və təhsil, - c. 10. - 2020, 456 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti / Redaktorlar: A.Axundov, Q.Kazımov, S.Behbudov. - Bakı: Şərq-Qərb, - 2007. - 568 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti / Redaktorlar: A.Axundov, Q.Kazımov, S.Behbudov. - Bakı: Şərq-Qərb, - 2007. - 568 s.
4. Azərbaycan dilinin izahlı lüğəti / Tərtibçilər: Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə. [4 cilddə] 4 c. - Bakı: Şərq-Qərb, - 2006. - 712 s.
5. Azərbaycan qəzet dilinin tezlik lüğəti / Tərtibçilər: K.Vəliyeva, M.Mahmudov, V.Pines. – Bakı: Nurlan, - 2004. - 264 s.
6. Babayev, A. Dilçiliyə giriş / A.Babayev. – Bakı: Zərdabi LTD, - 2012. - 516 s.
7. Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyeva. - Bakı: Elm və təhsil, - 2012. - 352 s.
8. İslamzadə, M. Azərbaycan “yeni nəsrinin” dili və üslubu / M.İslamzadə. - Bakı: Çaşıoğlu, 2008. - 240 s.
9. Tapdıq, İ. Qoçaq dovşan / İ.Tapdıq. - Bakı: Gənclik, - 1982. - 144 s.
10. Tapdıq, İ. Nağıllı ağaçalar / İ.Tapdıq. - Bakı: Gənclik, - 1985. - 188 s.

SUMMARY

The article examines how Ilyas Tapdigs sometimes deliberately avoids borrowings, heavy Arabic and Persian constructions, and uses pure, expressive words of our native language in accordance with its context. We witness that these lexical units, which do not violate the norms of the literary language and belong to various dialect groups of our language, further enrich the poet's individual style. The article shows that Ilyas Tapdigs creates interesting examples of individual-stylistic neologism in children's poems in accordance with the existing word-creation models of the modern literary language. In the article, we see that these language units are new as a means of artistic description, and also further increase the emotional-expressive power of the poet's language.

РЕЗЮМЕ

В статье рассматривается, как Ильяс Тапдыгын порой намеренно избегает заимствований, сложных арабских и персидских конструкций, используя чистые, выразительные слова родного языка в соответствии с контекстом. Мы видим, что эти лексические единицы, не нарушающие нормы литературного языка и принадлежащие к различным диалектным группам нашего языка, дополнительно обогащают индивидуальный стиль поэта. В статье показано, что Ильяс Тапдыгын создает интересные примеры индивидуало-стилистических неологизмов в детских стихах в соответствии с существующими моделями словообразования современного литературного языка. В статье мы видим, что эти языковые единицы являются новым средством художественного описания, а также дополнительно усиливают эмоционально-выразительную силу языка поэта.

İradə ARIXOVA*

TÜRKOLOJİ QURULTAY: İMLA PROBLEMİ

XÜLASƏ

Məqalədə XX əsrin əvvəllərində türk xalqlarının dil quruculuğu prosesində I Türkoloji qurultayda müzakirə olunan əlifba probleminin həlli əslində türk dillərində yazı sisteminin qaydaya salınması, vahidləşdirilməsi, orfoqrafik prinsiplərin elmi əsaslarla müəyyənləşdirilməsi məsələsini sürətləndirirdi. Azərbaycanda maarifçiliyin gücləndirilməsinə xeyli təkan verdi. Əslində əlifba probleminin həll olunması həm də imla probleminin aradan qaldırılması demək idi. Bunu akademik səviyyədə ingilis və Rus dillərinibne çevir

Açar sözlər: *Türkoloji qurultay, imla, əlifba, problem, inkişaf.*

XX əsrin əvvəllərini Azərbaycanda və eləcə də digər türk xalqlarının ictimai-siyasi və mədəni həyatında əsaslı dönüş mərhələsi adlandırmaq olar. Belə ki, bu dövrdə dil, əlifba və imla problemləri yalnız filoloji məsələ deyil, həm də maarifçiliyin və mədəni inteqrasiyanın əsas amillərindən biri idi. Həmin vaxtlar Azərbaycanın ictimai-mədəni həyatında ən öndə olan, ən zəruri məsələ kimi Azərbaycan maarifçiliyinin, elminin inkişafına mənfi təsir göstərən ərəb əlifbasının çətinlikləri, onun Azərbaycan dilinin fonetik quruluşuna uyğunsuzluğu, orfoqrafik pərakəndəliyin olması, orfoqrafiya və imla vahidliyinin olmaması, Azərbaycan dilində dərs keçirilən məktəblərin bağlanmasına, anadilli yeni tipli və elmi əsasların yaranmasına səbəb olurdu.

Azərbaycan xalqının bir sıra qabaqcıl ziyalıları N.Nərimanov, Ə.Haqverdiyev, C.Ağamalı oğlu, Ö.F.Neymanzadə, eləcə də türk dilləri ilə məşğul olan rus və Avropa alimləri ərəb əlifbasının türk dillərini düzgün əks etdirməyini dəfələrlə qeyd etmişlər.

Həmin dövrdə əlifba inqilabı Azərbaycanda və eləcə də digər türkdilli xalqlar arasında tərəqqimizə mane olan bütün əngəlləri parçaladı. Həmin vaxt Krımda, Türkmənistanda, Tatarıstanda, Qazaxıstanda, Başqırdıstanda yeni əlifbaya latın əlifbasına keçidlə bağlı bir sıra islahatlar aparıldı. S.A.Ağamalı oğlu deyirdi: "Buradan Krımdan, Türkmənistana, Tatarıstana, Qazaxıstana, Başqırdıstana gedəcəyik.....Osmanlı türkləri arasına da getmək istəyirik. Əlifba məsələsini bir yerdə həll etməyə onlar da razı olsa, münasib bir yerdə bir qurultay çağıracağıq. Qurultayda əlifba, imla məsələsini və başqa mədəni məsələlərimizi də həll edəcəyik" [4, 50].

İmlamızdakı çətinlikləri törədən səbəblər Mahmud bəy Mahmudbəyov 1911-ci ildə Bakıda çap etdirdiyi "İmlamız" adlı kitabda da göstərmişdir. [5, 105]

O yazırdı: "İmla məsələsi həm mühüm, həm də müşkül bir məsələdir. Mühümdür onun üçün ki, biçarə məktəblərimiz oxuduqları kitabların barəsində bir imlaya rast gəlir: hər müəllim bir imla çıxardıb şagirdlərini təlim edir, hər qəzetçi bir imla ilə yazır. Bu, bəs deyil, hər kəs öz imlasını səhih sanıb, özgələrinə də bu imla ilə yazmağı tövsiyə edir. Bu isə dilini ədəbi dil sanan qovma yaraşmaz bir halıdır. [5, 105]. M.Mahmudbəyov bununla demək istəyirdi ki, dilimizin ruhuna uyğun olan orfoqrafiyasını yaratmaq və onun qanunlarını axtarıb tapmaq lazımdır. Azərbaycanda orfoqrafiya, imla məsələləri müxtəlif dövrlərdə, hətta indinin özündə də müzakirə obyektinə çevrilmişdir. Yazımızın ərəb əlifbası ilə işləndiyi illərdə (1920-1929), latın qrafikası ilə olduğu illərdə (1929-1940), rus əlifbasıyla olduğu illərdə (1940-1990), yenidən latın qrafikasına keçid illərində (1991) orfoqrafiya problemləri müzakirə olunmuşdur [6,].

* BDU Qazax filialı, Email: iradearıxova66@gmail.com

Bundan bizə aydın olur ki, imlamızda olan problemli məsələləri həm əlifba, həm də vahid yazı qaydalarının prinsiplərinin olmaması ilə əlaqədardır. Hələ keçən əsrin ortalarında Mirzə Fətəli Axundov da imlamızda olan çətinliklərin aradan qaldırılmasını, ərəb əlifbasının dəyişdirilməsini də görürdü.Bütün bunların nəticəsi olaraq, 1926-cı ildə fevral ayının 26-da Ümumittifaq Şərqşünaslıq Cəmiyyətinin təşəbbüsü ilə Bakı şəhərində Səməd Ağamalı oğlunun sədrliyi ilə Türk Mədəniyyəti sarayında (indiki AMEA-nın binasında) Birinci Ümumittifaq Türkoloji qurultayı çağırıldı və mart ayının altısına qədər davam etdi. Bu qurultay ədəbi dilimizin, əlifbanın və orfoqrafiyanın islahı, imla problemləri, orta və ali məktəblərin bütün fənləri üzrə islahatlar, yaradılması kimi məsələləri də müzakirə etdi. Bu Türkoloji qurultayda 131 nümayəndə iştirak edirdi. Onlardan 93 nəfəri türk xalqlarından, 38 nəfəri isə digər xalqların nümayəndələri idi. Qurultayda Moskvadan 2, Leninqraddan 4, Ukraynadan 1, Tatarıstandan 2, Şimali Qafqazdan 2, Krımdan 2, Dağıstandan 2, Zaqafqaziyadan 2, Özbəkistandan 4, Başqırdıstandan 2 nəfər iştirak edirdi.

Qurultayın həll etmək olduğu məsələ əsasən ərəb əlifbasından latın əlifbasına keçmək məsələsi idi. Ən qızğın mübahisələrə səbəb olan əlifba islahatçıları tutduqları mövqeyə görə iki qismə bölündülər:

1. Latın əsası üzrə yeni əlifba;
2. İslah edilmiş ərəb əlifbası.

Böyük bir səslə, (yeddi səsə qarşı yüz bir səslə) latınçıların təklifi qələbə çaldı və aşağıdakı qətnamə qəbul olundu:

“Yeni latın əlifbasının ərəb əlifbası və islah edilmiş ərəb əlifbası üzərindəki üstünlüyünü və texnika asanlığını və habelə ərəb əlifbasına nisbətən yeni əlifbanın mədəni-tarixi cəhətdən və tərəqqi etibarilə son dərəcə böyük əhəmiyyətini nəzərə alaraq, Qurultay bütün türk-tatar xalqlarının və habelə başqa xalqlara bu islahatı öz aralarında keçirə bilmək üçün Azərbaycanın və Sovet İttifaqının başqa mahalları və Respublikanın təcrübə metodunu öyrənməyi tövsiyə edir”. [3, 305]. Ərəb əlifbası probleminin həll olunması həm də imla probleminin aradan qaldırılması demək idi. Vahid orfoqrafik sistemin olmaması, yazıda olan çətinliklərin olması, həmin dövrdə fonetik prinsipə əsaslanan imla qaydalarının yaradılması ideyasını gücləndirmişdi. Bu haqda Azərbaycan dilçilərindən B. Çobanzadə, "Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti" adlı məqaləsində yazırdı: "Qurultay ədəbi tələffüzlərin göz önündə tutulmasını və nəhayət, bütün türk-tatar şivələrinin ümumi xüsusiyyətlərinin əsas alaraq vahid birlik transkripsiyon, əlifbası meydana gətirilməsini tövsiyə etməklə fərdi, anarxiyalı, qaydasız və ölçüsüz imlanın qarşısına keçmək üçün ən əsaslı çarələri göstərmiş oldu. Azərbaycan, Tatarıstan, Özbəkistan kimi az-çox uzun bir maziyə malik ədəbiyyatı olan türk ölkələri üçün ədəbi tələffüz üzərində vahid imla yaratmaq qayət asan bir işdir. Yalnız burada iradə və norma, normativ fəaliyyət şərtdir” [2, 182].

Azərbaycan imlasında orfoqrafiya məsələsi Şərq ölkələrinin yeni əlifba sisteminə keçdikdən sonra daha da çox aktuallıq kəsb etmişdir. B.Çobanzadə orfoqrafiya kimi mühüm vahid bir məsələlərin dilin daha ətraflı araşdırılmasından çox asılı olduğunu göstərirdi. Aydındır ki, xarakterik xüsusiyyətlərinə görə texniki cəhətdən təkmilləşmiş əlifbaya malik olmadan imla, orfoqrafiya, sonra isə terminologiya məsələsini heç vaxt həll etmək olmazdı. Bu məsələnin həlli bir tərəfdən qrafikaya əsaslanırsa, digər tərəfdən isə dilçilik məsələsinə də əsaslanır. Əsas məqsəd fonetik prinsipə əsaslanan sadə elmi və vahid imla sisteminin yaradılması idi. Bu isə türk xalqları arasında elmi əməkdaşlığı və ortaq qərarların qəbulunu zəruriləşdirirdi.

Qurultayda yazı sisteminin elmi əsaslarla yenidən qurulması haqqındakı müzakirələrdə daha çox aşağıdakı məsələlər xüsusi yer tuturdu.

1. Fonetik prinsipin əsas götürülməsi;
2. Saitlərin tam və aydın ifadəsi;
3. Morfoloji və tarixi prinsiplərin imlada tətbiqi və orfoqrafik vahidliyin təmin olunması.

Mənalı nitq vahidlərinin fonetik tərkibini yazıda eyni ilə əks etdirmək üçün fonetik prinsip ən ideal prinsip hesab edilə bilər. Bu prinsipə görə sözün yazılışı onun orfoepiyası ilə müəyyənləşir. Yəni nitq vahidi olan söz yazıda necə əks olunursa, o cür də tələffüz edilir. Bu prinsipdən istifadə etmək nəinki Azərbaycan, eləcə də digər türk dilləri üçün də əlverişlidir. M.F.Axundovun müasirləri Azərbaycan orfoqrafiyasında fonetik prinsipi uzun müddət müdafiə etmişlər. Orfoqrafiyada bu prinsipləri ona görə müdafiə etmişdirlər ki, bu prinsip digər dillərdən əsasən də, ərəb-fars dillərindən keçən alınmaların alan dilin lüğət tərkibində qaynayıb qarışmasına mühüm təsir göstərmiş, alınma sözlərin əlverişli orfoqrafik və orfoepik qayda qanunlarla sabitləşməsində, unifikasiyasında, asan mənimsənilməsində, bunların vərdişə çevrilməsində bu prinsip düzgün istiqamət vermişdir.

İkincisi, bu prinsip asan mənimsənilən alınma leksik-terminoloji vahidləri isə xalqın intensiv savadlanmasına imkan və şərait yaradır. Beləliklə, Azərbaycan orfoqrafiyada fonetik prinsipin qeyd olunan xüsusiyyətləri nəzərə alınaraq onun yeganə prinsip olduğu Türkoloji qurultayda da öz müsbət həllini tapdı.

Qurultay həmin dövrədək orfoqrafiyanın elmi istiqamətləndirici prinsipləri haqqında gedən söz-söhbətə ədalətlə yekun vurdu. Öz haqlı qərarı ilə imlada orfoqrafiyamızın elmi prinsiplərini daha düzgün müəyyənləşdirdi. Azərbaycan imlasında fonetik prinsipin möhkəmlənməsi, sözlərin yazılışında sabitliyin yaranması, səs və hərf uyğunluğunun təmin edilməsi, vahid orfoqrafiya qaydalarının hazırlanması, ərəb-fars mənşəli sözlərin yazılışında sadələşdirilmə prosesini həyata keçirmək işini daha da sürətləndirdi. Beləliklə, birinci Türkoloji Qurultay imla problemini elmi səviyyəyə çıxararaq onun sistemli şəkildə həllinin zəmin yaratdı.

ƏDƏBIYYAT

1. A.Axundov "Dil və ədəbiyyat -1". Bakı, 2003.
2. A.Babayev Azərbaycan dilçiliyinin tarixi. Bakı, 2015.
3. A.Abdullayev, "Azərbaycan dilinin tədrisi tarixindən" Bakı, 1966.
4. Ə.Z. Abdullayev, "Azərbaycan dili məsələləri" Bakı 1992.
5. N.Ə.Abdullayev "Orfoqrafiya və orfoepiya təlimi məsələləri" Bakı, 2008.
6. İ.Arıxova, "Orfoqrafiya məsələləri" Bakı, 2021.

SUMMARY

In the early twentieth century, during the process of language construction among the Turkic peoples, the resolution of the alphabet issue discussed at the I Turkological Congress effectively accelerated the regulation and unification of writing systems in Turkic languages, as well as the establishment of orthographic principles on a scientific basis. In Azerbaijan, this development provided substantial impetus to the strengthening of enlightenment and educational reforms. In essence, the resolution of the alphabet problem also signified the elimination of orthographic inconsistencies.

Keywords: *Turkological Congress, orthography, alphabet, problem, development.*

РЕЗЮМЕ

В начале XX века в процессе языкового строительства тюркских народов решение алфавитного вопроса, обсуждавшегося на I Turkological Congress, фактически ускорило упорядочение и унификацию письменных систем тюркских языков, а также определение орфографических принципов на научной основе. В Азербайджане это придало значительный импульс развитию просвещения и образовательных реформ. По существу, решение алфавитной проблемы означало также устранение орфографических трудностей.

Ключевые слова: *Тюркологический съезд, орфография, алфавит, проблема, развитие.*

MÜNDƏRİCAT

Nadir MƏMMƏDLİ
I TÜRKOLOJİ QURULTAYDAN ÖNCƏ – TARİXİ KONTEKST..... 3

Baba MƏHƏRRƏMLİ
I TÜRKOLOJİ QURULTAYIN TARİXİ ÖNƏMİ 7

Möhsün NAĞISOYLU
BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN ÜZDƏ OLAN
MƏSƏLƏLƏRİ VƏ GİZLİ MƏQAMLARI 9

Mahirə HÜSEYNOVA
I TÜRKOLOJİ QURULTAYIN 100 İLLİK TARİXİNİN İLK MƏRHƏLƏSİ 14

Əbülfəz QULİYEV
MƏHƏMMƏD AĞA ŞAHTAXTLININ YENİ ƏLİFBA LAYİHƏSİ İLƏ BAĞLI
YAZDIĞI BİR MƏQALƏ HAQQINDA 20

Aynel MEŞADİYEVA
GELECEK ZAMAN SIFAT-FİİLLERİNİN İŞLEVSEL DÖNÜŞÜMÜ ÜZERİNE
KARŞILAŞTIRMALI BIR İNCELEME 24

Sevil MEHDİYEVA
I TÜRKOLOJİ QURULTAYDA TÜRK DİLLƏRİNİN ƏDƏBİ DİL MƏSƏLƏSİ
(Azərbaycan dili materialları əsasında – M. Füzulinin dili) 30

İsmayıl KAZIMOV
I TÜRKOLOJİ QURULTAYIN TÜRKOLOGİYANIN SONRAKI İNKİŞAFINA TƏSİRİ.....34

Sayalı SADIQOVA
BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA TERMİN
YARADICILIĞI PROSESİNİN İSTİQAMƏTLƏRİ 39

İlhami CƏFƏRSOY
AVRASİYANIN QƏDİM XİVƏ, SAMARA VƏ BUXARA ŞƏHƏRLƏRİ 44

Nərgiz HACIYEVA
QƏZET BAŞLIQLARININ XÜSUSİYYƏTLƏRİ..... 51

Kifayət İMAMQULİYEVA
1920-1930-CU İLLƏRDƏ AZƏRBAYCAN
TÜRK XALQ ŞİVƏLƏRİNİN FONETİK TƏDQİQİ.....55.

Şükrü Halûk AKALIN
BİRİNCİ TÜRKOLOJİ KURULTAYI'NIN MİRASI:
TÜRKOLOJİDE SAYISAL DÖNÜŞÜM..... 60

Nigar VALİYEVA
THE CENTENARY ANNIVERSARY OF THE FIRST CONGRESS OF TURKOLOGISTS:
HISTORICAL LEGACY AND CONTEMPORARY SIGNIFICANCE 67

Könül HƏSƏNOVA
POEZİYANIN TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏRİ QATINDA QƏNAƏT QANUNUNUN
ANLAMA MODELLƏRİ 71

Aynur PAŞAYEVA
AZƏRBAYCAN-TÜRK ƏDƏBİ DİL SİSTEMİNDƏ FONETİK UYĞUNLUQLAR (XV ƏSR) 76

Gülarə ƏMİROVA
I TÜRKOLOJİ QURULTAYDAN MÜASİR DÖVRƏ: ORFOQRAFİYA NORMALARININ
TƏTBİQİ VƏ AKTUAL PROBLEMLƏR 81

Fizuli MUSTAFAYEV
KİNO DİLİNDƏ SİNTAKTİK ÜSULLA YARANAN
ONOMASTİK VAHİDLƏR 86

Natavan HUSEYNOVA
ON THE PROCESS OF LATINIZATION OF THE ALPHABET IN AZERBAIJAN 92

Mayıl ƏSGƏROV
Sevinc İSMAYILOVA
TÜRKDİLLİ RESPUBLİKALARDA DİLİN PSİXOLOJİ PROBLEMLƏRİNİN TƏDQİQİ 97

Svetlana NOVRUZOVA
TÜRKOLOJİ QURULTAYIN TARİXİ VƏ ELMİ ƏHƏMİYYƏTİ:
ƏLİFBA, ORFOQRAFİYA VƏ ƏDƏBİ DİLİN FORMALAŞMASI 101

Şəlalə ANA HÜMMƏTLİ
BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TÜRK DÜNYASININ MÜMTAZ OĞLU
SALMAN MÜMTAZ..... 105

Elçin İSMAYILOV
AZƏRBAYCAN TOPONİMLƏRİNİN QORUNMASININ LİNQVİSTİK ƏSASLARI..... 110

Tarıyel AZƏRTÜRK
BƏZİ MİXİ YAZILI “DİLLƏR”
TÜRK DİLİNİN SUBSTRATLARI KİMİ: AQQLÜTİNAİIVLİK ƏSASINDA QÜSURLU
KLONLAŞDIRMA KONSEPSİYASI 114

Firudin RZAYEV
İLK TÜRKOLOJİ QURULTAYIN AZƏRBAYCANDA KEÇİRİLMƏSİNDƏ
RUS SİYASİ MƏQSƏDİ 119

Zülfiyyə İSMAYIL
C.MƏMMƏDQULUZADƏNİN DİL BAXIŞLARI VƏ I TÜRKOLOJİ QURULTAYDAKI DİL
MÜZAKİRƏLƏRİ: TARİXİ VƏ ƏDƏBİ PARALELLƏR..... 125

Xədicə HEYDƏROVA
HÜMAY/UMAY ARXETİPİ: TÜRK MİFOLOJİ
KÖKÜNDƏN TƏSƏVVÜFİ ALLEQORİYAYA 130

Qüdsiyyə QƏMBƏROVA
CÜMLƏNİN DETERMİNANT ÜZVLƏRİ. XÜSUSİLƏŞMİŞ ÜZVLÜ CÜMLƏLƏR 133

Zəkiyyə ƏBİLOVA
YUSİF XARƏZMİNİN “MƏFATİHUL – ÜLUM” ƏSƏRİNDƏ DİLÇİLİK MƏSƏLƏLƏRİ..... 138

Rübabə ŞİRİNOVA
XV ƏSRİN DİVAN ŞAİRİ YUSİF DÖVLƏTOĞLU 143

Sevil ABBASOVA (İRƏVANLI)
FİN TÜRKOLOG ALTAYİST GUSTAF JOHN RAMSTEDT (1873-1950) 150

Pərvin EYVAZOV
PROFESSOR BƏKİR ÇOBANZADƏ
MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN DİLİ HAQQINDA..... 153

Səadət VAHABOVA
CƏLİL MƏMMƏDQULUZADƏNİN DİL KONSEPSİYASI VƏ I TÜRKOLOJİ QURULTAYA APARAN İDEOLOJİ YOL..... 157

Nuray ƏLİYEVA
I TÜRKOLOJİ QURULTAYIN QƏTNAMƏLƏRİ 162

Mehriban ƏSƏDULLASOY
MAARİFÇİ DEMOKRATLARIN ƏLİFBA VƏ ANA DİLİ MÜBARİZƏSİ 168

Heydar GULIYEV
THE PROBLEM OF MEANING AND SENSE IN DISCOURSE: LINGUISTIC AND PSYCHOLOGICAL ASPECTS 172

MƏHƏRRƏM MƏMMƏDLİ
BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TÜRKOLOGİYANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ 176

Tofiq ƏBDÜLHƏSƏNLI
I TÜRKOLOJİ QURULTAYDA TÜRK DÜNYASI ÜÇÜN ORTAQ ƏDƏBİ DİL İDEYASININ NƏZƏRİ KONSEPSİYASI..... 179

Yadigar ƏLİYEV
1930-cu İLLƏR MƏTBUATINDA ALINMA LEKSİK VAHİDLƏR 183

Qətibə MAHMUDOVA
TÜRKMƏNİSTAN NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI–BEKKİ EMİR OĞLU BERDİYEV VƏ ONUN YENİ ƏLİFBA MÜZAKİRƏLƏRİNDƏ MÖVQEYİ 1..... 187

Şəbnəm HƏSƏNLİ-QƏRİBOVA
TEODOR MENZEL VƏ BİRİNCİ TÜRKOLOJİ QURULTAY..... 191

Qətibə QULİYEVA
I TÜRKOLOJİ QURULTAYDA TÜRK DİLLƏRİNİN TARİXİ VƏ QƏDİM YAZILI ABİDƏLƏRİN TƏDQİQİNƏ ELMİ-METODOLOJİ YANAŞMA 196

Ləman HƏSƏNOVA
BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ƏHMƏD BAYTURSUNOVUN TERMİNOLOJİ BAXIŞLARI 202

Zəminə RÜSTƏMBƏYLİ
ORTA ƏSRƏ AİD TÜRKDİLLİ DİNİ TƏRCÜMƏ ƏDƏBİYYATI NÜMUNƏSİ "SİYƏRÜN-NƏBİ" ƏSƏRİ 206

Validə CƏFƏRZADƏ
MUSTAFA ZƏRİRİN "FÜTUHÜŞ-ŞAM" VƏ "SİYƏRÜN-NƏBİ" ƏSƏRLƏRİNDƏ QADIN OBRAZLARI: TARİXİ HƏQİQƏTDƏN BƏDİİ TƏSVİRƏ..... 209

Hüsniyyə ÇOBANOVA
BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİ:
TARİXİ, ELMİ ƏHƏMIYYƏTİ VƏ MÜASİR PERSPEKTİVLƏR..... 216

Dilbər BƏŞİROVA
HUMANİTAR SAHƏLƏRDƏ MÜASİR TERMİNLƏRİN
AZƏRBAYCAN DİLİNƏ ADAPTASİYASI 220

Zülfiyyə MUSAVİ
XARİCİ DİLDƏ TƏHSİL ALAN UŞAQLARDA AZƏRBAYCAN DİLİNİN MƏNİMSƏNİLMƏSİ
PROBLEMLƏRİNƏ PSİXOLİNQVİSTİK YANAŞMALAR..... 224

Aytən BƏYLƏROVA
BƏDİİ MƏTNLƏRDƏ KONNOTATİV LEKSİKANIN FUNKSİYALARI 229

Elnarə ƏLİYEVA
BƏKİR ÇOBANZADƏNİN DİLÇİLİK İRSİNDƏ TERMİN MƏSƏLƏSİ 233

Məsmə ZÖHRAB-MƏCİD
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN SÖZ YARADICILIĞI PROSESİNDƏ
TOPONİMLƏRİN ROLU 238

Şahnaz KAMALOVA
АНАЛИЗ ВЫРАЖЕНИЯ ОБСТОЯТЕЛЬСТВА ЦЕЛИ В ЯЗЫКЕ ДРЕВНЕТЮРКСКИХ
РУНИЧЕСКИХ ПАМЯТНИКОВ И В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ..... 243

Türkan ASKEROVA
AZERBAYCAN EDEBİ DİLİNDE TÜRKÇE KÖKENLİ EKLER KULLANILARAK MORFOLOJİK
SÖZCÜK OLUŞUMUNUN SÖZCÜKSEL-YAPISAL ANALİZİ 249

Aysel ƏHMƏDOVA
BUDDİZM MƏZMUNLU QƏDİM UYĞUR ABİDƏLƏRİNDƏ QOŞMALAR 252

Həbib MİRZƏYEV
SÖZÜN SEMANTİK İNKİŞAFINDA MƏCAZLARIN ROLU
(HÜSEYN ARİF POEZİYASININ MATERİALLARI ƏSASINDA) 256

Salatın ƏHMƏDOVA
SƏMƏDAĞA AĞAMALIOĞLUNUN TÜRKÇÜLÜK İDEYALARI VƏ YENİ ƏLİFBA
KOMİTƏSİNİN FƏALİYYƏTİ 261

Yaşar QASIMBƏYLİ
PROF. B.ÇOBANZADƏ VƏ ÖZBƏKİSTAN TÜRKŞÜNASLIĞI
(PROF. BƏKİR ÇOBANZADƏNİN HƏYATI VƏ YARADICILIĞININ
ƏSAS MƏRHƏLƏLƏRİ) 264

Nigar HƏSƏNOVA
TÜRK DILLƏRININ ORTAQ DIL VƏ TƏRCÜMƏ MƏSƏLƏLƏRINƏ DAİR.....269

Zəhra RZAZADƏ
AZƏRBAYCAN DİLİ:AZƏRBAYCAN DİLİNİN TARİXİ.....273

Zivər HÜSEYNLİ BAYLAN
I BAKI TÜRKOLOJI QURULTAYI VƏ MÜASIR KORPUS DILÇILIYI 277

Səbinə VƏLİYEVA
AZƏRBAYCAN DİLİNDƏ ƏDATLARIN SİNTAKTİK FUNKSİYASI 283

Sima QULİYEVA
AZƏRBAYCAN DİLİNİN LEKSİK SİSTEMİNDƏ TEXNİKİ TERMİNLƏRİN YERİ VƏ İNKİŞAF DİNAMİKASI 288

Namaz MANAFOV
I TÜRKOLOJİ QURULTAY VƏ RADLOV – SAMOYLOVİÇ XƏTTİ:
AZƏRBAYCAN DİLİNİN ELMİ TƏSNİFATİ 292

Təhminə İSMAYILOVA
BƏXTİYAR VAHABZADƏ POEZİYASININ LEKSİK-SEMANTİK SİSTEMİ 296

Nəzakət QAZİYEVA
I TÜRKOLOJİ QURULTAY: DİLDƏ ZAMANIN TƏLƏBİNDƏN DOĞAN
TƏTBİQİ PROBLEMLƏR..... 301

Vəfa ABDULLAYEVA-NƏBIYEVA
1926-CI İL BAKI TÜRKOLOJİ QURULTAYI: DİL MƏSƏLƏLƏRİNİN LİNQVOKULTUROLOJİ TƏHLİLİ 305

Pərvin BAYRAMOVA
EFFEKTİV ÜNSİYYƏTİN XÜSUSİYYƏTLƏRİ 309

İmanyar QULİYEV
“KODEKS KUMANİKUS”UN STRUKTUR VƏ MƏZMUN XÜSUSİYYƏTLƏRİ 313

Arzu İSGƏNDƏRZADƏ
BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TÜRKOLOGİYA ELMİNƏ TÖHFƏLƏRİ.....317

Ülkər MİRZƏYEVA
QAFQAZ ALBANİYASI XORONİMİNİN YUNAN MƏNBƏLƏRİ ƏSASINDA LİNQVİSTİK ETİMOLOJİ TƏHLİLİ..... 322

Aytən HÜSEYNOVA-QƏHRƏMANLI
I TÜRKOLOJİ QURULTAYDA TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ:
100 İL ƏVVƏL VƏ SONRA..... 326

Mətanət ƏMRAHOVA
AZƏRBAYCAN DİLİNDƏ MƏTNİN STRUKTURU VƏ SƏRHƏDLƏRİNİN MÜƏYYƏNLƏŞMƏSİNƏ DAİR GÖRÜŞLƏR 330

Sevinc ŞÜKÜRLÜ
ELLİPTİK KONSTRUKSİYALARIN STRUKTUR-SEMANTİK VƏ PRAQMATİK XÜSUSİYYƏTLƏRİ..... 335

Gülnar İSMAYILOVA
YUNUS ƏMRƏ VƏ QAZI BÜRHANƏDDIN "DIVAN"LARINDAKI
TOPONIMLƏRIN SEMANTIK-SIMVOLIK XÜSUSIYYƏTLƏRI 339

Aytən HEYDƏROVA-BAĞIROVA
MÜASİR DÖVRDƏ AZƏRBAYCAN DİLİNİN LEKSİK İNKİŞAF XÜSUSİYYƏTLƏRİ.....343

Xanımbacı MƏLİKZADƏ
MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ İRSİNDƏ ANA DİLİNƏ MÜNASİBƏT 347

Təranə ŞÜKÜRLÜ
TÜRK DİLLƏRİNDƏ FONOLOJİ QARŞILAŞMALAR 352

Pərvanə TEYYUBOVA
I TÜRKOLOJİ QURULTAYA APARAN İDEYA MÜHİTİNDƏ DİL VƏ MAARİFÇİLİK
MƏSƏLƏLƏRİ 356

Maral YUSUBOVA
İNGİLİZ DİLİNDE YAZMA SÜRECİNİN AŞAMALARI 360

Rəxşanə BABAZADƏ
DÜZƏLTMƏ SÖZLƏRDƏ AYRILAN MƏNALAR
(Azərbaycan və Türkiyə türkcələri əsasında).....363

Aytən ƏHMƏDOVA
"DASTANİ- ƏHMƏD HƏRAMİ" POEMASINDA SAYLARIN ÜSLUBİ
XÜSUSİYYƏTLƏRİ 368
Prof. Dr. Funda TOPRAK

TÜRK DİLLERİNDE "UR- ~ ÜR-" FİİLERİNDE FARSÇA KOPYALAMA ETKİSİYLE OLUŞAN
KARIŞMALAR 371

Həcər HÜSEYNOVA
I TÜRKOLOJİ QURULTAY BÖYÜK TARİXİ HADİSƏ KİMİ 375

Zülfiyyə QULİYEVA

AŞIQ YARADICILIĞINDA MİFONİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 380

Gültəkin ƏLİYEVA
AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ PREDİKATİV NÜVƏNİN QURULUŞUNA
ƏSASLANAN CÜTTƏRKİBLİ CÜMLƏLƏRİN TİPOLOGİYASI 384

Ramilə SÜLEYMANOVA
I TÜRKOLOJİ QURULTAY ƏRƏFƏSİNDƏ NƏŞR EDİLMİŞ
ƏLİFBA DƏRSLİKLƏRİNİN DİLİ.....389

Sədaqət CUMAYEVA
TÜRKOLOJİ QURULTAYIN 100 İLLİYİ KONTEKSTİNDƏ
ALMAN DİLİ İLƏ ƏLAQƏLİ DİL PROBLEMLƏRİ 393

Fərrux RÜSTƏMOV
BİRİNCİ ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYDA "TÜRK XALQLARININ ƏLIFBA
SISTEMLƏRİ HAQQINDA" MƏRUZƏNİ KİM EDİB: CƏLİL MƏHƏMMƏDZADƏ, YOXSA
CABBAR MƏHƏMMƏDZADƏ?..... 395

Vəfa ALLAHVERDİYEVA
ETİK KONSEPTLƏRİN FRAZEOLOJİ TƏCƏSSÜMÜ
(MƏTNLƏR ÜZƏRİNDƏN LİNQVOKULTUROLOJİ TƏHLİL NÜMUNƏLƏRİ) 400

Firengiz PAŞAYEVA YUNUS
ELMİN NƏZARƏT ALTINDA OLMASI: I BAKI TÜRKOLOJİ QURULTAYININ (1926)
STENOQRAMLARINDA DİSKURSİV HAKİMİYYƏT MEXANİZMLƏRİ 404

Aynur HƏSƏNOVA
MÜASİR MEDİA DİLİNDƏ ALINMA SÖZLƏR: XƏBƏR SAYTLARININ
MATERİALLARI ƏSASINDA TƏHLİL..... 409

Belgin Tezcan AKSU
BİRİNCİ TÜRKOLOJİ KURULTAYI'NDAN BUGÜNE
TÜRKÇEDE ALINTI KELİMELERİN YAZIM SERÜVENİ 413

Aynur SAYDOVA
I TÜRKOLOJİ QURULTAYDAN SONRA AZƏRBAYCANDA LATIN ƏLİFBASI
("AZƏRBAYCAN TÜRK XALQ ŞİVƏLƏRİ LÜĞƏTİ" ƏSASINDA)..... 420

Rüxsarə MƏMMƏDOVA
"KƏNZÜL-İRFAN" ƏSƏRİNDƏ DƏSTƏMAZ AYƏSİNİN LİNQVİSTİK TƏHLİLİ VƏ ONUN
TÜRKDİLLİ TƏFSİR ƏNƏNƏSİNƏ TƏSİRİ..... 424

Məsməxanım QAZIYEVA
ƏDƏBİ DİL VƏ NİTQ MƏDƏNİYYƏTİ 428

Kəmalə ƏLƏKBƏROVA
BÖYÜK FƏDAKARLIĞIN ƏKSİ – BİRİNCİ BAKI TÜRKOLOJİ QURULTAYI..... 431

Şəkər ORUCOVA
AZSAYLI ALTAY VƏ SİBİR ETNOSLARINA DAİR..... 435

А.Ж. КЕНЖЕБАЕВА
М.К. АХМЕТОВА
ЭТНОЛИНГВИСТИЧЕСКИЕ КОНЦЕПЦИИ В КАЗАХСКОМ ЯЗЫКОЗНАНИИ 440

Bəturə ƏLİYEVA
MORFOLOJİ EKSPONENSİYANIN ƏSAS PRİNSİPLƏRİ..... 446

Xatirə KƏRİMOVA
I TÜRKOLOJİ QURULTAY KONTEKSTİNDƏ
MİRZƏ KAZIMBƏYİN XIX ƏSR TÜRKOLOJİ DİLÇİLİKDƏ ROLU..... 450

Nigar SEYİDOVA
TÜRK DİLLƏRİNDƏ SÖZ MƏNASININ GENİŞLƏNMƏSİ VƏ DARALMASI
PRAQMATİK VƏ KOQNİTİV ASPEKTLƏRDƏ 454

Nigar NAĞIYEVA
YAZILI DANIŞIQ DİLİNDƏ NORMALARIN POZULMASI VƏ EKPRESSİV VASİTƏLƏRİN
XÜSUSİYYƏTLƏRİ 459

Həcər ABDULLAYEVA
EMOTIONAL LEXICAL-SEMANTIC DEVICES IN NEWS COVERAGE OF COP29 IN ELECTRONIC MASS MEDIA..... 463

Ayşən İSMAYILLI
FÜZULİ RAYONUNUN MİKROTOPONİMLƏRİ 470

Fatimə FƏTULLAYEVA
BİRİNCİ TÜRKOLOJİ QURULTAY PRİZMASINDA YENİ ƏLİFBA İSLAHATI 474

Minaxanım NURİYEVA TƏKLƏLİ
I TÜRKOLOJİ QURULTAYIN ÇAĞIRIŞLARI: “I SOVET-TÜRK KOLLOKVİUMU”..... 479

Jalə İLYASOVA
ŞƏKİ ETNOTOPONİMLƏRİ: DİL VƏ MƏDƏNİYYƏT KONTEKSİNDƏ..... 483

Xəyal ƏSGƏRLİ
KARAİMLƏR VƏ ONLARIN DİLİ: TƏDQİQAT PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏR 487

Rəna ƏKBƏRLİ
İMADƏDDİN NƏSİMİNİN DİVANINDA İŞLƏNƏN FARS MƏNŞƏLİ SİFƏTLƏR.....491

Qubad CƏBRAYILOV
OĞUZ QRUPU TÜRK DİLLƏRİNDƏ (AZƏRBAYCAN VƏ TÜRKİYƏ TÜRKCƏSİ ÜZRƏ) İSMİN HAL KATEQORİYASININ STRUKTUR VƏ TARİXİ İNKİŞAFI..... 495

Könül EYVAZOVA
TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNİN ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN BƏZİ ORTAQ FRAZEOLOGİZMLƏR HAQQINDA 497

Kəmalə ƏLİYEVA
I TÜRKOLOJİ QURULTAY VƏ ANA DİLİNİN TƏDRİSİ METODİKASI: TƏKLİF VƏ NƏTİCƏLƏR..... 501

Könül AYDIN
AXISQA TÜRK DİLİNDƏ ETNOMƏDƏNİ LEKSİKANIN XÜSUSİYYƏTLƏRİ 506

Şövkət NADİROVA
ORTA ƏSR YAZILI ABİDƏLƏRİNDƏ OMONİM VƏ ÇOXMƏNALILIQ 509

Zibeydə QULİYEVA
İRAQ-TÜRKMAN LƏHCƏSİNƏ MƏXSUS BƏZİ FRAZEOLOGİZMLƏRİN AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ511 513

Ayshan GASIMOVA MUSTAFAYEVA
SYNTACTIC REPETITIONS IN RAMIZ ROVSHAN'S PROSE LANGUAGE 515

Səbinə ƏLİYEVA
KAŞĞARİNİN “DİVAN”INDA İSİMLƏRİN CƏMLƏNMƏ XÜSUSİYYƏTLƏRİ 519

Nuranə HÜSEYNOVA
ETİMOLOJİ ARAŞDIRMALARDA NƏZƏRİ MÜDDƏALAR VƏ PRİNSİPLƏR 523

Nərgiz MUSAYEVA
EKOLİNQVİSTİKANIN NƏZƏRİ BAZASI..... 528

Fəridə HEYBƏTOVA
CƏLİL MƏMMƏDQULUZADƏNİN ƏSƏRLƏRİNİN DİLİNDƏ FONETİK HADİSƏLƏR (ASSİMİLYASİYA, DİSSİMİLYASİYA VƏ METATEZA)..... 533

Nərmin MƏMMƏDLI
DİL SİSTEMİNDƏ KEYFİYYƏT ANLAYIŞININ FUNKSİONAL-SEMANTİK MODELİ..... 538

Günəş MUSTAFAYEVA
«İDİ» SÖZÜ VƏ TANRI KONSEPTİNİN İFADƏSİ 542

Nərmin AXUNDOVA
ÜSLUBİ NEOLOGİZMLƏRİN MƏTN YARATMA POTENSİALI..... 546

Günay HÜSEYNOVA
AZƏRBAYCAN DİLİNDƏ ARXAİZM VƏ NEOLOGİZMLƏRİN ÜSLUBİ XÜSUSIYYƏTLƏRİ (İLYAS TAPDIQ POEZIYASI ƏSASINDA) 550

İradə ARIXOVA
TÜRKOLOJİ QURULTAY: İMLA PROBLEMİ..... 555